www.kitabxana.net

Milli Virtual Elektron Kitabxana


"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" N 27 (91 - 2016)

Söhrab Tahir

"Ata"

Poema-epos

İki cildə. I cild



YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2016

Yeni Yazarlar və Sənətçilər Qurumu

www.yysq.org

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxana

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi"

Elektron kitab N 27 (91- 2016)

Bu elektron nəşr Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun (#AzGF) maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər Qurumunun həyata keçirdiyi "Gənclərin Virtual Multikulturalizm Mərkəzi" kulturoloji-intellektual layihəsi çərçivəsində www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana tərəfindən nəşrə hazırlanıb və yayılır.

Kulturoloji layihənin bu hissəsini qismən maliyyələşdirirlər:

Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu: http://youthfoundation.az

Yeni Yazarlar və Sənətçilər Qurumu: http://www.yysq.org

Söhrab Tahir

"Ata"

Poema-epos

I cild

Azərbaycan tarixi-multikultural dəyərlərin poetik ensiklopediyası

YYSQ tərəfindən e-nəşrə hazırlanıb. Milli Virtual-Elektron Kitabxananın e-nəşri. Bakı - 2016

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

Xalq şairi Söhrab Tahir AzərAzər. "Ata". Poema-epos. I cild. Azərbaycan tarixi-multikultural dəyərlərin poetik ensiklopediyası... Azərbaycan ədəbiyyatında ən iri həcmli poetik əsər hesab edilən "Ata" poema-eposu qoşma şəklində yazılmış və 15 bölmədən ibarətdir. Əsər sadə xalq danışıq dilində olduğundan ərəb və fars sözlərindən istifadə edilməmişdir.

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" silsiləsindəki e-kitablarla buradan tanış olun:

http://kitabxana.net/?oper=e_kitabxana&cat=174

Feysbuk səhifəmiz:

Sosial şəbəkələrdə Azərbaycan multikulturalizminin və tolerantlığının təbliği ilə bağlı fəaliyyətlərin genişləndirmək, bu sahələr üzrə İnternet resurslarımızı - elmi-intellektual sərvətlərimizi, araşdırma, tədqiqat işlərini təbliğ etmə üçün ayrıca virtual resurs burada: https://www.facebook.com/YeniYazarlar

Bakı, YYSQ - 2016



DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin və resurs yaradıcılarının razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

SÖHRAB TAHİR
AZƏR AZƏR

ATA

(Poema-epos)

(İki cilddə)

I cild

Azərbaycan Respublikasının
Milli Ordusuna və onun Ali Baş Komandanı
Respublika Prezidenti
İlham Heydər oğlu Əliyev
cənablarına ithaf edirəm.

Müəllif

Bakı-2015

Redaktoru və tərtib edəni: ***Tahir Söhraboğlu***
Nəşriyyat redaktoru: ***Musa Ələkbərli***

Söhrab Tahir "Ata (poema-epos)" I cild Bakı, "Zərdabi LTD" 2015, 1080 səh.

Elmi rəyçilər: **Ə.Əlizadə,** fil. elm. dok.
Gülxani Pənah, fil. elm. nam.

O taylı bu taylı Azərbaycanımızın bütövlük nəğməkarı, sevimli xalq şairimiz Söhrab Tahirin "Ata" poema-eposu həm həcminə, həm də poetik dəyərinə görə çağdaş poeziyamızda xüsusi çəkisi olan, alternativsiz bir əsərdir.

Xalqımızın ən qədim dövrlərinə baş vuran tədqiqatçı şair bu xalqın təşəkkül tarixinin poeziyamızda uğurlu, orijinal ifadəsinə nail olmuş, çoxillik ağır zəhməti hesabına müqəddəs Ata adına ədəbi bir abidə yaratmışdır.

S $\frac{470512049457}{0103-2015}$

MÜƏLLİFDƏN

Azərbaycan ədəbiyyatında ən iri həcmli poetik əsər hesab edilən "Ata" poema-eposunu 1991-ci ildən qələmə almağa başlamışam. Azərbaycanın ən qədim şeir forması–qoşma şəklində on min il əvvəl Yaxın, Orta, Uzaq Şərq genişliklərində yaşayan, yaradan, dəyişib varlığını və ləyaqətini isbat edən türkdilli qəbilə, tayfa və xalqların, xüsusilə Azərbaycan xalqının eramızın əvvəllərinə qədərki həyat və məişətinin bədii-tarixi lövhələrdə təsvirini əhatə edir. "Ata" sadə xalq danışıq dilində yazıldığı üçün burada demək olar ki, fars və ərəb sözləri işlənməmişdir. Əsərdə Azərbaycan, Orta Asiya, Türkiyə, Rusiya, İran, Ərəb ölkələri, İngiltərə, Almaniya, və s. Avropa alimlərinin tarixi sənədlərə, tarixi həqiqətlərə uyğun fikirləri əsas götürülmüşdür.

Çoxdandı ki, xarici ölkələrdə yaşayan soydaşlarımız xalqımızın varlığı, mənşəyi, yaşadığı ərazi, qədim həyat tərzi, dili və qəhrəmanlıqları ilə maraqlanır, bəziləri isə mənə bu haqda, məktub yazır, bu sahədə ortalığa ciddi suallar qoyurdular.

Son 20 ildə Azərbaycan xalqının varlığı, etnogenezi ilə əlaqədar elmi kitablarla yanaşı, şamanizm, zərdüştizm haqqında kitablar, əsatir, əfsanə, dastan, nağıl, deyim və söyləncələr oxuyurdum. Xalqımın qədim varlığını, adını, qəhrəmanlıqlarını göstərən sənədləri, abidələri dağıdıb, yandırıb məhv edən düşmənlərin qəddarlığının qanlı izinə düşüb, yavaş-yavaş dünyanın ən qədim, ən nəcib, ən dəyişkən, ən ləyaqətli və şücaətli xalqları olan türkdilli ellərin, o cümlədən xalqımızın ən qədim tarixinin monumental mənzərələrini aydın şəkildə görməyə başladım.

Azərbaycanda istiqlal hərəkatı başlarkən bu mövzuda böyük bir əsər yazmaq imkanı reallaşdı: Bir gün yas məclisində Moskvadan yenicə qayıtmış elimizin ağsaqqalı, böyük rəhbəri Heydər Əliyev xalqımızın tarixinin müxtəlif dövrlərindən söhbət açaraq üzünü mənə tutaraq məclisdə oturan alim və yazıçılara xitabən dedi: "Bu xalqın tarixini siz yazmasanız bəs kim yazacaq?!"

Mən xalqımızın böyük oğlu Heydər Əliyevin bu haqlı tələbinin təsiri altında "Ata" poema-eposunu yazmağa başladım...

I GİRİŞ

Dünya

Şahlıq, sərkərdəlik qalıb arxada,
Dünyanı hərlədən güc yox, beyindir.
Bəşər haradaydı, indi harada,
Güc indi fikirdə zərgərliyindir.

Bəşər yol tapsa da aya, ulduza,
Yenə qalıb yerdə torpaq davası.
Azlıqdan çoxluğa, çoxluqdan aza
Dəyişib büsbütün yerin havası.

Bir ildir Günəşin yerdə bir anı,
Süd yolu Günəşdən milyard il qədim.
Bunların gücüylə Dünya fırlanır,
Belə fırlanışı dəyişmək çətin.

Yerin çəkisi də yerində vardır,
Bu çəki nə itir, nə də ki, artır.
Yaradan Dünyanı elə yaradıb,
Bir yandan doğulur, bir yandan qartır.

Nəsillər dəyişir biri-birini,
Dünya da dəyişir nəsilbənəsil.
Dəyişir Günəş də, Ay da yerini,
Dəyişməz vardırsa demək sağ deyil.

Yerlə bir hərlənir, dolanır bəşər,
Sürətlə tərpəniş bunca ölməzdir.
Sürət sabahına yollanır bəşər,
Sabahkı sürətsə ağlagəlməzdir.

II G İ R İ Ş

Azərbaycan

Bu gün sən yenidən yeniləşirsən,
Çarpışma içində, təlaş içində.
Bu gün öz-özünlə eyniləşirsən,
Min-min yad içində, qardaş içində.

Başının üstündən dəhşətlər ötür,
Onlar səndən keçib aman istəyir.
Böyük keçmişindən sən ibrət götür,
Yaşamaq, ucalmaq qurban istəyir.

Hamı öz çölünü sahmana salır,
Biz öz içimizlə çarpışmaqdayıq.
Öz doğmalarımız bir yanda qalıb,
Özgə ətəyindən yapışmaqdayıq.

Allahlar nə cəza bizə buyurub,
Birləşmək istərkən ayrılırıq biz.
Doğmanı doğmadan alıb, ayırıb
Ayrılıq içində qovruluruq biz.

Söz olar, səhv olar ömür yolunda,
Onu eşələyib övkələməzlər.
Başının üstünü bulud alanda
Vətəni, milləti ləkələməzlər.

-Biz millət dünyaya haqdan gəlmişik,
Özü arxa olan xalqa nə arxa.
Biz ki, özümüzü haqlı bilmişik
Daha həqiqətə, haqqa nə arxa.

Hər yerdə qolları güclüdür haqqın,
Yönəldir bir səmtə solu, sağı da.
Böyük istəyinə çatmayan xalqın
Yatmağı da dəhşət, ayılmağı da.

Siyasət heç zaman bir vamda qalmır,
Siyasət yerinə yalan demişik.
Deyirlər azadlıq qurbansız olmur,
Qurbana biz neçə qurban demişik.

Mənim respublikam, mənim millətim,
Başa vur uğurla bu təzə yolu,
Azadlıq, ucalıq sənin ən qədim,
Milli başbiletin, qeyrətin olub.

III G İ R İ Ş

Cənab Heydər Əliyev

Onunla görüşdüm, hündür, zəhimli,
İti baxışları mehriban, ötkəm.
İncə təbəssümü solğun, çəkimli,
Tunc ay sifətində mərdanə görkəm.

- Səni tanıyıram-dedi – yaxşı mən,
Sən Azər Azərsən, bu xalqın oğlu,
Sənətlə, şeirlə, ürəklə bənd-bənd,
Bu yerə, bu xalqa, bu yurda bağlı.

Sənə hamıdan çox inanıram mən,
Sən alver etmirsən sözünlə, şair.
Yaz, göstər bu xalqı çox-çox qədimdən,
İlhamla, biliklə, dözümlə şair.

Mən öz Vətənimə bir də dönmüşəm,
Xalq özü çağırıb səsləyib məni.
Bu xalqdır, tanrıdır, bir də ki, bəşər,
Bu üçlük ölümdən gözləyib məni.

Mən təzə dünyaya bir də gəlmişəm,
Sənlə yaşıdam, çağdaşam şair.
Bunu Tanrı bilir, bir də ki, bəşər,
Tanrıyla qohumam, qardaşam, şair.

Bizi gizlədiblər çox-çox yazanlar,
Hərə öz xalqını yazıb qabardıb.
Doğruya oxşayan doğru yalanlar
Bizdən də bir tarix, bir ad qopardıb.

Bu işdə sənə çox inanıram mən,
Sən alver etmədin sözünlə, şair.
Yaz, göstər bu xalqı çox-çox qədimdən,
İlhamla, biliklə, dözümlə, şair.

Mən dedim.-Sən xalqın ağsaqqalısan.
Rəhbər işləsən də, işləməsən də.
Səndən haqq diləyir, ey böyük insan,
Allahdan, özündən, xalqdan küsən də.

Haqqın yolu ulu, yolu ağırdır,
Haqq dedin, bu millət haqqa qovuşdu.
Milləti yaşadan gücdür, ağıldır,
Sənin bayrağından millət yapışdı

Bu gun də haqq deyib çarpışmaqdasan,
Haqdır istiqlalın bu ağır yolu
Tanrı vergisidir, ey böyük insan,
Qırışmaz alnınla, yenilməz qolun.

Hörümçək bürüyüb üç yandan bizi,

Məkr, yalan, tamah da dolaşıb ona.
Səni göndəribdir Tanrımız özü,
Yeni can verəsən Azərbaycana.

Sizin tapşırıqdan sevinirəm mən,
Azərbayçan xalqı ən qədim xalqdır.
Bu haqlı sözlərin tutar əlimdən,
Xalqın da, özün də, sözün də haqdır.

Dəyişir dünyanın hökmüylə zaman,
Dəyişir dünyanın köhnə gedişi,
Rəhbərim, nə yaxşı sən tapşırırsan
Mənə bu müqəddəs, bu ağır işi.

IV G İ R İ Ş

Allah

Allah, kömək elə dünya yenə də
Qalsın öz rəngində, öz çəkisində.
Allah, kömək elə bir az da mənə,
Danışım bəşərin ilk sevgisindən.

Allah, kömək elə göstərə bilim,
Körpə illərini türk xalqlarının.
Allah, kömək elə güclənsin dilim.
Tapım Mindiyarın bayraqlarını.

Allah, kömək elə yollar dumandır,
İtən tarixləri arayım, tapım,
Allah, kömək elə mənə, amandır,
Haqqımı haqsızın ağzından qapım.

Allah, kömək elə üzünü görüm
İlk beli torpağa vuran babamın.
Allah, kömək elə borcunu verim
Səkkiz min il qabaq itən atamın.

Sənə ilk inanan, ilk kölə mənəm,
Mənə əta elə ilkinliyimi,
Zərdüşt peyğəmbəri axtarım yenə,
Bir azca azaltsın çətinliyimi.

İlk şahım, ilk atam, ilk anam hanı?
Onları gəzirəm, kömək ol mənə.
Çıxıram görməyə böyük dünyanı,
Göstər bu yollarda doğru yol mənə.

V G İ R İ Ş

Dilim

Bağda oturmuşdum, düşüncəliydim.
Gözüm yol çəkirdi qum çöllərində.
Hərdən çopur daşlar dilə gəlirdi,
Məni dindirirdi öz dillərində.

Nələr düşünürdüm, bir Tanrı bilir.
Hərdən qarışırdım soyuq yellərə.
Gəl, əlimdən yapış mehriban dilim,
Biz birgə yollanaq uzaq illərə.

Tapdım sevincimi, gözəlim, səndə,
Bəlkə gileylisən öz taleyindən.
Bəşər dil açanda, ilk söz deyəndə,
İlk dəfə bəşəri sən dindirmisən.

Ən qısa, ən iti, sözlər, deyimlər,
Sənin sözlərindir, dünya gözəli.
Sənə çox borcludur çox-çox qədimlər,
Ey böyük bəşərin körpəlik dili,

Sən bəşər dilisən, ey anam, bacım,
Bəşəri özündən özünə köçür.
Kiçiklər çox böyük görünmək üçün,
Özünə nə böyük heykəllər biçib.

Səndən törəmişəm, mehriban gözəl,
Bilirəm ən qədim daşın dilini.
Ey Tanrım, şairə bir yardım göstər,
Hərdən başıma çək ata əlini.

Cılız düşmənlərin qancıl diləyi,
İt olub dəvəni, fili qapıblar.
Sonra dil öyrənib, tərif söyləyib,
Hər şeyi gizlində yıxıb çapıblar.

Dünyanı cılızlar qamarlayanda,
Allah özü gördü sırtıq üzləri,
O sənin başını tumarlayanda,
Sənə bəxş elədi qızıl sözləri.

İtirmə, ey dilim, öz türk soyunu,
Qal yenə bəşərin türk ayətində.
Bəşərin ən gözəl incə duyumu,
Qalıbdır dilində, xasiyyətində.

VI GİRİŞ

ULU BABAM

Bağda dəmir hasar silkəndi birdən,
Qapı öz-özünə tay-tay açıldı.
Nə şimşək var idi, nə də ki külək,
Həyətə, evlərə işıq saçıldı.

Birdən o göründü, hündür, zəhimli,
İti baxışları mehriban, ötkəm,
İncə baxışları solğun, çəkimli,
Tuncay sifətində mərdanə görkəm.

- Səni tanıyıram, əlli il olar,
Sən Azər Azərsən, bu yerin oğlu.
Sənsən sözdə deyil, sənətdə bala
Bu yerə, bu xalqa, bu yurda bağlı.

Mən sənin özünəm, Minel qolundan,
Doqquz min il qabaq səndən öncəyəm.
Doqquz min ildir ki, düzlük yolunda,
Əyrilər ilə pəncə-pəncəyəm.

Mən qədim ölkəmə bir də gəlmişəm,
Xalq özü çağırıb, səsləyib məni.
Tanrımdır, xalqımdır, bir də ki, bəşər,
Ölümdən, itimdən gözləyib məni.

Mən qədim ölkəmə bir də gəlmişəm,
Sənlə qədimdən çağdaşam, şair.
Bunu Tanrı bilir, bir də ki, bəşər,
Tanrıyla qohumam, qardaşam, şair.

Göydən bir daş düşüb dənizə bir yol,
Qoşaboğaz dəniz dibdən alışıb.
Mən onda anadan olmuşam oğul,
Taleyim o gündən onda qarışıb.

Bu kitabı götür, oxu və saxla,
Bu həm bir tarixdir, həm tarix deyil.
Nöqtə, vergülü qoy, sözləri yoxla,
Onda ki, yox idi nöqtəylə vergül.

Sənsən bu tarixin davamı, ardı,
Mənəm bu kitabın ikinci cildi.
Bu gün bu kitabdır bu xalqa yardım,
Onu qorumuşam neçə min ildir.

-Ey Tanrım, hökmünə iradətim var,
Bu gündən qurşannam bu ağır işə.
-Şair, göydə sənə çox inanırlar,
Sən çox-çox bağlısan uzaq keçmişə.

Qayıdış yoludur tarixi yollar,
Bu yolda yol salıb şeirlə, ilham.
"Qobustan nağılı", "Ana hökmdar",

"Sevgi əfsanəsi", bir də "Qızıl cam".

Sənə hamıdan çox inanıram mən,
Sən alver etmirsən sözünlə, şair.
Yaz, göstər xalqını çox-çox qədimdən,
İlhamla, biliklə, dözümlə, şair.

Mən baxdım kitaba, gözüm qaraldı,
Nə böyük tarixdir, nə böyük əsər.
Varaqlar, yazılar mənə sarıldı,
Hər ad bir şəxsiyyət, hər söz bir şəhər.

Başımı qaldırdım, yox idi babam,
Qaçdım arxasınca, tuta bilmədim.
Çağırdım, çağırdım, söylədim, baba,
Ancaq heç bir yandan bir səs gəlmədi.

Bircə bu kitabdır evimin varı,
Sözləri oxşayıb daraqlayıram.
Kitabı xalq yazıb, bir də ki, Tanrı,
Mən onu oxuyub varaqlayıram.

I BÖLMƏ

I QAPI

Ana südü söylənci

- Ov yerinə yollanıram,
Ana, mənə uğur dilə.
Qayıtmasam, bil, ölmüşəm,
Ana, mənə uğur dilə.

Yastıdağın ətəkləri,
Ovla dolu çökəkləri.
Maralları, ördəkləri,
Ana, mənə uğur dilə.

Oxum, payam, ipim, baltam,
Tunc döşlüyüm, dəri xaltam.
Sağ ol, bacım, sağ ol atam,
Ana, mənə uğur dilə.

***

- Gücər, sənə uğur olsun,
Yanla ovu sən qurdsayaq.
Busa-busa, qaplan kimi,
Yanla ovu sən qurdsayaq.

Çalış çox-çox uzaq getmə,
Qobuyerdə dayan, ötmə.
Meşə sıxdır, azıb itmə,
Yanla ovu sən qurdsayaq.

Yıxılmasa ov bir oxla,
Qov onu sən, ara saxla,
Yan-böyrünü tez-tez yoxla,
Yanla ovu sən qurdsayaq.

***

Dünən yağıb qar bolluca,
Çox buraxma uzaq ovu.
Maral ürkək, donuz konaz,
Çox buraxma uzaq ovu.

Sürü, naxır, ilxı, təkə,
Saymayasan ovu gərək.
Vursan, "Tanrı" adını çək,
Çox buraxma uzaq ovu.

Qaplan olsa boynunu bur,
Maral olsa döşündən vur.
Ayı olsa belini qır,
Çox buraxma uzaq ovu.

***

Al, çörəkdir, pis ayaqda,
Bu çörəkdən bir qırıq ye.
Gördün gücün lap azalıb,
Bu çörəkdən bir qırıq ye.

Acıqanın* güclü olsa,

Üzərini ölüm alsa,
Ürəyinə qorxu dolsa,
Bu çörəkdən bir qırıq ye.

Bu çörəyi yapıb anan,
Ana südü hopub ona.
Vur, basar ol çox yamana,
Bu çörəkdən bir qırıq ye.

***

Bu çörəkdir, bu da kökə,
Ana südü qarışıqdır.
Sənə Tanrı gücü verər,
Ana südü qarışıqdır.

Sarı bunu göy qurşağa,
Ver nə ova, nə qonağa.
Qoru, saxla, pis ayağa,
Ana südü qarışıqdır.

Qurdu götür, - qaplanboğan,
Az qaçağan, çox qapağan,
Qurd da arxan, süd də arxan,
Ana südü qarışıqdır.

***

Gəlin dedi: - Tez qayıt gəl,
Ovun maral, cüyür olsun.
Gey bu dəri gödəkçəni,
Ovun maral, cüyür olsun.

Qurd dərisi oxbatmazdır,
Qılınckəsməz, odtutmazdır.
Şaxtaqovdur, çatatmazdır,
Ovun maral, cüyür olsun.

Sən gec gəlsən küsəcəyəm,
Saçlarımı kəsəcəyəm.
Ağlar-ağlar gəzəcəyəm,
Ovun maral, cüyür olsun.

***

Yola düşüb Gücər getdi,
Ova çıxmaq ər işidir.
Qapağan da arxasınca,
Ova çıxmaq ər işidir.

Qanadlanıb buğlanmışdı,
Çarıxları yağlanmışdı.
İp-qəzillər bağlanmışdı,
Ova çıxmaq ər işidir.

Arxasınca su atdılar,
Qurd-itləri ulatdılar,
Boğazda səs qaynatdılar,
Ova çıxmaq ər işidir.

***

Bacalardan boylandılar,
- Gucər, əli dolu qayıt.
Qışdır, ət, ot tükənibdir,
Gucər, əli dolu qayıt.

Qar tutmuşdu cığırları,

Suvamışdı çuxurları.
Yamacları, hündürləri,
- Gucər, əli dolu qayıt.
Bilinmirdi eniş-yoxuş,
Gizlənmişdi qarda qurd-quş.
Ağacları şaxta vurmuş,
- Gucər, əli dolu qayıt.

***

Axşamacan getdi Gucər,
Nə qurd-quş var, nə kəl, maral.
Çəkil ay qış, qırov, şaxta,
Nə qurd-quş var, nə kəl, maral.

Yolda yuva qazıq-qazıq,
Ağac, budaq, kol pırtlaşıq.
Yox meşədə yar-yaraşıq,
Nə qurd-quş var, nə kəl, maral.

- Qapağanım, harda qaldın,
Niyə üzüdönük oldun,
Sənsiz bu yol ağır yoldur,
Nə qurd-quş var, nə kəl, maral.

***

Qayalıqda, daşovuqda*,
Ayı yatıb uyuyurdu.
Kol-kos içrə gizlənmişdi,
Ayı yatıb uyuyurdu.

Gücər girdi daş ovuğa,
Qaranlıqda daş yarığa.
Düşdü daha sərt soyuğa,
Ayı yatıb uyuyurdu.

Daşlı yollar buruq-buruq,
Qaya lay-lay, qopuq-qopuq.
Sallaq buzlar çubuq-çubuq,
Ayı yatıb uyuyurdu.

***

Lap uzaqda, lap uzaqda,
Qurd-Qapağan ulayırdı.
Qırıb ipi Tutuqluğu
Qurd-Qapağan ulayırdı.

- Harda qaldın, Qapağanım,
Gəl, qurdların qudurğanı.
Salxım buzdur hər bir yanım,
Qurd-Qapağan ulayırdı.

Çağırırdı tay-tuşunu,
Qurd bacısı, qardaşını.
Qar almışdı döş-başını,
Qurd-Qapağan ulayırdı.

***

Gücər dedi: - Ayı ovum…
Qurdel mənə sağ ol deyər.
Balta vurram, leşi qalar,
Qurdel mənə sağ ol deyər.

Apararam iki budun,
Yurdu alar iyi, dadı,

"Qış ovçusu" qalar adım,
Qurdel mənə sağ ol deyər.

Qoy gözləyim hələ bir az,
Dursun yatan bu yaramaz.
Yatan ovu vurmaq olmaz,
Qurdel mənə sağ ol deyər.

***

- Oyan, ayı, dur yatağan,
Ayı çoxdan uyumuşdu.
- Dur, çarpışaq, dur, qarpışaq,
Ayı çoxdan uyumuşdu.

- Ov gözləyir Qurdel məndən,
Dur, ölərsən yatan yerdə.
Yoxsa vurram səni birdən,
Ayı çoxdan uyumuşdu.

Gucər onu hey səslədi,
Yan-yörəsin çox bizlədi.
Çox tərpətdi, çox gözlədi,
Ayı çoxdan uyumuşdu.

***

O çağırdı, boğaz yırtdı,
Ağır olur qış yuxusu.
Çox bizlədi, silkələdi,
Ağır olur qış yuxusu.

Gucəri də yuxu tutdu,
Ayı kimi o da yatdı.
Yuxusuna dinclik qatdı,
Ağır olur qış yuxusu.

Bir səs gəldi lap yaxından,
Səs dolaşdı Qurd dağında,
Gəzdi, Ayı ovlağında,
Ağır olur qış yuxusu.

***

Nərildəyən heyvərəydi,
Püskürürdü od ağzından.
O girirdi daşovuğa,
Püskürürdü od ağzından.

Gövdə tuluq, başsa iri,
Somururdu daş, dəmiri.
Ağac, kötük, daş gəmirir,
Püskürürdü od ağzından.

O ayını caynaqladı,
Ayı qalxıb oynaqladı,
Çaşıb daşı qucaqladı,
Püskürürdü od ağzından.

***

Daşovuğun ağzı dardı,
Baş içəri girə bilmir.
Cəmdək iri, köküs qaba,
Baş içəri girə bilmir.

Ayı ona caynaq atır,
Özü aşıb yerə yatır.
Heyvərə də qana batır,

Baş içəri girə bilmir.

Gücər vurur baltasını,
Cəhənginə yabasını.
Boğazına payasını,
Baş içəri girə bilmir.

***

Heyvərənin əngi sınır,
Balta ağır enimlidir.
Caynaqları doğram-doğram,
Balta ağır enimlidir.

Ox sancılır sağ gözünə,
Yaba batır sol gözünə.
Səpələnir qan üzünə,
Balta ağır enimlidir.

Daş hellədir Gücər, sal daş,
Boğazına təpir birbaş.
O boğulur yavaş-yavaş,
Balta ağır enimlidir.

***

Daşovuğun ağzı bağlı,
- Qal beləcə, öl, heyvərə.
Baş bacada, gövdə çöldə,
Qal beləcə, öl heyvərə.

Ayı döşdən yaralıydı,
Qanlı gözü qaralırdı.
Gücər ondan aralıydı,
- Qal beləcə, öl, heyvərə.

Daşovuğun ağzı pərçim,
Dönüb olur dustaq içi,
Ovçu ölür, ovdan keçir,
Qal beləcə, öl, heyvərə.

***

- Ay arxamca yelli gələn
Harda qaldın, yoxa çıxdın?
Tutuq düşdüm daşovuqda,
Harda qaldın, yoxa çıxdın?

Qapağanım, Qaçağanım,
Qaplanqovan, qurdboğanım,
Ayı kimi oynağanım,
Harda qaldın, yoxa çıxdın?

Niyə belə küsüb getdin,
İpi, kökü kəsib getdin.
El-obadan bezib getdin,
Harda qaldın, yoxa çıxdın?

Bir də necə tapışarıq,
Biz yan-yana çapışarıq,
Küsüb hərdən qapışarıq,
Harda qaldın, yoxa çıxdın?

***

- Dədə qurdum, tək qalmışam,
Tək qalanda ovçu çaşır.
Öz-özümdən küsmüşəm mən,
Tək qalanda ovçu çaşır.

Gəl boynunu qucaqlayım,
Ov yerini soraqlayım,
Yamanlığı qabaqlayım,
Tək qalanda ovçu çaşır.

Nədir bunca ulartılar,
Ulartıda söz altılar,
Göz önündə qaraltılar,
Tək qalanda ovçu çaşır.

***

- Qurdum, sənsiz yaman təkəm,
Tək qalanın səsi batır.
Yeyir təklik təklənəni,
Tək qalanın səsi batır.

Tək qalanda şahlanırsan,
Birdən iki qatlanırsan.
Soyuyursan, odlanırsan,
Tək qalanın səsi batır.

Hamılıqdan təklər küsür,
Çox düşünür, çox da susur,
Öz-özünə sonev qazır,
Tək qalanın səsi batır.

***

Qaldı Gücər dırmaş-dırmaş,
Lay qayalar arasında.
Uzanaraq o gözlədi,
Lay qayalar arasında.

Yaralılar inlədilər,
İniltini dinlədilər.
Gecələri günlədilər,
Lay qayalar arasında.

Bəyirirdi ov yan-yana,
Bu çarpışa kim dayanar.
Çörək yedi, o, azcana,
Lay qayalar arasında.

Keçdi üç gün, üç ay, üç il,
Çürüdülər mitil-mitil,
Gücər yatdı mışıl-mışıl,
Lay qayalar arasında.

***

Südlü çörək, nə güclüsən,
Ana südü gücdür, heydir,
O yuxuya getdi üç il,
Ana südü gücdür, heydir.

O yatmadı, o bayıldı,
Üç il sonra o ayıldı.
Dil tutuldu, göz qıyıldı,
Ana südü gücdür, heydir.

Köks ötürdü dərin-dərin,
Ayı ilə heyvərənin
Sümükləri yığın-yığın,
Ana südü gücdür, heydir.

***

Lap uzaqda qurd uladı,
Qurdun səsi qorxunc olur.
Qapağanın balaları -
Qurdun səsi qorxunc olur.

Qurd qurd ilə yalaşırdı,
Hərdən onlar ulaşırdı,
Bu səs yurdu dolaşırdı,
Qurdun səsi qorxunc olur.

Uzaq, uzaq enişlərdə,
"Quyruqbula" görüşlərdə.
Gül qoxuyan örüşlərdə,
Qurdun səsi qorxunc olur.

***

Gücər çıxdı daşovuqdan,
Üç il yuxu yorucudur.
Keyəlmişdi əl-ayağı,
Üç il yuxu yorucudur.

Ox, yay, balta, paya, yaba,
Addımını saya-saya,
Tələsirdi el-obaya,
Üç il yuxu yorucudur.

Nə deyəcək anasına,
Qoca ovçu atasına,
Qurdelinə, obasına,
Üç il yuxu yorucudur.

***

Maral çıxdı qabağına,
Ov ovçunu axtarırdı.
Buynuzları budaq-budaq,
Ov ovçunu axtarırdı.

İri, ağır, tez-tov ürkək,
Qulaq oynaq, uduq titrək.
"Tanrım, bunu vurum gərək",
Ov ovçunu axtarırdı.

Gücər qoydu yaya oxu,
Bunda inanc, onda qorxu,
Maral durub oxa baxır,
Ov ovçunu axtarırdı.

***

Vıyıldadı ox uçanda,
Ox şimşəyə dönür hərdən.
O, sancıldı ov döşünə,
Ox şimşəyə dönür hərdən.

Ov yıxıldı, sonra qalxdı,
Ürkək-ürkək yola baxdı.
Ox döşünü onun yaxdı,
Ox şimşəyə dönür hərdən.

Maral ürküb durdu bəri,
Döşdə, budda yara yeri,
Dirəşdilər diri-diri,
Ox şimşəyə dönür hərdən.

***

Bir az geri çəkilərək,
Maral cumdu irəliyə.
Bir ox kimi çıxdı yaydan,
Maral cumdu irəliyə.

Yürük çatıb o, Gücərə,
Vurdu, yıxdı onu yerə.
Görən niyə, nəyə görə,
Maral cumdu irəliyə?

Sonra döndü üzü yola,
Ordan qalxdı qarlı yola.
Valayladı sağa-sola,
Maral cumdu irəliyə.

***

Onlar çıxdı Qobuyerə,
Sıx meşələr dalda qaldı.
"Ovum, qaçma, toxda bir az",
Sıx meşələr dalda qaldı.

Ox döşündə, maral getdi,
Qanın yerdə izi itdi,
Gücər gəlib ovu ötdü,
Sıx meşələr dalda qaldı.

Bir qız çıxdı qabağına,
O, əl atdı yarağına.
Ov yıxıldı ayağına,
Sıx meşələr dalda qaldı.

***

Qız durmuşdu qaşqabaqlı,
O, gözəldi, acıqlıydı.
Gücər baxdı, gülümsədi,
O, gözəldi, acıqlıydı.

Boyu uca, saçı qırxıq,
Neçə yerdən üzü capıq.
Ayağında lığdan çarıq,
O, gözəldi, acıqlıydı.

Maral hələ tərpənirdi,
Hərdən-birdən çırpınırdı,
Ov ovçuya təpinirdi,
O, gözəldi, acıqlıydı.

Gücər söyləncі

- Yol üstündə duran gözəl,
Ovumu qaytar bu yana.
Yaralıyam, qanım axır,
Ovumu qaytar bu yana.

Ucarsudan* az aralı
Vurmuşam erkək maralı,
O yaralı, mən yaralı,
Ovumu qaytar bu yana.

Apararam, sevinərlər,
Ocaq çatıb öyünərlər,
Boş qayıtsam deyinərlər,
Ovumu qaytar bu yana.

***

- Qurd dərisi geyən oğlan,
Üzünü döndər bu yana.
Sən də mənim ovum oldun,
Üzünü döndər bu yana.

Qoşul mənə ov ərəni,
Aparım doydurum səni.
Ovun mənim, özün mənim,
Üzünü döndər bu yana.

Hər yaranı sağaldaram,
Sancısını yoxaldaram,
Doğub səni çoxaldaram,
Üzünü döndər bu yana.

***

Ovçu çoxlu qan itirdi,
Dirrik nədir, qızıl qandır.
O yıxılıb heysiz qaldı,
Dirrik nədir, qızıl qandır.

**Şəlalə*

O, kim idi, nəçi idi,
Qonşu elin gənci idi,
Bir keyəlmiş sancı idi,
Dirrik nədir, qızıl qandır.

Gözəl, əl tut, qanı saxla,
Yarasını yandır, dağla,
Tanıq otla sarı, bağla,
Dirrik nədir, qızıl qandır.

* * *

Üç il qaldı qayalıqda,
Qurd dərisi geyən oğlan.
Yuvalandı, obalandı,
Qurd dərisi geyən oğlan.

Qızı oldu, sevinmədi,
Oğlu oldu, öyünmədi,
Duruqızı bəyənmədi
Qurd dərisi geyən oğlan.

"Qayıt" dedi könlü ona,
Yada düşdü ata, ana,
Qaldı belə yana-yana
Qurd dərisi geyən oğlan.

***

Çəkimində kövrək uduq*
Doğma yerlər, doğma ellər.
Hopar gözüm bəbəyinə
Doğma yerlər, doğma ellər.

İtkinlikdə tapıntıdır,
İçdən qopan çırpıntıdır,
Göz yaşıdır, yağıntıdır
Doğma yerlər, doğma ellər.

**Nəfəs*

Yaxın dursan obalaşar,
Uzaq düşsən, doğmalaşar,
Gözlərində qorqalaşar
Doğma yerlər, doğma ellər.

***

- Mənim yerim-yurdum durur
O dağdan azca o yana.
Çayı, gölü, isti suyu,
Odağdan azca o yana.

Ağacları barlı-dolu,
Diklərinin yaşıl yalı,
Gedim ora kəsi* olum,
O dağdan azca o yana.

Otu südlü, gölü dərin,
Yaylaqları sulu, sərin,
Adamları diri-diri,
O dağdan azca o yana.

***

-Ay dağlardan o yanlarım,
Məni anın, unutmayın.
Atam, anam, bacılarım,
Məni anın, unutmayın.

Ay bulaqlar, ay yamaclar,
Qaqqıldaşan çil turaclar,
Dağ gövdəli göy ağaclar,
Məni anın, unutmayın.

Külək, çap get çapa-çapa,
Göz yaşımı götür apar,
Göyərçinim, quşum, çolpam,
Məni anın, unutmayın.

**Qurban*

***

- Burda sərtdir qayalıqlar,
Qaya kimi sərt ol, ərim,
Hər bir qaya bir gəmidir,
Qaya kimi sərt ol, ərim.

Çıx zirvəyə, bax dənizə,
Durub su dağla üz-üzə,
Tanrı bunu verib bizə,
Qaya kimi sərt ol, ərim.

Get gəmiylə balıq ovla,
Dalğaları yar, qır, tovla,
Üzüntünü uzaq qovla,
Qaya kimi sərt ol, ərim.

***

- Mən yal-yamac vurğunuyam,
Su çölüdür duzlu dəniz,
Hanı meşə göz oxşasın,
Su çölüdür duzlu dəniz.

Gülüm, sular məni yordu,
Sərt qayalar yıxdı, qırdı,
Hanı mənim yaşıl yurdum,
Su çölüdür duzlu dəniz.

Harda qaldı o oymaqlar,
Diş donduran buz bulaqlar,
At çapdığım göy oylaqlar,
Su çölüdür duzlu dəniz.

***

-O yerlərdən gələn ərim,
Sən ağlama, mən ağlayım.
Niyə könlün toxdamadı,
Sən ağlama, mən ağlayım.

Bu yerlərə uyuşmadın,
Öz evinə qovuşmadın,
Bura sənə yapışmadı,
Sən ağlama, mən ağlayım.

Getmə, Qobu sənsiz qalar,
Getsən üzüm-gözüm solar,
Mən yanında ola-ola
Sən ağlama, mən ağlayım.

***

Gücər qaldı çırpım-çırpım
İki yolun ayrıcında.
Hey danışdı öz-özüylə,
İki yolun ayrıcında.

Gecə ayıq, gündüz sayıq
Doğmalara üzü soyuq,
Ürək oldu ovuq-ovuq
İki yolun ayrıcında.

Mən doğmayam, yoxsa atıq,
Çağırmaqdan səsim batıq,
Dözmək olmur bundan artıq
İki yolun ayrıcında.

***

Gördüklərin çəkir səni
Hər görümün* çəkimi var.
Günün, Ayın, Yerin, yurdun,
Hər görümün çəkimi var.

Biri dağdır, biri bulaq,
Yadda qalan yaşıl oylaq,
Bir cüt baxış, bir cüt dodaq
Hər görümün çəkimi var.

Çəkir səs də, dil də, üz də,
Bəyəndiyin incə söz də,
Qonur istək gözə gözdən
Hər görümün çəkimi var.

_____
***Mənzərə**

***

Çox yalvardı Duru ona
Gedərini söz saxlamaz.
Getmə, dedi, ovçu ərim,
Gedərini söz saxlamaz.

Çox gedənlər qayıtmayıb,
Göz yaşını qurutmayıb,
Heç bir işə yarıtmayıb,
Gedərini söz saxlamaz.

Getmə, ağlar uşaqların,
Yanar Qobu torpaqları,
Yaxın qoyma uzaqları
Gedərini söz saxlamaz.

***

Yolun təkcə bir dili var.
Yola çıxdın dala baxma.
Yolu dindir, dilini bil,
Yola çıxdın dala baxma.

Dayanarsan, yol uzanar,
Sinəsindən toz qovzanar,
Dal çevirər yolazana,
Yola çıxdın dala baxma.

Yol dirriyi öyrənməkdir,
Yerə-göyə dirənməkdir,
Yollaşmaqdır, törənməkdir
Yola çıxdın dala baxma.

***

Yola düşdü qıvraq, iti,
İp cığırlar yola döndü.
Dağ boylandı, qaya busdu,
İp cığırlar yola döndü.

Açdı yollar düyününü
Çöl mehini, dağ çənini,
O göstərdi düz yönünü.
İp cığırlar yola döndü.

Gücər gücü yola verdi,

Cığırlardan sap əyirdi,
Neçə-neçə oba gördü
İp cığırlar yola döndü.

***

Yola düşdü, qanadlandı,
"- Ata, ana, bacı, qardaş".
Qulağına bir səs gəldi,
"Ata, ana. bacı qardaş.,,"

Gəldi gördü yurdu itib;
Yerində ot, tikan bitib,
Baş götürüb burdan gedib
Ata, ana, bacı, qardaş!

Necə oldu yurdun yeri,
Sizi bir də necə görum,
Hardasınız bir səs verin,
Ata, ana, bacı, qardaş!

***

Səs gəlmədi dağdan, daşdan,
Meşə susdu, tala susdu.
Çox soruşdu, soraqlaşdı,
Meşə susdu, tala susdu.

Gəzdi eli diyar-diyar,
Danışmadı uçar, çapar,
Dilsiz qaldı uzaq yollar
Meşə susdu, tala susdu.

"Doğmalarım mənim harda,
Ovdadırlar, yoxsa darda,
Dilə gəlin dilsiz yollar"
Meşə susdu, tala susdu.

* **

- Dilibirim, sözübirim,
Burdan gəlib kimlər keçib?
Mən gəzirəm itginləri,
Burdan gəlib kimlər keçib.

Burda hər yer göl-battaqdır,
Göz gördükçə göy otlaqdır,
Bizdən sizə kim qonaqdır,
Burdan gəlib kimlər keçib?

Yağışında ipək yatım,
Sisi seyrək, çəni qatı,
Bir dilə gəl el-elatım,
Burdan gəlib kimlər keçib?

***

Gücər döndü evə gəldi,
Hərənin bir yolu vardır.
-Bağışlayın balalarım,
Hərənin bir yolu vardır.

Sil gözünü gül sevgilim,
Qobuyerin qız gözəli,
Bu nə işdir, mən nə bilim,
Hərənin bir yolu vardır.

Duman ollam, bulud ollam,
Sürünərəm yolla, yalla,

Dönüb gəlləm mən bu yolla,
Hərənin bir yolu vardır.

***

- Balalarım,-Turum, Baxım,
Ata gərək yolda olsun.
Siz böyüyün, yola çıxın,
Ata gərək yolda olsun.

Yollar dolaşdı boynuma,
Baş vuraram dörd bir yana,
Hardasınız, ata, ana,
Ata gərək yolda olsun.

Qayıtmasam, məni tapın,
Soraq alın qapı-qapı,
Atla, itlə, qurdla çapın
Ata gərək yolda olsun.

***

-Mənim yerim yelçəkəndir,
Yelçəkənin suyu isti.
Burda sular diştökəndir,
Yelçəkənin suyu isti.

Mənim yerim oymaqlaradı,
Yaşıl-yaşıl oylaqlardır,
Gül-çiçəkli torpaqlardır,
Yelçəkənin suyu isti.

O dağların başı iti,
Buludlara girib, itib,
Salxım buzlar daşda bitib,
Yelçəkənin suyu isti.

***

Qurd dərisi oxbatmazdır,
Dəmirdözdür qurd dərisi.
Gücər ondan güc almışdı,
Dəmirdözdür qurd dərisi.

Həm burdayam, həm də itkin,
Həm yaşlıyam, həm də yetkin,
Bircə sizə çatır ərkim,
Dəmirdözdür qurd dərisi.

Vurumları* ötürəcək,
Güc, qorxmazlıq gətirəcək,
Hər çəkimi götürəcək,
Dəmirdözdür qurd dərisi.

***

Qurd döşünu əmmişəm mən,
Süd dirriyin anasıdır.
Döşüm vurumbatmaz olub
Süd dirriyin anasıdır.

Zərbə

Məni doğan ana ölüb
Mənə bir qurd ana olub,

Qolum qurtdan güc-hey alıb,
Süd dirriyin anasıdır.

Dartımlarım* qatdam-qatdam,
Hər bir yanım dəri xalta,
Məni tutmur bıçaq, balta,
Süd dirriyin anasıdır.

***

Yollar yordu, çarıq yırtdı,
Qurd dərisi geyən oğlan.
Gəlib çıxdı dağ yerinə
Qurd dərisi geyən oğlan.

Doğduları** göyçək gördü.
Bığlıları kövrək gördü,
Çağaları seyrək gördü
Qurd dərisi geyən oğlan.

Gözləmədi, düz atdadı,
Önlərində diz qatdadı,
Boğazını arıtdadı
Qurd dərisi geyən oğlan.

***

-Ovuq-ovuq qayalarım,
Mənimkilər hayandadır?
Qazıq-qazma obalarım,
Mənimkilər hayandadır?

Üstlərində dəri geyim,
Bir az teztov, bir az yeyin,
Görübsünüz mənə deyin,
Mənimkilər hayandadır?

_____
* ***Əzələ***
*****Qadın***

Yorub məni uzaq yollar,
Sıx meşələr, uca yallar,
Əl yetirin, ay oğullar.
Mənimkilər hayandadır?

***

-Burdan gəlib keçən çoxdur,
Qal bizimlə yorğun ovçu.
Üzulürsən ayaq üstə
Qal bizimlə yorğun ovçu.

Bu yerlərin gül bitimi,
Üz oxşayan yel ötümü,
Bal havası, su qurtumu,
Qal bizimlə yorğun ovçu.

Doğmaların tapılınca,
Doğma olluq sənə bunca.
Dincələrsən lap doyunca,
Qal bizimlə yorğun ovçu.

***

Yorğun ovçu diz qatdadı,
Baş söykədi qayalığa.
Ürəyindən bir ah qopdu,

Baş söykədi qayalığa.

Qurşağını beldən açdı.
Payasını yerə sancdı,
Həm yorğundu, həm də acdı,
Baş söykədi qayalığa.

Bir qız gəldi yüngülayaq,
Pöhrədodaq, almayanaq,
Diz qatdadı ovçusayaq
Baş söykədi qayalığa.

***

- Gözəl, baxma üst-başıma,
Dəmirdözdü qurd dərisi.
Bu geyimdən güc alıram,
Dəmirdözdü qurd dərisi.

Həm yüngüldür, həm də isti,
Sudan sərin, oddan iti,
Yaralanmır dərim, ətim
Dəmirdözdü qurd dərisi.

Vurumları ötürəcək.
Güc, qorxmazlıq gətirəcək,
Hər çəkimi götürəcək,
Dəmirdözdü qurd dərisi.

***

Qurd döşünü əmmişəm mən,
Süd dirriyin anasıdır.
Döşüm vurumbatmaz olub
Süd dirriyin anasıdır.

Balaları lapdan ölüb,
Gəlib mənə ana olub,
Qolum qurtdan güc-hey alıb
Süd dirriyin anasıdır.

Dartımlarım qatdam-qatdam,
Qollarımda dəri xalta.
Məni tutmur bıçaq, balta
Süd dirriyin anasıdır.

***

- Söylə, kimsən, kimlərdənsən
Məni yoldan qoyan gözəl.
Üzüyola, başaşağı,
Məni yoldan qoyan gözəl.

Bir az küsgün, bir az solğun,
Sözü ipək, dili çılğın,
Baxış quzu, gözü dalğın
Məni yoldan qoyan gözəl.

Gəl bir yerdə yola çıxaq,
Bu dağlardan uzaqlaşaq,
Sən bir çiçək, mən bir bulaq
Məni yoldan qoyan gözəl.

***

- Mən bir qızam, güclü, göyçək
Ancaq üzüm gülməmişdir.

Atam, anam olub, nəsə
Ancaq üzüm gülməmişdir.

Quş ovunda başbilənəm,
Öz ovumu dörd bölənəm,
Öl desələr mən ölənəm
Ancaq üzüm gülməmişdir.

Bu yaz günü səni gördüm
İsinmişdim, könül verdim,
Kölgən mənə qanad gərdi
Ancaq üzüm gülməmişdir.

***

- Ay tutqunum, ay solğunum,
Mənim kimi dalqın olma.
Mən də səni istəyirəm
Mənim kimi dalğın olma.

Çıxaq çayın o tayına,
Qarışaq qurd-quş hayına.
Baxım o bəstə boyuna,
Mənim kimi dalğın olma.

Bəyənmişəm qulluğunu,
Hər qayğını, qılığını,
Yama mənim sınığımı,
Mənim kimi dalğın olma.

***

Qışı qaldı bu yerlərdə,
Doğdu ona doğmalaşdı.
Ürəyini açdı ona,
Doğdu ona doğmalaşdı.

Çox danışdı hərdən-birdən,
Orda qalan o yerlərdən.
Gülüşdülər onlar hərdən,
Doğdu ona doğmalaşdı.

İsinişdi qayğılara,
Qartallara, qırğılara.
Sorğu oldu sorğulara,
Doğdu ona doğmalaşdı.

***

İki könlü bir eyləyir,
Hərdən-birdən isinişmək.
Sevgidən də güclü olur,
Hərdən-birdən isinişmək.

Sevgi odsa, o, işıqdır,
Ondan, bundan qarışıqdır.
Evdə, çöldə yaraşıqdır,
Hərdən-birdən isinişmək.

İsinişdi, gözəl olur,
İlk sevgiyə özəl olur.
Hərdən yaşı yüz il olur,
Hərdən-birdən isinişmək.

Qayaquş söyləncisi

Başı qarlı sıra dağlar
Nə ucadır, nə qorxulu.
Qayalarda quş yuvası
Nə ucadır, nə qorxulu.

Qıjıldayıb çaylar keçir,
Boz buludlar pərçim-pərçim.
Qapqaranlıq meşə içi
Nə ucadır, nə qorxulu.

Göydə quşlar enli, iri,
Qartal udur diri-diri,
Kölgələri örtür yeri,
Nə ucadır, nə qorxulu.

***

-Doğdum, bunlar dağdı, nədi,
Bu boyda quş görməmişəm.
Hər qanadı boylu ağac
Bu boyda quş görməmişəm.

Kəl ovuna çıxdıq, ancaq
Quşlar bizi ovlayacaq,
Əyri dimdik, dəmir caynaq,
Bu boyda quş görməmişəm.

Bəs eləyər bizə biri,
Qoyun udur diri-diri,
Quş görmüşəm kəldən iri,
Bu boyda quş görməmişəm.

***

-Gücər, bunlar dilbiləndir,
Gündüz quşdur, gecə adam.
Min illərdir bu yerlərdə
Gündüz quşdur, gecə adam.

Çay daşıdır darıları,
Lüt qayalıq Tanrıları,
Qaraları, sarıları
Gündüz quşdur, gecə adam.

Bizdən neçə qız qapıblar,
Oba yıxıb, ev çapıblar,
O qızları dul tapıblar
Gündüz quşdur, gecə adam.

***

Nə güclüsən, Görgör* baba,
Qapalısan, dolambacsan.
Döşün dolu, daşın susqun,
Qapalısan, dolambacsan.

---

* ***Təbiət***

Sözlü qalıb çayın, gölün,
Açılmayıb hələ dilin,
Dağın, daşın, suyun, yelin,
Qapalısan, dolambacsan.

Quşlarından qanad qapım,
Ocağında dinclik tapım,
Buludunu minib çapım,
Qapalısan, dolambacsan.

***

- Hara uçub gedirsiniz,
Yer sonevdir* quşlara da.
Enin, gəlin döşləşməyə
Yer sonevdir quşlara da.

Ucalıqlar sizə qalsın,
Yer-yurdunuz geniş olsun,
Bulud keçsin, çən yarılsın,
Yer sonevdir quşlara da.

Mənə bir cüt qanad verin,
Uçum sizlə sizdən bəri,
Görüm harda qalıb yerim,
Yer sonevdir quşlara da.

***

- Doğmalarım görünürmü,
Adam dili bilən quşlar?
Yoldadırlar yoxsa darda,
Adam dili bilən quşlar?

Qanad çalın, gəlib keçin,
Yolda tükü tükdən seçin,
Qayalıqdan uçun, keçin
Adam dili bilən quşlar.

---

* ***Qəbir***

Biri doğdu, biri bığlı,
Dallarında körpə bağlı
Onlar üçün könlüm dağlı,
Adam dili bilən quşlar.

***

- Adam yeyən qanadlıyam,
Gündüz quşam, gecə adam.
Yırtıb yedim çox ovçunu,
Gündüz quşam, gecə adam.

Parçalaram ikinizi,
Yuxanızı, bərkinizi,
Dağıdaram tükünüzü,
Gündüz quşam, gecə adam.

Gəmirərəm qayanı da,
Əlindəki payanı da,
O yanı da, bu yanı da
Gündüz quşam, gecə adam.

***

Ovçu vurdu payasını
Enən quşun gövdəsinə.
İti paya yara atdı
Enən quşun gövdəsinə.

O yıxıldı, yenə durdu,
Çəngələşmə quşu yordu,
Bir də çəkdi, bir də vurdu
Enən quşun gövdəsinə.

Quşun döşü dərin yara,
O çırpıldı qayalara,
Qalxıb mindi o bu ara
Enən quşun gövdəsinə.

***

O görmədi başqa quşu,
Quş şığıyıb aldı onu.
Qanadıyla vurdu yıxdı.
Quş şığıyıb aldı onu.

Boz buludlar paralandı,
Gücər aşdı yaralandı,
Doğdu qaçıb aralandı,
Quş şığıyıb aldı onu.

Ovçu ovun caynağında,
Qanlı ölüm ayağında,
Son sözləri dodağında
Quş şığıyıb aldı onu.

***

- Üzuyolam, quş olaram,
Qayıdaram yuvamıza.
Səni burda tək qoymaram,
Qayıdaram yuvamıza.

Ölsəm, quşa yem olaram,
Qalsam, burda yurd salaram,
Son günümdən gün alaram,
Qayıdaram yuvamıza.

Balamızı doğub böyüt,
Südün dadlı, sözün öyüd,
De, gözləsin məni iyid,
Qayıdaram yuvamıza.

***

Quş baş vurdu buludlara,
- Nə deyirdin ovçu oğlan?
Dartışdırdı, sıxışdırdı,
- Nə deyirdin, ovçu oğlan?

- Quş olsam da dil bilənəm,
Çağırsalar, mən gələnəm,
Öl desələr, mən ölənəm,
Nə deyirdin ovçu oğlan?

Hər adamın bir olmuşu,
Yerimizdən qovulmuşuq,
Gəzə-gəzə quş olmuşuq,
Nə deyirdin ovçu oğlan?

***

Öldürdüyün o quş ki var,
O quşların başçısıydı,
Bizi didib dağıdırdı,
O quşların başçısıydı.

Caynağında qaya gücü,
Dimdiyinin iti ucu,
Gözü qızğın, dili acı,
O quşların başçısıydı.

Nə yaxşı ki, onu vurdun,
Vurub qaya döşün yardın,
Ölümünü gendən gördüm,
O quşların başçısıydı.

***

İnnən belə mən arxanam,
Sənsən mənim başbilənim.
Nə istəsən eləyərəm,
Sənsən mənim başbılənim.

Hara getsəm, harda olsam,
Hansı yerdə yuva salsam,
Dara düşsəm, darda qalsam,
Sənsən mənim başbilənim.

Yuvam sənə yuva olsun,
Döşün arxam, qayam olsun,
Sözün mənə hayan olsun,
Sənsən mənim başbilənim.

***

Ovçu oğlan inanmadı,
Bu, quş ola, yoxsa adam.
Ha qışqırdı, ha vurnuxdu,
Bu, quş ola, yoxsa adam.

Quş az getdi, quş çox getdi,
Yerdəkilər gözdən itdi,
Buludları dəlib ötdü
Bu, quş ola, yoxsa adam.

Çaylar qıvrım, yollar yorğun,
Ağ buludlar səpik, dalğın,
Uçub keçdi neçə dağı,
Bu, quş ola, yoxsa adam.

***

Doğdu yerdən haraylandı,
- Quşlar, bizi ayırmayın,
Biz bir yerdə iki yoluq,
Quşlar, bizi ayırmayın.

Yollar onu atıb, tutub,
İçimizə istək qatıb,
Mənə çağa yükü çatıb,
Quşlar bizi ayırmayın,

O, ərimdir, iyid, ərən,
O olmasa neynəyərəm,
Yanıb-yanıb göynəyərəm,
Quşlar bizi ayırmayın.

***

-Gözlə, gözlə, ayrılanım
Könül vermə ayrılığa.
Dözərliyə bir sınaq ol,
Könül vermə ayrılığa.

Dediyinə uyma onun,
Toy tutsa da sayma onu,

Yaxınına qoyma onu
Könül vermə ayrılığa.

Sarısını üzündə gör,
Ölümünü dözümdə gör,
Üstünlüyü özündə gör,
Könül vermə ayrılığa.

***

- Məni gözlə, gələcəyəm,
Hər gedişin gəlişi var.
Ötsə min il getməyimdən,
Hər gedişin gəlişi var.

- Ovçu, qalma burda qışa,
Yoxsa dəyər oxun daşa,
O qız duldur ölən quşa,
Hər gedişin gəlişi var.

- İnanmaram sənə, qancıl,
Burax məni əl-qol açım,
Belə demə acı-acı,
Hər gedişin gəlişi var.

***

Söz çatmadı Qayaquşa
Caynağında yem apardı.
Qaplan kimi nərildədi,
Caynağında yem apardı.

Hər yarğanın dibi yuva,
Yad quşları qova-qova
Ovçunu döndərdi ova,
Caynağında yem apardı.

"Bu quş görən hara qonar,
Məni çəkər qızıl qana",
Yox, dəymədi ovçu ona,
Caynağında yem apardı.

***

Zil qaranlıq gecə düşdü,
Quş çevrilib bir qız oldu.
Ulduzların işığında,
Quş çevrilib bir qız oldu.

Beli incə, boyu uca
Bu nə işdir, nə oyuncaq,
Gözgörəki bir tapmaca,
Quş çevrilib bir qız oldu.

Tük qalmışdı quş belində
Pipiyində, kəkilində.
Danışırdı öz dilində
Quş çevrilib bir qız oldu.

***

-Ey qanadı qayalarca,
Sən hayana hara belə?
Gəldim ovda ova döndüm,
Sən haraya hara belə?

Bu dağların qanadı mən,

Qayaqanad inadı mən,
Zirvələrin Qaf adı mən,
Sən haraya hara belə?

Burda quşdur hamı bizdə,
Dağlar bizim kölgəmizdə,
Gəlib keçib ölkəmizdən
Sən haraya hara belə?

***

- Mən Güneydən yol gəlirəm,
Öz dillimi axtarıram.
Düzən, meşə, dağ yolunda,
Öz dillimi axtarıram.

Üstlərində dəri geyim,
Bir az teztov, bir az yeyin,
Barmaq sayda, ta nə deyim,
Öz dillimi axtarıram.

Bu dağların yolu dardır,
Ucalıqlar buzdur, qardır,
Hələ çox-çox yolum vardır,
Öz dillimi axtarıram.

***

-Biz də doğma itirmişik,
Min ildir ki, axtarırıq.
Belimizdə tük göyərib,
Min ildir ki, axtarırıq.

Yelçəkəndən, yeləsənə,
Su qızandan buz kəsənə,
Yol düzünə, yol tərsinə
Min ildir ki, axtarırıq.

Qanad aldıq qartallardan,
Uçar olduq sərt yallarda,
Dik yollarda, düz yollarda
Min ildir ki, axtarırıq,

***

-Qancılımız adamlaradır,
Bizdən qorxub qaçır onlar.
Doğduları gözəl-göyçək,
Bizdən qorxub qaçır onlar.

Daş atırlar, ov vururlar,
İlişgənli ip qururlar,
Usanırlar, yorulurlar,
Bizdən qorxub qaçır onlar.

Adamıydıq, quşlaşmışıq,
Daşa qonub daşlaşmışıq,
Adamlarla tuşlaşmışıq,
Bizdən qorxub qaçır onlar.

***

- Gedək mənlə, adamcıl quş,
Tapaq itkin doğmaları.
Mənimkilər, sənինkilər,
Tapaq itkin doğmaları.

Mən də dönüb bir quş olum,
Qanadlansın qoşa qolum,
Araşdıraq yalı-yolu,

Tapaq tkin doğmaları.

Qolumdan tut quş qardaşım,
Biz üz tutaq yelə qarşı,
Gedək, gəzək cüt-yanaşı,
Tapaq tkin doğmaları.

***

Daşlar qopub zirvələrdən,
Qanadlanıb uçar olub.
Dilək, istək, qoşa bacı,
Qanadlanıb uçar olub.

Bir az sevgi, bir az duyğu,
Bir az danlaq, bir az qayğı,
Olub qartal, çalı, qırğı,
Qanadlanıb uçar olub.

O ürəkdir, göydə uçar,
O uyğudur, qanad açar,
Düşəncədə uçarlıq var,
Qanadlanıb uçar olub.

***

- Qurd döşünü əmmişəm mən,
Süd dirriyin anasıdır.
Döşüm vurumbatmaz, olub,
Süd dirriyin anasıdır.

Məni doğan ana ölüb,
Bir qurd mənə ana olub,
Gücüm ondan dözüm alıb,
Süd dirriyin anasıdır.

Dartımlarım qatdam-qatdam,
Qollarımda dəri xalta,
Məni tutmur biçaq, balta,
Süd dirriyin anasıdır.

***

Qurd dərisi oxbatmazdır,
Dəmirdözdü qurd dərisi:
Mən də ondan guç almışam,
Dəmirdözdü qurd dərisi.

Həm yüngüldur, həm də isti,
Sudan oynaq, oddan iti,
Yaralanmır dərim, ətim,
Dəmirdözdü qurd dərisi.

Vurumları ötürür o,
Güc, qorxmazlıq gətirir o,
Hər çəkimi götürür o,
Dəmirdözdü qurd dərisi.

***

Üç ay qaldı zirvələrdə,
Lələklənər burda daş da.
Qol yelləndi, qanad açdı,
Lələklənər burda daş da.

Daşlar boylan-boylan baxır,
Yerə yol yox, göyə cığır,

Göydən bura ulduz yağır,
Lələklənər burda daş da.

Haradadır Qayaquşum,
Quş boyuna mahnı qoşum,
Adam kimi gözü-qaşı,
Lələklənər burda daş da.

***

- Gözəl, məni yerə endir,
Sevgi səndən, sevmək məndən,
Gedək tapaq doğmamızı,
Sevgi səndən, sevmək məndən.

Gündüz quşsan gecə qadın,
Heç bilmirəm nədir, adın,
Uçaq, gedək burdan, haydı,
Sevgi səndən, sevmək məndən.

Gəl, bağlaşaq, biz and içək,
Birgə uçub bir yol keçək,
Yeri alın yolu seçək,
Sevgi səndən, sevmək məndən.

***

Uzaq yollar yol göstərdi,
Qayaquşa yolyorana,
Qalan quşlar baş əydilər
Qayaquşa, yolyorana.

Quş onu tərkinə aldı,
Dağlar üstən qanad çaldı,
Göllər, çaylar güzgü oldu,
Qayaquşa, yolyorana.

Oba, meşə, dağ, uçurum,
Cığır yollar burum-burum,
Bulud dedi, bəsdir, durun
Qayaquşa, yolyorana.

***

Çox getdilər, az getdilər,
Göydə, yerdə bağlaşanlar.
Dolaq yolu düz keçdilər
Göydə, yerdə bağlaşanlar.

Bir yol qanad gərmədilər,
Hər obaya girmədilər,
Bir tərpəniş görmədilər
Göydə, yerdə bağlaşanlar.

Üşüdülər ayazlardan,
Yaz qışlarda, qış yazlarda,
Dənizləşən axmazlarda,
Göydə, yerdə bağlaşanlar.

***

Yumaq bulud, çəkil yoldan,
Gözü yolda qalanım var.
Ulu Tanrı, yardım elə
Gözü yolda qalanım var.

Qayaquşum, uç, yorulma,
Gündən isti, al, qovrulma,
Məndən daha sən ayrılma,
Gözü yolda qalanım var.

Ucalıqlar əlçatmazdır,
Quşqonmaz yer daştutmazdır,
Gedək, əynim oxbatmazdır,
Gözü yolda qalanım var.

***

- Bərk-bərk otur qu tərkimdə,
Bərkə çəkib bizi yollar.
Yorulmayaq dağda-daşda
Bərkə çəkib bizi yollar.

Uçaq, bir də yorulmayaq,
Buza dönüb qırılmayaq,
Yerə-göyə sovrulmayaq,
Bərkə çəkib bizi yollar.

Biz taparıq itənləri,
Baş götürüb gedənləri,
Bu yollardan ötənləri,
Bərkə çəkib bizi yollar.

***

-Uç Qayaquş, qadan mənə,
Mən yorulsam, sən yorulma.
Məni çatdır itginlərə
Mən yorulsam, sən yorulma.

Dən götürüm, su götürum,
Göydə sənə yem yetirim,
Qu belində ot bitirim,
Mən yorulsam, sən yorulma.

Keç gölləri, keç çayları,
Burum-burum dolayları,
Ötüb getsin qış ayları,
Mən yorulsam, sən yorulma.

Təkbuynuzlular söyləncі

Çox yaşayıb, çox qocalıb
Yaranışla yer çevrəsi,
Çox yolçunu yolda qoyub
Yaranışla yer çevrəsi.

Ona hər şey gülünc olub,
Həm qabarıb, həm dinc olub,
Dolanaraq çoxkünc olub.
Yaranışla, yer çevrəsi.

Gülüb göydə uçanlara,
Öz-özündən qaçanlara,
Yer-yer çığır açanlara,
Yaranışla yer çevrəsi.

***

Yaşıl dağlar- yastı-yastı,
Bu yerlərin, çəkimi var.
Qanad saxla, Qayaquşum,
Bu yerlərin çəkimi var.

Deyən doğmam burdan keçib.
Yurd salmağa yuva seçib
Burda olub, burdan köçüb
Bu yerlərin çəkimi var.

Deyir meşə xışıltısı,
Ağ quşların pırıltısı,
Ürəyimin pıçıltısı,
Bu yerlərin çəkimi var.

***

Ovçu gəlib qondu yerə
Qayaquşun qanadında.
Görən hara gəlib çıxıb
Qayaquşun qanadında.

Doğma yerlər harda qaldı,
Bunu quşdan soraq aldı,
Hardan hara cığır saldı
Qayaquşun qanadında.

Bura hara olan yerdir,
İtginlərdən çəkim gürdüm,
Göylər ona haray verdi
Qayaquşun qanadında.

***

Təkbuynuzlu kəl naxırı,
Güllu yalda, yaşıl döşdə.
Gələzdənir bir-birinə
Güllü yalda, yaşıl döşdə.

Qırğıları, quzqunları,
Qışqırışma qırğınları,
Göz bərəldir çılğınları,
Güllü yalda, yaşıl döşdə.

Neçə ağac sallaq qalıb,
Biri çinar, biri palıd,
Xırda quşlar bulud-bulud,
Güllü yalda, yaşıl döşdə.

***

-Mən dönürəm öz yurduma,
Ovçu qardaş, sağlıqla qal.
Gedim çatım öz yuvama,
Ovçu qardaş, sağlıqla qal.

Doğulmuşam Bulud-quşdan,
Ayrılmışam körpə yaşdan,
Dən tapmışam dağda-daşda,
Ovçu qardaş, sağlıqla qal.

Bulud-quşu görsən, görüş,
O anamdır, məni soruş,
Tanımasa sözü dəyiş,
Ovçu qardaş, sağlıqla qal.

***

-Getmə, getmə, Qayaquşum,
Getsən burda təklənərəm.
Öyrənmişəm sənə artıq,
Getsən burda təklənərəm.

Bu yolların burumu çox,
Burumların yorumu çox,
Ölümü çox, qırımı çox,
Getsən burda təklənərəm.

Göz gördükcə yaşıl çöldür,
Axar-axmaz çaydır, göldür,
Bataqlıqdır, qara gildir,
Getsən burda təklənərəm.

***

Gözü qızıq kəl sıçradı
Ötənlərə kələzdəndi.
Yaxın gəlib buynuz atdı,
Ötənlərə kələzdəndi.

Ovçu yerə dığırlandı,
Gözlərində göy fırlandı,
Kəl fınxırdı, ayğırlandı,
Ötənlərə kələzdəndi.

Ovçu onu balaqladı,
Qıçlarını qucaqladı,
Kəl yıxıldı oynaqladı,
Ötənlərə kələzdəndi.

***

Gücər burdu buynuzunu,
- Kəl, boynunu sındıraram.
Bir də burdu, bir də yıxdı,
Kəl, boynunu sındıraram.

Bu yerlərdə qonağıq biz,
Yol yolçusu hər ikimiz,
Səndən üstün tək-təkimiz,
Kəl, boynunu sındıraram.

Bizə yol ver, keçib gedək,
Bu kövşəndən, yaldan ötək,
Doğmamızı tapaq gərək,
Kəl, boynunu sındıraram.

***

Kəl böyürdü, kəl ağnadı,
"Məni öldürmə, öldürmə".
Çölə düşdü böyürtüsü,
"Məni öldürmə, öldürmə".

Bu yerlərin düzü dedi,
Kəl elə bil özü dedi,
Dili, üzü-gözü dedi,
"Məni öldürmə, öldürmə".

Bunu görüb kəllər busdu,
Budaqlarda quşlar susdu.
Dağ-daş, meşə qulaq asdı,
"Məni öldürmə, öldürmə".

***

Güc ver dözüm, bu duruşa,
Göy Tanrısı, güc ver mənə
Kəli basım, yolu keçim,
Göy Tanrısı, güc ver mənə.

Qoyma burda mən yem olum
Enmə dizim, sınma qolum,
Düyünlənmə, açıl, yolum,
Göy Tanrısı, güc ver mənə.

Uzaq yollar gilinciyəm,
Öz özümün gülüncüyəm,
Yorğunluğun öyrənciyəm,
Göy Tanrısı, güc ver mənə.

***

Bir səs gəldi dağdan-daşdan,
Bu yerlərdən keçməz olmaz.
Yollar dedi, yallar dedi,
Bu yerlərdən keçmək olmaz.

Kəllər ürküb buynuzlaşdı,
Qurdlar qızıb quduzlaşdı,
Quyruqları toppuzlaşdı,
Bu yerlərdən keçmək olmaz.

Quşum, qayıt gəl dağına,
Tək qalmışın sorağına,
Al Gücəri caynağına,
Bu yerlərdən keçmək olmaz.

***

Qılınc beldə, paya əldə,
Neçə kəli yıxdı Gücər.
Gah arxadan, gah böyürdən
Neçə kəli yıxdı Gücər.

Yer titrədi nəriltidən,
Meşə, ağac kişnərtidən,
Qanlı, boğuq bəyirtidən
Neçə kəli yıxdı Gücər.

O batarkən qan gölünə,
Sıçradı quşun belinə,
Quş çevrildi dağ yelinə
Neçə kəli yıxdı Gücər.

***

Kəllər baxdı gözü qanlı,
Uçan quşdur, ya qayadır.
Qurdlar, quşlar, buynuzlular,
Uçan quşdur, ya qayadır.

Qanadlılar duruxdular,
Buynuzlular vurnuxdular,
Naxırlaşıb karıxdılar,
Uçan quşdur, ya qayadır.

Göyün yaylıq silgiləri,
Bulud-bulud hörgüləri,
Dedi axmaz güzgüləri,
Uçan quşdur, ya qayadır.

***

- Qayaquşum, dözüm göstər,
Miniyim yox, dayağım ol.
Məni çatdır itginlərə,
Miniyim yox, dayağım ol.

Gedək gəzək yurd-yuvanı,

Hər düşərgə, hər obanı,
Alım sənin quş qadanı,
Miniyim yox, dayağım ol.

Uç buluddan, yeldən iti,
Səs eşitsən, ya hənirti,
Məni tezcə ora yetir,
Miniyim yox, dayağım ol.

***

"- Ay dağlardan o yanlarım,
Məni yada salan varmı?
Anam, atam, bacılarım,
Məni yada salan varmı?

Ay bulaqlar, ay yamaclar,
Qaqqıldaşan çil turaclar,
Dağ gövdəli göy ağaclar ,
Məni yada salan varmı?

Külək, çap get çapa-çapa,
Göz yaşımı götür apar,
Gör mənimlə toxdaq tapan,
Məni yada salan varmı"?

***

- Ay buludlar, hardan belə?
Yorta-yorta uçursunuz.
Yükünüzdə qarla yağış,
Yorta-yorta uçursunuz.

Geyimiz yox, yeyimiz yox,
Diliniz yox, deyimiz yox,
Bir bucaqda eviniz yox,
Yorta-yorta uçursunuz.

Dönübsünüz yel quşuna,
Hara gəldi özxoşuna,
Enişinə, yoxuşuna
Yorta-yorta uçursunuz.

***

Yolun iki ayrıcı var,
Çatdırandır, ayırandır.
Yol yolçunun ayaq izi
Çatdırandır, ayırandır.

Ayrılığı, görüşü var,
Dağa-daşa yürüşü var,
Yoxuş-yoxuş yerişi var,
Çatdırandır, ayırandır.

Səni ordan bura atır,
Yavaş gedən yurda çatır,
Yol diləyin kəhər atı,
Çatdırandır, ayırandır.

***

Sudur, oddur, yaydır, qışdır,
Buz ürəyim, odlu başım.
Məni çəkir sonsuzluğa,
Buz ürəyim, odlu başım.

Bir-birinə yapışmayır,
Yaxalaşır, çarpışmayır,
Çətinlikdə qarpışmayır
Buz ürəyim, odlu başım.

Pıçıltısı, sözü boldur,
Bir varlıqda iki yoldur,
Biri sağdır, biri soldur
Buz ürəyim, odlu başım.

***

Gecə-gündüz bacı-qardaş,
Biri gəlir, biri gedir.
Odlu Günəş, sozaran ay
Biri gəlir, biri gedir.

Südyolunun qoşa gözü,
Yerin-göyün iki üzü,
Gəlişinin geci, tezi,
Biri gəlir, biri gedir.

Qardaş çıxır, bacı batır,
Gündə bir il yaşı artır,
Gün oyadır, ay yatırır
Biri gəlir, biri gedir.

***

Bir düzəndən keçirdilər,
Daş atdılar Qayaquşa.
Hay saldılar, hoy dedilər,
Daş atdılar Qayaquşa.

Qorxaqları, ürkəkləri,
Dişiləri, erkəkləri,
Əlsiz-dilsiz kövrəkləri,
Daş atdılar Qayaquşa.

Əllərində yoğun paya,
Güc verdilər hay-haraya,
Tökülüşüb çölə-çaya,
Daş atdılar Qayaquşa.

***

Yekəbaşdır, içiboşdur
Özgəsinə daş atanlar.
Üzü daşdır, özü daşdır,
Özgəsinə daş atanlar.

İtə dönüb itlənəcək,
Qurdla, quşla cütlənəcək,
Daşlar kimi lütlənəcək
Özgəsinə daş atanlar.

Daşı yoldan götürərlər,
Keçənləri ötürərlər,
Hər gün bir daş itirərlər
Özgəsinə daş atanlar.

***

Daş çatmadı Qayaquşa,
Onlar yerə enmədilər.

Düz getdilər yollarını,
Onlar yerə enmədilər.

Haray-həşir, səs-küy, qırğın,
Neçə qızğın, neçə azğın,
Ac idilər, yorğun-arğın,
Onlar yerə enmədilər.

Sovuşdular geniş düzdən,
Altı çaydan, bir dənizdən,
Üç gecədən, üç gündüzdən,
Onlar yerə enmədilər.

***

Bir kənd vardır, adamları
Mal dərisi geyənlərdir.
Tuk papaqlı, xəz əlcəkli
Mal dərisi geyənlərdi.

Ocaq üstə mahnı qoşan,
Mahnıları dağlar aşan,
Çaylar kimi coşub daşan,
Mal dərisi geyənlərdi.

Altlarında at dərisi,
Su ölüsü, ət dirisi,
Həm xırdası, həm irisi,
Mal dərisi geyənlərdir.

***

-Mal dərisi geyən qardaş,
Burdan bir köç sovuşubmu?
Qurd dərisi geyimində
Burdan bir köç sovuşubmu?

Üzlərində soyuq ürkü,
Gözlərində isti-bürkü,
Dillərində qonaq ərki
Burdan bir köç sovuşubmu?

Yer axtaran, yuva gəzən,
Qıçlarından yollar bezən,
Dağlar aşan, çaylar üzən,
Burdan bir köç sovuşubmu?

***

-Qayaquşla gələn iyid,
Ötən köçü görməmişik.
Mən özüm də bir köçkünəm,
Ötən köçü görməmişik.

Qovub bizi daş atanlar,
Çöldə-düzdə at yortanlar,
Ay ovçular, ay çobanlar,
Ötən köçü görməmişik.

Çox görmüşük yol yortanı,
Daş yükündən yük dartanı,
Tutub burda qan ortanı,
Ötən köçü görməmişik.

***

Yaxalaşıb bağıranlar,
O yan, bu yan vuruşurdu.

At otarıb, ot biçənlər
O yan, bu yan vuruşurdu.

Paya əldə, daş sapandda,
Biri yerdə, biri atda,
İki qanlı bir elatda
O yan, bu yan vuruşurdu.

Səs tutmuşdu dağı-daşı,
Qan almışdı döşü, başı,
Ölüm, dirim cüt yanaşı,
O yan, bu yan vuruşurdu.

***

Gücər düşdü Qayaquşdan,
Bu nə qırğın, nə savaşdır.
Qızmışları harayladı,
Bu nə qırğın, nə savaşdır?

-Ölənlərin sayı itib,
Ölçü-biçi, cızıq ötüb
Bu qan-qada, ölüm-itim,
Bu nə qırğın, nə savaşdır?

Bir dayanın, əl saxlayın,
Vur deyəni qulaqlayın,
Bir söz deyim, siz yoxlayın,
Bu nə qırğın, nə savaşdır?

***

Qayaquşu görüb hamı
Hamı qorxub əl saxladı.
Qızıxmışlar, karıxmışlar,
Hamı qorxub əl saxladı.

Bu nə quşdur, nə biçimdir,
Bu quş nədir, yolçu kimdir?
Ya dirrikdir, ya ölümdür
Hamı qorxub əl saxladı.

Gücər çıxdı önlərinə,
Baxdı qanlı günlərinə,
Yüzlərinə, minlərinə,
Hamı qorxub əl saxladı.

***

-Mən yolçuyam, ellər, sizi
Barışığa çağırıram,
Adım Gücər, özüm ovçu,
Barışığa çağırıram.

Bir dayanın, durun görüm,
Sola geri, sağa geri,
Ağsaqqallar gəlsin, bəri,
Barışığa çağırıram.

Hamı güclü, hamı ərən,
Elat olub pərən-pərən,
Sizi ölüb öldürməkdən
Barışığa çağırıram.

***

-Ay yol gedən yolçu qardaş,
Bu yan-yövrə bizim yerdir.
Yüz illərdir yurd salmışıq,

Bu yan-yövrə bizim yerdir.

Burda mənim soy köklərim,
Dədəmgilin sümükləri,
Dam-daşları, sökükləri,
Bu yan-yövrə bizim yerdir.

Bu yerləri çox-çox belə
Qorumuşuq ölə-ölə,
Daldan gələn iti gələr,
Bu yan-yövrə bizim yerdir.

***

-Mənim adım Daşdalaşdır,
Bunlar burdan çıxmalıdır.
Bu otlaqlar bizimkidir,
Bunlar burdan çıxmalıdır.

Dalaşqanam, vuruşqanam,
Sudan, oddan alışqanam,
Tək torpağa qovuşqanam
Bunlar burdan çıxmalıdır.

Bu otlağın yiyəsiyəm,
Ot, tayası, pəyəsiyəm,
Gücün iti tiyəsiyəm,
Bunlar burdan çıxmalıdır.

***

-Sən dalaşqan, mən vuruşqan,
Gəl, güləşək, güc yoxlayaq.
Çox da ölçmə əl-qolunu,
Gəl, güləşək, güc yoxlayaq.

Bassan məni, bağla götür,
Basıldınsa geri otur.
Yoxsa burda bir el batır,
Gəl güləşək, güc yoxlayaq.

Ta bir özgə sözüm yoxdur,
Bu yer-yurdda gözüm yoxdur,
Bir qalası izim yoxdur,
Gəl güləşək, güc yoxlayaq.

***

Hamı gəldi, qol oynatdı
Güləşəndə iki önər.
Haray, həşir, səs, bağırtı...
Güləşəndə iki ənər.

Hamı dedi, güc bizdədir,
Güc beldədir, güc dizdədir.
Vur qoldadır, vur sözdədir,
Tutaşanda iki önər.

Yer şumlandı dizə çatdı,
Diz qatdandı, yerə batdı,
Kol, ot, ağac sınıb yatdı
Tutaşanda iki önər.

***

- Dədəm Günəş, əl tut mənə,
Anam torpaq, mənə güc ver.
Bu yerlərdə kimsəsizəm,

Anam torpaq, mənə güc ver.

O yoğundur, mənsə arıq
O tərlidir, mənsə yanıq,
Qoyma məni gözüqıpıq
Anam torpaq, mənə güc ver.

Mən yıxılsam düzlər sınar,
Əyri düzü basıq sanar,
Mən də yannam, düz də yanar,
Anam torpaq, mənə güc ver.

***

Bir güc duydu qollarında
Qurd dərisi geyən oğlan.
Daşdalaşı süpürrədi
Qurd dərisi geyən oğlan.

Qurşağını tutub sıxdı,
Burub onu yerə yıxdı,
Cumub döşü üstə çıxdı,
Qurd dərisi geyən oğlan.

Sonra qalxdı, durdu geri,
Daşlaşdan bir az bəri,
Diz qatdadı, öpdü yeri,
Qurd dərisi geyən oğlan.

***

-Anam torpaq, öpüm səni,
Gücü mənə sən vermisən.
Mənim dadım-duzum sənsən,
Güçü mənə sən vermisən.

Səni duydum ürəyimdə,
Dizim, qolum, dirsəyimdə,
Yapışmışam ətəyindən,
Gücü mənə sən vermisən.

Anam, Tanrım, damarımsan,
Təpərimsən, taparımsan,
Yolum, yalım, çaparımsan,
Gücü mənə sən vermisən.

***

-Ey Tanrılar, uca göylər,
Güc veribsən, yatım da ver,
Ulduz çıxıb, ay sozarır,
Güc veribsən, yatım da ver.

Burda güclü yerböləndir,
Ağsaqqaldır, başbiləndir,
Başçı kimdir, güc gələndir,
Güc veribsən, yatım da ver.

Gücün vuran güclü qolu,
Yan-yövrəsi varla dolu,
Çox ağırdır onun yolu
Güc veribsən, yatım da ver.

***

- Ay güclüyə güc göstərən,
Odla, yellə, sellə tutaş,
Gücün yoxsa, burda yaşa,
Odla, yellə, sellə tutaş.

Bu yerlərin suyu seldir,
Kəhər atı kişnər yeldir,
Göz gördükcə yaşıl çöldür,
Odla, yellə, sellə tutaş.

Baş əyərik sənə bir-bir,
Dağ gücünü bizə yetir.
Eli təzə yerə ötür,
Odla, yellə, sellə tutaş.

***

Ellər kəsdi yalı, yolu,
Hamı dedi qal bizimlə,
Daşdalaş da çıxıb getdi,
Hamı dedi, qal bizimlə.

Bunu dedi neçə yüzlər,
At səyirdən qıyıqgözlər,
Mal bəsləyən yastıüzlər,
Hamı dedi, qal bizimlə.

Yalvardılar, yaxardılar,
Dilə tutub saxladılar.
Hər yönünü bağladılar,
Hamı dedi, qal bizimlə.

***

- Mən Gücərəm, yol vurğunu,
Yol yolçusu yolda gərək.
Doğmaları axtarıram,
Yol yolçusu yolda gərək.

Öz yurdumdan köçəriyəm,
Sizin eldən keçəriyəm,
Öz yerimin Gücəriyəm,
Yol yolçusu yolda gərək.

Gücdə sizə güvənmişəm,
Bu yerləri bəyənmişəm,
Sizi görüb sevinmişəm,
Yol yolçusu yolda gərək.

***

Axşam düşdü, gözləmədi,
Yola düşdü Qayaquşla.
Ulduzlardan yol istədi
Yola düşdü Qayaquşla.

Buludlarda gözdən itdi,
Neçə dağı-düzü ötdü,
Doğmalara doğru getdi
Yola düşdü Qayaquşla.

Hər yer qardı, buzlu şişə,
Yer tamarzı al Günəşə,
Kürkü qardan qarlı meşə
Yola düşdü Qayaquşla.

***

Uzaq-uzaq yol getdilər,
Yolun yaxın-uzağı yox.
Dağlar xıxıb yastılandı
Yolun yaxın-uzağı yox.

Buludları dindirdilər,
Üç yol ayı söndürdülər,
Yerə yağış göndərdilər,
Yolun yaxın-uzağı yox.

Bu ağartı qar izidir,
Ya ağ güllər dənizidir,
Bura yaşıllıq düzüdür,
Yolun yaxın-uzağı yox.

***

Yorulmuşdu Qayaquş da,
Yorğun yolçu toxda bir az.
Qanad saxla dincəl, quşum,
Yorğun yolçu toxda bir az.

Quş buluddan yerə endi,
Yeri görüb buza döndü,
Bu nə qandır, bu nə gündür,
Yorğun yolçu toxda bir az.

Hər yer qızıl qan bulaşıq,
Yer sökülü ot qarışıq.
Cığır bükük, yol dolaşıq,
Yorğun yolçu, toxta bir az.

***

Kim var idi bu yerlərdə,
Hamı qara geyinmişdi.
Yaşıl, geniş bir çöllükdə
Hamı qara geyinmişdi.

Çinellilər gəlib dünən,
Qılınc çəkib elə birdən,
Qan töküblər hər bir yerdə,
Hamı qara geyinmişdi.

Aparıblar qız-gəlini,
Öldürüblər başbiləni
Hər susanı, hər dinəni–
Hamı qara geyinmişdi.

***

Başsız qalıb bu gün bu el,
Başsız eldən nə el olar.
İgidləri tutuq* düşüb,
Başsız eldən nə el olar.

Atı, iti aparıblar,
Unu, otu aparıblar,
Nə var, tutub aparıblar
Başsız eldən nə el olar.

Qalanlarsa yas tutubdur,
Ağlamaqla baş qatıbdır,
El dağılıb, el batıbdır,
Başsız eldən nə el olar.

***

- İyid oğul, ayaq saxla,
Əltut** elin qaynağıdır.
Bizə əl tut, arxa dayan,
Əltut elin qaynağıdır.

**Əsir*
***Kömək*

Qırdı, çatdı Çinel bizi,
Al boyadı çölü, düzü,
Gəl başçı ol bizə özün,
Əltut elin qaynağıdır.

Dağıtdılar elimizi,
Doğradılar dilimizi,
Dirimizi, ölümüzü
Əltut elin qaynağıdır.

***

Gücər yolu soraqlaşdı,
Günbatandan gündoğana,
Alıb çapıb aparıblar,
Günbatandan gündoğana.

Nə ağırdır bu yas, qarğış,
Çox qabadır bu yır-yığış,
Yol dolambac, yoxuş-yoxuş,
Günbatandan gündoğana.

Gücər getdi öc almağa,
Başsız elə baş olmağa,
Ya ölməyə, ya qalmağa,
Günbatandan Gündoğana.

***

Biz bu yasda doğmalaşdıq,
Yasda doğma, yad olmayır.
Baş əyirik ölənlərə,
Yasda doğma, yad olmayır.

Qayaquşum, qanad götür,
Məni burdan ora yetir,
Daha ölçü-biçi itib,
Yasda doğma, yad olmayır.

Gedək, tapaq qaçaqları,
Vuraq, yıxaq alçaqları,
İpdən açaq tutuqları,
Yasda doğma, yad olmayır.

***

-Dönüm qılınc qanadına,
Yolu yola calayır quş.
Buludları qılınclayır
Yolu yola calayır quş.

Tanrım, sən də bir iş elə,
Götür məni bir quş elə,
Elə, yurda duruş elə
Yolu yola calayır quş.

Quşum, gəz tap azğınları,
Qana qancıl qızğınları,
O leş yeyən quzğunları,
Yolu yola calayır quş.

***

Üçüncü gün üzləşdilər,

Əyri yolu düz yol kəsər.
Başçıları qan içəndi,
Əyri yolu düz yol kəsər.

Qurd dərisi geyən əri.
Görüb başçı gəldi bəri,
Gücər düşüb öpdü yeri,
Əyri yolu düz yol kəsər.

Gücər əli yalın idi,
Əl çomağı qalın idi.
Səsi, sözü yaylım idi,
Əyri yolu düz yol kəsər.

***

-Eli çapıb qaçan alçaq,
Yerdə yoxdur yer alçağa.
Sən bu yerdə ölməlisən,
Yerdə yoxdur yer alçağa.

Gördüm elin göz yaşını,
Dağıdılmış dam-daşını,
İndi qoru öz başını,
Yerdə yoxdur yer alçağa.

Mən Gücərəm, güc sınağı,
Daş toppuzdur əl çomağım,
Gəl, vuruşaq ər sayağı,
Yerdə yoxdur yer alçağa.

***

Yaraqlılar ox yağdırdı,
Gücər Dəmirdöz geyimdə.
Nə ox batdı, nə də qılınc,
Gücər dəmirdöz geyimdə.

Çomaq qanlar axıdırdı,
Başlar, döşlər dağıdırdı,
Alçaqları bağırdırdı,
Gücər dəmirdöz geyimdə.

Qıy çəkirdi Qayaquş da,
Ayırırdı döşü başdan.
Güclənirdi bu savaşda,
Gücər dəmirdöz geyimdə.

***

Quş başçını qapdı, getdi,
Tökdüyün qan, alar səni
Qayalığa atdı onu,
Tökdüyün qan alar səni.

Daşdan daşa dəyib aşdı,
Bağırtısı dağa düşdü,
Qalanlar da qoyub qaçdı,
Tökdüyün qan alar səni.

Çıxdı üzə qız-qadınlar,
Əl-ayağı qabar, qabar,
Qalandan çox ölənlər var,
Tökdüyün qan alar səni.

***

- Eldən uzaq düşən elim,
Öz elinə qayıt daha.
Gözü yolda qalan çoxdur,

Öz elinə qayıt daha.

Harda olsan, nəçi olsan,
Vara dolsan, ətə dolsan,
Çoxdan yolu azmış olsan,
Öz elinə qayıt daha.

Gücər, sən də eldən yapış,
Öz doğmanla bir-bir tapış,
El uğrunda vuruş, çarpış,
Öz elinə qayıt daha.

Durudaşlar diyarı söyləncisi

Gücər mindi Qayaquşa,
Yolda gərək yolçu-dedi.
Yola düşüb gedin siz də,
Yolda gərək yolçu, dedi.

Baxan dedi, bu, Tanrıdır,
Döş gəmirdi, baş qorudur,
Üzü göylərə sarıdır,
Yolçu gərək yolda,dedi.

-Böyük Gücər, getmə belə,
Başımızda yox başbilən.
Gəl, Tanrı ol bizim elə…
-Yolçu gərək yolda, dedi.

***

Az getdilər, çox getdilər,
Ay nəzilib beşikləşdi.
Üşüdülər ulduzlar da
Ay nəzilib beşikləşdi.

Quş Gücəri zoncuqladı,
Hərdən-birdən sayıqladı,
Ay soyuqdan arıqladı,
Ay nəzilib beşikləşdi.

-Düş aşağı, Qayaquşum,
Soyuqladı döşüm-başım,
Uçma belə naşı-naşı.
Ay nəzilib beşikləşdi.

***

- Bu qar nədir, bu buz nədir,
Yaradana kəsi olum,
O yan isti, bu yan soyuq,
Yaradana kəsi olum.

Ulduzları bir ulduzdur,
Güneyində gün toppuzdur,
Qüzeyində hər yer buzdur,
Yaradana kəsi olum.

Bir üzdəsə Günəş özü,
Yerin vardır iki üzü,
Neçə üzə qoyub bizi,

Yaradana kəsi olum.

***

Şaxta vurdu, hər ikisi
Yumalandı qar içinə.
Qayaquşla ovçu Gücər
Yumalandı qar içinə.

Dil tutuldu, bel büküldü,
İçlərindən hey çəkildi,
Gücər aşdı, quş dikəldi,
Yumalandı qar içinə.

Dörd yan buzdur, qar qatları,
Ağ dağların çarqatları,
Dondu quşun qanadları,
Yumalandı qar içinə.

***

Görmüşdülər çöldə bunu,
Ayı kürkü geyən ərlər.
Göydən düşən adamları
Ayı kürkü geyən ərlər.

Sürüşkəclə tez çatdılar,
Yaxınlaşıb əl tutdular,
Üstlərinə kürk atdılar,
Ayı kürkü geyən ərlər.

Quş büzüşüb donmuş idi,
Qanadları sınmış idi,
Onu ovsun sanmış idi
Ayı kürkü geyən ərlər.

***

- Biz güneydən gələnlərik,
Ayı kürkü geyən ərlər.
İtkinləri axtarırıq
Ayı kürkü geyən ərlər.

Üstlərində dəri geyim,
Bir az tez-tov, bir az yeyin,
Görübsünüz, bizə deyin,
Ayı kürkü geyən ərlər.

Yorub bizi uzaq yollar,
Sıx meşələr, uca yallar,
Əl yetirin, ay oğullar,
- Ayı kürkü geyən ərlər.

***

- Neçəsi var, bu qış gəlib,
Ola bilər siz deyəndir,
Keçən ildən bura köçüb
Ola bilər siz deyəndir.

Kim haraya, kim haradan,
Tez geyinin, çıxın qardan.
Çoxları var qalıb burda,
Ola bilər siz deyəndir.

Bu kürkləri alın, geyin,
Addımlayın yeyin-yeyin,
Nə desəniz evdə deyin,
Ola bilər siz deyəndir.

***

Qış selləndi, yaz gülləndi,
Şaxta sındı yavaş-yavaş,
Su oynadı, qan qaynadı,
Yer isindi yavaş-yavaş.

Ay göründü, yuvarlandı,
Tumurcuqlar qabarlandı,
Gül-çiçəklər tumarlandı,
Sular dindi yavaş-yavaş.

Aşdı buz dağ, şəpə qaya,
Quşlar qondu üzən laya,
Bulud gəldi çölə, çaya,
Düzə endi yavaş-yavaş.

Qaqqıldaşdı cüt sonalar
Ağ döşündə ağ cunalar,
Qar yerinə qaz durnalar
Yerə qondu yavaş-yavaş.

***

Anamız Yer dəyişəndir,
Dörd üzü var, dörd geyimi.
Min çiçəklə boyansa da
Dörd üzü var, dörd geyimi.

Çiçəklərdə boya boldur,
Biri sarı, biri aldır,
Neçə yönə gedən yoldur,
Dörd üzü var, dörd geyimi.

Gecə düşür yatır hərə,
Qulaq asır sanki Yerə,
Ana Yerin buna görə
Dörd üzü var, dörd geyimi.

Yer, başına dolandığım,
Yer, üstünə qalandığım,
Yer, təkinə quylandığım
Dörd üzü var, dörd geyimi.

***

Burda doğma tutdu ellər
Gücər ilə Qayaquşu.
Gəzdirdilər oba-oba,
Gücər ilə Qayaquşu.

Dindirdilər, yanladılar,
Dillərini anladılar,
Ev verdilər, damladılar
Gücər ilə Qayaquşu.

Ayı ovu ağır sınaq,
Ovda yoxdur yerli, qonaq,
Apardılar oymaq-oymaq,
Gücər ilə Qayaquşu.

Ayı gəldi qaya boyda,
Daş götürüb atdı çaydan.
Daşa tutdu hay-harayda
Gücər ilə Qayaquşu.

***

- Bu yerlərin xan ovçusu,
Ayı, bizi daşa tutma.
Yay qarıncıl, qış yuxucul,
Ayı, bizi daşa tutma.

Öz Tanrımdan güc dilərəm,
Ya öldürrəm, ya ölərəm,
Boz dərini kürk elərəm,
Ayı, bizi daşa tutma.

Dil bilsəydin, dilləşərdik,
Lap döş-döşə güləşərdik,
Quma, qara bələşərdik,
Ayı, bizi daşa tutma.

Mən ovçuyam, ov ərəni,
Sənsən ovum, boz kürənim,
Yer-yurd, oba güc verənim,
Ayı, bizi daşa tutma.

Oynaqlama yastı-yastı,
Mənim payam qanlı pasdı,
Gəl, güləşək basdı-basdı,
Ayı, bizi daşa tutma.

***

İki ovçu tutaşanda
Qar sovruldu dörd bir yana
Nəriltilər, bağırtılar,
Qar sovruldu dörd bir yana.

Yarğanları aşa-aşa,
Çırpıldılar dağa-daşa,
Paya yağdı döşə-başa,
Qar sovruldu dörd bir yana.

Ayı güclü, paya iti,
Son bağırtı, son inilti,
Ayı itdi itim-itim,
Qar sovruldu dörd bir yana.

Ovu qovub hoyladılar,
Tapıb, qapıb oynadılar,
Qızıxdılar, qaynadılar,
Qar sovruldu dörd bir yana.

***

Səs yayıldı obalara.
Gur ocaqlar tüstüləndi.
"Bir bizburun ayı vurub"
Gur ocaqlar tüstüləndi.

Obaları hayladılar,
Ayı əti payladılar,
Sür-sümüyü quyladılar,
Gur ocaqlar tüstüləndi.

Hər gecəni əylədilər,
Öyüb öyüd söylədilər,
Dil tökdülər, küylədilər,
Gur ocaqlar tüstüləndi.

Yastıburun bir qız gəldi,
Gücər onu yovux bildi,
Baxıb onlar qoşa güldü,
Gur ocaqlar tüstüləndi.

***

Sular, göllər dupdurudur,
Durudaşlar elatında.
Dalaş, savaş eşidilməz
Durudaşlar elatında.

Ovçu-hoyçu qılıqlanır,
Mahnılarda açıqlanır,
Durudaşla muncuqlanır,
Durudaşlar elatında.

Bura düşən düşüb qalar,
Yumuşalar, qaymaqlanar,
Burda hər şey üzüyola,
Durudaşlar elatında.

Yazı oynaq, qışı ağır,
Göydən Yerə ulduz yağır,
Lap suya gir, balıq çağır
Durudaşlar elatında.

***

Görüşdülər, sevişdilər
Bizburunla yastıburun.
Qoşalaşıb bir oldular
Bizburunla yastıburun.

Qız bəyəndi bəy oğlanı,
İsindirdi hər bir yanı,
Buz döşəyi, qar yorğanı
Bizburunla yastıburun.

Alın yolu dolambacdır,
Hər bir şeyə o qısqancdır,
Həm sevgidir, həm inancdır,
Bizburunla yastıburun.

***

Adı Arıx, özü totuq,
Ad aldadır çoxlarını.
Çalışqandı, döyüşkəndi,
Ad aldadır çoxlarını.

Dağa qalxan, ov gətirən,
Qucağında gül bitirən,
Ağrı kəsib dərd götürən,
Ad aldadır çoxlarını.

Arıx qızı sevdi Gücər,
Yuva saldı burda bu ər,
O bir təhər, bu bir təhər,
Ad aldadır çoxlarını.

***

Elçi gəldi qız evinə,
Qız hər yerdə durudaşdır.
Çoxlu bağış* gətirildi,
Qız hər yerdə durudaşdır.

Gəlmişdilər əli dolu,
Tapmışdılar bu aulu,
Buzdan evlər isti olur,
Qız hər yerdə durudaşdır.

Onbeş maral alıb onlar
Hoyladılar apardılar.
Burda belə inanış var,
Qız hər yerdə durudaşdır.

Aytırardan Maldaara,
Maldaardan Toxdayerə
Gəlib yedi, içdi hərə
Qız hər yerdə durudaşdır.

Töhfə

Pal-paltarı, bər-bəzəyi,
Həm arxası, həm çörəyi,
Ər sevgisi qız istəyi,
Qız hər yerdə durudaşdır.

Şaman, bəyi, qızı dindir,
Tanrıları yerə endir,
Ər-arvaddır onlar indi,
Qız hər yerdə durudaşdır,

***

Bu gəlinin əri igid,
Gəlin sevinc gətirəndir.
Unuduldu ağrı-acı,
Gəlin sevinc gətirəndir.

Gəlin gələr, geri dönməz,
Uca durar, sınıb enməz,
Arıx üç gün qaldı dinməz
Gəlin sevinc gətirəndir.

Gücər qızla öyünürdü,
Qız verənlər deyinirdi,
Gələn, gedən sevinirdi,
Gəlin sevinc gətirəndir.

***

Silkələnib çıxdı Şaman,
Qoy gəlişi duru olsun.
Əl ağacı düyün-düyün,
Qoy gəlişi duru olsun.

Arvad-uşaq yürüşdülər,
Şaman ilə görüşdülər,
Sevindilər, irişdilər,
Qoy gəlişi duru olsun.

Şaman bir də silkələndi,
Saç-saqqalı kilkələndi,
Üzü-gözü kölgələndi
Qoy gəlişi duru olsun.

Səslən qaval, dillən qaval,

Zinqırovlu tava oval.
Bir üz uğur, bir üz yava,
Qoy gəlişi duru olsun.

***

-Göy buyurur qulağıma,
Ağ ayını öldürməyin,
Nə aparsa qoy aparsın,
Ağ ayını öldürməyin.

Ağrı-sancı götürəndir,
İsti günlər gətirəndir,
Sondan soraq yetirəndir,
Ağ ayını öldürməyin.

İldırımlar ayaqdadır,
Yava günlər qabaqdadır,
Könlüm bunu duymaqdadır,
Ağ ayını öldürməyin.

Göylər bizdən küsüb dönər,
Gün soyuyar, ulduz sönər,
Gəlsə vursa, yıxsa yenə
Ağ ayını öldürməyin.

***

- Bizlər yalan danışanıq,
Tanrı mənə yalan deməz.
Biz yalana öyrənmişik,
Tanrı mənə yalan deməz.

Var su, Günəş, var Yer, külək,
Çıxsın üzə, bunlar gərək,
Dolu, yağış, ətək-ətək
Tanrı mənə yalan deməz.

Mən özumü tapdım səndə,
Tanrım, yerə uğur göndər,
Gün göndərdim,-dedi, kəndə,
Tanrı mənə yalan deməz.

Tanrım, səni hər gün öyüm,
Sənsən mənim günüm, göyüm,
Eşit yerdə bu hay-küyü,
Tanrı mənə yalan deməz.

***

- Ay burdakı mənimkilər,
Mənə dəyib toxunmayın.
Mən yıxılsam çabalasam
Mənə dəyib toxunmayın.

Öz-özümdə itər olsam,
Süd Yoluyla gedər olsam,
Ölüb yenə bitər olsam,
Mənə dəyib toxunmayın.

Mən qan-tərə qarışanda,
Ulumuzla danışanda.
Ölüm görsəz yatışımda
Mənə dəyib toxunmayın.

İstəyərəm Tanrıdan mən,
El gözləyən, el deyəndən,

Şaman kimi mən öləndə
Mənə dəyib toxunmayın.

***

- Bu elatı nə gözləyir,
Söylə, Tanrım, olacağı.
Yara-xora, ölüm-itim,
Söylə, Tanrım, olacağı.

Yaranmışlar yaraşıqdır,
Düşüncəsi qarışıqdır,
Ölüm-dirim yapışıqdır,
Söylə, Tanrım, olacağı.

Üzüntülər üzüb eli,
Yarı diri, yarı ölü,
Azalt yeli, qarı, seli,
Söylə Tanrım, olacağı.

Mən Şamanam, əlaltınam,
Yaranışda son qatınam,
Yalvarıram el adından
Söylə, Tanrım, olacağı.

***

Şaman düşdü oynamağa,
Oyna-oyna göy ərəni.
Əl oynatdı, qıç oynatdı,
Oyna-oyna göy ərəni.

Ağacında düyünçələr,
Gəlinciklər, əyləncələr,
Baxışında düşüncələr,
Oyna-oyna göy ərəni.

Çox oynadı, sürükləndi,
Döşü şişib körükləndi,
Ağzı-burnu köpükləndi,
Oyna-oyna göy ərəni.

Tanrı uzaq, Şaman yaxın,
O yıxılıb qaldı bayqın,
Üz qorxulu, baxış yayqın,
Oyna-oyna göy ərəni.

Ağ ayı söyləncі

Buz yarğandan eşidildi
Ağ ayının nəriltisi.
El-obaya qorxu saldı,
Ağ ayının nəriltisi.

Kimi tutdu, yerə vurdu,
Hər bir şeyi yaxdı, qırdı,
Sökdü, tökdü, yolub, yardı,
Ağ ayının nəriltisi.

Şaman qaldı ayaq altda,
Hamı qaçdı el-elatdan,

Bağır yardı çathaçatda
Ağ ayının nəriltisi.

Gücər kəsdi qabağını,
Vurub qırdı ayağını,
Tutdu dəniz oylağını
Ağ ayının nəriltisi.

***

Ölüm ilə üz-üzəydi
Qan-qan deyən iki ərən.
Süpürləşib didişirdi,
Qan-qan deyən iki ərən.

Hay-harayda itmişdilər,
Bir-birini didmişdilər,
Çox uzağa getmişdilər,
Qan-qan deyən iki ərən.

Hər yer qanla allanmışdı,
Toz-torpağa bulanmışdı,
Suya, quma quylanmışdı,
Qan-qan deyən iki ərən.

***

Gün batanda bitdi döyüş,
Ayı düşüb qaldı yerdə.
Bel sümüyü xırçıldadı.
Ayı düşüb qaldı yerdə.

Gücər onu yallayanda,
Son evinə yollayanda,
Alıb yana tollayanda
Ayı düşüb qaldı yerdə.

Son bağırtı, son yalvarış,
Sürün-sürün, qarış-qarış,
Gətirmədi dözüm, duruş
Ayı düşüb qaldı yerdə.

***

Tanrı bundan acıqlandı,
Çovğun tutdu el-obanı.
Meşə yandı, dəniz daşdı,
Çovğun tutdu el-obanı.

Çaylar şişdi sel-su oldu,
Sular daşdı göl-göl oldu,
Şimşək düşdü yer kül oldu,
Çovğun tutdu el-obanı.

Qayaquşu aldı sellər,
Qanadlanıb çapdı yellər,
Seldə-suda batdı ellər,
Çovğun tutdu el-obanı.

Qalx ayağa ayıbaşı,
Anan yaxşı, atan yaxşı.
Göylər ulu, ellər naşı,
Çovğun tutdu el-obanı.

***

Gücər düşdü meşələrə,
Qayaquşu axtar-axtar,
Yolu, yalı, döşü, daşı,

Qayaquşu axtar-axtar.

- Dərin-dərin göy buzlaqlar,
Qar örtülü yastı dağlar,
Sərt qayalar, buz bulaqlar,
Qayaquşu axtar-axtar.

Keçim dağın bərisindən,
Sorağ alım birisindən,
Ölüsündən, dirisindən,
Qayaquşu axtar-axtar.

***

Maralları, ayıları
Gördün durma, dursan ürkər.
Qartalları, quzğunları
Gördün, durma, dursan ürkər.

Çaylar axar dinməz-dinməz,
Düz ağaclar yerə enməz.
Oxusa da quş görunməz,
Gördün, durma, dursan urkər.

Çəkil yana meşə çəni,
Kimdir busan daldan məni,
Qurd-quş daha yeməz məni,
Gördün, durma, dursan ürkər.

***

Gün görməyir burda meşə,
Günsüz bitən solğun olar,
İldə bir ay günə qonaq,
Günsüz bitən solğun olar.

Tanrım Günəş, parla bura,
Çıxsın bura qışdan, qardan,
Bu yerləri qurtar dardan,
Günsüz bitən solğun olar.

Ulu Günəş soldum mən də
Bu yerlərə tuş gələndən,
Kim ayırar səni məndən.
Günsüz bitən solğun olar.

***

- Ay Qayaquş, harda qaldın,
Quş buradan keçə bilməz.
Bir ildir səni gəzirəm,
Quş buradan keçə bilməz.

Gündoğana gedirəm mən,
Söylə quşum, hardasan sən,
İncimisən deyən məndən.
Quş buradan keçə bilməz.

Ay Qayaquş, qadan alım,
İtirmişəm yalı-yolu.
Gah qabağa, gah da dalı
Quş buradan keçə bilməz.

***

Qayaquşdan iz görmədi,
Olacağı bilmək olmaz.

Bir il gəzdi tapammadı,
Olacağı bilmək olmaz.

Çıxdı Qobu torpağına,
İsti Günəş qabağına,
Yaşıllıqlar qırağına
Olacağı bilmək olmaz.

O baş əydi, diz qatdadı,
Harda, hansı elatdadı,
Yerə çöküb ot otdadı,
Olacağı bilmək olmaz.

***

Biri keçdi qabağından
Beş min atın ilxısında.
Göydə qamçı səslənirdi
Beş min atın ilxısında.

Bu yer kimin, ilxı kimin,
Çapışırdı atlar min-min,
Kişnəyirdi şimşək təkin
Beş min atın ilxısında.

-At otaran, ilxı sürən,
Ağ papaqlı atçı ərən,
At boyda quş görməmisən,
Beş min atın ilxısında.

***

-At boyda quş olarmı heç,
Uçar gərək yüngül olsun.
Deyimlərdə eşitmişəm,
Uçar gərək yüngül olsun.

Uçar olsa bizim atlar
Qaplan ona boyun qatdar,
Ot yerinə ulduz otdar
Uçar gərək yüngül olsun.

Tanrı qanad versə ata
Uçar-çapar aya çatar,
Ay çomaqlı yorğun ata,
Uçar gərək yüngül olsun.

***

Çörək verdi atçı ona,
Qobuçöldə bu, öyrəncdir.
Gücər yedi heyə gəldi,
Qobuçöldə bu, öyrəncdir.

Qaşqa, kəhər, dəmir, səmənd,
Tanı yorğa yerişindən,
Hər dayçanı yürüşündən,
Qobuçöldə bu, öyrəncdir.

Saydı bir-bir atlarını,
Dedi yer-yer adlarını
Gənclərini, qartlarını,
Qobuçöldə bu, öyrəncdir.

***

-Qobuçöldür bura, ata,
Göz gördükçə yaşıllıqdır-.
Burda yüz-yüz ilxı otlar,
Göz gördükcə yaşıllıqdır.

Qobuçölün atı, otu,
Az yağışı, az buludu,
Gündə min-min döl tutulur,
Göz gördükcə yaşıllıqdır.

Deyən uzaq yol gələnsən
Attanıyan, at bilənsən,
İlxı otar gəl, hələ sən,
Göz gördükcə yaşıllıqdır.

***

İlxı birdən götürüldü.
Dağlar qopdu öz yerindən,
Dəniz coşub çalxalandı,
Dağlar qopdu öz yerindən.

At yalları dalğalandı,
Göy-yer toza çulğalandı,
Sıx buludlar yırğalandı
Dağlar qopdu öz yerindən.

Gücər yürük bir at çapdı,
Ön çaparın yönün tapdı,
Birdən qırmanc səsi qopdu,
Dağlar qopdu öz yerindən.

***

Bu yenilməz gözəllikdən
Göy diksindi, yer udqundu.
Kişnərtidən, nəriltidən
Göy diskindi, yer udqundu.

Dağ titrədi, bulud qorxdu,
Qamçısayaq şimşək çaxdı,
Nə vardısa yıxdı, yaxdı
Göy diskindi, yer udqundu.

Çapdı ilxı, dolay-dolay
Bu dənizdir, yoxsa ki, çay,
Çomaq, qamçı, hoydu-haray,
Göy diskindi yer udqundu.

***

Keçmişindən söz açdı o,
Keçmiş ötən -yol deməkdir.
Öz başına gələnlərdən
Keçmiş ötən yol deməkdir.

Ağ ayıdan, Qayaquşdan,
Göy buzlaqdan, qarlı qışdan,
Qaraqaya, Durudaşdan,
Keçmiş ötən-yol deməkdir.

- Gedək bizim evə ərən,
Danış bizim elə hərdən,
Dünənindən, bugünündən,
Keçmiş ötən yol deməkdir.

***

Ellər çıxdı qabağına,
Gücər dönüb doğmalaşdı.
Qumuz içdi, çörək kəsdi,

Gücər dönüb doğmalaşdı.

Dedilər ki, bizim, oğlan,
Sənin itmiş atan, anan,
Doğmalardır yerdə qalan,
Gücər dönüb doğmalaşdı.

Gəlib çatdı doğma elə,
Qobuyerdən Qobuçölə,
Gücər adı düşdu dilə,
Gücər dönüb doğmalaşdı.

***

Bir qız çıxdı ortalığa,
Çiyinləri ağ göyərçin.
Mənəm dedi, o Qayaquş,
Çiyinləri ağ göyərçin.

Mənim yolum sənin yolun,
Qondum bura, burda qaldım,
Dönüb gözəl bir qız oldum,
Çiyinləri ağ göyərçin.

Sən də gələn, mən də gələn,
Verək burda biz əl-ələ,
Doğma olaq doğma elə
Çiyinləri ağ göyərçin.

***

- Mən də tapdım bu ellərdə
Ata, ana, bacı, qardaş.
Çox dolaşdım, çox axtardım,
Ata, ana, bacı, qardaş.

Urəkləndim bu yerlərdə,
At bəsləyən bu ərlərdən,
Qalacağam sizinlə mən,
Ata, ana, bacı, qardaş.

Sən haradaydın, Qayaquşum,
Gəldim sənə mən qovuşum,
Necə sizə mən qarışım,
Ata, ana, bacı, qardaş.

***

-İndi adım Qızuçardır,
Qurd dərisi geyən Gücər.
Sən ki məni axtarırdın,
Qurd dərisi geyən Gücər.

Alsan məni, sevinərəm,
Gəlin donu geyinərəm,
El içində öyünərəm,
Qurd dərisi geyən Gücər.

Sənə hər gün at sağaram.
Tək olsam da cüt doğaram,
Sənə anan tək baxaram,
Qurd dərisi geyən Gücər.

***

İllər keçdi, yaşı artdı
Gücdən düşdü ovçu Gücər,
Baş ağardı, döş daraldı,

Gücdən düşdü ovçu Gücər.

Oğulları iyid, qoşa,
Biri Bacar, biri Uçar,
Gəncliyini vurdu başa,
Gücdən düşdü ovçu Gücər.

Çox sevirdi dağı-daşı,
Qızuçarı-Qayaquşu,
Beş yol yüzə çatdı yaşı,
Gücdən düşdü ovçu Gücər.

Bacar söylənci

Qırx il keçdi, Bacar iyid ər oldu,
Öz gəlişi, yatımı var hər yaşın.
Artıb, artıb boyu oldu qırx qarıc
Öz gəlişi, yatımı var hər yaşın.

O atçıydı, o ovçuydu, atıcı,
Əynindəcə qılıncbatmaz yapıncı,
Sıyırmaydı yüz batmanlıq qılıncı,
Öz gəlişi, yatımı var hər yaşın.

On yaşında iki qurdu boğmuşdu,
Qaplanların döşlərini sağmışdı,
Döyüşlərdə şimşək olub çaxmışdı,
Öz gəlişi, yatımı var hər yaşın.

***

O, bizucu* əlli ağac atırdı,
Qolun gücü, başın içi bir gərək.
Bir əliylə beş yüz atı dartırdı,
Qolun gücü, başın içi bir gərək.

At minirdi, atın beli sınırdı,
Ox atırdı, dəyən yerlər yanırdı,
Tulazlanıb ağaclara qonurdu,
Qolun gücü, başın içi bir gərək.

Boy-buxunu, gücü, başı bir idi,
Sözü, özü alovluydu, qor idi,
İyid Bacar dağ gövdəli ər idi,
Qolun gücü, başın içi bir gərək.

***

At dərisi geyinmişdi əyninə,
İsti, soyuq götürməyir bu geyim.
Atasının qurd dərisi üstəlik,
İsti, soyuq götürməyir bu geyim.

_____

***Nizə**

Bu geyimlə çullanıbdır İtiat,
Bu çul ilə buzlaqlarda uzan, yat,
Bu geyimdən geyir burda çox elat,
İsti, soyuq götürməyir bu geyim.

Şaxtalara, sazaqlara alışır,

Boz qurdlara qarışaraq ulaşır,
Oda, suya, qara, çənə bulaşır,
İsti, soyuq götürməyir bu geyim.

***

Qızuçarın ağ lələyi alnında,
Həm uçardır, həm üzərdir ağ lələk.
Uçub üzür çox uzağa onunla,
Həm uçardır, həm üzərdir ağ lələk.

Atasından döyüşkənlik borc alıb,
Çox qancıldan, acıqandan* öc alıb,
El-obadan, doğruluqdan güc alıb,
Həm uçardır, həm üzərdir ağ lələk.

Çinelliyə Bacar çoxdan tanıqdır
Xaqanların çoxu ondan yanıqdır,
Çox acıqan ondan gözüqıpıqdır,
Həm uçardır, həm üzərdir ağ lələk!

***

- Qayadöşlü, qovaq boylu Bacarım
Sən unutma anan verən lələyi.
El yolunda vuruşanda, duranda,
Sən unutma anan verən lələyi.

Çox dayanma öz yerində, qoç balam,
Dörd yanını qancıl alsa uç, balam ,
Yer üzündə yeni yollar aç, balam,
Anan verən ağ lələyi unutma.

Mən Qayaquş damarından olanam,
Gərək olsa min il diri qalanam,
Öz yaşımı mən vermişəm balama
Anan verən ağ lələyi unutma.

_____

***Düşmən**

***

Bir düşərlik* düşdü bir gün bu elə,
Onu verən Tanrı verir bunu da.
O istədi bu elləri sınasın.
Onu verən Tanrı verir bunu da.

Qara yara tutdu Qobu atları,
Çiçək aldı körpələri, qartları,
Qıt-quraqlıq əkinləri, otları,
Onu verən Tanrı verir bunu da.

Çox yalvardı yerə, göyə şamanlar,
Vec verməsi, öldü, getdi qalanlar,
Bulud eşən kəhər atlar, qulanlar,
Onu verən Tanrı verir bunu da.

***

Şaman yalvar, şaman, bir də qam elə,
Bəs hardadır könlüyuxa Tanrılar.
Düşərlikdən çıxar bizim bu eli,
Bəs hardadır könlüyuxa Tanrılar.

Yüz-yüz öldü, min-min adam keçindi,
Daha dirrik, deyən, bircə içimdi,
Bəs bir belə Tanrı görən nəçindi,
Bəs hardadır könlüyuxa Tanrılar.

El qırıldı çöl qaraldı ölumdən,

İsti-isti əsən doğu yelindən,
Biz yalvaraq kimə Tanrı dilində,
Bəs hardadır könlüyuxa Tanrılar.

***

Üzüquylu qaldı çox-çox şamanlar,
Tap özünu küsubsənsə Tanrıdan.
Ağbirçəklər otdan döyəc döydülər,
Tap özünü küsübsənsə Tanrıdan.

**Xəstəlik*

Bacar ovdan qayıtmışdı boş əllə,
Bu nə qırğın, nə ölümdür, nə yellər,
Niyə belə düşər oldu bu ellər,
Tap özünü küsübsənsə Tanrıdan.

- El qırılır, şaman mənə iş buyur,
Ölüm acdır, nə dayanır, nə doyur,
Hara gedim, söylə hara üz qoyum,
Tap özunü küsübsənsə Tanrıdan.

***

Şaman dedi:-Bu iş bizdən uzaqdır,
Tanrı deyil, bu yamanın işidir.
Yer altında, Yer üstündə, göydəcə,
Tanrı deyil, bu, yamanın işidir.

Vec vermədi kəsi, bağış, yalvarış,
Umma yaman Tanrısından sən barış,
Belə getsə pozulacaq yaranış,
Tanrı deyil, bu Yamanın işidir.

Mən Şamanam, bundan sonra neynərəm,
Yanıb, yanıb öz-özümə göynərəm,
Barmağımı, dodağımı çeynərəm,
Tanrı deyil, bu, Yamanın işidir.

***

-Mən gedirəm yamanlarla vuruşa,
Yaman gərək Yer üzündən qovula.
Bir yol göstər mənə, öncə uğur de,
Yaman gərək Yer üzündən qovula.

- O yoğrulub aclıq, ölüm, ağrıdan,
O uzaqdır duru-arı doğrudan,
O qorxmayır hələ böyük Tanrıdan,
Yaman gərək Yer üzündən qovula.

Mən gedirəm, mən taparam Yamanı,
Mən keçərəm dağı-daşı, dumanı,
Bir yol göstər, yol, başına dolanım,
Yaman gərək Yer üzündən qovula.

***

-Yamanlığın neçə-neçə üzü var,
Yer üstündə, Yer altında, göydədir.
O, dincliyin, sağlamlığın qancılı,
Yer üstundə, Yer altında, göydədir.

Sən gedən Yer gedər-gəlməz adlanır,

Orda hər şey yanır, sınır, odlanır,
Dağlar, çaylar, yollar iki qatlanır.
Yer üstündə, Yer altında, göydədir.

Çətin gedib sən oranı tapasan,
Çətin orda sən atını çapasan,
Mən taparam, əyər məni aparsan,
Yer üstündə, Yer altında, göydədir.

***

-Haydı, tərpən, el-elatım qırıldı,
Güclə, əllə, çəmlə düyün açılar.
Atıl sən də İtiatın tərkinə,
Güclə, əllə, çəmlə düyün açılar.

İtiatım, lələk bağla alnına,
Daraq çəkim, barmaq qatım yalına,
Bizi apar döyüş-vuruş yoluna,
Güclə, əllə, çəmlə düyün açılar.

Şaman götür geyimini, dohlunu,
Göstər mənə Tanrıların yolunu,
Biz göstərək ölümlərə olumu,
Güclə, əllə, çəmlə düyün açılar.

***

-Böyük Tanrı, mən Bacaram, qapı aç,
Baş əyirəm, üz tuturam qapına,
Burda məni üzüqara eləmə,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı, səni deyib gələnəm,
Yer göstərsən, öz yerimi bilənəm,
Sən öl desən, mən də gedib ölənəm,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı, özün göstər yol mənə,
İşıqucu, Tanrı gücü ol mən,
Bu çarpışda üstünlüyü al mənə,
Baş əyirəm, üz tuturam qapına.

***

Onlar bir ay yol getdilər düzəndə,
Başlanqıcı, sonu yoxdur yolların,
Yoruldular, oturdular, durdular,
Başlanqıcı, sonu yoxdur yolların.

Axşam günün ala-toran çağıydı,
Bir kimsəsiz alma-ərik bağıydı,
Yollar qara, ağaclarsa ağ idi,
Başlanğıcı, sonu yoxdur yolların.

Bir qız durub dayanmışdı yaxında,
Buz var idi gözlərinin ağında,
Gül dərmişdi alma-ərik bağından,
Başlanğıcı, sonu yoxdur yolların.

***

- Şişəgözlü, gözəl bacı kim ola,
Gözəl yerdə gözəl olur gözəllər.
Biz Qobuçöl düzənindən gəlirik,
Gözəl yerdə gözəl olur gözəllər.

-Siz bu yerə hansı yolla gəlibsiz,
Dirisiniz, yoxsa, siz də ölübsüz,
Mən gözələm, bunu hardan bilibsiz

Gözəl yerdə gözəl olur gözəllər.

Mən Tanrıyam, düşərliklə diriyəm,
Yeddi çiçək bacılardan biriyəm,
Yer altından azacanıq bəriyəm,
Gözəl yerdə gözəl olur gözəllər.

***

- Yer üzündə çiçək basıb hər yanı,
Ölən çoxdur, düşük düşüb qalan da.
Bizə əl tut bu ölümdən qurtaraq,
Ölən çoxdur, düşük düşüb qalan da.

- Alpis Tanrı bu işlərin başıdır,
Döyüş-qırğın işində dibdaşıdır.
Yerdə bütün dirilərə qarşıdır,
Ölən çoxdur, düşük düşüb qalan da.

Onu tapmaq, onu tutmaq olmayır,
Heç bir yerdə bircə günlük qalmayır.
Heç Tanrıdan o, göstəriş almayır,
Ölən çoxdur, düşük düşüb qalan da.

***

- Şişəgözlüm, əl tut bizə, yardım et,
Döyüş qırğın yasağıdır Yer üzü.
Biz olmasaq Alpis kimi qıracaq,
Döyüş-qırğın yasağıdır Yer üzü.

-Mən bilirəm gözəl oğlan, varlığı,
Ağrı, acı çəkənliyi, darlığı,
Yeri basan düşərliyi, çorluğu,
Döyüş-qırğın yasağıdır Yer üzü.

Bunu da bil mən küsmüşəm Yamandan,
Körpələri min-min qırıb çatandan,
Yaşıllığı alıb oda qatandan,
Döyüş-qırğın yasağıdır yer üzü.

***

Bacar çapdı İtiatı irəli,
Sözdən sonra qılınc işi aşırar.
-Gəl bizimlə gedək, ay qız torana,
Sözdən sonra qılınc işi aşırar.

Ağ quş olub uçdu göyə şişəgöz,
Bacar onu oxla vurdu düpbədüz,
Göy qaraldı, nə gecəydi, nə gündüz,
Sözdən sonra qılınc işi aşırar.

Ağ quş düşdü qaplan oldu o yalda,
Dedi:-Gedin toranlığa bu yolla,
Bacar, sizi yol azdırar, yahaldar,
Sözdən sonra qılınc işi aşırar.

***

Şaman dedi:-Elə getmə, belə get,
Yamanların sözü, işi tərsədir.
Bacar dedi:-Anam lələk, üç göyə,
Yamanların sözü, işi tərsədir.

Birdən qalxıb göyə uçdu İtiat,
Qızuçardan qalan qoşa-cütqanad,

Görmədilər heç bir Yerdə yurd, elat
Yamanların sözü, işi tərsədir.

Altı ağ quş bir göl üstə üzürdü,
Sona kimi qaqqıldaşıb gəzirdi,
Ağ lələkdən yola ağ gül düzürdü.
Yamanların sözü, işi tərsədir.

***

-Böyük Tanrı, mən Bacaram, qapı aç,
Baş əyirəm, üz tuturam qapına.
Burda məni üzüqara eləmə,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı, səni deyib gələnəm,
Yer göstərsən, öz yerimi bilənəm,
Sən öl desən, mən də gedib ölənəm,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı, özün göstər yol mənə,
İşıqucu, Tanrıgücü ol mənə,
Bu çarpışda üstünlüyü al mənə,
Baş əyirəm, üz tuturam qapına.

***

Oxla vurdu Bacar bir-bir onları,
Hər güclünün bir sızlayan yeri var.
Yoxa çıxdı altı çiçək bacılar,
Hər güclünün bir sızlayan yeri var.

Düz belindən vurdu Bacar quşları,
Oxbatmazdır bu quşların döşləri,
Buna görə yerə gəldi başları,
Hər güclünün bir sızlayan yeri var.

Biri qaldı, qaplan oldu ölmədi,
Göydə idi, ox belini dəlmədi,
Bacar, Şaman bu gizlini bilmədi,
Hər güclünün bir sızlayan yeri var.

***

Bir ağlar səs eşidildi arxadan,
-Dayan, çiçək bacıları öldürən.
Səni sevir, görməyə də gözüm yox,
Dayan, çiçək bacıları öldürən.

Qarayara Tanrısı var qabaqda,
Qurtarmazsan sən o iticaynaqdan,
Vurammazsan onu oxla uzaqdan,
Dayan, çiçək bacıları öldürən.

Bu yerlərdən diri dönən olmayıb,
Qalan olub, ondan heç nə qalmayıb,
Bunla dirrik özgə görkəm almayıb
Dayan, çiçək bacıları öldürən.

***

-Sevdiyimdən səni basıb yeyərəm,
Qoy bəllənsin sənə Tanrı sevgisi.
Doğulduğun gündən səni sevirəm,
Qoy bəllənsin sənə Tanrı sevgisi.

Qarayara çox qorxulu Tanrıdır,
Gücü böyük Tanrılarla yarıdır,
Qara üzü at-inəyə sarıdır,
Qoy bəllənsin sənə Tanrı sevgisi.

Ancaq gözdən onu vura bilərsən,
Vurub onu Yer üzündən silərsən,
Yox, yanılsan, onda özün ölərsən,
Qoy bəllənsin sənə Tanrı sevgisi.

***

Qırx gün gəzdi, tapdı Bacar o yeri,
Heyvərəydi Qarayara Tanrısı,
Dağ-daş əsib titrəyirdi səsindən,
Heyvərəydi Qarayara Tanrısı.

Həm qaplandı, həm də qaplan deyildi,
Həm qabandı, həm də qaban deyildi,
Həm ilandı, həm də ilan deyildi,
Heyvərəydi Qarayara Tanrısı.

Caynağında gəmirirdi daşları,
Püskürtüsü yandırırdı quşları,
Qılınc idi, yaba idi dişləri,
Heyvərəydi Qarayara Tanrısı.

***

Yumuluydu iri, qara gözləri,
Öldürərsən, tapa bilsən çəmini.
Dirriyinin bacasıydı o gözlər,
Öldürərsən, tapa bilsən çəmini.

Bizuc atdı Bacar dəydi döşünə,
O, bizucu alıb çəkdi dişinə,
Beş ox batdı ordlarının şişinə,
Öldürərsən, tapa bilsən çəmini.

Qam elədi Şaman, dağlar uçulsun,
Qam elədi onun gözü açılsın,
Bacar atan ox gözünə sancılsın,
Öldürərsən, tapa bilsən çəmini.

***

-Böyük Tanrı, mən Bacaram, qapı aç,
Baş əyirəm, üz tuturam qapına.
Burda məni üzüqara eləmə,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı səni deyib gələnəm,
Yer göstərsən, mən yerimi bilənəm,
Sən öl desən, mən də gedib ölənəm,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı, göstər bir də yol mənə,
İşıqucu, Tanrıgücü ol mənə,
Bu çapışda üstünlüyü al mənə,
Baş əyirəm, üz tuturam qapına.

***

Üç gün çəkdi bu vuruşma, boğuşma,
Qanın sonu ya ölümdür, ya barış.
Basılmadı Qarayara Tanrısı,
Qanın sonu ya ölümdür, ya barış.

Birdən qaplan səsi gəldi meşədən,
Bərk diskindi bunu Tanrı eşitcək,
Göz açıldı, gözlər qanlı şişədən,

Qanın sonu ya ölümdür, ya barış.

Düz tuşladı Bacar iti oxunu,
Ox qızartdı sol gözünün ağını,
O biri ox sona vardı qızğını,
Qanın sonu ya ölümdür, ya barış.

***

Yenə bir səs eşidildi arxadan,
-Səni sevir, görməyə də gözüm yox,
Qayıt geri, qorxunc Tanrı öndədir,
Səni sevir, görməyə də gözüm yox.

O qızdırma Tanrısıdır, qanadlı,
Həm caynaqlı, həm qanadlı, həm atlı,
Bel dərisi, baş sümüyü beş qatdır,
Səni sevir, görməyə də gözüm yox.

Sağ ovcundan vursan işi bitəcək,
Od-alova -bürünəcək, gedəcək
Yer üzündən çəkiləcək, itəcək,
Səni sevir, görməyə də gözüm yox.

***

Üç gün sonra uçub gəldi Qızdırma,
Hərdən ölüm öz ovunu səsləyir.
Boğazından odlu iynə yağırdı,
Hərdən ölüm öz ovunu səsləyir.

-Bir Tanrıyam, mən qızdırma adında,
Yandıraram sizi qızıl odumda,
İynəm keçir daşın yeddi qatından,
Hərdən ölüm ovçusunu səsləyir.

Bacar dedi:-Biz barışa gəlmişik,
Səni böyük güclü Tanrı bilmişik,
Biz çoxdandır qızdırmadan ölmüşük,
Hərdən ölüm ovçusunu səsləyir.

***

-Onda gəlin, qucaqlaşaq, əl tutaq,
Ölənlərdən nə qorxusu Tanrının.
Mən gedirəm Yer üzünə bir daha,
Ölənlərdən nə qorxusu Tanrının.

Qıracağam mal-qaranı büs-bütün,
Min-min lovğa, dəymədüşər, ərköyün,
Qalacağam Qobuyerdə neçə gün,
Ölənlərdən nə qorxusu Tanrının.

Görüşdülər, əl tutdular qonaqlar,
Bacar çıxdı ortalığa yaraqla,
Vurdu onun düz ovcundan bıçaqla,
Ölənlərdən nə qorxusu Tanrının.

***

Gah qıvrıldı, gah çevrildi, gah aşdı,
Adam bir cür, yaman yüz cür ölərmiş,
Göydən düşüb yastılandı yerdə o
Adam bir cür, yaman yüz cür ölərmiş.

Çıxdı üzə aclıq, qıtlıq, quraqlıq,
Yığıncaqdır burda, yoxsa qonaqlıq,

Hər yan cadar, hər yan quyu, bataqlıq,
Adam bir cür, yaman yüz cür ölərmiş.

Üç buynuzlu, üç qarınpa, üç yoluq,
Deyir yerdə biz dirriyi pozuruq,
Qırıb eli ona sonev* qazırıq,
Adam bir cür, yaman yüz cür ölərmiş.

_____
Qəbir

***

Bacar qılınc qaldıranda, durdular,
Daş-kəsəklə, oxla onu vurdular,
Yüz-yüz artıb hər bir yanı tutdular,
Adam bir cür, yaman yüz cür ölərmiş.

Aclıq çıxdı topbuz ilə araya,
İstədi ki öz başını qoruya,
Ancaq başı düz ayrıldı yarıya,
Adam bir cür, yaman yüz cür ölərmiş.

Qıtlıq yanar qılıncını uzatdı,
Bacar uzun bizucuna əl atdı,
Vurub onu yerdən göyə ucaltdı,
Adam bir cür, yaman yüz cür ölərmiş.

***

-Böyük Tanrı, mən Bacaram, qapı aç,
Baş əyirəm, üz tuturam, qapına,
Burda məni üzüqara eləmə,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı səni deyib şələnəm,
Yer göstərsən öz yerimi bilənəm,
Sən öl desən, mən də gedib ölənəm,
Baş əyirəm, üz qoyuram qapına.

Böyük Tanrı, göstər bir də yol mənə,
İşıqucu, Tanrıgücü ol mənə,
Bu çarpışda üstünlüyü al mənə,
Baş əyirəm, üz tuturam qapına.

***

Bu kim ola ona heç nə batmayır,
Öldü getdi Aclıq, Qıtlıq, Quraqlıq.
Niyə Tanrı onu yeyib udmayıb,
Öldü getdi, Aclıq, Qıtlıq, Quraqlıq.

Quraqlığın şaqqıldadı dişləri,
Şişdi birdən üzü, başı, döşləri,
Bacar vurdu, kəsdi, tökdü şişləri,
Öldü getdi Aclıq, Qıtlıq, Quraqlıq.

Alpis Tanrı özün yetiş haraya,
Şimşəyi min, onu çatdır buraya,
Yelin, odun, selin burda yarayar,
Öldü getdi Aclıq, Qıtlıq, Quraqlıq.

***

Bir səs gəldi: Mən Alpisəm, burdayam,
Tanrısıyam mən savaşın, qırğının.
Sizi qıran Bacar sizdən qoçaqdır,
Tanrısıyam mən savaşın, qırğının.

Bir savaşla yerdə nə var qıraram,
Şimşək minib yeri-göyü yararam,
Dağıdaram mən, yenidən quraram,
Tanrısıyam mən savaşın, qırğının.

Siz ya ölün, ya da mənə qovuşun,
Ya qayıdın, yer üzünə uyuşun,
Ya da qalın, görün dadın savaşın,
Tanrısıyam mən savaşın, qırğının.

***

Bacar dedi:-İtiatım, uç göyə,
Şimşək yerdə güclü olur adamdan.
Qorunarıq yeldən, seldən şimşəkdən,
Şimşək yerdə güclü olur adamdan.

Uçdu getdi üçü birdən göylərə,
Ox yağdırdı ordan Bacar hər yerə,
Şimşək çaxdı, yaxdı yeri yüz kərə,
Şimşək yerdə güclü olur adamdan.

Alpis mindi şimşəyini çapdı o,
Göy qatında İtiatı tapdı o,
Odlu şimşək qılıncını qapdı o.
Şimşək yerdə güclü olur adamdan

***

Bacar qırdı şimşəkləri ortadan,
Göydə qılınc qırıb tökür şimşəyi.
Yan elədi şimşək atın başını,
Göydə qılınc qırıb tökür şimşəyi.

Qan ələndi, ağ buludlar lil oldu,
Yağış yağdı, od-alovdan sel oldu,
Göy gurladı, çovğun oldu, yel oldu,
Göydə qılınc qırıb tökür şimşəyi.

Yerə yağdı qırıq şimşək, budaqlar,
Oxlar, yaylar, yanmış, sınmış yaraqlar,
Kəsik əllər, qanlı başlar, barmaqlar,
Göydə qılınc qırıb tökür şimşəyi.

***

Alpis dedi:-Düşək yerdə güləşək,
Şaman dedi:-Yerdə Yaman güc gəlir.
Alpis dedi:-Yer yaxşıdır savaşa,
Bacar dedi:-Yaman yerdə güc gəlir.

On gün Bacar Alpis ilə dalaşdı,
Birdən şimşək gövdəsinə dolaşdı,
Qurd dərisi, at dərisi allaşdı,
Bacar dedi,-Yaman yerdə güc gəlir.

Şaman çəkib qırdı tökdü şimşəyi,
Ancaq yandı onun əli, biləyi,
Yanıb söndü onun şaman ürəyi,
Bacar dedi:-Yaman yerdə güc gəlir.

***

-Böyük Tanrı, mən Bacaram, qapı aç,
Baş əyirəm, üz tuturam qapına,
Burda məni üzüqara eləmə,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı, səni deyib gələnəm,
Yer göstərsən öz yerimi bilənəm.
Sən öl desən, gedib mən də ölənəm,
Baş əyirəm, üz tuturam qapına,

Böyük Tanrı, bir də göstər yol mənə,
İşıqucu, Tanrıgücü ol mənə,
Bu çarpışda üstünlüyü al mənə,
Baş əyirəm, üz tuturam qapına.

***

Atlar bir də şaha qalxdı, döş-döşə,
Cırmaqlaşdı, dırnaqlaşdı kəhərlər.
İtiatın dırnaqları töküldü,
Cırmaqlaşdı, dırnaqlaşdı kəhərlər.

Alpis vurdu yer oğluna qılıncı,
Düşdü onun kürəyindən yapıncı,
Bacar dedi:-Al, Topbuzdur, a qancıl,
Dırnaqlaşdı, cırmaqlaşdı kəhərlər.

Alpis susdu, başı keçdi qarnına,
Şimşəkləri dönüb girdi qanına,
Onun iki qolu düşdü yanına,
Dırnaqlaşdı, cırmaqlaşdı kəhərlər.

***

-Şaman, gözün aydın olsun, yüz yaşa,
Savaş-qırğın Tanrısını öldürdüm.
İnnən belə yerdə barış olacaq.
Savaş-qırğın Tanrısını öldürdüm.

İtiatın dırnaqları qaraydı,
Qıçı, başı neçə yerdən yaraydı,
Şaman qalxıb bu görümə varaydı,
Savaş-qırğın Tanrısını öldürdüm.

Bacar gəldi, düşdü yerə yanıqlı,
Köksü şimşək yanığından sarıqlı,
Neçə yerdən üzu qanlı, qabıqlı,
Savaş-qırğın Tanrısını öldürdüm.

***

Bir səs gəldi qulağına Bacarın,
-Səni sevir, görməyə də gözüm yox.
Sən öldürdün neçə-neçə Tanrını,
Səni sevir, görməyə də gözüm yox.

Mən Çiçəyəm, yeddi qızdan biriyəm,
Ölməmişəm, iyid Bacar, diriyəm,
Sən hardasan, mən də səndən bəriyəm,
Səni sevir, görməyə də gözüm yox.

Sən beş yüz il yaşayacaq ərənsən,
Ölümünü qabaqcadan görənsən,
İllərini pay-pay bölüb verənsən,
Səni sevir, görməyə də gözüm yox.

***

-Məni gözlə, gələcəyəm yanına,
Bil ki mənim olacaqsan haçansa,
Yaşa iyid, ancaq məni unutma,
Bil ki mənim olacaqsan haçansa.

Çiçək açıb döşün üstə, üzündə,
Ta çıxmazsan onda mənim sözümdən,
Öpəcəyəm o zil-qara köksündən,
Bil ki mənim olacaqsan haçansa.

Mən çiçəyəm, tək bacıyam, unutma,
Soyuq baxıb ürəyimi qanatma,
Nə özünü, nə də məni yanıltma,
Bil ki mənim olacaqsan haçansa.

***

Göy gurladı, yer çəkildi göylərə,
Yaman gəldi neçə üzdə, görkəmdə.
İlan kimi, qaban kimi, qıy kimi.
Yaman gəldi neçə üzdə, görkəmdə.

-Mənim adım yerdə, göydə Yamandır,
Bacar, səni axtarıram haçandır,
Yer ovcumda bir püfləmə samandır,
Yaman gəldi neçə üzdə, görkəmdə.

Mənəm bütün ağrıları yaradan,
Çıxardıram atı, otu sıradan,
Həm törədir, həm çıxaram aradan,
Yaman gəldi neçə üzdə, görkəmdə.

***

-Böyük Tanrı, mən Bacaram, qapı aç,
Baş əyirəm, üz tuturam qapına.
Burda məni üzüqara eləmə,
Baş əyirəm, üz tuturam qapına.

Böyük Tanrı, səni deyib gələnəm,
Yer göstər sən, öz yerimi bilənəm,
Sən öl desən, gedib mən də ölənəm,
Baş əyirəm, üz tutaram qapına.

Böyük Tanrı, göstər bir də yol mənə,
İşıqucu, Tanrıgücü ol mənə,
Bu çarpışda üstünlüyü al mənə,
Baş əyirəm, üz qoyuram qapına.

***

-Vuruşmağa gəlməmişəm səninlə,
Tanrı kimi hər bir yerdə varam mən.
Yandırıram, quruduram, sökürəm,
Tanrı kimi hər bir yerdə varam mən.

İstəyirsən, qal burada Tanrı ol
İstəyirsən, öl, yenidən sən doğul,
Sən mənə də çox gərəksən, ay oğul,
Tanrı kimi hər bir yerdə varam mən.

Yaxşı pislə qatışıqdır yer üzü,
Yaxşı deyil, pis olmuşam mən özüm,
Bunca bil ki, Tanrılıqda var gözüm,
Tanrı kimi hər bir yerdə varam mən.

***

Bunu deyib Yaman getdi tələsik,

Axsayırdı hərdən-birdən sağ qıçı.
Çiçək onun arxasınca gedirdi,
Axsayırdı hərdən-birdən sağ qıçı.

Bacar qalxdı İtiatın belinə,
Üzün tutdu Qobuçölün elinə,
Atı döndü Yeləsənin yelinə
Axsayırdı hərdən-birdən sağ qıçı.

On iki ay dağda-daşda yol ölçdü,
Yer altından yer üstünə o köçdü,
Atı gəldi Qobuçöldə su içdi
Axsayırdı hərdən-birdən sağ qıçı.

***

Yer üstündən çəkilmişdi düşərlik,
Yox olmuşdu Aclıq, Qıtlıq, Quraqlıq.
Qarayara, Çiçək, Qırğın, Qızdırma,
Yox olmuşdu Aclıq, Qıtlıq, Quraqlıq.

Oynayırdı gül çölündə uşaqlar,
Pıçıldaşıb qaynayırdı bulaqlar.
Bacar-deyib güllənirdi dodaqlar,
Yox olmuşdu Aclıq, Qıtlıq, Quraqlıq.

Üç sonev də dayanırdı yan-yana,
Qızuçara, qurd Gücərə, Şamana,
At ilxısı yayılmışdı hər yana,
Yox olmuşdu Aclıq, Qıtlıq, Quraqlıq.

Tur söyləncі

-Ana, mənim atam hanı, hardadır,
Yollan, oğlum, get, atanı tapginən.
Harda itib, hara gedib bilmirəm,
Yollan, oğlum, get, atanı tapginən.

- Atan getdi doğmaları dalınca,
Gözləmişəm siz bu yaşa çatınca,
Gözləyincə, ondan soraq alınca,
Yollan, oğlum, get, atanı tapginən.

-Söylə, onun başı-gözü nə sayaq,
Boy-buxunu, əli, üzü nə sayaq,
Səsi, sözü, bir də özü nə sayaq,
Yollan, oğlum, get, atanı tapginən.

-Atan hündür, qol-budaqlı Gücərdir,
O bu yerdən, sən də ondan cücərdin,
Gedib tapsan, mən də burdan köçərdim,
Yollan, oğlum, get, atanı tapginən.

***

-Mən gedirəm, ana mənə uğur de,
Atam məni uzaqlardan səsləyir.
Hər oylağı, hər oymağı gəzərəm,
Atam məni uzaqlardan səsləyir.

-Oğul, getsəm, mən gedərəm, bax, belə,

Bir il yolla çatacaqsan cüt gölə,
Bu gedişlə qayıdarsan üç ilə,
Atan səni uzaqlardan səsləyir.

-Ox qabını, oxatanı götürrəm,
Yorğa atı, tunc baltanı götürrəm,
İp qayışı, ip xaltanı götürrəm,
Atam məni uzaqlardan səsləyir.

-Bu yelçəkən, o biri yan Yeləsən,
Qoy çıxmasın qabağına yolkəsən,
Kim soruşsa, hara belə, deyərsən
Atam məni uzaqlardan səsləyir.

***

Tur çox getdi, yollar yordu, yoruldu,
Bir səs onu çağırırdı uzağa.
O Tanrıydı, ya da Gücər ataydı,
Bir səs onu çağırırdı uzağa.

Yol dinmirdi, dili bağlı, uzanaq,
Çay daşları yol üstündə sızanaq,
Nə yel vardı, nə toz, nə də tozanaq,
Bir səs onu çağırırdı uzağa.

Tur çapırdı, atı yollar yorğunu,
Diskindirir leyi, qurdu, quzğunu,
Keçib çayı, yağıntını, çovğunu,
Bir səs onu çağırırdı uzağa.

-Ay səslənən qapalı səs, danış, din,
Öz doğmanla, doğmancanla qarış bir,
Alın yazın, əl yazınla barış bir,
Bir səs onu çağırırdı uzağa.

***

Gecə düşdü, Tur dayandı yolüstü,
Öz yolunu göstər mənə, a Tanrı.
Qaynaşırdı göydə qızıl ulduzlar,
Öz yolunu göstər mənə, a Tanrı.

Öz atamı tapım öpüm, bəsləyim,
Tapıntıya öz anamı səsləyim,
Ata kimi sayın-soyun gözləyim,
Öz yolunu göstər mənə, a Tanrı.

Qırğı atım məni yolda qoymasın,
Muşquruğa, marçıltıya uymasın,
Özgə evi doğma pəyə saymasın,
Öz yolunu göstər mənə, a Tanrı.

Qabaqlarda nə çox yol var, cığır var,
Hardan gəlir, hara gedir bu yollar,
Məni özün öz yolunla sən apar,
Öz yolunu göstər mənə, a Tanrı.

***

Tanrı özü göz qoymuşdu yollara,
Çapar atsız, yol Tanrısız olmayır.
At kişnəyir, yol uzanır, gün batır,
Çapar atsız, yol Tanrısız olmayır.

Bir az yey ol, bir az iti çap atım,
Bir daxmaya, bir obaya mən çatım,

Bulud dolu, duman qalın, çən qatı,
Çapar atsız, yol Tanrısız olmayır.

Çapa-çapa çəni, sisi yardılar,
Kolu-kosu yastıladıb qırdılar.
Dağ döşünün ətəyində durdular,
Çapar atsız, yol Tanrısız olmayır.

***

Bir quş gəlib qondu ağac başına,
-Qırğı atım göyərçindən qanad al.
Muncuq gözlər nəsə deyir Turərə,
-Qırğı atım, göyərçindən qanad al.

Gözəl quşu yəhər qaşı dindirir,
Turu alıb səs yönünə döndərir,
Ola bilər onu Tanrı göndərib,
Qırğı atım, göyərçindən qanad al.

-Danış quşum, ağ döşünə baş qoyum,
Danış, səni mən dinləyim yol boyu,
Hansı göydən enib sənin quş soyun,
-Qırğı atım, göyərçindən qanad al.

***

-Quş deyiləm, Qayaquşun hoyuyam,
Tanrı məni sənə əltut göndərib.
Bundan belə məni dinlə, yola çıx,
Tanrı məni sənə əltut göndərib.

Atan ölüb, önəm-öncül bir adda,
Bacar, Uçar qardaşların elatda,
Sən mənimlə ölkələr gəz bu atda,
Tanrı məni sənə əltut göndərib.

Əl tut, qaldır kimsəsizi, yazığı,
Yaxın qoyma içi ovuq qırığı,
Qoyma, əldə, eldə artsın artığı,
Tanrı məni sənə əltut göndərib.

***

-Ağ göyərçin, toxda, məni dinlə sən,
Bu səs nədir, bu sözləri kim deyir?
Harda görüb tanımısan atamı?
Bu səs nədir, bu sözləri kim deyir.

Deyirsən ki, Qayaquşun hoyusan,
Mənim böyük dibdaşımın soyusan,
Tanrımızın göydəngəlmə hayısan,
Bu səs nədir, bu sözləri kim deyir.

Hər şey mənə aydın olsa, iç olsa,
Bu yer üzü başdan-başa köç olsa,
Mən atamı görməliyəm nec olsa,
Bu səs nədir, bu sözləri kim deyir?

***

- Get bir az yat, gör yuxular nə deyir,
Məndən daha hər bir şeyi soruşma.
Tanrı məni sənə yoldaş göndərib,
Məndən daha hər bir şeyi soruşma.

Yer üzünü gəzib-gəzib dolaşsan,
Döyüşlərdə öz qanına bulaşsan,

Azğınlarla, qızğınlarla dalaşsan,
Məndən daha heç bir şeyi soruşma.

Mən Şamanam, Qayaquşam, atanam,
Kimsəsizin harayına çatanam,
Pisi atıb doğru-düzü tutanam,
Məndən daha hər bir şeyi soruşma.

***

Tur yuxladı, yuxu gördü atadan,
Qol-budaqlı bir kişiydi atası,
Dönüb gəlib axtarırdı evini,
Qol-budaqlı bir kişiydi atası.

Göz tutulub, qulaq batıb, bənz atıb,
Dayanmışdı qardan, buzdan ağ atı,
O baxırdı öz oğluna gözaltı,
Qol-budaqlı bir kişiydi atası.

-Ata, ata, xoş gəlibsən, düş atdan,
Hamı səni gözləyirdi elatda,
Bir bacım var odur gəlir, Bax adda,
Qol-budaqlı bir kişiydi atası.

***

- Mən atanam, ancaq əldən düşmüşəm,
Evimizə bir də dönə bilmərəm,
Doğmaların arxasınca gedəndən
Evimizə bir də dönə bilmərəm.

Hara getdim, doğmaları soruşdum,
Sonda gəlib Qobuçölə qovuşdum,
Çox yerlərdə çoxları ilə vuruşdum,
Evimizə bir də dönə bilmərəm.

Qobuçöldə çox genişdir çöl-meşə,
Qobuyerə yuxularda gəlmişəm,
Doğmalardan sizi doğma bilmişəm,
Evimizə bir də dönə bilmərəm.

***

Səhər oldu qanadlandı göyərçin,
Turər çapıb getdi onun dalınca,
Yollar, yallar, çöllər, göllər, meşələr
Turər çapıb getdi onun dalınca.

Çox səslədi, Göyərçini, quş hanı,
O axtardı, gəzdi o yan, bu yanı,
Quş nə durdu, nə bir yerdə dayandı,
Turər çapıb getdi onun dalınca.

-Ay atamın hoyu-soyu Göyərçin,
Hara belə sən uçursan, danış, din,
O durmadı qanad çaldı neçə gün,
Turər çapıb getdi onun dalınca.

***

Neçə adam dayanmışdı yol üstdə,
Əllərində sapand, bizuc var idi,
Birisini döyürdülər, ölümcül,
Əllərində sapand, bizuc var idi.

O oğlanın cırılmışdı üst-başı,
Uçulmuşdu yurd-yuvası dam-daşı,
Neçə dəli onun ilə yanaşı,

Əllərində sapand, bizuc var idi.

Əl uzatdı Tura sarı, durdular,
"Yardım" dedi, döş-başını yardılar,
Vurub-vurub yoruldular, durdular,
Əllərində sapand, bizuc var idi.

***

-Ay səkkizi bir yazığı döyənlər,
Niyə belə urəyidaş olubsuz.
Kişiliyi, iyidliyi unudub
Niyə belə ürəyidaş olubsuz?

Tur oğlanı alıb çəkdi tərkinə,
Bu yerlərdə hərki-hərki, kim-kimə,
-Pis baxmayın mənim belə ərkimə,
Niyə belə ürəyidaş olubsuz?

Mən gəlirəm, yaxın Qobu elindən,
Düzlük, Tanrı düşməz mənim dilimdən,
Qurtarammaz heç biriniz əlimdən,
Niyə belə ürəyidaş olubsuz?

***

At səyirtdi üstlərinə onların,
Qan-qan deyən qanlı gözlər bərəldi.
Axdı yerə neçəsinin al qanı,
Qan-qan deyən qanlı gözlər bərəldi.

Bir çoxları bu vuruşdan çəkindi,
Adamları, güclüləri tükəndi,
Tur döyüşdə döşü, başı sökəndi,
Qan-qan deyən qanlı gözlər bərəldi,

Vuruşaraq onlar düşdü ayaqdan.
Sapand daşı yağdırdılar qıraqdan,
Oxa tutdu Tur onları uzaqdan,
Qan-qan deyən qanlı gözlər bərəldi.

***

-Tur qardaşım, mənim adım Qoşardır,
Ürəyimdə qoşmalarım var sənə.
Sən qurtardın məni qancıl əlindən,
Ürəyimdə qoşmalarım var sənə.

Qolu güclü, səsi ötkəm balasan,
Qansızlardan qanı belə alasan,
Görüm belə yüz-yüz yaşa dolasan,
Ürəyimdə qoşmalarım var sənə.

Qabaqda sən, qoşmada mən yol boyu,
Dağlar ilə, daşlar ilə qolboyun,
Hara getsən ayağına baş qoyum,
Ürəyimdə qoşmalarım var sənə.

***

Tanrı mənə düz yol göstər, yolunu,
Bu tellərdə dınqır-dınqır çalaram.
Soy-sayını, hay-hoyunu götürüb
Bu tellərdə dınqır-dınqır çalaram.

Mən qoymaram el çapıla, soyula,
Haraylaram yatanları ayılar,

Söz deyərəm quzeylərə yayılar,
Bu tellərdə dınqır-dınqır çalaram.

Bundan sonra mənim Tanrım Tur olsun,
Qansızlara yer-göy, var-yox dar olsun,
Kim əl tutdu, tutan əli var olsun,
Bu tellərdə dınqır-dınqır çalaram.

***

Bulud qara, göyün qaşı qızılı,
Yol getdilər, yal aşdılar yolçular.
Göy gurladı, yağış yağdı, sel axdı,
Yol getdilər, yal aşdılar yolçular.

Bir az keçdi yer-göy susub qaraldı,
Qaranlıqda göz önləri daraldı,
Dağ başını, dağ döşünü qar aldı,
Yol getdilər, yal aşdılar yolçular.

At fınxırdı, Qoşar mahnı bəslədi,
Tur muşqurub Göyərçini səslədi,
Uzaq-uzaq yorğun yollar əsnədi,
Yol getdilər, yal aşdılar yolçular.

Daşqıranlarla döyüş söyləncі

Görüş nədir, görüşdən də uludur
Ayrılığın yollarını keçənlər.
Çatışa*dək diri olur, sonra yox,
Ayrılığın yollarını keçənlər.

Bizə dözüm gücü verən çatışdı,
Çatış istək alovuna yağışdı,
Gedib böyük görüşlərə qatışdı
Ayrılığın yollarını keçənlər.

Dözümüylə göydən ulduz qapandır,
Buludları yallayaraq çapandı,
Görüşlərdə öz yerini tapandır,
Ayrılığın yollarını keçənlər.

***

Bir elata yetişdilər, günorta,
İki gölün arasında evləri.
Adamları tez-tov, iti, tezgörən,
İki gölün arasında evləri.

Turu görüb yığılışıb gəldilər,
Çörək qoyub tək-təkinə böldülər,
Ağrı-acı söylədilər, bildilər,
İki gölün arasında evləri.

Başçıları evdən çıxdı bilincə,
Bir qız idi, ağız incə, bel incə,
Tur baş əydi o qız yaxın gəlincə
İki gölün arasında evləri.

***

-Ay qonaqlar öz yurdunuz bilibsiz
Gəlin, gəlin, göz üstündə yeriniz.

Baş əyirik açıq üzlə gələnə,
Gəlin, gəlin, göz üstündə yeriniz.

**Vüsal*

Bizim elat oba-ocaq tikəndi,
Arpa, noxud, mərci, taxıl əkəndi,
Basqınlardan başı ağrı çəkəndi,
Gəlin, gəlin, göz üstündə yeriniz.

Deyim sizə sözümüzü bu başdan,
Bərkimişik qancıllarla dalaşda,
İtirmişik çox adamı savaşda,
Gəlin, gəlin göz üstündə yeriniz.

***

- Bu yerlərin qız başçısı var olsun,
Kimdir sizi yurdunuzdan dəbərdən.
Nə çox yer var, yaşıllıq var, meşə var,
Kimdir sizi yurdunuzdan dəbərdən.

- Dünən gəlib, dillərini bilmirik,
Onlar hərdən dağla-daşla vuruşur.
Deyirlər ki, gərək hər gün qan tökək,
Onlar hərdən dağla-daşla vuruşur.

-Hayandadır o acıqan dəlilər,
Gəlib bizlə vuruşsalar yaxşıdır.
Dağla-daşla vuruşları gülüncdür,
Gəlib bizlə vuruşsalar yaxşıdır.

***

Dağ döşündə acıqanlar göründü,
Ordan yürüş, burdan duruş başladı.
Əllərində topbuz, bizuc, daşatan,
Ordan yürüş, burdan duruş başladı.

Üstlərinə yürükləndi ilk bölük,
Qaşlar çatıq, başlar yastı, burun dik,
Hər topbuzda yoğrulurdu ət-sümük,
Ordan yürüş, burdan duruş başladı.

Acıqanlar dağı-daşı gəmirdi,
Çaylar kimi dalğalandı, köpürdü,
Tur vurduqca onlar on-on gəbərdi,
Ordan yürüş, burdan duruş başladı.

***

Qanlı döyüş axşam üstü tükəndi,
Ölən, qaçan ələ düşən çox idi.
Acıqanlar çəkildilər dağlara,
Ölən, qaçan, ələ düşən çox idi.

Qoşar Turu qorumuşdu arxadan,
Dörd bir yandan qalxan qanlı dalğadan,
Daş topbuzdan, oxdan, bizuc, baltadan,
Ölən, qaçan, ələdüşən çox idi.

El başçısı Ağ yaralı belindən,
Vuruş sözü düşməyirdi dilindən,
Acıqlılar, acıqanlar elindən
Ölən, qaçan ələ düşən çox idi.

***

-Ay döyüşdə ələ düşən döyüşçü,
Niyə belə qanlısınız, acıqlı?
Dağla-daşla vuruşaraq öyünən,
Niyə belə qanlısınız, acıqlı.

- Biz hər yerdən qovulmuşuq, qaçmışıq,
Bizə orda daşqıranlar deyirlər.
Biz deyüşsüz, döyüşçüsüz heç nəyik,
Bizə orda daşqıranlar deyirlər.

-A daşqıran, qoy yaranı bağlayım,
Çox dərindir, yara səni öldürər.
Sizə qarşı biz acıqlı deyilik,
Çox dərindir, yara səni öldürür.

-Mən bilirəm siz ək-biçi sevirsiz,
Bizdə yer yox əkib-biçib, becərək.
Qovulmuşuq, dağa-daşa düşmüşük,
Bizdə yer yox əkib-biçib, becərək.

-Nə çox yer var bizim bu yer üzündə,
Gəlin sizə əkmək üçün yer verək,
Dinc oturun, dinc yaşayın burada,
Gəlin sizə əkmək üçün yer verək.

-Birləşdirir bizi yalnız acıqan,
Olmayanda, özümüzü qırırıq.
Biz yalandan daş-qayayla vuruşur,
Olmayanda, özümüzü qırırıq.

Bu sözləri söyləyincə üzülüb,
Bir ah çəkdi o yaralı keçindi.
Tur çağırdı, silkələdi, qaldırdı,
Bir ah çəkdi o yaralı keçindi.

***

Daşqıranlar əl çəkmədi, qan içdi,
Gecə yarı yürüş çəkib gələndə.
Tur yoldaydı, yaxalandı arxadan,
Gecə yarı yürüş çəkib gələndə.

Başçı qızı yatağında tutdular,
Var-yoxunu öz dalına çatdılar,
Körpələri boğub çaya atdılar,
Gecə yarı yürüş çəkib gələndə.

Biri dedi:-Öldür, boğaz üz indi,
Yiyələndik bu yerlərə biz indi,
Bu yurd-yuva innən belə bizimdi,
Gecə yarı yürüş çəkib gələndə.

***

Daşqıranlar səhər yurda doluşdu,
Gölməçələr laxta-laxta qan oldu.
Yeyib, içib, qırıb çatdı hər şeyi.
Gölməçələr laxta-laxta qan oldu.

Turu, Ağı hellətdilər yamaca,
İkisini bağladılar ağaca,
Nə su, çörək, nə də yardım bir azca,
Gölməçələr laxta-laxta qan oldu.

Turu, Ağı, səhər, axşam döydülər,

Özlərinin dillərində söydülər,
Bu qan-qada tuthatutu öydülər,
Gölməçələr laxta-laxta qan oldu.

***

Tur güc verdi, dağı-daşı titrətdi,
Daşqıranlar bir də yürüş etdilər.
O tərpətdi bağlandığı ağacı,
Daşqıranlar bir də yürüş etdilər.

Tur çıxartdı o ağacı təkindən,
Vurdu yıxdı acıqanı kökündən,
Dağ döşündə, bir yamacın dikində
Daşqıranlar bir də yürüş etdilər.

-Ay minelli, daşqıranı öldürün,
Öz gücüzü, öz soyuzu bildirin,
Siz çarpışın acıqanla dipdiri,
Daşqıranlar bir də yürüş etdilər.

***

Vurub yıxdı daşqıranı sırayla
Tur dalına şəlitlənmiş ağacla.
Topbuzçunu, oxatanı aşırdı,
Tur dalına şəlitlənmiş ağacla.

Turun səsi minelliyə hay oldu,
Acıqanlar axan selə pay oldu,
Ağırlıqda dağa-daşa tay oldu
Tur dalına şəlitlənmiş ağacla.

Bütün günü vuruş getdi çökəkdə,
Qan töküldü dağda, düzdə, ətəkdə,
Daşqıranı qovdu evdən-eşikdən,
Turdalına şəlitlənmiş ağacla.

***

-Ay minelin iyidləri, tərpənin,
Acıqanlar ətə, qana susayıb.
Birini də sağ qoymayın döyüşdə,
Acıqanlar ətə, qana susayıb.

Yer uludur, su uludur, yurd ulu,
Minellilər yumruq dolu, göz dolu,
Qoyma qaçsın, bir də gəlsin, kəs yolu,
Acıqanlar ətə, qana susayıb.

Yer-göy Tanrı, yurd-ev, elat Tanrıdır,
Daşqıranla minellilər ayrıdır,
Onlar əli, onlar üzüqanlıdır,
Acıqanlar ətə, qana susayıb.

***

Gəlib açdı Qoşar Ağı ağacdan,
Onun köksü, bir də qolu yaraydı.
O, yaralı qaplan kimi vuruşdu,
Onun köksü, bir də qolu yaraydı.

Tura yardım kəsilmişdi Qoşar, Ağ,
Köklü ağac ən qorxulu bir yaraq,
Ağın oxu şütüyürdü çox uzaq,
Onun köksü, bir də qolu yaraydı.

Acıqandan qoruyurdu Turəri,

O düz atır, tutağını düz vurur,
Topbuz ilə yeri göyə sovurur,
Onun köksü, bir də qolu yaraydı.

***

-Bizə verin, minellilər, bu yeri,
Siztək olaq, biz də min il yaşayaq,
Sizin yeri biz ki yiyən deyilik,
Siztək olaq, biz də min il yaşayaq.

-Çox yaşamaq sevinc deyil, ad deyil,
Çox yaşayan ürək gərək düz olsun.
Yerin, yurdun günün, suyun gücü az,
Çox yaşayan ürək gərək düz olsun.

Minellini min il düzlük yaşadır,
Sən də düz ol min illəri başa vur,
Yaşamaqla düzlük cütdür, qoşadır,
Çox yaşayan ürək gərək düz olsun.

***

Yer çevrəsi, dolan-dolan tanrılaş,
Bizi görən ulu Tanrı var olsun.
Hər bir yerdə onun yeri, izi var,
Bizi görən ulu Tanrı var olsun.

Dolan, dolan, apar bizi uğura,
Bulud-bulud Tanrı uğur yoğurar,
Göy günəşdən ay ulduzdan doğular,
Bizi görən ulu Tanrı var olsun.

Baxışları yanır odda, ocaqda,
Tərpənişi göldə, çayda, bulaqda,
Düzü görür yurdda, çöldə, bucaqda,
Bizi görən ulu Tanrı var olsun.

***

Yatdı gecə Tur qan-tərin içində,
Ağ Göyərçin gəlib onu səslədi.
Tur azmışdı yuxularda büsbütün,
Ağ Göyərçin gəlib onu səslədi.

Qızağ döndü öz evinə o gecə,
O diksindi Turun adı gəlincə,
Ürəyində sevgi incə, söz incə
Ağ Göyərçin gəlib onu səslədi.

İki ürək, iki gəncin istəyi,
Yaxın idi ikisinin diləyi,
Biri önər, biri dağlar çiçəyi,
Ağ Göyərçin gəlib onu səslədi.

***

Tanrı bizə sevgi verir, sevirik,
Bu Tanrının sevgisidir, ya bizim.
Bağlanırıq sözə, üzə, görüşə,
Bu Tanrının sevgisidir, ya bizim.

Suyun, yelin, sözün səsi incəlir,
Dəli baxır, bir baxışla dincəlir.
Uzaq, yaxın, kimsəsizi, kimsəli
Bu Tanrının sevgisidir, ya bizim.

Tanrı bunu çox görməsin bizlərə
Onun ilə işıq gəlir üzlərə,

Çəkim qonur yapışıqlı sözlərə,
Bu Tanrının sevgisidir, ya bizim.

***

Daşqıranlar qayıdırlar bir daha,
"Ya ölməli, ya bu yeri almalı".
Yenə dinir şaqqıldayan topbuzlar,
Ya ölməli, ya bu yeri almalı.

Minellilər bu döyüşdə çaşırlar,
Acıqanlar aşırımı aşırlar,
Kükrəyərək köpürürlər daşırlar,
Ya ölməli, ya bu yeri almalı.

Tur onların başçısıyla vuruşur,
Bir də onun ad-soyunu soruşur,
Adım Daşqır, özüm-deyir-dağ quşu,
Ya ölməli, ya bu yeri almalı.

***

Əl saxlayıb hamı baxır onlara,
Ölən ölsün, qalan kimdir, yer onun.
Tur daşqırı süpürləyir, qaldırır,
Ölən ölsün, qalan kimdir, yer onun.

Tur çəm vurur Daşqır yerə sərilir,
Yerdə boyun damarları gərilir,
Bu sözləri deyib yenə dirilir,
Ölən ölsün, qalan kimdir, yer onun.

Tur Daşqırın iki bükür boyunu,
Hamı deyir öldür, öldür Tur, onu,
Tur öldürmür soraq alır soyunu,
Ölən ölsün qalan kimdir, yer onun.

***

-Ay dəlilər, bir də bura gəlməyin,
Nə qədər ki, minelli var bu yerdə.
Siz əzilib dağılarsız bu sayaq,
Nə qədər ki, minelli var bu yerdə.

Bu yerlərə qonaq kimi gəliniz,
Bu acığı ürəyizdən siliniz,
Bu yerləri tutmaq olmaz, biliniz,
Nə qədər ki, minelli var bu yerdə.

Mən bu yerin ərəniyəm adım, Tur,
Qızağ mənim sevgim, soyum, odumdur,
Onun yurdu mənim ana yurdumdur,
Nə qədər ki, minelli var bu yerdə.

***

Döyüş bitir Qızağ durur utancaq,
Hamı gəlir ərən Tura baş əyir.
Bulud enir qan izini silməyə,
Hamı gəlir ərən Tura baş əyir.

İki başçı, iki sevər üz-üzə,
Haray düşür, səs yayılır göy, düzə,
"Qoy kürəkən olsun böyük Tur bizə"
Hamı gəlir ərən Tura baş əyir.

Qoşar alır dınqırını dindirir,
Qan-qadanın alovunu söndürür,

Döyüşləri toy-düyünə döndərir,
Hamı gəlir böyük Tura baş əyir.

***

-Ay minelli, dirielli iyidlər,
Acıqanlar bura bir də gələcək,
Ayıq olun, əlbir olun, ər olun,
Acıqanlar bura bir də gələcək.

Sısqa olur acıqanı olmayan,
Ona qarşı gücə, öcə dolmayan,
Vurub, yıxıb yarağını almayan,
Acıqanlar bura bir də gələcək.

Biz Minelli minillərin sayıyıq,
Dədələrin yer üzündə payıyıq,
Qardaşlığın, toplaşlığın tayıyıq,
Acıqanlar bura bir də gələcək.

***

-Çatsın sənə, səsim, sözüm, qanadım,
Dirrik quşu qon çiynimə, yalaşaq.
Sənsən mənə uğur verən, güc verən,
Dirrik quşu qon çiynimə, yalaşaq.

Mən səndəyəm, sən məndəsən, varcığım,
Bu görkördə dağarcığım, darcığım,
Varlığıma od dolduran odçuğum,
Dirrik quşu qon çiynimə, yalaşaq.

Min il birgə yer üzündə yaşarıq,
Mahnı, söyləncə, qoşma, yallı qoşarıq,
Dağlar diklər, yallar, yollar aşarıq,
Dirrik quşu qon çiynimə, yalaşaq.

***

-Nə gözəldir başçım Turun Qızağı,
Oğlu olsun əl barmaqlar sayında.
Yeri-yurdu güdən oğul gərəkdir,
Oğlu olsun əl barmaqlar sayında,
Qızı olsun gül yarpaqlar sayında.

Gözəl Qızağ bu ellərin varıdır,
O ər ilə, qangül* ilə yarıdır,
Qızı ərlər, oğlu verən Tanrıdır,
Oğlu olsun əl barmaqlar sayında,
Qızı olsun gül yarpaqlar sayında.

Qızağ ərən, Qızağ sarı çiçəkdir,
O döyüşdə döyüşçüyə dirəkdir,
Qaharılmaz bir qoldur, o, biləkdir,
Oğlu olsun əl barmaqlar sayında,
Qızı olsun gül yarpaqlar sayında.

***

-Nə deyirsən, yollum Qoşar,
Qızağ baldır, dil göynədir.
Gözəllikdə tayı hanı,
Qızağ baldır, dil göynədir.

İncəlikdə yuxam olsun,
Doğsun, neçə çağam olsun,
Döyüşlərdə arxam olsun,
Qızağ baldır, dil göynədir.

***Lalə**

Yollar bizi yol elədi,
Ocaq çatdı kül elədi,
Mənim sevgim gül elədi,
Qızağ baldır, dil göynədir.
***
Görgör iki boyadandır,
Bir üzü ağ, biri qara.
Ölüm, olum, sevinclə yas,
Bir üzü ağ, biri qara.

Biri sağdır, biri soldur,
Sevinci az, yası boldur,
İkiyanlı uzun yoldur,
Bir üzü ağ, biri qara.

Uzaq dayan qarasından,
Ağrısından, yarasından,
Qal ikisi arasında,
Bir üzü ağ, biri qara.
***
Soraq verdi gözətçilər,
Neçə qaçqın dolub elə.
Pal-paltarı cırıq-cırıq,
Neçə qaçqın dolub elə.

Sürülərək soyulmuşlar;
Tapdalanıb döyülmüşlər,
Alçalaraq əyilmişlər,
Neçə qaçqın dolub elə.

Tur baxırdı yazıq-yazıq
Əli sınıq, qıçı sınıq,
Geyim didik, paltar cırıq,
Neçə qaçqın dolub elə.
***
-Ay başçılar, başbilənlər,
Köləlikdən biz qaçmışıq,
Ay Minelli, Dirielli,
Köləlikdən biz qaçmışıq.

Nə qamçılar, nə acılar,
Nə yaralar, nə sancılar,
Basıb kəsir o qancıllar,
Göləlikdən biz qaçmışıq.

Üzüb keçdik doqquz çayı,
Yollardayıq neçə ayı,
Qapınızdan qaytarmayın,
Köləlikdən biz qaçmışıq.

Qaçqın söyləncі

Soraqçılar soraq verdi: Qovurlar
Dəclə, Fərat qırağından elləri.
Kölə kimi yabançıya satırlar
Dəclə, Fərat qırağında elləri.

Başçıların qılıncı var əlində,
Qırır, çatır kim üz-üzə gələndə,
İki yerə parçalayır belindən
Dəclə, Fərat qırağında elləri.

Minellilər bu soraqdan odlanır,
Turla birgə yaraqlanır, atlanır,
Görən kimdir o acıqan yad sanır
Dəclə, Fərat qırağında elləri.

***

Gəlir qonur yəhər üstə yavaşca
Səhər tezdən deyir Tura Göyərçin:
Birdillidir sizlə onlar,-söyləyir,
Səhər tezdən deyir Tura Göyərçin.

Yardım elə, onlar yardım diləyir,
Qoy qırılsın köləliyin biləyi,
Gedin orda qanla qanı bələyin,
Səhər tezdən Tura deyir Göyərçin.

İti qılınc qız-gəlini doğrayır,
Qılınc yeri qan fışqırır, ağrıyır,
Haray səsi ürəkləri dağlayır,
Səhər tezdən Tura deyir Göyərçin.

***

Qızağ Turu yola salıb qayıtdı,
Yolda qaçqın, yolda köçkün, didərgin.
Onlar keçdi Suböləni, Duzgölü,
Yolda qaçqın, yolda köçkün, didərgin.

Qoşuldular Tura yüz-yüz, getdilər,
Gəldikləri yolu bir də ötdülər,
Yol göstərdi naxırçılar, kəndlilər,
Yolda qaçqın, yolda köçkün, didərgin.

Qayıdanlar yurd-yuvadan qovulub,
Ev-eşiyi yanıb göyə sovrulub,
Ölüm-itim, qan-qadadan yorulub,
Yolda qaçqın, yolda köçkün, didərgin.

***

Çayı keçib meşəlikdə durdular,
Tur minelli toplumuna söylədi:
Hamı yaraq tapmalıdır özünə,
Tur minelli toplumuna söylədi.

Gecə, güdün, səpələnin hər yana,
Qoymayın ki acıqanı oyana,
Yarağını alın, qatın al qana.
Tur minelli toplumuna söylədi.

İnnən belə istəyimiz yaraqdır,
Yaraqlımız ayıq quşdan oyaqdır,
Bizə düzlük, bir də Tanrı dayaqdır,
Tur minelli toplumuna söylədi.

***

Yaraqlılar yavaş-yavaş çoxaldı,
Soraq tutdu el-obalar bu işdən.
Çaylar, göllər, körfəz suyu boyunca
Soraq tutdu el-obalar bu işdən.

Gözəllərin ağlar qalıb gözləri,
Satırdılar hər gələnə qızları,
Acıqana beşi, onu yüzləri,
Soraq tutdu el-obalar bu işdən.

Tur toplumu yürüş edir körfəzə.
Kölələri acıqandan aldılar,
Körfəz boyu haray-həşir saldılar,
Soraq tutdu el-obalar bu işdən.

***

- Vurun, alın, qız-qadını götürün,
Tanrılıqdır qız-qadına əl tutmaq,
Bizim qızıl damarımız söyləyir,
Tanrılıqdır qız-qadına əl tutmaq.

Ay minelli, Dirielli. Birelli,
Tut oğrunun boğazından beş əlli,
Damarına güc yığ yüz il, min illik,
Tanrılıqdır qız-qadına əl tutmaq.

Acıqanı vurun, yerə yatırın,
Yaraqları, pal-paltarı götürün,
Nə götürsəz qaçqınlara yetirin,
Tanrılıqdır qız-gəlinə əl tutmaq.

***

Tur toplumu ara-sıra bərkiyib,
Qılınc vurmaq, qalxan tutmaq öyrənir.
Balta, bizuc, ox atmağın öz yeri,
Qılınc vurmaq, qalxan tutmaq öyrənir.

Acıqanın toplumu çox, gücü çox,
Köləliyin körfəz boyu köçü çox,
Minellinin istəyi çox, suçu çox,
Qılınc vurmaq, qalxan tutmaq öyrənir.

-Tur gəlməyib güzgü suya baxmağa,
Yaşıl-yaşıl hündürlüyə qalxmağa,
"Tez-tez ova, ovçuluğa çıxmağa,
Qılınc vurmaq, qalxan tutmaq öyrənir.

***

Balasqelə çatar-çatmaz, dedilər,
Tur toplumu yürüş edir körfəzə.
Dillisindən, ellisindən güc yığıb
Tur toplumu yürüş edir körfəzə.

Yayılıblar Qobuyerdən Qobuya.
Çevriliblər elə yurda, obaya,
Su yolunu üzümüzə qapayan
Tur toplumu gəmilərə doldular.

Qoşularsa bu topluma el bir az,
Bu önərə üstün gələn güc olmaz,
Sonra Turun dik burunu ovulmaz
Tur toplumu yürüş edir körfəzə.

***

Bu il yaman isti düşdü körfəzə,
Balasqlılar yayındılar döyüşdən.
Çiy yumurta qumda bişdi istidən,

Balasqlılar yayındılar döyüşdən.

Acıqanı qorxu alıb yahaltdı,
Döyüşlərdən qaçanını çoxaltdı,
Tur öc deyən harayını ucaltdı,
Balasqlılar yayındılar döyüşdən.

Tur onların kəsdi sudan yönünü,
Qoymadılar suya basa gönünü,
Döndərdilər qum çölünə yönünü,
Balasqlılar yayındılar döyüşdən.

***

Çıxan çıxdı, qalan batdı qumlara,
Tanrı bizə çox görməsin bunları.
Minelliydi acıqana güc gələn
Tanrı bizə çox görməsin bunları.

Qum dənizi sonev oldu onlara,
Son qoyuldu axıdılan qanlara,
Bu vuruşlar çatdı sona, sonlara
Tanrı bizə çox görməsin bunları.

Gecə düşdü qoyun-quzu bəyirdi
Quş dalğalar, oynaq sular səyirdi,
Pambıq bulud yağdı yağış əyirdi,
Tanrı bizə çox görməsin bunları.

***

Qoşar qapdı dınqırını, çalhaçal,
Ortalıqda ağlayan kim, gülən kim.
Sarmaşıqlı tapmacalar oxudu,
Ortalıqda ağlayan kim, gülən kim.

-Ay dilibir, könlü yuxa ellərim,
Qoşar açsın bu düyünlü sözləri.
Dınqırıyla gəlib çıxsın ortaya,
Qoşar açsın bu düyünlü sözləri.

-O nədir ki, göydən enər, fışıldar,
O nədir ki buna bənzər qıjıldar,
İkisinə bənzərlisi işıldar,
Qoşar açsın bu düyünlü sözləri.

-Ay dilibir, qılınc tutan iyidlər,
O qılıncdır enən çağı, fışıldar,
O birisi Dəclə, Fərat çayıdır
Axar-axar enişlərdə qıjıldar.
İkisinə oxşayanı günəşdir,
Qılınc kimi, çaylar kimi işıldar.

-O nədir ki, gözü, başı üzü yox,
Doğduqları köçər gedər ölümlə.
Doğub artıb yaşadıqca o ölmür,
Doğduqları köçüb gedər ölümlə.

-O yer üstə səpələnmiş elimdir,
Doğub, artar- yaşadıqca o ölməz,
Doğduqları ölər onun yolunda
Doğub artar yaşadıqca o ölməz.

-O nədir ki, başçılardan qabaqdır,
Ağzı gülər, gözü qaynar bulaqdır,
El-obanı sel aparsa od yaxsa
Ağzı gülər, gözü qaynar bulaqdır.

-O uşaqdır, başçılardan qabaqdır,
O ötkəmdir buyuruqdan uzaqdır,
Ana südü qayğısıyla yaşayır,
Ağzı gülər, gözü qaynar bulaqdır.

***

Səhər ellər al Günəşi hayladı,
Od qalayıb at kəsdilər Günəşə.
O qovmuşdu acıqanı bu yerdən,
Od qalayıb at kəsdilər Günəşə.

Səhər hamı başıaçıq, yarımlüt
Dodaqlarda həm yalvarış, həm öyüd,
"Ulu Günəş Yer üzünə sən böyük"
Od qalayıb at kəsdilər Günəşə.

Günəş qalxdı alovlandı, od oldu,
Günəşləndi hamı onla cüt oldu,
Yerdə varlıq ağac, çörək, ot oldu,
Od qalayıb at kəsdilər Günəşə.

Hamı çökdü yalvarışla diz üstə,
İsti quma baş söykədi üz üstə,
"Böyük Tanrı nə buyursan, göz üstə"
Od qalayıb at kəsdilər Günəşə.

***

Gah dənizdən, gah da dağdan çıxırsan,
Günəş, bizim bu ellərə hayan ol.
Biz səninik, biz səndəyik, sən olduq,
Günəş, bizim bu ellərə hayan ol.

Sən veribsən bu varlığı bizlərə,
Gözəlliyi bitərliyi düzlərə,
Yer seçməyi, düz görməyi gözlərə,
Günəş, bizim bu ellərə hayan ol.

İstin, boyan, işıqlığın qanımda,
Odlu qaynar baxışların alnımda
Biz köləyik harda olsaq, yanında,
Günəş, bizim bu ellərə hayan ol.

***

-Min il əvvəl Günəş qonub dənizə,
Qoşa dəniz coşub, qalxıb qaynayıb.
Buzlaqlarda buz əriyib su olub
Qoşa dəniz coşub, qalxıb, qaynayıb.

Deyirlər ki, Tanrı gəlib bu yerə,
Tanrı çimir on min ildən bir kərə,
İşıqlanıb Dəclə, Fərat, Mərmərə,
Qoşa dəniz coşub, qalxıb, qaynayıb.

Bir yol bizə gizli qonaq gəlib o,
Soyumuzu, günümüzü bilib o,
Yeri, suyu aramızda bölüb o,
Qoşa dəniz coşub, qalxıb, qaynayıb.

***

Qoşar, yatırt dınqırına sözləri,
Söz incisi gəlib bizə Tanrıdan.
İşıqlandır Tanrı kimi üzləri,

Söz incisi gəlib bizə Tanrıdan.

Oyanışa, inanışa yatan o,
Ürəklərə, beyinlərə batan o,
Tanrıların qapısına çatan o,
Söz incisi gəlib bizə Tanrıdan.

Söz yiyəsi Tanrılara yaxındır,
Söz çörəyim, suyum, ətim, yağımdır,
Bu gün coşub söz söyləmək çağımdır,
Söz incisi gəlib bizə Tanrıdan.

***

-Bir gözəli köləliyə qatdılar,
Qadan alım, məni apar, onu yox.
O bu elin güzgüsüdür, gözüdür
Qadan alım, məni apar, onu yox.

O kölədir, mən də onun köləsi,
Hanı eldə gözəllikdə beləsi,
Getsə bir də görən haçan gələsi,
Qadan alım, məni apar, onu yox.

O gözəldir, incə boyu-buxunu,
Alıb mənim dincliyimi, yuxumu,
Ala, verim bütün varım-yoxumu,
Qadan alım, məni apar, onu yox.

***

Qoşar ötür, dınqır-dınqır, çalhaçal
Tur oturub düşünürdü bayaqdan.
Ortalıqda ağlayan kim, gülən kimi,
Tur oturub düşünürdü bayaqdan.

"Gərək toplum yürüşlərə tuş olsun,
Acıqanı didib sökən diş olsun
El saxlayan, el qoruyan baş olsun,
Tur oturub düşünürdü bayaqdan.

Buzlaqlardan bura kimi yol on ay,
Orda qışdır bütün ili, burda yay,
Yığacağam bu ellərdən yüz alay,
Tur oturub düşünürdü bayaqdan".

***

Bu el işlək, ürəyidüz, inanan,
Buna başçı, başbilənlər gərəkdir.
Bunlar ilə yer üzünü tutarsan,
Buna başçı, başbilənlər gərəkdir.

Gərək gedib hündür yerdə oturaq,
Alay-alay döyüşçünü artıraq,
Kükrəmələr dalğasını yatıraq,
Buna başçı, başbilənlər gərəkdir.

Gərək böyük, kiçik yeri saxlana,
Elin başı bir başçıya bağlana,
Hamı ağır yürüşlərdə yoxlana,
Buna başçı, başbilənlər gərəkdir.

***

Toplum bizi köləlikdən qurtarar,
Qurtarmasa ellər mənə nə deyər.
Yüz minləri öz dalımca aparram,
Aparmasam ellər mənə nə deyər.

Yoxsa bizə son qoyacaq kölәlik,
Yurd olmasa biz qırılıb ölərik,
Mən başbilən olmalıyam hələlik,
Olammasam ellər mənə nə deyər.

Tanrı məni sınağa çək, düz elə,
Əlimi od, ürəyimi buz elə,
Qanlını bir, yollumuzu yüz elə
Eləməsəm ellər mənə nə deyər.

Bir səs gəldi, Tur o səsi eşitdi,
Oxuyurdu yaxınlıqda Göyərçin.
"Tanrı sənə öz yolunu göstərib",
Oxuyurdu yaxınlıqda Göyərçin.

Get Əkbitən olan döşdə Başev sal,
Əkənlərdən, biçənlərdən vergi al,
Bu elləri yaşat, işlət, yüz ucalt,
Oxuyurdu yaxınlıqda Göyərçin.

Sən düz olsan yer üzünü tutarsan,
Çox yurdları öz yurduna qatarsan,
Yalnız onda istəyinə çatarsan,
Oxuyurdu yaxınlıqda Göyərçin.

***

Uca dağın ətəkləri sıldırım,
Sıldırımlar, sürüşmələr qorxulu,
Dörd bir yanı dərin-dərin uçurum,
Sıldırımlar, sürüşmələr qorxulu.

Acıqanlar bura gəlib çıxammaz,
Eli boğub, yurd-yuvanı yıxammaz,
Ona durub yuxarıdan baxammaz,
Sıldırımlar, sürüşmələr qorxulu.

Uçurumlar ağ buludla doludur,
Lüt qayalar Günəş kimi uludur,
Şiş zirvələr ulduzların yoludur,
Sıldırımlar, sürüşmələr qorxulu.

***

Ellər Turu başa düşüb duydular,
Onlar döyüş ərəninə baş əydi.
Daş kəsdilər, uca evlər saldılar
Onlar döyüş ərəninə baş əydi.

Dörd bir yanda sıx-sıx taxıl əkdilər,
Bura qaynar bulaqları çəkdilər,
Neçə-neçə su saxlancı tikdilər,
Onlar döyüş ərəninə baş əydi.

Əkbitənin adı düşdü dillərə,
Gedib çatdı uzaq-uzaq ellərə,
Kətmən səsi düşdü yaşıl çöllərə
Onlar döyüş ərəninə baş əydi.

Əkbitən söyləncі

Tanrı bura işıq tökdü, var, gəlir,
Çox gözləri qamaşdırdı Əkbitən.

Uca durunc*, qonaq evi, körpü, yol,
Çox gözləri qamaşdırdı Əkbitən.

Var apardı bura sevinc gətirən,
Var götürdü arpa, buğda bitirən,
Nə çapqınçı, nə dağıdıb itirən,
Çox gözləri qamaşdırdı Əkbitən.

Tur burada Başev saldı, şah oldu,
O söykəndi Əlvət dağa, dağ oldu,
El qurtardı acıqandan, sağ oldu,
Çox gözləri qamaşdırdı Əkbitən.

***

Adam gəldi, Misireldən, Çineldən,
Aşdı, daşdı hər bir yerdə satallar.
Quş südü də soruşsaydın tapardın,
Aşdı, daşdı hər bir yerdə satallar.

**Qala*

Vergi Başev saxlancında bol idi,
Toplum şaha söykənc idi, bel idi,
Var axırdı, el içində sel idi.
Aşdı, daşdı hər bir yerdə satallar.

Alver üçün hamı gəlir bu yerə,
Ağsaqqallar sağol dedi Turərə,
Həm bilikli, həm sarsılmaz bir ərən,
Aşdı, daşdı hər bir yerdə satallar.

***

Qızağ gəldi, sağ, solunda uşaqlar,
Qarşıladı şah minelli gəlini.
Yollar, evlər, qız-gəlinlər sevincək,
Qarşıladı şah minelli gəlini.

Çoxdan idi ayrılmışdı Qızağdan,
Var, güc, yaraq göndərirdi uzaqdan,
Yol üstündə gözləyirdi bayaqdan,
Qarşıladı şah minelli gəlini.

Əkbitənin gün-günəşli günündə,
Var çatılmış yük atları önündə,
Minellinin ər geyimi əynində,
Qarşıladı şah minelli gəlini.

Sevinc, inam gətirmişdi bu gəlin
Əkbitənin Başevinə, elinə,
Tanrı özü göndərmişdi onları,
Əkbitənin Başevinə, elinə.

Ata, bala, ərlə arvad görüşdü,
Bu görüşə çoxu baxıb irişdi,
Qızağ güclü arxa idi, döyüşdü,
Əkbitənin Başevinə, elinə.

Sevinsə də çox başçılar, böyüklər,
Az deyildi vecsiz, yersiz dönüklər,
Az deyildi vecsiz, yersiz kötüklər,
Əkbitənin Başevinə, elinə.

***

Ucalsa da Turər şahın Başevi,
Ev-eşiyi dolandıran qadındır.
Güclü olsa, cılız olsa, yenə də
Ev-eşiyi dolandıran qadındır.

Şahda gözü olan qızlar çəkildi,
Çox ilişkən yer-yuvalar söküldü,
Burda yeni inam evi tikildi,
Ev-eşiyi dolandıran qadındır.

İki oğul, əkiz bala, boy, buxun,
Köpək dişi laxlamışdı çox çoxun,
Qızağ idi şahın bircə var-yoxu,
Ev-eşiyi dolandıran qadındır.

***

Oğulların gənc görkəmi gözəldi,
Düzər idi, Yüzər idi adları.
Əllərində tutaq*, bizuc, ox, qılınc,
Düzər idi, Yüzər idi adları.

Oğul verir Tanrı iyid ellərə,
Turər kimi adı düşür dillərə,
İki qardaş at qovurlar çöllərə,
Düzər idi, Yüzər idi adları.

İki qardaş ocaqevə çatırlar,
Böyük Tanrı işığına batırlar,
Yalvarışı inanışa qatırlar,
Düzər idi, Yüzər idi adları.

_____

* ***Sipər***

İNAM SÖYLƏNCİ

Soraqlaşdı Balasq, Misir, Çin, Asur,
Turər şahın torpaqları genişdir.
Qız verməyə, qız almağa çalışdı,
Turər şahın torpaqları genişdir.

Əkbitənin suyu, çölü, düzü var,
Acıqanın bu ölkədə gözü var,
"O bizimdir, bunun geci, tezi var",
Turər şahın torpaqları genişdir.

Misir şahı səsləyirdi yardıma,
Əltut gəlsin böyük Misir yurduna,
Çıxsın lapdan Balasqelin ardına,
Turər şahın torpaqları genişdir.

***

Yer üzünün yerdə, göydə yazısı,
Əli olan əl tutmuşdur əlsizə.
Burda hamı borc bilmişdir əltutu,
Əli olan əl tutmuşdur əlsizə.

Yıxılan ev, sınan budaq, şişən çay
Ürəklərə salır qorxu, səs, haray,
Yardım etsin gərək bunca köç, alay,
Əli olan əl tutmuşdur əlsizə.

İsti əlin arxasında ürəkdir,
Əlin özü elə ürək deməkdir,
Ürək ələ, əl ürəyə gərəkdir,
Əli olan əl tutmuşdur əlsizə.

***

Qızağ gecə çox yalvardı-yaxardı,
Şah dedi ki, getməliyəm yardıma.
-Bəlkə səni aldadırlar, yorurlar,
Şah dedi ki, getməliyəm yardıma.

-Acıqandı Balasq Asur, Misirlə,
Yaraqlanıb onlar tuncla, dəmirlə,
Çaşdırırlar bizi izlə, ləpirlə,
Şah dedi ki, getməliyəm yardıma.

-Mən gedəndə oturarsan yerimdə,
Geri durma işdə-gücdə ərindən,
Gəlsəm giley eşitməyim birindən,
Şah dedi ki, getməliyəm yardıma.

***

-Sən ölkənin qoruyarsan adını,
Qan çiçəyim, oturarsan yerimdə.
Mən qayıtsam, qayıtmasam, bunu bil,
Qan çiçəyim, oturarsan yerimdə.

-Təkcə günü sən gətirmə üstümə,
Su çilənər istəyimə, istimə,
Son qoyulmaz onda acı tüstümə,
Sən gedəndə oturaram yerində.

-Mən üstünlük çələngilə gələrəm,
Bircə səni öz sevgilim bilərəm,
Gələmməsəm, el yolunda ölərəm,
Qan çiçəyim, oturarsan yerimdə.

***

Yaraqlandı, yəhərləndi Turərşah,
Qızağ – deyə çox düşündü, daşındı.
Bir səs gəldi qulağına: "getmə, şah!"
Qızağ-deyə çox düşündü, daşındı.

Sonra çapdı, getdi körfəz yoluna,
O baş qoydu Qırğıatın yalına,
Ta baxmadı körfəzəcən dalına,
Qızağ-deyə çox düşündü, daşındı.

"Dağ çiçəyi, qoşa balam anası,
Dirielin qartal qanad sonası,
Cüt oğlumun sarı çiçək laylası,
Qızağ-deyib çox düşündü, daşındı".

***

Yüz min yürük arxasınca gedirdi,
Şah çapırdı arxasına baxmadan.
Qara bulud bürümüşdü Günəşi,
Şah çapırdı arxasına baxmadan.

«Gəmilərim boğazlardan ötüncə,

Yorulmayaq gərək Misrə yetincə,
Quru yollar qarış-qarış bitincə,»
Şah çapırdı arxasına baxmadan.

Öndə çapır gedir Misir elçisi,
Misir dili bilən qoca dilçisi,
Sağ yanında bələdçisi, çölçüsü,
Şah çapırdı arxasına baxmadan.

***

Şah gecəni oyaq qaldı, yatmadı,
Su boğazı xarıldayıb dururdu,
Çölçüsünü, dilçisini səslədi,
Su boğazı xarıldayıb dururdu.

Onlar dedi, soraq yoxdur döyüşdən,
Nə dənizdə, nə quruda, nə döşdə,
Bu nə işdir, baş açmırıq bu işdən,
Su boğazı xarıldayıb dururdu.

Bir hənirti yatır sanki bölgədə,
İkilik var suda, dağda, kölgədə,
Gərək bunca çıxmayaydım ölkədən,
Su boğazı xarıldayıb dururdu.

***

-Aldansaq da getməliyik bu yolla,
Ürək bizi aldatmayır, düz deyir.
Biz yardıma üz tutmuşuq, gedirik,
Ürək bizi aldatmayır, düz deyir.

Dirrik bizdən düz olmağı istəyir,
Tanrı qalxıb ucalmağı istəyir,
Ürək ondan güc almağı istəyir,
Ürək bizi aldatmayır, düz deyir.

Otuz minlə mən çəkilim bəriyə,
Yetmiş minlə siz qayıdın geriyə,
Birdən onlar ölkəmizə yeriyər,
Ürək bizi aldatmayır, düz deyir.

***

Gecə düşdü, toplum döndü geriyə,
Çölçü, dilçi sağollaşdı şah ilə.
Yetmiş min ər qaranlıqda əridi,
Çölçü, dilçi sağollaşdı şah ilə.

–Qızağ şaha gedin deyin olanı,
Şah buyurur seçsin düzü, yalanı,
Qayıdaram yığıb olan-qalanı,
Çölçü, dilçi sağollaşdı şah ilə.

Gedin deyin öz-özünə inansın,
Hamı, hər nə gərək yüz il sınansın,
Başbiləni pisdiklənsin, qınansın,
Çölçü, dilçi sağollaşdı şah ilə.

***

İlk döyüşü qarşıladı dənizdə,
Qanlı sular, yaşıl sular qol-boyun.
Aldatmışdı balasqlılar Mineli,
Qanlı sular, yaşıl sular qol-boyun.

Şah biçirdi sağı, solu, qabağı,
Dəyişirdi tez-tez qanlı yarağı,

Gəmi, qayıq, dəniz – ölü yatağı,
Qanlı sular, yaşıl sular qol-boyun.

Aldatmışdı şahı Balasq kralı,
Min ağaclar Əkbitəndən aralı,
Otuz min ər ölü, diri, yaralı,
Qanlı sular, yaşıl sular qol-boyun.

***

Balasqlılar gəzir, şahı tapmayır,
Onlar üçün şah Mindiyar deməkdir.
Şah seçilmir nə paltarda, nə üzdə,
Onlar üçün şah Mindiyar deməkdir.

Kölə düşüb basılanlar sınmayır,
Onlar Balasq dillərini qanmayır,
Şahı sevir onlar, şahdan dönməyir,
Onlar üçün şah Mindiyar deməkdir.

Deyən olmur Turər budur, ya odur,
Deyirlər ki, geri döndü, qaçdı Tur,
Kölə düşən bir-birinə əl tutur,
Onlar üçün şah Mindiyar deməkdir.

***

Kölə düşüb Turər əl-əl satılır,
O hər yerdə kimliyini gizlədir.
İnanmayır daha düzə, yalana,
O hər yerdə kimliyini gizlədir.

Bir bahalı kölə odur satışda,
Qılınc vuran, bizuc atan yarışda,
Verilməyir ona bircə quruş da,
O hər yerdə kimliyini gizlədir.

O öyrənir oxumağı, yazmağı,
Başbilənə yandan qulaq asmağı,
Döyüləndə, söyüləndə susmağı,
O hər yerdə kimliyini gizlədir.

***

Balasqeldə çoxlu böyük tanrı var,
Dəniz, Günəş, Sevgi, Sevinc tanrısı.
Gör-gör bütün tanrıların əlində.
Dəniz, Günəş, Sevgi, Sevinc tanrısı.

Hərəsinin çağırışı, öyüdü,
"Məni sevin, məni görün, böyüdün",
Bir tuturlar al içkiylə ağ südü,
Dəniz, Günəş, Sevgi, Sevinc tanrısı.

"Ay tanrılar, mənə dözüm veriniz,
Məndə gücü, bacarığı görünüz,
Gözlər məni mənsiz qalan yerimiz,
Dəniz, Günəş, Sevgi, Sevinc tanrısı.

***

Qoşar, Gücər, başçı, bilər* nə varsa,
Kölələkdə hamılığa paylanar.
Sızıldayan, ufuldayan deyimlər
Kölələkdə hamılığa paylanar.

***Alim*

Genişliyə uçar geniş duyğular,
Quru yerdə daşdan ağır yuxular,

Mahnılarda acı-acı sorğular
Köləlikdə hamılığa paylanar.

Kölə açar öz suçunu yolluya,
Hər an arzu köhlənini yallayar,
İplərini didər, qırar, tollayar,
Köləlikdə hamılığa paylanar.

***

- Ağ qolların Minel qızı
Göz önümdən çəkilməyir,
Göz yumuram, yaş tökürəm,
Göz önümdən çəkilməyir.

Necə oldu Düzər, Yüzər,
Söylə, nələr olub, nələr?
Doğma yerlər, doğma ellər
Göz önümdən çəkilməyir.

Çox uzandı bu kölələlik,
Sınma, yaşa, döz hələlik,
Bir beləlik, bir eləlik
Göz önümdən çəkilməyir.

***

Tur Başevdə döşəməni silirdi,
Bilərdən də çox-çox bilən gəzərdir.
Oturmuşdu ağsaqqallar, bilərlər,
Bilərdən də çox-çox bilən gəzərdir.

- Mindiyarda qonaq qaldım ayyarım,
Bu ölkənin gen torpağı, bol varı,
Adamları qaraşındır, ağ, sarı,
Bilərdən də çox-çox bilən gəzərdir.

İnanışda bizi min yol ötüblər,
Düşüncədə çox qabağa gediblər,
Yelçəkəndən yeləsənə artıblar,
Bilərdən də çox-çox bilən gəzərdir.

***

–Diriliyi od-ocaqda görürlər,
Onlar üçün dirrik ulu Günəşdir.
Deyirlər ki, çöldür, içdir hər adam,
Onlar üçün dirrik ulu Günəşdir.

Deyir hər kəs öz içindən çüyərir,
Çöl torpağa, iç günəşə köçəri,
İç qalandır, çöl ötəndir, ötəri,
Onlar üçün dirrik ulu Günəşdir.

Dirrik nədir? İçin, çölün birliyi,
Ölüm yeni başlanğıcı dirriyin,
Günəşdədir uçar için dincliyi,
Onlar üçün dirrik ulu Günəşdir.

***

-Odəri var, Şamanı var onların,
İnanışda ikisi də uludur.
Biri eldə, biri ocaq başında,
İnanışda ikisi də uludur.

Odər deyir, Mitra Tanrıbaşıdır,
Deyir, hər şey bir-birinə qarşıdır,
Ölüm, olum yerin yazı, qışıdır,

İnanışda ikisi də uludur.

Şaman deyir, göylərdədir qulağım,
Çağırıram yerə uçar, uçağı,
O, Tanrıdan verir mənə sorağı,
İnanışda ikisi də uludur.

***

Şaman deyir, göydən çatır söz bizə,
Olacağı o söyləyir düz bizə,
Acıqanıq, gərəkliyik biz bizə,
Odər, Şaman – ikisi də uludur.

Odər deyir, mən Tanrının səsiyəm,
İnanışın, doğruluğun özüyəm,
Göyün yerə, yerin göyə sözüyəm,
Odər, Şaman – ikisi də uludur.

Şaman deyir, "adam" sözü "atam"dır,
Atam ilkin yerə gəlib çatandır,
Yer-göy mənim ilk atamdan yarandı,
Odər, Şaman – ikisi də uludur.

***

-Mindiyarın tanrıları yeddidir,
Hər tanrının öz doğrulu*, öz yeri,
Yaranışda yeddi qatdır yaşayış,
Hər tanrının öz doğrulu, öz yeri.

Su, od, yer, göy, dağ, ot, inək tanrısı,
Yerdir böyük yaranışın yarısı,
Ahur-məzda tanrıların tanrısı,
Hər tanrının öz doğrulu, öz yeri.

Tanrıların arasında yarış var,
Tez-tez döyüş, vuruş, duruş, barış var,
Çovğun, şaxta, isti, külək, yağış var,
Hər tanrının öz doğrulu, öz yeri.

***

-Ahur-məzda deyir ancaq son sözü,
Tanrılara yol göstərən tək odur.
Yaxşılığın, doğruluğun tanrısı,
Tanrılara yol göstərən tək odur.

Yaman ilə son vuruşa o gedir,
Onun üstə yaxşılığı yeridir,
O, yamanı heydən salıb kiridir,
Tanrılara yol göstərən tək odur.

Bu döyüşdə yaman bir gün sönəcək,
Ölənlərsə yaranışa dönəcək,
Tanrılar da onda yerə enəcək,
Tanrılara yol göstərən tək odur.

**Həqiqət*

***

-Minellinin düşüncəsi belədir,

Adamlara inanışdır güc verən,
Mən orada gözəlliklər qavradım,
Adamlara inanışdır güc verən.

Mindiyarın qadın şahı Qızağdır,
Deyirlər ki, bu dul qadın qoçaqdır,
Hər sevinci, bər-bəzəyi yaraqdır,
Adamlara inanışdır güc verən.

İnanışı biz onlardan öyrənək,
Dolanışda özümüzə söykənək,
Yoxsa hər şey solub, sönər, tükənər,
Adamlara inanışdır güc verən.

***

Eşidirdi bu sözləri kölə Tur,
Yurd gözəldir, ancaq bir az uzaqdan.
Ana yurdum, sən hardasan, mən harda?
Yurd gözəldir, ancaq bir az uzaqdan.

Gözlərində göz yaşları sellənir,
Ürəyində doğma ocaq yellənir,
Şah burada kölə olub küllənir,
Yurd gözəldir, ancaq bir az uzaqdan.

Burda biri danışırdı Mineldən,
Biri Hinddən, o birisi Çineldən.
Bu torpaqdan, o ölkədən, bu dildən,
Yurd gözəldir, ancaq bir az uzaqdan.

***

Tarlalarda, saraylarda, yollarda
Tur işlədi kölə kimi, usandı,
Şahlar gördü, əmir, firon, krallar,
Tur işlədi kölə kimi, usandı.

Gözəlliyə uyub könül vermədi,
Qapılardan gözüqıpıq girmədi,
Özü kimi üzüyola görmədi,
Tur işlədi kölə kimi, usandı.

Əllərilə göyə qalxdı tikinti,
Təmizləndi uçuqlardan, töküntü,
Hamarlandı dağ, uçurum, çöküntü,
Tur işlədi kölə kimi, usandı.

***

İllər keçdi köləlikdə, dustaqda,
Əyrilərin içində də düz oldu.
Dörd yanında oğru, doğru, yabançı,
Əyrilərin içində də düz oldu.

Ehramlara, mehrablara daş qoydu,
O yerlərə üz söykədi, baş qoydu,
-Qol gücünü bir qoymadı, beş qoydu,
Əyrilərin içində də düz oldu.

Hər gün qalxdı Turun kölə dəyəri,
Gözə çarpdı bacarığı, təpəri,
Gah qandallı, gah da kölə-köçəri,
Əyrilərin içində də düz oldu.

***

Bir doğuda göyərçini hayladı,
Ağ göyərçin gəlib qondu çiyninə.
-Harda idin, mənim kölə uçarım,

Ağ göyərçin gəlib qondu çiyninə.

Kiçilmişdi, saralmışdı, solmuşdu,
Külək ipək tüklərini yolmuşdu,
Orda-burda deyən kölə olmuşdu,
Ağ göyərçin gəlib qondu çiyninə.

- Bəs hardaydın, ay istəklim, bu günlər?
Düşüb sənsiz günlərimə düyünlər.
Dara çəkdi məni düzlük, düzgünlər,
Ağ göyərçin gəlib qondu çiyninə.

***

-On il Qızağ səni deyib gözləyir,
Onlar səni daha ölmüş bilirlər.
On il keçib kölə düşmək ilindən,
Onlar səni daha ölmüş bilirlər.

Qalır Çölçü, Dilçi, Qoşar, Qırğıat,
Qara geydi üç il Qızağ, yurd, elat,
Çıx yollara, iplərini kəs, qır, at,
Onlar səni daha ölmüş bilirlər.

Qara günün inanmaqdan gələndir,
İnananlar boş-boşuna öləndir,
Çıx yollara, öz yolunu bəlləndir,
Onlar səni daha ölmüş bilirlər.

II QAPI

Qızağ söyləncisi

Yığışdılar Əkbitəndə Başevə,
"Deyən ölüb köləlikdə şahımız".
Yoxsa on il, on beş ilə gələrdi,
Deyən ölüb köləlikdə şahımız".

-Qızağ şahdır, keçsə belə yüz il də,
Şah anlaqlı olmalıdır hər üzdən,
Turər şaha tay tutulur o bizdə,
Deyən ölüb köləlikdə şahımız".

Göndərmişik görükçülər, görməyib,
Güdükçülər gedib soraq verməyib,
Deyən sağdır, köləlikdə ölməyib,
"Deyən ölüb köləlikdə şahımız".

***

Biri deyir, ölüb, batıb dənizdə,
Suda batmır, odda yanmır düz adam,
Biri deyir, sonevini görmüşəm,
Suda batmır, odda yanmır düz adam.

"Döyüşçüdür, yaraqlıdır", deyən var,
Ehramları tikən yerdə görən var,
Görüb onu ərən kimi öyən var,
Suda batmır, odda yanmır düz adam.

Gözləmişik, gözləyirik biz yenə,
Gələr çıxar bir gün Turər elinə,
Ancaq Qızağ yeydir onun yerinə

Suda batmır, odda yanmır düz adam.

***

Qızağ çıxdı Turər şahın yerinə,
Qara geydi paltarını büsbütün.
Yardım edən, ürək verən yox idi,
Qara geydi paltarını büsbütün.

O təkləndi, üz döndərdi hamıdan,
O qaytardı çox elçini qapıdan,
O yayındı qarqış, ovsun, qarğıdan,
Qara geydi paltarını büsbütün.

Qıdıqladı onu ellər elçisi,
Şah ərinin Başevinin Çölçüsu,
İtdi qadın şahlığının ölçüsü,
Qara geydi paltarını büsbütün.

***

Çıxdı Qızağ elçiləri yollara,
Gəzdi uzaq ölkələrdə Turəri,
Balasq, Misir, Qoşaboğaz, Asurel,
Gəzdi uzaq ölkələrdə Turəri.

On il keçdi Düzər yaşa dolunca,
Çıxdı yola atasının dalınca,
Vardan, yoxdan, pal-paltardan olunca.
Gəzdi uzaq ölkələrdə Turəri.

Yüzər getdi, Qaf dağına çaparaq,
El-obada tanış-tunuş-taparaq,
Hər ağızdan yeni soraq qaparaq,
Gəzdi uzaq ölkələrdə Turəri.

***

Uzaqlara səs yayıldı yerbəyer,
Əkbitəndə gözəl Qızağ şah olub.
Əlsizlərin, yersizlərin dayağı
Əkbitəndə gözəl Qızağ şah olub.

Söz götürür hamı bu ər qadından,
Göstərişi verir Turər adından,
Çıxarmayır onu bir an yadından,
Əkbitəndə gözəl Qızağ şah olub.

Təkcə Çölçü məhəl qoymur haraya,
Söz gəzdirir, söz tollayır araya,
Turdan soraq gəlib çıxır buraya,
Əkbitəndə gözəl Qızağ şah olub.

***

Çölçü, Balasq, Asur dili bilirdi.
Hər baxışı, hər öyüdü ikili.
O Turərdən danışırdı, deyirdi,
Hər baxışı, hər öyüdü ikili.

Adamları işləyirdi daldada,
Dili acı, acı sözü bal dadan,
Çoxlarını yönlü dillə aldadan,
Hər baxışı, hər öyüdü ikili.

Əkbitənin yüz-yüz geniş düzü var,
Onun təkcə gündoğanda gözü var,
Dili altda deyilməmiş sözü var,
Hər baxışı hər öyüdü ikili.

***

-Gözəl Qızağ, məni niyə duymadın,
Heç bir dildə dili yoxdur sevginin.
İstəyirsən ürəyini dilə tut,
Heç bir dildə dili yoxdur sevginin.

Sevgi məndə üzüntüdür, qıvrılır,
Gileylənib baxışlarda qovrulur,
Tüstülənib o təpəmdən sovrulur,
Heç bir dildə dili yoxdur sevginin.

Sevgi böyük dözümlərə sınaqdır,
O hərəyə dörd-beş illik qonaqdır,
O tək qalmış ürəklərə dayaqdır,
Heç bir dildə dili yoxdur sevginin.

***

Bu yanğılar ilk sevgidən qalıncdır,
Sevgi sonra dadlı olur sən demə.
Yanğın kimi gəlib alıb yandırır,
Sevgi sonra dadlı olur sən demə.

Dəli gənclik sevir, yanır dözmədən,
Hər sevincin öz gülünü üzmədən,
Dizin-dizin dörd yanını gəzmədən,
Sevgi sonra dadlı olur sən demə.

Harda qaldı gözü bağlı illərim,
Əsdi getdi başım üstən yelləri,
Kimə verdim qatı-boya gülləri,
Sevgi sonra dadlı olur sən demə.

***

-Mən kimimi tapıb elçi göndərim,
Baxıb mənə sevgi gülür bu yaşda.
Mən də gərək öz tayımı tapaydım,
Baxıb mənə sevgi gülür bu yaşda.

Mən şahlığın Başevində oyağam,
Doğmalıqda özgəlikdən uzağam.
Sevgi mənə, mən sevgiyə qonağam,
Baxıb mənə sevgi gülür bu yaşda.

Kimə deyim mən sevirəm Qızağı,
Sevə-sevə yaşayıram bayağı,
Yaşla dolu gözlərimin bulağı,
Baxıb mənə sevgi gülür bu yaşda.

***

Qoy sınasın şah bu gizli sevgimi,
Sevən gərək çıxa çox-çox sınaqdan.
Şahım, mənə ən dolambac iş buyur,
Sevən gərək çıxa çox-çox sınaqdan.

On ildir ki gözəl üzün sozarır,
Üzüntüdən gözün ağı qızarır,
Ey gözəlim, ey alnımın yazarı,
Sevən gərək çıxa çox-çox sınaqdan.

Göndər gedim hindelini alım mən,
Darvidelə yanğın, qırğın salım mən.
Mənə söz ver öz sevgimdə qalım mən
Sevən gərək çıxa çox-çox sınaqdan.

***

- Sevilsəm də mən Turərə bağlıyam,
Qadın ancaq sevgisinin şahıdır.
Mən Turərin sevgisilə gül açdım,
Qadın ancaq sevgisinin şahıdır.

Mən bilirəm sevməyirsən məni sən,
Sən qorxursan özgəsinə gedim mən.
Turər şahın kökü qopsun yerindən,
Qadın ancaq sevgisinin şahıdır.

Sən buyuran bir ötəri duyğudur,
Sevgi deyil, Turər şaha qayğıdır,
Sevgi ürək qatlarında uyğudur,
Qadın ancaq sevgisinin şahıdır.

***

- Sən ölkənin çöl işinə başçısan,
Sevgi işdə əl-ayağa dolaşar.
Mən heç kəsə ərə gedən deyiləm,
Sevgi işdə əl-ayağa dolaşar.

Bir də səndən eşitməyim bu sözü,
Könül verməm özgəsinə mən düzü,
Məni yaxşı tanıyırsan sən özün,
Sevgi işdə əl-ayağa dolaşar.

Qulağıma çox səs gəlir Mineldən,
Gəl bir olaq, bir səs çıxmaz tək əldən,
Gözləmişik, gözləyərik on il də,
Sevgi işdə əl-ayağa dolaşar.

***

-Öz ərinə, öz yerinə vurğunum,
Ər gözləmək gözəlliyi artırır.
Ola bilər özgəsində gözün var,
Ər gözləmək gözəlliyi artırır.

Həm Turərə, həm də sənə yanıram,
Böyük şahı hər gün, hər gün anıram,
Sevgi nədir, şahlıq nədir, qanıram,
Ər gözləmək gözəlliyi artırır.

Mən olmayım, ancaq özgə bir ər seç,
Ərsiz şahlıq illərini ərli keç,
Gözəlliyi gözəlliklə yaşat, ölç,
Ər gözləmək gözəlliyi artırır.

***

-Şahım, sizin buyuruğuz düz olar,
Şah istəyi dilə-dişə düşəndir,
Sevgi deyil, sənə bir ər gərəkdir,
Şah sevgisi dilə-dişə düşəndir.

Eləsi var orda-burda danışır,
Belələri hər bir işə qarışır,
Düzü qoyub yalan, yalan danışır,
Şah sevgisi dilə-dişə yapışır.

Tanrı verib sizə gözəl üz-gözü,
Tanrı saxla bu şahlıqda sən bizi,
Öz-özümə sığışmıram mən düzü,
Şah sevgisi dilə-dişə düşəndir.

Ərqaya söyləncı

Ərqaya da çox sevirdi Qızağı,
Dəli sevgi yetmə gəncə yaraşır.
O gənc idi, iyid idi, ucaboy,
Dəli sevgi yetmə gəncə yaraşır.

Sevgi baxmır, yaşa, boya-buxuna,
Buna görə tuşdur sevgi çoxuna,
Ayrılığı sevgi qoymaz yaxına,
Dəli sevgi yetmə gəncə yaraşır.

Bu sevgidən Çölçu soraq almışdı,
Eldə bunu dilə-dişə salmışdı,
Çoxlarına bu iş bəlli olmuşdu,
Dəli sevgi yetmə gəncə yaraşır.

***

Yetmə yaşda bir gənc idi Ərqaya,
Sevərliyi görünürdü üzündən,
Tez inanan, tez alışan, tez yanan,
Sevərliyi görünürdü üzündən.

Uşaq çağı o sevmişdi Qızağı,
Kəsilmirdi Dirieldən ayağı,
O baxırdı qıza uşaq sayağı,
Sevərliyi görünürdü üzündən.

Sevgisilə uşaq kimi küsüşər,
Başev yanda böyük-böyük gəzişər,
Böyük, kiçik yolu tez-tez kəsişər,
Sevərliyi görünürdü üzündən.

***

Tez alışan, tez inanan, tez küsən,
Bunlar idi ilk görümü sevginin.
O gəlmişdi Əkbitənə ayaqla,
Bunlar idi ilk görümü sevginin.

Onu görən vurulurdu boyuna,
Qalın çatma qaşlarının yayına,
Sağ ol, var ol söyləyirdi soyuna,
Bunlar idi ilk görümü sevginin.

Qılınc tutub ox atırdı at üstə,
Ərənlərlə güləşirdi ot üstə,
Dalaşırdı ölkə üstə, yurd üstə,
Bunlar idi ilk görümü sevginin.

***

Qızağ bunu eşitmişdi uzaqdan,
Göz yaşıdır əl çatmayan sevgilər.
Onu görmək istəyirdi yaxından,
Göz yaşıdır əl çatmayan sevgilər.

Ərqayaya yanırdı o, bəs niyə,
Nə deyəsən belə dəli sevgiyə,
O kimdir ki, şaha sevgi bəsləyə,
Göz yaşıdır əl çatmayan sevgilər.

Ərqayaya gizli-gizli baxan qız,
Ürəyindən soyuq qanlar axan qız,
Bu ər üçün ürəyini yaxan qız,
Göz yaşıdır əl çatmayan sevgilər.

***

Ərqayanın qapqaraydı saqqalı,
Yumruğunda dağ titrədən dağ gücü,
Baxışları ulduz-ulduz yanırdı,
Yumruğunda dağ titrədən dağ gücü.

Qaplan kimi sıçraq idi Ərqaya,
Ayıq idi, qıvraq idi Ərqaya,
Duru-duru bulaq idi Ərqaya,
Yumruğunda dağ titrədən dağ gücü.

Əkbitənə üç il idi gəlişi,
Yeri-yurdu titrədirdi yerişi,
Çoxalırdı hər gün tanış-bilişi,
Yumruğunda dağ titrədən dağ gücü.

***

Balasqelə toplum çəkdi Qızağ şah,
Yaraqlıya döndü bütün Mindiyar.
Körfəz üstə dayandılar üz-üzə,
Yaraqlıya döndü bütün Mindiyar.

Kral özü gəlmiş idi yürüşə,
Girdi şahla o təkbətək döyüşə,
Kral, Qızağ dayandılar döş-döşə,
Yaraqlıya döndü bütün Mindiyar.

-Yahalıbsan, çox Mindiyar deyirsən,
Aldadıbsan Turər şahı niyə sən?
Gərək qopa krallığın yerindən,
Yaraqlıya döndü bütün Mindiyar.

***

-Axtarırıq tapmayırıq ərini,
Aldatmaq da önərlikdir vuruşda.
Ölüsünü, dirisini görən yox,
Aldatmaq da önərlikdir vuruşda.

Mən aldatdım, basdım onu bu yerdə,
Bil sənin də çatıb sonun bu yerdə,
Axacaqdır, Qızağ, qanın bu yerdə,
Aldatmaqda önərlikdir vuruşda.

Ver ölkəni, mənim olsun Mindiyar,
Bu torpaqda bol-bol bitən hər nə var,
Yoxsa bütün toplumunu qırarlar,
Aldatmaq da önərlikdir vuruşda.

***

İlk topbuzu Qızağ vurdu krala,
Bir basılan ikinci yol basılmaz.
Boz atının döşü gəldi torpağa,
Bir basılan ikinci yol basılmaz.

Kral düşdü beli sınmış atından,
Bir səs gəldi sıraların ardından;
–İndi mənlə güləş, indi, ay qaban,
Bir basılan ikinci yol basılmaz.

Bir topbuzla aşdın, düşdün torpağa,
Güləş üçün qalx bir daha ayağa,
Sən kimsən ki, lağ edəsən Qızağa,
Bir basılan ikinci yol basılmaz.

***

-Mən Minelin bir dəlisov oğluyam,

Başrağımdır, ürəyimdir Qızağ şah.
Məni öldür, sonra şahla vuruş sən,
Başrağımdır, ürəyimdir Qızağ şah.

Hünərin var çıx sən üzə tutaşaq,
Yay götürək, ox tuşlayaq, atışaq,
Gücün varsa qurşaqlaşaq, dartışaq,
Başrağımdır, ürəyimdir Qızağ şah.

Ərqayayam, kral-mral saymaram,
Qanınızı töküb içsəm, doymaram,
Mən ölərəm, şahı darda qoymaram,
Başrağımdır, ürəyimdir Qızağ şah.

***

Bunu deyib o kraldan yapışdı,
Dəmir caynaq, qaplansayaq Ərqaya.
Kral onu yaraladı qılıncla,
Dəmir caynaq, qaplan sayaq Ərqaya.

Süpürləyib üzdü yerdən leşini,
Caynağıyla göydə yırtdı döşünü,
O bitirdi acıqanın işini,
Dəmir caynaq, qaplan sayaq Ərqaya.

Sonra çırpdı onu iri daşlara,
-Yem olarsan,-dedi,-burda quşlara!
Hər yumruğu topbuz oldu başlara,
Dəmir caynaq, qaplan sayaq Ərqaya.

***

O sıçradı sonra atın belinə,
Qan tökənin gərək qanı tökülə.
Balasqeli qorxu aldı bu başdan,
Qan tökənin gərək qanı tökülə.

İlk döyüşdə balasqlılar yoruldu,
Sıraları səpələndi, yarıldı,
Orda-burda beş-beş, on-on qırıldı,
Qan tökənin gərək qanı tökülə.

Çarpışdılar, qarpışdılar, coşdular,
Gəmilərin yelkənini açdılar,
Baş götürüb bu döyüşdən qaçdılar,
Qan tökənin gərək qanı tökülə.

***

Bunu görüb çox sevindi Qızağ şah,
Qorxmaz olsun bunca gərək hər ərən,
Balasqeldən öclə acıq çıxdılar,
Qorxmaz olsun bunca gərək hər ərən.

-Neçə gəmi,-dedi,-çıxsın dənizə,
Turər şahdan soraq bizə, iz bizə,
Bu on illik ayrılığa kim dözər,
Qorxmaz olsun gərək bunca hər ərən.

Ancaq Çölçü sevinmədi, tutuldu,
"Ölüm" dedi, çal qaşları çatıldı,
Yaya dönüb oxatan tək dartıldı,
Qorxmaz olsun bunca gərək hər ərən.

***

Dedi,-"Bunca baş aparsa Ərqaya,
O Başevin bir önəri olacaq.
Qızağ ona inanacaq, mənə yox,
O Başevin bir önəri olacaq.

Mindiyardan yeni Turər çıxarsa,
Toplumları hər bir yana axarsa,
Şah mənə yox, Ərqayaya baxarsa,
O Başevin bir önəri olacaq.

Onu gərək tez aradan götürüm,
Gənc önəri sonevinə ötürüm,
Bu Başevdə son işimi bitirim,
O Başevin bir önəri olacaq.

***

Bir səs yardı qaranlığın bağrını:
- Niyə vurdun məni, daldan, a qancıl!
Ah, mən kimə neynəmişdim burada,
Niyə vurdun məni daldan, a qancıl!

Öz oğluna əl qaldırdı bu gecə,
Mən yatmışdım sən yaraqlı gəlincə,
Səni gəzib tapacağam ölüncə,
Niyə vurdun məni, daldan, a qancıl!

Ah, ölürəm, gedin, deyin Qızağa,
Məni özü qoy basdırsın torpağa,
Tutun məni, bir də durum ayağa,
Niyə vurdun məni daldan, a qancıl!

***

Ürküb qaçan, durub baxan bir gecə,
Qaranlıqlar əriyirdi güneydə,
Gecə sınıb şişə kimi doğranıb,
Qaranlıqlar əriyirdi güneydə.

Ərqayanı kim vurmuşdu, kim bilir,
Dan ulduzu görünəndə o ölür,
Hər bir yandan kövrək səslər yüksəlir,
Qaranlıqlar əriyirdi güneydə.

Başı üstə Qızağ durub ağlayır,
Qorxunc ölüm ürəkləri dağlayır,
Şah başına o gün qara bağlayır,
Qaranlıqlar əriyirdi güneydə.

Köləbaşı söyləncі

Getdi, çatdı bu, Türərə,
Sözün yeldən qanadı var.
Qayıqçılar deyirdilər,
Sözün yeldən qanadı var.

-Çatdı mənə elədiyin,
Vuruş, barış söylədiyin,
Turər şahı dilədiyin,
Sözün yeldən qanadı var.

Baş əyirəm sənə, gülüm,
Beləymişsən, mən nə bilim,
Gözlə bir az mən də gəlim,
Sözün yeldən qanadı var.

***

-Ulu Tanrım, qurtar məni,
Çatdır uca qurtuluşa.
Köləliyin atım daşın,
Çatdır uca qurtuluşa.

Bu ipləri əlimdən ac.
Qıçımdan aç, qolumdan aç,
Düyünləri yolumdan aç,
Çatdır məni qurtuluşa.

Gül sevgilim, gözlər məni,
Çöllər məni, düzlər məni,
Yadına sal sözlə məni,
Çatdır uca qurtuluşa.

***

Avar çəkib su yarırdı,
Öz-özünə danışırdı.
Köləbaşı yorulmuşdu,
Öz-özünə danışırdı.

Turər ona tanıq idi,
İçəridən qırıq idi,
Alnı soldan çapıq idi,
Öz-özünə danışırdı.

Düşünürdü, tutum onu,
Vurub yerə qatım onu,
Min qızıla satım onu
Öz-özünə danışırdı.

***

-Tanrı məni düyündən aç,
Düyün düşər düyün üstən.
Bu şahlığa satar məni,
Düyün düşər düyün üstə.

Turər bunu anlamışdı,
Onu soldan yanlamışdı,
Öz-özünü danlamışdı,
Düyün düşər düyün üstə.

Haçan batıb gün soyuyar,
Əl saxlayıb o uyuyar,
Alıb onu atım suya,
Düyün düşər düyün üstə.

***

Avar çəkib gedirdilər,
Hərə bir cür düşünürdü.
Gün batırdı göy sularda,
Hərə bir cür düşünürdü.

Otuz kölə bir qayıqda,
Daldalıqda, qaranlıqda,
Var yatan da, var oyaq da,
Hərə bir cür düşünürdü.

O saqqalı sarı kölə,
Yatmayırdı bilə-bilə,
O tutmuşdu Turu dilə,
Hərə bir cür düşünürdü.

***

-Çaşmıramsa, sən Turərsən,
O şah hara, kölə hara?
Səni Balasqel axtarır,
O şah hara, kölə hara?

Öz-özünə danışanda
Bildim nələr var başında,
Kövrəkləşən bu yaşında,
O şah hara, kölə hara?

Söylə mənə bir ad yeri,
Gedim Qızağ şahı görüm,
Deyim sağdır sənin ərin
O şah hara, kölə hara?

***

İnanmadı Turər ona,
İnanc onu sarsıtmışdı.
Dedi, gedər, məni satar,
İnanc onu sarsıtmışdı.

Mən girərsəm bu oyuna,
Oyun ollam ona-buna,
Qan gətirrəm öz soyuma
İnanc onu sarsıtmışdı.

Qızağı da o aldadar,
Alver edər o daldada,
Həm satqındır, həm qan-qada,
İnanc onu sarsıtmışdı.

***

Dedi:-Qardaş, sən yat, dincəl,
Qaranlığın qulağı var.
Tezdən durub danışarıq,
Qaranlığın qulağı var.

Qoy sən deyən olsun elə,
Hər bir sözü vermə yelə,
Onlar bilər, bunlar bilər,
Qaranlığın qulağı var.

Bir gün gərək qoşa qaçaq,
Yeli çapıb qanad açaq,
Dönək quşa uça-uça,
Qaranlığın qulağı var.

***

Hamı yatdı, Tur yatmadı,
Köləliyin üzü qara.
Necə yatsın yaş qayıqda,
Köləliyin uzü qara.

Ayağında qandal daşı,
O yatırdı mışıl-mışıl,
Yuxudaydı köləbaşı,
Köləliyin üzü qara.

Tur yavaşca dartdı onu,
Alıb suya atdı onu,
Sonevinə qatdı onu,
Köləliyin üzü qara.

***

Nə gubbultu, nə qışqırıq,

Su gizlini saxlayandır.
Axar olsa, axmaz olsa,
Su gizlini saxlayandır.

Günəş örtük atmaqdaydı,
Köləbaşı yatmaqda idi,
Qayıq Misrə çatmaqdaydı,
Su gizlini saxlayandır.

Tanrım, əltut, gir araya,
Çatan kimi mən quruya,
Qaçmaq üçün yol arayaq,
Su gizlini saxlayandır.

Başev söyləncі

Başev hələ gözləyirdi Turəri,
Soyuq idi sözlər, gözlər, baxışlar.
Qızağ yenə utanırdı hamıdan,
Soyuq idi sözlər, gözlər, baxışlar.

Qoşar ona ürək-dirək verirdi,
Qadın şahın arxasında dururdu,
Üzlərdəki çəkimləri görürdü,
Soyuq idi sözlər, gözlər, baxışlar.

-Bacım, yerin amanatdı, dayan, dur,
Qanmayanı qandır, qatda, boyun vur,
Harda olsam, gələcəyəm-deyib Tur,
Soyuq idi, sözlər, gözlər, baxışlar.

***

Çölçü tez-tez yanlayırdı Qızağı,
-Sən şahlığa, şahlıq sənə yaraşır.
Çıx dünyaya, dünya səni tanısın,
Sən şahlığa, şahlıq sənə yaraşır.

Başçı gərək keçmişini anmasın,
İnam, sevgi, uşaq üçün yanmasın,
Soyuqlaşıb şaxtalaşıb donmasın,
Sən şahlığa, şahlıq sənə yaraşır.

Mənim bircə ürəyim var, dupduru,
Tanrım, məni bu şah üçün sən qoru,
Tanrı bizə qaytarsa da Turəri
Sən şahlığa, şahlıq sənə yaraşır.

***

-Şahım, bir söz söyləməyə izin ver,
Qulluğuna gəlmək istər elçilər.
Gündoğandan birellilər başçısı,
Qulluğuna gəlmək istər elçilər.

Demişəm ki, şahın əri itibdir.
Özgəsinin harayına gedibdir.
Şah gözləyir, neçə illər ötübdür,
Qulluğuna gəlmək istər elçilər.

Deyir, gəlim kölə olum ərkinə,
Qancılını qırıb çatım bir günə,
Sənin üçün ölən də var, bilginən,

Qulluğuna gəlmək istər elçilər.

***

-Daşqıranın ağsaqqalı gəlmişdi,
Yer istəyir düzən yerdə əkməyə,
Deyir, acdır adamlarım, yazıqdır,
Yer istəyir düzən yerdə əkməyə.

Deyir, yaxşı tanıyıram Qızağı,
Turdan yaxşı görür bu şah qabağı,
Baş qoyarıq hara dəysə ayağı,
Yer istəyir düzən yerdə əkməyə.

Kölə olluq, şah keçmişi unutsa,
Qurularıq yaraları qanatsa,
Baş əyərik acığını yan atsa,
Yer istəyir düzən yerdə əkməyə.

***

Ürəyindən çox istəklər keçsə də,
Özgə yerə, özgə mala əl atma.
Ovcundakı, alnındakı sənինsə,
Özgə yerə, özgə mala əl atma.

Əli uzun, dili gödək dolanar,
Kirpiyinə ağrı yükü qalanar,
Qoyma ağzın hər şey üçün sulana,
Özgə yerə, özgə mala əl atma.

Ay çox yerdə ölçü-biçi itirən,
Nə verəndə, nə görəndə götürən,
Özgəsinə qara günlər gətirən,
Özgə yerə, özgə mala əl atma.

***

- Üç yol elçi göndəriblər, qovmuşam,
Hindelində odu Tanrı bilənlər.
Dənizlərdə gəmiləri üzərdir,
Hindelində odu Tanrı bilənlər.

O ölkəni mən gəzmişəm, gəlmişəm,
İşdə-gücdə uca, ulu bilmişəm,
Yer-yurdları iri çaylar, göl, meşə,
Hindelində odu Tanrı bilənlər.

Dilimizə yad olsa da dilləri,
Bizə yaxşı arxa olub elləri,
Sürülərə gen qışlaqdır çölləri,
Hindelində odu Tanrı bilənlər.

***

-Könlü sınıq şah olsam da bilirəm,
Mənə deyil, onlar yerə göz tikib.
Bu, ölkəni tutmaq üçün girəvə,
Mənə deyil, onlar yerə göz tikib.

Mənim şahlıq buyuruğum Turdadır,
Tur özü də qanlı əldə dardadır,
"Hə" deməyə məndə təpər hardadır,
Mənə deyil, onlar yerə göz tikib.

Onlara de: bu elçilik çələdir,
Tək olsa da Qızağ çoxdan belədir,
Sevgisinə, ölkəsinə kölədir,
Mənə deyil, onlar yerə göz tikib.

***

-Aramıza kimsə belə söz qatır,
Dirielli, minellilər içində,
Gizli-gizli gəzib vurur aranı,
Dirielli minellilər içində.

Donquldanma tutub sanki hər yeri,
Hamı burda öz-özünü şah görür,
Qılıncçəkmə, ağacvurma baş verir
Dirielli minellilər içində.

Yavaş-yavaş bu şahlıqdan bezirəm,
Tura görə mən bunlara dözürəm,
Son yol üçün doğru bir yol gəzirəm,
Dirielli minellilər içində.

***

-Çindən söyləmc danışanlar deyirlər
Qırğın salıb yaşayırlar başçılar.
Aclıq ili, qıtlıq ili ölkədə,
Qırğın salıb yaşayırlar başçılar.

Bu elləri çəkmək üçün barışa
Gərək biz də qonşularla vuruşaq,
Başçı gərək hər bir işə qarışa,
Qırğın salıb yaşayırlar başçılar.

Onlar tez-tez girişirlər döyüşə,
Gərək biz də tez əl qataq bu işə,
Yoxsa ellər gəmirişər, yeyişər,
Qırğın salıb yaşayırlar başçılar.

***

"Çölçü deyən bu sözlərə inanıb".
Qızağ gizli çox düşündü, daşındı.
Onun öyüd, sayıq-soyuq sözləri...
Qızağ gizli çox düşündü, daşındı.

"Şah Başevdə oturmaqla çürüyər,
Üst-başını hörümçəklər bürüyər,
Şah susanda el-obalar kiriyər,
Qızağ gizli çox düşündü, daşındı.

Nəyə gərək bu sıtqamaq, inləmək,
Elə çıxmaq, ulu eli dinləmək,
Ellə birgə gecələmək, günləmək,
Qızağ gizli çox düşündü, daşındı.

***

Başev uca, yan-yevrəsi sal qaya,
Yellənirdi ocaqları Başevin.
Dam üstündə, yol üstündə gözətçi,
Yellənirdi ocaqları Başevin.

Körükçülər Alpandağa baxırdı,
Dal söygənci qayalığa qalxırdı,
Önü yaşıl yamaclara çıxırdı,
Yellənirdi ocaqları Başevin.

Hanı Turər, tikən yerdə sağ olsun,
Gəlsin çıxsın, mənə mərmər tağ olsun,
Buz bulaqlar axsın, bura bağ olsun,
Yellənirdi ocaqları Başevin.

Acıqanla vuruş söyləncisi

Qızağ getdi Turər şahın dalınca,
Yollar boyu Qırğıatın belində.
Ellər onu qarşıladı, oxşadı,
Yollar boyu Qırğıatın belində.

Dirielli, minellilər bir idi,
Qız-qadını işlək idi, ər idi,
Kişiləri coşqun idi, gur idi,
Yollar boyu Qırğıatın belində.

Yüz-yüz, min-min yığıb eli danışdı,
El toplandı bir-birinə qarışdı,
Cıdırlarda ərlər ilə çapışdı,
Yollar boyu Qırğıatın belində.

***

-Deyirlər ki, yola getmir el-oba,
Ellərimi yoxlamağa gəlmişəm.
Harda oldum el, obalar bir idi,
Ellərimi yoxlamağa gəlmişəm.

Utanıram baxım elin üzünə,
Düşməmişik hələ Şahın izinə,
El inanar mənim ana sözümə,
Ellərimi yoxlamağa gəlmişəm.

Bilirəm şah bir gün dönüb gələcək,
Gəlişilə el-obamız güləcək,
O ölməyib, gəlib eldə öləcək,
Ellərimi yoxlamağa gəlmişəm.

***

-Yaraqlılar ayıq olsun, eşitsin,
Yurdumuza göz tikibdir qonşular.
Yaraqları iti olsun, od olsun,
Yurdumuza göz tikibdir qonşular.

Gücümüzü üç artıran yaraqdır,
Yaraqlılar el-obaya dayaqdır,
Ölkə sayıq dayanıbdır, oyaqdır,
Yurdumuza göz tikibdir qonşular.

Mən anayam, yaraq düşmür əlimdən,
Yurd-yuvamın adı-sanı dilimdən,
Keçməliyik qada-bala selindən,
Yurdumuza göz tikibdir qonşular.

***

Qoşar çıxıb dınqır çaldı, oxudu,
Ocaqların alov dili titrədi.
Coşub, daşıb hamı ona qoşuldu,
Ocaqların alov dili titrədi.

-Baş əyirik şahımıza yüz kərə,
Qapdı onun sözlərindən od hərə,
Gəlişilə inam səpdi ellərə,
Ocaqların alov dili titrədi.

-Şahım, ellər sözlərinlə oyanıb,

At yəhərdə, yaraq əldə dayanıb,
Birliyimiz al Günəşə boyanıb
Ocaqların alovları titrədi.

***

-Bir az məndən qıraq durun, dinləyin,
Bir qoşaram at tükündən dınqırım.
Acıqanın toplumunu yaxaram,
Bir qoşaram, at tükündən dınqırım...

Tanrı mənim sözlərimə dad verib,
El-obaya uca-uca ad verib,
Gözlərimin ocağına od verib
Bir qoşaram at tükündən dınqırım.

Görgör məni çox çəkibdir sınağa,
Dönməmişəm mən gərəksiz alağa,
Böyüklərin ayağında dolağa
Bir qoşaram, at tükündən dınqırım.

***

- Harda getdi, Qızağ elə qarışdı,
Döndü dözüm, inam, düzlük andına,
Kimsəsizi, əliboşu hayladı,
Döndü dözüm, inam, düzlük andına.

Qırıq idi ürəyinin telləri,
Güclü odlu deyimləri, dilləri,
Baxışları, tərpənişi, əlləri,
Döndü dözüm, inam, düzlük andına.

Hər obada düşdü Qırğı atından,
At kəsdilər ayaqları altında,
Endi şahlıq zirvəsindən, qatından,
Döndü dözüm, inam, düzlük andına.

***

Çox keçmədi soraq gəldi Qızağa,
"Gündoğandan yürüşlənib acığan"
Dağlar başı ocaq-ocaq alışıb,
Gündoğandan yürüşlənib acıqan.

Qızağ ilkin yaraqlandı bu hayda,
Ölkə oldu toplum-toplum bir ayda,
Yaraqlandı qızlar neçə alayda,
Gündoğandan yürüşlənib acıqan.

***

Gündoğanda yürüş-vuruş başladı,
Nə Turər var, nə Düzər var, nə Yüzər.
Bulud aldı Əkbitənin üstünü,
Nə Turər var, nə Düzər var, nə Yüzər.

Qoşar geydi döyüş-vuruş geyimi,
Qılıncıyla yanaşıydı deyimi,
Qızağ ilə bir ürəyi, beyini,
Nə Turər var, nə Düzər var, nə Yüzər.

Qızağ gedir toplumuyla, eliylə,
Doğrayırdı acıqanı əliylə,
Danışırdı qılıncının diliylə,
Nə Turər var, nə Düzər var, nə Yüzər.

***

Acıqanlar dəvə, fil, at üstündə,
Hər vuruşda on-on yerə sərilir,
Əkbitəni tutmaq üçün büsbütün,
Hər vuruşda on-on yerə sərilir.

Qızağ topbuz, bizuc, qılınc endərir,
Acıqanı vurub geri döndərir,
Gündoğana barış hoyu göndərir,
Hər vuruşda on-on yerə sərilir.

-Mən qan-qada üzərindən keçərəm,
Acıqanı toplum-toplum biçərəm,
Qansızların al qanını içərəm,
Hər vuruşda on-on yerə sərilir,

***

Yurdumuzun bütövlüyü qorxuda,
Hoydu, qoçaq iyidlərim, irəli!
Qansızları vurun, geri oturdun,
Hoydu, qoçaq iyidlərim, irəli!

Təklənsək də bu yenilməz duruşda,
Yer vermərik əldən bircə qarış da,
Yarağınız iti olsun vuruşda,
Hoydu, qoçaq iyidlərim, irəli!

Mən Turərin ərlərindən biriyəm,
Onun vuran qılıncıyam, yeriyəm,
Bu döyüşdə ölsəm, onla diriyəm,
Hoydu qoçaq iyidlərim, irəli!

***

Beş ay döyüş dayanmadı, uzandı,
Şahın toplum dayaqları laxladı.
Minellilər irəliyə getsə də
Şahın toplum dayaqları laxladı.

Fillər gəldi, torpaq göyə sovruldu,
Günəş altda qan gölləri qovruldu,
Ay əridi, sarı sapa çevrildi,
Şahın toplum dayaqları laxladı.

Biri gəldi, üz örtüyü qapqara,
Əlatdılar qılınclara, oxlara,
Açdı şahın kürəyində bir yara,
Şahın toplum dayaqları laxladı.

***

İyid Qızağ Qırğıatdan aşanda,
Nərildədi şimşək kimi, şir kimi.
Qılınc alıb bir də durdu ayağa,
Nərildədi şimşək kimi, şir kimi.

-Kimsən, bayquş, məni vurdun arxadan,
Vurub qaçıb al qanımı axıdan,
Niyə dalda gizlənibsən qorxudan,
Nərildədi şimşək kimi, şir kimi.

Kim olsan da bu yerlərdə olubsan,
Mənim yalqız olduğumu bilibsən,
Kürəyimi daldan nişan alıbsan,
Nərildədi şimşək kimi, şir kimi.

***

-Mən yaxınam başçılara, şahlara,

Yoxdur hələ məni mən tək tanıyan.
Turəri də mən azdırdım körfəzdə,
Yoxdur hələ məni mən tək tanıyan.

Mən Turərin Başevinin Çölçüsü,
Hindelinin Əkbitəndə çərçisi.
Bu ölkədə o ölkənin elçisi.
Yoxdur hələ məni mən tək tanıyan.

Sən ölərsən, mən tutaram yerini,
Köləlikdən gətirərəm ərini,
Sağ qoymaram minellinin birini,
Yoxdur hələ mən tək məni tanıyan.

***

-Alçaq, sənsən, indi səni tanıdım,
Necə sənə inanırdım hər işdə.
İnanmağın acısını dadıram,
Necə sənə inanırdım hər işdə.

Mənim başım iç işlərə qarışıq,
İşim-gücüm el arası barışıq,
Bu vuruşu sən udmusan, sən artıq,
Necə sənə inanırdım hər işdə.

Tanrım, mənə son güc göndər, dirilim,
Qılınc kimi parıldayım gərilim,
Qoyma alçaq ayağına sərilim,
Necə sənə inanırdım hər işdə.

Qızağın ölüm söyləncі

Günbatandan bir səs qalxdı bu yerdə,
Üzübağlı bir atlıydı gəlirdi.
Sağı, solu o biçirdi qılıncla,
Üzübağlı bir atlıydı gəlirdi.

Nəriltisi ürəkləri yarırdı,
Bir topbuzla neçəsini qırırdı,
Yeri, göyü qorxunc qorxu sarırdı,
Üzübağlı bir atlıydı gəlirdi.

Yetişəndə o yaralı Qızağa,
Alıb çəkdi Qırğıatı qırağa,
Görüb onu Qızağ qalxdı ayağa,
Üzübağlı bir atlıydı gəlirdi.

***

-Səni deyib qayıtmışam, gəlmişəm,
Mənim iyid ər, vuruşqan arvadım.
Kim qılıncla vurub səni arxadan,
Mənim iyid ər, vuruşqan arvadım.

Mən inandım, aldadıldım, basıldım,
On il kölə günlərimə qısıldım,
İnam sözü qulağımdan asıldı,
Mənim iyid ər, vuruşqan arvadım.

Kim vurubdur sənə bu sərt yaranı,

Hansı qancıl tutmaq istər buranı,
Kim axıdıb Əkbitəndə bu qanı,
Mənim iyid ər, vuruşqan arvadım.

***

Çölçü qılınc qaldıraraq Turərə,
-Mənəm-dedi-Əkbitənin yiyəsi.
Mən vermişəm köləliyə səni də,
-Mənəm-dedi-Əkbitənin yiyəsi.

Turər ağır qılıncını qaldırıb
- Mənəm-dedi-Əkbitənin yiyəsi,
Sənin səsin mənə yaxşı tanışdır
- Mənəm-dedi-Əkbitənin yiyəsi.

On il uzaq köləlikdə qalmışam,
Qapılarda qara işçi olmuşam,
İndi dönüb öz yurduma gəlmişəm,
- Mənəm-dedi-Əkbitənin yiyəsi.

***

Çölçü qaçmaq istəyirdi döyüşdən,
Daddı iri qılıncını Turərin.
Bu görüşdən yaman qorxdu, qarıxdı,
Daddı iri qılıncını Turərin.

Göydə iki qanlı qılınc oynadı,
Öc baxışda, qan ürəkdə oynadı,
Acıqanın qorxaq gözü qanadı,
Daddı iri qılıncını Turərin.

İlk vuruşda sağ qolunu itirdi,
Qılıncını sol əlinə götürdü,
Turər vurdu onu yerə gətirdi,
Daddı iri qılıncını Turərin.

***

-Acıqanın nə gücü var, nə veci,
İrəli get, dirielli, minelli!
Dənizətək qovun qudurqanları,
İrəli get, dirielli, minelli!

Mən Turərəm, Qızağ mənim iç qatım,
Düzər, Yüzər mənim qoşa qanadım,
Səyirt düzdə Qırğıatı, yel atı,
İrəli get, dirielli, minelli.

İnanmayın bundan sonra onlara,
İnancdandır bizə dəyən bu yara,
Mənim üzüm el yanında qapqara,
İrəli get, dirielli, minelli.

Gündoğanı, günbatanı qan aldı,
Qırıldılar toplum-toplum çölçülər.
Fil üstündə, dəvə, öküz belində
Qırıldılar toplum-toplum çölçülər.

Yeləsəndən Düzər qalxıb yürüdü,
Yelçəkəni Yüzər çən tək bürüdü,
Tur bağırdı, dağlar-daşlar kiridi,
-Qırıldılar toplum-toplum çölçülər.

Yatdı dəri başraqları qanlara,
Parçalanıb dağıldılar yanlara,
Batman qılınc Turər çapdı onlara,

Qırıldılar toplum-toplum çölçülər.

***

Hindelinə çəkildilər, getdilər,
Sınıq-salxaq toplumları dağıldı.
Gedə-gedə yaraqları atdılar,
Sınıq-salxaq toplumları dağıldı.

Bir çoxları yalvar-yaxar qaldılar,
Qolu bağlı kölə-külə oldular,
Yeri qazıb qazmalara doldular,
Sınıq-salxaq toplumları dağıldı.

Gündoğandan yelçəkənə köçdülər,
Qumluqları "yerim-yuvam" bildilər,
Duzlu suyu dadlı-dadlı içdilər,
Sınıq-salxaq toplumları dağıldı.

***

Turər dönüb yerdən aldı Qızağı,
-Mənim gözəl, ər-vuruşqan sevgilim
Qollarının üzərinə götürdü,
-Mənim gözəl, ər-vuruşqan sevgilim.

Gözlərinlə yol çəkibsən yoluma,
Döş gəribsən sən ölümə, oluma,
Düzlüyünü yükləyibsən dalıma,
Mənim gözəl, ər-vuruşan sevgilim.

Əkbitənin süd anası, dağ qızı,
Süd-qaymaqdan dadlı olan ağ qızı,
Kişilərdən güclü, sağlam, sak qızı,
Mənim gözəl, ər-vuruşqan sevgilim.

***

-İyid ərim, əyil məni qoy yerə,
Belimdəki dərin yara sağalmaz.
Sən gəlibsən, mən gedirəm arxayın,
Belimdəki dərin yara sağalmaz.

Səni gördüm göz işığım çoxaldı,
Gündoğandan gələn toplum yoxaldı,
Ürəyimin yaraları sağaldı,
Belimdəki dərin yara sağalmaz.

Mən ölərsəm, yatırt məni yatağa,
Geydir məni daş-qaş ilə, yarağa,
Öz əlinlə tapşır ana torpağa,
Belimdəki dərin yara sağalmaz.

***

-Keçdi on il köləlikdə günlərim,
Şah sevgilim, ərin Turu bağışla.
Tək qoymuşam səni qurdlar içində.
Şah sevgilim, ərin Turu bağışla.

Qapılarda ev buyruğu, çöl işi,
Dağda-deşdə yıx, tik, daşı yay-qışı,
Neynəyərdi qıçıbağlı bir kişi,
Şah sevgilim, ərin Turu bağışla.

Uca-uca şahlıq evi, su yolu,
Asma bağlar becərmişəm qan dolu,
İşləmişəm sənin üçün var olum,

Şah sevgilim, ərin Turu bağışla.

***

-On il səni gözləmişəm, üzüağ,
Mən ölürəm el yolunda ağ üzlə.
İki oğul, bir ad qoyub gedirəm,
Mən ölürəm el yolunda üzüağ.

Minelliylə dirielli qovuşdu,
Daşqıranlar parçalanıb sovuşdu,
Dəli könlüm bircə sənə yovuşdu,
Mən ölürəm el yolunda üzüağ.

Düzər, Yüzər qardaşdılar, ayırma,
Yığdığımı qoru, göyə sovurma,
İki eli ayıran söz buyurma,
Mən ölürəm el yolunda üzüağ.

***

Bir il Turər yas içində yaşadı,
Yasa batdı ev-ev böyük Əkbitən.
Bir toy səsi, gülüş səsi olmadı,
Yasa batdı ev-ev böyük Əkbitən.

Sonevini görüş yeri etdilər,
Sevgililər and içməyə getdilər,
Düzər, Yüzər gül tək orda bitdilər,
Yasa batdı ev-ev böyük Əkbitən.

Qara geydi paltarını şah əri,
Evlənmədi oğulların heç biri,
Ocaqlaşdı Qızağ şahın son yeri,
Yasa batdı ev-ev böyük Əkbitən.

***

Ölüm nədir, ağrıların sonluğu,
Ayrılığın bir adı da ölümdür.
Ayrı salır doğmaları doğmadan.
Ayrılığın bir adı da ölümdür.

Duyar ölən sayıq olar qalandan,
Artıq qalan hər gün ölər yalandan,
Adam ölər son yerini alanda,
Ayrılığın bir adı da ölümdür.

Qapı açın düyün açan ölümə,
Pis deməyin pisdən qaçan ölümə,
Sağol deyib kimsə, haçan ölümə,
Ayrılığın bir adı da ölümdür.

Batıda vuruş söyləncisi

Günbatanda soraqlaşdı başçılar
Əkbitənin Turər şahı dul qalıb.
Onun ilə qanbir olmaq yaxşıdır,
Əkbitənin Turər şahı dul qalıb.

Qız köçürək, yer götürək o yurddan,
Artırmaqçın uşaq alaq o qurddan,
Aş bişirək ona qanlı yovurtdan,
Əkbitənin Turər şahı dul qalıb.

Balasq, Misir, Asur, İlam düşündü,
Çox ölkələr bundan qorxub daşındı,
Bu gəl-getdə yol ağardı, aşındı,
ƏkbitəninTurər şahı dul qalıb.

***

Gəl-gəl indi əyri otur, düz danış,
Hər inama, inanana inanma.
Varlıq inam üzərində qurulsa
Hər inama, inanana inanma.

Yalan düzü hər bir yerdə aldadır,
Düz acıdır, yalan isə bal dadır,
Yalan öndə, düz düzlükdən daldadır,
Hər inama, inanana inanma.

Düz arxayın, yalan isə duyuqdur,
Biri xoruz, biri isə toyuqdur,
Tanrıya da yalan düzdən yovuqdur,
Hər inama, inanana inanma.

***

Tanrım, məni özünə qat, odlanım,
Buyuruq ver, bircə sənə inanım.
Ocağını, günəşini azaltma,
Buyuruq ver, bircə sənə inanım.

Yanılmışam inamımla çox işdə,
Basılmışam yalançıya döyüşdə,
Tək qalmışam bu dolambac gedişdə,
Buyuruq ver, bircə sənə inanım.

Acıqanı gümült yerə, gəbərsin,
Silkə onu, damı-daşı dəbərsin,
Kölə düşsün, qalsın gücsüz, təpərsiz,
Buyuruq ver, bircə sənə inanım.

***

Turər yürüş etməkdəydi Balasqa,
Öc deməkdir qan-qadaya qayıdış.
Yaraqlanıb neçə toplum apardı,
Öc deməkdir qan-qadaya qayıdış.

Mindiyarda başbilənlər söyündü,
Turər deyib, dirielli öyündü,
Hamı qanlar bir ürəkdə döyündü,
Öc deməkdir qan-qadaya qayıdış.

Bu yürüşü gözləmirdi yatanlar,
Turu tutub köləliyə qatanlar,
Qarıxaraq yarağını atanlar
Öc deməkdir qan-qadaya qayıdış.

***

Şah söylədi önərinə onların,
–Biz vuruşaq, toplum qalsın qıraqda.
Acıqanın tunc geyimli önəri:
-Biz vuruşaq, toplum qalsın qıraqda.

Bizuc, topbuz, qılınc, balta döyüşdü,
Yastılanıb bir-birini dəyişdi,
Qurşaq tutub baş ərənlər deyişdi,

-Biz vuruşaq, toplum qalsın qıraqda.

Döyüşçülər göz qırpmadan baxdılar,
Bunlar ondan, onlar bundan qorxdular,
Güləşənlər bir-birini yıxdılar,
-Biz vuruşaq, toplum qalsın qıraqda.

***

Tur önəri başı üstə qaldırdı,
-Turər, məni bu döyüşdə öldürmə,
Yerə vurdu, döşü üstə oturdu,
-Turər, məni bu döyuşdə öldürmə.

-Başçı məni köləsinə döndərib,
Sınaq üçün bu vuruşa göndərib,
Kölə ollam öz qapında gündəlik,
Turər, məni bu döyüşdə öldürmə.

Toplumumu döndərərəm geriyə,
Bu ölkəni yaxar, çapar, kürüyər,
Son qoyarlar bu yerlərdə dirriyə,
Turər, məni bu döyüşdə öldürmə.

***

Filip dedi:-Kral mənə inanmır,
Ana birik, biz atadan ayrıyıq.
Mənə qarşı dəyişməyir inancı,
Ata birik, biz anadan ayrıyıq.

Verir məni vuruşlarda qabağa,
Təki ölüm, ya da düşüm yatağa,
Çox işlərdə məni qoyur qırağa,
Ata birik, biz anadan ayrıyıq.

Mən buradan çıxıb getmək istərəm,
Qanı soyuq qardaşları pislərəm,
Hamı bilir ona acıq bəslərəm,
Ata birik, biz anadan ayrıyıq.

***

Hamı dedi, şah basdığın öldürər,
Şah düşündü, öldürməyim, öldürüm?
Doğmasına kölə olub bu yazıq,
Şah düşündü, öldürməyim, öldürüm?

Başı üstə qılıncını saxladı,
Ürəyində küskün inam laxladı,
Bir də, bir də öz-özünü yoxladı,
Şah düşündü, öldürməyim, öldürüm.

Sonra durdu döşü üstən önərin,
Silkələdi öz yurdundan dönəri,
Qılıncına bir də baxdı ötəri,
Şah düşündü, öldürməyim, öldürüm.

***

Bunu görüb Balasqelli sarsıldı,
Acıqanın toplumları dağıldı.
Basılmışdı bu ölkənin önəri,
Acıqanın toplumları dağıldı.

Çoxu durdu öz yerində asılı,
Nə edəsən önərləri basılıb,
Bir çoxları Tura yaxın, qısılı,
Acıqanın toplumları dağıldı.

Öcə dönər bu sarsıntı uzansa.
Tanrı yazsın bu günləri yazansa,
Neynər toplum bir üstünlük qazansa,
Acıqanın toplumları dağıldı.

***

Üç ay çəkdi uzaq eldə bu döyüş,
Kölə Filip arxa idi Turərə.
Çox yerləri tanıyırdı yaxından,
Kölə Filip arxa idi Turərə.

Bu ölkədə qızıl saxlanc doluydu,
Üzük, sırğa, bər-bəzəklər uluydu,
Arxayınca yaşayanlar ölüydü,
Kölə Filip arxa idi Turərə.

Yol geriyə bağlanmışdı qar ilə,
Çapqınçılar yüklənmişdi var ilə,
Minellilər öyünürdü Tur ilə,
Kölə Filip arxa idi Turərə.

***

Ağsaqqallar, başbilənlər gəldilər,
Bizdən vergi, kölə, bağış al, ərən.
Bu ölkəni qırıb, çatıb dağıtma,
Bizdən vergi, kölə, bağış al ərən.

Balasq sınıb, döyüşlərdə əzilib,
Kral qaçıb qorxusundan üzülüb,
Gəl, dağıtma bu minillik özülü,
Bizdən vergi, kölə, bağış al, ərən.

Minellilər qan-qadadan keçəndir,
Keçmişilə gələcəyi ölçəndir,
Hər bir yolda doğru yolu seçəndir,
Bizdən vergi, kölə, bağış al, ərən.

***

Düzər, Yüzər Yürüş etdi, baxmadı,
Qılınc səsi yeri-göyü bürüdü.
Almaq üçün ata Turun öcünü
Qılınc səsi yeri-göyü bürüdü.

Onlar gəlib Elladaya çatdılar,
Yüzminləri at döşünə qatdılar,
Acıqanın Başevində otdular,
Qılınc səsi yeri-göyü bürüdü.

Başçı duruş gətirmədi savaşa,
Qaçdı getdi ordan Misrə birbaşa,
Düzər, Yüzər qol qoymadı barışa,
Qılınc səsi yeri-göyü burüdü.

***

Soraqçılar soraq verdi uzaqdan,
Daşqıranlar Dirieli qırırlar.
Turər dedi, siz vuruşun mən gedim,
Daşqıranlar Dirieli qırırlar.

Düzər bilib bunu, lapdan atılıb
Çapdı yel tək Daşqırana atını,
Arxasınca axdı toplum yardımı,
Daşqıranlar Dirieli qırırlar.

Turər baxdı öz oğluna, öyündü,
Qızağ qanı ürəyində döyündü,
Oğlu Düzər teztov idi, yeyindi,
Daşqıranlar Dirieli qırırlar.

***

Ağsaqqallar bir də girdi ortaya,
Danışdılar, barışdılar, durdular.
Tanrı bu yol mineliyə dayaqdı,
Danışdılar, barışdılar, durdular.

Yüzər qaldı toplumuyla burada,
Neçə dəniz, neçə ada arada,
Ayırdılar bir-bir ağı qaradan,
Danışdılar, barışdılar, durdular.

Yüzər sözü danışığı izlədi,
Öc almağı, bac verməyi düzlədi,
Hər bir şeydə ortaq ölçü gözlədi,
Danışdılar, barışdılar, durdular.

***

Bölüşdülər yeri, yurdu, dənizi,
Paylaşdılar saxlancların varını.
Qızıl, gümüş, bəzək-düzək, naxır at,
Paylaşdılar saxlancların varını.

Qarışsa da göz yaşları gülüşə,
Yüklənsə də tay-tay qızıl-gümüşə,
Bu barışla son qoyuldu yürüşə,
Paylaşdılar saxlancların varını.

Şah yurduna başı uca qayıtdı,
El-obanı, yeri-yurdu ayıltdı,
Yükü-varı çoxlarını bayıltdı,
Paylaşdılar saxlancların varını.

Diriel söyləncі

Bir gün qondu yəhərinə Göyərçin,
-Düzər səni ağır gündə gözləyir.
Dirielli qırıq-qırıq, didərgin,
Düzər səni ağır gündə gözləyir.

Mən gedirəm, ardımca gəl, yubanma,
Heç bir yerdə bir an belə dayanma,
Getür-qoya, xırdalığa qapanma,
Düzər səni ağır gündə gözləyir.

Döyüşlərdə üzyumuşaq olma sən,
Sızıltını ürəyinə salma sən,
Yolun düzdür, düz yolundan qalma sən,
Düzər ağır gündə səni gözləyir.

***

-Dirielli başsız qalıb, basılıb,
Çatdır məni o ellərə Qırğıat,
Bir cığırda, bir obada dayanma,
Çatdır məni o ellərə Qırğıat.

Çap dirriyə, yaxın elə uzağı,
Keç şaxtanı, dağıt buzu, sazağı,

Haradasan dirielli Qızağım,
Çatdır məni o ellərə Qırğıat.

Yetir məni ilk sevgimin yerinə,
Uç, qanadlan o dağların birinə,
Dönüm döşün köpüyünə, tərinə,
Çatdır məni o ellərə Qırğıat.

***

Turər çatdı Dirielə bir günə,
Yollar dolu yaralıdır, ölüdür.
Qol-qıç kəsik, baş-döş kəsik çoxunda,
Yollar dolu yaralıdır, ölüdür.

Yaxdı Turər bağırtısı dağ-daşı,
Onun ilə Qoşar durdu yanaşı,
Vuruşurdu Düzər, bir də elbaşı,
Yollar dolu yaralıydır, ölüdür.

Tura qazma qazılmışdı örtülü,
Bu qazmanın üst örtüyü yırtılıb,
Bir neçəsi düşüb, bura qatılıb
Yollar dolu yaralıydır, ölüdür.

***

Qulağına bir səs çatdı Turərin,
-Qazmaları, qurmaları atıl, keç.
Qırğıatın yalından öp, öy onu,
Qazmaları, qurmaları atıl, keç.

Daşqırbaşı gəlir hoy-hay dilində,
Qaya tobpuz o hərlədir əlində,
Bizuc ilə vur daşqırı belindən,
Qazmaları, qurmaları atıl, keç.

Böyük güc var Turər, sənin içində,
Qayaquşun hənirtisi biçimdə,
Çox ayıq ol bu yerləri keçəndə,
Qazmaları, qurmaları atıl, keç.

***

-Daşqırbaşı, Dirieli qırıbsan,
İndi mənim qılıncımı dadginən.
Üç yol səni bağışladım, buraxdım,
İndi mənim qılıncımı dadginən.

Bu elləri niyə qırıb, çatıbsan,
Minlərini qan gölünə qatıbsan,
Adamlığı ürəyindən atıbsan,
İndi mənim qılıncımı dadginən.

Bizuc ilə vurdu Turər daşqırı,
O yıxıldı, düşdü haray, qışqırıq,
Al, topbuzu baş dağıdır, döş qırır,
İndi mənim qılıncımı dadginən.

***

Daşqır aşdı ayaq altda süründü,
-Turər, məni bir də, bir də bağışla.
Bizuc dəyib belim dibdən qırılıb,
Turər məni bir də, bir də bağışla.

Şorultuyla qan ağzından töküldü,

İlan kimi qıvrılaraq büküldü,
Qan üzünün dərisindən çəkildi,
Turər, məni bir də, bir də bağışla.

Mən də səntək başbilənəm, önərəm,
Daha qanlı işlərimdən dönərəm,
Kölə ollam, ayağına enərəm,
Turər, məni bir də, bir də bağışla.

***

Daşqır öldü düz günorta çağında,
Turər, Düzər Daşqıranı dağıtdı.
Dirielli bu qırğından qurtardı,
Turər, Düzər Daşqıranı dağıtdı.

Yarağını atıb qaçdı çoxusu,
Batmanqılınc Turərdəndi qorxusu,
Səpələndi derd bir yana qurqusu,
Turər, Düzər Daşqıranı dağıtdı.

Dağlar qardı, yollar buzdu büsbütün,
Ağır oldu döyüş-vuruş iki gün,
Qan qusanlar nə diriydi, nə ölgün
Turər, Düzər Daşqıranı dağıtdı.

***

Nə görübdür qan içməkdən beləcə,
Yaranışdan acığını çıxanlar.
Yarımçıqdır, haradansa qırıqdır,
Yaranışdan acığını çıxanlar.

Düzü sevməz, əyri gözü götürməz,
Quru əli yazda çiçək bitirməz,
Görpü olub əli ələ yetirməz,
Yaranışdan acığını çıxanlar.

Gəlişiylə Tanrısına nə verdi,
Gəlib getdi, qandan başqa nə gördü,
Yeyib, içdi, köpüb şişdi, gəbərdi,
Yaranışdan acığını çıxanlar.

***

Könül, qışda, qarda çiçək açarsan,
Başqasına yardım əli uzatsan.
Ovcun içi yuva olar quşlara,
Başqasına yardım əli uzatsan.

Bu qırğında nə görübsən, a qancıl,
Öz içində tikan əkən yabançı,
Ürəyində nə qayğı var, nə sancı,
Başqasına yardım əli uzatsan.

Başın üstə Tanrını gör, düz yaşa,
Yaxşılıqla günlərini vur başa,
Sən görgörə, görgör sənə yaraşar
Başqasına yardım əli uzatsan.

***

Daşqırandan bir iz-ətər qalmadı,
Dirielli yenə qalxdı, dirildi.
Son uduqda Tanrı yardım kəsildi,
Dirielli yenə qalxdı, dirildi.

Haradasa əziləni görən var,
Acıqlılar arasına girən var.

Düzlük vardır, nə qədər ki ərən var,
Dirielli yenə qalxdı, dirildi.

Tanrım, bu el işığını bol elə,
Bu ili də sulu, qarlı il elə,
Lil çayları durult, böyük göl elə
Dirielli yenə qalxdı, dirildi.

Düzər söyləncі

Əkbitənin şah evləri yamacda,
Başbilənlər oturublar sırayla.
Qapılarda ipək, sarı asqılar*,
Başbilənlər oturublar sırayla.

Şah ortada, Düzər, Qoşar dalında,
Qızıl cıqqa parıldayır alnında,
Qurd dərisi yapıncıdır qolunda,
Başbilənlər oturublar sırayla.

Mindiyarın Tur şahının təpəri,
Döyüşlərin qolu güclü önəri,
Yurdun qızıl saxlancının dəyəri,
Başbilənlər oturublar sırayla.

***

-Qızağ bunca saxlayırdı ölkəni,
Göstərişi qayıtmazdı geriyə.
Nə deməydi doğru-doğrul olardı,
Göstərişi qayıtmazdı geriyə.

Qoşar idi iş görəni, güzgüsü,
Söz yapanı, düz deyəni, düzgüsü,
Yığılardı ildə bir yol vergisi,
Göstərişi qayıtmazdı geriyə.

İndi hamı o qadını düşünür,
Verdi qılınc qabağına döşünü,
Çölçü onun yelə verdi işini,
Göstərişi qayıtmazdı geriyə.

Pərdə

***

-Baş əyirəm mən Qızağın adına,
Tanrı bizdən aldı onu apardı,
On il Qızağ var elədi ölkəni,
Tanrı bizdən aldı onu apardı.

On il sizdən uzaq düşdüm, uzaqda,
Şah olmağı istəmişdim Qızağdan,
İndi onu düşünürəm bayaqdan,
Tanrı bizdən aldı onu apardı.

Qızağındır bu gün bu var, bu qazanc,
Qalaq-qalaq gətirilən bu saxlanc,
Bilsin bunu qoy balasqlı bu dilmanc,
Tanrı bizdən aldı onu apardı.

***

Tur danışdı Düzər, Yüzər, Filipdən,

Öydü ona arxa duran ərləri.
Basılanda böyük Balasq, Daşqıran,
Öydü ona arxa duran ərləri.

Acıqanı qan içində quyladı,
Qalanları qardaşlığa hayladı,
Hər iyidə, ərə yer-yurd payladı,
Öydü ona arxa duran ərləri.

Dedi, yurdun yüz min yedək atı var,
Üstünlüyün baldan üstün dadı var,
Əkbitənin uzaqlarda adı var,
Öydü ona arxa duran ərləri.

***

-Çindən Misrə, ordan Hində uzanıb
Bizim dilbir, qanbir dədə kökümüz.
Əkbitəndən əltut, yardım umurlar
Bizim dilbir, qanbir dədə kökümüz.

Əl uzadaq, yol göstərək, əl tutaq,
Günümüzü günlərinə biz qataq,
Umacaqlı günlərinə yol ataq,
Bizim dilbir, qanbir dədə kökümüz.

Qoy minelli, qoy birelli bir olsun,
Ağızbüzən içimizdən qovulsun,
Hər bir yerdə bircə doğrul qoyulsun,
Bizim dilbir, qanbir dədə kökümüz.

***

Düzər çıxdı Qobuyerə çaparla,
Babasını, nənəsini görməyə.
Ata onu bilə-bilə yolladı
Babasını, nənəsini görməyə.

Hərdən ata inanmırdı oğluna,
Oğlu şahtək durur onla yan-yana,
Odur təzə yol göstərdi, yol ona,
Babasını, nənəsini görməyə.

Düzər bulaq suyu kimi duruydu,
Bu işlərdə bir az kaldı, quruydu,
Üzü ata deyən yola sarıydı,
Babasını, nənəsini görməyə.

***

Qoşdu ata öz oğluna Qoşarı,
-Qoşa gedin, hər bir yerdə bir olun.
Çətin gündə Qoşar sənə arxadır,
Qoşa gedin, hər bir yerdə bir olun.

Bunu deyib ata könlü göynədi,
İç qatında bu hay nədi, küy nədi,
Sən də şah ol dadı, duzu gör nədi,
Qoşa gedin hər bir yerdə bir olun.

Ağrı çəkdi onu yola salınca,
Bərk sıxıldı bunca onsuz qalınca,
O gedəndə qaldı gözü dalınca,
Qoşa gedin, hər bir yerdə bir olun.

***

-Biz gedirik siz sağ qalın,
Gözü yolda qalan çoxdur.
Soraq, sevinc aparırıq

Gözü yolda qalan çoxdur.

Bir az sürtmə, bir az kirşan,
Kəklik otu, bal, süd, yovşan,
Çox ləngimə, yola qurşan,
Gözü yolda qalan çoxdur.

Düz yol, meşə, yaylaq, qışlaq,
İçdə ocaq, gözdə bulaq,
Gələk sizə toxdaq olaq,
Gözü yolda qalan çoxdur.

***

-Biz gedirik, ulu şahım,
El-obadan muğayat ol.
Acıqandan sapın, qorun,
El-obadan muğayat ol.

Yaxınını yoxla, sına,
Çıxart ellər arasına,
Getsən yurdun harasına,
El-obadan muğayat ol.

Ürək coşqun, dil yanıqlı,
Var çox yaltaq, çox qılıqlı
Səslən, bəslən, ay dınqırım
El-obadan muğayat ol.

***

Tur, Bax getdi, qayıtmadı geriyə,
Gözləyirdi ana itmiş Gücəri.
Beş yüz ilin arxasından boylanıb
Gözləyirdi ana itmiş Gücəri.

Oğlu Turu, qızı Baxı arayır,
Qobuyerə düşür ana harayı,
Yarasını göz yaşıyla sarıyıb
Gözləyirdi ana itmiş Gücəri.

Tur, Bax, Gücər deyir gündə min kərə,
Haray salır obalara, ellərə,
Səs yayılır yaxın, uzaq çöllərə,
Gözləyirdi ana itmiş Gücəri.

Ellər Turbax qoymuşdular adını,
Turbax deyib öyürdülər qadını,
Kəsilmişdi hərbir yerdən yardımı,
Gözləyirdi ana itmiş Gücəri.

***

-Böyük nənə, gözün aydın, gəlmişik,
Kor olmuşdu nənəsinin gözləri.
Qobuyerdə yüz-yüz ili gözləyib
Kor olmuşdu nənəsinin gözləri.

Düzər onun əllərindən öpürdü,
Ayağına qızıl, gümuş səpirdi,
Gözlərini gözlərinə təpirdi,
Kor olmuşdu nənəsinin gözləri.

Ata hanı, dədə hanı, yoxdular,
Tək getdilər işıqlığa çatdılar,
Tək qoydular məni oda yaxdılar,
Kor olmuşdu nənəsinin gözləri.

***

Dil, göz, qulaq tutulmuşdu büsbütün,
Yerin də yox dili, gözü, qulağı.
Turbax nənə yer olmuşdu, yer torpaq,
Yerin də yox dili, gözü, qulağı.

Əl çəkirdi nəvəsinin üzünə,
Əllərini aparırdı gözünə,
Dili yoxdu toxdaq versin özünə,
Yerin də yox dili, gözü, qulağı.

Addayırdı yavaş-yavaş min ili,
Ona elə gəlirdi ki, Tur gəlib.
Hamı onu addımlayan yer bilir,
Yerin də yox dili, gözü, qulağı.

***

Hər bir şeyin əzəl kökü anadır,
Yeri, yurdu, o yaradıb, o qurub.
Bəlkə elə Tanrı özü anadır
Yeri, yurdu o yaradıb, o qurub.

Ana gəldi ayağa dur, əl yetir,
Nə istəsə, nə söyləsə var, gətir,
Qucağında varlıq bitir, daş bitir,
Yeri, yurdu o yaradıb, o qurub.

O Tanrıdır, ya Tanrının kölgəsi,
O doğubdur yer üzündə hər kəsi,
O yaradıb minellilər ölkəsi,
Yeri, yurdu o yaradıb, o qurub.

***

-Bir Haray ver, Gücər baba hardasan,
Gücər olub doğmaların gilinci.
Səni gəzir oğlun, nəvən, arvadın,
Gücər olub doğmaların gilinci.

Harda qaldın, qurd dərisi geyənim,
Özgəsini doğmasınca öyənim.
Gedib qalıb özgə qızı bəyənib,
Gücər olub doğmaların gilinci,

Gəlir hər gün yuxulara ağ ayı,
Ağ, dolambac yuxuların yox sayı,
Yollar, yallar, dağ çökəklər səs yayır,
Gücər olub doğmaların gilinci.

***

Min yaşında öldü Qobu yerində
Yerə-yurda nənə Turbax dedilər.
Yer torpağa, torpaq yerə qovuşdu,
Yerə-yurda nənə Turbax dedilər.

Çaylar, göllər dalğa vurub daşanda,
Turər gəlib Qaf dağını aşanda,
Dınqır çalıb Qoşar qoşma qoşanda
Yerə-yurda nənə Turbax dedilər.

Turər baxdı, onu ölmüş bilmədi,
Çox çağırdı bir səs-soraq gəlmədi,
Turbax nənə torpaqlaşdı, ölmədi,
Yerə-yurda nənə Turbax dedilər.

***

-Ana, sənə borclu qaldım adımı,
Çıxa bilməz heç kəs ana borcundan.
Dirrik verdin, çörək verdin, su verdin,
Çıxa bilməz heç kəs ana borcundan.

Bu kimsəsiz son evinə baş qoyum,
Göz yaşımla başdaşını mən yuyum,
Sənə hansı borclarımı mən sayım,
Çıxa bilməz heç kəs ana borcundan.

Diz çökürəm, yalvarıram önündə,
Sən bağışla məni bu dar günündə,
Öz anana borcun vardır sənin də
Çıxa bilməz heç kəs ana borcundan.

***

Düzər çapdı göy atını birbaşa,
Böyük ata, yerini de, hardasan?
Doğmaları gözü yolda qoymusan.
Böyük ata, yerini de, hardasan?

Qobuyeri duman alıb, çən alıb,
Oğlun Turər Mindiyarda şah olub,
Sənsiz bulud ağlar qalıb, göy dolub,
Böyük ata, yerini de, hardasan?

Gecə-gündüz bu yolları çaparıq,
harda olsan səni gəzib taparıq,
Ulduzunu tutqun göydən qaparıq,
Böyük ata, yerini de, hardasan?

***

Söz soruşma, diskindirmə dağları,
Dağın-daşın qulağı yox, dili yox.
Göylər görüb eşitsə də harayı,
Dağın-daşın qulağı yox, dili yox.

Çayı dindir, gölü səslə, bulandır,
Çox inanma, inam özü yalandır,
İnanandan yalan acıq alandır,
Dağın-daşın qulağı yox, dili yox.

Çox görkülər gözlər səni qabaqda,
Su güzgülər, dağ düzgülər soraqlar,
Söz soruşma yoldan, çöldən, bulaqdan,
Dağın-daşın qulağı yox, dili yox.

***

Qoşa atlı dayanmadı,
Çox ellərdə, obalarda.
Soraqlaşdı, yol aradı,
Çox ellərdə, obalarda.

Daşqıranla, daşatanlar,
Mal otaran, döltutanlar,
At bəsləyən, ip çatanlar,
Çox ellərdə, obalarda.

Meşə qırıb, ev tikənlər,
Eldən elə yol çəkənlər,
Buğda, arpa göy əkənlər
Çox ellərdə, obalarda.

***

Hara getdi, minelliydi,
Dilibirlər, elibirlər.
Yaxınlaşıb söz soruşdu,
Dilibirlər, elibirlər.

Dedilər ki, min il qabaq,
Burdan keçib neçə qonaq,
Dəri geyim, tüklü papaq,
Dilibirlər; elibirlər.

O son qoydu savaşlara,
O əl tutdu qardaşlara,
Güc göstərdi dikbaşlara
Dilibirlər, elibirlər.

***

Minel çıxdı yolu üstə
Dilbir idi, üz-göz ayrı.
Qara, sarı, ağ, buğdayı,
Dilbir idi, üz-göz ayrı.

Danışığa gəlirdilər,
Əl tutaraq gülürdülər,
Buyur-buyur bilirdilər,
Dilbir idi, üz-göz ayrı.

Yatımlıydı qayğıları,
Qoşmaları, çalğıları,
Mahnısayaq ağıları,
Dilbir idi, üz-göz ayrı.

***

Kəkliyim ovlar məni,
Dağlara qovlar məni,
Gecələr al qoynuna,
Gündüz buxovla məni.

Ay doğdu, gör düyünü,
Doğduqca gördüyünü,
Könül sevdiyin istər,
Göz isə gördüyünü.

Qızıl iynənin sapı,
Görünür sizin qapı,
Səni məndən eyləyən
Dilənsin qapı-qapı.

***

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Tanrı səni saxlasın
Kölgəndə mən dolanım.

Yaralandım yanımdan
Quşlar doymaz canımdan,
Çək qılıncı, vur boynum,
Mən əl çəkdim canımdan.

Su gələr axmağılan,
Qayalar yıxmağılan,
Heç kəs istəyə yetməz
İraqdan baxmağıynan.

***

Bu dağlar, ulu dağlar,
Bulaqlı, sulu dağlar,
Burda kimsəsiz ölüb,
Göy kişnər, bulud ağlar.

Su gələr axar gedər.
Qayalar yıxar gedər,
Yaranış bir görümdür
Hər gələn baxar, gedər.

Saçın ucun hörməzlər,
Səni mənə verməzlər,
Əyil üzündən öpüm,
Qaranlıqdır görməzlər.

Bu dağda maral azdır,
Ovçu çox, maral azdır,
Ağlama, ala gözlüm,
Ölmərəm, yaram azdır.

Saqqala dən düşübdür,
Görən nədən düşübdür,
Hamıya oğlan düşüb,
Mənə dədən düşübdür.

***

Dədə Gücər itmiş idi,
Sonevini göstərdilər.
Durudaşda, Qobuçöldə,
Sonevini göstərdilər.

Yonqu daşdan neçə yonta*,
Yaraqları ağac, balta,
Asılqanda xurcun, çanta,
Sonevini göstərdilər.

Heykəl

Gücər burdan ayrılmışdı.
Buzlaq evi qırılmışdı,
Dəri asqı qıvrılmışdı,
Sonevini göstərdilər.

***

-Mən Gücərin nəvəsiyəm,
Bu yurd mənə sonev olsun.
Vuruşlarda ölsəm, qalsam
Bu yurd mənə sonev olsun.

Yürüş edək gündoğana,
Ağ ayıya, boz qabana,
Boyansam da qızıl qana
Bu yurd mənə sonev olsun.

Şaman, sən də əltut göstər,
Çıxaq lapdan qancıl üstə,
İyidləri çağır, səslə,
Bu yurd mənə sonev olsun.

***

O, ağacdan yaraq yapdı,
Bizə toplum, yaraq gərək,

Bıçaq, bizuc, toppuz, qalxan
Bizə toplum, yaraq gərək.

Yaraq ərdə üstünlükdür,
Onsuz uğur bir günlükdür,
Dinc oturmaq ölgünlükdür,
Bizə toplum, yaraq gərək.

At oynadın, qalxan tutun,
At belinə səkin, yatın,
Ox tuşlayıb, bizuc atın,
Bizə toplum, yaraq gərək.

***

Hər yonta bir önər idi,
Gücər onu öldürmüşdü.
Çindən gəlib yurd çapanı
-Gücər basıb öldürmüşdü.

Yonta-ayı, yonta-ilan,
Qoyulmuşdu o yan, bu yan,
Vuruşlarda doğru, yalan,
Gücər basıb öldürmüşdü.

Kim çapmışdı el varını,
Elin qızıl zumarını,
Yıxıb alıb çaparını
Gücər basıb öldürmüşdü.

***

Söz söylədi qoca Şaman,
Gücər bizdə önər idi-
Sağ əlində muraz çəlik,
-Gücər bizdə önər idi.

O qovurdu acıqanı,
Çox qancılı, çox xaqanı,
Qoruyurdu dörd bir yanı,
Gücər bizdə önər idi.

Tanrısına qovuşacaq,
Qancıllarla savaşacaq,
Saxla onu ulu ocaq,
Gücər bizdə önər idi.

***

Şaman dedi, Sarı xaqan
Bu diyarı çapdı getdi.
Çindən gələn çapqınçılar
Bu diyarı çapdı getdi.

Durudaşa vurulanlar,
Qan üstündə qurulanlar,
Adamlıqdan ayrılanlar
Bu diyarı çapdı getdi.

Dəniz yolu, quru yolu,
Gələn gəlib qancıl olub,
Qırıb çatıb sağı, solu,
Bu diyarı çapdı getdi.

***

-Biz Minelli, siz Minelli,
Diz çökdürək acıqanı.

Yaraqlanaq, toplumlanaq,
Diz çökdürək acıqanı.

İyidləri çağır gəlsin,
Öz yerini yurdun bilsin,
Ya qurtulsun, ya da ölsün,
Diz çökdürək acıqanı.

Mən Düzərəm, vuruşqanam,
Şimşək kimi alışqanam,
Döyüşlərdə soyuqqanam
Diz çökdürək acıqanı.

Sarı xaqan söyləncі

Sarı xaqan düşüncələr içində,
Yellənirdi al, göy, sarı yelpinclər,
İpək ilə örtülmüşdü hər yanı,
Yellənirdi al, göy, sarı yelpinclər.

Sarı xaqan qısa kirpik, qıyıq göz,
hər kirpikdən aslanmışdı neçə söz,
Göy sarıya çalmaqdaydı sarı üz,
Yellənirdi al, göy, sarı yelpinclər.

Ortalıqda incə qızlar gəzirdi,
Örtüklərə çini qablar düzürdü,
Neçəsi də oynayırdı, süzürdü,
Yellənirdi al, göy, sarı yelpinclər.

***

Təzə toplum göndərmişdi Qobuya,
Otlaqların, ilxıların yurdunda,
Ya otlaqlar, ya ilxılar alınsın
Otlaqların, ilxıların yurdunda.

Ancaq onun dağılmışdı toplumu,
Fillərinin uzun-uzun xortumu
Yağış idi iti oxun yağımı
Otlaqların, ilxıların yurdunda.

Düzər gəlib çıxmış idi haradan,
Sorağını alıb xaqan buradan,
O, toplumu çıxarıbdır sıradan,
Otlaqların ilxıların yurdunda.

***

Düşünürdü ələ alsın Düzəri,
Biclik özü iyidlikdir döyüşdə,
"Alıb onu gətirərəm Başevə,
Biclik özü iyidlikdir döyüşdə".

"Sonra onu oturdaram yerində,
Sonevini qazdıraram dərində,
Yox edərəm döyüşlərin birində,
Biclik özü iyidlikdir döyüşdə".

Ancaq xaqan nə əkmişdi, nə dərdi,
Bacar bildi gələn qoçaq Düzərdi.
Yüz atlıyla öz yerindən dəbərdi,
Biclik özü iyidlikdir döyüşdə.

***

Sarı xaqan soraq aldı
Minellilər yürüşdədir.
Yüz min toplum yaraq altda
Minellilər yürüşdədir.

Ərlər gəldi, Başev doldu,
Xaqan çıxdı düzə daldı,
Üç min toplum yola saldı,
Minellilər yürüşdədir.

Xançu qara bir qayadı,
Dağı-daşı qan boyadı,
Çoxu yerə üz dayadı,
Minellilər yürüşdədir.

***

Qorxu tökdü ürəklərə
Minellilər bu döyüşdə,
Bağırtılar, nəriltilər,
Minellilər bu döyüşdə.

Ox gözlərdən od qapırdı,
Qalxanlardan qor qopurdu,
Topbuz vurub at çapırdı
Minellilər bu döyüşdə.

Döş yırtırdı bizuc, bıçaq.
Qan tökürdü iti yaraq,
Tez-tov idi, iyid, qoçaq
Minellilər bu döyüşdə.

***

Gecə iykən Xançulular
Gözləmirdi bu yürüşü.
Durudaşlar diyarından
Gözləmirdi bu yürüşü.

Ağac bizuc, dəmir balta,
Düzər öndə, Qoşar dalda,
Qırılanlar bu dar yolda
Gözləmirdi bu yürüşü.

Sarı xaqan saraydaydı,
Hər gün yeni bir toydaydı,
Üç min əri dolaydaydı,
Gözləmirdi bu yürüşü.

***

Minbaşılar əl qaldırdı,
-Bizi qırma, böyük Düzər.
Kölə götür, tarlaya qat,
Bizi qırma, böyük Düzər.

Ölən ölüb, qalan belə,
Qolu bağlı, sınıq, kölə,
Alaybaşı gəldi dilə:
-Bizi qırma, böyük Düzər.

Heydən düşüb təntikdilər,
Çox yalvarıb dil tökdülər,
Döyüşməkdən əl çəkdilər,
Bizi qırma, böyük Düzər.

***

Üç min ərdən mini qaldı,
Qalanlarsa qolu bağlı.
Yaralısı, ölüvayı,
Qalanlar da qolu bağlı.

Yaraqları atmışdılar,
Üzüquylu yatmışdılar,
Qaşlarını dartmışdılar,
Qalanlar da qolu bağlı.

Düzər çox-çox beyin yordu,
Kölələri soyundurdu,
Min ərinə geyindirdi,
Qalanlar da qolu bağlı.

***

Gedək-dedi-biz Başevə,
Xançulular geyimində.
Deyək, qırdıq Minellini
Xançulular geyimində.

Sarı xaqan bizi öyər,
Sevinc səsi düşər göyə,
"Minelliyə" sağ ol deyər
Xançulular geyimində.

Yaraqları dəyişdirək,
Qılınc, qalxan döyüşdürək,
Xaqanları bəyişdirək
Xançulular geyimində.

***

Sarı xaqan soraq tutdu,
Minellilər əziliblər.
Dönüb uçuz kölələrə
Minellilər əziliblər.

Sevindilər bu gəlişə,
Yemək, içmək düşdü işə,
Xaqan tez-tez vurdu döşə,
Minellilər əziliblər.

Öydü özün vayzaqladı,
İçki içdi sayıqladı,
Sayı-soyu ayaqladı,
Minellilər əziliblər.

***

Gec bildilər, içlərinə
Gizli gələn Minellidir.
Çin geyimi, yarağında
Gizli gələn Minellidir.

Obalara yüz-yüz dolan,
Qıy çəkərək yerlər alan,
Ürəklərə qorxu salan
Gizli gələn Minellidir.

Sarı xaqan qaçıb getdi,
Gecə ikən gözdən itdi,
Bunun ilə döyüş bitdi,
Gizli gələn Minellidir.

***

Xaqan çıxdı, güc yığmağa,
Ölmək üçün güc gərəkmi.
Çox təpildi ora-bura,
Ölmək üçün güc gərəkmi.

Əl uzatdı kəndlilərə
Uyğur, Təbət, hindlilərə,
Arıqlara, ətlilərə,
Ölmək üçün güc gərəkmi.

O yalvardı yüzlərinə,
Baxmadılar sözlərinə,
Getdi Təbət düzlərinə,
Ölmək üçün güc gərəkmi.

Təbətlilər inandılar,
Yeni toplum yığıb gəldi.
Dağdan, düzdən adam tapdı,
Yeni toplum yığıb gəldi.

Tapdı orda arxasını,
Yüz-yüz könlü yuxasını,
Tez-tovunu, yorğasını,
Yeni toplum yığıb gəldi.

Təbətdəydi bütün yayı,
Boğmalayıb iki tayı,
Qarışdırıb soyu-sayı
Yeni toplum yığıb gəldi.

***

Düzər ondan ayıq idi,
Onu lapdan qarşıladı.
Toplumunu geri qovdu,
Onu lapdan qarşıladı.

Tərpənincə, dəbərincə,
Vurdu yıxdı gəbərincə,
Qılıncının kəsərinçə
Onu lapdan qarşıladı.

Qalmamışdı qaçan yeri,
Qaçıb bir də dönə geri,
Aldı önü çaydan bəri
Onu lapdan qarşıladı.

***

Paya, bizuc, dəmir qalxan,
Üç gün belə döyüşdülər.
Balta, qılınc, ox ipatma,
Üç gün belə döyüşdülər.

Yer şumlandı topuğacan,
Helləndilər kolluğaçan,
Yarğanacan,yarığacan,
Üç gün belə döyüşdülər.

Heydən düşdü Sarı xaqan,
Yerdə qaldı qılınc, qalxan.
Bəllənmədi üstün çıxan,
Üç gün belə döyüşdülər.

***

Sonra onlar güləşdilər,
Gündoğarda, dördüncü gün.
Yer, göy, bulud döndü gözə
Gündoğarda, dördüncü gün.

Düzər dözdü, qan-tər tökdü,
Sarı xaqan dizə çökdü,
Alıb onu yerə çəkdi
Gündoğarda dördüncü gün

Yana düşdü iki qolu,
Baxışları qanla dolu,
Yerə yatdı üzüquylu,
Gündoğarda, dördüncü gün.

***

Xaqan çox ər öldürmüşdü.
Düzər onu öldürmədi.
Dedi:-Çıx get, ta görünmə,
Düzər onu öldürmədi.

Dirrik olsun ağrın sənin,
Qana dönsün bağrın sənin,
Qanlı qancıl ağlın sənin,
Düzər onu öldürmədi.

Minellini yazıq bilmə,
Daha ona qarşı gəlmə,
Buraxıram, dur get, ölmə,
Düzər onu öldürmədi.

Xançu söyləncі

Xançu oldu Minellinin,
Baş əydilər çinellilər,
Düzər yurdu aldı ələ,
Baş əydilər çinellilər,

Döyüş-vuruş ara verdi,
El barışda bolluq gördü,
Ona Düzər, xaqan birdi,
Baş əydilər çinellilər.

Dirrik gəldi boz çöllüyə,
Yaşlar qalxdı on əlliyə,
Yer yiyəsi Minelliyə
Baş əydilər çinellilər.

***

Tanrı bizə yardım elə,
Biz tanıyaq özümüzü.
Qarışmışıq özgəliyə,
Biz tanıyaq özümüzü,

Söylə, nədir bu yar-yaraq,
Bu qan-qada, bu səs-soraq,
Özümüzdə özül quraq
Özümüzü tanıyaq biz.

Oçaq sönür, od irişir,
Göydən göndər göstərişi,
Arıtlanıb yüz dəyişib
Özümüzü tanıyaq biz.

***

Ulu ocaq, tüstülənmə,
Alovların oynaq olsun.
Göydə ulduz, ay sönsə də
Alovların oynaq olsun.

Ulu ocaq, saxla bizi,
Yanılanda yoxla bizi,
Yala, dağla, ağlat bizi,
Alovların oynaq olsun.

Ulu ocaq, tüstü, çəndir,
Yeri isit, günəşləndir,
Duman, bulud, sis nədəndir.
Alovların oynaq olsun.

***

Önər, başçı, başbilənin
Biri gəlir, biri gedir.
Gecə, gündüz oxşarında
Biri gəlir, biri gedir.

Dirrik ipdir, dartım, gərgin,
Biz o ipdə iki düyün,
Hərə qalır beş-altı gün
Biri gəlir, biri gedir.

Hara belə, görgör qoca,
Kim dirriyi qoyub qaçar,
Düyün salan, düyün açan,
Biri gəlir, biri gedir.

***

-Durum gedim görüşünə,
Atam məndən küsə bilər.
On ildir ki, ayrılmışıq,
Atam məndən küsə bilər.

Aylar ötüb, illər keçib,
Ayrılıqdan paltar biçib,
Yoxsa qoyub burdan köçüm,
Atam məndən küsə bilər.

Durna quşum, bulud sürüm,
Məndən ona soraq verin,
Atam Turər şahı görün,
Atam məndən küsə bilər.

***

Sarı xaqan bir də gəldi,
Xançu batdı qızıl qana,
Özü dalda gizlənmişdi,
Xançu batdı qızıl qana.

O çıxmasın üzə deyə
Güc vermişdi döyüşçüyə,

Basılmışdı, bir də niyə
Xançu batdı qızıl qana.

Altdan, üstdən qamış geyim,
Arxalığı tuncdan geyib,
Vurun-deyib,-qırın-deyib,
Xançu batdı qızıl qana.

***

Düzər qırıb ön sıranı
O xaqanı axtarırdı.
Yarıb keçib sıraları
O xaqanı axtarırdı.

Qılınc iti, topbuz ağır,
Dörd bir yanda çığır, bağır
Xaqan durub daldan baxır,
O xaqanı axtarırdı.

Ox yağırdı döşə-başa,
Səs düşmüşdü dağa-daşa,
Son qoymaqçın bu savaşa,
O xaqanı axtarırdı.

***

Birdən bir səs eşidildi,
-Qan içənə aman yoxdur.
Mən Gücərin sonbeşiyi,
-Qan içənə aman yoxdur.

Mən Bacaram, yüz-yüz yaşım,
Nələr çəkib burda başım,
Dağıdaram, dağı-daşı,
Qan içənə aman yoxdur.

Sarı xaqan, al çomağı,
Tök üstündən yar-yarağı,
Gəl güləşək ər sayağı,
Qan içənə aman yoxdur.

***

Sarı xaqan qılınc çəkdi,
Qılıncıyla aşdı, düşdü,
Çomaq dəydi sağ çiynindən
Qılıncıyla aşdı, düşdü.

Baş əzildi döşə girdi,
Üç çomaqla o gəbərdi,
Çomaq deyil, bu, dəmirdi,
Qılıncıyla aşdı, düşdü.

Getdi toplum sorağına,
Qatdı onu qabağına,
Kim tuş gəldi çomağına,
Qılıncıyla aşdı, düşdü.

***

Yenə üç gün döyüşdülər,
Minellilər, çinellilər.
Səpələndi sağa, sola,
Minellilər, çinellilər.

Düz, çöl qanla yuyulmuşdu,
Yaralılar bayılmışdı,
Hardan hara yayılmışdı
Minellilər, çinellilər.

Sıra-sıra qırılmışdı,
Qarın, döş-baş yarılmışdı.
Sarsılmışdı, yorulmuşdu
Minellilər, çinellilər.

***

-Biz vuruşmaq istəmirik,
Çinellilər, əl saxlayın,
Xaqan çıxsın qoy ortaya,
Çinellilər, əl saxlayın.

Min illərdir biz qonşuyuq,
Qonşuluqda biz yaxşıyıq,
Toy-düyündə yanaşıyıq,
Çinellilər, əl saxlayın.

Xaqan yüz il qana batıb
Çinellini qırıb çatıb,
Yaraqları yerə atın,
Çinellilər, əl saxlayın.

***

Çinellilər barış deyə
Yaraqları atdı yerə,
Bunu görüb hamı qaçdı,
Yaraqları atdı yerə.

Sağ qalanlar adamdılar,
Bir-birindən utandılar,
At yallayıb atdandılar,
Yaraqları atdı yerə.

Qaldı tək-tük mənəm deyən,
Öz-özünü yersiz öyən,
Ölümlərə, gülün, deyən
Yaraqları atdı yerə.

III QAPI

Qardaş söyləncі

Düzər Bacar görüşdülər,
Görüş, öpüş gözəllikdir.
Bir-birinə sarmaşdılar,
Görüş,öpüş gözəllikdir.

İkisi də uça, hündür,
Biri Gücər, biri Turər,
Ordan bura bir il yoldur,
Görüş, öpüş gözəllikdir.

-Mənə gəlsin qadan-bəlan
De, hardadır Gücər babam,
-Gedək səni gözlər atam,
Görüş, öpüş gözəllikdir.

***

Yol getdilər, at yortdular,
Gücər ata, gözlə bizi.
Mən Turərin ilk oğluyam,

Gücər ata, gözlə bizi.

Nənəm yenə yola baxır.
Yola salıb Turu, Baxı,
Danışdırır dağı-daşı,
Gücər ata, gözlə bizi.

Böyük, geniş Minel yurdu,
Yollar alıb məni yordu,
Mən Xançuya yiyə durdum,
Gücər ata, gözlə bizi.

***

Qucaqlaşdı sonevilə,
Tanrı bizə dözüm versin.
Öpüşdülər, ağladılar,
Tanrı bizə dözüm versin.

Bacar dedi:-İyid Düzər,
Orda nələr, burda nələr,
Nənən buna necə dözər,
Tanrı bizə dözüm versin,

Ata düşdü, yaşa doldu,
Qulaq batdı, göz tutuldu,
Başın üstün ölüm aldı,
Tanrı bizə dözüm versin.

***

- Şah olubdur böyük Turər,
Bu Mindiyar ölkəsində.
Neçə yüz el birləşdirib
Bu Mindiyar ölkəsində.

Sənin iki qardaşın var,
Adları da Coşar, Daşar.
Yaraqlıdır, ərdir onlar,
Bu Mindiyar ölkəsində.

Bir gün qonaq gələcəyəm,
Sizlə deyib güləcəyəm,
Ölsəm burda öləcəyəm
Bu Mindiyar ölkəsində.

***

Dirrik özü nə deməkdir,
Çalış, seviş, duruş, barış,
Min-minlərin istəyidir
Çalış, seviş, duruş, barış.

Eldə dinclik, düzlük yaxşı,
Barışın var min-min yaşı,
Durub gücə, qana qarşı,
Çalış, seviş, duruş, barış.

Adam dibdən əyri deyil,
Bir-birindən ayrı deyil,
Yox, tanrıdır, tanrı deyil,
Çalış, seviş, duruş, barış.

***

Çox yaşadı bir ölkədə
Çinellilər, Minellilər.
Qız verdilər, qız aldılar
Çinellilər, Minellilər.

Qardaşlaşdı uşaqları,
Yanar qaldı ocaqları,
Bölmədilər torpaqları,
Çinellilər, Minellilər.

Ta yox idi gözü qıpıq,
Öc saxlayan içi qırıq,
Nə alçalan, nə də yazıq,
Çinellilər, Minellilər.

***

Yaxşılara ötkəmlik ver
Ulu ocaq, ulu tanrı,
Yaxşıları yaxşı elə,
Ulu ocaq, ulu tanrı.

İstər ağ, ya sarı olsun,
Bircə səndən varı olsun,
Yaranışı duru olsun,
Ulu ocaq, ulu tanrı.

İsit, durult, çoxalt qanı,
Ərlik, dirrik, birlik hanı?
Ayılt bizi sonra tanı,
Ulu ocaq, ulu tanrı.

Qızbax söylənci

Tək başına çox yol getdi gözəl bax,
Qardaşından soraq verən olmadı.
Ondan, bundan çox soruşdu Turəri,
Qardaşından soraq verən olmadı.

Çox tuş gəldi çaya, gölə, dənizə
Çöldə, düzdə yırtıcıyla üz-üzə,
Qulaq asdı danışılan hər sözə,
Qardaşından soraq verən olmadı.

Çox tanışlar, çox yabancı görüşlər,
Yer üstündə, ər üstündə döyüşlər,
Günbatana doğru yollar, gedişlər,
Qardaşından soraq verən olmadı.

***

Bir meşənin qabağında ov çağı
Bir şah gördü, onu kölə götürdü.
O yorğundu, ac, ayağı yaralı,
Bir şah gördü, onu kölə götürdü.

Oturmuşdu bir çalada bükülü,
Qan üzündən, güc qıçından çəkilib,
Pal-paltarı cırıq-cırıq, sökülü,
Bir şah gördü, onu kölə götürdü.

Nə ağrılar gördü qardaş yolunda,
Qız qorxusu, ölüm yükü dalında,
Bir meşənin dağətəyi yanında
Bir şah gördü, onu kölə götürdü.

***

Qızbax vurdu yaxınlaşan kişini,
Adan şahın yaraqlısı yıxıldı.
Gözləmirdi ər gücünü bu qızdan,
Adan şahın yaraqlısı yıxıldı.

Bu kim ola şahın ovlaq yolunda,
O yapışıb bir böyürtkən kolundan,
Ər gücü var, aslan gücü qolunda,
Adan şahın yaraqlısı yıxıldı.

Həm güclüdür, həm gözəldir bu gözəl,
Ev işində gərək olar o bizə,
Alın onu, yoxsa qaçar dağ, düzə
Adan şahın yaraqlısı yıxıldı.

***

- Qız, başına nə iş gəlib, düz danış,
Qız-gəlinin bu yerlərdə nə işi.
Takımından ayrı düşən durnasan,
Qız-gəlinin bu yerlərdə nə işi.

Ala gözlər niyə, nədən ağlayır,
Kim azdırıb, ürəyini dağlayıb,
Kim qapını ağ üzünə bağlayıb
Qız-gəlinin bu yerlərdə nə işi.

Qal başevdə üzüyola qal, yaşa,
Baxma burda pal-paltara, daş-qaşa,
Sənə elə köləlik də yaraşar,
Qız-gəlinin bu yerlərdə nə işi.

***

-Şah sağ olsun, mən qovulmuş deyiləm,
Minellinin adlı-sanlı qızıyam.
Meşəlikdə yıxılsam da, qalsam da
Minellinin adlı-sanlı qızıyam.

Mən gəzirəm qardaşımın dalınca,
Burayacan,-son dözümüm qalınca,
Üstüm cırıq, ayaqlarım yalınca
Minellinin adlı-sanlı qızıyam.

Şah sağ olsun, məni yoldan götürüb,
Yaxın bilib Başevinə gətirib.
Qardaşımdan mənə soraq yetirin,
Minellinin adlı-sanlı qızıyam.

***

- Çox böyükdür minellilər ölkəsi,
Turər şahdır başbiləni ölkənin.
Vuruşunu, yürüşünü görmüşəm,
Turər şahdır başbiləni ölkənin.

Yürüşündə yaraqlısı olmuşam,
Toplumunda yaşa-başa dolmuşam.
O ölkədə on il kölə qalmışam,
Turər şahdır başbiləni ölkənin.

Kim olsan da bir kölәsən indi sən,
Hələ-hələ inanmaram sənə mən.
Gərək bunu bundan sonra biləsən,
Turər şahdır başbiləni ölkənin.

***

Ad qomuşdu ölkəsinə Adan şah,

Günbatanın balıqçılar ölkəsi,
Dəniz idi, dalğa idi üç yanı,
Günbatanın Balıqçılar ölkəsi.

Ağac evlər düz yerlərə səpili,
Minelliyə çox-çox yaxın var dili.
Qızbax kimi söz anlayır, dil bilir,
Günbatanın Balıqçılar ölkəsi.

Başev tutqun qarşıladı Qızbaxı,
Arvadların sudaşından qolbağı.
Kişilərin başlarında dolağı,
Günbatanın Balıqçılar ölkəsi.

***

Gözəl idi boz donunda kölə qız,
Adan şahın Qızbaxdaydı gözləri.
Bütün ölkə Adan şaha yanakı
Adan şahın Qızbaxdaydı gözləri.

Başev qıza darısqaldı, yabançı,
Hamı ona yan baxırdı, qıyqacı,
Arvadların baxışları yanakı,
Adan şahın Qızbaxdaydı gözləri.

Alın yolu dolambacdı, dolaşıq,
Onu burda gözdən salıb yaraşıq.
Dodağında, yanağında yapışıq,
Adan şahın Qızbaxdaydı gözləri.

***

Söz deyirdi kölə qıza Adan şah,
Ancaq Qızbax əlaltıydı, köləydi.
"Gözəl səni istəyirəm ürəkdən",
Ancaq Qızbax əlaltıydı, köləydi.

"- Üzündəki duz yandırır içimi,
Kim veribdir sənə bu düz biçimi.
Alıb mənim dözümümü, gücümü"
Ancaq Qızbax əlaltıydı, köləydi.

Kölə hara, şah sevgisi haraya,
Su səpirdi bu ikilik araya.
Duz dasırdı sevgi açan yaraya,
Ancaq Qızbax əlaltıydı, köləydi.

***

Hər gün qızı qorxudurdu, öyürdü,
Gözəlliyin nə qorxusu sevgidən.
Qızlar ona dil tökürdü Başevdə,
Gözəlliyin nə qorxusu sevgidən.

Şah sevirdi köləsini doğrudan,
Sevgi idi onu hər gün ağrıdan.
Çırpınırdı özü qoyan qurquda,
Gözəlliyin nə qorxusu sevgidən.

Başevdəki qız-gəlinlər uyğuda,
Başbilənlər, ağsaqqallar sorğuda
Hamı tir-tir titrəyirdi qorxudan,
Gözəlliyin nə qorxusu sevgidən.

***

Unutmuşdu ötkəmliyi, şahlığı,
O sevirdi ala gözlü Qızbaxı.
"Kölə qız tək kölə olum deyirdi",
O sevirdi ala gözlü Qızbaxı.

Şahın könlü incə-incə əsirdi,
Hər bir sözdən inciyirdi, küsürdü,
Günlər ilə, aylar ilə susurdu,
O sevirdi ala gözlü Qızbaxı.

Bir deyirdi, qızı vurub öldürüm,
Bir deyirdi, açım, könül bildirim,
Ya qaçırım, oğurladım, aldırım,
O sevirdi ala gözlü Qızbaxı.

***

Qızbax yaxın qoymayırdı Adanı,
Qız ürəyi çırpınırdı quş kimi.
Hər bir şeyi eşidirdi, görürdü,
Qız ürəyi çırpınırdı quş kimi.

Alçaltmalar, qorxutmalar, qarğılar,
Yolu üstə ölüm saçan qurqular,
Şahdan hər gün ona gələn sorğular
Qız ürəyi çırpınırdı quş kimi.

Nə edəydi alın yolu beləydi,
Necə onu pozub yuyub, siləydi,
Sevilməyə yeri yoxdu, köləydi,
Qız ürəyi çırpınırdı quş kimi.

***

Hər ağızdan eşidirdi kölə qız,
Bir gün onu öldürəcək şah özü.
Qoymayacaq bunca sevgi alçala,
Bir gün onu öldürəcək şah özü.

Qaçmaq yolu bağlanmışdı üzünə,
Baxmayırdı Başev onun sözünə,
Sevgi tikan gətirmişdi gözünə
Bir gün onu öldürəcək şah özü.

Şah sevgisi kölə qıza yaraşmaz,
Kimsəsizlər kimsə ilə barışmaz,
Tanrı baxar, bu sevgiyə qarışmaz,
Bir gün onu öldürəcək şah özü.

***

Yaranışın üzü qara, üzü ağ,
Tanrı özün bir yol göstər bu yerdə.
Hər gəlişin dönüşü var geriyə,
Tanrı, özün bir yol göstər bu yerdə.

Qış, yaz, erkək, dişi, sarı, ağ, qara,
Nə görürsən, tərs bölünüb adlara,
Yer üzündə kölə hara, şah hara,
Tanrı, özün bir yol göstər bu yerdə.

Tərsliklərı hərdən-birdən barışdır
Bulud gətir, yeri, göyü qarışdır,
Kimsəsizi kimsəliylə tapışdır,
Tanrı, özün bir yol göstər bu yerdə.

Adanla Qaranın döyüş söyləncі

Adan şaha dedilər ki, oturma,
Yurd alınır, yürüşdədir qonşu şah,
Toplumunu yaraqlandır, yola sal,
Yurd alınır, yürüşdədir qonşu şah.

Toplum gəlir, axınının yox sonu,
Kişnəyərək bağırmağı var onun,
Bağırtıdan yer titrəyir, qan donur,
Yurd alınır, yürüşdədir qonşu şah.

Göy ağlayır Adanşahın gününə,
Alıb geyib dəmir geyim əyninə,
Çıxdı özü acıqanın önünə,
Yurd alınır, yürüşdədir qonşu şah.

***

Üz-üzədir, iki toplum, iki şah,
Qılıncların parıltısı buludda.
Nəriltilər, bağırtılar, söyüşlər,
Qılıncların parıltısı buludda.

Qara şahın boşa getmir vurduğu,
Adan şahın sıra-sıra yardığı,
Döyüşlərin at yortaraq yorduğu,
Qılıncların parıltısı buludda.

Qara şahın qorxunc, domba gözləri,
Söyüşlərlə vurğulanan sözləri,
Yerə sərir on-on gələn yüzləri,
Qılıncların parıltısı buludda.

***

- Dayan qancıl, əliqanlı yırtıcı,
Ovuclayıb al qanından içərəm.
Sən ki, qandan soyğunluqdan doymadın,
Ovuclayıb al qanından içərəm.

Çox da haray-həşir salıb banlama,
Çox ağırdır son gününü anlamaq,
Sonun gəlib, onu-bunu yanlama,
Ovuclayıb al qanından içərəm.

Adan, boş-boş danışırsan, al, gəldi,
Güc bundadır, baxaq görək kim öldü,
Bu qılıncla ölümünü nə bildin,
Ovuclayıb al qanından içərəm.

***

Bir o vurdu, bir bu vurdu topbuzu,
Qalxanların döşü batdı döyüşdə.
Qılıncları oynatdılar, vurdular,
Qalxanların döşü batdı döyüşdə.

Dəmir geyim qopuq-qopuq töküldü,
Qayışlarda tunc yapmalar söküldü,
Oxlar döşdə ağac kimi əkildi,
Qalxanların döşü batdı döyüşdə.

Od qalayıb ocaq çatdı baxanlar,

Döyüşlərdən sağlam, bütöv çıxanlar,
Yumruq ilə Acıqanı yıxanlar,
Qalxanların döşü batdı döyüşdə.

***

Son topbuzla atı aşdı Adanın,
Yaraqlılar dağılışdı dörd yana.
Birdən biri atla girdi araya,
Yaraqlılar dağılışdı dörd yana.

-Qancıl Qara, mən Adanın oğluyam,
Sənin kimi qancıllardan dağlıyam,
Bu ölkəyə oğul kimi bağlıyam,
Yaraqlılar dağılışdı dörd yana.

Başda mənlə vuruşaydın sən gərək,
İndi mənim qabağımda dur, görək,
Doğrayaram səni bunca ay köpək,
Yaraqlılar dağılışdı dörd yana.

***

Bir qılıncla düşdü qolu Qaranın,
Üzü bağlı bu yaraqlı kim ola?
At altından sıçramışdı Qaranın
Üzü bağlı bu yaraqlı kim ola?

Bir də vurdu, sağ çiyni də qırıldı,
Bir də vurdu, baş ortadan yarıldı.
Yerə yatıb ilan kimi qıvrıldı,
Üzü bağlı bu yaraqlı kim ola?

Qaçanların arxasınca toz qopur,
Özgə yerə göz tikənin sonu bu,
Tanrım, qoyma qan tökülə, qanı yu,
Üzü bağlı bu yaraqlı kim ola?

***

-Üzü bağlı iyid kimsən, söylə bir,
Kaş ki mənim səntək oğlum olaydı.
Acıqanı üç qılıncla yox etdin,
Kaş ki mənim səntək oğlum olaydı.

Tanrı mənə bircə oğul vermədi,
Hər şey gördüm, ancaq oğul görmədim,
Yaxınlarım bu döyüşə girmədi,
Kaşki ənim səntək oğlum olaydı.

Üzünü aç, elin iyid qorxmazı,
Baş önərlik düşür sənə ən azı,
Sənin olsun, oğul, olar-olmazım,
Kaşki mənim səntək oğlum olaydı.

***

Açdı Adan bu iyidin üzünü,
Bu Qızbaxdır iyid kimi vuruşan.
Vurulmuşdu ona, bir də vuruldu
Bu Qızbaxdı iyid kimi vuruşan.

Yaraqlılar takım-takım gəldilər,
Onun Qızbax olduğunu bildilər.
Toy çaldılar, ağladılar, güldülər,
Bu Qızbaxdı, iyid kimi vuruşan.

Adan onu qucaqladı, aqladı,

Qız belinə qılıncını bağladı,
Qız adını öyüb uca saxladı,
Bu Qızbaxdı, iyid kimi vuruşan.

Sevgi söyləncі

Kölәlikdәn çıxartdılar Qızbaxı,
Belә qorxmaz, gözәl kölә olarmı.
Hamı bayram tutdu bunu, sevindi,
Belә qorxmaz, gözәl kölә olarmı.

Şah Qızbaxa yaxın durdu bir az da,
Uca-uca sevgi tapdı bu qızda,
Nәlәr vardı şah götürәn murazda,
Belә qorxmaz, gözәl kölә olarmı.

"Alınyazın dolambacdır, ay yazıq,
Doğma ata, qardaşından yapyanıq,
Sәni bizә yetiribdir ayrılıq,
Belә qorxmaz, gözәl kölә olarmı".

***

Aylar ilә şah tutulu dolandı,
Yersiz sevgi iki bükәr şahı da,
Sevgisinә qismar oldu şahlıqı,
Yersiz sevgi iki bükәr şahı da.

Arvad-uşaq danlağı da bu yandan,
Şah sarsıldı bu yola üz qoyandan,
Qızbax hara, şahlıq adı hayanda,
Yersiz sevgi iki bükәr şahı da.

Ağsaqqallar çox düşündü, daşındı,
Yozmaçılar çәtin işә qurşandı,
Şah arvadı şaha qarşı tuşlandı,
Yersiz sevgi iki bükәr şahı da.

***

O il daşdı boğazacan Nil çayı,
Quraqlıqdan sonra yağış, sel olar,
Çox kәndlәri öz altına aldı sel,
Quraqlıqdan sonra yağış, sel olar.

Sel ağzına aldı böyük şәhәri,-
O dağıtdı evi, damı, çәpәri,
El gözündә düşdü şahın dәyәri,
Quraqlıqdan sonra yağış, sel olar.

Yağış dayan, selin köpü alınsın,
Bulud çәkil, günәş çaya calansın,
Qızlar gәlsin, çay başına dolansın,
Quraqlıqdan sonra yağış, sel olar.

***

Ağsaqqallar yığıldılar, dedilәr,
Çay daşanda yeni kәsi* istәyir.
Ән gözәl qız, ән güclü qız seçilsin,

Çay daşanda yeni kəsi istəyir.

Biri dedi, gözəl qadın nə gərək,
Bəri başdan gedək çaya at kəsək,
Belə etsək, çay köpünü kəsəcək,
Çay daşanda yeni kəsi istəyir.

At kəsildi, ancaq sel-su yatmadı,
Bu, tanrının qulağına çatmadı,
Yalvarışlar buludlara batmadı,
Çay daşanda yeni kəsi istəyir.

***

Gəlib yenə ağsaqqallar dedilər,
Sel-su tutur, əlibərki, qısmırı,
Sel ölkədən gözəl bir qız istəyir,
Sel-su tutur əlibərki, qısmırı.

Bu ölkədə ən gözəl qız Nilindir,
Ən gözəl qız bu sel-suya gəlindir,
Mən bilirəm ən gözəl qız kimindir,
Sel-su tutur əlibərki, qısmırı.

-Ən gözəli, ən qorxmazı Qızbaxdır,
Yox, o bizə bir ildir ki, qonaqdır,
-Qonaq deyil, bu ölkəyə dayaqdır,
Sel-su tutur əlibərki, qısmırı.

**Qurban*

***

Ağsaqqallar dedi, Qızbax yaxşıdır,
Hamı sevir, güclü, qorxmaz gözəli.
Şah arvadı təkcə ona qarşıdır,
Hamı sevir güclü, qorxmaz Qızbaxı.

Bu ölkədə ən gözəl qız Nilindir,
Ən gözəl qız bu sel-suya gəlindir,
Mən bilirəm ən gözəl qız kimindir,
Hamı sevir, güclü, qorxmaz Qızbaxı.

-Çay da sevir gözəlliyi, görmüşəm,
Neçə qızı çaya kəsi vermişəm,
Arxasınca özüm çaya girmişəm,
Hamı sevir güclü, qorxmaz Qızbaxı.

***

Nilə verək çayın köpü azalsın,
Gözəlliyi sevir sel-su tanrısı.
Başevdə də dedi-qodu azalar,
Gözəlliyi sevir sel-su tanrısı.

Həm də şahı sarsıdarıq bu sayaq,
Uzaqlaşsın qoy bu evdən bu Qızbax,
Bu kəsiylə şah boynuna ip ataq,
Gözəlliyi sevir sel-su tanrısı.

Acıqlansa bizə qarşı şah necə,
Arvadına bunu deyək gizlicə,
O sevinər bunu bizdən bilincə
Gözəlliyi sevir sel-su tanrısı.

***

Şah eşitdi bunu, bütün karıxdı,
Gözəlliyin ilkin əri ölümdür.
Kim qıyacaq bunca gözəl Qızbaxa,
Gözəlliyin ilkin əri ölümdür.

"Burda qancıl əli vardır, sezmişəm,
Bu ölkədə bu işlərdən bezmişəm,
Mən əlimi bu Başevdən üzmüşəm
Gözəlliyin ilkin əri ölümdür".

"Sənsiz necə dözəcəyəm, gözəlim,
Ey qoçaq qız, ey günəşin bənzəri,
Ürəyimdə sənin sevgin közərir,
Gözəlliyin ilkin əri ölümdür".

***

Bəzəkçilər qaş-gözünü bəzədi,
Bəzək-düzək naz artırar qadına.
Gözəl olsun gərək kəsi qadınlar,
Bəzək-düzək naz artırar qadına".

Nə edəsən burda ölçü beləydi,
Qız toyundan qabaq gərək öləydi,
Yerə-göyə gərək yatım gələydi,
Bəzək-düzək naz artırar qadına.

Tanrı, Qızbax bu ölkənin varıdır,
Həm gözəldir, həm də könlü durudur,
Döyüş gücü bir toplumla yarıdır,
Bəzək-düzək naz artırar qadına.

Ölümə nişanlı qız söyləncі

Qızbax gəlin paltarını geyindi,
Qız durudur, çay suları bulanıq.
Qoy durulsun, köpü yatsın suların,
Qız durudur, çay suları bulanıq.

Şah arvadı sevinirdi özündə,
Bir üstünlük parlayırdı gözündə,
Öc yanğıyla boğuşurdu üzündə,
Qız durudur, çay suları bulanıq.

Hamı yanıb yaxılırdı bu işdən,
Başevdəki bu dolambac gedişdən,
Ağlayırdı bulud bu son görüşdə,
Qız durudur, çay suları bulanıq.

***

Çaya yaxın gələmmədi bir adam,
Sel özünə çəkir ona baxanı,
Hamı gəldi son görüşə baxmağa,
Sel özünə çəkir ona baxanı.

Gəlib Qızbax çayla durdu üz-üzə,
Bənzəyirdi çay köpürən dənizə,
Bu dalğalar çapışına kim dözər,
Sel özünə çəkir ona baxanı.

Qızbax döndü dağ yerinin yelinə,
O bir söz də gətirmədi dilinə,
Quştək uçub qondu çayın belinə,
Sel özünə çəkir ona baxanı.

***

-Dəli çayım, al qoynuna Qızbaxı,
İpə-sapa gətirəndir gözəllik.
Gözlə incə köksü daşa dəyməsin,

İpə-sapa gətirəndir gözəllik.

Alıb qızı ilan kimi çay axdı,
Gözəlliyi görüb sellər karıxdı,
O açığı, tez-tovluğu buraxdı,
İpə-sapa gətirəndir gözəllik.

Tanrı çəkdi sanki selin ipini,
Aldı dağ-dağ dalğaların köpünü,
Batıb gördü qız sel-suyun dibini,
İpə-sapa gətirəndir gözəllik.

***

Doğma çayım, yavaş-yavaş en, kiri,
Heç bir yerdə dəyəri yox acığın.
Doğma çayım, yatım göstər, yat yerə,
Heç bir yerdə dəyəri yox acığın.

Böyük tanrı, gur yağışı dayandır,
Qızbax bala al qanına boyandı,
Bu el üçün sel-sularda o, yandı,
Heç bir yerdə dəyəri yox acığın.

Qara bulud, bizdən sənə yalvarış,
Evimizə su dırmaşıb bir qarış,
Sənə min yol baş əyirik ağ yağış,
Heç bir yerdə dəyəri yox acığın.

***

Axşamüstü çay çəkildi yerinə,
Hər daşmağın düşməyi var ölçüdə.
Qıjıltıdan çayda heç nə qalmadı,
Hər daşmağın düşməyi var ölçüdə.

Daşlar çayda üzə çıxdı apaydın,
Tapılmadı su gəlini-o qadın,
Ağ buludlar, siz dənizi arayın,
Hər daşmağın düşməyi var ölçüdə.

Gözəl Qızbax uçub getdi haraya,
Döndü elin ürəyində yaraya,
Saçlarını çayda daşlar darayar,
Hər daşmağın düşməyi var ölçüdə.

***

Suqıraqda* şah çox gəzdi Qızbaxı,
Ayrılıqda sevgi beşqat güclənir.
Hər şey vardı bir gəlindən savayı,
Ayrılıqda sevgi beş qat güclənir.

-Gözəl Qızbax, sən Adanı baqışla,
Sən çarpışdın, sellə, suyla, yağışla,
Harda olsan bu ölkəni qarğışla,
Ayrılıqda sevgi beşqat güclənir.

Gözəl Qızbax, görüb sevdim səni mən,
Alammadım səni sel-su əlindən,
Mən küsmüşəm daha şahlıq yerimdən,
Ayrılıqda sevgi beş qat güclənir.

***

-Gözəl Qızbax, gəzib səni taparam,
Dəli sular caynağından qaparam,
Sənsiz olsam varlığımdan saparam,
Ayrılıqda sevgi beşqat güclənir.

Sahil

Anam, bacım, gülüm, sevgim, istəyim,
Mənim qılınc, qalxan tutan biləyim,
Sən hardasan, səni istər ürəyim,
Ayrılıqda sevgi beşqat güclənir.

Tapım bircə muncuq boyunbağından,
Çox azalar onda sevgi dağımdan,
O muncuğu əkim sevgi bağımda,
Ayrılıqda sevgi beşqat güclənir.

***

Şah neçə gün suqıraqda dolaşdı,
Gah Qızbaxı, gah tanrını səslədi.
Başev susdu, düşüncəyə büründü,
Gah Qızbaxı, gah tanrını səslədi.

Suqıraqda şah daşlara sarıldı,
Tanrı baxdı, ona könlü qırıldı,
Çayda sular dalğa-dalğa yarıldı,
Gah Qızbaxı, gah tanrını səslədi.

Gözəl Qızbax, suları yar, çıx üzə,
Gəl, mənimlə, gülüm, dayan üz-üzə,
Ya da apar sən məni də dənizə,
Gah Qızbaxı, gah tanrını səslədi.

***

Bir gün Qızbax gəlib çıxdı bu yerə,
Şah Qızbaxı gözlərindən tanıdı.
O diz çökdü sevgisinin önündə,
Şah Qızbaxı gözlərindən tanıdı.

Cır-cındırın içindəydi gözəl qız,
Yarğanlarda yaşamışdı o yalqız,
Bir ay idi yol gəlirdi ac-susuz,
Şah Qızbaxı gözlərindən tanıdı.

-Böyük tanrı səni mənə yetirdi,
Səni tapdım, mən özümü itirdim,
Mən ölkədə Qızbax gülü bitirdim,
Şah Qızbaxı gözlərindən tanıdı.

***

Şah Qızbaxla gəlib çıxdı Başevə,
Ölkə bütün gül-çiçəyə büründü.
Yeddi geçə şah Qizbaxa toy etdi,
Ölkə bütün gül-çiçəyə büründü.

Şah şahlığı bağışladı Qızbaxa,
Hamı durdu qabağında ayağa,
Gözəl Qızbax döndü böyük dayağa,
Ölkə bütün gül-çiçəyə büründü.

Qızbax kəsi verilsə də sellərə,
Çay qaytardı el qızını ellərə.
Gözəl Qızbax adı düşdü dillərə,
Ölkə bütün gül-çiçəyə büründü.

***

Sonra yer-yer danışdılar, dedilər,
Tanrı özü onu sudan alıbdır.
Bir kötükdən yapışaraq üzüb qız,
Tanrı özü onu sudan alıbdır.

Üzüb-üzüb dənizlərə çatıb o,
Sonra dərin löhmələrə batıb o.
Bir ay suda bir kötükdən tutub o,
Tanrı özü onu sudan alıbdır.

Gözəl Qızbax şah da olsa ölkəyə,
Döndü əri qabağında kölgəyə,
Qız döyüşdə, ər sevgidə bərkiyər,
Tanrı özü onu sudan alıbdır.

***

Sonra Adan kəbinlədi Qızbaxı,
Qızbax özü başçı oldu Başevdə.
Yeddi gecə, yeddi gündüz toy oldu,
Qızbax özü başçı oldu Başevdə.

Soraq getdi çatdı Turər qardaşa,
Adan çıxdı qabağına birbaşa,
Qızbax şahı bəzədilər daş-qaşa,
Qızbax özü başçı oldu Başevdə.

İki ölkə qardaşlaşıb bir oldu,
Gen düzlərdə yersizlərə yer oldu.
Əkbitənin saxlancında var oldu,
Qızbax özü başçı oldu Başevdə.

***

Qız ər olur, oğlanlarsa qız olmur,
Qızı Tanrı yaxın bilir özünə.
Qız atadır, qız anadır, qız qardaş,
Qızı Tanrı yaxın bilir özünə.

Ata yoxsa, ata olur gəlindən.
Oğlanlaşır ayrı düşsə elindən,
Hər iş gəlir qızın incə əlindən,
Qızı Tanrı yaxın bilir özünə.

O Tanrıdır gəlib yerə qız üzdə,
Qurulubdur görgör özü qız üstə.
Lap deyərdim tanrılıqdır o bizdə,
Qızı Tanrı yaxın bilir özünə.

***

Qızın gözü dərin-dərin güzgüdür,
Sevin onu, anaları qoruyun.
Göydə Tanrı, yerdə onun kölgəsi
Sevin onu, anaları qoruyun.

O çağırır bizi uca dirriyə,
O aparır bizi dəmir birliyə.
O ad qoyur qadınlığa, ərliyə,
Sevin onu, anaları qoruyun.

Tanrı olur oğlan qızı alanda,
Ucalaşır qıza vurğun olanda.
Tanrılaşın ana-bacı yolunda,
Sevin onu, anaları qoruyun.

Ana söyləncі

Görən harda qaldı Gücər,
İki oğul qoydu getdi.
Biri Daşar, biri Coşar
İki oğul qoyub getdi.

Qayaquşu gəzə-gəzə,
Gedib çıxdı Qobudüzə.
Hər ağrıya, günə dözən
İki oğul qoyub getdi.

Çovğun keçdi Arıx qaldı,
Uşaqlara könül saldı.
Gücər ata itkin oldu,
İki oğul qoyub getdi.

***

Qızay gözəl bir qız idi,
Yazıq olur gözəl qızlar.
Gözlər mavi dəniz idi,
Yazıq olur gözəl qızlar.

Baxıb gendən yazıq-yazıq,
Bir yoldaykən yoldan azıb,
İki qardaş sevdi qızı.
Yazıq olur gözəl qızlar.

İki qardaş nə biləydi,
Necə geri çəkiləydi,
Ya qalaydı, ya öləydi,
Yazıq olur gözəl qızlar.

***

Ana bunu bilmiş idi,
Şaman gilə gəlmiş idi,
Üzü-gözü solmuş idi,
Ayrı düşdü iki qardaş.

Hərə bir söz danışırdı,
Bu sevgiyə qarışırdı,
Küsüb tez-tez barışırdı,
Ayrı düşdü iki qardaş.

İkisi də ərən idi,
Qıza ürək verən idi,
Gələcəyi görən idi,
Ayrı düşdü iki qardaş.

***

Çəkimliydi qıyıq gözlər,
İki qardaş vurulmuşdu.
Bal dadırdı incə sözlər,
İki qardaş vurulmuşdu.

Qız onları saymayırdı,
Yaxınına qoymayırdı,
Hər bir sözə uymayırdı,
İki qardaş vurulmuşdu.

Yox, Qızayda duruş vardı,
Yoxsa ərlər vuruşardı,
Qan sevgiyə qarışardı,
Vurulmuşdu iki qardaş.

***

Qızay deyib qardaşlara,
Aranıza girə bilməm,
İkiniz də iyidsiniz,
Aranıza girə bilməm.

Alınyolum uzağadır,
Uzaq-uzaq oylağadır,
Qoşa sevgi qadağadır,
Aranıza girə bilməm.

Şaman deyir, get buradan,
Burda qan var, çıx aradan,
Desin özü qoy yaradan,
Aranıza girə bilməm.

***

Durudaşlar diyarında
Ayrı düşdü iki qardaş.
Biri Daşar, biri Coşar,
Ayrı düşdü iki qardaş.

Biri getdi Günbatana,.
Biri getdi Gündoğana,
Çox uzağa, çox yaxına,
Ayrı düşdü iki qardaş.

Qız deyirdi sevgi ötsün,
İki qardaş burdan getsin,
Bunca hər şey ötüb bitsin,
Ayrı düşdü iki qardaş.

***

Bunu Şaman danışırdı,
Coşar yaman qorxmaz idi.
Buzlaqlara doğru getdi,
Coşar yaman qorxmaz idi.

Ağac üstə sürüş-sürüş,
Buza, qara doğru yürüş,
Şaxtalarda qat-qat duruş,
Coşar yaman qorxmaz idi.

Suboğazı, enli, buzlaq,
Donur əl-üz, burun, dodaq,
Yollar sonsuz, yollar uzaq,
Coşar yaman qorxmaz idi.

***

Gedərgəlməz bir ölüm var
Kölgəsizlər diyarında.
Kölgəsini görən yoxdur
Kölgəsizlər diyarında.

Qayıtmayıb gedən hələ,
Qatışıbdır qara, yelə,
Dünən elə, bu gün belə
Kölgəsizlər diyarında.

Coşar getdi, döndü qara,
Yağdı bizim bu dağlara,
Hara getdin, oğul, hara,
Kölgəsizlər diyarında.

***

Hər gün gəlir yuxuma o,
Xizək deyir, yemək deyir.

Ay boydaca buza dönüb
Xizək deyir, yemək deyir.

Deyir bura ordan yaxşı,
Burda yoxdur başçı başı,
Nə qumu var, nə də daşı,
Xizək deyir, yemək deyir.

Adam var ki, üç mən boyda
Yaşayırlar buz dolayda,
Günəş yoxdur qışda, yayda,
Xizək deyir, yemək deyir.

***

Aylar keçdi, illər ötdü
Tutqun gəzdi gözəl Qızay.
İstəyəni o gizlətdi,
Tutqun gəzdi gözəl Qızay.

Tək dolaşdı dağı-daşı,
Çatıq qaldı çatma qaşı,
Öz özüylə tək dolaşıb
Tutqun gəzdi gözəl Qızay.

Kim nə dedi, dəydi ona,
Qaldı düzdə yana-yana,
Takımından ayrı sona
Tutqun gəzdi gözəl Qızay.

***

Biri gəldi lap uzaqdan
Buz bağlayıb pal-paltarı.
Ağ ayıdır, ya adamdır,
Buz bağlayıb pal-paltarı.

Saç-saqqalı buzdan biz-biz,
O yıxılıb qalıb heysiz,
Diş qıçılı, ağız dilsiz,
Buz bağlayıb pal-paltarı.

Şaman deyir, bu öləcək,
Sonra qara yel gələcək,
Qalsa günümüz güləcək,
Buz bağlayıb pal-paltarı.

***

Onu alıb ovuşdurdu
Gözü yaşlı Arıx ana.
Dedi, oğlum elçisidir,
Gözü yaşlı Arıx ana.

Arıx nəsə anmış idi,
Onu elçi sanmış idi,
Ürəyinə dammış idi,
Gözü yaşlı Arıx ana.

Od qaladı, övkələdi,
Evi ona kürk elədi,
Çörək yapdı, kökələdi,
Gözü yaşlı Arıx ana.

***

Göz açanda dilə gəldi
Yastı-yastı danışdı o.

Dedi, Coşar göndəribdir,
Yastı-yastı danışdı o.

Coşar bizdə düşük yatır,
Deyir günüm sona çatıb,
Deyir mənə ocaq çatın,
Yastı-yastı danışdı o.

Ocaq olsa ölmərəm mən,
Ölüm nədir bilmərəm mən,
Belə heyə gəlmərəm mən
Yastı-yastı danışdı o.

***

Coşar dedi, elim-obam,
Mənə ölməz od göndərin.
Sönməz odun odunundan
Mənə ölməz od göndərin.

Burda gün yox, günəş yoxdur,
Buzlar gözə iti oxdur,
Yerin üstü ağappaqdır,
Mənə ölməz od göndərin.

Qoymayın ki burda sönüm,
Qar üstündə buza dönüm,
Ay günəşli elim-günüm,
Mənə ölməz od göndərin.

***

Ana getdi meşələrə,
Odu sönməz odun hanı?
Coşar balam gedir əldən
Odu sönməz odun hanı?

Elçi dedi, mən də gəlim,
Gözəl yeri var bu elin,
Yaraşıqlım, yaxın dillim,
Odu sönməz odun hanı?

Bir tapdılar, bir yığdılar,
Şələləyib bərk sıxdılar,
Yol azdılar, karıxdılar,
Odu sönməz odun hanı?

***

Ana dedi, mən gedirəm,
Coşar balam darda qalıb.
Od qaladı, ocaq çatdı
Coşar balam darda qalıb.

Qoydu odu xizək üstə,
"Maralları bura səslə.
"Arıx, getmə, yaşı gözlə,
Coşar balam darda qalıb.

Elçi, Arıx yola düşdü,
Bu nə qardır, bu nə qışdır?
Xizəyə on maral qoşdu,
Coşar balam darda qalıb.

***

Şaman gəldi yolu kəsdi,
-Getmə, ana yol ağırdır.
Gücərdən tək sən qalmısan,

Getmə, ana, yol ağırdır.

Tanrı yeri-göyü örtüb,
Buludları söküb, yırtıb,
Soyuq artıb, şaxta artıb,
Getmə, ana, yol ağırdır.

Gedib ora ocaq çatmaz,
Maralların yolu yortmaz,
Od bu sayaq qalıb artmaz,
Getmə, ana, yol ağırdır.

***

-Şaman, mənə uğur söylə,
Od-ocağım saxlar məni.
Bəbəyimdə gizlədərəm
Od-ocağım saxlar məni.

Oğul yolu ağır olsa,
Ürəyimə şaxta dolsa,
Günlərimdən bir gün qalsa,
Od-ocağım saxlar məni,

Baş əyirəm sənə, atam,
Ana gücüm yola çatar,
Od-ocağı darta-darta
Od-ocağım saxlar məni.

***

Şaman dedi, getmə, ana,
Dedi gərək gedim, oğul.
Buzlaq dedi, getmə, ana,
Dedi, gərək gedim bala.

Bulud dedi, getmə, ana,
Şaxta dedi, getmə, ana,
Boran dedi, getmə, ana,
Dedi, gərək gedim, bala.

Tanrı baxdı buza, qara,
Dağ ürəyi düşdü dara,
Tanrı dedi getmə, ana,
Dedi, gərək, gedim, bala.

***

Arıx ana qar götürdü
- Ovuşdurram qarla onu.
Bizim-yurdun qarı isti
Ovuşdurram qarla onu.

Bir az qara durna yağı,
Bir ağ quru qazayağı,
Övkələrəm un sayağı
Ovuşdurram ğarla onu.

Çatdır məni qıvraq maral,
Çap get uzaq yolu azalt,
Qucağımda istidir qar,
Ovuşdurram qarla onu.

Qızay söyləncі

Xizək üstə alovlanıb,
Tüstülənir gedən ocaq,

Elçi ipi səsləndirir,
Tüstülənir gedən ocaq.

Ayı kürkü, maral kürkü,
Buynuzlular kimdən ürkür,
Elçi bir az iti sürki,
Tüstülənir gedən ocaq.

O qabaqda gedən kimdir,
O bir qızdır, ya gəlindir,
Elçi, saxla, onu dindir,
Tüstülənir gedən ocaq.

***

- Gedərgəlməz yolu üstə
Bu kim ola, kim olmaya.
Gedir yoxa - bilə-bilə,
Bu kim ola, kim olmaya.

Qadan alım, hara belə,
Onu ana tutur dilə.
- Qayıt bala, düşmə çölə,
Bu kim ola, kim olmaya.

- Birdən bu qız Qızay olar,
Qaçıb evdən çıxıb yola.
Qadan alım, dayan, bala
Bu kim ola, kim olmaya.

***

- Mən Qızayam baş götürüb
Gedirəm mən Arıx ana.
İstəklimin arxasınca,
Gedirəm mən Arıx ana.

İki qardaş sevdi məni,
De, hansını mən bəyənim.
Tanrı seçsin mən deyəni
Gedirəm mən Arıx ana.

Coşar gedib dara düşüb,
Buza düşüb, qara düşüb.
Qız könlümə yara düşüb,
Gedirəm mən Arıx ana.

***

- Yol ağırdır, getmə, qızım,
Yox, gedirəm mən də ana.
- Əynin-başın çox yüngüldür,
- Yox, gedirəm mən də ana.

- Qardan paltar götürərəm,
Gedib onu gətirərəm.
Qızım sənə yetirərəm,
- Yox, gedirəm Arıx ana.

Belə getsə donacaqsan,
Öz-özünə yanacaqsan,
Bu sözümü anacaqsan,
- Yox, gedirəm Arıx ana.

***

- Getməliyəm, görməliyəm,
Ürəyimdə sözüm vardır.
Gedib ona deməliyəm,
Ürəyimdə sözüm vardır.

Geyim şaxta bələyimi,
Yarım buzlaq küləyini,
Verim ona ürəyimi,
Ürəyimdə sözüm vardır.

Gücdür qıçım yeriyəcək,
Buzlar qat-qat əriyəcək,
Sevgim qarı kürüyəcək,
Ürəyimdə sözüm vardır.

***

Arıx ana "sağ ol" dedi,
Onu aldı öz yanına.
Qıza baxdı göz yaşında,
Onu aldı öz yanına.

- Arxasınca belə qızın
Sürünərəm dizin-dizin.
Ürəyimiz birdi bizim,
Onu aldı öz yanına.

Ürəyinə kəsi ollam,
Elçilərəm, səni allam,
Yerinizi qoşa sallam,
Onu aldı öz yanına.

***

Ancaq yollar uzaq oldu,
Qar, buz, külək kəsdi yolu.
Marallardan qaldı beşi,
Qar, buz, külək kəsdi yolu.

Qar kişnədi, buz mələdi,
"Qızay odu sən pilə bir".
O yellədi, bu yellədi,
Qar, buz, külək kəsdi yolu.

- Anam, bacım, ərim, varım,
Yer-yurdumun maralları.
Yol olubmu görən yarı,
Qar, buz, külək kəsdi yolu.

***

Qar şəpəsi, buz yarğanı,
Beş gün belə yol getdilər.
Elçi dedi yol yarıdır,
Beş gün belə yol getdilər.

Qızay odu piləyirdi,
Şaxta ölüm söyləyirdi,
Arıx dözüm diləyirdi,
Beş gün belə yol getdilər.

Ağız, burun, ayaq donuq,
Yemək, içmək daşa dönüb.
Od gah yanır, gah da sönür,
Beş gün belə yol getdilər.

***

Sönür daha yavaş-yavaş,
Sönməz odun odunları.
Pilə, pilə qoy sönməsin,

Ölməz odun odunları.

Maralların biri sağdır,
Yol qurtarmır, çox uzaqdır.
Xizək üstə buz qalaqdır,
Ölməz odun odunları.

-Saxla odu, ulu ocaq,
Coşargilə gedib çataq.
Buz bağlayıb qalaq-qalaq
Ölməz odun odunları.

***

- Tüstülənib dirriyə dön,
Saxla bizi, ocaq, sönmə.
Buzlaqlara od aparaq,
Saxla bizi, ocaq, sönmə.

Sən günəşin balasısan,
Qanımızın damlasısan,
Ellə birgə qalasısan,
Saxla bizi, ocaq, sönmə.

Ancaq közlər bir-bir sönür,
Buza dönür, külə dönür,
Yoxsa çatıb daha sonum,
Saxla bizi, ocaq, sönmə.

***

Boran vurdu, xizək aşdı,
Qızay qaldı, bir də ana.
Elçi, maral, xizək hanı,
Qızay qaldı, bir də ana.

Ah, bu Coşar harda itdi,
Od qaraldı, ocaq bitdi,
Uça-uça hara getdi,
Qızay qaldı, bir də ana.

İkisini aldı külək,
Bir çalaya atdı tək, tək,
Buzdan yorğan, qardan bələk,
Qızay qaldı, bir də ana.

***

Burda neçə qar adamı,
Gəlib tapdı qonaqları.
Ağ kürkləri qalın idi,
Gəlib tapdı qonaqları.

Biri ölü, biri diri,
Üstlərində nazik dəri,
Neçə adam gəlib bəri
Gəlib tapdı qonaqları.

Coşar bildi, ürəkləndi,
Qalxıb yerdə dirsəkləndi,
Qar gözündə çiçəkləndi,
Gəlib tapdı qonaqları.

***

Yetişəndə yol başına
Arıx ana ölmüş idi.
Nə od vardı, nə də ocaq,
Arıx ana ölmüş idi.

Ancaq əli isti idi,
Ovcu dolu tüstü idi.
Yanan dəri üstü idi
Arıx ana ölmüş idi.

Od əlinin ovuğunda,
Əl gizlənib qoltuğunda,
Od qalıbdır odluğunda,
Arıx ana ölmüş idi.

***

Çox ovdular döş-başını
Dirilmədi Arıx ana.
Ovcu içi yanmış idi
Dirilmədi Arıx ana.

Köz ovcunda sağ qalmışdı,
Bir az odu azalmışdı,
Əlsə yanıb qaralmışdı,
Dirilmədi Arıx ana.

Ölümünü düz saydılar,
Sevənləri tək qoydular,
Qazma-qazma od yaydılar
Dirilmədi Arıx ana.

***

Ocaq yandı, od qalandı,
Od ananın sonevində.
Toy tutuldu Çoşar üçün
Od ananın sonevində.

Qızay Coşar əl tutdular,
Keçmişləri unutdular,
Dil, dodağa bal qatdılar,
Od ananın sonevində.

Başlanğıcdan el belədi,
Görün sevgi nə elədi,
Şaman gəldi, söz söylədi,
Od ananın sonevində.

IV QAPI

Turla bölgəmicin görüş söyləncisi

Tur bacısı Baxa qonaq gedirdi,
Bacı-qardaş ayrı olsa, vay olar.
On at yükü qızıl, gümüş bağışla,
Bacı-qardaş ayrı olsa, vay olar.

Tur deyirdi: "Qızağ, məni sındırıb,
Qocaikən ürəyimi yandırıb.
Ağ başımı əyib yerə endirib,
Bacı-qardaş ayrı olsa, vay olar.

Baxı görsəm unudaram özümü,
Bacı deyib boşaldaram gözümü.
Çatdıraram ona ürək sözümü,
Bacı-qardaş ayrı olsa, vay olar".

Tur deyirdi: "Gücər atam itəndən,
Bu itgidən neçə yüz il keçəndən,
Duru ana son evinə gedəndən

Bacı-qardaş ayrı olsa, vay olar.

Anam, bacım, hardasınız, dillənin,
Mən şah oldum, siz də gülün, güllənin.
Başrağımtək saçaq-saçaq yellənin,
Bacı-qardaş ayrı olsa, vay olar.

Bir sevincim varıydısa, Qızağdı,
İndi o da məndən aytək uzaqdı.
Bu dirrikdə hamı beş gün qonaqdı,
Bacı-qardaş ayrı olsa, vay olar".

***

Min atlıyla Tur gedirdi durmadan,
Nisgil, sevinc yanaşıdır yolda da.
Çıxdı yolda önlərinə yüz atlı,
Nisgil, sevinc yanaşıdır yolda da.

Hardan belə, hara belə, atlılar,
Gəlib daldan atlılara çatdılar.
Bunu deyib yüyənləri dartdılar,
Nisgil, sevinc yanaşıdır yolda da.

- Siz kimsiniz? - Tur soruşdu,
- Sumərlər,
Uruyeri qoruyanlar, cümərlər,
- Biz Mindiyar, minellili turərlər…
Nisgil, sevinc yanaşıdır yolda da.

- Biz bir dildə danışırıq deyəsən,
Siz kimsiniz, biz kimlərik görəsən,
Bölgəmicə bənzəyirsən, igid, sən,
Nisgil, sevinc yanaşıdır yolda da.

- Bölgəmici mən görmüşəm, - dedi Tur.
Yarıtanrı bir igiddir…
- Hə, odur.
- Beli tüklü, boynu yallı.
- Hə, odur.
Nisgil, sevinc yanaşıdır yolda da.

Qırx il qabaq tutuq idim Misirdə,
O gəlmişdi tutuq alsın o yerdən,
Məni görüb danışdırdı o, birdən,
Nisgil, sevinc yanaşıdır yolda da.

***

Dedi: - Kimsən?
Dedim: - Minel, Mindiyar…
Dil ən yaxşı doğmalıqdır, yaxınlıq.
Dedi: - Yerli, niyə tutuq düşmüsən?
Dil ən yaxşı doğmalıqdır, yaxınlıq.

- Səni alıb buraxaram igid, mən,
Mənlə Uru şəhərinə gedərsən,
Sonra daha görünmədi o nədən,
Dil ən yaxşı doğmalıqdır, yaxınlıq.

Deyən onda baha olub dəyərim,
Bəlli olub tutuqçuya təpərim,
Onda nəydim, bir sümükdüm, bir dəri,
Dil ən yaxşı doğmalıqdır, yaxınlıq.

İndi artıq Mindiyara mən şaham,
Tutuq alıb satmaqdayam mən daha,
Mənə baxır ölkə, diyar, ev, kaha,
Dil ən yaxşı doğmalıqdır, yaxınlıq.

Başraq altda iki yüz min yaraqlım,
Yeləsəndə yüz-yüz min də papaqlım.
Yüz min atım, yüz-yüz min də çomaqlım,
Dil ən yaxşı doğmalıqdır, yaxınlıq.

- Odur, gəlir şahla yaxın yoldaşı,
Bölgəmicin göydən gələn qardaşı.
Yenisoydur Bölgəmicin başbaşı
Dil ən yaxşı doğmalıqdır, yaxınlıq.

***

Bölgəmicin boynu, beli tuk idi,
Görkəmlidir, yarıtanrı adamlar,
Dili Minel dili idi öndərin,
Görkəmlidir yarıtanrı adamlar.

Bölgəmiclə Tur yaxıntək görüşdü,
Uru yeri, eli, yurdu soruşdu,
Birsoy bilib onlar ilə öpüşdü,
Görkəmlidir yarıtanrı adamlar.

Tur söylədi: - Qırx il qabaq sizi mən,
Misireldə tutuq olan görmüşəm.
Bölgəmic: - şah nə buyurur bu işə,
Görkəmlidir yarıtanrı adamlar.

Bölgəmic şah dedi: - Bildim, nə yaxşı,
Sən şah, mən şah, dilibirik yanaşı.
Yengisoy da toplumlara başbaşı,
Görkəmlidir yarıtanrı adamlar.

Uruyer də qonaqcıldır, buyurun,
Suyu boldur, at, qatırı doyurun.
Boldur bunca onun otu, cayırı,
Görkəmlidir yarıtanrı adamlar.

Uruyerin dörd bir yanı daş hörgü,
Bu yerlərdə nə qorxu var, nə ürkü.
Yamac ilxı, döş mal-qara, çöl sürü,
Görkəmlidir yarıtanrı adamlar.

Kişnərtilə, bəyirtilə, mələşmə,
Qapışmalar, dırnaqlaşma, güləşmə,
Süd, bulama, balqımısa bələşmə,
Görkəmlidir yarıtanrı adamlar.

***

Sumərlərin başbaşçısı Bölgəmic,
Başçı necə, ölkə elə görünər.
Yengisoy da toplumların başbaşı,
Başçı necə, ölkə elə görünər.

Yastıdağdan Şişdağacan az bəri,

Sıx-sıx evi, uca-uca çəpəri.
Uru aldı qucağına Turəri,
Başçı necə, ölkə elə görünər.

Cümər, sumər bu ölkəyə güc verir,
Çox-çox şahlar ödənc verir, borc verir.
Tanrı bura bir, iki yox, üç verib,
Başçı necə, ölkə elə görünər.

Cumər döyüş tanrısıdır Uruda,
Hər bir yanda - dağda, suda, quruda.
Yarıtanrı sayılırlar yarıdan,
Başçı necə, ölkə elə görünər.

***

Tanrı, bizə qonaq gəlib Mineldən,
Qonaq evin bəzəyidir, sevinci.
Qonaqdırlar illər, ellər, oğullar,
Qonaq evin bəzəyidir, sevinci.

Qonaq toydur, qonaq ocaq tüstüsü,
Qonaq şahdır, evin ürəkəsdisi.
Doğmalaşan elin çörəkkəsdisi,
Qonaq evin bəzəyidir, sevinci.

İncə sözlər, dillər, oğrun baxışlar,
Susur, bitir çəkişmələr, savaşlar,
Öpüşürlər ərlər, qızlar, qardaşlar,
Qonaq evin bəzəyidir, sevinci.

Qonşuların qulaqları şəklənir,
Qopuzların tük telləri köklənir.
Aşır qat-qat yorğan-döşək yükləri,
Qonaq evin bəzəyidir, sevinci.

Yaraşıqdır burda qonaq olanlar,
Sevinərək gözü, könlü dolanlar.
Doğmalaşır getməyərək qalanlar,
Qonaq evin bəzəyidir, sevinci.

Ev yiyəsi itirmişdir özünü,
Çəkmir qonaq gələnlərdən gözünü.
"Otur başda, hamı görsün üzünü",
Qonaq evin bəzəyidir, sevinci.

***

Turər başda oturubdur şahsayaq,
Hamı durar qabağında qonağın.
Söykəncilər, döşəmələr mərmərdən,
Hamı durar qabağında qonağın.

Qab-qacaqlar göydaş ilə gümüşdən,
Ara işdə qızlar kəhlik yerişdə.
Ağır-ağır başbilənlər görüşdə,
Hamı durar qabağında qonağın.

Başbilənlər, ağsaqqallar, ağırlar,
Mindiyarın başçısına baxırlar.
Ağızlarda şişir sözlər, uğurlar,
Hamı durar qabağında qonağın.

Bölgəmicə qulaq asır ərənlər,

- Ölür bizlə döyüşlərə girənlər,
Öndə gedir atla qoşqu sürənlər,
Hamı durar qabağında qonağın.

Üç min ildir bir döyüşə girəndən,
Acıqanı oturtmuşuq yerində,
İndi daha cınqır çıxmır birindən,
Hamı durar qabağında qonağın.

Biz on min il qabaq bura gəlmişik,
Özümüzü Mindiyardan bilmişik.
Döyüşlərdə dirilmişik, ölmüşük,
Hamı durar qabağında qonağın.

***

Öyünc ilə danışırdı Bölgəmic,
Qaya olar daş daşlara sığınsa.
Bir elliyik, bu birlikdən soraqsız,
Qaya olar daş daşlara sığınsa.

Bir güvəncdir Mindiyardan bu gəliş,
Tanrı verib bizə yeni yüksəliş.
Tanrı özü sözə "bura gəl", demiş,
Qaya olar daş daşlara sığınsa.

Üç gün sonra biz gedirik vuruşa,
Siz qalarsız burda, başız qarışar.
Turər birdən "hara belə" soruşur
Qaya olar daş daşlara sığınsa.

- Humbaba var, səsi qorxunc, ağzı qor,
Nərildəsə dağdan qaya, daş qopur.
Əl qanlıdır, baş yaradır, üz qotur,
Qaya olar daş daşlara sığınsa.

Odur Sıdır meşəsində bağ əkən,
Qol güclüdür, yaraq iti, səs ötgəm.
Tanrı verib ona qorxunc bir görkəm,
Qaya olar daş daşlara sığınsa.

Uruyerə böyük qapı gərəkdir,
Sıdır yonma balta sapı gərəkdir.
Qapı yoxdur, qapılı ev tək-təkdir,
Qaya olar daş daşlara sığınsa.

***

Çox getmişik, başa düşmür Humbaba,
Anlamazı vur, başa sal zopayla.
Gözəl Sidr meşəsində şahdır o,
Anlamazı vur, başa sal zopayla.

Mən gedirəm, Turər burda otursun,
Mən gələnə hay-küy olsa yatırsın.
Hamı üç qat sayıqlığı artırsın,
Anlamazı vur, başa sal zopayla.

Tur mindiyar başçısıdır, uludur,
Böyük inam qardaşlığın yoludur.
Uru çox-çox minelliylə doludur,
Anlamazı vur, başa sal zopayla.

Tur söylədi: - Mən də sizlə gedərəm,
Min atlım var, onları da götürrəm.

Bölgəmicə hər yerdə əl yetirrəm,
Anlamazı vur, başa sal zopayla.

Oturanlar sevindilər bu sözdən,
Ancaq biri alovlandı iç üzdən.
Onda əyri düşüncələr üst-üstə…
Anlamazı vur, başa sal zopayla.

Dedi Turər qalsın burda, biz gedək,
Bölgəmici yola salaq biz gərək.
Humbaba yox, o, bir devdir, pəzəvəng,
Anlamazı vur, başa sal zopayla.

***

Suər idi onun adı Başevdə,
Səs adamın iç qatını göstərir.
Bir kobudluq gizlənmişdi səsində,
Səs adamın iç qatını göstərir.

Üzü, boynu saqqal idi, bığ idi,
İşi-gücü ona-buna lağ idi.
Sürüləri, naxırları çox idi,
Səs adamın iç qatını göstərir.

Qurcalanıb deyinirdi nədənsə,
Üç idilər, verirdilər səs-səsə.
Üstlərində daş-qaş, qotaz bər-bəzək,
Səs adamın iç qatını göstərir.

Düşünürdü: - Turər qalsın Uruda,
Onun ilə dil taparam arada.
Bir də bizə yardım olar Yaradan,
Səs adamın iç qatını göstərir.

Düşünürdü: - Ələ allam Urunu,
Dəyişərəm bu oyuncaq qurumu.
Dəmirləşər suərlərin durumu,
Səs adamın iç qatını göstərir.

Sona çatar Bölgəmicin bölgəsi,
Yarıtanrı Yengisoyun kölgəsi.
Mənim olar böyük Uru bölgəsi,
Səs adamın iç qatını göstərir.

***

Bölgəmic də düşünürdü gizlidə,
İşi tapşır işbilənə, güclüyə.
Məndən sonra Turər qalar yerimdə,
İşi tapşır işbilənə, güclüyə.

Məndən sonra Suər başlar işini,
İrəliyə verər qaban döşünü.
Çəkib yığar dörd yanına beşini,
İşi tapşır işbilənə, güclüyə.

Şeşələnib Suər çıxar araya,
Deyər: Gəlin cumaq Urusaraya.
"Yaraq" deyib qaçar ora-buraya,
İşi tapşır işbilənə, güclüyə.

Görəcək ki, Turər vardır arada,
Güdür onu güdükçülər arxadan.
Bir də ona əl tut, olmaz Yaradan,

İşi tapşır işbilənə, güclüyə.

Tanrı mənə güc bağışlar, qızaram,
Humbabanı Sıdırlıqda basaram.
Ağacımın köklərini qazaram,
İşi tapşır işbilənə, güclüyə.

Onu kəsib yontalaram ordaca,
Ondan yüz-yüz ağac qapı olacaq.
Uruyer də dördqapılı qalaça,
İşi tapşır işbilənə, güclüyə.

***

Getdi böyük meşəliyə Bölgəmic,
Sən də istə, istəyənlər basardır.
Arxasınca on min atlı yürüşdə,
Sən də istə, istəyənlər basardır.

On gün yolu üç-dörd günə ötdülər,
Dördüncü gün meşəlikdə itdilər.
Durub sanki ağac kimi bitdilər,
Sən də istə, istəyənlər basardır.

Sidr ağacı iy verirdi gül kimi,
Bu ağacı görən haçan, kim əkib.
Yamaclara yaşıl-yaşıl yol çəkib,
Sən də istə, istəyənlər basıqdır.

Gül qoxuyur ağac, budaq, kol, tikan,
Sidilərdə gül qoxusu haradan?
Bu yerlərdə dincev salıb Yaradan,
Sən də istə, istəyənlər basardır.

Səs eşitdi, durdu birdən Bölgəmic,
- Gələn kimdir, ya şah olar, ya yerric.
Bu gəlişlər ya sevincdir, ya gilinc,
Sən də istə, istəyənlər basardır.

- Urudandır sənə qonaq olanlar,
At üstündə yaraqlıdır qalanlar.
Uzaqdadır ağac, odun alanlar,
Sən də istə, istəyənlər basardır.

***

Bir səs gəldi, meşə dağ-dağ titrədi,
Səs var, onda yatır ölüm qorxusu.
- Mən yaşıllıq Tanrısıyam! - söylədi,
Səs var, onda yatır ölüm qorxusu.

Bir səs gəldi ürəksıxan nərilti,
Danqıltıydı, şaqqıltıydı, gurultu,
Göy gurladı, yağdı yerə xarıltı,
Səs var, onda yatır ölüm qorxusu.

- Mən meşələr Tanrısıyam, Humbaba,
Mən qorxulu bir ərənəm, çox qaba.
Mən qoymaram, gələn burda at çapa,
Səs var, onda yatır ölüm qorxusu.

Gəlin yarıtanrı kimi danışaq,
Bu olmasa, biz güləşək, yarışaq.
Lap yaxşısı, qurşaq tutaq qarpışaq,
Səs var, onda yatır ölüm qorxusu.

Ancaq ağac kəsmək olmaz meşədən,
Quru ağac alar məni eşidən.
Eşitməyən ağaclaşar meşədə,
Səs var, onda yatır ölüm qorxusu.

On min atlı ağac oldu bir anda,
Qorxu içrə səs çıxmadı qalandan.
Göydən baxdı meşələrə Yaradan,
Səs var, onda yatır ölüm qorxusu.

***

Tanrı dedi: - Yararlıdır yaranış,
Çöp də olsa gərək yurda yaraya.
Dedi: - Baba, gələnlərə ağac ver.
Çöp də olsa, gərək yurda yaraya.

Acıqlandı o, Tanrının sözündən,
Tanrı düşdü Humbabanın gözündən.
Dəli olub sanki çıxdı özündən,
Çöp də olsa, gərək elə yaraya.

Qonaqların üzərinə yeridi,
Yengisoy da onun üstə yürüdü.
Qılınc görüb meşəbəyi kiridi,
Çöp də olsa, gərək elə yaraya.

Dedi, qılınc bu vuruşda yaramaz,
Ağac qılınc yarasını sarımaz.
Toplum yoxdur, yaraqlı yox, adam az,
Çöp də olsa, gərək elə yaraya.

Qalxdı qılınc, endi, ona çatmadı,
Bir də vurdu, qılınc ona batmadı.
Bu, ərlərin ürəyinə yatmadı,
Çöp də olsa, gərək elə yaraya.

Humbaba da çıxdı yarpaq kürkündən,
O, çıxartdı bir ağacı kökündən.
Od alışdı, gözlərinin kökündən,
Çöp də olsa, gərək elə yaraya.

***

Dedi: - Onda gəl, vuruşaq bu sayaq,
Qılınc iti, çomaq ağır yaraqdır.
Çomaq, qılınc qalxdı, durdu üz-üzə,
Qılınc iti, çomaq ağır yaraqdır.

Üç gün çəkdi ərənlərin duruşu,
Cingildədi çomaq-qılınc vuruşu.
Qanlar axdı, qan qanlara qarışdı,
Qılınc iti, çomaq ağır yaraqdır.

Dördüncü gün duman tutdu hər yanı,
Dağdan endi qarlı külək boranı.
Meşə aldı qucağına toranı,
Qılınc iti, çomaq ağır yaraqdır.

Duman ötdü, güclü yağış yağırdı,
Meşəbəyi üç yol bərkdən bağırdı.
Bu vuruşa Bölgəmici çağırdı,
Qılınc iti, çomaq ağır yaraqdır.

O, daş atıb Bölgəmici daşladı,
Bölgəmicsə ona bizuc tuşladı.
Yağış altda döyüş belə başladı,
Qılınc iti, çomaq ağır yaraqdır.

Üç gün meşə üzərində bağırtı,
Palçıq içrə qan qarışıq, boğuntu.
Yağış, yarpaq selləməsi, yağıntı,
Qılınc iti, çomaq ağır yaraqdır.

***

Onuncu gün yerə çökdü Humbaba,
Adam ağac, ağac adam sevəndir.
O, buynuzlu bir dev idi meşədə,
Adam ağac, ağac adam sevəndir.

Duman ötdü, yağış kəsdi, gün çıxdı,
Dev buzuşdu, arıqladı, sınıqdı.
Sonra öldü, palçıq oldu, yapıqdı,
Adam ağac, ağac adam sevəndir.

Meşə güldü, min-min ağac gərildi,
Ağaclaşan yaraqlılar dirildi.
Necə ağac qopdu, yerə sərildi,
Adam ağac, ağac adam sevəndir.

Uzaqlarda bir ağac da əyildi,
O, iriydi, belə ağac deyildi.
Qurumuşdu, yaşı on min il idi,
Adam ağac, ağac adam sevəndir.

Yığıldılar, aşırdılar ağacı,
Hər budaqda min-min naxış, arqacı.
Gövdəsində min qapının tıxacı,
Adam ağac, ağac adam sevəndir.

Bölgəmic də, Yengisoy da yaralı,
Qansızlıqdan qara gözlər qaralır.
İki qardaş qan itirib, saralıb,
Adam ağac, ağac adam sevəndir.

***

Tanrı dedi: - On min yaşı var onun
Adamlarla qonşudurlar ağaclar.
Ondan qapı, əric, arğac düzəldin,
Adamlarla qonşudurlar ağaclar.

Tanrı dedi: - Onu dibdən qoparın,
Çəkə-çəkə Uruyerə aparın.
Bu ağacın qurtarmışdı yatarı,
Adamlarla qonşudurlar ağaclar.

O ağacın gövdəsində boz un var,
Əzik yara sağaltmağa yarayar,
Bölgəmicə, Yengisoya yay olar,
Adamlarla qonşudurlar ağaclar.

O ağacın kökü qalıb dərində,
Ağac salın hər ağacın yerində.
Yeddi güc var hər ağacın birində,
Adamlarla qonşudurlar ağaclar.

Mən tanrıyam, tanrıları eşidin,

Tanrılaşır, kim bağlansa Tanrıya,
Tanrıların qonaq yeri meşədir,
Tanrılaşar kim bağlansa Tanrıya.

Özünüzü tez çatdırın Uruya,
Uru düşüb, əl açıbdır Tanrıya.
Turər, Suər, Asur girib araya,
Tanrılaşar, kim bağlansa Tanrıya.

Yaralılar mindirildi qoşquya,
Atlar çapdı, döndü uçar qırğıya.
Başbilənlər büründülər qayğıya,
Tanrılaşar, kim bağlansa Tanrıya.

***

Atlı çatar gəlib çatdı minlərə,
Dedi: - Uru qalıb yaman günlərə.
Suərlilər dönüb qanlı çinlərə,
Tanrılaşar, kim bağlansa Tanrıya.

Turər qovub Suərləri Urudan,
Çoxlarını çıxartdılar sıradan.
Aclıq çəkir ancaq yaraq sarıdan,
Tanrılaşar, kim bağlansa Tanrıya.

Bir yandan da Asur gəlir çaparaq,
Dəmir qoşqu, dəmir geyim, tunc yaraq.
Turər vurur asurları qıraraq,
Tanrılaşar, kim bağlansa Tanrıya.

Turər söyləncі

Turər kəsib acıqanın yolunu,
Uzə düşən daha güclü vuruşar.
Tuərlərin asurlara yönünü,
Uzə düşən daha güclü vuruşar.

Asurlara yol göstərir Suərlər,
Həm satırlar cumərləri əlbəəl.
Turər deyir: - Suər, utan, öl, gəbər,
Uzə düşən daha güclü vuruşar.

Asur deyir: - Qılıncını, Turər at,
Get Bölgəmic yoldaşını sən sağalt.
Mənimkidir, altındakı Qırğı at,
Uzə düşən daha güclü vuruşar.

Turər deyir: - Sonevindir Uruyer,
Ölümünü bu qılıncda, burda gör.
Sən qorxaqsan, yarağını bura ver,
Uzə düşən daha güclü vuruşar.

***

Bölgəmiclə Yengisoyu eşidin,
Yetimtanrı devə, pisə qarşıdır.
Yarımtanrı Tanrı ilə qonşudur,
Adamlarla qonşudurlar ağaclar.

Məni görmək istəyənlər bilsinlər,
Bu meşəyə kəsi ilə gəlsinlər.
İçlərində pislik varsa, silsinlər,
Adamlarla qonşudurlar ağaclar.

***

Yatağında yavaş dedi Bölgəmic:
- İyid olsan, hər bir yerdə iyid ol.
Yaraqlılar getsin Tura yardıma,
İyid olsan, hər bir yerdə iyid ol.

Tur mineldir, biz də Uryer, - birik biz,
Bizim ellər bir yerdəndir, bilin siz.
Çətinlikdə siz əl-ələ veriniz,
İyid olsan, hər bir yerdə iyid ol.

On min atlı çapıb getdi yardıma,
Tez çatmaqçın tumar çəkdi atına.
Baş əyməyə getdi Turər adına,
İyid olsan, hər bir yerdə iyid ol.

Acıqanla döyüşürdü Turər şah,
Cumərlərlə minellilər bir, qoşa.
Ölüm ilə durmuşdular baş-başa,
İyid olsan, hər bir yerdə iyid ol.

- Sən mindiyar başçısısan, göbələk,
Uruyerdə bu vuruşmaq nə demək.
Əkbitəni qoruyasan sən gərək,
İyid olsan, hər bir yerdə ol iyid.

Turər dedi: - Biz bir eldən, bir yerdən,
Düzlük deyib vuruşuram burda mən.
Qılıncını atıb gərək gedəsən,
İyid olsan, hər bir yerdə ol iyid.

***

İki ərən at qovurdu düzəndə,
Hamı ərdir doğulduğu torpağa.
Hərdən durub vuruşurdu qılıncla,
Hamı ərdir doğulduğu torpağa.

Tur söylədi: - Şah, üzünu yan tutma,
On il qabaq vuruşmuşduq, unutma.
At qılıncı, yaraları qanatma,
Hamı ərdir doğulduğu torpağa.

- Sən Turərsən, tanıyıram səni mən,
İki yol da qurtarmışam əlindən.
İki on il keçib döyüş ilindən,
Hamı ərdir doğulduğu torpağa.

- Onda qaçma, gəl bir daha vuruşaq,
Basar olaq, basıq olaq ərsayaq.
İyid əri sevir bizim bu torpaq,
Hamı ərdir doğulduğu torpağa.

Onlar bir də dayandılar üz-üzə,
Qılınc səsi səpələndi göy düzə.
Şah qıvrılıb döndü sarı ilbizə,
Hamı ərdir doğulduğu torpağa.

Qılınc dəydi, tapbıldadı tutaqlar,
Əldən düşdü sınıq-salxaq yaraqlar.
Bizuc qaldı, bir də enli bıçaqlar,

Hamı ərdir doğulduğu torpağa.

***

Yaralandı bizuc ilə Qırğı at,
Atı vuran ər sayılmır döyüşdə.
Yalmanını deşdi atın Asur şah,
Atı vuran ər sayılmır döyüşdə.

Qırğıatın yaralandı ombuzu,
Tur əyildi, yerdən qapdı topbuzu.
Sağrısından vurdu dönük quduzu,
Atı vuran ər sayılmır döyüşdə.

Asur şahın dümdüz beli əyildi,
Qıvrılaraq ilbizləşdi, keyəldi.
Dən deyildi, o, dən kimi üyüldü,
Atı vuran ər saylmır döyüşdə.

At üstündə qalammadı, aşdı o,
Ölüm-qalım arasında çaşdı o.
Çabaladı, qaynar sutək daşdı o,
Atı vuran ər sayılmır döyüşdə.

Bizuc boyun damarını dəlmişdi,
Dəmir geyim qızıl qanla dolmuşdu.
O, torpağı qucaqlayıb ölmüşdü,
Atı vuran ər sayılmır döyüşdə.

Mindi Turər onun çil-çil atını,
Yardı Asur sırasını, qatını.
Bunca bitdi Suər-Asur yardımı,
Atı vuran ər sayılmır döyüşdə.

***

Suər üstə götürüldü çil-çil at,
Yurdu satan satqın olur ikiqat.
Uruyurdu o satmışdı Asura,
Yurdu satan satqın olur ikiqat.

Suər qaçır, Turər onun dalınca,
Qaçır, qaçır, at ayaqdan qalınca.
Suər satqın, qalanlar da oyuncaq,
Yurdu satan satqın olur ikiqat.

Qapı açmır suərlərə Uruyurd,
Deyirlər ki, bu ölkəni sən unut.
Asur şahın yerlərinə sən qayıt,
Yurdu satan satqın olur ikiqat.

Turər girir Uruyurda öyüncək,
Hamı çıxır qabağına sevincək.
Qoşar qardaş, dınqırını çal görək,
Yurdu satan satqın olur ikiqat.

Qarşılayır Bölgəmici el-oba,
Hamı bilir öldürülüb Humbaba.
Bu bayramda atlar dönüb çap-çapa,
Yurdu satan satqın olur ikiqat.

Bölgəmici gətirirlər yaralı,
Saçlarında qan qurumu qaralıb.
Gözlər gülür, üzü isə saralıb.

Yurdu satan satqın olur ikiqat.

***

Basıq düşüb qovuldular Suərlər,
Güc deyənlər güclə yerə gumulur.
Uruyurda güclə yiyə duranlar,
Güc deyənlər güclə yerə gumulur.

Duzər gəldi, Turər şaha söylədi:
- Suər gəlib bizə quyruq yellədir.
Basıb tutduq, iki yüzü kölədir,
Güc deyənlər güclə yerə gumulur.

Ata dedi: - Bu yerləri yaxıblar,
Burdan qovduq, gedib ordan çıxıblar.
- Onlar bizə qardaş kimi baxırlar,
Güc deyənlər güclə yerə gumulur.

- Qardaş olan əl qaldırmaz qardaşa,
Qılınc çəkmək acıqana yaraşar.
Onlar bizlə üz-üzəydi, baş-başa,
Güc deyənlər güclə yerə gumulur.

***

Turər dedi: - Sən qal burda, mən gedim,
Bölgəmicə yardım kəsil o dedi -
Suər burda Uruyeri dar edib,
Güc deyənlər güclə yerə gumulur.

Bölgəmici sağalt, oğlum, sonra gəl,
Asur gəlsə döyüşə, gir əlbəhəl.
Bizdən başqa onun suçun kim bilər,
Güc deyənlər güclə yerə gumulur.

***

Tur Duzərdən atasını soruşdu,
Hər ölkənin ağsaqqalı, başçısı.
Duzər ona gördüyünü danışdı,
Hər ölkənin ağsaqqalı, başçısı.

O, Urunu gəzdi, yer-yer izlədi,
Acıqandan Bölgəmici gözlədi.
Asurlarla üzləşməyi gizlədi,
Hər ölkənin ağsaqqalı, başçısı.

- Buranı ver Asurelə, gəl, Duzər,
Səni orda başçı qoyaq - dedilər.
Qız, gəlin də öz yerində hərtəhər.
Hər ölkənin ağsaqqalı, başçısı.

Dedilər ki, Bölgəmici boğ qurtar,
Öz zirvəndə otur, yaşa, a qartal.
Gör burada nə gözəllər, nələr var,
Hər ölkənin ağsaqqalı, başçısı.

Uruyerin dörd yanında hər gecə,
Salırdılar gənc Duzəri gilincə.
Qılınc çəkir Duzər onlar gəlincə,
Hər ölkənin ağsaqqalı, başçısı.

Ələ ala bilmirdilər Duzəri,
Asurlular qayıdırdı boş geri.
Düzər bunca gözləyirdi hər yeri,
Hər ölkənin ağsaqqalı, başçısı.

***

Şah sağaldı, sağalmadı, Yengisoy,
Bu özü də böyük tanrı işidir.
Yengisoyun yaraları az idi,
Bu özü də böyük Tanrı işidir.

Dedilər ki, yığışıblar Tanrılar,
Söyləyiblər iki ərdir yanbayan.
İkisində birgə Tanrı gücü var,
Bu özü də böyük Tanrı işidir.

Söyləyiblər, biri qalsa yaxşıdır,
Birgə olsa onlar bizə qarşıdır.
Onlar indi yerdə başlar başıdır,
Bu özü də böyük Tanrı işidir.

Belə olsa, bizi saymaz el-oba,
Pisdiklilər yerdə-göydə at çapar.
İtər, batar öncül, öndər dal-qabaq.
Bu özü də böyük Tanrı işidir.

Söyləyiblər, Yengisoyu götürək,
Yerdə artan tanrılığı bitirək.
Gücü təkcə Bölgəmicə ötürək,
Bu özü də böyük Tanrı işidir.

Bölgəmici Düzər yer-yer bəslədi,
Onun yerdən durmağını gözlədi.
Gecələrsə acıqanı izlədi,
Bu özü də böyük Tanrı işidir.

Yengisoy söyləncі

Ana üç ay şahlıq etdi Başevdə,
Çətin gündə qardaş gərək, güc gərək.
Yengisoyu sağaltmağa girişdi,
Çətin gündə qardaş gərək, güc gərək.

Üç ay çəkdi, şah göz açdı, sağaldı,
Yengisoyun ağrıları çoxaldı.
Şah başevdə yalqız qaldı, tək qaldı,
Çətin gündə qardaş gərək, güc gərək.

Dedi: - Düzər, bunlar gücdə qoşadır,
Bu Yengisoy sağalana oxşamır.
Elə bil ki, ölüb, daha yaşamır,
Çətin gündə qardaş gərək, güc gərək.

Bunu deyib Nənso bərkdən çığırdı,
Bölgəmici Yengisoyu çağırdı.
Gah ağladı, gah qışqırıb bağırdı,
Çətin gündə qardaş gərək, güc gərək.

Dedi: - Düzər, oğlum onsuz qalanmaz,
Bu Uruyer Yengisoysuz qalanmaz.
Günlərimiz onsuz-bunsuz dolanmaz,
Çətin gündə qardaş gərək, güc gərək.

Bir gün oğlum dedi: - Ana, gəlmişəm,
Yuxumu yoz, ağır yuxu görmüşəm.
Görmüşəm ki, məni çəkir dağ, meşə,
Çətin gündə qardaş gərək, güc gərək.

***

Dedim: - Oğlum, sən hər yerdə basarsan,
Basarları çox da sevmir tanrılar.
Tanrılaşdın Uruyerdə Tanrıtək,
Basarları çox da sevmir tanrılar.

Mənim oğlum yarıtanrı oğuldur,
Qılıncıyla çox toplumlar dağıldı.
El-obalar dörd yanına yığıldı,
Basarları çox da sevmir tanrılar.

Tanrı qızı İştar ona vuruldu,
"Sevgi" deyib, "gəl" deməkdən yoruldu.
Oğlum isə ondan qaçdı, ayrıldı,
Basarları çox da sevmir tanrılar.

Oğlum deyib: - Sən gəzərgi, ötərgi,
Gərək deyil İştar mənə bu sevgi.
Minik verməz əgriyüyən üzəngi,
Basarları çox da sevmir tanrılar.

İştar yanıb bu sözlərdən qovrulub,
Sınıq düşüb, könlü, gözü daralıb.
Tüstüləşib, göy üzünə sovrulub,
Basarları çox da sevmir tanrılar.

Atasına olanları danışıb,
Yalvararaq ətəyindən yapışıb,
Ata Tanrı bu işlərə qarışıb,
Basarları çox da sevmir tanrılar.

***

Bunlar çatıb ana tanrı Anuya,
Ana tanrı öncə düşüb qorxuya.
Sonra girib bir qorxulu qurğuya,
Basarları çox da sevməz tanrılar.

O, acıqdan dəli kimi bağırıb,
"Yardım" deyib tanrıları çağırıb.
Boz palçıqdan bir "Yengisoy" yoğurub,
Basarları çox da sevmir tanrılar.

Bunu deyib öncə ata tanrıya,
Sonra atıb o palçığı, Uruya,
Bunca göydə Tanrıları qoruya,
Basarları çox da sevmir tanrılar.

***

Düzər balam, sən də mənim bir oğlum,
Qadın öcü ağır olur yamanca.
Bu öc böyük qan-qadalar yaradır,
Qadın öcü ağır olur yamanca.

Mənim balam bu öcü də addadı,
Çox əlləri, çox dizləri qatdadı.
İştar-Antu acığını oddadı,
Qadın öcu ağır olur yamanca.

Sonra necə… Oğlum belə danışdı,
Dedi, palçıq yerdə aytək sayrışdı.
Adam olub çöllüklərə qarışdı,

Qadın öcü ağır olur yamanca.

***

Yarıtanrı, yarı tüklü Yengisoy,
Yarıtanrı göyün, yerin oğludur.
Yırtıcılar Yengisoya baş əyir,
Yarıtanrı yerin, göyün oğludur.

Qayaların yarıqları oyması,
Dağlar, daşlar onun isti daxması.
Qan ayqıran yırtıcılar doğması,
Yarıtanrı yerin, göyün oğludur.

Dağı, daşı, suyu, otu qoruyur,
Hamı olub hamılığa yarıyır.
Dilsizlərin yarasını sarıyır,
Yarıtanrı yerin, göyün oğludur.

***

Qorxu salır Uruyerə Yengisoy,
Qorxaq var ki, qorxur gələn qorxudan.
Gəlib ondan hərə bir söz danışır,
Qorxaq var ki, qorxur gələn qorxudan.

Dağ-daş, yer, göy Yengisoydan asılı,
Onu görən naxırçılar sarsılır.
Mal-qaraya, yan-yörəyə qısılır,
Qorxaq var ki, qorxur gələn qorxudan,

Bir naxırçı atasına danışır,
O, qurd minir, yırtıcıyla çarpışır.
İri-iri qaplanlarla qapışır,
Qorxaq var ki, qorxur gələn qorxudan.

***

Ovçuların çələsini qırır o,
Dilli, dilsiz yaranışdır, toxunma.
İlxıları at-at minib çapır o,
Dilli, dilsiz yaranışdır, toxunma.

Qoymur budaq, ağac, kol-kos sındırım,
Ağac kəsim, bir od-ocaq qalayım.
O, bir dağdır, bir qayadır, sıldırım,
Dilli-dilsiz yaranışdır, toxunma.

Ata dedi: - Get Uruya bu gecə,
Bölgəmici soruş, onu görüncə,
Söylə: Necə günün düşüb gilincə,
Dilli, dilsiz yaranışdır, toxunma.

***

Bölgəmicə ağız-ağız çatdı bu,
Yaxşı olar, aldadasan güclünü.
Aldat, - dedi, - gör bu kimdir, nəçidir,
Yaxşı olar, aldadasan güclünü.

Çağırtdırdı o, yanına Şamxatı,
Onun üzü, baxışları parıltı.
Başa saldı o, gözəli dilaltı,
Yaxşı olar, aldadasan güclünü.

Dedi: - Şamxat, gözəlliyin ötməyib,
Birisi var, ona dad-duz yetməyib.
Bir yol gözəl arxasınca getməyib,
Yaxşı olar, aldadasan güclünü.

***

Dedi: - Aldat, onu gətir Uruya,
Sən gözəlsən, ürək çəkir gözəllik.
Səni görcək o, vurulub sınacaq,
Sən gözəlsən, ürək çəkir gözəllik.

Ancaq çalış qoru ondan özünü,
Bir üzün var, sən beş elə üzünü.
Bu gözlərlə aldadarsan yüzünü,
Sən gözəlsən, ürək çəkir gözəllik.

Şamxat güldü, yola düşdü çöllərə,
Çöllər bütün bürünmüşdü güllərə.
Əl elədi, dağa gedən yellərə,
Sən gözəlsən, ürək çəkir gözəllik.

***

Şamxat yaman qılıqlıydı, çəkimli,
Qılıq çəkər öz qoynuna daşı da.
Yengisoyun gözlərinə göründü,
Qılıq çəkər öz qoynuna daşı da.

Öncə qorxdu Yengisoydan, yıxıldı,
Ağ gövdəsi, daş ürəyi sıxıldı.
Onu görüb ərən yandı, yaxıldı,
Qılıq çəkər öz qoynuna daşı da.

O, yaxına gəldi, gördü qol-qıçı,
Ağca döşü, ağca boynu, ağ qucu.
Bir də gördü göz süzülüb, iç uçub,
Qılıq çəkər öz qoynuna daşı da.

***

Ata deyib: Çox inanma qılığa,
Səni pozan yaltaqlıqdır, qılıqdır.
Dörd yanında neçə-neçə qılıq var,
Səni pozan yaltaqlıqdır, qılıqdır.

Qadınların qılığı var, ötürmə,
Kişilərin qılığını götürmə.
Qılıqları yurd-yuvana gətirmə,
Səni pozan yaltaqlıqdır, qılıqdır.

Qılıq çoxdur, yağlı, quru, yalıncaq,
Qoyma gəlsin addım-addım dalınca.
Qov, sənlə baş qoymasın balınca,
Səni pozan yaltaqlıqdır, qılıqdır.

***

Bir gün Şamxat Yengisoya söylədi,
- Bizi yuntək yumuşaldan sevgidir.
Sən uzaqlaş daha qurddan, qaplandan,
Bizi yuntək yumuşaldan sevgidir.

Nə görübsən bu meşədə, dağ-daşda,
Uzaq gəzmə sevgilidən, qardaşdan.
Uruyerə yola düşək o başdan,
Bizi yuntək yumuşaldan sevgidir.

Bölgəmicdir Uruyerin yiyəsi,
O ərəndir yer üzünün zirvəsi.
O, kölədir, el də onun köləsi,
Bizi yuntək yumuşaldan sevgidir.

***

Yengisoya acıq gəldi bu sözlər,
Başbilənə başbilənlər baş əyməz.
Qoyub getdi o Şamxatı düzəndə,
Başbilənə başbilənlər baş əyməz.

Gördü onun ayaqları tutulub,
Elə bil ki, saçı, tükü ütülüb.
Qurdlar yoxdur, unudulub, atılıb,
Başbilənə başbilənlər əyilməz.

Üz döndərib hamı ondan, bilmədi,
Çox çağırdı dilsizləri, gəlmədi.
Şamxat ona güldü, osa gülmədi,
Başbilənə başbilənlər əyilməz.

***

O, qayıtdı baş əyərək Şamxata,
Pis günə də qoyar sevgi sevəni.
Dedi: - Məni atma, gözəl sevgilim,
Pis günə də qoyar sevgi sevəni.

Dedi: - Məni Uruyerə apar sən,
Gedim orda Bölgəmici görüm mən.
Gəlim bir az mən özümə yenidən,
Pis günə də qoyar sevgi sevəni.

- Sənə görə - dedi - düşüb hay-haray,
Üz döndərib məndən ilxı, mal-qara.
Çəkiliblər zirvələrə, dağlara,
Pis günə də qoyar sevgi sevəni.

***

- Yalvarıram, məni apar özünlə,
Söz verirəm, mən çıxmaram sözündən.
Mən taparam öz gücümü dözümdə,
Pis günə də qoyar sevgi sevəni.

- Uruyerdə çox-çox gözəl qadın var,
Məndən dadlı, məndən ağdır o qızlar.
Görüb məni atacaqsan, a sonqar,
Pis günə də qoyar sevgi sevəni.

- Səndən özgə olmayacaq Şamxatım,
Sənsiz yoxdur mənim qolum-qanadım.
- Yoxdur sənin nə geyimin, nə atın,
Pis günə də qoyar sevgi sevəni.

***

Qurd dərisi, bir də ki at tapdılar,
İç də, çöl də dəyişilir geyimlə.
Geyindilər Uruyerə çapdılar,
İç də, çöl də dəyişilir geyimlə.

Yengisoyu görən qorxdu, diksindi,
Elə bil ki, yuxudaydı, səksəndi.
Gözü iti, görünüşü kəskindi,
İç də, çöl də dəyişilir geyimlə.

Sanki qovaq ağacıydı Yengisoy,
Enlikürək, tüklüboyun, ucaboy.
Qol-qıçının çəkimləri oymatov,
İç də, çöl də dəyişilir geyimlə.

Uruyer söyləncі

Sevinc dolu söyləncе idi Uruyer,
Dağ görəndə ürək dönüb dağ olur.
Dörd bir yanı uca kərpic hörmələr,
Dağ görəndə ürək dönüb dağ olur.

Böyük taxıl saxlanc evi görünür,
Tanrıların tək-tək evi nə hündür.
Uruyerə gələn-baxan öyünür,
Dağ görəndə ürək dönüb dağ olur.

Ninəsovun evi tunc-tunc hörmədən,
Keçmək olmur ara ora girmədən.
Nə görübsən bu yerləri görmədən,
Dağ görəndə ürək dönüb dağ olur.

***

Nənsov ona söyləyirdi bunları,
Söyləncləri ana duzlu danışar.
Düzər ona qulaq asır maraqla,
Söyləncləri ana duzlu danışar.

Dedi: - Oğlum, düzər, dinlə sən məni,
Danışıram sənə oğlum deyəni.
Mən deyəni el-obalar bəyənir,
Söyləncləri ana duzlu danışar.

Yazı yazım bu gün Turər qardaşa,
İzn istəyim, sən bizimlə qal, yaşa.
Bölgəmiclə qardaş olun baş-başa,
Söyləncləri ana duzlu danışar.

***

Çox danışıb deyən səni yormuşam,
Qalır elin danışığı, yazısı.
Dediklərim həm qalıncdır, həm öyüd,
Qalır elin danışığı, yazısı.

Sən bunları ürəyinə yaz, qoru,
Mən də palçıq görülərə qazdırım.
Keçmişləri gələcəyə yazdırım,
Qalır elin danışığı, yazısı.

Bölgəmicin anasıyam bil ki mən,
Bu Başevdə sən çəkinmə heç nədən.
Çox sevindim burda səni görəndən,
Qalır elin danışığı, yazısı.

***

Göydən bura gəldi Yengisoy,
Göydən düşən yarıtanrı adamdır.
Qıllı idi: boynu, başı, kürəyi,
Göydən düşən yarıtanrı adamdır.

Yonulmuşdu sanki daşdan, dəmirdən,
Qızarmışdı sanki qızmar təndirdə.
O, baxırdı bizə bir az hündürdən,
Göydən düşən yarıtanrı adamdır.

İlk baxışdan oğlum onu bəyəndi,
Yarıtanrı gəlişinə güvəndi.
Dedi ona, yarış qoyaq, gəl indi,
Göydən düşən yarıtanrı adamdır.

***

Öncə baxıb bir-birinə güldülər,
Güc gələnlər qardaş olsa yaxşıdır.
Ürəklərdən öc-acığı sildilər,
Güc gələnlər qardaş olsa yaxşıdır.

Güləşdilər, tutaşdılar, daşdılar,
Eşələnib, yumalanıb aşdılar.
Bu yarışa qılınc, topbuz qoşdular,
Güc gələnlər qardaş olsa yaxşıdır.

Yarış artdı, döndü döyüş yerinə,
Qan qarışdı hərdən alın tərinə.
Bağırdılar hərdən biri-birinə,
Güc gələnlər qardaş olsa yaxşıdır.

***

Qorxunc idi ilk baxışda Yengisoy,
İçi yuxa olur qorxunc görünən.
Bölgəmic də tutarlıydı, yenilməz,
İçi yuxa olur qorxunc görünən.

Eşələndi, qum üst-üstə qalandı,
Qucaq-qucaq oldu, yana tullandı.
Yorğun düşdü, qollar yerə sallandı,
İçi yuxa olur qorxunc görünən.

Urululer maraqlandı qoçaqla,
Çiyni tüklü, boynu tüklü qonaqla.
Gülüb onu göstərdilər barmaqla,
İçi yuxa olur qorxunc görünən.

***

Onlar on gün yarışdılar durmadan,
Yarış, gülən hamılıqda sevincdir.
Ellər baxıb atıldılar, düşdülər,
Yarış, güləş hamılıqda sevincdir.

Hey tükəndi, güc qurtardı qoçlarda,
Dözüm dizdən, durum yorğun qıçlarda.
Qan, tər, palçıq sallanmışdı saçlardan,
Yarış, güləş hamılıqda sevincdir.

Mən atıldım arasına onların,
Dedim: - Durun, üz-gözünüz sapsarı.
Bir dincəlin, ara verin siz, barı,
Yarış, güləş, hamılıqda sevincdir.

***

- İnnən belə - dedim - qardaş olunuz,
Bir qılınc qaldırsın iki qolunuz.
Qoy bir olsun hər bir yerdə yolunuz,
Qardaş olun başarlıqdır qardaşlıq.

Bax, o gündən bunlar qardaş oldular,
İsinişib bir-birinə qaldılar.
Döyüşlərdə bir yumruqlu qoldular,
Qardaş olun, başarlıqdır qardaşlıq.

Yüz il keçdi, qurtarmadı vuruşlar,
Yüz il döyüş, başar-başa yarışlar.
Qan-qadalar, çox ölümcül barışlar,
Qardaş olun, başarlıqdır qardaşlıq.

***

İndi budur, yaralıdır qardaşlar,

Bərk yaranı tez sağaldan Tanrıdır.
Oğlum, sən də bir yardım et bunlara,
Bərk yaranı tez sağaldan Tanrıdır.

Bölgəmicə qımıs içirt, sağalsın,
Ürəyində at durumu çoxalsın.
Ağrıları, sızıltısı yoxalsın,
Bərk yaranı tez sağaldan Tanrıdır.

Sildi, yudu yaraları Düzər də,
Qol-qıç, gövdə əzilmişdi yüz yerdən.
Dava-dərman daşıdılar şəhərdən,
Bərk yaranı tez sağaldan Tanrıdır.

"Sev" tanrısı İştar söyləncі

Bir ay çəkdi, sağaldılar qardaşlar,
Sağalanda qol güclənir ikiqat.
Yeyib, içib dincəldilər bir az da,
Sağalanda qol güclənir ikiqat.

"Sev" tanrısı gözəl İştar yellənib,
Humbabanın ölümündən şellənib.
Toyuq kimi eşələnib, küllənir,
Sağalanda qol güclənir ikiqat.

"Sev" tanrısı gözəl İştar udqunur,
O, aldadıb sevgi ilə çoxunu.
Bu yol atır Bölgəmicə oxunu,
Sağalanda qol güclənir ikiqat.

***

Nə yaxşı ki, tanrılar da sevirlər,
Əl çatmazdır Ulu Tanrı sevgisi.
Sidr ağacı, Humbabanın ölümü,
Əl çatmazdır Ulu Tanrı sevgisi.

Bu soraqdan "Sev" tanrısı qıvrılır,
Uzaqlardan Bölgəmicə vurulur.
Bu sevgidən odlanaraq qovrulur,
Əl çatmazdır Ulu Tanrı sevgisi.

Sevgisilə Uruyerə qaçır o,
Dörd yanına işıq, sevinc saçır o.
Bölgəmicə sevgisini açır o,
Əl çatmazdır, Ulu Tanrı sevgisi.

***

Bölgəmicin qarşısında bitir o,
Tanrım, qadın belə gözəl olarmış?
İştar gəlib qucaqladı ərəni,
Tanrım, qadın belə gözəl olarmış?

Axdı böyük Bölgəmicin gözləri,
Gözəllikdən tir-tir əsdi dizləri.
Ağzındasa laxlam-laxlam sözləri,
Tanrım, qadın belə gözəl olarmış?

- Gözəl, kimsən, kimlərdənsən, - söylədi,
İştar onu öpüşlərə bələdi.
Göz yaşını bulud kimi ələdi,
Tanrım, qadın belə gözəl olarmış?

***

- Mən İştaram, sev tanrısı gözəli,
Sevgi gəlib, gör nə yerə yüksəlib,
Mən sevgidə, sevgi məndə bəzənib,
Tanrım, qadın belə gözəl olarmış?

- Ah, çaşdırdın məni Tanrı, beləcə,
Bu sevgidir, ya bəzəkli əyləncə?
Niyə çaşdım, döndüm bunca gülüncə?
Tanrım, qadın belə gözəl olarmış?

Səni çoxdan tanıyıram, yüz ildir,
Bu gözəllik hələ sevgi deyildir.
Səndə tez-tez dəyişilən əklildir,
Tanrım, qadın belə gözəl olarmış?

***

-Yox, Bölgəmic, səni çoxdan sevirəm,
Sevgi oddur, gül-çiçəyə bənzəməz.
Humbabanı sən oturtdun yerində,
Sevgi oddur, gül-çiçəyə bənzəməz.

Sən neçə yüz döyüşlərin başarı,
Sən evlərin, qapıların açarı.
Sən yerlərin, sən göylərin çaparı,
Sevgi oddur, gül-çiçəyə bənzəməz.

Mən sevirəm səni, bil ki, ürəkdən,
Məni soruş dağda bitən çiçəkdən.
Uruyerdən gəlib keçən küləkdən,
Sevgi oddur, gül-çiçəyə bənzəməz.

- Mən bilirəm, sən gözəlsən, Tanrısan,
Ancaq məni deyən, sarsaq sanırsan.
Sən həm balsan, həm də sancan arısan,
Sevgi oddu, gül-çiçəyə bənzəməz.

***

Sən çox üzlər, çox oyunlar görmüsən,
Duru olsun gərək sevən, sevilən.
Sevgi deyib yana-yana gəlmisən,
Duru olsun gərək sevən, sevilən.

Sev tanrısı olsan da sən, nə bilim,
Sevgi nədir, bilməyirsən, gözəlim.
Sən alçaltdın çoxlarını sevəli,
Duru olsun gərək sevən, sevilən.

Bölgəmicəm, mən sevirəm düz sözü,
Bir bəzəksiz gözəl qızda var gözüm.
İştər gəlsin sənin kimi yüz yüzü,
Duru olsun gərək sevən, sevilən.

***

- Mən sevirəm səni, böyük Bölgəmic,
Qurdalasan, keçmiş vardır hamıda.
Bağışlasan daha sənin olaram,
Qurdalasan, keçmiş vardır hamıda.

O, yox dedi, tanrı qızı qırıldı,
Çiçək olub Bölgəmicə sarıldı.
Qız "məni al" söyləməkdən yoruldu,
Qurdalasan, keçmiş vardır hamıda.

İştar yandı, acığından qızardı,

Sevgisindən utanaraq sozardı.
Sonra qalxıb Bölgəmicə bozardı,
Qurdalasan, keçmiş vardır hamıda.
***
Dedi: - Səndən öc alaram Bölgəmic,
Sevən olsa, sevgilidən öc almaz.
Bunu dedi qız atası Antuya,
Sevən olsa, sevgilidən öc almaz.

Böyük Tanrı Antu dedi Vursoya,
- Get Uruya, Bölgəmici al boya.
Sən qoy orda yarıtanrı soy-saya,
Sevən olsa, sevgilidən öc almaz.

Vursoy gəlib adamlara qarışdı,
Gizlənərək Bölgəmici soruşdu.
Onu ağac əkən görüb yanaşdı,
Sevən olsa, sevgilidən öc almaz.
***
Dedi: Səni öldürməyə gəlmişəm,
Gərək kişi alçaltmasın sevgini.
Alçaldıbsan Tanrı qızı İştarı,
Gərək kişi alçaltmasın sevgini.

- Mən Vursoyam, baş əy, mənim qarşımda,
Yoxsa topbuz əkəcəyəm başında.
Neçə ox da o sıx, çatma qaşında,
Gərək kişi alçaltmasın sevgini.

- Bölgəmicəm, bel, yaba var çiynimdə,
Tunc geyimim yoxdur bu gün əynimdə.
Gəl güləşək, el-obanın önündə,
Kişi gərək alçaltmasın sevgini.
***
- Mən Vursoyam, qılıncyarmaz, oxbatmaz,
Tanrı verir ölməzliyi oğluna.
Qurd dərisi, at dərisi əynimdə,
Tanrı verir ölməzliyi oğluna.

Mən Vursoyam, güləş-müləş bilmərəm,
İti yaraq işlətsən də ölmərəm,
Göydən gələn yarıtanrı bir ərəm,
Tanrı verir ölməzliyi oğluna.

Düzər gəldi Yengisoyla yanaşı,
Dedi: Mənəm, Bölgəmicin qardaşı.
- Güləş ilə - dedi - başla savaşı,
Tanrı verir ölməzliyi oğluna.
***
- Öncə sənlə vuruşuram onda mən,
Ərən kimdir, döyüşəndə bəllənər.
Odlu oxla Duzər vurdu Vursoyu,
Ərən kimdir, döyüşəndə bəllənər.

Atdı at-qurd dərisindən geyimi,
O, soyundu, tez lüt qaldı əyini.
Söydü onu öz-özünə deyinib,
Ərən kimdir, döyüşəndə bəllənər.

Qarmaladı Bölgəmicin əlini,
Bölgəmic də onun yoğun belini.
Çağırdılar Uruyerin elini,

Ərən kimdir, döyüşəndə bəllənər.

***

Ayaqları onun yerdən üzüldü,
Dəydi yerə qolu, beli əzildi.
Sağrılarda, ayaqlarda sızıltı,
Ərən kimdir, döyüşəndə bəllənər.

Əllər dəmir caynaq, qollar məngənə,
Güləşdilər üç gün, dörd gün, beş günə.
Əllər qabar, dabanlarsa döyənək,
Ərən kimdir, güləşəndə bəllənər.

El baxırdı, Bölgəmici öyürdü,
Vursoyusa acığından söyürdü.
Ana, bacı dizlərinə döyürdü,
Ərən kimdir, güləşəndə bəllənər.

***

Altıncı gün aralandı ərənlər,
Yoruldunsa, günaşırı ye, dincəl.
Vursoy gedib paltarını geyindi,
Yoruldunsa, günaşırı ye, dincəl.

Ancaq onun paltarları yanmışdı,
Güləş nədir, Vursoy indi qanmışdı.
Qızğınlığı sanki bir az sönmüşdü,
Yoruldunsa, günaşırı ye, dincəl.

Yengisoy da durub çıxdı irəli,
Gördü onun dar gözləri bərəlib.
Döşü, boynu qayış kimi gərilib,
Yoruldunsa, günaşırı ye, dincəl.

***

Bundan sonra qılınclaşma başladı,
Çox savaşa iti qılınc son qoyur.
Vuruşdular, şaqqıldadı yaraqlar,
Çox savaşa iti qılınc son qoyur.

Cingildədi, danqıldadı yaraqlar,
Bağırtıdan tez-tez batdı qulaqlar.
Tərpənirdi, titrəyirdi dodaqlar,
Çox savaşa iti qılınc son qoyur.

Yengisoyun qorxunc səsi partladı,
Vursoy qorxdu, sanki bağrı çatladı.
Topbuz dəydi, beli bükdü, qatladı,
Çox savaşa iti qılınc son qoyur.

***

Göydən Tanrı Uruyerə baxırdı,
Yerdə Tanrı, yarıtanrı adamlar.
Dedi, bunlar iş açacaq bizlərə,
Yerdə Tanrı, yarıtanrı adamlar.

Tanrı dedi: - İki qardaş yamandır,
İkisindən biri qalsın, amandır.
Çox güclü var, güclərini dayandır,
Yerdə Tanrı, yarıtanrı adamlar.

Dedi: - Gərək Yengisoyu götürəm,
Öldürərək son evinə ötürəm.
Bölgəmicin hay-küyünü bitirəm,

Yerdə Tanrı, yarıtanrı adamlar.

***

Ayıq idi yarıtanrı Yengisoy,
Dincev olur, ölüm göydən gəlirsə.
O, Tanrının sözlərini eşitdi,
Dincev olur, ölüm göydən gəlirsə.

Yuxuda da bunu deyib gördü o,
Çox düşündü, öz-özünü yordu o.
Bölgəmicə bundan soraq verdi o,
Dincev olur, ölüm göydən gəlirsə.

Bölgəmicin göz yaşları töküldü,
Tel-tel ürək damarları söküldü.
Qarğışları buludlara çəkildi,
Dincev olur, ölüm göydən gəlirsə.

***

Çox yalvardı tanrılara, olmadı,
Adam kimi dargöz olur Tanrı da.
Uruyerdə ağlaşmalar, ağılar.
Adam kimi dargöz olur Tanrı da.

Yengisoyun qanı-suyu çəkildi,
Dağ boyda ər yavaş-yavaş kiçildi.
Çox çəkmədi, əyni-başı töküldü,
Adam kimi dargöz olur Tanrı da.

Nənso ana çox yalvardı-yaxardı,
Ağlamaqdan kirpikləri ağardı.
Göy tutuldu, qaldı soyuq ağartı,
Adam kimi dargöz olur Tanrı da.

***

Qara geydi, bir il susdu Uruyurd,
Ağlamaqla heç bir ölü dirilməz.
Baş götürüb getdi dağa Bölgəmic,
Ağlamaqla heç bir ölü dirilməz.

Bölgəmicin artdı acı-ağrısı,
Artdı çöldə çiçəklərin sarısı,
Güldü təkcə buna ölüm Tanrısı,
Ağlamaqla heç bir ölü dirilməz.

Duzər dedi: - Qayıdıram Minelə,
Nənso dedi: - Getmə, dayan sən hələ.
Get sən onu gətir, getsən, o gələr,
Ağlamaqla heç bir ölü dirilməz.

***

Duzər getdi Bölgəmicin dalınca,
Dağın çoxsa, dağlara get, dağı boğ.
Oturdular tutqun Duzər, Bölgəmic,
Dağın çoxsa, dağlara get, dağı boğ.

Duzər dedi: - Getməz qardaş yarası,
Sən atamsan, sən atamın arxası.
Sən ellərin gözlərinin qarası,
Dağın çoxsa, dağlara get, dağı boğ.

El gözləyir, anan hər gün saç yolur,
Dayanışın yaxşılığa çox yolu.
Gərək sənlə qardaş olum, var olur,
Dağın çoxsa, dağlara get, dağı boğ.

***

Tək getmişdi, qoşalaşıb qayıtdı,
Ağrı, acı, sevincsoydur yaşamaq.
Ana dedi: - Qardaş olun bu gündən,
Ağrı, acı, sevincsoydur yaşamaq.

Qardaş oldu Sumər ilə Minelli,
Yapışdılar bir-birindən dördəlli.
İkisi də bir içimli, bir dilli,
Ağrı, acı, sevincsoydur yaşamaq.

Ov, qonaqlıq, dağ, gəzinti, duz, cıdır,
İki qardaş uzaqlara at çapır.
Çiçək gülür, gül qoxuyur çöl, sıdır,
Ağrı, acı, sevincsoydur yaşamaq.

***

Yuxu gördü bir gün böyük Bölgəmic,
Olacağın güzgüsüdür yuxular.
Gördü yaman acıqlıdır Yengisoy,
Olacağın güzgüsüdür yuxular.

Dedi: - Qardaş, ayrı düşdük biz yaman,
Odevdəsən, dincevdəsən, hardasan?
Mən də gəlim, orda gəzək yanbayan,
Olacağın güzgüsüdür yuxular.

Dedi: - Gəlmə, bura tozdur, palçıqdır,
Mən də, burda olanlar da yazıqdır.
Ölümlərdən acıqlıdır, yanıqdır,
Olacağın güzgüsüdür yuxular.

Dedi: - Burda ev tikənlər seçilir,
İmic burda işçilliklə biçilib.
Çox uşaqlı atalarla ölçülür,
Olacağın güzgüsüdür yuxular.

Kim yurd salıb, yuva tikib sayındır,
Burda onun yarı dincdir, qayımdır.
Qan tökənin işi qumla oyundur,
Olacağın güzgüsüdür yuxular.

Dedi: - Məndən daha heç nə soruşma,
Dedi: - Gəlmə, toz-torpağa qarışma.
Ölüm budur, sən ölümlə barışma,
Olacağın güzgüsüdür yuxular.

***

O yerləri bəyənmədi Bölgəmic,
Yox, bu yerlər o yerlərdən yaxşıdır.
Çox deyirdi, gedim qardaş yanına,
Yox, bu yerlər o yerlərdən yaxşıdır.

Dedi: - Orda toz-torpaqdır, töküntü,
Toz-torpaqdan, töküntüdən çəkindi.
Çox düşündü, gözləncləri tükəndi,
Yox, bu yerlər o yerlərdən yaxşıdır.

Dedi: - Gərək bu ölümdən qaçam mən,
Niyə gərək az yaşayam mən, nədən?
Ulu yaşam mən gəzərəm bu gündən,

Yox, bu yerlər o yerlərdən yaxşıdır.

Ölümsüz yaşam söyləncі

Otanapişt ölməz idi, yenilməz,
Təkcə Tanrı ölməz olur, yenilməz.
Enlil ona ölməzliyi vermişdi,
Təkcə Tanrı ölməz olur, yenilməz.

Otanapişt haradadır, harada,
Mənə əl tut, el Yaradan, Yaradan.
Mən ölməzlik alım, durum sırada,
Təkcə Tanrı ölməz olur, yenilməz.

Bölgəmiclə Duzər yola çıxdılar,
Yeri, yurdu axtardılar, baxdılar.
Ayla batıb günəş ilə doğdular,
Təkcə Tanrı ölməz olur, yenilməz.

***

Ayaq yeri yoxdur uzaq yollarda,
Yol get, səni yol bir yerə çıxardar.
Duzər dedi: - Duraq, deyən azmışıq,
Yol get, səni yol bir yerə çıxardar.

Üç yay, qış, yaz yorulmadan getdilər,
Dağlıqlarda, meşələrdə itdilər.
Çay atdayıb dənizləri ötdülər,
Yol get, səni yol bir yerə çıxardar.

Kim yetişdi, dedi: "Böyük Siduri",
Bir yaşıl dağ ətəyində oturur.
Özünüzü o Tanrıya yetirin,
Yol get, səni yol bir yana çıxardar.

***

- Aldadırlar bizi, - dedi Bölgəmic,
Ölməz adam yoxdur deyən heç yanda.
Gəl qayıdaq, gündoğana yol alaq,
Ölməz adam yoxdur deyən heç yanda.

Duzər dedi: - Odur, uca Yaşıldağ.
Gərək bir də aşırımı biz aşaq.
Gecə burda yataq, qalaq baş-başa,
Ölməz adam yoxdur deyən heç yanda.

Yaşıl dağlar çoxdur, yollar dolambac,
Burda sanki bir söyləncdir hər ağac.
Quşlar mahnı, mahnılarsa bir inanc,
Ölməz adam yoxdur deyən heç yanda.

***

Önlərinə bir dev çıxdı çomaqlı,
Yol doludur gözlənilməz olayla.
Palazqulaq, dəvədodaq, danagöz,
Yol doludur gözlənilməz olayla.

Palazqulaq yolu kəsdi çomaqla,
Duzər çıxdı qabağına yaraqla.
Palazqulaq onu vurdu toxmaqla,
Yol doludur, gözlənilməz olayla.

Dedi: - Necə gəlib çıxdın bu yerə,
Keçilməzdir bura, qorxunc dağ-dərə.
Burdan yol var yer altına, göylərə,
Yol doludur gözlənilməz olayla.

***

Palazqulaq kələzləndi hər yana,
Yol kəsənin gərək başı kəsilsin.
Duzər qılınc oynadaraq söylədi,
Yol kəsənin gərək başı kəsilsin.

Palazqulaq çomağını tovladı,
Gələnləri nəriltiylə hoyladı.
Qızılatı, çil-çilatı qovladı,
Yol kəsənin gərək başı kəsilsin.

Dedi: - Burdan keçə bilməz qaplanlar,
Sənin kimi sütül-mütül oğlanlar.
Keçə bilməz yar-yaraqlı olanlar,
Yol kəsənin gərək başı kəsilsin.

***

O, daş atdı, Bölgəmicsə ox, bıçaq,
Dağdan gələn daş ən ağır ölümdür.
Oxlar devin gövdəsinə sancıldı,
Dağdan gələn daş ən ağır ölümdür.

Deşdi onu Bölgəmicin bizucu,
Qorxunc bir səs eşidildi bərk, acı.
Dev yıxıldı, dalüstə, ölümcül,
Dağdan gələn daş ən ağır ölümdür.

Birdən düşdü qar şəpəsi, buz, sazaq,
Uçdu atlar sanki yerdən qoparaq.
Hər yer qardır, hər yer buzdur ağappaq,
Dağdan gələn daş ən ağır ölümdür.

***

Birdən çıxdı lüt bir adam irəli,
Geyimsizin tutumu yox, adı yox.
Nə qadındır, nə kişidir, nə Tanrı,
Geyimsizin tutumu yox, adı yox.

Yaşıldağda Suduruyam - dedi - mən,
Ölməzliyi tapmaq üçün yol gələn.
Yarıtanrı Bölgəmicsən, deyəsən,
Geyimsizin tutumu yox, adı yox.

Mən bilirəm, sən ölümdən qorxubsan,
Ölməzliyi axtarmağa çıxıbsan.
Çox devləri, çox evləri yıxıbsan,
Geyimsizin tutumu yox, adı yox.

***

Ölməz olsan gərək susub qalasan,
Soyuq daşdır, yavan çörək ölməzlik.
Bircəsi var Otanapişt deyirlər,
Soyuq daşdır, yavan çörək ölməzlik.

Ölməz adam yeyib içmir, yuxlamır,
Coşub daşıb adam kimi çağlamır.
O, bir yol da içdən gülüb ağlamır,
Soyuq daşdır, yavan çörək ölməzlik.

Get Bölgəmic, ye, iç, yaşa, sev, sevin,

Sevinməyə sevgilin var, şah evin,
Şahlığınla, ərliyinlə get öyün,
Soyuq daşdır, yavan çörək ölməzlik.

***

O söylədi, bu söylədi, olmadı,
Nə olsa da tanrılıqdır ölməzlik.
Öyüdləri götürmədi Bölgəmic,
Nə olsa da tanrılıqdır ölməzlik.

Dedi: - Sən bax mənim adım-sanıma,
Məni göndər Otanaişt yanına.
O, ölməzlik qatsın qızıl qanıma,
Nə olsa da tanrılıqdır ölməzlik.

O söylədi, bu söylədi, susdular,
Ürəklərə hərdən qulaq asdılar.
Ürək dedi, ölməzlikdə dirrik var,
Nə olsa da tanrılıqdır ölməzlik.

***

Belə dedi Bölgəmicə Suduru,
Təkcə qalır ölməzliyə qovuşan.
Get Hindelə, orda olur Otanapişt,
Təkcə qalır ölməzliyə qovuşan.

Bölgəmiclə Duzər yola düşdülər,
Neçə ölkə, neçə şəhər keçdilər.
Yetişdilər o yerlərə birtəhər,
Təkcə qalar ölməzliyə qovuşan.

Orda neçə dağ qalxdılar, endilər,
Gah irəli, gah da geri döndülər.
İkisi də birgə durub dindilər,
Təkcə qalar ölməzliyə qovuşan.

***

Çox yol salın, çox yol gedin, yol yorun,
Yollar böyük yerin alınyazısı.
Yollar yerin üzündəki qırışlar,
Yollar böyük yerin alınyazısı.

Yol get sən də, bu yolları düz yaşa,
Dümdüzünü, əyrisini yüz yaşa.
Öz-özünlə əylən, barış, küs, yaşa,
Yollar böyük yerin alınyazısı.

Düz yol gətir öz evinə, əyri yox,
Əyrini qoy yolda, evdən bəri yox.
Yolu dəyiş, yaşadığın yeri yox,
Yollar böyük yerin alınyazısı.

***

Çox getdilər, çox yatdılar, durdular,
Yol aparır səni istək yerinə.
Sonda gəlib o ölməzə çatdılar,
Yol aparır səni istək yerinə.

Otanapişt oturmuşdu geyimsiz,
Quru yerdə, söykənəksiz, cecimsiz.
Arıqdan da arıq idi, cəlimsiz,
Yol aparır səni istək yerinə.

Baş əydilər, danışdılar hər işi,
Dedilər ki, keçib dağı, örüşü.

Uruyerdən, Mindiyardan gəlmişik,
Yol aparır səni istək yerinə.

***

Otanapişt dedi: - Bunu bilirdim,
Ölməzliyin ölməkdən pis günü var.
Ölümcülsən, ancaq ölə bilmirsən,
Ölməzliyin ölməkdən pis günü var.

Bunca çox yol gəlibsiniz, çox çətin,
Məncə gedin, yeyin, için, gül əkin.
Çox gözəldir, həm var olmaq, həm itim,
Ölməzliyin ölməkdən pis günü var.

Mən on min il qabaq düşdüm bu dağa,
Bura atdı məni "Böyük qasırğa".
Yer üzünü o döndərdi batlağa,
Ölməzliyin ölməkdən pis günü var.

İştar, Enlil mənə yardım etdilər,
Burda məni ölməz edib getdilər.
Ölməz olub onlar gözdən itdilər,
Ölməzliyin ölməkdən pis günü var.

Oturmuşam yağış altda, gün altda,
Gör-gör gözəl, əl-qol açıq, diz qatdam.
Ayrı düşdüm yer-yurdumdan, elatdan,
Ölməzliyin ölməkdən pis günü var.

On min ildir belə ölməz olmuşam,
Bu gedişə, görünüşə qalmışam.
İstəyimi tanrılara salmışam,
Ölməzliyin ölməkdən pis günü var.

***

Mən ölməzəm, on min ildir burada,
Ölməzliyin nə dadı var, nə duzu.
Yaşamağın yer sevinci uludur,
Ölməzliyin nə dadı var, nə duzu.

Yerində öl, hamı öyür öləni,
Yoldan çıxıb sonra yola gələni.
Yerli, yersiz ölüm yerin biləni,
Ölməzliyin nə dadı var, nə duzu.

Ölüm gərək sənə ad-san gətirsin,
Elə öl ki, el səni yey götürsün.
Tanrıların yerlərinə yetirsin,
Ölməzliyin nə dadı var, nə duzu.

***

Bölgəmicin başa çatdı dözümü,
Hamı ağır mənimsəyir öyüdü.
Dedi: - Bundan yaxşısı yox, yeyi yox,
Hamı ağır mənimsəyir öyüdü.

Böyük, ölməz Otanapişt, əltut ol,
Sənə çatmaq əlçatmazlıqdır, ağır yol.
Gəlib sənə əltut olsun bu oğul,
Hamı ağır mənimsəyir öyüdü.

Dedi: - Yaman iyrənmişəm ölümdən,

Ölməzlik ver mənə ölməz dilində.
Yardım elə, nə gəlirsə əlindən,
Hamı ağır mənimsəyir öyüdü.

***

Otanapişt dedi: - Onda Çinə get,
Bolluqdadır, az yeməkdə ölməzlik.
Ölməzliyin kökü acı Şan-şandır,
Bolluqdadır, az yeməkdə ölməzlik.

Onu ancaq bir yol tapa bilərsən,
Sən iki yol onu dərsən ölərsən.
Ölməzlikdən öz adını silərsən,
Bolluqdadır, az yeməkdə ölməzlik.

Yol getdilər bir ay, Çinə çatdılar,
Meşələri bir-birinə qatdılar.
Eşələnib toz-torpağa batdılar,
Bolluqdadır, az yeməkdədir ölməzlik.

***

Üç ay gəzib kolluqlara qatıldı,
Bölgəmicin dili-ağzı tutuldu.
Acığından çatma qaşlar çatıldı,
Bolluqdadır, az yeməkdə ölməzlik.

Kökü tapıb bələklədi əskiyə,
Ağdır, xırda, o, heç gəlməz çəkiyə.
Baş əydilər ikisi də bitkiyə,
Bolluqdadır, az yeməkdə ölməzlik.

At çapdılar, qayıtdılar Uruya,
Tökülüşdü el-obalar haraya.
Çox bölgələr gəlib girdi haraya,
Bolluqdadır, az yeməkdə ölməzlik.

***

Ancaq əski, şan-şan kökü yox idi,
Gizlədilən, gözdən olan tez itər.
Axtardılar, yurdu-yolu gəzdilər,
Gizlədilən, gözdən olan tez itər.

Axtardılar, yoruldular, durdular,
Başlarına tez-tez qapaz vurdular.
Sarsıldılar, susqunluğa vardılar,
Gizlədilən, gözdən olan tez itər.

Öz yerindən şah durmadı ayağa,
Düşgünləşdi, düşük düşdü yatağa.
Ağrı-acı çəkdi, döndü yumağa,
Gizlədilən, gözdən olan tez itər.

***

Bölgəmiclə susqun düşdü Duzər də,
Qardaşlıqdır, dolanışı qoruyan.
Çox əlləşdi Bölgəmici sağaltsın,
Qardaşlıqdır, dolanışı qoruyan.

Bölgəmicin ağ qan düşdü qanına,
O, sevindi çatıb yolun sonuna.
Gedəcəkdir Yengisoyun yanına,
Qardaşlıqdır dolanışı qoruyan.

Ölüm gəldi, elin bağrı yarıldı,
Uruyerdə ağıyeri quruldu.

Duzər, Turər qucaqlaşıb kövrəldi,
Qardaşlıqdır, dolanışı qoruyan.

***

Qızbax gəldi, qara donda, ağ saçda,
Ağıyeri görüş yeri olarmış.
Turər, Qızbax, Duzər qara geyimdə,
Ağıyeri görüş yeri olarmış.

Qardaşını görüb Qızbax dayandı,
Yanaqları gül rənginə boyandı.
Keçmiş günlər yatmış idi, oyandı,
Ağrıyeri görüş yeri olarmış.

Bacı, qardaş dayandılar üz-üzə,
Göz yaşları döndü gölə, dənizə.
Yer qalmadı daha artıq bir sözə,
Ağrıyeri görüş yeri olarmış.

***

Ağrıyerə İştar gəlib çıxmadı,
Nəyə dönsə, sevgi öcə dönməsin.
Seyrəlirdi Uruyerdə tanrılar,
Nəyə dönsə, sevgi öcə dönməsin.

Bir söz gəzib dolaşırdı hər yanı,
Deyirdilər, ölçüb yaxşı, yamanı.
İştar gəlib oğurlayıb şan-şanı,
Nəyə dönsə, sevcə öcə dönməsin.

Özü yeyib, elə ölüb orada,
Ölməz İştar ölüb çıxıb sıradan.
Buna yanıb, ağlayıbdır Yaradan,
Nəyə dönsə, sevgi öcə dönməsin.

***

Tanrım, niyə dilsiz qalıb dolanış,
Ölməzlərdən nə öyrənib ölənlər.
Yer üzündə gündə min-min ölən var,
Ölməzlərdən nə öyrənib ölənlər.

Ölməz ölən, ölən ölməz suçunda,
İki varlıq ipi vardır qıçında.
Nələr yatır ölməzliyin qucunda,
Ölməzlərdən nə öyrənib ölənlər.

Böyük şan-şan, nə böyükdür duruşun,
Ölən yeyir, ölməzliyə qovuşur.
Ölməz yeyir, ölülərə qarışır,
Ölməzlərdən nə öyrənib ölənlər.

***

Turər deyir: - Tanrım, mənə yaşam ver,
Hamı ölür min il belə yaşasa.
Ölməzliyə qovuşdurum Mineli,
Hamı ölür min il belə yaşasa.

Qoy ucalsın Uruyerin başrağı,
Toxunmasın ona Asur yarağı.
Ulu olsun yarıtanrı oylağı,
Hamı ölür min il belə yaşasa.

Mənə güc ver, Uruyeri saxlayım,
Ürəyimi Bölgəmicə bağlayım.

Onun dağı ürəyimi dağlayıb,
Hamı ölür min il belə yaşasa.

V QAPI

Yüzər söyləncі

Turər öldü, Qızağ adı dilində,
Sevgi ölmür, solğun gülə çevrilir.
Basdırdılar arvadının yanında,
Sevgi ölmür, solğun gülə çevrilir.

Çinel, Hindel, Asureldən gəldilər,
Onlar Turu şahlar şahı bildilər,
Yaylıq tutub gözlərini sildilər,
Sevgi ölmür, solğun gülə çevrilir.

Ölüm böyük sevgilərə çatışdı,
Ölüm deyib onlar bir də tapışdı,
Sonevləri bir-birinə yapışdı,
Sevgi ölmür, solğun gülə çevrilir.

***

Ağlayırdı günəş, bulud, daş, divar,
Ağlamaqla ölü bir də dirilməz,
Qırğıatın yəhəriylə, yüyəni,
Ağlamaqla ölü bir də dirilməz.

Düzər, Yüzər, Qızbax çatdı qırxına,
Saçqırxdıya, başyolduya, qırğına,
Göz yaşları toxdaq ürək dağına,
Ağlamaqla ölü bir də dirilməz.

Ağla torpaq, ər oğlunu itirdin,
Onu doğdun şah yerinə gətirdin.
Şahlığını beş yüz ilə yetirdin,
Ağlamaqla ölü bir də dirilməz.

***

Yüzər dedi bundan sonra şah mənəm,
Şahlıq yeri ilk oğula verilir.
Odər dedi, Turər mənə söyləyib:
Şahlıq yeri ilk oğula verilir.

Gözü yaşlı Düzər bundan tutuldu,
Üz saraldı, qara qaşlar dartıldı,
Üzüntüsü üzüntüyə qatıldı,
Şahlıq yeri ilk oğula verilir.

-Kim Başevdə qoyub belə özülü,
Belə doğrul* harda, haçan düzəlib?
Var Odərin bu işlərdə öz əli,
Şahlıq yeri ilk oğula verilir.

***

Düzər dedi, göydən baxır tanrılar,
Buyuruğu gərək tanrı buyursun.
Şah tanrının kölgəsidir Başevdə,
Buyuruğu gərək tanrı buyursun.

Haqq

Düzər küsdü, Qızbax susdu burada,
Soyuq-soyuq sözlər gəzdi arada,
Bəs sən necə buyurursan, yaradan,
Buyuruğu gərək tanrı buyursun.

Düzər dedi, şah yerini mən alsam,
Qardaşıma bağışlaram nə qalsa,
Mən ona da baş əyərəm şah olsa,
Buyuruğu gərək tanrı buyursun.

***

Yüzər qılınc, Düzər balta qaldırır,
Qan atılır, göz tutulur bu yerdə.
Odər deyir, vuruşmayın, dinc durun,
Qan atılır, göz tutulur bu yerdə.

Göydə qılınc balta ilə toqquşur,
Qanlı gözlər, sərt baxışlar boğuşur,
Gələn gəlir bu səs-küyə yığışır,
Qan atılır, göz tutulur bu yerdə.

Odər atır ortalığa özünü,
Tutur ona, tutur buna üzünü,
Ata kimi deyir tanrı sözünü,
Qan atılır, göz tutulur bu yerdə.

***

Tanrım, buyur, özün söylə son sözü,
Yer üstündə boğur qardaş qardaşı.
Qoyma Minel ölkəsinə qan düşə,
Yer üstündə boğur qardaş qardaşı.

Odər, Düzər deyişərək dalaşır,
Çəkişmədən sözlər sap-sap dolaşır,
Yozmaçılar vay-vay deyib ulaşır,
Yer üstündə boğur qardaş qardaşı.

Yer üstündə bu dalaşlar gülüncdür,
Bu yer işi hər bir yerdə gilincdir,
Yersiz olmaq bu yerlərdə sevincdir,
Yer üstündə boğur qardaş qardaşı.

***

Yüzər küsdü, çıxıb getdi Başevdən,
Küsəyəndir çəkişmədə düz adam,
O düz idi, düz deyildi, nə bilmək,
Küsəyənlər çəkişmədə düz olur.

Son görüşdə sevinmədən, gülmədən
Küsüşdülər, ayrıldılar bilmədən,
Şah yerini bölüşdürüb bölmədən,
Küsəyəndir çəkişmədə düz adam.

Qızağ nənə, Turər ata hardadır,
Durun gəlin, ölkə, şahlıq dardadır,
Var hardadır, boğuşma da ordadır,
Küsəyəndir çəkişmədə düz adam.

***

Odər dedi, tanrı belə buyurur,
Odər tanrı elçisidir bu eldə.
Deyir Yüzər şah yerində otursun,

Odər tanrı elçisidir bu eldə.

Yüzər batı ölkəsində sayındır,
Onun batı toplumları qayımdır,
O tanrıya mənim kimi yaxındır,
Odər tanrı elçisidir bu eldə.

Turər deyib biz hər işdə bir olaq,
Nə gərəkdir şah seçdidə təmtaraq,
Get Yüzəri qaytar özün, sözə bax,
Odər tanrı elçisidir bu eldə,

***

Filip dedi, Odər ata düz deyir,
Hər şahlıqda hər oğulun yeri var,
Beş il sonra, on il sonra sən şah ol,
Hər şahlıqda hər oğulun yeri var.

O şah olsa biz qorxmarıq Balasqdan,
O, ölkəni qurtarıbdır qadadan,
Yoxsa ölkə bölünərdi ortadan,
Hər şahlıqda hər oğulun yeri var.

Öz qızını verib ona kral da,
Budur Minel ölkəsini ucaldan,
Aradakı gərginliyi azaldan,
Hər şahlıqda hər oğulun yeri var.

***

Yüzər hələ neçə qıraq dil bilir,
Dil doğmaca varlığıdır hər elin.
Yaranışı, dolanışı yatımlı,
Dil doğmaca varlığıdır hər elin.

Mənimsəyib Balasqdakı bilimi,
Bilimlərin, bilgilərin dilini,
Görə bilir yurdun içi, çölünü,
Dil doğmaca varlığıdır hər elin.

Turər onu göndərmişdi uzağa,
Döndərmişdi bir dolambac yumağa,
Dəyməyirdi adı-sanı qulağa,
Dil doğmaca varlığıdır hər elin.

***

Oturarsa şah yerində qardaşın,
Balasq bizim, Misir bizim olacaq.
Biri yovuq, biri qovuq olsa da
Balasq bizim, Misir bizim olacaq.

Mindiyarın açılacaq əl-qolu,
Üzümüzə gəmi yolu, su yolu,
Batı alver qaynağıdır dopdolu,
Balasq bizim, Misir bizim olacaq.

Sən Çineli yavaş-yavaş qamarla,
Yolu böyük qardaşına hamarla,
Get, Yüzəri yola gətir, tumarla,
Balasq bizim, Misir bizim olacaq.

***

Düzər yapıq, tez inanan ər idi,
Yaranışın kökü, dibi inancdır,
Yola düşüb getdi Yüzər dalınca,
Yaranışın kökü, dibi inancdır.

Suboğazdan Balasq bir gün yol idi,
Yollar dolu, axmaz idi, göl idi,
Gədikləri döşlü-daşlı yal idi,
Yaranışın kökü, dibi inancdır.

Odər onla at çapırdı yanaşı,
Gedirdi ki, boğsun dava-dalaşı.
Barışdırsın qardaş ilə qardaşı,
Yaranışın kökü, dibi inancdır.

***

Ocaq-ata geyimində ululuq,
İç işığı üzündədir ulunun.
Ağ çuxası, al papağı çəkimli,
İç işığı üzündədir ulunun.

Saqqalının dümağ ipək yatımı,
Düşünülmüş danışığı, addımı.
O, Minelin yerdə tanrı yardımı,
İç işığı üzündədir ulunun.

Atı ipək tikmələrdən çullanıb,
Al-qırmızı qotazları sallanıb.
Sıçraq atın gözləri də allanıb,
İç işığı üzündədir ulunun.

***

- Gəlmişik ki, biz Yüzəri aparaq,
İyid oğul hər bir işdə iyiddir.
Mindiyarın şahı olub indi o,
İyid oğul hər bir işdə iyiddir.

Biz gəlsək də sizin ilə görüşə,
Öncə gərək yola düşək döyüşə,
Yüzər kimi döyüşlərə girişək,
İyid oğul hər bir işdə iyiddir.

Yaxın, doğma sayır bizi Mindiyar,
Bizim, sizin olmalıdır nə ki var.
Gərək bizi ayırmasın tanrılar,
İyid oğul hər bir işdə iyiddir.

İki qardaş söyləncі

İzin istəyir, Düzər gedir döyüşə,
Bunca qardaş bağışlayar qardaşı.
Qabaqda da iki qardaş görüşü,
Bunca qardaş bağışlayar qardaşı.

Yüzər ağır yaralıydı başından,
Üç ox yeri vardı qanlı döşündə.
İki düyün görünürdü qaşında,
Bunca qardaş bağışlayar qardaşı.

“-Düzər gəlib özünü şah bilibdir,
Kral deyib Yüzər daha ölübdür.
Ya da məni öldürməyə gəlibdir,
Bunca qardaş bağışlayar qardaşı.

***

- Mindiyarın şahı sənsən, qardaşım,
Üstünlüyü tanrı sənə veribdir.
Mən də sənə əltutanam Xançuda,

Üstünlüyü tanrı sənə veribdir.

Yaralısan, toxda, dincəl neçə gün,
Acıqanı mən qıraram büsbütün.
Burda gərək Asurları kürüyüm.
Üstünlüyü tanrı sənə veribdir.

Ölsəm, yerinc göndər, şahım, Xançuya,
Minel şahı qılınc ilə qoruyar,
Dəyişməsin doğruluğu oğruya,
Üstünlüyü tanrı sənə veribdir.

***

Geydi Düzər geyimini Yüzərin,
Üzdən, boydan qardaş oxşar qardaşa.
At səyirtdi acığanın üstünə,
Üzdən, boydan qardaş oxşar qardaşa.

Bir yürüşdə vurdu, yıxdı yüzünü,
Gizlədirdi o, hamıdan üzünü.
Eşitmədi biri bircə sözünü,
Üzdən, boydan qardaş oxşar qardaşa.

Axşam düşdü, gerilədi acıqan,
Suqırağı al boyadı qızıl qan,
“Bu Yüzərdir, güc alıbdır tanrıdan”,
Üzdən, boydan qardaş oxşar qardaşa.

***

Sayın-sanlı kral idi Uranus,
Bu da tanrı vergisidir adamda.
Bilimliydi, göstərişi, öyüdü,
Bu da tanrı vergisidir adamda.

Ellər üçün həm oğuldu, həm ata,
Ölkəsindən çəkilmişdi qan-qada,
Qayğı görüb varlanırdı hər adam,
Bu da tanrı vergisidir adamda.

Gəmiləri dəniz-dəniz üzərdi,
Ən sevimli kürəkəni Yüzərdi,
Onun ilə yeyib, içib gəzərdi,
Bu da tanrı vergisidir adamda.

***

Qarşıladı gülər üzlə onları,
Yaxşı baxsan üzdə hər şey görünür.
Gülüşünün işığında duruluq,
Yaxşı baxsan üzdə hər şey görünür.

Kral üç gün qonaqladı, əylədi,
Günlərinə gözaydınlıq dilədi,
Dördüncü gün olanları söylədi,
Yaxşı baxsan üzdə hər şey görünür.

-Heç bilmirəm, necə deyim, nə üzlə,
Bir aydır ki, Ur döyüşür bizimlə,
Üstümüzə toplum gəlir dənizlə
Yaxşı baxsan üzdə hər şey görünür.

***

Bilən kimi Yüzər getdi döyüşə,
Tanrı onu bizə arxa göndərib.
Mən bilirəm siz Yüzəri gəzirsiz
Tanrı bizə onu arxa göndərib.

İndi Yüzər acıqanla vuruşur,
Uçan oxdur, iti, sıçraq yürüşü,
Bəyəndirir qılınc ilə barışı,
Tanrı bizə onu arxa göndərib.

Beş adada vuruş gedir, qan axır,
Yerdən, göydən sinələrə ox yağır,
Parıldayır onun göydə yarağı,
Tanrı bizə onu arxa göndərib.

***

Qırx ildir ki, Yüzər bizi qoruyur,
O,oğuldur hər bir işə yarayır,
Gəlir ağır döyüşlərdən harayı,
Tanrı bizə onu arxa göndərib.

Öz oğlumdan çox istərəm onu mən,
Bir an belə qılınc düşmür əlindən,
"Birel" sözü bitib qalıb dilində,
Tanrı bizə onu arxa göndərib.

Qırx min Minel yaraqlısı burada,
Dəmirdayaq, dəmir duruş sırada,
Biz harada, indi Yüzər harada
Tanrı bizə onu arxa göndərib.

***

" - Yüzər bizim içimizi biləndir,
İçdən çıxır ən qorxulu acıqan,
Nə olacaq o Minelə şah olsa,
İçdən çıxır ən qorxulu acıqan.

Burda deyən işlər bir az qarışdı,
Yüzər kövrək yerimizlə tanışdır,
Bir də gördün boğazımdan yapışdı,
İçdən çıxır ən qorxulu acıqan,

Kral belə çox düşünüb daşındı,
Gecə-gündüz yumruqladı başını,
Ölçüb-biçdi, işə saldı arşını,
İçdən çıxır ən qorxulu acıqan,

***

Dedi, gərək Yüzər çıxsın aradan,
Bizim kövrək yerimizi bilir o.
Mindiyarı başsız qoymaq gərəkdir,
Bizim kövrək yerimizi bilir o.

Qoy vurulsun döyüşərkən arxadan,
Qoy tollansın suya hündür qayadan,
Qoy doğransın dörd bir yerə ortadan,
Bizim kövrək yerimizi bilir o.

Qalsın burda hələ arvad-uşağı,
Saxlanılsın onlar girovsayağı.
Bu yol ilə dara çəkək qoçağı
Bizim kövrək yerimizi bilir o.

***

İndi belə düşünürdü Yüzər də,
Göz dikibdir Düzər mənim yerimə.
Gərək burda mən Düzəri öldürüm.
Göz dikibdir Düzər mənim yerimə.

Düşünürdü, Düzər məni qıracaq,

Yolum üstə bir gün çala quracaq,
Ya da məni kövrək çağı vuracaq,
Göz dikibdir Düzər mənim yerimə.

Biri getsin yanıyca at səyirtsin,
Daldan vurub lapdan onu bəyirtsin,
Sonra tutsun boğazından kiritsin,
Göz dikibdir Düzər mənim yerimə.

***

Düzər isə vuruşurdu qılıncla,
Gücü verib tanrı arı ürəyə,
Acıqanı qovlayırdı geriyə
Gücü verib tanrı arı ürəyə,

Doğrayırdı, dağıdırdı, qırırdı,
Sıraları at döyüşlə yarırdı,
Acıqanın son kökünə varırdı,
Gücü verib tanrı arı ürəyə,

Adalardan-adalara hay-cumu,
Dağılmışdı asurların qurumu,
Qaçmaqdaydı mən-mən deyən toplumu
Gücü verib tanrı arı ürəyə,

***

Qardaşlarda birdi üz-göz, saç-saqqal,
Oxşarlığın ikibaşlı sonu var.
Bir-birindən seçilmirdi qardaşlar
Oxşarlığın ikibaşlı sonu var.

Yüzər vurub çox dolanbac oyunu,
Oxşayaraq adamının boyunu,
Tapşırmışdı o satqındır, vur onu
Oxşarlığın ikibaşlı sonu var.

İki satqın, iki gizli göstəriş,
Hər ikisi Düzər üstə bir yürüş,
Nə olacaq görən Tanrı, bu gediş,
Oxşarlığın ikibaşlı sonu var.

***

Gəlib çatdı iki qancıl adaya,
Bir görümə* tuşlanmışdı iki ox.
Həm, kralın, həm Yüzərin adamı,
Bir görümə tuşlanmışdı iki ox.

Lap yaxında gurlayırdı dalğalar,
Uğuldayıb səslənirdi qayalar,
Kölgə-kölgə sürünürdü qaralar
Bir görümə tuşlanmışdı iki ox.

Düzər yorğun, iri gözlər yuxulu,
Dəniz, qaya, gecə qanlı qorxulu
Qulağına birdən bir səs toxunur
Bir görümə tuşlanmışdı iki ox.

Hədəf

***

Bir bağırtı, ğur səs, bir söz, bir vurum,
Satqın oğru gecə ikən qan tökür.
"Satqın məni niyə vurdun arxadan,
Satqın oğru gecə ikən qan tökür.

Düzər aşdı yerə ağır yaradan,
Sonra qopdu o sıldırım qayadan,
Düzər qardaş belə çıxdı sıradan,
Satqın oğru gecə ikən qan tökür.

Bir bağırtı qayalarda partladı,
Qaranlığın qara bağrı çatladı,
Biri vurdu o birisi atladı
Satqın oğru gecə ikən qan tökür.

***

Sonra yeni bir bağırtı partlayır,
Qorxunc gecə bağırtıya bürünür.
"Get! Kralın göstərişi beləydi".
Qorxunc gecə bağırtıya bürünür.

İki satqın uzaqlaşıb gedirlər,
Qaranlıqda qaçıb gözdən itirlər,
Başçıları qabağında bitirlər,
Qorxunc gecə bağırtıya bürünür.

Satqın deyir gördüyünün düzünü,
Bu söz açır Yüzərşahın gözünü,
Düzər kimi o göstərir özünü,
Qorxunc gecə bağırtıya bürünür.

***

Təkcə Odər başa düşür oyunu,
Belə işlər tez-tez olur Başevdə.
Bilir gələn Düzər deyil, Yüzərdir.
Belə işlər tez-tez olur Başevdə.

Kral susur, ağlamsınır, yanıqlı,
Sözü, səsi, baxışları qılıqlı,
Bir az tutqun, bir az ürkək, sayıqlı
Belə işlər tez-tez olub Başevdə.

Arvad-uşaq Yüzər deyib ağlayır,
Səsdən evin damı-daşı laxlayır,
Bu, çoxunun ürəyini dağlayır,
Belə işlər tez-tez olur Başevdə.

***

-Yüzər mənim ürəyimdi, gözümdü,
Ürək getdi, gərək sən də gedəsən.
Mən Yüzərsiz yaşamaram, qalmaram,
Ürək getdi, gərək səndə gedəsən.

Bu üzüntü məni yıxar, aparar,
Şaxlığımı özlüyümdən qoparar,
Ürəyimdə Yüzər dağı qabarar,
Ürək getdi gərək sən də gedəsən.

Gərək gəzək, ölüsünü tapaq biz,
Sıldırımlı qayaları çapaq biz,
Dənizləri dalğalara qataq biz,
Ürək getdi gərək sən də gedəsən.

***

Çox gəzdilər, aradılar Düzəri,

Gedib Düzər tanrısının yanına.
Nə quruda, nə dənizdə tapıldı,
Gedib Düzər tanrısının yanına.

Başbilənlər çox yalvardı dənizə,
Odər ata əl uzatdı hörmüzə,
"Böyük tanrı, əltut yetir sən bizə",
Gedib Düzər tanrısının yanına.

Odər, Yüzər yola düşdü Minelə,
Günlər, aylar ötüb döndü bir ilə,
Ta axtarmaq, gəzmək olmaz bir belə,
Getdi Düzər tanrısının yanına.

***

Yüzər böyük Əkbitənə şah oldu,
Çox örtülü qala bilməz gizlilər.
Yüzər hər gün yamanladı kralı,
Çox örtülü qala bilməz gizlilər.

İki ölkə toplumları vuruşdu,
Qanlar axdı dənizlərə qarışdı.
Hərdən şahlar bir birilə barışdı,
Çox örtülü qala bilməz gizlilər.

Bir il keçdi, birdən Düzər göründü,
Çinel, Xançu sevinclərə bürundü.
Pislik düşdü qabağında süründü,
Çox örtülü qala bilməz gizlilər.

***

Düzər üç ay keçdi sudan, qurudan,
Tanrı özu düzü üzə çıxarır,
Dalğaları, qumluqları yardı o,
Tanrı özü düzü üzə çıxarır.

İki qardaş birləşmədi, ayrıldı,
İstəkləri yandı göyə sovruldu,
Əkbitəndə bunca şahlıq quruldu,
Tanrı özü düzü üzə çıxarır.

Dabanları, dırnaqları sürtülüb,
Paltarları cırıq-cırıq, yırtılı,
Bir az açıq, bir az üzü örtülü
Tanrı özü düzü üzə çıxarır.

***

Üç ay, dörd ay sürün-sürün, üzhaüz.
Bu, tanrının işi deyil, bəs nədir.
Çox ellərdə, obalarda toxdadı,
Bu, tanrının işi deyil, bəs nədir.

Yarasını dəniz özü sağaltdı,
Güllər, otlar ağrısını yoxaltdı,
Günəş damar istisini çoxaltdı
Bu, tanrının işi deyil, bəs nədir.

Bildi qardaş qol atıbdır bu işə,
Ta getmədi bir də onla görüşə,
Yox, demədi bunu tanış-bilişə,
Bu, tanrının işi deyil, bəs nədir.

***

Yüzər üzü dönük çıxdı qardaşa,
Baş ağardır, qan soyudur üzüntü.
Üzüntüsü çevrilmişdi qorxuya,
Baş ağardır, qan soyudur üzüntü.

Onu bir ay, üç ay, bir il gözlədi,
Suda, dağda, düzdə yer-yer izlədi,
Hərdən bir az öz-özünü pislədi,
Baş ağardır, qan soyudur üzüntü.

Yuxularda tez-tez onu görürdü,
Düzər onu yaxalayıb vururdu,
Qan-tər içrə yuxusundan dururdu,
Baş ağardır, qan soyudur üzüntü.

***

Suboğaza gəlib çatdı son döyüş,
Boğazları əldən vermək ölümdür.
Yük yoluydu, gəmi yolu Boğazlar,
Boğazları əldən vermək ölümdür.

Silkənirdi cağ-cağ gəmi çəkərlər,
Səslənirdi zinqrovlar, təkərlər,
Dumanlıydı yorğun gözlər təpərlər,
Boğazları əldən vermək ölümdür.

Başlarında tuncdan pipik papaqlar,
Çiyinlərdə qılınckəsməz qalpaqlar,
Parlayırdı gün altında yaraqlar,
Boğazları əldən vermək ölümdür.

***

Uranusun oğlu Qeysər qabaqda,
Göz qorxudur öndə döyüş sursatı.
Üç təkərli, dörd təkərli qoşqular,
Göz qorxudur öndə döyüş sursatı.

Uzun-uzun bizucları bükülməz,
Qabar-qabar döşlükləri sökülməz,
Beşbatmanlıq topbuzları çəkilməz,
Göz qorxudur öndə döyüş sursatı.

Qeysər gəlir, atası da dalında,
Yüz min toplum durur sağı, solunda.
Zınqrovlar atlarının yalında,
Göz qorxudur öndə döyüş sursatı.

***

Yüzər atda, Qeysər dəmir qoşquda,
Üzgörənlik, utançaqlıq basılar
İlk yaranı aldı Yüzər qaynından,
Üzgörənlik, utancaqlıq basılar.

Uşaqlıqdan Yüzər onla tanışdı,
Bu doğmalıq boğazından yapışdı,
Yüzər baxdı, ancaq Qeysər tutaşdı,
Üzgörənlik, utancaqlıq basılar.

İlk yaradan o sarsıldı, dəyişdi.
Toplumlarsa üç gün qalıb döyüşdü,
Balasqlılar boğazlara girişdi
Üzgörənlik, utancaqlıq basılar.

***

Daha duruş-durum başa gəlmədi,
Başsız qalan toplum duruş gətirməz.
Acıqanın əli-qolu açıldı,
Başsız qalan toplum duruş gətirməz.

Leş-leş üstdə, qan-qan üstə qalandı,
Qoşa boğaz, Qoşa dəniz alındı,
Dənizlərin göy gözləri bulandı,
Başsız qalan toplum duruş gətirməz.

Yaralıydı Yüzər, gedib tapdılar,
Acıqanın caynağından qapdılar,
Ata minib Əkbitənə çapdılar,
Başsız qalan toplum duruş gətirməz.

***

Bayqın qaldı Yühər, bir də durmadı,
Dərin olar doğmaların yarası.
Dedilər ki, yarasında ağı var,
Dərin olar doğmaların yarası.

Bu da doğma qaynatanın qurqusu,
Yarağına çəkib ilan ağısı.
Bu yarada vardır ölüm qorxusu,
Dərin olar doğmaların yarası.

Oğlu gəldi görüşünə Balasqın,
Üstü-başı qızıl, gümüş qotazda,
Odər onu yerinc qoydu bir azdan,
Dərin olar doğmaların yarası.

Odər ata söyləncі

Öz əlinə aldı Odər ölkəni,
Başsız, şahsız qala bilməz bir ölkə.
İşdayağı gözdən uzaq qoymadı,
Başsız, şahsız qala bilməz bir ölkə.

Balasq burdan, Asurlarsa o yandan,
Necə çıxmaq ikibaşlı oyundan.
Uzaq belə qaynatadan, qayından,
Başsız, şahsız qala bilməz bir ölkə.

Odər ata toplumları çoxaltdı,
Mindiyarın başrağını ucaltdı.
Dərin-dərin yaraları sağaltdı,
Başsız, şahsız qala bilməz bir ölkə.

***

Odər dedi, İyid oğlum İşdayaq,
Bu ölkədə şahdan sonra Odərdir.
Məni gərək eşidəsən hər işdə,
Bu ölkədə şahdan sonra Odərdir.

Hələ gəncsən, atan düşüb yatağa,
Onu sağalt, qaldır, dursun ayağa.
Sən indidən bağlan böyük ocağa,
Bu ölkədə şahdan sonra Odərdir.

Minel üçün tutaq yeri ocaqdır,
Yerdə, göydə Mindiyara dayaqdır.
O, düşmənə ən kəsərli yaraqdır,
Bu ölkədə şahdan sonra Odərdir.

***

Bu yaranış, bu dolanış dərindir,
Hər bir işdə sən tanrıya arxalan.
Şah olsan da, olmasan da iyidim,
Hər bir işdə sən tanrıya arxalan.

Ocaq bizim inanışın köküdür,
Pis yaxşıya, yaxşı pisə çəkidir.
Od tanrısı, Su tanrısı ikidir,
Hər bir işdə sən tanrıya arxalan.

Böyü, oğlum, şah yerinə yetiş sən,
Sev Mineli, öz soyuna bitiş sən.
Dili öyrən el-obaya qatış sən,
Hər bir işdən sən tanrıya arxalan.

***

Yeniyetmə yaşındaydı İşdayaq,
Gözəlliyə vurğun olur bu yaşlı.
Ovda ovu, at çapmağı sevirdi,
Gözəlliyə vurğun olur bu yaşlı.

Qılınc, toppuz, bizuc ondan uzaqdı,
Sevdikləri dəniz, meşə, bulaqdı,
Hər gün yeni bir oylağa qonaqdı,
Gözəlliyə vurğun olur bu yaşlı.

Yaşı daha yetişmişdi on birə,
Uyuşmurdu, sığışmırdı bir yerə,
Bağlanmışdı uşaqlıqdan görgörə,
Gözəlliyə vurğun olur bu yaşlı.

***

Sevməyirdi Uranusu, Qeysəri,
Kim istəyər qan-qan deyən qancılı.
Anasıydı bircə onu göynədən,
Kim istəyər qan-qan deyən qancılı.

Kövrəlirdi atasına baxanda,
Zarıltısı dörd bir yanı yaxanda.
Üzüntülər ürəyini sıxanda,
Kim istəyər qan-qan deyən qancılı.

Ancaq tez də unudurdu bunları,
Döyüşlərdə çay-çay axan qanları,
Göz yaşıyla suvarılan anları,
Kim istəyər qan-qan deyən qancılı.

***

İlk döyüşü asurlarla başladı,
Alınlara döyüş qanla yazılır,
Balasq dilli bir ərənlə vuruşdu,
Alınlara döyüş qanla yazılır.

Öncə özü yaralandı dizindən,
Ağrı dolu alov qalxdı gözündən,
Dözüm gəzdi, dözüm tapdı özündə,
Alınlara döyüş qanla yazılır.

Sonra vurub yıxdı onu bizucla.
Bir də vurdu, iki böldü qılıncla,
İçdi onun al qanını ovucla
Alınlara döyüş qanla yazılır.

***

Qan içənin gərək qanın içəsən,

İşdayağın adı qaldı Üçdamar.
On üç yaşdan qızıl qana susadı,
İşdayağın adı qaldı Üçdamar.

Balasq, Minel, ərəb asur qanında,
Seçilirdi elbirləri yanında,
Boz qurd başı papağının altında,
İşdiyağın adı qaldı Üçdamar.

Yavaş-yavaş gözəlliyi unutdu.
Kobudlaşdı, qancıllığa yön atdı,
Hər bir sözdə ürəkləri qanatdı,
İşdayağın adı qaldı Üçdamar.

***

Qeysər bir gün atasına söylədi:
-Qurd atadan törəyənlər qurd olar.
İçimizi yaxşı bilir İşdayaq,
Qurd atadan törəyənlər qurd olar.

Onu gərək biz aradan götürək,
Şah olmazdan ilim-ilim itirək,
Ya da qapıb gizli bura gətirək,
Qurd atadan törəyənlər qurd olar.

Bacıoğlu bizə böyük qorxudur,
Bizi lapdan çala bilən qırğıdır.
Bu qurdun da ölüm yolu ağıdır,
Qurd atadan törəyənlər qurd olar.

***

Üç ox ucu suvarıldı ağıda,
Qorxaq vurur iyid əri arxadan,
Bir döyüşdə Qeysər onu oxladı,
Qorxaq vurar iyidləri arxadan.

Yaralandı, düşdü o da yatağa,
Onun ilə görüş oldu qadağa,
Çox çəkmədi bir gün durdu ayağa,
Qorxaq vurar iyidləri arxadan.

Qan damarı bələşmişdi ağıya,
Ox yarası alınmışdı sarğıya,
Tez-tez dönüb o baxırdı arxaya,
Qorxaq vurur iyidləri arxadan.

***

Odər dedi,-Oğlum, tapın tanrıya,
Tanrı bizi pisliklərdən qurtarır.
Dedi, tanrım, İşdayağı qoru sən,
Tanrı bizi pisliklərdən qurtarır.

Getdi on il ocaqlarda oturdu,
Biliyini, işığını artırdı,
Gecə-gündüz o ocaqda yatırdı,
Tanrı bizi pisliklərdən qurtarır.

Bu on ildə Odər ata baş oldu,
Soyuqluqda üzü, gözü daş oldu,
Başraqları qızıl qandan yaş oldu,
Tanrı bizi pisliklərdən qurtarır.

Qızod ana söyləncі

-Tanrım, məni durulaşdır odunla,
Oddur Böyük Mindiyarın tanrısı.
Üçlüyü al məndən, məni bir elə
Oddur Böyük Mindiyarın tanrısı.

Qaytar mənə mənim Minel soyumu,
Hündür elə düşüncəmi, boyumu,
Mənə çatdır mənim şahlıq payımı,
Oddur Böyük Mindiyarın tanrısı.

Tanrım, məni bu ağıdan ağ elə,
Ürəyimi, damarımı sağ elə,
Ya yerə vur, ya da uca dağ elə,
Oddur Böyük Mindiyarın tanrısı.

***

Bir gün qaçıb gəldi səsə anası,
Anaları tanrı özü səsləyir.
Qucağında gətirmişdi quru ot,
Anaları tanrı özü səsləyir.

Ana qaldı İşdayaqla ocaqda,
O ağladı, sızıldadı bucaqda,
Yarpaq idi ayrılmışdı budaqdan,
Anaları tanrı özü səsləyir.

-Bax, bunu iç, ağı səndə qalmasın,
Anan ölsün, sənə heç nə olmasın,
Tanrı məndən sən oğlumu almasın,
Anaları tanrı özü səsləyir.

***

-Ulu ocaq, Qızod olum bu gündən,
Od-ocaqdır dirrik verən hamıya.
Al qoynuna məni Minel qızıtək,
Od-ocaqdır dirrik verən hamıya.

Od-ocağım mənə əl tut sən özün,
Adımı qoy bundan belə od qızı,
Bu ağrıdan qurtar bizi, al bizi,
Od-ocaqdır dirrik verən hamıya.

Mən suyamsa, oddur mənim qardaşım,
Məni yandır, ançaq oğlum yaşasın,
Ona şahlıq, baş ərənlik yaraşır,
Od-ocaqdır dirrik verən hamıya.

***

-Oğlum, mənim qardaşımı bağışla,
Öz içindən pislik didir yamanı.
Onun oxu səni saldı bu günə,
Öz içindən pislik didir yamanı.

Oğlum, böyük babanı da bağışla,
Nə küs ondan, nə də onu qarğışla,
Ocaq salsın qoy araya barışlar,
Öz içindən pislik didir yamanı.

Ulu Tanrı, mən ananı eşit bir,
Bundan sonra yurdum olsun bu el, yer,
Ulu tanrı, analara dözüm ver,
Öz içindən pislik didir yamanı.

***

Yüzər öldü, İşdayaqsa yaşadı,
Şahlıq çatar şah soyundan birinə,

Tanrım, özün İşdayağı sağ elə,
Şahlıq çatar şah soyundan birinə.

Qızod ana, Odər ata bir oldu,
Od anaya Odər ata ər oldu,
Ər ataya bu şahlıqda yer oldu,
Şahlıq çatar şah soyundan birinə.

Şahlıq etdi ər atayla, ər ana,
Bu səs getdi Mindiyardan o yana,
Yenə qaldı şahlıq Turər soyuna,
Şahlıq çatar şah soyundan birinə.

***

Qeysər bildi, gözaydınlıq göndərdi,
Bacı, qardaş gərək burda bir ola.
Bu, Balasqın sulandırdı ağzını,
Bacı, qardaş gərək burda bir ola.

Balasq bir də qıcıtdısa dişini,
Şah ər-arvad düz apardı işini,
Ana verdi irəliyə döşünü.
Bacı, qardaş kərək burda bir ola.

O oğlunun şah yerinci olandan,
Öz könlünü ər ataya salandan,
Qardaşına söz vermədi yalandan,
Baçı, qardaş gərək burda bir ola.

***

–Sağ ol, anam, baçım, səni min yaşa,
Ocaq bizi doğruluğa yönəldir,
Son oğluna görə seçdin Odəri,
Ocaq bizi doğruluğa yönəldir.

Ər anasan, od andını uca tut.
Öz yurdunu, qardaşını ta unut,
"Ana" deyir sənə artıq bu el, yurd
Ocaq bizi doğruluğa yönəldir.

İşdayağın qanı çirkdən seyrələr,
Ana könlün sevincindən kövrələr.
Biz üç olsaq acıqanlar təklənər,
Oçaq bizi doğruluğa yönəldir.

***

Qeysər dedi, bacım dərin düşünsə,
O Minelin qapısında açardır.
Gərək birdən Balasqlaşa Mindiyar,
O Minelin qapısında açardır.

İşdayağı elə düşük saxlaya,
Şah olmağın yollarını bağlaya,
Balasq qızı Balasq uçün çağlaya,
O Minelin qapısına açardır.

Balasq onun elyeridir, elbiri,
Oradasa həm oğulu, həm əri.
Mindiyarda odur bizim əlyeri,
O Minelin qapısına açardır.

***

Qızod dedi, mən dönmərəm, anayam,
Dönük ana soyuq ulduz kimidir.

Elyerim də, elbirim də balamdır,
Dönük ana soyuq ulduz kimidir.

Qardaşımsa bilsin bunu bir yolluq,
Ona qarşı biz hamımız bir olluq.
Ölsək birgə sonevinə qoyulluq.
Dönük ana soyuq ulduz kimidir.

Qoy atam da, qardaşım da düşünsün,
Bizə qarşı çılğınlıqdan daşınsın.
Qızod çətin Mindiyardan boşansın.
Dönuk ana soyuq ulduz kimidir.

***

Barışmalar, küsüşmələr, öymələr.
Yersiz söz ar yiyəsindən utanır.
Qeysər gedib eşələndi yerində.
Yersiz söz var yiyəsindən utanır.

Ürəyində Mindiyarın varları.
Arpa, buğda, alma, heyva, narları,
Əkinlərdə, ağaçlarda barları.
Yersiz söz var yiyəsindən utanır.

Göydaş, qızıl, inək, gümüş qab-qaçaq,
Maral, cüyur, ov-oylaqdır hər buçaq.
Min yerlidən üstün olar bir qonaq,
Yersiz söz var yiyəsindən utanır.

***

Qeysər gəlir Qızod ilə üz-üzə,
Varda yoxdur bacı, qardaş ölçüsü.
Vardır qılınc çəkən bacı üstünə,
Varda yoxdur bacı, qardaş ölçüsü.

İki toplum Yastıdaqda görüşür,
Qoşaboğaz sularına qan düşur,
Yaralılar ölülərə qarışır,
Varda yoxdur bacı, qardaş ölçüsü.

Qeysər gəlir Qızod ilə döş-döşə,
Hamı baxır bu yöndəmsiz döyüşə.
Bu deyüşə öncə kimdir girişən,
Varda yoxdur bacı qardaş ölçüsü.

***

Öncə oxla vuruşurlar doğmalar,
"Qancıq, səni doğramağa gəlmişəm".
Sağ gözünə ox sançılır Qeysərin.
"Qancıq, səni doğramağa gəlmişəm".

Aşır atdan, düşür yerə qıvrılır,
Gah o yana, gah bu yana çevrilir,
Təpəsindən qanlı tüstü sovrulur,
Qancıq, səni doğramağa gəlmişəm".

Qızod verir göz yaşını yellərə,
Qan boyası dənizlərə, göllərə,
Son ayaqda bir səs düşür çöllərə,
Qançıq, səni doğramağa gəlmişəm".

***

Qoşaboğaz, Qoşadəniz alınır,
Basığın yox, basarındır girəvə.
Bütövləşib gücə dolur Mindiyar,

Basığın yox basarındır girəvə.

Dənizlərdə duracaqlar, yançalar*.
Başraq-başraq ucalardan ucalar,
Qoşaboğaz qoşa qızıl açarlar,
Basığın yox, basarından girəvə,

Odər dedi, ta Balasqa girməyin,
O torpağın yarpağını dərməyin,
O ellərə ağrı, acı verməyin.
Basığın yox, basarındır girəvə.

**Liman*

***

Qızod döndü öz oğlunun yanına,
Üzüntüdür ayrı düşmək baladan.
Bala ayrı qala bilər anadan,
Üzüntüdür ayrı düşmək baladan.

-Oğlum, ocaq sağaldacaq yaranı,
Vurub yıxdım səni oxla vuranı,
Haran sancır, anan öpsün oranı,
Üzüntüdür ayrı düşmək baladan.

Gözləyirəm sən yataqdan durasan,
Acıqanın soy kökünü qırasan,
Şahlığını öz əlinlə qurasan,
Üzüntüdür ayrı düşmək baladan.

***

-Ana daha sağalmışam, yaxşıyam,
Çox sıtqamaq kişilərə yaraşmaz.
Məni döyüş, vuruş üçün doğmusan,
Çox sıtqamaq kişilərə yaraşmaz.

Od-ocağa baş əyirəm diz üstə,
Torpağına üz sürtürəm üz üstə,
Nə buyursan, deyəcəyəm göz üstə,
Çox sıtqamaq kişilərə yaraşmaz.

Ana, hər gün bu Tanrıya deyiş de,
Acıqanla çarpış, vuruş, döyüş de,
Böyük Turər istəyinə yetiş de,
Çox sıtqamaq kişilərə yaraşmaz.

***

Otuz yaşda ərən çıxdı ocaqdan,
Oddur, sudur çəkir qandan ağını,
Gözlərində od oynayıb gülürdü,
Oddur, sudur çəkir qandan ağını.

On ildən çox şahlıq etdi Aratta,
İşdayağa yer göstərdn ər ata,
Saxlancları qabarmışdı yer altda,
Oddur, sudur çəkir qandan ağını.

Anasının Arannaydı şah adı,
İşdayaqdı onun qolu-qanadı,
Səslənirdi eldə qoşma, bayatı,
Oddur, sudur çəkir qandan ağını.

***

Mindiyarı on il əldə saxladı,
Barış, vuruş, döyüş, duruş içində.
Çoxlarını öz yerində oturtdu,
Barış vuruş, döyüş, duruş içində.

Vergiləri yavaş-yavaş azaltdı,
Ödəncinin ay-ilini uzatdı,
Çoxlarına üz-gözünü bozartdı,
Barış, vuruş, döyüş, duruş içində.

Asuriya bir də tutdu Şorgölü,
Çapdı, yoldu Şorgöldəki çox eli,
Ancaq yenə geri durdu o ili,
Barış, vuruş, döyüş, duruş içində.

***

Əltut oldu Mindiyara od-oçaq,
Böyükləri döyüş böyük saxlayar.
Adı qaldı Odər deyil, Aratta,
Böyükləri döyüş böyük saxlayar.

Balasq ilə İlam ilə bağlaşdı,
El-obanın on il günü çağlaşdı,
Çöldə, içdə acıqanlar ağlaşdı,
Böyükləri döyüş böyük saxlayar.

Yarağını, toplumunu artırdı,
Atlısını beş yüz minə çatdırdı,
Çaxnaşmanı, pozğunluğu yatırtdı,
Böyükləri döyüş böyük saxlayar.

O Çinellə Uğurelə söykəndi,
Asuriya Mindiyardan çəkindi,
Acıqanın varı, yoxu tükəndi,
Böyükləri döyüş böyük saxlayar.

***

Vergi verdi Çinel, Hindel, Həbəşel,
Şahlıqlara güc artıran vergidir.
Asuriya, Balasq, İlam baş əydi,
Şahlıqlara güc artıran vergidir.

O, Düzəri üç yol çəkdi sınağa,
Qoca üç yol durub çıxdı qabağa,
Ançaq Düzər ondan qaçdı uzağa,
Şahlıqlara güc artıran vergidir.

Duruş deyil, vuruş gəzdi Ər ata,
Ad qazandı Mindiyarda Aratta,
O yaşadı, kövrəkləşdi bu adda,
Şahlıqlara güc artıran vergidir.

***

Diş qıcıdıb yaraqlandı acıqan,
Barış qırıb düşük qoyur qancılı.
Asur el də qan-qan dedi neça yol,
Barış qırıb düşük salır qancılı.

Daraldıqca alış-veriş yolları,
Çarpaz qaldı qırıb çatan qolları,
Düyün düşdü saqqalları, yalları,
Barış qırıb düşük qoyur qancılı.

Arattanın üstün idi biliyi,
Yey bilirdi tanrıları, dirriyi,

Qızıl deyil, ağacdandı çəliyi,
Barış qırıb düşük qoyur qancılı.

***

Qılıncın bağı qasma,
Qasmadan qoyun asma,
Qancıl dili çox olar,
Hər dilə qulaq asma.

Balta qoydu bucağa,
O gəlibdi ocağa,
Bu on beş yaşlı qızı
Götürəydim qucağa.

Qaradağın başına,
Kəsi ollam qaşına,
Güllü döşlük olsaydım,
Sarılardım döşünə.

***

Bu gecə toy olacaq,
Qız-gəlin oynayacaq.
İlan vurmuş anası
Qızını qoymayaçaq.

Göydən uçan quşa bax,
Qanadı sınmışa bax,
Ellərə yaz gələndə
Bizə gələn qışa bax.

Gecələr yatan yerdə.
Döş-döşə çatan yerdə,
Ağ üzündən öpəydim
Sarmaşıb yatan yerdə.

***

Mən gedirəm o yüzə,
Qayıqda üzə-üzə,
Ay quşlar sevinin ki,
Meşələr qalır sizə.

Gəlinə bax, gəlinə,
Sarmaşaydım belinə,
O qızın incə beli.
Bir düşəydi əlimə.

Ay doğubdur bizlərə,
Qulaq verin sözlərə,
Dirriyim kəsi olsun
Yalqız yatan qızlara.

***

Oğlan otur daş üstə
Yumru papaq baş üstə,
Oğlan deyər bir öpüş,
Qızlar deyər baş üstə.

Suya gedən sarı qız,
Sarı köynək, sarı qız,
Gözləri şah alması,
Özü elin malı qız.

VI QAPI

İşdayaq söylənci

Böyük Minel, Mindiyarda hər axşam,
Bu söyləncı söyləyirdi şamanlar.
El içində, toyda, yasda ucadan
Bu söyləncı söyləyirdi şamanlar.

İşdayağın əldə batman qılıncı,
Tükənməzdir gümüş, qızıl saxlançı,
O itirib öz-özünə inancı,
Bu söyləncı söyləyirdi şamanlar.

Əli açıq, başı uca, üzü ağ,
Dəmir geyim, dəri çəkmə, tük papaq,
Əyrilikdən xırdalıqdan çox uzaq,
Bu söyləncı söyləyirdi şamanlar.

***

Onu hər gün yasaq salır özündən,
Suyabaxan, yuxuyozan, cinqovan.
Ulduzlarla danışırlar, deyirlər
Suyabaxan, yuxuyozan, cinqovan.

Görgör onun gözlərində qaradır,
Balasından könlü başı yaradır,
İnamında inamsızlıq yaradıb
Suyabaxan, yuxuyozan, cinqovan.

Görüm açıb bu görgördə bacadan,
Minellinin başı uca ucadan,
Nə istəyir baş yeyənlər qocadan,
Suyabaxan, yuxuyozan, cinqovan.

***

O ölkəni çıxarmaq üçün döyüşdən,
Hər ölkədən bir qız alıb gətirdi.
Qanı, öcü yuyaq dedi büsbütün,
Hər ölkədən bir qız alıb gətirdi.

Gündoğanda, günbatanda yer boyu
Minellinin bacarını min yayıb,
Leləsəndə, yelçəkəndə ad qoyub
Hər ölkədən bir qız alıb gətirdi.

Düzər, Yüzər, Qızbax yurdu bir oldu,
Acıqanın qanlı gözü kor oldu,
Dar ürəyə görgör özü dar oldu,
Hər ölkədən bir qız alıb gətirdi.

***

Çin qızının incə üzü var idi,
Şah sevirdi bu gözəli ürəkdən.
Balasq qızı təpəliydi, ağırdı,
Şah sevirdi bu gözəli ürəkdən.

Gündoğandan gələn gəlin gözəldi,
Əkbitənə, şaha dodaq büzəndi,
Çox günləri günbatanda gəzərdi,
Şah sevirdi bu gözəli ürəkdən.

Hind qızının oynaqlığı, oyunu,
Rum qızının qaşlarının yayını,

Misirlinnn dimdik hündür boyunu,
Şah sevirdi bu gözəli ürəkdən,

***

Qoca daha inanmırdı özünə,
Qocaların kövrək olur inancı.
İnansa da rəmlatana, falçıya,
Qocaların kövrək olur inancı.

İşdayaqın sevən yaşı ötmüşdü,
O qıvraqlıq, döyüşkənlik getmişdi,
Onda anıq, inam daha itmişdi,
Qocaların kövrək olur inancı.

Gecə-gündüz şahlığını öyürdü,
Oğul deyib dizlərini döyürdü,
İnamını inamsızlıq yeyirdi.
Qocaların kövrək olur inancı.

***

Qoca kimdir, əyər bilmək istəsən,
Kim gülmədi, sevinmədi qocadır.
Lap on yaşı, otuz yaşı olsa da
Kim gülmədi, sevinmədi qocadır.

Diz qatdanır, qocalmayır baş, beyin,
Qocalığın yol yoldaşı yaş deyil,
Hamı deyir, ölkə deyir, el deyir,
Kim gülmədi, sevinmədi qocadır.

Ağır gəzir, çünki başı doludur,
Hər addımda ürəyinin quludur,
Ocaq ulu, qoca ondan uludur,
Kim gülmədi, sevinmədi qocadır.

***

İnam gücə taybir olan duruşdur,
Gücün olmaz inamını itirsən.
Hər döyüşə odur səni aparan,
Gücün olmaz inamını itirsən.

İnamsızın üzü gülməz doyunca,
Vel-vel gəzər çətinliklər boyunca,
Gah bu eldə, gah o eldə oyuncaq,
Gücün olmaz inamını itirsən.

İnam uzaq istəklərə minikdir,
İti gözdür, düşüncədir, bilikdir.
İnamsızlar çətin işdə dönükdur.
Gücün olmaz inamını itirsən.

***

Yığışırdı dörd yanına yozanlar,
Şahın təzə yuxusunu yozurdu.
Başevdəki inanılmış adamlar
Şahın təzə yuxusunu yozurdu.

Başev dolub boşalırdı qonaqla.
Gəlib gedir qayğı ilə, soraqla.
Hərə bir söz, bir istəklə, soraqla,
Şahın təzə yuxusunu yozurdu.

Başev bütün ölkə üçün uluydu,
O falçıyla, rəmlatanla doluydu,

Cinqovanlar onun sağı, soluydu,
Şahın təzə yuxusunu yozurdu.

***

İşdayaq şah ölkələrdən öc alır.
Saxlancında qızıl aşıb daşırdı.
Gətirilən çox dəyərli bağışlar,
Saxlancında qızıl aşıb daşırdı.

Qızıl küplər, gümüş qablar, çiraqlar,
Sudaşından muncuqlanan qolbaqlar,
Mərmərdəndir, qızıldandır suvaqlar,
Saxlancında qızıl aşıb daşırdı.

İpək qotaz sallamalar yaraşıq,
Durudaşla bəzədilən qab-qaşıq,
Yeddi boya göyqurşağı qarışıq,
Saxlancında qızıl aşıb daşırdı.

***

Gələn baxır Əkbitənə sevinir,
Göz oxşayır yurdun axar-baxarı.
Dağı-daşı yamacları yamyaşıl,
Göz oxşayır yurdun axar-baxarı.

İlxıları bulud-bulud otlaqda,
Naxırları yer qoymayıb qışlaqda,
Sürüləri dalğa vurur yaylaqda
Göz oxşayır yurdun axar-baxarı.

Toy eləyir günəş hər gün bu düzdə
Hər çiçəyi bir boyada, bir üzdə.
Tanrı qoru bu ölkəni pis gözdən,
Göz oxşayır yurdun axar-baxarı.

***

Yada salıb gizli-gizli əriyir,
Yuxusunu yozanların sözünü,
Hər gün götür-qoy eləyir, düşünür,
Yuxusunu yozanların sözünü.

Hərdən-birdən öz-özünü danlayır,
İnamsızlıq boşluğunu anlayır,
Yuxularda görüb tez-tez yanlayır
Yuxusunu yozanların sözünü.

Bu nə işdir öz başına gətirib,
Yaxınını uzaqlara ötürüb,
Niyə qovub. niyə atıb, itirib
Yuxusunu yozanların sözünü.

***

"-Turər ata-anasını unudub,
Turbax nənə gözü yolda keçinib.
Gücər deyib, Turər deyib, Bax deyib
Turbax nənə gözü yolda keçinib.

Buna görə tanrım, məni qınama,
Mən də əgər baxmamışam anama,
Pis üz göstər bu inamsız inama.
Turbax nənə gözü yolda keçinib.

Mən də qoca illərimi yaşaram,
Boş qazanam, susuz, dənsiz daşaram,

Yuxuları yuxulara qoşaram,
Turbax nənə gözü yolda keçinib.

***

Tanrım, mənə yaxın dayan, əl uzat,
Şahlıq verdin, indi mənə inam ver.
Şahlıq nədir, aldanmaqdır, aldatmaq,
Şahlıq verdin, indi mənə inam ver.

Par-parıltı öz yerində yaxşıdır,
Saxlanclarım sanki mənə qarşıdır,
Təkcə inam yaxşıların başıdır,
Şahlıq verdin, indi mənə inam ver.

Tanrım, əl tut, gedim yolu düzünə,
Mən inanım öz balama, özümə,
İnanmayım yuxuyozan sözünə
Şahlıq verdin, indi mənə inam ver".

***

İnamsızlıq yedi onu, saraltdı,
Uzaqlaşdı yaxınları Başevdən,
İnanmadı öz qızına şah kimi,
Uzaqlaşdı yaxınları Başevdən.

İnamsızlıq düzlükləri addayar,
Qan gətirər, lov səpələr ortaya,
Qız balası yad kəsildi ataya,
Uzaqlaşdı yaxınları Başevdən.

Nə başbilən, nə bilikli, nə qanmaz,
İnamsızlıq qabağında dayanmaz,
Belələri tanrıya da inanmaz.
Uzqlaşdı yaxınları Başevdən.

***

İşdayaq şah vurnuxurdu özüylə,
Qorxusundan danışan yox, dinən yox.
O, bu sayaq gəmirirdi içini,
Qorxusundan danışan yox, dinən yox.

Soyuq idi ona yaxın gələnə,
Gəlib onun iç üzünü bilənə.
Göstərişlə yaşamayıb ölənə,
Qorxusundan danışan yox, dinən yox.

İnamsızlıq çəkər səni təkliyə,
Pıçıltıya qulağını şəkləyər,
Kimdir onu Turər kimi bəkləyən,
Qorxusundan danışan yox, dinən yox.

Yuxu söyləncisi

"-Əkbitənin Turər şahı uludur.
Minellinin başbiləni o idi.
Başı uca bir baş idi yurduna,
Minellinin başbiləni o idi.

O, döyuşdə iti idi, vuruşqan,

Saman kimi qığılcımdan alışqan,
Diləyində, istəyində yapışqan.
Minellinin başbiləni o idi,

Toplum-toplum atlıları döyüşkən,
Acıqanın üzərinə yürüşkən,
Gətirdiyi varı, yoxu bölüşkən,
Minellinin başbiləni o idi.

***

Döyüşlərdə şimşək kimi çaxandı,
Yürüşlərdə çaya dönüb axandı,
Acıqanın varlığını yaxandı,
Minellinin başbiləni o idi.

Görub bunu doğu, batı gözuylə,
Ölməzliyə aparırdı özüylə,
Yaşı çatıb altı kərə yüz ilə
Minellinin başbiləni o idi.

Min il keçib, yer min kərə dolanıb,
Axar sular, duru çaylar bulanıb,
Adı-sanı adımıza calanıb,
Minellinin başbiləni o idi".

***

Oturmuşdu Turər şahın yerində.
Eşidirdi bu sözləri İşdayaq,
Qoşar çalıb oxuyurdu ortada,
Oturmuşdu Turərşahın yerində.

Qoşaçaydan, Durudaşa ölkəsi,
Asur, Balasq, İlam, Asur bölgəsi,
Hər ölkədən bir arvadı, yengəsi,
Oturmuşdu Turərşahın yerində.

Tək o idi hər bir yerdə birinci,
Ancaq yoxdu şah yerinə yerinci,
Bircə qızdı ürəyinin sevinci,
Oturmuşdu Turərşahın yerində.

***

"-Qoruyaram minellinin yurdunu,
Böyük soyum Turərşaha and ola.
Varlığımdan ön tutaram Mineli
Böyük soyum Turərşaha and ola.

Şahlığımın ata yolu uludur,
Sözlərilə könlüm, başım doludur,
Yolum tanrı Turər ata yoludur,
Böyuk soyum Türərşaha and ola.

Budaq bağlı olmalıdır kökünə,
Mən də bağlı o keçmişə, çəkimə,
Çıxım yolun enişinu, dikinə,
Böyük soyum Turərşaha and ola".

***

Ölu kimi sap-sarıydı İşdayaq.
Baş falçıya yuxusunu danışdı.
-Yuxu gördüm su boğurdu qızımı,
Baş falçıya yuxusunu danışdı.

Mindonqızı su götürüb aparır,
Su get-gedə dəniz kimi qabarır,
Batır gedir, varım, yoxum, tutarım,

Baş falçıya yuxusunu danışdı.

Falçı, danış, bu su nədir yuxuda,
Əlim niyə əsir mənim qorxudan,
Nə deməkdir bu yuxulu sorğular,
Baş falçıya yuxusunu danışdı.

***

-Şahım, qızın o Mindondan uzaq ol,
Odur sənin şahlığına göz dikən.
Ondan olan böyüyəcək, artacaq.
Odur sənin şahlığına göz dikən.

Söylədiyin yuxu belə yozulur,
Yolun üstə dərin quyu qazılıb,
Bir körpədə sənin sonun yazılıb
Odur sənin şahlığına göz dikən.

Mindon qızı uzaq elə, ərə ver,
Lap istəsən uzaq-uzaq yerə ver,
Boş adam tap, öz adına görə ver,
Odur sənin şahlığına göz dikən.

***

Şah düşündü, yol aradı neçə gün,
Yol qurtarar yolsuzluqdan adamı.
Qızı necə ərə versin, nə yolla,
Yol qurtarar yolsuzluqdan adamı.

"Bircə qızdır, necə qovum mən onu.
İnandırıb kimə verim Mindonu,
Kimə açım bu dolambaç oyunu,
Yol qurtarar yolsuzluqdan adamı".

Şahlığımla qızım durub yanaşı,
Gündən-günə işim, başım qarışır,
Yolu budur qızla özüm danışım,
Yol qurtarar yolsuzluqdan adamı".

Daraşdılar hər gün şaha falçılar,
Hər ağaçı öz içindən qurd yeyər.
İnandırıb yalvardılar, yozdular,
Hər ağacı öz içindən qurd yeyər".

Şah düşündü: "-saxlamaqçin özümü
Göturərəm yolum üstdən qızımı,
Yoxsa pisdir bu yuxunun yozumu,
Hər ağacı öz içindən qurd yeyər.

Axı Mindon mənim bircə balamdır,
Bəlkə yuxu yozumları yalandır,
Mənə qalsa yenə qızım qalandır,
Hər ağacı öz içindən qurd yeyər".

Mindon söyləncі

- Qızım, ötur, sən də gərək biləsən,
Tanrı bilir daha səndən nə gizli.
Qanlı qorxu hədələyir şahlığı,
Tanrı bilir daha səndən nə gizli.

Deyirlər ki, səndən olan ilk uşaq,
Bu ölkədə sonuncu şah olacaq.
Bu ölkədən o qanlı öc alacaq,

Tanrı bilir, daha səndən nə gizli.

Qorxu basıb, bala, məni bir ildir.
Bu yuxular, ancaq yalan deyildir,
Göy deyəni rəml atanlar nə bildi.
Tanrı bilir, daha səndən nə gizli.

***

Mindon tutdu əllərilə üzünü,
Ata belə söz deyərmi qızına.
Ata-bala arasında ölçü var,
Ata belə söz deyərmi qızına.

Qız atanın bu halından şəklənir,
"Ata deyən bu söz nədir, ərk nədir.
Güvəncini itirən qız təklənir,
Ata belə söz deyərmi qızına.

Onda gərək heç getməyim ərə mən.
Evdə qalım şah atama görə mən,
Ya da ölüm, basdırılım yerə mən,
Ata belə sız deyərmi qızına".

***

- Ata, ölmək bundan daha yaxşıdır,
Tanrı bunu bağışlamaz bizlərə,
Doğulmamış uşaq kimə neynəyib?
Tanrı bunu bağışlamaz bizlərə.

Ata, səni yanlayıbdır falçılar.
Dildə ötkəm, ötkəmlikdə yolçular,
Bıçaq sözün ürəyimə sancılar,
Tanrı bunu bağışlamaz bizlərə.

Məni öldür, ya da azdır tək qalım,
Qurda quşa yuva olum, tay olum,
Nə şah, nə ər, nə yurd. nə qız, nə oğlum,
Tanrı bunu bağışlamaz bizlərə.

***

-Ancaq məni azdırmazdan qabaq bil,
Yad ağızlar səni səndən ayırır,
Falçı rəmmal, cinçi şaha tay deyil,
Yad ağızlar səni səndən ayırır.

Mən atamın sözlərindən çıxmaram,
Oğul, uşaq, ər evinə baxmaram,
Soysuz qallam, ərsiz qallam, doğmaram.
Yad ağızlar səni səndən ayırır.

Falçılara, cinçilərə inanma,
Onlar kimi göydən sallaq dayanma,
Eli eşit, onlar ilə dolanma,
Yad ağızlar səni səndən ayırır.

***

Şah qızına inanmadı nədənsə,
Qoca kişi hər bir sözə inanmaz.
Bir az qorxdu hələ onun sözündən,
Qoça kişi hər bir sözə inanmaz".

"Qız ağ oldu niyə mənim üzümə,
O baxmadı bir yol nəmli gözümə,
Gəl, sən inan falçıların sözünə,
Qoca kişi hər bir sözə inanmaz.

Falçıların dedikləri olandır,
Mən gedəri, Mindon isə qalandır,
Düz deyirlər, məni yıxan balamdır,
Qoca kişi hər bir sözə inanmaz".

***

Qız çağırdı öz yanına Muğəri,
Ağsaqqalın dedikləri düz olar.
-Məni qurtar bu qadadan, yol ara.
Ağsaqqalın dedikləri düz olar.

Aldadıblar şah atamı fal ilə,
Yola gətir onu doğru yol ilə,
Get inandır şahı, Muğər, dil ilə,
Ağsaqqalın dedikləri düz olar.

Atam qartıb, fala, rəmlə inanıb,
Bel bükülüb şah inamı qatdanıb,
Şahlığını, varlığını o danır,
Ağsaqqalın dedikləri düz olar.

***

Muğər dedi,-Qorxma, qızım, atandan,
Yol azanı yola qoymaq çətindir.
Get yanına, ağla, yalvar, əl uzat,
Yol azanı yola qoymaq çətindir.

Mən bilirəm şahı falda yorublar.
Onu alıb sənə qarşı qoyublar,
Bu ölkəyə dərin yara vurublar,
Ol azanı yola qoymaq çətindir.

Məni apar, qoy danışım düzünü,
Bizə sarı mən döndərim üzünü,
Ya ölərəm, ya qurtarram qızımı,
Yol azanı yola qoymaq çətindir.

***

Mindon getdi şah yanına Muğərlə
Şah onlardan üz döndərdi bir az da.
-Ata, dinlə, yalvarıram, Muğəri,
Şah onlardan üz döndərdi bir az da.

-Şahım, qızın bağrı yanıq qorxudan,
Atma onu, kəsmə onu qayğıdan,
Ulduz özgə yol göstərir yuxudan,
Şah onlardan üz döndərdi bir az da.

Ulduz deyir yerdə inam tükənib,
Su yolu ilə vuruş gözlər ölkəni,
Çoxalt bu il arpa, buğda əkəni,
Şah onlardan üz döndərdi bir az da.

***

-Mən Muğərəm, göyə gizli bacam var,
Göydən gəlir ağrı, acı, uzüntü.
İşdayağın göy ulduzu apaydın,
Göydən gəlir ağrı açı, uzüntü.

Yerdəkilər sizi sözə tutublar,
Boş fal ilə başınızı qatıblar,
Könlünüzə üzüntülər çatıblar,
Göydən gəlir ağrı, acı, üzüntü.

Bu yuxuda su döyüşdür, su qandır,
Mindon qanda üzən sarı samandır,
Gəmi aldır, gəmi yolu açandır,
Göydən gəlir ağrı, acı, üzüntü.

***

-Mən şahımın qabaqında bükülü,
Şah uzağı görməlidir Başevdən.
Falçılardan, cinçilərdən sapınıb,
Şah uzağı görməlidir Başevdən.

Şahım, suda gəmiləri artırın,
Onda yönü belə idi Turərin.
Dənizlərdə ayıq olun, bərk durun,
Şah uzağı görməlidir Başevdən.

Neçə eldə yerinciniz saralıb,
Qalıb iki yol arası asılı.
Şahımızda şah inamı azalıb,
Şah uzağı görməlidir Başevdən.

***

- Müğər, məni inandırsan bu dillə,
Oyun baha başa gəlir Başedə.
Minellinin qorxudadır şahlığı,
Oyun baha başa gəlir Başevdə.

Gəmilərim dəniz-dəniz üzürlər,
Toplumlarım ölkə-ölkə gəzirlər.
Necə qana bata bilər bu düzlər,
Oyun baha başa gəlir Başevdə.

Nə yürüş var, nə qasırğa, nə qırğın,
İçindədir acıqanı şahlığın.
Gərək deyil şaha Müğər qılığı,
Oyun baha başa gəlir Başevdə.

***

Sən atırsan məni qana-qadaya,
Yer yox yersiz öyüdlərə bu yerdə.
Yoxsa başın qoltuğunda olacaq,
Yer yox yersiz öyüdlərə bu yerdə.

Qız mənimdir, diyar mənim, ev mənim,
Çaşdırırsan düşüncəmdə sən məni,
Sən deyənlər yelə verər ölkəni,
Yer yox yersiz öyüdlərə bu yerdə.

Mən baxaram, soruşaram, bilərəm,
Öz tanrımdan yardım, əltut dilərəm.
Yeri gəlsə şah kimi də ölərəm,
Yer yox yersiz öyüdlərə bu yerdə.

***

-Ata, inan, sənə qarşı o düzdü.
Düz tikanlı düzdə qalır, təklənir,
Niyə yalan ürəklərə yol tapır,
Düz tikanlı düzdə qalır, təklənir.

Bu gəlişin qurtuluşu yürüşlə,
Hamı gərək sınanıla döyüşdə.
Falçı, rəmmal üzə çıxsın bu işdə,
Düz tikanlı düzdə qalır, təklənir.

Ata, bir də söyləyirəm, biləsən,
Yalvarıram məni ərə vermə sən,

Şahım, niyə axı niyə görəsən,
Düz tikanlı düzdə qalır, təklənir.

***

Yalvardılar, yaxardılar ataya,
Dəyişməyir sözlə alın yazısı.
Məncil* şaha yol göstərdi bilərlər.
Dəyişməyir sözlə alın yazısı.

_____

*** Məğrur***

-Atam, yazıq Mindonundan öc alma,
Tanrım düşük* gücsüzlərdən güc alma,
İstək quşum, en aşağı, ucalma,
Dəyişməyir sözlə alın yazısı.

Tanrım, qurtar məni qanlı gəlişdən,
Başevdəki gizli alış-verişdən,
Yad görünən doğma tanış bilişdən,
Dəyişməyir sözlə alın yazısı.

***

Qısnadılar İşdayağı falçılar,
Toyuq içdən, balıq başdan iylənər.
Muğər, Mindon təkləndilər Başevdə,
Toyuq içdən, balıq başdan iylənər.

Şahın artdı öz qızından qorxusu,
Lap dolaşdı burum-burum yuxusu.
Başev oldu hörümçəklər toxusu
Toyuq içdən, balıq başdan iylənər.

Yuxu üstdə neçə başlar vuruldu,
Müğərinsə köksu iki yarıldı,
Şah qızının kövrək könlü qırıldı,
Toyuq içdən, balıq başdan iylənər.

***

Nələr etdi yuxuları yozumlar,
Şahlıq qızıl qan üstündə qurulub.
Qan üstündə üzən şahdır, ya gəmi.
Şahlıq qızıl qan üstündə qurulub.

Minellinin birellisi nə gündə,
Başbiləni, düz deyəni sürgündə.
Çırpıntısı kəndir-kəndir düyündə
Şahlıq qızıl qan üstündə qurulub.

_____

Xəstə

Böyük ölkə burdan tutub oracan,
Başev olub başdan-başa yozmaca
Bu ölkəni dolandırır bir qoca,
Şahlıq qızıl qan üstündə qurulub.

Çinellilərlə vuruş söyləncisi

İşdayağa soraq çatdı Xançudan.
Çinellilər hindellilər birləşib.
Minellilər şahlığını yıxmaqa
Çinellilər hindellilər birləşib.

Deyirlər ki, qoçalıbdır İşdayaq,
Min il dilibağlı qalıb bu torpaq,
Qala bilməz öc-ödənclər bu sayaq,
Çinellilər hindellilər birləşib.

Yürüş edib İşdayağı yıxarıq.
Köləlikdən, asılqadan çıxarıq.
Minellini ölkə-ölkə yaxarıq
Çinellilər, hindellilər birləşib.

***

Bu yürüşdə Arı xaqan başçıdır,
İki üzü olmur bezin geyimdə.
Sarı xaqan, Arı xaqan bir üzdür.
İki üzü olmur bezin geyimdə.

Xaqan Düzər qabağında basıldı,
Yüz il qabaq ona sonev qazıldı,
Şahlıq Düzər minelliyə yazıldı,
İki üzü olmur bezib geyimdə.

İndi qalxıb Arı xaqan şellənir,
Toyuq kimi soyuq küldə küllənir,
Döşü üstə saç-saqqalı yellənir,
İki üzü olmur bezin geyimdə.

***

Arı xaqan toplum yığıb bəsləyib,
Toplum gərək ağır gündə sınana.
Döyüş vuruş bəsləng evi deyildir,
Toplum gərək ağır gündə sınana.

Bir ay qalır dağa-daşa qış düşə,
Arı xaqan lapdan çıxıb yürüşə,
Min fil üstdə oturubdur beş-beş ər,
Toplum gərək ağır gündə sınana.

Qorxu artıb hər bir yanı götürüb,
Kənddəkilər başlarını itirib,
Arı xaqan yüz min atlı gətirib.
Toplum gərək ağır gündə sınana.

***

Son ayaqda Muğər dedi Başevdə:
-Yozmaçılar qan yuvası Başevdə.
Mən düzünü söyləmişəm şahıma.
Yozmaçılar qan yuvası Başevdə.

Çıxmalıdır şah gəmiylə gəziyə,
El obanı dindirərsə, düz deyər.
Ellər şahı gücləndirər, bəzəyər;
Yozmaçılar qan yuvası Başevdə.

Mən Muğərəm, şahı uça sanıram,
Ançaq onun bu gününə yanıram,
Qan-qadalı yozuları danıram.
Yozmaçılar qan yuvası Başevdə.

Qarbaş söyləncі

Şah çağırdı qulluğuna Qarbaşi.
Son ayaqda yaxın yoldaş arxadır,
Dedi: - Qıza adsız, sansız bir ər tap,
Son ayaqda yaxın yoldaş arxadır.

Dedi, -əri, sısqa olsun, düz olsun,

Başev, qıza. bir də ona göz olsun.
Bu yanlara gəliş-gediş az olsun,
Son ayaqda yaxın yoldaş arxadır.

Olsa, burdan uzaq olsun qız balam,
Qoy uçalsın uzaq yerdə qız qalam,
Çıxsın üzə bundan sonra düz, yalan.
Son ayaqda yaxın yoldaş arxadır.

***

Qarbaş bunu yaxşılığa yozmadı,
İlk baxışdan bəlli olur yaxşı, pis.
O nə sayaq düşündüsə, dinmədi.
İlk baxışdan bəlli olur yaxşı. pis.

Araları qardaş kimi açıqdı.
Özü arıq, zil gözləri batıqdı.
Bığ-saqqalı, qız qaşları çatıqdı,
İlk baxışdan bəlli olur yaxşı, pis.

O şah ilə tutulurdu yanaşı.
O Başevin toplumunda minbaşı,
Düşüncəsi gözlərində qaynaşır,
İlk baxışdan bəlli olur, yaxşı, pis.

***

-El içində üzüyola biri var.
Üzüyola yararlıdır hər işdə.
O sözümdən çıxmaz mənim, bilirəm.
Üzüyola yararlıdır hər işdə.

Çağıraram, evləndirrəm kəbinlə,
Yola sallam uzaq elə gəlinlə.
Qorxudaram onu ölüm-itimlə,
Üzüyola yararlıdır hər işdə.

Qız and içsin, gedib qalsın o yerdə,
Utanmasın, boşanmasın o ərdən,
Uşaq olsa özü bura gətirər,
Üzüyola yararlıdır hər işdə.

***

-Adı nədir?
-Şahım, adı Qanbuzdur,
Adını bil, içini gəz adında.
Hara desən o axacaq su kimi.
Adını bil, içini gəz adında.

Uzaq eldə çinellidir bu kişi.
Yoxdur elə onun tanış-bilişi.
İşləyəndir, baçarandır hər işi,
Adını bil, içini gəz adında.

Məncə şahım, Qanbuz bizə gərəkdir.
Həm də Qanbuz kimsəsizdir və təkdir,
Uzaq eldə şaha arxa, dayaqdır,
Adını bil, içini gəz adında.

***

İlk görüşdə Mindon dedi ərinə:
-Ər-arvadlıq elə şahlıq deməkdir.
Mən bu gündən köləsiyəm bu elin.
Ər-arvadlıq elə şahlıq deməkdir.

Sən almısan burda "yoxsul" qızını,
Yaşa onda mənim alın yazımı.

Uça tutum öz ərimin sözünü.
Ər-arvadlıq elə şahlıq deməkdir.

Uzaq olsun evimizdən qan-qada,
Nə söz olsun, nə soyuqluq arada.
Bizi saxla böyuk, ulu yaradan
Ər-arvallıq elə şahlıq deməkdir.

***

Qarbaş çapdı acıqanın üstünə,
Qan gölüdür acıqanın birliyi.
Ay oğullar yürük olun, qurd olun,
Qan gölüdür acıqanın birliyi.

At üstündə durun lapdan ayağa,
Fil minəni alın ipə, qarmağa.
Qırmaq üçün çəkin-tökün torpağa,
Qan gölüdür acıqanın birliyi.

Yürüş edin filə öndən, arxadan,
Yağlı əski alışdırın ortada.
Odu görüb fil çıxaçaq aradan,
Qan gölüdür acıqanın birliyi.

***

Minellilər qarmaq atdı, ip atdı,
Hər döyüşün öz yönü var, çəmi var.
Fil minənlər beş-beş yerə töküldü,
Hər döyüşün öz yönü var, çəmi var.

Yanan əsgi çox filləri ürküdür,
Onlar qaçıb döyüşləri tərgidir,
Minellilər yolu, yalı bərkidir,
Hər döyüşün öz yönü var, çəmi var.

Tüstü, qan, od bürüyübdür çölləri,
Gələnlərin boşa çıxır əlləri,
Boş qalıbdır filin çullu belləri
Hər döyüşün öz yönü var, çəmi var.

***

Xaqan durur Qarbaş ilə üz-üzə,
-Döyüşlərin vuran qolu başçıdır.
Od-alovla məni yıxa bilməzsən.
Döyüşlərin vuran qolu başçıdır.

Səndən allam öz babamın öcünü,
Gör indi də çinellinin gücünü,
Sənə çatsın gərək kölə biçimi.
Döyüşlərin vuran qolu başçıdır.

Boş yerədir ipin, odun, qarmağın,
Düzərdəndir bu bicliyi qurmağın,
Məndən öyrən indi qılınc vurmağı,
Döyüşlərin vuran qolu başçıdır.

***

-Sən satqınsan Arı xaqan ölkədə,
Gücü, içi laxlam olar satqının.
Hindellini qaldırıbsan döyüşə.
Gücü, içi laxlam olar satqının.

Minellinin İşdayağı oyaqdır.
Ona yavru qonşuları dayaqdır,
Ötük, satıq, yoluq bizdən uzaqdır,

Gücü, içi laxlam olar satqının.

İşdayağı yıxmaq olmaz bu sayaq,
Çox güclüdür, bilimlidir İşdayaq,
Gəl indi də qılınc vuraq, güc vuraq,
Gücü, içi laxlam olar satqının.

***

Axşamacan vuruşurlar üz-üzə,
Güç biləkdə, dözüm isə dizdədir.
Qor sıçrayır qılınçlardan dörd yana,
Güc biləkdə, dözüm isə dizdədir.

Deşik-deşik, batıq-batıq qalxanlar,
Yürüşdə idi kiçik xanlar, xaqanlar,
Bir qılıncla doğranırdı qorxanlar,
Güc biləkdə, dözüm isə dizdədir.

Arı xaqan tez bükülüb yorulur.
Neçə yerdən yaralanıb yarılır,
Son vuruşda topbuzuna sarılır.
Güc biləkdə, dözüm isə dizdədir.

***

Xaqan dözmür topbuzuna Qarbaşın,
Qaçmaq yolu qorxaqların yoludur..
Qaçır gedir yüz minbaşı, yüzbaşı,
Qaçmaq yolu qorxaqların yoludur.

Qılınç, topbuz, ox yarası alınça
Sınıq-salxaq toplum gedir dalınça,
Baş yaralı, əyin-ayaq yalınçaq,
Qaçmaq yolu qorxaqların yoludur.

Yaralılar yerdə qalıb qıvrılır,
Alov qalxır, tustü göyə sovrulur,
Acıqanlar Qobuçöldən qovulur,
Qaçmaq yolu qorxaqların yoludur.

***

Qaçanları qarşılayır İşdayaq.
Satqın gərək qurtarmasın ölümdən.
Şah onlarla çay üstündə vuruşur,
Satqın gərək qurtarmasın ölümdən.

Arı xaqan satın alır ölümü,
Bir qılıncla iki yerə bölünür,
Qanlı çölə sovururlar külünü,
Satqın gərək qurtarmasın ölümdən.

Qobuçöldə çay da qana boyanır.
Qanlı güllər qanlı çaya boylanır,
Tanrı özü minellinin hayanı,
Satqın gərək qurtarmasın ölümdən.

***

İşdayaq şah uca tutur başını,
Şahlıq gərək uca olsun ucadan.
Hamı onun qılıncına baş qoyur,
Şahlıq gərək uca olsun ucadan.

Böyük Minel ölkəsində var artır.
Gedir daha qorxu, ürkü, qaraltı.

Çinel qalır bu ölkədə əlaltı,
Şahlıq gərək uca olsun ucadan.

Sona çatır Qobuçölün döyüşü,
İşdayağın yola düşür çox işi,
Darvideldə yerinçini dəyişir,
Şahlıq gərək uca olsun ucadan.

Mehcə söyləncі

Darvidelsə qız göndərir Başevə,
Öç azalır, qızla, sözlə, bağışla.
O yerincin üç qızından biridir,
Öc azalır, qızla, sözlə, bağışla.

Göndərişlə çox sevinir İşdayaq
Sevir qızı Başevinə qataraq,
Ərk eləyib, ad qazanır bu qonaq.
Öc azalır qızla, sözlə, bağışla.

Adı Mehcə, özü gözəl bilimli,
Boy-buxunu yaraşıqlı, sevimli,
Dil-dodağı dadlı, yuxa biçimli.
Öc azalır qızla, sözlə, bağışla.

***

Mehcə sevir ilk baxışdan qoçanı,
Sevgi şaha, yaşa, başa baxmayır.
Qız oxşayır bunça sevən ərini
Sevgi şaha, yaşa, başa baxmayır.

Mehcə gedir İşdayaqla hər yana
Bir il keçir, doğur, olur gənc ana.
Şah "Ana şah" adı verir Mehçana
Sevgi şaha, yaşa, başa baxmayır.

Şah Mehcəni əl içində bəsləyir,
Hamı onu gəlin deyə səsləyir,
Başev Ana şah yerini gözləyir,
Sevgi şaha, yaşa, başa baxmayır.

***

Qaraş qoyur şah oğlunun adını,
Yaxşı oğul hər bir işdə dayaqdır.
İşıqlanır şahın üzü, baxışı,
Yaxşı oğul hər bir işdə dayaqdır.

O, gəlinlə, o Qaraşla öyünür,
Şah ürəyi sevinc ilə döyünür,
Nə düşüncə, nə kövrəklik nə günü,
Yaxşı oğul hər bir işdə dayaqdır.

Susur şahın yuxusuna söz qatan,
Yuxuyozan, suyabaxan, rəmlatan,
Dəyişilir başdan-başa şah ata,
Yaxşı oğul hər bir işdə dayaqdır.

***

Saxlançını şah payladı ellərə,
Əlaçıqlıq tükənməyən saxlancdır.
O baş çəkdi kimsəsizə, yoxsula,
Əlaçıqlıq tükənməyən saxlancdır.

Bu sevgiylə dəyişildi ölkə də,
Sevgi uzaq yavalıqdan, ləkədən
Səs yayıldı hər diyarda, bölgədə
Əlaçıqlıq tükənməyən saxlancdır.

Sıxılsa da bundan qısır gəlinlər,
Təzələndi, dəyişildi geyimlər,
Şaha qoşma, gözəlləmə, deyimlər...
Əlaçıqlıq tükənməyən saxlancdır.

***

Var kedəndir, dolu saxlanc gedəndir,
Ata uçün oğul qalır, qız qalır.
Şah olsa da ölkələrə, yurdlara
Ata üçün oğul qalır, qız qalır.

Kim sonevə var aparıb özüylə,
Kimsəsizsən kimsə olsan yüziylə
Gedəcəksən gedənlərin iziylə
Ata üçün oğul qalır, qız qalır.

Oğlun oğlu, qızın qızı qabaqda,
Hər il gəlir, bitir, solur torpaqda
Gül olmayır yabanıdan, alaqdan,
Ata üçün oğul qalır, qız qalır.

***

Yaşadacaq səni doğma artarın*.
Gəlib səni sənsizlikdən qurtarıb,
O, kəsərli yarağındır, yontarın,
Ata üçün oğul qalır, qız qalır.

Ana süddür, ata qandır, qadası,
Varı versin artarını saxlasın,
Artar yoxsa, için-için ağlasın,
Ata üçün oğul qalır, qız qalır.

Artar versin tanrı, görüm hamıya,
Odur sənin ev-baçanı yamayan,
Yaxşı artar pis günündə yarayar,
Ata üçun oğul qalır, qız qalır.

***

Darvidelin igid-igid ərləri,
Hər bir ölkə igidilə tanıqdır**.
Min il keçib bu yurd bütün dəyişib,
Hər bir ölkə ikidilə tanıqdır.

**Övlad*
***Məşhur*

Yerinç olub Çölçü doğma elində,
Seçilirdi başda, sözdə, bilimdə,
Ad qazandı bir yöndəmsiz ölümdə
Hər bir ölkə ikidilə tanıqdır.

İndi burda yerinc Sərdarağadır,
Güçdə, vurda bir qaplandır, buğadır,
Üçcə qıza, Darvidelə atadır,
Hər bir ölkə igidilə tanıqdır.

***

İş yeyəsi, qulluq qulu, başbilən,
Hər gəlişin vardır düşər-düşməzi.
İşdayağın yerinçidir bu yurdda,
Hər gəlişin vardır düşər-düşməzi.

O bilərdir, ən bilikli yerincdir*.
Dedi-qodu qaynağında kilinçdir,
Ona qarşı duran ərlər gülünçdür,
Hər gəlişin vardır düşər-düşməzi.

Mehcə qızı Əkbitənin gəlini,
Mehcə bilir, sevir Minel dilini,
Bağış verib şaha yumuq gülünü,
Hər gəlişin vardır düşər-düşməzi.

***

Fərzad gizli quyu qazır Sərdara,
Öz kökünə çəkər budaq, bəllidir.
O Çölçünün üç arxadan artarı,
Öz kökünə çəkər budaq, bəllidir.

-Mən Mehcəni istəyirdim, vermədi.
Mən Çölçünün qalınçıyam, görmədi,
Mən sevgimdən bir gül-çiçək dərmədim
Öz kökünə çəkər budaq, bəllidir.

Yetər daha, İşdayaqdan öc allam,
Darvidelin torpağında ucallam.
Şah olarsam, Əkbitəndən bac allam,
Öz kökünə əkər budaq, bəllidir.

_____

***Canişin**

***

Yardım edin, İşdayağı basım mən,
İstəyirəm; istəyənlər güçlüdür.
Doğulmuşam böyük oyun törədim,
İstəyirəm, istəyənlər güclüdür.

Böyük Minel şahlığına qarşıyam.
Çinel deyil Mindiyara qonşuyam,
Mən Fərzadam, Darvidelin başıyam.
İstəyirəm, istəyənlər güçlüdür.

Əvvəl Sərdar, sonra gəlir İşdayaq,
Bol at, bol yem, bol yaraqlı, bol yaraq,
Gərək Minel boğumundan* qurtaraq,
İstəyirəm, istəyənlər güclüdür.

***

Mən Mehcəni ələ allam, quraram,
Gərək adam itirməsin soykökü.
Mehcə soydan Darvidelli qızıdır,
Gərək adam itirməsin soykökü.

Gərək qızı dilə tutam, ayıldam,
Bizə saxlanç tutmalıdır taxıldan,
Yoxsa oğlu ölməlidir bu yolda.
Gərək adam itirməsin soyköku.

Mən qılınçdan keçirərəm Mineli
Kəsiləcək burdan onda şah əli,
Gərək özüm başraq kimi yüksəlim.
Gərək adam itirməsin soykökü.

***

–Burda səni dinləyənlər sənlədir,
Böyüklərlə çarpışanlar böyüyür.
Ya ölərik, ya qalxarıq büs-bütün,
Böyüklərlə çarpışanlar böyüyür.

–Mənə tapşır yaraqlını, yarağı,
Qaçıraram körpə oğlu Qaraşı,

Gələr onda bizim yola ayağı,
Böyüklərlə çarpışanlar böyüyür.

Zülm

–Sərdarı da mən götürrəm aradan,
Sonevinə kedər bircə yaradan.
Bir yalanla Başev çıxar sıradan,
Böyüklərlə çarpışanlar böyüyür.

Yerinc söyləncі

Yerinc evi bəzənmişdi toysayaq
Bəzək-düzək qabalığı azaldır.
Toxunmalar, sallanmalar, qurğular,
Bəzək-düzək qabalığı azaldır.

Tunc döşlüklər, qızıl qayış qurşaqlar,
Üstü daş-qaş, qızıl, gümüş qolbağlar,
Əllərdəki fil sümüklü tutaqlar,
Bəzək-düzək qabalığı azaldır.

Yanarların* işıltısı oynaşır,
Gözlərdəki od-alovlar qaynaşır,
Kimsə gəlib baş qapıda danışır,
Bəzək-düzək qabalığı azaldır.

***

-Sərdar ölüb, öldürülüb yuxuda,
Yuxu elə bir geçəlik ölümdür.
Bıçaq ilə doğrayıblar boynunu
Yuxu elə bir gecəlik ölümdür.

Başev dəyir bir-birinə, qarışır,
O bununla, bu onunla savaşır,
Fərzad çıxır ortalığa danışır,
Yuxu elə bir gecəlik ölümdür.

-Sərdar ölüb, ölməmişik biz varıq,
Bura bir də Sərdarları qoymarıq,
Bu diyarı biz yenidən qurarıq,
Yuxu elə bir gecəlik ölümdür.

***

O oturdu ölən yerinç yerində
-Hər bir yerdə gərək yerli şah olsun.
Mən bu gündən Darvidelin şahıyam,
Hər bir yerdə yerli gərək şah olsun.

Məşəl

Kim bəyənmir getsin Minel yerinə,
Qalanlarsa əlbir biri-birinə,
Getsin desin Mehcəmizin ərinə,
Hər bir yerdə gərək yerli şah olsun.

Qoy yığılsın toplumlaşsın yüz alay,
Bizi yoldan döndərməsin hay-haray,
Verilməsin İşdayağa vergi-pay,
Hər bir yerdə gərək yerli şah olsun.

***

-Özgələrin torpağında gözüm yox,
Daş, qaya da öz yerində güçlüdür.
Darvidelin törəməsi basılmaz.
Daş, qaya da öz yerində güclüdür.

Qoy eşitsin sözümüzü İşdayaq.
Bundan sonra Darvideldir bu torpaq.
Bizimkidir bu çöl, bu dağ, bu otlaq.
Daş, qaya da öz yerində güclüdür.

Ey Darvidel, tüstülənsin ocağın,
Qanımızla qoy boyansın torpağın,
At dərisi sənin döyüş bayrağın.
Daş, qaya da öz yerində güclüdür.

***

Mehcə gəldi atasının yasına,
Üzüntüdür yas yerində göz yaşı.
Dörd yanında qız-gəlinlər əlaltı.
Üzüntüdür yas yerində göz yaşı.

Qızıltəkər, qızılyəhər miniklər,
Qara geyim, qara saçaq pitiklər,
Əllərində qızıloyma çəliklər,
Üzüntüdür yas yerində göz yaşı.

Neçə sürü, neçə naxır pay gəlib,
Minel yasda var qoymağı borç bilir,
Ata deyil, burda həm də şah ölüb
Üzüntüdür yas yerində göz yaşı.

***

Bir ay ağı, oxu, ağlar üzüntü,
Göz yaşıyla ölü bir də dirilməz.
Mehcə qaldı mələr-mələr, uğundu.
Göz yaşıyla ölü bir də dirilməz.

Diz qatlayıb saç yoldular balalar,
Döş çırdılar, üz yırtdılar analar,
Dizlərini döyəçlədi yananlar,
Göz yaşıyla ölü bir də dirilməz.

Yalvar-yaxar ulu tanrı adına,
Yaş çiləndi yanqıların oduna.
Bir ay keçdi hamı döndü yurduna,
Göz yaşıyla ölü bir də dirilməz.

***

Fərzad gəldi başsağlığı verməyə,
Qançıl adam üz-gözündən bəllidir.
Mehcə ona üz vermədi Başevdə
Qançıl adam üz-gözündən bəllidir.

-Kim öldürdü mənim yazıq atamı?
Qan tutaçaq gec-tez qançıl adamı,
Kim qan töküb qarışdırıb aranı?
Qançıl adam üz-gözündən bəllidir.

Öz qanına bələşəçək qan tökən,
Yurd dağıdan, adam yıxan, ev sökən,
Dağ görəçək ürəklərə dağ çəkən,
Qançıl adam üz-gözündən bəllidir.

***

- Mehcə, səni mən sevirəm bu gün də,
Sevməsən də sevənləri uca tut.
Sən Darvidel gözəlisən, soyusan,
Sevməsən də sevənləri uca tut.

Niyə gərək sevə-sevə ayrılaq,

Gəl, əl-ələ verək burda bir olaq,
Darvideli şahlaşdıran ər olaq,
Sevməsən də sevənləri uca tut.

Bundan sonra burda şahlıq mənimdir,
Darvideldə ana şahlıq sənindir,
Sənsiz mənə gül-göyçəyim, çətindir,
Sevməsən də sevənləri uca tut.

***

-Mən ərimə qarşı durmam, yaxşı bil,
Ər ölkədir, yurddur, soydur qadına.
Atam, anam mənə belə öyrədib
Ər ölkədir yurddur, soydur qadına.

Qan tökənin qan gözünü alacaq,
Sonevinə gərək enə o alçaq,
Belə qoymaz bu işləri İşdayaq,
Ər ölkədir, yurddur, soydur qadına.

Kim çəkibdir aralığa bu qanı,
Kim əkibdir bu iynəli tikanı.
Sevgi deyib sən qanatma yaramı,
Ər ölkədir, yurddur, soydur qadına.

***

-Onda ərin İşdayağa deyərəm.
Sevgi şahdır, ikiliyi sevməyir.
İlk sevgilin Qamad olub, bilirəm,
Sevgi şahdır, ikiliyi sevməyir.

İki sevgi, iki ürək, iki ər,
Bunu bilsə, qoça ərin nə deyər?
Söylə mənim sevdiçiyim, ərsevor,
Sevgi şahdır ikiliyi sevməyir.

Sən bizimlə verməlisən əl-ələ,
Minel gərək içəridən sökülə.
Ancaq onda qovuşaçaq gül-gülə,
Sevgi şahdır, ikiliyi sevməyir.

***

-Nə Qammadı aralığa çəkirsən,
Sevir ancaq doğru, düzgün adamlar.
Yadda qalar ilk sevginin günləri,
Sevir ancaq doğru, düzgün adamlar.

Öz ərimin köləsiyəm indi mən,
Məni özüm ala bilməz özümdən,
Dirrik indi İşdayaqdır gözümdə,
Sevir ancaq doğru, düzgün adamlar.

Mənim sevgim onun ilə bitibdir.
Mən ərliyəm, sevən çağım ötübdür,
İlk gənçliyim daha sona yetibdir,
Sevir ancaq doğru, düzgün adamlar.

***

Nə eşidib, nə görmuşəm səni mən.
Baş ayaqdır, aldatmaqdır bu sevgi.
Çıxıb önə şah deyirsən özünə,
Baş ayaqdır, aldatmaqdır bu sevgi.

Şah olmaqda tələsibsən deyəsən,
Tapmayıbsan öldürəni hələ sən,
Şah adını salma belə küyə sən,
Baş ayaqdır, aldatmaqdır bu sevgi.

Öncə gərək yaxalansın o qançıl.
Yalan olsun el gözündə yalançı,
Kimdir doğma, kimdir görək yalançı,
Baş ayaqdır, aldatmaqdır bu sevgi.

***

-Mən biləni bu, Qammadın işidir,
Göy qaralar öc alanda sevgidən.
İşdayağı gözdən salmaq istəyir,
Göy qaralar öc alanda sevgidən.

Ər istəyir bu ellərə baş ola,
Minellinin şah yerinə ucala,
O, səni də öldürəcək az qala,
Göy qaralar öc alanda sevgidən.

Odur Sərdar atamızın qancılı,
O bıçaqdır sinəmizə sancılıb,
Çox gizlilər mənə indi açılıb,
Göy qaralar öc alanda sevgidən.

Mən bu yeri tutdum ki, o, tutmasın,
Şah oldum ki, o, şahlığa çatmasın,
Mehcə gərək məni ona qatmasın,
Göy qaralar öc alanda sevgidən.

***

Ancaq Mehcə bilirdi ki, o, yoxdur,
Yeri-yurdu el içidir igidin.
O gəzirdi dağı, düzü, dənizi,
Yeri-yurdu el içidir igidin.

O gəzirdi, dolaşırdı hər yanı,
Mehcə kimi işıqlıqda qız hanı,
O vermişdi əldən ağca mayanı,
Yeri-yurdu el içidir igidin.

Mehcə bunu yuxulardan bilirdi,
Onun səsi uzaqlardan gəlirdi.
Qız gizlində Qammad üçün ölürdü,
Yeri-yurdu el içidir igidin.

***

Fərzad o gün yola saldı Mehcəni.
Sınıq ürək yamansa da sınıqdır.
Bağışlarla yüklənmişdi dəvələr,
Sınıq ürək yamansa da sınıqdır.

Saxlanc, bağış, qızıl, gümüş qabaqda,
Ancaq hamı çəkinirdi qonaqdan,
Çıxacaqmı görən Mehcə sınaqdan?
Sınıq ürək yamansa da sınıqdır.

Düşünürdü oğurlasın gəlini,
Qatsın işə Qammadın da əlini,
Dolaşdırsın taybirinin dilini,
Sınıq ürək yamansa da sınıqdır.

Qammad söyləndi

Əkbitənin sağı, solu gədikdir,
Yumaq-yumaq yolları var gədiyin.
Mərci boyda görünməkdə at, dəvə,
Yumaq-yumaq yolları var gədiyin.

Qırıq düşən çığırların ağ sapı,
Burda bulud ilxıları at çapır.
Əl uzadıb ulduzlardan od qapır,
Yumaq-yumaq yolları var gədiyin.

Sarılarsa sənə yolun düyünü
Qartallara yem olarsan o günü,
Qurdlar basar bir yürüşdə sürünü,
Yumaq-yumaq yolları var gədiyin.

***

Burda kəsdi qabağını Mehcənin,
Yol kəsənin bir düz yolu olmayır.
-Mən Qammadam, - dedi ata qancılı,
Yol kəsənin bir düz yolu olmayır.

Onlar alıb yan-yörəni tutdular,
Qızı qapıb bir dəvəyə çatdılar,
Qalanları qızıl qana qatdılar,
Yol kəsənin bir düz yolu olmayır.

Üz-gözləri şəlitlənmiş, örtülü.
Geyimləri kolluqlarda yırtılıb,
Atlarının alınları ütülüb.
Yol kəsənin bir düz yolu olmayır.

***

Birdən çıxdı yol üstünə bir atlı,
Yola çıxdın tut yaxşılıq yolunu,
Sevgililər bir-birini tanıdı,
Yola çıxdın tut yaxşılıq yolunu.

Qammad idi çal saçları pırtlaşıq,
Başındakı qara çalma dolaşıq
Paltarları toz-torpağa bulaşıq,
Yola çıxdın tut yaxşılıq yolunu.

Mehcə onu titrək səslə çağırdı,
Qammad birdən nərildədi, bağırdı,
Şəlitlilər dörd bir yandan çımxırdı,
Yola çıxdın tut yaxşılıq yolunu.

***

Qammad qılınc döyüşündə yürükdü,
Qılınc saxlar kölgəsində düzlüyü.
Hər vuranda üç şəlitli yıxılır,
Qılınc saxlar kölgəsində düzluyü.

-Sən Fərzadsan, Qammad demə özünə,
Üç gündür ki, mən düşmüşəm izinə,
Örtüb özgə üz versən də üzünə
Qılınc saxlar kölgəsində düzlüyü.

Sən öldürdün şah olmaqçın Sərdarı,
Çirkin qanla dolub için, damarın,
İstəklərin gözlərindən qabarır,
Qılınc saxlar kölgəsində düzlüyü.

***

-Qammad mənəm, Mehcə mənə çataçaq,
Sevgi satdıq, bağış deyil özkəyə.
Sevdiyimi aparıram özümlə
Sevgi satdıq, bağış deyil özgəyə.

-Sən Fərzadsan darvidelli, yalançı,
Özgə mala yiyə durmaz düz adam.
Mehcə şahın arvadıdır doğmaça.
Özgə mala yiyə durmaz düz adam.

Al qılıncın tiyəsini yol kəsən,
Qılınç deyər doğru sözü bu yerdə.
Mən şəltəni kötürərəm üzündən
Qılınc deyər doğru sözü bu yerdə.

***

Onlar susdu danışanda qılınclar,
Tanrı, özün saxla igid Qammadı,
Mehcə göyə əl tutmuşdu deyirdi:
Tanrı, özün saxla igid Qammadı.

Qammad mənim alın yazım, ürəyim,
Ürəyimin güzgüsündə diləyim,
Ölməkdirsə qoy bir yerdə öləyim,
Tanrı, özün saxla igid Qammadı.

Ərə getdim, qırılmadı, o dözdü,
Baş götürüb ölkələri o gəzdi,
Sevgisində o durudur, o düzdür,
Tanrı, özün saxla igid Qammadı.

***

Şəltə düşdü yol kəsənin üzündən,
Üz güzgüdür, göz oxudur hamıda.
Üz-gözündə qaynar acıq gəzirdi,
Üz güzgüdür, göz oxudur hamıda.

Haradansa qırıq olar yalançı,
Könlü soyuq, üzü dönük yabançı,
Üzü adam, özü isə adamcıl
Üz güzgüdür, göz oxudur hamıda.

Yaralandı düşdü güçdən, ölmədi
Öz yerindən daha dura bilmədi.
Şəlitlilər harayına gəlmədi,
Üz güzgüdür, göz oxudur hamıda.

***

-Bu öldürüb, Mehcə, sənin atanı,
Öz əlinlə öldürəni sən öldür.
Bu istəyir öz başına şah ola,
Öz əlinlə öldürəni sən öldür.

-Ey yatımlı igid ərən Qammadım.
O yıxılan bir kişidir, - mən qadın.
Ortalıqda İşdayaq var, şah adı,
Öz əlinlə öldürəni sən öldür.

-O keçinir döşündəki yaradan.
Çıxıb artıq bu yalançı sıradan,
Seçə bilmir daha ağı qaradan,
Öz əlinlə öldürəni sən öldür.

***

-Niyə belə küsülüsən, sevimlim,
İlk sevgidən yara qalar ürəkdə.
Uşaqlıqdır gəlib keçər ötəri,
İlk sevgidən yara qalar ürəkdə.

Mən hər yerdə səni deyib anmışam,
İlk sevgimin həsrətində yanmışam,
Ər evində sevgi nədir, qanmışam,
İlk sevgidən yara qalar ürəkdə.

Mənə baxma o küsülü baxışla,
Məni ərən sevgimizə bağışla,
Keçdi getdi öyməcələr, qarğışlar
İlk sevgidən yara qalar ürəkdə.

***

Atam məni vergi verdi şahlığa,
Kölə olsun, qadın vergi olmasın.
Sevgimizin alın yolu beləydi
Kölə olsun, qadın vergi olmasın.

Bu ayrılıq gərək bir gün gələydi,
Sevgimizin alın yolu beləydi,
İkimizdən biri gərək öləydi,
Kölə olsun, qadın vergi olmasın.

Vergi oldum, məni ucuz sandılar,
Gözəl deyib kimliyimi dandılar,
Sonra öyüb için-için yandılar,
Kölə olsun, qadın vergi olmasın.

***

Doğma sanıb məni, gülüm, bağışla,
Sevgi ölmür qalınc olur tanrıya,
Unutmarım səni, gənclik sevincim,
Sevgi ölmür, qalınc olur tanrıya.

Çoxdandır ki, könlüm başı sınıqdır.
Yanındaca iki gözüm qapıqdır.
Sinən kimi mənim sinəm yanıqdır,
Sevgi ölmür, qalınc olur tanrıya.

Varlığımsan, doğmam, arxam, sevincim,
Üzüntülər yürüşündə küvənçim.
Uça-uça dağlar boyda öyüncüm,
Sevgi ölmür, qalınc olur tanrıya.

***

-Heç bilmirəm necə oldu görüşdük,
Yeniləşir hər görüşdə sevənlər,
Yuxularda danışırdım səninlə,
Yeniləşir hər görüşdə sevənlər.

Bu gün çıxdım yaz sevgimin qışından,
Uzüntüsən ürəyimin başında,
Qanad aldım ağlar könül quşumdan,
Yeniləşir hər görüşdə sevənlər.

Anlayıram sən ərlisən, anasan,
İşdayağın Başevində sonasan,
Sən sevgidə alınmayan qalasan.
Yeniləşir hər görüşdə sevənlər.

***

- Dincliyimi itirmişəm, gözəlim,
Yasaq sevgi görüşsüz də yaşayır.
Ürəyimi gizlətmişəm hamıdan,
Yasaq sevgi görüşsüz də yaşayır.

Açılmamış yumuq gülüm dərildi,
Öz sevgimlə dağa-daşa sürüldüm,
Səni gördüm yeniləşdim, dirildim.
Yasaq sevgi görüşsüz də yaşayır.

Gözəlliyin çəkimində tutuğam,
Sevgi evi qapısından atığam,
Bulud kimi tutulmuşam, çatığam,
Yasaq sevgi görüşsüz də yaşayır.

***

Buyuruğun nədir, buyur, sevgilim,
Gülüm, ölmək dirilikdir sevgidə.
Axarını dəyişərəm çayların,
Gülüm, ölmək dirilikdir sevgidə.

İllərimə yamamışam ayları,
Barmaq sayıb bitirmişəm sayları.
Bunu bilir dağda qaya layları,
Gülüm, ölmək dirilikdir sevgidə.

Ölüm buyur, gedim ölüm dinmədən,
Qancıl göstər, mən vuruşum dönmədən,
Sevgim üçün yan de, yanım sönmədən,
Gülüm, ölmək dirilikdir sevgidə.

***

Mən bilirəm sən ərinə bağlısan,
Qadın gərək doğru olsun ərinə.
Mən bilirəm sən ərini sevirsən,
Qadın gərək doğru olsun ərinə.

Ancaq mən də ilk sevgimlə diriyəm,
Səni sevən yazıqlardan biriyəm,
Ocaq idim, indi ocaq yeriyəm,
Qadın gərək doğru ola ərinə.

Qammad sənin arxan, qardaş dayağın,
Ona arxa tanrı, göylər ocağı,
Get, qoy çatsın mənə yaxşı sorağın.
Qadın gərək doğru ola ərinə.

***

Gözəl Mehcə hıçqıraraq ağladı,
Od qalayar od üstünə göz yaşı.
Ağlamaqdan özgə ona nə qaldı,
Od qalayar od üstünə göz yaşı.

Çıxdı yola gözü yaşlı qonaqlar.
Ağlar qaldı gədik üstə bulaqlar,
Ağlamayın, ağlamayın, a dağlar.
Od qalayar od üstünə göz yaşı.

Uçurumlar uğuldadı, daraldı,
Ağ buludlar üzüntüdən qaraldı,
Gədikdəki gül-çiçəklər saraldı,
Od qalayar od üstündə göz yaşı.

Mindon söyləncі

Mindon doğub oldu oğul anası,
Anaların anasıdır analar.
Ana özu doğulsa da anadan,
Anaların anasıdır analar.

Kimliyini unutmuşdu şah qızı
Çoxalmışdı yoxsul evdə qayğısı.
Ana könlü onun könül yanğısı.
Anaların anasıdır analar.

Varlıq bircə oğlu idi gözündə,
Şah mənliyi çəkilmişdi üzündən.
Tükənsə də güç qolunda, dizində
Anaların anasıdır analar.

***

Yetərincə sevsə qadın ərini
Sevgi ötər, qalar bala sevinci.
Sevgi-sevinc bir körpəydi Mindona
Sevgi ötər, qalar bala sevinci.

Körpə şahdır, ana onun tanrısı.
Ana aydır, bala onun yarısı,
Çox ağırdır ana, bala ayrısı,
Sevgi ötər, qalar bala sevinci.

Körpə gülər anasına bəs nədən,
Ana baxar doluxsunar sevincdən.
O ağlayar, ançaq gülər bu hərdən.
Sevgi ötər, qalar bala sevinci.

***

Ana baxdı körpəsinin alnına,
Alın ötkəm olacağa güzgüdür.
O, işıqdan özgə bir-şey görmədi.
Alın ötkəm olacağa güzgüdür.

Ana şahdır, şah olmağı istəməz.
Ürəyində pis istəklər bəsləməz.
Ana var ki, pisləri də pisləməz,
Alın ötkəm olacağa güzgüdür.

Ana, qoru falçılardan körpəni,
Ver yalanlar qabağına gövdəni,
Yalan ilə daglar, daşlar tərpənir,
Alın ötkəm olacağa güzgüdür.

***

Bir gün Qarbaş gəlib çıxdı buraya,
Yoxa çıxsın falçıların yozumu.
Alıb öpdü qucağında körpəni,
Yoxa çıxsın falçıların yozumu.

"Bu uşaqdan şah olarmı görəsən,
Gərək bunu şah atana verəsən.
Gəl ağlama, qızım, boş-boş yerə sən,
Yoxa çıxsın falçıların yozumu.

Mən hər şeyi öz yoluna qoyaram,
Yalan deyib yalanları yuyaram,
Sənin ölüm xəbərini yayaram.
Yoxa çıxsın falçıların yozumu".

***

Yürük etdi yozmaçılar, falçılar.

Yozmaçılar dediyindən dönməyir.
Evə girib dağıtdılar, yaxdılar,
Yozmaçılar dediyindən dönməyir.

Axtardılar, tapmadılar uşaqı,
Çox gəzdilər evi oğru sayağı,
Boş ev, beşik, bir də uşaq qundaqı,
Yozmaçılar dediyindən dönməyir.

Çıxıb çölü, dağı, daşı gəzdilər,
Dağa gedən yalı, yolu kəsdilər.
Gəzə-gəzə axtarmaqdan bezdilər.
Yozmaçılar dediyindən dönməyir.

***

İşdayağa demədilər bu işi,
Uşaqlaşır ata oğlu olanda.
Körpəsilə uşaq-uşaq oynayır,
Uşaqlaşır ata oğlu olanda.

Bu olmuşlar qulağına çatmadı.
Körpəsilə sevindi o, yatmadı.
Günəş oldu, ancaq axşam batmadı.
Uşaqlaşır ata oğlu olanda.

Mehcə ona tanrı payı olmuşdu.
Qoca ona vurğunlaşıb qalmışdı,
Uşaq ondan şahlığını almışdı.
Uşaqlaşır ata oğlu olanda.

***

Başev hər gün çalxalanır sevincdən,
Hər sevinci bir üzüntü gözləyir.
Hər üzüntü bir sevincin əzəli,
Hər sevinci bir üzüntü gözləyir.

Qoşar, Ozan şaha mahnı qoşurdu,
Qonaqlarla Başev dolub daşırdı,
Dəli sevinc hər ölçünü aşırdı,
Hər sevinci bir üzüntü gözləyir.

Gəlib keçən bu hay-küyə boylanır.
Yoxsullara yemək-içmək paylanır,
Artıq qalan hər gün yerə quylanır,
Hər sevinci bir üzüntü gözləyir.

***

Ancaq Qarbaş düşünürdu, susurdu,
Qudurqanlıq qara günə elçidir.
Qudurqanlıq tapdaq edib hər şeyi,
Qudurqanlıq qara günə elçidir.

Yol azırdı qızıxanlar, qızanlar,
Varlanırdı şaha yuxu yozanlar,
Tovlayırdı yozanları ozanlar.
Qudurqanlıq qara günə elçidir.

Başlar boş-boş əylənçəylə yüklənib,
Baxışların güzkü gözu çirklənib,
Acıqanın qulaqları şəklənib,
Qudurqanlıq qara günə elçidir,

***

Şah çoxdandı qısqanırdı Mehcəni,
Ayraq* olsa, qısqanclıq da olacaq.
Qız öymüşdü öz ərinə Qammadı,

Ayraq olsa qısqanclıq da olacaq.

Rəqib

Çox gənc idi Mehcə şahdan əlli il,
Ağ göyərçin doğulmuşdu elə bil,
Almayanaq, qaymaqdodaq, incəbel,
Ayraq olsa qısqanclıq da olacaq.

- Gülüm, nə çox ağlayırsan bu günlər,
Ağlamaqla ölən bir də dirilməz.

İnanmıram mən Qammada, nədənsə,
Ancaq ona çin verərəm, bəyənsə,
Çox duşünub daşınırsan deyən sən,
Ağlamaqla ölən bir də dirilməz.

Sil gözəlim, gözlərini, toxda sən,
Yas saxdayıb ağlamsınma çox da sən,
Nə görübsən keçmiş olan yoxda sən,
Ağlamaqla ölən bir də dirilməz.

***

-Şahım, ata mənim üçün uludur.
Ata qızın arxasıdır, dayağı.
Ərim, varım, balam, köləm olsa da,
Ata qızın arxasıdır, dayağı.

O böyütdü bizi anam öləndə.
Sevinirdi biz oynayıb güləndə,
Bacıların çehizini böləndə,
Ata qızın arxasıdır, dayağı.

Şahım, qanı yerdə qalıb atamın,
Üzüntüsü məni qırır, nə danım,
Əl tut ərim, mənə, alım qadanı,
Ata qızın arxasıdır, dayağı.

***

- Bundan ötrü, gözəl Mehcəm, ağlama,
İş qurtarır işdə ölsə öldürən.
Çıxıb Qammad öldüräni öldürüb,
İş qurtarır ölsə işdə öldürən.

Güdük qoydum Darvideldə üç ay mən,
Dedilər ki, Fərzad olub öldürən.
Yerinç olsun orda baçın, istəsən.
İş qurtarır ölsə işdə öldürən.

Yozmaçılar söylədilər arada,
Darvideli bürüyəcək qan-qada,
Başçı olsun orda güçlü bir adam,
İş qurtarır ölsə işdə öldürən.

***

-Mən ki, səni hamıdan çox sevirəm,
İncə belli, uzun saçlı gözəlim.
Səndən özgə bir gözəldə gözüm yox,
İncə belli, uzun saçlı gözəlim.

Gülüşlərin yumuq güldür, uşaqdır,
Dodaqların yayda sərin bulaqdır,
Qoynun qardır, yaxıb yanan ocaqdır,
İncə belli, uzun saçlı gözəlim.

Varlığımda nəyim varsa sənindir,

Təkcə sənin yanqı sevgin mənimdir,
Quşam, sənin göz yaşların dənimdir,
İncə belli, uzun saçlı gözəlim.

***

-Sən olmasan, neynəyərəm dirriyi,
Dağ gövdəli, gənc ürəkli şah ərim.
Həm qardaşsan, həm atasan mənə sən,
Dağ gövdəli, gənc ürəkli şah ərim.

Ana oldum bu yaşımda körpənə,
O quzudur, göyərçindir, kəpənək,
Mən də, o da sənin üçün bəbənək*.
Dağ gövdəli, gənc ürəkli şah ərim.

Qadın gərək sevgisini yoxlaya,
Çəkisini, çəkərini saxlaya.
Qadın gərək üç gündən bir ağlaya,
Dağ kövdəli, gənc ürəkli şah ərim.

**Kukla*

***

-Mən yaşlıyam, səni sıxan bumudur,
Sevgilərdə adın, yaşın yeri yox.
Sevişəcək, başçı kölə, gənc, qoça,
Sevgilərdə adın, şahın yeri yox.

Gülüm, məni elə şahlıq qocaltdı,
Şahlığımdan mənə elə bu çatdı,
Mehcə məni gəncləşdirdi, ucaltdı,
Sevgilərdə adın, yaşın yeri yox.

Qobuçöldən, Qobuyerə yiyəyəm,
Bükülməyən dizəm, dəmir biləyəm.
Təkcə sənin qabağında köləyəm,
Sevgilərdə adın, yaşın yeri yox.

***

- Şahım, səndən bir diləyim var mənim,
Düzlük gəlib öz yerini tutacaq.
Darvidelə sən Qammadı yerinc qoy
Düzlük gəlib öz yerini tutaçaq.

Aldı məni o Fərzadın əlindən,
Təkbaşına, o qorxmadı ölümdən
Tanıyırlar onu mənim elimdə,
Düzlük gəlib öz yerini tutacaq.

O, Əkbitən şahlığına bağlıdır,
Düzlük bilən bir Minelli oğludur,
Məni onun yersizliyi ağrıdır,
Düzlük gəlib öz yerini tutaçaq.

***

Düşünərək təpərləndi İşdayaq:
"Bu sevgidir, yoxsa sevgi alveri,
Göz önündə çanlandırdı Qammadı,
Bu sevgidir, yoxsa sevgi alveri?

Uşaqlıqda sevib deyən o bunu,
O bunundur, ya da elə bu onun,

Heç bilmirəm, tanımıram soyunu,
Bu sevgidir, yoxsa sevgi alveri?

Bu, düzlükdə tay olsa da qızıla,
Ancaq ona inanmıram düz ola,
Bir də bu iş el içində söz olar,
Bu sevgidir, yoxsa sevgi alveri?"

***

"-Bir yol da var, yerinç qoyum Qammadı,
İşdə yoxla, işdə tovla, işdə əz.
Bir dəlibaş sal üstünə, yürüsün,
İşdə yoxla, işdə tovla, işdə əz.

Burda ancaq bir il dözüm gətirər,
Sonra yerinc çəkisini itirər.
Mehcə özü gedib onu götürər,
İşdə yoxla, işdə tovla, işdə əz.

Bir də Mehcə bərk dayanar dalımda.
Qammadı da götürərəm yolumdan,
Böyük tanrı tutaçaqdır, qolumdan,
İşdə yoxla, işdə tovla, işdə əz".

***

Şah buyurdu, axtarsınlar Qammadı,
Axtar, ara, itən yerdə itkini.
Daha artıq sevdi Mehcə ərini,
Axtar, ara itən yerdə itkini.

Çox gəzdilər, axtardılar ölkəni,
Daradılar şəhər-şəhər bölgəni,
Şəhərlərdə hər yolevi, döngəni,
Axtar, ara itən yerdə itkini.

Soraq gəldi Günbatanda dənizdən,
Küsüb gedib yayınmışdı o gözdən,
Nə ölkədə, nə çöllükdə, nə düzdə,
Axtar, ara itən yerdə itkini.

***

Qammad gəldi yerinc oldu yerində,
Var yox olar kimsəsizdən şah olsa.
Ancaq Qammad kimsəsiz də deyildi,
Var yox olar kimsəsizdən şah olsa.

Bir anası, bir bacısı var idi,
Böyük ölkə sevgisinə dar idi.
Göy başına qaxanc idi, qor idi,
Var yox olar kimsəsizdən şah olsa.

Bunu bildi o, sevdiyi gözəldən
"Ancaq odur bu işləri düzəldən",
Təpərliydi, duyğuluydu əzəldən,
Var yox olar kimsəsizdən şah olsa.

Ov söyləncisi

Səslənclərin səsi düşür meşəyə
Səs dağları, kolluqları darayır.
Dördayaqlı çaşıb, ürküb sıçrayır,
Səs dağları, kolluqları darayır.

Ov atının kişnərtisi o başdan,

Ov itinin hürüşməsi bu başdan,
Ovçuların pıçıltısı yavaşdan,
Səs dağları, kolluqları darayır.

Maral, cüyür, ceyran, keçi sürüsü,
Zolaqlının dolucası, irisi,
Tutanclanır dağ kəlinin dirisi,
Səs dağları, kolluqları darayır.

***

Hər yarpaqda, hər ağacda dörd boya,
Könül oxşar ürək açan boyalar.
Ana gör-gör sərgisində hər nə var,
Könül oxşar ürək açan boyalar.

Dağ çayların şır-şırından yuxlayar,
Düzək* qaya tutub səsi saxlayar,
Burda şaxıb ildırımlar toxdayar,
Könül oxşar ürək açan boyalar.

Qurd ayıyla, ayı qurdla bir qaçır,
Yüz boyada, yüz cür, yüz soy quş uçur,
Gül qoxusu meşə-meşə gül saçır,
Könül oxşar ürək açan boyalar.

**Taxta*

***

Gün çıxmayıb güntez* yeri ağarıb,
Ulu Günəş anasıdır gör-görün.
Varlıq ana günəşini gözləyir.
Ulu günəş anasıdır gör-görün.

Oynaqlayır sular çayda, bulaqda,
Civildəşir xırda quşlar budaqda,
Güzgü tutub axmaz dağa qıraqdan,
Ulu Günəş anasıdır kör-körün.

Sarı yarpaq yerdə sarı sərinçdir**,
Çay, göl, meşə dolu-dolu gəlincdir,
Gül, səs, uduq***, ağac, boya sevincdir,
Ulu Günəş anasıdır gör-görün.

***

Yorğa atın belindədir İşdayaq,
Ova çıxıb ovlananlar sevgidə,
Ağ at üstdə Mehcə sanki ağ quşdur,
Ova çıxıb ovlananlar sevgidə.

Şah at yortur şahca**** ilə yanaşı,
Mehcə ona, o Mehcəyə yaraşır.
Geyib hamı al çalarlı qumaşı,
Ova çıxıb ovlananlar sevgidə.

Qarbaş gəlir, arxasınca yüz adam,
Yüz səsləncle səssizliyə səs qatar,
Bizuc, tutaq, tutanc tutan, ox atan
Ova çıxıb ovlananlar sevgidə.

***

İtlər qovur bir balalı ceyranı,
Bir-birinə ana, bala yaraşır.
Dörd bir yandan ov çevrəsi daralır,
Bir-birilə ana, bala yaraşır.

**Üfüq*
***Süfrə*

***hava, nəfəs
****Mələkə

Ana qaçır, bala qalır geridə,
Balasını ana tez-tez yüyürdər,
Ovçu durub neçə addım bəridə,
Bir-birinə ana, bala yaraşır.

İtlər hürür, ovçular da hay salır,
Ceyranları, ürkü, qorxu, küy alır,
Dörd bir yandan ov çevrəsi daralır,
Bir-birinə ana, bala yaraşır.

***

Oxu alıb yaya qoyur İşdayaq,
Ov həm yasdır, həm sevincdir ovçuya,
Mehcə deyir;-Vurma, ana yazıqdır,
Ov həm yasdır, həm sevincdir ovçuya.

Ovçu birdən dartım yayı buraxır,
O, çeyranı vıyıldayan ox yaxır,
Ana aşır, bala çeyran qarıxır,
Ov həm yasdır, həm sevincdir ovçuya.

Bala ürkür, qaçır, sanki oynayır
Baxanların könlü başı göynəyir,
Qancıl ovçu o ceyranı neyləyir,
Ov həm yasdır, həm sevincdir ovçuya.

***

Ölən ceyran qan içində ağlayır,
Öləndə da ana ağlar, bala yox.
Bu göz yaşı Mehcəni də ağladır,
Öləndə də ana ağlar, bala yox.

Ağlar Mehcə öz ərinə qısılır,
Şah özü də öz işindən sarsılır,
Yetim bala durub baxır, asılı,
Öləndə də ana ağlar, bala yox.

Şah əmr edir bala çeyran tutulsun,
Neçə yerdən ona tutanç* atılsın.
Baş evdəki yaşıl bağa qatılsın,
Öləndə də ana ağlar, bala yox.

*Kəmənd, tor

***

Ancaq birdən gözlənilməz iş oldu,
Tanrı qoymaz tək, kimsəsiz tutuğu.
Bir qız çıxdı, qapdı getdi ceyranı,
Tanrı qoymaz tək, kimsəsiz tutuğu.

Bu gəl, bu get, heç on say da çəkmədi,
Bala ceyran o uşaqdan ürkmədi,
Anasıçın göz yaşı da tökmədi,
Tanrı qoymaz tək, kimsəsiz tutuğu.

Qorxmaz uşaq, tez-tov uşaq kim ola,
Ona baxıb şah nədənsə saralır,
Mehcə ağlar, şaha yer-göy daralır
Tanrı qoymaz tək, kimsəsiz tutuğu.

***

Birdən çıxır ortalığa bir gözəl,
O da ürkək ceyran kimi anadır.

Bala ceyran anasını çağırır,
O da ürkək ceyran kimi anadır.

Onu görcək, şah səsindən tanıyır,
Birdən iri, qanlı gözü qanayır.
Ötüb keçən neçə ili sanayır,
O da ürkək ceyran kimi anadır.

"Dayan!"-deyib şahın gözü qaralır,
Gör-gör solan gözlərində daralır,
Şah yıxılır ceyran sayaq, yaralı,
O da ürkək ceyran kimi anadır.

***

Şahı alıb gətirdilər Başevə,
Diri gedib ölü kimi dönüb şah.
Göz yaşını gürel seli, şəpəsi,
Diri gedib ölü kimi dönüb şah.

Töküldülər yozmaçılar gəldilər,
Bunu ovda o uşaqdan bildilər,
Yaxınlaşıb ağladılar, güldülər,
Diri gedib ölü kimi dönüb şah.

Adam salıb axtardılar uşağı,
Düşməyibdir şaha onun ayağı,
Axtardılar dağı, döşü, oylağı,
Diri gedib ölü kimi dönüb şah.

***

Qan içində çabalayır ovlanan,
Ovçuluğun əzəli var, sonu var.
Ürküb qaçan ana ovu vurmazlar,
Ovçuluğun əzəli var, sonu var.

Çox öyünür mən ovçuyam deyənlər,
Gözəlliyi yırtıcı tək didənlər,
Gizli, açıq bir-birini yeyənlər,
Ovçuluğun əzəli var, sonu var.

Ova çıxan özü dönüb ov olur,
Hər bir şeyi sonda göyə sovrulur,
Hər vuranda könlü bir az yarılır,
Ovçuluğun əzəli var, sonu var.

***

Çox ev yıxıb göz yaşları ceyranın,
Ov vurana heç bir yerdə yer olmaz.
Ayılmadı o üç geçə, üç gündüz,
Ov vurana heç bir yerdə yer olmaz.

Mehcənin də könlübaşı qanadı,
Axı o da bala doğan anadı,
İndi könlü şahdan çox-çox yanadı,
Ov vurana heç bir yerdə yer olmaz.

Ayılanda düşüncəsin yaymadı,
Qarbaşı da öz yanına qoymadı,
Küskün Mehcə daha şahı saymadı,
Ov vurana heç bir yerdə yer olmaz.

***

Şah Qarbaşı çarırtdırdı yanına,
Gizlin qalmaz ən örtülü gizlilər.
-Deyən, qızım Mindon idi meşədə?
Gizli qalmaz ən örtülü gizlilər.

-Düzdür, şahım, Mindon idi o ana,
Yer qalmayıb burda daha yalana,
Doğru bir gün gələr düzə calanar,
Gizli qalmaz ən örtülü gizlilər.

Mindon idi çıxan sənin qarşına,
Oğlu gəlib çatıb yetkin yaşına,
Çox iş gəlib yazıqların başına,
Gizli qalmaz ən örtülü gizlilər.

***

Şah, yazığın gəlsin qızın Mindona,
Qorxub qaçıb o Yastıdağ dalına,
Qız paltarı geyindirib oğluna,
Gizli qalmaz ən örtülu gizlilər.

Mən demədim, şahım Sizə qıymadım,
Dedim, deyim, ançaq ürək qoymadı,
Bir də burda qorxu, ürkü duymadım,
Gizli qalmaz ən örtülü gizlilər.

Şah önündə yerə sürtüm üzümü,
Qoy oğluna bağışlasın qızını,
Şah nə yaxşı gördü nəvə üzünü,
Gizli qalmaz ən örtülü gizlilər.

***

-İndi qorxu ötüb keçib başımdan,
Oğul tutur işdə ata yerini.
Mənim oğlum, gözəl balam, dayağım,
Oğul tutur işdə ata yerini.

Mənim oğlum Minel şahı olacaq,
Mənim adım öz oğlumla qalacaq,
Atası tək çox ölkələr alacaq,
Oğul tutur işdə ata yerini.

Körfəz, İkiçayarası, iki yan,
Kimdir indi bu yerləri arayan,
Gərək burda qancılları darayam,
Oğul tutur işdə ata yerini.

***

Bu üç yerdə oğlum olsun oturaq,
O bu yerdə başsızlığı yatırar,
Yerinc Qammad vergiləri batırar,
Oğul tutar işdə ata yerini.

Toplum çıxart neçə alay bir yerdə,
Ağır olsun döyüşçülər çəkərdə,
Gərək qanla qızıl otlaq göyərdək,
Oğul tutar işdə ata yerini.

Yürüş edib yeri qanla yuyaram,
O yerlərdə istəyimi yayaram,
Acıqanın gözlərini ovaram.
Oğul tutur işdə ata yerini.

Boz qurd söyləncisi

Yastıdağın dörd bir yanı meşədir,
Dağ, çay, meşə, dəniz burda yalaşır,

Tanrı özü Yastıdağda yurd salıb.
Çay, dağ, meşə, dəniz burda yalaşır.

Quşlar sevinc içindədir, yatmayır,
Günəş özü burda qalır, batmayır,
Yastıdağa düz yol gedib çatmayır,
Çay, dağ, meşə, dəniz burda yalaşır.

Ana gör-gör yaşıl dona bürünüb.
Hara baxsan qaya, meşə görünür.
Buludlarda qartal, quzğun sürünür,
Çay, dağ, meşə, dəniz burda yalaşır.

***

Yastıdağın yastı başı ağarır,
Əskik olmaz uca dağdan qar şəpə,
Dolu güldür, yamacları, yalları,
Əskik olmaz uca dağdan qar şəpə.

Uçarsuyu dağ döşündən tullanar,
Salxım buzlar qayalardan sallanar,
Çaylar çapar, göy dənizə yollanar,
Əskik olmaz uca dağdan qar, şəpə.

Yastıdağın yalı kimi yer olmaz.
Burda ürək geniş olar, dar olmaz,
Burda bir ay ayaq döyən yorulmaz.
Əskik olmaz uca dağdan qar, şəpə.

***

Qaçıb Mindon Yastıdağa sığınıb,
Qala bilməz qadın ərsiz, güvəncsiz.
Arxasında çöp olsa da güvəncdir,
Qala bilməz qadın ərsiz, güvəncsiz.

Çox gəzdilər yozmaçılar, falçılar,
Açıq, gizli güdükçülər, yolçular,
Tapammadı onu ovçu hoyçular,
Qala bilməz qadın ərsiz, güvəncsiz.

Ocaqları yanar qalar talada,
Daş evləri ovuq mərmər qayada,
Qalınç olub bunlar bircə baladan,
Qala bilməz qadın ərsiz güvəncsiz,

***

Yaraşsa da qız geyimi oğluna
Ana könlü çırpıntıda, qorxuda.
Oğlu artıq qol-qanadlı iyiddir,
Ana könlü çırpıntıda, qorxuda.

Gəlib birdən şah aparar oğlanı,
Hər gün güdür özü yer-yer oylağı,
O, gözləyir gözlənilməz qonağı.
Ana könlü çırpıntıda, qorxuda.

10 ildir ki, bala yükü dalında,
Yastıdağın ətəyində, yalında,
Nə yazılıb bu uşağın alnında,
Ana könlu çırpıntıda, qorxuda.

***

Bir gün ana axtarırdı oğlunu,
Səs titrədir meşələri, dağları.
Boğuşurdu yırtıçılar hardasa,
Səs titrədir meşələri, dağları.

"Oğul! Oğul!"-deyib ana qaçırdı,
Qayalardan boz qartallar uçurdu,
Qartal olub ana qanad açırdı,
Səs titrədir meşələri, dağları.

Bir talada toz, tozanaq, bağırtı,
Qurd, zolaqlı bir-birini boğurdu,
Oğlu isə uzanmışdı baxırdı,
Səs titrədir meşələri, dağları.

***

Qurd anaydı, yanında da balası,
Güclü olur ana qurdlar tutaşda.
Ancaq onun sınıq idi sol qolu,
Güclü olur ana qurdlar tutaşda.

Qaplan qurdun boğazını yırtmışdı,
Ana qurdun son tutarı bitmişdi,
Bala otlar arasında itmişdi,
Güclü olur ana qurdlar tutaşda.

Uşaq cumub körpə qurdu götürdü,
Qaçıb onu anasına yetirdi.
Onlar qurdu daş komaya gətirdi,
Güclü olur ana qurdlar tutaşda.

***

İki bala gətirmişdi meşədən,
Boğuşurdu Cüyür bala, Qurd bala.
İkisi də bir yuvada qalırdı,
Boğuşurdu cüyür bala, qurd bala.

Uşaq özü bəsləyirdi onları,
Cüyür idi Bozqurd idi adları.
Verirdilər nə var idi, varları.
Boğuşurdu Cüyür bala, Qurd bala.

Uşaq südü ətə, ota qatırdı,
Yeyib onlar böyüyürdü, artırdı.
Uşaq qalıb onlar ilə yatırdı,
Boğuşurdu Cüyür bala, Qurd bala.

***

İl dolandı gül-çiçəklər dil açdı,
Yerdə bitən hər gülün də dili var,
Qurd dilini yamsıladı uşaq da,
Yerdə bitən hər bir gülün dili var.

Qurd meşəyə durub qulaq asırdı,
Qulağını şəkləyirdi, susurdu,
Qaçıb, qaçıb o nə isə busurdu,
Yerdə bitən hər bir gülün dili var.

Böyüdükcə alışırdı gözləri,
Bərkiyirdi dırnaqları, dizləri.
Çox gəzirdi kolluqları, düzləri
Yerdə bitən hər bir gülün dili var.

***

-Oğul, daha paltarını dəyişdir,
Gödək olar pis gün, tez də ötüşər.
Bəsdir daha qız paltarı geydiyin,
Gödək olar pis gün tez də ötüşər.

Başev məni boğmaladı, qovladı,

Yozmaçılar başımızı tovladı,
Ürküdərək bu dağ-daşa hoyladı,
Gödək olar pis gün tez də ötüşər.

Yozmaçıya baban uydu, allandı,
Deyilənlər başdan-başa yalandı,
Şah günlərim göz yaşımla bulandı,
Gödək olar pis gün tez də ötüşər.

***

Baban şahdır, atan dəymədüşərdir,
Damarında ikicə qan boğuşur.
Sən həm şahsan, həm də Minel balası,
Damarında ikicə qan boğuşur.

Ağır günlər artıq qalıb arxada,
Biz çıxmışıq daha ürkü, qorxudan,
Sən də qorxma, oğlum şahdan, darğadan,
Damarında ikicə qan boğuşur.

Al, atanın paltarını geyginən,
Son qoy daha bu 10 illik sürgünə,
Daha çıx sən el içinə, ağ günə,
Damarında ikiçə qan boğuşur.

***

Dağlar gördüm Yastıdaqdan ağırdır,
Kimsəsizdən hərə bir çür öc alar.
Qovdu-qovdu, gəlib bura çıxmışıq,
Kimsəsizdən hərə bir cür öç alar.

Mənə baxma, mənim külüm ələnib,
Gün olub ki, anan kənd-kənd dilənib,
Göz yaşlarım çaylar kimi sellənib,
Kimsəsizdən hərə bir cür öc alar.

Min atını işıqlığa çap, oğlum,
El içində öz yerini tap, oğlum,
Göydən alın ulduzunu qap, oğlum,
Kimsəsizdən hərə bir cür öc alar.

***

Günlər keçdi, düşüncəli gəzdi o,
Ana sözü soyuq daşa hey verər.
Qurd da ana sözlərini duymuşdu,
Ana dili soyuq daşa hey verər.

Ağ kürk geydi, köksü iri göründü,
Sallaq qalan çən, dumana büründü,
Hara getdi, qurd dalınca süründü,
Ana sözu soyuq daşa hey verər.

Ana görüb balasını bu sayaq,
10 yaşında adın qoydu Üstüağ,
Tək o idi anasına son dayaq,
Ana sözü soyuq daşa hey verər.

***

Hara getdi anasını düşündü,
Dağa-daşa çırpar səni üzüntü.
Şah babası niyə qovub onları
Dağa-daşa çırpar səni üzüntü.

Gecə-gündüz o kəndləri dolaşdı,

Uşaqlarla, böyüklərlə dalaşdı,
Üstü-başı toz-torpağa bulaşdı
Dağa-daşa çırpar səni üzüntü.

Dediyindən dönər oldu anası,
Dəyişmişdi üzdən-gözdən balası,
Onun sanki qan qusurdu yarası,
Dağa-daşa çırpar səni üzüntü.

***

Gündən-günə solğunlaşdı Üstüağ,
Qar qar ustə, dağ dağ üstə qalanar,
Soldu üzü, arıqladı, sozardı,
Qar qar üstə, dağ dağ üstə qalanar.

"-Tanrı, bizə bir yol göstər, söz buyur,
Başev bizi yerə vurub, tək qoyub.
Çox düşünmə, bala, gecdir, ta uyu,
Qar qar üstə, dağ dağ üstə qalanar.

Dədəm Günəş, gör bu ucqar talanı,
Apar çatdır öz yerinə balamı,
Qadan alım, mənim qada alanım,
Qar qar üstə, dağ dağ üstə qalanar".

***

Boz qurd bütün bu sözləri anladı,
Dördayaqlı dilsiz, sözsüz anlayır.
Gözü doldu, könlü yandı onlara,
Dördayaqlı dilsiz, sözsüz anlayır.

Bir gün göyün bir yağışlı günündə.
Qara qaplan gəlib durdu önündə
Qan damırdı çaynağından, tükündən,
Dördayaqlı dilsiz, sözsüz anlayır.

Boz qurd qara qaplan ilə tutaşdı.
Qan yağışa, yağış qana qatışdı,
Boz qurd onun boğazından yapışdı.
Dördayaqlı dilsiz, sözsüz anlayır.

***

Səsə-küyə qaçıb gəldi Üstüağ,
Hər savaşda bir ölüm var, batım var.
Boz qurd bir az kövrək idi savaşda.
Hər savaşla bir ölüm var, batım var.

Qaça-qaça o Boz qurdu çağırdı,
Səs eşidib qurd gücləndi, bağırdı,
Üç ağızdan qopdu qorxunç bağırtı,
Hər savaşda bir ölüm var, batım var,

Qaplan deyən çox yemişdi, tox idi,
Qol-qıçında sanki gücü yox idi,
Ançaq qatdaq qulaqları şax idi,
Hər savaşda bir ölüm var, batım var.

***

Bel sümüyü xırçıldadı qaplanın,
Arxalı qurd qaplanı da dağıdar,
O qaçarkən birdən yerə sərildi,
Arxalı qurd qaplanı da dağıdar.

Qurdun dişi, dırnaqları bıçaqdı,
Qurd olsa da o qaplandan qıvraqdı,

Yiyə ona o yiyəyə dayaqdı,
Arxalı qurd qaplanı da dağıdar.

Yiyə baxır qorxunç qurda bayaqdan,
Qurdun ağzı, başı-döşü qızıl qan,
Dönüb onlar qayıdırdı bir azdan,
Arxalı qurd qaplanı da dağıdar.

***

Bir gün çıxdı el içinə Üstüağ,
Su da qalsa öz yerində iylənər.
Arxasınca Boz qurd düşüb gedirdi,
Suda qalsa öz yerində iylənər.

Anadolu oylağından bəriydi,
Adamların danışığı diriydi,
Bura böyük alqı-satqı yeriydi.
Su da qalsa öz yerində iylənər.

Üstüağı görən durub baxırdı,
Üz-gözündən isti işıq yağırdı,
Özü yüngül, addımları ağırdı.
Su da qalsa öz yerində iylənər.

***

Onun boyu qırx qarıncdan ucaydı,
İlk baxışda gözə çarpar, görümlü.
Döşü-başı, əli-qolu iriydi,
İlk baxışda gözə çarpar, görümlü.

Yığışdılar çörək satan, qul satan,
Dedilər ki, güləşçidir bu oğlan.
Hansı yerin adamıdır bu qaplan,
İlk baxışda gözə çarpar, görümlü.

Güləşçilər gəlib onu yanladı,
Danışdırıb sözlərini anladı.
Xoruzlanıb tək tükləri banladı,
İlk baxışda gözə çarpar, görümlü.

***

- Güləşçisən, buyur, güləş bizimlə,
Boy-buxunda görkəm olar, güc olmaz.
Şeşələnib dedi kölə bir kişi,
Boy-buxunda görkəm olar, güc olmaz.

Gücün varsa, buyur, atıl ortaya,
Mən yıxılsam dədəm goru çatlayar.
Kölə səni iki büküb qatlayar,
Boy-buxunda görkəm olar, güc olmaz.

Üstüağla güləşçilər güləşdi,
Uca, hündür, arıq - hamı dilləşdi.
Hamısı da toz-torpağa bələşdi,
Boy-buxunda görkəm olar, güc olmaz.

***

Öncə kölə, sonra pota yıxıldı,
Cıtqoz olsa tez yıxılar güləşçi.
Qoşa-qoşa güləşdilər onunla,
Cıtqoz olsa tez yıxılar güləşçi.

Yıxılanlar qalxıb bir də durdular,
Artıq dartıb Üstüağı yordular.

Hərdən onu yumruqla da vurdular,
Cıtqoz olsa tez yıxılar güləşçi.

Hər kimin ki, yapışırdı belindən,
Üstüağın qurtarmırdı əlindən,
Dolaşırdı vay-qışqırıq dilində,
Cıqoz olsa tez yıxılar güləşçi.

***

Yıxılanlar utandılar, yandılar,
Yıxılan da güclü olur acıqda.
Başladılar Üstüağı döyməyə,
Yıxılan da güclü olur acıqda.

Soruşmadan kimliyini, adını,
Arxasını, soykökünü, yurdunu.
Götürdülər dəyənəyi, odunu
Yıxılan da güclü olur acıqda.

Yıxıb onu döş-başını əzdilər,
Boqazını boğmalayıb üzdülər,
Üst-başını axtardılar, gəzdilər,
Yıxılan da güclü olur acıqda.

***

Son ayaqda o, Boz qurdu çağırdı,
Son umu da son arxadır ölənə.
"Boz qurd" sözü səpələndi hər yerə,
Son umu da son arxadır ölənə.

Hər sıçraqda Boz qurd qanlar axıtdı,
Qarın yırtdı, boyun-boğaz dağıtdı.
Nəriltisi qalanları qorxutdu,
Son umu da son arxadır ölənə.

Tanrı belə güc heç kəsə verməyib,
Belə it-qurd hələ heç kəs görməyib,
Görünsə də bu şəhərə girməyib,
Son umu da son arxadır ölənə.

***

Üstüağı Qurd belində gətirdi,
-Bu, nə işdi, anan ölsün, ay oğul.
Kim bu günə qoyub səni, danış bir,
Bu, nə işdi, anan ölsün, ay oğul.

Yaraların gömgöy olub qaralıb,
Gül yanağın niyə belə saralıb,
Tanrının da, deyən, gözü daralıb
Bu, nə işdi anan ölsün, ay oğul.

Kimlər çıxıb orda sənin qarşına.
Kim endirib dəyənəyi başına,
Baxmayıblar sənin 13 yaşına,
Bu, nə işdi, anan ölsün ay oğul.

***

Mindon ana, axşam düşüb, ağlama,
İyid dara düşə-düşə bərkiyər.
Qurd gözüylə ona dedi hər şeyi,
İyid dara düşə-düşə bərkiyər.

Kimsəlilər yaxın yolla gedərlər,
Kimsəsizlər dağda-daşda itərlər,
Sərt qayanın döşlərində bitərlər,

İyid dara düşə-düşə bərkiyər.

Yazıq ana, axşam düşüb, toxda sən,
Şah qızısan bu ucqarda çox da sən,
Nə ağı de, nə bu sayaq ağla sən,
İyid dara düşə-düşə bərkiyər.

***

Su gələr, daşa dolar,
Qar yaqar qaşa dolar,
Ana baladan ayrı
Gözləri yaşa dolar,

Sular gələr, göl olar,
Şaxta vurar gül solar,
Ər iyidin balası
Özü kimi ər olar.

Könlümü oxladılar,
Gizlində saxladılar,
Mənim kimi gözəli
Kimə adaxladılar.

Balamın damı da var,
Dam üstə damı da var,
Kişilik ayrı şeydir,
Bığ-saqqal hamıda var.

Ürəyimdə yara var,
Yaram üstə yaram var,
Aç bax baqrımın başın,
Gör, yanmamış haram var.

Söz aşar daşdan keçər,
Kirpikdən, qaşdan keçər,
Doğru söz, doğru deyim
Dəmirdən, daşdan keçər.

Günlər çox qarışıqdır,
Yaz gəlib barışıqdır,
Ayıq-sayıq dolanmaq
İyidə yaraşıqdır.

Yanağın gülə bənzər,
Göz yaşım selə bənzər,
Sən buradan gedəli
Bura bir selə bənzər.

Gecələr il gecələr,
Sözümü bil gecələr,
Mən burda qan ağlaram,
Sən orda gül gecələr.

Adam solsa əyilər,
Yaşa dolsa əyilər,
Düz sözün qabağında
Dağ da olsa əyilər.

Yetiməm, anam yoxdur,
Sözümə çatan yoxdur,
Düşdüm xarabalığa,

Qolumdan tutan yoxdur.

O da məni yandırır,
Bu da məni yandırır,
Soyundum suya girdim,
Su da məni yandırır.

Başev söyləncі

Bir il keçir sağalınca Üstüağ
Günlər aya, aylar ilə qalanır.
Boz Qurd itir tay-tuşları içində,
Günlər aya, aylar ilə qalanır.

Hərdən bir səs eşidilir taladan,
Daş tökülür, qum ələnir qayadan,
Yoxa çıxır ulartısı arada
Günlər aya, aylar ilə qalanır.

Artır gündə yan-yövrəsi, tay-tuşu,
Onlar keçən yerə-yurda lov düşür,
Qaplanlarla, ayılarla qarpışır,
Günlər aya, aylar ilə qalanır.

***

Bir-birini çox istəmək belədir,
Çox istəmək incikliyə aparır,
Tez küsürlər sevişənlər, yaxınlar,
Çox istəmək incikliyə aparır.

Sevgi yaxşı, istək yaxşı duyumdur,
Yaxşı qaldı kim çoxluqdan yayındı,
Çox istəmək uşaqlıqdı, oyundu,
Çox istəmək incikliyə aparır.

Çox, az sonra az-çox kölə təpilir,
Usandırır elbir əlçat əlbiri,
Çoxun, azın kim yerini nə bilir,
Çox istəmək incikliyə aparır.

***

Çox yığarsan qalaq olar, dağ olmaz,
Çox istəyən, çox yeyənlər sağ olmaz,
Ha göz bərəlt, qara gözün ağ olmaz,
Çox istəmək incikliyə aparır.

Ölçü saxla hər istəkdə, diləkdə,
Çox yox, az-çox güc yığ beldə, biləkdə,
Xırda gedər, iri qalar ələkdə,
Çox istəmək incikliyə aparır.

Az güc ilə çox çoxlarla döyüşmə,
Çoxu aza, azı çoxa dəyişmə,
Tikanlıqda hər bir gülə ilişmə,
Çox istəmək incikliyə aparır.

***

Bir gör, səni hansı yola aparır
Çox inanmaq, çox istəmək, çox yemək.
Çoxlarını yarı yolda qoyubdur,
Çox inanmaq, çox istəmək, çox yemək.

Biliklilər öz yerini biləndir,
Çoxa çatdı azla varı böləndir,
Coşqun olma, çoşqunluqdan gələndir
Çox inanmaq, çox istəmək, çox yemək.

Azı çoxalt az-çox qalan gücünlə,
Öz çölünü çalış bəzə içinlə,
Bir ölçüdə qalsın ölçü-biçimlə
Çox inanmaq, çox istəmək, çox yelmək.

***

Göydə şimşək, yerdə qaplan, boyda at,
Yırtıcının üstünlüyü gücündə.
Qurd çöllükdə dilsizlərə güc gəlir.
Yırtıcının üstünlüyü gücündə.

Qaçır, çıxır, yala, yola, döngəyə,
Yürüşüylə qorxu salır bölgəyə,
Səs yayılır şəhər-şəhər ölkəyə,
Yırtıcının üstünlüyü gücündə.

Qurd elə bil adam kimi dil bilir,
O, anlayır, başa düşür qurd dili,
Bu səs tutur yavaş-yavaş Mineli,
Yırtıcının üstünlüyü gücündə.

***

Qurd üstünə toplum çəkir İşdayaq,
Öncə işin çəmini tap, işi gör.
Geçə didib tökür qurdlar onları,
Öncə işin çəmini tap, işi gör.

Atlar meşə daramaqdan yorulur,
Qurdu görüb bağırları yarılır,
Qurd ilan tək atlılara sarılır,
Öncə işin çəmini tap, işi gör.

Sona çatır İşdayağın dözümü,
Verir Yastıdağ döşünə özünü,
Toplumları tutur yerin üzünü,
Öncə işin çəmini tap, işi gör.

***

Gecə düşdü, döyüşçülər ürküdə,
Qurdun soyuq ulartısı qorxudur.
Ağ dişləri şaqqıldayıb parıldar.
Qurdun soyuq ulartısı qorxudur.

Dörd bir yanı qurd sürüsü bürüdü,
Döyuşçülər, yaraqlılar kiridi,
Qorxu haray qucağında əridi,
Qurdun soyuq ulartısı qorxudur.

Vuruşmada gecə qanlar töküldü,
Qan içində al dan yeri söküldü,
İşıqlaşdı, qurdlar dağa çəkildi.
Qurdun soyuq ulartısı qorxudur.

***

Toplumunu alıb getdi İşdayaq,
Basılmayan şah qurdlara basıldı.
At saxladı bir daşağız* yanında,
Basılmayan şah qurdlara basıldı.

***Mağara**

Tutqun idi, solğun idi, küsülü,
Ağ buludlar qaşlarından asılı,
Necə desin, gedib, qurda basılıb,
Basılmayan şah qurdlara basıldı.

Uçuq damtək içi uçub töküldü,
Üz-gözündə öyünç bütün çəkildi,
Bütün gecə nə danışdı, nə güldü.
Basılmayan şah qurdlara basıldı.

***

Qarbaş gəlib dedi:- Şahım sağ olsun
Şah tanrıdan sonra yerdə tanrıdır.
Biz buyuruq köləsiyik önündə,
Şah tanrıdan sonra yerdə tanrıdır.

Bir əjdəha tapılıbdır arada,
Qarışıqlıq salıb bizim sırada.
Buyuruq ver köçüb gedək buradan.
Şah tanrıdan sonra yerlə tanrıdır.

Sorub neçə yaraqlını udubdur,
Doyub bir az dinçəlibdir, yatıbdır,
Yaraqlılar bütün yasa batıbdır.
Şah tanrıdan sonra yerdə tanrıdır.

***

Şah bu işdən bir az da çox tutuldu,
Daşboğazda, örtümlüydü* daşağız
Yoxlamağa özü çıxdı bu yeri,
Daşboğazda örtümlüydü daşağız.

Çıxdı bir az irəliyə əjdaha,
Od püskürdü, alov saçdı o, şaha,
Şah yıxıldı, durdu, aşdı bir daha
Daşboğazda örtümlüydü daşağız.

Birdən çıxdı ortalığa bir oğlan
Çəkdi şahın qılınçını qınından,
Əjdahanın üstə çumdu qorxmadan,
Daşboğazda örtümlüydü daşağız.

Sirli

***

O, qılıncın tutdu iki başından,
Batıb getdi əjdahaya ox kimi.
Ordlarına dayayaraq qılınçı
Batıb getdi əjdahaya ox kimi.

Qılıncını iki başdan tutdu o,
Əjdahanın düz ağzına çatdı o,
Kəsib, kəsib quyruğuna çatdı o,
Batıb getdi əjdahaya ox kimi.

Alov söndü, qan sıçradı dörd yana,
Şah sevindi, sağ ol, dedi oğlana,
Bələşmişdi başdan-başa al qana,
Batıb getdi əjdahaya ox kimi.

***

Şah soruşdu iyid gəncin adını,
Bu kim ola, bu nə ola, bilən yox.
Elə bu vaxt yaşıl düzlər bozardı,
Bu, kim ola, bu nə ola bilən yox.

Qurd sürüsü üstlərinə gəlirdi,
Yol üstündə nə var idi silirdi,
Hamı qorxub bunu ölüm bilirdi,
Bu, kim ola, bu nə ola bilən yox.

Qurd sürüsü aşıb keçdi çəpərdən,

Şah atıyla uzaqlaşdı bu yerdən,
Körürdülər bu yürüşü şəhərdən,
Bu, kim ola, bu nə ola, bilən yox.

***

Parçalayıb gəmirdilər nə vardı,
Lapdan yürüş toplumları dağıdar.
Şah atını aşırdılar, yedilər,
Lapdan yürüş toplumları dağıdar.

Oğlan qaçıb İşdayağı qorudu,
Qurd dilində Boz qurdunu aradı,
Gəldi qurdlar dörd yanını bürüdü,
Lapdan yürüş toplumları dağıdar.

Boz Qurd durdu sürün-sürün önündə,
Şah sarsıldı gözlənilməz dönümdən,
Kim çıxartdı bu sürünü yönündən?
Lapdan yürüş toplumları dağıdar.

***

Oğlan Qurda qurd dilində söz dedi,
Başa düşər daş ağacı, dil olsa.
Boz Qurd dönüb iki kərə uladı,
Başa düşər daş ağacı, dil olsa.

Sürü dönüb meşələrə yol aldı,
Burda görən nə baş verdi, nə oldu?
Qurd sürüsü neçə dala qovuldu,
Başa düşər daş ağacı, dil olsa.

Qurd yaladı o oğlanın əlini,
Sürtdü onun ayağına yalını,
Sonra durub geri döndü yolunu,
Başa düşər daş ağacı, dil olsa.

***

Şah uyuxub baxdı bu gənc oğlana,
Bu tanrıdır, yoxsa tanrı balası,
Boy-buxunu, əli-qolu qaş-gözü,
Bu tanrıdır, yoxsa tanrı balası?

Ad soruşdu, soy aradı şah ondan,
Kimin oğlu ola görən bu oğlan,
-Adını de, soyunu de, ay bala.
Bu, tanrıdır, yoxsa tanrı balası?

Oğlan susub şah önündə dinmədi,
Şah soruşdu, o yolundan dönmədi,
Öz susqunluq kəhərindən enmədi,
Bu, tanrıdır, yoxsa tanrı balası?

***

Götürdülər, gətirdilər Başevə,
Yaxşılığa yaxşılıq et, yubanma.
Boy-buxunda o hamıdan ucaydı.
Yaxşılığa yaxşılıq et, yubanma.

Qarbaş gəldi, o tanıdı qonağı,
-Oğul bala, anan Mindon bəs hanı?
Şah sarsıldı, ah bürüdü hər yanı,
Yaxşılığa, yaxşılıq et, yubanma.

Ancaq oğlan söyləmədi adını,
Dedi:-Anam deməlidir adımı.

Gedib tapıb gətirdilər qadını,
Yaxşılığa yaxşılıq et, yubanma.

***

Yozmaçılar, mələr, ağlar qaldılar,
Yol azdıran sonda özü yol azar.
Şahı yoldan sapdıran da bu idi,
Yol azdıran sonda özü yol azar.

Bəs hardaydın, gözəl, balam, gül balam,
Öz işini başa vurdu ağ yalan.
Bu Başevə dəyər təkçə bu oğlan,
Yol azdıran sonda özü yol azar.

İndi belə Başev sizin yeriniz,
Balam kimi doğmasınız hərəniz,
Yerincsiniz ikinizdən biriniz.
Yol azdıran sonda özü yol azar.

***

Başev doğma Üstüağa güvənir,
Dəniz üzdən adam gözdən durular.
O, minbaşı olur şah toplumunda,
Dəniz uzdən, adam gözdən durular.

O öyrənir yaraqlarla döyüşü,
Böyük uzaq yürüşlərə girişir
Uşaq üzü, ər görkəmi dəyişir,
Dəniz üzdən, adam gözdən durular.

Toppuz ağır, qılınc ağır, əl ağır,
Üstüağın üz-gözündən od yağır,
Başev onun, o Başevin dayağı,
Dəniz üzdən, adam gözdən durular.

Darvidel söyləncі

Mehcə dönür atasının evinə,
Küsü qalıb acıq olar ürəkdə.
Alıb gedir birçə oğlu Qaraşı,
Küsü qalıb acıq olar ürəkdə.

O, küsünü döndərmişdi açığa
Öz elində çevrilmişdi artığa,
Dözməyirdi içindəki yanığa,
Küsü qalıb acıq olar ürəkdə,

Mehcə gözəl varlığına uymuşdu,
İlk sevgini o yenidən duymuşdu,
Qoca ərin qılığından doymuşdu,
Küsü qalar, acıq olar ürəkdə.

***

Gəlib gördü üzlər, gözlər dəyişib,
Varlıq hər gün, adam hər an dayişir.
Yan-yövrəsi dəyişmişdi Qammadın,
Varlıq hər gün, adam hər an dəyişir.

Darvideldə Qammad tək at çapırdı.
Yoxsul, yazıq el-obanı çapırdı,
Başevindən hər gün bir daş qopurdu,
Varlıq hər gün, adam hər an dəyişir.

Artıb burda hərki-hərki, kim-kimə
Soyub eli obaları vergilər.

Çoxu köçür bu yerləri tərkidər.
Varlıq hər gün, adam hər an dəyişir.

***

Ata evi sıxdı, boğdu Mehcəni,
Ata evi qıza soyuq, dar gələr.
Bacıları sevinsə də bu işdə
Ata evi qıza soyuq, dar gələr.

Qammad soyuq qarşıladı gəlini,
Sevirdisə soyuq tutdu əlini,
İtirmişdi Mehcə sevgi gülünü,
Ata evi qıza soyuq, dar gələr.

Bu dönüklük, üzgörənlik nədəndi,
Tanıqlıqla qadın, sevgi ötəndir,
Sevməyənlər bağış, gəlir küdəndir,
Ata evi qıza soyuq, dar gələr.

***

Qammad bicdi, düşüncədə beciddi,
Kim beciddir üstün odur gedişdə.
Donqultular, deyinmələr üstəlik,
Kim beciddi üstün odur gedişdə.

Qarışıqlıq hər bir yeri tutmuşdu,
Üzədurma, gözbərəltmə artmışdı,
Bunlar gedib İşdayağa çatmışdı,
Kim beciddi üstün odur gedişdə.

Vergilərə qarşı durur kənd, şəhər,
Çomaq çəkib, bel qaldırır kəndlilər,
Kəlirləri üstələyir vergilər,
Kim beciddi üstün odur gedişdə.

***

Qammad bicdi, düşüncədə çoxüzlü,
Bunu ona, onu buna vur, yaşa.
Kəndlə şəhər durdu yenə üz-üzə.
Bunu ona, onu buna vur, yaşa.

Vuruşdurdu, barışdırdı bir uçdan,
Vergi aldı asqırmaqdan, quluncdan,
Şey qalmadı qabar dolu ovuçda,
Bunu ona, onu buna vur, yaşa.

Ona qarşı bu çaxnaşma üç ildir,
Ellər şaha gözlərini bərəldir,
Qammad bunu şaha qarşı yönəldir,
Bunu ona, onu buna vur, yaşa.

***

Mehcə deyir,-Qammad kimdir, nəçidir,
Yerinc şahın köləsidir, şah deyil.
Başeindir bu yığılan vergilər,
Yerinc şahın köləsidir, şah deyil.

Şaha qarşı getməliyik hamımız,
Öz əlimiz, öz yurdumuz, qapımız.
Özumüzdən olmalıdır sapımız.
Yerinc şahın köləsidir, şah deyil.

Şahın dolu saxlancları partlayır,
Vardan Başev alt-üst şişib çatlayır,

Şahdır elin dirriyini odlayan,
Yerinc şahın köləsidir, şah deyil.

***

Mehcə dağa dirəmişdi Qammadı,
Öc sevgini döndərəcək açığa.
Şah arvadı şaha qarşı yaraqlı,
Öc sevgini döndərəcək acığa.

Qaraş gərək Mindiyara şah ola,
Şahın yeri çatar ancaq oğula,
Üstüağdan gərək özüm öc alam,
Öc sevgini döndərəcək acığa.

Anam-bacım, qardaşlarım, əl tutub,
Əkbitənin saxlançına mən çatım.
Sizə deyir bu sözləri şah qadın,
Öc sevgini döndərəcək açığa.

***

İki yolun arasında dayanma,
Qırıb səni beşləşdirər ikilik,
Buna qılıq, ona qalıq olarsan,
Qırıb səni beşləşdirər ikilik.

Bunu tutdun o qaçacaq dalından,
Onu tutdun bu çıxaçaq yolundan.
Heç biri də tutmayaçaq qolundan,
Qırıb səni beşləşdirər ikilik.

Nə o sənə, nə bu sənə yol deyil,
Hakı çalış, bunda ağla, onda gül,
Onu yaxın, bunu uzaq yaxın bil,
Qırıb səni beşləşdirər ikilik.

***

Mehcə ilə Mindon iki yol idi.
İkiləşdi İşdayağın bir yolu.
Birinə ər, o birinə ataydı,
İkiləşdi İşdayağın bir yolu.

Qocalmışdı 350 yaşında.
Söz, üz, ad, say qalmayırdı başında,
Üşüyürdü qoça yaşın qışında
İkiləşdi İşdayağın bir yolu.

Çatmayırdı işdə-gücdə anlağı,
Üstəlik də qız küsüsü, danlağı.
Acı oldu şahlığının sonluğu,
İkiləşdi İşdayağın bir yolu.

***

Mehcə getdi, Qaraşı da apardı,
Biri gəldi, biri getdi oyunu.
Bu küsüdə böyük acıq gizlənib,
Biri gəldi, biri getdi oyunu.

Şah Qaraşı səsləyirdi yuxuda,
Kövrək baxış doğururdu çoxunda.
Gözlər batıb, parıltısı çuxurda,
Biri gəldi, biri getdi oyunu.

Gedən elçi boş qayıtdı küsülü.
Elçilərin səsi, sözü üzülür

Pis qoyuldu bu gedişin özülü.
Biri gəldi, biri getdi oyunu.
***
Darvidelə özü getdi Üstüağ.
İşdayağın sözü ona uluydu.
"Ket, ancaq ki, onlar ilə vuruşma".
İşdayağın sözü ona uluydu.

Ancaq heç kəs qabağına çıxmadı,
Mehcə, Qaraş, Qammadına baxmadı,
Üstüağı bunlar boğub sıxmadı,
İşdayağın sözü ona uluydu.

Burda acı, ağır günlər keçirtdi.
Çox kəndləri Qammad düzə köçürtdü.
Acı gözlər ona ağı içirtdi.
İşdayağın sözü ona uluydu.
***
-Mən Qaraşın qardaşıyam, kiçiyi.
Oğul şahdır, ata şahın yerində,
Qaraş başdır, mən də onun önəri,
Oğul şahdır, ataşahın yerində.

Mən gəlmişəm aparmağa sizləri,
Nə çox gördüm bu çoxdan çox uzləri,
Saymayıram artıq əskik sözləri,
Oğul şahdır ataşahın yerində.

İki oğul bir anadan doğulub,
İki oğul bir atadan doğulub,
Biz bir yerdə qazanarıq uğuru,
Oğul şahdır ataşahın yerində.
***
-Mən dönmərəm Əkbitənə bir daha
Dağ çayları axır, geri dönməyir,
Dönsəm ora mən şah kimi dönərəm,
Dağ çayları axır, geri dönməyir,

Özü desin bu, sən deyən sözləri.
Görsün burda bu acıqlı üzləri,
Gəlsə, burda qatdanacaq dizləri,
Dağ çayları axır, geri dönməyir.

Mənim könlüm sarsılmışdır yanıqdır
Sənin adın oğul deyil, atıqdır,
Tanrı bilir könlüm sizdən sınıqdır,
Dağ çayları axır, geri dönməyir.
***
-Niyə belə danışırsan, şah ana,
Bir qandandır, bir soykökdən olanlar
Bizik şahın bükülməyən dizləri,
Bir qandandır bir soykökdən olanlar.

Sən gedəndən şah da çox-çox qoçalıb,
Düşüncəli baxışları haçalı,
Azalıbdır huşu-başı, bacarı,
Bir qandandır bir soykökdən olanlar.

Ancaq dizi qatdanmayıb hələ də.
Döyüş olsa çoxlarını mələdər,

Gətirməyin pis söz, pis ad dilə də,
Bir qandandır bir soykökdən olanlar.

***

Qammad susdu, danışmadı, dinmədi,
Saman altdan su yeridər dinməyən.
Ona qarşı yol kəsdirdi gədikdə
Saman altdan su yeridər dinməyən.

Ürəyindən şahlıq adı keçirdi,
Günü ayla, ayı illə biçirdi
Qulaq verib sözü sözdən seçirdi,
Saman altdan su yeridər dinməyən.

Üstüağı götürməkdi yolundan,
Qaraşın da dəyəcəkdi dalından,
Mehcə şahlıq yazdırmışdı alnında,
Saman altdan su yeridər dinməyən.

***

Qayıdanda düşkün idi Üstüağ,
Yollar kimi dolambaçdı düşüncə.
Nə deyəcək şaha görən, Başevdə
Yollar kimi dolambacdı düşüncə.

Darvideli acıq odu bürüyüb,
Burda alt-üst nə vardısa çürüyub,
Vergi elin var-yoxunu kürüyüb,
Yollar kimi dolambacdır düşüncə.

Nə deyəçək gördüyündən babaya,
Doğru desə qan düşəçək araya.
Nə dərman var görən belə yaraya,
Yollar kimi dolambacdır düşüncə.

***

Gədik üstə onun yolu kəsildi,
Yolkəsənin yolda qalar gündəri*
Ya kölə ol, ya da ki, öl, dedilər,
Yolkəsənin yolda qalar gündəri.

-Bura uzaq qarlı dağlar başıdır.
Ölüm belə köləlikdən yaxşıdır,
Bu, mənə yox, böyük şaha qarşıdır,
Yolkəsənin yolda qalar gündəri.

Bunu deyib qılınçını çəkdi o,
Acıqanı kəsib, qırıb, tökdü o,
Bir da baxdı, gördü burda təkdi o,
Yolkəsənin yolda qalar gündəri.

***

Yolkəsənlər bir də çıxdı yoluna,
Göz ağardar ölüm qarlı zirvədən.
Yenə qılınc, yenə topbuz, yenə ox,
Göz ağardar ölüm qarlı zirvədən.

Üstüağın əli gedir yarağa,
Qaçır hamı, gücü verib ayağa,
Beş-beş gələn on-on düşür torpağa,
Göz ağardar ölüm qarlı zirvədən.

Gecə qızıl qan içində boğulur,
Yaraqlılar qalaq-qalaq yıxılı,
Qarlı gecə yolkəsəndən qorxulu

Göz ağardar ölüm qarlı zirvədən.
***
Təzə zirvə, təzə gədik, təzə tin,
Gədiklərin yumaq-yumaq yolu var.
Bir takım da kəlir haray-haşirlə,
Gədiklərin yumaq-yumaq yolu var.

Qılınc yarır gecə qarı, sazağı,
Yolkəsənlər çən tək alır oylağı,
Qar tutubdur buzlu, qarlı oymağı
Gədiklərin yumaq-yumaq yolu var.

Tale

Üstüağın döşü-başı yaralı,
Qan damcısı gözlərində qaralır,
Onun üzü yavaş-yavaş saralır,
Gədiklərin yumaq-yumaq yolu var.

***
Birdən dönüb o üç kərə bağırdı,
Sözbir, dilbir, əlbir haray biləndir.
Harayına o, Boz Qurdu çağırdı,
Sözbir, dilbir, əlbir haray biləndir.

Gündoğarda sökülürdü dan yeri,
Qızıl göyün qaşı döşü dipdiri,
Ulduzların baxışları dupduru,
Sözbir, dilbir, əlbir haray biləndir.

Uğuldadı sanki yaxın yal-yarğan,
Meşə, qaya, döş səsləndi bir azdan.
Qurd sürüsü yüyürürdü o yandan,
Sözbir, dilbir, əlbir haray biləndir.

***
Yolkəsənlər bağıraraq bayıldı,
Adam ölür çox-çox qanlı qorxudan.
Qurd ağzında yüz-yüz qarın söküldü,
Adam ölür çox-çox qanlı qorxudan.

Üstüağın qaralırdı gözləri,
Yavaş-yavaş bükükülüdü dizləri.
Ta anlaya bilməyirdi sözləri,
Adam ölür çox-çox qanlı qorxudan.

Yolkəsənlər qanlı yerlə bir oldu,
Hər bir yana qorxu-ürkü yayıldı,
Qurdu görüb Üstüağ da bayıldı.
Adam ölür çox-çox qanlı qorxudan.

***
Bu səs gedib çatdı bütün ölkəyə,
Qorxu-ürkü ayaq tutub yayılar.
"Qurd sürüsü yüz-yüz adam dağıdıb".
Qorxu-ürkü ayaq tutub yayılar.

Mehcə, Qammad dedi, bunlar yalandır,
Şaxta vurub, bu da qışda olandır.
Bu soraqlar soraqları dolandı.
Qorxu-ürkü ayaq tutub yayılar.

Üstüağ da gecə çox qan itirdi.
Boz Qurd onu öz belində gətirdi,
Yaralını Əkbitənə yetirdi.

Qorxu-ürkü ayaq tutub yayılar.

***

Boz Qurd dedi gördüyünü Mindona.
Boz Qurd adam dili bilib haçansa.
Ana "bala vay" deyərək ağladı,
Boz Qurd adam dili bilib haçansa.

Üstüağın yaraları sağaldı,
Ağrıları toxdayaraq yoxaldı,
Qurdu anıb düşüncəsi çoxaldı,
Boz Qurd adam dili bilib haçansa.

Boz Qurd onun yardımçısı, əlbiri,
Söz anlayan, haray bilən dilbiri,
Komabiri, arabiri, çölbiri,
Boz Qurd adam dili bilib haçansa.

Üstüağ söyləncisi

Qobuyerdən, Qobuçöldən gəlirlər,
Yola getmir öz-özüylə doğmalar,
Yelçəkəndən, yeləsəndən gəlirlər,
Yola getmir öz-özüylə doğmalar.

Bu, gilincdir, dərin kökü hardadır,
Bu, seyləncdir, başı, təki hardadır,
Düşüklükdür boşu, bərki hardadır,
Yola getmir, öz-özüylə doğmalar.

Qardaş, bacı, ata, bala dəyişir,
Bu gün belə, beş gün sonra deyişir,
Bir-birilə yaxın soydaş döyüşür,
Yola getmir öz-özüylə doğmalar.

***

Uzaq-uzaq el-obadan gəlirlər
Bir-birini yaxın, yaxın bilirlər,
Bir-birindən ötrü gedib ölürlər,
Yola getmir bir-birilə doğmalar.

Ey tanrılar, başbilənlər, siz deyin,
Gedib əyri otursaz da düz deyin.
Bu gilinci açın, bizə söz deyin,
Yola getmir bir-birilə doğmalar.

Yaranış bir, yaşayış bir, gediş bir,
Danışıq bir, körünüş bir, yeriş bir,
Baxış birdir, deyiş birdir, görüş bir,
Yola getmir öz-özüylə doğmalar.

***

Ölçüləri itirmişdi İşdayaq,
Hər istəyin ölçüsü var, yeri var.
O, Mehcəni çıxarmışdı başına,
Hər istəyin ölçüsü var, yeri var.

İndi qoca ağırlaşıb, təklənib,
Üzüntülər üzərində köklənib,
Göz tutulub, göz güzgüsü çirklənib,
Hər istəyin ölçüsü var, yeri var.

İşdayağın üzü daha külməyir,
Kim gedirsə Mehcə dönüb gəlməyir,
Ölüm günü çatıb, ancaq ölməyir,

Hər istəyin ölçüsü var, yeri var.

***

Darvidelə toplum yola salındı,
Çaxnaşmalar diri udur toplumu.
Mehcə, Qammad inandırdı hamını,
Çaxnaşmalar diri udub toplumu.

Vuruşmaqdan yaraqlılar yoruldu,
Sıraları, düzümləri daraldı,
Qaçan qaçdı, yerdə qalan qırıldı,
Çaxnaşmalar diri udur toplumu.

Mehcə çıxdı bu savaşda baş oldu,
O, Qammadla, çaxnaşmayla bir oldu
Darvidelli artdı birə-beş oldu,
Çaxnaşmalar diri udur toplumu.

***

Qarbaş gəldi, dilə tutdu Mehcəni.
Sınan ürək daha yamaq kötürməz.
Çox yalvardı, çox qorxutdu gəlini.
Sınan ürək daha yamaq götürməz.

Ellər, yurdlar bir də qalxdı ayağa,
Tutularaq Qarbaş döndü dustağa.
Kötəkləyib toy tutdular qonağa,
Sınan ürək daha yamaq köturməz.

Göndər* getdi Əkbitənə çaparaq,
Vergi verməz şaha bu yurd, bu torpaq,
Qorxutmayır bizi toplum, yal-yaraq"
Sınan ürək bir də yamaq götürməz.

***

Toplum yığdı uzaq yerdən Üstüağ,
Qobuyerdən, Qobuçöldən, Xançudan,
At istədi, yəhər, yaraq, döyüşçü,
Qobuyerdən, Qobuçöldən, Xançudan.

Dedi, Minel ölkəsindən güc alın,
Darvidelə gedin el-el səs salın,
Yemək, çörək olmasa da ac qalın.
Qobuyerdən, Qobuçöldən, Xançudan.

Çaxnaşçılar** acıqandır, siz bilin,
İşdayaqdır şahı böyük Minelin.
Vergisi var, tövçüsü var beş ilin,
Qobuyerdən, Qobuçöldən, Xançudan.

_____

Qasid
****Üsyançı***

***

Yüz min idi atlı, yürük, yaraqlı.
Güc birlikdə, güc qoldadır, sayda yox.
Kədiklərdən, yarğanlardan ötdülər,
Güc birlikdə, güc qoldadır, sayda yox.

Dağ titrətdi, daş yaqdırdı andları
Köyü dəldi kişnərtisi atların,
Tozda itdi buludların qatları,
Güc birlikdə, güc qoldadır, sayda yox.

Yaraqlanıb ellər durdu ayağa.
Mehcə, Qammad, Qaraş çıxdı qabağa.
Qan ələndi 10 gün qara torpağa,
Güc birlikdə, güc qoldadır, sayda yox.

***

Qarbaş durdu Üstüağın dalında.
Qaplan gücü, qurd önəmi qolunda.
Qılınc çaldı İşdayaq şah yolunda.
Güc birlikdə, güc qoldadır, sayda yox.

Darvidelin obaları alındı,
Dəri başraq əllərindən salındı,
Öz evində Qammad dustaq olundu,
Güc birlikdə, güc qoldadır, sayda yox.

Qammad qaçdı yaraq, əltut dalınca,
Ağsaqqallar, başbilənlər yanınca,
Balasqeldə sarıldılar qılınca.
Güc birlikdə, güc qoldadır, sayda yox.

***

Qarbaş qaldı burda yerinc, baş oldu,
Çaxnaşmanı dayandırdı Üstüağ.
Min-min adam keçirildi qılınçdan,
Çaxnaşmanı dayandırdi Üstüağ.

Burda vergi, tövcü yenə yığıldı.
Öz başına iş körənlər dağıldı,
Boğuntunu yaradanlar boğuldu,
Çaxnaşmanı dayandırdı Ustüağ.

Basılaraq ellər qara geyindi,
Minel isə bayram tutdu, sevindi,
Mindon ana gənc oğluyla öyündü.
Çaxnaşmanı dayandırdı Üstüağ.

***

Üç il keçdi, öldü qoca İşdayaq,
Yerdir sonu uca-uca şahların.
Şahlığını Üstüağa verdi o,
Yerdir sonu uca-uca şahların.

Minel 40 gün yasa batdı, gülmədi,
Yasdan başqa Başev heç nə bilmədi,
Mehcə Qaraş yas yerinə gəlmədi.
Yerdir sonu uca-uca şahların.

Dağ başında şaha sonev tikdilər,
Başdaşına qızıl örtük çəkdilər,
Yan-yövrədə söyüd, çinar əkdilər.
Yerdir sonu uca-uca şahların.

***

Toplum yıqıb Qaraş döndü Minelə.
Öz-özünə əl qaldıran ər olmaz,
O, lappadan yaxaladı Qarbaşı,
Öz-özünə əl qaldıran ər olmaz.

İki toplum düzdə durdu üz-üzə,
Səpələndi lalə-lalə qan düzə.
Üstüağla Qaraş gəldi göz-gözə,
Öz-özünə əl qaldıran ər olmaz.

Vuruşurdu yaxın, uzaq qardaşlar,

Qızışırdı qanlı-qanlı tutaşlar,
Yarılırdı qılıncıyla döş-başlar,
Öz-özünə əl qaldıran ər olmaz.

***

-Ahay, Qaraş, mənim doğma qardaşım,
Gəl, sən şah ol, mən də sənin önərin,
Öz atanın yasına da gəlmədin,
Gəl, sən şah ol, mən də sənin önərin.

Biz qardaşıq, qanbir, elbir, ölkəbir,
Varlığımız, dirriyimiz birgədir.
Şahlıq isə ikimizə yengədir,
Gəl, sən şah ol, mən də sənin önərin.

Qarbaşı ver, Qarbaş böyük önərdir,
Acıqanın yürüşünə çəpərdir,
İç işlərdə biliklidir, təpərdir,
Gəl, sən şah ol, mən də sənin önərin.

***

- Gözüm yoxdur bacı, qardaş görməyə,
Gərək şahın könlü, başı olmasın.
Yandıraram Əkbitəni büsbütün,
Şahın gərək könlü, başı olmasın.

Mən gəlmişəm qızıl qanlar içməyə,
Sənin üstdən addımlayıb keçməyə,
Quş başları qılıncımla biçməyə,
Şahın gərək könlü, başı olmasın.

Bir qazana girə bilməz iki baş,
Mən şah olsam, nə Minel var, nə qardaş,
Mən ürəyi daş adamam, könlü daş,
Şahın gərək könlü, başı olmasın.

***

Al, bu biri, bu ikisi, bu üçü,
Sən kimsən ki, şah olasan, ay küçük,
Ala, bu sərt qılıncımın dad gücün,
Şahın gərək könlü, başı olmasın.

Üstuağın yaralandı sol qolu,
El içində var ölçüsü vuruşun.
Düşdü tutaq yaralanmış əlindən.
El içində var ölçüsü vuruşun.

Sağ əlilə vurdu onu Üstuağ,
Öz işini gördü tərsə şapalaq,
Qondu başı döşü üstə quşsayaq,
El içində var ölçüsü vuruşun.

***

-Bağışlaram səni, Qaraş, bu kərə,
Qılınc çəkməz bil ki, qardaş qardaşa.
Gəl, şah kimi otur atan yerində,
Qılınc çəkməz bil ki, qardaş qardaşa.

-Mənə şahlıq verən yerdə öləsən,
Bil şahlığı qol gücünə alırlar,
Gedib bir də qayıdaram vuruşa,
Bil şahlığı qol gücünə alırlar.

-Qabağına mən yaraqlı çıxmaram,
Qılınc çəkməz bil ki, qardaş qardaşa.
Saxlayaram şah yerini şah kimi,
Qılınc çəkməz bil ki, qardaş qardaşa.

***

Bu döyüşdə Darvidelli basıldı,
Basıq toplum köləliyə qatılar.
Yaraqlılar qaldı, geri dönmədi
Basıq toplum köləliyə qatılar.

Yerə qoydu sağ qalanlar yarağı,
Oturdular yerə kölə sayaqı.
Əyilərək hamı öpdü torpağı,
Basıq toplum köləliyə qatılar.

Dedilər ki, biz qalırıq Mineldə,
Biz deyirik, danışırıq bu dildə,
Qaraş bizi alçaldandır, əyildən,
Basıq toplum köləliyə qatılar.

***

Qaraş döndü evə, basıq, kimsəsiz,
Çöp də olsa itki üç qat ağırdır.
Çox duşündu ölçü-biçi yerini,
Çöp də olsa itki üç qat ağırdır.

Üç qat artdı Üstüağa acığı,
Açıb atdı üzündəki sarığı,
Nə sağaldar könlündəki yanığı,
Çöp də olsa itki üç qat ağırdır.

Bir il gəzdi, görünmədi bu eldə
Gəzdi Balasq, Misireldə, Mineldə.
Çində qaldı, dil öyrəndi bir il də,
Çöp də olsa itki üç qat ağırdır.

Şaman söyləncі

Qobuyerdə yaz tez gəlir, tez gedir,
Yaz qorxaqdır, gül incədir, yer yaşıl.
Layla çalır qayalara ləpələr,
Yaz qorxaqdır, gül incədir, yer yaşıl.

Qobuyerin qış ayları yamyaşıl,
Qışlaq olur sürülərə dağ-daşı,
Göy dənizə yaşıl qışlaq yaraşır.
Yaz qorxaqdır, gül incədir, yer yaşıl.

Qobuyerdə daşlar yeldən dil alır,
Sal qayalar kuləklərdə ud çalır,
Bulaqlar var yüz-min ildir qız qalıb,
Yaz qorxaqdır, gül incədir, yer yaşıl.

***

Kür çayıdır, yoxsa qoyun sürüsü,
Aşırımda, uçurumda, yarğanda,
Qorxa-qorxa bulud yağır, çiləyir,
Aşırımda, uçurumda, yarğanda.

Otlaqlarda naxır, ilxı sürünər,

İri bulud kölgəsidir sürülər,
Sürü çaydır, köpük-köpük görünər,
Aşırımda, uçurumda yarğanda.

Bulud durub balabanı dinləyir,
Arı bir-bir çiçəkləri dənləyir,
Göy gurlayır, qız bulaqlar inləyir,
Aşırımda, uçurumda, yarğanda.

***

Son evidir bura Turbax nənənin,
Turbax nənə torpaq olub göyərib.
Min ildir ki, Turbax nənə torpaqda,
Turbax nənə torpaq olub göyərib.

Durudaşdan, Əkbitəndən gəlirlər,
Sonevinin başdaşını silirlər,
Onu Minel ağbirçəyi bilirlər,
Turbax nənə torpaq olub göyərib.

Başəyimə* gəlir bura Üstüağ,
Dörd yanında. çalğı, mahnı, tap-taraq,
Al-al bəzək, boya, qadın dəf-daraq,
Turbax nənə torpaq olub göyərib.

***

-O bənzəyir ilk babası Turərə,
Qol, baş, kürək, boy babadan gəlmədir.
Ona çəkib əl tutmaqda, bağışda,
Boy, baş, kürək, qol babadan gəlmədir.

Oturubdur qızıl atın belində,
Dağ çəkili tunç topbuzu əlində,
Torpaq nənə qayğıları dilində,
Boy, baş, kürək, qol babadan gəlmədir.

At üstündə yaraşığı, durumu,
Arxasında qabağında toplumu,
Ağsaqqallar, başbilənlər qurumu,
Boy, baş, kürək, qol babadan gəlmədir.

***

Sonev üstdə Şaman yer-yer hərlənir,
Şaman göydən səs eşidən tanrıdır.
Gələçəkdən soraq tutub danışır.
Şaman göydən səs eşidən tanrıdır.

Göyqurşağı boyasında geyimi,
O, Torpaqdan alır, gücü, heyini,
Tanrılara çatır səsi, deyimi,
Şaman göydən səs eşidən tanrıdır.

***Təzim**

Deyib-deyib öz-özünü çərlədir,
Başı üstə çəliyini hərlədir,
Danışığı onun göylə, yerlədir,
Şaman göydən səs eşidən tanrıdır.

***

Şaman baxdı Üstüağa,
Göydən bir səs eşitdi o.
Bunu harda görmüşəm mən,
Göydən bir səs eşitdi o.

Gözü doldu, bulaqlaşdı,
Yanaqları dümağlaşdı,
Çəliyilə qucaqlaşdı,
Göydən bir səs eşitdi o.

Gözüm balam, anam, atam
Göydən gələn, göyə çatan,
Gəlsin mənə ağrın, qadan,
Göydən bir səs eşitdi o.

***

- Mən Gücərin uyğusuyam,
Oyan, eşit, Torpaq nənə.
Mən Turərin duyğusuyam,
Oyan, eşit, Torpaq nənə.

Yaşım olub iki min il,
Mən yer, su, od, bulud, çay, yel,
Bir il yoldur bizim Minel,
Oyan, eşit, Torpaq nənə.

Deyib Şaman şirikləndi,
Dili, ağzı köpükləndi,
Döşü, ordu görükləndi,
Oyan, eşit, Torpaq nənə.

***

İki min il qabaq gördüm,
Mindiyarın sonu yoxdur.
Gücər çatdı buzlaqlara,
Mindiyarın sonu yoxdur.

Doğmaları arayırdı,
Nə bir əltut, nə bir yardım,
Qar, qış oldu ana yurdu,
Mindiyarın sonu yoxdur.

Çox güləşdi, çox vuruşdu,
Ağ Ayıyla, Qaya Quşla,
Doğmalaşdı qarla, qışla,
Mindiyarın sonu yoxdur.

***

- Şah eşitsin məni bu gün,
Olacağı şah görəndir.
Görünməzi görənəm mən,
Olacağı şah görəndir.

Danışaram yerlə, göylə,
Çayla, çöllə, quşla, leylə,
Böyük Tanrim, özün söylə,
Olacağı şah görəndir.

Mən göylərə dirənərəm,
Buludlarla sürünərəm.
Görünməzə görünərəm,
Olacağı şah görəndir.

***

-Mən Şamanam, göy elçisi,
Qayqı, sayğı, uyğuyam mən.
Görünməzi görən gündən
Qayğı, sayğı, uyğuyam mən.

Bu il bolluq olacaqdır,
Çox saxlanclar dolacaqlır,

Şah çox yeri alacaqdır,
Qayğı, sayğı, uyğuyam mən.

Qaralıbdır söz içində,
Acıqanı öz içində,
Biri vardır yüz içində,
Qayğı, sayğı, uyğuyam mən.

***

Şaman yetdi uzü göyə,
Yerin, Göyün qulağı var,
Öz-Özüylə danışdı o,
Yerin, göyün qulağı var.

Bulud gəldi, göy tutuldu,
Köyə, yerə əl qatıldı,
Göz qıyıldı, qaş çatıldı,
Yerin, göyün qulağı var.

Gücər idi, bulud, yaqış,
Torpaq nənə susuz qalmış,
Göyər Torpaq, qalx bir qarış
Yerin, göyün qulağı var.

***

Şah əyilib diz qatdadı,
Gərək şah da diz qatdaya.
Torpaqlaşdı ulu nənə,
Gərək şah da diz qatdaya.

O, Torpağı ulu saydı,
Bir dirilik gücü duydu,
Sol dizini yerə qoydu,
Gərək şah da diz qatdaya.

Şaman yaddan çıxdı, qaldı,
Hamı şaha könül saldı,
İç boşaldı, gözlər doldu,
Gərək şah da diz qatdaya.

***

Yaqış yağdı, Torpaq güldü,
Güllər yerin gülüşüdür.
Qaraş gəldi yüz atlıyla,
Güllər yerin gülüşüdür.

Üstüağı görə-görə
Baxdı kəndə bilə-bilə,
Diz qatdayıb qoydu yerə,
Güllər yerin gülüşüdür.

-Ulu Torpaq, ulu Nənə,
Baş əyirəm bircə sənə,
Güc ver mənə, yer ver mənə,
Güllər yerin gülüşüdür.

***

Nənə, söylə kötükcənə,
Şahlıq kimdən-kimə çatar.
Mən Başevdən didərginəm,
Şahlıq kimdən-kimə çatar.

Gileyliyə gəlməmişəm,

Hələ sağam, ölməmişəm,
Bir öyüd ver görməmişə,
Şahlıq kimdən-kimə çatar.

Bələşsəm də al qanıma.
Gərək bir gün şah tanınam,
De, gəlmişəm öz yanına
Şahlıq kimdən-kima çatar.

***

Şaman aldı bu sorğunu,
-Şahlıq mənəm deyənindir.
Mənə Torpaq belə deyir,
Şahlıq mənəm deyənindir.

İstər şah ol, istər yolçu,
Bilici ol, ya da falçı,
İstər evcil, istər çölçü,
Şahlıq mənəm deyənindir.

Mən deyənin düzdür yönü,
Öncül çapar tutar önü,
Ancaq qandır yönü, günü.
Şahlıq mənəm deyənindir.

***

Kimdə mən var, güclü odur.
Doğru yolu qılınc açır.
Həm Başevdə, həm vuruşda,
Doğru yolu qılınc açır.

Biclik də var, birlik də var,
İkisi də əldən tutar,
Bunları da öyrən, bacar,
Doğru yolu qılınc açar.

İki qardaş qurşaq tutsun,
Güclərini gücə qatsın,
Qoy şahlığa güclü çatsın,
Doğru yolu qılınc açar.

***

Bu söz aldı Üstüağı,
Ölkəyə şah Qaraş olsun.
Qoy basılım qardaşa mən,
Ölkəyə şah Qaraş olsun.

İki qardaş güləşdilər,
Vurnuxdular, əlləşdilər,
Ara bir də dilləşdilər.
Ölkəyə şah Qaraş olsun.

Yer qazıldı diz yerindən,
Qopdu geyim yüz yerindən.
Qopmadılar öz yerindən,
Ölkəyə şah Qaraş olsun.

***

Şah Qaraşa girişmədi,
Çəm gəzirdi yıxılmağa,
Qaraşı şah etmək üçün,
Çəm gəzirdi yıxılmağa.

Bundan Qaraş sıxılırdı,
Yorulmuşdu, yıxılırdı,
Şah da yanıb yaxılırlı,

Çəm gəzirdi yıxılmağa.

Gördü hamı bu oyunu,
Şah güləşmir, şah yayınır,
Şah gözləyir öz soyunu,
Çəm gəzirdi yıxılmağa.

***

Ancaq Qaraş dözəmmədi.
Gözləmədi Üstüağı.
Yarağından yapışdı o,
Gözləmədi Üstüağı.

Son ayaqda qılınc çəkdi.
Vurdu qardaş qanı tökdü,
Həm tutuldu, həm diz çökdü,
Gözləmədi Üstüağı.

O yıxılıb yerdə qaldı,
Ağlayaraq haray saldı,
Saçlarını dartıb yoldu,
Gözləmədi Üstüağı.

***

Hamı öydü Üstüağı,
Öz-özünə güc gəlmişdi.
Qardaşını yıxmamışdı,
Öz-özünə güc gəlmişdi.

Şah güclüydü on qat ondan,
Güc də gəldi elə sonda,
Güc alıbdır iki yandan,
Öz-özünə güc gəlmişdi.

Bu, tanrının istəyidir,
Bükülməyən biləyidir,
Göyün Şaman dirəyidir.
Öz-özünə güc gəlmişdi.

***

Şaman durdu oxumağa,
- İki qardaş yolbir olsa.
Minel bütün çiçəklənər,
İki qardaş yolbir olsa.

Bir biləkdə bir güc olar,
Dörd biləkdə dörd güc olar,
Hər güclüdən yer güc olar,
İki qardaş yolbir olsa.

Körpü olun hər küsənə,
Yelçəkəndən, Yeləsənə,
Qarlı qışda buz isinər,
İki qardaş yolbir olsa.

***

-Ulu Gücər göydür yağır,
Torpaq nənə güllən, deyir
Mən başının üstündəyəm,
Torpaq nənə güllən, deyir.

Qaf dağının börküyəm mən,
Ağ Ayının kürküyəm mən.

Yağışam mən, bürküyəm mən,
Torpaq nənə güllən, deyir.

Gücər, Düzər, Qoşar harda,
Sonevləri buzda, qarda
- Siz hardasız, tanrı orda,
Torpaq nənə güllən, deyir.

***

Şaman deyib çox oxudu,
Torpaq nənə dinməz olub.
Ha çağırdı yeri, göyü,
Torpaq nənə dinməz olub.

Bu yığnağın nəyi pisdi,
Şah bizlərdən niyə küsdü,
Birdir yerin altı, üstü,
Torpaq nənə dinməz olub.

Bu gün yazın ilk günüdü,
Qışın üç aylıq sonudu,
Günəş ulu, il yenidi,
Torpaq nənə dinməz olub.

***

Şah Şamanı qonaq etdi,
Başev qonaq sevən deyil,
Bir ay qaldı, bir il qaldı.
Başev qonaq sevən deyil.

Görgüləri burda gördü,
Şaha öyüd, toxdaq verdi.
Ancaq Başev bir təhərdi,
Başev qonaq sevən deyil.

Yozmaçısı, yazıçısı.
Qapı kəsən qapıçısı,
Sözü atan atıcısı,
Başev qonaq sevən deyil.

***

Bir gün Şaman şaha dedi:
-Yeləsəni almalısan.
Bizə ordan sazaq əsir,
Yeləsəni almalısan.

Dəyişilib yollar indi.
Darvidel də bizdən döndü,
Bizə qarşı qoyur Hindi,
Yeləsəni almalısan.

Çinə yeni toplum göndər,
Öz yolundan onu döndər,
Qalxan başa qılınc endər,
Yeləsəni almalısan.

***

Burda sözün dəyəri var,
Göyə qapı açan sözdür,
Söz tanrımız gəlir-yolda,
Göyə qapı açan sözdür.

Uçaldacaq o özünü,
Dəyişəcək yer üzünü,
Yazacaqlar hər sözünü,
Göyə qapı açan sözdür.

O da sənin belindəndir,
Dili Minel dilindəndir,
Kökü Duzgöl kökündəndir,
Göyə qapı açan sözdür.

***

Şahım dəyiş Başevini,
İllər, yollar dəyişilir.
Təkərənlik yolu keçib,
İllər, yollar dəyişilib.

Dəyişilib Ay da, Gün də,
Ər taparsan yüzdə, mində,
Qonşulara elçi göndər,
İllər, yollar dəyişilib.

Bu yollarda yol dolaqdır,
Yol get göylə, yer çalaqdır.
Biçlik var ki, bir yaraqdır,
İllər, yollar dəyişilib.

***

Çox inanma Qaraşa sən,
Çox inanan çox uduzar.
Onda inam, düzlük yoxdur.
Çox inanan çox uduzar.

Dörd yanına bir əl gəzdir,
Qonşuların sənə gözdür,
Sənin yolun, sözün düzdür.
Çox inanan çox uduzar,

Gəncsən, ancaq böyük ərən,
Çıx biclərdən biclik öyrən.
Hara çatar bu yol görən,
Çox inanan çox uduzar.

Döyüş söyləncisi

Əkbitənə qonaq bol-bol gəlirdi,
Başev idi ölkələrə Əkbitən.
Bura böyük alqı-satqı yeriydi,
Başev idi ölkələrə Əkbitən.

Bura gəlir yerli, yersiz olanlar,
At, ot, dəvə, kölə yaraq alanlar,
Kimsəsizlik yollarında qalanlar,
Başev idi ölkələrə Əkbitən.

Üstüağı üstün gücda, bacarda,
Dolu-dolu saxlancları açarda.
Atlıları iti uçar uçardan
Başev idi ölkələr Əkbitən.

***

Üstüağın oturağı* bəzəkli,
Göz oxşayır inci içrə bər-bəzək.
Şah börkündə durudaşlar, sudaşlar,

Göz oxşayır inci içrə bər-bəzək.

Bu Başevin üç min ildir özülü,
Gurgurlarda qızıl işıq süzülür.
Qızılayaq söykəncləri düzülu,
Göz oxşayır inci içrə bər-bəzək.

Güldən gözəl qızlar birgə oynayır,
Qara gözlər ulduz-ulduz parlayır,
Dınqır çalan qız barmaqlar qanayır,
Göz oxşayır inci içrə bər-bəzək.

***

Balasq-elçi deyir Minel dilində:
-Alqı-satqı yol deyildir, damardır.
Gəmilərim suboğazda, körfəzdə,
Alqı-satqı yol deyildir, damardır.

Yük gətirək, yük götürək buradan,
Götürülsün gərək küsü aradan,
Bir yaradıb bizi böyük yaradan,
Alqı-satqı yol deyildir, damardır.

Biz gələndə üç su yolu keçmişik,
Gəliş-gediş yollarını ölçmüşük,
Özümüzə sizi qardaş bilmişik,
Alqı-satqı yol deyildir, damardır.

Taxt

***

-Enli gəmi gətirmişik satdığa
Dənizləri yarıb keçən gəmidir.
Çinə getmək su yoluyla qolaydır,
Dənizləri yarıb keçən gəmidir.

Gəmiləri biz qoyuruq satdığa,
Yol vermərik bir kiçicik artığa,
İstəsəniz dəyişərik pambığa,
Dənizləri yarıb keçən gəmidir.

Üstüağın gəmiləri çox idi,
Ancaq Balasq bağlaşması yox idi,
Darvidellə əltutmalar sıx idi,
Dənizləri yarıb keçən gəmidir.

***

Çıxdı Qaraş özü yerinc yerinə,
Yerinc şahdan güclü olar yerində.
Baş ər qoydu Başevində Qammadı,
Yerinc şahdan güclü olar yerində.

Vergi yığdı, Əkbitənə vermədi,
Ölkə açlıq içindəydi, görmədi,
Üstüağla barışığa girmədi,
Yerinc şahdan güclü olar yerində.

Küsu, acıq tökülürdü üzündən,
Qan damırdı hər acıqlı sözündən,
Küsü vardı, öc, üzüntü gözündə,
Yerinc şahdan Güclü olur yerində.

***

Gecə-gündüz öz içini yeyirdi,
Küsü çəndir, acıq oddur meşədə.
Arıqlayıb öz odunda yanırdı,
Küsü çəndir, acıq oddur meşədə.

Elçiləri Çinə, Hində gedirdi,
Günü sayıb aydan nəsə güdürdü,
Öz içini yeyib hər gün didirdi,
Küsü çəndir, acıq oddur meşədə.

Öz qızını verdi ona xalası,
Toxdamadı yenə gizli yarası.
Sevinmədi İşdayağın balası,
Küsü çəndir, acıq oddur meşədə.

***

Qan düşünüb günü qara qan oldu,
Qanla yudu acığını o qancıl,
Əkbitənə gizli yürüş yapdı o,
Qanla yudu acığını o qancıl.

Neçə mini qılıncından keçirtdi,
Neçə minə qanı su tək içirtdi,
Neçə mini qovub yurddan köçürtdü,
Qanla yudu acığını o qancıl.

Qarbaş çıxdı qabağına enişdə,
Yaraladı o, Qarbaşı döyüşdə,
O göndərdi Üstüağa söyüş də,
Qanla yudu acığını o qancıl.

***

Gəlib durdu qabağında Üstüağ,
Dur qardaşın qabağında yaraqsız,
Sağ əlində bircə tutaq var idi,
Dur qardaşın qabağında yaraqsız.

Qaraş vurdu, vurdu, qolu yoruldu,
Dəmir tutaq neçə yerdən yarıldı.
Birdən qılınç parçalandı, qırıldı,
Dur qardaşın qabağında yaraqsız.

Topbuz, bizuç, balta düşdü əlindən,
İti bıçaq o çıxartdı belindən,
Qatı söyüş, alçaq sözlər dilində,
Dur qardaşın qabağında yaraqsız.

***

Qardaş dedi öz yolunu dəyişdi,
Yaraq tutmaz bunca qardaş qardaşa.
Acığından yandı, yandı tüküldü
Yaraq tutmaz bunca qardaş qardaşa.

Birdən durdu, son gücünü topladı,
Bıçağını öz köksünə sapladı,
Ürəyində qan tuluğu partladı,
Yaraq tutmaz bunca qardaş qardaşa.

Son güc, son qan, son söz bu da son vuruş,
Deyin, kimə gərək idi bu duruş,
Dön tanrıdan özün bunu sən soruş,
Yaraq tutmaz bunca qardaş qardaşa.

***

Darvidelə yürüş etdi Üstüağ
Yanqı, acıq qılıncdan da itidir.
Neçə oba, neçə min ev dağıldı,
Yanğı, acıq qılıncdan da itidir.

Qalın tüstü örtdü, göyü, günəşi,
Şah Mehcənin gəlinilə üzləşir,
Qucağına alır körpə Qaraşı,
Yanğı, acıq qılıncdan da itidir.

Körpə gülür, şah elə bil ayılır,
Ürəyinə bir doğmalıq yayılır,
Acıq keçir, ancaq gözlər qıyılır;
Yanğı, acıq qılıncdan da itidir.

***

Mehcə, Qammad düşür qanlı əllərə,
Tapşırılır sevgiləri yellərə,
Söyləmc olur, qalır doğma ellərə.
Yanğı, acıq qılıncdan da itidir.

Başev dözmür bu yürüklü savaşa,
Verir toplu vergiləri Qarbaşa,
Qılınc çəkməz bunca qardaş qardaşa,
Yanğı, acıq qılıncdan da itidir.

Qammadçılar dənizəcən qovulur,
Saxlancların varı göyə sovrulur,
Döyüşlərdə qılınç qalxan yorulur,
Yanğı, acıq qılıncdan da itidir.

***

Əkbitənə üstün dönür Üstüağ,
Körpə Qaraş qollarının üstündə,
Deyir, - özüm böyüdərəm körpəni
Körpə Qaraş qollarının üstündə.

Qoy bu Qaraş Mindiyara şah olsun,
Acıqanın işi-gücü vay olsun,
Qoy Turərə İşdayağa tay olsun,
Körpə Qaraş qollarının üstündə.

Körpə baxır şaha, gülür, oynayır,
Qara, duru qoşa gözlər qaynayır,
Şah Başevin qapısında dayanır,
Körpə Qaraş qollarının üstündə.

***

Gücləndikcə, yaxın, uzaq qonşular,
Qorxurdular Mindiyardan, Mineldən,
Balasq, Misir, Asur, İlam, Hind, Çinel,
Qorxurdular Mindiyardan, Mineldən.

Dənizlərdən dənizlərə yolları
Gəmiləri, sürüləri, malları,
Hardan hara uzanmışdı, qolları,
Qorxurdular Mindiyardan, Mineldən.

Satqılarda durudaşı, göydaşı,
İyid idi, gənci, əri, çalbaşı.
Dönməz idi, Üstüağı, Qarbaşı,
Qorxurdular Mindiyardan, Mineldən.

***

Yelçəkəndən Yeləsənə Mindiyar,
İki Qobu, iki Boğaz arası,
Günçıxandan, Günbatana Mindiyar,
İki Qobu, İki Boğaz arası.

Bir yan söykgənc uzaq-uzaq buzlağa,

Bir yan keçid körfəz yuyan duzlağa
Söykənirdi, yüz ölkəyə, yüz dağa,
İki Qobu, iki Boğaz arası.

Geniş idi, çox uzunsov çevrəsi,
Dənizlərdə yüz-yüz gəmi, bərəsi,
Ellərinin ağı, göyü, qarası,
İki Qobu, iki Boğaz arası.

***

Burda idi Ahurmuzda inancı,
Suya, oda bağlı olub adamlar.
Yaxşılıqla Əhriməni qovublar,
Suya, oda bağlı olub adamlar.

Ahumuzda yaradıbdır hamını,
Tay-tay açıb yaxşılıqla qapını,
Yaxşılıqdan hörüb uca damını
Suya, oda bağlı olub adamlar.

Qoyun kəsib, atla, dəvə oçağa,
Bolluq gəlib çölə, düzə otlağa,
Pislik qorxub çəkilibdir qırağa,
Suya, oda, baqlı olub adamlar.

***

İldə bir yol ocaq başı dolurdu.
Kəsilərin* qanı düzü alırdı.
Göylə yerin birgəliyi qalırdı.
Suya, oda bağlı olub adamlar.

Ocaqları Yastıdağda, Düzgöldə,
Üç yol gəlir şah ocağa bir ildə,
İldə üç yol ölgünlüyü dirildər,
Suya, oda bağlı olub adamdır.

İç qatına inam, inanc dolanda,
Yaradandan yarıt gücü alanda,
Sudan duru, aydan arı olanda,
Suya, oda bağlı olub adamlar.

***

-Diriləşdik, durulaşdıq bu odla,
Baxış iti, qılınc iti, əl iti,
Bizə güc ver acıqandan öc alaq.
Baxış iti, qılınc iti, əl iti.

Mindiyarın şahı mənəm Üstüağ,
Yardım göstər Asur şaha biz bataq,
Onu alıb bu ölkəyə biz qataq,
Baxış iti, qılınc iti, əl iti.

Böyük Tanrı, oçağımı alışdır,
Dəçlə, İrtış çaylarımı calaşdır,
Mənim şahlıq duyumumu bollaşdır
Baxış iti, qılınc iti, əl iti.

***

Şah yenicə qayıtmışdı ocaqdan,
Yeni ocaq qalanmışdı gözündə.
Asur toplum göndərmişdi Minelə
Yeni ocaq qalanmışdı gözündə.

Kobudluqda adam deyil, yabadır,

Qaniçəndir, gözü, başı qabadır,
Bura çəkən onu buğda, arpadır,
Yeni ocaq qalanmışdı gözündə.

Şahla Qarbaş getdi böyük savaşa,
İlameldə qoçlar gəldi baş-başa,
Yer qoymadı sözə, dilə, barışa,
Yeni ocaq qalanmışdı gözündə.

***

-Az lovğalan Asur şahı, bu yerdə,
Yelə verər var-yoxunu lovğalar.
Lovğa sənsən, var, vergidən doymursan,
Yelə verər var-yoxunu lovğalar.

- Mən gəlmişəm çapım bu bol ölkəni
Qılınclaram səni, sənin kölgəni.
- Çox güclüdür sənin şahlıq görkəmin,
Yelə verər var-yoxunu lovğalar.

-Mənə buğda, arpa, saman gərəkdir,
Bilirdim ki son istəyin çörəkdir.
-Toplumumda ac olmayam tək-təkdir,
Yelə verər var-yoxunu lovğalar.

***

-Üstüağla üzləşməyə gəlmişəm,
Gedişləri poza bilər bu gəliş.
Gəl, qılınca əl atmadan danışaq.
Gedişləri poza bilər bu gəliş.

-Mən qılıncla danışıram döyuşdə,
Qılınc mənə əl tutubdur hər işdə,
-Basılarsan bu lapbadan yürüşdə,
Gedişləri poza bilər bu gəliş.

Mən basılmaz, gənc bir şaham, on ildir,
Sən Üstüağ olduğumu nə bildin?
Kim basıldı daha o, şah deyildir,
Gedişləri poza bilər bu gəliş.

***

Üstüağın boy-buxunu iriydi.
Döyüşlərdə yaraq işlət, tez-tov ol.
Asur şahı qoxutmurdu bu görkəm,
Döyüşlərdə yaraq işlət, tez-tov ol.

Mindiyarın ərlərinin hoy-hoyu,
Acıqanı qaçar qoyur çöl boyu,
İti oxlar göz çıxarır, göz ovur,
Döyüşlərdə yaraq işlət, tez-tov ol.

Qılınclaşma, topbuzlaşma oxlaşma,
İki yanda seyrəkləşmə, sıxlaşma,
Düşür Asur sırasına çaxnaşma,
Döyüşlərdə yaraq işlət, tez-tov ol.

***

-Gəl, güləşək, ahay böyük Asur şah.
Dözüm dizdə, güc güləşdə bəllənər.
Kim basıldı özü geri otursun,
Dözüm dizdə, güc güləşdə bəllənər.

-Çox arxayın danışırsan, Üstüağ,
Öpər sənin kürəyini bu torpaq.

- Gəl, sonrakı barışığa yer qoyaq.
Dözüm dizdə, güc güləşdə bəllənər.

-Sən güləşçi Asur şahsan, bəllidir,
Ancaq başın havalıdır, yellidir.
Mən cavanam, sənin yaşın əllidir,
Dözüm dizdə, güc güləşdə bəllənər.

***

-Mindiyarı böyüdürsən günbəgün,
Bu gedişlə böyük qalmaq çətindir.
Ayağını yerin boyda uzat sən.
Bu gedişlə böyük qalmaq çətindir.

-Suboğazdan Xançuyacan Mindiyar,
Ordan bura 50 günə at çapar,
Gəl, güləşək, görüm səndə nə güc var,
Bu gedişlə böyük qalmaq çətindir.

-600 min köləm vardır qurd basan.
Onlardan da biri sən qurd olarsan,
Onda sən də öz adını alarsan,
Bu gedişlə böyük qalmaq çətindir.

***

- Ölkəm-Körfəz, Xançu, Qobu, Buzboğaz,
Tanrıların ölkəsidir Mindiyar.
Uc-bucağı görünməyən dördbuçaq,
Tanrıların ölkəsidir Mindiyar.

Bu ölkədə min el, min yurd yerləşir,
Ağ qarayla, qurd quzuyla birləşib,
Bu yerlərin atı, qurdu ərləşib.
Tanrıların ölkəsidir Mindiyar.

Ərənləri ölkəbasan qurdbasan,
Yırtıcılar arasında ov busan,
Tanrılara mahnı qoşan, söz yazan,
Tanrıların ölkəsidir Mindiyar.

***

Güləşdilər, yer şumlanıb qazıldı,
Torpaq dizdən, yer dirsəkdən güc alır.
Üç gün çəkdi süpürləşmə, güləşmə,
Torpaq dizdən, yer dirsəkdən güc alır.

Geyimləri dağım-dağım dağıldı,
Hərdən bu şah, hərdən o şah bağırdı,
Bu tutaşa min-min ərən baxırdı,
Torpaq dizdən, yer dirsəkdən güc alır.

Üçüncü gün onlar döndü tapdağa,
Asur şahın beli gəldi torpağa,
O güc verdi sözə, dişə, dırnağa,
Torpaq dizdən, yer dirsəkdən güc alır.

***

Asur şahdan üz döndərdi yüz min ər,
Eli, yurdu diri tutan başçıdır.
Yaraqları yerə qoyub durdular,
Eli, yurdu diri tutan başçıdır.

Asur şahı bu güləşlə basıldı,
Əllərindən qara kəndir asıldı,

Adı kölə sırasında yazıldı,
Eli, yurdu diri tutan başçıdır.

Asurelli, min-min kölə, şah kölə,
Qabaqdasa çox döyüşlər var hələ,
Qapı oldu Mindiyara, Minelə,
Eli, yurdu diri tutan başçıdır.

***

Yol açıldı uzaq dəniz yoluna.
At yolundan yeydir gəmi yolları.
İndi uzaq-uzaq yollar sudandır,
At yolundan yeydir gəmi yolları.

Açılmışdı üç dənizə beş qapı,
At gəmilər dənizlərdə yel çapır,
Mindiyardan ölkələrə yol tapır,
At yolundan yeydir gəmi yolları.

Gəmilərin gömgöy sudan yolları,
Avar çəkər kölələrin qolları,
Gedib-gələr Mindiyarın malları,
At yolundan yeydir gəmi yolları.

İlk sevgi söylənci

Hər yer, hər yurd dəyişirdi büsbütün
Dəyişməyən çürüyəcək, öləcək,
Yer, göy, adam, dağ-daş, zəmi, nə ki var,
Dəyişməyən çürüyəcək, öləcək.

Ölkələrdə, diyarlarda,yurdlarda,
Doğulurdu yeni-yeni adlarda.
Ot bitirdi kəsəklərdə, çatlarda.
Dəyişməyən çürüyəcək, öləcək.

Dəyişməyən bulud, günəş, tanrıdır
Bir də oddur, bir də ana bağrıdır.
Qalan nə var, dəyişməyə doğrudur,
Dəyişməyən çürüyəcək, öləcək.

***

Kim dəyişdi, nə dəyişdi, o qaldı,
Yaşamağın yolu birdir, dəyişmək.
Dəyişməyən ölüşkəyib qartacaq,
Yaşamağın yolu birdir,-dəyişmək.

Çox böyüdü, artdı el-el Mindiyar,
Yeni yerlər, yeni adlar, adamlar.
Mindiyarda böyük tanrı gücü var,
Yaşamağın yolu birdir,-dəyişmək.

Mindiyarın ağdan idi başrağı,
Başraq altda çoxalırdı torpağı,
Çox gəlirdi, çox gedirdi qonağı,
Yaşamağın yolu birdir,-dəyişmək.

***

Vurulmuşdu bir gözələ Üstüağ,
Sevgi şahda, dilənçidə bir olur.
Qobuyerdə öz soyundan qız idi,
Sevgi şahda, dilənçidə bir olur.

Götükcəydi Manay ulu Qızbaxa,
Ad qoymuşdu Qızbax ana torpağa,

Vurulmuşdu şah da o al yanaqa,
Sevgi şahda, dilənçidə bir olur.

İstəyirdi Üstüağı Manay da,
Görüşmüşdü bir görüşlü dolayda,
Doğulmuşdu onlar bir gün, bir ayda
Sevgi şahda, dilənçidə bir olur.

***

Dəyişmişdi başdan-başa Üstüağ,
Sevən bir az küskün olur, kal olur.
Dindirmirdi anasını, Qaraşı,
Sevən bir az küskün olur, kal olur.

Birdən bir ay, evdən, gözdən itirdi.
O gizlicə Qobuyerə gedirdi,
Gedib elə qarışırdı, itirdi.
Sevən bir az küskün olar, kal olar.

Manay yaraq oynadırdı əlində
Qılınc, balta, bıçaq, ataq belində,
Sərt yapışıq, sərt söz şirin dilində,
Sevən bir az küskün olar, kal olar.

***

Onlar qoşa at çapırdı, gəzirdi
Bu sevgini tanrı özü görürdü.
Sevinc indi quru söz də onlara,
Bu sevgin tanrı özü görürdü.

Dil açmışdı, danışırdı çiçəklər.
Çimişirdi şah gölündə diləklər,
Danışırdı daşlar, döşlər, ətəklər,
Bu sevgini tanrı özü görürdü.

Ağ buluddan günəş yaşmaq tuturdu.
Ay utanıb dağ dalında batırdı,
Gül yollara gül qoxusu qatırdı.
Bu sevgini tanrı özü görürdü.

***

Güllər sevgi öyrənirdi onlardan,
Çiçəklər də sevənləri sevirlər.
Sərilirdi ayaqları altına.
Çiçəklər də sevənləri sevirlər.

Gül gülüşlə çağırırdı onları.
Güzgülüydü güllər ilə yolları,
Birləşirdi ürəkləri, qolları.
Çiçəklər də sevənləri sevirlər.

Baş yuxulu, qalan bir cüt göz idi.
İsmələri gülüş idi, söz idi.
Öpdükləri gül gülüşlü üz idi,
Çiçəklər də sevənləri sevirlər.

***

-Çoxdan idi, gülüm, sənə göz idim.
- Sevənlərə nə eləsə göz elər.
- Gizli gəlib sənə baxıb güdürdüm,
- Sevənlərə nə eləsə göz elər.

- Sənsiz qala bilməyirdim özümdə,
Uşaq kimi kövrəlirdim dözümdə.
Neçə ildir qalıb gözüm gözündə,

Sevənlərə nə eləsə göz elər.

Mənə, gülüm, sən şahlıqdan ucasan,
Qız könlünü gərək mənə açasan.
Şah evinə ay tək işıq saçasan,
Sevənlərə nə eləsə göz elər.

***

–İstəyimdə nəsə qorxu duyuram,
Sevgi bütün anlaqlardan ucadır.
Mən özümü hərdən yazıq sanıram.
Sevgi bütün anlaqlardan ucadır.

Heç bilmirəm Başev məni sayarmı,
Duyğulanıb sevgimizi duyarmı,
Uçar-uçar yaşamağa qoyarmı,
Sevgi bütün anlaqlardan ucadır.

- Başev azdır, səni Minel sevəçək,
- Minel artıb olub indi Mindiyar.
- Sənə Minel sevgi şahı deyəcək,
Minel artıb olub indi Mindiyar.

***

Sonev də var, son söz də var, son yol da
Heç bir işdə son cızığa varma sən.
Bir yer saxla son görüşə, son sözə.
Heç bir işdə son cızığa varma sən.

Gördün dözüm son çızığa dayandı,
Acıqanın gözü qana boyandı.
Yerə vurma son inamı, son andı,
Heç bir işdə son cızığa varma sən.

Son gəlibsə yay gününü qış tutar,
İpək könlü sal buzlardan daş tutar,
Acıqanın acıqları baş tutar,
Heç bir işdə son cızığa varma sən.

***

Çox getdilər, gündüzləri yordular,
Gecə-gündüz, yay-qış yoxdur sevgidə.
Oyaq qalıb gecələri yordular,
Gecə-gündüz, yay-qış yoxdur sevgidə.

Yollar- yallar, eniş-yoxuş dağ idi,
Göllər güzgü, çaylar boyun bağıydı,
Burda doğu, orda batı çağıydı,
Gecə-gündüz, yay-qış yoxdur sevgidə.

Qovmuşdular gözlərindən yuxunu,
Yırtıçıdan, seldən, sudan qorxunu,
Görmürdülər, deyən batı, doğunu,
Geçə-gündüz, yay-qış yoxdur sevgidə.

***

-Sənsən böyük Mindiyarın gəlini,
Gəlin elə şah deməkdir Başevdə.
Mən şahamsa, sən də mənim şahımsan.
Gəlin elə şah deməkdir Başevdə.

Orda hamı öz yerini biləndir,
Orda hamı, gülüm, sənin köləndir,
"Öl" söyləsən, bil ki, hamı öləndir,
Gəlin elə şah deməkdir Başevdə.

Manay, sən ki, mənim ulu soyumsan
Sən anamın gəlinisən, Toyusan,
Gözəllikdə günəşimsən, ayımsan.
Gəlin elə şah deməkdir Başevdə.

***

Sevgi tutub əllərindən apardı.
Görgörün də şah tanrısı sevgidir.
Qoşalaşıb qarışdılar görgörə.
Görgörün də şah tanrısı sevgidir.

Nağıllaşıb onlar çox-çox getdilər
Çapıb, çapıb çaparları ötdülər,
Dağda-daşda, meşələrdə itdidər,
Görgörün də şah tanrısı sevgidir.

Sevgi birdir iki gəncə verirlər
O yuxudur, bir yuxuya girirlər,
Nə görsələr ikilikdə görürlər,
Görgörün də şah tanrısı sevgidir.

***

-Biz hardayıq, hara belə Üstüağ.
-Nə görürsən burda sevgi adlanır,
-Mən qorxuram bu yerlərdən Üstüağ,
-Nə görürsən burda sevgi adlanır.

-Mən qorxuram bu sevgidən, sevgilim,
Başevi yox, gərək səni ev bilim.
Məni hara aparırsan, ay gülüm.
Nə görürsən burda sevgi adlanır.

-Ayılt məni, yuxudayam deyəsən,
Yatmayıbsan bu yuxuda bəyəm sən?
Bax bu gündən mənim könlüm, yiyəmsən,
Nə görürsən burda sevgi adlanır.

***

-Bir soydanıq, ancaq yeddi arxadan,
Bir soylular evlənərsə, nə olar.
Kim demişdi bir soyludan ev olmaz,
Bir soylular evlənərsə, nə olar.

Sevgi varsa, inam varsa Qam ata.
Nə ad qoyaq bu sevgiyə, bu ada.
Hansı dəniz su qataçaq bu oda.
Bir soylular evlənərsə, nə olar.

Mən gedərəm Odər ata yanına.
Yetirərəm Qobuyerin Qamına.
Baxsın mənim ürəyimə qanıma.
Bir soylular evlənərsə, nə olar.

***

Mən bilirəm, Şaman "olmaz" deyəcək,
Gülmə bizə, gülmə sevgi tanrısı.
Odər ata, "olar, olar", deyəcək,
Gülmə bizə, gülmə, sevgi tanrısı.

Sevgi nədir, sevgi özü tanrıdır.
Qam Odərlə düşüncədə ayrıdır,
Sevgi, üzü tanrılara sarıdır,
Gülmə bizə, gülmə, sevgi tanrısı.

Yer saxlasaq yeddi arxa soyuna,
Biz qatmasaq sevgimizi toyuna,
Nə düşəcək könlümüzün payına,
Gülmə bizə, gülmə sevgi tanrısı.

***

-Yeddi arxa keçib gedib, Manayım,
Qan dəyişir, fırlanarsa yeddi yol.
Tanrı səni sevgi üçün yaradıb,
Qan dəyişir, fırlanarsa yeddi yol.

Min il qabaq bibim Qızbax yaşayıb.
Bizə düşmür o soy paydan yaş payı,
Bizə gəlib çatmır ondan quş payı,
Qan dəyişir, fırlanarsa yeddi yol.

Manay, sənə yalvarıram diz üstə,
İstəyirsən düşüb qalım üz üstə,
Nə istəsən, nə diləsən göz üstə.
Qan dəyişir, fırlanarsa yeddi yol.

***

-Gərək gedək biz Şamanın yanına,
Şaman bizə hər bir işdə öyüddür,
İnanmıram Başevdəki Odərə,
Şaman bizə hər bir işdə öyüddür.

Mən qorxuram, sevgimizdə düyün var,
O yox desə, qoy yox olsun nə olar,
Uzaq olluq, sevgimiz də yaşayar,
Şaman bizə hər bir işdə öyüddür.

Dediyimə böyük şahım, gülmə sən,
Körüşməsək, sevəcəyəm səni mən,
Ərən ollam, nə görmüsən gəlində
Şaman bizə hər bir işdə öyüddür.

***

Yox, mən səndən əl çəkmərəm, yaxşı bil,
Kor biryolluq tutduğunu buraxmaz.
Mən də, gülüm öz sevgimin koruyam,
Kor biryolluq tutduğunu buraxmaz.

Bir kökdəndir, bir soydandır minelli,
Bütün köklər bir soydandır, bu, bəlli,
Al yanaqlım, incə bellim gül əllim,
Kor biryolluq tutduğunu buraxmaz.

Ürəyimdə daha dözüm qalmayıb,
Sənin kimi gözəl görən olmayıb,
Heç kəs, gülüm sevgisində solmayıb,
Kor biryolluq tutduğunu buraxmaz.

***

Artdı sanki ağırlaşdı Üstüağ,
Sevgi sözü, öpüş dadı biləndən.
Manayını oxşadıqca ucaldı,
Sevgi sözü öpüş dadı biləndən.

Şahlığını unutmuşdu elə bil,
Sevgi olan yerdə heç kəs şah deyil,
Şah sevgiyə bir kölədir, yaxşı bil,
Sevgi sözü, öpüş dadı biləndən.

Sevgi nədir, uçan quşa qanaddır,
O, qanadlı quşa yəhərsiz atdır,
O sevəni, sevgiyəcən ucaltdı,
Sevgi sözü, öpüş dadı biləndən.

***

Onlar gəlib Yastıdağa çatdılar,
Nə dadlısan, ey uşaqlıq illəri.
Tanış yerlər qız həyalı bulaqlar,
Nə dadlısan, ey uşaqlıq illəri.

Bu yerlərdə dərin yuxu yataydım,
Yuxularda əlim sənə çataydı,
Qaça-qaça səni daldan tutaydım,
Nə dadlısan, ey uşaqlıq illəri.

Bu dağdağan, bu yemişan, bu fısdıq,
Çay daşları bir-birinə qu yasdıq,
On addımlıq yerdə niyə biz azdıq,
Nə dadlısan, ey uşaqlıq illəri.

***

Şaman ata belə dedi toy günü:
-Çox yaxına yaxın durmaq yasaqdır,
"Bacı, qardaş, ata, bala, qız, ana,
Çox yaxına yaxın durmaq yasaqdır.

Götükcədir Manay ulu Qızbaxa,
Çoxdan itib, çoxdan ötüb bu axar,
Saysan iki min ildən də çox çıxar,
Çox yaxına yaxın durmaq yasaqdır.

Manay qızı ala bilər Üstüağ,
Soy kökləri uzaqdadır çox uzaq.
Evlənənlər qoy evlənsin bu sayaq,
Çox yaxına yaxın durmaq yasaqdır.

***

Odər ata belə dedi toy günü:
-Kökə görə seçilməyir adamlar.
Hamı birdir, hamı odun köləsi,
Kökə görə seçilməyir adamlar.

Sevgi oddur, onda yanan arıdır,
Sevgi odsa, onda o da tanrıdır.
Sevən aydan arı, sudan durudur,
Kökə görə seçilməyir adamlar.

Taprı deyir, əl-qolunuz açıqdır.
Cızıq qoymaq istəklərə artıqdır.
Cızıq qoyan öz içindən yanıqdır
Kökə görə seçilməyir adamlar.

***

Şaman ata belə dedi toy günü:
- Sevgi od yox, bir ötəri buluddur.
Gəlib keçir, yağır, axır, dolanır,
Sevgi od yox, bir ötəri buluddur.

Üz-üzədir, göz-gözədir baxımlar,
Bir evdə ev ola bilməz yaxınlar.
Nəyə gərək doğmalarda doğumlar.
Sevgi od yox, bir ötəri buluddur.

Minel gərək özgəliyə kök ata.

Günçıxandan, Gunbatana o çata,
Bu yol ilə o çoxala, o arta,
Sevgi od yox, bir ötəri buluddur.

***

Odər ata belə dedi toy günü:
- İstəkləri kəndirləmək gülüncdür.
Sevgi soya, ağ, qaraya baxmayar,
İstəkləri kəndirləmək gülüncdür.

Adəm, Həvva bacı-qardaş olublar,
Bir-birindən onlar uşaq alıblar,
O uşaqlar bir-birilə qalıblar
İstəkləri kəndirləmək gülüncdür.

Yaranışdan açıq olub diləklər,
Belə artıb qurdlar, quşlar, çiçəklər,
Cızıqları sevməyibdir ürəklər.
İstəkləri kəndirləmək gülüncdür.

***

Şaman ata belə dedi toy günü:
-Yaxınların evlənməyi yaramaz.
Birgə qalan bir-birindən usanır.
Yaxınların evlənməyi yaramaz.

Çox yaxını sevə bilməz çox yaxın,
Bir-birinə yeni maraq yox axı,
Beləliəri birləşsə də, boyağı,
Yaxınların evlənməyi yaramaz.

Belə istək birgəliyə yamaqdır.
Belə sevgi neçə günlük qonaqdır,
Püfləsən də alışmayan ocaqdır,
Yaxınların evlənməyi yaramaz.

***

Odər ata belə dedi toy günü:
-Yığdığını yığıb vermə özgəyə,
Qıza qoşub evindəki üç evi,
Yığdığını yığıb vermə özgəyə.

Öz qanını öz varını qoru sən,
Yad gəlinlə varda olma yarı sən,
Get doğmana, yaxınına sarı sən.
Yığdığını yığıb vermə özgəyə.

Onda sənin soyun qol-qol kök atar.
Sən həm ər ol, həm qardaş ol, həm ata,
Varın artar, qalar beş-on ev tutar
Yığdığını yığıb vermə özgəyə.

***

Şaman ata belə dedi toy günü:
-Hamı ölür, var heç kimə qalmayır,
Elbirə yox, sən də vara bağlısan,
Hamı ölür, var heç kimə qalmayır.

Mən varımı Mindiyara yaymışam.
Özgələri öz soyumdan saymışam,
Özgələşib öz-özümdən doymuşam,
Hamı ölür, var heç kimə qalmayır.

Var elbirdi, soy elbirdir hamıya,

Qızını ver səndən uzaq qapıya,
Yaxın getmə, getsən könlün qanayar,
Hamı ölür, var heç kimə qalmayır.

***

Odər ata belə dedi toy günü:
-Şah özgəyə var paylasa şah olmaz.
Mindiyara şahlıq etmək ağırdır,
Şah özkəyə var paylasa şah olmaz.

Üç min ildir səpiliyik dörd yana,
Şahlıq gedib çıxıb Çinə Sayana,
Şah istərəm bu şahlıqda dayana,
Şah özgəyə var paylasa şah olmaz.

Səpələnmək ya enlənmək var deyil
Belə varı sən özgənin varı bil,
Mindiyarda min el vardır, bircə dil
Şah özgəyə var paylasa şah olmaz.

***

Şaman ata belə dedi toy günü:
-Mindiyarda Minellilər dilibir,
Necə səpik, necə geniş olsa da
Mindiyarda minellilər dilibir.

Minel varsa, min dil yoxdur burada,
Dil çəkimi vardır tək-tək arada,
Bizi belə yaradıbdır yaradan,
Mindiyarda minellilər dilibir.

Geniş çöllər, uca eniş, yoxuşlar,
Mal-qarada sürü-sürü doğuşlar,
Açıqana qarşı dəmir vuruşlar,
Mindiyarda minellilər dilibir.

***

Odər, ata belə dedi toy günü:
- Güc yaxşıdır, var deyildir o hələ.
Saxlasan da gücü al qan gücünə,
Güc yaxşıdır, var deyildir o hələ.

Gücü, varı paylaşdırmaq nə demək,
Özgələşib özgə evdə gəbərmək,
Gücü vara, varı gücə çevirmək,
Güc yaxşıdır, var deyildir o hələ,

Şahlıqda da bu ölçünü saxlayaq,
Yaxın olaq min-min saxlanc bağlayaq
Özümüzu özumuzdə yoxlayaq,
Güc yaxşıdır, var deyildir o hələ.

Tanrı söyləncі

Yeddi tanrı dolanışa dayaqdır,
Hər bir ulu bir tanrıdan yaranıb.
Yer, göy, od, su, ot, mal, - altı uludur,
Hər bir ulu bir tanrıdan yaranıb.

Tanrı Hürmüz tanrıları yoxlayan,
Altısını bir-birinə bağlayan.
Dolanışı, yaranışı saxlayan,
Hər bir ulu bir tanrıdan yaranıb.

Bu qurğunun qancılıdır Əhrimən,
Ancaq pislik gəlir onun əlindən,
Bir əyrilik tapmalıdır hər nədən
Hər bir ulu bir tanrıdan yaranıb.

***

Bir yaranıb gözəlliklə qan-qada,
İki üzün bir səsidir yaranış,
Dirrik, ölün, sevinç, ağrı, gül, yara
İki uzun bir səsidir yaranış.

Bu qurğunun ulu kökü yaxşıdır,
Əhrimənsə pisdiklilər başıdır,
Pis yaxşıya, yaxşı pisə qarşıdır,
İki üzün bir səsidir yaranış.

Yaxşı deyir, yaşa bu yer üzündə,
Pisi qovub didərgin sal özündən,
Azdır onu yaxşılığın düzündə,
İki üzün bir səsidir yaranış.

***

Diz qatlama çətinliklər önündə,
Pis düşükdür, bata bilməz yaxşıya,
Yalan-palan, qorxu-ürkü bər-bəzək,
Pis düşükdür bata bilməz yaxşıya.

Cılız adam pisə-pasa uyandır,
Pisi, pası yaxşı-yaxşı yayandır,
Yaxşıların dərisini soyandır,
Pis düşükdur, bata bilməz yaxşıya.

Bağış, kəsi gücləndirir yaxşını,
O laxladır pisin əyri daşını,
O gödəldir onun laxlam yaşını,
Pis düşükdür, bata bilməz yaxşıya.

***

Yaxşı gedir sonevindən dönməyə,
Yaxşı dönür özlüyünə bir daha.
O, atmaca yalanlardan ölsə də,
Yaxşı dönür, özlüyünə bir daha.

Çətin işə o, birinci yollanır,
Saç-saqqalı düşüncəsi çallanır,
O da suya düşünmədən tollanır,
Yaxşı dönür özlüyünə bir daha.

Kim ki, suyu odu, otu qorudu,
Kim ki, özgə yarasını sarıdı,
Kim bir işə bir adamlıq yarıdı,
Yaxşı dönür özlüyünə bir daha.

***

Pislə vuruş yaxşıların andıdır,
Pis olmasa yaxşı boy-boy görünməz.
Çox də pis var, pislənilir yerbəyer,
Pis olmasa yaxşı boy-boy görünməz.

İçimizdə vardır yaxşı, var yaman,
Yaman çəkir gözümüzə boz duman,
Yaxşı sənsuz, bir dənizdir, bir saman,
Pis olmasa yaxşı boy-boy görünməz.

Çürükçüdür, söyüşcüldür yamançı,

Yaranışın gedişinə yabançı,
Doğruluğu yelə verən yalançı,
Pis olmasa yaxşı boy-boy görünməz.

***

-Mən yaxşıyam, alnım açıq, üzüm ağ,
Yaranışın dib daşıdır yaxşılıq.
Gözəlliklər, inçəliklər, duyumlar,
Yaranışın dib daşıdır yaxşılıq.

Yamanlıqla vuruş, çarpış, yarış, mən,
Ölüm-dirim savaşına giriş, mən,
Yaşat, yaşa keçmişinə dönüş, mən,
Yaranışın dib daşıdır yaxşılıq.

Son yürüşlə dağıt, uçur pisliyi,
Qaytar yenə özlüyünə düzlüyü,
Artır mənə inanana bizliyi,
Yaranışın dib daşıdır yaxşılıq.

***

-Mən yamanam, yaranışın qancılı,
Üzüntüdən qurtuluşdur yamanlıq.
Son qoyuram yaşayışa, inama,
Üzüntüdən qurtuluşdur yamanlıq.

Aldadıram çılızlaşan varlığı,
Bu varlıqda sıxıntını, darlığı,
Süpürürəm yoxsulluğu, cırlığı,
Üzüntüdən qurtuluşdur yamanlıq.

Kimə gərək yer üzündə davranış,
Nəyə gərək qan-qadalı yaşayış,
Bu nə gündür, sıxıntılı dolanış...
Üzüntüdən qurtuluşdur yamanlıq.

***

-Mən yaxşıyam tanrıların andıyam,
Tanrıların bir adı da "Yaxşıdır".
Özüm tanrı olmasam da, bilirəm,
Tanrıların bir adı da "Yaxşıdır".

Məni Hörmüz yaranışla yaratdı,
Mən ayaqla yol gəlmişəm, o atlı,
Yaman gəldi, məni gül-gül saraltdı,
Tanrıların bir adı da "Yaxşıdır".

Mən hamıda bir yenilməz yaranış,
Mən yaşayıb yaratmaqda çağırış,
Mən tanrılar qarşısında yalvarış,
Tanrıların bir adı da "Yaxşıdır".

***

-Odər ata, söylə Hörmüz deyəni.
Ahur böyük tanrıların tanrısı,
Harda, necə görüşünüz olubdur,
Ahur böyük tanrıların tanrısı.

-Odər ata, bizə öyüd buyurun,
Yaman ilə yaxşıları ayırın,
Bizi tanrı işığıyla doyurun,
Ahur böyük tanrıların tanrısı.

Üzüntünü içimizə kim salıb,
Sıxıntını cücərdənlər kim olub,
O dağılmış dolanışdan kim qalıb,

Ahur böyük tanrıların tanrısı.

***

-Yalvarırıq sənə, Odər atamız,
Tanrıları səsləməkdir yalvarış.
Pozğunluqlar, üzüntülər çoxalır,
Tanrıları səsləməkdir yalvarış.

Yol göstərin bu nisgildən qurtaraq,
Gücümüzü tapıb qat-qat artıraq,
Yamanlığı yanqımızda batıraq,
Tanrıları səsləməkdir yalvarış.

Yalvarırıq göy elçisi Odərə,
Yalvarırıq dili tutuq göylərə,
Bizə göstər tanrıları bir kərə,
Tanrıları səsləməkdir yalvarış.

***

Odər ata yaxınlaşdı ocağa,
Ocaqlaşar kim ocağa tapınsa.
Üzü, gözü od, alovdan qızardı,
Ocaqlaşır kim ocağa tapınsa.

Tanrılaşdı bu başəydi günündə
Ahurmuzda sanki durdu önündə,
Göz-göz işıq parıldadı beynində,
Ocaqlaşır kim ocağa tapınsa.

-Böyük tanrım işığınla diriyəm,
Səni min-min sevənlərdən biriyəm.
Ulu yerdə yersizlərdən bəriyəm,
Ocaqlaşır kim ocağa tapınsa.

***

Mənə güc ver, Yaman ilə vuruşum,
Qabaqdadır Yaman ilə son vuruş,
Mən gedirəm qorunmadan yürüşə,
Qabaqdadır Yaman ilə son vuruş.

Mənə güc ver, inam, bilik aşıla,
Qoyma yaman yaxşılığa qoşula,
Yalvarışlı sözümüzü qarşıla,
Qabaqdadır Yaman ilə son vuruş.

Gərək Yaman içimizdən qovula
Yana, günəş işığında qovrula,
Külü, kolu dənizlərə sovrula,
Qabaqdadır Yaman ilə son vuruş.

***

-Mən Odərəm, ocaqların atası,
Ocaq düşüb al günəşin gözündən.
Pistökdüyə, gücaldıya gələnlər,
Ocaq düşüb al günəşin gözündən.

Yuyunmaqçin bir gün endim çaya mən,
İşıq gördüm başım üstə çiməndə,
Tanrı gəlib tutdu mənim əlimdən,
Ocaq düşüb al günəşin gözündən.

Yeddi tanrı görünəndə gözümə,
Yeddi işıq çilənmişdi üzümə,

Axdı sanki güc qoluma, dizimə,
Ocaq düşüb al günəşin gözündən.

***

Ahurmuzda tanrıların tanrısı,
Yerə, göyə yiyə duran tanrıdır,
Qarşısında diz qatdadım, baş əydim,
Yerə, göyə yiyə duran tanrıdır.

O işıqdan bir çevrəydi, apaydın,
Tanrıları bir-bir mənə o saydı,
Biri günəş, altısı da ay idi.
Yerə, göyə yiyə duran tanrıdır.

O nə dedi: hamı onu dinlədi,
Elçi dedi mənə, uğur dilədi,
Tanrıların adlarını söylədi,
Yerə göyə yiyə duran tanrıdır.

***

Dedi:- Yerdə çoxalıbdır qan-qada,
Qan-qadasız olmalıdır yaranış.
Yerdə bizim elçimiz ol bu gündən,
Qan-qadasız olmalıdır yaranış.

Sona çatsın bu savaşlar, qırğınlar,
Önərləşsin ölüvaylar, çılğınlar,
Qoy tanısın tanrıları azğınlar,
Qan-qadasız olmalıdır yaranış.

Göy, yer birdir, sən gəl-get ol arada,
Birdir bütün yaranışı yaradan,
Yamanlığı vurun, çıxsın sıradan
Qan-qadasız olmalıdır yaranış.

***

Dedi,-Bizim qancılımız Yamandır,
Qırmaq, yaxmaq gücü vardır Yamanda,
Mən gör-görü yaradanda yarandı,
Qırmaq, yaxmaq gücü vardır Yamanda.

Qancılıdır suyun, otun, bitginin,
Törədəni ölüm, yanğı, itginin,
O, gizlənib hər bir şeydə bit kimi,
Qırmaq yaxmaq gücü vardır Yamanda.

Hamı gərək vura, qova Yamanı,
Yox eləyə aldanışı, yalanı.
Çata bütün yamanlıqdan qalanı.
Qırmaq, yaxmaq gücü vardır Yamanda.

***

Dedi,-Sənsən tanrıların elçisi,
Elçi yoldur köklə budaq arası,
Çatdır sən də yaranışa bu sözü.
Elçi yoldur köklə budaq arası.

Ağ günə yol pislə vuruş yoludur,
Bu vuruşlar ölümlərlə doludur,
Bu vuruşdan qıraq duran dəlidir,
Elçi yoldur köklə budaq arası.

Pislə yaman basılanda büsbütün,
Diriləcək ölənlər də günbəgün,
Olmayacaq ölüm, qıtlıq, düşgünlük,
Elçi yoldur köklə budaq arası.

***

Onla ağ gün başlanacaq dirrikdə,
Hamı, hər şey qovuşacaq ağ günə,
Olmayacaq yazıq, pozuq, qırıqlar,
Hamı, hər şey qovuşacaq ağ günə.

Yarananlar yaşayacaq istəklə,
İşlədəcək, dincələcək diləklə,
Var olacaq, bol olacaq gərəklər,
Hamı, hər şey qovuşacaq ağ günə.

Onda göydən enəcəklər tanrılar,
Bir olacaq, bol olacaq nə ki, var,
Olacaqlar tanrı sevən adamlar,
Hamı, hər şey qovuşacaq ağ günə.

***

Şaman ata susdu daha dinmədi,
Susmaq elə basılmaqdır bir az da.
Odər onu bağlamışdı söz ilə,
Susmaq elə basılmaqdır bir az da.

Yozmaçılar, yozumçular, falçılar,
Bu Başevdə eşələnən kim ki, var,
Şaman ata qabağında susdular,
Susmaq elə basılmaqdır bir az da.

Təkcə Mindon saya qoydu soy-sayı,
O öymədi öz gəlini Manayı,
O pislədi qızı dalda dolayı,
Susmaq elə basılmaqdır bir az da.

***

Manay hər gün oynayırdı Qaraşla,
İkisi də küsgün idi Başevdən.
Bu Başevi nə o sevir, nə də bu,
İkisi də küsgün idi Başevdən.

Toxunmuşdu şah Mehcənin könlünə,
Mehcə bunu gətirmədi dilinə,
Nəvəsini qısqanırdı gəlinə,
İkisi də küsgün idi Başevdən.

O görüşmək istəyirdi gəlinlə,
O körpəylə, o atasız yetimlə,
Qorxurdu ki, qarşılasın ölümlə,
İkisi də küsgün idi Başevdən.

***

Üstüağı Qaraş ata bilirdi,
Uşaq gərək ata desin birinə,
At çapırdı Qaraş altı yaşında,
Uşaq gərək ata desin birinə.

Yetim olmaq yazılmışdı alnına,
Açı acıq tökülmüşdü qanına,
Sanki ilan öd tökmüşdü balına,
Uşaq gərək ata desin birinə.

Vurub oxla salır göydən qırğını,
Ötür atla, çaparlıqla çoxunu,
Yarıb keçir qasırğanı, çovğunu,
Uşaq gərək ata deyə birinə.

Sevgi söyləncі

Göz oxşayır, bir də ürək oynadır
Gözəllərin beli, gözü, dodağı.
Sözəgəlim, gözəyatım olanda
Gözəllərin beli, gözü, dodağı.

Dil üstəlik dad artırır gözələ,
Üz də, saç da, qıç da, göz də var hələ,
Nə ola ki qalanlar da düz gələ,
Gözəllərin beli, gözü, dodağı.

Bilə gərək sevən sevgi işini.
Gülə, ancaq ağartmaya dişini,
Ürək çəkə, yoldan qoya kişini,
Gözəllərin beli, gözü, dodağı.

***

Manay belə gözəl idi, apaydın,
Üz güzgüdür, gözlər dildir gözəldə.
Düşüncəsi görünürdü üzündən,
Üz güzgüdür, gözlər dildir gözəldə.

Ağ üzünü yalayırdı ipək tel,
Utanırdı bu öpüşdən qızıl gül,
Qısqanırdı, qıvrılırdı dəli yel,
Üz güzgüdür, gözlər dildir gözəldə,

Çiyinləri ağ göyərçin döşü tək.
Ağ əlləri mavi dəniz quşu tək,
Mindiyarda durub aya qarşı tək,
Üz güzgüdür gözlər dildir gözəldə,

***

Ay dişləyir barmağının uçunu,
Belə gözəl görməyibdir Mindiyar.
Günəş gedib, durub bulud dalında,
Belə gözəl görməyibdir Mindiyar.

İncə səsi səs deyildir, yuxadır,
Yerişi də, duruşu da dalğadır,
Ayla günəş onda bir cüt sırğadır,
Belə gözəl görməyibdir Mindiyar.

Günəş çıxıb, odu yeri bürüyüb,
Buz ürəklər damcı-damcı əriyib,
Qabağında qızlar durub, kiriyib,
Belə gözəl görməyibdir Mindiyar.

***

O, Qaraşla oynayanda deyirlər,
Ayla günəş bir-birinə sarmaşıb.
Üstüağa qovuşanda elə bil
Ayla günəş bir-birinə sarmaşıb.

Hamı yanır bu gözəllik odunda,
Gözəl olan gözəl qız da, qadın da.
Manay deyib bu gözəllik adında
Ayla günəş bir-birinə sarmaşıb.

Yüz-yüz, elçi qonaq gəlir bu toya,
Gəlir baxsın lap yaxından bu aya,
Baş əyməyə Üstüaqla Manaya,
Ayla günəş bir-birinə sarmaşıb.

***

Gözəl Manay yatımlıydı çoxuna,
Gözəlliyi sevməyənin gözü dar.
Sevməyən də az deyildi gəlini,
Gözəlliyi sevməyənin gözü dar.

Yozmaçılar yozub gendən baxırdı,
Gözlərindən açıq göz-göz yağırdı,
Doğruluqdan yeni yalan saqırdı,
Gözəlliyi sevməyənin gözü dar.

Mindon tez-tez atılırdı araya,
Belə sevgi yad gəlirdi anaya,
Üstüağı qısqanırdı Manaya,
Gözəlliyi sevməyənin gözü dar.

***

-Ana, danış, niyə belə tutqunsan,
- Gəlin gərək dil-ağıza düşməyə,
-Burda axı Manay kimə neynəyib,
-Gəlin gərək dil-ağıza düşməyə.

-Manay sənin qanındandır soyundan,
Ancaq könlün açılmadı toyunda,
Sən küsübsən öz analıq sayından.
-Gəlin gərək dil-ağıza düşməyə.

-Yozmaçılar onu sevmir deyəsən,
Onlar yüz iş çıxarırlar bu işdən,
Sən bunları məndən yaxşı bilirsən,
-Gəlin gərək dil-ağıza düşməyə.

***

-İndi, oğlum, öz anana qulaq as,
Çəkər əri dağa-daşa gözəlçə.
-Şah işinə Manay heç də qarışmır,
Çəkər əri dağa-daşa gözəlçə.

-Düzdür, məni yazıq etdi yozmalar,
Oldu on il yerim, yurdum qazmalar,
İndi səni çəkir ora azmalar,
Çəkər əri dağa-daşa gözəlçə.

-Axı nədir, nə olubdur, de ana,
Çox da uyma yozmalanmış yalana,
-Mən görürəm sən gedirsən haraya,
Çəkər əri dağa-daşa gözəlçə.

***

Acıqlandı anasına Üstüağ,
Yanan ana, yaman ana, deyiblər.
Falçıları o qovdurdu Başevdən,
Yanan ana, yaman ana, deyiblər.

Yozmaçılar düşüb eli dolandı,
Ağızları köpükləndi, sulandı,
Yalanları yalan üstə qalandı,
Yanan ana, yaman ana, deyiblər.

Manay isə eşitmədi bunları,
Gəlin qaldı o Başevdə il yarım.
Doğmamışdı hələ Manay bir qarın,
Yanan ana, yaman ana, - deyiblər,

***

Nə çox idi, nə az idi,-il yarım,
Gəlin gərək ana olsun bir ildə.
Şah özunə yerinc yeri gəzirdi.
Gəlin gərək ana olsun bir ildə.

Doğmasaydı Qaraş yerinc olurdu,
Bu sevgidən qan qoxusu gəlirdi,
Bilicilər olanları bilirdi,
Gəlin gərək ana olsun bir ildə.

Artarsızlıq düşündürür Mindonu,
Atmayacaq Manay şahı, şah onu,
Sevgidədi uğursuzun hər sonu,
Gəlin gərək ana ola bir ildə.

***

Sevənləri tanrı üçə çevirmir.
Sevən cütü ayrı salar uçüncü.
Uşaq deyən eşidirdi bunları,
Sevən cütü ayrı salar üçuncü.

Dəli sevgi od vurmuşdu onlara,
Gözlərində bir olmuşdu ağ, qara,
Ana, baxma dallarınca sən ora,
Sevən cütü ayrı salar üçüncü.

Başlanğıçdan gör-gör belə yaranıb
Bu sevgidir, vurma sən də aranı,
Sevgi heç də düşünməyir sonranı,
Sevən cütü ayrı salar üçüncü.

***

Ana açıq deyənmirdi oğluna,
Oğul, gərək şah artarsız olmasın,
Bir ölkənin gələçəyi bundadır.
Oğul, gərək şah artarsız olmasın.

Mehcə buna sevinirdi bəlkə də,
Manay qalsın gəlin kimi kölgədə,
Qaraş qalxsın şah yerinə ölkədə,
Oğul, gərək şah artarsız olmasın.

Mindon bunca gəmirirdi içini,
Sevgisində şah ötmüşdü ölçünü,
Sarsıltmışdı sevgi onun gücünü,
Oğul, gərək şah artarsız olmasın.

***

Ana sözü Üstüağa çatmırdı,
Anası yox, atası yox sevginin.
Ana ona yalvarırdı gizlicə,
Anası yox, atası yox sevginin.

Ova gedir, ovdan gəlir ikisi,
Üzlərində yanıq sevgi cizgisi,
Tanrılaşıb gedib tanrı sevgisi,
Anası yox, atası yox sevginin.

Şaman deyir, toxda, ana, darıxma,
Odər deyir, döz bir az da, karıxma,
Tanrı deyir, göz bərəldib duruxma,
Anası yox, atası yox sevginin.

***

Ova çıxıb at çapdılar neçə gün.
Dəli sevgi "gəl" deyirdi dalınca.
Yal-yüyəni buraxılmış atlara.
Dəli sevgi "gəl" deyirdi dalınca.

Hər yer sevgi boyasına düşmüşdü,
Baxışları sevgi ilə daşmışdı.
Bunu görüb sevgi özü çaşmışdı.
Dəli seəki gəl, deyirdi dalınca.

Ərimişdi gözlərində dağ, qaya
Hər yan sevgi boyasında-al boya.
Deyən yoxdu, hara belə, haraya,
Dəli sevgi "gəl" deyirdi dalınca.

***

Yeddi boya quşlar baxıb səkirdi,
Dəli sevgi nə eşidər, nə görər,
Dallarınca çaylar qaçıb, gülürdü.
Dəli sevgi nə eşidər, nə görər.

Meşə baxıb yaşıl yaşmaq tutanda
Bal sözlərə-güllər qoxu qatanda,
Üstlərinə duman örtük atanda,
Dəli sevgi nə eşidər, nə görər.

Güzgü olub gümüş çaylar üzlərə,
Yağış səpir qara bulud düzlərə,
Qulaq asın, çaylar, şirin sözlərə,
Dəli sevgi nə eşidər, nə görər.

***

Bu yerlərin gözəlliyi meşədir,
Bulaq ola, meşə ola, döş ola,
İynəyarpaq ağaç bitib qayada,
Bulaq ola, meşə ola, döş ola.

Atlar ürkür uçurumda dayanır,
Düşüb çənə süd rənginə boyanıb,
Gül-çiçəklər bürüyübdur hər yanı,
Bulaq ola, meşə ola, döş ola.

Göydə bulud neçə görkəm alarmış,
Bir damla su neçə yüz gül olarmış
Deyən, tanrı özü burda qalarmış,
Bulaq ola, meşə ola, döş ola.

***

Dırmaşıbdır meşə dağın döşünə,
Meşə dağa dırmaşarsa diridir.
O, dağları alıb basıb qoynuna,
Meşə dağa dırmaşarsa diridir.

Bu çökəkdə, o yamaçda, o döşdə.
Ağac kimi göyər, ucal hər işdə,
Kövdən qızıl, yarpaqların gümüşdən,
Meşə dağa dırmaşarsa diridir.

Yaşıl dəniz dalğalanır yarpaqdan,
Neçə yüz min bitki çıxar torpaqdan,
Bir öpüşlə yüz damla al bulaqdan,
Meşə dağa dırmaşarsa diridir.

***

Ala gözlər aldı məni,
Ala nə göy, nə qaradır.
Çox dərindir baxışları
Ala nə göy, nə qaradır.

Çəkib sap-sap ürəyimi,
Bağlayıbdır biləyimi,
Yerə vurub kürəyimi
Ala nə göy, nə qaradır.

Gözüm batıb, çalalaşıb,
Dağ ətəyi lalalaşıb.
Nə var, hər şey alalaşıb
Ala nə göy, nə qaradır.

***

Göy dənizə yetişəndə durdular,
Su ayıldan, duruldandır adamı,
Dəvə-dəvə boylanırdı dalğalar,
Su ayıldan, duruldandır adamı,

Aç idilər, yorğun, əzgin, tökülü,
Susuz qalmış atlar, beli bükülü,
Gözlər qalıb su düzünə tikili.
Su ayıldan, duruldandır adamı.

Şah Manayın qucaqlayıb belini,
Öpür onun incə, mərmər əlini,
Dərib alır öpüşlərin gülünü
Su ayıldan, duruldandır adamı.

***

Dəniz baxır bu qovuşan gənclərə
Qovuşmaqdır, yovuşmaqdır bu dirrik.
Şah Manayla, su torpaqla qovuşur,
Qovuşmaqdır, yovuşmaqdır bu dirrik.

Göy yorğandı, dəniz yelpic, yer döşək,
Tanrılaşdı sevgiləri təkbətək,
Sevgi varsa, qalan şeylər nə demək,
Qovuşmaqdır, yovuşmaqdır bu dirrik.

Hər öpüşdən bayıldılar, qaldılar,
Su yanında sevgi evi saldılar.
Sarmaşaraq bərk qol-boyun oldular,
Qovuşmaqdır, yovuşmaqdır bu dirrik.

***

Dalğaların xarıltısı içində,
Üzü güldü qaraqabaq sevginin.
Pıçıltılar, yalvarışlar, öpüşlər
Üzü güldü qaraqabaq sevginin.

Tanrılıqdan adamlığa endilər,
Alov çəkib yavaş-yavaş söndülər,
Birləşdilər, gül-çiçəyə döndülər
Üzü güldü qaraqabaq sevginin.

Şah Manayı qucaqlayıb yatanda,
İki ürək istəyinə çatanda,
Yuxuları qızılgülə batanda
Üzü güldü qaraqabaq sevginin.

***

Sevinirdi göydə sevgi tanrısı,

Hər istəyin tanrısı var, göydədir.
Dəniz hərdən pıçıltıyla deyirdi;
Hər istəyin tanrısı var, göydədir.

Göy əl tutsa, yer muraza çatacaq,
Göy istəsə yer bolluğa batacaq.
Onsuz hər şey tez solacaq, qartacaq.
Hər istəyin tanrısı var, göydədir.

Göy ilə yer iki qardaş olublar,
Ayrı düşüb sonra ayrı qalıblar,
Güclərini bir tanrıdan alıblar
Hər istəyin tanrısı var, göydədir.

***

Gözəl Manay güllənmişdi öpüşdən,
Yanağında gül açmışdı öpüşlər.
Şah öpürdü, danışırdı, gülürdü,
Yanağında gül açmışdı öpüşlər.

Gözlər iri, ağız-burun balaca,
Gül dodağın ləçəkləri allıca,
Bel yoğundur biləyindən bir azca,
Yanağında gül açmışdı öpüşlər.

Ağ göyərçin qoşa-qoşa əlləri,
Qapqaradır hörükləri, telləri,
Bal dadırdı sözlərinin dilləri,
Yanağında gül açmışdı öpüşlər.

***

-Nə olacaq, şahım, yazıq sevgimiz,
-Hər şey bitər, birçə sevgi qalandır.
-Bu Başevdən mən qorxuram yamanca,
Hər şey bitər, bircə sevgi qalanlır.

-Şahım, sevgi sevincini qanandan,
Bircə doğmaq istəyilə yanandan,
Niyə, niyə utanıram anandan,
Hər şey bitər, bircə sevgi qalandır.

Şahım, mənə bir ev tikdir qıraqda.
Qalım bir az bu sevgidən uzaqda,
Onda bizdən doğulacaq uşaq da,
Hər şey bitər, bircə sevgi qalandır.

***

-Niyə belə darıxırsan uşaqçın,
Sevgi özü bir bələksiz uşaqdır.
Uşaq deyib, gülüm, çox da sızlama,
Sevgi özü bir bələksiz uşaqdır.

Al qoynuna, sevgimizi bələklə.
Onu bəslə, onu böyüt ürəklə.
Uşaq olmaz uşaq-uşaq deməklə,
Sevgi özü bir bələksiz uşaqdır.

Ev deyirsən, tikdirərəm, qoy olsun,
Təki qorxu ürəyindən qovulsun,
Yeni Başev deyə daşı qoyulsun,
Sevgi özü bir bələksiz uşaqdır.

***

- Ah, nə yaxşı başa düşdün məni sən,
Sevgi küsər hər gün onla görüşsən.
Mən sevgimi götürürəm, qaçıram,
Sevgi küsər hər gün onla görüşsən.

Başev baxır mənə əyri, qıyqacı,
Söz acıdır, baxış acı, dil acı,
Doğmaq üçün gərək ordan mən qaçım,
Sevgi küsər, hər gün onla görüşsən.

O Başevdə mən Qaraşdan qorxuram,
Hər görəndə mən özümdən çıxıram,
O uşağa acıqantək baxıram,
Sevgi küsər hər gün onla görüşsən.

***

Kənd üstündə danışırdı Qam ata,
Üstüağla Manay durub baxırdı.
Sözlərinə qulaq asan çox idi,
Üstüağla Manay durub baxırdı.

Göy qurşağı boyasında çəliyi.
Çəkimliydi danışığı, biliyi.
Papağında qaz qanadı lələyi,
Üstüağla Manay durub baxırdı.

Gah gəzirdi, gah dururdu ortada,
Danışırdı ulu ata, anadan.
Tanrılaşan oddan, sudan, şaxtadan,
Üstüağla Manay durub baxırdı.

***

-Nə durubsan göyə, yerə baxırsan,
Göy atadır, yer anadır bizlərə.
Göy çiləyir, yer gül açıb bar verir,
Göy atadır, yer anadır bizlərə.

Ayağını yerə dirə, qolay dur,
Qaldır qoşa əllərini göyə vur,
Kim olsa da get, onlarla otur, dur.
Göy atadır, yer anadır bizlərə.

Göy, ay-günəş, yer su ilə çörəkdir,
Yerdə qalan nə vardırsa diləkdir,
İkisini ulu tutmaq gərəkdir.
Göy atadır, yer anadır bizlərə.

***

-Başlanğıçda yer büsbütün su olub.
Belə görüb söyləyiblər ulular.
Su üstünda iki qardaş qu olub
Belə görüb söyləyiblər ulular.

Biri batıb dibdən torpaq çıxarıb,
O biri də alıb səpib yuxarı.
Bu torpaqla yer yaranıb, çoxalıb.
Belə görüb söyləyiblər ulular.

Od tanrısı yerə bircə köz salıb,
Ondan bizə ocaq qalıb, od qalıb,
Suyla oddan gül, ot, ağaç ucalıb
Belə görüb söyləyiblər ulular.

***

-Sonra gəlib neçə-neçə tanrılar,
Su tanrısı, od tanrısı olublar,

Tanrısı var gözəlliyin, sevginin,
Su tanrısı, od tanrısı olublar.

Tanrısı var yazın, qışın, verimin*,
Əyriliyin düzün, ölüm-dirimin,
Tanrısı var gücün, sözün, görümün,
Su tanrısı, od tanrısı olublar.

Minellilər, tanrıları tanıyın.
Harın gəzən tanrısızı qınayın.
Özünüzü tanrılarda sınayın.
Su tanrısı, od tanrısı olublar.

Payız

***

-Bizim ulu atamızdır Ağoğlan,
Ağ uludur bizim ulu inamda.
Yaranıbdır gör-gör ağac suyundan,
Ağ uludur, bizim ulu inamda.

Ağ anadır onu doğub bəsləyən,
Doğub iki bəbəyində gözləyən,
Yeləsəndir Ağoğlanı səsləyən,
Ağ uludur, bizim ulu inamda.

Odur bizi qadalardan qurtaran,
Odur bizi qarın-qarın artıran.
Ağoğlanı gizlədibdir ağ-toran,
Ağ uludur, bizim ulu inamda.

***

-Dedilər ki, su gör-görü bürüyüb,
Sudur bütün heyliləri yaşadan.
Son ovuq da dolub dağda su ilə,
Sudur bütün heyliləri yaşadan.

O ovuğu gün qurudub arada.
Ayta ilə Ayva çıxıb oradan,
Onlardılar bizi doğub yaradan,
Sudur bütün heyliləri yaşadan.

Ayta, Ayva, baş əyirik sizlərə,
Biz çıxmışıq indi geniş düzlərə,
Siz hopdunuz bizim görən gözlərə,
Sudur bütün heyliləri* yaşadan.

***

-Bir gün dedim, Umay, niyə quş oldun,
-Quş oluram,-dedi-uzaq uçanda.
Qurtarıram çoxlarını ölümdən.
-Quş oluram,-dedi-uzaq uçanda.

Qaf dağından mən hər yeri görürəm.
Yazıqlara qızıl qanad gərirəm.
Ac qalana odumdan qan verirəm.
Quş oluram,-dedi-uzaq uçanda.

Canlıları

Öz yerimə ildə bir yol dönürəm,
Sevgilimi qucaqlayıb öpürəm,
Onda mən də adam olub dinirəm.
Quş oluram,-dedi-uzaq uçanda.

***

-Bir-birinə dal çevirib gülməyin,

Bizdə Umay, Ağoğlan, Al yaşayır,
Uca tutun istək ilə dözümü,
Bizdə Umay, Ağoğlan, Al yaşayır.

Yan keçməyin gözü qanlı olaydan.
Qırğı olun, qartal olun olayda,
Yaşamağı siz öyrənin Umaydan,
Bizdə Umay, Ağoğlan, Al yaşayır.

Əkin, biçin, burda çörək bol olsun,
Vurun keçin, dağda-daşda yol olsun.
Ağzınızda ilan deyil, dil olsun.
Bizdə Umay, Ağoğlan, Al yaşayır.

***

-Göydəngəlmə başlanğıcdır, uludur,
Söz anlayır, baxış duyur ana qurd.
Balamıza ana olub çətində,
Söz anlayır, baxış duyur ana qurd.

Deyirlər ki, hələ min-min il qabaq,
At otarıb, maral, qoyun bu qoçaq.
Uşaqlıqda qurd böyüdüb Üstüağ.
Söz anlayır, baxış duyur ana qurd.

Ulu tutun ana qurdu hər yanda,
Ucalırıq kökümüzü sayanda,
Şahımıza qurd hayandır son anda,
Söz anlayır, baxış duyur ana qurd.

***

"…Səni qızıl qan içindən tapmışam
Böyü bala, get ananı tapginən.
Üç il yer-yer gəzdirmişəm dişimda.
Böyü bala, get ananı tapginən.

Qan qurumu sallanmışdı saçından,
Aldım səni, ta düşmədin qucumdan,
Mənimkilər ölüb getdi acından,
Böyü bala, get ananı tapginən.

O döyüşlər, min-min ölü, yaralı,
Düşünəndə qanlı gözüm qaralır,
Gəzmə sən öz süd anandan aralı,
Böyü bala, get ananı tapginən".

***

Ay qurd, keçib o günlərdən min-min il,
Təmiz südün çox iyidi yaşatdı.
O Minelin damarında qaynayır,
Təmiz südün çox iyidi yaşatdı.

Səni yurda arxa bilir bu diyar,
Sənin olsun apardığın nə ki var,
Balaların ac qalanda gəl, apar.
Təmiz südün çox iyidi yaşatdı.

Baxma belə yazıq-yazıq bizlərə,
Qorxma, Qurdum, çıx yenə də düzlərə,
Saq ol, sağ ol, qurdum, sənə yüz kərə,
Təmiz südün çox iyidi yaşatdı.

***

-Qurdum, sənsiz qoy olmasın evimiz,
Sağlam olub dişin, başın, caynağın.
Çox-çox gizli görünməzi qovursan,

Sağlam olub dişin, başın, caynağın.

Güc istəyir səndən doğan, doğulan,
Səni deyir sağ olmayan, sağ olan.
Səndən qorxan dağıdarlar dağılar,
Sağlam olub dişin, başın, caynağın.

Gecələrə öyrət göyün dilini,
Ulartında var iyidlik bilimi.
Hara getsən sən unutma elini,
Sağlam olub dişin, başın, caynağın.

***

"…Gözəl Manay inanırdı Şamana.
Şaman göydə, yerdə nə var, görürdü.
Qız baxırdı Şaman kimi hər yerə
Şaman göylə, yerdə nə var görürdü.

O görurdü adamların içini,
Yaxşısını, pisdikləşən bicini,
İçindəki görünməyən biçimi,
Şaman göydə, yerdə nə var görürdü.

Göydən gələn səsi, sözü tutandı,
Səslə gedib tanrılara çatandı,
Hərdən beş gün səssiz çöldə yatandı,
Şaman göydə, yerdə nə var görürdü.

Yol yoldaşı söyləncі

Baxıb Manay çox şeyləri duyurdu.
Duyulmayan duyğuları qız duyar.
Şah çırpıntı içindəydi dünəndən,
Duyulmayan duyğuları qız duyar.

Dəniz, düzən, yol arxada qalınca,
Sanki kimsə gəlir şahın dalınca,
Manay tez-tez əl atırdı qılınca,
Duyulmayan duyğuları qız duyar.

Kimsə baxır, tez də gözdən yayınır,
Kim olsa da alacaqdır payını,
O oynayır gizdilinpaç oyunu,
Duyulmayan duyğuları qız duyar.

***

-Şahım, bizim arxamızca gələn var,
-Tanrılardır, gülüm, sənə baxırlar,
-Mən uzaqdan hənirtini duyuram,
-Tanrılardır gülüm, sənə baxırlar.

-Gəl, gizlənək, görək kimdir bu gələn,
-Açıqandır, güdür bizi, mən bilən.
Bunu duydum on gün qabaq mən hələ,
-Tanrılardır gülüm, sənə baxırlar.

-Atlı deyil, yaraqlı da deyildir,
Biz duranda o qırağa çəkildi,
Deyən bizim qorxumuzu o bildi, -

Tanrılardır gülüm, sənə baxırlar.

***

Şah duymurdu hənirtini arxada.
Var sevənin ancaq sevgi duyğusu.
Olacağı daha yaxşı görürdü,
Var sevənin ancaq sevgi duyğusu.

Qırx gün idi sevgisinə köləydi.
Başev gərək bunu öncə biləydi.
Onun şahlıq yönü-yolu beləydi,
Var sevənin ancaq sevgi duyğusu.

İndi onu axtarırlar, gəzirlər,
Qırx gün gəzib axtarmaqdan beziblər,
Yozmaçılar yalan-palan düzüblər
Var sevənin ancaq sevgi duyğusu.

***

Birdən atlar ürküb, ürküb dayandı,
At yanılmaz, o, hənirti duyandır,
İkisi də əl atdılar qılınca,
At yanılmaz, o, hənirti duyandır.

Nə arxaya, nə qabağa getdilər,
Dayandılar yerlərində bitdilər,
Sevgililər pusqu qurub güddülər
At yanılmaz, o, hənirti duyandır.

Yüz yaraqlı yol üstündə göründü,
Başçıları gəlib şaha dirəndi,
Üzü-gözü özgəliyə büründü,
At yanılmaz, o, hənirti duyandır.

***

-Ey, sən kimsən, qoşalaşıb durubsan,
Bu yerlərə quş qorxudan qonmayır.
Bu yerlərdə Mehcə, Qammad başçıdır,
Bu yerlərə quş qorxudan qonmayır.

De, nəçisən, o gözəl qız haradan,
Bizə verib bu yerləri yaradan,
Minel şahı itib gedib aradan,
Bu yerlərə quş qorxudan qonmayır.

Çox bahadır geyiminin dəyəri,
O atları geyimləri ver bəri.
Mənəm Minel, Darvidelin önəri.
Bu yerlərə quş qorxudan qonmayır.

***

Üstüağın qan sağıldı gözünə.
-Belə yerdə ancaq qılınc danışar.
O sıçradı Ötəratın belinə,
Belə yerdə ancaq qılınc danışar.

Manay ox tək qopdu sanki yerindən,
Ancaq qaldı o aralı ərindən.
Atlar ürküb kişnədilər dərindən,
Belə yerdə ancaq qılınc danışar.

Yolkəsənlər öncə qorxub çaşdılar,
Qılınc çəkib sonra coşub daşdılar,
Yara alıb at üstündən aşdılar.
Belə yerdə ancaq qılınc danışar.

***

Nərildədi şah hər qılınc vuranda,
Acıqana qorxu salar nərilti.
Hər qılıncı bir baş biçdi dibindən,
Acıqana qorxu salar nərilti.

- Ay alçaqlar, Minel şahı itməyib,
O, ölkədən uzaq yerə getməyib,
Döyüş hələ qabaqdadır bitməyib,
Acıqana qorxu salar nərilti.

Mən bu yerin bir balaca oğluyam,
Böyük Minel torpağına bağlıyam.
O Mehcədən, o Qammaddan dağlıyam.
Acıqana qorxu salar nərilti.

***

Yolkəsənlar qırıldılar, birbəbir,
Bu, Mindiyar şahı ola, olmaya.
Çox önəmdir, çox güclüdür, çox hündür,
Bu, Mindiyar şahı ola, olmaya.

Yolkəsənlər karıxdılar, bu kimdir,
Hər vurumu neçə-neçə ölumdür.
Əynindəki şahsayağı geyimdir,
Bu, Minldiyar şahı ola, olmaya.

Bir neçəsi cumub daldan dolayı,
Qılınc vurub yaraladı Manayı
Çatdı şaha qızın qorxunc harayı,
Bu, Mindiyar şahı ola, olmaya.

***

Bu an Boz Qurd dikin üstə göründü,
Ulartısı, hənirtisi qorxulu.
Yolkəsənlər onu görüb durdular
Ulartısı, hənirtisi qorxulu.

Qurddan böyük, atdan azca kiçikdi,
Qaplan kimi sıçraq, iti, yürükdü,
Qanlı gözlər acıqlıydı, sönükdü,
Ulartısı, hənirtisi qorxulu.

Yaraqlılar qaçıb düzə yayıldı,
Gözəl Manay qorxusundan bayıldı,
Boz Qurd ona hayan oldu, hay oldu,
Ulartısı, hənirtisi qorxulu.

***

Boz Qurd didib parçaladı, dağıtdı
Boz Qurd yerdə göyün tanrı səsidir.
Qan apardı çoxusunu bu düzdə
Boz Qurd yerdə göyün tanrı səsidir.

Gəlib çatdı Manayına Üstüağ,
Boz Qurd onun arxasında bir dayaq,
Görüşdülər onlar qucaqlaşaraq
Boz Qurd yerdə göyün tanrı səsidir.

Yalaşdılar, güləşdilər, doldular.
Sarmaşdılar, qarmaşdılar, qaldılar,
Bir-birindən sevinc payı aldılar,
Boz Qurd yerdə göyün tanrı səsidir.

***

Qurdun gözü soraq verdi anadan,
"-O ağlayır, "balam hanı" çağırır.
Udağıdır bala yazıq ananın,
O ağlayır, "balam hanı" çağırır.

Şeşələnib Mehcə onu qorxudur,
Qaraş üçün bunlar yeni qurğudur.
Hamı üçün şahlıq dadlı yuxudur-
O ağlayır "balam hanı" çağırır.

- Hind yerinə gedən yoldur bu yollar,
Əkbitənə burdan kəsə yol da var,
Bu yol ilə çatmağımız tez olar,
O ağlayır "balam hanı" çağırır".

***

Qırx gün oldu şahın yoxa çıxması,
Qara geydi, yas saxladı Mindiyar.
Acıqanlar şeşələnib durdular,
Qara geydi, yas saxladı Mindiyar.

Təkcə Mindon qara paltar geymədi,
Ağlamsınıb gözlərini döymədi,
Yozmaçını, yalançını saymadı
Qara geydi, yas saxladı Mindiyar.

Qırx gün Başev Üstüağsız qalınca,
Mehcə gəldi Qaraşının dalınca,
Çox işiləri öz əlinə alınca.
Qara geydi, yas saxladı Mindiyar.

***

Qırxı çıxdı, Mehcə toplum gətirdi,
- Şahlıq nəvəm Qaraşındır, söylədi,
Oğlum Qaraş öldürsə də özünü
Şahlıq nəvəm Qaraşındır, söylədi.

Bizə çatar şahlıq mənim ərimdən,
Mindon gəlib oturubdur yerimdə,
Şah dönməsə təzə ayın birindən
Şahlıq nəvəm Qaraşındır, söylədi.

Qarbaş qaldı ağzı-dili tutulu,
Mehcə gəlib ortalığa atılıb,
Göz bərəlib, qara qaşı çatılıb,
Şahlıq nəvəm Qaraşındır, söylədi.

***

Dışar ölkə elçiləri gəldilər.
"Qala bilməz başsız böyük Mindiyar"
Onlar Minel ağrısına baş əydi,
Qala bilməz başsız böyük Mindiyar.

Qammad, Mehcə yer üstündə söyüşür,
Başevdəki işçiləri dəyişir.
Mindon ilə ağızlaşır, deyişir,
Qala bilməz başsız böyük Mindiyar.

Ancaq Başev başçısını gözləyir.
Üstüağa sevgisini gizləyir.
El sussa da, Mehcəgili pisləyir,
Qala bilməz başsız böyük Mindiyar,

***

Mindon yolub yerə tökür saçını,
-Mənim balam hələ sağdır, ölməyib,
O Manayla ova çıxıb bilirəm,
Mənim balam hələ sağdır, ölməyib.

Satqın Mehcə, səni görüm öləsən,
Nəvən ölsün, bala nədir biləsən,
Gün olsun ki, qara çora gələsən,
Mənim balam hələ sağdır, ölməyib.

Bala, gəl, çıx, yurdun ağır çağıdır,
Özümüzü özümüzki dağıdır,
Doğma deyil Mehcə, ürək dağıdır,
Mənim balam hələ sağdır, ölməyib.

***

Mehcə ərə getmiş idi Qammada;
İlk ərindən ona heç nə çatmazdı.
İtirmişdi Başevdəki yerini,
İlk ərindən ona heç nə çatmazdı.

Boylu idi Mehcə təzə ərindən.
Doğaçaqdı son ayların birində,
Gərək gedib oturaydı yerində,
İlk ərindən ona heç nə çatmazdı.

Mindiyarda el doğrulu* beləydi,
Mehcə gərək bunu yaxşı biləydi,
Bir də ora getməsəydi, gələydi,
İlk ərindən ona heç nə çatmazdı.

***

Günortaydı, yazın qızmar istisi,
Qobuyerin yazı yaydan istidir.
Yazda su da, çöl də, dağ da buğlanır,
Qobuyerin yazı yaydan istidir.

Yazda nə var baş qaldırır torpaqdan
Yayda isə ot saralır saplaqdan,
Mal-qara da yazda düşür ayaqdan,
Qobuyerin yazı yaydan istidir.

Yazın sərin yaylaqları genişdir,
Yazın ağac kölkəsi var, nəmişdir,
Bir də gördün yay yaz ilə dəyişdi,
Qobuyerin yazı yaydan istidir.

****Adət***

***

Bu istidə şah dönürdü Başevə,
Sevinc ilə bir soydandır muştuluq.
Hər muştuluq qanad idi anaya,
Sevinc ilə bir soydandır muştuluq.

Yasa batan Başev sildi gözünü,
-O dəyişdi bir də yeni üzünü,
Tox tutsa da boylu Mehcə özunü,
Sevinc ilə bir soydandır muştuluq.

Qammad çəkdi toplumunu qırağa,
Yol üstündə əl atdılar yarağa,
Üstüağı qoymadılar qabağa,
Sevinc ilə bir soydandır muştuluq.

***

Mehcə dedi:-Üstüağı öldürün!
Qan üstündə üzməlidir bu şahlıq!
Alın, yaxın, kəsin gözəl Manayı,
Qan üstündə üzməlidir bu şahlıq!

Mehcə Manay, şahla Qammad üz-üzə,
Tutuşdular, yer qalmadı bir sözə,
Qılıncların səsi düşdü dağ, düzə,
Qan üstündə üzməlidir bu şahlıq.

Şahlıq bizim, Başev bizim, yer bizim,
Üstüağı kəsəcəyəm mən özüm.
Manay gəlsin qabağıma diz-dizi.
Qan üstündə üzməlidir bu şahlıq.

***

Sıçrayaraq Boz Qurd çıxdı ortaya,
Qorxdu bütün cızığından çixanlar.
Diş qıcadıb tüklərini qabartdı,
Qorxdu bütün cızığından çıxanlar.

Alıb Qammad oxu qurda tuşladı.
Çəkib, çəkib lapdan onu boşladı.
Qurd sıçradı yüyürməyə başladı,
Qorxdu bütün cızığından çıxanlar.

Dişlərini şaqqıldatdı bir kərə,
Qammad aşdı at üstündən düz yerə,
Sonra döndü çeynəm-çeynəm ətlərə,
Qorxdu bütun cizığından çıxanlar.

***

Görüb bunu gözəl Mehcə bayıldı,
Nə bir azdan, nə də sonra ayıldı,
Qorxu tonlum sırasına yayıldı,
Qorxdu bütün cızığından çıxanlar.

Yaraqlılar üz tutdular, getdilər,
Çölə, düzə səpələnib itdilər,
Tikan olub çöldə kol-kol bitdilər,
Qorxdu bütün cızığından çıxanlar.

Başev, Qarbaş, Odər tir-tir əsimdə
Mindonunsa çırmaq yeri üzündə,
Qurdla gələn şahın uca səsindən
Qorxdu bütün cızığından çıxanlar.

***

-Mən Üstüağ, Mindiyarın şahıyam,
Bir ölkədə bir şah olar, iki yox.
Bundan sonra mən də qancıllaşaram,
Bir ölkədə bir şah olar, iki yox.

Turər bizə qoyub getdi bu yurdu,
Mən də onun şah yerini qorudum,
Ölsün gərək kim ki, cayıb, qudurub
Bir ölkədə bir şah olar, iki yox.

Qaraş mənim qardaşımdır, qanla bir.

Daha onun şah olmağı çətindir.
Yığışılsın bu oyunlar, səs-səmir,.
Bir ölkədə bir şah olar, iki yox.

***

-Mindiyarın bölgəsidir Darvidel
Göz dağıdır özgəsinə bu birlik.
Əkbitənə vergi versin o gərək,
Göz dağıdır özgəsinə bu birlik.

Bu birlikdən üz döndərsə Qaraş da
Yanacaqdır içimdəki günəşdə,
Qoy bir olsun hamı, hamı hər işdə,
Göz dağıdır özgəsinə bu birlik.

Mən Üstüağ, Mindiyarın yiyəsi,
Oddan iti qılıncımın tiyəsi,
Qoy yayılsın yer üzünə var səsim,
Göz dağıdır özgəsinə bu birlik.

***

Mehcə, Qammad ölgün döndü bir daha,
Umu çəkər gözüacı ölümə.
Şah ölmağın yanğısında yandılar,
Umu çəkər gözüacı ölümə.

Darvideldən yerinc yeri alındı,
Parçalandı, neçə yerə bölündü.
Öncülləri yurddan uzaq salındı,
Umu çəkər gözüacı ölümə.

Çoxu qaçdı, getdi, Çinə, Misirə.
Uzaq yerdə döndü yetim-yesirə,
Adam belə adamlığı itirər,
Umu çəkər gözüacı ölumə.

***

Manay doğdu ilk oğlunu Başevdə.
İyid oğul el-obaya dayaqdır.
Yürüş qoydu ata onun adını,
İyid oğul el-obaya dayaqdır.

Mindon qara geyimini soyundu,
Yozmaçılar yozumlardan yayındı,
Şah Yürüşü qucaqlayıb sevindi
İyid oğul el-obaya gərəkdir.

Manay güldü, dil-dodağı bal oldu.
Çiçəkləndi, yanaqları al oldu,
Gül idisə, güldən gözəl gül oldu
İyid oğul el-obaya gərəkdir.

***

Çox umular öz içinə çəkildi.
Umu-küsü olan yerdə var olmaz.
Hər gəlişin ilk addımı gedişdir.
Umu-küsü olan yerdə var olmaz.

Yer göy ilə, qara ağla uyuşdu.
Neçə qorxu üstlərindən sovuşdu.
Neçə ürək bir-birinə qovuşdu.
Umu-küsü olan yerdə var olmaz.

Odər gəldi, Şaman gəldi, Qam ata,
Bu sevinçdən hər ataya pay çatar,
Körpə səsi dadlı sözə dad qatar,
Umu-küsü olan yerdə var olmaz.

***

Toy çalındı, ölkələri səs aldı,
Ölkələrdə ad qoymuşdur Mindiyar,
Bağış yük-yük gətirirdi elçilər.
Ölkələrdə ad qoymuşdu Mindiyar.

Toy çalındı, bütün ölkə sevindi.
Mindiyarla, Minel şahla öyündü,
Min-min ürək bir sevinclə döyündü,
Ölkələrdə ad qoymuşdu Mindiyar.

Səsi yastı, sözü dadlı deyimlər,
At ətindən bişirilmiş yeyimlər,
Sayrışırdı al, boz, göy, ağ geyimlər.
Ölkələrdə ad qoymuşdu Mindiyar.

Asurla döyüş söyləncі

Gəldi qoça başbilənlər Başevə,
El diridir, uman yeri vardırsa.
Qobu yerlə, Qobuçöllə, Qobuduz,
El diridir uman yeri vardırsa.

Aşmışdılar, çölu, düzü, yoxuşu,
Suboğazı, Yastıdağı, Göydöşu,
Gəlmişdilər çatdırsınlar bu işi,
El diridir uman yeri vardırsa.
Döyüşlərdə, vuruşlarda ad alan,
Yerinclikdə şahlar kimi var olan,
Gəlmişdilər döyüşlərdə tək qalan,
El diridir uman yeri vardırsa.

***

-Mindiyarın şahlar şahı sağ olsun,
Kəsik başam ayağının altında
Söyləyirəm gələnlərin dililə,
Kəsik başam ayağının altında.

Bir ölkədə birləşmişik hamımız,
Bir sözümüz, əkinimiz, damımız,
Bir boyada, bir axarda qanımız
Kəsik başam ayağının altında.

Sanmasınlar mən Başevdən qırağam,
Şahlar şahı Üstüağa dayağam,
Göz oxşayan Başevinə qonağam,
Kəsik başam ayağının altında.

***

Ancaq, şahım, biz çapıldıq, soyulduq,
Düz deməsəm, buyursunlar...
-Doğrudur...
-Asur şahı bizdə çöp də qoymadı,
Düz demişəm, buyursunlar...
-Doğrudur...
-Qancıl sığnaq* evimizi dağıtdı
Düz deməsəm, buyursunlar…
-Doğrudur...
Asurelə sürülübdür ilxımız,
Arpa, buğda, mərçi, hər var-yoxumuz,
Bircə Asur şahdandımı qorxumuz,

Duz deməsəm, qoy desinlər,
-Doğrudur...

***

Bu gün Başev öz içində çırpınır,
Bir ölkənin düşünəri Başevdir,
Oturublar bilicilər, varlılar
Bir ölkənin düşünəri Başevdir.

Qala

Birisinin suyu, yeri, əkini,
Saxlanç edib biri yerin təkini,
Odur qorxur, döyüşlərdən çəkinir,
Bir ölkənin düşünəri Başevdir.

Batı, Doğu yürüş çəkər ölkəyə,
Hər iki yan dönüb oğru tülküyə,
Mindiyarı salıb qorxu-ürküyə,
Bir ölkənin düşünəri Başevdir.

***

Hörməsində oturubdur Üstüağ
Bir yürüşdür sanki ağır oturuş.
Oturağın söykəncləri qızıldan,
Bir yürüşdür sanki ağır oturuş.

Ağ döşlüyü, al qızıldan başbağı*.
Sağ əlində qızıl şahlıq çomağı,
Başı üstdə ağ ipəkdən başrağı**
Bir yürüşdür sanki ağır oturuş.

Dörd bir yanda başbilənlər, təpərlər,
Sağdış, soldış, ağsaqqallar, önərlər,
Yönəmlikdə, düşüncədə dəyərlər,
Bir yürüşdür sanki ağır oturuş.

***

Sağ qanadda oturublar varlılar,
İlxı, naxır, sürü, torpaq yiyəsi,
Sol qanadda yaraqlılar, önərlər
İlxı, naxır, sürü, torpaq yiyəsi.

Sağlar üçün batı, doğu ulu yer,
Var yerinə qan-qadayla dolu yer,
Yel əsəndə gizli gəzir sulu yer,
İlxı, naxır, sürü, torpaq yiyəsi.

Sollar isə didişirlər çin üstdə,
Çinlər*** üzür al-qırmızı qan üstdə,
Çinsizdirsə burda durub yan üstdə
İlxı, naxır, sürü, torpaq yiyəsi.

---

*Taç
**Bayraq
***Paqon

***

O, çin deyir, bu var deyir Başevdə,
Çəkişənlər bərkişsələr yaxşıdır.
Biri göydən, biri yerdən desə də
Çəkişənlər bərkişsələr yaxşıdır.

Bu çəkişmə yönümləşmə günündə,
Sollar durub döyüş-vuruş yönündə,
Sağlar durub solçuların önündə
Çəkişənlər bərkişsələr yaxşıdır.

Çəkiş-bərkiş üzərində durub yer,

Yüksəlişi, ucalığı onda gör,
Çəkişənlə bərkişənə nə var ver,
Çəkişənlər bərkişsələr yaxşıdır.

***

Üstüağ da düşünurdü beləcə
Yerdən öydür düşüncənin göyləri.
Gah sol yanda, gah sağ yanda dururdu,
Yerdən öydür düşünçənin göyləri.

"-Asurlular dəmir təkər, qoşquda,
Yaraqlısı sığnaq yıxan quruda,
Soraqçısı orda, burda pusquda,
Yerdən öydür düşüncənin göyləri.

Öncə gərək qurğu, qoşqu aldıram,
Bir də birlik başrağını qaldıram,
Çox yerləri öz yerindən saldıram,
Yerdən öydür düşüncənin göyləri."

***

Sonra Xançu, Durudaşla, Qobudüz,
Bir olmaqdır üstünlüyün anası
Öncə toplum verməlidir hər yerinc
Bir olmaqdır üstünlüyün anası.

Həm də Çinlə, Darviedellə bir olmaq,
Hində gərək söz çatdırıb, söz almaq,
Bir də iki çayarası... sayılmaq,
Bir olmaqdır üstünlüyün anası.

Hamı, hamı qan ağlayır Asurdan,
Öz yerinə dönməlidir qudurğan,
Aramızda əkib tikan, baldırğan,
Bir olmaqdır üstünlüyün anası.

***

Bir Mehcədən çəkinirəm arxada,
Hər aqacı öz içindən qurd yeyər,
Mən gedərsəm, Mehcə dönüb gələcək,
Hər ağacı öz içindən qurd yeyər.

Bir iş açar o Manayın başına.
O daş atar mənim Umay quşuma,
Toplum çəkib çıxar birdən qarşıma,
Hər ağacı öz içindən qurd yeyər".

Onda gərək Mehcə ilə birləşəm,
Daha Qaraş yavaş-yavaş ərləşər,
Mən özumlə apararam Qaraşı,
Hər ağacı öz içindən qurd yeyər".

***

Söz deyirdi hər ağsaqqal, başbilən,
Söz kötürüb aparırdı Başevi.
Sallamalar, döşənəklər əsirdi,
Söz götürüb aparırdı Başevi.

Biri toplum, biri ilxı deyirdi,
Barış, döyüş, sorğu, qayğı deyirdi.
Biri yürüş, biri sayğı deyirdi,
Söz götürüb aparırdı Başevi.

Qarbaş tez-tez danışırdı döyüşdən,
Yaşı gəlib dayanmışdı yetmişdə.
O, yenə də öndə idi hər işdə,

Söz götürüb aparırdı Başevi.

***

-Mən ölkənin şahlar şahı Üstüağ,
Birin deyin, birini də eşidin,
Ağsaqqallar, başbilənlər, önərlər
Birin deyin, birini də eşidin.

Biz bir olsaq Asur şahı basarıq,
Sonevini Mindiyarda qazarıq,
Döşdaşını öz dilində yazarıq,
Birin deyin, birini də eşidin.

Ancaq onun qurğusu var, qoşqusu,
Hər bir yerdə gizli-gizli busqusu,
Bizdə isə üstün var, yer duyğusu,
Birin deyin, birini də eşidin.

***

-Mən gedirəm Asur şahın üstünə,
Hamı mənə yardım əli uzatsın.
Toplumumuz ölüm üstə yollanır,
Hamı mənə yardım əli uzatsın.

Asur şahdır Mindiyarın qancılı,
Başdan boşdur, qarnı qurdlu, sancılı,
Önümüzdə belə bir yol açılır,
Hamı mənə yardım əli uzatsın.

Mən Üstüağ - şahlar şahı söylərəm;
Mən tanrıdan güc və dözüm dilərəm,
Gərək olsa mən bu yolda ölərəm,
Hamı mənə yardım əli uzatsın.

***

-Basar şahım, nəyim varsa sənindir,
Ölkə böyük şah adıyla öyünür.
Siz olmasaz nə ölkə var, nə Başev,
Ölkə böyük şah adıyla öyünür.

Bu yürüşdə biz tutmuşuq əl-ələ,
Arxamızca yüz min-yüz min ər gələr,
Tanrım, əltut Mindiyara, Minelə,
Ölkə böyük şah adıyla öyünur.

-Mən min qızıl yolçıxdıya verirəm,
- Hamı qızıl gətiribdir, görürəm.
-Mən bu böyük bağlaşmaya girirəm,
Ölkə böyük şah adıyla öyunür.

***

Şahım, mən də bağlaşmaya gəlmişəm,
Güclü olar söykənəndə dağ dağa,
Biz də sizə söykənməyə gəlmişik.
Güclü olar söykənəndə dağ dağa.

Qalan varım bu yolundur, bax, budur,
Dönən kimi göndərərəm at, otu,
Diz çökdürək təki Asur qoturu,
Güçlü olar söykənəndə dağ dağa.

Bağlaşmanı, şahım, mən də bəyəndim,
Şah başraqdı, uman yerdi, önəm yer,
Ürəyimiz çoxdan göynəm-göynəmdi.

Güclü olar söykənəndə dağ dağa.

***

-Biz də!..-Biz də..
-Yaxşı, bildim, oturun!
Bir yumruqda beş barmaq var, sıxılı.
Çətin işdə inanıram mən sizə,
Bir yumruqda beş barmaq var, sıxılı.

Başda yemdir, atdır, yemək, yaraqlı,
Atlı, atsız, hamı iti ayaqlı,
Kim vardırsa Minelliyə maraqlı,
Bir yumruqda beş barmaq var, sıxılı.

Çəkin çölə yer altından atımı,
Qoy bərk olsun yəhərinin yatımı.
Əsirgəmə, tanrı, bizdən yardımı,
Bir yumruqda beş barmaq var, sıxılı.

***

Elçi getdi Çinə, Hində, Balasqa*.
Üstünlükdür, arxayınlıq arxadan.
Ya o yanlıq, ya bu yanlıq, bilinsin,
Üstünlükdür, arxayınlıq arxadan.

Döyüşçüyə arxa gərək dağ olsun,
Soraq, inam, doğru, yalan çağ olsun,
Çətin gündə yönlü yalan** sağ olsun,
Üstünlükdür arxayınlıq arxadan.

_____
Yunan
****Şayiə***

Doğru hayçı yalançıdır arxada,
Qara soraq gələr qara qarğadan,
Ayrı qoyma yaraqlını qorğadan
Üstünlükdür arxayınlıq arxadan.

***

Ön sırada xısın-xısın busqular,
Öndə nə var... göz-qulaqdır, busqudur.
Çaydan, göldən, danışıqdan, gedişdən,
Öndə nə var... göz-qulaqdır, busqudur.

Danışıqlar, olacaqlar, olmuşlar,
Sığnaqlarda yuvarlanıb qalmışlar,
Siçan kimi kənd evinə dolmuşlar,
Öndə nə var... göz-qulaqdır, busqudur.

Burda neçə, orda neçə atlı var,
Hara gedir, nə istəklə bu çapar,
Nədən belə burulubdur bu yollar,
Öndə nə var... göz-qulaqdır, busqudur.

***

Suboğazda üç yüz gəmi yürüşdə,
Həm kəsədir, həm qorxusuz su yolu,
Yaraqlılar gəmilərdə otuz min,
Həm kəsədir, həm qorxusuz su yolu.

Ox atanlar quşu vurur gözündən,
Min-min qayıq durur suyun üzündə,
Avarçılar on-on yedək dözümdə,
Həm kəsədir, həm qorxusuz su yolu.

Mindiyarın gəmiləri ötəkdir,
Arxadan da onu qovan küləkdir,
Oxçulara balıq burda çörəkdir,

Həm kəsədir, həm qorxusuz su yolu.

***

Qarbaş, Qaraş lap qabaqda, at üstdə,
Çəkil, qancıl, öz yerini bilginən,
İki yüz min toplum gəlir vuruşa,
Çəkil, qancıl, öz yerini bilginən.

Mindiyarın hər ərəni dipdiri,
Ölür, ancaq çəkilməyir, o, geri,
-Göydə qılınc oynat, ərən, dur bəri,
Çəkil, qancıl, öz yerini bilginən.

Əkincilər biçinçilər, otarlar*
Bu yürüşlə dinc günlərə çatarlar,
Sağdan, soldan yaylım gəlir çaparlar,
Çəkil, qancıl, öz yerini, bilginən.

***

Asur şahın başı kefdən key idi,
Arxayınlıq başçı üçün ölümdür.
Bu yürüşü ona lapdan dedilər.
Arxayınlıq başçı üçün ölümdür.

O gülsə də tel-tel içi dartılır,
Sudan yürüş, qorxusunu artırır,
Açıqlanır, açığını yatırır,
Arxayınlıq başçı üçün ölümdür.

Öncə durub dəli kimi bağırdı,
Sonra Huru, Harı önə çağırdı,
Gözlərindən ildırımlar yağırdı,
Arxayınlıq başçı üçün ölümdür.

***

Hardasınız, Hur, Har, bu nə yürüşdür,
Çox yatmağın çoxlu qara günü var.
Üstümüzə Minel gəlir uç yandan,
Çox yatmağın çoxlu qara günü var.

Qara olsun görüm o ağ üzünüz,
Qoy kor olsun adamyeyən gözünuz,
Üstüağa qarşı nədir sözünüz,
Çox yatmağın çox-çox qara günü var.

Çıxsam heç kəs ala bilməz qarşımı,
Mən qoymaram daş üstündə daşını,
Gözləyirəm Üstüağın başını,
Çox yatmağın çox-çox qara günü var.

*Çoban

***

Mən Asur şah Maş-maş oğlu Şaddayam,
Qılınc çəksəm, Minel batar, qan ağlar.
Mindiyarı dağıdaram üç günə,
Qılınc çəksəm Minel batar, qan ağlar.

Üstüağın ağ başrağı ağarır,
Qabağına yüz min atlı çıxarın,
Qovun onu, dağlar boyu yuxarı,
Qılınc çəksəm, Minel batar, qan ağlar.

Gedin, çatın Əkbitənə od vurun,

Arvadını, uşağını tam qırın,
Orda mənə al qızıldan ev qurun,
Qılınc çəksəm, Minel batar, qan ağlar.

***

Hur bu yönə, Har o yönə tələsdi,
Bu bəllidir, tələsəcək gecikən.
Yer titrədi ayaqları altında,
Bu bəllidir, tələsəcək gecikən.

Suboğaza, Yastıdağa, körfəzə,
Yayıldılar dağa, çaya, dənizə,
Neçə yandan dayandılar üz-üzə,
Bu bəllidir, tələsəcək gecikən.

Vuruşlarda qoçlar gəldi döş-döşə,
Qarbaş, Qaraş, Hur, Har gəldi baş-başa,
Atlı atsız, çoxlu oxsuz çarpışar.
Bu bəllidir, tələsəcək gecikən.

***

Asurlular minellilər tutaşdı,
Tutaşarlar güclülərlə cılızlar,
Qılınc, topbuz, tutaq attək kişnəyir,
Tutaşarlar güclülərlə cılızlar.

Ağ geyimli, göy geyimli qarışır,
Yaraqsızlar qurşaq tutub çarpışır,
Görünməyir bu döyüşün barışı,
Tutaşarlar güclülərlə cılızlar.

Mindiyarın atlıları qırğıdır,
Qızan gözlər qızıl oddur, yanğıdır,
Qan şırımı əldə, üzdə sarğıdır,
Tutaşsarla güclülərlə cılızlar.

***

Hur Qarbaşla, Har Qaraşla üzləşir,
Bu döyüşdə dörd əl, dörd göz gərəkdir.
Qarbaş hələ Qaraşı da qoruyur,
Bu döyüşdə dörd əl, dörd göz gərəkdir.

İldırımdır qılıncların kəsəri,
Ortadadır topbuzlular çəpəri,
Biri sısqa, biri güclü, ötəri,
Bu döyüşdə dörd əl, dörd göz gərəkdir.

Yara alıb Hur, yıxılıb ağnayır,
Har vurduğu qılıncları sanayır,
Qaraşın da vuran qolu qanayır
Bu döyüşdə dörd əl, dörd göz gərəkdir.

***

Hər topbuzu endirəndə Qaraşa,
Şimşək kimi şaxır səsi qılıncın.
Düşür yerə qolqarışıq topbuzu,
Şimşək kimi şaxır səsi qılıncın.

Üstüağdır, tez özünü yetirir,
Bir durumda Harı yer-yer itirir,
O, Qaraşı öz tərkinə götürür,
Şimşək kimi şaxır səsi qılıncın.

Şadda çıxır qabağına bu yerdə,
Ərənləri, o nərləri bəyirdən,

Qılınc vurur Üstüağa böyürdən,
Şimşək kimi çaxır səsi qılıncın.
***
Qan boyayır Üstüağın üstünü,
Gücə qarşı biclik hərdən yaxşıdır.
Qaçır sanki o, Şaddanın önündən,
Gücə qarşı biclik hərdən yaxşıdır.

Çapır, çapır atlılarla yanaşı,
Qoyur yerə yaralanmış Qaraşı,
Dönüb birdən o başlayır savaşı,
Gücə qarşı biclik hərdən yaxşıdır.

Bizuc keçir boğazına Şaddanın,
Asur şahın beli iki qatdanır,
Durub birdən ortalığa atdanır,
Gücə qarşı biclik hərdən yaxşıdır.
***
İkisi də qurşaq tutur ölümlə,
Dirrik, ölüm iki yoldur yanaşı.
Biri-qandır, biri buzdur-qatışıq
Dirrik, ölüm iki yoldur yanaşı.

Üstüağın pal-paltarı dağılır,
Şadda tez-tez xırıldayıb boğulur,
Biri qalxır, o birisi yıxılır,
Dirrik, ölüm iki yoldur yanaşı.

Dözmür Qaraş bu təkbətək savaşa,
O, Şaddanı alıb çırpır sal daşa,
O son qoyur bu yarıcan duruşa,
Dirrik, ölüm iki yoldur yanaşı.
***
Mindiyarın toplumları vuruşqan,
Yönü öndər, gücü toplum göstərər.
Yastıdağla, Suboqazda alınır,
Yönü öndər, gücü toplum göstərər

Yaxşı gəlir dənizdən də ilk soraq,
Qılınc vurub gedir Qarbaş, Üstüağ,
Keçidləri, boğazları açaraq,
Yönü öndər, gücü toplum göstərər.

Tikmələrdən çıxıb qaçır asurlar,
Leş daşıyır qoşqu atlar, qatırlar,
Dağlıqlarda yol itirib azırlar,
Yönü öndər, gücü toplum göstərir.

***
Bağlaşanlar yerə, göyə sığışmır,
Öcün bu yan-o yan, iki başı var.
Qonşular ta bir-birilə boğuşmur,
Öcün o yan-bu yan, iki başı var.

Mindiyara Şadda vergi göndərir,
Nə aparıb, çapıb, geri göndərir.
Kölə qardaş, kölə bacı, dön geri,
Öcün o yan-bu yan, iki başı var.

Şadda düşüb yumaqlandı, çöp oldu,

Yer altında saxlancları tapıldı,
Nə var idi, vardan, yoxdan çapıldı.
Öcün o yan-bu yan, iki başı var.

***

Balasq, Misir qorxdu belə yürüşdən,
Sevinc, qorxu bacı-qardaş doğulub.
Bu yürüşdən sevindilər, qorxdular,
Seninc, qorxu bacı-qardaş doğulub.

Mindiyarın var gücünü gördülər,
Üstüağla bağlaşmaya girdilər.
Vergi, qızıl, gümüş, girov verdilər
Sevinc, qorxu bacı-qardaş doğulub.

Üç ay çəkdi bu üçyanlı yürüşlər,
Çox iyidə sonev oldu döyuşlər,
Öz yerinə qaytarıldı çox işlər,
Sevinc, qorxu bacı-qardaş doğulub.

Öc söyləncі

Boş bilərək Mehcə bir gün Başevi
Düşüncəsi yumaqlandı, qarışdı.
Eşidincə Qaraş gedib savaşa,
Düşüncəsi yumaqlandı, qarışdı.

"Aparıblar Qaraşımı ölümə,
Gör, nə gəlir düşüncəmə, dilimə.
Gedim mən də yürüklənim gəlinə.
Düşüncəsi, yumaqlandı, qarışdı.

Mən özümu Əkbitənə yetirrəm,
Manayını oğurlayıb gətirrəm,
Yürüşünü itim-itim itirrəm,
Düşüncəsi yumaqlandı, qarışdı".

***

"Oğlum öldü, indi nəvəm gedəcək,
Mən bu işdən baş çıxara bilmirəm.
On yaşında uşaq hara, çöl hara,
Mən bu işdən baş çıxara bilmirəm.

Söyləsənəm böyük tanrım-taparım,
Nə yerdədir görən körpə çaparım?
Nə düşünüb şah Qaraşı aparıb,
Mən bu işdən baş çıxara bilmirəm.

Yürüşünü oğurlaram, qoy ölsün,
Yaraları suluq-suluq soyulsun,
Yuruş mənim, Qaraş onun qoy olsun,
Mən bu işdən baş çıxara bilmirəm".

***

Mehcə gəldi Əkbitənə üç günə,
Acıq, sevgi boğuşurdu üzündə,
O, Başevin qapısından girərkən
Acıq, sevgi boğuşurdu üzündə.

Manay onu qucaqladı, sevindi,
Belə gündə gəlişini bəyəndi,

Ancaq Mehcə nə danışdı, nə dindi,
Acıq, sevgi boğuşurdu üzündə.

Manay baxdı ona, işi anladı,
Getdi dalda öz-özünü danladı,
Qaçıb doğma Yuruşunu yanladı.
Acıq, sevgi boğuşurdu üzündə.

***

"-Yanılmışam-deyə Manay düşündü
Bir boşqab var bu boşqabın altında.
Deyən gəlib yürüşümü qaçırsın,
Bir boşqab var bu boşqabın altında".

Hələ qorxdu, çəkindi də o hərdən,
"Körpəsinə qada qatar o birdən".
Uzaq tutdu balasını bu yerdən,
Bir boşqab var bu boşqabın altında.

İki ana, iki uşaq, iki şah,
Anaların könlünə bax, ay Allah.
Şah olmağın nə dəyəri bu yolla?
Bir boşqab var bu boşqabın altında.

***

Mən gəlmişəm, görüm Qaraş hardadır?
Kal səs sözdən daha aydın, səslənir.
Niyə onu şah döyüşə aparıb.
Kal səs sözdən daha aydın səslənir.

Haçanacan Başev məndən qorxacaq,
Mənə soyuq gözlərilə baxacaq,
Haçanacan bunlar məni yaxacaq,
Kal səs sözdən daha aydın səslənir.

Başev mənim şah yerimi bilmədi,
İşdayaqdan sonra bir yol gülmədim,
Öz ərimlə niyə birgə ölmədim.
Kal səs sözdən daha aydın səslənir.

***

-Anam, bacım, səni burdan qovan yox,
Kim oturub harda, o yer onundur.
Şahlığı da özün atıb gedibsən,
Kim oturub harda, o yer onundur.

Bir ölkəni bir acığa atıbsan,
Öz-özünü Darvidelə qatıbsan,
Say, gör, hələ necə qana batıbsan,
Kim oturub harda, o yer onundur.

Mənimlə yox, sən Mindonla get, danış,
Üstüağın işlərinə az qarış,
Gəlibsənsə Başevinlə sən barış,
Kim oturub harda, o yer onundur.

***

-Mən də elə barışığa gəlmişəm,
Çətin barış hər bir şeydən bahadır
Bax, gül suyu gətirmişəm mən sənə,
Çətin barış hər bir şeydən bahadır.

Manay aldı gül suyunu iylədi,
Bir andaca "aman, öldüm" söylədi.

Gül suyundan ilan ödü elədi,
Çətin barış hər bir şeydən bahadır.

Gələn gəldi, gördü Manay bayılıb,
Qan calanıb, hər bir yana yayılıb,
Bir kəsik baş qucağına qoyulub
Çətin barış hər bir şeydən bahadır.

***

Üç gün keçdi, ayılmadı Manay da,
İlan ödü olur hərdən gül suyu.
Bayqın qaldı yerindəcə gənc ana.
İlan ödü olur hərdən gül suyu.

Üstüağa söylədilər bu işi,
Mehcə gəlub Manay ilə görüşüb,
Sonra tutub o doğrayıb Yürüşü,
İlan ödü olur hərdən gül suyu.

Şimşək düşdü sanki qızıl qanına,
Qılıncını silib qoydu qınına
İki qolu birdən düşdü yanına,
İlan ödü olur hərdən gül suyu.

***

Əkbitənə at səyirtdi Üstüağ,
Tələsəndə yoxuşlanar, enişlər.
Ötəratın köpükləndi ağ döşü,
Tələsəndə yoxuşlanar enişlər.

-Ötəratım, çap yalını yel elə,
Çayı, gölü dırnağınla lil elə,
Bu döşləri hamar-hamar çöl elə,
Tələsəndə yoxuşlanar enişlər.

Ötəratım, çap keç isti İlamı,
Gedim görüm son yataqda balamı,
Yəhərləyim doğrulara yalanı,
Tələsəndə yoxuşlanar enişlər.

***

Uçub gedən bir ox idi Ötərat,
Yol ködələr dönüb dala baxmasan.
Yol ip idi gəvələdi ipləri.
Yol ködələr dönüb geri baxmasan.

Qaraş onun arxasınca çapırdı
At qurd olub sağ, solunu qapırdı,
Dırnağından sanki şimşək qopurdu
Yol gödələr dönüb geri baxmasan.

Utanırdı nənəsinin işindən.
Bir qara daş sallanmışdı döşündən,
İp yolları çeynəyirdi dişində
Yol gödələr dönüb geri baxmasan.

***

Nənəsini danlayırdı, söyürdü,
"Elə iş tut yaxınların öyünsün
Niyə kəsib doğramısan körpəni,
Elə iş tut yaxınların öyünsün".

Mənə görə deyən belə iş tutub,
Əski qana yenidən bir qan qatıb,
Mehcə məni, olacağı unudub,
Elə iş tut yaxınların öyünsün.

Bağışlamaz bizi daha Əkbitən,
Daha acıq, küsü, yozma qan yetər,
Bellənməyən yerdə tikan, kol bitər
Elə iş tut yaxınların öyünsün.

***

Ötəratın ağzı, döşü köpüklü,
Yaxına gəl doğma-doğma uzaqlar,
Düyünlənib Üstüağın qaşları
Yaxına gəl doğma-doğma uzaqlar.

Qaraş yeyib öz içini qurtarıb,
Gedib uşaq ürəyinin tutarı,
Görən nədir bundan sonra taparı,
Yaxına gəl doğma-doğma uzaqlar.

"Necə baxım Üstüağın gözünə,
Necə çıxım mən Başevin üzünə
Yaxşı olar çapıb gedim düzünə,
Yaxına gəl doğma-doğma uzaqlar".

***

Qaraş gəlib çıxdı evə beş aya,
Çətinlikdə hər ay bir il uzanır.
Durğun, əzgin, sallaq, arıq, utancaq,
Çətinlikdə hər ay bir il uzanır.

Mehcə onu tanımadı görəndə,
Anasının qapısından girəndə,
Hələ az-çox tanışlıq da verəndə
Çətinlikdə hər ay bir il uzanır.

Başev on il ona beşik olmuşdu,
Könül, istək, sevinc orda qalmışdı,
Yatımını o Başevə salmışdı,
Çətinlikdə hər ay bir il uzanır.

***

-Mən gəlmişəm üzülüşüm sizinlə,
Bu ölkədə qanı qanla yumurlar.
Məni öcə döndərməyin bir daha,
Bu ölkədə qanı qanla yumurlar.

Niyə bir də şah olmağa uydunuz,
Niyə məni pis çıxara qoydunuz
Nə qan-qada, nə ölümdən doydunuz,
Bu ölkədə qanı qanla yumurlar.

Atam, anam gəldi, getdi boş yerə
O qırğınlar olsun bir də baş verə
Ayrı-ayrı adamlarıq biz hərə,
Bu ölkədə qanı qanla yumurlar.

***

-Mənciyəz Qammadam, böyük atanam,
Düz sözü atadan, anadan eşit,
Çox da özgələri səni əzdirir,
Düz sözü atadan, anadan eşit.

Adam var, dil tökər, oxşar boyunu,
Qarşında oynayar "ayı oyunu",
Açmaz yolundakı bircə düyünü,
Düz sözü atadan, anadan eşit.

Şahlığı biz ələ keçirməliyik,
Başevi bu elə köçürməliyik,
Yenidən cığ vurub cücərməliyik,
Düz sözü atadan, anadan eşit.

***

-Mənciyəz Mehcəyəm, böyük ananam,
İncədən incədir ana duyumu,
Şah səni böyüdüb yox edə bilər,
İncədən inçədir ana duyumu.

Sən şahsan, Üstüağ sənin önərin,
Səndə var İşdayaq gücü, təpəri,
Onlardan yüksəkdir sənin dəyərin.
İncədən incədir ana duyumu.

Yürüşü doğradım, sən şah olasan,
Atanın yerini ondan alasan,
Bu ölkə qaldıqca sən də qalasan,
İncədən incədir ana duyumu.

***

-Mən Qaraşam, istəmirəm şah olum,
Önərlik şahlıqdan daha yaxşıdır.
Bu böyük ölkəni saxlamaq çətin,
Önərlik şahlıqdan daha yaxşıdır.

Mənə önər adı verib Üstüağ,
Mən ona dayağam, o mənə dayaq,
Altımda at oynar, əlimdə yaraq,
Önərlik şahlıqdan daha yaxşıdır.

O məni oğlundan artıq dindirib.
Hər yerə Qarbaşla məni göndərib,
O məni az qala şaha döndərib
Önərlik şahlıqdan daha yaxşıdır.

***

-Dedin, bu ölkəni saxlamaq çətin,
Parçala ölkəni, sən də bir şah ol,
Mindiyar çox böyük bir ölkə olub
Parçala ölkəni, sən də bir şah ol.

Darvidel bir ayrı şahlığa varsın,
Gündoğan üstündə bir ölkə qursun.
O da yaraqlansın, Mineli qırsın.
Parçala ölkəni, sən də bir şah ol.

Mən sənə bu işdə əltut* olaram
İstəsən yanında gəlləm, qalaram,
Orda çaxnaşmaya yuva salaram.
Parçala ölkəni, sən də bir şah ol.

***

-Üstüağa dönük çıxa bilmərəm.
Atam, ev yıxmaqdır eldə dönüklük.
Ana torpağımdır mənim Mindiyar,
Atam, ev yıxmaqdır eldə dönüklük.

Üstüaq güclüdür, həm də durudur,
Bizlikdə, sizlikdə mənə sarıdır,
Üç yol o ölümdən məni qoruyub,
Atam, ev yıxmaqdır eldə dönüklük.

Girmək istəmirəm mən bu oyuna,

Dönüklük etmərəm bir gün də ona.
Dönüklük etməyin Minel oğluna
Atam, ev yıxmaqdır eldə dönüklük.

**Kömək*

***

-Özünə qayıtmaq dönüklük deyil,
Hər şey öz yerinə qoyulmalıdır.
İşdayaqdan sonra şahlıq sənindir,
Hər şey öz yerinə qoyulmalıdır.

-Onda ölməlisən sən bəri başdan,
Uşaq öldürmüsən xırdaca yaşda,
Götür, sən özünü öldür yavaşca,
Hər şey öz yerinə qoyulmalıdır.

-Alçaq, öz nənənə deyirsən bunu,
Gedib öldürərəm qancıl Mindonu,
Qara yerə soxum sənin boyunu,
Hər şey öz yerinə qoyulmalıdır.

***

Qaraş qılınc çəkdi onun üstünə,
Bişməmiş adamlar belə tez qızar.
Durub Qammad girdi qıvraq araya,
Bişməmiş adamlar belə tez qızar.

- Atan da bu sayaq dəlisov idi.
Bilimcil deyildi, o teztov idi,
Bir əsim yel idi, quru hoy idi
Bişməmiş adamlar belə tez qızar.

Çıx get, öz şahının yanında dayan,
Onlardır bizləri bu günə qoyan,
Buyuruq qanan it, yiyəsiz qaban,
Bişməmiş adamlar belə tez qızar.

***

-Çəkil, qoy öldürüm bu yekəbaşı.
Yekəlik törədən yekəbaşlardır.
İndi hansı üzlə dönüm Başevə,
Yekəlik törədən yekəbaşlardır.

-Yerdə qalmayacaq Yürüşün qanı,
Yürüştək sevimli bir uşaq hanı,
Bu qandan-qadadan daha usanın.
Yekəlik törədən yekəbaşlardır.

Düz yolda deyilsiz, gəbərin, ölün,
Üstüağ şahların şahıdır, bilin,
Başevə yalvarış ünüylə gəlin,
Yekəlik törədən yekəbaşlardır.

***

Qaraş çıxıb getdi, ər-arvad qaldı,
Soyuq ayrılığın üzü qışadır,
-Nə edək, nə sayaq yol tapaq şaha,
Soyuq ayrılığın üzü qışadır.

Gəl, gedək Başevdə işləyək birgə,
Hardan çılızlaşır, görək, bu ölkə,
Ordan Üstüağı çəkərik bərkə,
Soyuq ayrılığın üzü qışadır.

-Mən gedən deyiləm, Qammad, ölsəm də,
Şahlığı mənimlə yarı bölsən də,
Şah olub dalımca bura gəlsən də,
Soyuq ayrılığın üzü qışadır.

***

Üçü də bilmirdi Yürüş ölməyib,
Alına yazılan alın yoludur.
Qanına bulaşan başqa uşaqdır,
Alına yazılan alın yoludur.

Üstüağ biləndə sevindi ançaq,
Nə olsun, ölmüşdü başqa bir uşaq.
Niyə qancıl olub Mehcə bu sayaq.
Alına yazılan alın yoludur.

Bəs Qaraş hardadır, niyə yox olub.
Hara gedib çıxıb, haradır yolu,
Belə işdən deyən Qaraş da dolub
Alına yazılan alın yoludur.

Buynuz şah söyləncі

Başevə dönmədi Qaraş neçə ay,
Doğmalar uzaqkən sevimli olur.
Şah göstəriş verdi Qaraş tapılsın.
Doğmalar uzaqkən sevimli olur.

Qarbaş yola düşdü, getdi Minelə,
Qammad da qayıtdı düz Darvidelə.
Mindon Misirelə, Mehcə Hindelə,
Doğmalar uzaqkən sevimli olur.

Üstüağ Batıya üz tutdu getdi,
Dağları, çayları o ötdü getdi,
Çox-çox yerlərə də toplum yeritdi,
Doğmalar uzaqkən sevimli olur.

***

Çatdı uca-uca dağlar qoynuna,
Dağların görkəmi, yolu qorxulu,
Orda hamı, hamı buynuzlulardı,
Dağların görkəmi, yolu qorxulu,

Çıxdı qabağına bir neçə oğlan,
Hərdən qan damırdı buynuzlarından,
Bir əli qılınclı, bir əli qalxan,
Dağların görkəmi, yolu qorxulu.

Dedilər, bu yollar yaman ağırdır,
Ormanlı yalları çığır-çığırdır,
Hər daşı, qayası qızıl dəmirdir
Dağların görkəmi, yolu qorxulu.

***

Buynuzlu ilan var qabaq dağlarda,
Yaxın dura bilməz ora bir adam,
Sorub dağı, daşı, adamı udur
Yaxın dura bilməz ora bir adam.

Qaraş bu dağların olub tutuğu*
Dəmirlə sarılıb əli, ayağı.
Onu görür ancaq bulud yumağa.
Yaxın dura bilməz ora bir adam.

Şahımız gözəllər qoruğundadır,
Başevi qayalar yarığındadır
Dirriyi qar-qışın soyuğundadır,

Yaxın dura bilməz ora bir adam.

Əsir

***

Üstüağ toplumu çəkdi qırağa,
Təkbətək vuruşda toplum nə gərək.
O getdi buynuzlu ilana doğru,
Təkbətək vuruşda toplum nə gərək.

Burdan keçə bilməz atlar, adamlar,
Orda, burda nə yol, nə də cığır var,
Hər yerdən qoruqdur bu gizli diyar
Təkbətək vuruşda toplum nə gərək.

Bir özü, bir də ki yorulmaz atı,
Bir də ağır günün Boz Qurd əltutu,
Bu uca dağların dumanı qatı,
Təkbətək vuruşda toplum nə gərək.

***

Qorxub diskindilər Boz Qurd, Ötərat,
Yuvadan çıxanda buynuzlu ilan,
Qaşqabaq tökmüşdü sallaq qayalar,
Yuvadan çıxanda buynuzlu ilan.

Başı balacaydı, qarnı tuluqdu,
Qanadı ətdəndi, tükü yoluqdu,
Alov püskürməkdən ağzı yanıqdı,
Yuvadan çıxanda buynuzlu ilan.

Daşları, kolları sorub udurdu,
Sonra da qaytarıb çölə atırdı,
Hərdən dəvə kimi çapıb yorturdu,
Yuvadan çıxanda buynuzlu ilan.

***

Atının belindən düşdü Üstüağ,
Tutub qılıncının ikibaşını,
Yeridi buynuzlu ilana doğru.
Tutub qılıncının iki başından.

Şah daş-kol qarışıq yıxıldı, qalxdı,
İlan püskürərək çölləri yaxdı,
O alov püskürdü, bu şimşək çaxdı,
Tutub qılıncının iki başından.

Bölür iki yerə qılınc ilanı,
Dağ-daş bir selləmə qana boyanır,
Şahın üstü-başı alovda yanır.
Tutub qılıncının iki başını.

***

Üstüağ sonradan gəlir özünə,
Qasırğaya düşüb çıxanlar kimi.
Durub öz-özünü yenidən tapır,
Qasırğaya düşüb çıxanlar kimi.

Boz Qurdla, Ötərat gözdən itmişdi,
Başları üstündən yellər ötmüşdü,
Ürkü-qorxu artıq keçib getmişdi,
Qasırğaya düşüb çıxanlar kimi.

Şahı gəzirdilər sel-qan içində,
Yanıb külə dönmüş orman içində,

İtib yatmışdılar duman içində,
Qasırğaya düşüb çıxanlar kimi.
***
Şah ölən ilanın yuvasındaydı
İlanlar yatırlar saxlanc üstündə.
Burda qızıl, gümüş, durudaş, göydaş,
İlanlar yatırlar saxlanc üstündə.

Bunlar Turər şahın itən saxlancı,
Çapıb gətirmişdi bu yerə qancıl,
Bunlardır Mineli soyan yabançı,
İlanlar yatırlar saxlanc üstündə.

Burda Mindiyarın qızıl toplaqı*,
Turərin yox olmuş qızıl qolbağı,
Qızağın alnından açılan sarğı.
İlanlar yatırlar saxlanç üstündə.
***
Qaraşı tapmağa gələn Üstüağ,
Uludur hər işdə başlıca istək.
Boz Qurdu saxlanca güdükçü qoydu,
Uludur hər işdə başlıca istək.

**Xəzinə*

Çıxdı buynuzlular şahın yoluna,
Bir ox gəlib dəydi şahın qoluna.
Baş qoydu atının boyun yalına
Uludur hər işdə başlıca istək.

Vuruşdu, çöl döndü qanlı dənizə,
Qan axdı, qan çıxdı topuqdan dizə,
Şah son buynuzluyla durdu üz-üzə
Uludur hər işdə başlıca istək.
***
O da yaralıydı, deyən çiynindən,
Bir söz dolaşırdı ançaq beynində,
Pal-paltar çıxmışdı onun əynindən,
Uludur hər işdə başlıca istək.

-Səni öldürmərəm, ancaq de, görüm,
Hardadır qardaşım Qaraşın yeri.
Söylə o ölüdür, yoxsa ki, diri,
Uludur hər işdə başlıca istək.

Özümlə aparram səni Minelə
Söylə, Qaraş harda, gərək mən biləm,
Çox qalıb, az qalıb o yerə hələ
Uludur hər işdə başlıca istək.
***
-Adım Asurandır mənim,-o dedi
Qolunda bir tanrı gücü var sənin.
Keçilməz yerləri sən keçəcəksən,
Qolunda bir tanrı gucü var sənin.

Qarşına təkbuynuz bir kəl çıxacaq,
Ağacı, qayanı vurub yıxacaq,
Qılıncın itidir, onu yaxacaq,
Qolunda bir tanrı gücü var sənin.

Adam yeyən quşlar çalacaq bizi,
Onlardan qorxuram doğrusu, düzü,
Quşları sən vura bilərsən özün,

Qolunda bir tanrı gücü var sənin.

***

-Mənə bu yolları göstər, əltut ol,
Yoldaş yaxşı olsa yol yarı olar,
Gedim qardaşımı axtarım, tapım,
Yoldaş yaxşı olsa yol yarı olar.

Mən ağır yollara bunca dəzərəm,
Kəllərin başını dibdən üzərəm.
Qaraşı tapınça el-el gəzərəm,
Yoldaş yaxşı olsa yol yarı olar.

Yolçu yolda gərək, haydı, Asuran,
Qaranlıq düşəçək dağa bir azdan.
Qabağa düş görüm buynuzlu oğlan,
Yoldaş yaxşı olsa yol yarı olar.

***

Cığırlar burulub dırmaşdı dağa,
Öncə yoldaş ara, sonra yola çıx.
Yolbilən söylədi Üstüağ şaha,
Öncə yoldaş ara, sonra yola çıx.

Qılınc qayaları dindirmə axşam.
Qarşıda nə kəl var, nə də ki, adam,
Nə ola bu yerdə bir azca yataq,
Öncə yoldaş ara, sonra yola çıx.

Dörd yan uca dağlar, durub yan-yana,
Göydə nə ay vardır, nə ulduz yanar,
"Ah, necə yorğunam, bir az dayanaq",
Öncə yoldaş ara, sonra yola çıx.

***

Üstüağ inandı yol yoldaşına,
Sənə nə eləsə tay-tuş eləyər.
Dedi, sən ayıq ol, mən bir az yatım,
Sənə nə eləsə tay-tuş eləyər.

Daşa söykənərək yatdı Üstüağ
Yolbilən fınxırdı, yatmadı ancaq.
Asuran güdürdü, əlində yaraq.
Sənə nə eləsə tay-tuş eləyər.

Şahın qapanınca göz qapaqları,
Şəkləndi qancılın cüt qulaqları,
Yavaşca tərpəndi at dodaqları
Sənə nə eləsə tay-tuş eləyər.

***

Gözlədi, düşündü, şahı öldürsün,
Qapar yiyəsini it quduranda,
Dağdakı saxlanca yiyiləsin o,
Qapar yiyəsini it quduranda.

Durdu, gecə yarı gəldi Asuran,
Yatıb böyürü ustə yorğun yolyoran,
Yapışdı o qancıl iti qılıncdan,
Qapar yiyəsini it quduranda.

Şaha endirərkən qılıncı birdən,
Boz Qurdun səsilə durdu yerində,
Bağrı parçalandı qurdun səsindən

Qapar yiyəsini it quduranda.

***

Bir anda didilib dağıldı qancıl,
Qanlını qan tutar, qana boyanar.
Üstüağ diskinib Boz Qurdu gördü,
Qanlını qan tutar, qana boyanar.

Dan yeri söküldü, işıqlıq oldu,
Qancılın ölüsü qan içrə qaldı,
Dağları, çölləri qorxunc səs aldı,
Qanlını qan tutar, qana boyanar.

Ölmüş Asuranin kəhəri ürkdü,
Kəl vurub o atın qarnını sökdü,
Daşı, qayaları üst-üstə tökdü,
Qanlını qan tutar, qana boyanar.

***

Üstüağ atını qovdu çaparaq,
İyid səsə doğru gedər, yayınmaz.
Təkbuynuz iri kəl bir də bağırdı,
İyid səsə doğru gedər, yayınmaz.

Dağa kələzdəndi, daşı vurdu o,
Şahı atlı qovdu, qovdu yordu o,
Böyük ağacları vurub qırdı o,
İyid səsə doğru gedər, yayınmaz.

Şah bizucla* vurdu kəlin gözundən
Kəl daha qızıxıb çıxdı özündən,
Dağ-daş tir-tir əsdi onun səsindən,
İyid səsə doğru gedər, yayınmaz.

***

Qurd daldan sıçradı kəlin üstünə.
Dəmiri ocaqdan dəmir çıxarar,
Ağzıyla o, kəlin böyrünü sökdü,
Dəmiri ocaqdan dəmir çıxarar.

Kəlin içi çıxıb çölə töküldü,
Onun birdən-birə gücü çəkildi,
Şahın topbuzuyla beyni töküldü,
Dəmiri ocaqdan dəmir çıxarar.

Təkbuynuz böyürüb düşdü ayaqdan,
Dağ boyda cəmdəyi qaldı torpaqda,
Boz Qurd çəkilərək durdu qıraqda
Dəmiri ocaqdan dəmir çıxarar.

***

-Uzaqda dayanma, Boz Qurd, yaxın gəl,
Pis gündə yey yoldaş gərək adama,
Qoy qalsın orada saxlanc, qayıt gəl,
Pis gündə yey yoldaş gərək adama.

Yalqızam, sən getmə, arxam, əltutum,
Səni iyid bilir Mindiyar yurdum.
Qaraşı tapmağa gedək, Boz Qurdum,
Pis gündə yey yoldaş gərək adama.

Mənə çox döyüşdə arxa dayandın,
Mənimlə bir yerdə qana boyandın,
Sularda çırpınıb, odlarda yandın.
Pis gündə yey yoldaş gərək adama.

*Nizə

***

Cığırlar qarışdı biri-birinə,
Çığır geniş yola çıxarar səni.
Boz Qurd Üstüağın ardınca getdi,
Cığır geniş yola çıxarar səni.

Başladı yol yuyan ağca yağışlar,
Enişə doğruydu burda yoxuşlar.
Göydən çəkilmişdi, qartallar, quşlar,
Cığır geniş yola çıxarar səni.

At ayaq saxladı, dayandı birdən,
Ötərat duymuşdu nəsə bu yerdə,
Yeri eşələyib kişnədi birdən
Cığır geniş yola çıxarar səni.

***

Bir quyu göründü yol ortasında.
Atları ürküdər yiyəsiz quyu.
Üstü örtülmüşdü quru kollarla
Atları ürküdər yiyəsiz quyu.

Quyunun dibindən bir səs gəlirdi.
Bu dərin quyuda kimsə ölürdü,
Burdan keçənləri hardan bilirdi,
Atları ürküdər yiyəsiz quyu.

Kol-kosu götürüb atdı Üstüağ,
-Kimdir bu quyuda saxlanan dustaq,
-Mənəm, əl uzadın, bir ip, bir tutaq,
Atları ürküdər yiyəsiz quyu.

***

İp atdı quyuya, çəkdi Üstüağ,
Kişinin sözüylə işi bir olar,
Qaraş silkələnib quyudan çıxdı,
Kişinin sözüylə işi bir olar.

Onlar qucaqlaşdı, öpüşdü, güldü,
Qaraş şah önündə çöküb əyildi.
İndi bu işlərin yeri deyildi,
Kişinin sözüylə işi bir olar.

- Ey böyük Üstüağ, sağ ol, min yaşa
Yoxsa günüm burda çatardı başa.
Qardaşlıq elədin bir də Qaraşa,
Kişinin sözüylə işi bir olar.

***

Burda doqquz quyu yan-yana durur,
Kimsə quyu qazıb, sən isə ev tik.
Gedək dustaqları qurtaraq bir-bir.
Qancıl quyu qazıb, sən isə ev tik.

Burda doqquz nədir, yüz-yüz quyu var,
Bir-bir dustaqları çıxartdı onlar.
Quyular yurdudur deyən bu diyar
Kimsə quyu qazıb, sən isə ev tik.

Sonra at çapdılar batıya doğru
Ötərat kişnəyib yolları yordu,
Asta çap, özünü quyudan qoru

Kimsə quyu qazıb, sən isə ev tik.

***

Qaraş dedi;-Buynuz şaha tapındım,
Hər adama tapınmaq da düz deyil.
O aldatdı məni yağlı sözüylə,
Hər adama tapınmaq da düz deyil.

Sonra bildi biz qardaşıq sizinlə,
Döyüşməyə gəlirmişlər bizimlə,
Yer qoparmaq Mindiyarın özündən,
Hər adama tapınmaq da düz deyil.

Deyirdi ki, hər gün susub busuram...
Deyirdi ki, Üstüağı basaram...
Qılıncımı boğazımdan asaram.
Hər adama tapınmaq da düz deyil.

***

Deyirdi ki, mənə əltut, güc tapım,
Güc önünə güc çıxarar güclülər,
Gedim tutum Əkbitəni bir aya,
Güc önünə güc çıxarar güclülər.

Deyirdi ki, göstər mənə yolunu,
Min diyara töküm toplum dolunu.
Görüşdürək ölüm ilə olumu
Güc önünə güc çıxarar güclülər.

Mən bilirəm o qan içən öç ilə
Qamarlayıb şah yerini güc ilə,
Gedək, mənə urəyini iç elə,
Güc önünə güc-çıxarar güclülər.

***

Mindiyara tezlik ilə şah ol sən,
Su axacaq, çuxurunu tapacaq.
Önər ollam mən Qarbaşın yerində
Su axacaq, çuxurunu tapacaq.

Bu diyarı Mindiyara qoşarıq,
Toplumlaşıb döyüşlərdə daşarıq.
Biz birləşsək dənizləri aşarıq,
Su axacaq, çuxurunu tapacaq.

O deyirdi şahlıqları alarıq,
Biz şahlıqda doğu, batı olarıq,
Lap istəsən bir Başevdə qalarıq
Su axacaq, çuxurunu tapacaq.

***

Mən dedim ki, qardaşımdır Üstüağ,
Çətin gündə atmaz qardaş qardaşı,
Aramızda şahlıq düyün salsa da
Çətin gündə atmaz qardaş qardaşı.

Dilə tutdu, yalvar-yalxar elədi
Bu döyuşdə məndən əltut dilədi,
Tərsə getsən, öldürərəm, söylədi,
Çətin gündə atmaz qardaş qardaşı.

O çox dedi, mənsə məhəl qoymadım,
O qancılın sözlərinə uymadım,
Qılıncını, şahlığını saymadım,
Çətin gündə atmaz qardaş qardaşı.

***

Sonda məni dustaqladı, döydürdü
Dustaqların ilk arxası dözümdür.
Ayağımdan bir ay məni asdılar,
Dustaqların ilk arxası dözümdur.

Qəzil ilə əl-qolumu bağladı,
Neçə yerdən ürəyimi dağladı,
Üç ay məni üzüquylu saxladı,
Dustaqların ilk arxası dözümdür.

Gördü sözə-küyə gələn deyiləm,
Ayrı sala məni şahla, el ilə.
Tunc deyiləm döyüldükcə əyiləm,
Dustaqların ilk arxası dözümdür...

***

Çox çəkmədi, buynuz şaha çatdılar.
Boz Qurd idi, Qaraş idi, Üstüağ,
Buynuz şahın toplumuna girdilər,
Boz Qurd idi, Qaraş idi, Üstüağ.

Qaladılar, yandırdılar, yaxdılar,
Şimşək olub üç bir yandan çıxdılar,
Dağ çayı tək irəliyə axdılar.
Boz Qurd idi, Qaraş idi, Üstüağ.

Oraq düşdü elə bil ki, biçinə,
Tanrı gücü verilmişdi üçünə.
Qorxu düşdü buynuzlular içinə,
Boz Qurd idi, Qaraş idi, Üstüağ.

***

-Ahay, Qaraş, mənimlə tuş gəlmədin,
Əyri boyun düz qılınca tuş gələr.
Baş aparma, sən də böyük Üstüağ,
Əyri boyun düz qılınca tuş gələr.

Dördayaqlı tanrımızdır, oyaqdır,
İnək başı başımızda papaqlır,
Buynuzlular bu dağlara dayaqdır,
Əyri boyun düz qılınca tuş gələr.

Gec-tez bizim olacaqdır Mindiyar,
Bu ölkədə neçə el var, ölkə var.
- Bu vuruşda sizdən baş yox, ad qalar,
Əyri boyun düz qılınca tuş gələr.

***

Günbatanda günəş qana büründü,
Günəş qanla qidalanır elə bil.
Neçə arxdan su yox, sanki qan axdı,
Günəş qanla qidalanır elə bil.

Gün batanda buynuzlular seyrəldi,
Buynuz şah da bunu gördü, kövrəldi,
Elə qorxdu, dar gözləri bərəldi,
Günəş qanla qilalanır elə bil.

Dedi, məni bağışlasın Üstüağ,
Məni Qaraş öyrətmişdi bu sayaq,
Yoxsa bizdə güc hardaydı vuruşaq.
Günəş qanla qidalanır elə bil.

***

O söylədi, Mindiyara mənəm şah,
Gərək şahın oğul oğlu şah ola.
Ancaq məni çıxarıblar Başevdən
Gərək şahın oğul oğlu şah ola.

O söylədi, Əkbitəni alayım.
Yürüş edib Başevinə dolayım,
Şahı yıxıb şahlar şahı olayım,
Gərək şahın oğul oğlu şah ola.

Bu sözləri söyləyincə arada.
Boz Qurd onu qarmaladı arxadan,
Parçalanıb o da çıxdı sıradan.
Gərək şahın oğul oğlu şah ola.

***

Gecə düşdü, çox baş yordu Üstüağ.
İki sözün mən hansına inanım.
Buynuz şahdır doğru deyən, ya Qaraş,
İki sözün mən hansına inanım?

Qaraş soyum, buynuz şahsa qancılım,
Qaraş gəncdir, ancaq döyüş öncülü,
Ötər atım, Boz Qurd soyum, qan çölüm.
İki sözün mən hansına inanım?

Qaraş belə deyə bilər? Nə bilim?
O şahıdır, Mindiyarın, Minelin.
Söylə mənə, ey yatımlı düz dilim,
İki sözüm mən hansına inanım?

***

Üstüağ şah çox düşündü daşındı,
İnamsızlıq yarı yolda qalmaqdır.
Yerinc qoysun bu yerlərə Qaraşı,
İnamsızlıq yarı yolda qalmaqdır.

İnamsızlıq ürəyini didirdi,
Gah düz deyir, gah da əyri gedirdi,
Düşüncələr qırılırdı, itirdi,
İnamsızlıq yarı yolda qalmaqdır.

"İş açacaq Qaraş mənə deyəsən,
Bir düşünüm yaxşı-yaxşı gərək mən.
İnamsızlıq pozur məni heç nədən.
İnamsızlıq yarı yolda qalmaqdır".

***

Qaraş andı anasını, uşağı,
Bunu qardaş bağışlamaz qardaşa.
Atasının ölümü də bu yandan,
Bunu qardaş bağışlamaz qardaşa.

O tutuldu, doluxsundu, nədənsə,
Niyə ötmür bu üzülüş* ötənsə.
Getsin gərək bu çəkişmə gedənsə
Bunu qardaş bağışlamaz qardaşa.

Niyə gəldi, məni aldı quyudan,
Yalanlardır bizi il-il uyudan,
Barışdıran, qızışdıran, soyudan,
Bunu qardaş bağışlamaz qardaşa.

_____

***Əzab**

***

Qaraş hər yol Üstüağı görəndə,
Həm utanır, həm çəkinir, həm yanır.
Üz çevirib artıq ozü-özündən,
Həm utanır, həm çəkinir, həm yanır.

Anasının yandığına yanır o,
Yavaş-yavaş olmuşları qanır o.
Öz-özunü gözü qıpıq sanır o,
Həm utanır, həm çəkinir, həm yanır.

Üzüntülər yeyir onu içindən,
Güc qoparır onun kişi gücündən,
Qalmaz bu iş, bu gedişdə, biçimdə
Həm utanır, həm çəkinir, həm yanır.

***

Yol gedirlər, danışırlar, gülürlər,
Göz nə deyir, ürək nələr danışır.
Birdən atın yüyənini sıxır o
Göz nə deyir, ürək nələr danışır.

“Mən Başevə dönə bilməm bir daha,
Nə dəyərəm Mindon ilə Manaya,
Nə deyərəm gözü yaşlı anaya.
Göz nə deyir, ürək nələr düşünür.

Burdan dönüm, gözdən itim, yayınım
Gedim özgə bir ölkədə dayanım,
Sona varım bu dolambac oyunu
Göz nə deyir, ürək nələr danışır.

***

Qaraş birdən yolu dönür tərsinə,
Yurddan qaçmaq, bu, qurtuluş deyildir.
Qarşısında, çöllər, dağlar, oylaqlar,
Yurddan qaçmaq, bu, qurtuluş deyildir.

-Hara gəldi çap, yöndəmsiz çaparım,
Gedib sənlə bir el, oba taparım.
Ya yaşarım, ya dirrikdən saparım,
Yurddan qaçmaq, bu, qurtuluş deyildir.

Axşam oldu bu səs-soraq iç oldu.
Bunu bilən bildi, qalan gic oldu.
Bəs bu Qaraş hara getdi, nec oldu,
Yurddan qaçmaq, bu, qurtuluş deyildir.

***

Belə imiş onun alın yazısı,
Yox, alına yazılanlar doğrudur.
Qaraş vardan, qılınclardan uzaqdı
Yox, alına yazılanlar doğrudur.

O, ac, susuz gəlib çatdı bir elə,
Buralarda əriməyib qar hələ,
Dilləri var, çox bənzəri Minelə,
Yox, alına yazılanlar doğrudur.

Onu gəlib son ayaqda tapdılar,
Alıb ata mindirdilər çapdılar
Bu önərdir, deyib evə qatdılar,
Yox, alına yazılanlar doğrudur.

Oddan keçmə söyləncі

Burda şax-şax şaqqıldayır bulaqlar,
Bulaq idi duru-duru adamlar,
Meşələri, ormanları sıx idi,
Bulaq idi duru-duru adamlar.

Qaraş üç gün yeyib, içdi, kökəldi,
Üçüncü gün öz yerindən dikəldi,
Solğunluğu üz-gözündən çəkildi,
Bulaq idi duru-duru adamlar.

- Kimlərdənsən, sən nəçisən, ay qonaq,
Kimsəsizsən, didərginsən, ya qaçaq,
Niyə düzdə tək qalmısan bu sayaq,
Bulaq idi duru-duru adamlar.

***

Onu görüb qorxdu oba yiyəsi,
Çoxlarını düz eləyən qorxudur.
Üstüağa soraq verdi Qaraşdan,
Çoxlarını düz eləyən qorxudur.

Bu soraqdan Üstüağ şah tutuldu,
Qara qaşlar yaylar kimi dartıldı,
Dirriyinə sanki ağı qatıldı,
Çoxlarını düz eləyən qorxudur.

Qaraş deyib lap dözümü tükəndi,
Şah Qaraşdan bir az da çox çəkindi,
O yatmışdı, elə bil ki, diskindi
Çoxlarını düz eləyən qorxudur.

***

-Qaraş mənə iki üzlü görünür,
Çox şahları yerə vurub inanmaq,
Onu gərək yenə, yenə yoxlayam.
Çox şahları yerə vurub inanmaq.

Buynuz şahın sözlərini o andı.
O yenilməz inamından usandı,
Qaraş gəlib göz önündə dayandı,
Çox şahları yerə vurub inanmaq.

“Mən də şahın nəvəsiyəm, Qaraş da,
Ona şahlıq yaraşarmı bu yaşda
Gərək deyim bunu ona bu başdan
Çox şahları yerə burub inanmaq".

***

Qaraş gəldi güdükçülər içində,
Ata əkər, oğul biçər deyiblər.
Üzü daşdır, gözü buzdur elə bil.
Ata əkər, oğul biçər deyiblər.

Bu o gözəl Qaraş deyil, dupduru,
Qaraqabaq, düşüncəli, sapsarı,
Özü kimi ölüvaydır çaparı
Ata əkər, oğul biçər deyiblər.

Başaşağı durdu şahın önündə
Əski, qara cır-cındırı əynində,
Tanrı bilər nələr vardır beynində
Ata əkər, oğul biçər deyiblər.

***

...Söz tanıyan, yol göstərən, yön tapan,
Hər bir sözdə, hər baxışda düyüncə.
Bilicilər, ağsaqqallar yığıldı,
Hər bir sozdə, hər baxışda düyünçə.

Hərə bir ad, hərə bir söz soruşdu,
Bu yol ilə şah işinə qarışdı,
Üstüağın üzü-gözü qırışdı,
Hər bir sözdə, hər baxışda düyünçə.

-Qaraş, niyə soyuyubsan sən belə,
-Uşaq şahlıq dəyərini nə bilər.
-Onu dustaq etməliyik bir ilə
Hər bir sözdə, hər baxışda düyünçə.

***

Öz yerindən durub dindi Üstüağ,
-Ölkə satar ikiüzlü adamlar.
O, iki yol üz döndərib Başevdən,
Ölkə satar ikiüzlü adamlar.

Qaraş girib iki başlı oyuna.
O baxmadan boy atmamış boyuna,
Üz çevirir öz doğmaca soyundan
Ölkə satar ikiüzlü adamlar.

Buynuz şahın dedikləri doğru, düz;
Şah yerini tutmaq istər bu cılız,
Boynumuza mindirmişik bunu biz,
Ölkə satar ikiüzlü adamlar.

***

-Şahım, mənə satqın demə, amandır,
Ölkə satıb şahlıq alan satqındır,
Mənim şahlıq işlərində gözüm yox,
Ölkə satıb şahlıq alan satqındır.

Hamı bilir, bu yer babam yeridir,
Könlüm şah yox, bizim eldə diridir,
Üstüağ şah məndən çox-çox bəridir,
Ölkə satıb şahlıq alan satqındır.

Buynuz şah da sonra məni pislədi.
Məni şahla vuruşdurmaq istədi,
Tanrı bilir, önər olmaq istədim.
Ölkə satıb şahlıq alan satqındır.

***

-İnanmıram, ağca yalan deyirsən,
Şah tanrının kölgəsidir Mineldə,
Mehcə kimi sən də qancıl olubsan,
Şah tanrının kölgəsidir Mineldə.

-Şahım, onu bağışlayın, uşaqdır,
İçi, çölü satqınlıqdan uzaqdır,
Gələcəkdə o da sizə dayaqdır,
Şah tanrının kölgəsidir Mineldə.

-Şahım, onu bağışlayın bir yol da.

Onu, məncə, bu olaylar ayıldar,
Nə olacaq ondan qalsa bayırda
Şah tanrının kölgəsidir Mineldə.

***

- Mən Odərəm, odun, suyun yiyəsi,
Yalançını göstərəcək odla su.
Oddan keçsin, suya batsın, bilinsin,
Yalançını göstərəcək odla su.

- O, uşaqdır, onda dözüm nə gəzir,
Odər ata hər bir işdə tələsir,
-Şaman ata bizdən yaman tez küsür,
Yalançını göstərəcək odla, su.

Şah söylədi:-Odla, suda yoxlayın,
Keçsə odu, onu burda saxlayın,
Yoxsa mənim dayaqlarım laxlayır,
Yalançını göstərəcək odla su.

***

Qaraş dedi:-Mən razıyam buna da,
Tanrı görür hər bir şeyi ucadan.
Mən arıyam oddan, sudan keçərəm,
Tanrı görür hər bir şeyi ucadan.

Qarbaş dedi: - Öncə odda yoxlayaq,
Odər dedi: - Öncə suda yoxlayaq,
Şaman dedi: - Dağda daşa bağlayaq.
Tanrı görür hər bir şeyi ucadan.

Şah söylədi:-Öncə oddan keçirin,
Yalançıya dil-dil alov içirin,
Keçə bilsə onda suya çevirin.
Tanrı görür hər bir şeyi ucadan.

***

Od qalandı yolun sağı, solunda,
Od içindən keçən gərək od olsun.
İki yandan yalaşdılar alovlar,
Od içindən keçən gərək od olsun.

O əyilib oddan yardım istədi,
Diz qatdadı od önündə söylədi.
- Hamı odun qabağında kölədi,
Od içindən keçən gərək od olsun.

Tanrı bilir, mən arıdan arıyam.
Şah babamın şah söykənci varıyam,
Əl tut tanrım, mən də sənə sarıyam,
Od içindən keçən gərək od olsun.

***

Qaraş girdi alovların içinə,
Bulud yandı, günəş yandı, göy yandı.
Nə qışqırıq, nə bağırtı, nə qorxu,
Bulud yandı, günəş yandı, göy yandı.

O getdikcə üzü oda boyandı,
Birdən sanki min-nin ürək dayandı,
Deyən tanrı ona bu gün hayandı,
Bulud yandı, günəş yandı, göy yandı.

Sağ əlində alovlanan bir çəlik
Addımladı Qaraş çevik, tələsik,
O nə yanır, nə qışqırır hələlik,
Bulud yandı, günəş yandı, göy yandı.

***

-Tanrı ata, mənə güc ver, dözüm ver,
Yanan ölmür günəş ilə birləşir,
Oddan arı, sudan duru-yaranış,
Yanan ölmür günəş ilə birləşir.

Qıssal, azal, mənə yol ver, od yolu,
Sənə könül bağışlaram var dolu,
Məni saxla səndən sənə qor olum,
Yanan ölmür günəş ilə birləşir.

Tanrım, sənə tutar etdim özümü,
Gözü qıpıq bilməyirəm özümü,
Poz, bir də yaz alnımdakı yazını,
Yanan ölmür günəş ilə birləşir.

***

Od tanrısı yandırmadı Qaraşı,
İç yanığa çöldən yanmaq nə kərək,
Su tanrısı yağış, külək göndərdi,
İç yanığa çöldən yanmaq nə gərək.

Nə pis işi var idi ki Qaraşı,
Adı-sanı pisliklərə bulaşıb,
Yoxdur daha yerdə onun sirdaşı,
İç yanığa çöldən yanmaq nə gərək.

Şah inandı buynuz şahın sözünə,
Örtük oldu yalan onun gözünə,
Baxa bilməz bir də qardaş üzünə,
İç yanığa çöldən yanmaq nə gərək.

***

Qaraş keçdi od içilə cığırı,
İki odu çalaşdırmaq çətindir.
Ütülmüşdü kirpikləri, saçları,
İki odu calaşdırmaq çətindir.

İki evi bir-birinə qatarsan,
İki oxu bir çəkimlə atarsan,
İki yolu bir əlində tutarsan,
İki odu calaşdırmaq çətindir.

Tanrım, sağ ol, baş əyirəm adına,
Məni aldın, yandırmadın oduna,
Mən uçaldım göyün yeddi qatına,
İki odu calaşdırmaq çətindir.

***

Ağzı açıq qaldı bunu görənlər,
Gözdə qalır gözlənilməz olumlar.
Hamı birdən köks ötürdü, sevindi,
Gözdə qalır gözlənilməz olumlar.

Çalğıçılar dınqırları dindirdi,
Əlaltılar od-alovu söndürdü,
Çoxu şahdan buz üzünü döndərdi.
Gözdə qalar gözlənilməz olumlar.

Qaraş gəlib şah önündə əyildi,

Dəyişmişdi, o, dünənki deyildi,
Dodaqaltı acı-acı o güldu,
Gözdə qalar gözlənilməz olumlar.

***

Şah söylədi-hamı çalsın, oynasın,
Yaranışın bəzəyidir çal-oyna.
Mindiyarın şah qardaşı Qaraşdır,
Yaranışın bəzəyidir çal-oyna.

Qaraş mənim doğma babam oğludur,
O, kökündən Mindiyara bağlıdır,
Qoy oynasın kim saqqallı, bığlıdır,
Yaranışın bəzəyidir çal-oyna.

Tanrı bizim kobudluğu bağışlar,
Şahı sevən onu öpsün bağışla,
Mənim doğma qardaşıma alqışlar,
Yaranışın bəzəyidir çal-oyna.

***

Sevinclərin yoxdu ucu-bucağı,
El sevinsə bil ki, tanrı sevinir.
Qız, gəlinlər oynayırdı, gülürdu,
El sevinsə bil ki, tanrı sevinir.

Yanar oxlar yağdırıldı göylərə,
Yallı getdi hamı, verib əl-ələ.
Gəlir doğma mahnılarla el dilə,
El sevinsə bil ki, tanrı sevinir.

Anam, bacım, sən də qol aç, süz, oyna,
Bər-bəzəyi üst-başına düz oyna,
Ey Minelli sevinc içrə gəz, oyna
El sevinsə bil ki, tanrı sevinir.

***

Qaraş birdən atı üstə sıçradı,
Alçalmağın ölçusü var, yeri var.
O dözmədi alçaldılmış sevincə,
Alçalmağın ölçüsü var, yeri var.

Çapdı, çapdı, gözdən itdi, yox oldu,
Şah yatmışdı, sanki birdən ayıldı,
Bunu görüb çox urəklər bayıldı,
Alçalmağın ölçüsü var, yeri var.

Niyə belə iş tutmusan Üstüağ,
Niyə onu yanlamadın sən bayaq,
Qaraş sənə doğma idi, ya qonaq,
Alçalmağın ölçüsü var, yeri var.

***

Qoşar alıb dınqırını,oxudu,
Qor alovdan, tüstü qopar kösövdən.
Qor Qaraş da oddan şaxıb sıçradı.
Qor alovdan, tüstü qopar kösövdən.

Qor Qaraşın qardaşıdır Üstüağ.
Üstüağın babasıdır İşdayaq,
Yaranışın var oyunu bu sayaq,
Qor alovdan, tüstü qopar kösövdən.

Hara belə, dön geriyə önərim.

Baxma bizə belə küskün, ötəri,
Gəlin, hamı bir ağızdan dinərim.
Qor alovlan, tüstü qopar kösövdən.

***

Başqa qoşar dınqır çaldı, oxudu:
-Yalançını evinəcən qovarlar.
Burda kimdir yalan deyən, bilmirəm,
Yalançını evinəcən qovarlar.

Tanrı deyər, yalan demə, düz danış,
Düz deyəndə dil gödəlir, bir qarış,
Yalan, doğru ikisindən çüt yapış,
Yalançını evinəcən qovarlar.

Dinclik üçün nə yalan de, nə doğru,
Çaş-baş qalsın qoy söz çəkən, qoy oğru,
Düz dinc olur yalançısı çığırır.
Yalançını evinəcən qovurlar.

***

-Nə bilimli, düşüncəli durmusan,
Gözəl gülər, ürkək-ürkək danışar,
Sən gözəlsən, yoxsa göydən düşməsən,
Gözəl gülər, ürkək-ürkək danışar.

Dınqırımla deyişməyə girmişəm,
Düşüncəmdə düşüncəni görmüşəm,
Gözəl, sənə öz könlümü vermişəm,
Gözəl gülər, ürkək-ürkək danışar.

Yaxına gəl, baxım sənə uzaqdan,
Qızıl alma sanki düşüb budaqdan,
Necə keçim belə gözdən, dodaqdan,
Gözəl gülər, ürkək-ürkək danışar.

***

- Nə durubsan bulaq kimi dupduru,
Dayananda su göz kimi durulur.
Yaxına gəl, sən də oyna, durulmuş,
Dayananda su göz kimi durulur.

Bu yığnaqda mənim gözüm səndədir,
Belə gözəl görmüşəmsə, mində bir,
Səni sevən çox sevəndən öndədir,
Dayananda su göz kimi durulur.

Götür ağca alnın üstdən telini,
Gir oyuna, oynat incə belini.
Gir yallıya, tutum incə əlini
Dayananda su göz kimi durulur.

***

- Qoşar qardaş, ta ürkütmə maralı,
Gendən baxan gözəl daha gözəldir,
O oynasa od yenidən alışar.
Gendən baxan gözəl daha gözəldir.

Səndən qabaq bəyənmişəm mən onu,
Sevgi oddur, od tutmuşdur hər yanım.
Yanağından boya qapıb al qanım.
Gendən baxan gözəl daha gözəldir.

Mən yançıyam, odum oynar üzündə,
Mən sorğuyam, sorğu gəzər gözündə.

Mən qoşaram, qoşma vardır sözümdə,
Gendən baxan gözəl daha gözəldir.

***

Odər dedi:-Qaraş çox-çox döyüşüb,
Oddan qorxmur oddan keçib gedənlər,
Mən görürəm, Qaraş şahlıq alacaq,
Oddan qorxmur oddan keçib gedənlər.

Buraxmayın onu belə başına,
Bir gün çıxar qancıl kimi tuşuna,
El-el gəzər, dönər Umay quşuna,
Oddan qorxmur oddan keçib gedənlər.

Şahım, onun yollarını bağlayın,
Qıraqda yox, yanınızda saxlayın.
Düzlüyunü bir də suda yoxlayın,
Oddan qorxmur oddan keçib gedənlər.

***

Şaman dedi: - Odər ata düz deyir,
Hamı alın yazısına kölədir.
Onun şahlıq yazılıbdır alnına,
Hamı alın yazısına kölədir.

Siz Qaraşı öz başına qoymayın,
Onun oddan keçməsinə uymayın,
Üstünlük var onda, bunu yaymayın,
Hamı alın yazısına kölədir.

Əl-qol atmaz yanınızda qalarsa,
Gözdən düşən göz önündə olarsa,
Yumuşalar göstərişlər alarsa,
Hamı alın yazısına kölədir.

***

-Bir ər getsin qaytarmağa Qaraşı,
İt qurdlaşar öz başına buraxsan.
Ya ölməli, ya dönməli olacaq,
İt qurdlaşar öz başına buraxsan.

Ya o yanlıq, ya bu yanlıq olmalı,
Adı, odu öz içində qalmalı,
Axar çay da gedə bilməz dal-dalı,
İt qurdlaşar öz başına buraxsan.

İçimizdir, içimizlə tanışdır,
Bir də gördün ağ qaraya qarışdı,
Özgə oldu, özgəlikdən yapışdı.
İt qurdlaşar öz başına buraxsan.

***

Odər ata dedi bir də sözünü:
Yumuşağı hər bir işdə sərt kəsər.
Şah yumuşaq, könlü yuxa olammaz,
Yumuşağı hər bir işdə sərt kəsər.

Şahımızın güclüdürsə biləyi,
Çox yuxadır ancaq böyük ürəyi,
Beləsinin yerə gələr kürəyi,
Yumuşağı hər bir işdə sərt kəsər.

Nə gözləyir, Mindiyarı, Mineli,

Qan-qada var irəlidə, siz bilin.
Düz deməsəm odda yansın qoy dilim,
Yumuşağı hər bir işdə sərt kəsər.

***

-Ahur tanrı mənə belə söyləyir,
Böyük gərək kiçilməyi bacarsın.
Hərdən bizi kiçilmək də böyüdür,
Böyük gərək kiçilməyi bacarsın.

Böyük şahdan kəsi umur tanrılar.
Yalvarışla pisin qolu qanrılar,
Belə şahlar yerdə tanrı sanılar.
Böyük gərək kiçilməyi bacarsın.

Ahur tanrı, Üstüağa əl yetir,
Sən qıtlığı, quraqlığı yan ötür,
Pisi varsa üzərindən al, götür,
Böyük gərək kiçilməyi bacarsın.

***

-Yaranışdan çox inciksən dınqırım,
Dınqır gərək iç qatları oxuya.
Gəl, baş-başa verək bir az ağlayaq,
Dınqır gərək iç qatları oxuya.

Sən ki, məni oxuyursa dolayı,
Titrək qalxır tellərindən harayım,
Gəl bu gün də içimizi çalayım,
Dınqır gərək iç qatları oxuya.

Çalı, dindir ürəyimin telini,
Dərib çatdır ona sevgi gülümü,
Tap yaxşılıq tanrısının dilini,
Dınqır gərək iç qatları oxuya.

***

-Mən dınqıram, yanıq-yanıq ağlaram,
Adamlığı öyrənməkdir ağlamaq.
Hırıltıdan gülüş yaxşı yenə də,
Adamlığı öyrənməkdir ağlamaq.

Yaranışı, dolanışı ötərəm.
Dodaqlarda, ürəklərdə bitərəm,
Toy-düyünün səs-küyündə itərəm,
Adamlığı öyrənməkdir ağlamaq.

Durna boğaz, yastı çanaq olandan,
Yanğılarla yanıqlarla dolandan,
Mən gülməyi bacarmıram yalandan.
Adamlığı öyrənməkdir ağlamaq.

***

- Bir az ağla, bir az sevin, bir az gül,
Ağlamaqla gülmək günbir* bacıdır.
Gülər ağlar, ağlar gülər dınqırım,
Ağlamaqla gülmək günbir bacıdır.

Göz yaşları bizi çordan qorumaz,
Döyüşlərdə yaramızı sarımaz,
Yersiz-yersiz ağlamaq da yaramaz,
Ağlamaqla gülmək günbir bacıdır.

Ağlağandır, güləyəndir yaranış.
Bizimlədir dirrik boyu bu yarış.

İki sözdür, ikisindən bir yapış
Ağlamaqla gülmək günbir bacıdır.

***

At üstündə dikələrək şah dedi:
Çox adamda qabaqcadan duyum var.
Pis yoldadır Qaraş, deyir duyumum.
Çox adamda qabaqcadan duyum var.

Gedin ona siz arxadan tez çatın,
Ya qaytarın, ya öldürün, ya tutun,
Şəlitləyin dustaqlığa siz atın,
Çox adamda qabaqcadan duyum var.

Mən duyuram o qudurub qaynayır,
Damarında qatışıq qan oynayır,
Nə uyuşur, nə də bir söz anlayır,
Çox adamda qabaqcadan duyum var.

**Əkiz*

***

Qarbaş getdi qaytarmağa Qaraşı,
Dağılmaqdır küsülülük, dönüklük.
Yastıdağda çatdı ona arxadan,
Dağılmaqdır küsülülük, dönüklük.

Baş pırtlaşıq, çatma qaşlar çatılıb,
Saç-saqqalı, qaş-kirpiyi ütülüb,
Pal-paltarı yanıq-yanıq didilib
Dağılmaqdır küsülülük, dönüklük.

Buz salxımı sallanmışdı üzündən,
Bir çüt soyuq daş var onun gözündə.
Küsülüydü Üstüağdan, özündən,
Dağılmaqdır küsülülük, dönüklük.

***

-Qaraş, səni şah çağırır, geri dön,
Sınaq ad-sən qazandırar iyidə.
Bu sınaqda sən zirvənə ucaldın.
Sınaq ad-san qazandırar iyidə.

Qayıt, mənə yardımçı ol yenə də,
Üstünlükdür bu, mənə də, sənə də
Dinclik duyar bunca Mehcə nənə də,
Sınaq ad-san qazandırar iyidə.

Üstüağdan üz döndərmə bu sayaq
Bir gün Başev sənə gərək olacaq,
Nə bilirsən kim gedəçək, qalacaq.
Sınaq ad-san qazandırar iyidə.

***

-Sən də məni keçirirsən sınaqdan,
İnamsızlıq sıxıntıdır, sonevdir,
Mənə qarşı o Başevdə inam yox,
İnamsızlıq sıxıntıdır, sonevdir.

Dəymə sınıb qırıq-qırıq olaram,
Gedib daşdan xırda daxma salaram.
Özgə eldə, ölkələrdə qalaram,
İnamsızlıq sıxıntıdır, sonevdir.

Göz dustağı oldum, gözü qıpığam,

Əl altında yaşa dolmuş yazığam.
Doğmalıqda özgələşmiş sınığam,
İnamsızlıq sıxıntıdır, sonevdir.

***

-Yox, dön geri, öz yerini tut orda,
Hərə gərək öz yerində otura,
İşdayağın nəvəsisən, unutma.
Hərə gərək öz yerində otura.

Özüm sənə əltut ollam, doğmaca,
Düyününü açar sənin bu qocan.
Mən arxanam təklənərkən sən haçan,
Hərə gərək öz yerində otura.

Mindiyara döndər atın başını,
At biryolluq özgəliyin daşını
Seç bilimlə pis içində yaxşını,
Hərə gərək öz yerində otura.

***

-Mən dönmərəm bir də o qurd evinə
Çalğı yaxşı eşidilər uzaqdan.
Məni burax gedim gedər-gəlməzə,
Çalğı yaxşı eşidilər uzaqdan.

Üstüağ şah olan yerdə mən yoxam,
O, boz, mən al, o qarasa mən ağam,
Burax, gərək öz yoluma mən çıxam,
Çalğı yaxşı eşidilər uzaqdan.

Burax məni, şaha söylə bu sözü,
Qaraş yanıb tanınmazdır üz-gözü,
De ki, onu öldürmüşəm mən özüm.
Çalğı yaxşı eşidilər uzaqdan.

***

Qarbaş, gedək dedi, Qaraş, yox dedi,
Bir çölməyə sığmaz iki qoç başı.
Gərək qala iki şahdan birisi,
Bir çölməyə sığmaz iki qoç başı.

- Məni sizdən uzaq qovur hər addım,
Tanrı niyə məni belə yaratdı?
Al, götür, get, bu yarağım, bu atım,
Bir çölməyə sığmaz iki qoç başı.

Üstüağa deyərsən ki, ölübdü,
Quşlar yeyib baş-gözünü dəlibdi,
Qurdlar didib iki yerə bölübdü,
Bir çölməyə sığmaz iki qoç başı.

***

Qarbaş onu yazıq görüb buraxdı
Yazıq kimdir, yanan, yoxsa yandıran?
Dedi:-Çıx get, bir də gözə görunmə.
Yazıq kimdir, yanan, yoxsa yandıran?

Könlü yandı, həm də nəsə duydu o,
Gənc Qaraşı bunça yazıq saydı o,
Necə olsa, Üstüağla soydu o,
Yazıq kimdir, yanan, yoxsa yandıran?

Qarbaş dönüb şaha yalan soylədi,
Şahlığında ona uğur dilədi,
Heç bilmədi niyə elə elədi.

Yazıq kimdir, yanan, yoxsa yandıran?

***

Şah Qaraşı ölmüş bilib inandı,
Ürək gizli incəliyi duyandır.
Nədən isə sançdı bərkdən ürəyi,
Ürək gizli incəliyi duyandır.

Öncə susdu donub qaldı yerində,
Sonra isə dinclik duydu dərindən,
Dedi, yaxşı qurtarmışam birindən,
Ürək gizli incəliyi duyandır.

Mehcə gəlsə, Odər onu qandırar,
Qammad bilsin od pisliyi yandırar,
Manay, Yürüş bu olaydan yan durar,
Ürək gizli incəliyi duyandır.

***

Şah söylədi,-hamı getsin ocağa,
Başəydi var, yalvarış var tanrıya.
Mən tanrının göndəriyəm, köləsi,
Başəydi var, yalvarış var tanrıya.

Ellər çıxsın yalvarışa, kəsiyə,
Son qoyulsun didişməyə, küsüyə.
Olacağı ocaq bizə düz deyər,
Başəydi var, yalvarış var tanrıya.

Toplum dursun bu gedişin dalında
Manay, Yürüş gəlsin sağım, solumda,
Varım, yoxum kəsi tanrı yolunda
Başəydi var, yalvarış var tanrıya.

***

Bu gün kəsi bayramıdır ocaqda
Tanrılara kəsi verən qoçaqdır.
Mən tanrının kölgəsiyəm, köləsi
Tanrılara kəsi verən qoçaqdır.

Qoy önümdə getsin qızıl çapaqlar,
Başev, bir də Başevdəki qoçaqlar,
Məmə yeyən, pəpə yeyən, nə ki var.
Tanrılara kəsi verən qoçaqdır.

Dörd təkərli dəmir qoşqu arxada.
Ağsaqqallar ağ və sarı çuxada,
Bol kəsimiz atdan, gəldən, buğadan,
Tanrılara kəsi verən qoçaqdır.

***

Yaraqlılar ağ geyimə büründü
Al, ağ boya harda gördün Mineldir.
Al geyindi qız-gəlinlər, analar,
Al, ağ boya harda gördün Mineldir.

Kəhər atlar, dəmir atlar, ağ atlar,
Ağ davarlar, yola çıxan elatlar,
Al bəzənib kəllər üstə sovqatlar,
Al, ağ boya harda gördün Mineldir.

Odər ata, Şaman ata qabaqda,
Ötər at da bəzənilir qıraqda,

Yəhəraltı çulu ipək saçaqda
Al, ağ boya harda gördun Mineldir.

***

Subölənin* döşü bulud, başı qar,
Yer üzündə su od ilə qonşudur.
Ağ buludlar pərçimlənib günəşə,
Yer üzündə su od ilə qonşudur.

Subölən dağ Əkbitəndən uzaqda,
Üzü yola bir çəkim var bu dağda,
Tanrı qalır buradakı ocaqda,
Yer üzündə su od ilə qonşudur.

Bu od, ocaq yayı, qışı gözərir,
Örtülüdür dörd bir yanı, üzəri.
Bu ocaqda vardır tanrı dəyəri
Yer üzündə su od ilə qonşudur.

***

Dəydi ocaq hənirtisi üzlərə,
Tanrıların öyüd yeri ocaqdır.
Hamı gəlir od, ocaqda çimməyə,
Tanrıların öyüd yeri ocaqdır.

Üstümüzə qalanıbdır qarğışlar.
Tanrı, bizi öz adına bağışla,
Bitkinizi bol-bol elə yağışla
Tanrıların öyüd yeri ocaqdır.

Tanrı, bizim könlümüzdə qalginən,
Doğru yola bizi yola salginən.
Qancıllardan öcü, güçü alginən.
Tanrıların öyüd yeri ocaqdır.

***

Subölən dağ baş qaldırıb göylərə,
Dağa söykən, dağdan uca olarsan,
Ətəkləri gül-çiçəkdir yamyaşıl,
Dağa söykən, dağdan uca olarsan.

Savalan

Böyük oçaq, böyük Odər burada,
Manay, Yürüş, şah görünür orada,
Odsevərlər durub neçə sırada,
Dağa söykən, dağdan uca olarsan.

Burda göydən gələnlər da gözlənir"
Yalvarışlar mahnı-mahnı səslənir,
Od, alovlar yana-yana közərir.
Dağa söykən, dağdan uça olarsan.

***

Tanrı, bizə güc ver, qovaq yamanı.
Pisliklərin pisdiklisi Yamandır.
O yandırır kəndi, otu, əkini
Pisliklərin pisdiklisi Yamandır.

O, tovlayıb seli, suyu sellədir,
O küləyi, od, alovu yellədir,
O, dağları, o, daşları gillədir.
Pisliklərin pisdiklisi Yamandır.

O yaradır düşüklüyü, qırğını,
O közərdir sən söndürən yanğını
O dağıdır biz yaradan qurğunu,
Pisliklərin pisdiklisi Yamandır.

***

Kəsilərlə bitir acıq, öc, küsü
Tanrılarla danışmaqdır hər kəsi,
Kişnərti var, mələrti var, bəyirti.
Tanrılarla danışmaqdır hər kəsi.

Bir bağlı ot tutub hərə əlində,
Yalvar-yaxar, qoşma, mahnı dilində,
Mal kəsənlər bərk çəkinir ölümdən,
Tanrılarla danışmaqdır hər kəsi.

Oçaqlara yağ atırlar, yağ yanır,
Dörd bir yanda qan tökülür, buğlanır,
Tanrılarla bağlaşmalar bağlanır,
Tanrılarla danışmaqdır hər kəsi.

***

Qayaquşum, Göyərçinim, Boz Qurdum,
Öyüdçüsüz, tək yaşamaq çətindir.
Siz tanrının hənirtisi, istəyi
Öyüdçüsüz, tək yaşamaq çətindir.

Tanrı qoru Mindiyarı, Mineli,
Biz yaşadıq altı kərə min ili,
Tanrı özü qoruyaçaq bu dili,
Öyüdçüsüz, tək yaşamaq çətindir.

Tanrı sizi yerdə, göydə arasın,
Qanlı, qansız yaranızı sarısın,
Deyişmədən, didişmədən qorusun,
Öyüdçüsüz, tək yaşamaq çətindir.

***

Yeləsəndən Yelçəkənə biz varıq,
Burda ılıq, isti, orda buz, qarıq,
Başımızda qızıl papaq, ağ sarıq.
Öyüdçüsüz, tək yaşamaq çətindir.

Böyüyəndə bölünürlər böyüklər,
Dörd bölünsün görüm başı çürüklər,
Su üstündə su olmayan köpüklər,
Öyüdçüsüz, tək yaşamaq çətindir.

Tanrı, bizə öyüd söylə, arxa dur,
Öyüdlərin hər qulağa sırğadır.
Yiyəsiz at yürük deyil, yorğadır,
Öyüdçüsüz, tək yaşamaq çətindir.

Balasqel söyləncі

Qammad gəzdi diyar-diyar,
Təklik gəzir sevən adam.
Sevgisilə qol-boyundur,
Təklik gəzir sevən adam.

Sürdü el-el öz atını,
Hər ölkənin bir yatımı,
Yerin-göyün beş qatını,
Təklik gəzir sevən adam.

Döşəkcəsi otdan oldu,
Yorğançası duman oldu,
Düşüncəsi Mehcan oldu,
Təklik gəzir sevən adam.

***

Hara çəksə sevgi səni,
Get sevginin arxasınca;
Dağa, daşa, suya, qana,
Get sevginin arxasınca.

Yanar ürək pərən-pərən,
Niyə oddur içi görən?
Sevgi tanrı, sənsə sevən,
Get sevginin arxasınca.

Sevər səni bu yaranış,
İçindədir barış-vuruş.
Hara getsə qarış-qarış,
Get sevginin arxasınca.

***

Son gedişi Balasq oldu,
Gəmiçilər ölkəsində.
Bir qarının ağac evi,
Gəmiçilər ölkəsində.

Könül verdi dalğalara,
Dalğa – dalğa qayalara.
Mehcə dedi getdi hara
Gəmiçilər ölkəsində?

Yerli dilə dili yatdı
Gedib gəmi işi tutdu,
Aylarını ilə qatdı,
Gəmiçilər ölkəsində.

***

Yurdu gəzdi gəmi-gəmi,
Gəzən, görən bilər olar.
Gördü olub-olacağı,
Gəzən, görən bilər olar.

Yurdun şanlı ərənləri,
Min il önü görənləri,
Qaraları, kürənləri,
Gəzən, görən bilər olar.

Bilgi öyrən söz düşəndə,
Söz-soyadlar gedişində,
Əl işində, baş işində
Gəzən, görən bilər olar.

***

Fırtınalar əsimində
Deyilən söz bir öyrəncdir.
Ölüm-itim qucağında
Deyilən söz bir öyrəncdir.

Hər gəmiçi danışığı,
Nağıl-noğul qatışığı,
Sözün, dilin yapışığı,
Deyilən söz bir öyrəncdir.

Gəmiçilər könlü açıq,
Həm əliboş, həm də yazıq,
Sözü, üzü çapıq-çapıq,
Deyilən söz bir öyrəncdir.

***

Bir gəmidə yol tutançı
Ona gizli belə dedi:
-Mineldəndir böyük nənəm,
Ona gizli belə dedi.

Filip babam cumər olub,
Mindiyara könül salıb.
Gedib sizin yurdda qalıb,
Ona gizli belə dedi.

Böyük nənəm Minel qızı,
Sözü-südü dağ yarpızı.
Deyimində Minel duzu,
Ona gizli belə dedi.

***

Böyük babam bilər imiş
Turər şahın Başevində.
Hamı onu çox sevərmiş
Turər şahın Başevində.

Önü görən, yeri bilən,
Hər bir yerdə dilə gələn,
Hamı ilə deyib gülən
Turər şahın Başevində.

Yüz il qalıb o diyarda,
Evlənibdir elə orda,
Zəngin olub maldan-vardan
Turər şahın Başevində.

***

Böyük babam orda ölüb,
Bilirsənsə söylə mənə.
Kim tanıyır sonevini,
Bilirsənsə söylə mənə.

Girov olub deyən babam,
Yol arayan, cığır tapan,
Sonevini gərək tapam,
Bilirsənsə söylə mənə.

Ərtur oğlu Yüzər burda,
Başçı olub bizim yurda,
Onun yeri, yurdu harda,
Bilirsənsə söylə mənə.

***

Qammad belə tanış oldu
Yol arayan, yol tutanla.
Üzdü gəzdi dəniz-dəniz
Yol arayan, yol tutanla.

Adı Filip, səsi ötkəm,
Üz-gözündə donuq görkəm,
Tanış oldu ölkə-ölkə
Yol arayan, yol tutanla.

Qammad qardaş, hara belə,
Çox özünü vermə yelə.
Qayıt bir də sən Minelə
Yol arayan, yol tutanla.

***

Qayıtdılar Suyer yurda,
Yad yer ona doğmalaşdı.
Qonaq qaldı Filipgildə,
Yad yer ona doğmalaşdı.

Bir qız gördü almayanaq,
Gözü donuq, beli oynaq,
Yad olsa da gələn qonaq,
Yad yer ona doğmalaşdı.

Necə incə, necə gözəl,
Barmaqları üstə gəzər,
Addımları evi bəzər,
Yad yer ona doğmalaşdı.

***

Qammad qızı danışdırdı,
- Qız, sən kimin gözəlisən?
Süzgün gəzən ay işığı,
Qız, sən kimin gözəlisən?

Mən uzaqdan gələn qonaq,
Babalardan sorğu-soraq,
Yeriyirsən kəklik sayaq,
Qız, sən kimin gözəlisən?

Qız utandı, yapıqlandı,
Ürək açdı, açıqlandı,
Üzü, gözü işıqlandı,
Qız, sən kimin gözəlisən?

***

-Öncə sən de, gələn qonaq,
Danış görək kimlərdənsən?
Dilin mənə tanış gəlir,
Danış görək kimlərdənsən?

Mən bu evin gəliniyəm,
Ərim ölüb, tək qalmışam.
Gəncliyimdən gün görməmiş,
Ərim ölüb, tək qalmışam.

Mən qartmışam gənc yaşımda,
Gəncliyimi itirmişəm.
Üzüntüdə, sıxıntıda
Gəncliyimi itirmişəm.

***

-İncə belli, gözəl qadın,

Soruşursan, nədir adım?
Birelimdir böyük Minel,
Bizimkidir o dağ, o çöl.
Orda yer-göy bağlı mənə
Yelçəkəndən yeləsənə.
Hamı təkcə bir dil bilir,
Bu dil ötkəm ocaq dili,
Biz ocaqdan yaranmışıq,
Biz ocaqla danışırıq.

***

Gəl, mənim ol incə bellim,
Qara qaşlı, hamar tellim.
Birel söylə sən Minelə,
Gəl isiniş bizim dilə.
Orda hamı bir dil bilir,
Bu dil böyük tanrı dili,
Biz tanrıdan yaranmışıq,
Biz tanrıyla danışırıq.

***

Anam, bacım, yumux gülüm,
Ayağının altda ölüm,
Hərlət məni öz başına,
Köç, gəlin ol dam-daşıma.
Yurdun-yuvan Minel olsun,
Minel artsın, birel olsun.
Bizdə hamı bir dil bilir,
Dilim ana torpaq dili.
Biz torpaqdan yaranmışıq,
Biz torpaqla danışırıq.

***

Gözəl, göyçək göyərçinim,
Varım, içim, çölüm sənin,
Ürəyimdən özgə nə var
İstəyirsən götür apar,
Ürəyimi biri alıb,
O, minelli qızda qalıb,
Bunu könlüm sevgim bilir.
Yolum, dilim sevgi dili,
Biz sevgidən yaranmışıq,
Biz sevgilə danışırıq.

***

-Bizə qonaq gələn oğlan,
Ürəksiz də adam olar?
Ürəyini itirmisən,
Ürəksiz də adam olar?

Gəl deyirsən, necə gəlim?
Səni necə yaxın bilim?
Uzaq ellim, doğma dilim,
Ürəksiz də adam olar?

Bir yol açdı tanrı mənə,
Qaldı o da düzdə yenə.
Ürək olum necə sənə,
Ürəksiz də adam olar?

İKİNCİ BÖLMƏ
VII QAPI

Ariel söyləncі

Tanrı yeri yoğurubdur sevgidən,
Günəş yerə, yer günəşə vurulub.
Ay boylanır iki yana sevincək,
Günəş yerə, yer günəşə vurulub.

Sevişəndə isti verir, bar verir,
Küsüşəndə, şaxta verir, qar verir.
Döyüşəndə şimşək tökür, qor verir,
Günəş yerə, yer günəşə vurulub.

Ay-ulduzlar gecə yerə baxırlar,
Sevinirlər, sayrışırlar, axırlar.
Vurğunluqdan tək-tək yerə yağırlar,
Günəş yerə, yer günəşə vurulub.

***

Hind elindən çəkmir Günəş gözünü,
Baxışından çiçək yağır günəşin.
Hind yerində min boyada bitki var,
Baxışından çiçək yağır günəşin.

Ağacların yarpaqları ipəkdir,
Bu gözələ bulud ipək ləçəkdir.
Hara baxsan, burda güldür, çiçəkdir,
Baxışından çiçək yağır günəşin.

Qızlarının yanağının batımı,
Çaylarının gurultusu, yatımı,
Dağ gövdəli fillərinin dartımı,
Baxışından çiçək yağır günəşin.

***

Tanrıların yaylaqları burada,
Dənizlərdə çimir gecə ay-ulduz.
Yağış, külək olmayanda doluşub,
Dənizlərdə çimir gecə ay-ulduz.

Tanrı bura gəncliyini yollayıb,
Dağlarını meşələrlə çullayıb.
Bulud yerə ağ ipini sallayıb,
Dənizlərdə çimir gecə ay-ulduz.

Buğdayıdır burda nazlı gözəllər,
Gülü, daşı döşlərinə düzərlər,
Özlərini gecə-gündüz bəzərlər,
Dənizlərdə çimir gecə ay-ulduz.

***

Nə gözəlsən, ey gözəllər gözəli,
Hamı incə gözəllikdən pay umur.
Aç üzünü, günəş öpsün üzündən,
Hamı incə gözəllikdən pay umur.

Hindellini tanrı hər gün dindirir,
Yeməyini göydən özü göndərir.
İçməyini buludlardan endirir,
Hamı incə gözəllikdən pay umur.

Nə gözəldir öz yerini bilənlər,
Görüşünə uzaq yerdən gələnlər,
Bu görüşün sevincindən gülənlər,

Hamı incə gözəllikdən pay umur.

***

Hind yerinin meşələri, çayları,
Gözəllikdir, ucalıqdır tanrılar,
Himalayın, Everestin zirvəsi,
Gözəllikdir, ucalıqdır tanrılar.

Dəniz yuyur bu yerləri bu yandan,
Qarlı dağlar, sıx meşələr o yandan,
Oddur, sudur, əkin, baxsan hayandan,
Gözəllikdir, ucalıqdır tanrılar.

Burda ulu günəşədir inanış,
Əkin, biçin, ovla keçir dolanış.
Min-min boya görkəmində yaranış,
Gözəllikdir, ucalıqdır tanrılar.

***

Ancaq burda yola getmir iki el,
Düşərliyi, qıtlığı var bolluğun.
Söyüşürlər, savaşırlar iki el,
Düşərliyi, qıtlığı var bolluğun.

Dilləşirlər arielli, hindelli,
Çəkişmədə, o çılğındır, bu dilli,
Tutmaq olmaz dili, eli bir əlli,
Düşərliyi, qıtlığı var bolluğun.

Birdir dili, inanışı, yallısı,
Yola getmir bir dillisi, yollusu,
Şəhərlisi, dənizçisi, çöllüsü,
Düşərliyi, qıtlığı var bolluğun.

***

Deyirlər ki, bu, tanrının işidir,
Çılğınlıqda döyüş vardır, barış yox.
Deyən, göydə tanrılar da deyişir,
Çılğınlıqda döyüş vardır, barış yox.

Çəkişmələr alıb gedir qırğına,
Əl atılır qan-qadaya, yanğına,
Düşür ölkə qasırğaya, daşqına,
Çılğınlıqda döyüş vardır, barış yox.

Ayrı salır tanrı iki qardaşı,
Qala bilmir iki qardaş yanaşı,
"Gərək burdan köçək" deyir elbaşı,
Çılğınlıqda döyüş vardır, barış yox.

***

-Biz gedirik gündoğana,
Günəş bizə yol yoldaşı.
Yağış, sel-su qalsın burda,
Günəş bizə yol yoldaşı.

Arielli alçalmasın,
Yersiz, dilsiz ucalmasın,
Dil gəncləşsin, qocalmasın,
Günəş bizə yol yoldaşı.

Qalsaq, ara bərk qarışar,
Siz əl qatın yır-yığışa.
Qara yelə, ağ yağışa,

Günəş bizə yol yoldaşı.

***

-Yat, sevimli qızım mənim,
Sonev dardır, soyuq, nəmiş,
Yat, qoy yerin isti olsun,
Sonev dardır, soyuq, nəmiş.

Gül açmadı xırda yaşın,
Sağalmadı döşün, başın,
Torpaq oldu yar-yoldaşın,
Sonev dardır, soyuq, nəmiş.

Qurd-quş səndən uzaq olsun,
Bunca anan torpaq olsun.
Tanrım sənə qonaq olsun,
Sonev dardır, soyuq, nəmiş.

***

-Qaldı burda doğma ərim,
Məndən burda qalınc olsun.
Sevgim onla öldü, getdi,
Məndən burda qalınc olsun.

Başım üstən qovun çəni,
Sonevimə gumun məni,
Hər yuxumda görüm onu,
Məndən burda qalınc olsun.

Qaldı məndə dağ ürəyi,
Son qazancı, son çörəyi,
Beş uşağı, bir inəyi,
Məndən burda qalınc olsun.

***

-Ölsəm, məni yandır, oğul,
Od yandırıb yaşadandır.
Ver külümü yelə, göyə,
Od yandırıb yaşadandır.

Qocalmışam, düşmüşəm mən,
Qaynamışam, daşmışam mən,
Od-ocaqda bişmişəm mən,
Od yandırıb yaşadandır.

Qalsam, atın, artıq kimi,
Ölsəm anın anıq* kimi,
Tüstüləyim yanıq kimi,
Od yandırıb yaşadandır.

***

-Bu yerlərdə anam qaldı,
Gedək mənlə, ana dilim.
Unutmaram sözlərini,
Gedək mənlə, ana dilim.

Yanıq-yanıq sızıltısı,
Yanığının cızıltısı.
Sözlərinin parıltısı,
Gedək mənlə, ana dilim.

Qaldı burda sümükləri,
Köklərinin kötükləri.
Burum-burum hörükləri,
Gedək mənlə, ana dilim.

***

Yüz min qoca, arvad, uşaq, ər, igid,
Arielli yüz min deyil, min-mindir.
Yola düşdü gündoğana obaşdan,
Arielli yüz min deyil, min-mindir.

Göz yaşları bulaqları qaynatdı,
Ağıları buludları qanatdı,-
Önərlərin atlarını oynatdı,
Arielli yüz min deyil, min-mindir.

Hara belə, ey yurdundan qopanlar,
Acığını yəhərləyib çatanlar,
Ayrılıqda dincliyini tapanlar,
Arielli yüz min deyil, min-mindir.

_____

Xatirə

***

-Ay meşələr, çaylar, dağlar, sağ qalın,
Yuxu, anıq haraylayar keçmişi.
Yuxularda görüşərik sizinlə,
Yuxu, anıq haraylayar keçmişi.

Biz gedirik, çaylar, göllər, siz qalın,
Bizdən sonra ay gül-çiçək, siz solun,
Göz yaşıyla arxamızca siz dalın,
Yuxu, anıq haraylayar keçmişi.

Hər bir şeyi qoyub getdik burada,
Ta ayrılıq ağlamasın arada,
Bizi atma, ey göyləri yaradan,
Yuxu, anıq haraylayar keçmişi.

***

-Qaldı burda ərə gedən gəlinlər,
Kimsəsizin varı dildir, tanrıdır.
Dalımızca incik baxan əkinlər,
Kimsəsizin varı dildir, tanrıdır.

Aparırıq tanrımızı ürəkdə,
Süd qoxuyan körpəmizi bələkdə,
Son təndirdə bişirilən çörəkdən,
Kimsəsizin varı dildir, tanrıdır.

Qalsın evlər, ağaclıqlar, obalar,
Qalsın yollar, isti-isti sobalar,
Qayalarda, ağaclarda yontalar*,
Kimsəsizin varı dildir, tanrıdır.

***

-Biz gedirik kimsəsizlik qoynuna,
Kimsəsizlik doğmalardan yaxşıdır,
Tanrı bizə yer göstərər, əl tutar,
Kimsəsizlik doğmalardan yaxşıdır.

Nə etdiniz, ey kimsəli doğmalar,
Ağlamayın, bizdən sonra daxmalar,
Sizə qalsın yaş təzəklər, yaxmalar,
Kimsəsizlik doğmalardan yaxşıdır.

_____

Heykəl

Yer ver bizə, meşə, dəniz, dağ, su – yer,
Dağlar, bizə qorunacaq-qoruq ver.
Ey daşlı yol, bizə dəmir çarıq ver,
Kimsəsizlik doğmalardan yaxşıdır.

***

Suyer* boyu üzü belə gedənlər,
Nə bilirsən nələr vardır qabaqda?
Sınıq-salxaq, səpik-tökük yolçular,
Nə bilirsən nələr vardır qabaqda?

Hərdən dayan, köç dizini qatdasın,
Ağ dəvələr kolluqlarda otdasın,
Sürü, naxır, ilxı çayı atdasın,
Nə bilirsən nələr vardır qabaqda?

Ayıq olun, öndə gedən önərlər,
Daldakılar qırılarlar, itərlər,
Cırıldayır qoşqudakı təkərlər,
Nə bilirsən nələr vardır qabaqda?

***

Axıb gedir gecə-gündüz bu axın,
Bu çay deyil, bu sel deyil, bəs nədir?
Gah açılır, gah yumulur, gah durur,
Bu çay deyil, bu yel deyil, bəs nədir?

Gözləmirlər yıxılanı, öləni,
Qıçlarını çəkə-çəkə gələni,
Köç qaynaşır, köpüklənir, sellənir,
Bu çay deyil, bu sel deyil, bəs nədir?

Hardan keçsə, orda yollar daralır,
Otlaqlarla, yaşıllıqlar saralır,
Beş ağaclıq bir axındır, qaralır,
Bu çay deyil, bu sel deyil, bəs nədir?

***

Hər gün köçdür, didərginlik,
Didərginin yer-yurdu yox.
Evi oldu, ya olmadı,
Didərginin yer-yurdu yox.

**Sahil*

Şah da olsa gərək sına,
Kim bir yansa, o, üç yana.
Bir baxışdan yüz söz qana,
Didərginin yer-yurdu yox.

İlk yurdunu deyər, öyər,
Düşən yeri, yurdu söyər.
Dizlərini tez-tez döyər,
Didərginin yer-yurdu yox.

***

O axtarar öz yerini,
Su çuxurun gəzib tapar.
Dağda-daşda çırpınsa da,
Su çuxurun gəzib tapar.

Soyuq olar, solğun üzdən,
Tez oxuyar sözü gözdən,
Artıq gələr ona söz də,
Su çuxurun gəzib tapar.

Çətin işdir uyuşmağı,
İstəyinə qovuşmağı.
Yox qılığı, yovuşmağı,
Su çuxurun gəzib tapar.

***

Atlı gəlir, təkcə, yalqız,
Bu, tanrıdır, yoxsa adam?
Çöl üzündə, qum düzündə
Bu, tanrıdır, yoxsa adam?

Nə yükü var, nə yarağı,
Ütülmüşdür tük papağı,
Yanıb üzü, əl-ayağı,
Bu, tanrıdır, yoxsa adam?

Bir az yazıq, bir az qıvraq,
Dodaqları çatdaq-çatdaq,
Görən kimdir gələn qonaq,
Bu, tanrıdır, yoxsa adam?

-Ay yalquzaq, gəl bir dilə,
Söylə kimsən, biz də biləк,
Çörək qoyaq, yarı bölək,
Bu, tanrıdır, yoxsa adam?

***

- Biz üç yüz min köçəriyik,
Hindelindən ayrılmışıq.
Başçımız yox, yurdumuz yox,
Hindelindən ayrılmışıq.

Dilimizə lağ etdilər,
Ayrı-seçki yeritdilər,
Səsimizi kiritdilər,
Hindelindən ayrılmışıq.

Yer gəzirik oturmağa,
Körpələri yatırmağa,
Mal-qaranı artırmağa,
Hindelindən ayrılmışıq.

Göz gərəkdir bizi görə,
Yol araya, yol göstərə,
Düşək otlu, sulu yerə,
Hindelindən ayrılmışıq.

***

-Nə tanrıyam, nə də yaman,
Yaxşı, yaman bir kökdəndir.
Mən Qaraşam Mindiyardan,
Yaxşı, yaman bir kökdəndir.

Dağda-daşda at sürürəm,
Diş qıcıdıb, döş gərirəm.
Orda-burda mən görürəm,
Yaxşı, yaman bir kökdəndir.

Şah oğluyam, ancaq qaçqın,
Şahlıq üstdə qandır, qırğın,
Biri tülkü, biri quzğun,
Yaxşı, yaman bir kökdəndir.

Sizi yer-yer ötürərəm,
Suluyerə yetirərəm,
Kökünüzü bitirərəm,
Yaxşı, yaman bir kökdəndir.

***

-Qulaq asın, köçərilər,
Bu yan dağdır, o yan dərə.
Ot biçənlər, döl tutanlar,
Bu yan dağdır, o yan dərə.

Gündoğanın alnı açıq,
Torpaqları yapıq-yapıq,
Günbatanda şaxta, soyuq,
Bu yan dağdır, o yan dərə.

Dağ ətəyi yerlər yaxşı,
Gömgöy yeri, dağı, daşı,
Gedək, duraq şaha qarşı,
Bu yan dağdır, o yan dərə.

Yola düşün, gəlin belə,
Gedək çıxaq qoşagölə,
Çox yol vardır öndə hələ,
Bu yan dağdır, o yan dərə.

***

Köç tərpəndi, yola düşdü,
Sanki dəniz dalğalandı.
Gah qıvrıldı, gah açıldı,
Sanki dəniz dalğalandı.

Arvad, uşaq, qoca, yetkin,
Səpik, sökük, yorğun, əzgin,
Biri sallaq, biri üzgün,
Sanki dəniz dalğalandı.

Yükü bircə yorğan-döşək,
Varı ancaq bir baş inək.
Bir az yemək, bir az içmək,
Sanki dəniz dalğalandı.

Köç arxada, Qaraş öndə,
Səhər-axşam sisdə, çəndə,
Yol getdilər on beş gün də,
Sanki dəniz dalğalandı.

***

-Görən gedib kök atarmı?
Öz kökündən ayrılanlar?
Qoy yerini tapsın bir də
Öz kökündən ayrılanlar.

Kök atacaq, atmayacaq,
Yoxsa gücü çatmayacaq,
Bura könlü yatmayacaq
Öz kökündən ayrılanlar.

Tanrım, özün yardım elə,
Bu elləri tutaq dilə,
Bu yerləri doğma bilə
Öz kökündən ayrılanlar.

İrəli get, dözüm göstər,
Yenilməz ol yerin üstə,
Öz tanrından özül istə,
Öz kökündən ayrılanlar.

***

-Ay ariel köçərilər,
Becid olsan yer taparsan.

İti tərpən, tez-tez yeri,
Becid olsan yer taparsan.

Burda ulu Darvidel var,
Ayrı-ayrı soydur onlar,
Həm Minel var, həm Mindiyar,
Becid olsan yer taparsan.

Biz elbirə arxa duraq,
Minellini vuraq, qıraq,
Yeni şahlıq yeri quraq,
Becid olsan yer taparsan.

Darvidelli döyüşkəndir,
Başçıları ölüşkəndir,
Hər gün, hər gün dəyişkəndir
Becid olsan yer taparsan.

***

Üç il keçdi, beş il keçdi,
Özgə gəldi, yerli qaçdı.
Darvideli səpik düşdü,
Özgə gəldi, yerli qaçdı.

Daldan gələn iti gələr,
Hər özgədən bir şey dilər,
Tək özünü yerli bilər,
Özgə gəldi, yerli qaçdı.

Vurmaq olmur, qovmaq olmur,
Yer götürür, yerli olmur.
Yerliləri saya salmır,
Özgə gəldi, yerli qaçdı.

Arielli ağac əkdi,
Ev ucaltdı, daxma tikdi,
Nağım saldı, qanov çəkdi,
Özgə gəldi, yerli qaçdı.

***

Mehcə, Qammad belə dedi:
-Atmaq olmur, tutmaq olmur.
Qovulanlar yersiz qalıb,
Atmaq olmur, tutmaq olmur.

Həm qabadır, həm yazıqdır,
Həm dikbaşdır, həm sınıqdır.
Nə doğmadır, nə artıqdır,
Atmaq olmur, tutmaq olmur.

Mehcə dedi: – Qovub qıraq,
Qammad dedi:-Biclik quraq,
Qaraş dedi:-Arxa duraq,
Atmaq olmur, tutmaq olmur.

Hexa idi ozanları,
Tək oxuyub yazanları,
Onda idi elin varı,
Atmaq olmur, tutmaq olmur.

***

Hexa dedi:-Biz gəlmişik dinc yerə,
İşləyənə hər bir yerdə iş olar.
Biz unudaq gərək Hindel yerini,
İşləyənə hər bir yerdə iş olar.

Biz gəlmişik Minelliyə yetişək,
Bu yerlərin az-çoxuyla ötüşək,
Gəlməmişik onla, bunla didişək,
İşləyənə hər bir yerdə iş olar.

Bizi sevən gəlib bizə qovuşsun,
Sevməyənlər bizim yoldan sovuşsun,
Qan-qan deyən getsin Hindlə vuruşsun,
İşləyənə hər bir yerdə iş olar.

Bundan sonra biz Ariel oluruq,
Qaraş deyən bu yerlərdə qalırıq,
Göstərişi tanrımızdan alırıq,
İşləyənə hər bir yerdə iş olar.

***

Hexa dedi: - tanrı, bizə bol su ver,
Yerdir, oddur, sudur bizi saxlayan.
Tanrı, bizə bir də bol-bol inam ver,
Yerdir, oddur, sudur bizi saxlayan.

Biz Hindeldən uz döndərdik, köç olduq,
Ağır yollar yedi bizi, heç olduq,
Biz güc gəldik, onlar isə bic oldu,
Yerdir, oddur, sudur bizi saxlayan.

Arielin ağsaqqalı Hexadır,
Qocalsa da vurğun könlü yuxadır,
Göy tanrısı Atar ona arxadır,
Yerdir, oddur, sudur bizi saxlayan.

Var-yox bircə qızım qalıb, küsərdir,
Gözəlliyi atasıyçın çəpərdir,
Hansı yerdə əksən, orda bitərdir,
Yerdir, oddur, sudur bizi saxlayan.

***

Mindiyarın dili, eli uludur,
Dilini bil, könlünü al əlinə.
Tanıyırlar dirrik boyu onları,
Dilini bil, könlünü al əlinə.

Yaşayırlar onlar doğu boyunca,
Yerdə daşlar, göydə ulduz sayınca,
Əkib-biçir, yeyib-içir doyunca,
Dilini bil, könlünü al əlinə.

Onlar bir yol güc etməyib Hindelə,
Pisliklərin görməmişəm mən hələ,
Gərək tutaq Minellini biz dilə,
Dilini bil, könlünü al əlinə.

Üstüağ şah çox da üzüyoladır,
Əkbitəni bir alınmaz taladır.
Əkmək üçün bizə bu yer qolaydır,
Dilini bil, könlünü al əlinə.

Məniş söyləncisi

Arielli Məniş gözəl qız idi,

Gözəl elə hər bir yerdə gözəldir.
Üz dəyirmi, gözlər süzgün, boy bəstə,
Gözəl elə hər bir yerdə gözəldir.

Gözəllərin yurd yanğısı qaraydı,
Dodaqlarda bir yumuq gül paraydı,
Ürəyinin bir bölümü yaraydı,
Gözəl elə hər bir yerdə gözəldir.

Güzgü kimi duru idi gənc yaşı,
Təmiz idi yaşı kimi göz yaşı,
İlk görüşdə bəyənmişdi Qaraşı,
Gözəl elə hər bir yerdə gözəldir.

Yurd yanğısı ilk sevgini boğurdu,
Təklik onu yandırırdı, yaxırdı,
O, Qaraşa yan-yörədən baxırdı,
Gözəl elə hər bir yerdə gözəldir.

***

Onda Qaraş görməmişdi Mənişi,
İlk sevgini tanrı özu göndərir.
Vurulmuşdu, görməsə də o, qıza,
İlk sevgini tanrı özü göndərir.

Nə gözəldi bu Ariel gəlməsi,
Soy-kökünü Minellidən bilməsi,
Gül ipəkdən incə idi gülməsi,
İlk sevgini tanrı özü göndərir.

Ürək daşdı, göz qırpıldı bir anda,
Nə yaraşıq yaradıbsan, yaradan,
Bu gözəli göndəribsən haradan,
İlk sevgini tanrı özü göndərir.

Mənişi, Qaraş bir-birinə daldılar,
Bir anlığa durub, donub qaldılar,
Bayıldılar, sanki bayğın oldular,
İlk sevgini tanrı özü göndərir.

***

Uyğu alıb aparmışdı Qaraşı,
Ürək görür, göz görməyir sevgidə.
Qıvrılaraq bir kolluqda yatmışdı,
Ürək görür, göz görməyir sevgidə.

Üzülmüşdü, ölüşgəyib qalmışdı,
Bir az bayqın, bir az uyğu olmuşdu,
Ac qalmaqdan yanaqları solmuşdu,
Ürək görür, göz görməyir sevgidə.

Gizli sevgi oddur, yaxıb yandırır,
Kül altında bir ocağı andırır,
Düşüncələr bu ocaqdan yan durur,
Ürək görür, göz görməyir sevgidə.

Bir Mənişi tanıyırdı gözləri,
Kirpiyinə dolaşmışdı sözləri,
Tanrı, qoru bu sevgidən bizləri,
Ürək görür, göz görməyir sevgidə.

***

Qaraş dedi: -Mən sevirəm Mənişi,
Bir yanmışdım, bir də yandım sevgidə.

O qız mənim ürəyimi çəkibdir,
Bir yanmışdım, bir də yandım sevgidə.

Bu çöllərin yanğısında yanaram,
Onu çöldə bitən çiçək sanaram,
Qanadlanıb saplağına qonaram,
Bir yanmışdım, bir də yandım sevgidə.

Başevdəki şah söykəncim sevgidir,
İndən belə hər söyləncim sevgidir,
Yurdum-yuvam, hər güvəncim sevgidir,
Bir yanmışdım, bir də yandım sevgidə.

Şahlığımdır gələcəkdə o, mənim,
Yazım, gülüm, bayram-bayram səmənim,
Qaraş şah yox, sevgisinə güvənir,
Bir yanmışdım, bir də yandım sevgidə.

***

Hexa bunu eşidərkən söylədi:
-Hər sevginin izi qalır, özü yox.
Qatar bizi bu sevgi də Minelə,
Hər sevginin izi qalır, özü yox.

Birləşərik, yurdumuz da bir olar,
O, qızıma şah önəmli ər olar,
Köçkün duşən ellərimə yer olar,
Hər sevginin izi qalır, özü yox.

Elim Minel şahlığından güc alar,
Bizə görə Hind elindən öc alar.
Üstüağ şah o ölkədən bac alar,
Hər sevginin izi qalır, özü yox.

Bu sevgini tanrı özü göndərib,
Üzümüzü ağ günlərə döndərib,
Bu sevgiylə ürəkləri dindirib,
Hər sevginin izi qalır, özü yox.

***

Məniş bunu eşidərkən söylədi:
-Sevgi böyük yola çıxan cığırdır.
Məni sevən gərək Hinddən öc alsın,
Sevgi böyük yola çıxan cığırdır.

Mən də onu şahlığına yetirrəm,
Üstüağı sonevinə ötürrəm,
Dörd yanını itim-itim itirrəm,
Sevgi böyük yola çıxan cığırdır.

Mən də görüb istəmişəm Qaraşı,
Burda bircə odur mənə yaraşır,
Odur bizim gələcəyə dibdaşı,
Sevgi böyük yola çıxan cığırdır.

Mən sevərəm, o, şahlığa çatarsa,
Məni alıb ağ günlərə qatarsa,
Həm Hindeli, həm Mineli tutarsa,
Sevgi böyük yola çıxan cığırdır.

***

Qaraş bunu eşidərkən söylədi:
- Mən sevgimin köləsiyəm, şahı yox.
Sevgi mənə hara desə gedərəm,

Mən sevgimin köləsiyəm, şahı yox.

Mən Hindelə qılıncımla çaparam,
Sevgilimin yerlərini taparam,
Onu qanlı qancıllardan qaparam,
Mən sevgimin köləsiyəm, şahı yox.

Qılıncımla sevgim qalsın yanaşı,
Basa bilməz heç bir igid Qaraşı,
Göstərərəm acıqana savaşı,
Mən sevgimin köləsiyəm, şahı yox.

Gözü yaşlı köçkünləri görənlər
Əltut olsun mənə sevən ərənlər,
Qoy ucalsın mənə sevgi verənlər,
Mən sevgimin köləsiyəm, şahı yox.

***

Qaraş dedi:-haydı, haydı, ərənlər,
Sərt dəmiri isti-isti döyərlər.
Köç çatmamış son yerinə qayıtsın,
Sərt dəmiri isti-isti döyərlər.

Yaraqlansın çılğın, iti köçkünlər,
Yaraqlansın qoca, ahıl, yetkinlər,
Yaraqlansın öz yurdundan sürgünlər,
Sərt dəmiri isti-isti döyərlər.

Mən alaram sevgilimin öcünü,
Başlayaram qılıncımla biçini,
Var edərəm tanrı qoyan ölçünü,
Sərt dəmiri isti-isti döyərlər.

Haydı, haydı, şişələşmiş sınıqlar,
Yer-yurdunu qoyub qaçmış yazıqlar,
Sudan çölə tullanılmış balıqlar,
Sərt dəmiri isti-isti döyərlər.

***

Məniş bunu eşidərkən söylədi:
-Qoşa sevgi qoşa tiyə-qılıncdır.
Mən Qaraşla yollanaram vuruşa,
Qoşa sevgi qoşa tiyə-qılıncdır.

Sevgilimin arxasında duraram,
Hindelini dənləyərəm, qıraram,
Öz evimi öz yerimdə quraram,
Qoşa sevgi qoşa tiyə-qılıncdır.

Bu döyüşdə tanrı bizə yar olsun,
Bizi gözü götürməyən kor olsun,
Ardımızca gələn dostlar var olsun,
Qoşa sevgi qoşa tiyə-qılıncdır.

Ay sevgilim, al məni də böyrünə,
Qılınc qaldır, məni çatdır yerimə,
Çevril mənim ən sevimli ərimə,
Qoşa sevgi qoşa tiyə-qılıncdır.

***

Görüşdülər iki sevən, iki gənc,
Sevgi kökdən qaynayanda gözəldir.
O dözmədi, bu alışdı elə bil,

Sevgi kökdən qaynayanda gözəldir.

Bir-birinə doğru gəlib susdular,
Sanki duyğu qoruğunda azdılar,
Susqunluğa çaşqın qulaq asdılar,
Sevgi kökdən qaynayanda gözəldir.

Biri hündür, köks qabarıq, bəniz ağ,
Biri yumru bir çiyələk, al yanaq,
Ağ göyərçin boz qartala ilk qonaq,
Sevgi kökdən qaynayanda gözəldir.

Bu görüşə boylanırdı tanrılar,
Xısın-xısın göz qoyurdu qarılar,
Birləşmişdi sevgi ilə ayrılar,
Sevgi kökdən qaynayanda gözəldir.

***

-Diz qatdayıb əyilərəm önündə,
-Yox, yox, gülüm, bu şahlara yaraşmaz.
-Ayağından öpmək üçün izin ver,
- Yox, yox, gülüm, bu şahlara yaraşmaz.

- Məni qara kölə elə qapında,
Şah yox, başsız qaçqın, küskün yapımda,
Bir düyün ol qırıq könül sapımda,
-Yox, yox, gülüm, bu şahlara yaraşmaz.

-Mənə çox da şah söyləyib danlama,
Sevgi hara, şahlıq hara, anlamam,
Məni qoyub şahlığımı yanlama,
-Yox, yox, gülüm, bu şahlara yaraşmaz.

-Mən şah olmaq istəmirəm, amandır,
Şahlıq yolu, şahlıq günü yamandır,
Üzüntüdür, uçurumdur, yarğandır, -
Yox, yox, gülüm, bu şahlara yaraşmaz.

***

-Şah deyiləm, bir köləyəm yanında,
- Yox, sən sevən ürəklərin şahısan.
- Mənim sevgim şahlıqlardan uzaqdır,
- Yox, sən sevən ürəklərin şahısan.

-Mən didərgin şah oğluyam, on ildir,
Yerim-yurdum bu düzəndir, bu çöldür.
Şah söyləmə, bu könlümcə deyildir,
-Yox, sən sevən ürəklərin şahısan.

Odun yığıb böyük ocaq çatdılar,
Yanım deyə, məni oda atdılar,
Ürəyimi ip eləyib dartdılar,
-Yox, sən sevən ürəklərin şahısan.

- Şah deyiləm, gülüm, sənin kölənəm,
Bu yerlərdə öz yerimi bilənəm,
"Öl yolumda" desən, gedib ölənəm,
-Yox, sən sevən ürəklərin şahısan.

***

-Şahlığını almalısan əlinə,
Ölçü-biçi yoxdur, gülüm, sevgidə,
Sevgim olsun gərək şahlıq zirvəsi,
Ölçü-biçi yoxdur, gülüm, sevgidə.

Sevgi gərək ucalığa çevrilə,

Üstüağın şah dam-daşı devrilə,
Hər bir şeydən uca dura sevilən,
Ölçü-biçi yoxdur, gülüm, sevgidə.

Mən bu gündən sənə könül verirəm,
Sənlə birgə döyüşlərə girirəm,
Səni Minel şahı kimi görürəm,
Ölçü-biçi yoxdur, gülüm, sevgidə.

Qoy şah olsun mənim Qaraş sevgilim,
Alsın versin köçkünlərə Hindeli,
Bunca sevir səni vurğun könülüm,
Ölçü-biçi yoxdur, gülüm, sevgidə.

***

Bu sevgidən qorxub çoxu çəkindi,
Hər ulusun öz duyumu, öz yolu.
"Bir gözəldir, o da şaha vurulub",
Hər ulusun öz duyumu, öz yolu.

O, Başevdən qovulubdur açığı,
Qorxuludur gözlərinin batığı,
Necə sevib Məniş belə yazığı,
Hər ulusun öz duyumu, öz yolu.

-Biz qayıtmaq istəmirik Hindelə,
Yel deyilik əsək elə, ya belə.
Şah yerinə qoyur onu qız hələ,
Hər ulusun öz duyumu, öz yolu.

Biz gəlmişik Mindiyara qarışaq,
Minel ilə oturuşaq, duruşaq,
Gəlməmişik Üstüağla vuruşaq.
Hər ulusun öz duyumu, öz yolu.

***

Hexa dedi: – Sıxıntıdan çıxmışıq,
Bıçaq daha dayanmışdır sümüyə.
Çox qan tökdük, çox igidlər heç oldu,
Bıçaq daha dayanmışdır sümüyə.

Belə sevgi bizə yeni yamaqdır,
Sanki qandan, çılğınlıqdan uzaqdır,
Kim şah olmaq istəyirsə sarsaqdır,
Bıçaq daha dayanmışdır sümüyə.

Gərək biz də Üstüağı şah sayaq,
Gərək gedək ayağına baş qoyaq,
Odur bizə bu yerlərdə son dayaq,
Bıçaq daha dayanmışdır sümüyə.

Qoca Hexa bu sevgini pisləyir,
O nə kölə, nə şah olmaq istəyir,
İstəyən var, o da onda, yüzdə bir,
Bıçaq daha dayanmışdır sümüyə.

***

Hexaçılar, Mənişçilər yarandı,
Gülə-gülə yaman girdi araya,
Dilləşdilər, dalaşdılar, susdular,
Gülə-gülə yaman girdi ortaya.

Hərə gəlib bir təzə söz buyurdu,
Söyüş ilə bir-birini doyurtdu.
Ev tikənlər evlərini ayırdı,
Gülə-gülə yaman girdi araya.

Dal çevirdi bir-birinə əkində,
Üz döndərdi, ağız əydi biçində,
İşlər, sözlər düyün düşdü çətində,
Gülə-gülə yaman girdi araya.

Mənіş dedi:-Qayıdırıq Hindelə,
Hexa dedi:-Qarışarıq Minelə,
Parçalandı arielli, bax, belə,
Gülə-gülə yaman girdi araya.

***

Hexa çaldı dınqırını:
-Tanrı bizdən bezib deyən .
Dirrik bizə boylu olub,
Tanrı bizdən bezib deyən.

Yola getmir başbilənlər,
Yurd-yuvası sökülənlər,
Töküntüdür tökülənlər,
Tanrı bizdən doyub deyən.

Heç bilmirsən kim hardadır,
Bu ordandır, o burdandır,
Bu da tanrı yaradandır,
Tanrı bizdən doyub deyən.

Qocalmışam daha mən də,
Gəlib düşdüm yeni kəndə.
Böyük tanrı, əl tut sən də,
Tanrı bizdən doyub deyən.

***

Hexa bir də soraq tutdu,
Qaraş, Mənіş qaçıb gedib.
O yan, bu yan axtardılar,
Qaraş, Mənіş qaçıb gedib.

At yortanlar yol yordular,
Dağlar keçib, çay yardılar,
Yara töküb, qıç qırdılar,
Qaraş, Mənіş qaçıb gedib.

Hamı yorğun geri döndü,
"Vay" bürüdü çölü, kəndi,
Ağlamsınıb Hexa dindi,
Qaraş, Mənіş qaçıb gedib.

Əkbitəndən atlı gəldi,
Köçkünlərdən soraq bildi.
"Bu nə ulus, bu nə eldi".
Qaraş, Mənіş qaçıb gedib.

***

Hexa dedi:-Apar bizi,
Üstüağın qulluğuna.
Sözümüz var, gileyliyik,
Üstüağın qulluğuna.

Biz Hindeldən köçəriyik,

Bir sümüyük, bir dəriyik,
Baş tutmasa gedəriyik
Üstüağın qulluğuna.

Qaraş bizi tovlayıbdır,
Qızımızı ovlayıbdır,
Tanrı bizi qovlayıbdır
Üstüağın qulluğuna.

Qadan mənə, atlı Minel,
İşlərimiz yaxşı deyil.
Biz yazığıq, bizi yetir
Üstüağın qulluğuna.

***

Üstüağ şah haray çəkdi:
-Ölü necə xortdayıbdır.
Düşün, yer-yer gəzin onu,
Ölü necə xortdayıbdır.

Qarbaş gəlib desin bunu,
Buraxdırıb necə onu!
Nə olacaq bunun sonu,
Ölü necə xortdayıbdır.

Qarbaş bizə dönük çıxıb,
O, Başevə qara yaxıb.
Bizə Qaraş kimi baxıb,
Ölü necə xortdayıbdır.

Arielli gəlib gəlsin,
Yer yiyəsi bizik, bilsin,
Ancaq Qaraş gərək ölsün,
Ölü necə xortdayıbdır?

***

Qaraş, Mənişon gün yolu yordular,
Yol adamla bir doğulub, bir gəlib.
Çox cığırdan yola, yoldan cığıra,
Yol adamla bir doğulub, bir gəlib.

Sarmaşmışdı yol cığıra, gül gülə,
Yollar, yallar vermişdilər əl-ələ,
Baxırdılar bir qaraşın gözələ,
Yol adamla bir doğulub, bir gəlib.

Pıçıltılar, hıçqırtılar, öpüşlər,
Söyləmələr, səksənmələr, gülüşlər,
Burum-burum gül yoxuşlar, enişlər,
Yol adamla bir doğulub, bir gəlib.

Atlar qoşa, yorğa, söykək, yanaşı,
Qollar belə, bel boyuna dolaşıb,
Sevgi alıb aparırdı Qaraşı,
Yol adamla bir doğulub, bir gəlib.

***

İlk görüşdə səni sevdim, Mənişim,
Sevgi elə ilk görüşdən başlanır.
Çəkib mənim düşüncəmi apardın,
Sevgi elə ilk görüşdən başlanır.

Sonra sənin hər sözünü xoşladım,
Sonra səndən utanmağa başladım.
Səndən başqa nəyim vardı, boşladım,
Sevgi elə ilk görüşdən başlanır.

Ayrı düşsək neynəyərik görən biz,
Bir sevgiyçin doğulmuşuq ikimiz,
Bir şahlıqdır bizim uca sevgimiz,
Sevgi elə ilk görüşdən başlanır.

Səndən başqa heç bir şeydə gözüm yox,
Daha yazıq ürəyimdə dözüm yox,
Mindiyara qayıtmağa üzüm yox,
Sevgi elə ilk görüşdən başlanır.

***

-Mən də səni ilk baxışdan sevmişəm,
Qız sevgisi qorxaq olur azcana.
Bu sevgini gizlətmişdim hamıdan,
Qız sevgisi qorxaq olur azcana.

Öz-özümə danışırdım, gülürdüm,
Təklənəndə, göz yaşımı silirdim,
Səni ayda bir yol görə bilirdim,
Qız sevgisi qorxaq olur azcana.

Sonra hər şey göz yaşımda əridi,
Hər şey yandı, üzərimə yeridi,
Sən gözümdə bircə igid ər idin,
Qız sevgisi qorxaq olur azcana.

Sənə görə öz atamı atmışam,
Öz sevgimə qovuşmuşam, çatmışam,
Sevgilimin öpüşünü dadmışan,
Qız sevgisi qorxaq olur azcana.

***

Dildə sevgi, gözdə vurğun baxışlar,
Sevgi ilə qanadlanar iki gənc.
Qucaqlaşıb öpüşürlər at üstdə,
Sevgi ilə qanadlanar iki gənc.

Düzə dönüb eniş-yoxuş, dik-dolay,
Seçilməyir doğu, batı, günlə ay,
Duyulmayır soyuq, isti, qışla yay,
Sevgi ilə qanadlanar iki gənc.

Tikanlıqda bir gözəllik duyurlar,
Baş qoyanda daşı balınc sayırlar,
Sazağı da əl istisi sayırlar,
Sevgi ilə qanadlanar iki gənc.

Dindirirlər dinməz çəni, dumanı,
Səsləyirlər qurdu, quşu, qabanı,
Oxşayırlar kolu, gülü, tikanı,
Sevgi ilə qanadlanar iki gənc.

***

İki könül, iki ürək qovuşub,
Bir-birinə qovuşmaqdır gözəllik.
Yaşasa da ayrı-ayrı sevgilər,
Bir-birinə qovuşmaqdır gözəllik.

Göy meşələr, iri, seyrək ağaclar,
İpəkbaxış, yaşıl-yaşıl yamaclar,
Ürkək fillər, pırıldayan turaclar,
Bir-birinə qovuşmaqdır gözəllik.

Bu, dodaqdır, yoxsa bulaq-pıçıltı,
Gülüşdəndir, yoxsa sudan şırıltı,
Göz yaşıdır, yalvarışdır sızıltı,
Bir-birinə qovuşmaqdır gözəllik.

İki güldür, bir-birinə sarmaşıq,
Yatışında, duruşunda yaraşıq.
Gecə, gündüz bir-birinə qarışıb,
Bir-birinə qovuşmaqdır gözəllik.

***

Qaraş dedi: - Mən daha çox sevirəm,
Heç nə ilə ölçmək olmaz sevgini.
Məniş dedi:-Mənim sevgim dənizdir,
Heç nə ilə ölçmək olmaz sevgini.

-Mənim sevgim günəş kimi sönməzdir,
-Mənim sevgim çaylar kimi dönməzdir,
-Mənim sevgim dağa bənzər, enməzdir,
Heç nə ilə ölçmək olmaz sevgini.

-Sən bir gülsən, gözəl, mənim gözümdə,
-Sən bir dağsan mənə bu yer üzündə,
-Mənim sevgim gül-gül olub üzümdə,
Heç nə ilə ölçmək olmaz sevgini.

-Sevgi məndə bitən qızıl çiçəkdir,
-Sevgi məndə alovlanan ürəkdir, -
-Sevgi yoxsa, dirrik nəyə gərəkdir?
Heç nə ilə ölçmək olmaz sevgini.

***

Durulaşır, gözəlləşir sevənlər,
Tanrım, sənin yerdə kölgən sevgidir.
Uşaqlıqdan bitkinliyə keçiddir,
Tanrım, sənin yerdə kölgən sevgidir.

Həm ağlayır, həm sevinir, həm yanır,
Sevgi boyu bir sevincdir hər anı,
Od-alovdur, gül-çiçəkdir hər yanı,
Tanrım, sənin yerdə kölgən sevgidir.

İgidlikdir, ötkəmlikdir, birlikdir,
Hər ağrıya yatım olan dirrikdir,
Yetkinlikdir, ucalıqdır, birlikdir,
Tanrım, sənin yerdə kölgən sevgidir.

Nə önü var, nə sonu var onun da,
Bir sınaqdır tanrıların yanında,
Bir ağrıdır sevinclərin sonunda,
Tanrım, sənin yerdə kölgən sevgidir.

***

Bir gün axşam dağ çayının yanında
Yaxaladı naxırçılar onları.
Yatmışdılar burda qoşa, qolboyun,
Yaxaladı naxırçılar onları.

Şəlitləndi bir-birinə iki gənc,
Söyüşləri, baxışları dar, iyrənc,
Yox bir arxa, bir söykəniş, bir güvənc,
Yaxaladı naxırçılar onları.

Nə var idi əllərindən alındı,
Əl-ayağı, döş-başları yalındı.
Bax, beləcə onlar yola salındı,
Yaxaladı naxırçılar onları.

İki gənci yolda tez-tez vurdular,
Çox söz alıb soruşdular, sordular,
Sonda gəlib şah önündə durdular,
Yaxaladı naxırçılar onları.

***

Hindel şahın uca idi Başevi,
Başev şahın iç varını göstərir.
Fil sümüyü, yontu mərmər, su daşı,
Başev şahın iç varını göstərir.

Qalın, iri söykəncləri tutumlu,
Oturacaq ipək-pambıq, batımlı,
Oynaq gəzən incə qızlar yatımlı,
Başev şahın iç varını göstərir.

İncə-incə işləmələr göz çəkir,
Çox gözəldir, çox görkəmli tək-təki,
Ürəklərə sevinc əkir, gül əkir,
Başev şahın iç varını göstərir.

Gənclər durub dinmir, tutqun, bükülü,
İçlərində sevgi evi sökülü.
Üzlərindən acıq yağır, tökülür,
Başev şahın iç varını göstərir.

***

- Şah, mən Qaraş, şah yerinci* Qaraşam,
Şahım, şahlıq doğruluğu sevməyir.
Soyum Minel, yurdum isə Mindiyar,
Şahım, şahlıq doğruluğu sevməyir.

Biz qaçmışıq köçkünlərin içindən,
Ayrılmışıq köçkün Hindel köçündən.
Hər yer bizə dardır dar ev biçimdə,
Şahım, şahlıq doğruluğu sevməyir.

Üstüağ şah məni oddan keçirib,
Mənə oddan acı ağı içirib.
Könlümdəki söykəncləri uçurub,
Şahım, şahlıq doğruluğu sevməyir.

Biz üz qoyub dağı-daşı gəzirik,
Hər bir koldan sevgi gülü üzürük,
Bu düz yolda hər acıya dözürük,
Şahım, şahlıq doğruluğu sevməyir.

***

Hindel şahı sevinc içrə söylədi,
-Mindiyarda Üstüağ şah böyükdür.
Ona hər il çoxlu verinc** veririk,
Mindiyarda Üstüağ şah böyükdür.

Bizim Hindel üç yol sizə basılıb,
Gəlib yenə öz yurduna qısılıb.
Boynumuzdan vergi ipi asılıb,

Mindiyarda Üstüağ şah böyükdür.

Bəs sən niyə Üstüağdan inciksən,
Bunun üçün hələ sən çox kiçiksən,
Sən düyün ip, sən dolambac gədiksən,
Mindiyarda Üstüağ şah böyükdür.

_____
**Canişin*
***Verinc-xərac*

Necə olub sən onlardan qaçıbsan,
Gəlib kolluq içrə qanad açıbsan,
Atıb eli tək bu qızı qucubsan,
Mindiyarda Üstüağ şah böyükdür.

***

Biz Bacarla vuruşuruq bir aydır,
Yalançıya döyüş yaxşı sınaqdır.
Get vuruşa sən də qancıl Bacarla,
Yalançıya döyüş yaxşı sınaqdır.

Mineldəndir Bacarın da soy-kökü,
Get, de, bizdən qoy əl çəksin o tülkü,
Çatar ona sənin, deyən bu ərkin,
Yalançıya döyüş yaxşı sınaqdır.

Ox batmayır, bizuc, balta Bacara,
Boy hündürdür, qol güclüdür, üz qara.
Öz yerini bu vuruşda sən ara,
Yalançıya vuruş yaxşı sınaqdır.

Yaraq götür, atlı götür, yola düş,
Bu səninçin həm yürüşdür, həm görüş,
Yoxsa bitməz Bacar ilə bu döyüş,
Yalançıya vuruş yaxşı sınaqdır.

***

-Gözəl Mənişə, mən gedirəm döyüşə,
Sən arxamca su at, mənə uğur de.
Alın yazım olacaqdır bu döyüş,
Sən arxamca su at, mənə uğur de.

Üstün gəlsəm, qonaq olluq Hindelə,
Basılarsam, biz dönərik Minelə,
Gözlə məni, gözlə məni sən hələ,
Sən arxamca su at, mənə uğur de.

Ölsəm, gözəl, qal yurdunda, get ərə,
Tutaq olsam qayıt bizim yerlərə,
Doğduğunun adını qoy güllərə,
Sən arxamca su at, mənə uğur de.

Sənə görə mən götürdüm bu yolu,
Mən gedirəm öz sevgimdə var olum,
Gedirəm ki, acıqandan bac alım,
Sən arxamca su at, mənə uğur de.

***

-Öz yurduma qaytarmısan məni sən,
İndi sənsən mənim yurdum, ürəyim,
Gözləyirəm səni gündə neçə gün,
İndi sənsən mənim yurdum, ürəyim.

Sən qaytardın məni doğma yurduma,
Didərginlik adı qoydun adıma,

İstəyirəm gedim ora yardıma,
İndi sənsən mənim yurdum, ürəyim.

-Get, sevgilim, uğur sənin olacaq,
İkimizdən burda bir ad qalacaq,
İki ürək bir sevgilə dolacaq,
İndi sənsən mənin yurdum, ürəyim.

Mən Mənişəm, sənin sevgi qardaşın,
Səninləyəm mən hər yerdə yanaşı,
Bunu deyər sən dindirsən hər daşı,
İndi sənsən mənim yurdum, ürəyim.

***

Qaraş çapdı getdi beş gün, beş gecə,
Gecə, gündüz qoşa atdır, ağ, qara,
Nə gecədə, nə gündüzdə dayandı,
Gecə, gündüz qoşa atdır, ağ, qara.

Arxasınca Hind toplumu gəlirdi,
Onlar nələr olacağı bilirdi,
Hələ çoxu ona daldan gülürdü,
Gecə, gündüz qoşa atdır, ağ, qara.

Bacar isə gözləyirdi bir aydı,
Gərək Hindel ölkəsini alaydı,
Bu ölkədə böyük Xaqan olaydı,
Gecə, gündüz qoşa atdır, ağ, qara.

Onca ölkə tutmaq olmaz döyüşsüz,
Onca üstün olammazsan vuruşsuz.
Birincilik bilinərmi yarışsız,
Gecə, gündüz qoşa atdır, ağ, qara.

Ağı söyləncі

Gücər oğlu Bacar durub gözləyir,
Oğul boyda atasına oxşayar.
Qurd dərisi, quş lələyi üstündə,
Oğul boyda atasına oxşayar.

Qaya quşun gücü qalır lələkdə,
Qanadlıdır ağ lələklər küləkdən,
O, Gücərdir sanki qolda, biləkdə,
Oğul boyda atasına oxşayar.

Lopa bığı, sıx saqqalı qapqara,
Qaş yox, qılınc bənzəyirdi qaşlara.
Enlilikdə çiyin hara, bel hara,
Oğul boyda atasına oxşayar.

Gücər oğlu Bacar gəlir qabaqda,
Toplumları yay tək dartım, ayaqda,
Qaraş onu görüb durur uzaqda,
Oğul boyda atasına oxşayar.

***

İlk döyüşdə güclər durdu üz-üzə,
İlk görüşdə güclər tapır gücünü*,
Burda fillər, orda atlar qaynaşır,
İlk görüşdə güclər tapır gücünü.

Bizucların ucu bulud deşəndə,
Qalxan bitir yaraqlının döşündə,
Oxlar durur oxatanın dişində,
İlk görüşdə güclər tapır gücünü.

Qobuçölün kəhərləri quşqanad,
Lələk bağla, bu atlardan quş yarat,
Yeldən iti, quşdan yeydir kəhər at,
İlk görüşdə güclər tapır gücünü.

**Yerini*

Fil görkəmi, fil qorxusu böyükdür,
Ancaq kəhər çox itidir, çevikdir,
Biri görkəm, o birisi minikdir,
İlk görüşdə güclər tapır gücünü.

***

-Gözəl oğlan, kimsən, tanıt özünü,
Ölməmişdən deyər hər kəs adını.
Mən qarşında Gücər oğlu Bacaram,
Ölməmişdən deyər hər kəs adını.

Gözünü aç, yaxşı-yaxşı bax mənə,
Bil, batmayır qılınc, bizuc, ox mənə,
Bacarığım çoxdur, yoxdur yox mənə,
Ölməmişdən deyər hər kəs adını.

Mən Minelin, Mindiyarın oğluyam,
Keçmişimlə bu ölkəyə bağlıyam,
Yurdu gərək bu qılıncla saxlayam,
Ölməmişdən deyər hər kəs adını.

Mən qarşında Gücər oğlu Bacaram,
Mindiyara Hindeldən yol açıram,
Gərək olsa qanadlanıb uçaram,
Ölməmişdən deyər hər kəs adını.

***

- Mən Qaraşam, İşdayağın nəvəsi,
Oddan qorxmaz od-alovdan keçənlər.
Məni oda atdı, Başev yoxladı,
Oddan qorxmaz od-alovdan keçənlər.

Mindiyarda şah soyuma qarşıyam,
Qaçdım burdan, indi qaçqın quşuyam,
Arielli bir gözəlin xoşuyam,
Oddan qorxmaz od-alovdan keçənlər.

Mən bilirəm, sən güclüsən, Bacarsan,
Qılıncınla keçməzlərə açarsan.
Alnındakı lələyinlə uçarsan,
Oddan qorxmaz od-alovdan keçənlər.

Mən könlümdən qorxuları silmişəm,
Güclülərlə vuruşmağa gəlmişəm,
Böyük gücü doğruluqdan bilmişəm,
Oddan qorxmaz od-alovdan keçənlər.

***

–Sən həm gəncsən, həm də mənim soyumsan,
Ər, soyundan olanlarla vuruşmaz.
Üstüağ şah vuruşmayıb Qaraşla,
Ər, soyundan olanlarla vuruşmaz.

Qoşul mənə, gənc soydaşım, ey qoçaq,
Mindiyara bu Hindeldən yol açaq,
Gedək böyük Üstüağı biz qucaq,
Ər, soyundan olanlarla vuruşmaz.

Mənim suçum şah kökümü görməkdi,
Öz borcumu öz soyuma verməkdi.
Qanadımı Başevimə gərməkdir.
Ər, soyundan olanlarla vuruşmaz.

Mən gəlmişəm, Gücəroğlu Bacaram,
Soy-köküm tək qardaş, səni qucaram.
Sənlə birgə yeni yollar açaram.
Ər, soyundan olanlarla vuruşmaz.

***

-Mənim yurdum, soyum indi sevgidir,
Gör-gör içrə böyük şahlıq sevgidir.
Mən Başevdən çiyrimişəm, bezmişəm,
Gör-gör içrə böyük şahlıq sevgidir.

Nə Hindeli, nə Mineli sayanam,
Nə şahlığa, nə soy-kökə uyanam,
Sevgim üçün gərək qana boyanam.
Gör-gör* içrə böyük şahlıq sevgidir.

Nə dəli bil məni, qardaş, nə danla,
Mənim sevgi istəyimi düz anla,
Tək sevgidir, heçdir yerdə qalanlar,
Gör-gör içrə böyük şahlıq sevgidir.

Təbiət

Ondan başqa heç nəyim yox, yurd-yuvam,
Sevgi yoxsa mən boş çöləm, boş qabam,
Mən sevgidən keçən qızıl bir sapam.
Gör-gör içrə böyük şahlıq sevgidir.

***

-Mən vuruşmaq istəmirəm sənlə,
Mən sevginin dadı nədir, bilmirəm,
Yurd-yuvadan, eldən uca heç nə yox.
Mən sevginin dadı nədir, bilmirəm.

Tutuq* edib məni Tanrı Qızçiçək,
Yoxdur məndə qadınlara bir istək.
Sevsəm, sevim Qızçiçəyi mən gərək,
Mən sevginin dadı nədir, bilmirəm.

Atam Gücər, anam isə Qızuçar,
Soyum Minel, ölkəm isə Mindiyar.
Tanrı mənə güc veribdir o ki var,
Mən sevginin dadı nədir, bilmirəm.

Sevən oğlan, qoşul mənə, bir olaq,
Bu diyardan o diyara yol salaq,
Gedək böyük Üstüağa ər olaq.
Mən sevginin dadı nədir, bilmirəm.

***

Bir səs gəldi meşələrdən:-Bacarım,
Sevilsə də tanrı gərək sevməsin.
Sevdim səni, mən qovuldum yerimdən.
Sevilsə də tanrı gərək sevməsin.

Aç qolunu, Qızçiçəyi qucaqla,
Gəl, burdayam, məni soruş, soraqla,
Sən də mən tək keçmişləri ayaqla,
Sevilsə də tanrı gərək sevməsin.

Mənə toxun, mən də gözə görünüm,

Adam olum, mən arxanca sürünüm,
Yoxdan çıxım, adamlığa bürünüm,
Sevilsə də tanrı gərək sevməsin.

_____
*Əsir

Məni alsan düşərliklər azalar,
Yaman özü düşük düşər, sozarar.
Uşaq, davar, quzu birə yüz olar,
Sevilsə də gərək tanrı sevməsin.

***

-Bacar dedi, gözəl tanrı, hardasan,
Bu sözləri eşitməyir çox adam.
Sən gəlibsən öc almağa Bacardan,
Bu sözləri eşitməyir cox adam.

-Yox, Bacarım, çox sevirəm səni mən,
Bu gəlişim sevgidəndir, sevgidən.
Ürəyimi sən ovladın, bircə sən,
Bu sözləri eşitməyir çox adam.

-Yoxdur mənim sevmək, sevgi istəyim,
Necə sevim, səni alım, çiçəyim,
Tanrı alıb məndən ərlik diləyin.
Bu sözləri eşitməyir çox adam.

- Mən qapmışam onu səndən, Bacarım,
Mənəm sənin itirilmiş taparın,
Ən sevimli, ən yatımlı tutarın,
Bu sözləri eşitməyir çox adam.

***

Bacar bir də göz gəzdirdi kövşənə,
Ağlayırdı uzaqlarda Qızçiçək.
Ancaq gözə görünmürdü o tanrı,
Ağlayırdı uzaqlarda Qızçiçək.

O, Bacara istəyini salınca,
Yollanmışdı sevgisinin dalınca.
Gəzəcəkdi bu sevgisi qalınca,
Ağlayırdı uzaqlarda Qızçiçək.

Kim bilirdi nəyi üstün tutmuşdu,
Tanrılığı niyə, neyçin atmışdı.
Sevgisinin işığına batmışdı.
Ağlayırdı uzaqlarda Qızçiçək.

***

Bir ox gəlib dəydi bu an Bacara,
Yuxudaydı, sanki Bacar ayıldı,
Oxu atan Qaraş idi uzaqdan,
Yuxudaydı, sanki Bacar oyandı.

Bir də, bir də... Ox yağışı başladı,
Qaraş ona bizucunu tuşladı,
O da "soy-kök" duyumunu boşladı.
Yuxudaydı, sanki Bacar ayıldı.

Öz yerindən tərpənəndə İtiat,
Tunc qalxanlar qalxdı göyə neçə qat,
Min-min kəhər çapdı, gəldi quşqanad,
Yuxudaydı, Bacar sanki ayıldı.

Ağır toppuz dəydi onun çiyninə,
Qan sıçradı birdən onun beyninə,
Qurd dərisi kip oturdu əyninə,
Yuxudaydı, Bacar sanki oyandı.

***

Valayladı, ancaq atdan aşmadı,
Lapdan dəyən vurum beşqat ağırdır.
Fillər susdu, kəhərlərsə kişnədi,
Lapdan dəyən vurum beşqat ağırdır.

Bir yürüşlə fillər durdu, yoruldu,
Hindellinin lapdan bağrı yarıldı.
Nəriltidən şişə göllər qırıldı,
Lapdan dəyən vurum beşqat ağırdır.

Sağa, sola qılınc, toppuz enirdi,
Bir andaca adam leşə dönürdü.
Qan axırdı, gözdə işıq sönürdü,
Lapdan dəyən vurum beşqat ağırdır.

Qılınc, bizuc batmayırdı Bacara,
Ölüm idi hər bir vurum, hər yara.
Qaraş hanı, o çəkilib bəs hara?
Lapdan dəyən vurum beşqat ağırdır.

***

Fillər qaçıb səpilmişdi düzlərə,
Fil də dözməz Bacar ilə savaşda,
Yaralılar içindəydi Qaraş da,
Fil də dözməz Bacar ilə savaşda.

Ölüm quşu oturmuşdu çiyninə,
Qan yaxalıq geydirmişdi əyninə.
Bulud enib ağlayırdı gününə,
Fil də dözməz Bacar ilə savaşda.

Tapdı onu, Bacar aldı ölümdən,
Qılınc yara açmış idi belində,
Hey yox idi ürəyində, dilində,
Fil də dözməz Bacar ilə savaşda.

Ağır-ağır uduğunu* duydular,
Yarasını yandırdılar, yudular.
Üzuquylu bir dik üstə qoydular,
Fil də dözməz Bacar ilə savaşda.

***

Gecə qaldı Bacar onun yanında,
Yaralını qoyub getmək olarmı,
Dedi, gecə dilə gələr, dirilər,
Yaralını qoyub getmək olarmı?!

Qurddan, quşdan gecə onu qorudu,
Üç yol açıb yarasını sarıdı.
Qalmağına çox az inam var idi,
Yaralını qoyub getmək olarmı?!

Haradasa ağlayırdı Qızçiçək,
Bulud-bulud göz yaşları tökərək.
Bu, o qızdır, ya ki sənsən, ey külək,
Yaralını qoyub getmək olarmı?!

Ta ağlama, qız, könlümü soyursan,
Məni məndən alıb yalqız qoyursan.

Sevgi nədir, sən sevgiyə uyubsan,
Yaralını qoyub getmək olarmı?!

*Nəfəs

***

Günəş çıxdı, Qaraş açdı gözünü,
Mənіş idi, Mənіş oldu ilk sözü,
Bacar ona baxdı, güldü, sevindi,
Mənіş idi, Mənіş oldu ilk sözü.

Nə yaxşı ki, Qaraş qaldı, ölmədi,
Sevgi nədir, Mənіş kimdir bilmədi,
Dilinə də sevgi sözü gəlmədi,
Mənіş idi, Mənіş oldu ilk sözü.

-Qardaş, soy-kök, gözünü aç, mənə bax,
Sən nə desən, inan, elə olacaq.
Burda bizim ikimiz də bir qonaq,
Mənіş idi, Mənіş oldu ilk sözü.

Su istədi, su verdilər, dikəldi,
Başı üstə ölüm vardı, çəkildi,
Ürəyində inam evi tikildi,
Mənіş idi, Mənіş oldu ilk sözü.

***

-Bacar, məni sevgilimə yetir sən,
Bu dirriyin hər çaları sevgidir,
Bu Hindeldən əl çək, çıxaq düz yola,
Bu dirriyin hər çaları sevgidir.

Bacar dedi: - Mən Hindeldən keçirəm,
Əkbitənə başqa bir yol seçirəm,
Sənlə gedib bu yolları ölçürəm,
Bu dirriyin hər çaları sevgidir.

Onda gedin Mənişimi gətirin,
Hind şahına sağolumu yetirin,
Mən ölərsəm Mindiyardan götürün,
Bu dirriyin hər çaları sevgidir.

Yola düşüb getdi elçi atlılar,
Gedib, gedib qız Mənişə çatdılar.
Alıb onu bir də geri çapdılar,
Bu dirriyin hər çaları sevgidir.

***

Mənіş isə əli dolu gəlmişdi,
Yoxsa onu buraxmazdı Hind şahı.
Şah demişdi "ağı içirt Bacara"
Yoxsa onu buraxmazdı Hind şahı.

Gəlib gördü ölümcüldür Qaraşı,
Ölüm quşu başı üstə dolaşır,
Bacardasa güc, gələcək, yaraşıq,
Yoxsa onu buraxmazdı Hind şahı.

Düşündü ki, ona verim ağını,
Dedi, çəkim ürəyinin yağını.
Başqa sayaq qurum dərin quyunu,
Yoxsa onu buraxmazdı Hind şahı.

Dedi, nə ki sağalmayıb bu hələ,
Qoy gətirim o birini mən ələ,

O subaydır, ipə-sapa tez gələr,
Yoxsa onu buraxmazdı Hind şahı.

***

-Mən Mənişəm, igid Bacar, sev məni,
Tanrıların ilkin andı sevgidir.
Məni sevsən çox işləri bilərsən,
Tanrıların ilkin andı sevgidir.

Məni sevsən sən şahlığa çatarsan.
Öz soyunun işığına batarsan.
Hindeli də Mindiyara qatarsan,
Tanrıların ilkin andı sevgidir.

Mən biləni Qaraş daha sağalmaz,
Sevgi üstdə qurulan ev dağılmaz,
Sənin kimi oğul bir də doğulmaz,
Tanrıların ilkin andı sevgidir.

Məni sevsən, elim-soyum sayılar,
Nə söz olar, nə də Qaraş ayılar.
O da gedər, sonevinə qoyular.
Tanrıların ilkin andı sevgidir.

***

-Məniş, məndə sevgi nədir, olmayıb,
Mənim sevgim bir tanrıda girovdur.
Bu yaşımda sevməmişəm bir qızı,
Mənim sevgim bir tanrıda girovdur.

Sən gözəlsən, Qaraş sənin vurğunun,
Sən turacsan, Qaraş sənin quzğunun,
Sevin, sevgi üstə qurun qurğunu.
Mənim sevgim bir tanrıda girovdur.

-Sən igidsən, uca, hündür, yenilməz,
Sevgi igid oğullara yaraşır.
Tanrıları qoy qırağa, məni sev,
Sevgi igid oğullara yaraşır.

Məni sevsən tez çatarsan tanrıya,
Sevgi bütün ağrılara yarıyar,
Yeddi arxan qalar, birgə qarıyar.
Sevgi igid oğullara yaraşır.

***

Gecə Qaraş bir də, bir də bayıldı,
-Mənişə- deyib, o, Mənişi səslədi.
-Mən burdayam, yanındayam, sevgilim,
Mənişə-deyib, o, Mənişi səslədi.

-Mən özümü, gülüm, sənə yetirdim,
Bacar üçün ağı-ölüm gətirdim,
Heç bilmirəm necə ona yedirdim,
Mənişə-deyib, o, Mənişi səslədi.

-Yaxşı budur ver ağını mənə sən,
Qayıt geri, uzaq düşmə elindən.
Son günədək sevəcəyəm səni mən,
Mənişə-deyib, o, Mənişi səslədi.

-Gərək Bacar içə ilan ödünü,
Gərək görə sevgisini qadının,
Mən minərəm onun İtiatını,

Mənişə-deyib, o, Mənişi səslədi.

***

Onlar gəlib Əkbitənə çatanda,
Yollar, yallar, dağlar bütün qar idi.
Qaraş hələ durmamışdı ayağa,
Yollar, yallar, dağlar bütün qar idi.

Başev çıxdı gələnlərin önünə,
Al geyimlər geydi hamı əyninə,
Hamı gəldi sevinc, bayram gününə,
Yollar, yallar, dağlar bütün qar idi.

Hamı görmək istəyirdi Qaraşı,
Həm də onu Mənişə ilə yanaşı,
Bacar böyük Turər şahın qardaşı,
Yollar, yallar, dağlar bütün qar idi.

Bacar hündür, qaya köküs, yenilməz,
Üstüağla bir almadır, bölünməz,
Oxşarlıqda bir ayrılıq bilinməz.
Yollar, yallar, dağlar bütün qar idi.

***

Bircə Qarbaş sevinmədi bu işdən,
Çox da çəkməz, yalan bir gün bəllənər.
"Qaraş ölüb" deyə yalan demişdi,
Çox da çəkməz, yalan bir gün bəllənər.

Nə deyəydi şaha indi o yazıq,
Nə ağırdır bunca üzü qaralıq.
Getdi daha o inamcıl ucalıq,
Çox da çəkməz, yalan bir gün bəllənər.

Üstüağın baxışları acıqlı,
Onun sözü, tərpənişi qılıqlı,
Qaraş gəlib üzü, beli sarıqlı.
Çox da çəkməz, yalan bir gün bəllənər.

"-Tanrı, məni öz adıma bağışla,
Şahım, məni dindir, danla, qarğışla.
Məni yeyir, üzür qanlı baxışlar.
Çox da çəkməz, yalan bir gün bəllənər.

***

Sevinc içrə çağlayırdı Mindiyar,
Bal kimidir ağırlıqda bol sevinc.
Sevindilər, sarmaşdılar, daşdılar.
Bal kimidir ağırlıqda bol sevinc.

Qaraş tutqun danışırdı, utancaq,
Oddan keçmə anlarını anaraq,
Qıvrılırdı acığından yanaraq,
Bal kimidir ağırlıqda bol sevinc.

Dadlı-duzlu yapma-pişmə yeməklər,
Bal kimiydi boya-boya çörəklər,
Axınırdı sevinc dolu bəbəklər,
Bal kimidir ağırlıqda bol sevinc.

Danışırdı Bacar Gücər, Düzərdən,
Üstüağa göz qoyurdu o hərdən,

Söz açırdı Qobuçöldən, Çineldən,
Bal kimidir ağırlıqda bol sevinc.

***

Üzüm suyu paylayırdı Mənişdə,
Axınırdı, uğunurdu içənlər.
Göz dikmişdi Bacar gözəl Mənişə,
Axınırdı, uğunurdu içənlər.

Üstüağ şah vurulmuşdu Bacara,
Belə yaşda saqqal qara, bığ qara.
Turər hara, Bacar hara, o hara,
Axınırdı, uğunurdu içənlər.

Qarbaş, Qaraş, Mənişüçü bir idi,
Ayazımış üzlər bəyaz qar idi.
Dillərinin ucunda söz var idi.
Axınırdı, uğunurdu içənlər.

Başev qızıl işıqlara batmışdı,
İşıq gedib tanrılara çatmışdı.
Yeyə-yeyə çoxu düşüb yatmışdı.
Axınırdı, uğunurdu içənlər.

***

Obaşdandır, bir səs düşdü ellərə,
Toydan sonra heç nə qalmır yerində.
Bayram, sevinc, toy, çalhaçal bitmişdi,
Toydan sonra heç nə qalmır yerində.

Qaraş, Qarbaş, Mənişqaçıb getmişdi,
İtiatı minib yollar ötmüşdü,
Gecə özu qaranlıqda itmişdi,
Toydan sonra heç nə qalmır yerində.

Bacarınsa baxışları axırdı,
Yeriyəndə yıxılırdı, qalxırdı.
İlan ödü onu içdən yaxırdı,
Toydan sonra heç nə qalmır yerində.

Lələyini bağlamışdı alnına,
Yollanırdı İtiatın yanına,
Ancaq ağı yerimişdi qanına,
Toydan sonra heç nə qalmır yerində.

Qızçiçək söyləncі

Bacar çıxıb yolda düşüb qalmışdı,
İlan ödü yeməkdəydi içini.
İtiatı qaçırmışdı qaçanlar,
İlan ödü yeməkdəydi içini.

Qızçiçəyin səsi hardan gəlirdi,
Altındakı sulu qardan gəlirdi,
Altyerdəki yoxdan, vardan gəlirdi.
İlan ödü yeməkdəydi içini.

- Qar ye, qar ud, mənim igid Bacarım,
Məni çağır, sənə kəsi* hər varım,
Mənim sevgim, ey ikinci diyarım,
İlan ödü yeməkdəydi içini.

Məni çağır, mən o "çiçək" deyiləm,
Gərək gəlib hər ağrını mən biləm,
Mənim şahım, qurtuluşum, ər lələm,
İlan ödü yeməkdəydi içini.

_____
Qurban

***

Bacar alıb lopa-lopa qar uddu,
Qar yerinə ağı qusdu o tez-tez.
İlan ödü seyrəkləşdi qanında,
Qar yerinə ağı qusdu o tez-tez.

O soyundu, döş söykədi ağ qara,
Su səpirdi qar tüstüsüz odlara,
Yavaş-yavaş hey gəlirdi Bacara,
Qar yerinə ağı qusdu o tez-tez.

Qar əridi, dörd bir yanda öd oldu,
Bacar qarda yanar-yanmaz od oldu.
Qar qarışdı ödə, sarı su oldu,
Qar qarışıq ağı qusdu o tez-tez.

Qızçiçək də ağlayırdı uzaqda,
Var olmağa çalışırdı o, yoxdan,
Bacar ona qucaq açmış bayaqdan,
Qar qarışıq ağı qusdu o tez-tez.

***

-Qızçiçəyim, gəl üstümə, ölürəm,
Onda sən də ölüm idin, qayğılım.
Məni qurtar bu ölümün əlindən.
Onda sən də ölüm idin, qayğılım.

Gəl üstümə, qollarımı açmışam,
Qaya idim, öz dibimdən uçmuşam,
İndiyəcən niyə səndən qaçmışam,
Onda sən də ölüm idin, qayğılım.

***

-Niyə mənə inanmırdın, Bacarım,
-Sevmək üçün məndə inam yox idi.
-Niyə məni saymayırdın, igidim,
-Sevmək üçün məndə inam yox idi.

-Yüz il idi mən yox idim varlıqda,
Dolanırdım dağda-daşda, qoruqda,
Çox ağırdır təklik çəkib darıxmaq,
-Sevmək üçün məndə inam yox idi.

-O Altyerdə görüşümüz olandan,
Sənin sevgin ürəyimə dolandan,
Adamlaşdım tanrı ikən yalandan,
-Sevmək üçün məndə inam yox idi.

-Altyerdən də məni qovdu tanrılar,
Dedilər ki, sənlik deyil bu diyar,
Get, Bacara qovuş, səndə sevgi var,
-Sevmək üçün məndə inam yox idi.

***

-Qızçiçəyim, yeni doğma varlığım,
Sevgi aldı məni ölüm əlindən.
Mən qar yedim, ağı qusdum, sağaldım,
Sevgi aldı məni ölüm əlindən.

Nə gözəlsən, yatımlısan, uyarsan,
Qoy qan qusum, bir gün səndən doyarsam,
Qoy yox olsun səndən gözəl nə varsa,
Sevgi aldı məni ölüm əlindən.

***

-Sev məni sən, a yenilməz Bacarım,
Sevgi bütün tanrılara tanrıdır.
Sevdim səni, tanrılıqdan qovuldum,
Sevgi bütün tanrılara tanrıdır.

Baxma, sevmək, sevilməkdə naşıyam,
İndi qanlı düşərliyə* qarşıyam,
Yaman deyil, yamanlığa qonşuyam,
Sevgi bütün tanrılara tanrıdır.

***

Tək getmişdi Bacar, qoşa qayıtdı,
Hər adamda qoşa varlıq yaşayır.
Acı-dadlı, ağrı-sevinc, suyla od,
Hər adamda qoşa varlıq yaşayır.

Alt gör-gör də, üst gör-gör də qoşadır,
Onlar bunu, bunlar onu yaşadır.
Qoşa varlıq ikibaşdır, haçadır,
Hər adamda qoşa varlıq yaşayır.

_____

****Xəstəlik***

Yoxu vardan yaradanlar bilirlər,
İkisi də tanrılıqdan gəlirlər,
Sevənlər var gülə-gülə ölürlər.
Hər adamda qoşa varlıq yaşayır.

Varı yoxdan, yoxu vardan yaradan,
Bir var, bir yox, var oldular arada,
Tanrı özü seçir ağı qaradan,
Hər adamda qoşa varlıq yaşayır.

***

Tək getmişdi, Bacar qoşa qayıtdı,
Dedilər ki, bunlar qoşa tanrıdır,
Üstüağ şah az qalmışdı bayılsın,
Dedilər ki, bunlar qoşa tanrıdır.

Yaraşıqlı boy-buxunda, əyində,
Birisi ağ, birisi boz geyimdə,
Gözəl, gözəl danışıqda, deyimdə,
Dedilər ki, bunlar qoşa tanrıdır.

Hamı qaldı gözü, ağzı açıla,
Az qaldı ki, Başev dibdən uçula,
Şimşək isti-soyuq yerdə saçılar.
Dedilər ki, bunlar qoşa tanrıdır.

Üstüağ şah özü çıxdı qabağa,
Bir də dedi göz aydınlıq qonağa,
Qızlar baxdı o gül, yumru yanağa,
Dedilər ki, bunlar qoşa tanrıdır.

***

İtiatı qaçırıblar,
At kişinin güvəncidir,
Ata, ana, bala yeysə,
At kişinin güvəncidir.

Bacar bir at minsin gərək,
Öz miniyi sansın gərək.
İtiatı ansın gərək,
At kişinin güvəncidir.

İtiatı görən varmı,
Ondan soraq verən varmı.
Gedib tapan ərən varmı,
At kişinin güvəncidir.

Niyə Bacar düşüb belə,
Üstü-başı tökük belə,
İri gözlər çökək belə,
At kişinin güvəncidir.

***

-Harda itdi bu İtiat,
Qızıl itmir, oğurlanır.
İtənləri kim tapacaq,
Qızıl itmir, oğurlanır.

Kim gətirdi, kim götürdü,
Kimi hara at ötürdü,
Kim onu gözdən itirdi,
Qızıl itmir, oğurlanır.

Duruşu bənzər marala,
Görsə məni o yan alar,
Yalı ağdır, özü ala,
Qızıl itmir, oğurlanır.

Kişnə maralım İtiat,
Qayıt geri, qan-tərə bat.
Üstündəki qancılı at,
Qızıl itmir, oğurlanır.

***

Şah söylədi:-Toplum getsin,
Oğru uzaq gedə bilməz,
Qarbaş, Qaraş, Məniş qaçıb,
Oğru uzaq gedə bilməz.

Aldadıbdır Qarbaş bizi,
Ayrı-ayrı hərəmizi.
Qara olsun qara üzü,
Oğru uzaq gedə bilməz.

Gedin, tutun, kəsin, qırın,
Ox yağdırın, qılınc vurun,
At səyirdin, sıra yarın,
Oğru uzaq gedə bilməz.

Gəzin yalı, yolu, döşü,
Yaxın köçkün quruluşu,
Qoymayın daş üstə daşı,
Oğru uzaq gedə bilməz.

***

Bacar dedi:-Üstüağ şah,
Gözəl qadın göz aldadır.
Aldatmışdı Məniş məni,
Gözəl qadın göz aldadır.

Mənə dedi, ey igid ər,
Hindel ilə vuruşma gəl,
Mən yazığam, Məniş gözəl,
Gözəl qadın göz aldadır.

Məni basma - dedi-Bacar,
Şah əlində sevgilim var,
Məniş gözü yaşlı qalar,
Gözəl qadın göz aldadır.

Aldadıblar onlar məni,
Böyük şahım, həm də səni,
Tovlayırlar hər yetəni,
Gözəl qadın göz aldadır.

***

-Qoy mən gedim dallarınca, Üstüağ,
Qorxar oğru arxasınca gələndən.
Mən onları tutacağam arxadan,
Qorxar oğru arxasınca gələndən.

Mən deməsəm uçan deyil İtiat,
İstəyirsən bizlə onu, deş, qanat,
Lap ağacla döş-başına vur, qanat,
Qorxur oğru arxasınca gələndən.

Mən gedirəm, qardaş oğlu, arxayın,
Önlərinə çıxacağam dolayı,
Acıqana bəsdir bircə harayım,
Qorxur oğru arxasınca gələndən.

Qızçiçəyim, ürəkli ol hələ sən,
Hər bir şeyi Üstüağa söylə sən,
Ürəyini sevgi üstə köklə sən.
Qorxur oğru arxasınca gələndən.

***

Bacar getdi, birdən uçdu yerindən,
Adam uçub quşa dönə bilərmiş,
Qızuçardan uçarlığı var idi,
Adam uçub quşa dönə bilərmiş.

Göz yaşını silib baxdı Qızçiçək,
-Yardım elə Bacarıma, ey külək.
Bir azdan o, Qayaquşa dönəcək,
Adam uçub quşa dönə bilərmiş.

Qız hər şeyi Üstüağa danışdı,
Ağlamaqdan üzü-gözü qırışdı,
Sorğuçular bir-birinə qarışdı,
Adam uçub quşa dönə bilərmiş.

Sonda dedi: – Quşdur onun anası,
Gəlsin mənə bütün qada-balası,
Mənəm onun ilkin sevgi sonası,
Adam uçub quşa dönə bilərmiş.

***

Üstüağ şah toy çaldırdı Başevdə,
Hamı dedi, sağ ol, Bacar, Qızçiçək.
Kövrəltmişdir bizi sınıq sevginiz,
Hamı dedi, sağ ol, Bacar, Qızçiçək.

Başev bildi Bacar Gücər oğludur,
Bu soy-köklə Üstüağa bağlıdır,
Dibdaşları Qobuludur, dağlıdır,
Hamı dedi, sağ ol, Bacar, Qızçiçək.

Ellər kənd-kənd soraqlaşıb gəldilər,
Bacar kimin qanındandır bildilər,
Qucaqlayıb öpüşdülər, güldülər,
Hamı dedi, sağ ol, Bacar, Qızçiçək.

Gözlədilər Bacar gəlsin, ər olsun,
Bu toy səsi Çinə, Hində yayılsın,
Qızçiçəklə Bacar bir ev sayılsın,
Hamı dedi, sağ ol, Bacar, Qızçiçək.

***

Bacar gəldi, daldan çatdı oğruya,
At təngiyər, ağır yüklə yüyürməz.
O çağırdı İtiatı arxadan,
At təngiyər, ağır yüklə yüyürməz.

İtiata yüklənmişdi üçü də,
Yazıq atın tükənmişdi gücü də,
Tərləmişdi başı, döşü, içi də,
At təngiyər, ağır yüklə yüyürməz.

Eşidincə at Bacarın səsini,
Çırpdı yerə birdən-birə özünü,
Bitdi onun yenilməyən dözümü,
At təngiyər, ağır yüklə yüyürməz.

***

-İçirmisən ağı mənə, qoy olsun,
Məniş, səni bağışladım bu ata,
Aldatmısan məni Hindel düzündə,
Qaraş, səni bağışladım bu ata.

Oğurladın sən atımı, qoy olsun,
Qarbaş, qayıt sən mənimlə bu atla,
Üstüağ şah səni məndən istəyib,
Qarbaş, qayıt sən mənimlə bu atla.

Yaralıdır Qaraş, hələ ölgündür,
Məniş hələ utancaqdır, üzgündür,
Sevənləri bağışlamaq düzgündür,
Qaraş, qayıt sən mənimlə bu atla.

Nə durubsan, min tərkimə, ay yoluq,
Daha keçməz bu yaltaqlıq, bu qılıq,
Düz danışsan əgər şaha biryolluq,
Qarbaş, qayıt sən mənimlə bu atla.

***

Bacar gəlib Əkbitənə yetişir,
-Tanrım, niyə bu yer belə doğmadır.
O, toy-düyün görür hər bir bucaqda,
Tanrım, niyə bu yer belə doğmadır.

Başev çıxır qabağına birbəbir,
Qarbaş baxır Üstüağa, təntiyir.
Görək Qarbaş bu gəlişdə nə deyir,
Tanrım, bu yer niyə belə doğmadır.

–Bacar, yaxşı gətirmisən Qarbaşı,
Mənə heç nə ağır deyil yalandan.
Yalançını keçirərik biz oddan,
Mənə heç nə ağır deyil yalandan.

Baş bu gündən sənsən döyüş-vuruşa,

Sənsən öyrənc mənim oğlum Yürüşə,
Siz bir yerdə gedəcəksiz döyüşə,
Mənə heç nə ağır deyil yalandan.

***

-Şahım, məni şahlığına bağışla,
-Yalançını bağışlamaz tanrı da.
Sən şahını aldatmısan Başevdə,
Yalançını bağışlamaz tanrı da.

-Şahım, mənim söyləməyə sözüm var,
-Danışmağa hələ yenə üzün var,
Deyən, sənin bu Başevdə gözün var,
Yalançını bağışlamaz tanrı da.

-Şahım, burax, qoy özümü öldürüm,
-Yox, ölümü oddan keçmə bildirər.
Od təmizdir, o, satqını öldürər,
Yalançını bağışlamaz tanrı da.

-Şahım, məndə suç olmayıb bu işdə,
-Sən nə etdin Bacar ilə görüşdə,
Sən açıldın, satqın, bu son gedişdə,
Yalançını bağışlamaz tanrı da.

***

Od qalandı, alov gur-gur ucaldı,
Odda yanan arı gedər sonevə,
Qarbaş dedi:-Mən bu oddan keçərəm,
Odda yanan arı gedər sonevə.

Addımladı, qorxaq idi, ürkülü,
Domba gözlər qorxuluydu, görgülü,
Göydən baxan ağ buludlar güzgülü,
Odda yanan arı gedər sonevə.

Bir bağırtı düşdü dağa, ormana,
Birdən hamı bələkləndi dumana,
Satqın adam oddan çıxmaz o yana,
Odda yanan arı gedər sonevə.

Qarbaş yandı, bir də, bir də bağırdı,
Qorxusundan Üstüağı çağırdı,
Od yandırıb, tüstü onu boğurdu,
Odda yanan arı gedər sonevə.

İki döyüş söyləncі

Çox çəkmədi Başevdəki toy-düyün,
Pisin yaxşı, yaxşının pis günü var.
Hər ikisi bir göy altda doğulub,
Pisin yaxşı, yaxşının pis günü var.

İçindəki ölmüş qurdu dirildib,
Mindiyara Hindel toplum yeritdi,
Qaçqınları qırdı-yaxdı, kiritdi,
Pisin yaxşı, yaxşının pis günü var.

O yandan da Qeysər başraq götürdü,
Suboğaza böyük yürüş gətirdi,
Hər bir şeyi tapdaladı, itirdi,
Pisin yaxşı, yaxşının da pisi var.

İki yandan əsib gəldi qasırğa,
Biri çılğın, o birisi basırğan,
Yaltaq-yazıq, basıq, həm də qızırğan,
Pisin yaxşı, yaxşının da pisi var.

***

Böyük toplum iki yerə bölündü,
Nə bölünsə gücdən düşər iki qat.
Üstüağ şah günbatana yüyürdü,
Nə bölünsə gücdən düşər iki qat.

Öz sıyırma qılıncını qaparaq,
Bacar getdi Hindel üstə çaparaq,
Gah yer ilə, gah da yerdən qoparaq,
Nə bölünsə gücdən düşər iki qat.

Mindiyarı iki yandan sıxdılar,
Dam-daşını, yer-yurdunu yaxdılar,
Ancaq yenə Minellidən qorxdular,
Nə bölünsə gücdən düşər iki qat.

Bu soraqlar gedib çatdı Mehcəyə,
Diləkləri döndü onun gerçəyə,
Qaraş, Qammad, Məniş döndü nərçəyə,
Nə bölünsə gücdən düşər iki qat.

***

Qoşaboğaz, Qoşadəniz, - su yolu,
Göz oxşayar qoşalaşan gözəllik.
Qılınc, bizuc, ox əkildi döşlərə,
Göz oxşayar qoşalaşan gözəllik.

Qeysər ilə Üstüağ şah dilləşdi,
Ürəklərdə acışmalar selləşdi,
Gümüş sular qızıl qana bələşdi,
Göz oxşayar qoşalaşan gözəllik.

Qana batdı Anadolu çökəyi,
Qanla yudu dəniz qumsal ətəyin,
Bağırtılar minib çapdı küləyi,
Göz oxşayar qoşalaşan gözəllik.

Döyüşlərdə gəlib çatdı qan dizə,
Şah Qeysərlə bir də gəldi üz-üzə,
Kölgə düşdü dağa, daşa, dənizə,
Göz oxşayar qoşalaşan gözəllik.

***

Üstüağ şah belə dedi Qeysərə:
-Qanlı gözü qanla gərək yuyasan.
Ağı qatdın sən babamın qanına,
Qanlı gözü qanla gərək yuyasan.

Doymamısan hələ qandan-qadadan,
Yalançısan, Qeysər, ata-babadan.
Çox oynama qan-qan deyə ortada,
Qanlı gözü qanla gərək yuyasan.

Ya yarağı yerə tolla, dön geri,
Ya da durma, qılınc çəkib gəl bəri.
Sən kimilər çox önümdə gəbərib,
Qanlı gözü qanla gərək yuyasan.

Çox qansızsan, qan-qadadan doymadın,

Barışığa bir qarış yer qoymadın,
Öz bacının soy-kökünü saymadın,
Qanlı gözü qanla gərək yuyasan.

***

-Üstüağ şah, Qeysər səndən qorxmayır,
Qorxuludur yalnız böyük Mindiyar.
Onsuz sənin burda ölün qalacaq.
Qorxuludur yalnız böyük Mindiyar.

Sən bacımın nəvəsisən, bilirəm,
Ancaq sənə, bacıma da gülürəm,
Mindiyarı mən düz yarı bölürəm,
Qorxuludur yalnız böyük Mindiyar.

Mən qocayam, sən ortayaş, nə olar,
Burda oğul qılıncıyla ucalar,
Çox da sısqa deyil mən tək qocalar,
Qorxuludur yalnız böyük Mindiyar.

Al, sən də dad qılıncımın dadını,
Yarar sənin ürəyinin qatını,
Sonev elə yerin, suyun altını,
Qorxuludur yalnız böyük Mindiyar.

***

İlk qılıncı Qeysər vurdu, dəymədi,
Üstün olar hər bir işdə bilici.
Biliciydi çox işlərdə o qoca,
Üstün olar çox işlərdə bilici.

O vurumdan qalxan yarı bölündü,
Buludların bağrı səsdən dəlindi,
İlk vuruşda Qeysər kimdir, bilindi,
Üstün olar çox işlərdə bilici.

Üstüağsa bir az dala çəkildi,
Bizuc tutub at üstündə dikəldi,
Vurdu, onun qarnı yerə töküldü,
Üstün olar çox işlərdə bilici.

Böyük Qeysər üzüntülü, sancılı,
Ağır bizuc iki böldü qancılı.
Aşdı yerə baş toplumun öncülü,
Üstün olar çox işlərdə bilici.

***

Qılıncını hamı qanla suvardı,
Baş itəndə göz də yaxşı görməyir.
Yaddan çıxdı kim harada döyüşür,
Baş itəndə göz də yaxşı görməyir.

Dördüncü gün döyüş bütün dayandı,
Dağ-daş, dəniz yer-yer qana boyandı,
Bilmədilər Qoşaboğaz hayandı,
Baş itəndə göz də yaxşı görməyir.

Qırılanlar, yaralılar, qaçanlar,
Ağzı üstə düşüb yeri qucanlar,
Qılıncları sonda yerə sancanlar.
Baş itəndə göz də yaxşı görməyir.

Döşü qanlı buludlar da ağladı,

Bağırtılar ürəkləri dağladı.
Qayalar da tir-tir əsdi, laxladı,
Baş itəndə göz də yaxşı görməyir.

***

Mehcə yenə gəldi çıxdı Başevə,
Bic pis ayaq güdər bir ev yıxmağa.
Dedi,-gedim, alım, qırım Başevi,
Bic pis ayaq güdər, bir ev yıxmağa.

Mehcə, Qammad, bir də köçkün atlılar
Əkbitənə qara, qorxu qatdılar.
Öldürdülər onlar hara çatdılar.
Bic pis ayaq güdər, bir ev yıxmağa.

Manay çıxdı qabağına onların,
Üzu-gözü acığından sapsarı,
Köçkünlərin coşdu qara qanları,
Bic pis ayaq güdər, bir ev yıxmağa.

Ev çapırdı köçkün hara çatırdı,
Çapan kimi qaçıb gözdən itirdi,
Manay vurub qılıncını ötürdü.
Bic pis ayaq güdər, bir ev yıxmağa.

***

İki yandan qılınc endi Manaya,
Kişi qurddu, qadın qaplan çətində.
Göydə dəydi bir-birinə üç qılınc,
Kişi qurddu, qadın qaplan çətində.

-Bir yol gəlib üzü qara dönübsən,
Üç yol gəlib dili acı dinibsən,
Qadın kimi Mehcə, çoxdan sönübsən,
Kişi qurddu, qadın qaplan çətində.

Gözün, saçın, kirpiklərin hörümçək,
Başev sənin olmayacaq ölüncə,
Öz içində sən dönübsən gülüncə,
Kişi qurddu, qadın qaplan çətində.

Gəl, indi də qılıncını yoxlayaq,
Bu Başevdə kişi yeri saxlayaq,
Qız olsaq da biz vuruşaq ər sayaq.
Kişi qurddu, qadın qaplan çətində.

***

-Mən gəlmişəm öldürməyə Yürüşü,
Göyərəcək qalsa budaq kök üstdə.
O sonkökdur böyük soy-kök Turərdən,
Göyərəcək qalsa budaq kök üstdə.

Gərək burda Qaraş gəlib otursun,
Turər şahın son kökünü itirsin,
Çəkişməni sona varsın, bitirsin,
Göyərəcək qalsa budaq kök üstdə.

Qocalmışam, əlim qılınc tutmayır,
Əlləşirəm, gücüm sənə çatmayır.
Barış, öyüd, söz başıma batmayır,
Göyərəcək qalsa budaq kök üstdə.

Qılınc vurmaq gəlir indi əlimdən,
Yer üzündə ya sən yaşa, ya da mən.
Bir İşdayaq, bir Başevdir dilimdə,

Göyərəcək qalsa budaq kök üstdə.

***

Cingildədi, şaqqıldadı qılınclar,
Qızğın olur, çılğın olur qadınlar.
Qışqırtılar, çığırtılar ucaldı,
Qızğın olur, çılğın olur qadınlar.

Ancaq birdən Mehcə susdu, yıxıldı,
Hörükləri səpələndi, dağıldı,
Bükülərək əl-ayağı yığıldı.
Qızğın olur, çılğın olur qadınlar.

Qılınc onun düz belini tutmuşdu,
Parçalayıb döşlərinə çatmışdı,
O yıxılıb qızıl qana batmışdı,
Qızğın olur, çılğın olur qadınlar.

Manay dedi -İndi sən gəl qabağa,
Çəkmə Qammad, sən özünü qırağa,
Daha kim var göz dikibdir budağa,
Qızğın olur, çılğın olur qadınlar.

***

-Şahlar məni şahlığımdan elədi,
Gücü, öcü ağır olur şahların,
Gözəlliyim, elim, adım heç oldu,
Gücü, öcü ağır olur şahların.

İşdayağın sevimlisi mən idim,
Öz ərimlə, öz balamla şən idim,
Başev ilə, şahlıq ilə tən idim,
Gücü, öcü ağır olur şahların.

Ölən balam, qalan igid balaşım,
Sizə qoyub getdim öcü, dalaşı.
Ey hamıdan yönsüz, küskün Qaraşım,
Gücü, öcü ağır olur şahların.

Soy adımı qara daşa yazdırın,
Sonevimi Darvideldə qazdırın,
Alın məni, şahlar kimi basdırın,
Gücü, öcü ağır olur şahların.

***

Qanlı yerdən qaldırdılar Mehcəni,
Su yolunda sınar sonda su qabı.
Yola düşüb Mehcə ilə getdilər,
Su yolunda sınar sonda su qabı.

Köçkünlər də baxmadılar geriyə,
Yer yox idi hər ölüyə, diriyə,
Yer yox idi Əkbitəndən bəriyə,
Su yolunda sınar sonda su qabı.

Manayı da neçələri güdürdü,
Arielli köçkünlər də gedirdi,
Biri qaçır, o birisi itirdi,
Su yolunda sınar sonda su qabı.

Başev durub arxasında Manayın,
Sıra-sıra Üstüağın alayı,

Gəlib çatıb kəsə yolu dolayı,
Su yolunda sınar sonda su qabı.

***

Çox çəkmədi, gəlib çatdı Üstüağ,
Üstünlərin olur hər şey döyüşdə.
Böyük uğur gətirmişdi Minelə,
Üstünlərin olur hər şey döyüşdə.

Yaraqlılar batmışdılar qan-tərə,
Alınmışdı Qoşaboğaz, Mərmərə,
Alınmışdı, paylanmışdı hər ərə,
Üstünlərin olur hər şey döyüşdə.

Oxuyurdu qoşarları ölkənin,
Oxuyurdu, oynayırdı qız, gəlin,
Sayrışırdı işıqları Minelin,
Üstünlərin olur hər şey döyüşdə.

Əkbitəndə Başev uca, yenilməz,
Başraqları enməz, yerə gömülməz,
Oğul, qızı yaraqlıdır, əyilməz,
Üstünlərin olur hər şey döyüşdə.

***

- Qoy öyünsün Mindiyarım yenə də,
Enməz olur başraqları düz yolun.
Biz düz yolla, düz ürəklə vuruşduq,
Enməz olur başraqları düz yolun.

Ölənlərin dirisiyik biz, demək,
Qalanları qayğılayaq biz gərək,
Qayıdana toy çaldırın təkbətək,
Enməz olur başraqları düz yolun.

Manayımı, Yürüşümü gətirin,
Xonçalardan örtükləri götürün,
Mindiyarda göz yaşları bitirin,
Enməz olur başraqları düz yolun.

Hər adama içki, taxıl, un verin,
Qış olsa da, hər bir evdən gül dərin,
Qoy güllənsin dağı, düzü hər yerin,
Enməz olur başraqları düz yolun.

***

-Gözəl Manay, Yürüşümün anası,
İgid qadın kişisinə dayaqdır.
Qılıncının tutarından öpərəm.
İgid qadın kişisinə dayaqdır.

Gözəl Manay, ürəyimin telisən,
Mindiyarın dadlı-duzlu dilisən,
Başev güllük, sən də onun gülüsən,
İgid qadın kişisinə dayaqdır.

Gözəl Manay, yanağının batığı,
Üstüağ şah gözəlliyin tutuğu*,
Qaşların ay əyrisidir, çatığı,
İgid qadın kişisinə dayaqdır.

Yola saldın sonevinə Mehcəni,
Burda-orda cükküldəyən sərçəni,
Ölçü-biçi güdməyini, keçəni,

İgid qadın kişisinə dayaqdır.

***

-İgid ərim, duruşuna baş əyim,
Gərək yeri bəlli ola hərənin.
Bütün ölkə sənin adın, dilbirin,
Gərək yeri bəlli ola hərənin.

Ancaq Mehcə ölçü-biçi bilmədi,
Qan salmamış o, Başevdən getmədi,
Şahlıq dedi, göz yaşları bitmədi,
Gərək yeri bəlli ola hərənin.

Kəsi dedi o Yürüşü Qaraşa,
Özü çəkdi məni qanlı savaşa,
O bilmirdi belə aşar, dolaşar,
Gərək yeri bəlli ola hərənin.

*Əsir

Tanrı özü göydən buna görükdür,
Mehcə, Qaraş bizə qarşı dönükdür,
İndi onun son evciyi güllükdür,
Gərək yeri bəlli ola hərənin.

Hindellə döyüş söyləncisi

Çapdı Bacar Hindel üstə inamla,
İnam olsa, adam işdə yorulmaz.
O, Hindelə təkbaşına gedirdi,
İnam olsa adam işdə yorulmaz.

Üçüncü gün yolda bir qurd uladı,
Takım-takım boz qurdları hayladı,
Boz Qurd gəldi, o başını buladı.
İnam olsa adam işdə yorulmaz.

Qurd dilində dedi ona Qızçiçək:
-Üstüağın yavrısısan sən gərək,
Gəl qoşulaq bu savaşa bir gedək,
İnam olsa adam işdə yorulmaz.

Biz ikiyik, Hindel isə böyükdür,
Yollar, yallar dolambacdır, itikdir,
Biz bir atda, onlar min-min minikdir,
İnam olsa adam işdə yorulmaz.

***

Bunu bilcək qurd yüyürdü irəli,
Qurd istəsə fili beldən gəmirər.
Qurd takımı qopdu birgə yerindən,
Qurd istəsə fili beldən gəmirər.

Qorxusundan susdu meşə, döş, tala,
Bu yürüşdən dağ titrədi az qala.
Dırmaşdılar hər yoxuşa, hər yala,
Qurd istəsə fili beldən gəmirər.

Hindel şahı görcək bunca Bacarı,
Sərpdi sanki gözlərinin damarı.
Qoyub qaçdı toplumların çaparı,
Qurd istəsə fili beldən gəmirər.

Çapdı Bacar, şahı tutdu arxadan,
Şah titrədi, həm göyərdi qorxudan,

Qurdlar iti sıçrayırdı qırğıdan,
Qurd istəsə fili beldən gəmirər.

***

Tövşəyirdi Hindel şahı Maharac,
Göz doymasa doymaz qarın yeməkdən.
Uğureli tutub, basıb soymuşdu,
Göz doymasa doymaz qarın yeməkdən.

Var-yoxunu tapşırmışdı yel-selə,
Sürüsünü sürdürmüşdü Çinelə,
Təbiətlə o vermişdi əl-ələ,
Göz doymasa doymaz qarın yeməkdən.

Tövşəyirdi körük kimi Maharac,
Toplumları fil üstündə qaçhaqaç,
Durub özü göz döyürdü gözü ac,
Göz doymasa doymaz qarın yeməkdən.

Çırpınırdı dörd qat ipək ipində,
Yaş var idi gözlərinin dibində,
Geyinmişdi o odsevər dəbində,
Göz doymasa doymaz qarın yeməkdən.

***

-Hindel şahı, niyə belə tutuqsan,
Tanrı sevmir düz yolundan sapanı.
Uğureli aldın, çapıb, dağıtdın,
Tanrı sevmir düz yolundan sapanı.

Satın aldın Mindiyarla Qaraşı,
Vuruşdurdun qardaş ilə qardaşı.
Mənişoldu Başevində qızbaşı,
Tanrı sevmir düz yolundan sapanı.

Arieli qovdun beş yüz minəcən,
Yer tapmayıb onlar bu say günəcən,
Qoy göstərsin tanrı gücün sənəcə,
Tanrı sevmir düz yolundan sapanı.

Arieli qaytar yenə yerinə,
Bacarırsan al Çineli böyrünə,
Yoxsa saman təpdirərəm dərinə,
Tanrı sevmir düz yolundan sapanı.

***

-Mən qarşında Gücər oğlu Bacaram,
Hər oğulda nəsə vardır atadan.
Güləşməyə, vuruşmağa gəlmişəm,
Hər oğulda nəsə vardır atadan.

Gücər alıb, Düzər alıb Xançunu,
Qurtuluşa çatdırıbdır qonşunu,
Minib göylər şahı Qaya Quşunu,
Hər oğulda nəsə vardır atadan.

-Bacar, məni burax gedim ölkəmə,
Vuruşqanlar qabağında şah nədir.
Uğureldən elə bu gün çıxaram,
Vuruşqanlar qabağında şah nədir.

Bilirəm ki, Gücər oğlu Bacarsan,
Bilirəm ki, istəyəndə uçarsan,
Həm də bağlı qapılara açarsan,

Vuruşqanlar qabağında şah nədir.

***

Qurd toplumu dalğa vurub keçirdi,
Fil böyükdür, güclü deyil döyüşdə.
Gəmirirdi qurdlar iri filləri,
Fil böyükdür, güclü deyil, döyüşdə.

Bu vuruşun indiyəcən tayı yox,
Hənirtinin, çığırtının sayı yox,
Hindellinin qorxusundan heyi yox,
Fil böyükdür, güclü deyil döyüşdə.

Bacar baxıb bu vuruşa gülürdü,
Qurd toplumu hələ daldan gəlirdi,
Bacar bunu tanrı işi bilirdi,
Fil böyükdür, güclü deyil döyüşdə.

Bacar dedi:-Qurd soy-köküm, dayanın,
Qanla qorxu bürüyübdür hər yanı.
Yerlər, çöllər fil qanına boyanıb,
Fil böyükdür, güclü deyil döyüşdə.

***

-Qurd əlbirim, dala çəkil,
Bağışlamaq böyüklükdür.
Şah usandı vuruşlardan,
Bağışlamaq böyüklükdür.

Siz tanrının göndərişi,
Tanrı gəlib bu gedişi.
Dayandırın ta yürüşü,
Bağışlamaq böyüklükdür.

Üstüağın son güvənci,
Mindiyarın son öyüncü,
Sərt döyüncü, dağ döyüncü,
Bağışlamaq böyüklükdür.

Tək deyildir Bacar daha,
Sizsiz mənə böyük arxa,
Hamı qaçır qorxa-qorxa,
Bağışlamaq böyüklükdür.

***

Qurd toplumu yerə çökdü,
Axar çaylar geri dönməz.
Eşitdilər, səngidilər.
Axar çaylar geri dönməz.

Bacar dedi:-Boz qaplanım,
Yox ayaqda var olanım,
Dur, başına mən dolanım,
Axar çaylar geri dönməz.

Girələnin yaxınlarda,
Söz almışam azğınlardan,
Üz döndərsin qırğınlardan,
Axar çaylar geri dönməz.

Hindel daha bura dönməz,
Qan-qadaya yerikləməz,
Mindiyara daha gəlməz.

Axar çaylar dönməz geri.

***

Şah qılıncı atdı yerə,
Bu da ölüm demək idi,
Toplumları diz qatdadı.
Bu da ölüm demək idi.

Ölü fillər qaya-qaya,
Gəlməz dilə, gəlməz saya.
Qan dönübdür axar çaya,
Bu da ölüm demək idi.

Hindel şahın beli bükük,
Paltarları sökük-sökük,
Yan-yörəsi qırıq, tökük,
Bu da ölüm demək idi.

Hindel şahı qurcalanır,
Qıvrılaraq sancılanır.
Könlü-başı parçalanır,
Bu da ölüm demək idi.

***

Gecə düşdü, soyuq gecə,
Gecə dinc-dinc düşünməkdir,
Bacar dedi Qızçiçəyə:
-Gecə dinc-dinc düşünməkdir.

Bacar döndü bal istəyə,
Dil-dodağa, söz dilçəyə,
İstək sap-sap Qızçiçəyə,
Gecə dinc-dinc düşünməkdir.

Ağ ulduzlar alışdılar,
Həsrətlilər tapışdılar,
Küsülülər barışdılar,
Gecə dinc-dinc düşünməkdir.

Sevgi, sevinc pıçıldadı,
Bal dodaqlar marçıldadı,
Əl, bel, boyun xırçıldadı,
Gecə dinc-dinc düşünməkdir.

***

-Qızçiçəyim, qurtulqapım,
Dirrik düzlük götürməyir,
Kim düz oldu düzdə qalır,
Dirrik düzlük götürməyir.

Mən inandım çoxlarına,
Yalanların yoxlarına,
Yandım keçmiş çağlarıma,
Dirrik düzlük götürməyir.

Bu dirrikdən bezəcəksən,
Öz-özündən küsəcəksən,
İlk yurdunu gəzəcəksən,
Dirrik düzlük götürməyir.

O Qaraşı, o Mehcəsi,
O, qaplanı, bu sərçəsi,
Yumaq-yumaq düyünçəsi
Dirrik düzlük götürməyir.

***

-Düzlük dedin, düzlük hanı,
Adı vardır, özü yoxdur.
Mən gəldim ki, düzlük görüm,
Adı vardır, özü yoxdur.

Alt yer özü özgə diyar,
Düzü, çölü cadar-cadar,
Düzlük dedin, ərim Bacar,
Adı vardır, özü yoxdur.

Mən, sən deyib yol gəlmişəm,
Sevgi deyib sevilmişəm,
Təkcə səni düz bilmişəm,
Adı vardır, özü yoxdur.

Sən incimə məndən, ərim,
Dağları var bu dağ yerin,
Gəldim onun üzün görüm,
Adı vardır, özü yoxdur.

***

-Bilə-bilə niyə gəldin,
Yerə vurar pis yer səni.
Tanrıların qarğışıdır,
Yerə vurar pis yer səni.

Mənlə yüz il çalışarsan,
Eli yurd-yurd dolaşarsan,
Vuruşarsan, dalaşarsan,
Yerə vurar pis yer səni.

Öz yer-yurdun, tanrılığın,
Yeddi bacı yarılığın,
Üzü dönüb ayrılığın.
Yerə vurar pis yer səni.

Öz sevginlə öyündün sən,
Toxumalar geyindin sən.
Bu yerləri bəyəndin sən,
Yerə vurar pis yer səni.

***

-Orda yer var, özün yoxsan,
Özlük varsa, dirrik də var.
Özlüyümü səndə tapdım,
Özlük varsa dirrik də var.

-Orda sanki uyğu idim,
Kal düşüncə, duyğu idim,
Sanki şirin yuxu idim.
Özlük varsa dirrik də var.

Mən sənləşdim səni görcək,
Çiçək açdım dilək-dilək.
Dönüb oldum mən Qızçiçək,
Özlük varsa dirrik də var.

Sevgi necə dadlı olur,
Yanğıları odlu olur.
Ev-eşikli, yurdlu olur.
Özlük varsa dirrik də var.

***

Keçmişləri qoydum yerin altında,
Gələcəklər keçmişlərdən yoğrulur.
Gələcəyi girov qoydum sevgimə.
Gələcəklər keçmişlərdən yoğrulur.

Yaranışı qana çəkən sevgidir,
Adam yeyən, adam əkən sevgidir,
Yeri-göyü yurd-yurd tikən sevgidir,
Gələcəklər keçmişlərdən yoğrulur.

Göylər məndən indi uzaq durubdur,
Yer önümdə uçurumlar qurubdur.
Sevgi məni qızıl oxla vurubdur,
Gələcəklər keçmişlərdən yoğrulur.

Anam sevgi, dədəm tanrı işığı,
Açılmayır qaşlarımın çatığı,
Qızçiçəyəm, Yer Altının atığı,
Gələcəklər keçmişlərdən yoğrulur.

***

Tanrı bizi yaradıbdır sevgidən,
Sevgi uşaq, biz oyuncaq kimiyik.
Keçə min il, o yaşayır, yaşadır,
Sevgi uşaq, biz oyuncaq kimiyik.

O, tanrıdır, tanrıdan da arıdır,
Körpələrin gözü kimi durudur.
Tanrılıqla sevgi düz tən yarıdır,
Sevgi uşaq, biz oyuncaq kimiyik.

İki gözün işığından yoğrulur,
Göz yaşında çimə-çimə doğulur.
Bir-birinə yetişəndə dağılır.
Sevgi uşaq, biz oyuncaq kimiyik.

O aparır bizi tanrı yanına,
O boyayır bizi könül qanına.
Tanrı deyil, tanrı kimi tanınar,
Sevgi uşaq, biz oyuncaq kimiyik.

***

Bacar ölməz, qılınc batmaz bir ərdir,
Ölməzlərin ağır olur sonluğu.
Dirrik sapı Qızçiçəyin əlində,
Ölməzlərin ağır olur sonluğu.

Uçarlığı anasından qalandır,
Dəniz kimi boşalandır, dolandır,
Qarşısında çox güclülər yalandır,
Ölməzlərin ağır olur sonluğu.

Toplumu yox arxasını qoruya,
Əli çatmır bir buğdaya, darıya,
Yaşayışı çatıb artıq yarıya,
Ölməzlərin ağır olur sonluğu.

İlki, sonu Qızçiçəkdir yardımı,
Onsuz atmaz heç bir yerə addımı,
Sevir deyən bu sarsılmaz qadını,
Ölməzlərin ağır olur sonluğu.

Devdağ söyləncі

Ancaq Hindel ər-arvadı ayırdı,
Təklik yeni evlənəni sarsıdar.
Oğurladı Qızçiçəyi gecəykən,
Təklik yeni evlənəni sarsıdar.

Yatan yerdə boğazlandı, tutuldu,
Səyəzidə dustaqlığa atıldı,
Dərin-dərin meşələrə qatıldı.
Təklik yeni evlənəni sarsıdar.

Şah dedi ki;- O ikini ayırın,
Gözlərini göz yaşıyla doyurun,
Qızı ondan, onu qızdan qoruyun,
Təklik yeni evlənəni sarsıdar.

Dedi tanrı Qızçiçəyi aparıb,
Səni ondan, onu səndən qoparıb.
Devlər içrə gizli qalar qapalı.
Təklik yeni evlənəni sarsıdar.

***

Böyük Bacar acıqana inandı,
Güclüləri inandırmaq nədir ki,
Dedi-Mənə yol göstərin, at çapım,
Güclüləri inandırmaq nədir ki.

Şah dedi ki:-Bir il yoldur Devdağa,
Ora getmək qorxuludur, qadağa.
Getmək olmaz burdan çox-çox uzağa,
Güclüləri inandırmaq nədir ki.

Qal Hindeldə, qulluq elə, önər ol,
Çinel, Hindel arasında çəpər ol.
Başda otur, bizə baş ol, təpər ol,
Güclüləri inandırmaq nədir ki.

Səndən suvay hər şeyi var Hindelin,
Hindel bilir dev danışan çox dili,
Minellilər burda ev-ev sevilir,
Güclüləri inandırmaq nədir ki.

***

Çox düşündü Bacar, bir gün, iki gün,
"İki daşın arasında dayanma".
Qızçiçəyin səsi gəldi uzaqdan.
"İki daşın arasında dayanma".

Minib atı öz yerindən qopdu o,
Yol götürüb meşə-meşə çapdı o,
Qızçiçəyin səs izini tapdı o.
“İki daşın arasında dayanma".

Dedi:-Gözəl Qızçiçəyim, gəlirəm,
Dev elində olduğunu bilirəm.
Sənsiz qalıb sənsizlikdə ölürəm,
"İki daşın arasında dayanma".

-Meşə yolu, and verirəm tanrına,
Məni çatdır tutuq düşən yavrıma,
Yarpaq yağdır, şeh səpələ ağrıma,
"İki daşın arasında dayanma".

***

Bir səs gəldi, dağ qayalar titrədi,
Ox çatmayan qayalara səs çatır.
Xallı qaplan yol üstündə göründü,
Ox çatmayan qayalara səs çatır.

Sıçram-sıçram sıçrayırdı, dururdu,
Öz-özünü öz-özüylə yorurdu,
Nəriltisi qayaları yarırdı.
Ox çatmayan qayalara səs çatır.

Zolaqlısı, zolaqsızı, xallısı,
Uzun, toppuz quyruqlusu, yallısı,
Qaplanın qılsızı var, qıllısı,
Ox çatmayan qayalara səs çatır.

Bacar dedi: - İtiatım, ayıq ol,
O xallıdan gözlə məni, duyuq ol,
Basılarsam, sən götürül, qopuq ol,
Ox çatmayan qayalara səs çatır.

***

Bir-birilə çarpışırdı qaplanlar,
Güclülər də bir-birini qırandır.
Yol bağlıdı, sovrulmuşdu yer göyə.
Güclülər də bir-birini qırandır.

Nəriltidən dağ laxlayır, daş aşır,
Meşələri qorxu gəzir-dolaşır,
Ağ buludlar göydə toza bulaşır,
Güclülər də bir-birini qırandır.

Bacar düşür İtiatdan, dayanır,
Gizli gəzir yavaş-yavaş dörd yanı,
Dığırladır yola iri qayanı,
Güclülər də bir-birini qırandır.

Xallı qaplan sıçraq çıxır irəli,
Bir ox dəyir ona, gözü bərəlir,
Sallaq qalır boğazında göy dili,
Güclülər də bir-birini qırandır.

***

Yallı qaplan ona daldan yanaşır,
İkisindən biri gərək yox ola,
Bir kişnərti tutur göyü, dağ-daşı,
İkisindən biri gərək yox ola.

At kişnəyir, ayıq salır Bacarı,
Yiyəsini o, ölümdən qurtarır,
Özünüsə ölüm ilə otarır,
İkisindən biri gərək yox ola.

Bacar dönüb boyunlayır qaplanı,
Qorxu alır meşə-meşə talanı,
Yallı qaplan boğazlanır, yallanır,
İkisindən biri gərək yox ola.

Bir qaplan da İtiatı ovlayır,
Meşə-meşə, tala-tala qovlayır,
Gah o bunu, gah bu onu tovlayır,
İkisindən biri gərək yox ola.

***

Yumruğuyla Bacar vurur qaplanı,

Bel sümüyü xırçıldayır, qırılır,
Qaplan düşür böyrü üstə ağnayır.
Bel sümüyü xırçıldayır, qırılır.

Sürüm-sürüm o sürünür yerində,
Son xırıltı eşidilir dərində,
Səs çıxmayır qaplanların birindən,
Bel sümüyü xırçıldayır, qırılır.

***

Bacar qaçır İtiatın dalınca,
Yarı gücü itir atsız atlının.
Çox muşqurur, çox çağırır meşədə,
Yarı gücü itir atsız atlının.

-İtiatım, yarı gücüm, çıx üzə,
Çapıb çıxaq meşələrdən bir düzə,
Gələk bir gün Qızçiçəklə üz-üzə,
Yarı gücü itir atsız atlının.

***

İtiatdan hənirti yox, soraq yox,
Bu meşələr dərinlikdə nağıldır.
Hansı yana gedim onu axtarım,
Bu meşələr dərinlikdə nağıldır.

Dilə gəlin, nağıl-nağıl bulaqlar,
Ağ gövdəli ağaclarla, oylaqlar,
Bacar gəzib İtiatı soraqlar,
Bu meşələr dərinlikdə nağıldır.

Səsi gəldi Qızçiçəyin uzaqdan,
Göydən, yerdən, meşələşən torpaqdan,
-Yol diləmə otdan, koldan, bulaqdan,
Bu meşələr dərinlikdə nağıldır.

Dev idilər öldürdüyün qaplanlar,
Qabaqdadır olay-olay olanlar,
Hələ sağdır məni tutuq salanlar,
Bu meşələr dərinlikdə nağıldır.

***

Bacar qırx gün yol aradı Devdağa,
Tanımadan yol gedəni yol yorar.
Çaylar keçdi dağ səsində, gücündə,
Tanımadan yol gedəni yol yorar.

Pota ilan üstdən keçdi, bilmədi,
Qayalardan yumalandı, ölmədi,
Dili bağlı yollar yola gəlmədi,
Tanımadan yol gedəni yol yorar.

Yırtıcılar sürüdülər dalınca,
Didib onu yesin yoldan qalınca,
Dizlik sökük, ayaqları yalınca,
Tanımadan yol gedəni yol yorar.

Unutmuşdu alnındakı lələyi,
Yaralıydı qıçı, qolu, kürəyi.
Qurtarmışdı çoxdan quru çörəyi,
Tanımadan yol gedəni yol yorar.

***

Bir dağ gördü sərt qayalar içində,

Dağ görəndə dağa dönür ürək də.
Gurlayırdı uçarsular, bulaqlar,
Dağ görəndə dağa dönür ürək də.

Şiş zirvələr diş qıcıdır Bacara,
Ağ buludun baxışları qapqara,
Qayaların köksü yarıq, yapyara,
Dağ görəndə dağa dönür ürək də.

Fil üstündə qoşabuynuz dev baxır,
Gözlərindən, dişlərindən qan yağır.
Qabağında bükülüdür Devdağı,
Dağ görəndə dağa dönür ürək də.

-Ahay, kimsən, bura necə çatıbsan,
Günü-günə, yolu-yola qatıbsan,
Necə olub ölüm yolu tutubsan.
Dağ görəndə dağa dönür ürək də.

***

-Mən Bacaram, Qızçiçəyi gəzirəm,
Dirrik yoldur, axtarışdır, sevgidir.
Sevgi məni bu yerlərə gətirib,
Dirrik yoldur, axtarışdır, sevgidir.

-Sən Bacarsan, düz yolundan sapıbsan,
Anlamadın dirriyindən qopubsan,
Sevgi deyil, ölümünü tapıbsan.
Dirrik yoldur, axtarışdır, sevgidir.

-Yolu kəsib yekə-yekə danışma,
Sevgi sözü incə sözdür, qarışma,
Bacar belə kobudluqla barışmaz,
Dirrik yoldur, axtarışdır, sevgidir.

-Mən də səni gözləyirəm haçandır,
Dilin acı, sözlərinsə yamandır,
Sən Bacarsan, ancaq sevgi yalandır,
Dirrik yoldur, axtarışdır, sevgidir.

***

Bacar böyük bir ağacı aşırdı,
İri vurum iriləri aşırar,
Ağac düşdü, fili, devi basdadı,
İri vurum iriləri aşırar.

Yastılandı dev də, fil də bir yerdə,
Qılıncıyla bir də vurdu, o, bir də,
Səs eşitdi, tanış bir səs o, birdən,
İri vurum iriləri aşırar.

-Bacar, mənəm, məni eşit, qaplanım,
Çay boyu gəl, gəl başına dolanım.
Acıqandır burda mənim dörd yanım.
İri vurum iriləri aşırar.

-Qızçiçəyim, qolum, gücüm, biləyim,
Unutmuşam Qızuçarın lələyin.
Gözlə məni, ey istəkli diləyim,
İri vurum iriləri aşırar.

***

-Yardım elə mənə, ana lələyim,
Son ayaqda sənə arxa anadır,
Məni çatdır Qızçiçəyə çay boyu,

Son ayaqda sənə arxa anadır.

Bacar taxdı lələyini alnına,
Bir uçarlıq düşdü onun qanına,
Uçdu göyə, sevgilisi yanına,
Son ayaqda sənə arxa anadır.

Bir kişnərti eşitdi o, dərindən,
Xarıldayıb Devdağ qopdu yerindən,
At kişnədi çökəklərin birində,
Son ayaqda sənə dayaq anadır.

İtiatım, bu sənmisən, qoçağım,
Qabar töküb, suluq qoyub ayağım,
Döyüşlərdə mənim arxam, dayağım,
Son ayaqda sənə dayaq anadır.

***

İtiatla Bacar yenə qovuşdu,
Çaylar, qollar birləşəndə güclənir.
Onlar bir də çay boyunca uçdular,
Çaylar, qollar birləşəndə güclənir.

Gör-gör gözəl görünürdü enişdə,
Dağla, dəniz, çaylar isə gümüşdən.
Ovsunlanıb at bu gözəl görüşdən,
Çaylar, qollar birləşəndə güclənir.

İri çaylar, çaycığazlar, axarlar,
Enli qanad, yeddi boya uçarlar.
Dörd ayaqlı, iri, xırda çaparlar,
Çaylar, qollar birləşəndə güclənir.

-Tumar-tumar, pişim-pişim İtiat,
Qızıl yüyən, dəmir dırnaq, yelqanad.
Məni bu sıx meşəlikdən uç qurtar,
Çaylar, qollar birləşəndə güclənir.

***

Hindel şahı Qızçiçəkdən qorxurdu,
Açılmayan qapı qorxunc görünər,
Başevində saxlayırdı, güdürdü,
Açılmayan qapı qorxunc görünər.

Tanrılığı az-çox hələ qalırdı,
Hərdən qorxunc, həm tutumlu olurdu.
Hər bir sözdən boşalırdı, dolurdu,
Açılmayan qapı qorxunc görünər.

Aparmağa o gəlmişdi Bacarı,
Buna görə yol almışdı yuxarı,
Alt yerdəydi dirriyinin axarı,
Açılmayan qapı qorxunc görünər.

Bacar gərək tezlik ilə öləydi,
Tanrıların tapşırığı beləydi,
Bir varlığı gərək iki böləydi,
Açılmayan qapı qorxunc görünər.

***

Bəs nə sayaq aparaydı Bacarı,
Sevgi bütün varlıqlardan ucadır.
Bu yaşayış ona ulu gəlirdi.

Sevgi bütün varlıqlardan ucadır.

Ancaq sevgi bağlamışdı əlini,
Bəsləmişdi ürəyində gülünü.
Öyrənmişdi bu varlığın dilini,
Sevgi bütün varlıqlardan ucadır.

Sevgisinə baş əyərək qalmışdı,
O, Bacarda isti yuva salmışdı,
Sevgisindən yeni varlıq almışdı,
Sevgi bütün varlıqlardan ucadır.

-Ey tanrılar, qoyun belə qalım mən,
Bu varlıqdan yeni varlıq alım mən,
Öləndə də Bacarımla ölüm mən,
Sevgi bütün varlıqlardan ucadır.

***

-Altı bacı yoxa çıxıb bu yolda,
Yox ikinci üzü imiş hər varın.
Mən gələndə anlamırdım, bilmirdim,
Yox ikinci üzü imiş hər varın.

Ora ulu, bura gözəl oradan,
Bu ikini bir yaradıb Yaradan,
Bircə vardır göz qırpımı arada,
Yox ikinci üzü imiş hər varın.

Böyük tanrı, yoxu, varı ver bizə,
Qoşa çıxaq varda, yoxda biz üzə,
İndi onla diz-dizəyik, üz-üzə,
Yox ikinci üzü imiş hər varın.

Oturmuşdu, düşünürdü Qızçiçək,
Qurtuluşu tanrılıqda görərək,
Son gücünü işə salsın o gərək,
Yox ikinci üzü imiş hər varın.

***

Qurd toplumu bir də gəldi Hindelə,
Qurd Minelin başlanğıcı, soy-kökü,
Bunu bilib Hindel şahı tutuldu,
Qurd Minelin başlanğıcı, soy-kökü.

-Ay Qızçiçək, qoyma bura qurd gələ,
Tanrılıq et, qurda çiçək səpələ,
Bacar mənim əlimdədir, bil, hələ.
Qurd Minelin başlanğıcı, soy-kökü.

Yoxsa səni yem edərəm qaplana,
Desəm bura yüz-yüz qaplan toplanar,
Didib tökər o qurdları yarğana,
Qurd Minelin başlanğıcı, soy-kökü.

-Hindel şahı, məni alınc saxlama,
Qurddan qorxub mənə çox bel bağlama,
Qaplanlarla Qızçiçəyi yoxlama,
Qurd Minelin başlanğıcı, soy-kökü.

***

Şah bağırdı: - Qız yem olsun qaplana,
Qaplanlar da soyu, sayı biləndir.
Onlar baxıb qıza yaxın gəlmədi,
Qaplanlar da soyu, sayı biləndir.

Qız onları tumarladı, dindirdi,
Üzlərini Hindel şaha döndərdi,
Qapı açıb şah ovuna göndərdi.
Qaplanlar da soyu, sayı biləndir.

Onlar diddi şahı, şahlıq soyunu,
Bacar göydən gördü bu şah toyunu,
Alıb getdi hərə qanlı payını.
Qaplanlar da soyu, sayı biləndir.

Hindel şah da ölümünə qovuşdu,
Qurd toplumu qaplanlarla uyuşdu,
Keçib getdi sıra-sıra, sovuşdu,
Qaplanlar da soyu, sayı biləndir.

***

Bacar gəldi İtiatın belində,
Ağ lələklə uçan igid uludur.
Yaxın, uzaq öz yerinə çəkildi,
Ağ lələklə uçan igid uludur.

Hamı onun qabağına yüyürdü,
Onu görən, sönən gözlər səyirdi,
Hamı ona, sağ ol, igid, deyirdi,
Ağ lələklə uçan igid uludur.

Qızçiçəklə qucaqlaşıb, öpüşdü,
İki yanğı ürək, həsrət qovuşdu.
Bu görüşə baxan ellər irişdi.
Ağ lələklə uçan igid uludur.

Bu sevgini, bu həsrəti görüncə,
Toylar qurdu Hindel, üç gün, üç gecə,
Şahsız qalan el büründü sevincə,
Ağ lələklə uçan igid uludur.

***

-Yer altından olan gözəl Qızçiçək,
Alt, Üst, var, yox sayılmayır sevgidə.
Sevgi öyrət mənə, mən də güllənim,
Alt, Üst, var, yox sayılmayır sevgidə.

Səni gördüm, Alta, Üstə uyuşdum,
Kallığımı ayıqlıqla dəyişdim,
Sənin kimi bir gözəllə sevişdim,
Alt, Üst, var, yox sayılmayır sevgidə.

Gör-gör, dirrik sənsən indi gözümdə,
Hər sevginin şahlığı var özündə,
Güc duyuram dirsəyimdə, dizimdə,
Alt, Üst, var, yox sayılmayır sevgidə.

Görməmişəm gözlə ata, ananı,
Sən o yanın, mən bu yanın adamı,
Alım iki yanının da qadanı.
Alt, Üst, var, yox sayılmayır sevgidə.

***

-Tanrılığım alınc qaldı yamanda,
Bir yenilməz tanrılıq var sevgidə,
Mən sevgimlə ucalmışam Üst yerdə,
Bir yenilməz tanrılıq var sevgidə.

Mənim tanrım indi sənsən, basarım,
Yerdə arxam, göydə iti çaparım,
Al məni də, burdan qoşa ucalım,
Bir yenilməz tanrılıq var sevgidə.

Qobuçölə, Uğurelə uçaq biz,
Yolsuzluqdan yeni yollar açaq biz,
Bir yer tapaq, sevgimizi qucaq biz,
Bir yenilməz tanrılıq var sevgidə.

Sənsən mənim ucalığım, güvəncim,
Sənsən böyük Üstüağın yerinci,
Adam sevgim, uca sevgi sevincim,
Bir yenilməz tanrılıq var sevgidə.

***

Səndən uzaq məndə dözüm qalmayır,
Sevgi çəkib yeyir ürək yağını,
Ürəyini tapşır mənə, qoruyum,
Sevgi çəkib yeyir ürək yağını.

Səndən uzaq yaşamaram mən daha,
Baş əymərəm hər yerincə, hər şaha.
Bu sevgidə Var ucuzdur, Yox baha,
Sevgi çəkib yeyir ürək yağını.

Ver əlini, gedək daha bir olaq,
İki könül istəyində yer salaq,
Əkdiyimiz bu sevgidən gül alaq,
Sevgi çəkib yeyir ürək yağını.

Ey yamanlıq, ey yaxşılıq, barışın,
Çalxalanın, bir-birinə qarışın,
Sevgi nədir, gəlin bizdən soruşun,
Sevgi çəkib yeyir ürək yağını.

***

Unqa çayı aşıb, daşıb axırdı,
Hər şey gəlib öz yerini tapacaq.
Toplum gəlir Unqa çayı boyunca,
Hər şey gəlib öz yerini tapacaq.

Hind toplumu Uğureldən dönürdü,
O özünü şahsız basıq sanırdı,
Keçdiyi yurd talanırdı, yanırdı,
Hər şey gəlib öz yerini tapacaq.

Bu gedişlə çatmış idi sonları,
Qurd toplumu gecə basdı onları.
Bir-birinə calaq oldu qanları.
Hər şey gəlib öz yerini tapacaq.

Qızçiçəklə Bacar durub baxırdı,
Bu toplumun son günləri ağırdı,
Bu toplumdur, yoxsa sürü, naxırdır,
Hər şey gəlib öz yerini tapacaq.

***

Hind toplumu Uğureldən köçürdü,
Özgə yurdu öz yurduna calama.
Beş gün çapıb Uğurelə çatdılar.
Özgə yurdu öz yurduna calama.

Toplum yolda sınıq-salxaq gedirdi,
Biri dağda, biri çayda itirdi,

Acıqanın sonu sona çatırdı.
Özgə yurdu öz yurduna calama.

Mindiyarın torpaqları uluydu,
Uğurellə, Minelliylə doluydu.
Ana dili Minellinin diliydi,
Özgə yurdu öz yurduna calama.

Baş əydilər, şah etdilər Bacarı,
Şah olmağı burda igid bacarır.
Bacardadır uğurların açarı,
Özgə yurdu öz yurduna calama.

***

Üstüağa Bacar yazı yazdırdı,
Öz yerində olmalıdır hər oğul.
Uğureldən köçüb getdi acıqan,
Öz yerində olmalıdır hər oğul.

Mindiyarın bir boyudur Uğurel,
Hindel şahı daha burda şah deyil.
Bizi bunca Mindiyarın özü bil,
Öz yerində olmalıdır hər oğul.

Bundan sonra səni şahım bilərəm,
Sənə hər gün böyük uğur dilərəm,
Qızçiçəklə yazda qonaq gələrəm,
Öz yerində olmalıdır hər oğul.

Buyuruq ver, sənə yerinc olum mən,
Mindiyarı mən qoruyum Çineldən.
Verincini göndərərəm hər ildə,
Öz yerində olmalıdır hər oğul.

Tanrılarla görüş söyləncі

Çiçək açdı, bolluq oldu bu yerdə,
Ölkə artar başçı yaxşı olanda.
Gediş-gəliş, alış-veriş çoxaldı,
Ölkə artar başçı yaxşı olanda.

Çindən Hində, Hinddən Çinə yol oldu,
Saxlanclarda qızıl, gümüş bol oldu,
Varı daşdı, sevincləri sel oldu,
Ölkə artar başçı yaxşı olanda.

Yol açıldı bu ölkədən hər yana,
Qazaxelə, Əkbitənə, Arana,
Son qoyuldu oğurluğa, yalana.
Ölkə artar başçı yaxşı olanda.

Acıqanlar, küsülülər barışdı,
Ev tikməkdə, yol çəkməkdə yarışdı,
Sevinc səsi toy səsinə qarışdı,
Ölkə artar başçı yaxşı olanda.

***

Ancaq Bacar sığışmırdı Başevə,
Çöl adamı yurd-yuvaya sığışmaz,
O, çöllərin qartalıydı, qaplanı,
Çöl adamı yurd-yuvaya sığışmaz.

Bir gün ova, oylaqlara getmişdi,
Qızçiçəklə yaylaqlarda itmişdi,
Lap dirriyin o başına çatmışdı,
Çöl adamı yurd-yuvaya sığışmaz.

Ərənlərin itirmişdi izini,
Gəzirdilər yoxuşluğun düzünü,
Yer oğlunun, yer altının qızını,
Çöl adamı yurd-yuvaya sığışmaz.

Çıxmışdılar onlar Sayan dağına,
Dönmüşdülər buludların ağına,
Baxırdılar elin varı, yoxuna,
Çöl adamı yurd-yuvaya sığışmaz.

***

Yoruldular, oturdular, yatdılar,
Bir sevincin qoşa qanad sevgisi,
Bir səs gəldi göydən, yerdən, buluddan,
Bir sevincin qoşa qanad sevgisi.

-Min lələkli basar-keçər atına,
Qızçiçəyi qaytar yerin altına,
Getməlidir o, torpağın qatına,
Bir sevincin qoşa qanad sevgisi.

Bacar dedi:-Böyük tanrı, bağışla,
Arxa olub mənə bu qız savaşda,
Gəl, ayırma, tanrım, bizi bu yaşda,
Bir sevincin qoşa qanad sevgisi.

Biz ayrılsaq ikimiz də sınarıq,
Sevgimizin alovunda yanarıq,
Ölgünləşib yeri-göyü danarıq,
Bir sevincin qoşa qanad sevgisi.

***

-İtiatım, uç göylərə, iti ol,
Deyən deyib göy atadır, yer ana,
Gedək göydən Qızçiçəyə yer alaq,
Deyən deyib göy atadır, yer ana.

İtiatım, götür bizi göyə çap,
Tanrıların tanrısını göydə tap,
Buludların üzərilə tap-tarap,
Deyən deyib göy atadır, yer ana.

Dirrik düşüb, artıb yalan, aldanış,
Bələnibdir qan-qadaya yaranış,
O göylərə özün söylə, sən danış,
Deyən deyib göy atadır, yer ana.

Mən tanrımdan quru dirrik dilərəm,
Əyriliyi yer üzündən silərəm,
Düz yaşayış deyə, ərən ölərəm,
Deyən deyib göy atadır, yer ana.

***

Tanrı görüb yer oğlunu söylədi:
-Üzüntüdür, sızıltıdır ayrılıq.
On il yolu iki günə gəlibsən,
Üzüntüdür, sıxıntıdır ayrılıq.

Dağıdıbsan yamanları bir kərə,
Küllərini sovurubsan göylərə,

Göylər ilə birləşəsən sən gərək,
Üzüntüdür, sıxıntıdır ayrılıq.

Qan-qadanı yamanlıqlar yaradır,
Bizə qarşı onlar içi qaradır,
Biz yaradır, onlar isə sozardır,
Üzüntüdür, sıxıntıdır ayrılıq.

Bacar, səni böyük ərən görürəm,
Üstünlüyü, gücü sənə verirəm,
Sənə qolu qanadımı gərirəm,
Üzüntüdur, sıxıntıdır ayrılıq.

***

Acıqandır tanrılarla yamanlar,
Yaxşılıqla yaman birgə doğulub.
Biz yamanı qıraq gərək büsbütün,
Yaxşılıqla yaman birgə doğulub.

Yaman getsə sel-su, yanğın dayanar,
Ölüm, qırğın, vuruş çıxar aradan.
Yaşayanlar uzaq olar qadadan,
Yaxşılıqla yaman birgə doğulub.

Onda yer-göy işıqlığa bürünər,
Yamanlıqlar dizin-dizin sürünər,
Yarananda tanrı qoşa görünər,
Yaxşılıqla yaman birgə doğulub.

Ölməyəcək bu dirriyə gələnlər,
Diriləcək bizi ölməz bilənlər,
Yamanlıqla vuruşaraq ölənlər,
Yaxşılıqla yaman birgə doğulub...

***

-Böyük tanrı, məni göndər vuruşum,
İgid döyüş düzlərində ad qoyar.
Mən Yamanla bir də gəlim üz-üzə,
İgid döyüş düzlərində ad qoyar.

- Yer üzündə qalsın deyə gül-çiçək,
Üç tanrımla görüşəsən sən gərək,
Onlar sizə çox şeyləri deyəcək,
İgid döyüş düzlərində ad qoyar.

Get, tanış ol Sərtüz adlı adamla,
Birgə vuruş Əhrimənlə, Yamanla,
Dolaşıqla, dolambacla, yalanla,
İgid döyüş düzlərində ad qoyar.

Sərtüz birdir, doğulmuşdur üç eldə,
Mindiyarda, Hindel, İlam-Babildə,
Bir yazını o yazacaq üç dildə,
İgid döyüş düzlərində ad qoyar.

***

Qoru onu acıqandan, yamandan,
Tanrıların göndərişi uludur.
Vuruşacaq Əhrimənlə, Yamanla,
Tanrıların göndərişi uludur.

-Tanrım, onu necə tapım, nə sayaq,
–Suböləndə* onu gözün alacaq.

Mindiyarda bir Subölən var ancaq,
Tanrıların göndərişi uludur.

Böyük Sərtüz üç yerdədir, bir adda,
Həm sudandır, həm bitkidən, həm oddan.
Bir yaranış üç ulusda, elatda,
Tanrıların göndərişi uludur.

- Göstər mənə, tanrım, güzgü üzünü,
Qoy duruldum bir də sənlə özümü,
İşığında yuyum həsrət gözümü,
Tanrıların göndərişi uludur.

***

Bacar baxdı, birdən hər yan duruldu,
Tanrı sonsuz duruluqdur, işıqdır.
İşıq artdı, bələklədi Bacarı,
Tanrı sonsuz duruluqdur, işıqdır.

Qızçiçəyin lapdan gözü qamaşdı,
Ürəyində göy sevgisi alışdı,
Sevgi, inam bir-birinə calaşdı,
Tanrı sonsuz duruluqdur, işıqdır.

Baş əydilər, sağ ol deyib döndülər,
Ucalıqdan aşağıya endilər,
Hər ikisi bir ağızla dindilər,
Tanrı sonsuz duruluqdur, işıqdır.

Savalan

Birdən sular parıldadı, oynadı,
Güzgüləşdi, oynaqladı, qaynadı,
Bir ağ bulud gəldi, sanki sonadı,
Tanrı sonsuz duruluqdur, işıqdır.

***

Su tanrısı dindi dəniz dilində,
-Su olmasa dirrik yoxdur dibindən.
Sudan, oddan, bitkidəndir yaranış,
Su olmasa dirrik yoxdur dibindən.

Su tanrıdır, onu yerdə qoruyun,
Bulaqları, quyuları arıyın,
Çayı sevin, körpu-körpü sarıyın,
Su olmasa dirrik yoxdur dibindən.

Göndərmişəm yerə bulud, qar, külək,
Hər damcısı, hər qurtumu bir dirək,
Sərtiş sizə sudan qatlar deyəcək,
Su olmasa dirrik yoxdur dibindən.

Göstər mənə, tanrım, duru üzünü,
İstəyirəm mən duruldum özümü,
İşığında yuyum həsrət gözümü,
Su olmasa dirrik yoxdur dibindən.

***

Bacar birdən gördü hər yan duruldu,
Su tanrısı duruluqdur, işıqdır.
Bulud gəldi, bələklədi Bacarı,
Su tanrısı duruluqdur, işıqdır.

Ağ buludlar Qızçiçəyə yanaşdı,
Ürəyində yer sevgisi alışdı.
Sevgi, inam bir-birinə calaşdı,

Su tanrısı duruluqdur, işıqdır,

Baş əydilər, sağ ol deyib, döndülər,
Buludlardan aşağıya endilər,
Hər ikisi bir ağızla dindilər,
Su tanrısı duruluqdur, işıqdır.

Birdən hər şey yaşıllaşdı, göyləşdi,
Udqu*, uduq** yüngülləşdi, yeyləşdi,
Meşə, ot, gül bütövləşdi, teyləşdi,
Su tanrısı duruluqdur, işıqdır.

***

Xışıldadı, dindi bitki tanrısı,
-Ot olmasa heç bir varlıq yaşamaz.
Otlaqları, meşələri qoruyun,
Ot olmasa heç bir varlıq yaşamaz.

Gözəllikdir, göyçəklikdir, yeməkdir,
Dadlı-duzlu bardır, süddür, çörəkdir,
Qoşa qanad, dörd ayaqlı deməkdir.
Ot olmasa heç bir varlıq yaşamaz.

Meşələri yandırmasın Əhriman,
Otu, gülü soldurmasın dibindən.
Tapşırmışam çölü, düzü sizə mən,
Ot olmasa heç bir varlıq yaşamaz.

Bacar dedi:-Göstər, tanrım, üzunü,
Görüm səni, gücləndirim özümü.
İşığında yuyum həsrət gözümü,
Ot olmasa heç bir varlıq yaşamaz.

***

Birdən hər yer yaşıllığa büründü,
Adam güldür, bitib, solub gedəcək,
Alıb onu bələklədi yaşıllıq,
Adam güldür, bitib, solub, gedəcək.

Baş əydilər, sağ ol deyib döndülər,
Dağ döşündən aşağıya endilər,
Hər ikisi bir ağızla dindilər,
Adam güldür, bitib, solub gedəcək.

Qızçiçəyin üzü oldu yamyaşıl,
Sonra dönüb göyçəkləşdi, qaraşın,
Durdu əri Bacar ilə yanaşı,
Adam güldür, bitib, solub gedəcək.

_____
hava,
****nəfəs***

Birdən günəş parıldadı sevincək,
Baş qaldırdı gülə-gülə gül-çiçək,
Sevgililər bir ağızla dindilər,
Adam güldür, bitib, solub gedəcək.

***

Od tanrısı dindi, göylər gurladı,
-Od olmasa varlıq donar, dayanar,
Ovcunuza alın odu, qoruyun,
Od olmasa varlıq donar, dayanar.

Mən dursam da sizdən azca yuxarı,
Məndən alır dirrik axar-baxarı,
Bunca hamı yeyir, içir, otarır,
Od olmasa varlıq donar, dayanar.

Baş əydilər, sağ ol deyib döndülər,
İtiatla dağ döşündən endilər,
Sevgililər bir ağızla dindilər,
Od olmasa varlıq donar, dayanar.

Birdən baxıb ərənləri gördülər,
Çağırışa, haraya səs verdilər,
İtiatı ovlaqlara sürdülər,
Od olmasa varlıq donar, dayanar.

Qarı xaqan söyləncі

Qarı Xaqan alıb qırdı Xançunu,
Biri qurur, biri qırır, dağıdır.
Düzər ölüm ayağında söylədi:
-Biri qurur, biri qırır, dağıdır.

Gedin, deyin Üstüağa, Bacara,
Gəlib çatsın bu qırğına çaparaq,
Yoxsa Çinel kükrəm-kükrəm qabarar,
Biri qurur, biri qırır, dağıdır.

Uğureldə başsız Başev laxladı,
Qarı Xaqan saxlancdan yük bağladı,
Gəldi Bacar, qabağını saxladı,
Biri qurur, biri qırır, dağıdır.

İki ərən nərildədi, qaynadı,
Qılınc göydə, atlar yerdə oynadı,
Göy qızardı, qanlı gözlər qanadı,
Biri qurur, biri qırır, dağıdır.

***

-Bacar sənsən? – dedi xaqan gülərək,
Döyüşlərdə yersiz gülən ağlayar.
Gecikibsən, mənim olub Uğurel,
Döyüşlərdə yersiz gülən ağlayar.

-Mən gəlirəm tanrıların yanından,
Onlar ilə danışmışam yaxından,
Axıdaram arxı yaman qanından,
Döyüşlərdə yersiz gülən ağlayar.

-Çıxmayıbdır heç kəs tanrı üzünə,
Çox inanma sən onların sözünə,
Öləcəksən, sonev qazdır özünə,
Döyüşlərdə yersiz gülən ağlayar.

-Lovğalanma, ay yarımçıq yamancıl,
Mindiyara, Uğurelə yabançı,
Düz başına enəcəkdir qılıncım,
Döyüşlərdə yersiz gülən ağlayar.

***

Üç gün onlar çarpışdılar at üstdə,
At çapışda, ər dözümdə bəllənər.
Qarı Xaqan bir yenilməz ər idi,
At çapışda, ər dözümdə bəllənər.

Qılınclaşdı, toppuzlaşdı, dilləşdi,
İki ərən toz-torpağa bələşdi,
Atlar qalxıb dırnaqlaşdı, əlləşdi,
At çapışda, ər dözümdə bəllənər.

Baxan dedi, Bacar dözməz sonacan,
Ağac kimi qasırğada sınacaq,
Uğurelli çapılacaq, yanacaq,
At çapışda, ər dözümdə bəllənər.

Ancaq tanrı güc göndərdi günəşdən,
Basar çıxdı Bacar gücdə, güləşdə,
Çinel ağzı açıq qaldı bu işdə,
At çapışda, ər dözümdə bəllənər.

***

Basıq gördü başçısını toplumlar,
Basıq olsa başçı, toplum döyüşməz.
Yığışıldı, geri döndü Çinelli,
Basıq olsa başçı, toplum döyüşməz.

Xaqan durub hönkür-hönkür ağladı,
Bacar onun qollarını bağladı,
Buxovladı, onu tutuq saxladı,
Basıq olsa başçı, toplum döyüşməz.

Çinellilər Bacar şaha baxdılar,
Xançu, Urmu, Uğureldən çıxdılar,
Ağlar-ağlar könülləri yaxdılar,
Basıq olsa başçı, toplum döyüşməz.

Səs yayıldı Hindel ilə Çinelə,
Böyük Bacar adı düşdü dillərə,
Güc artırdı Mindiyara, Minelə,
Basıq olsa başçı, toplum döyüşməz.

***

Üstüağ şah yazı yazdı Bacara,
Kim yurdunu uca tutsa ucalar.
Yerincimsən Uğureldə, Çineldə.
Kim yurdunu uca tutsa ucalar.

Böyük tanrı görüşünə çatıbsan,
Gözləncini* istəyinə qatıbsan.
Ahur-məzda işığına batıbsan,
Kim yurdunu uca tutsa ucalar.

Ulu saxla ad-sanını Gücərin,
Sonevə qoy böyük ərən Düzəri,
Düzər səni bəsləyibdir, becərib.
Kim yurdunu uca tutsa, ucalar.

_____

Arzu, ümid

Göndərirəm toplumları yardıma,
Uyğun yaşa, Düzər, Turər adına,
Yardım elə qadınına, atına,
Kim yurdunu uca tutsa ucalar.

***

Əldən ələ keçən yerlər nə bilir,
Hər qarış yer suvarılıb qan ilə.
Ürmu, Xançu, Sudüz, Təbət alındı,
Hər qarıc yer suvarılıb qan ilə.

Göydən yağıb ox, yay, bizuc yağışı,
Çinel, Minel burda yüz yol boğuşub,
Gəzib burda anaların qarğışı,
Çinel, Minel burda yüz yol boğuşub.

Döyüşlərin, ölənlərin sayı yox,
Qan-qadadan yurd, elatın payı yox,
Yaraqlılar yorulubdur, heyi yox,
Çinel, Minel burda yüz yol boğuşub.

Tanrı, özün yardım göstər, barışaq,
Bir el olaq, bir-birinə qarışaq.
Biz hamımız bir başraqdan yapışaq,
Çinel, Minel burda yüz yol boğuşub.

***

Bacar durub düşünürdü beləcə,
Adam niyə qızıl qana susayıb.
Hərdən durub soruşurdu özündən,
Adam niyə qızıl qana susayıb.

Tanrı dedi, Sərtiş əri qoru sən,
Arxancımız ərənlərdən birisən,
Son kəsilə, qorunc ilə dirisən,
Adam niyə qızıl qana susayıb.

-Yamanlığı samanlığa təpərəm,
Yaxşılığı o yan, bu yan öpərəm,
İkisinə aralıqda çəpərəm,
Adam niyə qızıl qana susayıb..

Gedim gəzim, Sərtiş əri tapım mən,
Ölümlərin caynağından qapım mən,
Qılıncımı yamanlığa sapım mən,
Adam niyə qızıl qana susayıb.

VIII QAPI
Sərtüzlə görüş söyləncisi

Tanrıların göstərişi var idi,
-Düzdə qalar düz yolunu azanlar,
Bələşmişdir qan-qadaya yer üzü,
Düzdə qalar düz yolunu azanlar.

Bu qan-qada tuta bilər hər yanı,
Buna görə yumalıdır qan qanı,
İnam gərək yox eləyə yamanı,
Düzdə qalar düz yolunu azanlar.

Gərək elə güclü ola inanış,
İnam üstə evin qura yaranış,
Yalanlardan süpürülə yaşayış,
Düzdə qalar düz yolunu azanlar.

Bir söz deyən çıxmalıdır araya,
Biz deyəni desin elə, obaya.
Desin ağa ağ, qaraya o qara,
Düzdə qalar düz yolunu azanlar.

***

-Ey Əhrimən, yalanların tanrısı,
Tanrı gərək dayaq ola dirriyə.
Yandırırsan, qurudursan hər yanı,
Tanrı gərək dayaq ola dirriyə.

Ey Əhrimən, nə yamanlıq edirsən,
Yamanlıqla sən haraya gedirsən.
Gündən-günə kiçilirsən, itirsən,
Tanrı gərək dayaq ola dirriyə.

Vuruşdurub adamları gülürsən,
Hər bir şeyi yaxşı, pisə bölürsən,
Bu gedişdə sən özün də ölürsən,
Tanrı gərək dayaq ola dirriyə.

Yaxşılıqla pisin kökü qazılar,
Pis od ilə, kəsi ilə basılar,
Son sorğuda o, boğazdan asılar,
Tanrı gərək dayaq ola dirriyə.

***

Ahur-məzda basar bir gün yamanı,
Yer hərlənib gələr ilkin yerinə.
Pislik ölər, yaxşılıqlar dirilər,
Yer hərlənib gələr ilkin yerinə.

Gülüş, sevinc dodaqlarda güllənər,
Əhrimənin kökü divdən bellənər,
Hamı bir dil, bir görümlə dillənər,
Yer hərlənib gələr ilkin yerinə.

Odev* olmaz, dincev** olar yer üzü,
Nə ac olar, nə sel, yanğın, nə tüstü,
Aralıqda nə barışıq, nə küsdü?
Yer hərlənib gələr ilkin yerinə.

Tanrı gələr adamlara qarışar,
Ellər, dillər, acıqanlar barışar,
Gücdə deyil, hamı işdə yarışar,
Yer hərlənib gələr ilkin yerinə.

***

Subölləndə yaşayırdı beləsi,
Küskün olar el gözündən yayınan.
O, göylərlə danışırdı gizlicə.
Küskün olar el gözündən yayınan.

On beş yaşda ayaqyalın gəzirdi,
Söz yığırdı, düzümləyib yazırdı.
Tək qalaraq öz-özündən bezirdi,
Küskün olar el gözündən yayınan.

Əl tuturdu hərdən əkin, biçində,
Dolaşırdı yaylaqların köçündə,
Ayaqyalın gül-çiçəklər içində,
Küskün olar el gözündən yayınan.

_____
****Cəhənnəm,***
*****Behişt***

Bax, bu sayaq dolaşırdı düzləri,
İpə-sapa gəlməyirdi sözləri.
Qatdaq idi bir azcana dizləri,
Küskün olar el gözündən yayınan.

***

Hərdən ona qoşulurdu anası,
İz arayıb, bala deyən anadır.
Qoruyurdu onu yalan, yamandan,
İz arayıb, bala deyən anadır.

Anasının adı Doğdu qız idi,
Düşük oğlu Sərtiş ərə göz idi,
Düşüncəsi, yolu, sözü düz idi,
İz arayıb, bala deyən anadır.

Hamı gəlib Sərtiş ərə baxırdı,
Adı-sanı qaranlığı boğurdu,
Üz-gözündən sanki işıq yağırdı,
İz arayıb, bala deyən anadır.

Subölənin çiçəkləri yapyaşıl,
Çiçəklərə ildə dörd ay o, qonaq,
Gül-çiçəyə söyləyirdi bu sayaq,
İz arayıb, bala deyən anadır.

***

Deyirdilər dəlisovdur Sərtiş ər,
Yük daşıyar düşüncədən dəlisov.
Deyirdilər göylər ilə danışır.
Yük daşıyar düşüncədən dəlisov.

Deyirdilər Duzgöl yanı kənddəndir,
Dili topuq, sümükləri ətdəndir,
Qanı sudan, günəşdəndir, otdandır,
Yük daşıyar düşüncədən dəlisov.

El-obada az danışıb, gülürdü,
Oturanda öz yerini bilirdi.
Handan-hana o da dilə gəlirdi
Yük daşıyar duşüncədən dəlisov.

Ağsaqqallar sevməyirdi bu gənci,
Ad almışdı "ayaqyalın dilənçi".
Sarı üzdü, yekə başdı, iyrəncil,
Yük daşıyar düşüncədən dəlisov.

***

Düzümləri gülməliydi, dərindi,
Dərin olur suyu sərin quyular.
Həm çəkinir, həm sevirdi el onu,
Dərin olur suyu sərin quyular.

Ala gözlər ürkək idi, uyğulu,
Gənc üzünün görünüşu qayğılı,
Danışığı sayıqlıydı, sorğulu,
Dərin olur suyu sərin quyular.

Danışanda hərdən-birdən çaşırdı,
Doğruluqdan söz açanda daşırdı,
Qoşma deyib, sözdən düzüm qoşurdu,
Dərin olur suyu sərin quyular.

O, gənc ikən ana gözün qapadı,
Üzgün idi, əzgin idi o qadın,
Basdırıldı, Doğdu qaldı yer adı,
Dərin olur suyu sərin quyular.

***

Bacar qoydu Qızçiçəyi yerinə,
Tanrıların dediyindən yayınma.
Dedi, gedim Sərtiş əri axtarım,
Tanrıların dediyindən yayınma.

Keçdi dağı, gölü, çayı, meşəni,
Yaylaqları, qışlaqları, kövşəni.
Yay yağışı, yaz dumanı, qış çəni,
Tanrıların dediyindən yayınma.

Bayram tutdu Hindel bu gör-görüşü,
Gördü orda çox adamı, çox işi,

Gəzdi yol-yol hər meşəni, hər döşü,
Tanrıların dediyindən yayınma.

Sərtiş ərdən soraq verən olmadı,
Orda qalıb, burda yuva salmadı,
Gözəl idi ölkə, Bacar qalmadı.
Tanrıların dediyindən yayınma.

***

Çox yol getdi, yordu çox-çox yolları,
Yol qurtarmır, yol deməkdir yer üzü.
Yola döndü Minel, İlam, Mindiyar,
Yol qurtarmır, yol deməkdir yer üzü.

Hər şəhərdə bir ay, bir il oturdu,
Axtarışı yer-yer, kənd-kənd artırdı,
Son dözümü, inanışı qurtardı.
Yol qurtarmır, yol deməkdir yer üzü.

Gəlib keçdi, Əkbitənə girmədi,
Bir tanışa o tanışlıq vermədi,
İstəsə də Üstüağı görmədi,
Yol qurtarmır, yol deməkdir yer üzü.

Gəlib çatdı Subölənin yerinə,
Kirpik ütən istilərdən sərinə,
O yanaşdı qocalardan birinə.
Yol qurtarmır, yol deməkdir yer üzü.

***

-Ağsaqqalı, Sərtüz əri gəzirəm,
Yollanışdır, göndərişdir Sərtüz ər.
Axtarıram onu tanrı adından,
Yollanışdır, göndərişdir Sərtüz ər.

-Tanıyıram, saqqalı var, sapsarı,
Ala gözü, baxışları dupduru,
Dan yerində gəzir şehli yalları
Yollanışdır, göndərişdir Sərtüz ər.

Əyriliyi dağıdandır, sökəndir,
Yazısıyla azı, çoxu çəkəndir.
Doğruluğu ürəklərə əkəndir,
Yollanışdır, göndərişdir Sərtüz ər.

Çəkimi var, tutan yeri doğruluq,
Oddan sərtlik qapıb, sudan duruluq,
Quruda su, suda isə quruluq,
Yollanışdır, göndərişdir Sərtuz ər.

***

-Tanrı onu bizə toxdaq göndərib,
Tanrıların işığı var üzündə,
Ancaq onu başa düşmür varlılar,
Tanrıların işığı var üzündə.

Tanrı saymır onu çox ev yıxanlar,
Əldə tutur onu ələ baxanlar,
Gəzir onu sözlə ürək yaxanlar,
Tanrıların işığı var üzündə.

Burdan getsən, ona axşam çatarsan,

Ordan getsən, bataqlığa batarsan,
Bizə getsən, dincələrsən, yatarsan,
Tanrıların işığı var üzündə.

-Yox, tanıdım, gərək görüm onu mən,
Çox isindim sənin yuxa dilindən,
Gedim gərək öpüm onun dilindən,
Tanrıların işığı var üzündə.

***

Dağ ətəyi, yaylaları gəzdi o,
Bir mahnıdır hər gül, hər çay, hər bulaq.
Göz oxşayır boyaları güllərin,
Bir mahnıdır hər gül, hər çay, hər bulaq.

Uca dağlar burda verib əl-ələ,
Sarmaşıbdır gül ağaca, gül gülə,
Qayaları döş-döşədir, bel-belə,
Bir mahnıdır hər gül, hər çay, hər bulaq.

Mamır bitib daşlarının belində,
Dalğalanır quş qanadı yelindən,
Bir dinclik var bu döşlərin gülündə,
Bir mahnıdır hər gül, hər çay, hər bulaq.

Gör-gör burda alıb dirrik adını,
Bulud burda çapır köhlən atını,
Buradadır gözəlliyin yatımı,
Bir mahnıdır hər gül, hər çay, hər bulaq.

***

-Oğul, kimsən, dayan, sənə sözüm var,
Dağ ucalıq, çöl gözəllik paylayır,
Sərtüz əri görməliyəm bu yerdə,
Dağ ucalıq, çöl gözəllik paylayır.

Gözü ala, saçı sarı, üzü ağ,
Ay kimidir, üz işıqlı, yuvarlaq.
Ayaqyalın gül-çiçəyə bataraq,
Dağ ucalıq, çöl gözəllik paylayır.

-Sən axtaran mənəm, alnı lələkli,
Atı yorğa, özü dəmir biləkli,
Çinar qollu ərən, qaya kürəkli,
Dağ ucalıq, çöl gözəllik paylayır.

-Nə yaxşı ki, səni tapdım burada,
Məni yardım verib sənə yaradan,
Qoruncunam sənə tanrı sarıdan,
Dağ ucalıq, çöl gözəllik paylayır.

***

-İgid ərən, çox yol keçib gəlibsən,
Yaşayışı tanrı özü qoruyur.
Odu, suyu, göyü, yeri, bitkini,
Yaşayışı tanrı özü qoruyur.

Bil ki, gözdən yayınanam mən özüm,
Dizlərimdə güc yoxdursa, var dözüm,
El içində gücə dönür hər sözüm,
Yaşayışı tanrı özü qoruyur.

Mən bilirəm sən güclüsən, yaxşısan,
Uğureldə sevimlisən, başçısan.
Gənc olsan da yaşlılardan başlısan,

Yaşayışı tanrı özü qoruyur.

Məni el-el, addım-addım izləmə,
Qoruq edib, məni gəzmə, gözləmə.
Tanrıların qoruncuyam sözlə mən,
Yaşayışı tanrı özü qoruyur.

***

Dirrik mənə beş min ildir tanışdır,
Gələn gəlmir, gedən getmir biryolluq,
Bu dirriyə gəldim üç yol, üç adda,
Gələn gəlmir, gedən getmir biryolluq.

Sərtiş ərəm, Sərtüz ərəm, Sarıdöş,
Hər üçündə bir yaşayış, görünüş,
Sonuncu yox, üçüncüdür bu gəliş,
Gələn gəlmir, gedən getmir biryolluq.

Qorunc olma mən qoruncun özünə,
Yayınc* kəsil yazdığıma, sözümə,
Onda tanrı görünəcək gözünə,
Gələn gəlmir, gedən getmir biryolluq.

Məni burda başa düşən çox azdır,
Dirrik hələ yırtıcıdır, dayazdır,
Yoxsul çoxdur, varlılarsa konazdır,
Gələn gəlmir, gedən getmir biryolluq.

***

Yollanışam mən tanrılar adından,
Göydə tanrı birdir, adı yeddidir.
Su, od, göy, yer, bitki, günəş, doğruluq,
Göydə tanrı birdir, adı yeddidir.

Sərtiş ərdir bu dirriyə od ata,
Təpın, inan, kəsi kəsil sən oda,
Onda yerdən yığışılar qan-qada,
Göydə tanrı birdir, adı yeddidir.

Get, başçı ol Uğurelə, Hindelə,
Acılığı külə döndər, ver yelə.
İnanışla o elləri al ələ,
Göydə tanrı birdir, adı yeddidir.

_____
***Təbliğatçı*

Bunu bizə Ahur-məzda buyurub,
O, bizləri Əhriməndən qoruyur,
Yaman, kəsi ocaq ilə qarıyır,
Göydə tanrı birdir, adı yeddidir.

***

-Mən inamın dib daşını tapmışam,
Hərə gərək bir ev tikə, bağ sala.
Yaranışın ilk adı da inanış,
Hərə gərək bir ev tikə, bağ sala.

İnanışı olmayanın özü yox,
Öz-özünü tanımağa gözü yox,
Öz yurduna, öz elinə sözü yox.
Hərə gərək bir ev tikə, bağ sala.

Son sorğu var yaşayanlar öləndə,
Varlı, yoxsul birdir bura gələndə,
Etdikləri yaxşı, pisi böləndə,

Hərə gərək bir ev tikə, bağ sala.

Varlı, yoxsul birdir sorğu günündə,
Hamı birdir sorğuların önündə,
Odev, Dincev-iki yolun yönündə,
Hərə gərək bir ev tikə, bağ sala.

Suböləndə vuruş söyləncisi

Biri gəldi, arxasında köləsi,
-Heç kəs məncə oxşar deyil, bir deyil,
Mən varlıyam, qolugüclü, Sərtiş ər,
-Heç kəs məncə oxşar deyil, bir deyil.

Sorğu olsa, sən deyən tək o yolla,
Dincev bütün dolu olar yoxsulla,
Odev ilə dolar varlı oğullar,
Heç kəs məncə oxşar deyil, bir deyil.

Mən varlıyam, qoruyuram çoxunu,
Yaşadıram el istəyən qurğunu,
Qanlı olur hərdən taxıl yığımı,
Heç kəs məncə oxşar deyil, bir deyil.

Yazdığına inamım var buracan,
Bir sərçə var, bir də vardır çalağan.
Onda gərək varlı çıxa aradan,
Heç kəs məncə oxşar deyil, bir deyil.

***

-Yazdıqların gəlib bizə çatıbdır,
Yaranışda bir ölçü var, güdüm* var.
Bizim eldə doğulsan da böyüksən,
Yaranışda bir ölçü var, güdüm var.

Yazdıqların düzlük, özlük gözləyir,
Tanrıları ürəklərə səsləyir,
Qaranlığı, yamanlığı pisləyir,
Yaranışda bir ölçü var, güdüm var.

Ancaq son gün sorğusunda sınıbsan,
Varlı, yoxsul sözünü bir sanıbsan,
Varlılarda ucalığı danıbsan,
Yaranışda bir ölçü var, güdüm var.

Bil ki, yoxsul acıqanla vuruşmaz,
El işinə, yurd işinə qarışmaz,
Varlı kimi ağır işdən yapışmaz,
Yaranışda bir ölçü var, güdüm var.

***

Biz varlıyıq, gəldik sənə "yox" deyək,
Varlı, yoxsul bir yazıya sığışmaz.
Dəyişəsən o yazını gərək sən,
Varlı, yoxsul bir yazıya sığışmaz.

Yüklənmişik biz dirriyin yüküylə,
Yaşayırıq el-obanın suçuyla,
Ağrı oldun bizə qorxu, ürküylə,
Varlı, yoxsul bir yazıya sığışmaz.

Son sorğuda üstünlüklər ver bizə,
Varlıları oxşa, ayır, həm bəzə,
Bizi qoyma yoxsullarla üz-üzə,
Varlı, yoxsul bir yazıya sığışmaz.

———

*Adət

-Biz gəlmişik Əkbitənin özündən,
Çıxmamışıq Üstüağın sözündən.
Ya get burdan, ya da barış bizimlə,
Varlı, yoxsul bir yazıya sığışmaz.

***

- Dəyişmərəm yazdığımı, varlılar,
Hamı birdir yaranışın özündə.
-Varlı, yoxsul gecə-gündüz kimidir.
Hamı birdir yaranışın özündə.

-Gərək hamı bir inama bağlana,
Son sorğuda bir olarlıq saxlana.
Sözdə deyil, işdə hamı yoxlana,
Hamı birdir yaranışın özündə.

-Çıxardarıq Mindiyardan biz səni,
Varlı, yoxsul birdir yazıb, deyəni.
Varlını yox, yoxsulları öyəni,
Hamı birdir yaranışın özündə.

-Ahay, dayan, yekə-yekə danışan,
Tanrıların hər işinə qarışan,
El varına acgöz kimi daraşan.
Hamı birdir yaranışın özündə.

***

Mən basılmaz Gücər oğlu Bacaram,
Varlı, yoxsul bir doğulur, bir olmur.
Yolunuzu düz götürün, düz gedin,
Varlı, yoxsul bir doğulur, bir olmur.

Mən Sərtişin qoruncuyam, qılıncı,
Odur sözdə, düşüncədə tapıncıl*.
Mən də ona vurumbatmaz yapıncı.
Varlı, yoxsul bir doğulur, bir olmur.

Onlar dinib deyişdilər-daşdılar,
Ölçüləri, güdümləri aşdılar.
Bizucları bir-birinə sancdılar,
Varlı, yoxsul bir doğulur, bir olmur.

*İxtiraçı

Gücər oğlu Bacar qovdu çaparı,
Vurdu, yıxdı, kəsdi, tutdu onları.
Silkələndi dağın axar-baxarı.
Varlı, yoxsul bir doğulur, bir olmur.

***

-Dayan, Bacar, Gücər oğlu, güc ər qan,
Sözü gərək sözlə başa salasan.
Ağlamsındı, gülümsündü Sərtiş ər,
Sözü gərək sözlə başa salasan.

Vuruşumuz yamanladır yamanca,
Onda əl at toppuz, bizuc, qılınca.
Söz güləşdir, sözdə dözüm qalınca.
Sözü gərək sözlə başa salasan.

Qan axıtmaq olmaz, qardaş, boş yerə,
İnanışla yaraqlansın qoy hərə,
Onun ilə adam qalxar göylərə.
Sözü gərək sözlə başa salasan.

Sən söz Gücər, sən qol Gücər ərənsən,
Mən yazarı, sən yarağı görənsən.
Mən ağ kürən, sən bozumtul kürənsən,
Sözü gərək sözlə başa salasan.

-Mənim yurdum bəyənməyir yazarı,
Varlılar da mənə tez-tez qabarır.
Burda itib olacaqlar açarım,
Sözü gərək sözlə başa salasan.

Bir kökdəndir, bir addandır yaranış,
Yaranışın iç üzüdür inanış,
İnanışla güclü olur yaşayış,
Sözü gərək sözlə başa salasan.

Yazılarım qonub yatıb dillərə,
Himnim, qatım arxa olub ellərə,
Güc gətirdi ürəklərə, əllərə.
Sözü gərək sözlə başa salasan.

Hamı gərək ucalara inana,
İçi-çölü kəsi ola inama.
Yer qalmaya inanışda yamana,
Sözü gərək sözlə başa salasan.

***

Su üstündə gəlib durdu Sərtüz ər,
Yuyun, sonra tanrılarla danış sən,
Əl-üzünü, ayağını yudu o,
Yuyun, sonra tanrılarla danış sən.

Sonra durdu yavaş-yavaş ayağa,
Əllərini uzadaraq qabağa.
Gözlərini o zillədi ocağa,
Yuyun, sonra tanrılarla danış sən.

I üztut:

" İnanıram inandırıb hamını,
Böyük Məzda inancımdır, tanrımdır-
Mən devlərdən, yamanlardan qopmuşam,
Böyük Məzda inancımdır, tanrımdır.

Baş əyirəm Espendaya yenidən,
Üz tuturam, yalvarıram sənə mən,
Ahur-məzda düşməz daha dilimdən,
Böyük Məzda inancımdır, tanrımdır".

***

"Ahur-məzda yaradanı yaratdı,
Pisliklərə yeri-göyü daraltdı,
Yer altında günlərini qaraltdı,
Böyük Məzda inancımdır, tanrımdır.

Altı tanrı arxasında dayanıb,
Onlar tanrı işığına boyanıb,
Yer-göy onun sözlərilə oyanıb,
Böyük Məzda inancımdır, tanrımdır.

"Yeddi bayram, beş üztutun* yeriyəm,
Yerdə ocaq odərlərdən biriyəm,
Odla, suyla, bitkilərlə diriyəm.
Böyük Məzda inancımdır, tanrımdır".

II üztut:

"Böyük Aşa yaxşılardan yaxşıdır,
Böyük Aşa pisliklərə qarşıdır,
İstəklidir, istəklilər başıdır.
Dəyərlidir, dəyərlidir Aşamız".

III üztut:

"Ahur-məzda, dəyərlini özün seç,
Ayıryaman, öz ölçünlə yeri ölç,
Biz sevirik səni, pisi bizə keç,
Kişilərə, qadınlara əl uzat"...

***

-Ey Sərtiş ər, mən dönürəm yurduma,
İnanışdan güclü varsa tanrıdır,
Öz gücümə inanıram bu işdə,
İnanışdan güclü varsa tanrıdır.

"Gəl" buyursan, harda olsam, gələrəm,
Gərək olsa, vuruşaram, ölərəm,
Bu yolunda sənə uğur dilərəm.
İnanışdan güclü varsa tanrıdır.

Mənim atım, sənin sözün uçardır,
Söz qapalı qapılara açardır,
Güc yerində sözdən güclü nə vardır,
İnanışdan güclü varsa tanrıdır.

Sözün çatar Uğurelə, Xançuya,
Toxdaq olar yolkəsənə, qoçuya,
İnanc olar min-min gəncə, qocaya,
İnanışdan güclü varsa tanrıdır.

**Sitayiş*
**Dua*

***

Çapdı dağlar üzərindən İtiat,
Çəkər səni öz qoynuna doğulyer*,
Gəldi, gördü ana olub Qızçiçək,
Çəkər səni öz qoynuna doğulyer.

Artarına** Tuncər adı qoydu o,
Bələk iyi, süd qoxusu duydu o,
Bu sorağı Mindiyara yaydı o,
Çəkər səni öz qoynuna doğulyer.

Mənim Tuncər, mənim oğul artarım,
Çətin gündə inanılmış tutarım,
Dadlı-duzlu yuxularda yatarım,
Çəkər səni öz qoynuna doğulyer.

Böyü, atam, dur ananla yanaşı,
Doğma balam, doğul yerim, yurddaşım,
Ey gələcək ölkəbaşı, elbaşı,
Çəkər səni öz qoynuna doğulyer.

İnanış söyləncі

Yola düşdü Əkbitənə Sərtiş ər,
İnanc yoxsa, ordan çəkil, uzaq ol.
İnancına qol qoymadı varlılar,
İnanc yoxsa, ordan çəkil, uzaq ol.

Yazdıqları dağarcığa qalandı,
Sarı, ütük kirpikləri sulandı,
Ala gözün bəbəkləri bulandı,
İnanc yoxsa, ordan çəkil, uzaq ol.

İnanışda tanrıların düzgüsü,
Yazısında varlıların ürküsü,
Doğma yerlər, soyuq üzlər güzgüsü,
İnanc yoxsa, ordan çəkil, uzaq ol.

_____
Vətən
****övlad***

Dedi,- sağ ol, doğma yerlər, doğma yer,
Mən gedirəm, mənə güc ver, uğur ver,
Çox sevdiyim a görgülər, a gör-gör,
İnanc yoxsa, ordan çəkil, uzaq ol.

***

-Subölən dağ, məndən küsmə, incimə,
Nədən doğma soyuq olur doğmaya.
Bir isti söz eşitmədim bu yerdə,
Nədən doğma soyuq olur doğmaya?

Hamı məni giley ilə yanladı,
Doğmalarım ələ saldı, danladı,
Bir qardaşım öydü məni, anladı,
Nədən doğma soyuq olur doğmaya?

***

Gəlib çıxdı Əkbitənə Sərtiş ər,
Yol yoldaşı küsü, giley, inanış.
Bu Baş kənddə heç kəs onu saymadı,
Yol yoldaşı küsü, giley, inanış.

Üstüağı o soruşdu hamıdan,
Bir qız oldu ona yolu tanıdan.
Qıza uğur dilədi o, tanrıdan,
Yol yoldaşı küsü, giley, inanış.

Başevlilər ona məhəl qoymadı,
İstəyini, diləyini saymadı,
Ürəyinin sözlərini duymadı,
Yol yoldaşı küsü, giley, inanış.

Odər ata ona hayan kəsildi,
O, Başevdə bir bucağa qısıldı,
Ağrıları kirpiyindən asıldı,
Yol yoldaşı küsü, giley, inanış.

***

Yığıldılar dörd yanına gələnin,
Hər gələndə yeni bir şey taparsan,
Şaman gəldi, suyabaxan, rəmlatan,
Hər gələndə yeni bir şey taparsan.

Sərtiş ərin saç-saqqalı sarıydı,

Ala gözlər bulaqdan da duruydu,
Başı iri, döşü-köksü quruydu,
Hər gələndə yeni bir şey taparsan.

Ağ köynəyi uzun idi, sürünmə,
Ayaqları, topuqları görünməz,
Beldə üç qat ip var idi hörülmə,
Hər gələndə yeni bir şey taparsan.

Yorğun idi, tutqun idi üzdəcə,
Qalın kürkü uzanırdı dizəcən,
Qollarının qıraqları büzməcə,
Hər gələndə yeni bir şey taparsan.

***

- Mən gəlmişəm tanrıların yanından,
Dirrikləri Ahur-məzda yaradıb.
Mən onların qulağıyam, gözüyəm,
Dirrikləri Ahur-məzda yaradıb.

Su, od, yer, göy, bitki, dilli, dilsizi,
Görünəni, görünməyən hər üzü,
Düşüncəni, düşüncədə hər sözü,
Dirrikləri Ahur-məzda yaradıb.

Mən onların göstərişi, yoluyam,
Tanrıların işığıyla doluyam,
Deyən dili, bir də vuran qoluyam,
Dirrikləri Ahur-məzda yaradıb.

Yaxşı, yaman iki əli tanrının,
Son sorğusu vardır ulu tanrının.
Odev, Dincev son özülü tanrının,
Dirrikləri Ahur-məzda yaradıb.

***

Su üstündə gəlib durdu Sərtiş ər,
-Yuyun, sonra tanrılarla danış sən,
Əl-üzünü, ayağını yudu o,
Yuyun, sonra tanrılarla danış sən.

Sonra durdu yavaş-yavaş ayağa,
Əllərini uzadaraq qabağa,
Gözlərini o zillədi ocağa,
Yuyun, sonra tanrılarla danış sən.

I üztut:

"İnanıram, inandırıb hamını,
Böyük Məzda inancımdır, tanrımdır,
Mən devlərdən, yamanlardan qopmuşam,
Böyük Məzda inancımdır, tanrımdır.

Baş əyirəm Espendaya yenidən,
Üz tuturam, yalvarıram sənə mən,
Ahur-məzda düşməz bir də dilimdən,
Böyük Məzda inancımdır, tanrımdır".

"Ahur-məzda yaradanı yaratdı,
Pisliklərə yeri-göyü daraltdı,
Yer altında günlərini qaraltdı,
Böyük Məzda inancımdır, tanrımdır.

Altı tanrı arxasında dayanıb,

Hamı onun işığına boyanıb,
Yer-göy onun sözlərilə oyanıb,
Böyük Məzda inancımdır, tanrımdır".

Yeddi bayram, beş üztutdan bəriyəm,
Yerdə ocaq odərlərin biriyəm,
Odla, suyla, bitkilərlə diriyəm,
Böyük Məzda inancımdır, tanrımdır".

II üztut:

"Böyük Aşa yaxşılardan yaxşıdır,
Böyük Aşa pisliklərə qarşıdır,
İstəklidir, istəklilər başıdır,
Dəyərlidir, dəyərlidir Aşamız".

III üztut:

"Ayıryaman, öz ölçünlə bizi ölç,
Ahur-məzda, dəyərlini özün seç,
Biz sevirik səni, pisi bizə keç.
Kişilərə, qadınlara əl uzat".

***

Şaman dedi böyük elçi Sərtişə,
Tanrıların yanlışlığı olarmı?
Tanrı niyə özü pisi yaratdı?
Tanrıların yanlışlığı olarmı?

Odər dedi:-Tanrım oddur, ocaqdır,
Oddan butün çirkinliklər uzaqdır,
Odsevərlər tanrılar tək qoçaqdır,
Tanrıların yanlışlığı olarmı?

Nə veribsə dillilərə o verib,
Günəş çıxıb, hamı yerdən bar dərib.
Göyə çıxan göydə yalnız od görüb,
Tanrıların yanlışlığı olarmı?

Yaradan yox, yaranışdır od özü,
Onda tanrı gücü vardır ən azı,
Yaradan yox, yaşadandır od bizi,
Tanrıların yanlışlığı olarmı?

***

-Yaranarkən dirrik tanrı sözündən,
Pis doğulub yaxşılığın özündən.
Pislik edib bizə acıq üzündən,
Dirrik belə ikiliyə bölünüb.

-İnanmıram yaxşılıqdan pis ola,
Onda gərək pisdə yaxşı üz ola,
Belə desək, qardaş, bir az düz olar,
Dirrik belə ikiliyə bölünüb.

-Son sorğuda şah da birdir, kölə də,
Bizdən tanrı acıq alır hələ də,
Deyirsən ki, tanrı düzdür belədə.
Dirrik belə ikiliyə bölünüb.

-Pis adam yox, doğrusu, mən biləni,
Pislər varlı, yaxşılarsa dilənir,
Son sorğuya çəkir tanrı öləni,
Dirrik belə ikiliyə bölünüb.

***

Çıxıb önə, belə dedi rəmlatan,
-Suyun, odun tanrısı da çörəkdir.
Duruş olmaz varlıqlarda çörəksiz,
Suyun, odun tanrısı da çörəkdir.

Mən çörəyə baş əyirəm tanrı tək,
Bu çörəyə üztut qılaq biz gərək,
Həm samandır, həm də otdur bu çörək,
Suyun, odun tanrısı da çörəkdir.

Çörək olsa yaraqlı da vuruşar,
Adam bütün çətinliklə barışar,
O olmasa varlıq yanar, alışar,
Suyun, odun tanrısı da çörəkdir.

Falçı dedi;-Mən də sözə girirəm,
Yaranışı mən çörəkdə görürəm,
Üstünlüyü mən çörəyə verirəm,
Suyun, odun tanrısı da çörəkdir.

***

Sapdı, durdu öz yerindən Sərtiş ər,
-Yox, çörək də yaşadandır, tanrı yox.
Deyirsiniz tanrı göydə nə yeyir,
Yox, çörək də yaşadandır, tanrı yox.

Tanrı işıq axınıdır, göy deyir,
İşıq isə nə yeyilir, nə yeyir,
Yarananlar bu işığa baş əyir,
Yox, çörək də yaşadandır, tanrı yox.

Dirrik, varlıq öz yerinə dönəcək,
Adamlaşıb tanrı yerə enəcək,
Hamı bir dil, bir istəkdə dinəcək,
Varlıq ancaq yaxşıların olacaq.

Əriyəcək dağda dəmir, döşdə qar,
Yanacaqdır pislik gəzən adamlar,
Diriləcək ər ölənlər nə ki var,
Varlıq ancaq yaxşıların olacaq.

***

Şah çağırdı Sərtiş əri yanına,
"İnanışla adam dibdən dəyişir.
Bu gənc yeni inanışla gəlibdir,
İnanışla adam dibdən dəyişir.

Bu da yeni qurğusudur Mehcənin,
Girib yenə qılığına özgənin,
İstəyir ki başsız qoya ölkəni,
İnanışla adam dibdən dəyişir.

Nə deməkdir "Odev", "Dincev", "Son sorğu",
Kimə gərək inanışda bu qurğu,
Azdırmaqdır, aldatmaqdır, həm yuxu,
İnanışla adam dibdən dəyişir".

O baş əydi Üstüağa üç kərə,
Dedi:-Şahım, yalvarıram göylərə,
Göydən uğur diləyirəm sizlərə,
İnanışla adam dibdən dəyişir.

***

Ağ arxalıq, ağ darbalaq, ağ çuxa,

Ağ, al, sarı Mindiyarın görümü*.
Bu boyalar sevimlidir bu yerdə
Ağ, al, sarı Mindiyarın görümü.

Qızıldandır söykənəcək, oturaq,
Sayrışırdı orda-burda yal-yaraq,
Ayaq üstə dayanmışdı çox qonaq,
Ağ, al, sarı Mindiyarın görümü.

-Subölənin sarı Sərtiş yazarı,
Odsevərlər ölkəsidir Mindiyar,
Yeni-yeni tapıntılar nə gərək,
Odsevərlər ölkəsidir Mindiyar.

Mən bilmirəm kimə, necə uyubsan,
İnanışa yeni ölçü qoyubsan,
Yazdığını orda-burda yayıbsan,
Odsevərlər ölkəsidir Mindiyar.

**Rəmzi*

Yazdığında yer varlıya dar olub,
Odev, dincev yeni-yeni ad olub,
Son sorğuda varlı, yoxsul bir olub,
Odsevərlər ölkəsidir Mindiyar.

***

-Şahım, mən də bu ölkənin oğluyam,
Kimə gərək bunca ayrı-seçkilik.
Yerdə yoxsul öz yerini biləndir,
Kimə gərək bunca ayrı-seçkilik.

Gündə min-min qardaş qanı tökülür,
Ürəklərdən inanc, inam çəkilir.
Qanımızda öc tikanı əkilir,
Kimə gərək bunca ayrı-seçkilik.

Varlı, yoxsul ad yox, işlə ölçülür,
Bu yol ilə üstünlüklər seçilir,
Odev, dincev varlığına biçilir.
Kimə gərək bunca ayrı-seçkilik?

-Var qoymasa yürüşlərdə varlılar,
Bu ölkədən, bu varlıqdan nə qalar,
Hər varlının, hər yoxsulun yeri var,
Kimə gərək bunca ayrı-seçkilik.

-Siz deyəndən belə çıxır, varlılar
Tanrını da varla satın alarlar,
Onda elə var tanrıdır, tanrı var,
Kimə gərək bunca ayrı-seçkilik.

-Od, ocağı, suyu mənəm qoruyan,
Mənəm varlı-yoxsullara yarıyan,
Tanrıları öz yerində arayan,
Kimə gərək bunca ayrı-seçkilik.

- Biz pisliyə son qoyarsaq, Üstüağ,
Dirrik ilkin görkəmini alacaq,
Varda nə var, ilkinlərin olacaq,
Kimə gərək bunca ayrı-seçkilik.

-Sən tanrılar elçisisən, de görək,

İlkinliyə hansı yolla biz dönək,
İlkinliyin özünə də var gərək,
Kimə gərək bunca ayrı-seçkilik.

***

-Böyük şahım, Mindon oğlu Üstüağ,
Yaxşılıqdır pisi bizdən kürüyən.
İnanışda kəsi, üztut yaxşıdır.
Yaxşılıqdır pisi bizdən kürüyən.

Ağac əkmək, arx qazdırmaq, su çəkmək,
Od qorumaq, yol saldırmaq, ev tikmək,
Yer şumlamaq, yer sulamaq, yer əkmək,
Yaxşılıqdır pisi bizdən kürüyən.

Bizə qarşı quraqlıqdır, sel, yanğın,
Boş-boşuna yaxalaşma qan, qırğın,
Ev dağıdan, yertitrəmə, yel, çovğun,
Yaxşılıqdır pisi bizdən kürüyən.

Bunu böyük tanrı özü buyurub,
Pis çayırı yaxşı otdan ayırıb.
Çıxardasan gərək dibdən çayırı,
Yaxşılıqdır pisi bizdən kürüyən.

***

-Mən Üstüağ, Mindiyarın şahıyam,
Pis gizlənib yaxşılığın qoynunda,
Gərək hər gün yaxşılar da dəyişsin,
Pis gizlənib yaxşılığın qoynunda.

Biri Mehcə, öcdən şişib partlayır,
Biri Qaraş, üstümüzdən addayıb,
Hindel şaha gedib boyun qatdayıb,
Pis gizlənib yaxşılığın qoynunda.

İki min-min köçkün gəlib Hindeldən,
Artır onlar Mindiyarda il-ildən,
Biz onları danışdıraq nə dildə,
Pis gizlənib yaxşılığın qoynunda.

İndi bizə bir yol göstər, bilincim,
Qaraş olub köçkünlərə bir elçi,
Artır hər gün Əkbitəndə dilənçi,
Pis gizlənib yaxşılığın qoynunda.

***

- Mən istərəm dirrik, gör-gör bir olsun,
Bir yaranıb, birdir bütün dillilər.
Seçilməyir bir-birindən heç nədə,
Bir yaranıb, birdir bütün dillilər.

Tanrı bütün dilliləri bir görüb,
Ölkə deyil, bizə yer-göy ad verib,
Birdir göydə yerli, yersiz dəyəri,
Bir yaranıb, birdir bütün dillilər.

Köçkünlərə yardım buyur, yüksək ol,
Suçlarına, işlərinə gərək ol,
Elə əl tut dadlı-ballı tənək ol,
Bir yaranıb, birdir bütün dillilər.

İnanışla onlar birlik yaradar,
Şah hardadır onlar olar orada,

Onda sizə sağ ol deyər yaradan,
Bir yaranıb, birdir bütün dillilər.

***

Gedin, deyin bu sözləri onlara,
Hər bir dilli inanışla güclüdür.
Dinc oturub, dinc qalsınlar bu yerdə,
Hər bir dilli inanışla güclüdür.

Yer var, onlar Mindiyarda qalsınlar,
Qaraşa yox, sənə söykənc olsunlar.
Hindel şahdan öclərini alsınlar,
Hər bir dilli inanışla güclüdür.

Yazarım ol bundan sonra, təpərim,
Çək araya varlı, yoxsul çəpəri,
Dirrik vardır varlılardan ötəri,
Hər bir dilli inanışla güclüdür.

Manay gəldi, Sərtiş ərlə görüşdü,
Başev susdu, üzlər, gözlər dəyişdi.
Nə o bunla, nə bu onla deyişdi,
Hər bir dilli inanışla güclüdür.

Manay dedi:-Xoş gəlibsən, Sərtiş ər,
Şah nə desə el də elə tərpənər,
Minellisən, Mindiyarın oğlusan,
Şah nə desə el də elə tərpənər.

Bizi tanrı işığıyla çimizdir,
Kirpiklərə, gözlərə od damızdır,
Körpələri günəş ilə əmizdir,
Şah nə desə, el də elə tərpənər.

Yaşa burda, bizə yetkin ata ol,
Şaman, Odər arasında ortaq ol,
Baş aparan falçılara toxdaq ol,
Şah nə desə el də elə tərpənər.

Mən Manayam, Qızbax nənə qalıncı,
Üstüağın yürüşünün qoruncu,
Mindiyarın sıyırmaca qılıncı,
Şah nə desə el də elə tərpənər.

Asurellə vuruş söyləncі

Ağ, gümüşü, sallaq bulud,
Hoppan-hoppan oynayırsan.
Qıvrılırsan, açılırsan,
Hoppan-hoppan oynayırsan.

Dağ başından qıvraq ötüb,
Qayalara qırov qatıb,
Eniş, yoxuş, düzə çatıb,
Hoppan-hoppan oynayırsan.

Yağışını ələ bura,
Külək hara, sən də ora,
Döşün ağdır, için qara,
Hoppan-hoppan oynayırsan.

İnsan

Bu dağ mənim, o çöl sənin,

Göy üzündə keçir günün,
Dəyişdikcə boyun, enin,
Hoppan-hoppan oynayırsan.

***

Çay, haraya tələsirsən,
Gözü görməz tələsənin,
Al məni də öz tərkinə,
Gözü görməz tələsənin.

Çay, qarışım pıçıltıya,
Dönüm qorxunc gurultuya,
Bir ara ver sızıltıya,
Gözü görməz tələsənin.

Döşü sazlı gələn ozan,
Çay sözünü düzə yazan,
Qıvrıl-fırlan, açıl, uzan,
Gözü görməz tələsənin.

Aş yarğanı, uçurumu,
Keç qayanı, aşırımı,
Nağıl olsun hər qurtumun,
Gözü görməz tələsənin.

***

Tanrı günəş, dol köksümə,
Sənsiz yoxdur göy, yer, bulud.
Od, ocağım, inanışım,
Sənsiz yoxdur göy, yer, bulud.

Odunu ver, oda dönüm,
Ver alışım, qoyma sönüm,
Gün altında keçsin günüm,
Sənsiz yoxdur göy, yer, bulud.

Taxılımı göyərt, saralt,
Dirriyimdə bolluq yarat,
Sənsizləri yandır, qaralt,
Sənsiz yoxdur göy, yer, bulud.

Yağışların yağar-yağar,
Buludları sağar-sağar,
Dağ çayların axar-axar,
Sənsiz yoxdur göy, yer, bulud.

***

Hayanadır üzün belə,
Dayanışın dolanışı,
Nə gətirir, nə aparır
Dayanışın dolanışı.

Bir üzü yaz, bir üzü qış,
Köksü eniş, köksü yoxuş,
Gah qar tökür, gah da yağış
Dayanışın* dolanışı**.

Nə dili var, nə dilçəyi,
Dağlar, daşlar gəmirçəyi,
Alıb udur tez ölcəyin
Dayanışın dolanışı.

Dilliləri vuruşdurur,
Dilsizləri barışdırır,
Düz işləri qarışdırır

Dayanışın dolanışı.

***

Qaraş getdi Asurelə,
Özgə qapı döyər dönük.
Qarbaş dedi:-Getmə, utan,
Özgə qapı döyər dönük.

Asur şahın oğlu Əmən,
Tutdu onun sağ əlindən,
Dedi:-sənə əltutam mən,
Özgə qapı döyər dönük.

Sən haraya, mən də ora,
Od vuraram Mindiyara,
Üstüağla yenə varam,
Özgə qapı döyər dönük.

***Dünya**
****Məişət***

Qal burada, toplum tutaq,
Əkbitəni alıb, çataq.
Üstüağı oda qataq,
Özgə qapı döyər dönük.

***

Qaraş üç ay qonaq qaldı,
Qonaq üzüyola olar.
Verdi yelə öz yurdunu,
Qonaq üzüyola olar.

Baş qızışdı, göz alışdı,
Hər bir şeylə o barışdı,
O, Əməndən bərk yapışdı,
Qonaq üzüyola olar.

İnanmırdı şah Qaraşa,
Əl qatmırdı bu savaşa,
Birdən oxu dəyər daşa,
Qonaq üzüyola olar.

Başlananda böyük yürüş,
Dedilər ki, özün çarpış,
Üstüağla üzləş, vuruş,
Qonaq üzüyola olar.

***

Ağsaqqallar üz döndərdi,
Ağsaqqalı dinlə, eşit.
Əmən şaha yox dedilər,
Ağsaqqalı dinlə, eşit.

Biri dedi: - Bizə nə var,
Minellilər azğındırlar,
Çox deyilmi bu qırğınlar,
Ağsaqqalı dinlə, eşit.

Biri dedi:-Hurum gedib,
Hindeldə də belə olub,
Biri dedi:-Varım gedib,
Ağsaqqalı dinlə, eşit.

Biri dedi:-Qızıl məndən,
Çıxsın önə böyük Əmən,

Mindiyarı söksün dibdən,
Ağsaqqalı dinlə, eşit.

***

Qaraş dedi:-Başbilənlər,
Var, mal, ad-san yürüşdədir,
İndi gərək yürüş olsun,
Var, mal, ad-san yürüşdədir.

Qarbaş küsüb Üstüağdan,
Çəkişmə var orda çoxdan,
Varlıq orda yalan, saxta,
Var, mal, ad-san yürüşdədir.

Yüz min köçkün bizə baxır,
Gözlərindən alov yağır,
Lap bu gündür yürüş çağı,
Var, mal, ad-san yürüşdədir.

Mən şah olsam Mindiyara,
Son qoyaram qancıllara,
Birləşərik sıra-sıra,
Var, mal, ad-san yürüşdədir.

***

-Biz nə bilək düz deyirsən,
Yalan düzdən kəsərlidir,
Birdən bizi aldadarsan,
Yalan düzdən kəsərlidir.

Hindeldə də belə olub,
Bacar gəlib yurdu alıb,
İndi Hindel basıq qalıb,
Yalan düzdən kəsərlidir.

-Bacar mənə qılınc çəkməz,
Asureldə o, qan tökməz,
O buraya gözün dikməz,
Yalan düzdən kəsərlidir.

Asureldir mənim arxam,
Yoxsa kimdir mənə baxan,
Burdan səsim, sözüm çıxar,
Yalan düzdən kəsərlidir.

***

Şah düşündü, belə olsa,
Aldatmaq da girəvədir.
Mən Qaraşı aldadaram,
Aldatmaq da girəvədir.

Qoy çarpışsın, vuruş etsin,
Mindiyarın gücü bitsin,
İkisi də birdən getsin,
Aldatmaq da girəvədir.

Üstüağı gücdən sallam,
Bu döyüşdə üstün ollam,
Mindiyarı bütün allam,
Aldatmaq da girəvədir.

Mən Əmənəm, Asur oğlu,
Ölkədən çox vara bağlı,
Toplumlarım çoxlu-çoxlu,

Aldatmaq da girəvədir.

***

Güdükçülər yazı yazdı:
"Qardaş dönüb qancıl olub".
Üçcə günə soraq gəldi,
Qardaş dönüb qancıl olub.

Yüz min toplum yola çıxır,
Yaraqları iti, ağır,
Başraqları göyə qalxıb,
Qardaş dönüb qancıl olub.

Üstüağ şah, tələs bir az,
Yoxsa ölkə Başev qalmaz.
Soyuq keçir burada yaz,
Qardaş dönüb qancıl olub.

İki yandan gəlir toplum,
Körfəz yolu, dəniz yolu,
Qaraş, bir də Asur oğlu,
Qardaş dönüb qancıl olub.

***

Üstüağ şah toplum yığdı,
Tez-tov olar gecikənlər.
Atlı getdi Uğurelə,
Tez-tov olar gecikənlər.

Dedi, Bacar, Manay gəlsin,
Ölkə bilsin, tanrı bilsin,
Qaraş, Əmən gərək ölsun,
Tez-tov olar gecikənlər.

Manay dedi:-körfəz mənim,
Minbaşıya gərək dönüm.
Vuruşadır yolum-yönüm,
Tez-tov olar gecikənlər.

Yürüşümün on yaşı var,
O da burda gərək olar,
Mən ölərsəm, balam qalar,
Tez-tov olar gecikənlər.

***

On min toplum yola düşdü,
Görək tanrı nə göstərir.
Başçılardan biri Manay,
Görək tanrı nə göstərir.

Əynində ər geyimi gen,
Bu geyimdə kişi görkəm,
Sıçraq aslan kimi hərdən,
Görək tanrı nə göstərir.

Heç kəs bilmir bu, Manaydır,
Kişilərlə taybataydır,
Boydan kişi, üzdən aydır,
Görək tanrı nə göstərir.

***

Üstüağ şah yaraqlandı,

Dözüm gücdür yaraqlıda.
Tələsirdi, deyinirdi,
Dözüm gücdür yaraqlıda.

Bir gedişin işinə bax,
Qancıl yaxın, yaxın uzaq.
Qarbaş yoxdur, Bacar da yox,
Dözüm gücdür yaraqlıda.

-Ellərimiz, yerlərimiz,
Qoşaboğaz, qoşadəniz,
Bir az dözün, gəlirik biz,
Dözüm gücdür yaraqlıda.

İgidlərim, qaplanlarım,
Qaplan basan oğlanlarım,
Vurun, qırın cırtdanları,
Dözüm gücdür yaraqlıda.

***

Ağ başraqlar qanad açdı,
Başraq yurdun qanadıdır.
Yaraqlılar qanadlandı,
Başraq yurdun qanadıdır.

Dayanmadan, dincəlmədən
Çıxdı yola qırx min ərən.
Dan yerindən bir az erkən,
Başraq yurdun qanadıdır.

Qoşa boğaz dalda qaldı,
Qoşa dəniz hayla doldu,
Dan yerini al qan aldı,
Başraq yurdun qanadıdır.

Qarşılaşdı iki başraq,
Biri qara, o biri ağ,
Dindi qılınc, toppuz, tutaq,
Başraq yurdun qanadıdır.

***

Üstüağ şah qırdı, tökdü,
İti qılınc sağ, sol bilməz.
İki üzü, bir ağzı var,
İti qılınc sağ, sol bilməz.

Ox atanlar çəkilirdi,
Döş-baş, qarın sökülürdü,
Yüz-yüz yerə tökülürdü,
İti qılınc sağ, sol bilməz.

Qara başraq, Asurelli,
Qırılırdı əlli-əlli,
Şahı dikbaş, ağzı yelli,
İti qılınc sağ, sol bilməz.

Vurdu, getdi o başacan,
Döndü bir də bu başacan,
Dəniz qalxdı yarğanacan,
İti qılınc sağ, sol bilməz.

***

Əmən şahı boğdu acıq,
Dəlilikdir bu qan, qırğın,
Dedi, kəldir Üstüağ şah,

Dəlilikdir bu qan, qırğın.

Adamları çox seyrəldi,
Qan axdıqca göz bərəldi,
Dil tutuldu, üz qaraldı,
Dəlilikdir bu qan, qırğın.

Çox qorxutdu qan Əməni,
Dedi sallam tutuq səni.
Ölüşkəni, döyüşkəni,
Dəlilikdir bu qan, qırğın.

İp atdılar neçə kərə,
Üstüağı götürməyə,
İplər oldu pərən-pərən,
Dəlilikdir bu qan, qırğın.

***

O, çox getdi irəliyə,
Gərək arxan boş qalmasın.
Vura-vura, qıra-qıra,
Gərək arxan boş qalmasın.

Ötəratı yahaltdılar,
İp atdılar, ox atdılar,
Dar yolunu daraltdılar,
Gərək arxan boş qalmasın.

O özünə arxalandı,
Güc göstərdi, buğalandı,
Dörd bir yandan yaxalandı,
Gərək arxan boş qalmasın.

Tutuq düşdü axşam çağı,
Yaralıydı əl, ayağı,
Boynu, çiyni, alt dodağı.
Gərək arxan boş qalmasın.

Bacarın gəlişi söylənci

Minellilər axşam bir səs eşitdi,
Döyüşlərdə tanış səs də güc olur,
İtiatın kişnərtisi tanışdı,
Döyüşlərdə tanış səs də güc olur.

Yol gəlmişdi Bacar üç gün, üç gecə,
Üstüağın yoxluğunu bilincə,
Nəriltisi çevrilmişdi sevincə,
Döyüşlərdə tanış səs də güc olur.

Üstüağ şah eşitmişdi bu səsi,
Bacarının iti qılınc tiyəsi,
Qılıncbatmaz, vurumtutmaz gövdəsi.
Döyüşlərdə tanış səs də güc olur.

Mindiyarın toplumları güclənir,
Minbaşılar sevincindən kövrəlir.
Acıqanın ac gözləri bərəlir.
Döyüşlərdə tanış səs də güc olur.

***

Bacar çıxır ilk döyüşə bizucla,
Ürək-dirək son yaraqdır topluma.
Deşik-deşik olur baş, döş, göz, qarın,

Ürək-dirək son yaraqdır topluma.

Acıqanlar on-on, yüz-yüz gəbərir,
Görməyibdir onlar belə bir əri.
Vurumbatmaz, qılınctutmaz önəri.
Ürək-dirək son yaraqdır topluma.

Qalxıb-enir qılınc, bizuc, toppuzlar,
Ayaq altda qalır qancıl, quduzlar,
Qanla dolur gözlər, döşlər, ağızlar,
Ürək-dirək son dayaqdır topluma.

Əmən çıxır qabağına Bacarın,
Dodaq əsir, döşü isə qabarır,
Bir vurumla Əməni qan aparır,
Ürək-dirək son dayaqdır topluma.

***

-Alçaq, mənəm bu döyüşdə Mindiyar,
İti olur doğruluğun qılıncı.
Üstüağı qaytar, ya da öl, gəbər!
İti olur doğruluğun qılıncı.

Mən gəlmişəm, Gücər oğlu Bacaram,
Bircə gündə toplumunu qıraram,
Asureli şəhər-şəhər yararam,
İti olur doğruluğun qılıncı.

-Bacar, məni kölə götür, öldürmə,
Asureli saqqalıma güldürmə,
Ölümümü Asurelə bildirmə,
İti olur doğruluğun qılıncı.

O atılıb lüt, ağacsız adaya,
O bağlanıb iplə qara qayaya.
Ancaq quşlar uça bilər oraya,
İti olur doğruluğun qılıncı.

***

-Mən gedərəm, o adanı taparam,
Ölkə şahsız qala bilməz, dağılar.
Üstüağ şah şah deyildir, ərəndir,
Ölkə şahsız qala bilməz, dağılar.

Bunu deyib Bacar uçdu atıyla,
Üstüağ şah, qara qaya adıyla.
O yol getdi buludların qatıyla,
Ölkə şahsız qala bilməz, dağılar.

Ağ buludlar ada-ada süründü,
Dəniz içrə qara qaya göründü,
İti daşlar, uçurumlar dərindi,
Ölkə şahsız qala bilməz, dağılar.

Yol göstərdi ona quşlar, buludlar,
Ana verən ağ lələkli qanadlar.
Göllər, çaylar, kəndlər, ellər, elatlar,
Ölkə şahsız qala bilməz, dağılar.

***

Üstüağ şah cır-cındırın içində,
Qayalara şahlıq etmək çətindir.
Sıçram-sıçram dalğalarla döş-döşə,
Qayalara şahlıq etmək çətindir.

O qırmışdı qalın dəmir ipləri,
Dolaşırdı suqırağı* yerləri,
Yolu üstə qayaların çəpəri,
Qayalara şahlıq etmək çətindir.

Bacar onu görüb endi aşağı,
Nə geyimi, nə də şahlıq yarağı.
Qayaların tutuğuydu, qonağı,
Qayalara şahlıq etmək çətindir.

İki ərən görüşürdü harada,
At dırnağı toxunmamış adada,
Saxla qorxmaz ərənləri, yaradan,
Qayalara şahlıq etmək çətindir.

**Sahil*

***

-Bacar, necə bu yerləri tapıbsan,
-Adam uca zirvələrdən ucadır,
Əmən şahı öz içində boğmuşam,
Adam uca zirvələrdən ucadır.

İnanırdım gələcəksən vuruşa,
Yaman olsun tanrı dönük Qaraşa.
Burdan gedək Qaraş üstə birbaşa,
Adam uca zirvələrdən ucadır.

-Manay çıxıb qabağına Körfəzdə,
Bu döyüşə çox çətin ki o dözə,
Tanrı özün güc ver, dözüm ver bizə,
Adam uca zirvələrdən ucadır.

Otur gedək, sən oraya, mən ora,
Bundan sonra Qaraş ilə mən varam,
Yoxsa bizi diz çökdürər bu yara,
Adam uca zirvələrdən ucadır.

***

Hardaydılar, görüşdülər harada,
Görüş yeri gözdə qalır, silinmir,
Qucaqlaşıb öpüşdülər, güldülər,
Görüş yeri gözdə qalır, silinmir.

Mindiyarın toplumları yürüşdə,
Asurelli küylənmişdi bu işdən,
Min-min adam itirmişdi döyüşdə,
Görüş yeri gözdə qalır, silinmir.

Qayıtdılar, gördülər ki, şah ölüb,
Asurelin başraqları əyilib,
Üstüağı özlərinə şah bilir,
Görüş yeri gözdə qalır, silinmir.

Üstüağ şah Asureli çapmadı,
Düz yolundan əyri yola sapmadı,
Qız, gəlinə kobud işlər yapmadı,
Görüş yeri gözdə qalar, silinməz.

***

Ağsaqqallar, başbilənlər gəldilər,
Yaxşılığa yaxşı olmaq gözəldir.
Üstüağa tay-tay qızıl verdilər,

Yaxşılığa yaxşı olmaq yaxşıdır.

Gəlib bağış verdi qızlar, gəlinlər,
Şah önündə eli borclu bilənlər,
Gülə-gülə göz yaşını silənlər,
Yaxşılığa yaxşı olmaq gözəldir.

Yükləndilər atlar, atlı daşqalar,
Neçə-neçə dörd təkərli qoşqular,
Bağışlandı şaha yeni qurğular,
Yaxşılığa yaxşı olmaq yaxşıdır.

Üstüağı ağız-ağız öydülər,
Əmən şaha dəli deyib söydülər.
Vuruşlara qol qoyanı döydülər,
Yaxşılığa yaxşı olmaq yaxşıdır.

***

Döndü malla, mal-qarayla Üstüağ,
İtkilərə toxdaqlıqdır hər ödənc*.
Dilə-dişə düşdü Asur basdısı,
İtkilərə toxdaqlıqdır hər ödənc.

Bacar dedi:-Mən gedirəm Körfəzə,
Tapşırıram səni böyük Hörmüzə,
Acıqanam ipə-sapa gəlməzə,
İtkilərə toxdaqlıqdır hər ödənc.

Gərək gedim diz çökdürüm Qaraşı,
Gedim durum Manay ilə yanaşı,
Necə olur görüm onun savaşı,
İtkilərə toxdaqlıqdır hər ödənc.

Diri-diri gətirərəm mən onu,
Bitirərəm başladığı oyunu,
Yerə soxum onun Qaraş boyunu,
İtkilərə toxdaqlıqdır hər ödənc.

***

Bunu deyib İtiatı çapdı o,
Ağır gündə yardım tanrı işidir.
Dalda qoydu Asureli, İlamı.
Ağır gündə yardım tanrı işidir.

Fərat, Dəclə axarıyla yol aldı,
Gün get-gedə qızararaq saraldı,
Çayarası aralıqlar daraldı,
Ağır gündə yardım tanrı işidir.

Körfəz üstə yaralılar, ölülər,
Qana batıb bu döyüşdə ellilər,
Mindiyarda dəlilərlə yellilər,
Ağır gündə yardım tanrı işidir.

Ərqız Manay bir az solub, saralıb,
Onun qolu, çiyni, köksü yaralı,
Minellilər bir-birindən aralı.
Ağır gündə yardım tanrı işidir.

***

Bacar çıxır ortalığa lapbadan,
-Yaraşarmı tək qadını təkləmək?!
Mən Manaya arxa, əltut* gəlmişəm,
Yaraşarmı tək qadını təkləmək?!

Qaraş, indi qabağıma çıxginən,
Qoyum səni bir vurumla pis günə,
Alım səni dəmir ipə, düyünə,
Yaraşarmı tək qadını təkləmək?!

-Mən Qaraşam, Bacar, çox da öyünmə,
Öz-özünə çox çırpınıb döyünmə.
Qurd dərinlə, toppuzunla sevinmə,
Yaraşarmı tək qadını təkləmək?!

Arielli arxamdadır, vuruşur,
Minellilər itiribdir duruşu,
Yaralılar bir-birinə qarışıb,
-Yaraşarmı tək qadını təkləmək?!

**Kömək*

***

Vuruşdular, yastılandı yaraqlar,
Dəmir dözüm gətirməyir dəmirə.
Qalxdı iki qıçı üstə İtiat,
Dəmir dözüm gətirməyir dəmirə.

At tanıdı oğrusunu, boş başı,
Şıllaq atıb vurub yıxdı Qaraşı,
O qurtardı bunun ilə savaşı,
Dəmir dözüm gətirməyir dəmirə.

Arielli yürüş etdi, durmadı,
Minellini bu yürüşlər yormadı,
Bacar isə Arielli qırmadı,
Dəmir dözüm gətirməyir dəmirə.

Dedi:-Gedin yerinizdə oturun,
Mal-qaranı, ot-otlağı artırın,
Bu ocağı, qan-qadanı qurtarın,
Dəmir dözüm gətirməyir dəmirə.

Tuncərin itməsi söyləncі

Qaraş bir də itkin düşdü, yox oldu,
Üzə çıxmaq üz istəyir dəmirdən.
Asureli, Arieli batırdı,
Üzə çıxmaq üz istəyir dəmirdən.

Axtardılar, aradılar, gəzdilər,
Boş-boşuna dolanmaqdan bezdilər,
Üz döndərib ondan, inam üzdülər,
Üzə çıxmaq üz istəyir dəmirdən.

Asurelə dönüb bir də o maymaq,
Sonevidir üstündəki yal-yaraq,
Azdırandır el-obanı yapalaq,
Üzə çıxmaq üz istəyir dəmirdən.

Bacar dedi: - Başçı seçin, baş olsun,
Adı-sanı Arieldə sayılsın.
Dediyinə sözsüz dəyər qoyulsun,
Üzə çıxmaq üz istəyir dəmirdən.

***

Hamı dedi:-Bacar olsun başçımız,
Yiyəsizə hər uca ad yiyədir.
Hexa qızı acığından dinmədi,
Yiyəsizə hər uca ad yiyədir.

Mənişi dedi, aldadaram, yaxaram,
Acılayıb son gününə baxaram,
Əkbitənin dib daşına çıxaram,
Yiyəsizə hər uca ad yiyədir.

Bacar dedi:- Əltut ollam sizlərə,
Gedin bir az suqırağı düzlərə.
İnanmayın qan-qadalı sözlərə,
Yiyəsizə hər uca ad yiyədir.

Mənişi dedi:- Yol taparam bu yolla,
Əkbitəndə Qaraşıma yer allam.
Şahlar kimi mən də qalxıb ucallam,
Yiyəsizə hər uca ad yiyədir.

***

Basar döndü ər qız Manay Başevə,
Başəy* olsun gərək böyük basara.
Bacar isə suqırağı düzlərə,
Başəy olsun gərək böyük basara**.

Qorxusundan Mənişi üzə çıxmadı,
Bacar onun üzünə də baxmadı.
Tək olsa da Arieldən qorxmadı,
Başəy olsun gərək böyük basara.

Ocaq çatıb ət-soyutma etdilər,
Hind dilində oxudular, ötdülər,
Oynadılar, yoruldular, getdilər,
Başəy olsun gərək böyük basara.

Mənişi gizli girib-çıxdı daxmaya,
Anasını saldı sıxma-boğmaya,
Nəsə qatdı çörək üstü yaxmaya,
Başəy olsun gərək böyük basara.

***

Burda gecə yatdı Bacar ac, susuz,
İlan vuran qorxar qara çatıdan.
Bir yol onu acılayan Mənişdi,
İlan vuran qorxar qara çatıdan.

Üç gün yatdı, ayılmadı yuxudan,
Mənişi üzə çıxammadı qorxudan.
Çəkinirdi o, ağıdan, qarğıdan,
İlan vuran qorxar qara çatıdan.

İtiatı yaraladı, qovladı,
Qapısına gələnləri tovladı,
O, Bacarı yuxularkən ovladı,
İlan vuran qorxar qara çatıdan.

Yanıq əski tutdu gecə burnuna,
Tüstü gedib yatdı onun qanına,
Üç-üç quru ot döşədi yanına,
İlan vuran qorxar qara çatıdan.

***

Dedi:-şahı diz çökdürrəm bax, belə,
Güclülərə güc gəlməyə bic gərək.
Sonra özüm sağaldaram Bacarı,
Güclülərə güc gəlməyə bic gərək.

Çap get uzaq Uğurelə, İtiat,

**Təzim*
***Qalib*

Kişnə, qaplan nəriltisi sən ucalt,
Bacarının yuxusunu qov, azalt,
Güclülərə güc gəlməyə bic gərək.

At çaparaq Uğurelə birbaşa,
Dırnağını çırpdı yerə, dağ-daşa,
Qızçiçəyi o səslədi savaşa,
Güclülərə güc gəlməyə bic gərək.

Balasını alıb çıxdı Qızçiçək,
Görən Bacar nə yerdədir, nə gərək.
-Ay İtiat, çox iti ol, çap görək,
Güclülərə güc gəlməyə bic gərək.

***

Çıxdı yola çapa-çapa Qızçiçək,
Ürək duyur hər bir işi qabaqca.
Görən, nə var başındaca Bacarın,
Ürək duyur hər bir işi qabaqca.

-İtiatım, al belinə balamı,
Atıl, uç, keç uçurumu, yarğanı,
Keç qartalı, keç quzğunu, qarğanı.
Ürək duyur hər bir işi qabaqca.

İtiatım, balamı al böyrünə,
Məni çatdır o vuruşqan ərimə,
Onun çarpış, qarpış, çırpış yerinə,
Ürək duyur hər bir işi qabaqca.

İtiatım, tələs-tələs, usanma,
Ormanlarda, yaylalarda dayanma,
Onu mən tək tanrılar da duyammaz,
Ürək duyur hər bir işi qabaqca.

***

Məniş qorxdu, Qızçiçəkdən çəkindi,
Dilə tutdu, dil aldadar qadını,
Dedi;-Dayan, mən başına dolanım,
Dilə tutdu, dil aldadar qadını.

- Kəsi olum sənin kimi anaya,
Gəlib yaxşı yetişibsən haraya,
Sənin qadan dəysin dəli Manaya,
Dilə tutdu, dil aldadar qadını.

Basar çıxdı Manay bu son döyüşdə,
Bacar ona yardım etdi bu işdə,
Basıq* Qaraş qaçıb itdi örüşdə,
Dilə tutdu, dil aldadar qadını.

El Bacarı başçı seçdi özünə,
Hamı baxır onun ərsoy sözünə.
Nədən indi yuxu dolub gözünə,
Dilə tutdu, dil aldadar qadını.

Məğlub

***

Diz qatdadı ər önündə Qızçiçək,
Nə dirrikdir, nə ölümdür yuxular.
Doğma ərim, gözünü aç, mənə bax,
Nə dirrikdir, nə ölümdür yuxular.

Bunca yatdın, yatağanım, daha dur,
Yol gözləyən Uğurelə söz buyur,
Dirriyini ölümündən sən ayır,
Nə dirrikdir, nə ölümdür yuxular.

Çox istidir, buraların yox qarı,
Bizi səslər qarlı dağlar diyarı.
Çənli yallar, durudaşlar diyarı,
Nə dirrikdir, nə ölümdür yuxular.

İgid ərim, yatmaq sənə yaraşmaz,
Ölüm gəlsə səndən, məndən soruşmaz.
Dirrik bunca ölüm ilə barışmaz,
Nə dirrikdir, nə ölümdür yuxular.

***

Tək yatmışdı körpə Tuncər yan evdə,
Tək qoymasın gərək doğma doğmanı.
Tuncər körpə yuxusunda gülürdü,
Tək qoymasın doğma gərək doğmanı.

Mənіş getdi, oğurladı uşağı,
Düşmür dedi, bizim evə ayağı.
Atdı seyrək ormanlığa uşağı,
Tək qoymasın doğma gərək doğmanı.

Gəlib gördü bayılıbdır gənc ana,
Dedi, qatım gəlini də al qana,
Sonra atım mən onu da ormana,
Tək qoymasın doğma gərək doğmanı.

O, bıçağı endirərkən dəli tək,
Tutdu qanlı biləyindən Qızçiçək.
Dedi:-hanı körpəm, ay it, ay köpək,
Tək qoymasın doğma gərək doğmanı.

***

Onlar birdən yumruqlaşdı, tutaşdı,
Göydəngəlmə nəsə vardır qadında,
Bir o vurdu qılınc ilə, iki bu,
Göydəngəlmə nəsə vardır qadında.

Qızçiçəyin ana gözü alışdı,
Qılınc vurdu, Mənіş ilə çarpışdı.
Birdən onun boğazından yapışdı,
Göydəngəlmə nəsə vardır qadında.

-Göz dikmisən-dedi; – şahlıq yerinə,
Niyə ağı içirmisən ərimə,
Boyayaram səni qana, irinə,
Göydəngəlmə nəsə vardır qadında.

Dur, su çilə, silkə, oyat Bacarı,
Sonra gətir, qoy yanıma artarı.
Məni üzən sulu çiçək çıxarır,
Göydəngəlmə nəsə vardır qadında.

***

-Tuncər, odur, yaxındadır, ağlayır,
Bağışlamaq analardan qalmadır.
Gümüş suyu içirt, Bacar ayılsın,
Bağışlamaq analardan qalmadır.

-Bu, yuxu yox, dərin-dərin quyudur,
Al, Bacarım, iç, qolbağın suyudur,

Bu, ölümə bənzər qara yuxudur,
Bağışlamaq analardan qalmadır.

İrişərək Bacar açdı gözünü,
Gördü birdən Qızçiçəyin üzünü,
O qatdayıb yerə qoydu dizini,
Bağışlamaq analardan qalmadır.

Onlar Mənіş deyən yerə qaçdılar,
Quşa dönüb sanki qanad açdılar,
Tuncər deyib yarğanlardan uçdular,
Bağışlamaq analardan qalmadır.

***

Çox gəzdilər, tapmadılar Tuncəri,
Gecə keçdi, dan ağardı, gün çıxdı.
Yarğanları, ormanları busdular,
Gecə keçdi, dan ağardı, gün çıxdı.

Tuncər bala, hardan səni tapaq biz,
Qancılların caynağından qapaq biz,
İtiatla Uğurelə çapaq biz,
Gecə keçdi, dan ağardı, gün çıxdı.

Səs gəlmədi kolluqlardan, daşlardan,
İti gəlib yorğun keçən quşlardan,
Səs gəlmədi ətəklərdən, döşlərdən,
Gecə keçdi, dan ağardı, gün çıxdı.

Ata, ana yorularaq susdular,
Yerə, göyə, çaya qulaq asdılar,
Ağrılarda, acılarda azdılar.
Gecə keçdi, dan ağardı, gün çıxdı.

***

İlk balanı itirməyi daddılar,
Ağrı-acı yaxın olur hamıya,
Üzüntülər üzlərində göyərdi,
Ağrı-acı yaxın olur hamıya.

Yada salıb ağladıqca artarı,
Qızçiçəyin gur saçları ağarır,
Sızıltılar dara çəkir Bacarı,
Ağrı-acı yaxın olur hamıya.

Üç il keçdi, bir qız doğdu Qızçiçək,
Ad qoydular bu ağ qıza Qarçiçək.
Bundan sonra ağrı-acı nə demək,
Ağrı-acı yaxın olur hamıya.

Beş yaşında gözəl, göyçək, ərköyün,
Yaşayışı, gündəliyi toy-düyün,
On yaşında qaşlarında bir düyün,
Ağrı-acı yaxın olur hamıya.

***

Qarçiçəklə toxdamadı Qızçiçək,
Hər balanın öz qoxusu, öz yeri.
Tuncər deyib göz yaşını axıtdı,
Hər balanın öz qoxusu, öz yeri.

Paxıl Mənіş qapıb onu itirdi,

Yoxsa tanrı göyə yardım apardı,
Yerindəcə qarçiçəyi bitirdi,
Hər balanın öz qoxusu, öz yeri.

Biri gəldi, yaramaza yarayan,
Tez-tez alın qırışını darayan,
Dedi; göydə ulduzları arayaq,
Hər balanın öz qoxusu, öz yeri.

O söylədi, Qızçiçək də inandı,
Bu deyimlər ölç-bis olub sınandı,
Hamıdan çox yenə ana yanandı,
Hər balanın öz qoxusu, öz yeri.

***

Qızı gəlib çatdı on beş yaşına,
Hamı birdən sevgiləşir bu yaşda.
Dağa-daşa, günə, aya boylanır,
Hamı birdən sevgiləşir bu yaşda.

Hərdən gizli, öz-özüylə danışır,
Açılmazlıq üz-gözündə sayrışır,
Gözəl olur danışığı, duruşu,
Hamı birdən sevgiləşir bu yaşda.

Öz-özüylə öz-özündən inciyir,
Dəniz kimi yoxdur bir an dincliyi,
Belə keçir yeniyetmə gəncliyi,
Hamı birdən sevgiləşir bu yaşda.

Yeniyetmə, yolsuz, başsız, gəzəri,
Hər bir sözdən, hər bir işdən küsəri,
İlk sevginin yeniyetmə kəsəri,
Hamı birdir, sevgiləşir bu yaşda.

Qızçiçəyin ov söyləncі

Bir gün ova çıxmış idi Qızçiçək,
Meşə dərin, yarğan dərin, çay dərin,
Gördü biri yatıb qaya üstündə,
Meşə dərin, yarğan dərin, çay dərin.

O yatmışdı üstüaçıq, bükülü,
O lüt idi, tək sağrısı örtülü,
Boyun əti, çiyin əti dartılı,
Meşə dərin, yarğan dərin, çay dərin.

Qarçiçəkdi sanki, yox, o deyildi,
Bu oğlandı, saçı kilkə kəkildi,
Köksü tuncdan, tunc dərisi çil-çildi,
Meşə dərin, yarğan dərin, çay dərin.

Ana onu öz qızına oxşadır,
Elə bil ki, cüt almadır, qoşadır,
O, ağ güldür, bu oğlansa başqadır,
Meşə dərin, yarğan dərin, çay dərin.

***

Birdən çıxdı qabağına bir ağ qurd,
Ovun cüyür-ceyranı var, qurdu var.
Qızçiçəyə diş qıcırtdı acıqla,
Ovun cüyür-ceyranı var, qurdu var.

O qorxmadı, qurd üstünə yeridi,
Qurd çəkilib daldalığa, kiridi,

Bu qurd ağdır, həm də çox-çox iridir,
Ovun cüyür-ceyranı var, qurdu var.

Qurd sıçradı irəliyə, at ürkdü,
Qurdun gözü göz deyildir, sönükdür,
Ağzındakı dişlər sökük-sökükdür,
Ovun cüyür-ceyranı var, qurdu var.

Qılınc qalxdı, endi qurdun çiyninə,
O batmadı qurdun qalın gönünə.
Qurd geyibdir qurd dərisi əyninə,
Ovun cüyür-ceyranı var, qurdu var.

***

Oxa tutdu, ox da onu tutmadı,
Yaraalmaz, dəmirbatmaz qurddu bu,
Dedi,-tutun onu iplə,-Qızçiçək,
Yaraalmaz, dəmirbatmaz qurddu bu.

Onu alıb aralığa tutdular,
Dəmirağac tutuğuna* qatdılar.
Qızçiçəyin qabağına atdılar,
Yaraalmaz, dəmirbatmaz qurddu bu.

Tunc kökslü oğlan birdən ayıldı,
Bunu görüb qanlı gözü qıyıldı,
Nəriltisi uzaqlara yayıldı,
Yaraalmaz, dəmirbatmaz qurddu bu.

Cumub dəmir tutacağı qırdı o,
Kim var idi ovçulardan vurdu o,
Qızçiçəyi qova-qova yordu o,
Yaraalmaz, dəmirbatmaz qurddu bu.

***

Birdən şaq-şaq şaqqıldadı meşələr,
Meşənin də ağac-ağac dili var.
Bir sürü qurd bura gəldi yüyürək,
Meşənin də ağac-ağac dili var.

Qızçiçəyi Tuncər tutub saxladı,
Qollarını, qıçlarını bağladı,
Kimliyini birər-birər yoxladı,
Meşənin də ağac-ağac dili var.

- Bacar şahın arvadıyam, dirəyi,
Hələ yerə dəyməyibdir kürəyi.
Nədən, bilməm, tir-tir əsir ürəyim,
Meşənin də ağac-ağac dili var.

Oxşayırsan igid ərim Bacara,
Bir də itən körpə oğlum – artara,
Ah, ürəyim çırpım-çırpım qabarar,
Meşənin də ağac-ağac dili var.

**Qəfəs*

***

Ağ qurd lapdan dilə gəldi, söylədi:
Dağ dağa yox, çatar adam adama.
Səni yaxşı tanıyıram, Qızçiçək,
Dağ dağa yox, çatar adam adama.

Uğurelin şah qadını olubsan,
Niyə belə qabarıbsan, dolubsan?

Oğul deyib, saralıbsan, solubsan,
Dağ dağa yox, çatar adam adama.

-Mən oğlumu itirmişəm gör haçan,
İtki çox-çox yaman olur, çox yaman.
Qoy azaltsın üzüntümü yaradan,
Dağ dağa yox, çatar adam adama.

Ondan sonra belə soldum, saraldım,
İyirmi il içrə belə qocaldım,
Körpəm itdi, ötkəmliyim azaldı,
Dağ dağa yox, çatar adam adama.

***

Ağ qurd baxdı, diş göstərdi qurdlara,
Diş qıcıtmaq "qancıl olun" deməkdir,
Dedi-Məni alçaldıbdır Üstüağ,
Diş qıcıtmaq qancıl olmaq deməkdir.

Əldən düşdü, Boz Qurd öldü bir axşam,
Mən Boz Qurdun balasıyam, ağ adam,
Öz atamın yerindəcə mən varam,
Diş qıcıtmaq qancıl olmaq deməkdir.

Mən Ağqurdam, Qızbax şahın elindən,
Böyük başçı Turər şahın belindən,
Qan ağlaram Üstüağın əlindən,
Diş qıcıtmaq qancıl olmaq deməkdir.

Mən sevirdim uşaqlıqdan Manayı,
Mən o qızın, o qız mənim öz tayım,
Getdi oldu Üstüağın şah payı,
Diş qıcıtmaq qancıl olmaq deməkdir.

***

Qızçiçəyə yürüş etdi neçə qurd,
Yedirtməzlər qurda-quşa qadını,
Tunc köküllü oğlan birdən bağırdı,
Yedirtməzlər qurda-quşa qadını.

Mənə Ağqurd Tuncər deyib ad qoyub,
Dil öyrədib, ad qazanıb, səs yayıb,
Başçı mənəm indi meşə, çöl boyu,
Yedirtməzlər qurda-quşa qadını.

Mən də səndə bir doğmalıq sezirəm,
Doğma yerlər, doğma üzlər gəzirəm,
Hərdən bu qurd tay-tuşumdan bezirəm,
Yedirtməzlər qurda-quşa qadını.

Buraxıram səni, qayıt yerinə,
Gözaydınlıq söylə Bacar ərinə,
Əltut olsun hamı biri-birinə,
Yedirtməzlər qurda-quşa qadını.

***

Tuncər, sağ ol, unutmaram bunu mən,
Bağışlamaq dirisidir bu ellər.
Oğul, sənə yaman qanım qaynadı,
Bağışlamaq dirisidir bu ellər.

Ağqurd dedi; -Parçalayın, dağıdın,
Adamları boğun, qanlar axıdın,
Tuncər dedi:- Öcü suça boğdurun,

Bağışlamaq dirisidir bu ellər.

Sağ ol, oğlum, Tuncər-dedi Qızçiçək,
Uğurelə gəlin, bir də görüşək,
Çöldə, düzdə yaxın olaq biz gərək.
Bağışlamaq dirisidir bu ellər.

Ağqurd dedi:-Qurdlar, onu gəmirin,
Qadın qanı şirin olur, sümürün.
Tuncər sıxdı əlindəki dəmiri.
Bağışlamaq dirisidir bu ellər.

***

Tuncər dedi: Ağqurd, doğmam, doğmacam,
Dil yanılar, ancaq ürək yanılmaz.
Doğmalıq var Qızçiçəyin üzündə.
Dil yanılar, ancaq ürək yanılmaz.

Ağqurd dedi:-Üstüağ şah qancılım,
Ürəyimə bir ox olub sancılıb.
Gərək onu mən öldürüm, dincəlim,
Dil yanılar, ancaq ürək yanılmaz.

Birdən yalda yalsız qaplan göründü,
Nərildəyib Tuncər yerdə süründü,
Yaralıydı, yara yeri irindi,
Dil yanılar, ancaq ürək yanılmaz.

Tuncər onu öz dilində çağırdı,
Yalsız qaplan ağrısından bağırdı,
Ox yarası qorxuludur, ağırdır,
Dil yanılar, ancaq ürək yanılmaz.

***

-Tumar-tumar, pişim-pişim qaplanım,
Ağrı-acı ağır olur güclüdə.
Döz, çıxarım oxu sənin sağrından,
Ağrı-acı ağır olur güclüdə.

Bunu deyib oxu çəkdi yaradan,
Üzə çıxdı sarı irin, qara qan,
-Dözümlü ol, dözümlü ol, a qaplan,
Ağrı-acı ağır olur güclüdə.

Qaplan qaçdı, gözdən itdi, yox oldu,
Bu yaxşılıq ərlikdən də çox oldu,
Qızçiçəyin qız ürəyi dağ oldu,
Ağrı-acı ağır olur güclüdə.

Qılıncını açdı verdi Tuncərə,
Sağ ol,-dedi, bu gənc yaşlı önərə,
Üz tutaraq sonra dedi göylərə,
Ağrı-acı ağır olur güclüdə.

***

Könlü işıq dolu döndü Qızçiçək,
Ürəyin də dib daşı var – işıqdır.
Nə görmüşdü, o, Bacara danışdı,
Ürəyin də dib daşı var – işıqdır.

Bacar baxdı Qızçiçəyə, sevindi,
İşıqlanıb ata kimi öyündü,
Könlü birdən çırpım-çırpım döyündü,

Ürəyin də dib daşı var – işıqdır.

Get, gör, kimdir igid Tuncər, get, ərim,
İyirmicə yaşı vardır Tuncərin,
Sənə bənzər, Qarçiçəyə gözləri,
Ürəyin də dib daşı var – işıqdır.

Düz deyirsən, Qızçiçəyim,-dedi-sən,
Gedib gəzib axtararam onu mən,
Tanıyaram gözlərindən, dilindən,
Ürəyin də dib daşı var – işıqdır.

Tuncərin tapılması söyləncі

-İtiatım, çapaq çölə, meşəyə,
Dirrik özü axtarışdır, tapıntı.
Çapaq, açaq yollardakı düyünü,
Dirrik özü axtarışdır, tapıntı.

İtiatım, çox bərk vurur ürəyim,
Ürəyimdən güc götürür biləyim,
Uğur deyir bizə küskün ürəyim,
Dirrik özü axtarışdır, tapıntı.

İtiatım, sənsən arxam, arxancım,
Sənsən itən oğulların tapıncı,
Uzaq olsun bizdən qancıl, yabançı,
Dirrik özü axtarışdır, tapıntı.

Qulac-qulac cığırları yumaqla,
Dərin-dərin meşələri daraqla,
Qaplanları, ilanları ayaqla,
Dirrik özü axtarışdır, tapıntı.

***

Baxdı daldan Qarçiçəklə Qızçiçək,
Göz yol çəkər, ürək isə doğmanı.
Get, qoşa gəl Uğurelə, Bacarım,
Göz yol çəkər, ürək isə doğmanı.

At tərpəndi, külək oldu, yel oldu,
Yıxdı kolu, kolcuqları, sel oldu,
Çapışından çaylar, göllər lil oldu,
Göz yol çəkər, ürək isə doğmanı.

Bacar çapdı, çapdı, getdi uzağa,
Gəlib çatdı Yastıdağa, Duzdağa,
Çapaq oldu neçə doğma oylağa,
Göz yol çəkər, ürək isə doğmanı.

Dörd bir yanda buz bulaqlar pıçıldar,
Sarıçəpkən şaq-şaqqını ucaldar,
Qaçar burda söz eşidər uçardan,
Göz yol çəkər, ürək isə doğmanı.

***

Gördü burda neçə göl var yanaşı,
Su vardırsa yerdə hər şey var demək.
Qara qaplan əyilərək su içir,
Su vardırsa yerdə hər şey var demək.

O su içdi, getdi yatdı qıraqda,
Bir səs gəldi qulağına uzaqdan,
Su içsə də o ac idi bayaqdan,
Su vardırsa yerdə hər şey var demək.

Tuncər gəldi, qaya üstdə göründü,
Meşə soyuq, sular gömgöy, dərindi,
Bunca suya atılmadı, sərindi,
Su vardırsa yerdə hər şey var demək.

Qara qaplan yaya dönüb, dartıldı,
Sıçrayaraq Tuncər üstə atıldı,
Meşələrə haray-həşir qatıldı,
Su vardırsa yerdə hər şey var demək.

Yuvarlandı ikisi də enişə,
Su başında ov güdməyir ərənlər,
Meşələr də ölçü-biçi saxlayır,
Su başında ov güdməyir ərənlər.

Gəmirişib, caynaqlaşdı ərənlər,
Dığırlandı ovu gizli güdənlər,
Durub baxdı bu çarpışı görənlər,
Su başında ov güdməyir ərənlər.

Tuncər onu boğazladı arxadan,
Yıxıb çəkdi öz üstünə arada.
Bir bıçaqla dinclik tapdı o qaplan,
Su başında ov güdməyir ərənlər.

Qan itirib qaplan tez-tez uladı,
Öz qanıyla otluqları suladı,
Ölən kimi Tuncər onu tolladı,
Su başında ov güdməyir ərənlər.

***

Bacar gördü bu vuruşu busqudan,
Güc yaşamaq ölçüsüdür meşədə.
Qarçiçəyə oxşayırdı bu igid,
Güc yaşamaq ölçüsüdür meşədə.

Bu kim idi – tunc kökslü gənc ərən,
Qızçiçəyin dediyidir bu, görən?
Qayıtmaram mən Tuncəri görmədən,
Güc yaşamaq ölçüsüdür meşədə.

Qurd sürüsü diddi qara qaplanı,
İzlədilər tunc kökslü oğlanı,
Dimdiklədi, yedi quşlar qalanı,
Güc yaşamaq ölçüsüdür meşədə.

Yırtıcılar gözdən itdi bir anda,
Görünmədi onlar çəndə, dumanda.
Meşə batdı qorxuncluğa dörd yandan,
Güc yaşamaq ölçüsüdür meşədə.

***

Meşə dinməz, dağ görünməz, yol itkin,
Yol bilməyən itkin düşər dumanda.
Gərək durub gözləyəsən günəşi.
Yol bilməyən itkin düşər dumanda.

İtiatı bir ağaca bağladı,
Özü düşüb hər bir yanı yoxladı.
Kimsə onu daldan tutub saxladı,
Yol bilməyən itkin düşər dumanda.

Ağqurd idi, ağ dəridən paltarı,
Üç gün idi izləyirdi Bacarı,
O yormuşdu yorta-yorta yolları,
Yol bilməyən itkin düşər dumanda.

Ayrı salıb onu İtiatından,
Yumruq ilə vurdu boynu ardından.
Bir də vurdu, bir də Tuncər adından,
Yol bilməyən itkin düşər dumanda.

***

-Səni kəsib Üstüağa yollaram,
Təkləməsən güc gəlməzsən şahlığa.
Qızçiçəyi, səni, bir də Tuncəri,
Təkləməsən güc gəlməzsən şahlığa.

Bayılıbsan, öləcəksən, bilirəm,
Qurd dərisi geyib sizə gülürəm,
Boz Qurd öldü, Ağqurd olub gəlirəm,
Təkləməsən güc gəlməzsən şahlığa.

Mən Tuncəri oğurladım, gətirdim,
Şaha qarşı acıqan tək yetirdim,
Bu iş üçün illərimi itirdim,
Təkləməsən güc gəlməzsən şahlığa.

Gərək Tuncər Üstüağla vuruşa,
Qurd sürüsü ona qarşı duruşar,
Başev gərək bir-birinə qarışa,
Təkləməsən güc gəlməzsən şahlığa.

***

Üstüağı gərək Tuncər öldürə,
Basıq olan öz içindən qırılar.
Tuncər onun uzaq, yaxın doğması,
Basıq olan öz içindən qırılar.

Tuncəri də boyayaram qanına,
Alt yer qatda o da gələr yanına,
Birə düşər Qızçiçəyin donuna,
Basıq olan öz içindən qırılar.

Mən Ağqurdam, ölən Boz Qurd yerinci,
Qurdlar bilmir bu dolambac gilinci*,
Mən Alpanam, Qızbax eldə birinci,
Basıq olan öz içindən qırılar.

Bir də vurdu, Bacar bir də bayıldı,
Yala, düzə birdən bir sis yayıldı,
Diksinərək Bacar yenə ayıldı,
Basıq olan öz içindən qırılar.

***

Ağqurdu da Tuncər yol-yol güdürdü,
Çox gizlilər qapı açır güdükdə.
Nə demişdi Ağqurd, Tuncər eşitdi,
Çox gizlilər qapı açır güdükdə.

Tuncər gördü Ağqurd adı yalandır,
Ağqurd deyil, o, yalançı Alpandır.
Alpan deyil, o, yaralı qaplandır,
Çox gizlilər qapı açır güdükdə.

Çıxdı üzə, yırtdı çəni, dumanı,
O da daldan yaxaladı Alpanı,

Aldı qanlı caynağından baltanı,
Çox gizlilər qapı açır güdükdə.

Alpan dedi:-Tuncər, məni öldürmə,
Qurd yox, adam olduğumu bildirmə.
Üstüağı üstümüzə güldürmə,
Çox gizlilər qapı açır güdükdə.

**Məsələ*

***

Atan, anan-dedi:-səni atıblar,
Çox ağırdır, bala, oğul böyütmək.
Səni dişim-dırnağımla böyütdüm,
Çox ağırdır igid oğul böyütmək.

Tuncər dedi:-Ağqurd, başı pozuqsan,
Öz gecikmiş sevgin ilə yazıqsan,
Basar deyil, bundan sonra basıqsan,
Çox ağırdır igid oğul böyütmək.

Sən böyütdün, məni saldın düyünə,
Oğul gərək tutaq ola pis günə,
Sevgi səni döndəribdir düşkünə,
Çox ağırdır igid oğul böyütmək.

Bağışlaram səni Bacar ölməsə,
Öldürərəm səni yola gəlməsən,
Yaşadaram sürüləri bölməsən.
Çox ağırdır igid oğul böyütmək.

***

Tuncər dedi:-Azdırıbsan qurdları,
Basılmayan gücdür qurdun sürüsü,
Onlar daha Üstüağa uyuşmur,
Basılmayan gücdür qurdun sürüsü.

Çıxar ağ qurd dərisini, adam ol,
Sevgi yuxu, bu yuxudan sən ayıl,
Düz yol olsun gərək bizə gedən yol,
Basılmayan gücdür qurdun sürüsü.

Sən Minelin qolundansan, özündən,
Turər şahın görkəmi var üzündə,
Hamımızdan dözümlüsən dözümdə,
Basılmayan gücdür qurdun sürüsü.

Qurd dilini biz bilirik sənlə,
Sürülərə başçılıq et mənimlə,
Qoşul bizə gözlənilməz dözümlə,
Basılmayan gücdür qurdun sürüsü.

***

Bacar durdu qucaqladı Tuncəri,
Unudulmaz ata-bala görüşü.
Tuncər ata istisilə isindi,
Unudulmaz ata-bala görüşü.

Dedi:-Oğul, Tuncər balam, ərənim,
Ürəyinin gözlərilə görənim,
Qurd içində öz yerini bilənim.
Unudulmaz ata-bala görüşü.

İyirmi il oğul deyib qovruldum,

Göz yaşları oldum, yağdım, sovruldum,
Qaraş-Mənişbicliyilə sarsıldım,
Unudulmaz ata-bala görüşü.

Gedək, gedək, anan ilə görüş sən,
Alpandan da izin istə, soruş sən,
Minellə yox, Darvidellə vuruş sən,
Unudulmaz ata-bala görüşü.

***

Tuncər durdu, qucaqladı Bacarı,
Ata bütün arxasıza arxadır,
Dedi:-Atam nədən belə ikidir,
Ata bütün arxasıza arxadır.

Meşələrin bu çən, duman günündə
Öyünürəm iki ata önündə,
Mən Tuncərəm, böyük Minel yönündən,
Ata bütün arxasıza arxadır.

Alpan dedi:-Mən də düz yol tapmışam,
Tək qalmışam, el yolundan sapmışam.
Pis olmuşam, pis qurğular yapmışam,
Ata bütün arxasıza arxadır.

Bacar dedi: -İtiatım, gəl gedək,
Qızçiçəyi sevindirək biz gərək,
Sənin hələ bacın vardır, Qarçiçək,
Ata bütün arxasıza arxadır.

***

İtiatdan səs gəlmədi, kişnərti,
Meşə səsi səssizliyi udandır.
Bacar atı çox səslədi, hayladı.
Meşə səsi səssizliyi udandır.

Axtardılar, usandılar, qaldılar,
Baş sındırıb düşüncəyə daldılar,
Cığırlardan bir-bir soraq aldılar,
Meşə səsi səssizliyi udandır.

Yallı qaplan birdən kəsdi cığırı,
Ağız açdı, nərildədi, bağırdı.
Qarpışmağa güclüləri çağırdı,
Meşə səsi səssizliyi udandır.

Bacar cumub özün ona yetirdi,
Bir yumruqla dirriyini bitirdi.
Yallı qaplan duruşunu itirdi,
Meşə səsi səssizliyi udandır.

***

Yol getdilər onlar üç gün, üç gecə,
Yol itirsən, inancını itirmə.
Hər üçünün dözərliyi qurtardı,
Yol itirsən, inancını itirmə.

Uçurumlar, qayalıqlar, yarğanlar,
Ayı, qaban, qurd, ilanlar, qaplanlar,
Başsız atlar, oynaqlayan qulanlar,
Yol itirsən, inancını itirmə.

-Hey, hey, arxam, atam-anam İtiat,
Sən hardasan, kişnə, fınxır, səs ucalt,

Üstümüzdən sarsıntılı yükü at,
Yol itirsən, inancını itirmə.

Bir kişnərti eşidildi uzaqdan,
Bu boğuq səs səslənirdi bayaqdan,
At yorulub sanki düşüb ayaqdan,
Yol itirsən, inancını itirmə.

***

Çox qaçdılar, gölə, çaya batdılar,
Gəlib sonda Yastıdağa çatdılar,
Səs eşidib üzüquylu yatdılar,
Yol itirsən, inancını itirmə.

Qurdlar onu qovmuşdular, yorsunlar,
Yemək üçün yıxıb yerə vursunlar,
Qova-qova inancını qırsınlar,
Yol itirsən, inancını itirmə.

Daş ovuğa girib o da tələsik,
Şıllaq ilə qorunurdu hələlik,
Neçə qurdu aşırırdı bir təpik,
Yol itirsən, inancını itirmə.

Tuncər qalxıb qurd dilində bağırdı,
Ac qurdları öz yanına çağırdı,
İtiatdan tər su kimi axırdı,
Yol itirsən, inancını itirmə.

***

Bacar dedi:-İtiatım, yaxın gəl,
İgid atsız, at yiyəsiz olmasın.
Səni gəzib axtarırıq neçə gün,
İgid atsız, at yiyəsiz olmasın.

At ovuqdan çıxdı, üç yol kişnədi,
İtiata dağ-daş nədi, döş nədi,
O çapanda yüklü nədi, boş nədi,
İgid atsız, at yiyəsiz olmasın.

Tuncər qurdu – quşu yığdı talaya,
Qurd sürüsü döndü böyük alaya,
Dedi:-Gedib qayıdıram bir aya,
İgid atsız, at yiyəsiz olmasın.

Mən gələnə təzə yollar açınız,
Alpan olur sizin sürü başçınız,
Çən atınız, ildırımlar qamçınız,
İgid atsız, at yiyəsiz olmasın.

***

Alpan dedi:-Gözləyirəm səni mən,
Gəl başçısı ol alayın yenidən,
Qoşqu gətir, təkərləri dəmirdən,
İgid atsız, at yiyəsiz olmasın.

Bacar dedi:-Sənə qoşqu alaram,
Döyüşlərdə onu işə salaram,
Hamınıza birgə kəsi olaram,
İgid atsız, at yiyəsiz olmasın.

Tuncər dedi:-Mindiyarı aşaram,

Hər qoşquya iki yüz qurd qoşaram,
Döyüşlərdə sellənərəm, daşaram,
İgid atsız, at yiyəsiz olmasın.

Bacar dedi:-İtiatım, uç gedək,
Uğurelə bu gün çatım mən gərək,
Gedək ana, bacı ilə görüşək,
İgid atsız, at yiyəsiz olmasın.

***

Üzülüşüb yerdən, göydən getdilər,
Nə gözəlsən, doğma ocaq, doğma ev,
Oğlum gəlir anasıyla görüşə,
Nə gözəlsən, doğma ocaq, doğma ev.

İyirmi il gözü yolda var olmaq,
Tanrım, məni əldən saldı bu sınaq,
Gedək daha bir ocaqda qovuşaq,
Nə gözəldir doğma ocaq, doğma ev.

Qızıl ulduz, gümüş bulud yan-yana,
Uğureldə durub ağlar bir ana,
Oğlu gəlir, gedin deyin siz ona,
Nə gözəldir doğma ocaq, doğma ev.

İtiatım, çox özünü yorma sən,
Tərləsən də heç bir yanda durma sən,
Gur çayları qıçlarına sarma sən,
Nə gözəlsən, doğma ocaq, doğma ev.

***

Çəkimini ürəklərdən keçirib,
Tüstülənən qızıl dilli ocağım.
Ocaq çoxdur, sənin kimi yanmayır,
Tüstülənən qızıl dilli ocağım.

Ver aparım buzlaqlara istini,
Gözlərimin qarasında tüstünü,
Bulud, duman qoy almasın üstünü,
Tüstülənən qızıl dilli ocağım.

Al günəşdən bir qırıqsan, düşübsən,
Alovlanıb, yapıqlanıb şaşıbsan,
Tək qalanda öz-özünü eşibsən,
Tüstülənən qızıl dilli ocağım.

Tanrım, mənim yerim-yurdum, qoruncum,
Qızıl saçlı, yun saçaqlı yapıncım,
Ey yiyəsiz illərimin tapıncı,
Tüstülənən qızıl dilli ocağım.

Tuncər söyləncі

Çəkib dirrik cızığını,
Bir, bölünüb iki yerə,
Biri varlı, biri yoxsul,
Bir, bölünüb iki yerə.

Başev, boş ev üz-üzədir,
Yaxşı, yaman diz-dizədir,
Gecə, gündüz göz-gözədir.
Bir, bölünüb iki yerə.

Nə vardırsa ikilidir,

Sökülüdür, tikilidir,
Yüngül, ağır çəkilidir,
Bir, bölünüb iki yerə.

Bir olanlar yazıq olub,
Hər addımda geri qalıb.
Dörd bir yandan vurum alıb,
Bir, bölünüb iki yerə.

***

Yaşa görüm bu dirriyi,
Yaşamaqdan çətin nə var.
Öndə dağdır, arxa yarğan,
Yaşamaqdan çətin nə var.

Sevinc varsa bir anlıqdır,
Ağrılardan iç yanıqdır,
Göz yaşları bulanlıqdır,
Yaşamaqdan çətin nə var.

Aldadırsan, aldanırsan,
Boş-boşuna dolanırsan,
Öz sonuna yollanırsan,
Yaşamaqdan çətin nə var.

Söylə, niyə, tanrı ata,
Çomurlara* bata-bata,
Yaşamaqdan doymur adam,
Yaşamaqdan çətin nə var.

***

Tuncər baxdı anasına,
Cüt sığaldır ata, ana,
İki quşdur bir yuvada,
Cüt sığaldır ata, ana.

Biri sərtdir, biri kövrək,
Biri sevgi, biri dilək,
Ovuc-ovuc, ətək-ətək,
Cüt sığaldır ata, ana.

Uşaq üçün qoşa yoldur,
Sevinc azdır, yanğı boldur,
Biri sağdır, biri soldur,
Cüt sığaldır ata, ana.

İki kökdür, yapışıqdır,
Süd bal ilə qarışıqdır,
Bala üçün sarmaşıqdır,
Cüt sığaldır ata, ana.

_____

Palçıq

***

Beş ay qaldı, Tuncər soldu,
İlk yuvanın çəkimi var,
O darıxdı dağlar üçün,
İlk yuvanın çəkimi var.

Sıx meşələr, sərt qayalar,
Solğun gülən gül boyalar,
Tarım duran göy talalar,
İlk yuvanın çəkimi var.

Bulaq susur, çay danışır,

Maral, ceyran, kəl çapışır,
Xallı qaplan, qurd qarpışır,
İlk yuvanın çəkimi var.

Ata, ana, dinclik, qayğı,
O, dinclikdən əzgin, yorğun,
Nə durmusan, dağlar oğlu,
İlk yuvanın çəkimi var.

***

-Alpan ata, gözlə məni,
Yaxşılıqlar unudulmaz,
Qurd balası böyüdübsən,
Yaxşılıqlar unudulmaz.

Başev məni sıxır yaman,
Beş ay burda mən qalandan,
Sevinirəm mən yalandan,
Yaxşılıqlar unudulmaz.

Hamı burda boş dolanır,
Əl sallanır, qol sallanır,
Burda sözdən dağ qalanır,
Yaxşılıqlar unudulmaz.

Baca tapsam, qaçacağam,
Göydə qanad açacağam,
Yastıdağa uçacağam,
Yaxşılıqlar unudulmaz.

***

Hər şey vardır burda bol-bol,
Yox özü də bir varlıqdır.
Nə deyirsən, gətirirlər,
Yox özü də bir varlıqdır.

Unutmuşam qurd basmağı,
Ov edərkən yol azmağı,
Ac qalmağı, quş busmağı,
Yox özü də bir varlıqdır.

Burda hər an hamı gülür,
Ancaq "gətir", "götür" bilir,
Baxışları ölü-ölü,
Yox özü də bir varlıqdır.

Adam azdır, yaltaq çoxdur,
Araçılar sıxdan sıxdır,
Hər şey vardır, heç nə yoxdur,
Yox özü də bir varlıqdır.

***

-Niyə tutqun gəzir balam,
Tutqun adam küskün olar,
Atan sənə kəsi olsun,
Tutqun adam küskün olar.

İyirmi il səni gəzdik,
Əlimizi səndən üzdük,
Ayrılığa yanıb dözdük,
Tutqun adam küskün olar.

Körpə idin, Tuncər adın,
Qundağını Məniş qadın
Kolluqlara alıb atdı,

Tutqun adam küskün olar.

Tanrı yazıq gördü bizi,
Birləşdirdi üçümüzü,
Tutqun gəzmə, iki gözüm,
Tutqun adam küskün olar.

***

Məniş bizlə acıqandır,
Acıqana bağış yoxdur,
Qabağında sürünsə də,
Acıqana bağış yoxdur.

Atan üç yol dara düşdü,
Düz yolunda o ilişdi,
Ölüm idi, tez sovuşdu,
Acıqana bağış yoxdur.

Çinel, Hindel, Asur başı
Əlləşdilər çox, yanaşı,
Dayandılar bizə qarşı,
Acıqana bağış yoxdur.

Keçmişini daha unut,
Ürəyini bir az ovut,
Sən atanın yerini tut,
Acıqana bağış yoxdur.

***

-Doğma anam, göz bəbəyim,
Ana dözüm nağılıdır.
Sən dib daşım, dirriyimsən,
Ana dözüm nağılıdır.

Mən çaparam, Başev yorğa,
Ata döşək, ana yorğan,
İki qoruq, iki qalxan,
Ana dözüm nağılıdır.

Bu dinclikdə necə qalım,
Gücdən düşür əlim, qolum,
Yol ver, ana, qadan alım,
Ana dözüm nağılıdır.

Könül quşum, uç uzağa,
Əkbitənə, Yastıdağa,
Anam dözər ayrılığa,
Ana dözüm nağılıdır.

***

Uğur söylə, ana, mənə,
Uğurludur ana sözü,
Bir uğuru yüz edərəm,
Uğurludur ana sözü.

Sən yol göstər, uçar olum,
İgidlikdə Bacar olum,
Ürəklərə açar olum,
Uğurludur ana sözü.

Qurd toplumum basılmazdır,
Minel oğlu sarsılmazdır,

Güzgü könlüm cızılmazdır,
Uğurludur ana sözü.

Əkbitənim, Uğurelim,
Ora gedim, bura gəlim,
Ya öldürüm, ya da ölüm,
Uğurludur ana sözü.

***

Bacar gəldi, Başev qalxdı ayağa,
Dağ önündə susqun durur yoxuşlar,
Susdu hamı, danışmadı Qızçiçək,
Dağ önündə susqun durar yoxuşlar.

Alnındaydı Qızuçarın lələyi,
Qayaquşdan güc almışdı biləyi,
Çırpınırdı Tuncər adlı ürəyi,
Dağ önündə susqun durar yoxuşlar.

Çal saqqalı sıxdı, ipək yatımda,
Qartal baxış qara qaşlar altında,
Qurd dərisi boz çuxası altında,
Dağ önündə susqun durar yoxuşlar.

Üstündəydi tunc toxunma geyimlər,
Qaşlarının arasında düyünlər,
Qabarıq döş, iri, enli çiyinlər,
Dağ önündə susqun durar yoxuşlar.

***

-Tuncər, oğlum, – dedi: bir az bəri gəl,
Enli qanad qartal evə sığışmaz.
Şiş qayalar, boz buludlar oylağı,
Enli qanad qartal evə sığışmaz.

Sən Gücərdən, Qızuçardan gəlməsən,
Atan üçün, anan üçün hər nəsən,
Sev Başevi, ancaq könül vermə sən,
Enli qanad qartal evə sığışmaz.

Mən görürəm tutqunluqda sınırsan,
Yastıdağı, Şişqayanı anırsan,
Bu Başevi dustaq, tutu sanırsan,
Enli qanad qartal evə sığışmaz.

Düşüncəndə boz cığırlar kəsişir,
Qurd toplumun ular-ular gəzişir,
Sənsiz qalıb orda yellər əsişir,
Enli qanad qartal evə sığışmaz.

***

Tanrı bizə tapşırıbdır, sən də bil,
Harda olsan od-ocağı qoru sən.
Deyib böyük Ahur-məzda, Sərtiş ər,
Harda olsan od-ocağı qoru sən.

Su, od, bitki, dilli, dilsiz uludur,
Hər yer dilli, dilsizlərlə doludur,
Minellinin yolu günəş yoludur,
Harda olsan od-ocağı qoru sən.

Hara getsən, öndər, önər, xaqan ol,
El işində əskilən yox, artan ol,
Öz ardınca yüz minləri dartan ol,
Harda olsan od-ocağı qoru sən.

Xançuya get, Düzər sənin qardaşın,
Əkbitəndə Üstüağ şah yoldaşın,
Pis olsa da sən doğma say Qaraşı,
Harda olsan od-ocağı qoru sən.

***

Gözə çarpan nəyim varsa sənindir,
Balasına ata yardım, tutəldir.
İtiatım, alınbağım var olsun,
Balasına ata yardım, tutəldir.

Alınbağı verib mənə quş nənən,
Ala, onu bağışladım mən sənə,
Qoy İtiat qalsın yenə pis günə,
Balasına ata yardım, tutəldir.

Ayırıbdır tanrı özü yer bizə,
Bəriboğaz ucqarından Körfəzə,
Mindiyardır dənizlərdən dənizə,
Balasına ata yardım, tutəldir.

Tuncər oğlum qoy qorusun bunları,
Bax, bunlardır Mindiyarın öz varı,
Get, üstündə qanad gərsin qoy tanrı,
Balasına ata yardım, tutəldir.

***

-Ata, mənə uğur dilə tanrıdan,
Harda olsa oğul, elin oğludur.
Mən gücümü qoyacağam bu yolda.
Harda olsa oğul, elin oğludur.

Yelçəkəndən Yeləsənə bizimdir,
Minellilər burda düzüm-düzümdür.
Bu torpaqlar mənim tanrım, gözümdür,
Harda olsa oğul, elin oğludur.

Mənişş, Qaraş, Hindel, Çinel acıqan,
Mən çoxunu götürərəm aradan,
Yürüşümü başlayaram buradan,
Harda olsa oğul, elin oğludur.

Atam böyük Bacar, anam Qızçiçək,
Onlar kimi igid olum mən gərək,
Tuncər dedin, daha basıq nə demək,
Harda olsa oğul, elin oğludur.

***

O bağladı ağ lələyi alnına,
Göstərişdir öyüdü də atanın.
Bir qalıncdır ondan sənə nə qalsa,
Göstərişdir öyüdü də atanın.

Sevinc aldı Qızçiçəyi, Bacarı,
Oğul ata qayğısıyla ucalır.
Tuncər oldu yerin-göyün uçarı.
Göstərişdir öyüdü də atanın.

Tuncər çapdı Yastıdağa atıyla,
Uçur gedir Qızuçarın adıyla.
Uçur-uçur buludların qatıyla,
Göstərişdir öyüdü də atanın.

Bu Yastıdağ, Qoşadəniz, Şişqaya.
Gözəllikdir, gözəllikdən kim doyar,
Gəlir çatır Durugölə, Ağçaya,
Göstərişdir öyüdü də atanın.

***

Ancaq onu qarşılayan olmadı,
Səssizlikdə yuxulayır dağ, meşə,
Nə Alpan var, nə qaplan var, nə Ağqurd,
Səssizlikdə yuxulayır dağ, meşə.

Hanı qurdun ulartısı, çarpışı,
Qaplanların, ceyranların çapışı,
Ayıların oynaqlığı, qapışı,
Səssizlikdə yuxulayır dağ, meşə.

-Dilə gəlin, axmazlaşan bulaqlar,
Boş, kimsəsiz, yol gözləyən yaylaqlar,
Kül altında kösövləşən ocaqlar,
Səssizlikdə yuxulayır dağ, meşə.

Ögey atam, Ağqurd Alpan, görün bir,
Boz qurdlarım, siz səs-səsə verin bir,
Gəlin, Tuncər başçınızı görün bir,
Səssizlikdə yuxulayır dağ, meşə.

***

Bir yaralı qurd ulayır talada,
Arxa dayan səni arxa bilənə.
"Yaralandım mən Əkbitən çölündə",
Arxa dayan səni arxa bilənə.

"Qaraş yenə çıxıb böyük yürüşə,
Ağqurd Alpan gedib onla döyüşə.
O, Qaraşla hər gün durur döş-döşə,
Arxa dayan səni arxa bilənə".

"Gəlib yenə Əkbitəni tutmağa,
Üstüağın şahlığına çatmağa,
Asurelin toplumuyla artmağa,
Arxa dayan səni arxa bilənə.

Üstüağı tutuq edib bağlayıb,
Onu dəmir dustaqlıqda saxlayır,
Kimi görür, qılınclayır, oxlayır,
Arxa dayan səni arxa bilənə.

Qaraşla Tuncərin vuruş söyləncі

Tuncər dedi:-Gümüşatım, çap gedək,
Pis ayaqda yad olammaz doğmalar.
Qaraş niyə doğmalıqda acıqan,
Pis ayaqda yad olammaz doğmalar.

Mən Tuncərəm, Turər şahın yoluyam,
Mindiyarın böyük Minel qoluyam,
Gərək dilbir dirriyimi yallayam,
Pis ayaqda yad olammaz doğmalar.

Məni çatdır Əkbitənə, Gümüşat,
Dırnağınla daş-kəsəyi vur qanat,
Kəsə-kəsə cığırlardan yol yarat,
Pis ayaqda yad olammaz doğmalar.

Vur özünü dağa, daşa, dənizə,

Yetiş, məni qoy Qaraşla üz-üzə,
El yolunda gərək çıxa qan dizə,
Pis ayaqda yad olammaz doğmalar.

***

Çatdı Tuncər Əkbitənə üç günə,
İsti qandır döyüşlərdə yeni güc,
Qan-tər, köpük içindəydi Gümüşat,
İsti qandır damarlara yeni güc.

Asurlular almışdılar çox yeri,
Döşdə qılınc, köküslərdə ox yeri,
Kürəklərdə yanıq yeri, dağ yeri,
İsti qandır damarlara yeni güc.

Qurd toplumu dağınıqdı, yaralı,
Düşmüşdülər bir-birindən aralı,
Ağqurd Alpan qan itirib, saralıb,
İsti qandır damarlara yeni güc.

-Ahay-dedi-asurlular, dayanın,
Doğu yeri qan rənginə boyanıb,
Mən Tuncərəm, məndən qorxun, ayılın,
İsti qandır damarlara yeni güc.

***

-Mən Tuncərəm, Bacar oğlu Turərdən,
Ərin gərək kökü olsun, arxası,
Mən oxbatmaz, qılınckəsməz ərənəm,
Ərin gərək kökü olsun, arxası.

Önəriniz varsa bura göndərin,
Başraqları aşağıya endirin,
Üzünüzü yurdunuza döndərin,
Ərin gərək kökü olsun, arxası.

Biri çıxdı qabağına, yekəbaş,
Tunc toxunma geyimi də baş-başa,
Dedi:-Mənim adımladır bu savaş,
Ərin gərək kökü olsun, arxası.

Biz buranı qol gücünə tutmuşuq,
Üstüağı dustaqlığa atmışıq,
Mindiyarın lap sonuna çatmışıq,
Ərin gərək kökü olsun, arxası.

***

Birdən göydə parıldadı qılınclar,
Tez tərpənən istəyinə tez çatar.
Deyinirdi asurelli yekəbaş,
Tez tərpənən istəyinə tez çatar.

Sözü hələ ağzındaydı qancılın,
Gördü qılınc ürəyinə sancılıb,
Yekəbaşın qaldı ağzı açılı,
Tez tərpənən istəyinə tez çatar.

Tuncər dedi:--Qaraş çıxsın önümə,
Saman təpim dərisinə, gönünə,
Gedib düşsün atasının gününə,
Tez tərpənən istəyinə tez çatar.

Qaraş gəldi, yan-yörəsi yaraqlı,

Onun başı yaralıydı, sarıqlı,
Qara gözlər acıqlıydı, yanıqlı,
Tez tərpənən istəyinə tez çatar.

***

–Tuncər kimdir?-Dedi – bu yer mənimdir,
Güclü kimdir, odur yurdun yiyəsi.
Min ildir ki, bu şahlıqlar mənimdir,
Güclü kimdir, odur yurdun yiyəsi.

Mən Qaraşam, Qaraş oğlu Qaraşdan,
Sənə qayıt, get deyirəm bu başdan,
Yoxsa başın gedəcəkdir savaşda,
Güclü kimdir, odur yurdun yiyəsi.

Bunu deyib qılıncını oynatdı,
O, Tuncərin sağ qolunu qanatdı,
Sözlərini boğazında qaynatdı,
Güclü kimdir, odur yurdun yiyəsi.

Ağqurd Alpan birdən çıxdı qabağa,
Toppuz vurub yıxdı onu torpağa,
Bir də vurdu o durarkən ayağa,
Güclü kimdir, odur yurdun yiyəsi.

***

Onda Tuncər boz qurdları səslədi,
Boz qurdların hənirtisi qorxulu.
Alpan yığdı dörd yanına onları,
Boz qurdların hənirtisi qorxulu.

Qamarladı boz qurd atı, atlını,
Dişə çəkdi hər asurel yurdlunu,
Satqınları, içi çürük qurdlunu,
Boz qurdların hənirtisi qorxulu.

Tuncər qalxdı, Gümüşatı çapdı o,
Dəmirbarmaq dustaqlığı tapdı o,
Üstüağı tutuqluqdan qapdı o,
Boz qurdların hənirtisi qorxulu.

Üstüağın başı, köksü yaraydı,
Üzü-gözü qurumluydu, paraydı,
Köksündə ox sancımları sıraydı,
Boz qurdların hənirtisi qorxulu.

***

Manay gəldi,-Üstüağım – söylədi,
Ölüm-dirim arasında çəpər yox.
Yürüş gəldi,-Öndər atam – söylədi,
Ölüm-dirim arasında çəpər yox.

Sönük, qanlı gözlərini yumaraq,
Yarasından qan su kimi axaraq,
Ölüm ilə çarpışırdı Üstüağ,
Ölüm-dirim arasında çəpər yox.

Boz qurdlara – boğ, yıx, yırt, did-deyirdi,
Yürüşünə qorxmaz igid deyirdi,
Manayına məni dirilt-deyirdi,
Ölüm-dirim arasında çəpər yox.

Tuncər, Manay, Alpan, Yürüş döyüşür,
Qurd toplumu acıqana girişir,

Üstünlüklər yerlərini dəyişir,
Ölüm-dirim arasında çəpər yox.

***

Qaraş qaçır, Yekəbaş da yanında,
Sonu yoxdur çılğınlığın istəyin,
Üstüağın qalmasına inam yox,
Sonu yoxdur çılğınlığın, istəyin.

Asurlular atıb qaçır başrağı,
Üstlərindən tollayırlar yarağı.
Ulaşırlar tülkü, çaqqal sayağı,
Sonu yoxdur çılğınlığın, istəyin.

Tuncər qovur körfəzəcən onları,
Üzlərindən qan çəkilib sapsarı,
Atlarını Ağqurd qanla suvarır,
Sonu yoxdur çılğınlığın, istəyin.

Körfəz suyu qan-qadadan allaşır,
Didik bulud axşam üstü çallaşır,
Yerə yatan, tutuq düşən bəlləşir,
Sonu yoxdur çılğınqanlı istəyin.

***

Yürüş, Tuncər, Ağqurd, Manay qayıdır,
Yas yaraşmır sevinc içrə Başevə.
Qan itirib, bayılıbdır Üstüağ,
Yas yaraşmır sevinc içrə Başevə.

Ölkə qara paltar geyir, gözləyir,
Minel hər gün olacağı izləyir,
Şah ölümü tələsdirir, tezləyir,
Yas yaraşmır sevinc içrə Başevə.

Manay qara yaylıq örtür saçına,
Gözəl, varıq sənin ağrı, sancına,
Dolanışın gedişinə acıma,
Yas yaraşmır sevinc içrə Başevə.

Üstüağın Yastıdağı, ağlama,
Güzgü göllər, duru çaylar, çağlama,
Üstüağsız, gözəl Manay, laxlama,
Yas yaraşmır sevinc içrə Başevə.

***

IX QAPI

Yürüş söyləncisi

Əkbitənə Yürüş yerinc – şah oldu,
Dincəl olur yasdan sonra toy-düyün.
Atasının qılıncını bağladı,
Dincəl olur yasdan sonra toy-düyün.

Dedi:-Anam, ağbirçəyim, iç ərim,
Ağsaqqalım Bacar, önər Tuncərim,
Sərtiş ər də biləndəri göylərin,
Dincəl olur yasdan sonra toy-düyün.

Buzboğazla Tur körfəzi düzünə,
Sağı, solu qatdı onun gözünə,
Bu ellərdə şah söylədi özünə,
Dincəl olur yasdan sonra toy-düyün.

Çinel, Xançu, Hindel, Təbət, Uğurel,

Bəriboğaz, Qoşadəniz, Qobuyer,
Körfəz, Minel, Durudaşla Qobuçöl,
Dincəl olur yasdan sonra toy-düyün.

***

Gəlib keçdi yüz illərlə min illər,
Dəyişməyir gör-gör dədə azacıq.
Diz qatdadı sıra şahlar, önərlər,
Dəyişməyir gör-gör dədə azacıq.

Qalıb dəniz dənizliyi içində,
Dağlar, çöllər lap qabaqkı biçimdə,
Dilli, dilsiz axarında, köçündə,
Dəyişməyir gör-gör dədə azacıq.

Yay-qış, gün-ay, yer-göy nədən qoşadır,
Dağ özünü ölməzliyə oxşadır,
Tək günəşdir qoşalığı yaşadır,
Dəyişməyir gör-gör dədə azacıq.

Yol uzandı, Turdan çatdı Yürüşə,
Min-min ərən hər gün durdu döş-döşə,
Hamı dedi, bu gedişlər dəyişər,
Dəyişməyir gör-gör dədə azacıq.

***

Biçimini dəyişməyən dolanış,
Dığırlana-dığırlana gedirsən,
Yırğalanıb, silkələnib, fırlanıb,
Dığırlana-dığırlana gedirsən.

Yaranışdan baş götürüb qaçırsan,
Həm başına onun oyun açırsan,
Bilinməyir yeriyirsən, uçursan,
Dığırlana-dığırlana gedirsən.

İnanıram sənin tanrı gücünə,
Burdan belə – ordan elə köçünə,
Ancaq ölən-qalan deyil vecinə,
Dığırlana-dığırlana gedirsən.

Mən də sənə qoşuluram, gedirəm,
Səndə deyil, öz-özümdə itirəm,
Ey öldürüb məni bir də bitirən,
Dığırlana-dığırlana gedirsən.

***

Tuncər yeni toplum yığdı, yaraqlı,
Qara olur ağ başrağın kölgəsi,
Dedi,-öncə Arielə gedirəm,
Qara olur ağ başrağın kölgəsi.

O götürdü Alpanı da özüylə,
Beş gün getdi qumsallığın düzüylə,
Gedib gördü Arieli gözüylə,
Qara olur ağ başrağın kölgəsi.

Qoca Hexa keçinmişdi, Mənişsağ,
Minellidən çəkinirdi yapalaq,
Gecə durub gəzişirdi cin sayaq,
Qara olur ağ başrağın kölgəsi.

Qaşlarının arasında üç düyün,
İstəklisi ellisinə ərköyün,
Çallaşmışdı qara saçlar büsbütün,
Qara olur ağ başrağın kölgəsi.

***

-Nədən məni aldın atdın kolluğa?
Əysən dəyər sonrakına şuv budaq.
Dedi, əymə, Mənişş, yaşıl budağı,
Əysən dəyər sonrakına şuv budaq.

Məni atdın, boz qurdlara yem oldum,
İyirmi il çöldə boz qurd sayıldım,
Meşəlikdə qurd yerinə qoyuldum,
Əysən dəyər sonrakına şuv budaq.

Ağıladın sən atamı üç kərə,
Verdin bütün düzlüyünü yellərə,
İndi özün düşəcəksən çöllərə,
Əysən dəyər sonrakına şuv budaq.

Onda Ağqurd bir boz qurda gəl, dedi,
Bu çürüyü yer üzündən sil, dedi,
-Mənişş, sənin son günündür, öl,-dedi,
Əysən dəyər sonrakına şuv budaq.

***

Boz qurd yırtdı, sürütdədi Mənişi,
Qurdluları içəridən qurd yeyər.
Nə səs çıxdı, nə qışqırıq qadından,
Qurdluları içəridən qurd yeyər.

Ağqurd Alpan bunu dedi Tuncərə,
-Bağışlama bağışlanmaz qancılı.
Savaş salıb burda qan-qan deyənlər
Qurdluları içəridən qurd yeyər.

Boz qurdları səslə gəlsin buraya,
Baxma səsə, qışqırığa, haraya,
Çürükləri qurdlar burdan darayar,
Qurdluları içəridən qurd yeyər.

Görününcə çöldə boz qurd toplumu,
Göyü aldı ulaşmalar yaylımı,
Bir anlığa yox elədi ilğımı,
Qurdluları içəridən qurd yeyər.

***

Gəldi bu an at üstündə Sərtiş ər,
Barışığa elçi gələn tanrıdır,
O çatdırdı qurddan qabaq özünü,
Barışığa elçi gələn tanrıdır.

Dedi:-Niyə siz əskiklik etdiniz?
Boz qurdların qarşısını alın siz,
Yersizlərə niyə qancıl olaq biz,
Barışığa elçi gələn tanrıdır.

Arieldə arvad-uşaq qalıbdır,
İçlərini kallıq, kolluq alıbdır,
Taxılına gəmirici dolubdur.
Barışığa elçi gələn tanrıdır.

Mən Sərtişəm, qopdum günəş odundan,
Yaranmışam göylə yerin qatında,
Göndərişəm tanrıların adından,
Barışığa elçi gələn tanrıdır.

***

Sən Tuncərsən, sən də Alpan Minelli,
İgidliyin bir adı da barışdır,
Barış edin, Arieli basmayın,
İgidliyin bir adı da barışdır.

Mən Sərtişəm, tanrısıyam mən odun,
Gəldim burda tanrıları tanıdım,
Qan-qadanı, keçmişləri unudun,
İgidliyin bir adı da barışdır.

Tuncər, Ağqurd baxa-baxa qaldılar,
Sərtiş ərin deyiminə baxdılar,
Boz qurdların qabağını aldılar,
İgidliyin bir adı da barışdır.

El yığıldı, qızıl ocaq qalandı,
Hamı birgə od başına dolandı,
Qurd toplumu burdan geri yollandı,
İgidliyin bir adı da barışdır.

***

Sonra kəsi, sonra oda yalvarış,
Birlik olar hamı getsə bir yola,
Tuncər, Ağqurd bağlaşdılar bu ellə,
Birlik olar hamı getsə bir yola.

Arielin qız, gəlini oxudu,
Dul qadınlar igidlərdən çox idi,
İçlərində qorxu, ürkü yox idi.
Birlik olar hamı getsə bir yola.

Yürüş bunu eşidincə tutuldu,
Qara qaşlar qoşa yay tək çatıldı,
Acığından kirpikləri ütüldü,
Birlik olar hamı getsə bir yola.

Qılınc olub o çəkildi qınına,
Sərtiş əri çağırtdırdı yanına,
Dedi öncə gərək şahlar tanına,
Birlik olar hamı getsə bir yola.

***

Tuncər, Ağqurd üz döndərdi Başevdən,
Hər iş görər üzü dönmüş adamlar.
Qol-budaqlı başçı gərək Minelə,
Hər iş görər üzü dönmüş adamlar.

Manay dedi:-Çox tələsmə, şah balam,
Oynatmasın səni hər söz, hər yalan,
Öz doğmandır, onlar ilə düz dolan,
Hər iş görər üzü dönmüş adamlar.

Sərtiş əri lağa qoydu Yürüş şah,
Dedi:-Başın qarışıbdır daş-qaşa,
Get, başını innən belə vur daşa,
Hər iş görər üzü dönmüş adamlar.

Acıqanı bağışlayan ər deyil,
Bu yer dönük minelliyə yer deyil,
Hər yağıntı hələ yağış, qar deyil,
Hər iş görər üzü dönmüş adamlar.

***

Dözüm ilə durub dedi Sərtiş ər,
Hamı birdir duru göyün altında,
Adamların qarası da, ağı da,
Hamı birdir duru göyün altında.

Hələ gəncsən, güclü, çılğın qafalı,
Çılğınlığın hər bir günü qadalı,
Ay yenilməz yurdlu, məğrur analı,
Hamı birdir duru göyün altında.

Mən dedim ki, arvad-uşaq yazıqdır,
Boz qurdların təpişi də artıqdır,
Minellilər Arieldən yanıqdır,
Hamı birdir duru göyün altında.

-Mən gedərəm boş qırğından uzağa,
Ancaq belə təpinməzlər qonağa,
Könlünüzdə yer saxlayın ocağa.
Hamı birdir duru göyün altında.

***

Çıxıb getdi Yelçəkənə Sərtiş ər,
İncik adam gedər, geri qanrılmaz,
Üz-gözündə ağrı-acı izləri,
İncik adam gedər, geri qanrılmaz.

Atı çapdı Arielə birbaşa,
Dal çevirdi baş aparan gənc şaha,
Beş gün yolu getdi, çatdı bir aya,
İncik adam dönüb geri qanrılmaz.

Tuncər, Ağqurd dönmüşdülər geriyə,
Çatmışdılar Əkbitəndən bəriyə,
Demişdilər hər ölüyə, diriyə,
İncik adam gedər, geri qanrılmaz.

Başevdəki üzlər, sözlər qupquru,
Acı danlaq gözləyirdi onları,
Yürüş şahın üzü-gözü sapsarı,
İncik adam gedər, geri qanrılmaz.

***

Manay dedi-Bircə oğlum Yürüş şah,
İncik salma acı sözlə doğmanı,
Ağüzel var bizə arxa durası,
İncik salma acı sözlə doğmanı.

Get onlardan toplumuna ərən seç,
Lap istəsən Əkbitəndən yığış, köç,
Daşçı oldun, yüz ölç, min ölç, bir yol biç,
İncik salma acı sözlə doğmanı.

Get, ölkənlə yaxşı-yaxşı tanış ol,
Buzboğazla, Durudaş el, Qobuçöl,
Xançu, Çinel, Hindel, Təbət, Uğurel,
İncik salma acı sözlə doğmanı.

Yelçəkəndə Qoşaboğaz, Qoşaçöl,
Yastıdağda Şişqayayla Diriel,
Körfəzin də bu yanları Qobuyer,
İncik salma acı sözlə doğmanı.

***

Yerinc kimi gəz özünə arxa tap,
Ağzı üstə yerə dəyər arxasız.
Qollarına yeni-yeni güc axıt,
Ağzı üstə yerə dəyər arxasız.

Bacar oğlu Tuncər iti tiyədir,
Ağqurd Alpan boz qurdlara yiyədir,
Soruş, öyrən, yönümləri nəyədir,
Ağzı üstə yerə dəyər arxasız.

***

Mən Manayam, Qızbax qolu Turərin,
Çox güclüdür hələ qolum, təpərim.
Çəkmə bizim aramızda çəpəri,
Ağzı üstə yerə dəyər arxasız.

Mən Manayam, Ağüzeldən çıxmışam,
Mindiyara Minel kimi baxmışam,
Qoyma ərlər incik düşə, dağlışa,
Ağzı üstə yerə dəyər arxasız.

***

Yürüş dedi:-Mən gedirəm, sən otur,
Şah yaxşıdır el içində olanda.
Mənim doğmam Ağüzelə yol salım,
Şah yaxşıdır el içində olanda.

Mən gəzərəm Duzgöl, Ağüz yurdunu,
Qobuyerdən çapa-çapa atımı,
Ucaldaram soyumuzun adını,
Şah yaxşıdır el içində olanda.

Mən Yürüşəm, Turər şahın soyuyam,
Üstüağın tövrəməsi, boyuyam,
Qızuçarın uçarlığı yayıyam,
Şah yaxşıdır el içində olanda.

Alpan qalsın, Tuncər mənlə gedəcək,
Onlar məni qoruyacaq, güdəcək,
Mindiyarda uğurlara yetəcək,
Şah yaxşıdır el içində olanda.

Ağqurd Alpan söyləncі

Ağqurd Alpan könlü sınıq gəzirdi,
Sevgisini unutmayan qocalmaz.
O, Manayı uşaqlıqdan sevirdi,
Sevgisini unutmayan qocalmaz.

Ağüzeldə qonşuydular uşaqlar,
Yağış, palçıq içrə yalın ayaqlar,
Gəzi yeri dağlar, çaylar, bulaqlar,
Yağış, palçıq içrə yalın ayaqlar.

Ancaq Manay gözəl idi, acı dil,
Çılğın idi, maral baxış, incə bel,
Ona arxa dayanırdı Ağüzel,
Yağış, palçıq içrə yalın ayaqlar.

On dörd yaşda aldı onu Üstüağ,
Burma saçlı, qoşa hörük, al yanaq,
Alpan ondan ayrı düşdü bu sayaq,
Yağış, palçıq içrə yalın ayaqlar.

***

Naxırçıydı Ağüzeldə atası,
Sev gör-görü, sən də çevril gör-görə.
Yay yaylaqda, qış qışlaqda qalırdı,
Sev gör-görü, sən də çevril gör-görə.

O köçürtdü sevgisini dağ-daşa,
Dal çevirdi qıza, evə, daş-qaşa,
Könül verdi meşəliyə, qurd-quşa,
Sev gör-görü, sən də çevril gör-görə.

Bozqurd öldü, qurd toplumu kiçildi,
Qurd dərisi ona dümdüz biçildi,
Ağqurd oldu, qurd öncülü seçildi,
Sev gör-görü, sən də çevril gör-görə.

İri qurddan o, üç kərə iriydi,
Qurdlar kimi dörd ayaqla yeridi,
Çöldə qaldı, səsi batdı, kiridi,
Sev gör-görü, sən də çevril gör-görə.

***

O, qurd dili, ulartısı öyrəndi,
Yeni sevgi ilk sevgini soyudar,
Ürəyinin sınığını yamadı,
Yeni sevgi ilk sevgini soyudar.

Qaplanlardan vuruşlarda güc aldı,
Neçə kərə Minellidən öc aldı,
Dolanışda öncül oldu, bic oldu,
Yeni sevgi ilk sevgini soyudar.

Qızçiçəyin körpəsini götürdü,
Dağ yerinə, qurd içinə gətirdi,
Qurd südüylə qaplan oğul yetirdi,
Yeni sevgi ilk sevgini soyudar.

Ləpələri, dalğaları yardı o,
Çox qaplanın bel, boynunu qırdı o,
Doğmalardan çox-çox uzaq durdu o,
Yeni sevgi ilk sevgini soyudar.

***

Qırx il sonra görüşdülər ayrılar,
Hər bir ilin cizgisi var alında,
Manay üzdən tanımadı Alpanı,
Hər bir ilin cizgisi var alında.

Alpan dedi:-Necə gözəl qalıbsan,
Gözəl idin, daha gözəl olubsan,
Qırx ildir ki, məni yasaq salıbsan,
Hər bir ilin cizgisi var alında.

Mən Alpanam, sənin uşaq yoldaşın,
Sənin qırx beş, mənim əlli üç yaşım.
Sənə sevgi, sənə ərlik yaraşır,
Hər bir ilin cizgisi var alında.

Yenə sənsən mənim sevgi-istəyim,
Sənin ilə vurub qırx il ürəyim,
Bir inam ver mənə, Ağüz çiçəyim,
Hər bir ilin cizgisi var alında.

***

Manay dedi:-Alpan, Ağüz ərəni,
Uşaqlıqdan nə qalıbsa doğmadır.
Biz bir yerdə oynamışıq, gəzmişik,
Uşaqlıqdan nə qalıbsa doğmadır.

Bilməmişəm sənin kimi igid var,
Sən kimiyə güvənmişdir Mindiyar,
Oğlum səni öz yanınca aparar,
Uşaqlıqdan nə qalıbsa doğmadır.

Danış mənə, Ağüzeldən soraq ver,
Nə yerdədir bizsiz qalan bizim yer,
O gözəllik yer-yurdundan danış bir,
Uşaqlıqdan nə qalıbsa doğmadır.

Alpan dedi:-Ordan çoxdan çıxmışam,
Sızlamışam Ağüz deyə hər axşam,
Bulud olub, yağış kimi yağmışam,
Uşaqlıqdan nə qalıbsa doğmadır.

***

Oturdular, danışdılar, güldülər,
Nə gözəldir qu qanadlı uşaqlıq.
Ağqurd Alpan, Başevbaşı dul Manay,
Nə gözəldir qu qanadlı uşaqlıq.

Manay dedi:-Uşaqlıqda nə sevgi,
Alpan dedi:-Sənsən mənim ilk sevgim,
Parıldadı iki üzlü bu güzgü,
Nə gözəldir qu qanadlı uşaqlıq.

Biri şahlıq ötkəmiylə danışdı,
Biri boz qurd görkəmindən danışdı,
İllər, aylar bir-birinə qarışdı,
Nə gözəldir qu qanadlı uşaqlıq.

Manay güldü, Başev bütün sevindi,
Hamı yeni ərən ilə öyündü,
Görək tanrı nə söyləyir, nə indi,
Nə gözəldir qu qanadlı uşaqlıq.

***

Manay dedi:-Get Yürüşün dalınca,
Yol yoldaşın çox olmağı yaxşıdır.
Alpan dedi:-Gedim, ona qovuşum,
Yol yoldaşın çox olmağı yaxşıdır.

Manay dedi:-Qoyma acıdil ola,
Acı dilli öz içində tək qalar,
Döyüşlərdə dağ tək verin dal-dala,
Yol yoldaşın çox olmağı yaxşıdır.

Alpan dedi:-Yürüş mənim balamdır,
Qız gedəri, oğul isə qalandır,
Bundan başqa nə vardırsa yalandır,
Yol yoldaşın çox olmağı yaxşıdır.

Manay dedi:-Yolun dağ-daş, çay, meşə,
Üstüağ var, bu ad qoymaz sevişək,
Görək tanrı nə buyurur bu işə,
Yol yoldaşın çox olmağı yaxşıdır.

***

Alpan dedi:-Sənsən məni yaşadan,
Yaşayışın dadı-duzu sevgidir.
Üstüağ da başı uca yaşadı,
Yaşayışın dadı-duzu sevgidir.

Harda olsan kölə olma orada,
Kim yox desə götürərəm aradan,
Qoy "hə" desin bizə böyük yaradan,
Yaşayışın dadı-duzu sevgidir.

Mən naxırçı balasıyam, Alpanam,
Düyünlərin açımını tapanam,
Sevgi üçün ölüm üstə çapanam,
Yaşayışın dadı-duzu sevgidir.

Yürüş şahı qoruyaram ata tək,
Daş köküsəm, dəmir qolum, tunc bilək,
Sən varsansa, mən də varam, ay çiçək,
Yaşayışın dadı-duzu sevgidir.

***

Ağqurd Alpan yola düşdü Ağüzə,
Əski sevgi yeniləşə bilərmi?
Manay susqun, qorxu içrə düşündü,
"Əski sevgi yeniləşə bilərmi?".

Dirrik nədir, sevgi, yoxsa əyləncə,
Sevgi tək-tək dönür qoşa sevincə,
Bunu gərək deyim şaha mən öncə,
"Əski sevgi yeniləşə bilərmi?".

Nə düşünər görən bunca Yürüşüm,
Necə baxar mənə tanış-bilişim,
Gərək gözdən yayındıram bu işi,
"Əski sevgi yeniləşə bilərmi?".

Mən Manayam, Qızbax nənə qalıncı,
Qırx beş yaşda sevginin nə sevinci,
Sevgim könlüm, yaşayışım yarımçıq,
"Əski sevgi yeniləşə bilərmi?".

***

Ancaq Manay boylu idi ərindən,
Ata gedər, bala qalar yerində,
Başevdəki böyük, kiçik bilirdi,
Ata gedər, bala qalar yerində.

Yayınmadı bu Alpanın gözündən,
Ağrı, sarı boya oldu üzündə,
Xısın-xısın o düşündü özündə,
Ata gedər, bala qalar yerində.

"Allım sənin gözəl, göyçək qadanı,
Dəyişmərəm heç bir şeylə ananı,
Gərək olum onun yaxın yananı,
Ata gedər, bala qalar yerində.

Sən mənimsən indən belə, ay gülüm,
Bu Başevdə gərək ərin mən olum,
Ağüz gülüm, bal çiçəyim, dağ balım,
Ata gedər, bala qalar yerində".

***

Boylu Manay çox düşündü-daşındı,
"Külə dönər sevgi bunca geciksə,
Bu sevgidir, ya şah olmaq diləyi,
Külə dönər sevgi bunca geciksə.

Uşaqlıqda o, bir varlı qızıydı,
Ağqurd Alpan dilsiz, oynaq quzuydu,
Qarlı qışlar onlar üçün yaz idi,
Külə dönər sevgi bunca geciksə.

Üstüağın adı yaddan çıxmayıb,
Başqa gözlə heç kəs mənə baxmayıb,
Bu körpəni doğum, yoxsa doğmayım,
Külə dönər sevgi bunca geciksə.

İnanmıram mən Alpanın sözünə,
İnanmıram sevgisinə, özünə,
Adam salım, gərək düşsün izinə,
Külə dönər sevgi bunca geciksə".

***

-Yollar, məni Ağüzümə çatdırın,
Düyün düşər, sevgi sapı qırılmaz.
Calaşdırın məni gənclik çağımla,
Düyün düşər, sevgi sapı qırılmaz.

Qurd yığını, daha qar-qış ayıdır,
Gedin doğma Yastıdağa, qayıdın,
Manay mənim itkin sevgi payımdır,
Düyün düşər, sevgi sapı qırılmaz.

İnandırıb onu bir gün alaram,
Mindiyarda böyük ərən olaram,
Mindiyarın şahlığında qalaram,
Düyün düşər, sevgi sapı qırılmaz.

Ucalaram, Manay bircə "hə" desə,
Yaşayaram, Başev məni bəsləyər.
Dolaşıqdır, sevgi deyil, bu nəsə,
Düyün düşər, sevgi sapı qırılmaz.

***

Yola çıxdın, öncə yolu ara sən,
Yol itirmək ərənlərə yaraşmaz.
Bir cığırı üç yol, dörd yol keçdilər,
Yol itirmək ərənlərə yaraşmaz.

Göz qaraldan uçurumlar, yarğanlar,
At keçməyən qalın-qalın ormanlar,
Dağ döşündə bürmələnən dumanlar,
Yol itirmək ərənlərə yaraşmaz.

Gah batdılar dərin, dayaz sel-suda,
Gah itdilər kolluqlarda, quruda,
Gah döndülər dağ yolunu yarıdan,
Yol itirmək ərənlərə yaraşmaz.

Tuncər dedi:-Yol azmışıq, Yürüş şah,
Yürüş dedi:-Gəl, qayıdaq birbaşa,
Dözmək olmaz bu yağışa, qar-qışa,
Yol itirmək ərənlərə yaraşmaz.

***

Gənc idilər, tapıncları yox idi,
Asılısan, tutacağın olmasa,
Gah meşəyə, gah düzənə çıxdılar,
Asılısan, tutacağın olmasa.

Dağlar ötüb Duzlugölə çatdılar,
Bir yüngülcə dincəldilər, yatdılar,
Yuxudaykən ərənləri tutdular,
Asılısan, tutacağın olmasa.

Daşqıranlar, buynuzlular beləydi,
Mindiyarın başrağına köləydi,
Üstüağsız bir-birinə lələydi,
Asılısan, tutacağın olmasa.

Əl-qol bağlı mindirildi qayığa,
Atıldılar adadakı ovuğa,
Çevrildilər su düzündə qoruğa,
Asılısan, tutacağın olmasa.

***

Ağqurd Alpan Ağüzelə yetişdi,
Lapdan sevinc lapdan ürkü doğurur.
Gözləmirdi bu gəlişi elbaşı,
Lapdan sevinc lapdan ürkü doğurur.

Gecə ikən ağsaqqallar yığıldı,
Qırx il sonra elə dönmək nağıldı,
Giley gəldi, qorxu-ürkü dağıldı,
Lapdan sevinc lapdan ürkü doğurur.

Alpan dedi:-Yasdan Manay yaralı,
Düşünməkdən düşüncəsi qaralıb,
Gözəl Manay dözümlüdür, buralı,
Lapdan sevinc lapdan ürkü doğurur.

Mindiyarı gəzmək çox-çox ağırdır,
Yollar daşdır, dağdır, çaydır, cığırdır.
Günləriniz ağırdısa, uğurdur,
Lapdan sevinc lapdan ürkü doğurur.

***

Ağsaqqallar söz istədi, danışdı,
-Sözə uyub acıqanla barışma,
Başev bizi gözdən salıb, unudub.
Sözə uyub acıqanla barışma.

Daşqıranlar Ağüzeli çapırlar,
Quduzlaşıb onu, bunu qapırlar,
Nə gizlətsək eşələyib tapırlar,
Sözə uyub acıqanla barışma.

Gözü qıpıq bu yollarda yortarım,
Gəlin bizi daşqırandan qurtarın,
Yaraq verin, gücümüzü artırın,
Sözə uyub acıqanla barışma.

Yol üstündə gizli busqu qururlar,
Ağüzeli ildə üç yol qırırlar,
Adamları öldürürlər, vururlar,
Sözə uyub acıqanla barışma.

***

Bir ay keçdi, yol azanlar dönmədi,
İtki kiçik çöp olsa da ağırdır,
Ağqurd Alpan gəzdi, düzü, meşəni,
İtki kiçik çöp olsa da ağırdır.

Toplum yığdı Ağüzeldən, Bireldən,
Getdi böyük Qobuyerdən, Ağgöldən,
Harda itdi qoşa igid ər görən,
İtki kiçik çöp olsa da ağırdır.

Daşqıranlar, buynuzlular bir idi,
Yaşadığı yerlər dağlıq yer idi,
Burda çox gün bulud idi, qar idi,
İtki kiçik çöp olsa da ağırdır.

Dururdular yollar boyu busquda,
Boğurdular yatanları yuxuda,
Üz-gözləri şəlit-şəlit sarğıda,
İtki kiçik çöp olsa da ağırdır.

***

Gecə Alpan bir ulartı eşitdi,
Qurd ulayar ac olanda acıqdan.
Bu, Tuncərdir, ya Qurdbaşı, Əyridiş,
Qurd ulayar ac olanda acıqdan.

Eşitmişdi ulartını Əyridiş,
Yaranışı qurd-qaplandan törəmiş,
Diş-dırnağı iti bıçaq, sərt, geniş,
Qurd ulayar ac olanda acıqdan.

Tuncər onu çağırırdı əltuta,
Ağır gündə inanırdı bu qurda,
Bənzəyirdi həm qaplana, həm ata,
Qurd ulayar ac olanda acıqdan.

Ağqurd Alpan at səyirtdi o yana,
Əyridişsə onun ilə yan-yana,
Baş vururdu çaya, gölə, ormana,
Qurd ulayar ac olanda acıqdan.

***

Dil bilirdi, anlayırdı Əyridiş,
Dil anlayan dilsiz var ki, dillidir.
Yastıdağdan Duzlugölə çapırdı,
Dil anlayan dilsiz var ki, dillidir.

Daşqıranlar yolu kəsib durmuşdu,
Dörd bir yanda neçə busqu qurmuşdu,
Səs-küyləri yeri, yurdu sarmışdı,
Dil anlayan dilsiz var ki, dillidir.

-Ay, kimsiniz, hara belə yortursuz,
Bu qurd-atı hara belə dartırsız,
Yol alıbsız Duzlugölə qatıbsız,
Dil anlayan dilsiz var ki, dillidir.

Düşə bilməz bura bir quş kölgəsi,
Bu, keçiddir, Daşqıranlar ölkəsi,
At çapmayıb hələ burda özgəsi,
Dil anlayan dilsiz var ki, dillidir.

***

Əyridişin ağ dişləri qıcıldı,
Qurd görəndə toxun dili tutular,
Ağız atıb neçə başı gəmirdi,
Qurd görəndə toxun dili tutular.

Daşqıranlar tərpənincə yerindən,
Ağqurd Alpan nərildədi dərindən,
Hey qalmadı qancılların birində,
Qurd görəndə toxun dili tutular.

Qurdla Alpan yolu sildi, süpürdü,
Daşqıranlar öldüm-deyib gəbərdi.
Qalanlar da yerlərindən dəbərdi,
Qurd görəndə toxun dili tutular.

Yol açıldı, dili dilə qatdılar,
Nə dincəlib, nə də gecə yatdılar,
Obaşdandan Duzlugölə çatdılar,
Qurd görəndə toxun dili tutular.

***

Sonra yola buynuzlular çıxdılar,
Gec-tez buynuz çıxaracaq başı boş.
Başlarında baş sümüyü öküzdən,
Gec-tez buynuz çıxaracaq başı boş.

Qılıncların güzgüsündə parıltı,
Tutaqlardan qopan toppuz-gurultu,
Əyridişi görüb dişlər qıcıldı,
Gec-tez buynuz çıxaracaq başı boş.

Bağırtılar qılınc üstə köklənir,
Buynuzlular qırıldıqca təklənir,
Əyridişin qulaqları şəklənir,
Gec-tez buynuz çıxaracaq başı boş.

Ovuq dağdan eşidilir ulartı,
Səsi boğur qayaların su qatı,
Tük örpəşir, iç üşüyür, duz dadır,
Gec-tez buynuz çıxaracaq başı boş.

***

Suya vurdu sinəsini Əyridiş,
Harda ürək varsa orda duyğu var.
Adalardan qopan səsdir ulartı,
Harda ürək varsa orda duyğu var.

Səsə doğru üzə-üzə getdi o,
Baxanların gözlərindən itdi o,
Gəlib sonda dağovuğa çatdı o,
Harda ürək varsa orda duyğu var.

Yürüş şahla Tuncər bayqın, həm qoşa,
Vermişdilər ovuqluqda baş-başa,
Qalın iplə sarınmışdı dağ-daşa,
Harda ürək varsa orda duyğu var.

Əyridişin hənirtisi yovuqda,
Bir nərilti eşidildi ovuqda,
"Qurtarmalı dəmir ipdən, soyuqdan!"
Harda ürək varsa orda duyğu var.

***

Yalaşdılar Tuncər ilə Əyridiş,
Od-alovdur damarlarda qurtuluş,
Dəmir iplər lap dibindən söküldü,
Od-alovdur damarlarda qurtuluş.

Buynuzlular vuruşurdu hələ də,
Qan axırdı bulaq kimi gölə də,
Ölənlərin sayı çoxdu əllidən,
Od-alovdur damarlarda qurtuluş.

Onlar gəlib əltut oldu Alpana,
Vuruşdular acıqanla yan-yana,
Buynuzlular tökülmüşdü yarğana,
Od-alovdur damarlarda qurtuluş.

Acıqanda duruş, dözüm bitmişdi,
Basarlığa dəli inam itmişdi,
Buynuzlunun sonu gəlib çatmışdı,
Od-alovdur damarlarda qurtuluş.

***

Buynuzlular son gücədək vuruşdu,
Görəng* saxla, sona varma heç nədə.
Tutmuşdular Üstüağı haçansa,
Görəng saxla, sona varma heç nədə.

Vardı burda üç qardaşın bir atı,
Keçmək çətin atla neçə elatı,
Tuncərinsə vardı lələk qanadı,
Görəng saxla, sona varma heç nədə.

Mindi Alpan Əyridişin belinə,
Tuncər döndü lələyinin yelinə,
Öz atını verdi şahın əlinə,
Görəng saxla, sona varma heç nədə.

Qurdla atı yarışdırdı ərənlər,
Donub qaldı bu çapışı görənlər,
Lələyilə göydə bulud sürənlər,
Görəng saxla, sona varma heç nədə.

Manay-Qaraş söyləncі

Qaraş getdi Asurelə, sağaldı,
Hamı istər üstün olsun, şah olsun.
Dönüb gəldi Arielə bir daha,
Hamı istər üstün olsun, şah olsun.

Eşitdi ki, Minellilər yayğındır,
Başev bütün kimsəsizdir, tutqundur.
İtənləri gəzənlər də yorğundur,
Hamı istər üstün olsun, şah olsun.

Çıxdı bir daş üzərinə, bağırdı,
Arielin ərlərini çağırdı,
Sözdən böyük yalan-palan yoğurdu,
Hamı istər üstün olsun, şah olsun.

Dedi:-Mənəm İşdayağın yerinci,
Əkbitəndə şah olmağa birinci,
Yerdə qalan oyuncaqdır, gəlincik,
Hamı istər üstün olsun, şah olsun.

_____
**Ehtiyat*

-Hamınızı çağırıram əltuta,
Gedək alaq, yiyə duraq bu yurda.
Başevləri qızıl qanla doyuraq,
Hamı istər üstün olsun, şah olsun.

Mən qılıncdan keçirərəm hamını,
Mənə dəyən baltaların sapını,
Üzümüzə bağlı qalan qapını,
Hamı istər üstün olsun, şah olsun.

Arxalanıb güvənirəm sizə mən,
Mən dönürəm Əkbitənə yenidən,
Odər kimi öküzbaşı əlimdə,
Hamı istər üstün olsun, şah olsun.

Ay kimsəsiz Arielli, yığışın,
Asurelin ərlərilə qarışın,
Başrağımız bundan sonra ağ-yaşıl,
Hamı istər üstün olsun, şah olsun.

***

Mən Manayı alsam, şahlıq mənimdir,
Şahın gərək son yaxını şah ola,
Mən Manayı arvadlığa götürrəm,
Şahın gərək son yaxını şah ola.

Öldür, uçur, heç üzün də solmasın!
Heç bir yerdə qızırqanmaq olmasın!
O Başevdə gərək heç kəs qalmasın!
Şahın gərək son yaxını şah ola.

Biz gecələr keçəcəyik yolları,
Yollar boyu gədikləri, yalları,
Gizli-gizli daldaları, dalları,
Şahın gərək son yaxını şah ola.

Hamı döyüş geyimini soyunsun,
Hamı gərək alverçi tək geyinsin,
Ürəklərsə yaraqlı tək döyünsün,
Şahın gərək son yaxını şah ola.

***

Qaraş Odər kimi girdi Başevə,
Çöl dəyişər, iç dəyişməz geyimlə,
Dedi:-Mənə yeni şahı göstərin,
Çöl dəyişər, iç dəyişməz geyimlə.

-Suböləndə bir yeni ot dərmişəm,
Bunda şahın sağlığını görmüşəm.
Atı qovub gəlib bura girmişəm,
Çöl dəyişər, iç dəyişməz geyimlə.

Dayanmışdı Manay çaşqın, qatdanaq,
Gözlərini döyüb, açıb, yumaraq;
İkiliydi üzündəki təmtəraq,
Çöl dəyişər, iç dəyişməz geyimlə.

Başevdəki böyük, kiçik burada,
Manay durub ağlayırdı arada,
Hamı boğuq görünürdü qaradan,
Çöl dəyişər, iç dəyişməz geyimlə.

***

Qaraş onun yaxınında oturdu,
Bicləmələr* belə başlar, yavaşdan,
Qulağına onun neçə söz dedi,
Bicləmələr belə başlar, yavaşdan.

Mən Qaraşam-dedi-Manay, gülyanaq,
Çox Başevin qulluğunda duraraq,
Alçaltdınız məni oda ataraq,
Bicləmələr belə başlar, yavaşdan.

Sonra Qarbaş gəldi məni öldürə,
Şahın qancıl istəyini bildirə,
Məni şahlar sırasından sildirə,
Bicləmələr belə başlar, yavaşdan.

Mən gəlmişəm, öz yerimdə oturum,
Qan-qadanı bu ölkədən itirim,
Turərşahın soy-kökünü bitirim,
Bicləmələr belə başlar, yavaşdan.

**Siyasət*

***

Başda səni qatacağam sonevə*,
Hər dillinin** son yerciyi sonevdir.
Sonra Yürüş tutulacaq gizlicə,
Hər dillinin son yerciyi sonevdir.

Sən boylusan, körpən mənim olacaq,
Yürüş üçün ala gözlər dolacaq,
Minel daha, bil, Yürüşsüz qalacaq,
Hər dillinin son yerciyi sonevdir.

Burda kim var, qıracağam büsbütün,
Gəlib min-min arielli didərgin,
Burda onlar artacaqdır günbəgün,
Hər dillinin son yerciyi sonevdir.

Manay baxdı, ancaq dinə bilmədi,
Dilinə də heç bir söz-zad gəlmədi,
Bayılmışdı, yaxşı oldu, ölmədi,
Hər dillinin son yerciyi sonevdir.

***

Son tərpəniş, son sayıqlıq, son uduq,
Sağolluqla sağollaşır bayılan.
Qaraş bir də ona doğru əyildi,
Sayıqlıqla sağollaşır bayılan.

O boyluydu, o var gücdə deyildi,
Manay onu tanıyarkən bayıldı,
Nələr, nələr olacağın o bildi,
Sayıqlıqla sağollaşır bayılan.

Bağıraraq Qaraş belə söylədi:
-Manay mənə yeni şahlıq dilədi,
Hamı ilə o sağolluq elədi,
Sayıqlıqla sağollaşır bayılan.

Dedi:-Qaraş şahlıq etsin yerimdə,
Yerinc olsun Yürüş elin birində,
Boşanaram mən də ölən ərimdən,
Sayıqlıqla sağollaşır bayılan.

**Qəbir*
***İnsan*

***

Başev dəydi bir-birinə bu sözdən,
Gücü çoxdur doğru sözdən yalanın.
Hamı dedi, dağılacaq Mindiyar,
Gücü çoxdur doğru sözdən yalanın.

Odər dedi:-Manayın yox təpəri,
Qaraşın yox bu Başevdə heç yeri,
Yürüş şahdan dura bilməz o, bəri,
Gücü çoxdur doğru sözdən yalanın.

Qaraş çıxdı, toplumunu hayladı,
Başevdəki yaraqları payladı,
Qazıb yeri geyimini quyladı,
Gücü çoxdur doğru sözdən yalanın.

Dörd bir yandan Başev bütün tutuldu,
Başbilənlər dustaqlığa atıldı,
Qalanlarsa qan gölünə qatıldı,
Gücü çoxdur doğru sözdən yalanın.

***

Toplum getdi tutuqlasın Yürüşü,
Nə gözlərsən, nələr çıxar qarşına.
Bir busquda üç ərəni tutdular,
Nə gözlərsən, nələr çıxar qarşına.

Qarşılaşdı onlar yaşıl bir döşdə,
Vuruşarkən yaralandı Yürüş də,
Sonra özü əl saxladı döyüşdən,
Nə gözlərsən, nələr çıxar qarşına.

Qaraş dedi:-Başev bütün tutulub,
Başbilənlər dustaqlığa atılıb,
Öldürülüb, sonevinə qatılıb,
Nə gözlərsən, nələr çıxar qarşına.

Yürüş dedi:-Alçaqlığa çatıbsan,
Minellilik soy-kökünü atıbsan,
Öz yurdunu Arielə satıbsan,
Nə gözlərsən, nələr çıxar qarşına.

***

Öz soyundan çıxır dönməz acıqan*,
Ən sərt qancıl öz kökündən olandır.
Özgəsilə barışmağa yol olur,
Ən sərt qancıl öz kökündən olandır.

Özününkü bilir sənin içini,
Bilir harda, nədə sənin gücünü,
Ağı ilə qatışdırır öcünü,
Ən sərt qancıl öz kökündən olandır.

Deyirsən ki, özgə qanmaz, azğındır,
Özününkü, öz içinə yaxındır,
Nə biləsən o satqından satqındır,
Ən sərt qancıl öz kökündən olandır.

Başda çalış yaxınından qorun sən,
Yanlarında yazıqlığa bürün sən,
Palaza da bürün, ellə sürün sən,
Ən sərt qancıl öz kökündən olandır.

***

Tuncər, Alpan ağac ilə döyüldü,
Öz soyundan gələr sənə acılar,
Qaraş dedi:-Əzişdirin bunları,
Öz soyundan gələr sənə acılar.

Şəlitləyin, bağış* verək Manaya,
Öz oğluna şah söyləyən anaya,
Yoxsa bizi o danlayar, qınayar,
Öz soyundan gələr sənə acılar.

Əl-qolunu açıq qoyun yerincin,
Üz döndərib ondan Başev sevinci,
Dustaqlansın bu beyni boş beyincik,
Öz soyundan gələr sənə acılar.

Hər gün döyün o Tuncəri, Alpanı,
Qurd südünü əmən qoşa qabanı,
Turər şaha Altyer, Üstyer yabanı,
Öz soyundan gələr sənə acılar.

**Düşmən*

***

Qan gördülər hər bir yanda yol boyu,
Mindiyara qan gölləri bəzəkdir,
Öldürdülər önlərinə çıxanı,
Mindiyara qan gölləri bəzəkdir.

Mən Qaraşam, Mindiyarın şahıyam,
Mənə belə söyləyibdir şah babam,
Qızıl qana boyanacaq bu bayram,
Mindiyara qan gölləri bəzəkdir.

Baş əyməyən başlar bir-bir kəsilsin,
Söz deyənin başı gərək əzilsin,
Tərs baxanın qan gözündən süzülsün,
Mindiyara qan gölləri bəzəkdir.

Mən Manayla bu şahlığa vararam,
Yox söyləsə Yürüşünü qıraram,
Ariellə Mindiyarı yararam,
Mindiyara qan gölləri bəzəkdir.

***

Ağqurd Alpan, Tuncər qoşa ər idi,
Gücsüz, ərsiz ölkə duruş gətirməz.
İkisi də yaralıydı, şəlitli,
Gücsüz, ərsiz ölkə duruş gətirməz.

Tuncər gecə yarıyacan gözlədi,
Sonra üç yol Əyridişi səslədi,
Yaxın gəlib qurd neçə yol ləslədi,
Gücsüz, ərsiz ölkə duruş gətirməz.

Qurd onları bir-bir çəkdi dalına,
Yetişdirdi Yastıdağın yalına,
Özü çıxdı Əkbitənin yoluna,
Gücsüz, ərsiz ölkə duruş gətirməz.

Qurtardılar şəlitlərdən bağlılar,
Çox çəkmədi qurd yatımlı qayğılar,
Sarım-sarım yarpaqlardan sarğılar,
Gücsüz, ərsiz ölkə duruş gətirməz.

**Hədiyyə*

***

Qaraş gəldi, Yürüş iplə sarıqlı,
Ana ərə balasını dəyişməz.
-Ya mənə gəl, ya Yürüşün yasına,
Ana ərə balasını dəyişməz.

-Sən bilirsən, mən boyluyam, həm dulam,
İstəyirsən şah olasan bu yolla,
Yox, döyüşüb ya ölərəm, ya qallam,
İstəyirsən şah olasan bu yolla.

Hələ Bacar, Ağqurd Alpan, Tuncər var,
Gəlib bizi qurtaracaq qoçaqlar,
Bir ac gözə yerləşərmi Mindiyar,
İstəyirsən şah olasan bu yolla.

Bunu deyib Manay bir də bayıldı,
Şəlitləndi, o, dustağa atıldı,
Üç gün sonra o diksinib ayıldı,
İstəyirsən şah olasan bu yolla.

***

Yüzmin-yüzmin köçkün girdi Başevə,
Bir damcıdır dirrik köçkün gözündə.
Heç kəs yaraq qaldırmadı onlara,
Bir damcıdır dirrik köçkün gözündə.

Arielli Əkbitəni dağıtdı,
Su yerinə qızıl qanlar axıtdı,
On minləri kəsdi, qırdı, bağırtdı,
Bir damcıdır dirrik köçkün gözündə.

Yiyələndi iti-iti yarağa,
Əkbitəndə evə, yerə, ocağa,
Heç kəs bir söz qaytarmadı qonağa,
Bir damcıdır dirrik köçkün gözündə.

Onlar dedi:-Şahlıq bizim olacaq,
Qaraş şahdır, Mindiyarda qalacaq,
Kim yox desə ağır vuruş olacaq,
Bir damcıdır dirrik köçkün gözündə.

***

Yürüş eldən ilim-ilim yox oldu,
Qadındadır tapıntının açarı,
Qaraş dedi:-Mən Manaya ər ollam,
Qadındadır tapıntının açarı.

"Yürüş" deyib, Manay tez-tez ağladı,
Qaraş onu dilə tutub saxladı.
Tez-tez gəlib istəyini yoxladı,
Qadındadır tapıntının açarı.

-Mənim şahlıq ucalığım Manaydır,
Onla mənə Başev dardır, qolaydır,
Şahlıq yolum onsuz dolay-dolaydır,
Qadındadır tapıntının açarı.

İşdayaqdan qalan yerinc mənəm, mən,
Əl çəkmişdim özüm şahlıq yerimdən,
Mindiyarda şah olammaz hər gələn,
Qadındadır tapıntının açarı.

***

Manay dedi:-Sən dünənki uşaqsan,
Şah başqadır, ər başqadır, bir deyil.
Ana qadın şah sayılır Mineldə,
Şah başqadır, ər başqadır, bir deyil.

Şah olsan da mənə yadsan, başqasan,
Qartalların ölkəsində qarğasan,
Bərk gedirsən, bicləmədə yorğasan,
Şah başqadır, ər başqadır, bir deyil.

Yürüşümü burax, çıxaq burdan biz,
Yabancılsız, acıqansız olun siz,
Kim soruşsa utanmadan deyiniz,
Şah başqadır, ər başqadır, bir deyil.

Mən boyluyam, döyüşməkdən uzağam,
Daha dirrik sevincinə yasağam,
Doğulmamış uşağıma qonağam,
Şah başqadır, ər başqadır, bir deyil.

***

Arielə yer vermişdi Üstüağ,
Çörək kimi yer özü də uludur.
Sən o yerdə gül yox, tikan əkmisən,
Çörək kimi yer özü də uludur.

Baltaladın öz əlinlə kökünü,
Çox alçaltdın soy-kökündə çəkini,
Dustaqladın şah balamı, ilkimi,
Çörək kimi yer özü də uludur.

-Mənə gəlsən buraxaram balanı,
Ölüm quşu başı üstdə dolanır,
Orda ölü ölü üstə qalanıb,
Çörək kimi yer özü də uludur.

Mənə gəlmək şah yerində qalmaqdır,
Mindiyarı bir də satın almaqdır,
Yalan deyən kişi deyil, alçaqdır,
Çörək kimi yer özü də uludur.

***

Çox yalvardı Qaraş, Manay "yox" dedi,
"Hə, yox" üstdə min-min adam qırılır,
Yürüş hər gün göz önündə döyüldü,
"Hə, yox" üstdə min-min adam qırılır.

Gəlib hamı yığışıldı haraya,
Qaraş üçün döndü hər yas bir toya,
Hər gün bunu göstərdilər anaya,
"Hə, yox" üstdə min-min adam qırılır.

Hər gün ana ayaqyalın qaçırdı,
Gedib Yürüş balasını qucurdu,
Günlər belə qan, qorxuda keçirdi,
"Hə, yox" üstdə min-min adam qırılır.

Bir gün Yürüş bir kötüyə sarıldı,
Balta ilə başı dibdən vuruldu,
Bununla da yeni şahlıq quruldu,
"Hə, yox" üstdə min-min adam qırılır.

***

Ana görcək kəsik başı, bayıldı,
Bacar çıxma heç bir işdə cızıqdan.
Yerli-yersiz qırğın düşdü araya,
Bacar çıxma heç bir işdə cızıqdan.

Ayaq altda qaldı, Manay bağırdı,
Bir arvadı yaxınına çağırdı,
Yersiz doğuş belə gündə ağırdı,
Bacar çıxma heç bir işdə cızıqdan.

Dedi:-Bacım, mən bilmirəm sən kimsən,
Qancılımsan, istəklimsən, yerlimsən,
Mən ölərsəm, bu uşağı böyüt sən,
Bacar çıxma heç bir işdə cızıqdan.

Sənin olsun üstümdəki bu daş-qaş,
Çox çəkəcək bu qan-qada, bu savaş,
Məni götür, bu çarpışdan uzaqlaş,
Bacar çıxma heç bir işdə cızıqdan.

***

Düşdü iki el içinə qan-qada,
Elarası qanı yumaq çətindir,
Yerli, yersiz bir-birini qırdılar,
Elarası qanı yumaq çətindir.

Əldə qılınc, yaraqlılar, atlılar,
Yaraqsızlar son sayına çatdılar,
Çoxlarını dustaqlığa atdılar,
Elarası qanı yumaq çətindir.

Axtardılar, tapmadılar ananı,
Qanadları sındırılmış sonanı,
Qaraş dedi, gəzin dağı, aranı,
Elarası qanı yumaq çətindir.

Tapmayınca,-dedi-şahlıq məndədir,
O tutuqdur, Əkbitəndən gendədir,
Mənə bəlli uzaq, ucqar kənddədir,
Elarası qanı yumaq çətindir.

Əkbitəndə vuruş söyləncі

Toplumunu alıb gəldi Asurşah,
Boş meşədə tülkü, çaqqal ulayar.
Qaraş çıxdı qabağına onların,
Boş meşədə tülkü, çaqqal ulayar.

Asurşah da belə dedi son kərə,
Gəlin bölək Mindiyarı beş yerə.
Böyük gərək parçalana çox yerə,
Gəlin bölək Mindiyarı beş yerə.

Bacar bunu eşidincə tutuldu,
Qalın qaşlar dartılaraq çatıldı,
İtiatın yəhərinə atıldı,
Boş meşədə tülkü, çaqqal ulayar.

-İtiatım, çap, yeyin ol, iti ol,
Qızuçarın lələyinin atı ol,
Qobudüzün ocağının odu ol,
Boş meşədə tülkü, çaqqal ulayar.

***

Yola düşdü Uğurelin toplumu,
Pis ayaqda bir haray da dayaqdır.
Ağqurd Alpan, Tuncər çatdı haraya,
Pis ayaqda bir haray da dayaqdır.

Tuncər gördü atasını uzaqdan,
Qabağına qaçdı onun qabaqdan,
Yorğun idi, düşməmişdi ayaqdan,
Pis ayaqda bir haray da dayaqdır.

Yaraları qan verirdi hələ də,
Ancaq sısqa deyil idi elə də,
Vuruşurdu bu çarpışda kölə də,
Pis ayaqda bir haray da dayaqdır.

Qılıncların parıltısı seçilir,
Hər vuruşda qollar, başlar biçilir,
Yer daralır, sanki Başev kiçilir,
Pis ayaqda bir haray da dayaqdır.

***

Gəlir dörd ər vuruşlara dörd yandan,
Arxan olsa təklikdə də güclüsən,
Ağqurd Alpan, Bacar, Tuncər, Əyridiş,
Arxan olsa təklikdə də güclüsən.

Qurdlardandı Asurşahın qorxusu,
Son yaranın hələ qalır ağrısı,
Burda vardır qurd toplumu, qurğusu,
Arxan olsa təklikdə də güclüsən.

Ağqurd Alpan bicləməni anladı,
Yeyin gəlib Qaraş şahı yanladı,
Fərə kimi lapdan Qaraş banladı,
Arxan olsa təklikdə də güclüsən.

-Mən Manaya yiyələndim, şah oldum,
Sən alçaldın, mən sevgimlə ucaldım,
Sən qurd idin, yenə elə qurd qaldın,
Arxan olsa təklikdə də güclüsən.

***

Ağqurd Alpan dedi:-Alçaq, ağzıboş,
Qadın alver ortancılı olammaz.
Mən Manayı öz əlimlə boğaram,
Qadın alver ortancılı olammaz.

Sən satıldın Asurşaha üç kərə,
Toplumları sən çağırdın bu yerə.
O da gərək sənlə birgə gəbərə,
Qadın alver ortancılı olammaz.

Mən Manayla uşaqlıqdan tanışam,
Gəldim, onun şahlığıyçın çarpışam.
Mindiyarın başrağından yapışam,
Qadın alver ortancılı olammaz.

Bir yol səni öldürmüşəm, dirildin,
Asurşahın ayağına sərildin,
Başrağımız əldən-ələ verildi,
Qadın alver ortancılı olammaz.

***

-Ölməlisən, elə burda, bax, belə,

Acıqanı qılınc çəkər özünə,
Bir vurumla Qaraş iki bölündü,
Acıqanı qılınc çəkər özünə.

Arielli Əkbitəni alandan,
On günlük şah yerə endi bir anda.
Səs çıxmadı min-min yerdə qalandan,
Acıqanı qılınc çəkər özünə.

Vuruşurdu Tuncər ilə Asurşah,
Qılıncları, toppuzları baş-başa.
İki yandan baxırdılar savaşa,
Acıqanı qılınc çəkər özünə.

Şah dözmədi, qovdu atı düzünə,
Ox tuşladı Tuncər onun izinə,
Asurşahın ox sancıldı gözünə,
Acıqanı qılınc çəkər özünə.

***

Çatdı, onu qamarladı Əyridiş,
Qurd ağzından hələ çıxan olmayıb.
Onu aldı, didişdirdi, gəmirdi,
Qurd ağzından hələ çıxan olmayıb.

Arielli atıb qaçdı yarağı,
Əkbitənin onca günlük qonağı,
Aşdı onun Qaraş kimi dayağı,
Qurd ağzından hələ çıxan olmayıb.

Dörd igidin dörd bir yandan durumu,
Ox uçuşu, qılınc-qalxan vurumu,
Aldadılmış köçkünlərin qırımı,
Qurd ağzından hələ çıxan olmayıb.

Tuncərdən yox, çoxu qurddan qorxurdu,
Oxla bizuc yağış kimi yağırdı,
Bürümüşdü evyolları* bağırtı,
Qurd ağzından hələ çıxan olmayıb.

_____
Küçələr

***

Uğureldən toplum çatdı beş günə,
Düzlük gəlib öz yerini gec tutur.
Dirieldən, Suboğazdan, Xançudan,
Düzlük gəlib öz yerini gec tutur.

Qoltuqlayıb, qamarlayıb hər yetən,
İki evlik yük bağladı hər evdən,
Soyulmuşdu, çapılmışdı Əkbitən,
Düzlük gəlib öz yerini gec tutur.

Sönmüş ocaq, odun, kösöv qalığı,
Yaraların ağ tüstüdən sarığı,
Hörmə evlər – qırıq, kəsək qalığı,
Düzlük gəlib öz yerini gec tutur.

Süpürləyib evdən unu, qorğanı,
Qadınların qulağından sırğanı,
Aparmışdı mütəkkəni, yorğanı,
Düzlük gəlib öz yerini gec tutur.

***

Tuncər dedi atasına:-İzin ver,
Hər bir sonluq başlanğıcdan su içir.

Toplumunla Asureli alım mən,
Hər bir sonluq başlanğıcdan su içir.

Uğur desən uğur olar yoldaşım,
Ağsaqqaldır hər uğurun sirdaşı,
Məni elə bu yürüşə minbaşı,
Hər bir sonluq başlanğıcdan su içir.

Toplum gəlir Qobuçöldən, Xançudan,
Qoşaboğaz, Anadolu Qapıdan,
Qobu, Ağüz, Dirielli-qonşudan,
Hər bir sonluq başlanğıcdan su içir.

-Gözlə, oğul, öyrən bir az yolları,
Asurelə gedən dik-dik yalları,
Qoy bərkisin hələ bir az qolların,
Hər bir sonluq başlanğıcdan su içir.

İtmiş Manay söylənci

Ağqurd Alpan dedi:-Mənə izin ver,
Ağsaqqalsız, şahsız qalmaq çətindir.
Gedib gəzim, gedib tapım Manayı,
Ağsaqqalsız, şahsız qalmaq çətindir.

Doğmacalı uşağı var ərindən,
Qoy şah seçsin doğmaların birindən,
O otursun Üstüağın yerində,
Ağsaqqalsız, şahsız qalmaq çətindir.

Bacar dedi:-hər bir yana çapginən,
Axtar onu, harda olsa tapginən,
Gətir bura, öz yerinə çatginən,
Ağsaqqalsız, şahsız qalmaq çətindir.

Alpan dedi:-Odur mənim ürəyim,
Mənəm onun körpəsinin bələyi,
Mən olaram saçlarının örpəyi,
Ağsaqqalsız, şahsız qalmaq çətindir.

***

Yola düşdü Ağqurd Alpan yollara,
Ox görüncsüz atılanda boş gedər.
Yastıdağdan neçə qurd da götürdü,
Ox görüncsüz atılanda boş gedər.

Öncə bütün Ağüzeli dolandı,
Günlər aylar üzərinə qalandı,
Yaz yetişdi, duru sular bulandı,
Ox görüncsüz atılanda boş gedər.

Dirieli, Qobuyeri, Qaf dağı,
Sevindilər hara dəydi ayağı,
Bəslədilər hər bir yerdə qonağı,
Ox görüncsüz atılanda boş gedər.

Manay Çinel, Hindeldə də olmadı,
Misireldən keçdi, ancaq qalmadı,
"Manay" dedi, heç bir soraq almadı,
Ox görüncsüz atılanda boş gedər.

***

Asureldə eşitdi ki, o sağdır,
Sevgi, sevinc qucaqlaşar ürəkdə.

Bunu ona bir yaraqlı söylədi,
Sevgi, sevinc qucaqlaşar ürəkdə.

Dedi:-Onu Arieldə axtarın,
Boylu idi, Ağüz idi soy adı,
Onu alıb yana çəkdi bir qadın,
Sevgi, sevinc qucaqlaşar ürəkdə.

Vuruş içrə o doğurdu uşağı,
Laxta-laxta qanla dolu qucağı,
Ayaq altda qırılmışdı ayağı,
Sevgi, sevinc qucaqlaşar ürəkdə.

Ağrı içrə yumaqlaşan qız idi,
Ölməmişdi, ölüdən də pis idi,
Sağ qalmağın suçu çox-çox az idi,
Sevgi, sevinc qucaqlaşar ürəkdə.

***

Asurlunun adı, soyu Nəciydi,
Özgəsinin doğmalığı gözəldir,
O, Alpanı öz evinə apardı,
Özgəsinin doğmalığı gözəldir.

Çörək kəsdi, yemək yedi, su içdi,
Gecə yatdı, düşüncələr irişdi,
Bir gün qaldı, gecə oldu, gün keçdi,
Özgəsinin doğmalığı gözəldir.

Alpan dedi:-Qardaş, evin var olsun,
Bu ev yaxşı adamlara yer olsun,
Təki hamı sənin kimi ər olsun,
Özgəsinin doğmalığı gözəldir.

Ancaq gərək yola çıxım bu gün mən,
Gedim qızı alım qancıl əlindən,
Mənə böyük əltut oldun, Nəci, sən,
Özgəsinin doğmalığı gözəldir.

***

Başyolevdə üç yaraqlı göründü,
Düyün salar yola yolsuz adamlar.
Dedilər ki, Ağqurd Alpan sənmisən,
Düyün salar yola yolsuz adamlar.

Gözəl Manay gəlib bizə, qonaqdır,
Yaralıdır, bayqın, yarım oyaqdır,
Lap açığı, bir az dəli sayaqdır,
Düyün salar yola yolsuz adamlar.

Nəci dedi:-Yalan deyir gələnlər,
Varlı bilib səndən gəlir güdənlər,
Yolumuzun ortasında bitənlər,
Düyün salar yola yolsuz adamlar.

Alpan dedi:-Mən yaraqsız gəzirəm,
Yumruğumla başınızı əzərəm.
Üçünüzün başını bir üzərəm,
Düyün salar yola yolsuz adamlar.

***

Alpan alıb atdı çölə onları,
Yumruq hara, yaraq hara vuruşda.
Yaraqlılar yaraladı Alpanı,

Yumruq hara, yaraq hara vuruşda.

Bağladılar, atın üstə atdılar,
Onlar atı dallarıyca dartdılar,
Gedib Başev yaxınına çatdılar,
Yumruq hara, yaraq hara vuruşda.

Alpan dönüb geri baxdı, bağırdı,
Bu səs ilə qurdlarını çağırdı,
Qurd gözündən qanlı acıq yağırdı,
Yumruq hara, yaraq hara vuruşda.

Bunu görüb yaraqlılar çaşdılar,
Ovlarını qoyub yerdə, qaçdılar,
Çoxu dedi, bunlar itdir, acdılar,
Yumruq hara, yaraq hara vuruşda.

***

Alpan döndü, qurdlar onun dalınca,
Son ayaqda hər qurd iti dayaqdır.
Arxasınca beş caynaqlı yırtıcı,
Son ayaqda hər qurd iti dayaqdır.

Nəci dedi:-Gedək, səni ötürüm,
Quldurların gözlərindən itirim,
Lap aparım Manayına yetirim,
Son ayaqda hər qurd iti dayaqdır.

Yola çıxıb çapa-çapa getdilər,
Eniş-yoxuş arasında itdilər,
Gedib belə Mindiyara çatdılar,
Son ayaqda hər qurd iti dayaqdır.

-Gözəl Manay, görün, görək hardasan,
Ölübsənmi, qalıbsanmı, dardasan,
Hansı yerdə, hansı eldə, yurddasan,
Son ayaqda hər qurd iti dayaqdır.

***

Alpan getdi, görsün Manay hardadır,
El içində öz yeri var hərənin,
Maha görüb tanımışdı Alpanı,
El içində öz yeri var hərənin.

Maha ərsiz Darvidelli qız idi,
Yaranışa qarşı könlü buz idi,
Ancaq sözü, söz ölçüsü düz idi,
El içində öz yeri var hərənin.

Acı dili, sərt baxışı, boz üzü,
Qılığıyla danışığı bir quzu,
Düz çıxırdı hər yozması, hər yozu,
El içində öz yeri var hərənin.

O, Manayı dustaqlayıb güdürdü,
Körpəsinə gizli qulluq edirdi,
Tək olsa da öz yoluyla gedirdi,
El içində öz yeri var hərənin.

***

Düşünürdü, böyüdərəm uşağı,
Ananın yox, balanındır gələcək.

Şah balası şah olacaq ölkədə,
Ananın yox, balanındır gələcək.

Anasının gözü yarıqapıqdır,
Sağ ayağı topuğundan sınıqdır.
O, Ariel köçkünündən yanıqdır,
Ananın yox, balanındır gələcək.

Darvideldən dil verərəm uşağa,
Böyüdərəm, qaldıraram ayağa,
Şaha qarşı çevirərəm yarağa,
Ananın yox, balanındır gələcək.

Qaraş bizə söz vermişdi şah olsun,
Darvideldə ondan yerinc qoyulsun,
Arielli köçkün min-min yayılsın,
Ananın yox, balanındır gələcək.

***

Maha belə düşünürdü, anırdı,
Yaranışda uca zirvə,-düşüncə,
Çolaq Manay düşünürdü bambaşqa,
Yaranışda uca zirvə,-düşüncə.

Düşündükcə o saralıb, solurdu,
Sıxıntıdan hər gün beş yol ölürdü.
Körpəsini yazıq, ölmüş bilirdi,
Yaranışda uca zirvə,-düşüncə.

Necə qaçmaq, hara qaçmaq, nə sayaq,
Başev harda, Alpan, Tuncər çox uzaq,
Necə oldu, Başev necə olacaq...
Yaranışda uca zirvə,-düşüncə.

Bir yol vardır, qaçıb getmək buradan,
Necə çıxım qıpıq gözlə aradan,
Özün əl tut mənə, böyük yaradan,
Yaranışda uca zirvə,-düşüncə.

***

Günlər belə hellən-hellən ötəndə,
Günlə, ayla, illə yüyür, ayaqlaş.
Hər bir günün çəkimi var bir ilcə,
Günlə, ayla, illə yüyür, ayaqlaş.

Gün olur ki, aydan, ildən tutumlu,
Tutumuyla aydan, ildən yatımlı,
Neçə yönlü, neçə köklü, qurumlu,
Günlə, ayla, illə yüyür, ayaqlaş.

Günü uzat, bir ay elə yaşa sən,
Vermə ayı, ili yelə, boşa sən,
Günlə yaşa, vur dirriyi başa sən,
Günlə, ayla, illə yüyür, ayaqlaş.

Atıl günün oynaq, kəhər belinə,
Dön ayların sarı yelkən selinə,
Çat, gedişin çat-çapağan ilinə,
Günlə, ayla, illə yüyür, ayaqlaş.

***

Bir gün Maha Alpan ilə üzləşdi,
Hara getsən tapınc səni tapacaq.
O tanıdı Ağqurd Alpan atlını,

Hara getsən tapınc səni tapacaq.

Nəci dedi:-Bu qadındır mən deyən,
Bizi görüb niyə qaçır, o, nədən,
Arxasınca çap, atını səyirt sən,
Hara qaçsan tapınc səni tapacaq.

Maha qaçdı, Alpan onun dalınca,
Evə girdi, qapısı yox yalıncaq,
Alpan baxdı gördü Manay yarıcan,
Hara qaçsan tapınc səni tapacaq.

Dedi:-Manay, mənim sevgim, sevincim,
Solğun gülüm, qan çiçəyim, daş incim,
Mindiyarın Ağüzelli yerinci,
Hara getsən tapınc səni tapacaq.

***

-Ah, Alpanım, Ağüzelli qardaşım,
Son anda da sevimlini unutma.
İnanmazdım bir də səni görüm mən,
Son anda da sevimlini unutma.

Yürüşümdən sonra körpəm zay oldu,
Başev getdi, yaşayışım vay oldu,
Dirrik döndü, Maha mənə tay oldu,
Son anda da sevimlini unutma.

İndi daha gözəl Manay çolaqdır,
Darvidelli bir qadına qonaqdır,
Şahlıq yerim bu qaranlıq bucaqdır,
Son anda da sevimlini unutma.

Necə gəldin, necə tapdın buranı,
Sən toxtatdın qan hayqıran yaramı,
Varlığımda eniş-yoxuş yaranıb,
Son anda da sevimlini unutma.

***

-Çox ölkəni alt-üst etdim, aradım,
İtmişini tapacaqdır axtaran.
Manay-deyib mələr-mələr dolandım,
İtmişini tapacaqdır axtaran.

Sən mənimsən ayrı düşüb, qalsan da,
Qıçı çolaq, gözü qapıq olsan da,
Ölkə-ölkə məni itkin salsan da,
İtmişini tapacaqdır axtaran.

Gedək, Başev innən belə sənindir,
Başevin də şah qadını mənimdir,
Mənim solmaz gözəlimsən sən indi,
İtmişini tapacaqdır axtaran.

Körpən ölüb, özün sağsan, yaşa sən,
Sevgim böyük, vur sevgimi başa sən,
Dur mənimlə Əkbitəndə qoşa sən,
İtmişini tapacaqdır axtaran.

***

-Mən sınığam, sınıq sənə nə gərək,
-Sınıq yoxdur, qapıq yoxdur sevgidə.
-Bundan sonra el-obaya mən yükəm,

-Sınıq yoxdur, qapıq* yoxdur sevgidə.

-Sənin sevgin məni bütün dəyişir,
Nə gözüm var, nə düz-doğru yerişim,
Kim görüb ki, sınıq, qapıq sevişib,
-Sınıq yoxdur, qapıq yoxdur sevgidə.

El içinə necə çıxım bu sayaq,
Başı sallaq, gözü qıpıq, utancaq,
Yoxdur daha söykənəcək, bir dayaq,
-Sınıq yoxdur, qapıq yoxdur sevgidə.

-Sən basılmaz bir igidsən, sayımlı,
Öz sevgində ardıcılsan, duyumlu,
Mən yıxılmış, sən dağ kimi durumlu,
-Sınıq yoxdur, qapıq yoxdur sevgidə.

***

-Ah, Alpanım, əl tut, durum ayağa,
-Sevgi bütün sınıqlara dayaqdır.
-Qaldır məni qollarının üstündə,
-Sevgi bütün sınıqlara dayaqdır.

-Axı necə Üstüağı unudum,
Onun böyük ürəyini qanadım,
Sınıb, daha yoxdur qolum-qanadım,
-Sevgi bütün sınıqlara dayaqdır.

Oğlum getdi, körpəm onun dalınca,
Ölmək yeydir bir tək qadın olunca,
Sənlə necə bir baş qoyum balınca,
Sevgi bütün sınıqlara dayaqdır.

Bayılıram, ürək məndən dönübdür,
Sarsılıram, içim sanki donubdur,
Sevgi məndə günəş idi, sönübdür,
Sevgi bütün sınıqlara dayaqdır.

**Kor*

***

Axtardılar, tapmadılar Mahanı,
Hər başlanğıc nəyin isə sonudur.
O, körpəni gizlətmişdi anadan,
Hər başlanğıc nəyin isə sonudur.

-Maha, getdim, sağlam yaşa, sağ ol sən,
Gör nə qədər borclu qaldım sənə mən,
Yolun düşsə Əkbitənə gələrsən,
Hər başlanğıc nəyin isə sonudur.

Mən gedirəm, Alpan mənə dayaqdır,
Pis ayaqda əldə iti yaraqdır,
Yaralıyam, o, yarama dolaqdır,
Hər başlanğıc nəyin isə sonudur.

Axtardılar, tapmadılar qaçqını,
Uçub gedən o yırtıcı quzğunu,
Qurmaqdaydı yeni, qanlı qurğunu,
Hər başlanğıc nəyin isə sonudur.

Manay şah söyləncі

Manay şahın səsləncləri* gurladı,

Ölkə gərək bir səs, bir söz tanıya.
Oturdu o, Üstüağın yerində,
Ölkə gərək bir səs, bir söz tanıya.

O and içdi Üstüağdan dönməyə,
Oturduğu şah yerindən enməyə,
Sevgisində, inamında sönməyə,
Ölkə gərək bir səs, bir söz tanıya.

-Qoy calaşsın Qoşaboğaz, Buzboğaz,
Bu sınıqlıq Mindiyara yaramaz,
Kişiləşim, yetkinləşim mən bir az,
Ölkə gərək bir səs, bir söz tanıya.

Şeypur

Hər gün, hər gün o üz tutdu tanrıya,
Gərək Turər soy-kökünə yarayam,
Otlaqları, ilxıları qoruyam,
Ölkə gərək bir səs, bir söz tanıya.

***

-Alım gərək Yürüşümün öcünü,
Öc qalarsa gəmirtdəyər ürəyi.
İki balam Mindiyarın kəsisi,
Öc qalarsa gəmirtdəyər ürəyi.

Bacar, Tuncər, Ağqurd Alpan söyləncim,
Gərək yerə qoymayalar qılıncı,
Qurd toplumu adamlardan adamcıl,
Öc qalarsa gəmirtdəyər ürəyi.

Ağqurd Alpan mənim Başev qonağım,
Maha sınıq ayağımın dayağı,
Özü igid, sevgisi od bulağı,
Öc qalarsa gəmirtdəyər ürəyi.

Sevgisini uşaqlıqdan saxlayıb,
Gərək onu hələ çox-çox yoxlayım,
Mən də qalım, öz sevgimdə dığlayım,
Öc qalarsa gəmirtdəyər ürəyi.

***

Manay gəzdi üç il qara geyimdə,
Qara torpaq çəkər qara geyimi.
Alpan dedi:-Çıx bu qara geyimdən,
Qara torpaq çəkər qara geyimi.

-Qara geymə, qara səni soldurur,
Ürəyimdə haray-həşir qaldırır,
Aramıza uçqun, yarğan saldırır,
Qara torpaq çəkir qara geyimi.

Yazıq sevgim hər gün ağlar, sızlayar,
O, uludur yer-yuvadan, qızıldan,
Şah yox, qız tək sevdim səni azından,
Qara torpaq çəkər qara geyimi.

Məni göndər döyüşlərə, ucalım,
Söylə, gedim acıqandan öc alım,
Hara getsəm sevgimizdən güc alım,
Qara torpaq çəkər qara geyimi.

***

-Qara geydim, üzüm qara olmasın,
Qız-qadını atmacalar tez tutur.
Mən də gərək bax, bu sayaq geyinim,
Qız-qadını atmacalar tez tutur.

Mən sınığam, mən çolağam, bükülü,
Qan üzümdən, dad ağzımdan çəkilib,
Üzüntüdən döşüm-başım sökülü,
Qız-qadını atmacalar tez tutur.

Məni sevmə, işin düşər düyünə,
Yox, tamarzı qalacaqsan ağ günə,
Məni sevmə, yalvarıram mən sənə,
Qız-qadını atmacalar tez tutur.

İgid, səni and verirəm tanrıya,
Gözəl demə mən çolağa, qarıya,
Sevgi yaşım çatıb mənim yarıya,
Qız-qadını atmacalar tez tutur.

***

-Uşaqlıqdan səni sevdim, el qızı,
Sevgi alın yazısıdır, sevgilim,
Səndən, məndən o asılı deyildir,
Sevgi alın yazısıdır, sevgilim.

Güc verilib qola, qıça, biləyə,
Güc göstərmək olmaz sevən ürəyə,
Mən sevgimdə bir dilənçi diləyəm,
Sevgi alın yazısıdır, sevgilim.

Söylə mənə, qılınc çalım, dağ çapım,
Gəzim, gəzim, sevgimizə yol tapım,
Ayağının yerlərini mən öpüm,
Sevgi alın yazısıdır, sevgilim.

Məni göndər Asur şahla vuruşa,
Sevgim dönsün dağ gövdəli duruşa,
Ölərəmsə könlüm sənə qovuşar,
Sevgi alın yazısıdır, sevgilim.

***

-Belə etsən, el də bizə inanar,
İnam böyük sevgilərə arxadır.
Sən inandır Ağüzeli, Mineli,
İnam böyük sevgilərə arxadır.

Sən axtardın, tapdın məni haradan,
Yoxsa onsuz mən çıxmışdım aradan,
Səni mənə qorunc verib yaradan,
İnam böyük sevgilərə arxadır.

-Düz deyirsən, Manay şahım, gözəlim,
Gedim, bir də öndər kimi mən gəlim,
Ad-san tapım, el yolunda yüksəlim,
İnam böyük sevgilərə arxadır.

Biz ayrılaq bir də on il, on beş il,
Sevgi üçün bu ayrılıq yaş deyil,
Ölənəcən sevgim vardır, yaxşı bil,
İnam böyük sevgilərə arxadır.

***

Tuncər gəldi, Manay ilə görüşdü,

Sevinc ilə üzüntülər qarışıq,
-Sizinlədir-dedi,-Xançu, Uğurel,
Sevinc ilə üzüntülər qarışıq.

Atam dedi, get, Manaya əltut ol,
Lap istəsə orda yaşa, orda qal,
Gəldim mən də sənə əltut bir oğul,
Sevinc ilə üzüntülər qarışıq.

Manay dedi:-Yaxşı gəldin, yerində,
Daha heç nə qalmayıbdır ərimdən,
Öndərim ol baş işlərin birində,
Sevinc ilə üzüntülər qarışıq.

Ağqurd Alpan məni tapdı, gətirdi,
Məni Minel şahlığına yetirdi,
Burdan qorxu-ürküləri götürdü,
Sevinc ilə üzüntülər qarışıq.

***

Tuncər qaldı Manay ilə Başevdə,
Çətin gündə yoldaş, qardaş sınanar.
Gördü Manay sağ qıçından axsayır,
Çətin gündə yoldaş, qardaş sınanar.

Çox yerləri o dolaşdı bir ayda,
Soraq tutdu hər deyimdən, olaydan,
Toplumları birləşdirdi alayda,
Çətin gündə yoldaş, qardaş sınanar.

Dağılmışlar, yaxılmışlar tikildi,
Boş torpaqlar, dəmyə yerlər əkildi,
Əkbitənə yollar, sular çəkildi,
Çətin gündə yoldaş, qardaş sınanar.

Başçılara göstərişlər verildi,
Boşaldılmış iplər tarım çəkildi,
Ölgün ellər, əzgin başlar dirildi,
Çətin gündə yoldaş, qardaş sınanar.

***

Ağqurd Alpan, Tuncər ata-balaydı,
Uşağına qanad verən atadır,
Qurd südüylə bəsləmişdi Tuncəri,
Uşağına qanad verən atadır.

Gəlib çatdı Əkbitənə, haraya,
Öndər oldu ikisi də Manaya,
Manay şah da döndü böyük anaya,
Uşağına qanad verən atadır.

Sağalmadı şahın sınıq ayağı,
Andı tez-tez körpə ölən uşağı.
Uşaq oldu ürəyinə göz dağı,
Uşağına qanad verən atadır.

Belə oldu onun alın yazısı,
Artdı hər gün üz-gözünün sarısı,
Sıxdı onu iki artar ağrısı,
Uşağına qanad verən atadır.

***

Manay hər gün xısın-xısın düşündü,

"Qancılları vuruşdurmaq gərəkdir".
Darvidellə Arieli vuruşdur,
Qancılları vuruşdurmaq gərəkdir.

Yoxsa məni Arielli didəcək,
Bir də gəlsə onlar, işim bitəcək,
Mindiyarım, Əkbitənim gedəcək,
Qancılları vuruşdurmaq gərəkdir.

Ətə-qana yetərincə dolunca,
Ölkələrdən vergiləri alınca,
Torpaq kimi bir il dincdə qalınca,
Qancılları vuruşdurmaq gərəkdir.

Arieli qaytararam yurduna,
Lap son köçdə gedib durram yardıma,
Göz qoyaram gedişatın ardına,
Qancılları vuruşdurmaq gərəkdir.

***

Ağqurd Alpan bu gedişdə başbilən,
Sevgi gərək keçə üçcə sınaqdan.
O sevirsə qoy bu işdən yapışsın,
Sevgi gərək keçə üçcə sınaqdan.

Arieli o qaytarsın geriyə,
Ancaq onda bu çaxnaşma kiriyər,
Qıçım onda ayaq tutar, yeriyər,
Sevgi gərək keçə üçcə sınaqdan.

O dönməzdir, yaraşıqlı, gövdəli,
Sevir məni dəli kimi üstəlik,
Mən də ollam bir kimsəli dədəli,
Sevgi gərək keçə üçcə sınaqdan.

O, ellimdir, Ağüzelli, tutaşqan,
O, işcildir, yorulmazdır, çalışqan,
Mən şah olum bu ölkədə, o, başqan,
Sevgi gərək keçə üçcə sınaqdan.

***

Tuncər gəncdir, vuruşqandır, alışqan,
Gənclərindir bizdən sonra gələcək,
Üstün gəlsin Asurelə, Çinelə,
Gənclərindir bizdən sonra gələcək.

Ağüzelə yerinc olsun Başevdən,
Qorxmaz, qıvraq ərlər çoxdu o yerdə,
Çinelliyə yürüş etsin o hərdən,
Gənclərindir bizdən sonra gələcək.

Verrəm ona gözəl Günay bacımı,
Düyün sallam iki gəncin saçını,
Bu yöndədir düyünlərin açımı,
Gənclərindir bizdən sonra gələcək.

Bu yol ilə göz qoyaram Bacara,
Ürəyində nə vardırsa, açaram,
Çox vurumdan yan keçərəm, qaçaram,
Gənclərindir bizdən sonra gələcək.

***

Güdükçülər səpələyim hər yerə,
Güdükçülər şaha gözdür, qulaqdır.
Buzboğazdan Körfəzəcən Mindiyar,

Güdükçülər şaha gözdür, qulaqdır.

Mən Manayam, qıçı sınıq bir qadın,
Bu ölkədə gərək dinclik yaradım,
Mindiyarda uca olsun şah adım,
Güdükçülər şaha gözdür, qulaqdır.

Gedim tapım Darvidelli Mahanı,
O sağalda bilər ayaq yaramı,
Onun kimi yoldaşlıqda qız hanı,
Güdükçülər şaha gözdür, qulaqdır.

Maha aldı məni qorxunc ölümdən,
Yoxsa atlar çapacaqdı belimdən,
Gərək gedim, tutum onun əlindən,
Güdükçülər şaha gözdür, qulaqdır.

***

Manay hər gün xısın-xısın düşündü,
Düşünəndə göz görməyir çox şeyi.
Ölkəsini qurdu, sökdü yenidən,
Düşünəndə göz görməyir çox şeyi.

Ağqurd Alpan ona baxır uzaqdan,
"Güldür Manay, ancaq qopub budaqdan,
Gözəl Manay, niyə düşdün ayaqdan"
Düşünəndə göz görməyir çox şeyi.

Yanağına, dodağına vurulub,
Onun qıçı, bunun könlü qırılıb,
İkisinin üzü birgə saralıb,
Düşünəndə göz görməyir çox şeyi.

-Üstüağın dul arvadı, Manayım,
Sənin üçün könlüm başı qanayıb,
Toxta, sevgi illərimi sanayım,
Düşünəndə göz görməyir çox şeyi.

Maha söyləncі

Bir gün Maha gəldi şahın yanına,
Soyuq olur qadınların öpüşü,
Manay görüb qurtarcığın* tanıdı,
Soyuq olur qadınların öpüşü.

-Manay şahın özü, yurdu böyükdür,
Təkcə mənim ev-eşiyim tökükdür.
Mənim qadın könlüm sökük-sökükdür,
Soyuq olur qadınların öpüşü.

Mənə əl tut, böyük Manay, ölürəm,
Darvidellə acığın var, bilirəm,
Alpan qovub bizi ordan, gəlirəm,
Soyuq olur qadınların öpüşü.

_____
Xilaskar

Göstəriş ver, bu qovhaqov dayansın,
Ağqurd Alpan bu işindən yayınsın,
Arvad-uşaq dinclik tapsın, qorunsun,
Soyuq olur qadınların öpüşü.

***

Maha dedi:-Mindiyarın qız şahı,
Dəyişkəndir yaranışın gedişi.
Ötən günü gələn günlər daşlayır,

Dəyişkəndir yaranışın gedişi.

Son döyüşdən yığınc* götür, ayıq ol,
Bu Başevdə yer yerincə soyuq ol,
Əlləş, çölləş, şahlıqdan da artıq ol,
Dəyişkəndir yaranışın gedişi.

Qız, qadından uzaq olsun boğuntu,
Qız, qadına yaraşmayır dağıntı,
Qız hər yerdə gözəllikdir, yağıntı,
Dəyişkəndir yaranışın gedişi.

Ər yumru daş, qadın isə yuxadır,
Kişi çapar, qadın isə yorğadır,
Biri öncül, o birisi arxadır,
Dəyişkəndir yaranışın gedişi.

***

-Maha, nədir suçun, bir az açıq de,
Olacağı açıq demək çətindir.
-Olacaqda nə görürsən, söylə bir,
Olacağı açıq demək çətindir.

Bundan artıq nə olacaq bizlərə,
Düşdü qanlı döşənəklər** düzlərə,
Ölüm sarı boya səpdi üzlərə,
Olacağı açıq demək çətindir.

Olacaq var, gül açacaq, güləcək,
Eləsi var olacaqda öləcək,
Var hərənin olacağı, gələcək,
Olacağı açıq demək çətindir.

_____
Təcrübə
****Süfrə***

Bax, söylə bir, sən duyğulu qadınsan,
Sən tanrıya ola bilər yaxınsan,
Uğur olar öcdən, gücdən sapınsaq,
Olacağı açıq demək çətindir.

***

-Bilirsən ki, mən sənə çox yaxınam,
Yaxınları uzaqdan da gör, tanı,
Sənə yaxın səndən uzaq kimidir,
Yaxınları uzaqdan da gör, tanı.

Qulluq etdim sənə üç il yataqda,
Ayırdılar ancaq kökü budaqdan,
Yaxınınam, yanqılınam uzaqdan,
Yaxınları uzaqdan da gör, tanı.

Onda mənim yanmağıma inandın,
Yanan sənə indi Ağqurd Alpandı,
O yanmalar, sıtqamalar yalandı,
Yaxınları uzaqdan da gör, tanı.

Başev uçar bax, beləcə qalarsa,
Onda qurdlar gəlib yuva salarsa,
Mən qoymaram, sənə əltut olarsam,
Yaxınları uzaqdan da gör, tanı.

***

Manay, Maha çox düşündü, daşındı,
Heç bir ölçü tanımayır düşüncə,
Biri qandan, biri sudan boylanır,

Heç bir ölçü tanımayır düşüncə.

Manay deyir: "Bunu yerinc qoyaram,
Bu yol ilə istəyimi yayaram,
Arieli Darvidellə yuyaram,"
Heç bir ölçü tanımayır düşüncə.

Maha deyir: "Ürəyini alaydım,
Bu Başevdə düyün, dolaq olaydım,
Ürəklərə qorxu, haray salaydım,"
Heç bir ölçü tanımayır düşüncə.

Manay deyir: "Maha qalsın yanımda,
Əltut olsun mənə çətin anımda",
Maha deyir: "içməliyəm qanından,"
Heç bir ölçü tanımayır düşüncə.

***

Ay düşüncə, qanadım ol, yolum ol,
Hamı deyir, mən düşünən doğrudur.
Qat-qat olub uyu, oyan, yapıqlan,
Hamı deyir, mən düşünən doğrudur.

Yer, göy sənin geniş-geniş oylağın,
Üzülməsin yerdən, yurddan ayağın,
Heç düşməsin düyün sapın, dolağın,
Hamı deyir, mən düşünən doğrudur.

Acı, dadlı, isti, soyuq taparım,
Zirvələrdən zirvələrə çaparım,
Alıb məni haralara aparıb,
Hamı deyir, mən düşünən doğrudur.

Toxtamırsan, yorulmursan, qartmırsan,
Mən yatsam da sən yuxumda yatmırsan,
Dolaş-dolaş istəyinə çatmırsan,
Hamı deyir, mən düşünən doğrudur.

***

Sap-sap olub bir-birinə dolaşıb,
Düyün-düyün, dolaq, dolu düşüncə,
Gah alında qılınc kimi parlayır,
Gah yanaqlar üstə solur düşüncə.

O, yüyənsiz kəhər kimi çapağan,
O, beyində hər an oyaq, yatağan,
Toy-düyündür inam, inanc, qan-qada,
Min-min artır, tək-tək ölür düşüncə.

Doyub evin dad-duzunu atsan da,
Gözlərini yumub gecə yatsan da,
Bütün istək, diləyinə çatsan da,
İstəyində diri qalır düşüncə.

Yaşayışda qapalı bir yaşayış,
Onun güzgü görkəmidir davranış,
Kök-budağı verib ona dayanış,
Bir andaca yüz yön olur düşüncə.

***

Çox düşündü Manay, səsi boğuldu,
Söz kallaşar ikibaşlı olanda.
Maha onla ikibaşlı danışdı,

Söz kallaşar ikibaşlı olanda.

"İşdayaqdı mənim doğma soy-köküm,
İnamsızlıq bəsləmişdi hər tükü,
İnamsızlıq öndərlərə dağ çəkib,
Söz kallaşar ikibaşlı olanda.

Maha mənə inamsızlıq aşladı,
Bunca məndə çoxbaşlılıq başladı,
Mən inamı, inam məni daşladı,
Söz kallaşar ikibaşlı olanda.

Mən Mahanı gərək burda saxlayam,
Hər gün onu sözə tutam, yoxlayam,
Yoxsa inam içərimdə laxlayar,
Söz kallaşar ikibaşlı olanda.

***

"Ağqurd Alpan, Tuncər, Bacar, Əyridiş,
Sənə arxa olanlara arxa ol.
Maha deyir, arxa ollam mən sənə,
Sənə arxa olanlara arxa ol.

Darvideldən qancılları ayırmaq,
Hər gün ona bir göstəriş buyurmaq,
Acıqanı gərək qanla doyurmaq,
Sənə arxa olanlara arxa ol.

Ağqurd Alpan yerinc olsa orada,
Bu qancıllıq götürülər aradan,
Acıqanlar onda çıxar sıradan,
Sənə arxa olanlara arxa ol.

Darvideldir Arieli qorxudan,
Onlar məni vura bilər arxadan,
Ayıraram qartalları qarğadan,
Sənə arxa duranlara arxa ol".

***

–Mən Mahanı göz önümdə saxlaram,
Güclü adam göz önündə olmalı,
Qadın cılız olsa belə, güclüdür,
Güclü adam göz önündə olmalı.

Arieldən, Darvideldən dağlıyam,
Ancaq yenə bu qadına bağlıyam,
Gərək onu Başevimdə saxlayam,
Güclü adam göz önündə olmalı.

Bu qadınla yoxlayaram Alpanı,
Yel əsəndə sovurarlar samanı,
Hər gün sına sevgi ilə yalanı,
Güclü adam göz önündə olmalı.

Tuncər-Günay, sınaqlamaq gərəkdir,
Çox gənc var ki, əltut deyil, küləkdir,
Eləsi var eldə dəmir biləkdir,
Güclü adam göz önündə olmalı.

***

-Qal Başevdə, əltutum ol yaxından,
-Başev qanlı dəyirmandır, hərlənir.
-Burda toxdaq tapacaqsan özünə,
-Başev qanlı dəyirmandır, hərlənir.

-Ağqurd Alpan, Tuncər subay gəzirlər,
Çox qadına, qıza dodaq büzürlər,
Burda onlar tək qalmaqdan beziblər,
Başev qanlı dəyirmandır, hərlənir.

-Mən Başevə sənə görə gələrəm,
Gərək olsa yolundaca ölərəm,
Yox, mən nə ər, nə də arvad bilənəm,
Başev qanlı dəyirmandır, hərlənir.

Ağqurd Alpan qırıb-çatıb elimi,
Mən üzmüşəm ərdən-mərdən əlimi,
Kişi yoxdur alsın mənim könlümü,
Başev qanlı dəyirmandır, hərlənir.

***

-Sən gözəlsən, dil-dodaqdan yatımlı,
Hər qadının gözəllikdə payı var.
Sən qayğılı, dözümlü bir gözəlsən,
Hər qadının gözəllikdə payı var.

-Mən qarayam, burdakılar göygöz, ağ,
Kimə gərək bər-bəzəkli dil-dodaq.
Mən tikanam, kolam, ərdən çox uzaq,
Hər qadının gözəllikdə payı var.

-Elə demə, inamını itirmə,
Öz içində tikan kolu bitirmə,
Tapınc-yapınc hər qadında yetirmə,
Hər qadının gözəllikdə payı var.

Tapınc-yapınc hər dillidə vergidir,
Onun adı el içində sevgidir,
O hər könül şahlığında güzgüdür,
Hər qadının gözəllikdə payı var.

***

Maha dedi:-Gedim, bir də qayıdım,
At-ot istər ordan bura yer-yığış,
Qardaşımın bir oğlu var üstümdə,
At-ot istər ordan bura yer-yığış.

Darvidelli, Arielli uyuşmaz,
Biri dağdır, biri düzən, qovuşmaz,
O ağrılar, o acılar sovuşmaz,
At-ot istər ordan bura yer-yığış.

Şah buyurur, mən buna da dözərəm,
Hər tapşırıq üzərində əsərəm,
Qılınc ollam, qancılını kəsərəm,
At-ot istər ordan bura yer-yığış.

Mən bütövəm inamımda, sözümdə,
Ancaq qalsın adım-soyum özümdə,
Uzaq olsun Ağqurd Alpan gözümdən,
At-ot istər ordan bura yer-yığış.

***

Getdi Maha, ancaq geri dönmədi,
Dildə ötkəm, işdə qırıq yalançı.
O, beş yaşlı Minelliyə sığındı,
Dildə ötkəm, işdə qırıq yalançı.

O, uşağı dilə tutdu, yanladı,
Çörək verdi, döydü, söydü, danladı,
Uşaq bunu yaşayış tək anladı,
Dildə ötkəm, işdə qırıq yalançı.

Maha dedi:-Anan səni atıbdır,
Şah basdırıb, şah yerinə çatıbdır,
Ər yerinə özgələrlə yatıbdır,
Dildə ötkəm, işdə qırıq yalançı.

Böyüyəsən, gözüqanlı olarsan,
Şah yerini qan yoluyla alarsan,
Darvidelə əltut oğul olarsan,
Dildə ötkəm, işdə qırıq yalançı.

***

Maha dedi:-Minellidən öc al sən,
Öcdür ağrı, acıların toxdağı.
Sən atalı ola-ola atasız,
Öcdür ağrı, acıların toxdağı.

Qılınc tutdun, qızırqanma qoluna,
Yat yəhərə, baş qoy atın yalına,
Könül vermə yalan sözün balına,
Öcdür acı, ağrıların toxdağı.

Sən tollanmış ağrı, acı balasan,
Mindiyara gərək qancıl olasan,
Öz anandan öz öcünü alasan,
Öcdür acı, ağrıların toxdağı.

Odur bizi bu boş evə tollayan,
Odur səni yolsuzluğa yollayan,
Atlarını durudaşla çullayan,
Öcdür acı, ağrıların toxdağı.

***

Maha dedi:-Gözəl balam, oğulum,
Kim böyüdüb, ana odur uşağa.
Səni ağrı, acılarla böyütdüm,
Kim böyüdüb, ana odur uşağa.

Sənə verdim at südüylə it südü,
Sən əməndə ağzımdaydı öz ödüm,
O günlərdən neçə-neçə il ötüb,
Kim böyüdüb, ana odur uşağa.

Cığ vuraraq çıxan kimi bığların,
Demək çatıb qılınc vurmaq çağların,
Bitməz öcü aclar ilə toxların,
Kim böyüdüb, ana odur uşağa.

Vuruş öyrən, duruş öyrən, ötər ol,
Bilik qavra, qorxmaz yaşa, təpər ol,
Bizi qoru, Darvidelə çəpər ol,
Kim böyüdüb, ana odur uşağa.

Günay-Tuncər söyləncisi

Manay şahın səsləncləri gurlayır,

Öz yerində hamı qat-qat güclüdür.
Ağüzelə Tuncər yerinc qoyulub,
Öz yerində hamı qat-qat güclüdür.

Ancaq vardır hər adamın öz yeri,
Adam ilə artır yerin dəyəri,
Orda çoxu tanımayır Tuncəri,
Öz yerində hamı qat-qat güclüdür.

Hamı ona uğur deyir gələndə,
El sevinir bu gəlişi biləndə,
Öyüd, öymə, mahnı, qoşma dilində,
Öz yerində hamı qat-qat güclüdür.

Yerinc evi Ağüzlərlə doludur,
Bu yer dağın sınıqqaya yalıdır,
Günbatanın, günçıxanın yoludur,
Öz yerində hamı qat-qat güclüdür.

***

Tuncər hündür, qarasaqqal, gülərüz,
Görkəm ilkin tanışlıqdır uzaqdan.
Enli qılınc, iri toppuz, ox, bizuc,
Görkəm ilkin tanışlıqdır uzaqdan.

Beli ensiz, köksü enli, üzü ağ,
Çiyinləri əlçatmazdır, üç qulac.
Ağsaqqallar gördü onu bu sayaq,
Görkəm ilkin tanışlıqdır uzaqdan.

Ayağında çəkmə vardır, boğazlı,
Çəkmələrin ağızları qotazlı,
Atı qıvraq, yal-yalmanı palazlı,
Görkəm ilkin tanışlıqdır uzaqdan.

Əkin-biçin, su yer oldu sorğusu,
Vergi, bölgü, bir də qalınc qurğusu,
Hər sözündə el, yaşayış vurğusu,
Görkəm ilkin tanışlıqdır uzaqdan.

***

-Uğurludur – dedi hamı – gəlişin,
Hər gəlişdə bir öyrəniş, dirçəliş.
Bu il taxıl, çovdar, arpa bol olub,
Hər gəlişdə bir öyrəniş, dirçəliş.

-Ağüzeldə yoxdur biclik, əyrilik,
Bizdən uzaq neçə üzlü, ikilik.
Biz tapmışıq doğruluqda dirilik,
Hər gəlişdə bir öyrəniş, dirçəliş.

Qancılımız Daşqırandır, min ildir,
Oğurluqdan, qandan doyan deyildir,
Üzləri də içləri tək çil-çildir,
Hər gəlişdə bir öyrəniş, dirçəliş.

Sən Minelli Bacar oğlu Tuncərsən,
İnamında Sərtişərsən, Gücərsən,
Vuruşlarda min öndərə dəyərsən,
Hər gəlişdə bir öyrəniş, dirçəliş.

***

Bu il çatıb Günay ərlik yaşına,
Hər şey gözəl, maraqlıdır bu yaşda.
İri gözlər, gül yanaqlar, gur saçlar,
Hər şey gözəl, maraqlıdır bu yaşda.

Yerişində ürkək kəklik səkməsi,
Ceyran kimi hər bir səsdən ürkməsi,
Yaxasında qoşa qızıl düyməsi,
Hər şey gözəl, maraqlıdır bu yaşda.

Qovur quşu, kəpənəyi, dovşanı,
Minir, çapır atı, qurdu, qabanı,
Yıxılarkən o səsləyir Aşanı,
Hər şey gözəl, maraqlıdır bu yaşda.

***

Tuncər gördü onu ceyran ovunda,
At belində qız su kimi oynağan.
Yaralanmış qaban qızı qovurdu,
At belində qız su kimi oynağan.

Tuncər görüb onu lapdan dayanır,
Bizuc ilə yerə sancır qabanı,
Ov bizucun dörd yanında dolanır,
At belində qız su kimi oynağan.

Tuncər deyir:-Gözəl, atın yorulub,
Nədən belə yanaqların saralıb?
Ay oynağan, haralısan, haralı?
At belində qız su kimi oynağan.

-Mən Günayam, Manay şahın bacısı,
Ağüzelin yerincinin yançısı,
Minel dəniz, mən dənizin damcısı,
At belində qız su kimi oynağan.

***

-Qız, sən bunca gözəlliyin şahısan,
Yerinc şahın hər bir yerdə yançısı.
Mən Tuncərəm, Manay şahın yerinci,
Yerinc şahın hər bir yerdə yançısı.

Biz bir soylu, bir Minelli diyardan,
Köklərimiz Üstüağdan, Bacardan,
Bir istəkdən, bir diləkdən tapardan,
Yerinc şahın hər bir yerdə yançısı.

Belə görən səni, sənə vurular,
İçdən yanar, çöldən solub saralar,
Dağ olsa da qabağında qırılar,
Yerinc şahın hər bir yerdə yançısı.

İstəyirsən gedək ova yenidən,
Görüm necə ox atırsan, Günay, sən,
Biz yayınaq qoruncların gözündən,
Yerinc şahın hər bir yerdə yançısı.

-Mənəm yerinc, sən deyilsən, ay igid,
Yerinc oğul, bacı, qardaş olmalı,
Sən gəlibsən, sən də mənim yançım* ol,
Yerinc oğul, bacı, qardaş olmalı.

Çapıb gedək Manay şahın yanına,
Məni niyə yaraşdırmır adına,

Gedək baxaq bu işlərin ardına,
Yerinc oğul, bacı, qardaş olmalı.

-Yerinc sənsən, mən də sənə yardımçı,
Sənsiz mən də, Manay şah da yarımçıq,
Sən dağ olsan, mən də sənə yapıncı,
Yerinc oğul, bacı, qardaş olmalı.

**Müavin*

Gənc olsan da dilin, boyun, buxunun,
Sən yerinc ol, mən də sənin yaxının,
Bu saymazlıq, gözəl, mənə toxunur,
Yerinc oğul, bacı, qardaş olmalı.

***

Qız çevrilib bir də baxdı Tuncərə,
Bu dirrikdə hamı kimin kimidir.
Bunu bacım başçı qoyub üstümə,
Bu dirrikdə hamı kimin kimidir.

-Bəyənmirəm mən bunu da, onu da,
Bacı bunca bacısını unudar?
Hər gəlişin başlanğıcı, sonu var,
Bu dirrikdə hamı kimin kimidir.

-Bura qurdlar, yırtıcılar oylağı,
Bura yığım, satqı, gəlir qaynağı,
Var hamının yeri-yurdu, oylağı,
Hər gəlişin başlanğıcı, sonu var.

Bir baş bilən olmalısan elə sən,
Burda çətin baş çıxara biləsən,
Yan adam tək düşəcəksən dilə sən,
Bu dirrikdə hamı kimin kimidir.

***

-Mənə Manay tapşırıbdır bu işi,
Təkbaşına iş çətin ki, baş tuta,
Mənə yardım əli uzat, Günay qız,
Təkbaşına iş çətin ki, baş tuta.

Soy-kökümün yeni açmış çiçəyi,
Ağüzelin göz oxşayan göyçəyi,
Vurulmuşam sənə səni görcəyin,
Təkbaşına iş çətin ki, baş tuta.

Sən yanımda olsan, bil ki, bir şaham,
Özgə gərək deyil mənə bir daha,
Başev olar mənə sənsiz bir kaha,
Təkbaşına iş çətin ki, baş tuta.

Buyuruğun göstərişdir hamıya,
Sənin ilə hamı məni tanıyar.
Üz döndərsən məndən, könlüm qanıyar,
Təkbaşına iş çətin ki, baş tuta.

***

Gedə-gedə danışırdı tanışlar,
Unudulmur ilk tanışlıq, ilk görüş,
Deyişmələr, gülüşmələr, küsülər,
Unudulmur ilk tanışlıq, ilk görüş.

Çöl toyuğu pırıltısı koldadır,
Uçar suyun xarıltısı soldadır,
Busan qurdun hənirtisi daldadır,
Unudulmur ilk tanışlıq, ilk görüş.

Yaşıl yalın "gəl-gəl" deyən çəkimi,
Daş üstündə mamırların pərçimi,
Qayaların lay-lay, qat-qat biçimi,
Unudulmur ilk tanışlıq, ilk görüş.

İkisi də əl tutmaqdan çəkinir,
Söz verməkdən, söz atmaqdan çəkinir,
Dönüb dala qayıtmaqdan çəkinir,
Unudulmur ilk tanışlıq, ilk görüş.

***

Uzaq düşdük, dönək yenə ovlağa,
Ovlayanlar, ovlananlar bir olur,
Ovçuların qışqırığı, hoydusu,
Ovlayanlar, ovlananlar bir olur.

Dovşan, qaban, cüyür, toyuq vurulub,
Qan quruyub, dəri üstə qaralıb,
Günbatan yer qarış-qarış daralır,
Ovlayanlar, ovlananlar bir olur.

Tuncərin də ovu Ağüz Günaydır,
Qız sevgisi, ev diləyi qolaydır,
Sevgi göy yal, dar cığırlar dolaydır,
Ovlayanlar, ovlananlar bir olur.

Yerinc gəlir, yançısı da yanında,
Bir vurğunluq duyur Tuncər qanında.
Çox tutum var bu görüşün sonunda,
Ovlayanlar, ovlananlar bir olur.

***

Yerinc evi bər-bəzəkli, işıqlı,
El-obanın ocaq yeri yerincev,
Ağsaqqallar oturublar yan-yana,
El-obanın görüş yeri yerincev.

Çiyinlərdə xırda qızıl qotazlar,
Döşəmədə zolaq-zolaq palazlar,
Oturublar gülər üzlü konazlar,
El-obanın görüş yeri yerincev.

Günay qız da yançı gəlib Tuncərə,
Birləşiblər danışıqda son kərə,
Qızla oğlan çatıb dolğun yetərə,
El-obanın görüş yeri yerincev.

Ağsaqqallar baxır, baxır, qımışır,
Düşüncələr alınlarda qarışır,
Hamı sonda bu gedişlə barışır,
El-obanın görüş yeri yerincev.

***

-Deyənlər var, o doğulub meşədə,
-Adam harda doğulsa da adamdır.
-Qurd içində qurd südüylə boy atıb,
-Adam harda doğulsa da adamdır.

-Onu atıb Məniş adlı birisi,

Hindlilərin, həbəşlərin yerlisi,
Tapıb, qapıb çöldə bir qurd sürüsü,
Adam harda doğulsa da adamdır.

-Deyənlər var itə dönüb, itləşib,
Qurdlar ilə oynaqlayıb, cütləşib,
Qurdlar kimi qancıllaşıb, sərtləşib,
Adam harda doğulsa da adamdır.

-Görən igid qurd dilini anlayır?
-Həm ulayır, həm kişnəyir, banlayır,
-Az deyinin, özgəsini danlayın,
Adam harda doğulsa da adamdır.

***

-Nə deyirsən buna?
-Dişim ağrayır.
-Qurd yeyən diş çox çətin ki sağala,
Qurd yeyibsə, bir it bağla, qurd qaçar,
Qurd yeyən diş çox çətin ki sağala.

Bir dişim var, o da bir az laxlayır,
Gəl it kimi səni ora bağlayım.
Diş çürüdən qurdun gücün yoxlayım,
Qurd yeyən diş çox çətin ki sağala.

-Bağla, ancaq mən qorxuram, ay balam,
Qurd görəndə mən özümü bulayım,
-Çox axmaqsan, mən axmağam, sən adam,
Qurd yeyən diş çox çətin ki sağala.

Atmacalar, göynəçələr gərnəşir,
Acı sözlər bir-birinə dirəşir,
Tuncər belə Ağüzellə görüşür,
Qurd yeyən diş çox çətin ki sağala.

***

Keçmişimiz, soy-kökümüz Turərdir,
Köksüz heç nə qala bilməz torpaqda,
Bu ölkəyə o, Mindiyar ad qoyub,
Köksüz heç nə qala bilməz torpaqda.

Hamı bilsin, mən bu elin oğluyam,
Həm atama, həm anama bağlıyam.
Elsiz, yurdsuz dibdaşından laxlayar,
Köksüz heç nə qala bilməz torpaqda.

İnnən belə Günay mənim yançımdır,
İşdə, gücdə yerinc, evdə bacımdır,
Kim ki ona baş əymədi, qancıldır,
Köksüz heç nə qala bilməz torpaqda.

İndi gəlin çətinlikdən danışaq,
Nə yerdədir-deyin taxıl, yal-yaraq,
Hər bir işdə gərək el-el bir olaq,
Köksüz heç nə qala bilməz torpaqda.

***

-Yerinc gələn Tuncərimiz sağ olsun,
Necə desən elə olar tutduğun.
Yer işinə mənəm baxan – Qalqonaq,
Necə desən elə olar tutduğun.

Bu il taxıl qalınc-qalınc bolcadır,
Bağlar dolu alma, armud, alçadır,
Üzümüzü ağ eləyən yoncadır,
Necə desən elə olar tutduğun.

Keçən ilin qıtlığını addadıq,
Quraqlığın kol-kosunu oddadıq;
Yoxsulluğun dizlərini qatdadıq,
Necə desən elə olar tutduğun.

Neçə kəndi Daşqır çapdı, sil-süpür,
Qalınclarda qoymadılar bir çöpü,
Nə basdırma, nə ət, nə də yağ, kürü,
Necə desən elə olar tutduğun.

***

-Yerinc gələn Tuncərimiz sağ olsun,
Yolsuz gələn yolla çolaq qayıdar,
Yal-yarağa baxan mənəm, Qurdqayıt,
Yolsuz gələn yolla çolaq qayıdar.

Beş yol olub burda Daşqır basqını,
Öz qanında üzdürmüşük quzğunu,
Qoymamışıq kəndə düşə qırğını,
Yolsuz gələn yolla çolaq qayıdar.

Quruçayda önlərinə çıxmışıq,
Qansızları iki yandan sıxmışıq,
Od vurmuşuq, hamısını yaxmışıq,
Yolsuz gələn yolla çolaq qayıdar.

Bizə gərək üç min atlı, yaraqlı,
Naxır, sürü güdən əli çomaqlı,
Acıqanı qovan yüngül ayaqlı,
Yolsuz gələn yolla çolaq qayıdar.

***

-Yerinc gələn Tuncərimiz sağ olsun,
Özbaşına qoymaq olmaz daşı da,
Mən iç işə baxan Toxdaq oğluyam,
Özbaşına qoymaq olmaz daşı da.

Altı kənddən el daşınır Arana,
İstəmirlər savaş-dalaş yarana,
Daşqır çapır kəndi, qatır al qana,
Özbaşına qoymaq olmaz daşı da.

Yer dəyişən, qız qaçıran çoxalıb,
Dirəşmələr artıb, üzə ağ olub,
Yerincevlə Başev tez-tez lağ olur,
Özbaşına qoymaq olmaz daşı da.

Buyuruq ver, Daşqırları əzək biz,
Çapqınçının yollarını kəsək biz,
Yurd boyunca taxıl əkək, gəzək biz,
Özbaşına qoymaq olmaz daşı da.

***

-Yerinc gələn Tuncərimiz var olsun,
Gücə gücdür, qana qandır, öcə öc.
Mən ağsaqqal bir qocayam, Al kişi,
Gücə gücdür, qana qandır, öcə öc.

Köklərimiz yaxşı deyib öyüdü,

Vermə suyu, qurut bunca söyüdü,
Sağ qalırsa qancıl, bir də qayıdır,
Gücə gücdür, qana qandır, öcə öc.

Qan düşübsə, qan yolunu seç deyib,
Qan tökənin al qanını iç deyib,
Qonşun pisdir, ordan yığış, köç deyib,
Gücə gücdür, qana qandır, öcə öc.

Yaraq verin, öndə gedim, at çapım,
Acıqanın yuvasını mən yapım,
Gözlərinin bəbəyindən od qapım,
Gücə gücdür, qana qandır, öcə öc.

***

-Yerinc gələn Tuncərimiz sağ olsun,
Acıqanı bağışlamaq ağırdır.
Mən el qızı yeniyetmə Günayam,
Acıqanı bağışlamaq ağırdır.

Min illərdir bizi çapıb soyurlar,
Özlərini başlar başı sayırlar,
Daraşıbdır Mindiyara çayırlar,
Acıqanı bağışlamaq ağırdır.

Manay şahın göstərişi verilsin,
Vuruşmanın yır-yığışı görülsün,
Acıqanlar yer üzündən sürülsün,
Acıqanı bağışlamaq ağırdır.

Mən yançıyam, sənə bağlı el qızı,
Mən bu yolda qılıncçıyam ən azı,
Alnımdaca bu sevgidən var yazı,
Acıqanı bağışlamaq ağırdır.

Ağüzelli Günayla Daşqırların
vuruş söyləncі

Ağsaqqallar, ağbirçəklər qımışdı,
Sağ ol sözü, elə var ol deməkdir,
Həm ceyrandı, həm də qaplan Günay qız,
Sağ ol sözü elə var ol deməkdir.

Tuncər dedi:-Çıxım yurda mən özüm,
Göz ürəyi inandıran güzgüdür.
İnanıram siz deyənə, gözdə var,
Göz ürəyi inandıran güzgüdür.

Mən istəklim Günay qızı anladım,
Acıqana basqı gəlmək qanladır,
Çox gözəldir bu gənc qızın anlağı,
Göz ürəyi inandıran güzgüdür.

Deyin atlar yəhərlənsin, çullansın,
Ora öncə iki atlı yollansın,
Zirvələrdə gur ocaqlar qalansın,
Göz ürəyi inandıran güzgüdür.

***

Tuncər getdi, Günay qaldı yerində,

Daşqır dedi, yersiz gəldi, yerli, qaç.
Beş günlük yol kəsə yolla bir gündür,
Daşqır dedi, yersiz gəldi, yerli qaç.

İridaşlar altındaca qazmalar,
Qazmalarda işıltıdan asmalar,
Adam başı sümüyündən basmalar,
Daşqır dedi, yersiz gəldi, yerli, qaç.

Nə əkin var, nə ağaclıq, nə daxma,
Nə kimsəli, nə kimsəsiz, nə doğma,
Cığırlarda düyün yollar, dar boğma,
Daşqır dedi, yersiz gəldi, yerli, qaç.

Nə qadın var, nə mal-qara, nə uşaq,
Nə qapı var, nə tüstü var, nə ocaq,
Hər qazmada otdan-koldan bir qalaq,
Daşqır dedi, yersiz gəldi, yerli, qaç.

***

Daşlıqlarda gizlənmişdi acıqan,
Daş ürəyin qara daşdır yuvası,
Tuncər hələ görməmişdi onları,
Daş ürəyin qara daşdır yuvası.

Birdən çıxdı busqudakı daşqırlar,
Əli yalın, əli dolu, kim ki var,
Tuncər üstə yürüş etdi basqılar,
Daş ürəyin qara daşdır yuvası.

İşə düşdü qılınc, bizuc, ox, toppuz,
Yerdə qaldı ağüzlərdən yüz otuz,
Gələnləri parçaladı hər quduz,
Daş ürəyin qara daşdır yuvası.

Tuncər endi Gümüşatdan aşağı,
O sıyrıldı qından qılınc sayağı,
Ancaq onun burxuldu sol ayağı,
Daş ürəyin qara daşdır yuvası.

***

Tökülüşüb onu birdən tutdular,
Şəlitləyib bir qazmaya atdılar,
Gələnlərin son sayına çatdılar,
Daş ürəyin qara daşdır yuvası.

Daşlıqlardan çıxıb çapdı Gümüşat,
Sanki yeldən borc almışdı cüt qanad,
Ağüzelə üz tutmuşdu, çathaçat,
Daş ürəyin qara daşdır yuvası.

Yaralılar yem olmuşdu qurd-quşa,
Ley qonmuşdu bu daşlığa, yoxuşa,
Qan iyinə yırtıcılar yığışar,
Daş ürəyin qara daşdır yuvası.

Günay gəldi Gümüşatın belində,
Sıyırmaydı iti qılınc əlində,
"Tuncər, Tuncər" sözləri də dilində,
Daş ürəyin qara daşdır yuvası.

***

Daşqıranlar söydü, çəkdi döyüşə,
Hamı bilir, çox tələsər gecikən,

Arxasında yüz yaraqlı, dağınıq,
Hamı bilir, çox tələsər gecikən.

Günay Daşqır başçısını soruşdu,
Sonra oxla, bizuc, toppuz vuruşdu,
Atlı, atsız bir-birinə qarışdı,
Hamı bilir, çox tələsər gecikən.

Çalışırdı Daşqır tutsun bu qızı,
Daşqırlara pay versinlər Ağüzü,
Üz-üzəydi dağ başında qurd, quzu,
Hamı bilir, çox tələsər gecikən.

Daşqırbaşı gəldi, baxdı Günaya,
Saçda daraq, ağ üzdə yox bir boya,
Vurumundan titrəyirdi dağ, qaya,
Hamı bilir, çox tələsər gecikən.

***

Daşqırbaşı yaxın gəldi, baş əydi,
-Şah gələndə hamı gərək baş əyə.
Şah bacısı gözəl Günay sağ olsun,
Şah gələndə hamı gərək baş əyə.

Buyurun ki, əl saxlasın gələnlər,
Yolu tutub yaralılar, ölənlər,
Yaramazdır eli, yurdu bölənlər,
Şah gələndə hamı gərək baş əyə.

Mən Tuncəri saxlayıram qazmada,
Siz qılıncı yerə qoyun qızmadan,
Burda şah mən, bir də qaya, sis, duman,
Şah gələndə hamı gərək baş əyə.

-Şah Manaydır Mindiyara büsbütün,
Siz gözümdən uzaqlaşın, lap itin,
Tanımırıq burda yersiz hər iti,
Şah gələndə hamı gərək baş əyə.

***

Daşqırbaşı harayladı elini,
Daşdan qorxan daş dalında gizlənər,
Yola, yala daş dalından ox yağdı,
Daşdan qorxan daş dalında gizlənər.

Yırtıcılar daş dalından qalxdılar,
Günay qızın qabağına çıxdılar,
Dörd bir yandan qırov kimi yağdılar,
Daşdan qorxan daş dalında gizlənər.

Gecə düşdü, vuruş, duruş bitmədi,
Çox əlləşdi qız, Tuncərə yetmədi.
Acıqandan qan aclığı getmədi,
Daşdan qorxan daş dalında gizlənər.

Yasaq olub tutuq düşdü Günay qız,
Daşqırbaşı dedi haysız, haraysız,
Təkcə mənim olmalıdır o, yalnız,
Daşdan qorxan daş dalında gizlənər.

***

Daşqırbaşı qızı gördü vuruldu,

Göydən düşən ulduz dönüb ay olub.
Bu saç, hörük, bu üz-ağız, bu qaş-göz,
Göydən düşən ulduz dönüb ay olub.

-Ay qız, sənə kölə olum, ər olum,
Ağ alnında gül qoxuyan tər olum,
Bu dağ-daşda, el-obada bir olum,
Göydən düşən ulduz dönüb ay olub.

Buyuruq ver, qırım, çatım Daşqırı,
Acıqlanım, yansın bütün yaş-quru,
Adamlıqda eşşək kimi anqırım,
Göydən düşən ulduz dönüb ay olub.

Bu qırhaqır, çal-çap mənim işimdir,
Burda şah ol, gəl atından düş indi,
Mənə əl ver, adamlaşdır, düşündür,
Göydən düşən ulduz dönüb ay olub.

***

Günay dedi, "Qoy aldadım mən bunu",
Söz kəsərli olur hərdən qılıncdan,
-Daşqırbaşı, aldadırsan məni sən,
Söz kəsərli olur hərdən qılıncdan.

-Yox, sevmişəm səni belə görəndən,
Oynatmısan məni, ay qız yerimdən,
Gedək şah ol qazmaların birində,
Söz kəsərli olur hərdən qılıncdan.

-Elçi göndər, Ağüzelə gəl özün,
Qandan əl çək, yaxşı ər ol, al qızı,
Köç Arana, yurd-yuva et çöl-düzü,
Söz kəsərli olur hərdən qılıncdan.

-Qorxuram ki, aldadasan məni sən,
Belə olsa qurtarmazsan əlimdən,
-İnanırsan, onda gəl, öp əlimdən,
Söz kəsərli olur hərdən qılıncdan.

***

Daşqır gəldi qorxa-qorxa yaxına,
Ət aldadır tox çaqqalı, iti də.
O göz dikdi ağ əllərin ağına,
Ət aldadır tox çaqqalı, iti də.

Əl uzatdı tutsun qızın əlindən,
Ağır toppuz dəydi onun belindən,
Batdı özü öz qanının selində,
Ət aldadır tox çaqqalı, iti də.

Daşqırbaşı öldü, düşdü torpağa,
Qalanlarsa çəkildilər qırağa,
Baş əydilər igid, gözəl qonağa,
Ət aldadır tox çaqqalı, iti də.

Qorxub qızdan gətirdilər Tuncəri,
Şişmiş idi qatma ipdən əlləri,
Yaraları qorxuluydu, dəpdərin,
Ət aldadır tox çaqqalı, iti də.

***

Sevgililər qılınc çəkdi, vuruşdu,
Bir gücdədir bacı-qardaş, ər-arvad,

Ölən Daşqır, qalan Daşqır söylədi,
Bir gücdədir bacı-qardaş, ər-arvad.

Yaraqlılar qazmalandı daş ilə,
Önərləri qorudular döş ilə,
Daşqır daşı gəmirtdədi diş ilə,
Bir gücdədir bacı-qardaş, ər-arvad.

Tuncər çıxdı, dağ başından uladı,
Neçə yerdə otdan ocaq qaladı,
Qurdlar gəldi, hər bir yeri taladı,
Bir gücdədir bacı-qardaş, ər-arvad.

Qurd sürüsü ölüm oldu Daşqıra,
Çeynədilər nə var idi, ağ, qara,
Tuncərinsə əli-qolu yapyara,
Bir gücdədir bacı-qardaş, ər-arvad.

***

Günay dedi:-Qazmaları dolduraq,
Qazma qalsa, yırtıcıya yuvadır.
Yaraqlılar, qazmaları doldurun,
Qazma qalsa, yırtıcıya yuvadır.

Qayaları qarış-qarış dartdılar,
Dığırladıb qazmalara qatdılar,
İri daşlar hellətdilər, atdılar,
Qazma qalsa, yırtıcıya yuvadır.

Ağ zirvələr bürünmüşdü dumana,
Qurd sürüsü yayılmışdı ormana,
Daşqır çətin burda bir də dayana,
Qazma qalsa, yırtıcıya yuvadır.

Gün baxırdı dumanlığın dalından,
Səs gəlmirdi dağın sağı, solundan,
Tuncər, Günay baxır dağın yalından,
Qazma qalsa, yırtıcıya yuvadır.

***

Tuncər, Günay qucaqlaşıb öpüşdü,
İlk öpüşün dadı baldan dadlıdır,
Gözlərində dağ, daş bütün gül açdı,
İlk öpüşün dadı baldan dadlıdır.

Tuncər dedi:-Bax, dan yeri sökülür,
Qol-qıçımdan ağrılarım çəkilir,
Sevinc içrə gülür iki sevgili,
İlk öpüşün dadı baldan dadlıdır.

Dayanmışdı onlar yaxın, döş-döşə,
Pıçıltılar söyləyirdi "sevmişəm!"
İstəklilər döyüşdə də sevişər,
İlk öpüşün dadı baldan dadlıdır.

Günay dedi:-sənsən mənim istəyim,
Tuncər dedi:-Gözüm, dilim, diləyim,
Birisi dil, birisi dil dilçəyi,
İlk öpüşün dadı baldan dadlıdır.

***

Tuncər, Günay, yaraqlılar qayıtdı,

Aldı-basdı ucalıqdır döyüşdə,
Qurd sürüsü gözləyirdi Tuncəri,
Aldı-basdı ucalıqdır döyüşdə.

Ormanları silkələdi ulartı,
"Yerindəydi, qurd qardaşım, bu yardım",
Tuncər bunu qurd sayağı buyurdu,
Aldı-basdı ucalıqdır döyüşdə.

Toplum-toplum qayıdırdı qurd geri,
Beş il sonra görürdülər Tuncəri,
Qurd olmuşdu qardaşlığın dəyəri,
Aldı-basdı ucalıqdır döyüşdə.

Tuncər, Günay Gümüşatın belində,
Qurtarmışdı onlar qanlı ölümdən,
Keçirdilər Qobuyerin çölündən,
Aldı-basdı ucalıqdır döyüşdə.

***

Dınqır, səslən, bəzə belə yoldaşı,
Yoldaş sənə çətin gündə arxadır.
Bir sınaqdır, çətinlikdir yaranış,
Yoldaş sənə çətin gündə dayaqdır.

Bacı, qardaş döş yırtandır, yanandır,
Doğmalar da hərdən səni anandır,
Yoldaş isə acı, ağrı qanandır,
Yoldaş sənə ağır gündə gərəkdir.

Bir də gördün ara dəyib, qarışıb,
Yoldaş sənə əltut olub yanaşır,
Gücün çatsa, get, sən qurtar yoldaşı,
Yoldaş sənə çətin gündə arxadır.

Yoldaşlıqda doğru danış, açıq ol,
Yıxılanda qoru onu, ayıq ol,
Ara vuran pisə qarşı sayıq ol,
Yoldaş sənə çətin gündə arxadır.

***

-Mən Günayam, yaşım çatıb otuza,
El işində ayrı deyil qız, oğlan,
Tanrı mənə öz qolundan güc verib,
El işində ayrı deyil qız, oğlan.

Ər, ev, sevgi kəsi olsun elbirə*,
Qız oğlana dönsün, ağac dəmirə,
Yurd çevrilsin buz qazmaya, təndirə,
El işində ayrı deyil qız, oğlan.

Bacım şahdır, mənsə qorxmaz yaraqlı,
Ağüzeləm, igid köklü, budaqlı,
Yeniyetmə varam, güclü, anlaqlı,
El işində ayrı deyil qız, oğlan.

Mən sevmişəm bir igidi bu yaşda,
Yoldaş oldum onunla mən savaşda.
Mən sevirəm, qoy el bilsin bu başdan,
El işində ayrı deyil qız, oğlan.

***

Soraq tutdu bu olaydan Manay şah,
Yoxla, tanı, sonra işlət, arxalan.

Tuncər, Günay sevgisindən sevindi,
Yoxla, tanı, sonra işlət, arxalan.

Salmışdılar Daşqırları ayaqdan,
Yaxılmışdı daxma, qazma ocaqda,
Yaranmışdı dinclik, düzlük yaylaqda,
Yoxla, tanı, sonra işlət, arxalan.

**Xalq*

Ancaq Günay hələ gəncdi, konazdı,
İşdə, gücdə görümsüzdü, dayazdı,
Gördükləri, bildikləri çox azdı,
Yoxla, tanı, sonra işlət, arxalan.

Şahı hər gün düşündürən bu idi,
Keçmişləri, soy-kökləri uluydu,
Qalıncları taxıl ilə doluydu,
Yoxla, tanı, sonra işlət, arxalan.

X QAPI
Qızbal söyləncі

Soraq çatdı, Darvideldən el köçür,
Kimsəsizlik tutur köçün yerini,
Min il qabaq gəlmişdilər, getdilər,
Kimsəsizlik tutur köçün yerini.

Min illəri qoyub dalda kimsəsiz,
Hara belə, hara belə gedirsiz,
Uyğunlaşa bilmədiniz bizə siz,
Kimsəsizlik tutur köçün yerini.

Gəlmişdiniz siz meşələr yurdundan,
İri, enli, gur çayların ardından,
Yaşadınız Darvidelli adında,
Kimsəsizlik tutur köçün yerini.

Həm susuram, həm yanıram bu işə,
Maha gəlməz daha mənlə görüşə,
Nə deyərəm bunca tanış-bilişə,
Kimsəsizlik tutur köçün yerini.

***

Bir yandan da Ağqurd Alpan sevgisi,
Sevgi yaşdan asılıdır, yox, deyil.
Hər bir yaşın öz yeri var sevgidə,
Sevgi yaşdan asılıdır, yox, deyil.

Ağqurd Alpan çıxıb istək dağına,
Atılıbdır güclü axan axına,
Hər gün, hər gün bir az gəlir yaxına,
Sevgi yaşdan asılıdır, yox, deyil.

Onu necə Darvideldən çağırım,
Yerinc olmaq orda işin ağırı,
Nə olacaq görən bunun axırı,
Sevgi yaşdan asılıdır, yox, deyil.

Maha məni haradasa aldadır,
Gözlənilməz bir olaydır, daldadır,

Sevgi isə bu yaşlarda bal dadır,
Sevgi yaşdan asılıdır, yox, deyil.

***

Vuruşurdu Darvidellə Ariel,
Ay qızarar vuruşanda iki el.
Evlər, çöllər qızıl qana boyandı,
Ay qızarar vuruşanda iki el.

Ayrı görüş, ayrı geyim, ayrı dil,
Bir-birini götürməyir min-min il,
Davranışı, yaşayışı bir deyil,
Ay qızarar vuruşanda iki el.

Körpəni də, uşağı da qırdılar,
Özgəlikdə qancıl kökü gördülər.
Gözlərini yumub qılınc vurdular,
Ay qızarar vuruşanda iki el.

Ellər gərək dilbir ola, yaşaya,
Bir bağlana təkərlərdə qoşquya,
Ağırlığı bir götürə, daşıya,
Ay qızarar vuruşanda iki el.

***

Biri dedi, sənin dilin dil deyil,
Beş yüz adam bir dillisə, o, dildir.
Biri dedi, sənin soyun, kökün yox,
Beş yüz adam bir dillisə, o, dildir.

Biri dedi, sən gələndən bu yerə,
Yoxsulluq da sənlə gəlib bu elə,
Bunlar bizə başa gəlib min ilə,
Beş yüz adam bir dillisə, o, dildir.

Biri dedi, sizin tanrı özgədir,
İçinizdə tanrı yoxdur, kölgədir,
Yurd-yuvanız ölkə deyil, bölgədir,
Beş yüz adam bir dillisə, o, dildir.

Biri dedi, sən buraya gəlməsən,
O da dedi, sən güc ilə əkməsən,
İtəm səni yer üzündən silməsəm,
Beş yüz adam bir dillisə, o, dildir.

***

Min il belə çəkiş-bərkiş, qan-qada,
Küsüşənlər çəkişmədə bərkiyər.
Ağqurd Alpan ortaq oldu onlara,
Küsüşənlər çəkişmədə bərkiyər.

Maha gözdən yayınmışdı, qalırdı,
Tanısını gün-gün başa salırdı,
Gəncin içi acıqlarla dolurdu,
Küsüşənlər çəkişmədə bərkiyər.

-Anan səni atdı itlər içinə,
Körpə nədir, heç gəlmədi vecinə,
Aldım ordan səni bu qol gücünə,
Küsüşənlər çəkişmədə bərkiyər.

İndi şahdır Mindiyarda, başbilən,
O, varlıdır, sənlə mən ac, kölə.
Gərək sənin bu əlinlə o ölə,

Küsüşənlər çəkişmədə bərkiyər.
***
-Öldürərəm öz əlimlə mən onu,
Qansız gərək qan içində qan qusa.
-Şahlıq sənə çatmalıdır ölkədə,
Qansız gərək qan içində qan qusa.

-Mən şah ollam, sən Başevin yiyəsi,
Mən bir qılınc, sən qılıncın tiyəsi,
Bayrağımın ipək sapı, ciyəsi,
Qansız gərək qan içində qan qusa.

Bir az da döz, vuruş öyrən, güclü ol,
Saqqal çıxart, gizli-gizli yaşa dol,
Çox çətindir getdiyimiz bu sərt yol,
Qansız gərək qan içində qan qusa.

-Mən belə də allam ondan öcümü,
Göstərərəm qansızlara gücümü,
Qaytararam Darvidelin köçünü,
Qansız gərək qan içində qan qusa.
***
-Yaraqlımız yoxdur, bala, neynəyək,
Bərk olsa da səs çıxmayır tək əldən.
Öncə gərək biz Ağqurdu azdıraq,
Bərk olsa da səs çıxmayır tək əldən.

Bir qız tapım, onu alsın əlinə,
Dilə tutub lapdan minsin belinə,
O, daş atsın şahın güzgü gölünə,
Bərk olsa da səs çıxmayır tək əldən.

Şah eşitsə bunu, dibdən laxlayar,
Alpanına qarşı acıq saxlayar,
Pis ayaqda, gəl, bunu da yoxlayaq,
Bərk olsa da səs çıxmayır tək əldən.

Öncə gərək biz dağıdaq toplumu,
Açaq bir də Arielin yolunu,
Kəsək şahın Ağqurd, Tuncər qolunu,
Bərk olsa da səs çıxmayır tək əldən.
***
Sonra Maha çox düşündü, daşındı,
Çox şey yanlış, çox görünüş yalandır.
Durub baxdı öz-özünə güzgüdə,
Çox şey yanlış, çox görünüş yalandır.

-Qaşım-gözüm, boy-buxunum, yerişim,
Qoy bəzənim, bər-bəzəyə girişim,
Bir qız olum, Ağqurd ilə görüşüm,
Çox şey yanlış, çox görünüş yalandır.

Onu alıb mən Manaydan ayırım,
Qılıq ilə, sevgi ilə doyurum,
Əlaltı tək ona qulluq buyurum,
Çox şey yanlış, çox görünüş yalandır.

O, Manayı ürəyində bəsləyir,
Hər gün, hər gün Manay deyim, pisləyim,

Yelə verim könlündəki istəyi,
Çox şey yanlış, çox görünüş yalandır.
***
Meşələrin qıraqları yamyaşıl,
Su, yaşıllıq sevinc tökür ürəyə,
Ağqurd Alpan bir qız gördü yol üstə,
Su, yaşıllıq sevinc tökür ürəyə.

Qara saçlı, ala gözlü, al yanaq,
Əllər, qollar, bir də boyun ağappaq,
Kəklik kimi, cüyür kimi o, oynaq,
Su, yaşıllıq sevinc tökür ürəyə.

-Bu kim ola, göz oxşayır qılığı,
Çox incədir başındakı sarığı,
Qızıldandır saçlarının darağı,
Su, yaşıllıq sevinc tökür ürəyə.

-Ay gözəl qız, hardan belə gəlirsən,
Harda belə gül açıbsan, gülürsən,
Niyə təksən bu yollarda, niyə, sən?
Su, yaşıllıq sevinc tökür ürəyə.
***
-Mən yiyəsiz bir çiçəyəm, yerim yox,
Yiyəsizlər kimsəsizdir, yabanı.
Öldü atam, anam, bacım vuruşda,
Yiyəsizlər kimsəsizdir, yabanı.

Böyümüşəm özbaşına, yiyəsiz,
Niyə belə baxırsınız mənə siz?
Varınızsa, mənə çörək veriniz,
Yiyəsizlər kimsəsizdir, yabanı.

Məni burda tanıyan yox, görən yox,
Məni sevən bir ana yox, ərən yox,
İndiyədək mənə çörək verən yox,
Yiyəsizlər kimsəsizdir, yabanı.

Ağqurd Alpan çaşıb qaldı yerində,
Ürəyinə sancı düşdü dərindən.
O çaşmışdı bu gözəli görəndən,
Yiyəsizlər kimsəsizdir, yabanı.
***
-Gözəl, hara söyləyirsən, aparım,
Əltut gərək yiyəsizə, yolluya,
Mən bu elin yerinciyəm, başçısı,
Əltut gərək yiyəsizə, yolluya.

-Mənim yerim yoxuşların dalında,
Gözdən uzaq bir enişin yalında,
Sevinərəm əltut olsan yolumda,
Əltut gərək yiyəsizə, yolluya.

-Yiyəsizsən, yiyə ollam sənə mən,
Kimsəsizsən, kimsə ollam sənə mən,
Çörəksizsən, çörək ollam sənə mən,
Əltut gərək yiyəsizə, yolluya.

-Yiyə olsan yiyələnmək dilərsən,
Kimsə olsan mənimsəmək dilərsən,
Bircə mənə bir az çörək verərsən,
Əltut gərək yiyəsizə, yolluya.

***

Ağqurd Alpan acıyırdı o qıza,
Aldanmaq da aldatmaqla bacıdır.
Başı ona "get" deyirdi, könlü yox,
Aldanmaq da aldatmaqla bacıdır.

Bəzək-düzək, ənlik-kirşan, dəf-daraq
Qıvrıq sap tək sənə ilmə salacaq,
Adam da var, deyir olan olacaq,
Aldanmaq da aldatmaqla bacıdır.

Ağqurd Alpan düşür atdan aşağı,
Sevincindən qaçır qızın dodağı,
Qız baş əyir ona kölə sayağı,
Aldanmaq da aldatmaqla bacıdır.

-Adın nədir, yiyəsiz qız, maral qız,
Mən Ağqurdam, söz dilimdə yalansız,
Nə çörəksiz qalacaqsan, nə yalqız,
Aldanmaq da aldatmaqla bacıdır.

***

-Adım yoxdur, igid ərən, ağ atlı,
Yaranışda hər bir şeyin adı var.
Neynəyim ki, ad qoyanım olmayıb,
Yaranışda hər bir şeyin adı var.

Mənə ad qoy, özün çağır bu adı,
Çörəyim ol, bir də qolum, qanadım,
Söylə, igid, haradadır elatın,
Yaranışda hər bir şeyin adı var.

-Gözəl, sənə Qızbal adı yaraşır,
Uyarlıqla, gözəlliklə yanaşı,
Heç bilmirəm neçə olar, qız, yaşın?
Yaranışda hər bir şeyin adı var.

Mən Qızbalam, yaşım çoxdan yetərdir,
Sənsizlikdə yetərimdə itərdim,
Gül tək solub mən ot kimi bitərdim,
Yaranışda hər bir şeyin adı var.

***

Ağqurd Alpan yoldaş oldu Qızbala,
Tez vurulan elə tez də ayrılar,
Yoxuşları, enişləri ötdülər,
Tez vurulan elə tez də ayrılar.

O, Manayı yavaş-yavaş unutdu,
Öz könlünü Qızbal ilə ovutdu,
Yola salıb Alpan evə qayıtdı,
Tez vurulan elə tez də ayrılar.

Günlər keçdi, o, Qızbala acıdı,
O gözəli düşünüşdə qucudu,
O, sevgidə Manay ilə bacıydı,
Tez vurulan elə tez də ayrılar.

Bir gün getdi, qızı orda tapmadı,
Qızbal adı ürəyindən qopmadı,
Çox gözlədi, diləyindən sapmadı,
Tez vurulan elə tez də ayrılar.

***

Bir də getdi, yenə qıza acıdı,
Sevgi deyil hələ qıza acımaq,
Çörək, yemək, geyim-kecim apardı,
Sevgi deyil hələ qıza acımaq.

Yolda gördü onu, açıq örüşdə,
Qız sevindi bu, ikinci görüşdən,
Ağqurd Alpan yuxalandı öpüşdən,
Sevgi deyil hələ qıza acımaq.

Gedirdilər, örüş, yayla, yal, tala,
Əl-ələydi, baş-başaydı, qol-qola,
Ağqurd Alpan söyləyirdi Qızbala:
-Sevgi deyil hələ qıza acımaq.

O deyirdi: - Üzdən mənə tanışsan,
İlk görüşdən bu üz doğma, yapışqan,
Göydə qoşa ulduzumuz barışsa,
Sevgi deyil hələ qıza acımaq.

***

Ağqurd Alpan göygöz idi, sarısaç,
Sarı yeydir qaraların içində,
Qızbal onu bəyənmişdi ər kimi,
Sarı yeydir qaraların içində.

İnanmazdı Alpan ona vurula,
Qız ürəyi sevgi ilə durula,
Sarmaşıqla ərə belə sarıla,
Sarı yeydir qaraların içində.

Ağqurd Alpan ona bağış alırdı,
Yeməklərlə qızı yola salırdı,
Qız da hər gün ona kəsi olurdu,
Sarı yeydir qaraların içində.

Hey deyirdi, mən soruyam bu işə,
Haradasa mən bu qızı görmüşəm,
Vurulmuşam bu qaş-gözə, yerişə,
Sarı yeydir qaraların içində.

***

O, Manaydan söz düşəndə deyirdi:
-Əlçatandır, əlçatmazdır sevgilər.
Manay mənim şah sevgimdir, əlçatmaz,
Əlçatandır, əlçatmazdır sevgilər.

-Heç bilmirəm sevgi nədir, dilək nə,
Sevgilinin sevgisində ölmək nə,
Aldatmaq nə, aldanmaq nə, istək nə,
Əlçatandır, əlçatmazdır sevgilər.

Bircə odur, təkcə səni anıram,
Gizli-gizli bir alovda yanıram,
Mən də səni öz sevgilim sanıram,
Əlçatandır, əlçatmazdır sevgilər.

-Bu sevgini qoy bilməsin özgəsi,
Nə Darvidel, nə Ariel bölgəsi,
Görüş yeri burda, yolun döngəsi,
Əlçatandır, əlçatmazdır sevgilər.

***

Görüşdülər, dolaşdılar yerbəyer,

İki sevgi qovuşağı görüşdür.
Bir çərdəkdə iki ağ iç üzbəüz,
İki sevgi qovuşağı görüşdür.

Ağqurd Alpan sevgi deyib öpürdü,
Qız, öpüşü gözlərinə təpirdi,
Çöllər, kollar yerə ağ gül səpirdi,
İki sevgi qovuşağı öpüşdür.

O deyirdi:-Mənim sevgim böyükdür,
Bu deyirdi:-Könlüm sənçin sökükdür,
Tökük yarpaq üzərində örtükdür,
İki sevgi qovuşağı görüşdür.

O deyirdi:-Səndən suvay ərim yox,
Bu sevgidən özgə tutan yerim yox,
Seviləndən ağrım, acım, çərim yox,
İki sevgi qovuşağı görüşdür.

***

-Ancaq bir az qapalısan elə bil,
Hər dillidə axı alt-üst tutum* var.
Axı məndən gizlətdiyin var nəsə,
Hər dillidə axı alt-üst tutum var.

Belə sevgi al günəşdən qopubdur,
Günəş bizdən yeni günəş yapıbdır,
Yuvasını ikimizdə tapıbdır,
Hər dillidə axı alt-üst tutum var.

Mənə söylə, kimsən, gözəl Qızbalım,
Ay ağ buxaq, ala gözlü, ağ alın,
Haçan səni, necə, harda mən alım,
Hər dillidə axı alt-üst tutum var.

-Mən aldanmaq tanrısına borcluyam,
Elə bir az aldanmaqdır sevgi də.
Aldadırdım səni, indi sevirəm,
Elə bir az aldanmaqdır sevgi də.

İçim, çölüm, varım, yoxum sevgidir,
Hər güvəncim, azım-çoxum sevgidir,
Düşünüşüm, uyğum-yuxum sevgidir,
Elə bir az aldanmaqdır sevgi də.

_____
Məna, həcm

Soruşursan kiməm, kimin yavrusu,
Mən Qızbalam, gül-çiçəklər arısı,
Sənə bağlı odlu sevgi tanrısı,
Elə bir az aldanmaqdır sevgi də.

Kimliyimi desəm, məndən küsərsən,
Bu kövşənə gəl-gedini kəsərsən.
Sonra baxıb mənə, dodaq büzərsən,
Elə bir az aldanmaqdır sevgi də.

***

-Kim olsan da, gözəl, səni atmaram,
Sevgi bütün "neynimlərdən" uzaqdır.
-Qorxuram ki, ərim, məndən qaçasan,
Sevgi bütün "neynimlərdən" uzaqdır.

Mən vuruşda çılğınlığın kəsisi,
Mən qadının tanrılardan küsüsü,
Mən bir elin acı alın yazısı,
Sevgi bütün "neynimlərdən" uzaqdır.

Atam-anam Darvidelli, qaraşçı,
El yolunda vuruşqandı, dalaşcıl,
Onlar sənlə vuruşublar, a başçı,
Sevgi bütün "neynimlərdən" uzaqdır.

Bizə, igid, gəlmə kimi baxırsan,
Qırıb-qırıb sonumuza çıxırsan,
Bu döyüşdə Manay şaha uğursan,
Sevgi bütün "neynimlərdən" uzaqdır.

***

-Ax, ürəyim çırpım-çırpım sıxıldı,
Sönmür sevgi, qan-qadaya düşsə də,
-Sən yox, bunu Manay sənə buyurub,
Sönmür sevgi, qan-qadaya düşsə də.

-Ax, Manayım, mənə nələr buyurdun,
-Darvideli yelə verdin, sovurdun,
On minləri qızıl qanla doyurdun,
Sönmür sevgi, qan-qadaya düşsə də.

Tanrım, niyə inanıram Manaya,
Balaları ölən bu şah anaya,
Necə olsun, indi gedim hayana,
Sönmür sevgi, qan-qadaya düşsə də.

-Yox, ölməyib, son balası sağ qalıb,
Anasına, gendən baxır, ağ olur,
Darvidel tək içi, çölü yaxılıb,
Sönmür sevgi, qan-qadaya düşsə də.

***

-Nə deyirsən, bunu hardan bilirsən,
-Hər ölçüdə bir keçilməz biçim var,
Ölçü qoyan biçisini görəcək,
Hər ölçüdə bir keçilməz biçim var.

-O hardadır, nə deyirlər adına,
Gedim deyim qıçı sınıq qadına,
Dönsün ona bu, sevincə, yardıma,
Hər ölçüdə bir keçilməz biçim var.

–Gedək, onun yerini mən göstərim,
Anasıdır sanki qaşı-gözləri,
Hələ bunca bu görüşdə sus, ərim,
Hər ölçüdə bir keçilməz biçim var.

Onlar çapdı, qapı açıq, yox tanı,
Hanı, hara çıxıb gedib, o hanı?
-Bu, Mahanın evimidir, qız, danış,
Hər ölçüdə bir yenilməz biçim var.

Tanı söyləncі

Tanı bala qol-budaqlı gənc idi,
Güclü olur kökü dərin ağaclar.
O, Manayın, Üstüağın özüydü,
Güclü olur kökü dərin ağaclar.

Üzdən tutqun, acıqlıydı bu oğlan,
Öc damırdı saçlarının ucundan,
Əl açmazdı ölsəydi də acından,
Güclü olur kökü dərin ağaclar.

Əkbitənə üz tutmuşdu, gedirdi,
Yolda onu yaraqlılar güdürdü,
Meşələrdə görünürdü, itirdi,
Güclü olur kökü dərin ağaclar.

-Ana, niyə məni atdın, unutdun,
Mənim körpə ürəyimi qanatdın,
Göz yaşımla öz-özümü ovutdum,
Güclü olur kökü dərin ağaclar.

***

Ana, deyən, şahlıq baldır, dadlıdır,
Şah ölkədə bütöv ölkə deməkdir.
Sən bir ölkə, mən ölkədə bir çöpəm,
Şah ölkədə bütöv ölkə deməkdir.

Varlığımdan soraq tutdun? Tutmadın!
Sən özünü atdın, məni atmadın,
İlan vuran yatdı, oğlun yatmadı,
Şah ölkədə bütöv ölkə deməkdir.

Mən gəlirəm, səni görüm, öldürüm,
Tanrılara acığımı bildirim,
Qadınları yer üzündən sildirim,
Şah ölkədə bütöv ölkə deməkdir.

On beş ildir gözü qıpıq gəzmişəm,
Alçalmışam, söyülmüşəm, dözmüşəm,
Yaşayışdan mən əlimi üzmüşəm,
Şah ölkədə bütöv ölkə deməkdir.

***

Gözüm iki, anam iki, yolum bir,
İki ana bir ürəyə sığışmaz,
Mən büsbütün analardan küsmüşəm,
İki ana bir ürəyə sığışmaz.

Ana kimi yaşa neçə yüz il də,
Bir şah kimi ölməlisən əlimdə,
Dil açandan bu söz gəzib dilimdə,
İki ana bir ürəyə sığışmaz.

Tanrı qoysa bu günlərin birində,
Öc alaram sənin Alpan ərindən,
Şah olaram öz atamın yerində,
İki ana bir ürəyə sığışmaz.

Tanrım, çatdır məni böyük suçuma,
Şah toppuzu yetir mənim ovcuma,
Tanı, öldür, heç bir kəsə acıma,
İki ana bir ürəyə sığışmaz.

***

Ağqurd Alpan soraq verdi Tanıdan,
Oğulsuz şah olacaqdan çəkinər,
"Üstüağın sonbeşiyi tapılıb!"
Oğulsuz şah olacaqdan çəkinər.

Yerə-göyə sığışmadı anası,

Doğularaq sağ qalmışdı balası,
Gəzin, görün haradadır Mahası,
Oğulsuz şah olacaqdan çəkinər.

Axtardılar Maha ilə Tanını,
Göz qoydular hər bir yerdə hamını,
Min döydülər eldə yüz-yüz qapını,
Oğulsuz şah olacaqdan çəkinər.

Ana dedi: - Bağrım başı yarılıb,
Düşünməkdən başım-beynim yorulub,
Başev mənim gözlərimdə daralıb,
Oğulsuz şah olacaqdan çəkinər.

***

Heç bir yerdə tapmadılar onları,
Gərəklilər niyə gözdən yayınır?
Qızbal gəldi, ancaq Maha gəlmədi,
Gərəklilər niyə gözdən yayınır?

Manay gördü Ağqurd ilə Qızbalı,
Yandı-yandı, külə döndü qapalı,
Heydən düşdü sanki onun əl-qolu,
Gərəklilər niyə gözdən yayınır?

Dedi: - Qızbal tanış gəlir gözümə,
Hörmə saçlar, yal-yaraşıq, bəzənmə,
Kim vurulmaz bu gözəlin üzünə,
Gərəklilər niyə gözdən yayınır?

Elə bildi bu gözəllik saxtadı,
Bir yandan da onun könlü toxdadı,
Dedi bu iş boş sözlərə noxtadı,
Gərəklilər niyə gözdən yayınır.

***

Ağqurd Alpan utanırdı Manaydan,
Yersiz sevgi öz-özündən utanar.
Gözəl Qızbal gəlib çıxıb Başevə,
Yersiz sevgi öz-özündən utanar.

Düşdü işə atmacalar, yozmalar,
Diltökmələr, düşüncələr, susmalar,
Qızışmalar, yazışmalar, yozmalar,
Yersiz sevgi öz-özündən utanar.

Hamı, hamı Tanı deyə, düşündü,
Çoxu şahla evlənməkdən daşındı,
Başevdəki dedi-qodu aşındı,
Yersiz sevgi öz-özündən utanar.

Üstüağın sonbeşiyi kim ola,
Şah yerini kim saxlaya, kim ala,
Tanı gəlsə bu Başevdə kim qalar,
Yersiz sevgi öz-özündən utanar.

Manayın ölüm söyləncі

Günlər keçdi, Tanı gəlib çıxmadı,
Gözləməkdən gözün kökü saralar,
Bir gün Tanı gəldi, çatdı Başevə,
Gözləməkdən gözün kökü saralar.

Ovçulara oxşayırdı uzaqdan,

Çiynində yay, əlində ox, bir oğlan,
Haralısan, hara belə, haradan,
Gözləməkdən gözün kökü saralar.

Deyən odur, şahın yerinc oğulu,
At dırnağı tapdağında doğulub,
Körpə ikən qan içində boğulub,
Gözləməkdən gözün kökü saralar.

-Gedin deyin, oğlun gəlib, Manaya,
Öz oğlunu atan qancıl anaya.
Görsə məni üz-gözümdən tanıyar,
Gözləməkdən gözün kökü saralar.

***

Manay qaçdı balasını görməyə,
Körpə atan ana, yenə anadır.
Görüşdülər onlar qapı ağzında,
Körpə atan ana, yenə anadır.

-Tanrım, mənə güc ver, gücüm tükənib,
Bundan sonra öz oğluma söykənim,
Bu oğlumsa niyə məndən çəkinir,
Körpə atan ana, yenə anadır.

Ah, necə də oxşayırsan atana,
Qaş-qabaqdan, üz-gözündən anana.
Gəl yaxına, qurban qada-balana,
Körpə atan ana, yenə anadır.

Anasını görüb Tanı dinmədi,
Könlündəki od-acılar sönmədi,
Dediyindən, tutduğundan dönmədi,
Körpə atan ana, yenə anadır.

***

Bir an bıçaq parıldadı əlində,
Kim öldürər tanrılaşan ananı?
Anasının ürəyinə sapladı,
Kim öldürər tanrılaşan ananı?

-Məni atdın itin-qurdun ağzına,
Kölə oldum bir Darvidel qızına,
Getdin çatdın Ağqurd Alpan arzına,
Kim öldürər tanrılaşan ananı?

-Oğlum, dayan, daha vurma, yıxıldım,
Könlümdəki istəklərim dağıldı,
Sən döyüşlər qucağında doğuldun,
Kim öldürər tanrılaşan ananı?

Oğlum, dayan, daha vurma, ölürəm,
Səni yoldan çıxaran var, bilirəm,
Bunca səni mən şah görmək dilərəm,
Kim öldürər tanrılaşan ananı?

***

-Mən ölürəm, ay eşidib görənlər,
Hər gəlişin başlanğıcı, sonu var.
Tanı oğlum Mindiyara şah olsun,
Hər gəlişin başlanğıcı, sonu var.

Mən onsuz da öləcəkdim bu günlər,
Nəyə gərək sınıq-salxaq ölgünlər,

Sümüyümdə, iliyimdə düyünlər,
Hər gəlişin başlanğıcı, sonu var.

Mən yaşadım Mindiyarın adını,
Gördüm şahlıq, bolluq, qıtlıq dadını,
Şah olsa da Ağüzelin qadını,
Hər gəlişin başlanğıcı, sonu var.

Ağüzeldə sonevimi qazdırın,
Öz anamın yanındaca basdırın,
Bir daş üstə dediyimi yazdırın,
Hər gəlişin başlanğıcı, sonu var.

***

"-Mindiyarın minel-minel gücü var,
Tanrısoydur güclü ölkə, güclü şah.
Bu ölkədə ev tik, su çək, yaz, yarat,
Tanrısoydur güclü ölkə, güclü şah.

Buzboğazdan Körfəzəcən dilibir,
Odərlərin eli birdir, dili bir,
Oxşarlıqda içi birdir, çölü bir,
Tanrısoydur güclü ölkə, güclü şah.

Çinel, Hindel, Misirelə yapışıq,
Min eli var yurdun oxşar, qatışıq.
Asurellə Balasqeli* qatışıq,
Tanrısoydur güclü ölkə, güclü şah.

Yarı gör-gör bizim dildə danışır,
Ölkəmizin başrağı var, barışıq,
Acıqanla, qancıllarla çarpışır,
Tanrısoydur güclü ölkə, güclü şah".

***

Bunu deyib Manay birdən keçindi,
Görkəmindən işıq uçar ölənin.
Üz-gözündən yal-yaraşıq çəkildi,
Görkəmindən işıq uçar ölənin.

Tanınınsa qan dayandı beynində,
O diz çökdü anasının önündə,
O şah oldu şahın ölüm günündə,
Görkəmindən işıq uçar ölənin.

Başbilənlər gizli gözdən yayındı,
"Qarğışlayar bizi günəş, ay indi",
Söylədilər, bu nə işdir, oyundur,
Görkəmindən işıq uçar ölənin.

Tanı şaha göz bərəltdi tanrılar,
Belə şahın gərək qolu qanrıla,
Boğazlaya onu acı ağrılar,
Görkəmindən işıq uçar ölənin.

***

Şah nə desə, yurda, elə yasadır,
Yeydir şahın son istəyi, son sözü.
Tanı qalxdı anasının yerinə,
Yeydir şahın son istəyi, son sözü.

Qızbal gəldi, dedi: - Mən qız anayam,
Qızbal deyil, Darvidelli Mahayam,
Ağqurd mənə vurğun, mən də onayam,
Yeydir şahın son istəyi, son sözü.

_____
Yunanıstan

Dedim, başda mən Ağqurdu tovlayım,
Onu bəzək-düzək ilə ovlayım,
Bu yol ilə şahı yıxım, ovlayım,
Yeydir şahın son istəyi, son sözü.

Gözləmirdim olacağı bu sayaq,
Ağqurd, indi gəl, Tanıyla bir olaq,
Darvidelin yerlərini qoruyaq,
Yeydir şahın son istəyi, son sözü.

***

Bunu deyib gəldi şahın önünə,
Çaşqınlıqdan adam bir an keyələr,
Bu Qızbaldır belə, yoxsa Mahadır,
Çaşqınlıqdan adam bir an keyələr.

Yaylıq ilə üz-gözünü sildi o,
Maha olub Maha kimi güldü o,
Baş əyərək şaha başəy qıldı o,
Çaşqınlıqdan adam bir an keyələr.

"Maha" deyib öz-özünü öyürdü,
Ağqurd Alpan gözlərini döyürdü,
Başev gizli üçünü də söyürdü,
Çaşqınlıqdan adam bir an keyələr.

-Ağqurd Alpan, keçmiş ola bu yalan,
Mən sənincin Maha deyil, Qızbalam,
Bu yol ilə döndün çətin bir yola,
Çaşqınlıqdan adam bir an keyələr.

***

Tanınınsa düyünlüydü qaşları,
Anasına əl qaldıran qan qusar.
Dayanmışdı sallaq, başı aşağı,
Anasına əl qaldıran qan qusar.

Ağsaqqallar irişərək baxırdı,
Bu son itki Minel üçün ağırdı,
Ağrı-acı qız, qadını boğurdu,
Anasına əl qaldıran qan qusar.

Tanı dedi: - Bağışlasın el məni,
Yas tutmasın anam ölən bu günü,
Ucaldaram yetərincə ölkəni,
Anasına əl qaldıran qan qusar.

Anam deyib, ölkə məni şah sansın,
Hamı, hamı gərək mənə inansın,
Qoy Tanı şah döyüşlərdə sınansın,
Anasına əl qaldıran qan qusar.

***

Bir il keçdi, üzü yer-yer qırışdı,
Öz yaşından qorxaq yaşlı görünər.
Utanmaqdan usanmadı Tanı şah,
Öz yaşından qorxaq yaşlı görünər.

Hamı dedi, Üstüağın oğludur,
Kökü qana, qancıllığa bağlıdır,
Buz bağlamış ürəyindən dağlıdır,

Öz yaşından qorxaq yaşlı görünər.

Qan-qan dedi, Çinel qalxdı ayağa,
Hindel çəkdi toplumunu qırağa,
Asurel də əl apardı yarağa,
Öz yaşından qorxaq yaşlı görünər.

Yeniyetmə qasırğadan qorxmadı,
Guruldadı, guruldadı, yağmadı,
Ağsaqqalın dediyinə baxmadı,
Öz yaşından qorxaq yaşlı görünər.

***

Ağsaqqallar üz döndərdi Tanıdan,
Su yolunda sınar bir gün su qabı,
Baş əymədi Darvidellə Ariel,
Su yolunda sınar bir gün su qabı.

Tuncər, Günay gəldi şahla barışa,
Yollandılar Asurelə vuruşa,
Şah da durdu Başev ilə baş-başa,
Su yolunda sınar bir gün su qabı.

Eşitcəyin bunu Bacar, Qızçiçək,
Çinel üstə güclü toplum çəkərək,
Dedilər ki, dözüm, vuruş, güc gərək,
Su yolunda sınar bir gün su qabı.

Qızbal-Maha yasaq oldu yasaya,
O, ayrılıq saldı yenə araya,
Ağqurd Alpan daha nəyə yarayar,
Su yolunda sınar bir gün su qabı.

***

Ağqurd Alpan bu gedişdən duruxdu,
Qız sevgisi yurd sevgisi olammaz.
İki yandan iki yanı boşaltdı,
Qız sevgisi yurd sevgisi olammaz.

Qızbal dedi, Darvidelə calaşaq,
Minel ilə, Mindiyarla dalaşaq,
Ölkələşib Darvideldə dolaşaq,
Qız sevgisi yurd sevgisi olammaz.

Ağqurd Alpan keyəlmişdi, susmuşdu,
Tanı şahdan incimişdi, küsmüşdü,
Öz-özüylə o, and-aman kəsmişdi,
Qız sevgisi yurd sevgisi olammaz.

İstəyirdi Qızbalını, elini,
Darvidellə bağlı duzlu gəlini,
Ancaq hələ qanmayırdı dilini,
Qız sevgisi yurd sevgisi olammaz.

***

Tuncər mindi Gümüşatı, səyirtdi,
Tanrısoydur quşun, atın uçarı,
Uçar idi alnındakı lələklə,
Tanrısoydur quşun, atın uçarı.

O da yeni vurumbatmaz ərəndi,
Olacağı, gələcəyi görəndi,
Döyüşlərə qol-qanadlı girəndi,
Tanrısoydur quşun, atın uçarı.

Ata Tuncər yoxluğundan yanırdı,
Yola çıxcaq Tuncərini anırdı,
Gözlərində ağrı-acı donurdu,
Tanrısoydur quşun, atın uçarı.

Qızçiçəkdi təkcə könül dincliyi,
Onla keçib neçə yüz il gəncliyi,
Var Qızçiçək, Tuncər, Bacar üçlüyü,
Tanrısoydur quşun, atın uçarı.

Vayqan söyləncі

Çinel Vayqan ad qoymuşdu xaqana,
Hər bir igid ad qazanar işiylə,
Çin Vayqanı göndərmişdi Xançuya,
Hər bir igid ad qazanar işiylə.

Yarıb, qırıb, dağıdırdı o qancıl,
Minelliyə, Mindiyara yabançı,
Bığı seyrək, üzü-gözü sarımtıl,
Hər bir igid ad qazanar işiylə.

Qocalmışdı, ərpimişdi Düzər də,
O düşmüşdü gücdən, heydən, kəsərdən.
Onda qalınc qalmamışdı Gücərdən,
Hər bir igid ad qazanar işiylə.

Vuruşurdu ancaq onun toplumu,
Qaralırdı düşüncəsi, anımı,
Qoca quşun yuxularda qonumu,
Hər bir igid ad qazanar işiylə.

***

Düzər üç gün vuruşmuşdu Vayqanla,
Üç gün çəkər vuruş gücü qocanın,
Tutuqlayıb Vayqan onu almışdı,
Üç gün çəkər vuruş gücü qocanın.

Basıq toplum çəkilmişdi Arana,
Düzər bata bilməmişdi Vayqana,
Nərildəyib o dönmüşdü qaplana,
Üç gün çəkər vuruş gücü qocanın.

Bacar gəlib çatdı bura on günə,
Sıraları bənzəyirdi düyünə,
Basıq qalmış yaraqlılar ölgünə,
Üç gün çəkər vuruş gücü qocanın.

Gecə Bacar o toplumla görüşdü,
Tanışlardan o, Vayqanı soruşdu,
Gecə ikən o, vuruşa girişdi,
Üç gün çəkər vuruş gücü qocanın.

***

-Uğureldən Xançuyacan Mindiyar,
Dilibirlər kim olsa da bir eldir.
Yer-yer, yurd-yurd, ulus-ulus yaşayır,
Dilibirlər kim olsa da bir eldir.

Buzboğazla Durudaşlar boyunca,
Yerləşiblər, otlayırlar doyunca,
Çinelli də əllərində oyuncaq,
Dilibirlər kim olsa da bir eldir.

Yetərincə qıra bilsək Mineli,
Sınar böyük Mindiyarın şah beli,
Göydə qalar Bacar şahın boş əli,
Dilibirlər kim olsa da bir eldir.

Çinellinin Bacarı var, Vayqan ər,
Bundan sonra kimliyini bilərlər,
Qılıncıyla qırılarlar, ölərlər,
Dilibirlər kim olsa da bir eldir.

***

Bardaş qurub Vayqan belə deyirdi,
Dalda hamı nə istəsə danışar.
Vayqan kəsib doğrayırdı hamını,
Dalda hamı nə istəsə danışar.

-Uğureli alıb Çinə qataram,
Qobuyeri, Qobudüzü tutaram,
Ordan keçib Əkbitənə çataram,
Dalda hamı nə istəsə danışar.

Mindiyarı qata bilsəm Çinelə,
Yeri-göyü keçirərəm mən ələ,
Hamı gərək qulluq edə bir dilə,
Dalda hamı nə istəsə danışar.

Yoxsa Minel Çini yeyib qurtardı,
İstəsəydi Çini bütün tutardı,
Yüz min, min-min olsaydılar, nə vardı,
Dalda hamı nə istəsə danışar.

***

Baş əydilər minbaşılar, dedilər:
-Qollarınca yeri quca bilərsən.
Yelçəkəndən yeləsənə bir il yol,
Qollarınca yeri quca bilərsən.

Mindiyarı tutmaq çox-çox çətindir,
Burda yerlər, ellər itim-itimdir,
Mindiyarsa nə Hindeldir, nə Çindir,
Qollarınca yeri quca bilərsən.

Vayqan dedi: - Buna çatar qollarım,
Boşa çıxır dənizlərdə dalları,
Mən keçərəm dağ, su, quru yolları,
Qollarınca yeri quca bilərsən.

Kim mənlədir tezdən dursun sırada,
Görək kimi ər yaradıb yaradan.
Döyüş özü seçir ağı qaradan,
Qollarınca yeri quca bilərsən.

***

Günəş çıxar-çıxmaz Xançu çölündə,
Döyüşlərdə çaqqıldayar qılınclar.
Minelliylə Çinellilər üz-üzə,
Döyüşlərdə çaqqıldayar qılınclar.

Bacar baxdı Vayqan necə vuruşur,
Nə sayaqdır vuruşuyla duruşu,
İki toplum selə dönüb, qarışıb,
Döyüşlərdə çaqqıldayar qılınclar.

Vayqan, Bacar yüz-yüz adam qırdılar,
Toplumları sağa, sola yardılar,
Kələzdənib bir-birinə, durdular,
Döyüşlərdə çaqqıldayar qılınclar.

-Baş aparma, Vayqan, dayan, danışaq,
İstəyirsən döyüşmədən barışaq,
Ya da öncə qurşaq tutaq, yarışaq,
Döyüşlərdə çaqqıldayar qılınclar.

***

-Mən Bacaram, Gücər oğlu, Minelli,
Basıqların danışmağa sözü yox.
Sənin kilər dağılışıb qaçışır,
Basıqların danışmağa sözü yox.

-Mən gəlmişəm öz gücümü yoxlayım,
Səni basım, kəsim, əzim, doğrayım,
Sonra sənin leşin üstə ağlayım,
Basıqların danışmağa sözü yox.

Mənimkilər uca tutur ölməyi,
Tutuqluqdan ölüb çıxa bilməyi,
Nəyə gərək basa-basa gəlməyin,
Basıqların danışmağa sözü yox.

-Onda daha uzatmayaq gedişi,
Bax, gör, nədir ordan bura gəlişim,
Görünür ki, ölüm çağın yetişib,
Basıqların danışmağa sözü yox.

***

Göz bərəltdi Vayqan böyük Bacara,
Qorxudandır qorxutmağı qorxağın,
Əl-qol ölçüb, yersiz çiyin oynatdı,
Qorxudandır qorxutmağı qorxağın.

Vayqan dedi: - Səni mal tək kəsərəm,
Toplumumla yastıladıb əzərəm,
Boş başını sərçə kimi üzərəm,
Qorxudandır qorxutmağı qorxağın.

Bacar dedi: - Bu gün hamı biləcək,
Qancıllara yoxdur burda gələcək,
Etmədiyi işi gopla deyəcək,
Qorxudandır qorxutmağı qorxağın.

Vayqan çəkib qılıncını oynatdı,
Artıq sözlər boğazında qaynatdı,
Vurub öncə barmağını qanatdı,
Qorxudandır qorxutmağı qorxağın.

***

Çəkişmələr, qarpışmalar, vurumlar,
Ölməməkçin öldürməyə nə var ki,
Toppuz endi, qalxan batdı ortadan,
Ölməməkçin öldürməyə nə var ki.

Hamı durub baxdı iki ərənə,
Göz qoydular yastıburun kürənə,
Bu vuruşun sonu çətin görünə,
Ölməməkçin öldürməyə nə var ki.

Axşam düşdü, diz qatdadı atlar da,
Leşə gəldi iri quşlar, qurdlar da,
Hamı qorxdu bu qaranlıq qatlardan,
Ölməməkçin öldürməyə nə var ki.

Bizuc, qalxan, toppuz, qılınc yoruldu,
Torpaq göyə, göysə yerə sovruldu,
Bağırtıdan göyün bağrı yarıldı,
Ölməməkçin öldürməyə nə var ki.

***

Vayqan gördü heydən düşüb qolları,
Dəmir deyil, qol-qıç işdən yorulur.
Dedi: - Qalsın vuruşumuz yarımçıq,
Dəmir deyil, qol-qıç işdən yorulur.

Bacar dedi: - Bir də haçan görüşək,
Get, qardaşın Çayqan gəlsin döyüşə,
Onunla da son döyüşə girişəm,
Dəmir deyil, qol-qıç işdən yorulur.

Vayqan güldü, dedi: - Bacar, öyünmə,
Bu, üstünlük deyil hələ, sevinmə,
Güclü bilib sən özünü, deyinmə,
Dəmir deyil, qol-qıç işdən yorulur.

Bunu deyib Vayqan döndü geriyə,
Gördü dönüb o, ölümcül diriyə,
Nə qol qalxır, nə də qıç var yeriyə,
Dəmir deyil, qol-qıç işdən yorulur.

***

Çayqan gəldi, götürdülər Vayqanı,
Döyüş gərək dayanmaya yarımçıq,
Çayqan dedi, gəl mənimlə sən vuruş,
Döyüş gərək dayanmaya yarımçıq.

Buna varam,-dedi Bacar,-döş-döşə,
Düşək atdan, öncə sənlə güləşək,
Güləşməklə biz başlayaq döyüşə,
Döyüş gərək dayanmaya yarımçıq.

Güləşdilər, Çayqan yumru, gödəkdi,
Pota döşdü, ağır, yoğun biləkdi,
Xırda başdı, bir də enli kürəkdi,
Döyüş gərək dayanmaya yarımçıq.

Hardan tutdu, Çayqan çıxdı əlindən,
Bacar tutdu qurşağından, belindən,
Çırpdı yerə, hədələdi ölümlə,
Döyüş gərək dayanmaya yarımçıq.

***

Bayqan gəldi, dedi: - Mənəm üçüncü,
Olacağı üçüncü yol sına sən,
Üç qardaşın gücü məndə toplanıb,
Olacağı üçüncü yol sına sən.

Vuruşmağa gəlməmişəm mən ancaq,
Gəlmişəm ki, biz əl tutaq, barışaq,
Yetər daha el qırıldı bu sayaq,
Olacağı üçüncü yol sına sən.

Qoy toplumlar çəkilsinlər qırağa,
Baş əysinlər uğurelli qonağa,
Əl atmasın Minellilər yarağa,
Üstünlüyü üçüncü yol sına sən.

Ancaq məni qoy Xançuya baş olum,
Çinel, Minel arasına yol salım,
Vergiləri ildə üç yol mən alım,
Üstünlüyü üçüncü yol sına sən.

***

Bacar dedi:-Oğlum Tuncər baş olar,
Hər ölkədə yerli gərək baş olsun.
Çineldə də qorxu-ürkü azalar,
Hər ölkədə yerli gərək baş olsun.

Səni yerinc qoya bilər Əkbitən,
Bundan qabaq gərək sən and içəsən,
Bizə qancıl olmayasan daha sən,
Hər ölkədə yerli gərək baş olsun.

-Nə buyursan, mən elə də edərəm,
Lap istəsən gedib gözdən itərəm,
Ölüb, bir də sən deyən tək bitərəm,
Hər ölkədə yerli gərək baş olsun.

-Mən istərəm bir də səni yoxlayam,
Sözdə, işdə, gücdə səni bağlayam,
Sonra səni yerinc kimi saxlayam,
Hər ölkədə yerli gərək baş olsun.

***

-Uğurelə bir də ayaq basmayın,
Hər ölkənin cızığı var, yeri var,
Mindiyardır, Xançu, Sancu, Qobudüz,
Hər ölkənin cızığı var, yeri var.

Tanı şahdır Mindiyarın yiyəsi,
Biz də onun qılıncının tiyəsi,
Hamı gərək bu gənc şahı bəyənsin,
Hər ölkənin cızığı var, yeri var.

Mən Bacaram, dediyini qanıram,
Odur səni, Bayqan, kölə sanıram,
Burda keçmiş döyüşləri anıram,
Hər ölkənin cızığı var, yeri var.

Üzləşmədi, vuruşmadı toplumlar,
Böyük Çinə üstün gəldi Mindiyar,
Üstün yeni yerlər tutsa, yeri var,
Hər ölkənin cızığı var, yeri var.

***

Bayqan dedi:-Qardaşlarım qabadır,
Çox şahları gözdən salıb qabalıq,
Mən onların üzüyola qardaşı,
Çox şahları gözdən salıb qabalıq.

Mən bilirəm qabaların dilini,
Sovuraram göyə yanıq külünü,
Dilə tutsan, yola gələr, dəlini,
Çox şahları gözdən salıb qabalıq.

Bacar dedi:-Onda işin bu olsun,
Get, onların burunları ovulsun,
Qoy qabalar Çineldən də qovulsun,
Çox şahları gözdən salıb qabalıq.

Bacar onu tutuqluqdan buraxdı,
Bu bağışdan Bayqan çaşdı, duruxdu,
Hara getsin, indi hara, qarıxdı,
Çox şahları gözdən salıb qabalıq.

***

Düzər gəldi, ağ saçları pırtlaşıq,
Qocalanda çəkil, otur yerində,
O, Gücərin yerindəydi Qobuda,
Qocalanda çəkil, otur yerində.

Neçə yüz il yerinc idi Xançuda,
O, Gücərin yerindəydi Qobuda.
Bir çinlini qaytarmadı qapıdan,
Qocalanda çəkil, otur yerində.

Əkbitənə bir yol o, yol salmadı,
Döyüşlərdən, vuruşlardan qalmadı,
Qocalığı öz boynuna almadı,
Qocalanda çəkil, otur yerində.

Qocaldıqca qolu-qıçı qurudu,
Döş-başını buz soyuqlar bürüdü.
Ancaq yenə Mindiyarı qorudu,
Qocalanda çəkil, otur yerində.

***

O söylədi:-Mən qocalıb getmişəm,
Eniş-yoxuş illəri var hər yaşın,
Yeni yerinc siz göndərin yerimə,
Eniş-yoxuş illəri var hər yaşın.

Bacar dedi:-Əkbitənə qayıdaq,
Gözlər səni Körfəz ilə Yastıdağ,
Qoşaboğaz, Kürlə, Qobu, Buzbulaq,
Eniş-yoxuş illəri var hər yaşın.

Düzər dedi:-Mən hamıdan küsmüşəm,
Neçə yüz il bu ucqarda dözmüşəm,
İndi daha öz-özümdən bezmişəm,
Eniş-yoxuş illəri var hər yaşın.

Bacar dedi: - Öz yerində qalarsan,
Yerinc gəlsə sən ağsaqqal olarsan,
Gəncləşərsən, yüz-yüz yaşa dolarsan,
Eniş-yoxuş illəri var hər yaşın.

İlam söyləncі

Asurelin yolu üstə İlam var,
İç tutumu, çöl üzü var hər adın.
Bu başkənddə yaşayanlar çoxelli,
İç tutumu, çöl üzü var hər adın.

Asurelli, Darvidelli, Minelli,
Burda hamı alverdədir yüzəlli,
Burdakılar yüzdillidir, yüzelli,
İç tutumu, çöl üzü var hər adın.

Tuncər, Günay, dalda qaldı elatlar,
Qulaqları qıdıqladı bu adlar,
Gəlib çatdı Asurelə yel atlar,
İç tutumu, çöl üzü var hər adın.

Yaraqlılar toplum-toplum yol ölçdü,
Gənc ərənlər öndə gedib yol seçdi,
Su yerinə isti, odlu yel içdi,
İç tutumu, çöl üzü var hər adın.

***

Asurel şah ayıq idi, bic idi,
Bicdir çox-çox ağıllını aldadan.
Tanı şaha üç yol elçi göndərdi,
Bicdir çox-çox ağıllını aldadan.

Son elçini Tuncər yolda əylədi,
-Tanı şahın ərəniyəm söylədi,
Həm Günaydan, həm özündən küylədi,
Bicdir çox-çox ağıllını aldadan.

Elçi dedi:-Şah başımın böyüyü,
O əldirsə, mən o əlin sümüyü,
O ocaqsa, mən ocağın körüyü,
Bicdir çox-çox ağıllını aldadan.

Şahım sizə yaxın olmaq diləyir,
Tanı şahın istəyidir istəyi,
Birdir, deyir, iki şahın ürəyi,
Bicdir çox-çox ağıllını aldadan.

***

Elçi dedi:--Şahım vergi istəyir,
Gücsüz gərək para verə güclüyə.
Belə olsa döyüş-vuruş nə gərək,
Gücsüz gərək para verə güclüyə.

Tuncər dedi:-Gücsüz kimdir, güclü kim,
Yox özümdən güclüsü ki baş əyim,
Gedin Asur şaha belə söyləyin,
Gücsüz gərək para verə güclüyə.

Günay dedi:-Çox güclüdür Mindiyar,
Min-minəcən yaraqlanmış əri var,
Tuncər, Ağqurd, Günay, Tanı, həm Bacar,
Gücsüz gərək para verə güclüyə.

Get şahına bunu çatdır, ayılsın,
Dediklərim qoy bu yurda yayılsın,
Qoy ölkədə düzgün ölçü qoyulsun,
Gücsüz gərək para verə güclüyə.

***

Bir atlı qız gəlib dedi Günaya,
-Dağ da dözməz iki yandan vurulsa.
Qonşu bizə basqın edib dənizdən,
Dağ da dözməz iki yandan vurulsa.

Birdən bizi daldan vursa Mindiyar,
Asureli diz çökdürər, dağıdar,
Ancaq bil ki, igidlikdə ölçü var,
Dağ da dözməz iki yandan vurulsa.

Günay dedi:-Qız, sən kimsən, nəçisən?
Mindiyarın Asureldə köçüsən,

İgidlikdə, incəlikdə ölçüsən,
Dağ da dözməz iki yandan vurulsa.

Qız söylədi:-Mən Minelli bir qızam,
İlameldə kimsəsizəm, yalqızam,
Burda Minel iyi verən yarpızam,
Dağ da dözməz iki yandan vurulsa.

***

Tuncər dedi:-Kimlərdəndir soy-kökün,
Hər budağın kökü, kökün təki var.
-Mənim böyük Turərdəndir soy-köküm,
Hər budağın kökü, kökün təki var.

-Sən biləni, Asurelə girək biz?
-Mən biləni etməzsiniz bunu siz,
-Niyə, bəyəm siz Minelli deyilsiz?
Hər budağın kökü, kökün təki var.

Minellilər dardakını vurmazlar,
Yaralını, yarılmışı yarmazlar,
Yıxılana qarşı qalxıb durmazlar,
Hər budağın kökü, kökün təki var.

Mindiyarı onlar sısqa biliblər,
Toplum çəkib üstünüzə gəliblər,
Ancaq nədən toplumları bölüblər,
Hər budağın kökü, kökün təki var.

***

-Ancaq Turqız, düz deyirsən bunu sən,
Vurmaz igid qancılı da arxadan.
Balasqellə vuruşarkən Asurel,
Vurmaz igid qancılı da arxadan.

Toplumları biz İlamda əylərik,
Tanı şahdan son göstəriş dilərik,
Hamı birgə, bir ağızdan söylərik,
Vurmaz igid qancılı da arxadan.

-Mən Turqızam, bir özüməm, bir atım,
At üstündə çapa-çapa ox atım,
Bir yürüşlə Asurelə od qatım,
Vurmaz igid qancılı da arxadan.

-Gəl topluma, dur bizimlə yanaşı,
Sənə, bacım, qılınc, qalxan yaraşır,
Gərək olsa başlayarıq savaşı,
Vurmaz igid qancılı da arxadan.

***

Tuncər dedi:-Gözləyərik, görərik,
Kim olsan da acıqanı güclü bil.
Yoxsa bizi aldadırlar, busurlar,
Kim olsan da acıqanı güclü bil.

Toplumları çayqırağa yaydılar,
Zirvələrdə güdükçülər qoydular,
Özlərini ayıq-sayıq saydılar,
Kim olsan da acıqanı güclü bil.

Turqız getdi soraqlasın olanı,
Getdi gördü gözlərilə yalanı,
Yaraqlılar yollar boyu qalanıb,
Kim olsan da acıqanı güclü bil.

Tuncər getdi meşə boyu, çay boyu,
Busqularda beş-beş, on-on ər qoyub,
Turqız ilə hər bir yana söz yayır:
Kim olsan da acıqanı güclü bil.

***

Mindiyarın toplumları qayıtdı,
Dardakını dara çəkmək yaramaz,
Qayıdırlar meşə boyu, çay boyu,
Dardakını dara çəkmək yaramaz.

Tuncər, Günay çox ölçdülər, biçdilər,
Meşə yolu, çay yolunu seçdilər,
Acıqanın arxasına keçdilər,
Dardakını dara çəkmək yaramaz.

Asur dedi:-Gedək qıraq onları,
Bunca alaq o alınmaz diyarı,
Qoy desinlər onlar elə bunları,
Dardakını dara çəkmək yaramaz.

Onlar çaya, yarğanlara endilər,
Pozuldular, tutuqlara döndülər,
Busqudakı yaraqlılar dedilər,
Dardakını dara çəkmək yaramaz.

***

Tuncər çatdı toplumuyla arxadan,
Gözlənilməz yerdən vurum ağırdır.
Susuzluqdan onlar suya girmişdi,
Gözlənilməz yerdən vurum ağırdır.

Minellilər yarğan boyu dik, uca,
Qancılları tutdu oxa, bizuca,
Qoymadılar Asur şahı tək qaça,
Gözlənilməz yerdən vurum ağırdır.

Asur şahı tutub tutuq aldılar,
Şəlitləyib səyəziyə saldılar,
Üç gün onlar meşələrdə qaldılar,
Gözlənilməz yerdən vurum ağırdır.

Dördüncü gün dönüb yola düşdülər,
Çaylar kimi çırpındılar, daşdılar,
Başçılara qoşma, mahnı qoşdular,
Gözlənilməz yöndən vurum ağırdır.

***

Tuncər dedi:-Turqız olsun yüzbaşı,
Hər kəs gərək dəyərlənə işiylə,
Günay baxdı, bir az küsdü, pisikdi,
Hər kəs gərək dəyərlənə işiylə.

Tuncər dedi:-ilk sorağı o verdi,
Asur şahın bicliyini o gördü.
Buna görə acıqanlar gəbərdi,
Hər kəs gərək dəyərlənə işiylə.

Çıxdı yola öyünərək Tanı şah,

Gördü sevən ürəkləri bir, qoşa,
Dedi:-Minel igidləri, min yaşa,
Hər kəs gərək dəyərlənə işiylə.

Dedi:--Bacar basar çıxıb Xançuda,
Öc alıbdır üç qardaşdan, qoçudan,
Düzər olub onu təkcə acıdan,
Hər kəs gərək dəyərlənə işiylə.

Tanı şahın itməsi söyləncі

Çox gənc idi şahlıq üçün Tanı şah,
Bir ölkəni dolandıra şah gərək,
Asur şaha çox vergilər qoydu o,
Bir ölkəni dolandıra şah gərək.

Ağqurd Alpan istəyirdi Qızbalı,
Tuncər-Günay toyuna da az qalıb,
Bacar, Düzər, Qızçiçək də qocalıb,
Bir ölkəni dolandıra şah gərək.

"Ölkə ona bağlı deyil ürəkdən,
Deyirlər ki, o, tez çıxıb bələkdən,
İndi gərək mahnı çala tütəkdə,
Bir ölkəni dolandıra şah gərək.

Çox da ana qoyub onu yerində,
O düşünə bilmir hələ dərindən,
İşdə gərək yardım ala birindən,
Bir ölkəni dolandıra şah gərək".

***

Düşünürdü Tanı şah da bunları,
Öz yeri var, öz yetəri hər şeyin.
"Ana" sözü ürəyini yeyirdi,
Öz yeri var, öz yetəri hər şeyin.

"Ana qanı tökmək ilə şah olmaq,
Öz anandan qılınc ilə yer almaq.
Ana adı üzərində ucalmaq,
Öz yeri var, öz yetəri hər şeyin.

Analığım məni yoldan çıxartdı,
Şah anamın al qanını axıtdı.
O, məni də öz içimdən dağıtdı,
Öz yeri var, öz yetəri hər şeyin.

Utanıram, utanıram hamıdan,
Heç kəs heç nə gözləməyir Tanıdan,
Mən bir yardım istəyirəm Tanrıdan,
Öz yeri var, öz yetəri hər şeyin".

***

Gizli-gizli ağlayırdı Tanı şah,
Göz yaşıyla ölən bir də dirilməz.
Anasını düşünərək sızlayır,
Göz yaşıyla ölən bir də dirilməz.

Sonevinə gecə gizli gedirdi,

Göz yaşında dəniz-dəniz itirdi.
Acı-acı ağı deyib ötürdü,
Ölən bir də göz yaşıyla dirilməz.

Başev tutdu Manay şahın ilini,
Doğmaları, qorxmaz Ağüz elini,
Bükük gördü Tanı şahın belini,
Ölən bir də göz yaşıyla dirilməz.

Sonrası gün Tanı itdi, yox oldu,
Dalısınca söz deyənlər çox oldu,
Mindiyarda bu yoxolma ağ oldu,
Ölən bir də göz yaşıyla dirilməz.

***

Çox gəzdilər, tapmadılar Tanını,
Adam yoxun yoxluğuna acımaz.
Başev dəydi bir-birinə yenidən,
Adam yoxun yoxluğuna acımaz.

Bir hələlik şah gəzdilər, kim ola,
El içində ağır ola, sayıla,
Mindiyara yeni bir şah qoyula,
Adam yoxun yoxluğuna acımaz.

Ağqurd Alpan, Tuncər, Günay, həm Bacar,
Tək Günayın əlindədir bu açar,
Həm yetmə* var, həm qadın var, həm qoca,
Adam yoxun yoxluğuna acımaz.

Günay dedi:-Mən sonranı görürəm,
Şah yerinə mən Tuncəri verirəm,
Bacım oğlu Tanıya da deyirəm,
Adam yolun yoxluğuna acımaz.

***

Ağüzeldən ağsaqqallar dedilər:
Yer üstündə hamı yer-yer dəyişir.
Ad verdilər, and verdilər şahlığa,
Yer üstündə hamı yer-yer dəyişir.

_____
***Cavan**

Tuncər adı hər bir yerə yayıldı,
Həm kürəkən, həm də ki, şah sayıldı,
Bunu bilib Qızbal-Maha bayıldı,
Yer üstündə hamı yer-yer dəyişir.

Tuncər qalxdı soy-kökünün yerinə,
Günayını aldı o, sol böyrünə,
Öyünərək Günay baxdı ərinə,
Yer üstündə hamı yer-yer dəyişir.

Bundan sındı, küsdü, getdi Ağüzel,
Bundan çox-çox sevindilər Bacargil,
Ağüzeldən uca-uca var Minel,
Yer üstündə hamı yer-yer dəyişir.

***

Tuncər şahın səslənçləri gurladı,
Hər yüzillik bir ad ilə diridir.
Buyuruğu hər ölkəni dolaşdı,
Hər yüzillik bir ad ilə diridir.

Mindiyarın hər bir qarınc torpağı,
Bu torpağın vecsiz qalan bucağı,

Qorunacaq göz-bəbəyi sayağı,
Hər yüzillik bir ad ilə diridir.

Üztutdudur əkin yeri, su başı,
Mal-qara da bunlar ilə yanaşı,
Güzgüləşsin hər ağacı, hər daşı,
Hər yüzillik bir ad ilə diridir.

Yazılaşsın oxu, söz, dil, düşüncə,
Nağıl, söyləncə, deyim, duyum, əyləncə,
Çalğı, mahnı, ağı, qoşma, görincə*,
Hər yüzillik bir ad ilə diridir.

***

Güzgüləşsin qızıl, gümüş, daş, dəmir,
Görüncədir birdillini var edən.
Toy-düyündür, oyun, mahnı, çal-oyna,
Görüncədir birdillini var edən.

***İncəsənət**

-Mən Tuncərəm, Mindiyarın şahbaşı,
Od-ocağın, tanrıların soydaşı,
Dillilərin, dilsizlərin qardaşı,
Görüncədir birdillini var edən.

Buzboğazla Qoşaboğaz bitişik,
Körfəz gedib Qobudüzə yetişib,
Mindiyarı birləşdirən dil işi,
Görüncədir birdillini var edən.

Mən Tuncərəm, Bacar oğlu Minelli,
Buyuruğum* verilibdir yüzillik.
Mindiyarın bir dili var,-Tur dili,
Görüncədir birdillini var edən.

***

Günay-Tuncər toyu yazda quruldu,
Hamılıqdır hər bir yerdə toyla yas,
Bacar gəldi, Qızçiçəklə Qarçiçək,
Hamılıqdır hər bir yerdə toyla yas.

Ölkələrdən qonaq gəlib qayıtdı,
Bu böyük toy Ağüzeli ovutdu,
Küsüşmələr Tuncər şahı ayıltdı,
Hamılıqdır hər bir yerdə toyla yas.

Toydan sonra ova çıxdı ərənlər,
Baş əydilər ona onu görənlər,
Ox atanlar, at səyirdib sürənlər,
Hamılıqdır hər bir yerdə toyla yas.

Sevgisinin sevincini tapalı,
Günay üç gün evdə qaldı qapalı,
El görüşə gəldi elli-obalı,
Hamılıqdır hər bir yerdə toyla yas.

***

Öyrənc, yoxsa göydən gələn buyuruq?
Hər öyrəncdə incəlik var, tutum var,
Eldə, yurdda hamı ona bağlıdır,
Hər öyrəncdə incəlik var, tutum var.

***Fərman**

Yoxsula da, zənginə də buyuruq,

Onda tanrı göstərişi duyuruq,
Özümüzdən pislikləri qovuruq,
Hər öyrəncdə incəlik var, tutum var.

Dilibirlər birləşirlər bu adla,
Yeribirlər birgə, qoşa qanadla,
Addımlayır öyrənc yurdla, elatla,
Hər öyrəncdə incəlik var, tutum var.

Hər bayramda öyrəncləri sayırıq,
Onu el-el, oba-oba yayırıq,
Sınaq kimi ortalığa qoyuruq,
Hər öyrəncdə incəlik var, tutum var.

***

Ağqurd Alpan istəyirdi Qızbalı,
Uzaq olsun sevgi qandan, qadadan.
Ana-bala arasına qan salar,
Uzaq olsun sevgi qandan, qadadan.

Qızbal hər gün əlbəyaxa ölümlə,
Düşüncəsi sarsılırdı deyimlə,
Bəzənirdi-düzənirdi geyimlə,
Uzaq olsun sevgi qandan, qadadan.

Yox olandan oğulluğu Tanı şah,
Az qalırdı dağa, daşa dırmaşa,
Acığını bildirirdi birbaşa,
Uzaq olsun sevgi qandan, qadadan.

Tuncər şahdan yaralıydı, acıqlı,
Olaylardan, olmuşlardan yanıqlı,
Təkcə sevgi qarşısında qılıqlı,
Uzaq olsun sevgi qandan, qadadan.

***

-Mən qoymaram Tuncər bizə şah olsun,
Şahın gərək bəlli ola soy-kökü,
Gedib tapıb gətirərəm Tanını,
Şahın gərək bəlli ola soy-kökü.

Ağqurd Alpan gərək bizə şah ola,
Öcümüzü Minellidən o ala,
Şahlıq gərək çatsın bu gün Qızbala,
Şahın gərək bəlli ola soy-kökü.

Özüm indi Darvidelə şaham mən,
Ölsəm belə tərpənmərəm yerimdən,
Böyük yardım istəyirəm ərimdən,
Şahın gərək bəlli ola soy-kökü.

Gedər-gəlməz edəcəyəm Tuncəri,
Şah olmağa yoxdur onun təpəri,
Bu şahla yox Mindiyarın dəyəri,
Şahın gərək bəlli ola soy-kökü.

***

Ağqurd Alpan dilə tutdu Qızbalı,
-Hər bir şeyə don geydirib pisləmə,
Tuncər şah da Turdan alıb soy-kökü,
Hər bir şeyə don geydirib pisləmə.

Minellilər min-minlərin min-mini,
İşdə-gücdə bircə ildir hər günü,
Tuncər gələr, yığar, açar düyünü,

Hər bir şeyə don geydirib pisləmə.

Daha səndən usanmışam, bunu bil,
Daha bizim sevişməmiz düz deyil,
Gəlib səndən öc alacaq Bacargil,
Hər bir şeyə don geydirib pisləmə.

-Mən də səndən usanmışam, qurd kişi,
-Usanıbsan daha burda nə işin?
-Gərək təkcə mən Tuncərə girişim,
Hər bir şeyə don geydirib pisləmə.

***

Günay bunu eşitcəyin qızışdı,
Öc almasın gərək kişi qadından.
Yaxşı olar mən Qızbalı öldürüm,
Öc almasın gərək kişi qadından.

Tuncər bildi, çox danladı Günayı,
Turqız bildi ağızlardan dolayı,
Dedi,-Mənəm o şındırın güc tayı,
Öc almasın gərək kişi qadından.

Turqız getdi beş gün yolu üç günə,
Alın təri hopdu atın tərinə,
Döndü qaba yırtıcının birinə,
Öc almasın gərək kişi qadından.

Gecə çatdı, orda-burda azaraq,
O, Qızbalı soruşaraq, busaraq,
Tapdı evi, güdükləndi susaraq,
Öc almasın gərək kişi qadından.

***

Turqız dama, ordan evə dırmaşır,
Örtük altda düyünçələr düyünlü.
Ərlə arvad yatışırdı, sarmaşıb,
Örtük altda düyünçələr düyünlü.

Kəsir qılınc bir vurumda cüt başı,
Dığırlanır yerdə başlar yanaşı,
Hər ikisi qan selində calaşır,
Örtük altda düyünçələr düyünlü.

Əkbitənin Başevinin qabağı...
Kəsik başlar şahın qanlı qonağı,
Kim kəsibdir başı qancıl sayağı?
Örtük altda düyünçələr düyünlü.

Biri Qızbal, o birisi tanınmır,
Üz-gözündən bəllənməyir, anınmır,
Ağqurd Alpan deyil, kimdir qaynımız?
Örtük altda düyünçələr düyünlü.

***

Ağqurd Alpan gəlib çatdı Başevə,
Gözlənilməz işə göz də inanmaz.
Tanımadı o kişinin başını,
Gözlənilməz işə göz də inanmaz.

Sonra bildi Qızbal onu atıbdır,
Gedib özgə birisilə yatıbdır,

Bu kişini o kişiyə satıbdır,
Gözlənilməz işə göz də inanmaz.

Acığından dili, gözü tutuldu,
Qara, qalın qaşlar bərk-bərk çatıldı,
Sevgisinə sanki ağı qatıldı,
Gözlənilməz işə göz də inanmaz.

-Demək, məni aldadırmış bu pozğun,
Mən onunçun leş imişəm, o, quzğun,
Yaxşı ötdü üstümüzdən bu çovğun,
Gözlənilməz işə göz də inanmaz.

***

Hamı dedi, çətin buna inanaq,
Hər olayın üç üzü var, beş üzü.
Ağqurd Alpan özü kəsib başları,
Hər olayın üç üzü var, beş üzü.

And-amana inanmadı çoxları,
Qırılmışdı çox-çox inam bağları,
Quruyurdu ürəyinin zoğları,
Hər olayın üç üzü var, beş üzü.

Aldanmışdı Darvidelin qızına,
Baxmamışdı qarasına, bozuna,
Vurulmuşdu onun dadlı duzuna,
Hər olayın üç üzü var, beş üzü.

Bərklər udur, kövrəklərsə uduzur,
Özü gərək öldürəydi quduzu,
Boş başına endirəydi toppuzu,
Hər olayın üç üzü var, beş üzü.

***

Tuncər dedi:-Ağqurd Alpan, atamsan,
Şahlıq ata-balanı da ayırır,
Sən Xançuya yerinc getsən yaxşıdır,
Şahlıq ata-balanı da ayırır.

Mən burada, sən orada buyuran,
Qancılları öz qanıyla doyuran,
Hər bir işdə tükü tükdən ayıran,
Şahlıq ata-balanı da ayırır.

Get, vurulma daha pozğun gözələ,
Yol vermə ki, səndən pislik sezilə,
Çinellinin gərək başı əzilə,
Şahlıq ata-balanı da ayırır.

Ağqurd Alpan bu sözləri bəyəndi,
Ürəkləri birgə vurdu, döyündü,
Yerinc olmaq ad-sanıyla öyündü,
Şahlıq ata-balanı da ayırır.

Üztut söyləncі

Tuncər getdi Qobuyerə üztuta.*
Yalvaranda yalvarasan tanrıya.
Odər ata qarşıladı Tuncəri,
Yalvaranda yalvarasan tanrıya.

Dedi:-Sənsən böyük Gücər soy-kökü,
İşdayaqdır, Üstüağdır kötüyün,
Oxbatmazdır çiyindəki örtüyün,
Yalvaranda yalvarasan tanrıya.

Tuncər dedi:-Odər ata Yesnədir,**
Bu üztutum suya, oda, günədir,
İnanışım tək ocağa, sənədir,
Yalvaranda yalvarasan tanrıya.

Odər dedi:-Manay qanı qanında,
Mindiyarın al günəşi alnında,
Xançudasan, Buzboğazda, Aranda,
Yalvaranda yalvarasan tanrıya.

***

Ocaq üstə qoşa atlar kəsildi,
Hər kəsinin uçur göyə içqatı.***
Qart öküzlər, kök qoyunlar kəsildi,
Hər kəsinin uçur göyə içqatı.

_____
* ***Sitayiş***
** ***Mifik ad***
*** ***Ruh***

Bağışlandı xalça, daş-qaş ocağa,
Ordakılar baş əydilər qonağa,
Dilli, dilsiz, hamı durdu ayağa,
Hər kəsinin göyə uçur içqatı.

Üztut ilə yalvarışlar* oxundu,
Tuncər, Günay tanrılara sığındı,
Sevinərək günəş güldü, uğundu,
Hər kəsinin uçur göyə içqatı.

Gəlib Günay əl qaldırdı göylərə,
Tanrım, güc ver, yenilməzlik Tuncərə,
Kəsi olum-dedi-sənə yüz kərə,
Hər kəsinin uçur göyə içqatı.

***

Qobuyerdən əsən yellər qoxulu,
Yerdən alır gül duyumlu iyini,
Gülün şehi gəlir Kürdən, Arazdan,
Yerdən alır gül duyumlu iyini.

Yüngül külək meşələri darayır,
Göy dənizdə qaya, dalğa harayı,
Suya çırpır ağ döşünü qağayı,
Yerdən alır gül duyumlu iyini.

Zirvələrin ağ qardandır balıncı,
Ətəklərin meşəsindən yapıncı,
Şiş qayalar iti-iti qılıncı,
Yerdən alır gül duyumlu iyini.

Ot saralıb, meşələrsə gömgöydür,
Mal-qaraya yaylaq yeydir, dağ yeydir,
Ocaq üstü bu gün səsdir, hay-küydür,
Yerdən alır gül duyumlu iyini.

***

Qopuz, dınqır, qoşar dilə gəldilər,
Altqat, ** Üstqat*** çalğılarla birləşir,
El, ocaqla bir-birinə bağlanır,
Altqat, Üstqat çalğılarla birləşir.

_____
* ***Dua***
** ***O dünya***
*** ***Bu dünya***

Ahur-məzda tanrıların tanrısı,
O günəşdir, Alt, Üst qatın yarısı,

Üzündədir od-ocağın sarısı,
Altqat, Üstqat çalğılarla birləşir.

Odur suyun, odun, otun yiyəsi,
Odur iti inamların tiyəsi,
Odur duru içkimizin meynəsi,
Altqat, Üstqat çalğılarla birləşir.

Tanrı, bizə güc ver, basaq yamanı,
Aramızdan qovaq qanlı yalanı,
Otlar yanır, ondan sular bulanır,
Altqat, Üstqat çalğılarla birləşir.

***

-Mən qoşaram, el-obanın sözçüsü,
Dınqır ürək oxşarında yaranıb.
Mən elimin oxşarında qoşaram,
Dınqır ürək oxşarında yaranıb.

Mindiyardır dınqırımın telləri,
Dinləyicim bu ölkənin elləri,
Hər mahnımı göyə tutar çöllərim,
Dınqır ürək oxşarında yaranıb.

-Tuncər şaha basırqanlıq yaraşır,
Uca olsun dağlar kimi dağ başı,
Çinar olsun, biz də ona sarmaşıq,
Dınqır ürək oxşarında yaranıb.

Günayı da özü kimi döyüşkən,
Görməyibdir Ağüz belə kürəkən,
Tuncər qaplan, qancıllarsa pişikçə,
Dınqır ürək oxşarında yaranıb.

Ağüzel söyləncі

Tanı şahı tapmadılar,
Özü itən tapılarmı?
Hamı onu acıladı,
Özü itən tapılarmı?

Nə adı var, nə də yeri,
Nə ölüdür, nə də diri,
Tanrılardan min il bəri
Özü itən tapılarmı?

Günay dedi:-Mən çaparam,
Harda olsa mən taparam,
Bacım oğlu mənim yaram,
Özü itən tapılarmı?

Tuncər dedi:-Gələn kimi,
Ona verrəm şah yerimi,
O, ölümü, o, dirimi,
Özü itən tapılarmı?

***

Bu axtarış çox çəkmədi,
Var hamıda unutqanlıq,
Əski olay unuduldu,
Var hamıda unutqanlıq.

Ağüzelin önərləri
Pozub əski dəyərləri,
Toplumları, gənc ərləri,

Var hamıda unutqanlıq.

-Şahlar bizdən olmalıdır,
Onu Günay almalıdır,
Tuncər yanda qalmalıdır,
Var hamıda unutqanlıq.

Günay bundan çox tutuldu,
Qara qaşlar bərk çatıldı,
Oxla birgə yay dartıldı,
Var hamıda unutqanlıq.

***

Ortalığa düyün düşdü,
Əski-para unuduldu.
Ağüzeli pislədilər,
Əski-para unuduldu.

Kim getdisə, qaytardılar,
"Yox" sözünü artırdılar,
Günay getdi, qurtardılar,
Əski-para unuduldu.

Günay dedi lap ürəkdən,
-Biz bir şahıq, ikilikdə,
İki sümük bir biləkdə,
Əski-para unuduldu.

Deyirsiniz mən şah olum,
Ya da itən bacım oğlu,
Hər ikimiz Ağüzelli,
Əski-para unuduldu.

***

Ağüzelli unutmadı,
Unutmayan qancıl olur.
Unudanlar üzdən yaşlı,
Unutmayan qancıl olur.

Tanı şahı axtardılar
Ölkə-ölkə, diyar-diyar,
Hansı eldə, yurdda olar,
Unutmayan qancıl olur.

Hər bir yanda at yorturdu,
Şah şahlığa söz atırdı,
Bu yuxuyla o yatırdı,
Unutmayan qancıl olur.

Tuncər baxıb dinməyirdi,
Şahlığından dönməyirdi,
Gizli yanıb sönməyirdi,
Unutmayan qancıl olur.

***

Tuncər dedi Günay qıza,
Çətin işi qıza tapşır.
Turqız gedib yerinc olsun,
Çətin işi qıza tapşır.

Turqız getsin Darvidelə,
Yerinc olsun elə-belə,
O, hamını tutsun dilə,

Çətin işi qıza tapşır.

Gəldi, getdi dilli, yelli,
Arielli, Darvidelli.
Gözlərindən sözü bəlli,
Çətin işi qıza tapşır.

***

Turqız gördü ellər acdır,
Ac adama söz də çatmır.
Öyüd verdi, ürək verdi,
Ac adama söz də çatmır.

Çıxıb bir gün yeri öpdü,
Şum elədi, buğda səpdi,
Baxanların gözü sərpdi,
Ac adama söz də çatmır.

Hamı gəldi, qurşaq beldə,
Mal-qarayla, kətmən əldə,
Bolluq olsun qoy bu eldə,
Ac adama söz də çatmır.

Payladılar kimdə nə var,
Quru qurut, quru otlar,
İşıqlandı qırış qatlar,
Ac adama söz də çatmır.

***

Turqız dedi:-Mən yerincəm,
İş bacarsaq, iş öyrənsək,
Hər birimiz on işçiyik,
İş bacarsaq, iş öyrənsək.

Əl işləyər, baş düşünər,
Al torpağı, çək döşünə.
Baş qoyaram hər işinə,
İş bacarsaq, iş öyrənsək.

Torpaq elin anasıdır,
Bulud onun cunasıdır,
İşləməyən yanasıdır,
İş bacarsaq, iş öyrənsək.

Arielim, Darvidelim,
Sizin üçün özüm ölüm,
Məni ölməz diri bilin,
İş bacarsaq, iş öyrənsək.

***

Bu il taxıl bol-bol oldu,
İşlə, qovla qıtlığı sən.
El güvəndi yerincinə,
İşlə, qovla qıtlığı sən.

Dəmyə taxıl dadlı olur,
Sovrulanda tez sovrulur,
Dəyirmanda tez ovulur,
İşlə, qovla qıtlığı sən.

Elin gözü doydu undan,
Mal-qaradan, həm qoyundan,
Çıxdı qıtlıq oyunundan,
İşlə, qovla qıtlığı sən.

Turqız qaldı el yerinci,
İki elin qız sevinci.
Turqız oldu gözəl inci,
İşlə, qovla qıtlığı sən.

***

O il taxıl bol biçildi,
Taxıl olsa dinclik olur,
Başevə də göndərildi,
Taxıl olsa dinclik olur.

İki elin bol çörəyi,
Turqız onun ağbirçəyi,
Turqız oldu Tur çiçəyi,
Taxıl olsa dinclik olur.

Turqıza da söz qoşdular,
Mahnı deyib yarışdılar,
Bir-birinə qarışdılar,
Taxıl olsa bolluq olur.

Gənc yerinci oxşadılar,
Minelləşib yaşadılar,
Acıqları boşladılar,
Taxıl olsa bolluq olur.

***

Turqız on il yerinc oldu,
Qızın yeri göz üstədir.
Bu el döndü Turqız oldu,
Qızın yeri göz üstədir.

Dəyişildi ellər artıq,
Kimlik ilə haralılıq.
Həm o yanlıq, həm bu yanlıq,
Qızın yeri göz üstədir.

On min ilin Darvideli
Dönüb oldu Turqız elli,
İşlək başı, işlək əli,
Qızın yeri göz üstədir.

Turqız deyib bəslədilər,
Onu yerinc səslədilər,
Ayrılığı pislədilər,
Qızın yeri göz üstədir.

***

Turqız gəldi Əkbitənə,
Basar ərklə danışandır.
Dedi, elin yerinciyəm,
Basar ərklə danışandır.

-Mən gedəndə el ac, susuz,
Çörək baha, adam ucuz,
Dağılmışdı yurd, el, ulus,
Basar ərklə danışandır.

İndi birdir elin yolu,
Turqız olub Minel qolu,
Sevinərəm ürək dolu,
Basar ərklə danışandır.

Verin mənə bir göstəriş,
Mənim olsun hər çətin iş,
Qoy çoxalsın gəliş-gediş,
Basar ərklə danışandır.

***

Hamı ona "sağ ol" dedi,
Sağ ol balla qarışıqdır.
"Vardır qızın bacarığı",
Sağ ol balla qarışıqdır.

Dedilər ki, yeniyetmə,
Başevdə qal, daha getmə,
Özgə qana qan yeritmə,
Sağ ol balla qarışıqdır.

Tuncər, Günay xosunlaşdı,
Turqız baxdı, solğunlaşdı,
Şaha qarşı çılğınlaşdı,
Sağ ol balla qarışıqdır.

-Tuncər, burda qalsa bu gül,
Gözəlləşər, artar il-il,
Saxlanması doğru deyil,
Sağ ol balla qarışıqdır.

***

Turqız döndü Turqız yerə,
Hamı dağdır öz yerində.
Qarşıladı onu ellər,
Hamı dağdır öz yerində.

And içdilər qabağında,
Kölə olaq ayağında,
Yaş parladı yanağında,
Hamı dağdır öz yerində.

O bilmədi nə eləsin,
Bu ellərə nə söyləsin,
Minel qızı iş köləsi,
Hamı dağdır öz yerində.

Qız and içdi, sizinəm mən,
Dönməm də dediyimdən,
Kövrəkləşdi Turqız hərdən,
Hamı dağdır öz yerində.

***

Tuncər, Günay, Turqız, Bacar bir oldu,
Birləşənə xırdaçılıq yaraşmaz.
Ağqurd Alpan bu birlikdə təkləndi,
Birləşənə xırdaçılıq yaraşmaz.

Ağüzlülər ara-sıra əl atdı,
Orda, burda dava-dalaş yaratdı,
Bu birliyin çevrəsini daraltdı,
Birləşənə xırdaçılıq yaraşmaz.

Manay oldu Ağüzelin başrağı,
Gözəl Günay bu başrağın dayağı,
Manayçılar qaldırdılar yarağı,
Birləşənə xırdaçılıq yaraşmaz.

Biz bu gündən ayrılırıq Başevdən,
Şah olmayaq Əkbitəndə biz nədən?

Qoy Tuncərlər əl çəksinlər bu yerdən,
Birləşənə xırdaçılıq yaraşmaz.
***
Ağüzelin ağsaqqalı Qıvraqər,
Barışdıran olsun gərək ağsaqqal,
O bağladı qapıları, yolları,
Barışdıran olsun gərək ağsaqqal.

O göndərdi İtigözü qonşuya,
Yardım etsin bir iş çıxsa qarşıya,
İlk göstəriş verdi toplumbaşıya,
Barışdıran olsun gərək ağsaqqal.

-Qış zumarı, yay taxılı yığ-dedi,
Əkbitəndən gələn yolu tıx-dedi,
Gələnlərin qarşısına çıx-dedi,
Barışdıran olsun gərək ağsaqqal.

Qoyma kimsə Başev ilə barışsın,
Gəlib onlar vergi-mergi soruşsun,
Bir də, bir də bizim işə qarışsın,
Barışdıran olsun gərək ağsaqqal.
***
Soraq tutdu qoşa qafa qonşular,
Ayrılıqdan ölkələr də qan ağlar.
Ağüzelin ayrılmağı düz oldu,
Ayrılıqdan ölkələr də qan ağlar.

İtigözün sapsarıydı yanağı,
Düz ortadan partdağ idi dodağı,
Yalan idi ən kəsici yarağı,
Ayrılıqdan ölkələr də qan ağlar.

Qıvraqərin sağ əliydi yalanda,
Hələ ondan güclü idi dolanda,
Yırtıcıydı birindən öc alanda,
Ayrılıqdan ölkələr də qan ağlar.

İtigözün, Qıvraqərin birliyi,
Ağüzeldə sarsıtmışdı dirriyi,
Daşlaşmışdı ikisinin sərtliyi,
Ayrılıqdan ölkələr də qan ağlar.
***
Ağqurd Alpan yola düşdü Ağüzə,
Vuruşmasın gərək yaxın doğmalar.
Bir gədikdə Ağüz çıxdı yoluna,
Vuruşmasın gərək yaxın doğmalar.

-Günay gəlsin-dedi ona İtigöz,
Şahlıq etsin Mindiyarda bir Ağüz,
Manay şahın şah yerini tutaq biz,
Vuruşmasın gərək yaxın doğmalar.

Ağqurd Alpan ona üz-göz bozartdı,
Gur səsini ona qarşı ucaltdı,
Söyüş verdi, İtigözü alçaltdı,
Vuruşmasın gərək yaxın doğmalar.

-Alçaq kişi, deyən yuxu görürsən,
Şahlar ilə sən döyüşə girirsən,

Yol kəsməklə kimə acıq verirsən,
Vuruşmasın gərək yaxın doğmalar.

***

Bizuc atdı qonağına İtigöz,
Qancıl üstə getmək olmaz boş əllə,
Ağqurd Alpan yaralanıb yıxıldı,
Qancıl üstə getmək olmaz boş əllə.

Qoymadılar bir də dura, dikələ,
Qara yerə yüz-yüz ölü əkilə,
Qılınc qalxa, bir damcı qan tökülə,
Qancıl üstə getmək olmaz boş əllə.

Ağüzelli irəliyə yürüdü,
Öz yerini Tuncər şahdan qorudu,
Gələnləri tutub iplə sarıdı,
Qancıl üstə getmək olmaz boş əllə.

Bu olaylar Tuncər şahı kövrəltdi,
O, Günaya gözlərini bərəltdi,
Ağüzelə inamları seyrəltdi,
Qancıl üstə getmək olmaz boş əllə.

***

Günay dedi:-Mən gedirəm oraya,
Göz yenə də gördüyündən utanar.
Ağüzelə mən bir köynək yaxınam,
Göz yenə də gördüyündən utanar.

Tuncər dedi:-Mən də sənlə yoldaşam,
Çapaq ora hər ikimiz bir, qoşa,
Mən ölərsəm, qız qardaşım, sən yaşa,
Göz yenə də gördüyündən utanar.

Günay dedi:-Şah, yerində otur sən,
Mən yaxınam Ağüzelə ərimdən,
Toy tutaram İtigözə yerində,
Göz yenə də gördüyündən utanar.

Günay mindi Gümüşatı, səyirtdi,
Bu igidlik görənləri kiritdi,
Ağüzelin acığını əritdi,
Göz yenə də gördüyündən utanar.

***

Toy çalındı eldə üç gün, üç gecə,
Doğma elə doğma gəlsə sevincdir,
Günay şah tək qarşılandı yerində,
Doğma elə doğma gəlsə sevincdir.

Ağsaqqallar yerincevə yığıldı,
Günay onlar qabağında sıxıldı,
Öclə acıq dalğaları dağıldı,
Doğma elə doğma gəlsə sevincdir.

Dedilər ki, otur şahlıq yerində,
Şah olmağa sən uyğunsan ərindən,
Ağüzelin kökləri var dərində,
Doğma elə doğma gəlsə sevincdir.

Dedilər ki, tanrı elə buyurub,
Hər adamın öz yerini ayırıb,
Birini şah, birini qurd qayırıb,
Doğma elə doğma gəlsə sevincdir.

***

Günay dedi:-Mən də şaham Tuncərə,
Hər bir işdə ortaq olur ər-arvad,
Gücər, Bacar, Turər, Baxdır, soy-kökü,
Hər bir işdə ortaq olur ər-arvad.

"Yox" söylədi İtigözlə Qıvraqər,
-Manayçıdır, Günayçıdır Ağüzlər,
Şahlıq sənə çatmalıdır-dedilər,
Hər bir işdə ortaq olur ər-arvad.

-Ərim Tuncər sizə məndən yaxındır,
Ağızbüzmə sözlər ona yaxmadır.
Mənə qarşı bunlar sıxma-boğmadır,
Hər bir işdə ortaq olur ər-arvad.

Ağqurd Alpan dustaqdadır, buraxın,
Qaytarılsın onun atı, yarağı,
Belə tutub damlamazlar qonağı,
Hər bir işdə ortaq olur ər-arvad.

***

İtigözün qanla doldu gözləri,
-Güvənc dağlar, sənə də qar yağarmış.
Biz də sənə arxalanıb durmuşuq,
Güvənc dağlar, sənə də qar yağarmış.

Onda səni buraxmarıq geriyə,
Başevdən də şahı-mahı bəriyə,
Gərək şahlar Ağüzeldən törəyə,
Güvənc dağlar, sənə də qar yağarmış.

Onda durub biz Tanını gözlərik,
Başev gərək şahlaşdıra bizləri,
Ya da bizdən əl çəkələr özləri,
Güvənc dağlar, sənə də qar yağarmış.

-Onda gərək mən qayıdam indicə,
-Yox, qayıtma, qal, danışaq bu gecə,
-Mən gəlmərəm daha bura ölüncə,
Güvənc dağlar, sənə də qar yağarmış.

***

Günay qaldı Ağüzeldə bir gecə,
Tanış evlər, tanış üzlər ulusdur.
Qardaş, bacı, ata, ana sevimli,
Tanış evlər, tanış üzlər ulusdur.

Uşaqlığı gəlib keçdi başından,
On il qabaq on dörd, on beş yaşında,
Ağüzelin gəzdi dağı-daşında,
Tanış evlər, tanış üzlər ulusdur.

Bulaq başı, çay qırağı gəzinti,
Təkliyindən gələn ağrı, üzüntü,
Ürəyinə lapdan dolan isinti,
Tanış üzlər, tanış evlər ulusdur.

Düşünürdü çayqırağı yarğanı,
Ətəkləri düzə enən ormanı,
Dağa, düzə paltar biçən dumanı,

Tanış evlər, tanış üzlər ulusdur.

Günayla Tanı şahın
görüş söyləncisi

Gün çıxanda oğurlandı Günay da,
Biclik ilə yox edirlər güclünü.
Bağladılar, dam-dustağa saldılar,
Biclik ilə yox edirlər güclünü.

Günay gördü Tanı şahı burada,
O gənci də tutubmuşlar arada,
Dedi:-Tanı, sən bu yerdə haradan?
Biclik ilə yox edirlər güclünü.

-Bunlar məni Qobuyerdə tutdular,
Gətirdilər dustaqlığa atdılar,
Çox o yana, çox bu yana dartdılar,
Biclik ilə yox edirlər güclünü.

Dedilər ki, şahlıq sənə çatacaq,
Sən şah olsan el sevincə batacaq.
Anan Manay yerdə dinc-dinc yatacaq,
Biclik ilə yox edirlər güclünü.

***

Mən şah olmaq istəmirəm doğrusu,
Şahlıqdandır yurda, elə nə olsa.
Oturmaram mən anamın yerində,
Şahlıqdandır yurda, elə nə olsa.

Alın yazım mənim belə yazılıb,
Bu yazıdan asılıyam, asılı,
Mənim könlüm tanrılara qısılıb,
Şahlıqdandır yurda, elə nə olsa.

-Bax, mənim də könlüm buna uymayır,
Tuncəri də bunlar başçı saymayır.
Şah sözündən Ağüzelli doymayır,
Şahlıqdandır yurda, elə nə olsa.

-Bu şahlığa elə Tuncər yaxşıdır,
Atası da Uğurelə başçıdır.
Həm də özü yamanlığa qarşıdır,
Şahlıqdandır yurda, elə nə olsa.

***

Neçə dustaq bu sözləri eşitdi,
Söz güclüdür iti-iti qılıncdan.
Dedilər ki, biz döyüşçü sizlərə,
Söz güclüdür iti-iti qılıncdan.

On idilər, istəkləri bir oldu,
Qaçmaq üçün gizli bir yol quruldu,
Neçə günə daş hörmələr yarıldı,
Söz güclüdür iti-iti qılıncdan.

Gecə ikən onlar çıxdı dustaqdan,
Yönəldilər Əkbitənə çaylaqdan,
Yan keçdilər kənddən, yurddan, ovlaqdan,
Söz güclüdür iti-iti qılıncdan.

On idilər, yolu on gün ölçdülər,
Ordan bura, burdan ora köçdülər,
Su yerinə qorxu-ürkü içdilər,
Söz güclüdür iti-iti qılıncdan.

***

Onçulara Tanı oldu onbaşı,
Şahdan yeydir öz yerində onbaşı,
Tuncər bildi, hamıdan çox sevindi,
Şahdan yeydir öz yerində onbaşı.

Tanı dedi, yaraq verin, at verin,
Onçuların dağ gücünü siz görün,
Mən düz yerə çevirərəm o yeri,
Şahdan yeydir öz yerində onbaşı.

Ağqurd Alpan gərək çıxa dustaqdan,
O, yarpaqdır, sanki düşüb budaqdan,
Doğru yolda biz düşmərik ayaqdan,
Şahdan yeydir öz yerində onbaşı.

Yola düşüb o gün getdi onçular,
Onbaşı baş, yerdə qalan yançılar,
Gözlərindən öclə acıq damcılar,
Şahdan yeydir öz yerində onbaşı.

***

Ağüzeldə dustaqlıqlar dağıldı,
Adam gərək açıq-saçıq yaşaya,
Ağqurd Alpan qucaqladı Tanını,
Adam gərək açıq-saçıq yaşaya.

Birləşdilər, dağ oldular laxlara,
Yayıldılar yamaclara, dağlara,
Ley oldular qudurqanmış toxlara,
Adam gərək açıq-saçıq yaşaya.

Tanı durdu İtigözlə üz-üzə,
Vuruşdular Ağüzellə göz-gözə,
Torpaq doydu qanla, çıxdı qan dizə,
Adam gərək açıq-saçıq yaşaya.

Tanı dedi:-Anam məni şah qoyub,
Addımbaşı şah deməkdən dil doyub,
İndi məni onbaşı tək el sayır,
Adam gərək açıq-saçıq yaşaya.

***

Ağqurd Alpan vurdu, aşdı İtigöz,
Bir dinclikdir tez torpağa qovuşmaq.
Qalxdı yerdən, bir də vurdu qılıncla,
Bir dinclikdir tez torpağa qovuşmaq.

Tanı dedi:-Haradadır Qıvraqər?
-Mən burdayam, Manay oğlu, yola gəl.
-Ay ağsaqqal, qalın qafa, küt təpər,
Bir dinclikdir tez torpağa qovuşmaq.

Tanı onu bizucuna keçirtdi,
Bir vurumla sonevinə köçürtdü,
Qalanlara dişlərini qıcırtdı,
Bir dinclikdir tez torpağa qovuşmaq.

Yarağını qoyub qaçdı qalanlar,
Şah yerinə tamarzı da olanlar,
Bitdi bunca qarışıqlıq salanlar,
Bir dinclikdir tez torpağa qovuşmaq.

***

Yeniyetmə yaş içində şah olmaq,
Yöndəmsiz şah elə gülünc görünər.
Mən anamı bilməyərək öldürdüm,
Yöndəmsiz şah elə gülünc görünər.

Bir ölkəni öz dalınca aparmaq,
Şah adını şişirdərək qabartmaq,
Gündə yeni olay-molay yaratmaq,
Yöndəmsiz şah elə gülünc görünər.

Odur mənim şah olmağım düz deyil,
Şah olmağa burda başçı az deyil,
Şah böyükdür, tək vurğulu söz deyil,
Yöndəmsiz şah elə gülünc görünər.

Mən gedirəm, bərkiyərəm döyüşdə,
Bilər ollam hər savaşda, hər işdə,
Şah olasan gərək böyük döyüşdə,
Yöndəmsiz şah elə gülünc görünər.

***

Qoşabaşlar Ağüzelə soxuldu,
Tək budağı öz içindən qurd yeyər.
Çıxdı qancıl qabağına onçular,
Tək budağı öz içindən qurd yeyər.

Üzləşdilər onlar hündür gədikdə,
Qoşabaşlar üç dağınıq bölükdə,
Onçularsa bir sırada, birlikdə,
Tək budağı öz içindən qurd yeyər.

Tanı çıxdı irəliyə qorxmadan,
Baş qoşabaş gövdəsinə baxmadan,
Ürəyini sarsıtmadan, sıxmadan,
Tək budağı öz içindən qurd yeyər.

Baş qoşabaş at səyirtdi arada,
Gəlib yenə durdu qabaq sırada,
O deyindi yersiz qara-quradan,
Tək budağı öz içindən qurd yeyər.

***

Ancaq Tanı gözləmədi döyüşü,
Üstünlüyü yelə verər gözləmək.
Çapdı onun üzərinə birbaşa,
Üstünlüyü yelə verər gözləmək.

Bizuc sökdü qoşabaşın böyrünü,
Düz kəsəndir hər bir yerdə əyrini.
O göstərdi acıqana yerini,
Üstünlüyü yelə verər gözləmək.

-Sənin yaşın azdır, durma duruşa,
Ər gərəkdir bu vuruşda duruşa,
Durma burda, böyük-kiçik qarışar,
Üstünlüyü yelə verər gözləmək.

Bunda bizuc, onda qılınc parladı,

Döyüş-vuruş səsləncləri gurladı,
İkisi də atlarını fırladı,
Üstünlüyü yelə verər gözləmək.

***

-Sən ananı öldürmüsən, Tanı şah,
Ölən ana tanrılaşıb qayıdır.
İkinizi öldürməyə gəlmişəm,
Ölən ana tanrılaşıb qayıdır.

-Baş qoşabaş, neçə kərə, bil ki sən,
Manay şahın üzərinə gəlmisən,
Sən üç kərə Mindiyarda ölmüsən,
Ölən ana tanrılaşıb qayıdır.

Dördüncü yol – ölmək – sona yetməkdir,
Yer üzündən sağollaşıb getməkdir,
Bu torpaqla öz üstünü örtməkdir,
Ölən ana tanrılaşıb qayıdır.

Mənim anam şahdan uca qadındır,
Ölüb, indi mənə daha yaxındır,
Hər vuruşum ona yeni çatımdır,
Ölən ana tanrılaşıb qayıdır.

***

-Mən vuruşa atılmışam sənlə,
Döyüşlərdə böyük-kiçik olmayır,
Biz onçunun qatdanmayır dizləri,
Döyüşlərdə böyük-kiçik olmayır.

Susaq daha, qoy qılınclar danışsın,
Qoy tanrılar onu məndən soruşsun,
Gücüm tanrı anam ilə qarışsın,
Döyüşlərdə böyük-kiçik olmayır.

Qılınc, bizuc toqquşaraq sıyrıldı,
Neçə yaraq düz ortadan qırıldı,
Qancıl susdu, sanki bağrı yarıldı,
Döyüşlərdə böyük-kiçik olmayır.

Toppuz dəydi, qalxan batdı, əzildi,
Səsdən-küydən sısqa ürək üzüldü,
Baş qoşabaş qorxdu, ağzı büzüldü,
Döyüşlərdə böyük, kiçik olmayır.

***

Ağqurd Alpan gözləmədi sonluğu,
Güclü odur süpürləyə güclünü.
Ulartıyla qurdlarını səslədi,
Güclü odur süpürlüyə güclünü.

Baş qoşabaş boğmaladı Tanını,
Ağqurd Alpan aldı onun yanını,
Nişan aldı iti oxla alnını,
Güclü odur süpürləyə güclünü.

Gəlib qurdlar gədik üstə uladı,
Hər bir yana qorxu-ürkü qaladı,
Baş qoşabaş toplumunu hayladı,
Güclü odur süpürləyə güclünü.

Qurdlar kəsdi qaçanların yolunu,
Çəngələdi atlarının yalını,
Parçaladı sağrısını, belini,
Güclü odur süpürləyə güclünü.

***

Tanı dedi:-Ağqurd Alpan sağ olsun,
Qurdun gücü tanrılarla bir olar.
İndi bildim qurdun gücü nə imiş,
Qurdun gücü tanrılarla bir olar.

Alpan dedi:-Qurdlar bizə doğmadır,
Onlar atan Üstüağdan qalmadır.
Nənən Mindon döşlərindən olmadır,
Qurdun gücü tanrılarla bir olar.

-Mən çağırsam, onlar gələr görəsən?
-Şah da olsan az yaşlısan hələ sən,
Onlar səndən küsüb, bunu biləsən,
Qurdun gücü tanrılarla bir olar.

Sən ananı öldürmüsən, Tanı, bil,
Qurdlar qancıl adamlarla tuş deyil,
İgidlik et, onlar içrə sən sevil,
Qurdun gücü tanrılarla bir olar.

***

Mən də on il qurd olmuşam sürüdə,
Qurd qorxaqla sısqaların sonudur.
Yaxın düşmür o, sağlama, güclüyə,
Qurd qorxaqla sısqaların sonudur.

Üstüağın süd qardaşı Ağqurddu,
Çox qancılı, acıqanı o yırtdı,
Çox gövdəli yastıbaşı bəyirtdi,
Qurd qorxaqla sısqaların sonudur.

Anan səni bağışlasa, ey Tanı,
Sən qalmazsan qurda daha yabanı,
Atacaqsan ağrı-acı, qadanı,
Qurd qorxaqla sısqaların sonudur.

Onlar soydur Minellinin kökünə,
Kölə olub şahlarının ərkinə,
Ağqurd alıb Üstüağı tərkinə,
Qurd qorxaqla sısqaların sonudur.

Turqız söyləncі

Tanı susub anasını düşündü,
Ana ölər, qan tökəni bağışlar.
İnnən belə kölə ollam anaya,
Ana ölər, qan tökəni bağışlar.

"Qızbal məni aldadaraq alçaltdı,
İstəyinə nə yetişdi, nə çatdı,
Şah anamı öldürməklə ucaltdı",
Ana ölər, qan tökəni bağışlar.

“Manay ana, gəl bağışla sən məni,
Bir il keçir sən öləndən hər günüm,

Çağırıram yazıq ana, mən səni,"
Ana ölər, qan tökəni bağışlar.

Tanrı mənə əltut olsun azcana,
El yolunda dönüm qurda, qaplana,
Anam doğan gözüqıpıq oğlana,
Ana ölər, qan tökəni bağışlar.

***

Axşamüstü ulartılar çəkildi,
Basılanda basıq susar, danışmaz.
Qurd sürüsü döndü yenə yerinə,
Basılanda basıq susar, danışmaz.

Yol aldılar Qobuyerə onçular,
At belində şaqqıldadı qamçılar,
Döşdə-başda puçurlandı damcılar,
Basılanda basıq susar, danışmaz.

Bir göl üstə dayandılar atlılar,
Bir gecədə on gecəlik yatdılar,
Su qırağı sərinliyə batdılar,
Basılanda basıq susar, danışmaz.

Ancaq bir səs onçuları oyatdı,
-Siz kimsiniz, kimlərdəndir on atlı?
Bura yeni Turelləşən elatdı,
Basılanda basıq susar, danışmaz.

***

Tanı dedi:--Sən nəçisən, gözəl qız?
Tanışlıqda hamı deyər adını,
-Mən bu elin yerinciyəm, Turqızam,
Tanışlıqda hamı deyər adını.

-Nə yaxşı ki, biz görüşdük bu yerdə,
Elə səni düşünürdüm mən hərdən,
İti əldən, düşüncədən, təpərdən,
Tanışlıqda hamı deyər adını.

-Mən Tanıyam, bu torpaqda böyüdüm,
Qana saldı məni Qızbal öyüdü,
Gör ki, sonda o qan qusdu, qan yedi,
Tanışlıqda hamı deyər adını.

-Eşitmişəm sən də bir gənc ərənsən,
Gələcəyi sən bu gündən görənsən,
Nəyin varsa öz yurduna verənsən,
Tanışlıqda hamı deyər adını.

***

Şahlığından əl çəkməyin gülüncdür,
Şahın əli gərək qana bələşə.
Yaxınını yox eləyir şah öncə,
Şahın əli gərək qana bələşə.

-Mən anamı öldürmüşəm bilmədən,
İndi məndə inam, öyünc* ölmədə,
Mən hamıya, hamı mənə gülmədə,
Şahın əli gərək qana bələşə.

-Mən Turqızam, hamı kimi deyiləm,
İstəmirəm hamılıqda seviləm,
Tanrılara, on qat ölüb, əyiləm,
Şahın əli gərək qana bələşə.

-Sən gözəlsən, Turqız, tanrı uduğu,
Mindiyarın ayıq Turel qoruğu,
Sən Tanının anasının yovuğu,
Şahın əli gərək qana bələşə.

***

Əl tutdular onlar, durdu üz-üzə,
Günəşləşir qovuşanda ulduzlar.
Turqız dedi:-Məni onçu götürün,
Günəşləşir qovuşanda ulduzlar.

Tanı onun sərtliyini bəyəndi,
Bu gözələ daha da çox güvəndi,
Qorxmaz Turqız sözü üzə deyəndi,
Günəşləşir qovuşanda ulduzlar.

Turqız dedi:-Şahlığını al ələ,
Tur soyunu qaldır, yüksəlt sən belə,
Çox gözəllər görəcəksən sən hələ,
Günəşləşir qovuşanda ulduzlar.

Tanı dedi:-Sən gözəli alaram,
Bu yerlərdə yerinc əri olaram,
Lap istəsəm şah yerimdə qalaram,
Günəşləşir qovuşanda ulduzlar.

* ***Vüqar***

***

Söz verdilər, söz aldılar bu gənclər,
Adamları gücləndirən sevgidir.
İlk görüşdə bəyənəkli oldular,
Adamları gücləndirən sevgidir.

Qızda gözə çarpmaqdaydı boy-buxun,
Yanaqları incə idi, sopsolğun,
Tanı isə arıq, hündür və çılğın,
Adamları gücləndirən sevgidir.

Söz verdilər, söz aldılar doğrudan,
Görüşsünlər uzaq acı, ağrıdan,
Bir olsunlar bir yerdə də, ayrı da,
Adamları gücləndirən sevgidir.

Onçuları sevindirdi bu istək,
İki gənci bunca sevən görərək,
Dedilər ki, bir yaşayaq, bir ölək,
Adamları gücləndirən sevgidir.

***

Onçuları Turqız qonaq elədi,
Çox istəklər qonaqlıqda açılır.
Önlərinə yemək-içmək qoyuldu,
Çox istəklər qonaqlıqda açılır.

Ağbirçəklər, ağsaqqallar oturdu,
Bu, Tanının inamını artırdı,
İçindəki qara-qura qurtardı,
Çox istəklər qonaqlıqda açılır.

Turqız dedi:-Biz Mineldən biriyik,
Mindiyarın bir ayrılmaz yeriyik,
Onun böyük şahlığıyla diriyik,
Çox istəklər qonaqlıqda açılır.

Beş ildir ki, bura doğma Tureldir,
Burda hamı, burda hər şey Mineldir,
Burda daha ellər yasaq deyildir,
Çox istəklər qonaqlıqda açılır.

***

Ağsaqqallar yazı yazdı Tuncərə,
Dinc dirrikdir bir ad altda yaşamaq.
Bundan sonra biz Minelli Turelik,
Dinc dirrikdir bir ad altda yaşamaq.

Bundan sonra bir olacaq dilimiz,
Bir keçəcək hər ayımız, ilimiz.
Var olacaq burda Turel gülümüz,
Dinc dirrikdir bir ad altda yaşamaq.

Biz Turelik, soy-kökümüz Turərdən,
Neçə ildir dinclik vardır bu yerdə,
Mindiyara inamımız dəmirdən,
Dinc dirrikdir bir ad altda yaşamaq.

Yerincimiz Turqız, Tanı şah olsun,
Bu ölkəyə Turel adı qoyulsun,
Bu yer-yurd da Mindiyardan sayılsın,
Dinc dirrikdir bir ad altda yaşamaq.

***

-Qoy onçular qalsın burda, Tureldə,
Basılmazdır söykənərsə el-elə,
Veribdirlər ağsaqqallar əl-ələ,
Basılmazdır söykənərsə el-elə.

-Mən yüz ilin qocasıyam, yüz yaşda,
Üç yüz illik oturubdur o başda,
Biz nə gördük neçə-neçə Qaraşdan,
Basılmazdır söykənərsə el-elə.

Onçuları saxlayarıq göz üstə,
Biz bir ölkə yaratmışıq düz üstə,
Çevirərik acıqanı üz üstə,
Basılmazdır söykənərsə el-elə.

Turqız dedi: Yaşa səni, Mindiyar,
Biz işlərik, ovuc qabar, əl qabar,
İçimizdə beş yüz yaşda adam var,
Basılmazdır söykənərsə el-elə.

***

Üç gün sonra köçüb getdi onçular,
Qonaq üç gün yapışıqlı görünər.
Tanı, Turqız baxışdılar bir daha,
Qonaq üç gün yapışıqlı görünər.

Söz verdilər, söz aldılar bir anlıq,
Dedilər ki, ayrılırıq bir aylıq,
Böyük sevgi nə deməkdir? Ayrılıq!
Qonaq üç gün yapışıqlı görünər.

Ayrıldılar, ürək yaxın, yol uzaq,
Üstlərində parıldadı yal-yaraq,
Üç gün görüş başa çatdı bu sayaq,
Qonaq üç gün yapışıqlı görünər.

Ağqurd Alpan altdan baxdı Tanıya,
Ayrılıqdan gözlə ürək qanıyar,
Gənclər sevər, öz-özünü tanıyar,
Qonaq üç gün yapışıqlı görünər.

***

Qoşadəniz, Qoşaboğaz, Yastıdağ,
Yol öyrəncdir yola çıxan yolçuya,
Qarşıdaydı neçə-neçə şəhər, kənd,
Yol öyrəncdir yola çıxan yolçuya.

Ağüzeldən gecə yarı keçdilər,
Hər bir kənddə bir gün qalıb köçdülər,
Sonra gəlib bir ev yeri seçdilər,
Yol öyrəncdir yola çıxan yolçuya.

Onlar burda neçə-neçə ev tikdi,
Bulaqlardan evə yaxın su çəkdi,
Dörd bir yanda ağac əkdi, kol əkdi,
Yol öyrəncdir yola çıxan yolçuya.

Hər bir onçu bir ev tikdi burada,
Ağüzelə baş çəkdilər arada,
Tanı harda, Turqız qaldı harada,
Yol öyrəncdir yola çıxan yolçuya.

Çörəkçilər söyləncі

Ağüzeldə çörəkçilər dedilər,
-Çörək üstə yüksəlibdir yaşayış,
Şahla yerinc yaxşı bilir, Başev yox,
Çörək üstə yüksəlibdir yaşayış.

Orda, burda qan axıtmaq nə yoldur?
Kim ki, taxıl əkir, biçir, oğuldur.
İşləməyən yağ içində bir qıldır,
Çörək üstə yüksəlibdir yaşayış.

Qoy girişsin hamı işin bərkinə,
Ot çalmağa, bir də əkin-biçinə,
Tanrı bunu qoyub dirrik kökünə,
Çörək üstə yüksəlibdir yaşayış.

Bolluq olsa iti olar yaraq da,
Sağ ol deyər gəlib-gedən qonaq da,
Əl götürün qan-qadadan, yaraqdan,
Çörək üstə yüksəlibdir yaşayış.

***

-Sərtüz bunu özü belə söyləyib,
Davranışı dadlandıran əməkdir.
Qoy yer əksin, mal becərsin onçular,
Davranışı dadlandıran əməkdir.

Qoy əl tutsun elə cümər* onçular,
Əltut ilə ucalmışdır Mindiyar,
Vuruşmağa, cümərliyə Minel var,
Davranışı dadlandıran əməkdir.

Öyüdümüz Tanıyadır, cümərə,

Bel vurulsun, dərin-dərin şum yerə,
Taxıl-arpa əri olsun qoy hərə,
Davranışı dadlandıran əməkdir.

Ora cummaq, bura cummaq nə gərək?
El-obaya dirrik verir duz, çörək,
Yağış yağdı, çıxdı yersiz göbələk,
Davranışı dadlandıran əməkdir.

_____
* ***Hücumçu***

***

-Başev bizə gərək deyil, onçular,
Şahlıq qanlı vuruşlarla diridir.
Manay, Tuncər, Günay, Tanı qoy olsun,
Şahlıq qanlı vuruşlarla diridir.

Şah nə edər taxıl, arpa qurtarsa,
Acıqanlar üstümüzə yortarsa,
Qırılacaq dilli, dilsiz nə varsa,
Şahlıq qanlı vuruşlarla diridir.

Biz deyirik, götür beli, kətməni,
Yaşa, yaşat bu torpaqda bitəni,
Yedirt, doyurt hər bir yoldan ötəni,
Şahlıq qanlı vuruşlarla diridir.

Biz deyirik, boş-boş gəzən onçular,
Başraq yer yox, çörək üstə taxılar.
Yerə qoyun qılıncları, qancıllar,
Şahlıq qanlı vuruşlarla diridir.

***

Bu sözləri söyləyirdi baş Ağüz,
Söz söyləyən gərək dursun sözündə,
Saxlancları* taxıl ilə doluydu,
Söz söyləyən gərək dursun sözündə.

Baş Ağüzün şumu, əkin-biçini,
Ot, taxıl, süd göstərirdi ölçünü.
Bu üçlüklə o qurmuşdu içini,
Söz söyləyən gərək dursun sözündə.

O, yoxsulu gəzər, tapar, tez görər,
Kimin əli aşağıydı, bir kərə,
Borc verirdi, əl tuturdu ərlərə,
Söz söyləyən gərək dursun sözündə.

Əl tuturdu başsız, ərsiz qalana,
Yer verirdi yersiz, yurdsuz olana,
Qoymayırdı arada su bulana,
Söz söyləyən gərək dursun sözündə.

_____
* ***Anbar***

***

Sevməyirdi onu çoxu Başevdə,
Başev sözü keçənlərdən çəkinir.
Şah baxırdı əkinçinin əlinə,
Başev sözü keçənlərdən çəkinir.

O, Ağüzə şeşələnib dururdu,
Hərdən onu vergi ilə vururdu,
Ağüz işi çörək üstə qururdu,
Başev sözü keçənlərdən çəkinir.

-Yerlərimiz Misireldən Çinelə,
Qoşaboğaz, Buzboğaz da, bax, belə,
Saymayıram Tureli də mən hələ,
Başev sözü keçənlərdən çəkinir.

Böyük şahlıq tez dağılar, görmüşük,
Kiçik olsa çox yaşayar ev-eşik,
Qorunc istər, qayğı istər hər beşik,
Başev sözü keçənlərdən çəkinir.

***

Tuncər hərdən söyləyirdi Ağüzə,
-Yeri-yurdu qoruyan da gərəkdir.
Acıqanlar gəlib soyur, aparır,
Yeri-yurdu qoruyan da gərəkdir.

Hindel, Çinel, Asurelin yürüşü,
Qoy mənciyəz bunu səndən soruşum,
Çörəkçinin buna çatar duruşu?
Yeri-yurdu qoruyan da gərəkdir.

Hər ölkənin, hər ulusun öz adı,
Ağüzelli saxlanclarda bərk yatıb,
O, çörəyə duz yerinə qan qatır,
Yeri-yurdu qoruyan da gərəkdir.

Gedək, öncə Əhriməni gəbərdək,
Doğru yolda ölənləri dəbərdək,
Yabançını ölkəmizdən süpürdək,
Yeri-yurdu qoruyan da gərəkdir.

***

Tuncər dedi:-Ağüz yaman qabadır,
Şah olmasa kim çörəyi qoruyar?
Siz əkinçi, malotaran, biz qorunc,
Şah olmasa kim çörəyi qoruyar?

Çörəkçinin hay-həşiri duyulur,
Bu hay-həşir Mindiyara yayılır,
Şah pislənir, gülünc yerə qoyulur,
Şah olmasa kim çörəyi qoruyar.

Yetər daha çörəkçilər həşiri,
Bu həşirlər çox sarsıntı gətirir.
Taxıl deyil, onlar acıq bitirir,
Şah olmasa kim çörəyi qoruyar?

Əzin acıq yayan yırtıq ağızı,
Başlarına bərk endirin toppuzu.
Kəsin yolun dağdan gələn ağ duzun,
Şah olmasa kim çörəyi qoruyar?

***

Çörəkçilər göstərişi saymadı,
Taxıl, çörək, arpa şahdır, tanrıdır.
Biz olmasaq Başev bütün ac qalar,
Taxıl, çörək, arpa şahdır, tanrıdır.

Əkbitəndən gedən toplum yol aldı,
Taxıl qaldı biçilməmiş, qaraldı,
Duz, kömürün gələn yolu daraldı,
Taxıl, çörək, arpa şahdır, tanrıdır.

Ağüzeldə üç gün çörək yox oldu,

Dördüncü gün aclıq artdı, ağ oldu,
Bu, Başevə, Tuncər şaha dağ oldu,
Taxıl, çörək, arpa şahdır, tanrıdır.

Çörəkçilər göz ağartdı topluma,
Sıralanıb dayandılar duruma,
Bu çəkişmə çəkdi bir ay yarıma,
Taxıl, çörək, arpa şahdır, tanrıdır.

***

Çoxu getdi, onçulara qoşuldu,
Yol seçməyən sonda yolsuz qalacaq,
Araladı onlar iki qardaşı,
Yol seçməyən sonda yolsuz qalacaq.

Vuruşlarda çörəkçilər əzildi,
Ağüzeldə qatı acıq sezildi,
Tuncər şahdan muraz əli üzüldü,
Yol seçməyən sonda yolsuz qalacaq.

İş açmadı öyüd, çıxış, yığıncaq,
Çörəkçilər od vurdular saxlanca,
Qan-qan deyə əl atdılar qılınca,
Yol seçməyən sonda yolsuz qalacaq.

Onçularla çörəkçilər birləşdi,
Döyüş-vuruş hay-həşiri gurlaşdı,
El bölündü neçə yerə, cırlaşdı,
Yol seçməyən sonda yolsuz qalacaq.

***

Üzləşdilər, sözləşdilər, daşdılar,
Doğmacalar qatı söyüş verəndir,
Didişdilər, çarpışdılar neçə gün,
Doğmacalar qatı söyüş verəndir.

Yaxınına pis söz deyən odlanar,
Utancağın beli bundan qatlanar,
Biri belə, biri elə adlanar,
Doğmacalar qatı söyüş verəndir.

Tanı dedi: - Yırtıcıdır Ağüzel,
Mənə qarşı yalan yayır anamgil,
Tanı daha Manayçıdır, şah deyil,
Doğmacalar qatı söyüş verəndir.

Tanı dedi: - Mən bu yerdən köçürəm,
Ağüzeldən qıraq bir yer seçirəm,
Mən şahlıqdan, mən Başevdən keçirəm,
Doğmacalar qatı söyüş verəndir.

***

Tanılandı çörəkçilər, onçular,
Hər birləşən kimdən isə ayrılır.
Neçə yüz ev at, qatıra yükləndi,
Hər birləşən kimdən isə ayrılır.

Üz tutdular yeləsənə küsənlər,
Ağüzeldən əllərini üzənlər,
Şahlıq ilə Əkbitəndən bezənlər,
Hər birləşən kimdən isə ayrılır.

Köç, altı gün yol gəlirsən, bir dayan,
Odur Duzdağ, keç Arazı bu taya,
Gəmiqaya, Motalqaya, Ağqaya,
Hər birləşən kimdən isə ayrılır.

Nuhçatandır bura, Nuha qonaq ol,
Qonaq deyil, bu yerlərə dayaq ol,
Bura gəldin, çəkişmədən qıraq ol
Hər birləşən kimdən isə ayrılır.

***

Bir kənd salıb ad qoydular, Nuhçatan
Ağır olur uyğunlaşmaq, uyuşmaq,
Yüz addımda böyük Duzdağ kahası,
Ağır olur uyğunlaşmaq, uyuşmaq.

Onlar gəzib neçə bulaq gördülər,
Bulaqlara qız adları verdilər,
Meşələrdən alma, ərik dərdilər,
Ağır olur uyğunlaşmaq, uyuşmaq.

Öncülara göllər güzgü tutsa da,
Yaşıl yallar ürəklərə yatsa da,
Gündən-günə bura sevgi artsa da,
Ağır olur uyğunlaşmaq, uyuşmaq.

Çörəkçilər yer seçdilər əkinə,
Duzdağ yönə, üzü yelə, dikinə,
Öncülarsa mindi atın belinə,
Ağır olur uyğunlaşmaq, uyuşmaq.

***

Yer yanıqdır, göl soyuqdur, daş sınıq,
Gün oynayan yerdə yerlər al olur.
Çökəklərdə qantəpərdir, qançiçək,
Gün oynayan yerdə yerlər al olur.

Nuhçatanın ətəyinə çatdılar,
Suqırağa köçlərini atdılar,
Beş gün onlar oyanmadan yatdılar,
Gün oynayan yerdə yerlər al olur.

Arpa əkdi çayqıraği enişdə,
Arpa çayı qızıllandı günəşdən,
Saçaq qızıl, saplaqları gümüşdən,
Gün oynayan yerdə yerlər al olur.

Tikanlıqlar əl-qol atıb yayılıb,
Seldən, sudan çay yarğanla yuyulub,
Dağlar burda yallı gedib bayılıb,
Gün oynayan yerdə yerlər al olur.

***

Çox küsənlər, barışanlar bilirlər,
Barışığa getmək ürək istəyir,
Küsülülər utanırlar gizlidə,
Barışığa getmək ürək istəyir.

Sevgi tez-tez bizi çəkir sınağa,
Küsü dönür şumarası alağa,
Sarı çillər qonur gül-gül yanağa,
Barışığa getmək ürək istəyir.

Küsü gizli sızıldayan qız, gəlin,

Vardır min-min küsülüsü hər ilin,
Çox da odur kallaşdıran bir eli,
Barışığa getmək ürək istəyir.

Uşaqlaşır doğmasından dönənlər,
Xırdalaşır üstünlüyü güdənlər,
Böyükləşir barışığa gedənlər,
Barışığa getmək ürək istəyir.

***

İlk addımı on il atan olmadı,
Görüşməsən ara bağlar boşalar.
Yadırğadı yavaş-yavaş küsənlər,
Görüşməsən ara bağlar boşalar.

Ağüzeldən, Əkbitəndən qıraqda,
Ayrılaraq bir köç yaşar uzaqda,
Dağlar içi, al boyalı torpaqda,
Görüşməsən ara bağlar boşalar.

Çörəkçinin sallanmışdı mırsığı,
Tutqun idi, soyuq idi qılığı,
Göynəyirdi ürəyinin sınığı,
Görüşməsən ara bağlar boşalar.

Çörəkçini Tanı dilə tuturdu,
Ağrıları günü-gündən artırdı,
Səssizlikdən qulaqları batırdı,
Görüşməsən ara bağlar boşalar.

***

Çörəkçilər var-yoxundan olmuşdu,
Var hamıyçın ana olan torpaqdır,
Döşənmişdi əkilməmiş yerlərə,
Var hamıyçın ana olan torpaqdır.

Qış şumuyla yaz əkini gedirdi,
İllər belə baş qatmaqla ötürdü,
Ağüzeldə acıq sönüb itirdi,
Var hamıyçın ana olan torpaqdır.

Acıq dönüb daha istək olurdu,
Hamı gizli göz yaşını silirdi,
Ağüzeli ana yurdu bilirdi,
Var hamıyçın ana olan torpaqdır.

Taxıl idi burda ürək oxşayan,
Tarla-tarla yığıb evə daşıyan,
Bu çörəyin bolluğuyla yaşayan,
Var hamıyçın ana olan torpaqdır.

***

Tanı gördü Turqız üçün darıxır,
Oğlanla qız bağlaşması uludur.
Demişdilər, tez-tez burda görüşək,
Oğlanla qız bağlaşması uludur.

Tanı ana sıxıntısı çəkirdi,
Gizli-gizli o, göz yaşı tökürdü,
"Manay" sözü ürəyini sökürdü,
Oğlanla qız bağlaşması uludur.

Təkcə Turqız ona toxdaq olmuşdu,
O, Qızbaldan ana öcü almışdı,
Ürəyinə yanğı, sevgi dolmuşdu,
Oğlanla qız bağlaşması uludur.

Tələsirdi Turqızını görməyə,
Ürəyini o gözələ verməyə,
Yanağından qançiçəyi dərməyə,
Oğlanla qız bağlaşması uludur.

***

Bir gün Tanı ov adıyla yox oldu,
Daş da olsan yumuşaldar qız səni,
Altı günə Turel yurda çatdı o,
Daş da olsan yumuşaldar qız səni.

İki ürək, iki istək qovuşdu,
Ayrılığın acıları sovuşdu,
Gözlərində toy istəyi sayrışdı,
Daş da olsan yumuşaldar qız səni.

Turel yurdda hamı bunca sevindi,
Tanı ilə doğma kimi öyündü,
Ürəkləri Tanı ilə döyündü,
Daş da olsan yumuşaldar qız səni.

Tanı gəldi, doğmalaşdı bu elə,
Verdi hamı hər bir işdə əl-ələ,
Qaldı burda Tanı qonaq, bax, belə,
Daş da olsan yumuşaldar qız səni.

***

Turqız dedi:-Sənsən ölkə başçısı,
Göz tək qoru nə qalıbsa anadan.
Sən gəl otur şahlığında, uca ol,
Göz tək qoru nə qalıbsa anadan.

Mən də sənə öndər olum, sevgilim,
Başevini dirriyimə ev bilim,
Bir də sənin Başevində ev gülü,
Göz tək qoru nə qalıbsa anadan.

Bir gün Manay gəldi mənim yuxuma,
Dedi göz ol mənim gözəl oğluma,
Üstün elə çoxlarının çoxuna,
Göz tək qoru nə qalıbsa anadan.

Dedi: “Tanı Mindiyara şah olsun,
Bu ölkədə Üstüağ tək sayılsın,
Adı-sanı ölkələrə yayılsın,
Göz tək qoru nə qalıbsan anadan".

***

Turqız dedi, Tanı birdən ağladı,
Ölsə belə, ana yenə anadır.
Gözlərindən ağrı-acı töküldü,
Ölsə belə, ana yenə anadır.

Gəldi durdu Manay gözü önündə,
Necə idisə, son üzləşmə günündə,
Gözəl işıq yuyuq* tanrı yönündə,
Ölsə belə, ana yenə anadır.

Dedi, oğlum, Turqız doğru söyləyir,
Anan sənə böyük şahlıq diləyir,

Mənim könlüm sənin üçün mələyir,
Ölsə belə, ana yenə anadır.

Tanı dedi:-Ana, məni bağışla,
Turqız ilə sevgimizi alqışla,
Qoy oğlumdan uzaq olsun qarğışlar,
Ölsə belə, ana yenə anadır.

_____
* ***Müqəddəs***

***

Manay dedi, gözəl oğlum, Tanı şah,
Ən ağır iş şah olmaqdır ölkədə,
Görəcəksən sıxıntını, ağrını,
Ən ağır iş şah olmaqdır ölkədə.

Qoru bütün Mindiyarı gücünlə,
Malçılıqla, geniş əkin-biçinlə,
Sözü, yolu ölç yüz kərə ölçünlə,
Ən ağır iş şah olmaqdır ölkədə.

Tanı dedi:-Sən deyən tək yaşaram,
Ana, sənə sevgim ilə daşaram,
Ölkəm üçün dağlar-daşlar aşaram,
Ən ağır iş şah olmaqdır ölkədə.

Manay getdi, gözdən itdi, çəkildi,
Gedişilə al dan yeri söküldü,
Gənc Tanının gözündən yaş töküldü,
Ən ağır iş şah olmaqdır ölkədə.

***

Tanı gəldi Əkbitənə, şah oldu,
Ayrı olur davranışı hər yaşın.
O, azcana yar-yatımlı olmuşdu,
Ayrı olur davranışı hər yaşın.

İlk gündən də "Ağüz" deyib bağırdı,
Önçuları öz yanına çağırdı,
Ağüzeldən susuz çamır, yoğurdu,
Ayrı olur davranışı hər yaşın.

Turqız dedi: - Ağüzeli küyləmə,
Dallarınca artıq-əskik söyləmə,
Yaxşısını qovub incik eləmə,
Ayrı olur davranışı hər yaşın.

Onlar səni şah görməklə öyünür,
Ürəkləri Manay ilə döyünür,
İndi sənin gözlərindən yayınır,
Ayrı olur davranışı hər yaşın.

***

Tuncər, Günay, Alpan dedi bunları,
Baş əyəsən gərək hamı deyənə,
-Ağüzeli dilə tutub yovuşdur,
Baş əyəsən gərək hamı deyənə.

-Çinel bizə yenə bərk diş qıcıdır,
Hindelin də sözü, gözü acıdır,
Şeşələnir onlar, sanki qoçudur,
Baş əyəsən gərək hamı deyənə.

-Uğurelə yardım gərək tezliklə,

Toplum şişər qoyularsa çox dincə,
Başevlərdən uzaq olsun əyləncə,
Baş əyəsən gərək hamı deyənə.

-Sən özünü ən görkəmli önər say,
Yeləsəndən yelçəkənə yazı yay,
Sayıq olsun hər yaraqlı, hər alay,
Baş əyəsən gərək hamı deyənə.

***

Tuncər özü Uğurelə yollandı,
Ağır işi üzüyola götürər.
Bacar bir az qocalmışdı, bükükdü,
Ağır işi üzüyola götürər.

Qarşıladı gəlinini Qızçiçək,
Kövrəlmişdi oğlu üçün ağbirçək,
Bacar çıxdı önlərinə sevincək,
Ağır işi üzüyola götürər.

Yada saldı Üstüağı, Manayı,
O oxşadı gözü yaşlı Günayı,
Dedi, Günay Mindiyara yarıyıb,
Ağır işi üzüyola götürər.

Günay, Tuncər Uğureldə qaldılar,
On ay sonra ata, ana oldular,
Onlar qalıb burda yuva saldılar,
Ağır işi üzüyola götürər.

III BÖLÜM
XI QAPI

Onçu oğlu Cumər söyləncisi

Tanı şahın səsləncləri gurladı,
Alınyazı gənc şahlara yatımdır.
Bağışladı dargözlüyü el ona,
Alınyazı gənc şahlara yatımdır.

Yerincləri yerləşdirdi yerlərə,
Yaraqları paylaşdırdı ərlərə,
Daş-qaş dedi puçur-puçur tərlərə,
Alınyazı gənc şahlara yatımdır.

Turel boyu Cumər, Onçu var oldu,
Gözlərində el istəyi qor oldu,
Yolu, sözü «yar, vur, qır, al, dur» oldu,
Alınyazı gənc şahlara yatımdır.

Ağüzel də aşdı, daşdı, çağladı,
Tanı şaha hamı könül bağladı,
Mindiyarın acıqanı dığladı,
Alınyazı gənc şahlara yatımdır.

***

Turqız idi dolandıran Başevi,
Qadın evin dirəyidir, açarı.
Həm ərəndi, həm yer-yığış yiyəsi,
Qadın evin dirəyidir, açarı.

Cumər, Onçu yüzminbaşı oldular,
Tanı şahdan at, yem, yaraq aldılar,
Şaha hər gün üç başəydi qıldılar,

Qadın evin dirəyidir, açarı.

Turqız dedi: - Asureli tutaram,
Qırıb, çatıb Buzboğaza çataram,
Yeləsəni yelçəkənə qataram,
Qadın evin dirəyidir, açarı.

Cumər dedi:-Turqız bizim minbaşı,
Vuruşarıq bacı-qardaş qarışıq,
Bizdən vuruş, Turqızdansa yaraşıq,
Qadın evin dirəyidir, açarı.

***

Tanı dedi:-Ana, mənə əltut ol,
Ana, bala bir ürəkdir, ayrılmaz.
Həm bağışla, həm oğluna yol göstər,
Ana, bala bir ürəkdir, ayrılmaz.

Tanı şahdan uzaqlaşdı sızıltı,
İçindəki laxlamlaşan sıxıntı,
Ana ilə gizli-gizli pıçıltı,
Ana, bala bir ürəkdir, ayrılmaz.

«Ana» dedi, «oğul» sözü eşitdi,
Bu söz şahın ürəyini şişirtdi,
Ana onu, o, ananı yaşatdı,
Ana, bala bir ürəkdir, ayrılmaz.

Göz qoymuşdu öz şahına Mindiyar,
Ana səni ucalığa aparar,
Onda min-min baladan çox dözüm var,
Ana, bala bir ürəkdir, ayrılmaz.

***

Çörəkçilər əl çəkmədi Tanıdan,
Çörək şahdır, şahdan uca yeri var.
Dedilər ki, hamı gərək işləsin,
Çörək şahdır, şahdan uca yeri var.

Əkib-biçdi Arpa çayı boyunca
Taxıl, arpa, noxud, mərci-doyunca,
Dedilər ki, şahlıq nədir, oyuncaq,
Çörək şahdır, şahdan uca yeri var.

Onçu oğlu Cumər ucaboy idi,
Ana yandan igid Ağüz soy idi,
Vuruşlarda o, Bacara tay idi,
Çörək şahdır, şahdan uca yeri var.

Tanı onu öz yanında əylədi,
-İgid, sənə inanıram, – söylədi,
Üç topluma yüzminbaşı elədi,
Çörək şahdır, şahdan uca yeri var.

***

Daş yarırdı, döş açırdı qılıncı,
Ərin atı gərək qaplan-qurd ola.
Atı yorğa, bulud kimi ağ idi,
Ərin atı gərək qaplan-qurd ola.

Çap-çap idi, ağ dırnaqdı, quzu tək,
Oynaq, sıçraq, ürkək, kükrək, yüyürək,

İtilikdə ox idi o, sərt külək,
Ərin atı gərək qaplan-qurd ola.

Səs tanıyıb söz qanırdı deyəsən,
Başla, gözlə danışırdı o hərdən,
Dırnağıyla yer eşirdi at birdən,
Ərin atı gərək qaplan-qurd ola.

Muşquruqdan qanad açıb uçurdu,
Uçurumlar, aşırımlar keçirdi,
İsti, soyuq küləkləri içirdi,
Ərin gərək atı qaplan-qurd ola.

***

Onu belə tanımışdı Tanı şah,
İgid ərən ad qazanar işiylə.
Ağüzeldə, vuruşlarda görmüşdü,
İgid ərən ad qazanar işiylə.

Güləşiylə tanıq idi o yalnız,
Enli qılınc, uzun bizuc, tunc toppuz,
Bağışlamaq qanmayırdı o qansız,
İgid ərən ad qazanar işiylə.

Tanı şahın çoxdu belə ərləri,
Hər önərin öz yerində dəyəri,
Nuhçatana göndərirdi Cuməri,
İgid ərən ad qazanar işiylə.
«Cumər sizə başçı olsun hər işdə,
Əkin, biçin, ev-eşikdə, döyüşdə,
Uca-uca dağlar içi gedişdə,
İgid ərən ad qazanar işiylə».

***

Çörəkçilər qarşıladı Cuməri,
Barış desin ortalığa girənlər.
«Çörəkçilər», «Başevçilər» barışdı,
Barış desin ortalığa girənlər.

Cumər dedi:-Biz hamımız birinci,
Nuhçatanda hamılıqla yerincik,
Var olmasın qoy nə küskün, nə incik,
Barış desin ortalığa girənlər.

Mən Cumərəm – Onçu oğlu Ağüzdən,
Bu ölkədə biz sizdənik, siz bizdən,
Biz tanrıyla bir çıxmışıq dənizdən,
Barış desin ortalığa girənlər.

Mən baltayam qancılların kökünə,
Mən vurğunam ota, şuma, əkinə,
Mən yumruğam məncillərin ənginə,
Barış desin ortalığa girənlər.

***

Biz Mindiyar ölkəsində Minelli,
Ucalacaq kim bağlansa torpağa,
Turqdan tutmuş Tanıyacan soy-kökük,
Ucalacaq kim bağlansa torpağa.

Qoşaqafa daşqır bizdən uzaqdır,
Ev-eşiyi qazma-qazma yataqdır,

Onlar bizə görünəndən qaçaqdır,
Ucalacaq kim bağlansa torpağa.

Nuhçatanda yüz-yüz dam-daş tikərik,
Buzlaqlardan bulaq suyu çəkərik,
İldə üç yol burdan göy ot biçərik,
Ucalacaq kim bağlansa torpağa.

Mindiyardır dayanışın o başı,
Davranışla dayanışı yanaşı,
Dilbirlərə birlik, sevinc yaraşır,
Ucalacaq kim bağlansa torpağa.

***

Toplum yığdı Cumər qorxmaz gənclərdən,
Qorxmazlarla zənginləşir hər ölkə,
Cumər adı qoydu yeni topluma,
Qorxmazlarla zənginləşir hər ölkə.

Gənclər ötkəm atlarını çulladı,
Bu topluma hamı Cumər yolladı,
Çörəkçilər bundan mırsıq salladı,
Qorxmazlarla zənginləşir hər ölkə.

Gənclər atla dörd bir yana çapdılar,
Araşdırıb tapıntılar tapdılar,
Hər bir yerdə ər tək gözə çarpdılar,
Qorxmazlarla zənginləşir hər ölkə.

Cumər dedi: -Mən Cumərəm ölüncə,
Döyüş-vuruş mənim üçün əyləncə,
Gözləyirəm bir göstəriş gəlincə,
Qorxmazlarla zənginləşir hər ölkə.

***

Cumər dedi toplumuna gizlicə,
Qurda çörək yedirdəndə it olur.
Öz yanında hərə bir qurd bəsləsin,
Qurda çörək yedirdəndə it olur.

Qurd əltutdur gecə-gündüz topluma,
Odur gələn pis ayaqda yardıma,
Qurdu bəslə, dayça olsun atına,
Qurda çörək yedirdəndə it olur.

Əl-qol, yumruq vuruşunda qurdlaşın,
Qancıl üstə at çapanda atlaşın,
El söyləyib toplumlaşın, yurdlaşın,
Qurda çörək yedirdəndə it olur.

Döyüşlərdə it sürüsü qabaqda,
İti olur ağ dişləri yaraqdan,
Qoruyacaq o, toplumu qıraqdan,
Qurda çörək yedirdəndə it olur.

***

Cumər özü beş qurd tutub saxladı,
Qurd, deyirlər, adam olub haçansa,
O, təklikdən öz dilini unudub,
Qurd, deyirlər, adam olub haçansa.

Çəkdi qurdun itləşməsi neçə il,
Dedilər ki, bu, bizlərə yön deyil,
Qurd itləşir neçə ildə onda bir,

Qurd, deyirlər, adam olub haçansa.

İtlər cumub öndə nə var gəmirir,
Atı, fili, yaraqlını, dəmiri,
Yaraqlıdır döyüşlərdə hər biri,
Qurd, deyirlər, adam olub haçansa.

Hər yaraqlı bir qurd tutub saxladı,
Onun itə dönməsini yoxladı,
İtləşəndə üzəngiyə bağladı,
Qurd, deyirlər, adam olub haçansa.

***

Qurd çevrildi yavaş-yavaş it oldu,
İtin, qurdun oxşarı bir, kökü bir,
Yaxın oldu it, qurddan da adama,
İtin, qurdun oxşarı bir, kökü bir.

At qalxmayan qayalara qalxdı o,
Acıqanı yuvasında yaxdı o,
Gecə ikən atlarını boğdu o,
İtin, qurdun oxşarı bir, kökü bir.

Cumər dedi:-Qartal tutun, bəsləyin,
Şığıyaraq cummağını gözləyin.
Sonra onu döyüşlərə səsləyin,
İtin, qurdun oxşarı bir, kökü bir.
Yiyələnin itə, qurda, qartala,
O, göz dələr, adam yıxar, ov alar,
Caynaqları altda quşlar çabalar,
İtin, qurdun oxşarı bir, kökü bir.

***

Tanı dedi:-şah bir olsun ölkədə,
Sərtüz dedi:-Səs çıxarmı tək əldən?
Yerincləri topladılar Başevə,
Sərtüz dedi:-Səs çıxarmı tək əldən?

Bir olarsa artar şahın sorağı,
Yerinclərin, toplumların dayağı,
Olmaz qabın heç bir yerdən çatdağı,
Sərtüz dedi:-Səs çıxarmı tək əldən?

Bacar, Tuncər, Turqız, Alpan danışdı,
Tanı şahın düşüncəsi qarışdı,
Biri ondan, biri bundan yapışdı,
Sərtüz dedi:-Səs çıxarmı tək əldən?

Bacar dedi:-Şah bir olsa, udarıq,
Biz birliyi, üstünlüyü dadarıq,
Bizdə varsa başarıqla bacarıq,
Sərtüz dedi:-Səs çıxarmı tək əldən?

***

Tanı dedi:-Mən hamıya başçıyam,
Gərək şahlıq başraq olsun hamıya.
Mənsiz heç kim heç bir işi görməsin,
Gərək şahlıq başraq olsun hamıya.

Üç gün sonra Bacar deyən sayıldı,
Şahın yeni davranışı qoyuldu,
Şahayasa adıyla bu yayıldı,
Gərək şahlıq başraq olsun hamıya.

Bacar dedi:-Artsın üç qat çatarlar,*

Elarası onlar körpü atarlar,
Onda hamı bir başraqdan tutarlar,
Gərək şahlıq başraq olsun hamıya.

**Poçtalyon, qasid*

Şah özü də tez-tez çıxsın ellərə,
Qulaq assın acı dadan dillərə,
Son qoyulsun «mənəm, mənəm» illərə,
Gərək şahlıq başraq olsun hamıya.

***

Cumər dedi:-Yarıtlanaq üç şeydən,
İt, at, qartal əltut olsun ellərə.
Mən bunlardan yeni toplum yaratdım,
İt, at, qartal əltut olsun ellərə.

Tanı dedi:-Bunu görsə acıqan,
O da toplum yaradacaq qartaldan,
İti, quşu çevirəcək yarağa,
İt, at, qartal əltut olsun ellərə.

Cumər dedi bu qurumun var yolu,
Göstərməyək üzdə iti, qartalı,
Bunlar qalsın acıqana qapalı,
İt, at, qartal əltut olsun ellərə.

Bəyənildi Cumərin də qurqusu,
Artdı ona yerinclərin qayğısı,
Vecsiz qaldı Tanı şahın sorğusu,
İt, at, qartal əltut olsun ellərə.

***

Yeni vuruş Asureldən başladı,
Qonşu ölkə diş qıcıdar qonşuya,
Bu vuruşa Balasqel də qoşuldu,
Qonşu ölkə diş qıcıdar qonşuya.

Qoşaçayın arxasından gəldilər,
Qoşadəniz istəyilə öldülər,
Quduzlaşıb Mindiyarı böldülər,
Qonşu ölkə diş qıcıdar qonşuya.

Ağüzellə Turel, İlam, Əkbitən
Sıralanıb silkələndi yerindən,
Bacar gəldi, nərildədi dərindən,
Qonşu ölkə diş qıcıdar qonşuya.

Cumər qartal, it-qurdunu götürdü,
Yaraqlanan toplumunu gətirdi,
O özünü İlamyurda yetirdi,
Qonşu ölkə diş qıcıdar qonşuya.

***

Bacar, Tuncər, İtiatla Gümüşat,
Üstün olar üstünlərin savaşı,
Göz-gözəydi iki böyük üz-üzə,*
Üstün olar üstünlərin savaşı.

Cumər, Turqız Balasqelə yetişdi,
Üç üz-üzə bir-birinə bitişdi,
Çarpışaraq, vuruşaraq didişdi,
Üstün olar üstünlərin savaşı.

Üç yüz qartal qanad açdı bir anda,
Min it çıxdı üz-üzəyə İlamda,
Qorxu, ürkü artdı çox-çox adamda,
Üstün olar üstünlərin savaşı.

Bir yandan da qılınc, bizuc, ox, toppuz
Bacar qılınc əndərirdi tək, yalqız,
Bağırırdı, öz evinə dön, quduz,
Üstün olar üstünlərin savaşı.

***

Birləşmişdi Asurellə Balasqel,
Qorxuludur acıqanın birliyi,
Turqız, Cumər sıraları yarırdı,
Qorxuludur acıqanın birliyi.

Şığıyaraq göz dəlirdi qartallar,
Boğaz yırtır qurdsoy quduz itollar,
Qılınc vurub qan tökürdü oğullar,
Qorxuludur acıqanın birliyi.

Cəbhə

Şığırtılı qartallardan qaraltı,
Quduz, dəli itollardan ulartı,
Yaralanan yaraqlıdan bağırtı,
Qorxuludur acıqanın birliyi.

Turqız üzü örtülüydü qabaqda,
Qan alırdı yersiz gələn qonaqdan,
Vurub, kəsib doğrayırdı bayaqdan,
Qorxuludur acıqanın birliyi.

***

Bacar, Tuncər, İtiatla Gümüşat,
Kim olsa da gələn böyük arxadır.
Qovuşdular Cumər ilə Turqıza,
Kim olsa da gələn böyük arxadır.

Cumər dedi:-Çox böyükdür gücümüz,
Acıqana yetərliyik üçümüz,
Turqız isə bizə əltut bacımız,
Kim olsa da gələn böyük arxadır.

Qartalla it toplumları sınaqda,
Yardımçı tək vuruşurlar qabaqda.
Biz salırıq qaçanları ayaqdan,
Kim olsa da gələn böyük arxadır.

Turqız dedi:-Tuncər dönsün geriyə,
Birdən Çinel Uğurelə yeriyər,
İnanmayaq hər ölüyə, diriyə,
Kim olsa da gələn böyük arxadır.

***

Tuncər döndü Uğurelə çaparaq,
Arxa olun evdə, çöldə hamıya.
Qarçiçək də, Qızçiçək də Günay tək,
Arxa olun evdə, çöldə hamıya.

Bacar dedi:-Qartalları seçirəm,
Acıqanın arxasına keçirəm,
Üstünlüyü qartallarla ölçürəm,
Arxa olun evdə, çöldə hamıya.
Qartalları alıb Bacar sağındı,
Bunlar quşdu, yoxsa yağış, yağıntı?!
Acıqanı sarsıtmışdı boğuntu,
Arxa olun evdə, çöldə hamıya.

Dedi:-Gedim, mən çağırım quşları,
Qılınclayım, biçim yekə başları,
Mən doğrayım o qolları, qıçları,
Arxa olun evdə, çöldə hamıya.

***

Bacar birdən irəliyə sıçradı,
Üstün gəlir gələn üstə ilk cuman.
O, «hay» dedi quduz itə, qartala,
Üstün gəlir gələn üstə ilk cuman.

İtiatın kişnərtisi yayılqan,
Bacarınsa nəriltisi ayıltqan,
Acıqanlar çaşqın, ürkək, bayılqan,
Üstün gəlir gələn üstə ilk cuman.

Balasqelli gözləmirdi Bacarı,
Bacar idi üstünlüyün açarı,
Acıqanlar səpik-səpik qaçarı,
Üstün gəlir gələn üstə ilk cuman.

Asurelin başçıları ürküdə,
Qaçarlıqda seçilməyir tülküdən,
Cumər öndə üstünlüyü bərkidən,
Üstün gəlir gələn üstə ilk cuman.

***

Acıqanlar cummuşdular Bacara,
Dörd bir yandan vurum alan yıxılar,
Sağrısından yaralandı İtiat,
Dörd bir yandan vurum alan yıxılar.

Bacar azca durumunu itirdi,
İtiatı qovub yana ötürdü,
Bu an Cumər özün ona yetirdi,
Dörd bir yandan vurum alan yıxılar.
Mən Cumərəm, Balasqelə tanığam,
Yanğılıqda bir az qanı donuğam,
İtdən, quşdan, atdan çox-çox ayığam,
Dörd bir yandan vurum alan yıxılar.

Acıqana o, gözünü bərəltdi,
Bir qılıncla dörd-beşini gəbərtdi,
O, Bacarın dörd yanını seyrəltdi,
Dörd bir yandan vurum alan yıxılar.

***

Onlar bir də söykəndilər dal-dala,
Hər bir işdə söykən güclü arxaya,
Qışqırıqlar, bağırtılar baş aldı,
Hər bir işdə söykən güclü arxaya.

Qurd itlərin sürüləri göründü,

Acıqana qorxu-ürkü büründü,
İti dişlər boğazlara dirəndi,
Hər bir işdə söykən güclü arxaya.

Qartallar da caynaq atıb baş üzdü,
Tunc toppuzlar çiyin qırdı, baş əzdi,
Acıqanlar öz yurdunda yol azdı,
Hər bir işdə söykən güclü arxaya.

Qaçhaqaçda yaraqlılar yarışdı,
Hamı basıq olmağıyla barışdı,
Qan torpağa, torpaq qana qarışdı,
Hər bir işdə söykən güclü arxaya.

***

Balasqlılar dedi:-Bacar, əl saxla,
Acıqanla dil tapmaq da yaxşıdır.
Mindiyarın başrağına baş əyək,
Acıqanla dil tapmaq da yaxşıdır.

-Biz bir daha aldanaraq yalana,
Min-min əri boyamışıq al qana,
Göz dikmərik daha olan-qalana,
Acıqanla dil tapmaq da yaxşıdır.

Bacar, Cumər bağışlasın bizləri,
Bir də çapıb dağıtmarıq sizləri.
Çox yaraşır bizə «basıq» sözləri,
Acıqanla dil tapmaq da yaxşıdır.

Cumər dedi:-Qoyun yerə yarağı,
Doğrayaram sizi odun sayağı.
Tanrılardır bu ölkənin dayağı,
Acıqanla dil tapmaq da yaxşıdır.

***

Asurelə qarşı durdu İlam da,
Yerə çökür dayağını itirən,
Onlar bir il Mindiyarla vuruşdu,
Yerə çökür dayağını itirən.

Mindiyarın toplumları yürüşdə,
Sarı qumluq at oynadır yerişdə.
Yaraqlılar qanlı çəkiş-bərkişdə,
Yerə çökür dayağını itirən.

Tanı şahla Ağqurd Alpan lap öndə,
Yaralanıb ikisi də çiyindən,
Yaraqları, geyimləri nə gündə,
Yerə çökür dayağını itirən.

Tutuq düşmək minelliyə yaraşmaz,
Ha qarışdır, yağ su ilə qarışmaz,
Minelliylə Asurelli barışmaz,
Yerə çökür dayağını itirən.

***

Gənc şah bir az vuruşlarda kal idi,
İllər çəkir şahın ərən olması.
Gördülər ki, vuruşmağı bacarmır,
İllər çəkir şahın ərən olması.

İp atdılar, Tanı şahı tutdular,
Tərmə-tələs dustaqlığa qatdılar.

Tuta-tuta İlamelə çatdılar,
İllər çəkir şahın ərən olması.

Üç gün sonra dustaqlıqdan qaçdı o,
Gecə ikən sanki qanad açdı o,
Vuruşlarda bir də coşub daşdı o,
İllər çəkir şahın ərən olması.

Ağqurd Alpan yorulmuşdu, yaralı,
Döşü, başı neçə yerdən sarılı.
Hərdən-birdən gözləri də qaralı,
İllər çəkir şahın ərən olması.

***

Çatdı Tanı, ona dayaq kəsildi,
Vuruşlarda inam iti yaraqdır.
Alpan dedi:-Tanrı səni göndərib,
Vuruşlarda inam iti yaraqdır.

O yandan da Turqız çatdı ərinə,
Başçı oldu toplumların birinə,
O vuruşdu neçə oğul yerinə,
Vuruşlarda inam iti yaraqdır.

Bir yandan da uçub gəldi qartallar,
Qurddan daha qancıl olan itollar,
Balasqeldə basar çıxan oğullar,
Vuruşlarda inam iti yaraqdır.

Parıldadı göydə par-par üç yaraq,
Acıqanlar düşmüşdülər dal-qabaq,
Titrəyirdi ağızlarda dil-dodaq,
Vuruşlarda inam iti yaraqdır.

***

Asurel şah tutuqlandı savaşda,
Şah tutulsa, əl saxlayır qalanlar.
Turqız onu Tanı şaha pay verdi,
Şah tutulsa, əl saxlayır qalanlar.

Cumər gəldi, dedi:-Onu öldürün!
Ölüsünü bizuc üstə qaldırın,
Asurelə qorxu, hay-küy saldırın,
Şah tutulsa, əl saxlayır qalanlar.

Turqız dedi:-Qoy o qalsın dustaqda,
Qoy çərləsin işləməkdən torpaqda,
Gör, nə deyir qancıl oğlu bayaqdan,
Şah tutulsa, əl saxlayır qalanlar.

Alpan dedi:-O deyir ki, yazığam,
Olmamışıq Mindiyara acıqan,
Bizi belə yaradıbdır yaradan,
Şah tutulsa, əl saxlayır qalanlar.

***

Asur şah da söylədi ki, Tanı şah,
İlk yaranış tanrılardan qabaqdır.
Yaranışda minellidir Mindiyar,
İlk yaranış tanrılardan qabaqdır.

Ellər içrə ən uludur eliniz,
Dillər içrə ən uludur diliniz,

Əllər içrə ən itidir əliniz,
İlk yaranış tanrılardan qabaqdır.

Dilinizdə «ək, biç, vur, tut» uludur,
«Yağ, ət, su, yer, ot, at, quş, süd» uludur,
«Ev, yer, dam, daş, çay, göl, yal, yurd» uludur,
İlk yaranış tanrılardan qabaqdır.

İş dilidir, al-ver, döyüş, yaratmaq,
Öldürməyin, qoyun qalım mən dustaq,
Bir ögrənc tək, bir tutuq tək, ya qonaq,
İlk yaranış tanrılardan qabaqdır.

***

Şah inandı ona, dedi, yazıqdır,
Yalvaranlar, əyilənlər yaşayır,
Öz dilini qoy öyrətsin o, bizə,
Yalvaranlar, əyilənlər yaşayır.

Üç ay çəkdi Asurellə vuruşlar,
Çox uzandı ölüm-itim, duruşlar,
Çatdı göyə yalvarışlar, qarğışlar,
Yalvaranlar, əyilənlər yaşayır.
Tanı dedi:-Qovun getsin yamanı,
Atın çölə içinizdən yalanı,
Siz ayırın bulud ilə dumanı,
Yalvaranlar, əyilənlər yaşayır.

İnanışa bağlansanız qan olmaz,
Üstünüzü duman almaz, çən almaz,
İnanışsız heç şah, ərən ucalmaz,
Yalvaranlar, əyilənlər yaşayır.

***

Cumər çapdı Asureli, İlamı,
Basıq olan çox varını itirir.
Basıqların özləri də dedilər,
Basıq olan çox varını itirir.

Qızıl, gümüş, göydaş, aldaş,* durudaş,
Dəvələrə yüklənmişdi bu daş-qaş,
Nuhçatana yollanırdı dənizdaş,**
Basıq olan çox varını itirir.

Sürü, naxır, ilxı yola salınır,
Kimdə nə var artıq-əskik, alınır,
Cumərləşir, Mindiyarın olunur,
Basıq olan çox varını itirir.

Bunu görüb Bacar birdən tutulur,
Çal qaşları dartılaraq çatılır,
Cumər gəlib ortalığa atılır,
Basıq olan çox varını itirir.

***

Cumər deyir:-Böyük Bacar, incimə,
Var adamı adamlıqdan çıxarar,
Mindiyardan aparılıb bu varlar,
Var adamı adamlıqdan çıxarar.

**Yaqut*

***Mərcan**

Bu varlardır Asur şahı cırnadır,
Onu tez-tez öz yerindən oynadır.
Adam sudur, bol var onu qaynadır,
Var adamı adamlıqdan çıxarar.

İldə üç yol bizə yürüş edirlər,
Eli, yurdu çalıb, çapıb didirlər,
Bizdən vergi gözləyirlər, güdürlər,
Var adamı adamlıqdan çıxarar.

İstəyirsən dinc otura, çap, gətir,
Çapılana o var-yoxu sən yetir,
Asurşahı aralıqdan sən götür,
Var adamı adamlıqdan çıxarar.

***

Bacar dedi:-Daş-qaşları qaytarın,
Eli soymaq el oğluna yaraşmaz.
Asurşahın varı getsin Minelə,
Eli soymaq el oğluna yaraşmaz.

Acıqanın yarağını götürün,
Onu susuz qumluqlarda itirin,
Yaraqları Uğurelə yetirin,
Eli soymaq el oğluna yaraşmaz.

Bacar, Cumər bir ortağa gəlirlər,
El içində daş-qaşları bölürlər,
Ağrıları ürəklərdən silirlər,
Eli soymaq el oğluna yaraşmaz.

On il keçir, səs kəsilir elə bil,
Dinc oturur Balasqellə Asurel,
Bol var, hələ döyüşlərdə güc deyil,
Eli soymaq el oğluna yaraşmaz.

Muğel söyləncisi

Tuncər gəlib Uğurelə çatmışdı,
Dinclik duyur son ayaqda yol gələn,
Göz oxşayan yerlər idi Uğurel,
Dinclik duyur son ayaqda yol gələn.

Dayanaraq hərdən uduq dərirdi,
Hərdən suya, çaya, gölə girirdi,
Yol üstündə qanlı izlər görürdü,
Dinclik duyur son ayaqda yol gələn.

Düşüb qalan yaralılar yol boyu,
Lomba-lomba qan içində uyuyur,
Dil ağızda, qan damarda soyuyub,
Dinclik duyur son ayaqda yol gələn.

Yerincevdə nə Qarçiçək, nə Günay,
Var qışqırıq, var göz yaşı, var haray,
Uğureldə yaraqlanır üç alay,

Dinclik duyur son ayaqda yol gələn.

***

Çıxdı onun qabağına Qızçiçək,
Ana qara geyinəndə vay düşər.
Dedi:-Oğul, soydu bizi acıqan,
Ana qara geyinəndə vay düşər.

Üstlərində qalın-qalın sırıqlı,
Hamı atlı, patavalı, çarıqlı,
Qadınlardan, mal-qaradan yanıqlı,
Ana qara geyinəndə vay düşər.

Bunu deyib ana düşüb bayıldı,
«Tuncər» sözü yerincevə yayıldı,
Ölkə sanki yuxudaydı, ayıldı,
Ana qara geyinəndə vay düşər.

Dedi:-Gələn Muğmuğ idi, quduz tək,
Kirpik seyrək, saqqal seyrək,bığ seyrək,
Tutuq düşdü Günay ilə Qarçiçək,
Ana qara geyinəndə vay düşər.

***

-Bizim dildə danışırdı hamısı,
Dilibirlər niyə gözü dar olur?
Qamarlayıb apardılar qızları,
Dilibirlər niyə gözü dar olur?!

Tuncər dedi:-Tərmə-tələs yığışın,
Yaraqlanıb alaylara axışın,
Gücü yoxdur deyinməyin, qarğışın,
Dilibirlər niyə gözü dar olur?!

Mən gedirəm, siz də mənim dalımca,
Vuruşarıq son gücümüz qalınca,
Qadınları çatıb geri alınca,
Dilibirlər niyə gözü dar olur?!

Uğurelli, ağ başrağı götürün,
Özünüzü qız-gəlinə yetirin,
Acıqanı yer üzündən itirin,
Dilibirlər niyə gözü dar olur?!

***

Yeləsənə doğru çapdı Gümüşat,
Dardakına yer-göy bütün dar olar.
Çırpınırdı darda Günay, Qarçiçək,
Dardakına yer-göy bütün dar olar.

Muğmuğ idi başçıları Muğelin,
Addamışdı başı üstdən çox ölüm,
Tutuq idi onda bir qız, bir gəlin,
Dardakına yer-göy bütün dar olar.

Muğel böyük ölkə idi, yamyaşıl,
Yüz il idi sərt keçirdi hər qışı,
Muğmuğ isə bu ulusda elbaşı,
Dardakına yer-göy bütün dar olar.

Quraqlıqlar birdən on il çəkirdi,
Tanrı burda bol «quraqlıq» əkirdi,
Hərdən sel-su yolu-yalı sökürdü,

Dardakına yer-göy bütün dar olar.
***
Buna görə çapqınçıydı elbaşı,
Qılınc qalxmaz yemək-içmək bol olsa.
Yürüş edib qonşuları çapırdı,
Qılınc qalxmaz yemək-içmək bol olsa.

Ac qılınca çapar, susuz dənizə,
Durar qorxu, ölüm ilə üz-üzə.
Çıxar belə vuruşlarda qan dizə,
Qılınc qalxmaz yemək-içmək bol olsa.

Qan tökməyi istəmirdi bir oğul,
Ancaq hərdən istəmədən qan doğur,
Quraqlıqdan ağız acı, gün ağır,
Qılınc qalxmaz yemək-içmək bol olsa.

Odur Muğel qonşuları çapırdı,
Ət, otunu qapılardan qapırdı,
Hər il elə haray-həşir qopurdu,
Qılınc qalxmaz yemək-içmək bol olsa.
***
Tuncər gəlib çatdı böyük Muğelə,
Böyük olur çətinliyi böyüyün.
Toplumları yol gəlirdi, yoldaydı,
Böyük olur çətinliyi böyüyün.

Aclıq içrə hamı solub-saralıb,
El oğuldan, oğul eldən aralı,
Körpələrsə qotur-qotur, yaralı,
Böyük olur çətinliyi böyüyün.

Soraqlaşıb o, Muğmuğu soruşdu,
Eli görüb düşüncəsi qarışdı,
Çox sarsıldı, olmuşlarla barışdı,
Böyük olur çətinliyi böyüyün.

Qarçiçəklə Günay durub arada,
Döş-başları silir yara xoradan,
Ərlər solub, qızlar çıxıb sıradan,
Böyük olur çətinliyi böyüyün.
***
Muğmuğ çıxdı qabağına Tuncərin,
Ac ölkənin qancıl olar başçısı,
Dedi:-Qızlar yardım olub bizlərə,
Ac ölkənin qancıl olar başçısı.

Qılınclaşıb, yumruqlaşıb durdular,
Bir-birini yaralayıb yardılar,
Güləşdilər, özlərini yordular,
Ac ölkənin qancıl olar başçısı.

Qızlar gəlib bir-bir girdi araya,
Dedilər ki, savaş nəyə yarayar?
Ac ölkəni tanrı gərək qoruya,
Ac ölkənin qancıl olar başçısı.

Muğmuğ dedi:-Tanıyıram Tuncəri,
Biz qan tökdük, aşdıq sizin çəpəri,
Bağışlayın bizə ölən ərləri,

Ac ölkənin qancıl olar başçısı.

***

-Tuncər qardaş, dayan! -dedi Qarçiçək,
Savaş bitir qız araya girəndə.
İki yerdə qan axıtmaq nə gərək,
Savaş bitir qız araya girəndə.

Bunlar bizi incitməyib, saxlayıb,
Qız-gəlini bizlə birgə ağlayıb,
Pis günləri könlümüzü dağlayıb,
Savaş bitir qız araya girəndə.

Günay dedi:-Biz bir ulus, bir elik,
Bizim dildir bu ölkənin el dili,
Bunlar bizi özlərinə güc bilir,
Savaş bitir qız araya girəndə.

Tuncər, Muğmuğ bir-birinə baxdılar,
Sonra vuruş çevrəsindən çıxdılar.
Qucaqlaşıb yoxuş üstə qalxdılar,
Savaş bitir qız araya girəndə.

***

Muğmuğ dedi: -Tuncər, bizi bağışla,
Barış olar qılınc yerə sancılsa.
Yetər bizə pisləmələr, qarğışlar,
Barış olar qılınc yerə sancılsa.

Yüz ildir ki, bizi didir quraqlıq,
Bizi sizdən ayırıbdır uzaqlıq,
Üz döndərib burdan qonaq, qonaqlıq,
Barış olar qılınc yerə sancılsa.

Baş əyirəm sizin qıza, qadına,
Çevriliblər onlar burda yardıma,
Alın bizi ağ bayrağın altına,
Barış olar qılınc yerə sancılsa.

Çinellilər gəlib bizi soyurlar,
Bizi daha pis günlərə qoyurlar,
Özlərinə bizi kölə sayırlar,
Barış olar qılınc yerə sancılsa.

***

Yüz-yüz uşaq sağaltmışdı Qarçiçək,
Böyük vardır kökdən gələn vergilər.
Sağalırdı kimə əli dəyirdi,
Böyük vardır kökdən gələn vergilər.

Yapma idi, çörək idi əlləri,
Al yanaqlar güldürürdü gülləri,
Toxdaq idi dadlı-duzlu dilləri,
Böyük vardır kökdən gələn vergilər.

Qapısında yüz-yüz düşük uşaqlar,
Düşər, düşük, bir də dəlisayaqlar,
Beli, əli bükük, əyri ayaqlar,
Böyük vardır kökdən gələn vergilər.

Bu bacarıq qızda tanrı payıydı,
O, Qızuçar, o, Qızçiçək soyuydu,
Vergiləşən tanrıların tayıydı,

Böyük vardır kökdən gələn vergilər.
***
Tuncər susub bacısına baxırdı,
Nə güclüdür tanrılaşan inanış.
İnanırdı ona sınıq-salxaqlar,
Nə güclüdür tanrılaşan inanış.

Əllərindən o, istilik tökürdü,
Ovcu ilə sancıları çəkirdi,
Yaralara o, toxtaqlıq əkirdi,
Nə güclüdür tanrılaşan inanış.

Sağaltdıqca nə danışır, nə dinir,
Nədəndirsə sola-sola qız yanır,
Bu yanğını o, sağaldan güc sanır,
Nə güclüdür tanrılaşan inanış.

Sağalanlar baş əyir, diz qatdayır,
Ölümləri ötüb, keçib, addayır,
Düşərliklər buz tək sınıb çatdayır,
Nə güclüdür tanrılaşan inanış.
***
Tuncər deyir:-Bacım, özün sönürsən,
Toxtaq verən özü solub, saralar.
Bu toxtaqlıq dönür böyük inama,
Toxtaq verən özü solub, saralar.

Yığış gedək, yetər bunca sağaltdın,
Yaralardan ağrı, sancı çıxartdın,
Qardaşını sən kövrəltdin, ağrıtdın,
Toxtaq verən özü solub, saralar.

Toplum gəlib neçə gündür gözləyər,
Sən çiçəksən, sənə burda göz dəyər,
Sızıldayıb anan acı söz deyər,
Toxtaq verən özü solub, saralar.

Bacı deyir:-Qardaş, bunlar yazıqdır,
Ürəkləri kimsəsizdir, sınıqdır,
Uğurelli Muğelliyə qoruqdur,
Toxtaq verən özü solub, saralar.
***
Muğmuğ deyir:-Qalın, ova çıxarıq,
Burda dağ-daş, eniş-yoxuş gözəldir.
Hər bir yerin gözəlliyi, görümü,
Burda dağ-daş, eniş-yoxuş gözəldir.

Çilçil qaplan, çilçil turac, boz ayı,
Maral, cüyür, çöl atının yox sayı,
Üç gündür ki, başlayıbdır ov ayı,
Burda dağ-daş, eniş-yoxuş gözəldir.

Mən bilirəm, Tuncər ova vurğundur,
Qaplanlara qarşı yaman çılğındır,
Qarçiçəksə qoy dincəlsin, yorğundur,
Burda dağ-daş, eniş-yoxuş gözəldir.

Ona tanrı gücü verib yaradan,
Qoy Qarçiçək körpü olsun arada,
Yoxsa çıxar min-min adam sıradan,

Burda dağ-daş, eniş-yoxuş gözəldir.

***

Günay deyir:-Ərim, bizdə ovlaq var,
Gözü yolda qoyma eli, ananı,
Biz qayıdaq, qalsın ancaq Qarçiçək,
Gözü yolda qoyma eli, ananı.

Qarçiçək də getsə bu gün bizimlə,
Min-min düşük gələcəkdir iziylə,
Danış özün Qarçiçəyin özüylə,
Gözü yolda qoyma eli, ananı.

Gül tək solub saralmışdı Qarçiçək,
Sağaldaydı düşükləri o gərək,
Ürəyində çırpınırdı bu dilək,
Gözü yolda qoyma eli, ananı.

O, sevgidən, el-obadan uzaqdır,
Düşüklərə, düşərlərə dayaqdır,
Deyib-gülüb, yaşamaqdan qıraqdır,
Gözü yolda qoyma eli, ananı.

***

-Doğma qardaş, mən qalıram, siz gedin,
Atma sənə tapınanı, kim olsa.
Mənim könlüm mənə belə buyurur,
Atma sənə tapınanı, kim olsa.

Tanrılar da mənə bunu söyləyir,
Onlar burda qalmağımı diləyir,
Muğel mənə dil-ağız da eləyir,
Atma sənə tapınanı, kim olsa.

Bir il sonra gəlin, məni aparın,
Bir iləcən sağlıq, dinclik taparım,
Qoy gözləsin məni yurdum, diyarım,
Atma sənə tapınanı, kim olsa.

Anama de, yarınc* olub Qarçiçək,
O, gələn il qayıdacaq, gələcək,
Ağlamasın, sıtqamasın o gərək,
Atma sənə tapınanı, kim olsa.

***

Dünən gələn bu gün elə yiyədir,
Dayanışın üzü buzdan soyuqdur.
Min il burda yaşayanlar qaçaraq,
Dayanışın üzü buzdan soyuqdur.

Dayanışa bağlıların üzü ağ,
Dayanışı saymayanlar key-sayaq,
Hamı gəlir, gedir ona bir qonaq,
Dayanışın üzü buzdan soyuqdur.

Biri yığır, biri səpir quruşu,**
Səpənlərin gen-bol olur örüşü,
Yığanınsa açılmayır qırışı,
Dayanışın üzü buzdan soyuqdur.

Cərrah

***Pul**

Səpilən yox, yığılandır dayanış,
Qaz torpağı, bir gizləncdir hər qarış,
İkisinin bir adı var, yaşayış,
Dayanışın üzü buzdan soyuqdur.

***

Çinə bənzər-çinsoysayaq elləri,
Çaşdırmaqdır, uydurmaqdır bənzəyiş,
Çiy yeyənlər ötə-ötə gəlirdi,
Çaşdırmaqdır, uydurmaqdır bənzəyiş.

Boy balaca, ağız yırtıq, baş əyri,
Baxış diri, deyim-görüm iş diri,
İşdə, sözdə üç adamdır hər biri,
Çaşdırmaqdır, uydurmaqdır bənzəyiş.

Cumub çöldə sürüləri götürür,
Ələ keçən nə var çiy-çiy ötürür,
Tutduğunu yer-yer eldən itirir,
Çaşdırmaqdır, uydurmaqdır bənzəyiş.

Muğel ev-ev, ulus-ulus gizlənir,
Ərlər on-on yaraqlanır, yüzlənir,
Gecə-gündüz qırğın, ölüm gözlənir,
Çaşdırmaqdır, uydurmaqdır bənzəyiş.

***

Tuncər bölür toplumları üç yerə,
Üç vuruma dözmək olmaz bir anda.
Yaraqlılar sağda, solda, qabaqda,
Üç vuruma dözmək olmaz bir anda.

Muğmuğ deyir: – Biz arxadan vurarıq,
Çiyçiylərin sırasını yararıq,
Lapdan çıxıb bellərini qırarıq,
Üç vuruma dözmək olmaz bir anda.

Tuncər çöldə ulartıyla qurd yığır,
Muğmuğçular qurdu görüb karıxır,
Qurdun gecə gözlərindən qor yağır,
Üç vuruma dözmək olmaz bir anda.

Acıqanı üç gün çöldə busurlar,
Baş söykəyib yerə qulaq asırlar,
Çiyçiy gəlib çatanacan susurlar,
Üç vuruma dözmək olmaz bir anda.

***

Birdən qalxır hay-həşirlə çal-çağır,
Qorxaq, gücsüz hay-küy salar gələndə,
Üç bir yandan üstlərinə ox yağır,
Qorxaq, gücsüz hay-küy salar gələndə.

Tuncər çıxır qabağına onların,
Deyir:-Gələn çiyçiyləri üç yarın,
Baş yarılır, döş yırtılır, bel, qarın,
Qorxaq, gücsüz hay-küy salar gələndə.

Çiyçiyləri qorxudurlar, yorurlar,
Dörd bir yandan qılınclayıb qırırlar,
Qol-qıçları budayırlar, vururlar,

Qorxaq, gücsüz hay-küy salar gələndə.

Gecə bir də düşür hay-küy, səs çölə,
Çiyçiy yenə basqın edir Muğelə,
Enir döşdən, dönür qurdlar gur selə,
Qorxaq, gücsüz hay-küy salar gələndə.

***

Belə vuruş görməyibdir bu yerlər,
Öz yolu var, öz çəmi var hərənin.
Ulartısı, mırıltısı qurdların,
Öz yolu var, öz çəmi var hərənin.

Görüb gözü işıldayan qurdları,
Ürkür, qaçır çiyçiylərin atları,
Qorxulardan çıxır Muğel yurdları,
Öz yolu var, öz çəmi var hərənin.

Gecə keçdi, tez söküldü dan yeri,
Örüşlərdən, qışlaqlardan çox bəri.
Qaçan gördü Muğel çiyçiy ərləri,
Öz yolu var, öz çəmi var hərənin.

Qarçiçəklə Tuncər durub baxırdı,
Al günəşdən qızıl işıq yağırdı,
Günay isə bir daxmada doğurdu,
Öz yolu var, öz çəmi var hərənin.

***

Muğmuğçular meşələrdən endilər,
Elqorumaq igid ərən istəyir.
Bundan sonra Muğel dinc-dinc yaşadı,
Elqorumaq igid ərən istəyir.

Doğulanı muğelbala saydılar,
Adını da onun Tuncay qoydular,
Bu sorağı Uğurelə yaydılar,
Elqorumaq igid ərən istəyir.

Soraq çatdı Tanı şaha, Bacara,
Bacar döndü bir qanadlı çapara,
«İtiatım, Muğel hara, sən hara?»,
Elqorumaq igid ərən istəyir.

Çal-çağıra gəldi Xançu, Uğurel,
Qızıl, gümüş oğul kimi var deyil,
Hamıdan çox sevinirdi Muğərgil,
Elqorumaq igid ərən istəyir.

***

Ana yurdum, nə böyüksən, nə geniş,
Daşlara da görkəm verir gözəllik,
Gül qoxuyur dağın, yalın, yolların,
Daşlara da görkəm verir gözəllik.

Nə incədir çiçəklərin baxışı,
Nə küylüdür çaylarının axışı,
Dan yerinin qızıldandır doğuşu,
Daşlara da görkəm verir gözəllik.

Qıçlarıma güc ver, gəzim qoynunu,
Qucaqlayım meşə-meşə boynunu,
Al-al olub gül çöllərin toy günü,

Daşlara da görkəm verir gözəllik.

Xırmanlarda tala-tala tayalar,
Dağ döşündə qılınc-qılınc qayalar,
Çiçəklərdə yüz-yüz kövrək boyalar,
Daşlara da görkəm verir gözəllik.

***

-İtiatım, sıçram, yüyür irəli,
Basar olur yurda bağlı oğullar.
Oğlum Tuncər ata olub, dayanma,
Basar olur yurda bağlı oğullar.

İtiatım, qalx, uç, dönüm gözünə,
Güc ver bu gün dırnağına, dizinə,
Məni çatdır Uğurelin özünə,
Basar olur yurda bağlı oğullar.

İtiatım, Qızçiçəyi götürək,
Onu körpə Tuncayına yetirək,
Dodaqlarda sevinc gülü bitirək,
Basar olur yurda bağlı oğullar.

İtiatım, biçənəkdə dayan bir,
Otda ağna, dincəl, güc yığ hərdənbir,
Körpə səsi eşidirəm, «gəl» deyir,
Basar olur yurda bağlı oğullar.

***

Altı günə onlar çatdı Muğelə,
Uzun yoldan sonra görüş gözəldir.
Qarşılaşdı Bacar ilə Qızçiçək,
Uzun yoldan sonra görüş gözəldir.

Aullarda tüstüləndi ocaqlar,
Şırıldadı qonaqlanan bulaqlar,
Ucalaşdı, doğmalaşdı qonaqlar,
Uzun yoldan sonra görüş gözəldir.

Nənəsinə çatdırdılar Tuncayı,
Bəzədilər, çıxartdılar Günayı,
Qalxdı elin hay-həşiri, harayı,
Uzun yoldan sonra görüş gözəldir.
Bacar öpdü, Tuncay güldü, sevindi,
Utansa da Günay, Tuncər öyündü,
Hər könüldə iki ürək döyündü,
Uzun yoldan sonra görüş gözəldir.

***

Əl çəkmədi acıqanlar Muğeldən,
Gücsüz oldun, hamı səni vuracaq.
Otlaq, torpaq qamarlamaq istəyi,
Gücsüz oldun, hamı səni vuracaq.

İtiatla Bacar çıxdı irəli,
Qanlı gözlər birdən qaldı bərəli,
Gördü, gələn yaraqlılar seyrəlir,
Gücsüz oldun, hamı səni vuracaq.

Dedi:-Ahay, çiy ət yeyən çiyçiylər,
Bizdən olan bizə qarşı ögeylər,
Eşidirəm sizdən çox-çox gileylər,

Gücsüz oldun, hamı səni vuracaq.

Gedin, yoxsa əzik-üzük olarsız,
Həm otlaqsız, həm də yersiz qalarsız,
Dursaz, məndən ağır vurum alarsız,
Gücsüz oldun, hamı səni vuracaq.

***

Mən Bacaram, Gücər oğlu minelli,
Basılmazlıq hər igidə verilmir.
Tanrısoyam, yerin, göyün yiyəsi,
Basılmazlıq hər igidə verilmir.

Bilin, Muğel Mindiyardır bu gündən,
Atın qırğın sözlərini beyindən,
Yaraq deyil, bel gəzdirin çiyində,
Basılmazlıq hər igidə verilmir.

Çiyçiybaşı dedi:-Bacar, qocasan,
Sən keyləşən başsan, qolsan, qılçasan.
Qorxuram ki, bu vuruşdan qaçasan,
Basılmazlıq hər igidə verilmir.

Bacar dedi:-Baxma beş yüz yaşım var,
Qocaların gücdən başqa başı var,
Nə yaxşı ki, sənin kimi naşı var,
Basılmazlıq hər igidə verilmir.

***

Çiyçiybaşı qılıncını sıyırdı,
Başı olan ilk əl atmaz qılınca.
Cummağıyla bağırmağı bir oldu,
Başı olan ilk əl atmaz qılınca.

Düz ortadan şaqqalandı, yıxıldı,
Çapqınçılar bir an içrə dağıldı,
Eldən çiyçiy əl-ayağı yığıldı,
Başı olan ilk əl atmaz qılınca.

Bacar çapdı qaçanların dalınca,
Qırdı, tökdü bircəciyi qalınca,
İstəmədi çəksin onu qılınca,
Başı olan ilk əl atmaz qılınca.

Dedi:-Kimsən, kimlərdənsən, a qancıl?
Danış, mənə yalan demə, yabançı,
Qılıncımdan qurtarmazsan, yalançı,
Başı olan ilk əl atmaz qılınca.

***

Çiyçiy dedi:-Öldürməyin məni siz,
Ölüm var ki yaşayışdan dəyərli,
Yaşayırıq çapqınçılıq yoluyla,
Ölüm var ki yaşayışdan dəyərli.

Biz çinli yox, Çinsoysayaq eliyik,
Yaranışdan bizlər Minel dilliyik,
Biz ağızdan, başdan bir az yelliyik,
Ölüm var ki, yaşayışdan dəyərli.

Dörd bir yanı alıb, çapıb, soyuruq,
Öldürürük, eli ərsiz qoyuruq,
Hər bir yana qorxu, ürkü yayırıq,

Ölüm var ki, yaşayışdan dəyərli.
Bizdən sonra bir toplum da gələcək,
Yolda, yalda nə var, bütün siləcək,
Gəlib görüb sizdən soraq biləcək,
Ölüm var ki, yaşayışdan dəyərli.

***

Bacar dedi:-Qarşılarıq onları,
Qancılların qabağını alginən.
Qabağa düş, bizi çatdır o yerə,
Qancılların qabağını alginən.

Bacar, Tuncər, Muğmuğ çapdı çöllərə,
Qatışdılar daşqınçaya, sellərə,
Gedib çatdı çiyçiy olan ellərə,
Qancılların qabağını alginən.

Tutuq çiyçiy göndərildi qabağa,
Bacar, Tuncər çəkildilər qırağa,
Muğmuğ yığdı ərlərini otlağa,
Qancılların qabağını alginən.

Axşam oldu, tutuq çiyçiy dönmədi,
Qaranlıqda meşə susdu, dinmədi,
Muğmuğgilin ocaqları sönmədi,
Qancılların qabağını alginən.

***

Dan yerində qızıllandı ağ işıq,
Günəş verir dayanışa tərpəniş.
Acıqanın toplumları göründü,
Günəş verir dayanışa tərpəniş.

Muğmuğ çıxdı, öz gücünü yoxladı,
Gələnlərin qabağını saxladı,
Bərkdən vurdu, çiy içləri laxladı,
Günəş verir dayanışa tərpəniş.

Başçıları bizuc atdı, ox atdı,
O, Muğmuğun döş-başını qanatdı,
Hay-həşirlə qorxu-ürkü yaratdı,
Günəş verir dayanışa tərpəniş.

Muğmuğ dedi:-Hamınızı qıraram,
Damar-damar qanınızı soraram,
Yasınızı yurdunuzda quraram,
Günəş verir dayanışa tərpəniş.

***

Çiyçiybaşı çıxdı önə, bağırdı,
Söz anlayan yol üstündə dayanmaz.
Çəkil, yoxsa doğram-doğram olarsan,
Söz anlayan yol üstündə dayanmaz.

Biz çiyçiylər «çinelsayaq» adlıyıq,
Beş bölümdə iyirmi min atlıyıq,
Vuruşlarda çox alovlu, odluyuq,
Söz anlayan yol üstündə dayanmaz.

Muğmuğ dedi:-Ağzındakı boş yeldir,
Biz sizləri tanıyırıq yüz ildir,
Çapqınçılıq bir igidlik deyildir,
Söz anlayan yol üstündə dayanmaz.

Yığışdırın belə boş-boş sözləri,
Siz qayıdın gəldiyiniz düzləri,
Yoxsa bir-bir qıracağam sizləri,
Söz anlayan yol üstündə dayanmaz.

***

Çiyçiybaşı dedi: -Muğmuğ, tələsmə,
Öz adını özgəsinə qoyma sən,
At üstündə o çımxırıb yüksəldi,
Öz adını özgəsinə qoyma sən.

Muğellilər orda-burda ev çapır,
Özgə əldən taxıl qapır, ət qapır,
Qışlamağa özgə yurdda yer tapır,
Öz adını özgəsinə qoyma sən.

-Biz bu ilin qar-yağışlı yazından,
Yem qapmırıq özgə malın ağzından,
Əl çəkmişik daha kəsim-basımdan,
Öz adını özgəsinə qoyma sən.

-Əyri əli gərək dibdən kəsəsən,
Yekəbaşın dik başını əzəsən,
Boşboğazın boğazını üzəsən,
Öz adını özgəsinə qoyma sən.

***

Çiyçiybaşı cumdu onun üstünə,
Oğru tez-tez doğruluqdan danışar,
Dedi:-Oğru sənsən, bunca biz düzük,
Oğru tez-tez doğruluqdan danışar.

Üzləşdilər, qılınclaşıb, oxlaşıb,
Güləşdilər, qurşaqlaşıb, bağlaşıb,
Qırıldılar bircə-bircə, yoxlaşıb,
Oğru tez-tez doğruluqdan danışar.

Sağdan, soldan Bacar, Tuncər cumuşdu,
Çiyçiylərin qanlı gözü qamaşdı,
Yaraqlılar bir-birinə qarışdı,
Oğru tez-tez doğruluqdan danışar.

Bacar, Tuncər, Muğmuğ qırdı çiyçiyi,
Qızartdıqca qan torpağı, qan göyü,
Çiyçiybaşı aşdı yerə «vay» deyib,
Oğru tez-tez doğruluqdan danışar.

***

Döyüş bitdi, qayıtdılar Muğelə,
Bitən deyil yer üzündən qan-qada.
Gördülər ki düşük yatıb Qarçiçək,
Bitən deyil yer üzündən qan-qada.

Dedilər ki, işləməkdən bayılıb,
Sağlanclığı el-obaya yayılıb,
İndi bu qız tanrı kimi tanınıb,
Bitən deyil yer üzündən qan-qada.

Üç ay, beş gün bayqın qaldı Qarçiçək,
Sağlanc qızın bayılmağı nə demək,
Tərpənməyə öz yerindən o gərək,
Bitən deyil yer üzündən qan-qada.

Ağsaqqallar ona sağlıq dilədi,
Ağbirçəklər göz yaşları ələdi,
Hamı, bu qız bir tanrıdır, söylədi,
Bitən deyil yer üzündən qan-qada.

***

Bacar dedi:-Qızlar yazda bayılar,
Yaz gələndə soyuq daş da gül açır.
Onu alıb qolum üstə aparram,
Yaz gələndə soyuq daş da gül açır.

Ana dedi:-Qoyun qalsın burada,
Onu belə yaradıbdır yaradan,
Siz qayıdın, biz gələrik sonradan,
Yaz gələndə soyuq daş da gül açır.

Muğmuğ dedi:-Qız ürəyi yuxadır,
Yemir, içmir, buna görə sısqadır,
Qoyun qalsın, Muğel ona arxadır,
Yaz gələndə soyuq daş da gül açır.

Tuncər, Günay yola düşüb getdilər,
Günü aya, ayı ilə qatdılar,
Neçə günə Uğurelə çatdılar,
Yaz gələndə soyuq daş da gül açır.

Tanrievi söyləncі

Tuncay qatdı başlarını onların,
Uşaq evdə ağlar, gülər, baş qatar.
Tuncay iri, Tuncay köklü, budaqlı,
Uşaq evdə ağlar, gülər, baş qatar.

Beş yaşında boy dayandı anayla,
On yaşında qoşalaşdı atayla,
El öyündü bu köküslü balayla,
Uşaq evdə ağlar, gülər, baş qatar.

Ancaq dili-danışığı uşaqdı,
Bicliklərdən, dincliklərdən uzaqdı,
Oynadığı it, qurd, bir də yaraqdı,
Uşaq evdə ağlar, gülər, baş qatar.

Boy-buxunda Bacar, Tuncər, Turərdi,
Çiyinləri qoşa qapı, çəpərdi,
Bütün günü çöldə gözdən itərdi,
Uşaq evdə ağlar, gülər, baş qatar.

***

Qarçiçəyə tanrıevi tikildi,
Adamları sağaldan da tanrıdır.
Qulluğuna gündə yüzlər gəlirdi,
Adamları sağaldan da tanrıdır.

Qapıları açıq idi ocağın,
Düşüklərdi, düşərlərdi qonağı,
İki dəri, bir yorğandı yatağı,
Adamları sağaldan da tanrıdır.

Ağrıları, acıları götürər,
Düşüklüyü, düşərliyi itirər,
Əli, gözü, dili sağlıq gətirər,
Adamları sağaldan da tanrıdır.

Soraq çatır Əkbitənə bir aya,
Odər, şaman, falçı girir araya,
Deyirlər ki, bu iş kimə yarayar,
Adamları sağaldan da tanrıdır.

***

Əl-qol atmaq qız-gəlinə yaraşmaz,
Hər adamın tanrı olmaq yeri yox.
Gərək belə etməyəydi Qarçiçək,
Hər adamın tanrı olmaq yeri yox.

Kəsi olsa, çox düşüklər sağalar,
Kəsi olsun atlar ilə buğalar,
Kəsi ilə yaxşılıqlar doğular,
Hər adamın tanrı olmaq yeri yox.

Bundan başqa nə vardırsa artıqdır,
Sağaltçılar sonkökündən qırıqdır,
Gözü, başı, düşüncəsi qapıqdır,
Hər adamın tanrı olmaq yeri yox.

Yaxşı olar qız qayıtsın yerinə,
O, Muğeldə çox getməsin dərinə,
Ərə getsin, qulluq etsin ərinə,
Hər adamın tanrı olmaq yeri yox.

***

Çox dedilər şaman, odər, falçılar,
Hər kəs eşir qabağına ocağı,
Gördülər ki, əldən gedir pay-puş da,
Hər kəs eşir qabağına ocağı.

Ancaq çoxu bu sözləri saymadı,
Kəsilərə, küsülərə uymadı,
Pay-puşunu ocaqlara qoymadı,
Hər kəs eşir qabağına ocağı.

Muğel deyib yol getdilər ayaqla,
Başəydiyə dolu-dolu qucaqla,
Sağollaşdı kəsi, küsü ocaqla,
Hər kəs eşir qabağına ocağı.

Atla dəvə, dördtəkərli qoşqular,
Yüklərində qayğılarla sayğılar.
Üzlərində inam dolu duyğular,
Hər kəs eşir qabağına ocağı.

***

-Yazın-dedi-bildirməni-Tanı şah,
Baş əyməsə başı gedər başsızın.
Bildirməni bezdə yazdı odərlər,
Baş əyməsə başı gedər başsızın.

«Ölkə necə böyük, böyük olarsa,
Onda min-min minlər yuva salarsa,
Sərtüzlükdə biri yoldan qalarsa,
Baş əyməsə başı gedər başsızın.

Bizim böyük Başevimiz Əkbitən,
Sərtüzlükdə ocağımız Subölən,
Nə görmüsüz Muğmuğeldə siz görən,
Baş əyməsə başı gedər başsızın.

Bacar getsin Qarçiçəyi gətirsin,
Tanrı evi tikdirəni itirsin,
Tanrılığı öz qızından götürsün,
Baş əyməsə başı gedər başsızın.»

***

Yazı çatdı Qarçiçəyə bir aya,
Soyuq qızın çətin könlü qızınar,
Oxuduqca, gözü, köksü alışdı,
Soyuq qızın könlü çətin qızınar.

Bacar dedi:-Gərək gedək buradan,
Doğru çıxır Qarçiçəkdə çox yalan,
Daha yetər bu ot, bu gül, bu tikan,
Soyuq qızın könlü çətin qızınar.

Odər dedi:-Böyük ocaq qalayın,
Dörd yanına əski-para dolayın,
Əkbitənə vergiləri yollayın,
Soyuq qızın könlü çətin qızınar.

Bu ocaqla el-obalar güləcək,
Nə bir ağrı, nə bir acı biləcək,
Bura tanrı Ahurməzda gələcək,
Soyuq qızın könlü çətin qızınar.

***

Şaman dedi:-Mən qalaram burada,
El-obalar qala bilməz şamansız.
Ahurməzda gəlməsə də, gəlsə də,
El-obalar qala bilməz şamansız.

Muğmuğ gördü ocaqlaşan düzləri,
Eşidildi şamanların sözləri,
Doldu gözəl Qarçiçəyin gözləri,
El-obalar qala bilməz şamansız.

Bacar dedi:-Qızım, bunca ağlama,
Qız-gəlinin ürəyini dağlama,
Ürəyində bizə acıq saxlama,
El-obalar qala bilməz şamansız.

Başev səni haray-haray çağırır,
Gül əllərin orda maraq doğurub,
Əllər, sözlər sağlamlıqlar yoğurur,
El-obalar qala bilməz şamansız.

***

Muğmuğ dedi:-Odər ata, bağışla,
Adam var ki, ulus ona söykənir.
Qarçiçəyi qayıtmağa qoymaram,
Adam var ki, ulus ona söykənir.

O gələndən el çörəyə çatıbdır,
Əkinimiz, biçinimiz artıbdır,
Yoxsulluğun el daşını atıbdır,
Adam var ki, ulus ona söykənir.

Bir də ki, mən Qarçiçəyə vurğunam,
O gələndən son qoyulub qırğına,
Yağmurluğa, quraqlığa, çovğuna,
Adam var ki, ulus ona söykənir.

Qarçiçək də burdan getmək istəmir,
Odərləri, şamanları pisləmir,
Son gücünü düşərlərdən gizləmir,
Adam var ki, ulus ona söykənir.

***

Ortalığa çıxdı gözəl Qarçiçək,
Gözəl qızlar el-obanın varıdır.
Dedi:-Ata, mən qalıram, siz gedin,
Gözəl qızlar el-obanın varıdır.

Qalım burda, ocaqları qoruyum,
El-obanın istəyinə yarayım,
Yaraları, ağrıları sarıyım,
Gözəl qızlar el-obanın varıdır.

Burda tanrı Ahurməzda olacaq,
İnam, sevgi ürəklərə dolacaq.
«Kəsi» deyib hamı ocaq salacaq,
Gözəl qızlar el-obanın varıdır.

Muğmuğ dedi:-Bizi Minel sayınız,
Qarçiçəyin dediyini yayınız,
Bundan sonra Mindiyardır soyumuz,
Gözəl qızlar el-obanın varıdır.

***

Odər dedi:-Onda gəlsin verginiz,
Hər ölkəni yaşadan da vergidir,
Toplumunuz ayıq-sayıq dayansın,
Hər ölkəni yaşadan da vergidir.

Ocaq çatın, sevginizi bildirin,
Kəsi ilə yamanları öldürün,
Mindiyarın ağ bayrağın qaldırın,
Hər ölkəni yaşadan da vergidir.

Yerinciniz Qarçiçəkdir bu gündən,
Baş əyiniz, yer öpünüz önündə,
Ahurməzda, Sərtüz, ocaq yönündə,
Hər ölkəni yaşadan da vergidir.

Muğmuğ dedi:-Arxayın ol, baş üstə,
Addamışıq qarlı keçən qış üstən,
Minelliyik, Mindiyarıq hər üzdən,
Hər ölkəni yaşadan da vergidir.

***

Sərtüz Turel ulusundan qayıtdı,
Hər gün səslər kimsəsizi doğma yurd,
Tanı şaha o, baş əyib söylədi,
Hər gün səslər kimsəsizi doğma yurd.

Nuhçatanın Duzdağ eli oturaq,
Orda gərək ocaqları artıraq,
Çörəkçilər yolluğundan qurtaraq,
Hər gün səslər kimsəsizi doğma yurd.

Eşitmişəm tanrılaşıb Qızçiçək,
Nə olsa da Aşalaşa o gərək,
Biz bu yolla ocaqlaşaq, birləşək,
Hər gün səslər kimsəsizi doğma yurd.

Gənc şahımın inanışı ocaqdır,
Yerdə qalan, suya yersiz boyaqdır.
Minelliyə kəsi, ocaq, dayaqdır,
Hər gün səslər kimsəsizi doğma yurd.

***

Tanı dedi:-Tanrısı var hərənin,
İnanışı güclə soxma beyinə.
Yazıların qoltuğunda saralıb,
İnanışı güclə soxma beyinə.

Mən odəri göndərmişəm Muğelə,
Qayıtmayıb oralardan o hələ,
Əl-ayağa düşmə bunca sən belə,
İnanışı güclə soxma beyinə.

Çörəkçinin tanrısı var, çörəkdir,
Onlar şaha, Başevə də kövrəkdir,
Sizin kimi Baş Odərlər tək-təkdir,
İnanışı güclə soxma beyinə.

Mən bilirəm, sən tanrının oğlusan,
Qatlarınla tanrılara bağlısan,
Yer-yurdundan küsülüsən, dağlısan,
İnanışı güclə soxma beyinə.

***

Sərtüz baxdı Tanı şaha qıyqacı,
İnanışın yolu hamar olammaz.
«Niyə, görən, yurdum mənə qarşıdır,
İnanışın yolu hamar olammaz».

Dedi:-Sənin basqınların qabaqda,
Tanıqlığın, gücün, soyun ocaqda,
Bu olmasa heç nə çıxmaz yaraqdan,
İnanışın yolu hamar olammaz.

«Aşa» eli birləşdirir çətində,
Ola bilməz ocaq, tanrı hər tində,
Dərin tutum vardır ölüm, itimdə,
İnanışın yolu hamar olammaz.

«Aşa», «Ocaq» sənə, şahım, əltutdur,
Tanrısızlar şaha qarşı kobuddur,
Düşüncəni yuyan, silən su, oddur,
İnanışın yolu hamar olammaz.

***

Yazı yazdı Sərtüz o gün Cumərə,
Yerdə bircə, göydə yeddi tanrı var.
Şah buyurur, Cumər getsin Muğelə,
Yerdə bircə, göydə yeddi tanrı var.

«Qarçiçəyin tanrılığı düz deyil,
Suböləndə ocaq birdir, yüz deyil,
Yer qızıdır, göydəngəlmə qız deyil,
Yerdə bircə, göydə yeddi tanrı var.

Sağaltçıdır, tanrı deyil Qarçiçək,
Sağaltçısa, bura gəlsin bir görək,
Yoxsa orda tanrı olmaq nə demək,
Yerdə bircə, göydə yeddi tanrı var.

Şah buyurur, tez qayıtsın yerinə,
Adam tapsın, ərə getsin birinə,
Qatışmasın o, əl-ayaq kirinə,
Yerdə bircə, göydə yeddi tanrı var.

***

Cumər getdi, beş yüz atlı onunla,
Hamı deyir, baş işlərdə mənəm baş.
On beş günə Uğurelə çatdı o,
Hamı deyir, baş işlərdə mənəm baş.

Tuncay çıxdı qabağına doğma tək,
Dedi:-Sizi saya qoymaz Qarçiçək.
İstəyirsən biz Muğelə bir gedək,
Hamı deyir, baş işlərdə mənəm baş.

-Tanı şahın göndərişi mənəm, mən,
Sən ortada nə atılıb düşürsən,
Uğureldə səndən böyük yox deyən,
Hamı deyir, baş işlərdə mənəm baş.

Tuncay dedi:-Boş-boşuna danışma,
Qarçiçəyin işlərinə qarışma,
İt soyudur ağızlaşmaq, qapışmaq,
Hamı deyir, baş işlərdə mənəm baş.

***

Cumər çəkdi qılıncını, «it» dedi,
-Dəlilikdir yol üstündə dayanmaq,
İki qılınc qor ələdi dörd yana,
Dəlilikdir yol üstündə dayanmaq.

Tuncay dedi:-Dönməlisən buradan,
Ocaq yalan, tanrı yalan, sən yalan,
Yeddi deyil, birdir böyük yaradan,
Dəlilikdir yol üstündə dayanmaq.

Cumər dedi:-Yaşın azdır, görürəm,
Qılınc ilə sənə öyüd verərəm,
Bir uşaqla mən döyüşə girirəm,
Dəlilikdir yol üstündə dayanmaq.

Çıqqıldadı, şaqqıldadı yaraqlar,
Qan töküldü, soldu al-al yanaqlar,
Batdı yerə dizə kimi ayaqlar,
Dəlilikdir yol üstündə dayanmaq.

***

Əyildilər, qırıldılar yaraqlar,
Dözüm olsa dözməz dəmir güclüyə,
Tulladılar dəbilqəni, döşlüyü,
Dözüm olsa dözməz dəmir güclüyə.

Çılpaq gövdə, dirək ayaq, dəmir qol,
Bir-birinə kələzdənmək vurhavur,
«Güc tutumum, qayna, daşlan, bir də dol»,
Dözüm olsa dözməz dəmir güclüyə.

Cumər dedi:-Yekə-yekə danışma,
Tuncay dedi:-Bizim işə qarışma,
Cumər dedi:-Ayağımdan yapışma,
Dözüm olsa dəmir dözməz güclüyə.

Yamanlaşıb qarpışdılar qız üstə,
Yoruldular, çöküşdülər diz üstə,
Çəkişdilər, vuruşdular söz üstə,
Dözüm olsa dəmir dözməz güclüyə.

***

Gecə düşdü, vuruş qaldı yarımçıq,
Basıq olmur ərlər gücbir olanda.
Dan yerində Tuncər çıxdı vuruşa,
Basıq olmur ərlər gücbir olanda.

Dedi:-Cumər, oğlum səni yoracaq,
O güclüdür, qol-qıçını qıracaq,
O uşaqdır, səni lapdan vuracaq,
Basıq olmur ərlər gücbir olanda.

-Bu vuruşda, çəkişmədə vurum yox,
Bacım orda tək qalıbdır, yardım yox,
Orda yemək-içmək azdır, düşün çox,
Basıq olmur ərlər gücbir olanda.

Gəlin daha əl götürün bu işdən,
Çinel yüz min toplum ilə yürüşdə,
Xançu, Muğel diz qatdayıb döyüşdə,
Basıq olmur ərlər gücbir olanda.

***

Bacar daha əldən düşüb, yorulub,
Gənclər gərək dayaq ola qocaya.
Biz əl-ələ verməliyik çətində,
Gənclər gərək dayaq ola qocaya.

Üstümüzə gələn yüz min qılıncdır,
İndi qardaş boğuşması gülüncdür.
Barışsanız bu, Minnelə qoruncdur,
Gənclər gərək dayaq ola qocaya.
Gəlin bir də qardaşlaşaq, bir olaq,
Güc-güc deyən Çinellidən öc alaq,
Bu yovşanlı çöllüklərə səs salaq,
Gənclər gərək dayaq ola qocaya.

Tuncay səni tanımayır, uşaqdır,
Bicliklərdən, bicləmədən uzaqdır,
O bilməyir Cumər bizə qonaqdır,
Gənclər gərək dayaq ola qocaya.

Soyqan söyləncі

Çinellilər gəldi Təbət boyunca,
Yersiz qalar özgə yerə göz dikən.
Uğureli qamarladı doğudan,
Yersiz qalar özgə yerə göz dikən.

Bunu bilib Tuncay, Cumər barışdı,
At qovaraq neçə-neçə dağ aşdı,

Beş gün yolda selə-suya qatışdı,
Yersiz qalar özgə yerə göz dikən.

İtiatı Bacar mindi-çap-dedi,
Get Tuncayı, get Cuməri tap-dedi,
Öz arxanca toplumları dart-dedi,
Yersiz qalar özgə yerə göz dikən.

Atasının qayğısına qalınca,
Tuncər çapdı Gümüşatı dalınca,
Toplumları ulduzların sayınca,
Yersiz qalar özgə yerə göz dikən.

***

-Yaxın, qırın!-dedi Çinel başçısı,
Öz içinə sığışmayan cılızdır.
Alın, qovun! Uğurel də bizimdir!
Öz içinə sığışmayan cılızdır.

Üzləşdilər, sıralanıb durdular,
Çarpışdılar, qırıldılar, qırdılar,
Alayları, toplumları yardılar,
Öz içinə sığışmayan cılızdır.

Toplumların, alayların yox sayı,
Yortub gəlir çaylaq boyu, dağ boyu,
Gələ-gələ el-obaya od qoyur,
Öz içinə sığışmayan cılızdır.

Tüstüləndi iki ölkə qovşağı,
Çaylar, yollar yurdun qanlı qurşağı,
Toz qalxdıqca bulud endi aşağı,
Öz içinə sığışmayan cılızdır.

***

Çin ərəni çıxdı önə, söylədi:
-Yer-yer deyən yersiz qalar yer üstə.
Bacar, səni tanıyıram yüz ildir,
Yer-yer deyən yersiz qalar yer üstə.

Mən Soyqanam, çinlilərin öndəri,
Qamarlayıb dağıtmışam çox yeri.
Gücüm çatsa tutacağam göyləri,
Yer-yer deyən yersiz qalar yer üstə.

Uğureli alacağam bir günə,
Mən hamını qatacağam sürgünə,
Bacar gərək gedə yerin təkinə,
Yer-yer deyən yersiz qalar yer üstə.

Yaxşı olar döyüşməyək, bağlaşaq,
Döyüş olsa dağılacaq hər ocaq,
Uğureldən təkcə tüstü qalacaq,
Yer-yer deyən yersiz qalar yer üstə.

***

Yeriklədi Soyqan yenə al qana,
Qan içənin qan sağarmış gözünə.
Qılıncının kəsdi dalı, qabağı,
Qan içənin qan sağarmış gözünə.

Minellini beş-beş, on-on doğradı,

Ayrıc-ayrıc yolu-yalı bağladı,
Ayqıraraq nərildədi, çağladı,
Qan içənin qan sağarmış gözünə.

-Mən Soyqanam, Çinel oğlu, basılmaz,
Varlığıma əl uzadan var olmaz,
Döyüşlərdə dözəm-dözüm sarsılmaz,
Qan içənin qan sağarmış gözünə.

Mən almışam Xançu ilə Təbəti,
Mən yemişəm adam əti, it əti.
Qan tökməkdə ad qazandım, çox çətin,
Qan içənin qan sağarmış gözünə.

***

Bacar dedi:-Öymə, Soyqan, özünü,
Öz qanını görən daha qan tökməz,
Görəcəksən indi çirkin qanını,
Öz qanını görən daha qan tökməz.

Xançu, Təbət, Muğel bizim Mindiyar,
Basdırmaqçın səni Çində yer də var,
Bu yürüşdən əl çək, qayıt, a donqar,
Öz qanını görən daha qan tökməz.

Yer istəsən yer verərik yer altda,
Ancaq öncə ölməlisən üst qatda,
Otlamağa gəlibsənsə, bu, otlaq,
Öz qanını görən daha qan tökməz.

Danqıldadı, batdı göz-göz tutaqlar,
Ağızlaşdı iti-iti yaraqlar,
Səsdən-küydən guruldadı qulaqlar,
Öz qanını görən daha qan tökməz.

***

Yaraladı Soyqan dizdən Bacarı,
Biclik gücdən yeydir belə döyüşdə,
Sonra dedi:-İstəyirsən güləşək,
Biclik gücdən yeydir belə döyüşdə.

İtiatın yalı qandan qızardı,
Bacar çaşdı, üzü soldu, sozardı,
Gözlərində göylər, yerlər bozardı,
Biclik gücdən yeydir belə döyüşdə.

Bacar dedi:-Qalsın döyüş sonraya,
Gərək düşüm, mən yaramı sarıyam,
Qoy tanrımız özü girsin araya,
Biclik gücdən yeydir belə döyüşdə.

Soyqan dedi:-Bir gün sonra görüşək,
İstəyirsən vuruşmadan güləşək,
Lap deyirsən, elə bunla ötüşək,
Biclik gücdən yeydir belə döyüşdə.

***

Tuncər çıxdı qılınc ilə ortaya,
Oğul gərək arxa dura ataya,
Dedi:-Gücün qalıbsa da yaxın gəl,
Oğul gərək arxa dura ataya.

Soyqan dedi:-Sən atandan kövrəksən,

Bu çöllükdə bir ötəri küləksən,
Bacar aşdı, sən ta kimə gərəksən,
Oğul gərək arxa dura ataya.

Tuncər dedi:-Atam bir az qocalıb,
Ancaq sənlə vuruşmağı bacarır,
Mən gəlmişəm səndən özüm öc alım,
Oğul gərək arxa dura ataya.

-Onda haydı, sənlə də döyüşək,
Gücümüzü, öcümüzü bölüşək,
Bu vuruşa bizuc ilə girişək,
Oğul gərək arxa dura ataya.

***

Qırıldılar qırım-qırım bizuclar,
Bizucdan da iti kəsən qılınc var.
Qılıncların ağzı qopdu, töküldü,
Bizucdan da iti kəsən qılınc var.

Doğram-doğram oldu tunc-tunc tutaqlar,
Həm əyildi, həm əzildi yaraqlar,
Əsdi sular, ağaclarda yarpaqlar,
Bizucdan da iti kəsən qılınc var.

Əl atdılar ağzı qopuq qılınca,
Toppuz, balta, bıçaq gəldi dalınca,
Vuruşdular son gücləri qalınca,
Bizucdan da iti kəsən qılınc var.

Yoruldular, usandılar, durdular,
Güləşdilər, yeri yer-yer yardılar,
Yumruqlaşıb bir-birini vurdular,
Bizucdan da iti kəsən qılınc var.

***

Onlar gedib oxlaşdılar qıraqdan,
Yay dartmağa, ox atmağa güc gərək,
Oxlar gəlib bir-birinə çatmadı,
Yay dartmağa, ox atmağa güc gərək.

Tuncər dedi:-Toplum çıxsın yürüşə,
O yandan da Çinel qalxdı döyüşə,
Yüz min gəldi yüz min ilə görüşə,
Yay dartmağa, ox atmağa güc gərək.

Soyqan, Tuncər çəkildilər qırağa,
Qurşaq qurub oturdular torpağa,
Sonra bir də sıçradılar ayağa,
Yay dartmağa, ox atmağa güc gərək.

Didişdilər, qarpışdılar, daşdılar,
Dağ idilər, qaya kimi uçdular,
Onlar bir də yıxıldılar, aşdılar,
Yay dartmağa, ox atmağa güc gərək.

***

Uğurelin atlıları «vur» dedi,
Hər vuruşun başlanğıcı yey olur.
Tuncay, Cumər vuruşurdu qabaqda,
Hər vuruşun başlanğıcı yey olur.
Dördtəkərli üstündəydi ikisi,

Ağır idi təkərlərin çəkisi,
Çoxdu bunca acıqanın itkisi,
Hər vuruşun başlanğıcı yey olur.

Sağdan Tuncay, soldan Cumər vururdu,
Çinellinin toplumunu qırırdı,
Sıra-sıra Uğureldən qovurdu,
Hər vuruşun başlanğıcı yey olur.

Qılınc, bizuc- toppuz, balta, oxatan,
Qaçmağının hayındaydı çox adam,
Buluddan da qan axırdı bu axşam,
Hər vuruşun başlanğıcı yey olur.

***

Çinellinin atlıları qaçhaqaç,
Vuruşammaz toplum yalqız, başçısız,
Onlar beş-beş, on-on kölə düşürdü,
Vuruşammaz toplum yalqız, başçısız.

Çinellilər səpələnib qaçırdı,
Tuncər, Cumər çapa-çapa biçirdi,
Çap-çap at da lap qabaqda uçurdu,
Vuruşammaz toplum yalqız, başçısız.

Beş gün qaçıb, səpələnib töküldü,
Yaralılar sanki yerə əkildi,
Dördüncü gün ağ dan yeri söküldü,
Vuruşammaz toplum yalqız, başçısız.

Çinellidən nə qaçan var, nə qalan,
Tökülmüşdü yaralılar yol, yala,
Çox öyünən sonda belə yox olar,
Vuruşammaz toplum yalqız, başçısız.

***

Uğurelin toplumları durmadı,
İşi elə isti-isti görərlər.
Xançu üstə yürüdülər birbaşa,
İşi elə isti-isti görərlər.
Tuncay, Cumər beş gün kəhər səyirtdi,
Təbət boyu çinellini gəbərtdi,
Vurdu, qırdı, acıqanı seyrəltdi,
İşi elə isti-isti görərlər.

Yolda biri əl uzatdı Tuncaya,
Dedi:-Oğul, mən Muğərəm, bir dayan,
Əltut olun, mən də sizlə bir soyam,
İşi elə isti-isti görərlər.

Mən də bir ay Soyqan ilə vuruşdum,
Yaralandım, torpaqlara qarışdım,
Üz-gözümə qarışqalar daraşıb,
İşi elə isti-isti görərlər.

***

Soyqan qaçdı, Tuncər onun dalınca,
Çox uzağa gedə bilməz ac atlar,
Tuncər onu yaxaladı Xançuda,
Çox uzağa gedə bilməz ac atlar.

Vuruşdular, güləşdilər, düşdülər,

Heysizlikdən valaylayıb, aşdılar,
Yenə durub Çinel yana qaçdılar,
Çox uzağa gedə bilməz ac atlar.

Tuncər getdi, toplum onun dalınca,
Çapdı, çapdı, sonda son güc qalınca,
Acıqandan son öcünü alınca,
Çox uzağa gedə bilməz ac atlar.

Onlar gəlib Çinçayelə çatdılar,
Çinellilər yavaş-yavaş artdılar,
Toplum çəkib yenə ara qatdılar,
Çox uzağa gedə bilməz ac atlar.

***

Ağac evlər, qamış evlər, lığ evlər,
Sel-su olan yerdə yüngül ev gərək,
Çinçay sıx-sıx evlər idi, ev yolu,
Sel-su olan yerdə yüngül ev gərək.
Qayıqlarda yaşayırdı çoxusu,
Balıq tutmaq işi, gücü, qayğısı,
Soyqanındı dəyirmanlar qurğusu,
Sel-su olan yerdə yüngül ev gərək.

Suqırağı yerdə gözəl yatımlar,
Sıralandı burda bir də toplumlar,
Dözümsüzdü, sısqa idi vurumlar,
Sel-su olan yerdə yüngül ev gərək.

Tuncər dedi:-Alacağam Çinçayı,
Qalacaqdır burda altı alayım,
Bizimkidir elin yeyi, qolayı,
Sel-su olan yerdə yüngül ev gərək.

***

Öz yurduydu, Soyqan qaçdı burdan da,
Yurdu qoyub qaçan başçı sevilməz.
Çinçaylılar ona yaman dedilər,
Yurdu qoyub qaçan başçı sevilməz.

Tuncay burda, Tuncər isə Xançuda,
Üzülüşdü Soyqan kimi qoçudan,
Aclıq idi burda könlü acıdan,
Yurdu qoyub qaçan başçı sevilməz.

Çinçay dedi:-Sizə qapı açırıq,
Minellini qucaqlayıb qucuruq,
Biz çayçıyıq, qana qarşı qancılıq,
Yurdu qoyub qaçan başçı sevilməz.

Tuncər dedi:-Soyqan yenə gələcək,
Gəlsə, mənim öz əlimdə öləcək.
Qancıllığın onda dadın biləcək,
Yurdu qoyub qaçan başçı sevilməz.

***

Bir ay keçdi, səs çıxmadı Soyqandan,
Bərk gedənlər daha çətin qayıdar.
Cumər getdi yazılarla Muğelə,
Bərk gedənlər daha çətin qayıdar.
Tuncay dedi:-Qayıt yenə Çinçaya,
Gəl başçı ol bizim böyük alaya,

Harda olsan səs ver səsə, haraya,
Bərk gedənlər daha çətin qayıdar.

Cumər dedi:-Mənim yolum uğurdur,
Ancaq burda qalmaq mənə ağırdır,
Aclıq çəkən gözlər çuxur-çuxurdur,
Bərk gedənlər daha çətin qayıdar.

Dönməliyəm mən bu ayın ortası,
Yazı vardır Qarçiçəyə çatası,
Tanı desə gəlləm bura, qadası,
Bərk gedənlər daha çətin qayıdar.

Yazışma söyləncі

Cumər iki yol yoldaşı götürdü,
Uzaq yolun azmağı var yol boyu.
Muğəri də alıb ona qoşdular,
Uzaq yolun azmağı var yol boyu.

Qarçiçək də arıqlayıb solmuşdu,
O, Muğərdən qara soraq almışdı,
İki yolun ayrıcında qalmışdı,
Uzaq yolun azmağı var yol boyu.

Eşitdi ki, gətirdilər Muğəri,
Saçlarına getdi qızın əlləri,
«Əltut» deyib o çağırdı elləri,
Uzaq yolun azmağı var yol boyu.

Çıxdı yola, ürək kövrək, dil kövrək,
Çıxdı yola göz yaşıyla Qarçiçək,
Ağlayırdı onla bulud, çay, külək,
Uzaq yolun azmağı var yol boyu.

***

Ancaq Muğər ölməmişdi, sağ idi,
Ölə bilməz gözü yolda qalanlar.
Qarçiçəyin obasına qoydular,
Ölə bilməz gözü yolda qalanlar.

Neçə yerdən yaralıydı gövdəsi,
Ağarmışdı gözlərinin çevrəsi,
Qaralmışdı bəbəyinin görməsi,
Ölə bilməz gözü yolda qalanlar.

Qarçiçəyin üzü çalır sarıya,
Diz qatdayıb əl uzatdı tanrıya,
Dedi:-Tanrım, gərək onu qoruyaq,
Ölə bilməz gözü yolda qalanlar.

Qanlı ölüm, qanlı sıxma-boğmalar,
Qız əlində ovuşdurma, ovmalar,
Sonra gəldi süddən, otdan yaxmalar,
Ölə bilməz gözü yolda qalanlar.

***

Tanı şahın yazısına baxdı qız,

Sevən ürək yazı-pozu götürməz.
O sevmişdi bu yerləri, qalmışdı,
Sevən ürək yazı-pozu götürməz.

Dedi:-Mənim Tanı şaha yazım var,
Məndən qorxu çəkməsinlər qoy onlar.
Mənsiz qalsa məncə batmaz Mindiyar,
Sevən ürək yazı-pozu götürməz.

Göy ağacın üç qabığı yazılı,
Tək deyimlər, ayrı sözlər qızılı,
Sanki hamar daş altında basılıb,
Sevən ürək yazı-pozu götürməz.

Cumər gördü yazıları, duruxdu,
Ayırd edə bilməyərək darıxdı,
Nəsə demək istəyirdi, qarıxdı,
Sevən ürək yazı-pozu götürməz.

***

«Mindiyarın böyük şahı Tanı şah,
Minel birdir, burda oldun, ya orda.
Bacarığım, gücüm, könlüm onundur,
Minel birdir, burda oldun, ya orda.

Muğel yurdu, obaları yazıqdır,
Düşərlik var burda, hamı sınıqdır,
Çinellidən çoxu gözü qıpıqdır,
Minel birdir, burda oldun, ya orda.

Burda şaman, odər, ocaq – qoşadır,
Qoşalığı birel yerdə yaşadır,
Burda böyük tanrı böyük Aşadır,
Minel birdir, burda oldun, ya orda.

Böyük tanrı buyurur ki, adamlar,
Çox böyükdür, çox uludur Mindiyar,
Çox böyüyə, çox kiçiyə qorxu var,
Minel birdir, burda oldun, ya orda.»

***

«Mindiyarın böyük şahı Tanı şah,
Oğul dibdaş, qız köçəri, nədəndir.
Alınyazım mənim belə yazılıb,
Oğul dibdaş, qız köçəri, nədəndir.

Siz bu eli özünüzdən biliniz,
Üstümüzdə olsun hər an əliniz,
Hərdən ova, gəzintiyə gəliniz,
Oğul dibdaş, qız köçəri, nədəndir.

Bizim gözəl gəlinimiz Günaydır,
Doğmacamız on beş yaşlı Tuncaydır,
İşlərimiz, yurdlarımız qolaydır,
Oğul dibdaş, qız köçəri, nədəndir.

Sağaldıram burda çox-çox düşəri,
Sizin üçün göynəsə də içərim,
Burda yeni alınyolu seçərim,
Oğul dibdaş, qız köçəri, nədəndir».

***

«Mindiyarın böyük şahı Tanı şah,

Şah bir olsa uluslar da bir olar.
Orda-burda şahlıq edir yerinclər,
Şah bir olsa uluslar da bir olar.

Yerinc olsam buyuruqla Muğelə,
Mən yayaram od-ocağı çox yerə,
Aramızda buzlaq olmaz bir belə,
Şah bir olsa uluslar da bir olar.

Mənə qarşı burda böyük inam var,
Məni tanrı bilən min-min adam var,
İnan, həm də yoxla, deyib atalar,
Şah bir olsa uluslar da bir olar.

Sərtüzümüz məndən incik qalmasın,
Aramızda qoy soyuqluq salmasın,
İnamımız iki başlı olmasın,
Şah bir olsa uluslar da bir olar».

***

Bu üç yazı getdi, çatdı Tanıya,
Od üstünə su çiləndi elə bil,
Sərtüz gəldi, yazıları oxudu,
Od üstünə su çiləndi elə bil.

Dedilər ki, başbiləndir Qarçiçək,
Yerinc qoyaq orda onu biz gərək,
O qız ocaq işlərini görəcək,
Od üstünə su çiləndi elə bil.

Başbilənlər gərək yazı öyrənə,
Üztutdular, yalvarışlar söylənə,
Bu işləri tapşırınız siz mənə,
Od üstünə su çiləndi elə bil.

Buyurunuz, ev tikilsin ocağa,
Sığınacaq olsun elə, qonağa,
Ocaq evi dönsün hər gün sorağa,
Od üstünə su çiləndi elə bil.

***

Biz bu sayaq diz çökdürrük yamanı,
Ocaq kəsir yamanlığın kökünü,
Üztutdular, yalvarışlar Aşada,
Ocaq kəsir yamanlığın kökünü.

Kəsi olsa göy otlaqlar güllənər,
Yağış yağar, çay, göl, bulaq sellənər,
Sürü, naxır, ilxı bir-bir enlənər,
Ocaq kəsir yamanlığın kökünü.

Mən Sərtüzəm, Sarıdöşün yollusu,
Tanı şahın Suböləndə ellisi,
On min ilin dirisiyəm, ölüsü,
Ocaq kəsir yamanlığın kökünü.

Mən Sərtüzəm, doğulmuşam Aşadan,
Mənəm yerdə tanrıları yaşadan,
Onlar göydə, mənsə yerdə baş adam,
Ocaq kəsir yamanlığın kökünü.

***

Tanı dedi:-Keçmişləri yaşadaq,
Su buluddan, budaq kökdən yaranır.

Sərtüz dedi:-Keçmiş gəlsin yazıya,
Su buluddan, budaq kökdən yaranır.

«Vur»-deyəndə, bir ox çəkək, «vur» olsun,
«Qurd»-deyəndə, bir qurd çəkək, «Qurd» olsun,
«Yurd»-deyəndə, ocaq çəkək, «yurd» olsun,
Su buluddan, budaq kökdən yaranır.

Yazı olsa hər bir sözün tutumu,
Oxu-yazı atar ilkin addımı,
Şah da yazar hər görgüdə* adını,
Su buluddan, budaq kökdən yaranır.

Sərtüz dedi:-Sözü çəkək görgüyə,
Yarpaq-yarpaq sözlər dönsün dərgiyə,
Yazı, oxu dibdaş olsun bilgiyə,
Su buluddan, budaq kökdən yaranır.

_____
Lövhə

***

Tanı dedi:-Düşüncəni nə çəkək,
Düşüncəni çəkmək çətin, yazıda,
Sərtüz dedi:-Ya baş çəkək, ya alın,
Düşüncəni çəkmək çətin, yazıda.

Tanı dedi:-Bəs tanrını nə çəkək,
Gələ bilər tanrı sözü yazıya?
Sərtüz dedi:-Günəş çəkək, tanrıdır,
Düşüncəni çəkmək çətin, yazıda.

-Onda yazın bir buyuruq, bildirmə,
Sözü yazıb elə, yurda yetirmək,
Bundan sonra sözdən sözlük gətirmək,
Düşüncəni çəkmək çətin, yazıda.

Çəkin, sözlü dərgiləri yaransın,
Böyük ərlər axtarılsın, aransın,
Keçmişimiz sözlüklərdə qorunsun,
Düşüncəni çəkmək çətin, yazıda.

***

Başev iri boşqab aldı qızıldan,
Keçmişləri yey saxlayan yazıdır.
Gücər, Turər boşqablara yazıldı,
Keçmişləri yey saxlayan yazıdır.

Sonra Qızağ, Qızbax, Yüzər yazıldı,
Orda Duru nənə adı qazıldı,
Bu boşqablar göz önündən asıldı,
Keçmişləri yey saxlayan yazıdır.

Sonra Düzər, Qızod, Odər, İşdayaq,
Sonra Mindon, Bozqurd, Manay, Üstüağ,
Boşqablara adlar düşdü bu sayaq,
Keçmişləri yey saxlayan yazıdır.

Bacar, Tuncər, Qaraş, Yürüş, Tanı şah,
Durdu yazı boşqablarda baş-başa,
Savaşlar da yazılandı bir daşa,
Keçmişləri yey saxlayan yazıdır.

***

Tanı dedi:-Bir sözlük yaz bu dildə,

Hamı gərək bir anlaya sözlüyü.
Ən ulu söz, ən çevik söz bizdədir,
Hamı gərək bir anlaya sözlüyü.

Min-min sözdən Sərtüz sözlük yaratdı,
Min söz çəkib damı-daşı qaraltdı,
O yazdıqca sözlüklərdə söz artdı,
Hamı gərək bir anlaya sözlüyü.

Ən ulu söz, ən çevik söz nə çoxdur,
«Al, ver, tut , yar, ək, biç, ye, iç, vur, qır, dur,
Get, gəl, at, tut, çap, yor, öt, çat, çək,
tik,qur...».
Hamı gərək bir anlaya sözlüyü.

Ən ulu söz, ən çevik söz yığıldı,
Min-min sözdən qalın sözlük doğuldu,
Hər bir sözdən yeni sözlər sağıldı,
Hamı gərək bir anlaya sözlüyü.

Turq-tay söyləncі

Tanı şahın oğlu oldu anadan,
Hər qoşadan bir üçüncü yaranır.
Turqtay qoydu şah oğlunun adını,
Hər qoşadan bir üçüncü yaranır.

Bu ad gəzdi yurdda, eldə, elatda,
Ata, ana gəldi qoşa qanadda,
Turqız, Tanı birləşmişdi bu adda,
Hər qoşadan bir üçüncü yaranır.

Əkbitənə Turqtay işıq ələdi,
Başev onu öymələrə bələdi,
Qundağına gül suları çilədi,
Hər qoşadan bir üçüncü yaranır.

Nə ağlayıb, nə gülürdü körpəcik,
Doğulmuşdu qaş-qabaqlı, həm incik,
Nəydi görən bu saymazlıq, bu dinclik,
Hər qoşadan bir üçüncü yaranır.

***

Turqtay gəldi, unuduldu Manay şah,
Tapıntılar unutdurur itkini.
Tanı şah da anasını unutdu,
Tapıntılar unutdurur itkini.

Qaş-qabağı açılmışdı Tanının,
Ürəyində sevinc vardı hamının,
Tanış-biliş kəsmiş idi qapını,
Tapıntılar unutdurur itkini.

Bacar çapar göndərmişdi Tanıya,
Pay-puş, bağış, qızıl, gümüş anaya,
Bir də hər şey toy-düyünə yarayan,
Tapıntılar unutdurur itkini.

Əkbitənə lap çox idi gələnlər,
Sevinirdi körpəciyi görənlər,

Pay verirdi ölkə-ölkə ərənlər,
Tapıntılar unutdurur itkini.

***

Yığıldılar toplantıya,
Söz qılıncdan ötkəm olur.
Yerincləri dinlə, dindir,
Söz qılıncdan ötkəm olur.

Açıqlama, saylı, sayğı,
Qat bağlamış neçə sorğu,
Həm boğuntu, həm də qayğı,
Söz qılıncdan ötkəm olur.

Buzboğazdan Körfəzəcən,
Hamı gəlib bircə-bircə,
Deyim, duyum, sayım gerçək,
Söz qılıncdan ötkəm olur.
Səpələnib ora, bura,
Yəhərli at hardan, hara,
Tunc qoşqular sıra-sıra,
Söz qılıncdan ötkəm olur.

***

Tanı şaha baş əyirlər,
Ağsaqqallıq yaşla deyil.
Qabağında sayıq-sayın,
Ağsaqqallıq yaşla deyil.

Geyimləri birdir, nədən,
Al dəmirdən, tunc dəmirdən,
Qulaq batır səs-səmirdən,
Ağsaqqallıq yaşla deyil.

Çal saqqallı, qalın yallı,
Baş, döş, üz, qol tüklü, qıllı,
Hərəsinin yeri bəlli,
Ağsaqqallıq yaşla deyil.

Bircə Bacar boğulmuşdu,
Əli-qolu yığılmışdı,
Qurd dərisi dağılmışdı,
Ağsaqqallıq yaşla deyil.

***

Ölüşgəyən, çiçəklənən,
Biri gəlir, biri gedir.
Şellənənlər, ərpiyənlər,
Biri gəlir, biri gedir.

Hanı başı-döşü dağlar,
İşdayaqlar, Üstüağlar,
Ərdən güclü ər qızbaxlar,
Biri gəlir, biri gedir.

Oturubdur Tanı başda,
Nəsə deyir o, yavaşdan,
Yetkin gəncdi çox da yaşda,
Biri gəlir, biri gedir.
Səs kəsilir, hay-küy bitir,
Söz-sorğular sona yetir,
Baxış iti, qulaq iti,

Biri gəlir, biri gedir.

***

Şah söylədi:-Minellilər,
Birlik gücdə bir olmaqdır.
Bu gün bunu görürəm mən,
Birlik gücdə bir olmaqdır.

Gücər soyu, Tur başrağı
Bura yığıb el, ocağı,
Alqışlayın bu yığnağı,
Birlik gücdə bir olmaqdır.

Anam Manay ölən çağı
Mənə verdi bu şahlığı,
Odur mənim şah dayağım,
Birlik gücdə bir olmaqdır.

Mənim ərkim, hikkələrim
Alıb yüz-yüz bölgələri,
Ulusları, ölkələri,
Birlik gücdə bir olmaqdır.

***

Ölkə çatıb Buzboğaza,
Böyük çevik ola bilmir.
Beş ay yoldur burdan ora,
Böyük çevik ola bilmir.

Səs, hənirti, yazı, çapar,
İldə bir yol gətir, apar,
Gərək yeni bir yol tapaq,
Böyük çevik ola bilmir.

Yurdu ölçüb dirsək-dirsək,
Bölgələrə bölək gərək,
Nə göstərər bu iş, görək,
Böyük çevik ola bilmir.
Hər bölgənin şahı ayrı,
Qoy çoxalsın gücü, varı,
Vergisi də yarı-yarı,
Böyük çevik ola bilmir.

***

Səs-küy qopdu yığıncaqda,
Böyük batar, parçalansa.
Hərə sürər öz atını,
Böyük batar, parçalansa.

Bacar dedi:-Bu nə sözdür,
Parçalanmaq hələ tezdir,
Mindiyarda el yüz – yüzdür,
Böyük batar, parçalansa.

Çaparları biz çoxaltsaq,
Yaxın olar ucqar, uzaq,
Qoy bir olsun torpaq, başraq,
Böyük batar, parçalansa.

Uzaq Minel, yaxın Minel,
Bir-birindən ayrı deyil,
Lap olsa da yolu bir il,

Böyük batar, parçalansa.

***

-Vergi qoysun şah hər başa,
Dolur saxlanc vergi ilə.
Çoxalt üç qat çap-çapları,
Dolur saxlanc vergi ilə.

Qışlaq, yaylaq, doğu, batı,
Bir-birinə calaq atıb,
Səs də çatır, söz də çatır,
Dolur saxlanc vergi ilə.

-Mən Cumərəm, Duzdağ eldən,
Onçu olub böyük dədəm,
Nəyə artır vergim, nədən,
Saxlanc dolur vergi ilə.
Duzdağ hara, Muğel hara,
Gedib çatdım o diyara,
Yüz gün yoldur bizdən ora,
Saxlanc dolur vergi ilə.

***

-Mən Günayam, Ağüzeldən,
Şahlıq çoxsa, ölkə birdir.
Qoy Ağüzel şahlıq olsun,
Şahlıq çoxsa, ölkə birdir.

Çox yerinc var, çoxu artıq,
Çoxu qorxaq, gözü qıpıq,
El-obası varsız, yazıq,
Şahlıq çoxsa, ölkə birdir.

Ağüzeli şahlıq edək,
Muğeldə də var Qarçiçək,
Turel şahlıq olsun gərək,
Şahlıq çoxsa, ölkə birdir.

Öz əlləri, öz başları,
Öz içində dalaşları,
Ərənləri baş başları,
Şahlıq çoxsa, ölkə birdir.

***

Ağqurd Alpan dedi:-Susun!
Düzdə əyri getmək pisdir,
Mindiyarı dağıtmayın,
Düzdə əyri getmək pisdir.

Tuncər dedi:-Şaha görə,
Şah olacaq burda hərə,
Nəyə gərək şah boş yerə,
Düzdə əyri getmək pisdir.

Tanı durdu, dedi belə:
-Gücü verək iki yerə,
Çinel ilə Asurelə,
Düzdə əyri getmək pisdir.
Bizə qarşı qancıl, yaman,
Ya ordandır, ya da burdan,
Öc alırlar Mindiyardan,
Düzdə əyri getmək pisdir.

***

Başev qalır, Əkbitəndir,
Bir gövdədə bir baş olar.
Uğureli şahlıq edək,
Bir gövdədə bir baş olar.

Bacar dursun Çinə qarşı,
Hər bir işdə başlar başı,
Yoxsa Çinel cızıq aşıb,
Bir gövdədə bir baş olar.

Öz toplumu, göstərişi,
Öz buyruğu, göndərişi,
İşi, gücü, tərpənişi,
Bir gövdədə bir baş olar.

Bacar yurdun o başında,
Tanı yurdun bu başında,
Duraq yaman qarşısında,
Bir gövdədə bir baş olar.

***

Sonda bunu yey sandılar,
Şah nə deyir, sən onu et.
İki şahlı oldu ölkə,
Şah nə deyir, sən onu et.

Ölkə iki ölkə oldu,
Bacar şahlıq adı aldı,
Yeləsəndə o ucaldı,
Şah nə desə, sən onu et.

Bacar yaşlı olsa belə,
Qılıncını qoymur yerə,
O, şah oldu, həm də ərən,
Şah nə desə, sən onu et.
O ayağa durmalıydı,
Acıqanı vurmalıydı,
Soyqanları qırmalıydı,
Şah nə desə, sən onu et.

***

Tuncər, Günay, Ağqurd Alpan,
Daş olanda dibdaşı ol.
Cumər, Turqız, Muğər, Onçu,
Daş olanda, dibdaşı ol.

Bunlar idi elin varı,
Yaşadırdı Mindiyarı,
Bütöv-bütöv, yarı-yarı,
Daş olanda, dibdaşı ol.

Sərtüz şahı yoxlayırdı,
Susub çəki saxlayırdı,
Öz içində ağlayırdı,
Daş olanda, dibdaşı ol.

Toplantıda qaldı yasaq,
Əkin, biçin, su, arx, ocaq,
Düşdü bunlar gözdən uzaq,
Daş olanda, dibdaşı ol.

***

Tanı dedi:-Ana ulu,
Harda olsa ana şahdır.
Manay şahı səsləyirəm,
Harda olsa ana şahdır.

Batı yanda Duzlugöldür,
Burdan ora üç gün yoldur,
Böyük ulus, böyük eldir,
Harda olsa ana şahdır.

Günay ora yerinc olsun,
Man şahlığı adı alsın,
Qoy ananın adı qalsın,
Harda olsa ana şahdır.
Çətin gündə o, döş gərib,
Döyüşlərə ər tək girib,
Nələr çəkib, nələr görüb,
Harda olsa ana şahdır.

***

Hamı dedi:-Sağ ol, Tanı,
Dağdan uca dağdır ana,
Varlıq onun ucbatında,
Dağdan uca dağdır ana.

Man şahlığı uca olsun,
Qapılara açar olsun,
Tanrıları qucar olsun,
Dağdan uca şahdır ana.

Tanı dedi:-Turel də var,
Şahlıq, şahlıq deyir onlar,
İstəkləri tumar-tumar,
Dağdan uca dağdır ana.

Tureli də düşünərim,
Öcləri var, acı, dərin,
Turqızı var o yerlərin,
Dağdan uca dağdır ana.

***

Çəkişdilər, bərkişdilər,
Çəkiş-bərkiş ulu yoldur,
«Hə» deyəni, «yox» deyəni,
Çəkiş-bərkiş ulu yoldur.

Turel üstdə dalaşdılar,
Saçlaşdılar, yollaşdılar,
Barışdılar, qollaşdılar,
Çəkiş-bərkiş ulu yoldur.

Tanı dedi bilə-bilə,
Onda Turel qalsın hələ,
Ağsaqqallar özü gələr,
Çəkiş-bərkiş ulu yoldur.
Sonra hərə öz yerinə
Söz verdilər dönə-dönə,
Əltut olsun bir-birinə,
Çəkiş-bərkiş ulu yoldur.

Köç söyləncі

İki min-min köçkün gəldi Minelə,
Çatan dönüb daldakını çağırar.
Hexa, Mənіş yox idilər bu köçdə,
Çatan dönüb daldakını çağırar.

Yer tutmuşdu burda Hindel köçkünü,
Ələnmişdi yaxşı, yaman, düşkünü,
Yaşamışdı qan-qadayla beş günü,
Çatan dönüb daldakını çağırar.

İki min-min artdı əskі min-minə,
Yer, su işi yenə düşdü düyünə,
Yer tapmayan çırpım-çırpım deyinər,
Çatan dönüb daldakını çağırar.

Arielli yeniləşdi bir daha,
Getdi çatdı səs-soragı gənc şaha,
Artdı yenə çox-çox qazma, çox kaha,
Çatan dönüb daldakını çağırar.

***

Tanı şahın səsləncləri gurladı,
Səsləns eli döyüşlərə səsləyər.
Turqız artıq bir anaydı, yerinc yox,
Səsləns eli döyüşlərə səsləyər.

Turqız dedi:-Mən gedərəm Turelə,
Yoxsa nə var orda uçub tökülər,
Hər min ildə köçkün olmaz bir belə,
Səsləns eli döyüşlərə səsləyər.

Tanı dedi: Sən anasan, get, otur,
Turqtaya bax, beşiyində bərk yatır,
Bu Tureldə qaçqın, köçkün çox artıb,
Səsləns eli döyüşlərə səsləyər.

Qaytararam mən onları Hindelə,
Bizdə boş yer, otlaq yoxdur bir belə,
Yoxsa Turel dönər daşqın bir selə,
Səsləns eli döyüşlərə səsləyər.

***

Turqız dedi:-Yer ver, əkib, biçsinlər,
Yox, gələni sən qaytarma qapından.
Gələnləri yönəlt işə, qulluğa,
Yox, gələni sən qaytarma qapından.

Toplum yarat, gətir, dursun qapında,
İş ver, tutsun beldən, balta sapından,
Çıxart üzə kimin nə var qabında,
Yox, gələni sən qaytarma qapından.

Tanı getdi, toplum onun dalınca,
Getdi, yollar onu dildən salınca,
Köçkün gəldi şahdan soraq alınca,
Yox, gələni sən qaytarma qapından.

Ağsaqqallar, ağbirçəklər bükülü,
Üst-başından cır-cındırı tökülür,

Üzlərdən qan, gözlərdən od çəkilib,
Yox, gələni sən qaytarma qapından.

***

-Sən qaytarma bizi burdan, Tanı şah,
Umacaqdır* kimsəsizi yaşadan,
Bizi Hindel ölkəsindən qovublar,
Umacaqdır kimsəsizi yaşadan.

Dilimizi gülünc, alçaq tutdular,
Satqın deyib bizi çölə atdılar,
On minləri kölə edib satdılar,
Umacaqdır kimsəsizi yaşadan.

****Ümid***

Uman yerdir bizə böyük Mindiyar,
Min il qabaq köçüb bura babalar,
Yuva salıb burda köçkün analar,
Umacaqdır kimsəsizi yaşadan.

Qapınızda atdan işlək qul olluq,
Çölünüzdə kətmən olluq, bel olluq,
Evinizdə yardım, əltut əl olluq,
Umacaqdır kimsəsizi yaşadan.

***

-İki min-min köçkün bura sığışmaz,
Yaşamağa bollu yer, su gərəkdir,
Özgə yerə köçüb getsin yarınız,
Yaşamağa bollu yer, su gərəkdir.

Gücsüz, əzgin, yorğun çıxsın ortaya,
Yerdə qalan üzü belə, batıya,
Yarı elə, yarı belə sarıya,
Yaşamağa bollu yer, su gərəkdir.

Köçkün köçü dalğalandı, selləndi,
Boz çatırlar,* ağ çalmalar yelləndi,
Biri çıxıb daş üstünə, dilləndi:
-Yaşamağa bollu yer, su gərəkdir.

Batı yana gedən gəlsin dalımca,
Biz gedirik üz-gözümüz solunca,
Yer taparıq orda, yerli olunca,
Yaşamağa bollu yer, su gərəkdir.

***

-Uzaq-uzaq yerlər, bizə yer verin,
Yeri-yurdu tanıdan da adamdır.
Təkcə yer yox, könlünüzdə yer verin,
Yeri-yurdu tanıdan da adamdır.

****Çadır***

Biz köçürük, siz qalınız, doğmalar,
Sizin olsun bu tüstülü daxmalar.
Bir də dadlı, duzlu yerli qoşmalar,
Yeri-yurdu tanıdan da adamdır.

Birdən, bir də görüşmərik, sağ qalın,

Qalın, böyük Tanı şaha əl olun,
Gedişi var, çatışı var hər yolun,
Yeri-yurdu tanıdan da adamdır.

Yer üzünün kimsəsizi bizlərik,
Gedib tanrı qapısında gözlərik,
Yararlarıq daşlıqları, düzləri,
Yeri-yurdu tanıdan da adamdır.

***

Budaqlanıb bir köç belə köçürdü,
Axıb, axıb su yerini tapacaq.
Yumaqlanıb bir köç yerdə oturub,
Axıb, axıb su yerini tapacaq.

Hürüşmələr arasında mələrti,
Anqırtılar arasında kişnərti,
Muşquruqlar arasında fınxırtı,
Axıb, axıb su yerini tapacaq.

Alıb gedir ürəkləri sancılar,
Yağışlanır kirpiklərdə damcılar,
İldırım tək göydə oynar qamçılar,
Axıb, axıb su yerini tapacaq.

Qalanlarsa ağlayırdı, gülürdü,
Acı-acı göz yaşını silirdi,
Nə olacaq, bunu hamı bilirdi,
Axıb, axıb su yerini tapacaq.

***

Beş gün gəzdi bu yerlərdə Tanı şah,
Quru torpaq çiçəklənir iş ilə.
Hamı ondan soruşurdu Turqızı,
Quru torpaq çiçəklənir iş ilə.
Yaşıl tarla, qalın meşə, axar su,
Dağ döşündən qopub gələn uçarsu,
Kənd arası kəhər kimi çapar su,
Quru torpaq çiçəklənir iş ilə.

Maha-Qızbal, Qaraş, Məniş yox idi,
Dalğa-dalğa taxıl, arpa sıx idi,
Hamı burda üzdən, gözdən tox idi,
Quru torpaq çiçəklənir iş ilə.

Turqız verdi bu bolluğu Turelə,
O, yaraşıq oldu kəndə, var çölə,
Düşdü adı bu yerlərdə hər dilə,
Quru torpaq çiçəklənir iş ilə.

***

Günlər keçdi, aylar döndü illərə,
Ayaq tutub il-il gedir dayanış,
Turel oldu Ariellə Darvidel,
Ayaq tutub il-il gedir dayanış.

Tanı, Turqız, Turqtay gün-gün yaşlanır,
Düşüncələr qanadlanır, quşlanır,
Tureldə də köçkün günü başlanır,
Ayaq tutub il-il gedir dayanış.

Yeni köçkün, əski köçkün birləşir,

Yeni, əski Turel içrə yerləşir,
Doğulanlar artır, artır, ərləşir,
Ayaq tutub il-il gedir dayanış.

Soruşan yox, sən hardansan, haralı,
Darvidelli, Arielli, aralı,
Acıq, ağrı dar gözlərdə qaralır,
Ayaq tutub il-il gedir dayanış.

***

Turqtay gəlib çatdı on beş yaşına,
Bacarığı ölç işlə sən, yaşla yox.
Bu yaşında çox acılar yaşadı,
Bacarığı ölç işlə sən, yaşla yox.
Qonaq getdi Manay yurda – Günaya,
Qardaş dedi qol-qanadlı Tuncaya,
O, alınmaz söykənc idi, sərt qaya,
Bacarığı ölç işlə sən, yaşla yox.

Seyrək idi qaşlarının çatması,
At çapmaqda, ox atmaqda atası,
Sağalmazdı qılıncının yarası,
Bacarığı ölç işlə sən, yaşla yox.

Dedilər ki, həm də qardaş olaq biz,
Mindiyara söykənc olaq ikimiz,
Qoy birləşsin bu dənizlə o dəniz,
Bacarığı ölç işlə sən, yaşla yox.

***

Turqtay dedi:-Mindiyarı bölməyək,
Güc itirir iki yerə bölünən.
Qurultayın buyuruğu düz deyil,
Güc itirir iki yerə bölünən.

Mən bilirəm, Bacar bir az qocalıb,
Tuncər gəlib Manayyurdda ucalıb,
Yaşlıların düşüncəsi daralıb,
Güc itirir iki yerə bölünən.

Tuncay dedi:-Qardaş olaq bu işdə,
Ölkəmizi biz qurtaraq enişdən,
Bunu deyək hər bir gizli görüşdə,
Güc itirir iki yerə bölünən.

Soyqan orda, Asurşah da burada,
Biz bir olsaq, əltut olar yaradan,
Qancılları çıxardarıq sıradan,
Güc itirir iki yerə bölünən.

İki qardaş söyləncі

İki qardaş, iki oğul, iki qoç,
Hərə dibdaş olmalıdır ölkəyə,
Onlar gizli, orda-burda görüşdü,
Hərə dibdaş olmalıdır ölkəyə.

Tanı, Turqız, Tuncər soraq tutunca,

İki qardaş bu birliyə çatınca,
Gözlədilər düşüncələr qartınca,
Hərə dibdaş olmalıdır ölkəyə.

Soyqan bir də Uğurelə yürüdü,
İgidləri salıb atdan, sürüdü,
Turqtay, Tuncay onun üstə yeridi,
Hərə dibdaş olmalıdır ölkəyə.

Cumər, Günay, Ağqurd Alpan çaparaq,
Uçub gəldi döyüşlərə quş sayaq,
Tanı şaha sonra çatdı səs, soraq,
Hərə dibdaş olmalıdır ölkəyə.

***

Bacar kəsdi qabağını Soyqanın,
Hər döyüşdə öndə gedən vurulur.
Neçə oğul yara aldı Soyqandan,
Hər döyüşdə öndə gedən vurulur.

Soyqan dəmir dəbilqədə, geyimdə,
O qorxmayır heç bir qandan, ölümdən,
Çəkinməyir döyüşlərdə heç kimdən,
Hər döyüşdə öndə gedən vurulur.

Kəsir, tökür, vurur, yıxır, tapdayır,
Qılıncını ürəklərə saplayır,
Ölüm deyib qoluna güc toplayır,
Hər döyüşdə öndə gedən vurulur.

Sağı, solu biçir, gedir irəli,
Mindiyarın alayları seyrəlir,
Bacar baxır bu gedişə, kövrəlir,
Hər döyüşdə öndə gedən vurulur.

***

Qurd dərisi əynindəcə quruyub,
Ucalt, yey tut, nə qalıbsa atadan,
Ölümlərdən o qorudu Bacarı,
Ucalt, yey tut, nə qalıbsa atadan.

Dedi:-Soyqan, öncə mənlə vuruş sən,
Onda ölüm necə olur, bilərsən,
Bir qaçmışdın, bir də gəldin yenidən,
Ucalt, yey tut, nə qalıbsa atadan.

Mən görürəm, sənin gözün dombadır,
Yastı üzün çox soyuqdur, yapmadır,
Baxışların qorxuludur, daşmadır,
Ucalt, yey tut, nə qalıbsa atadan.

Biz vuruşaq, baxsın bizə toplumlar,
Görək kimin dözümü var, gücü var,
Öz yerini tapsın Çinel, Mindiyar,
Ucalt, yey tut, nə qalıbsa atadan.

***

Soyqan dedi:-İki olub Mindiyar,
İkiləşən ölkə çapır sonevə.
Biri Çinel, biri Asur şahındır,
İkiləşən ölkə çapır sonevə.

İkiləşən yurdun qartmış ərəni,

Qılıncımla doğrayaram mən səni.
Göndərərəm Tanı şaha gövdəni,
İkiləşən ölkə çapır sonevə.

Mən Soyqanam, böyük Çinel Soyqanı,
Gəbərdərəm sənin kimi qabanı,
Toplumuna yedirdərəm arpanı,
İkiləşən ölkə çapır sonevə.

Uğurellə Xançu, Muğel mənimdir,
Bu yerlərdən məni qovmaq çətindir,
Onda sən də anlayarsan kim kimdir,
İkiləşən ölkə çapır sonevə.

***

O söylədi, bu danışdı, o söydü,
Söyüşləşir qandan qabaq ərənlər.
Ağırlaşır, acılaşır, qabarır,
Söyüşləşir qandan qabaq ərənlər.

Bizuc, toppuz, qılınc girdi araya,
Qulaq asdı hamı səsə, haraya,
Baxmadılar xırda-xırda yaraya,
Söyüşləşir qandan qabaq ərənlər.

Vuruşdular, yoruldular, durdular,
Yaraqları toqquşdurub durdular,
Sonra cumub alayları yardılar,
Söyüşləşir qandan qabaq ərənlər.

Sarmaşdılar bir-birinə alaylar,
Qalxdı göyə qışqırıqlar, haraylar,
Qana batdı çöllər, düzlər, dolaylar,
Söyüşləşir qandan qabaq ərənlər.

***

Daldan gəlib sayca artdı Çinelli,
Say göz tutur, göz qorxudur döyüşdə.
Minellinin sayı düşdü, azaldı,
Say göz tutur, göz qorxudur döyüşdə.

Soyqan, Bacar bir də gəldi üz-üzə,
Dayandılar qancıl kimi göz-gözə,
Qalxmaqdaydı yavaş-yavaş qan dizə,
Say göz çəkir, göz qorxudur döyüşdə.

Aclıq vardı alay, takım, manqada,
Tükənirdi yapma, qovurt, qorğa da,
Bacar əltut gözləyirdi arxadan,
Say göz çəkir, göz qorxudur döyüşdə.

İki çapar göndərmişdi, çapırdı,
Uğureldə ürkü gözə çarpırdı,
Aclıq alıb hər bir yeri, artırdı,
Say göz çəkir, göz qorxudur döyüşdə.

***

Soyqan alıb, qırıb, çatıb gedirdi,
Qabağını almaq olmaz axarın.
O düşmüşdü qırıb-çatmaq yoluna,
Qabağını almaq olmaz axarın.

Bacar artıq çəkilirdi geriyə,

Baxmayırdı yaralıya, diriyə.
Soyqan isə yürüyürdü bəriyə,
Qabağını almaq olmaz axarın.

Tutacağı, umacağı uzaqda,
Lap salmışdı aclıq onu ayaqdan,
Bir çökəkdə düşünürdü bayaqdan,
Qabağını almaq olmaz axarın.

«İki yerə parçalanmaq pis oldu,
Uğurelim ev-ev göyə sovruldu,
Bu döyüşdə mənim belim qırıldı,
Qabağını almaq olmaz axarın».

***

Gəldi döyüş yerlərinə Qızçiçək,
Toxdaqlıqdır qadın çox-çox yaraya.
Onu görüb Bacar bir də sarsıldı,
Toxdaqlıqdır qadın çox-çox yaraya.

-Ərim, bıçaq dayanıbdır sümüyə,
Qoy Soyqanı yoluxdurum çiçəyə,
Çinellilər dönsün qotur körpəyə,
Toxdaqlıqdır qadın çox-çox yaraya.

Bacar dedi:-Kişiliyin yolu var,
Gərək olsa bunu edər tanrılar,
Döyüşməyi doğru sanıb Mindiyar,
Toxdaqlıqdır qadın çox-çox yaraya.

Yoluxdurmaq düz yol deyil, qadınım,
Yüksək saxla sən öz tanrı adını,
Düşünürəm mən bu işin ardını,
Toxdaqlıqdır qadın çox-çox yaraya.

***

Sonra yığdı başçıları yanına,
Dedi:-Bircə uman yer var, dözümdür.
Cummalıyıq acıqanın içinə,
İndi bircə uman yer var, dözümdür.

Acıqanı yarıb getsək o başa,
Çatacayıq ətə, pendir, lavaşa,
Biz bu işi başlayarıq birbaşa,
İndi bircə uman yer var, dözümdür.

İgidlərim, irəliyə yeriyin!
Soyqanları Uğureldən kürüyün,
Gövdələri yarın, yıxın, sürüyün,
İndi bircə uman yer var, dözümdür.

Bol-bol yemək-içməyi var Soyqanın,
O çapıbdır Uğureldə hər yanı,
Yusun gərək bu döyüşdə qan qanı,
İndi bircə uman yer var, dözümdür.

***

Nərildədi, guruldadı alaylar,
İnam ərin ürəyini qabardır.
Dalğalanıb birdən getdi irəli,
İnam ərin ürəyini qabardır.

İlk sıranı yarıb keçdi ac ərlər,

Xarıldadı tunc qoşqular, təkərlər,
Sıra-sıra aşdı adam çəpərlər,
İnam ərin ürəyini qabardır.

Soyqan bunu gözləmirdi Bacardan,
Bacar idi ürəkləri qabardan,
Gerilədi dağda, çöldə, hamarda,
İnam ərin ürəyini qabardır.

Bunca bir səs eşidildi, nərilti,
Sanki göydən yerə endi gurultu,
Tuncay, Turqtay döyüşlərə atıldı,
İnam ərin ürəyini qabardır.

***

Turqtay, Tuncay vurub keçdi arxadan,
Yolda qalır iki yandan vurulan.
Acıqanın arxasına hay düşdü,
Yolda qalır iki yandan vurulan.

Turqtay qılınc, Tuncay bizuc oynatdı,
Çinelliyə kimliyini anlatdı,
Boğazlarda qara qanı qaynatdı,
Yolda qalır iki yandan vurulan.

Acıqanın sıraları söküldü,
Uğureldə qan qan üstə töküldü,
Çinellilər öz yerinə çəkildi,
Yolda qalır iki yandan vurulan.

Üç gün döş-baş, qarın, ağız yırtdılar,
Qırıldıqca çinellilər artdılar,
Minellilər bir-birinə çatdılar,
Yolda qalır iki yandan vurulan.

***

Soyqan qaçdı, ancaq döyüş bitmədi,
Başsız qalan adda-budda vuruşar,
İki yerə bölünmüşdü çinelli,
Başsız qalan adda-budda vuruşar.

Bacar dedi:-Acıqana qabarsan,
Çapdığında nə istəsən taparsan,
Yemək, içmək gördün, götür, nə varsa,
Başsız qalan adda-budda vuruşar.

Bacar iki qardaş ilə qovuşdu,
At üstündə gənclər ilə öpüşdü,
Qan qan ilə, güc güc ilə qarışdı,
Başsız qalan adda-budda vuruşar.

Sonra onlar çəkildilər üç yana,
Üç yürüşə Soyqan çətin dayanar,
Soyqan yoxdur, görən qaçıb hayana.
Başsız qalan adda-budda vuruşar.

***

Qızçiçəyin səsi gəlir uzaqdan,
Qadın kişi dözümündən dözümlü.
O, Soyqanı tutuqlayıb gətirir,
Qadın kişi dözümündən dözümlü.

-Ərim, mənə acıqlanma, amandır,

Al, tutduğum bu şəlitli Soyqandır,
O qaçırdı, qaçan başçı yamandır,
Qadın kişi dözümündən dözümlü.

Bacar baxdı, dedi:-Yox, bu, özgədir,
Soyqan buğa, bu tutuqsa cöngədir,
O deyildir, ona bənzər kölgədir,
Qadın kişi dözümündən dözümlü.

Soyqan gedib yeni toplum yığmağa,
Gəlib yenə dönəcəkdir toxmağa.
Yıxıb, çatıb, tutub, alıb boğmağa,
Qadın kişi dözümündən dözümlü.

***

Turqtay dedi:-Gedim tutum Soyqanı,
Gəncin qanı coşar, daşar, sellənər.
Bacar dedi:-Sən Tanı şah oğlusan,
Gəncin qanı coşar, daşar, sellənər.

Tutuq düşsən, atan bizi asdırar,
Anan bizi diri-diri basdırar,
Uğureli Mindiyarda azdırar,
Gəncin qanı coşar, daşar, sellənər.

Turqtay dinib danışmadı, gözlədi,
Danışığı, səs-sorağı izlədi,
O, Soyqana dərin acıq bəslədi,
Gəncin qanı coşar, daşar, sellənər.

Gecə Turqtay mindi, çapdı Quşatı,
Quşat quşdan borc almışdı qanadı,
Çapdı yolsuz çöllüklərə yol qatıb,
Gəncin qanı coşar, daşar, sellənər.

***

Turqtay çapdı, qaranlıqda yox oldu,
Qaranlığa baş vur, yeni işıq tap.
Axtardılar, tapmadılar Turqtayı,
Qaranlığa baş vur, yeni işıq tap.

Bacar dedi:-O yollanıb Çinelə,
Yeniyetmə bir oğlandır o, hələ,
O, Soyqanı ya öldürər, ya ölər,
Qaranlığa baş vur, yeni işıq tap.

Tuncay dedi, «gərək onu axtaram,
Gərək mən də yola düşəm bu axşam,
Harda Turqtay olsa, orda mən varam,
Qaranlığa baş vur, yeni işıq tap».

Tuncay çapdı, qaranlığa qovuşdu,
Acıqanın lap yanından sovuşdu,
Kənd-bacadan hərdən yolu soruşdu,
Qaranlığa baş vur, yeni işıq tap.

***

Tuncay çapdı, gəlib çatdı Çuqçuya,
Yerli qıraq adamları tez görür.
Hamı baxdı bu gövdəli ərənə,
Yerli qıraq adamları tez görür.

Biri ona yaxınlaşdı, söylədi:

-Turqtay dünən tutulubdur, kölədir,
Öz dilində məndən əltut dilədi,
Yerli qıraq adamları tez görür.

Sən Tuncaysan, Uğureldə görmüşəm,
Döyüşlərdə mən borcumu vermişəm,
Bu Çuqçuya gəlib gizli girmişəm,
Yerli qıraq adamları tez görür.

Geyimini, qaş-gözünü dəyişdir,
Dili öyrən, işlərini ötüşdür,
Burda özgə dolanışdır, gedişdir,
Yerli qıraq adamları tez görür.

***

-Mən Sansiyəm, dilinizi bilirəm,
Hər dil bağlı qapılara açardır,
Köləlikdə öyrənmişəm bu dili,
Hər dil bağlı qapılara açardır.

Tuncay, söylə, bura niyə gəlibsən,
-Tuncayamsa, bunu hardan bilirsən?
-Mən tanıdım, oğul, səni dilindən,
Hər dil bağlı qapılara açardır.

Tuncay dedi:-Desəm əgər düzünü,
Ölüm üstə kökləyərəm özümü,
Gərək buna yalan deyim sözümü,
Hər dil bağlı qapılara açardır.

Odur dedi:-Mən atamdan küsmüşəm,
Qan-qadadan, döyüşlərdən bezmişəm,
Qancılları uşaqlıqdan sezmişəm,
Hər dil bağlı qapılara açardır.

***

Sansi dedi:-Atan böyük ərəndir,
Kim sözünün yiyəsidir, böyükdür,
Bir də bunlar evdə ötüb gedəndir,
Kim sözünün yiyəsidir, böyükdür.

-Düz deyirsən, ancaq ki mən inciyəm,
Ola bilər yaşda hələ kiçiyəm,
Düşüncədə öz içimdə itiyəm,
Kim sözünün yiyəsidir, böyükdür.

Çinellini bunca qırmaq olarmı,
Adam olan bunca adam qırarmı,
Bunca adam elə qarşı durarmı,
Kim sözünün yiyəsidir, böyükdür.

Sansi dedi, «hələ gəncdir, yazıqdır,
Atasından, anasından yanıqdır,
Mindiyarda bunlar çox-çox tanıqdır,
Kim sözünün yiyəsidir, böyükdür.»

***

O apardı öz evinə Tuncayı,
Qonaq hələ açılmamış qapıdır,
-Qal burada, hələ bir az uyğunlaş,
Qonaq hələ açılmamış qapıdır.

İstəyirsən gedim, deyim Xaqana,

Xaqan desin bunu qancıl Soyqana,
Yaralıdır, əl-qol atır dörd yana,
Qonaq hələ açılmamış qapıdır.

Tuncay dedi:-Sağ ol, özüm gedərəm,
O böyüyün qulluğuna yetərəm,
Tikan olub qabağında bitərəm,
Qonaq hələ açılmamış qapıdır.

Soyqan Xaqan sayılırdı ölkədə,
Böyük Xaqan qalmış idi kölgədə,
Elə yer var qaplan olur tülkü də,
Qonaq hələ açılmamış qapıdır.

***

Ancaq Tuncay seçilmirdi hamıdan,
Hər el dildən, baş-burundan seçilir.
Neçə yerdə az qalırdı tutulsun,
Hər el dildən, baş-burundan seçilir.

«-Mən Turqtayı necə tapım, haradan,
Çox yollar var, çox döngələr arada,
Necə seçim burda ağı qaradan,
Hər el dildən, baş-burundan seçilir».

Sansi onu başa düşdü gözündən,
Tuncayın da söz gəzirdi üzündə,
Üzümüzdə söz oxunur bizim də,
Hər el dildən, baş-burundan seçilir.

Sansi dedi:-İstəyini de mənə,
Yardım edim, əltut olum mən sənə,
Bildirmərəm Xaqanlıqdan gələnə,
Hər el dildən, baş-burundan seçilir.

***

-Mən bir sınıq gəncəm, mənə nə yardım,
Hər yer birdir öz içindən sınığa,
Sən Xaqanın yerini de, mən gedim,
Hər yer birdir öz içindən sınığa.

Gedim deyim, bunca adam qırma sən,
Əl çək böyük Uğureldən, Muğeldən,
Olum sənin qabağında kölə mən,
Hər yer birdir öz içindən sınığa.

Sansi dedi:-Ürəyini aç, bala,
Mən də sənin qancılından öc allam,
İstəyinə çatacaqsan bu yolla,
Hər yer birdir öz içindən sınığa.

Xaqan səni görən kimi öldürər,
Acığını Bacar şaha bildirər,
Döyüb səni çevirəcək qan-tərə,
Hər yer birdir öz içindən sınığa.

***

Bu danışıq gedib çatdı Soyqana,
Söz ovçusu qapır sözü ağızdan.
Gətirdilər Sansi ilə Tuncayı,
Söz ovçusu qapır sözü ağızdan.

Yelləyirdi qızlar böyük Soyqanı,

İpək idi bu Başevin hər yanı,
Tuncay idi burda bircə yabançı,
Söz ovçusu qapır sözü ağızdan.

Soyqan dedi:-Çox danışmaq artıqdır,
Bir qardaşım mənim sizdə tutuqdur,
O, yekəbaş, həm də qancıl, yoluqdur,
Söz ovçusu qapır sözü ağızdan.

Onu da bil, Turuq bizdə qonaqdır,
Qonaq deyil, neçə gündür dustaqdır,
Turuq hələ bir az deyən uşaqdır,
Söz ovçusu qapır sözü ağızdan.

***

-Mən Turqtayın arxasınca gəlmişəm,
Kim olsa da, yiyəsi var hərənin.
Tutuqları dəyişdirsək yaxşıdır,
Kim olsa da, yiyəsi var hərənin.

O, yaşmaqda gəlib çıxdı buraya,
Heç baxmadı qadağaya, haraya,
Qılınc, qalxan, bıçaq girdi araya,
Kim olsa da, yiyəsi var hərənin.

Mənim üstə gəldi Turuq birbaşa,
Girdi qılınc vuruşuna, savaşa,
Gərək ona qonaq kimi yanaşaq,
Kim olsa da, yiyəsi var hərənin.

O, mənimlə böyük sayaq savaşdı,
Ancaq bircə vurumumla o aşdı,
Acığından sözü, dili dolaşdı,
Kim olsa da, yiyəsi var hərənin.

***

-Mən Turuğun qardaşıyam, gəlmişəm,
Hər bir evdə dəyəri var qardaşın,
Qardaşları dəyişdirsək yey olar,
Hər bir evdə dəyəri var qardaşın.

Soyqan bilib mən tutmuşam o əri,
Deyən Turqdan çoxdur onun dəyəri,
Qardaş qalır, vuruşlarsa ötəri,
Hər bir evdə dəyəri var qardaşın.

-Onu verib səni burda saxlaram,
Verərlərmi qardaşımı, yoxlaram,
Verməsələr, səni hər gün dağlaram,
Hər bir evdə dəyəri var qardaşın.

Tuncay dedi:-Xaqan doğru buyurur,
Ancaq doğma qardaşları ayırır,
Burda nəsə bir gizlilik uyuyur,
Hər bir evdə dəyəri var qardaşın.

***

-Qardaşımı öldürsələr nec olsun,
Həm ağırdır, həm də ulu qan öcü,
Onda səni öldürmərəm mən özüm,
Həm ağırdır, həm də ulu qan öcü.

-Düz buyurur Xaqan deyən bunu da,

Onda qartal qoy gözləsin qonuda,*
Nə olacaq? Biz hələlik unudaq,
Həm ağırdır, həm də ulu qan öcü.

Soyqan dedi:-Alın Turqu, aparın,
Qoşun ona on yaraqlı çaparı,
Yoxsa gedib doğrayaram Bacarı,
Həm ağırdır, həm də ulu qan öcü.

Tuncay dedi ürəyində: «Qoy olsun,
Təkcə Turqun tanınmasın ulusu,
Qoy sevinsin Turqız ürək dolusu,
Həm ağırdır, həm də ulu qan öcü.

***

Turqtay getdi, Tuncay qaldı yerində,
Yer dəyişmə ər dəyişmə olarmış.
İki qardaş ayrı düşdü yenidən,
Yer dəyişmə ər dəyişmə olarmış.

Sansi, Tuncay bir dustaqda qaldılar,
Bir-birindən inam, inanc aldılar,
Aclıq çəkib saraldılar, soldular,
Yer dəyişmə ər dəyişmə olarmış.

Soyqan hər gün qulaq oldu dustağa,
Dustaq döndü Tuncay üçün sınağa,
Sığınaraq ikisi də bucağa,
Yer dəyişmə ər dəyişmə olarmış.

Bir qız gəldi, güldən incə dodağı,
Qara ipək saçı, solğun yanağı,

_____
Qonan yer

Yemək ilə dolu idi qucağı,
Yer dəyişmə ər dəyişmə olarmış.

***

O, Sansinin bircə gözəl qızıydı,
Qonaq elə dustaqda da qonaqdır.
Doluxsundu o, Tuncayı görəndə,
Qonaq elə dustaqda da qonaqdır.

Ata dedi:-Yanqu, geri qayıt sən,
Uzaq, qızım, bu qan-qada yerindən,
Tək gəlmisən dustaqlığa sən, nədən?!
Qonaq elə dustaqda da qonaqdır.

Yanqu dedi:-Ata, məni danlama,
Çox ağırdır ilk sevgini anlamaq,
İlk sevgini təklik içrə damlamaq,
Qonaq elə dustaqda da qonaqdır.

Mən Tuncaya ilk baxışdan vuruldum,
Bir çay idim, dənizləşdim, duruldum,
Bu günlərdə öz odumda qovruldum,
Qonaq elə dustaqda da qonaqdır.

***

Tuncay dedi:-Səni evdə görmədim,
Gözəl qızlar susub gözdən yayınar.

Niyə səni görməmişəm evdə mən,
Gözəl qızlar susub gözdən yayınar.

Mənim üstdə atan düşüb dustağa,
Biz girmişik birgə dərin batlağa,
Göz-gözəyik burda, qulaq-qulağa,
Gözəl qızlar susub gözdən yayınar.

Çinel qızı, sən necə də gözəlsən,
Gəlişinlə dustaqlığı bəzərsən,
Hər addımda bura güllər düzərsən,
Gözəl qızlar susub gözdən yayınar.
Çiçəkləyib gül qoxuyur bu gəliş,
Səni sevmək mənim üçün yüksəliş,
Dustaqlığa işıq salıb bu görüş,
Gözəl qızlar susub gözdən yayınar.

***

Sansi dedi:-Doğru sevgi deyil bu,
Keçib gedir tezcə uşaq sevgisi,
Hərdən gəlir, birdən gedir bu istək,
Keçib gedir tezcə uşaq sevgisi.

Yanqu kimi mən də uşaq yaşımda,
Sevgi doğdu ürəyimin başında,
Ondan qalan Yanqu qızdır qarşımda,
Keçib gedir tezcə uşaq sevgisi.

İki gəncin gözü biri-birində,
Göz alışır, ürək yanır dərində,
Sevgiləşib hər yer dustaq yerində,
Keçib gedir tezcə uşaq sevgisi.

Qulaq asır Soyqan gizli onlara,
Yer eləyir yeni-yeni qanlara,
O alışır, əl-qol atır yanlara,
Keçib gedir tezcə uşaq sevgisi.

***

Beş gün keçdi, Soydan döndü Çuqçuya,
Gör, dayanış kimi kimlə dəyişir.
Dedi, Turqtay Tanı şahın oğludur,
Gör, dayanış kimi kimlə dəyişir.

Dəli olub Soyqan çıxdı özündən,
Qan qaynadı qan ağzında, sözündə,
Dedi:-Tuncay qoy oxlansın gözündən,
Gör, dayanış kimi kimlə dəyişir.

O bağırdı, qalxdı göyə harayı,
Gətirdilər ortalığa Tuncayı,
Dedi:-Satqın, Mindiyarın qurd payı,
Gör, dayanış kimi kimlə dəyişir.
Soydan dedi:-Verin özüm öldürüm,
Dərisinə qanlı saman doldurum,
Mindiyara acığımı bildirim,
Gör, dayanış kimi kimlə dəyişir.

***

-Niyə Turqun şahlığını demədin?
-Biz qardaşıq, qardaş şahdan ucadır,

-Mən bilsəydim, dəyişməzdim Turqu heç,
Biz qardaşıq, qardaş şahdan ucadır.

Soydan birdən irəliyə atıldı,
Qılınc çəkdi, bizuc kimi dartıldı,
Yaraqsızdı Tuncay, bundan tutuldu,
Biz qardaşıq, qardaş şahdan ucadır.

Soyqan dedi:-Ona qılınc veriniz,
İki qardaş döyüşünü görünüz,
Bu döyüşdən bir az bəri durunuz,
Biz qardaşıq, qardaş şahdan ucadır.

Soydan dedi:-Al qılıncı, gəl bəri,
Yoxdur daha, Tuncay, burdan yol geri,
Hanı orda məni vuran əllərin,
Biz qardaşıq, qardaş şahdan ucadır.

Tuncay-Yanqu söyləncі

Yanqu durub xısın-xısın ağlayır,
Göz yaşı var, el içində uludur.
Soyqan deyir:-Bu qız niyə ağlayır,
Göz yaşı var, el içində uludur.

Sansi deyir:-Gəncdir, hələ qanmayır,
O, Tuncayı bir acıqan sanmayır,
Ona yanır, ancaq bizə yanmayır,
Göz yaşı var, el içində uludur.

Soyqan deyir:-Bu qız hara, o hara,
Qoy vuruşsun Tuncay, Soydan bir ara,
Qızı verrəm basığa yox, basara,
Göz yaşı var, el içində uludur.

Tuncay baxdı, Yanqu hələ uşaqdı,
O, Yanquya dörd gecəlik qonaqdı,
Göz yaşıyla bu qız yenə qoçaqdı,
Göz yaşı var, el içində uludur.

***

Tuncay qapdı yerə düşmüş qılıncı,
Gün var alın yazısında sınaqdır.
Dedi:-Tanrım, özün mənə əltut ol,
Gün var alın yazısında sınaqdır.

Mən Yanqunun göz yaşına dözmərəm,
Burda sevgi, dinclik, qulluq gəzmərəm,
Sevməsəm də ona dodaq büzmərəm,
Gün var alın yazısında sınaqdır.

Şaqqıldadı qılınclarla tutaqlar,
Yanqu baxdı, soldu gül-gül yanaqlar,
Qançır oldu çeynəm-çeynəm dodaqlar,
Gün var alın yazısında sınaqdır.

Soydan vurdu, Tuncay baxdı, vurmadı,
Tuppuz vurdu, qılınc vurdu, durmadı,
Bu, Tuncayın dözümünü qırmadı,

Gün var alın yazısında sınaqdır.

***

Səs yayıldı, sevinc gəldi hamıya,
Çoxu hərdən qızır, doğru düşünmür,
Soydan dedi:-Doğrayaram bunu mən,
Çoxu hərdən qızır, doğru düşünmür.

Hamı dedi:-Soydan basar olacaq,
Öcümüzü Minellidən alacaq,
Tuncaydansa ölü bir ad qalacaq,
Çoxu hərdən qızır, doğru düşünmür.
Bizuc, qılınc, balta, tutaq qırıldı,
Soydan, Tuncay deyinməkdən yoruldu,
Soyqan güldü, acığından saraldı,
Çoxu hərdən qızır, doğru düşünmür.

Soyqan dedi:-Yetər, indi güləşin,
Bir-birini yıxmaq üçün əlləşin,
Basılmasaz onda qızı bölüşün,
Çoxu hərdən qızır, doğru düşünmür.

***

Tuncay, Soydan buynuzlaşdı buğa tək,
İlk tutaşda kələzdənmək yoxlancdır.
Ərlər yerdə, bulud göydə boğuşdu,
İlk tutaşda kələzdənmək yoxlancdır.

Dedi:-Sənin iki bölləm belini,
Qopardaram məni vuran əlini,
Doğrayaram ağzındaca dilini,
İlk tutaşda kələzdənmək yoxlancdır.

-Mən Tuncayam, boş sözləri saymıram,
Bil ki, Soydan, burda sənə qıymıram,
Qıza-qıza sözə-məzə uymuram,
İlk tutaşda kələzdənmək yoxlancdır.

Soydan çəkdi, Tuncay endi diz üstə,
Dəliləşdi o, bircəcik söz üstə,
Dedi:-Səni öldürərəm qız üstə,
İlk tutaşda kələzdənmək yoxlancdır.

***

Tuncay durdu, yerdən üzdü Soydanı,
Yerdir bizə hər bir yerdə güc verən.
Alıb onu başı üstə qaldırdı,
Yerdir bizə hər bir yerdə güc verən.

-Yerə vurum-dedi-köksü partlasın,
Baş əyərək mənə boyun qatdasın,
Sonra getsin atlar ilə otlasın,
Yerdir bizə hər bir yerdə güc verən.
Öldürsəm yox, öldürməsəm nə olar,
Ortalığa bu qan yeni qan salar,
Öldürməsəm dönməyimə yer qalar,
Yerdir bizə hər bir yerdə güc verən.

O, yavaşca qoydu yerə Soydanı,
Soydan vurdu yumruğuyla oğlanı,
Boğuq bir səs diksindirdi dörd yanı,
Yerdir bizə hər bir yerdə güc verən.

***

Tuncay birdən gicəlləndi, yıxıldı,
Yıxılanlar kölə olur yıxana,
Başda Soydan basılmışdı Tuncaya,
Yıxılanlar kölə olur yıxana.

Soyqan dedi:-Basıq oldun, qardaşım,
Basar oldu Tuncay, Turqun qardaşı,
Mən Tuncayı qoyacağam yüzbaşı,
Yıxılanlar kölə olur yıxana.

Qaldı qıza, qız da mənim olacaq,
O, Xaqanın Başevində qalacaq,
Qalıb, qalıb hələ yaşa dolacaq,
Yıxılanlar kölə olur yıxana.

Yanqu qaçıb, qaçıb çıxdı aradan,
Üz döndərdi ev-eşikdən, atadan,
Hamı getdi, Tuncay qaldı ortada,
Yıxılanlar kölə olur yıxana.

***

Gecə Yanqu əltut gəldi Tuncaya,
Pis ayaqda sən hamıya əltut ol.
Güdürdülər, bilirdilər dönəcək,
Pis ayaqda sən hamıya əltut ol.

Tuncay artıq ayılmışdı, qalxırdı,
Yoxla-yoxla dörd bir yana baxırdı,
Ağrı-sancı baş, boynunu sıxırdı,
Pis ayaqda sən hamıya əltut ol.
-Dur, Tuncayım, böyük igid basarım,
Dur, ey mənim ürəyimin açarı,
Qız könlümün doğma axar-baxarı,
Pis ayaqda sən hamıya əltut ol.

Tuncay durdu, dedi:-Qaçaq, durmayaq,
Yanqu, sənsən varlığıma son dayaq,
Gedək bizə, Mindiyara qız qonaq,
Pis ayaqda sən hamıya əltut ol.

***

Soydan çıxdı önlərinə lapbadan,
Alınyolu adamlarda bir deyil.
Dedi:-Səni, durub yandan güdürdüm,
Alınyolu hər adamda bir deyil.

Yanqu mənim, sən Xaqanın köləsi,
Bərk qorxudub onu Turqun gəlməsi,
«Bacar oğlu Tuncayın da ölməsi»,
Alınyolu hər adamda bir deyil.

Tuncay vurdu birdən onu, bağırtdı,
Güdükçülər on idilər, dağıtdı,
Qılınc alıb, qan qan üstdən axıtdı,
Alınyolu hər adamda bir deyil.

O, Yanqunu atdı atın belinə,
Döndü gecə yeləsənin yelinə,
Yanqu qızın könlü yatdı könlünə,
Alınyolu hər adamda bir deyil.

***

Çox qovdular, çox çapdılar çox atı,
Tanrı deyib yüz yol ölçün, bir biçin.
Yolu-yönü tanımırdı heç biri,
Tanrı deyib yüz yol ölçün, bir biçin.

Üz qoydular uzaq, uzaq batıya,
Çevrildilər qoşa gedən atlıya,
«Çap-çap atım, get, Çineli addayaq»,
Tanrı deyib yüz yol ölçün, bir biçin.
Yaşıl-yaşıl otlaqlara çatdılar,
Yorğun atın yüyənini dartdılar.
Bir-birinə sığındılar, yatdılar,
Tanrı deyib yüz yol ölçün, bir biçin.

Ayıldılar bir də üç gün ötərkən,
Yollar içrə çaşıb, azıb itərkən,
İtib qalıb Uğurelə gedərkən,
Tanrı deyib yüz yol ölçün, bir biçin.

***

-Çinelliyə bənzərin var, ərənim,
-Yaxın olur yerlilərin bənzəri.
-Bəs mən necə, oxşayıram sizlərə?
-Yaxın olur yerlilərin bənzəri.

Qızın incə baxışları dupduru,
Saçlarına daraqsayaq gül vurub,
Ancaq onu at oynadıb, yol yorub,
Yaxın olur yerlilərin bənzəri.

Danışanda dodağından bal damır,
Parıldayır üstü, başı, hər yanı,
Qamaşdırır gözlərini axşamın,
Yaxın olur yerlilərin bənzəri.

Yovşan çölü, qanqal düzü gözəldir,
Yanqulaşan güllər özü gözəldir,
Bu güllərin onu, yüzü gözəldir,
Yaxın olur yerlilərin bənzəri.

***

-Nə olacaq görən sonu bu işin?
-Sonsuzluqda ilk sevginin sonu yox.
-Necə oldu, səni sevdim, bilmirəm,
Sonsuzluqda ilk sevginin sonu yox.

-Soyqan məni öldürtdürər qayıtsam,
-Quşlaşarıq, sevgi bizi ayıltsa,
-İlk sevgidə dönməz olur çox adam,
Sonsuzluqda ilk sevginin sonu yox.
-Səndən qabaq sevməyirdim gülləri,
İndi sevib oxşayıram çölləri,
Tanış gəlir mənə quşun dilləri,
Sonsuzluqda ilk sevginin sonu yox.

-Gülüm, səndə mən dadmışam sevgini,
Mən görürəm indi göyün təkini,
Artıb deyən hər bir şeyin çəkimi,
Sonsuzluqda ilk sevginin sonu yox.

***

-Dönmə daha, gözəl Yanqu, Çuqçuya
Sevməyənin gözü varsa, qapıqdır.
Onlar səni öldürərlər acıqdan,
Sevməyənin gözü varsa, qapıqdır.

Mənim anam səni görcək bəyənər,
«Qızım» deyib gəliniylə öyünər,
Qız ürəyin sevinc ilə döyünər,
Sevməyənin gözü varsa, qapıqdır.

-Mən Yanquyam, kölə ollam anana,
Anadırsa, bu sevgiyə inanar,
Arxalanıb arxamızda dayanar,
Sevməyənin gözü varsa, qapıqdır.

-Gedək, gözəl, sevgimizə ev tikək,
Gedək, Yanqu, könlümüzdə gül əkək,
Gedək, sevgi güllərindən bal çəkək,
Sevməyənin gözü varsa, qapıqdır.

***

-Gülüm, sənin nə gözəldir gözlərin,
Ürək yoldur, göz yuvadır sevgiyə.
Əyil, gözəl, güllər öpsün üzündən,
Ürək yoldur, göz yuvadır sevgiyə.

-Məni yol et ayağının altında,
Məni gül et düşüncənin qatında,
Məni yurd et Mindiyarın yurdunda,
Ürək yoldur, göz yuvadır sevgiyə.
-Gülüm, yenə axşam düşür, gəl, gedək,
Meşələrdə, çaylaqlarda biz itək,
Çiçək yığaq biz bir qucaq, bir ətək,
Ürək yoldur, göz yuvadır sevgiyə.

-Gedək çataq bir daxmaya bu gecə,
Yeyək, yataq, özümüzə gəlincə,
Sonra yenə biz yol gedək ölüncə,
Ürək yoldur, göz yuvadır sevgiyə.

***

-Məni apar dayanışın sonuna,
Hər şey vardır hər bir şeyin sonunda.
İki yerlik bir dolanış qur mənə,
Hər şey vardır hər bir şeyin sonunda.

-Gözlərinin güzgüsündə yataram,
Dodaqların bal dadını dadaram,
Balı gülə, gülü südə qataram,
Hər şey vardır hər bir şeyin sonunda.

-Əlini ver, yuva tikim ovcunda,
Könlünü ver, yatım ipək suçumda,
Dilini ver, itim-batım içində,
Hər şey vardır hər bir şeyin sonunda.

-Gül, gözəlim, güllər gülmək istəyir,
Sevgi nədir, çöllər bilmək istəyir.
Dağlar bizə qonaq gəlmək istəyir,
Hər şey vardır hər bir şeyin sonunda.

***

Dağ döşündə sürü görüb durdular,
Sevinc ilə sevgi qoşa uçuşdur.
Ağ gül idi sanki döşdə qoyunlar,
Sevinc ilə sevgi qoşa uçuşdur.

Deyə-deyə, gülə-gülə qaçdılar,
Qaçmadılar, pırıl-pırıl uçdular,
Güllük görüb bir də çiçək açdılar,
Sevinc ilə sevgi qoşa uçuşdur.
Sürü deyil, güllər imiş yellənən,
Sevgi olsa, qara daş da güllənər,
Qaya gülər, torpaq gül-gül dillənər,
Sevinc ilə sevgi qoşa uçuşdur.

Sevən gənclər, hara belə, əl-ələ,
Elə bil ki, sarmaşıbdır gül gülə,
Sevmək olmaz, getmək olmaz bir belə,
Sevinc ilə sevgi qoşa uçuşdur.

***

Dolan-dolan, boylan-boylan getdilər,
Yol yaxşıdır, yaxşı yoldaş olanda.
On dörd günə çatdı onlar Muğelə,
Yol yaxşıdır, yaxşı yoldaş olanda.

Qazmalarla, aullarla daxmalar,
Danışıqda, dildə yaxın doğmalar,
Ac yoxsullar, bir də zəngin yığmalar,
Yol yaxşıdır, yaxşı yoldaş olanda.

-Kimdir burda ağsaqqalla ağbirçək,
Dedilər ki, Muğər ilə Qarçiçək,
-Yol göstərin, biz onları bir görək,
Yol yaxşıdır, yaxşı yoldaş olanda.

-Qarçiçəyim, gözəl bibim, bu sənsən?
-Tuncay bala, hardan belə gəlirsən?
Yuxumdaydın at üstündə sən dünən,
Yol yaxşıdır, yaxşı yoldaş olanda.

***

-Bu Yanqudur, ilk sevgili gözəlim,
Necə olsa, könül sevən gözəldir.
-Tuncay bala, bu ki hələ uşaqdır,
Necə olsa, könül sevən gözəldir.

-Uşaq deyil, qorxmaz, igid, qoçaqdır,
Çuqçudandır, bir az Çinsoysayaqdır,
Mən onlara, o da bizə qonaqdır,
Necə olsa, könül sevən gözəldir.
-Sevirsənsə, bir az qalsın, boy atsın,
Toy yaşına, qız yaşına o çatsın,
Həm də mənə işlərimdə əl tutsun,
Necə olsa, könül sevən gözəldir.

Tuncay güldü, Yanqu baxdı, susdular,
Bir-birinin ayağını basdılar,
Qarçiçəyə beş gün qulaq asdılar,
Necə olsa, könül sevən gözəldir.

***

Muğər gəldi, o da belə söylədi,

Kal sevənlər qovuşmağa tələsər.
İkiniz də yeniyetmə yaşında,
Kal sevənlər qovuşmağa tələsər.

Qarçiçəklə biz on beş il sevişdik,
Hərdən-birdən qışqırışdıq, deyişdik,
Sevgiləşdik, hamarlaşdıq, dəyişdik,
Kal sevənlər qovuşmağa tələsər.

Sizə iki qulan verim, mininiz,
Yoxuş qalxıb, enişlərə eniniz,
Qartal qovan çaparlara dönünüz,
Kal sevənlər qovuşmağa tələsər.

Bu, Dəmirat, o, Qonurat – bəsləyin,
Hoylamayın, öz adıyla səsləyin,
At igiddir, igidliyi gözləyin,
Kal sevənlər qovuşmağa tələsər.

***

Muğər, Tuncay ova getdi üç günə,
Ov ölməkdir, doğulmaqdır yenidən.
Yanqu qaldı Qarçiçəyin yanında,
Ov ölməkdir, doğulmaqdır yenidən.

Qız ağladı, atasını istədi,
O, Soyqanı, o, Xaqanı pislədi,
Çıxıb dikə, Tuncayını səslədi,
Ov ölməkdir, doğulmaqdır yenidən.
Birdən yolda neçə atlı gördü o,
Çağırdılar, yerindəcə durdu o,
Soydan idi, düşüb qızı vurdu o,
Ov ölməkdir, doğulmaqdır yenidən.

Dedi:-Qancıq, bu yaşında haraya?!
Qan salıbsan bu boyunla araya,
Xaqan gəlib, basıb bizi haraya,
Ov ölməkdir, doğulmaqdır yenidən.

***

-Sən Xaqanın olmalısan bu gündən,
Ər evində qızlar gərək kal olsun.
Yanqu hara, Tuncay hara, Turq hara,
Ər evində qızlar gərək kal olsun.

Çox qışqırdı, çox yalvardı qız ona,
Soydan çəkib aldı onu qoynuna,
Qız sarıldı çapan atın boynuna,
Ər evində qızlar gərək kal olsun.

-Sən Xaqanın olmalısan bu gündən,
Xaqan bizi öldürmüşdü heç nədən,
Gözəl qıza ər olammaz hər gələn,
Ər evində qızlar gərək kal olsun.

Qız səslədi gedə-gedə Tuncayı,
Ovçulara yetişmədi harayı,
Ov almışdı ərənlərdən soy-sayı,
Ər evində qızlar gərək kal olsun.

***

-Məndən sonra gedib çatsın Tuncaya,

Ov edənin ovlayarlar könlünü.
Məni alıb apardılar Çuqçuya,
Ov edənin ovlayarlar könlünü.

Sevmək nədir, lap içməli su kimi,
Gərək sevib qoruyasan sevgini,
Səni deyil, sevgi məni bərkidib,
Ov edənin ovlayarlar könlünü.
Deyin, onu sevəcəyəm yüz il də,
Harda oldu, Uğureldə, Çineldə,
El ayrısa, sevgi dili bir dildə,
Ov edənin ovlayarlar könlünü.

Məndən sonra gedib çatsın Tuncaya,
Bu yaşımda mən baxmaram soy-saya,
Qaçıb gəlləm lap uzağı bir aya,
Ov edənin ovlayarlar könlünü.

***

Qulanlarım, oynaqlayın, ağlayın,
Südlə dayça qulan olar, at olmaz.
Arpanızı bircə-bircə arıdım,
Südlə dayça qulan olar, at olmaz.

Sıçram-sıçram hara belə çapışır,
Ürkə-ürkə ağızlaşır, qapışır,
Əl-qol atıb dırnaqlaşır, çarpışır,
Südlə dayça qulan olar, at olmaz.

Şıllaqlaşın, quduzlaşın, şellənin,
Yumalanın, dalı üstə hellənin,
Qoşa çapın, çaylar kimi sellənin,
Südlə dayça qulan olar, at olmaz.

Yanqu qızdan qalınc olun Tuncaya,
Dayçanızı verəcəyəm Turqtaya,
Çapın, dönün bir döyüşkən alaya,
Südlə dayça qulan olar, at olmaz.

***

Sən də gözəl qulan idin, Yanqucuq,
Kök oldunsa, kökdən ayrıl, – deyiblər.
Ata Sansi düz deyirdi, tələsmə,
Kök oldunsa, kökdən ayrıl, – deyiblər.

Gözlə məni, günü aya qataram,
Dəmiratla gəlib sənə çataram,
Gül dodaqlar ləçəyində yataram,
Kök oldunsa, kökdən ayrıl, – deyiblər.
Bir sevgi var, bir istək var, bir dilək,
Biz hansından yoğrulmuşuq, de görək,
Gözlə məni, gələcəyəm, ey çiçək,
Kök oldunsa, kökdən ayrıl, – deyiblər.

Qoy barışsın Çinel ilə Mindiyar,
Qoy otlasın otlaqlarda çaparlar,
Ürəyimdə uşaqlaşan sevgi var,
Kök oldunsa, kökdən ayrıl, – deyiblər.

***

Qabağına qatdı qoşa qulanı,
Yol hamının yoldaşıdır yol boyu,

Yol azaraq gəlib çıxsam Çuqçuya,
Yol hamının yoldaşıdır yol boyu.

Man şahlığı, gözlə məni, gəlirəm,
Gəzirsiniz çoxdan məni, bilirəm,
Anam üçün darıxıram, ölürəm,
Yol hamının yoldaşıdır yol boyu.

Turqtay, sənə «Turq» deyirlər Çuqçuda,
Belə ad var, eşitmişəm, Qobuda,
Bir ad olsun qardaşıma qoy bu da,
Yol hamının yoldaşıdır yol boyu.

Duman alıb hər bir yeri dünəndən,
Bir çıxsaydım bu dumandan, bu çəndən,
Çənləşmişəm mən Yanqunu görəndən,
Yol hamının yoldaşıdır yol boyu.

Manyurd söyləncі

Manaylaşıb Manyurd yeri yarandı,
Ana hər gün, ata hərdən öyülür.
Anasını yüksək tutdu Tanı şah,
Ana hər gün, ata hərdən öyülür.

Günay şahlıq yaradırdı, qururdu,
Asur şahın qabağında dururdu,
Çapqınçının istəyini qırırdı,
Ana hər gün, ata hərdən öyülür.
Duzlugöldən Mindiyara yeriyən,
Ayağını boğazlara diriyən,
Onlar idi sürüləri sürüyən,
Ana hər gün, ata hərdən öyülür.

Manyurd şahı burda ayıq-sayıqdı,
Günay şahın üzü daşdan soyuqdu,
Tuncər, Tuncay ayıq quşdan ayıqdı,
Ana hər gün, ata hərdən öyülür.

***

Duzlugölün görünüşü dinc, uyar,
Gölü hərdən çapar külək titrədir.
Qayaları yaladıqca göy sular,
Gölü hərdən çapar külək titrədir.

Bulud-bulud ötür ördək, çalağan,
Min-min quşa qonu olub bir yarğan,
Maral, cüyür atlar kimi çapağan,
Gölü hərdən çapar külək titrədir.

Su quşunun çığırtısı soyuqdur,
Adalarda daşağızlar ovuqdur,
Bura şahın ovlağıdır, qoruqdur,
Gölü hərdən çapar külək titrədir.

Göz qızardır, kirpik ütür Duzlugöl,
Gəl buraya, boya-boya yazı gör,
Yayda çəni, qışda qarı, buzu gör,
Gölü hərdən çapar külək titrədir.

***

Ətə doldu Dəmiratla Qonurat,
İgid atla, at igidlə tanınır.
Turqla Tuncay sağa, sola çapdılar,
İgid atla, at igidlə tanınır.

Çapışdılar, yarışdılar, daşdılar,
Yüz-yüz, min-min eniş, yoxuş aşdılar,
Atlarına mahnı, qoşma qoşdular,
İgid atla, at igidlə tanınır.

Köpükləndi ağızları, döşləri,
Yatdı köp-köp yalmandaki şişləri,
Xırçıldadı ara-sıra dişləri,
İgid atla, at igidlə tanınır.

Keçdi üç il, bu ikilik üç oldu,
Dayçaları oynaq oldu, bic oldu,
O, çap-çapda çapanlardan güc oldu,
İgid atla, at igitlə tanınır.

***

Manayyurda Bacar atlı göndərdi,
Yox sevgidə soyluq, kimlik, haralıq,
Yanqu, Sansi çoxdandır ki dustaqda,
Yox sevgidə soyluq, kimlik, haralıq.

Soyqan gəlib, Yanqu könül verməyib,
Soyqan quran toy evinə girməyib,
Sansi deyib: «Gül yumuqdur, dərməyin»,
Yox sevgidə soyluq, kimlik, haralıq.

İkisini Xaqan dustaq saxlayıb,
Üzlərinə qapıları bağlayıb,
Yanqu «Tuncay» söyləməkdən dığlayıb,
Yox sevgidə soyluq, kimlik, haralıq.

«Tuncay bilsin, burda deyən biclik var,
Onu tutmaq üçün cələ qurublar,
Busqularda onlar busub durublar»,
Yox sevgidə soyluq, kimlik, haralıq.

***

Günay dedi:-Getməyəsən Çuqçuya,
Qız oğlana gözgörəki çələdir.
Tuncay dedi:-Ana, gərək mən gedəm,
Qız oğlana gözgörəki çələdir.
-Getsən, onda Turqtay sənlə gedəcək,
Ad-sanınız orda bütün itəcək,
Onlar sizi didim-didim didəcək,
Qız oğlana gözgörəki çələdir.

-Mən qoymaram Yanqu qala dustaqda,
-Bir yel əssə, gül qopacaq budaqdan,
Yüz-yüz düyün olur bircə yumaqda,
Qız oğlana gözgörəki çələdir.

-Gedim, onu dustaqlıqdan çıxarım,
-Çox da tutma öz başını yuxarı,
Dik başların baş ağrısı çoxalır,

Qız oğlana gözgörəki çələdir.

***

Günay dedi, Tuncay isə «yox» dedi,
Sevgilini darda qoymaq yaramaz.
Tuncay getdi, Turqtay onun dalınca,
Sevgilini darda qoymaq yaramaz.

Onlar gedib Duzdağeldə görüşdü,
Cumər çıxdı, suçlarını soruşdu,
Bunca onun düşüncəsi qarışdı,
Sevgilini darda qoymaq yaramaz.

Dedi:-Soyqan bicdir, tülküsayaqdır,
Aldatmaqlar daha iti yaraqdır,
Üzdə sevgi, dibdə dərin batlaqdır,
Sevgilini darda qoymaq yaramaz.

Çapıb, çapıb onlar gözdən itirdi,
Bir dayça da dallarınca gedirdi,
Qardaşları Cumər daldan güdürdü,
Sevgilini darda qoymaq yaramaz.

***

Cumər getdi, tək qoymadı gəncləri,
Sevən gənclik qızıl oddur, partlayış,
İt sürüsü getdi onun dalınca,
Sevən gənclik qızıl oddur, partlayış.
O, gözünə görünmürdü onların,
Uğureldə ay yarıdır, yol yarı,
Gənclər çapdı cığırlarla atları,
Sevən gənclik qızıl oddur, partlayış.

Meşə içi, dağ ətəyi, kiçik kənd,
Geyimləri dəyişdilər gecəykən,
Olmuşdular daş düzənlə, ev tikən,
Sevən gənclik qızıl oddur, partlayış.

Ancaq Soyqan bərkitmişdi dörd yanı,
İrəliyə göndərmişdi Soydanı,
Yaraqlılar gözləyirdi hər yanı,
Sevən gənclik qızıl oddur, partlayış.

***

Tuncay «Yanqu» deyə-deyə gedirdi,
Dirçələrsən kimsə səni çağırsa,
İnam olsa irəlidə gedəndə,
Dirçələrsən kimsə səni çağırsa.

«-Gözəl, səni dustaqlıqda qoymaram,
Xaqan, Soyqan kimdir, nədir, saymaram,
Qancılların yalanına uymaram»,
Dirçələrsən kimsə səni çağırea.

Gecə yarı... Qan-qadalı ilk döyüş,
Soydanlaydı gözlənilməz bu görüş,
Gecə kimi ötəriydi bu duruş,
Dirçələrsən kimsə səni çağırsa.

Qoşa qardaş ötmüşdülər bu yerdən,
Cumər idi yol kəsəni gəbərdən,
Ölü sayı çıxmış idi yetərdən,

Dirçələrsən kimsə səni çağırsa.

***

-Aha, demək sənsən Tuncay, gəlmisən!
Bəbənəklə aldadarlar uşağı,
Sansi, Yanqu uydurmadır, ay yazıq,
Bəbənəklə aldadarlar uşağı.
Allam səni, kölə kimi sataram,
Doğrayaram, it-qurdlara ataram,
Mən də gedib istəyimə çataram,
Bəbənəklə aldadarlar uşağı.

Qılınclaşdı, toppuzlaşdı ərənlər,
Neçə yüzü bu savaşa girənlər,
Atdan aşdı Soydan, gördü görənlər,
Bəbənəklə aldadarlar uşağı.

-Mən Cumərəm, Onçu oğlu, yerincəm,
Vuruşaram son gücümlə, ölüncə,
Gözləyərəm burda, Xaqan gəlincə,
Bəbənəklə aldadarlar uşağı.

***

Qurd sürüsü birdən çıxdı ortaya,
Gözlə hər an gözlənilməz olanı.
Qol, qıç yedi, boğaz-burun çeynədi,
Gözlə hər an gözlənilməz olanı.

Nəriltiylə, hənirtiylə çığırtı,
Ağız dolu qorxu, qanlı bağırtı,
Boğazlarda köpüklənən xırıltı,
Gözlə hər an gözlənilməz olanı.

Cumər dedi:-Qurd itlərim, dayanın,
Tapın, bura sürütdəyin Soydanı,
Görüm yenə o özünü ər sanır,
Gözlə hər an gözlənilməz olanı.

Gəlməmişəm mən Çinelə döyüşə,
Mən gəlmişəm Soyqan ilə görüşəm,
O gəlməsə əlim qana bələşər,
Gözlə hər an gözlənilməz olanı.

***

Dan söküldü, Soyqan çıxdı yol üstə,
Çıxma qancıl qabağına birbaşa,
Qayagörkəm, dəmirgeyim, qanlıgöz,
Çıxma qancıl qabağına birbaşa.
Beş min atlı, qılınc tutan, ox atan,
Qan axıdıb öz qanına qan qatan,
Beş min atlı gəlib, beş min qan-qada,
Çıxma qancıl qabağına birbaşa.

Dedi:-Turqsan, itlə, qurdla gəlmisən,
Sən Çuqçunu öz yer-yurdun bilmisən,
Bil ki, bura gəlməmişdən ölmüsən,
Çıxma qancıl qabağına birbaşa.

Cumər dedi:-Boşam, əlim yalınca,
Mən gəlmişəm qızımızın dalınca,
Qayıtmaram onu səndən alınca,

Çıxma qancıl qabağına birbaşa.

***

-Turqtay deyil, mən Duzdağlı Cumərəm,
Yekəbaşın gözü tez-tez qamaşar.
Görüşmüşük Uğureldə bir kərə,
Yekəbaşın gözü tez-tez qamaşar.

Onda Bacar çıxdı sənin qarşına,
O baxmadı qoca, yetkin yaşına,
Sonra Tuncay toppuz vurdu başına,
Yekəbaşın gözü tez-tez qamaşar.

Mən Duzdağel yerinciyəm, Nuhçatan,
İtlər, qurdlar yol yoldaşım, yey, yaman,
Bata bilməz bir qurduma üç qaplan,
Yekəbaşın gözü tez-tez qamaşar.

Nə deyirsən, vuruş çağı çatıbdır,
Günəş bulud örtüyünü atıbdır,
Son aylarda Xaqan yaman qartıbdır,
Yekəbaşın gözü tez-tez qamaşar.

***

-Neçə qaplan gətirmisən, görürəm,
Dik tutmayır öz başını güclülər.
Mənim döyüş qurdlarım da qaplandır,
Dik tutmayır öz başını güclülər.
Soyqan dedi:-Qaplanları buraxın,
Qurdlar sənin, onlar mənim yarağım,
Qoy qaplanlar qarşılasın qonağı,
Dik tutmayır öz başını güclülər.

Qurd sürüsü dayanmışdı busquda,
Qaplan duydu, geri döndü qorxudan,
Hamı qorxdu iç gəmirən susqudan,
Dik tutmayır öz başını güclülər.

Soyqan birdən acıqlandı qaplana,
Dilsiz qaplan üz tutmuşdu o yana,
-Ölüm! Səni barmaqlığa qatana,
Dik tutmayır öz başını güclülər.

***

Soyqan oxla vurdu iri qaplanı,
Dilsizlərə güc göstərən qancıldır.
Barmaqlıqda çabaladı, qıvrıldı,
Dilsizlərə güc göstərən qancıldır.

Qaplanların ölümünü görərkən,
Cumər cumdu Soyqan üstə qaplan tək,
Dedi:-Niyə vurdun onu, pəzəvəng?
Dilsizlərə güc göstərən qancıldır.

Soyqan dedi:-Kim sözümə baxmasa,
Mən deyəndə, mən deyəni yaxmasa,
Partlayaram ona qılınc çaxmasam,
Dilsizlərə güc göstərən qancıldır.

-Yırtıcını barmaqlığa salmazlar,
Dilsizlərdən öclə acıq almazlar,
Qancıla da bunca qancıl olmazlar,

Dilsizlərə güc göstərən qancıldır.

***

Üzləşdilər, şaqqıldadı qılınclar,
Qılınc kəsir qabağını qancılın.
At üstündə sıçradılar dörd yana,
Qılınc kəsir qabağını qancılın.
Yaraqları yoxladılar bir ucdan,
O dikəldi, bu qorundu bizucdan,
Kim qorunar şimşəksayaq qılıncdan,
Qılınc kəsir qabağını qancılın.

Üz-gözünə qan sıçradı Soyqanın,
Uğultular alıb getdi hər yanı,
Hamı gördü Xaqan qana boyanıb,
Qılınc kəsir qabağını qancılın.

Çılğın qurdlar döndü böyük axına,
Busqulardan enib gəldi yaxına,
Cumər dedi:-Yol verməyin qırğına,
Qılınc kəsir qabağını qancılın.

***

Cumər dedi:-Başçı seçin Çuqçuya,
Qaniçəndən başçı olmaz ulusa.
Soydan öldü, Soyqan isə yaralı,
Qaniçəndən başçı olmaz ulusa.

-Sən ol başçı!-söylədilər atlılar,
Çəkib onu Çuqçu yana dartdılar,
Turqtay, Tuncay gəlib ona çatdılar,
Qaniçəndən başçı olmaz ulusa.

Turqtay dedi:-Qurtarmışıq Sansini,
Gətirmişik onun Yanqu qızını,
Ayırmışıq Çuqçuelin özünü,
Qaniçəndən başçı olmaz ulusa.

Qoy bu ulus başçı seçsin özünə,
Hamı baxsın o başçının sözünə,
Düşməsinlər qaniçənin izinə,
Qaniçəndən başçı olmaz ulusa.

***

Dayandılar, düşündülər atlılar,
Qandan doyan dirrikdən də doyarmış,
Yaraqları yarı yolda atdılar,
Qandan doyan dirrikdən də doyarmış.
Yanqu gəldi, dedi:-Yeniyetməyəm,
İstəyirəm ön sırada getməyə,
Çuqçueli mən Mindiyar etməyə,
Qandan doyan dirrikdən də doyarmış.

Qorxmaz qıza baş əydilər atlılar,
Dedilər ki, biz oluruq Mindiyar,
Bu ölkədə min-min qorxmaz ərən var,
Qandan doyan dirrikdən də doyarmış.

Çuqçuel də bunu yer-yer bəyəndi,
Sansi ilə, Yanqu qızla öyündü,
Hamı yenə yaraqlandı, geyindi,
Qandan doyan dirrikdən də doyarmış.

***

Sansi dedi:-Qızım hələ kiçikdir,
Yardım etsin gərək böyük kiçiyə.
El işində ona yardım kəsilsin,
Yardım etsin gərək böyük kiçiyə.

Soyqan qaçıb bir də gələr, o, qancıl,
Onda gərək bu ölkədən mən qaçım,
Ayaq altda qala bilər bu Çuqçu,
Yardım etsin gərək böyük kiçiyə.

Tuncay dedi:-Mən burdayam, qorxmayın,
Acıqanın hay-küyünə baxmayın,
Siz Mindiyar ölkəsindən çıxmayın,
Yardım etsin gərək böyük kiçiyə.

Yanqu dedi:-Biz qorxmuruq heç nədən,
Soyqan dönüb qayıtsa da yenidən,
Ön döyüşdə, ön sırada varam mən,
Yardım etsin gərək böyük kiçiyə.

***

Yanqu qızın səsləncləri gurladı,
Yumuq sevgi böyük yola çıxandır.
Yanqu, Tuncay bu sevginin yuvası,
Yumuq sevgi böyük yola çıxandır.
Beş min atlı Yanqu qıza and içdi,
Mindiyardan ad götürdü, ad seçdi,
Yumuq qalan çöl çiçəyi gül açdı,
Yumuq sevgi böyük yola çıxandır.

Tuncay, Cumər, Turqtay baxdı alaya,
Harda haray oldu, çıxın oraya,
Yaraq, sursat işi çəkdi on aya,
Yumuq sevgi böyük yola çıxandır.

Sonra Tuncay Yanqu ilə görüşdü,
Al yanaqlar çiçək açdı, irişdi,
Öpüş daşdı, yanaqlardan sürüşdü,
Yumuq sevgi böyük yola çıxandır.

***

Bağlaşdılar bir də Çinel, Mindiyar,
Kiçik baxar birləşəndə böyüklər.
Çin xaqanı bu sevgidən sevindi,
Kiçik baxar birləşəndə böyüklər.

Muğər gəldi, Bacar gəldi, Qarçiçək,
Qobu, Çinel, Muğel, Çuqçu bir gərək,
Birləşdilər sevgi yolu seçərək,
Kiçik baxar birləşəndə böyüklər.

Çin xaqanı dedi:-Gedin, toy vurun,
Bu qardaşlıq birliyində bərk durun,
İki ölkə başrağından ev qurun,
Kiçik baxar birləşəndə böyüklər.

Tuncay, Yanqu el önünə çıxdılar,
Bir-birinə sevgili tək baxdılar,
Qucaqlaşıb bir-birini sıxdılar,
Kiçik baxar birləşəndə böyüklər.

***

Xaqan qoşa fil göndərdi onlara,
Çiçək açar gülüşlərdə sevgilər,
Tanı yazı yazdı palçıq görgüdə,
Çiçək açar gülüşlərdə sevgilər.
Quşlar kimi ötdü, dindi çalğılar,
Boğazlarda partdaq-partdaq yanğılar,
Toyla doldu evlər, çöllər, qurğular,
Çiçək açar gülüşlərdə sevgilər.

El mahnısı güllənirdi ağızda,
Səslənirdi el sevinci qopuzda,
Sevinc, inam hər oğlanda, hər qızda,
Çiçək açar gülüşlərdə sevgilər.

Turqtay dedi:-Yanqunundur bu dayça,
Dəmiratdır, Qonuratdır o, soyca,
Adı Quşat, basar olsun qoy ancaq,
Çiçək açar gülüşlərdə sevgilər.

Karş söyləncі

Çox çəkmədi, qaçqın üzə dirəndi,
Çox üz vermə çox-çox üzlü qaçqına.
Qovar, səni öz evindən çıxarar,
Çox üz vermə çox-çox üzlü qaçqına.

Böyük Turel qurumunu pozdular,
Tanı şahın düz yolundan azdılar,
Darvidelə neçə yazı yazdılar,
Çox üz vermə çox-çox üzlü qaçqına.

Yazdılar ki, dillərimiz ayrıdır,
Ulusumuz, düşüncəmiz aridir,
Üzümüz də Hindelliyə sarıdır,
Çox üz vermə çox-çox üzlü qaçqına.

Darvidelli bizi adam saymayır,
Vergiləri yığır, yeyir, doymayır,
Heç bir işə bizi yaxın qoymayır,
Çox üz vermə çox-çox üzlü qaçqına.

***

Turqız gəldi yerinc kimi Turelə,
Boş yeri də qoymaq olmaz yiyəsiz.
Didişirdi Darvidellə Ariel,
Boş yeri də qoymaq olmaz yiyəsiz.

Darvidelli – qol-budaqlı Karaka,
Arielli – yeniyetmə arıq Karş,
Naxır götür, suyu döndər, yer qopart,
Boş yeri də qoymaq olmaz yiyəsiz.

-Mən də Karşam, yer mənimdir, deyirəm,
Öz qarşımda Karakanı görürəm,
Bu vuruşa var gücümlə girirəm,
Boş yeri də qoymaq olmaz yiyəsiz.

Nə deməkdir Darvidellə Mindiyar,
Arieldən hər il vergi yığarlar,
Bu qurumu dağıtmağa gücüm var,
Boş yeri də qoymaq olmaz yiyəsiz.

***

-Burda mənəm, Abaş oğlu Karaka,
Qamarlamaq qalır yersiz qalana,
Gec gəlsəz də hər bir yeri tutursuz,
Qamarlamaq qalır yersiz qalana.

Baxmayırsız heç ağına, bozuna,
Təpilirsiz danışanın ağzına,
Söz atırsız Darvidelin qızına,
Qamarlamaq qalır yersiz qalana.

-Mən də Karşam, ölüm-itim, çovğunam,
Mən döyüşdə, mən sevgidə çılğınam,
Darvidelli bir gözələ vurğunam,
Qamarlamaq qalır yersiz qalana.

Torpaq böyük tanrınındır, sənin yox,
Sənin olar üzündəki o çapıq,
Sən kimsən ki, böyüklərdən bir qırıq,
Qamarlamaq qalır yersiz qalana.

***

İpləşdilər, hörgü iplər qırıldı,
Gücdür iti yaraq edən yarağı,
Tutaşdılar, geyimləri didildi,
Gücdür iti yaraq edən yarağı.

Toppuzlaşdı, toppuzları əyildi,
Qılınclaşdı, qılıncları büküldü,
Bizuclaşdı, yerə bizuc əkildi,
Gücdür iti yaraq edən yarağı.

Qurşaqlaşıb bələşdilər palçığa,
Helləndilər dönüb dolu yastığa,
Yoruldular, uzandılar otluğa,
Gücdür iti yaraq edən yarağı.

-Mənəm yerli, sənin adın qaçqındır,
-Torpaq mənə səndən daha yaxındır,
Hər bir yerdə yer üstündə qırğındır,
Gücdür iti yaraq edən yarağı.

***

Turqız gəldi, acıqlandı onlara,
Çətinliyi dincə qoyma, çoxalar.
Dedi:-Durun, qulaq asın siz mənə,
Çətinliyi dincə qoyma, çoxalar.

Kim desə ki, biz ayrıyıq, siz ayrı,
Dağılacaq, sovrulacaq ev-varı.
Quruyacaq susuzluqda bağları,
Çətinliyi dincə qoyma, çoxalar.

Bir yaşamaq, tanrı belə buyurub,
Kimdir bizi dilə görə ayırıb?!
Dil yox, qarnı torpaq işi doyurur,
Çətinliyi dincə qoyma, çoxalar.

Bir alayı iki eldən yaradaq,
Əlimizdə bir başraqla bir yaraq,
O başraqla Mindiyarda bir olaq,
Çətinliyi dincə qoyma, çoxalar.

***

-Biz bu yerdən köçək,-dedi Karaka,
Yer üzündə yeri vardır hərənin.
Yeri tutub eli kölə eləmə,
Yer üzündə yeri vardır hərənin.

Biz də bura uzaqlardan gəlmişik,
Mindiyarı öz yurdumuz bilmişik,
Minel ilə göynəmişik, gülmüşük,
Yer üzündə yeri vardır hərənin.

Daldan gəlib bizə ağız əyənlər,
Özlərini, dillərini öyənlər,
Burda ya biz, ya da bizi söyənlər,
Yer üzündə yeri vardır hərənin.

Turqız dedi:-Heç kəs burdan köçməsin,
Nə o, nə bu, özünə yer seçməsin,
Bir-birinə bunca əl-qol ölçməsin,
Yer üzündə yeri vardır hərənin.

***

Karş söylədi:-Biz Hindeldən gəlmişik,
Yerlilərdən üstün olur gəlmələr.
-Biz çoxdandır gəlib, düşüb burdayıq,
Yerlilərdən üstün olur gəlmələr.

-Tarla salıb biz burda ev tikmişik,
-Biz də dağdan buraya su çəkmişik,
-Bağ salmışıq, min-min ağac əkmişik,
Yerlilərdən üstün olur gəlmələr.

Turqız dedi:-Kim neyləyib, bəllidir,
Çox ölkə var, eli neçə dillidir,
Sizin isə başlarınız yellidir,
Yerlilərdən üstün olur gəlmələr.

Qılıncları atın yerə, barışın,
İş görəndə bir bizdən də soruşun.
Turelləşib qardaşlaşın, barışın,
Yerlilərdən üstün olur gəlmələr.

***

Karş əl atdı bir də qanlı qılınca,
Ya siz, ya biz, ikinciyə yer yoxdur.
Karaka da bizuc aldı əlinə,
Ya siz, ya biz, ikinciyə yer yoxdur.

Qanlı vuruş bir də, bir də başladı,
El üz-üzə bir-birini daşladı,
Oxu, yayı bir-birinə tuşladı,
Ya siz, ya biz, ikinciyə yer yoxdur.

Turqız haray-həşirləri kiritdi,
Ağqurd Alpan üç min atlı yeritdi,
Qan-qan deyən çox qanlını seyrəltdi,
Ya siz, ya biz, ikinciyə yer yoxdur.

Üç gün keçdi, Turqtay gəldi haraya,
Soraq gedib çatdı igid Tuncaya,
Beş min atlı gəlib girdi araya,
Ya siz, ya biz, ikinciyə yer yoxdur.

***

Karş üz tutdu əski yurdu Hindelə,
Dilibirlər yeribirdir, yad deyil.
Hindel şahı özü Karşa söylədi,
Dilibirlər yeribirdir, yad deyil.

-Darvideli sıxışdırın, qovlayın,
Minellini siz aldadın, tovlayın,
Ordan, burdan boylananı ovlayın,
Dilibirlər yeribirdir, yad deyil.

Biz gizlində sizə yardım verərik,
Pis ayaqda lap döyüşə girərik,
İstəsəniz özgə işlər görərik,
Dilibirlər yeribirdir, yad deyil.

Karş dedi ki, bizə yaraq göndərin,
Darvideli sonevinə döndərin,
Dik başlara qılınc, toppuz endərin,
Dilibirlər yeribirdir, yad deyil.

***

Karş nə qədər qancıl idi, əzazil,
Sevgi varsa, yumuşaldar kobudu.
Karş sevirdi Karakanın qızını,
Sevgi varsa, yumuşaldar kobudu.

Dəyirmi üz, alma yanaq, qara göz,
Qaralığı arxasında dadlı duz,
Baxışında dalğa vurur göy dəniz,
Sevgi varsa, yumuşaldar kobudu.

Buruq-buruq qara saçlar gur idi,
Baxışları səpələnən qor idi,
Ev yolları gənc Karş ilə bir idi,
Sevgi varsa, yumuşaldar kobudu.

Baxışlaşıb, sevgiləşib yananlar,
İlk sevgini ilk baxışdan qananlar,
Sonra onu oxşayaraq ananlar,
Sevgi varsa, yumuşaldar kobudu.

***

Gümüş idi onun adı bu eldə,
Gün görəndə gümüş azca qaralır.
Qarayanız, ağtəhərdi Gümüşqız,
Gün görəndə gümüş azca qaralır.

Üzləşmişdi onlar bir gün ovlaqda,
Danışmışdı onlar çox-çox yovuqdan,
Su içmişdi ikisi bir bulaqdan,
Gün görəndə gümüş azca qaralır.

-Nə gözəlsən, qancıl qızı, Gümüşqız,
Niyə belə sən soyuqsan, a qansız?
-Mən Gümüşəm, gümüş soyuq, oxşarsız,
Gün görəndə gümüş azca qaralır.

-Gəl, Gümüşüm, səni çoxdan sevmişəm,
Vurulmuşam o baxışa, yerişə,
Qorxmuşam ki, atan görə, eşidə,
Gün görəndə gümüş azca qaralır.
***
-Sevirsənsə, elçi göndər, barışaq,
Sevgi, elçi çox acığı söndürür,
Vuruşlarda görüb səni sevmişəm,
Sevgi, elçi çox acığı söndürür.

-Sevirsənsə, sən atamla vuruşma,
Darvidelin işlərinə qarışma,
Ondan, bundan məni tez-tez soruşma,
Sevgi, elçi çox acığı söndürür.

Qılıncı at, yapış doğma sevgidən,
Sənə yardım kəsilərəm onda mən,
Sənin üçün çəkinmərəm heç nədən,
Sevgi, elçi çox acığı söndürür.

-Vuruşmaram Darvidellə, Gümüşüm,
Mənə hər şey verdi sənin görüşün,
Gedim daha mən sevgidən yapışım,
Sevgi, elçi çox acığı söndürür.
***
Unutmuşdu bu sözləri sonra Karş,
Yerə, yurda yiyələnmək daha yey,
Karakayla vuruşmuşdu neçə yol,
Yerə, yurda yiyələnmək daha yey.

Gümüş ona çatdırmışdı sözünü:
-Sənə kəsi eləyərəm özümü,
Mən tuturam sənə, Karşım, üzümü,
Yerə, yurda yiyələnmək daha yey.

Ata evi məni sıxır, öldürür,
Məni sonsuz düşüncələr soldurur,
Atam mənə acığını bildirir,
Yerə, yurda yiyələnmək daha yey.

Götür apar, qaçır məni buradan,
Ayırıram bunca ağı qaradan,
Məni sənçin yaradıbdır yaradan,
Yerə, yurda yiyələnmək daha yey.
***
Karş Gümüşə yazı yazdı, yolladı,
Ya o yanlıq, ya bu yanlıq, orta yox!
Atan getsə biz ikimiz şah olluq,
Ya o yanlıq, ya bu yanlıq, orta yox!

Sevgi üstün hər atadan, anadan,
Çağırıram, çıx yöndəmsiz ortadan,
Öldür onu, qurtar o qart qabadan,
Ya o yanlıq, ya bu yanlıq, orta yox!

Arielin vardır kökü, budağı,
Bu yerlərdə bərkiyibdir ayağı,
Hindel kimi var yenilməz dayağım,
Ya o yanlıq, ya bu yanlıq, orta yox!

«-Mən qorxuram, qoymur ürək gəlməyə,
Mən qorxuram öldürməyə, ölməyə,
Mən dönmüşəm burda bir boş çölməyə,
Ya o yanlıq, ya bu yanlıq, orta yox!»

***

«-Mən Gümüşəm, nə dəmirəm, nə qızıl,
Gümüş bunca elə ortaq deməkdir.
Dəmir, qızıl arasında qalmışam,
Gümüş bunca elə ortaq deməkdir.

Öz atama, Karşım, əlim qalxmayır,
Sevən ürək sözlərimə baxmayır,
Ata-bala, ölüm bura sığmayır,
Gümüş bunca elə ortaq deməkdir.

-Onda söz ver, qulluqçunu dilə tut,
Qoy atanı daldan vursun qara qurd,
Qulluqçunu sonevinə sən oturt,
Gümüş bunca elə ortaq deməkdir.

Bacarmasan, gəlləm özüm vuraram,
Hər bir yandan çəpərləri qıraram,
Onda gözəl sevgilimə vararam,
Gümüş bunca elə ortaq deməkdir.

***

Bir ay keçdi, acı soraq yayıldı,
Çox yozulur böyüklərin ölümü.
Öldürülüb, özü ölüb deyəsən,
Çox yozulur böyüklərin ölümü.

Vurulmuşdu qılınc ilə arxadan,
Başı, boynu aralanıb ortadan,
Qulluqçusu onla ölüb yanbayan,
Çox yozulur böyüklərin ölümü.

Qızı Gümüş qara geyib ağlayır,
Bu ağlamaq ürəkləri dağlayır,
Gələnlərlə o, çox ara saxlayır,
Çox yozulur böyüklərin ölümü.

Qırxı çıxdı, Gümüş dedi hamıya,
Gərək hamı məni yerinc tanıya,
Bundan sonra bölünməyək yarıya,
Çox yozulur böyüklərin ölümü.

***

Bir il keçir, Karş Gümüşlə bağlaşır,
Sevgi həm də göz yaşıdır çoxuna.
Üz-üzəydi bağlaşmayla ağlaşma,
Sevgi həm də göz yaşıdır çoxuna.

Şah dedi ki, burda öc var çox üstün,
Bu, sevgi yox, aldatmaqdır büsbütün,
Güdükçülər bu olayı qoy güdsün,
Sevgi həm də göz yaşıdır çoxuna.

Yerincləri şah çağırdı hər yandan,
Dedi:-Bu Karş yoğrulubdur yalandan,
Gümüşqızı aldatmışdır o, yaman,
Sevgi həm də göz yaşıdır çoxuna.

Ağqurd Alpan başçı olsun Tureldə,
Görək necə səs çıxacaq tək əldən,
Həm də eli o anlayır bu dildə,
Sevgi həm də göz yaşıdır çoxuna.
***
Şah min atlı verdi yeni yerincə,
Buyuruqsuz qulluq kimə gərəkdir?
Ağqurd Alpan yola düşdü boş əllə,
Buyuruqsuz qulluq kimə gərəkdir?

Onu sayıb qarşılayan olmadı,
Karş yerinci heç də saya salmadı,
Osa gəzdi, heç bir işdən qalmadı,
Buyuruqsuz qulluq kimə gərəkdir?

Gah Gümüşü, gah da Karşı dindirdi,
El arası öc odunu söndürdü,
Tanı şaha yeni soraq göndərdi,
Buyuruqsuz qulluq kimə gərəkdir?

Karş gizlində öz işini görürdü,
Arieldə hər bir evə girirdi,
Öclə bağlı hamıya and verirdi,
Buyuruqsuz qulluq kimə gərəkdir?
***
Karakanı tapşırdılar torpağa,
Torpaqdadır ölənlərin sonevi.
Darvidelli sızıldadı, inlədi,
Torpaqdadır ölənlərin sonevi.

Ata yeri Gümüşqıza çatırdı,
İkililik eldə, yurdda artırdı,
Karş ardınca Gümüşqızı dartırdı,
Torpaqdadır ölənlərin sonevi.

Oturdular, danışdılar yaxından,
«Bir də necə biz qurtaraq qırğından?»,
«Necə qopub uzaqlaşaq qaçqından?»,
Torpaqdadır ölənlərin sonevi.

Biri dedi, sona kimi vuruşaq,
Biri dedi, yaxınlaşaq, qarışaq,
Biri dedi, önlərində duruşaq,
Torpaqdadır ölənlərin sonevi.
***
Gəldi Karşın Gümüşqıza elçisi,
Acıqana qız vermək də barışdır.
Biri dedi, verək, biri, verməyək,
Acıqana qız vermək də barışdır.

Çək-çevirlər, götür-qoylar uzandı,
Düşünməkdən Darvidelli usandı,
Sonda yenə Karş-Gümüşqız qazandı,
Acıqana qız vermək də barışdır.

Karş söylədi:-Gümüşqızı sevirəm,
O olmasa Darvideli çevirrəm,
Lap istəsəm Mindiyarı devirrəm,
Acıqana qız vermək də barışdır.

Vuruşlarda yorulmuşdu Darvidel,
Dedilər ki, vuruş daha düz deyil,
Ariellə çəkişmişik üç yüz il,
Acıqana qız vermək də barışdır.

***

Çoxu dedi, biz köçərik Əbəşə,
Kök hardadır, budaq orda göyərər.
Qızlar dedi, Gümüşqızdır kökümüz,
Kök hardadır, budaq orda göyərər.

Gedən getdi, qalan qaldı ürküdə,
Toy çalındı adam boğan bürküdə,
Toy elləri barışdırar, bərkidər,
Kök hardadır, budaq orda göyərər.

Karş evləndi yeniyetmə yaşında,
Yerinc oldu Turellinin başında,
Dedi, vuruş çoxdur hələ qarşıda,
Kök hardadır, budaq orda göyərər.

Karş Turqıza göz bərəltdi, pay umdu,
Qan-qan deyən Karşdan Turqız qorundu,
Uca-uca yarğan oldu uçuntu,
Kök hardadır, budaq orda göyərər.

***

Əbəş bildi, toplum çəkdi Turelə,
Kök budağı, budaq kökü saxlayır.
Körfəz oldu vuruşların düzəni,
Kök budağı, budaq kökü saxlayır.

Ağqurd Alpan döyüşlərə girəli,
Əbəşlilər çox gəlmişdi irəli,
Qovmaq olmaz acıqanı tək əlli,
Kök budağı, budaq kökü saxlayır.

Tanı dedi:-Göz bərəldir Karş bizə,
Qoyun qatsın Əbəş Karşı dənizə,
Qoy onlarla tək Karş dursun üz-üzə,
Kök budağı, budaq kökü saxlayır.

Ağqurd Alpan ilk vuruşda tək qaldı,
Yaralandı, qan itirdi, saraldı,
Başev onun gözlərində daraldı,
Kök budağı, budaq kökü saxlayır.

***

Ağqurd Alpan uzanmışdı ölümcül,
Günəş altda qalan yanar, qaralmaz.
Bir ay qaldı günəş altda yaralı,
Günəş altda qalan yanar, qaralmaz.

-Ulu günəş, məni yandır, kül elə,
Qaytar yurda, kül qarışıq yel elə,
Sümüyümdən körpü elə, yol elə,
Günəş altda qalan yanar, qaralmaz.

Ulu günəş, qoy böyüsün Mindiyar,
Böyüklüyün uca-uca gücü var,
Külüm olsun Manayıma isti qar,
Günəş altda qalan yanar, qaralmaz.

Ulu günəş, kimsəsizəm, ağla sən,
Ovlaqlarda qurdlarımı saxla sən,
Manayımla məni daha bağla sən,
Günəş altda qalan yanar, qaralmaz.
***
-Uçan quşlar, əsən yellər, buludlar,
Tək ölənin sonevini qazan yox.
Gedin, deyin Əkbitənə, Tanıya,
Tək ölənin sonevini qazan yox.

Gedin, deyin, Ağqurd Alpan yaralı,
Qan itirib, kimsəsizdir, saralıb,
Günəş altda gözü sönüb, qaralıb,
Tək ölənin sonevini qazan yox.

Gedin, deyin, gəlsin igid qurdlarım,
Ağlamasın Ağüzelin yurdları,
Qara yaylıq yellətdirsin atlarım,
Tək ölənin sonevini qazan yox.

Gedin, deyin, Ağqurd Alpan qalmadı,
Çox əlləşdi, elə doğma olmadı.
Başım üstə Tuncər balam olmadı,
Tək ölənin sonevini qazan yox.
***
Əbəşelin toplumları Tureldə,
Duruş, yoxsa quduzlaşar acıqan.
Başçıları Nilad idi onların,
Duruş, yoxsa quduzlaşar acıqan.

Karş Niladla durdu qarşı-qarşıya,
Kimdir burda ilk döyüşü başlayan,
Qaçanlardır Arieli boşlayan,
Duruş, yoxsa quduzlaşar acıqan.

Nilad vurdu qılıncını, aşdı Karş,
Dedi:-Uşaq, uşaqlarla get savaş.
Get Hindeli, Mindiyarı sən dolaş,
Duruş, yoxsa quduzlaşar acıqan.

Karşın atı götürüldü geriyə,
O qarışdı otlaqlarda sürüyə,
O baxmadı yolda ölü, diriyə,
Duruş, yoxsa quduzlaşar acıqan.
***
Nilad dedi:-İndi Turel bizimdir,
Var çapılar, el yiyəsiz olanda.
Nə Darvidel, nə Ariel görünür,
Var çapılar, el yiyəsiz olanda.

At çapırdı quduz Nilad dörd yana,
Qarışmışdı çöldə, kənddə qan qana.
Od vururdu Arieldən qalana,
Var çapılar, el yiyəsiz olanda.

Beş min atlı, öndə Turqız göründü,
Qabağına kim çıxdısa, küründü,
Qanlı gözlər bir-birinə dirəndi,
Var çapılar, el yiyəsiz olanda.

***

Görümlüydü Turqız dəmir geyimdə,
Qadın dəmir geyimdə də gözəldir.
Qılınc endi, tutaq iki bölündü,
Qadın dəmir geyimdə də gözəldir.

Nilad qapdı toppuzunu, dikəldi,
O, Turqızdan bir az yana çəkildi,
Bizuc dəydi, içi çölə töküldü,
Qadın dəmir geyimdə də gözəldir.

Nilad aşdı, düşdü soyuq torpağa,
Daha bir də o durmadı ayağa,
İki toplum əl atdılar yarağa,
Qadın dəmir geyimdə də gözəldir.

Əbəşelin toplumları qırıldı,
Sıraları neçə yerdən yarıldı,
Vuruş deyil, qaçhaqaçda yoruldu,
Qadın dəmir geyimdə də gözəldir.

Turq söyləncі

Bığ, saqqalı qaralmışdı Turqtayın,
Sevər ürək, uçar könül bu yaşda.
O sevmişdi Yanqu qızı gizlidə,
Sevər ürək, uçar könül bu yaşda.

Baş götürüb hara gəldi gedirdi,
Gözdən, evdən ilim-ilim itirdi,
Döşdə, yolda mahnı deyib ötürdü,
Sevər ürək, uçar könül bu yaşda.

«-Yanqu, məni məndən alan sevgilim,
Ey Çineldə bitib gülən qız gülü,
Mənə öyrət öz dilində gül dili»,
Sevər ürək, uçar könül bu yaşda.

«Bir yol güldün, mənim könlüm gülləndi,
Ürəyimdən axan qanlar selləndi,
İçərimdə nə var idi dilləndi,
Sevər ürək, uçar könül bu yaşda».

***

«Tanrı, mənə bir yol göstər, əltut ol,
Görünənlər, duyulanlar sevgidir.
Məni qurtar bu sevimli ağrıdan,
Görünənlər, duyulanlar sevgidir.

O əl, o dil, o bel necə göz çəkir,
Dodaq, baxış ürəklərdən söz çəkir,
Oğlan durub vurğun baxır, qız çəkir,
Görünənlər, duyulanlar sevgidir.

Nə gözəldir qızın gənclik illəri,
Yan hörülən, yan tökülən telləri,
Dodağında çiçək açan gülləri,

Görünənlər, duyulanlar sevgidir.

Gedim, deyim ona ürək sevgimi,
Görək sevir, necə sevir kim kimi,
Çatım ona uşaq deyil, ər kimi,
Görünənlər, duyulanlar sevgidir».

***

«Gedim daha Quşatını çullayım,
Dəyişilir ildən-ilə dayanış.
Dəmiratın, Qonuratın qalıncı,
Dəyişilir ildən-ilə dayanış.

Nə biləcək gendən ona vurğunam,
Nə biləcək mən sevgimdə daşqınam,
Nə biləcək düşüncəmdə yayqınam,
Dəyişilir ildən-ilə dayanış.

Gəlim, gülüm, saçlarına toxunum,
Bu sevgimlə diksindirim çoxunu,
Sonra dönüm, uzaq edim yaxını,
Dəyişilir ildən-ilə dayanış.

Sən Tuncayın gözəlisən, bilirəm,
Gündə yüz yol dirilirəm, ölürəm,
Səni yüz yol öz könlümdən silirəm,
Dəyişilir ildən-ilə dayanış».

***

Turqtay çapdı Qonuratı durmadan,
Sevgi hər an çəkir səni qoynuna.
At buluda dönüb çapır göylərə,
Sevgi hər an çəkir səni qoynuna.

«Keç yurdları, kövşənləri, çölləri,
Ağrımasın dırnaqların, əllərin,
Qan-tər olub yal-yalmanın, tellərin,
Sevgi hər an çəkir səni qoynuna.

Bu, yolları hardan belə tanıyır,
Yoxsa məni düzənlikdə sınayır?
Niyə gözü hərdən-birdən oynayır?
Sevgi hər an çəkir səni qoynuna.
Deyən, sən də erkəkini gəzirsən,
Buna görə quşlaşaraq süzürsən,
Gizli-gizli yanıb mən tək dözürsən,
Sevgi hər an çəkir səni qoynuna».

***

-Güllər, çöllər, yellər məni qınayır,
Bir ürəkdə bir sevgiyə yer olar.
Hamı gizli sevə bilər istəsə,
Bir ürəkdə bir sevgiyə yer olar.

Güllər, çöllər, yellər, məni qoruyun,
İlk sevgimin yarasını sarıyın,
Ölsəm, məni Çuqçuyurdda arayın,
Bir ürəkdə bir sevgiyə yer olar.

Güllər, çöllər, yellər, məni saxlayın,

Mənim sevən ürəyimi yoxlayın,
Ölsəm, mən yox, sevgim üçün ağlayın,
Bir ürəkdə bir sevgiyə yer olar.

Güllər, çöllər, yellər, mənə yol verin,
Gedim tapım bizdən olan yerləri,
Sevərlikdən biz çıxaraq ərləri,
Bir ürəkdə bir sevgiyə yer olar.

***

Bir ay keçdi, tapmadılar Turqtayı,
Özü itən, ya yıxılan ağlamaz.
Turqtay gizli gəldi çatdı Çuqçuya,
Özü itən, ya yıxılan ağlamaz.

Sansi onu qarşıladı, oxşadı,
Qonuratı rahlayaraq qurşadı,
Quşat durub Dəmiratla, qoşadı,
Özü itən, ya yıxılan ağlamaz.

«Turq» deyərək Başev durdu ayağa,
Baş əydilər bir-bir yüksək qonağa,
Yanqu, Tuncay çıxıb ova – uzağa,
Özü itən, ya yıxılan ağlamaz.
Turqtay dedi:-Mən Quşatı çaparam,
Ovlaqlarda mən onları taparam,
Yeri gəlsə, maral ovu yaparam,
Özü itən, ya yıxılan ağlamaz.

***

Turqtay mindi oynaqlayan Quşatı,
Girəvədir yol azana ovçuluq.
Dedi, deyən yuxudaydım, ayıldım,
Girəvədir yol azana ovçuluq.

Başev çıxdı qabağına birbəbir,
-Sevimli Turq hara belə tələsir?!
Ayağına düşdü onun təkdəbir,
Girəvədir yol azana ovçuluq.

Turq dedi ki: – Qonuratı gətirdim,
Sevimlisi Dəmirata yetirdim,
Bəslədiyim bu Quşatı götürdüm,
Girəvədir yol azana ovçuluq.

Qayıdanda ovlaqları araram,
Ovçuları tapsam, onda duraram,
Ov ətindən yemək-içmək quraram,
Girəvədir yol azana ovçuluq.

***

-Turq, yorğunsan, getmə, yollar uzaqdır,
Başaşağı qayıdanı saxlama.
-Turq, varımız sənə kəsi qoy olsun,
Başaşağı qayıdanı saxlama.

-Turq, inciyər bizdən böyük Tanı şah,
-Gecə yarı sən baş vurma dağ-daşa,
-Dönmək olmaz bir ay yolu birbaşa,
Başaşağı qayıdanı saxlama.

Üç min atlı yola düşdü Turq ilə,

Sağol – deyib Turq çevrildi bir yelə,
Qaldı dalda bulud-bulud sürülər,
Başaşağı qayıdanı saxlama.
Qovdu, çapdı o, Quşatı yeyincə,
Üzü tutqun, ancaq könlü sevincək,
«Yox, sevilmiş bir gəlini nə sevmək?»
Başaşağı qayıdanı saxlama.

***

Üç min atlı arxasınca gəlirdi,
İç qatını hərdən-birdən ələklə.
Sevinsə də ağlayırdı ürəyi,
İç qatını hərdən-birdən ələklə.

Turq deyirdi: «Yaxşı oldu qayıtdım,
İstəyimi öz içimdə üyütdüm,
Sarsaq sevgi dirçəlirdi, uyutdum,
İç qatını hərdən-birdən ələklə.

Gül-çiçəklər, indi nəyəm, boşluğam,
Bir çay idim, indi çayda daşlığam,
Boş görgördə quru adam, başlığam,
İç qatını hərdən-birdən ələklə.

Tanrım, məni ayır gözəl Yanqudan,
Ürəyimi bu sevgidən, sorğudan,
Qoy qurtarsın sevgililər qorxudan,
İç qatını hərdən-birdən ələklə. »

***

Düzgü dağlar, güzgü sular keçdilər,
Göz oxşayan yerlər ürək oxşayır.
Bir bulaqda suyu qanlı gördülər,
Göz oxşayan yerlər ürək oxşayır.

Turq söylədi:-Burda qoyun kəsiblər,
Yanqu, Tuncay burda olub, gəziblər,
Deyən cüyür ovlamaqdan beziblər,
Göz oxşayan yerlər ürək oxşayır.

Üçminbaşı dedi Turqa bu sayaq,
-Turq sağ olsun, kəsi deyil bu, ancaq,
Kimsə keçib burdan üz-göz yuyaraq,
Göz oxşayan yerlər ürək oxşayır.
Birdən kimsə «yardım» deyib çığırdı,
Turqtay «Tuncay» bağıraraq çağırdı,
Yaxınlıqda kimsə kimi boğurdu,
Göz oxşayan yerlər ürək oxşayır.

***

Turq Quşatı çapdı, gördü Tuncayı,
Nə gəzirdi, sonda gəlib nə tapdı.
Neçə qancıl yıxıb boğur Tuncayı,
Nə gəzirdi, sonda gəlib nə tapdı.

Turq sıçrayıb qılıncını sıyırdı,
Yaralanıb yıxılanlar bəyirdi.
Tuncay durub ona sarı yüyürdü,
Nə gəzirdi, sonda gəlib nə tapdı.

Dedi:-Məni yaralayıb yıxdılar,
Səs çıxmasın deyə tutub boğdular,

Yanquqızı alıb yola çıxdılar,
Nə gəzirdi, sonda gəlib nə tapdı.

Turq hayladı igidləri dalınca,
Əlindəki parlaq qılınc yalınca,
O, Quşatı çapdı heydən salınca,
Nə gəzirdi, sonda gəlib nə tapdı.

***

Çatdı oğru-quldurlara Turq, Quşat,
Oğru varsa, keçir iti qılıncdan.
Dedi:-Durun, Yanquqızı qaytarın,
Oğru varsa, keçir iti qılıncdan.

Yaralıydı, qılınc qapdı Yanqu da,
O sıçradı boş, yüyənsiz bir ata,
Ova döndü yürüşündə hər adam,
Oğru varsa, keçir iti qılıncdan.

Turq başçını aşıraraq bizucla,
Vurdu onu, yastılatdı toppuzla,
O üzləşdi başqa qanlı quduzla,
Oğru varsa, keçir iti qılıncdan.
Quduz dedi:-Doğrayaram səni mən,
Turqtay dedi:-Qaçammazsan əlimdən,
Quduz dedi:-Deyən kalsan hələ sən,
Oğru varsa, keçir iti qılıncdan.

***

Qılınc qalxdı, endi, quduz yıxıldı,
Doğru çox-çox güclü olar oğrudan,
Bir də endi, quduz bir də qıvrıldı,
Doğru çox-çox güclü olar oğrudan.

Turq izlədi qaçanları yolacan,
Nə biləydi ovlaq belə olacaq,
Suaxmazlar qızıl qanla dolacaq,
Doğru çox-çox güclü olar oğrudan.

Yanquqızın eşidildi harayı:
-Hanı-dedi-mənim igid Tuncayım,
Gəl, boynuma qollarını dolayım,
Doğru çox-çox güclü olar oğrudan.

Turq dağıdır quldurları birbəbir,
Sümük qırır, qarın yırtır, baş kəsir,
Qalanları dağ döşündən hellədir,
Doğru çox-çox güclü olar oğrudan.

***

Döyüş toplum çatanacan qurtarır,
İki doğru yüz oğruya güc gələr.
Tuncay, Yanqu durmuşdular yan-yana,
İki doğru yüz oğruya güc gələr.

Yanqu tez-tez «Tuncay» deyib sızlayır,
Turqun yerincşah yerini gözləyir,
Hərdən öpür yarasından Tuncayın,
İki doğru yüz oğruya güc gələr.

Tuncayınsa başı, beli əyilib,
Qan itirib, heydən düşüb, keyəlib,

Gül yanağı qan içində göyərib,
İki doğru yüz oğruya güc gələr.
Yeyin çapın, daha ocaq qurmayın,
Yorğa gedin, yaralını yormayın,
Uğurelə çatanacan durmayın,
İki doğru yüz oğruya güc gələr.

***

Uğurelin yaşıl-yaşıl düzləri,
Elin varı, düzlükləri düzdədir.
Yaralını görüb çaşdı Qızçiçək,
Elin varı, düzlükləri düzdədir.

Əllərini o uzatdı görüncə*,
Dedi:-Tanrı, balam düşüb kilincə,
Açıl, dirrik sapımdakı düyünçə,
Elin varı, düzlükləri düzdədir.

Yanqu dedi:-Tanrılaşan Qızçiçək,
Qaytarasan Tuncayımı sən gərək,
Yoxsa mənim könlüm, gülüm sönəcək,
Elin varı, düzlükləri düzdədir.

Turq, sənə də yalvarıram, qardaşım,
Tuncay mənim ərim, sənin yoldaşın,
Adın Çinə, Mindiyara yaraşır,
Elin varı, düzlükləri düzdədir.

***

Bir il keçdi, Tuncay bütün sağaldı,
Sağlamdan da sağlam olur sağalan.
Qaya idi sanki köksü, gövdəsi,
Sağlamdan da sağlam olur sağalan.

Üzdən, gözdən ikisi də sapsarı,
Çuqçu çıxıb qarşıladı onları,
Güldü qarlı Alatau dağları,
Sağlamdan da sağlam olur sağalan.

Üfüq

Dəmirat da, Qonurat da kişnədi,
Üç yol, dörd yol, beş yol, hələ beş nədi,
Oynaqlayıb bir-birini dişlədi,
Sağlamdan da sağlam olur sağalan.

Sevgililər qoşa-qoşa yanaşı,
Sevinclərdən sanki gözlər qamaşır,
Ov işində Yanqu, Tuncay ovbaşı,
Sağlamdan da sağlam olur sağalan.

***

Turq çox gəzdi düşüncəli, yovuşmaz,
Qancıl olar sevgisini boğanlar.
Bir boğulmuş sevgi baxır gözündən,
Qancıl olar sevgisini boğanlar.

Ata-ana çox yalvardı, dop-dolu,
Dedilər ki, oğul, sənə nə olub,
Niyə azdın Uğureldə düz yolu,

Qancıl olar sevgisini boğanlar.

Dedi:-Bir az gileyliydim tanrıdan,
Getdim, ancaq yolu döndüm yarıdan,
Yanıq idim mən ürəyim sarıdan,
Qancıl olar sevgisini boğanlar.

Böyük Tanrı ürəyimi ovutdu,
Qarlı dağlar istəyimi soyutdu,
Bir az sonra mən özümə qayıtdım,
Qancıl olar sevgisini boğanlar.

***

Məndən daha soruşmayın heç nəyi,
Olan olub, keçən keçib, qurtarıb.
Tanrı məni çağırmışdı yanına,
Olan olub, keçən keçib, qurtarıb.

Bundan sonra siz də mənə «Turq» deyin,
Mənlə gələn çuqçulara «çuq» deyin,
Nə istəsə, ürəyimə «yox» deyin,
Olan olub, keçən keçib, qurtarıb.
Tanı, Turqız çox baş yordu, düşündü,
Falçı, rəmlçi çağırmaqdan daşındı,
Gözlərində yaşqarışıq yaşıntı,
Olan olub, keçən keçib, qurtarıb.

Sınıq sevgi Turqu bir az sındırdı,
Düz olmayan əyri yoldan döndərdi,
«Tuncay» deyib sevgisini söndürdü,
Olan olub, keçən keçib, qurtarıb.

Çuqçu toplumu söyləncі

Üç min çuqçu baş topluma qarışdı,
Önəmlidir qıraq yerdən gələnlər.
Seçilirdi döyüş-vuruş işində,
Önəmlidir qıraq yerdən gələnlər.

Turq onlara başçı oldu, sevimli,
Hamısı da parlaq, dəmir geyimli,
Minbaşısı düşüncəli, beyinli,
Önəmlidir qıraq yerdən gələnlər.

Bölündülər Uğurelə, Turelə,
Ad qazandı, tanıqlandı bir ilə,
Minelliylə onlar verdi əl-ələ,
Önəmlidir qıraq yerdən gələnlər.

Karş Hindeldə bunu gizli bilmişdi,
Beş min Hindel toplumuyla gəlmişdi,
Bu gəlişlər, bu gedişlər nə işdi?
Önəmlidir qıraq yerdən gələnlər.

***

Turq Karş ilə yaşıd idi bir ildən,
Ayrı yollar qardaşı da ayırır,
Biri qancıl, biri yurdcul gənc idi,
Ayrı yollar qardaşı da ayırır.

Döyüşlərdə biri gücdü, biri bic,
Çox güclüdə biclik olmur, bicdə güc,
Çoxlarına görünməyir bu görünc,
Ayrı yollar qardaşı da ayırır.

Görüşəndə Turq qaş-qabaq tökmüşdü,
Baxışına qanlı acıq çökmüşdü,
Bu baxışdan Karş quş kimi səkmişdi,
Ayrı yollar qardaşı da ayırır.

Turq söylədi:-Kirpiklərin ütülüb,
Dartımların arıqlıqdan dartılıb,
İş görürsən sən Başevdən örtülü,
Ayrı yollar qardaşı da ayırır.

***

Mən gəlmişəm sənə düz yol göstərəm,
Sonda düzlük kəsib gedir əyrini,
Mindiyarın sol böyrüdür Turel də,
Sonda düzlük kəsib gedir əyrini.

Düzə baxsan sən Hindeldən köçkünsən,
O torpaqdan Mindiyara sürgünsən,
Burdan, ordan niyə belə küskünsən,
Sonda düzlük kəsib gedir əyrini.

Toplumunu döndər Hindel sarıya,
Yaşadığı yeri kişi qoruyar,
Yaş acıyır qışda deyən quruya,
Sonda düzlük kəsib gedir əyrini.

Yaşayırsan yaşa burda, dinc otur,
Sənə qarşı ürəyimdə öc artır,
Ya o yanlıq, ya bu yanlıq, ay qotur,
Sonda düzlük kəsib gedir əyrini.

***

Yaraqlanıb, tutaqlanıb durdular,
Od qalayır, su çiləyir bircə söz.
Bircə sözdən asılıydı vuruşma,
Od qalayır, su çiləyir bircə söz.
Karş söylədi:-Vuruşmayaq bu sayaq,
Gəl at çapaq, daş qaldıraq, ox ataq,
Kim güc gəldi onu böyük ər sayaq,
Od qalayır, su çiləyir bircə söz.

Ox atdılar, oxlar gözdən yox oldu,
Daş dartdılar, güclər daşdan çox oldu,
At çapdılar, atlar uçar ox oldu,
Od qalayır, su çiləyir bircə söz.

Ancaq Quşat çapdı getdi yolları,
Qan-tər oldu döşü, başı, yalları,
Qaya qırdı, qor ələdi nalları,
Od qalayır, su çiləyir bircə söz.

***

Karş döngədə neçə atlı qoymuşdu,
İt qaplandır, birdən çıxsa qarşına.
Turqu onlar süpürlədi döngədə,
İt qaplandır, birdən çıxsa qarşına.

Quşat ürkdü, ancaq bundan qorxmadı,
Düz yolunu çapdı, yoldan çıxmadı,
Turq bizuca, oxa, yaya baxmadı,
İt qaplandır, birdən çıxsa qarşına.

Yaraqlılar çaş-baş qaldı, karıxdı,
-Bu, at deyil, qurddan, quşdan ayıqdır,
Turqtay Karşdan, bizdən çox-çox sayıqdır,
İt qaplandır, birdən çıxsa qarşına.

Quşat çapdı, yaraqlılar yortdular,
Dallarınca atlarını dartdılar,
Meşəlikdə onlar Turqa çatdılar,
İt qaplandır, birdən çıxsa qarşına.

***

Turq bağırdı:-Durun, indi vuruşaq,
Doğru vuruş son qoyacaq bicliyə.
Yarışlarda qurma biclik döngəsi,
Doğru vuruş son qoyacaq bicliyə.
Turq onları qılıncından keçirtdi,
Qanlarını özlərinə içirtdi,
Bir-bir, üç-bir sonevinə köçürtdü,
Doğru vuruş son qoyacaq bicliyə.

Sonra dedi:-Uç irəli, Quşatım,
Qoy doğruluq, düzlük olsun qanadın,
Çap, çap, gedim qancıl Karşa mən çatım,
Doğru vuruş son qoyacaq bicliyə.

Gəlib gördü Karş qaçıbdır uzağa,
Çuqçu bilib əl atıbdır yarağa,
Arielli səpələnib otlağa,
Doğru vuruş son qoyacaq bicliyə.

***

Dedi:-Hindel toplumunu qaytarın,
Özgə toplum özgə yurdda nə gəzir.
Birini də sağ qoymayın qayıtsın,
Özgə toplum özgə yurdda nə gəzir.

Qıy vurdular, at çapdılar çuqçular,
Yetişdilər Hindelliyə çal-çapar,
Bu, vuruşdur, baş şaqqala, baş qopar,
Özgə toplum özgə yurdda nə gəzir.

Çuqçubaşı baş yolları öyrəndi,
Turq söyləyib o, Turqtaya söykəndi,
Turq bu yolu doğru sandı, bəyəndi,
Özgə toplum özgə yurdda nə gəzir.

İki toplum üzləşdilər düzəndə,
Çöl qızardı çuqçu baş, qol kəsəndə,
Hindli qaçdı qan görməkdən bezəndə,
Özgə toplum özgə yurdda nə gəzir.

***

Çuqçu dedi:-Hind toplumu qırıldı,
Yer itirən yer tapandan qıvraqdır.
«Turq toplumu» ad qoyublar bizlərə,
Yer itirən yer tapandan qıvraqdır.
Biz çuqçuyuq Yanqu, Tuncay qolundan,

Biz dönmərik Turqtay, Tanı yolundan,
Dayanmışıq Mindiyarın dalında,
Yer itirən yer tapandan qıvraqdır.

Biz çuqçuyuq, suda balıq, dağda quş,
Döşlərimiz dəmirləşib dağ olmuş,
Turqdan gəlir bizə bu güc, bu duruş,
Yer itirən yer tapandan qıvraqdır.

Biz çuqçuyuq, harda olsaq Turqtayıq,
Çinelindən Mindiyara bir payıq,
Göydə bulud, yerdə axar bir çayıq,
Yer itirən yer tapandan qıvraqdır.

***

Gümüşqıza Turq söylədi astadan,
-Qız sevgisi duru olur bulaqdan,
Dəyərlənir bu sevgidən bil ki Karş,
Qız sevgisi duru olur bulaqdan.

Çox çəkibdir başın Karşdan, sağ olmuş,
Bu sevgidən Darvidelli dağılmış,
El-obalar qızıl qanda boğulmuş,
Qız sevgisi duru olur bulaqdan.

-Özünə gəl, bacım, elə dayaq ol,
Öz yerini qoru, quşdan ayıq ol,
Öz sevginə qıraqdan bax, soyuq ol,
Qız sevgisi duru olur bulaqdan.

Atan Karşa aldanılıb, basılıb,
Sevgin gedib gör kimlərə qısılıb,
O, yalançı bir istəkdən asılıb,
Qız sevgisi duru olur bulaqdan.

***

-Darvideli siz Turelə qaytarın,
Hər adamın bir yurdu, bir ulusu.
Beş min ildir darvidelli bu yerdə,
Hər adamın bir yurdu, bir ulusu.
Qız dedi ki: – Qardaş, ona bağlıyam,
Ata yandan, yer-yurd yandan dağlıyam,
Gözüm deyil, mənim könlüm ağlayar,
Hər adamın bir yurdu, bir ulusu.

Necə oldu Karşı sevdim, bilmədim,
Atam öldü, könlüm daha gülmədi,
Könlüm öldü, ancaq sevgim ölmədi,
Hər adamın bir yurdu, bir ulusu.

Məni öldür, qardaş, ya da bağışla,
Ey ürəyim, bu sevgini qarğışla,
Hara gedim, tanrım, yersiz doğuşla,
Hər adamın bir yurdu, bir ulusu.

***

Turqtay döndü, toplum qaldı Tureldə,
Başın üstən qorxu keçib, inanma.
Tanı dedi:-Karşı gərək tutaydın,
Başın üstən qorxu keçib, inanma.

Qayıdacaq o, Turelə bir azdan,

Hər gəlişi, hər gedişi yeni qan,
Gümüşqızı odur tez-tez aldadan,
Başın üstən qorxu keçib, inanma.

Turqız dedi:-Oğlum, gəncsən hələ sən,
Gəncin qancıl tez yayınar gözündən,
Qarmalayıb dağıdardım Karşı mən,
Başın üstən qorxu keçib, inanma.

Mən anayam, sənə uğur dilərəm,
Ürəyimi sənlə yarı bölərəm,
Hara getsən mən dalınca gələrəm,
Başın üstən qorxu keçib, inanma.

***

Tanı dedi: – Karşdan çox-çox qoçaqsan,
Acıqanı tutma heç də tək əlli.
Gümüşqızla yola gətir onu sən,
Acıqanı tutma heç də tək əlli.

Bic olmaqçın izinə düş sən bicin,
Bicin oxu üzünü yox, sən için,
Öz yeri var hər bicliyin, hər gücün,
Acıqanı tutma heç də tək əlli.

Turq söylədi:-Atam, anam düz deyir,
Karş bicləmə bir önərdi, hər nədir,
Doğrayaram toplumunu birbəbir,
Acıqanı tutma heç də tək əlli.

Üç ayacan onu tapıb tutaram,
Kölələrin sırasına qataram,
İki elin birliyinə çataram,
Acıqanı tutma heç də tək əlli.

***

Çuqçubaşı başsız qaldı Tureldə,
Tez anlayan harda olsa başçıdır.
Çuqçubaşı bilirdi Karş gələcək,
Tez anlayan harda olsa başçıdır.

Busqularda adamları güdürdü,
Kol-kos içrə yatıb gözdən itirdi,
Karş hardaydı orda ot tək bitirdi,
Tez anlayan harda olsa başçıdır.

Karş Gümüşqız yöndəmində dolanır,
Qapılardan, çəpərlərdən boylanır,
Acıqandan dodaqları sallanıb,
Tez anlayan harda olsa başçıdır.

Onu yaxın buraxmırdı Gümüşqız,
Darvidelli qayıdırdı qayğısız,
Çuqçuların yardımıyla qorxusuz,
Tez anlayan harda olsa başçıdır.

***

Karş güdürdü öldürməyə bu qızı,
Ana ölsə uşaq ölür anayla.
Gərək qalsın uşaq ana bətnində,
Ana ölsə uşaq ölür anayla.
Gümüşqızsa beş aylığa boyluydu,

Mindiyarda boylu arvad uluydu,
Doğmayanlar diri deyil, ölüydü,
Ana ölsə uşaq ölür anayla.

«Ana ölsün, uşaq qalsın nə sayaq?»
Karş bunları düşünürdü yortaraq,
Çölü adam, içərisi yapalaq,
Ana ölsə uşaq ölür anayla.

Gümüşqız da qancıl əri duymuşdu,
Başı altda qılınc, balta qoymuşdu,
Öz-özündən, öz ərindən doymuşdu,
Ana ölsə uşaq ölür anayla.

***

Atasını öldürmüşdü Gümüşqız,
Çılğın sevgi sonda bitir ölümlə.
Düşünürdü ərini də öldürsün,
Çılğın sevgi sonda bitir ölümlə.

Ancaq belə yumaq olar bu qanı,
Mən öldürdüm, Karş bu qana boyanıb,
Qandır, ölüm, bir də öcdür hər yanım,
Çılğın sevgi sonda bitir ölümlə.

Ata üstdə Turqtay məni danladı,
Bu ölümün duyumunu anladı,
Karş istədi bunu, bu qan onladı,
Çılğın sevgi sonda bitir ölümlə.

Ah, dağılır mənim könlüm, beyinim,
Gərək Turqa açam bu qart düyünü,
Qoy o bilsin təkcə düzü, düzgünü,
Çılğın sevgi sonda bitir ölümlə.

***

Köçüb gedən Darvideli qayıtdı,
Göy aparan, torpaq isə verəndir.
Turel ona elbir, dilbir olmuşdu,
Göy aparan, torpaq isə verəndir.
Gümüşqızı başçı qoydu gələnlər,
Turel deyib göz yaşını silənlər,
Üzə durdu eli iki bölənlər,
Göy aparan, torpaq isə verəndir.

Gümüşqızsa oğlan doğdu utancaq,
Görən uşaq sonda kimin olacaq,
Dəyirmibaş, dəyirmiüz, al yanaq,
Göy aparan, torpaq isə verəndir.

Karş yox idi, yasaq idi neçə il,
Lap əzəldən olmamışdı elə bil,
Sanki Turel ona elbir yurd deyil,
Göy aparan, torpaq isə verəndir.

***

Gümüşqızı çağırdılar Başevə,
Ağac gərək öz kökündən su içə,
Dedilər ki, sən Turelə yerinc ol,
Ağac gərək öz kökündən su içə.

Dedilər ki, iki eli birləşdir,

İgid yaşa, qadınları ərləşdir,
Əbəşeldən gələnləri yerləşdir,
Ağac gərək öz kökündən su içə.

Dedilər ki, toplum yarat, yaraqlat,
Kim yox dedi, onu dibdən alaqla,
Karşçıları vur-yıx yerə, ayaqla,
Ağac gərək öz kökündən su içə.

Çuqçuları sayıq saxla, yürüklət,
Hindellini onlar ilə sürüklə,
Acığını gülüşənə bələklə,
Ağac gərək öz kökündən su içə.

***

Dönüb gəldi öz evinə Gümüşqız,
Gərilirsən bir göstəriş alanda.
Ağır işdən çəkinmədi, qorxmadı,
Gərilirsən bir göstəriş alanda.
Gəlib gördü Karş uşağı aparıb,
Gül yanağı solub oldu sapsarı,
Ora, bura qovdu atı, çaparı,
Gərilirsən bir göstəriş alanda.

«Balam» dedi, «körpə balam» söylədi,
Gəzdi çölü, maral kimi mələdi,
Göz yaşını sel-sel tökdü, ələdi,
Gərilirsən bir göstəriş alanda.

Boş əl ilə o, evinə dönüncə,
Hamı gəldi ürək verdi yerinçə,
Kimi tutqun, kimi isə sevincək,
Gərilirsən bir göstəriş alanda.

***

Karş yalvardı Gümüşqıza yazıda,
Bağışlayar qolu, könlü güclülər.
Sən də məni artarına bağışla,
Bağışlayar qolu, könlü güclülər.

Gəl uşağı bir böyüdək, yaşadaq,
O, bir zirvə, biz ikimiz qoşa dağ,
Acıqlardan içimizi boşaldaq,
Bağışlayar qolu, könlü güclülər.

Tək qalmışam kolluqlarda indi mən,
Gəl birləşək Turqa qarşı yenidən,
Bezikmişəm çuqçuların əlindən,
Bağışlayar qolu, könlü güclülər.

Arielli, Darvidelli bir eldir,
Aramızda at oynadan boş yeldir,
Bizə küsü heç yaraşan deyildir,
Bağışlayar qolu, könlü güclülər.

***

Gümüşqız da Karşa yazı göndərdi,
Öc qanını bağışlamaq çətindir.
Alacağam səndən ata öcümü,
Öc qanını bağışlamaq çətindir.
Gec deyildir hələ, qaytar uşağı,
Onun sənə düşməyibdir ayağı,

Özün yalan, sözlərinsə bayağı,
Öc qanını bağışlamaq çətindir.

Sən aldatmaq, mən inanmaq yolçusu,
Sən yanlışlar, mən düzlüklər elçisi.
Ey yalanlar, ey yozmalar qoçusu,
Öc qanını bağışlamaq çətindir.

Gümüşqızam, bu ellərdə var səsim,
Mən yerincəm, bu Turelin yiyəsi,
Sevgi mənim, mən tanrının köləsi,
Öc qanını bağışlamaq çətindir.

***

-Sən Darvidel, mən Ariel yerinci,
İki gücü bir eləsən yüz olar.
Biz ər-arvad iki ulus yerinci,
İki gücü bir eləsən yüz olar.

-Yerinc mənəm Turel boyu, yaxşı bil,
Turel isə iki ulus, yurd deyil,
Ta gözümə sən görünmə, get-itil,
İki gücü bir eləsən yüz olar.

Keçdi üç il, Turel yenə seçildi,
Bu üç ildə beş yol taxıl biçildi,
Toy-düyündə al içkilər içildi,
İki gücü bir eləsən yüz olar.

Karş da Hindel kəndlərində dolaşdı,
Yerinc olmaq istəyilə alışdı,
Yavaş-yavaş olacaqla barışdı,
İki gücü bir eləsən yüz olar.

XII QAPI

Manayqız söyləncisi

Tanı şahın səsləncləri gurladı,
Qız sevincdir, oğul önəm hamıya.
Turqız doğdu, «Manay» qoydu adını,
Qız sevincdir, oğul önəm hamıya.

Manay adı sevindirdi hamını,
Dağı, düzü, uzaq, yaxın aranı,
Qız sağaltdı Tanıdakı yaranı,
Qız sevincdir, oğul önəm hamıya.

Manay adı qızıl qaba qazıldı,
Turər kökü soy adına yazıldı,
Günü, ayı görgülərə basıldı,
Qız sevincdir, oğul önəm hamıya.

Görüşünə gəldi Yanqu, Qızçiçək,
Gül-gül oldu daş-qaşlarla ağ bələk,
Durudaşlar, qızıl-gümüş bir ətək,

Qız sevincdir, oğul önəm hamıya.

***

Manay döndü işıqlığa bir daha,
Ölən üç yol özgə üzdə doğulur.
Sərtiş dədə üç anadan doğulub,
Ölən üç yol özgə üzdə doğulur.

İlk gülüşü, ilk addımı, ilk sözü,
Danışırdı elə bil ki göy gözü,
Manaylaşıb böyüyürdü qız özü,
Ölən üç yol özgə üzdə doğulur.

Manaylaşıb sevinirdi doğmalar,
Daşlanırdı çöllər, evlər, daxmalar.
Başevdəki qapı-qapı oymalar,
Ölən üç yol özgə üzdə doğulur.
Qız ayağı yüngül olur,-deyiblər,
Buna görə qızı bərk-bərk seviblər,
Gəlişini, gülüşünü öyüblər,
Ölən üç yol özgə üzdə doğulur.

***

Hamıdan çox Turq sevindi Manayla,
Qardaş qolu, qanadıdır bacının.
At çapmağı, ox atmağı öyrəndi,
Qardaş qolu, qanadıdır bacının.

On yaşında Manay igid qız oldu,
Gülüş getdi, ay bənizi buz oldu,
Tanış-biliş bu gözələ göz oldu,
Qardaş qolu, qanadıdır bacının.

On beş yaşda yaraqlıydı sırada,
Turq hardaydı, bacısı da orada,
Vuruşurdu acıqanla arada,
Qardaş qolu, qanadıdır bacının.

Turqa bacı unutdurdu Yanqunu,
«Tuncay» deyib o mələyən quzunu,
Uşaqlıqdan qalan sönük yanğını,
Qardaş qolu, qanadıdır bacının.

***

İlk döyüşdə yaralandı başından,
Unudulmaz ilk döyüşlə ilk yara.
Kilkələnib sallanırdı saçları,
Unudulmaz ilk döyüşlə ilk yara.

Qan qurumu görünürdü telində,
Qılınc vardı, qalxan vardı əlində,
Qorxmayırdı o, yaradan, ölümdən,
Unudulmaz ilk döyüşlə ilk yara.

Soyqan üç yol çıxdı qızla üz-üzə,
Üzdə nə yağ, nə boyadan bər-bəzək,
Vurulmuşdu o, od saçan göy gözə,
Unudulmaz ilk döyüşlə ilk yara.

Vuruşurdu qardaşıyla yanaşı,
Buzdan idi qızın sanki göz-qaşı,
Yanaqları inam ilə allaşıb,

Unudulmaz ilk döyüşlə ilk yara.

***

Qılınc çəkib Soyqan ona söylədi:
-Gözəl qızlar evdə olar, çöldə yox.
Dedi:-Mən o gözəllərdən deyiləm,
Gözəl qızlar evdə olar, çöldə yox.

Mən Mindiyar uğrundaca yaraqlı,
Qaplan kimi, qartal kimi caynaqlı,
Döyüşlərdə basar-kəsər soraqlı,
Gözəl qızlar evdə olar, çöldə yox.

Qız çiynindən yaralandı, yıxıldı,
Qara saçlar səpələndi, dağıldı,
Bir azcana qız utandı, sıxıldı,
Gözəl qızlar evdə olar, çöldə yox.

Turq Manayı harayladı, çağırdı,
«Soyqan» deyib o qancıla bağırdı,
İlk vurduğu toppuz dağdan ağırdı,
Gözəl qızlar evdə olar, çöldə yox.

***

Tutaq batdı, qol əyildi, bel sındı,
Vurum gərək güclü ola, acıqlı,
Soyqan düşdü at ayağı altına,
Vurum gərək güclü ola, acıqlı.

Ağzındakı son sözləri qırıldı,
Son harayı tutqun göyə sovruldu,
O silkənib qanlı yerə sərildi,
Vurum gərək güclü ola, acıqlı.

Qalxdı atın yəhərinə Manayqız,
Dedi:-Bitdi qan tökməyin, a qansız,
Çinel qaldı bundan sonra Soyqansız,
Vurum gərək güclü ola, acıqlı.
Bir ay çəkdi, vuruş bitdi çökəkdə,
Çuqçu, Xançu, Muğel güldü ürəkdən,
Qan qurudu, döyüş bitdi ətəkdə,
Vurum gərək güclü ola, acıqlı.

***

İlk döyüşü bunca bitdi Manayın,
İlk addımda bərkiyənlər bərk olur.
Yanqu gəldi, Tuncay, Tuncər, Qızçiçək,
İlk addımda bərkiyənlər bərk olur.

Od-alovca bir qız idi Manayqız,
O, qardaşı Turqtay kimi amansız,
Döyüş-vuruş anlayırdı o yalnız,
İlk addımda bərkiyənlər bərk olur.

Günay dedi:-Bacı qızı, bacılı,
Səni görcək könlüm gül-gül açılır,
Mindiyarın qancılının qancılı,
İlk addımda bərkiyənlər bərk olur.

Yanqu dedi:-Manay qalsın bizimlə,
Qoruyaram kirpiyimlə, gözümlə,
Qalar qonaq bir il burda özümlə,

İlk addımda bərkiyənlər bərk olur.

***

Ancaq dinib danışmadı Manayqız,
Danışmağı sevmir güclü olanlar.
Dedilər ki, qızın dili tutulub,
Danışmağı sevmir güclü olanlar.

Uğureldə üç ay, üç gün qaldılar,
At səyirdib yeni cığır saldılar.
Neçə-neçə qonaqlıqda oldular,
Danışmağı sevmir güclü olanlar.

Turqtay dedi:-Bacı, sən də bir danış,
Deyilənə, danışana bir qarış,
Bir şey istə, sən birindən söz soruş,
Danışmağı sevmir güclü olanlar.
Ancaq Manay nə danışdı, nə dindi,
Ər ürəyi qız köksündə döyündü,
Dinməzliklə, enməzliklə öyündü,
Danışmağı sevmir güclü adamlar.

***

Nə olmuşdu görən gözəl Manaya,
Qız ürəyi tanrılarla danışır.
Danışmasa, dinməsə də bilirdi,
Qız ürəyi tanrılarla danışır.

Bir deyən də yox idi ki, bu nə iş,
Niyə qızı çəkir bunca vur-döyüş,
Bu, tanrıdan tapşırıqdır, göstəriş,
Qız ürəyi tanrılarla danışır.

Tanrılarsa anlayırdı Manayı,
Manay şahın acığıydı, harayı,
Yaranışa gəlib gizli, dolayı,
Qız ürəyi tanrılarla danışır.

Ürəyində çırpınırdı Manay şah,
Sığınmışdı təkcə doğma qardaşa,
Döyüşlərdə qancıllarla baş-başa,
Qız ürəyi tanrılarla danışır.

***

Turq dedi ki:-Burdan gedək Turelə,
Hər şey öncə ikiləşib dağılır.
Arieldə, Darvideldə beləydi,
Hər şey öncə ikiləşib dağılır.

İki eldə acıqanlıq səngimir,
Döyüş-vuruş, qırdı-qırdı təngimir,
Tanrılar dadayan demir, dur demir,
Hər şey öncə ikiləşib dağılır.

İndi də Karş Gümüşqızla üz-üzə,
Dirənmişdir el döş-döşə, söz-sözə,
Vuruşlarda çıxır hərdən qan dizə,
Hər şey öncə ikiləşib dağılır.
Onlar çapdı atlarını Turelə,
Yanlayırdı Gümüşqızı Karş hələ,
Sıtqamalar, yalvarmalar bir belə,
Hər şey öncə ikiləşib dağılır.

***

Yolda Manay geydi kişi geyimi,
Bir geyimdə bacı, qardaş tanınmaz.
Turq dedi ki:-Səni yandan güdürəm,
Bir geyimdə bacı, qardaş tanınmaz.

Tüklü, tüksüz, oxşar idi üzləri,
Bir boyada, iri idi gözləri,
Yaxından da yaxın səsi, sözləri,
Bir geyimdə bacı, qardaş tanınmaz.

Qız götürdü qardaşından «Turq» adı,
Qalxıb mindi oynaqlayan Quşatı,
Turq göz qoydu bacısına gözaltı,
Bir geyimdə bacı, qardaş tanınmaz.

Çuqçubaşı qarşıladı birinci,
Onu görcək daşdı, coşdu sevinci,
Manay idi qardaşından görümcül,
Bir geyimdə bacı, qardaş tanınmaz.

***

Bacısına Turq qıraqdan göz idi,
Dinməzlikdən doğur deyən susqunluq.
Turqu tutqun gördü bu yol çuqçular,
Dinməzlikdən doğur deyən susqunluq.

Gümüşqız da gəldi çıxdı buraya,
Dedi – birdən o, bir işə yarayar,
Bir susqunluq çəpər çəkdi araya,
Dinməzlikdən doğur deyən susqunluq.

Dedi:-Karşdır oğurlayan balamı,
Karş öldürüb mənim doğma atamı,
Karş pozandır burda hər gün aranı,
Dinməzlikdən doğur deyən susqunluq.
"Turq" dinmədi, sanki bunu bilirdi,
Ürəyində Gümüşqıza gülürdü,
Bu gözələ yazıqlığı gəlirdi,
Dinməzlikdən doğur deyən susqunluq.

***

Çuqçubaşı dedi:-Onu gəzirik,
Su çəkilib çökər yerin təkinə.
O, Hindeldə gəzir sonev yerini,
Su çəkilib çökər yerin təkinə.

Manay dedi:-Get, tap, vur, kəs, yox elə,
Çuqçubaşı dedi:-Getdik Hindelə,
Gümüşqızla gərək verək əl-ələ,
Su çəkilib çökər yerin təkinə.

Gümüşqızı Manay nədən saymadı,
Onun yersiz qılığına uymadı,
Bir də onu baş əyməyə qoymadı,
Su çəkilib çökər yerin təkinə.

-Hoydu!-deyib çuqçubaşı qıy vurdu,
Çayı, suyu, yeli, seli o yardı,
Neçə-neçə qurğuları o qırdı,
Su çəkilib çökər yerin təkinə.

***

Gümüşqızla Manay evə getdilər,
Könül küsür göylər tutqun olanda.
Bəzənmişdi-düzənmişdi Gümüşqız,
Könül küsür göylər tutqun olanda.

Qız at üstə Manayqıza yan aldı,
Dedi:-Sevdim səni, Turqum, ucaldım,
Dedi:-Sənə ilk görüşdə vuruldum,
Könül küsür göylər tutqun olanda.

-Qaraqabaq olmağına vurğunam,
Buna görə ağ gül kimi solğunam,
Buna görə göylər kimi dalğınam,
Könül küsür göylər tutqun olanda.
Kölə elə məni, böyük şah oğlu,
Döyüşlərdə olum sənə yaraqlı,
Bir ev quraq sənlə köklü, budaqlı,
Könül küsür göylər tutqun olanda.

Manay dönüb baxdı ona, dinmədi,
Evə çatdı, o, Quşatdan enmədi,
Qız yalvardı, istəyindən dönmədi,
Könül küsür göylər tutqun olanda.

***

Manay dönüb baxdı ona, dinmədi,
Bir-birini sevə bilməz iki qız,
Bilmirdi ki, bu, Manaydır, Turq deyil,
Bir-birini sevə bilməz iki qız.

Darvidelli gözəgəlim qız idi,
Tez aldanıb, düz danışan düz idi,
Belə gəlin bu ellərdə az idi,
Bir-birini sevə bilməz iki qız.

Manay dərin düşüncələr içində,
Pal-paltarı, üzü Turqtay biçimdə,
Nə sevilmək, nə də sevmək gücündə,
Bir-birini sevə bilməz iki qız.

Düşünürdü nənəsini, Tanını,
«Niyə tökdü oğul ana qanını?»,
Yaşayırdı bu ağrılı ağrını,
Bir-birini sevə bilməz iki qız.

***

Evdən çıxıb Karş sıçradı bayıra,
Bildirmədən lapdan vurmaq düz deyil,
Gümüşqızı vurdu, yıxdı torpağa,
Bildirmədən lapdan vurmaq düz deyil.

Minib ata götürüldü acıqan,
Manay ona ox tuşladı arxadan,
Qız qışqırdı, dedi:-Qancıl, dur, dayan,
Bildirmədən lapdan vurmaq düz deyil.
Karş durmadı, yay dartıldı sonacan,
Manay saydı bir, iki, üç, onacan,
Dedi:-Dayan! Yoxsa oxu atacam,
Bildirmədən lapdan vurmaq düz deyil.

Yaydan çıxdı, fışıldadı iti ox,
Gözdən itdi, üç yüz addım getdi ox,
O qancılın kürəyində bitdi ox,
Bildirmədən lapdan vurmaq düz deyil.

***

Bir ah qopdu Karşın qanlı döşündən,
Öldürəni öldür, qoyma yaşasın.
Yaralanıb Gümüşqız da ölmüşdü,
Öldürəni öldür, qoyma yaşasın.

Manay dedi:-Tanı oğlu Turqtayam,
Dibə kimi bərk çəkilmiş bir yayam,
Pisə pisəm, qolaylara qolayam,
Öldürəni öldür, qoyma yaşasın.

At çaparaq Karşı yerə yıxmışdı,
Sürütləyib kolluqlara soxmuşdu,
Ox kürəkdən batıb döşdən çıxmışdı,
Öldürəni öldür, qoyma yaşasın.

Sonevləri qazılmışdı yan-yana,
Sevgiləri bələnmişdi al qana,
Turel bütün bürünmüşdü dumana,
Öldürəni öldür, qoyma yaşasın.

***

Manay dedi:-Yerinc mənəm Turelə,
Bir işləmək, bir yaşamaq, bir ölmək,
Bizə yardım olacaqdır çuqçular,
Bir işləmək, bir yaşamaq, bir ölmək.

Tanrı mənə buyurubdur, birləşin,
Özgələrlə vuruşanda ərləşin,
Ulus-ulus, ev-ev, yurd-yurd yerləşin,
Bir işləmək, bir yaşamaq, bir ölmək.
Gözləməyin, gəlim qılınc sıyırım,
Sizi bir də bir-birizdən ayırım,
«Mən-mən»ləri qızıl qanla doyurum,
Bir işləmək, bir yaşamaq, bir ölmək.

Tanrı bizi bir yaradıb, bir olaq,
Hamınındır bu yer, bu yurd, bu oylaq,
Bir-birinə yapışıqlı ev salaq,
Bir işləmək, bir yaşamaq, bir ölmək.

***

İki yandan ağsaqqallar yığıldı,
Yasda, toyda unudulur öc, acıq,
Dedilər ki, qan-qadaya son qoyaq,
Yasda, toyda unudulur öc, acıq.

Açıqlayıb Üstüağı, Manayı,
Öyüb, öyüb Turqız-Tanı toyunu,
Oxşadılar Turqun hündür boyunu,
Yasda, toyda unudulur öc, acıq.

Kim ayrılıq salsa Turel içinə,
Boyun əysin gərək qılınc gücünə,
Qancılların qıyma iki, üçünə,
Yasda, toyda unudulur öc, acıq.

Ağsaqqallar Manayqızı Turq sanıb,
Qorxmaz, böyük Turq önündə dayanır.
Birlik alır yenə o yan, bu yanı,
Yasda, toyda unudulur öc, acıq.

***

Manayqızın səsləncləri gurladı,
Yeni başçı yeni inam gətirir,
Hamı deyir, güc birlikdə, inamda,
Yeni başçı yeni inam gətirir.

Qan-qadaya qarşı dözüm tükənir,
Turel yeni başçısına güvənir,
Hər iki el kobudluqdan çəkinir,
Yeni başçı yeni inam gətirir.
Bir ay keçir, Manay gedir Başevə,
Hər bir şeyi atasına düz deyə,
Hər bir işdə öz kökünə sən güvən,
Yeni başçı yeni inam gətirir.

Ata soyuq qarşıladı qızını,
Hərdən kəsdi balasının sözünü,
Manay dedi hər bir şeyin düzünü,
Yeni başçı yeni inam gətirir.

***

Dedi:-Qızım, özbaşına olmusan,
Öz evində boy götürə qız gərək,
Hələ tezdir sənin ərən olmağın,
Öz evində boy götürə qız gərək.

Vuruşmağı öyrən, get sən döyüşə,
Qız bildiyi işə gərək girişə,
Turq aparıb qoşub səni bu işə,
Öz evində boy götürə qız gərək.

Özbaşına yerinc oldun Turelə,
Özbaşına Çinə getdin sən hələ,
Özbaşına olmaz, qızım, qız belə,
Öz evində boy götürə qız gərək.

-Bunu səndən qabaq Soyqan deyirdi,
Ancaq bizim əlimizlə gəbərdi,
Bu, nənəmdən gələn gücdür, yetərdir,
Öz evində boy götürə qız gərək.

***

Öz qızını çox sərt gördü Tanı şah,
Qız qabarıb atasına ağ olmaz.
Nənəsinə, qardaşına güvənib,
Qız qabarıb atasına ağ olmaz.

Manay dedi:-Mən Tureldə yerincəm,
Qoyun qalım orda, qalım ölüncə,
Mən soyuğam toy-düyünə, sevincə,
Qız qabarıb atasına ağ olmaz.
-Orda qalmaq, qızım, sənə yaraşmaz,
Anan Turqız bu işinlə barışmaz,
Qız uşağı bu işlərə qarışmaz,
Qız qabarıb atasına ağ olmaz.

Bunlar kişi geyimidir, yal-yaraq,

Qardaşına oxşayırsan bu sayaq,
Çıxart bunu, Başevdə qal, bir olaq,
Qız qabarıb atasına ağ olmaz.

***

Qız baxmadı atasının sözünə,
Ana qanı unudulmaz min il də,
Anasını öldürmüşdü Tanı şah,
Ana qanı unudulmaz min il də.

Qız qapıdan saymazyana çıxsa da,
Şah qızına acıq ilə baxsa da,
Göz yaşları şahı içdən boğsa da,
Ana qanı unudulmaz min il də.

Turqız çıxdı qabağına Manayın,
Ev-eşiyi tutdu ana harayı,
Ana könlü bunca sınır, qanayır,
Ana qanı unudulmaz min il də.

Maha salıb ayrılığı bu evə,
Anasını öldürəni kim sevər,
Manay getdi, Başev qandır, qan deyə,
Ana qanı unudulmaz min il də.

***

Uşaq baxar doğma ata, anaya,
Ata, ana gərək qancıl olmasın,
Nə görübsə uşaq onu yamsılar,
Ata, ana gərək qancıl olmasın.

İlk yuvadır balalara ev, beşik,
Bu yuvadan isti alır qan, sümük,
Necə varsa elələşir kök, ilik,
Ata, ana gərək qancıl olmasın.
Yaxşı olmaq yolu öyrət uşağa,
Uşaq dönsün kök üstündə budağa,
Başa gəlməz sonra kötək, qadağa,
Ata, ana gərək qancıl olmasın.

Dağılışır kökdən qopan uşaqlar,
Kök götürmür sonra üç qat boyaqlar,
Qopmur səndən dibdən gələn qaynaqlar,
Ata, ana gərək qancıl olmasın.

***

Manayqız da öz kökündən qopmuşdu,
Kimə gərək kökdən qopan qopuqlar?
Nə dinirdi, nə gülürdü Tureldə,
Kimə gərək kökdən qopan qopuqlar?

Hərdən-birdən çıxıb yerinc olurdu,
Turqlaşanda çox-çox gülünc olurdu,
Mindiyara böyük qorunc olurdu,
Kimə gərək kökdən qopan qopuqlar?

Turq görürdü qancıllaşır bacısı,
Yuva salıb onda doğral* acısı.
Gözündəydi ürəyinin sancısı,
Kimə gərək kökdən qopan qopuqlar.

Necə etsin bacı qopsun Manaydan,
Uzaq düşsün nənəsindən, soyundan,

Yan keçməsin sevgi, sevinc payından,
Kimə gərək kökdən qopan qopuqlar?

***

Manay nənə qızı olub gedirdi,
Ad qoyanda qıza ayıq ol bir az,
Manay nənə qızı olub gedirdi,
Ad qoyanda qıza ayıq ol bir az.

Turq bunları düşünürdü, nə etsin,
Bacısının acığını kiritsin,
Onda dirlik anlayışı diriltsin,
Ad qoyanda qıza ayıq ol bir az.

Qanun

-Bacı, igid qız olmusan, tanıq qız,
Sənlə bağlı ucalmışdır adımız,
Sənsən Minel göylərində ağ ulduz,
Ad qoyanda qıza ayıq ol bir az.

Manay nənə sənlə, mənlə öyünür,
Buz ürəyi qızır, bizlə döyünür,
Ancaq bizdən hərdən-birdən yayınır,
Ad qoyanda qıza ayıq ol bir az.

***

Gərək ayrı düşməyəsən atayla,
Ayrılıqdır ölkələri dağıdan.
Manay nənə üz döndərər, inciyər,
Ayrılıqdır ölkələri dağıdan.

Manay bunca dəyişmədi ölçünü,
Unutmadı nənəsinin öcünü,
Soy-kökündən aldı yenə gücünü,
Ayrılıqdır ölkələri dağıdan.

Dedi:-Qardaş, baxma qaraqabağam,
Nə olsam da Mindiyara dayağam,
Mən də bir az el işində oyağam,
Ayrılıqdır ölkələri dağıdan.

-Gəl, biz gedək Manayyurda baş olaq,
Manay olaq, manaylaşaq, ucalaq,
Nənəmizdən döyüşlərdə güc alaq,
Ayrılıqdır ölkələri dağıdan.

***

Manay dedi:-Səsləncləriim gurlasın,
Gör-gör dədə bir üz biçib hərəyə.
Mən də belə biçilmişəm, dəyişməm,
Gör-gör dədə bir üz biçib hərəyə.

Manayyurda özün getsən yaxşıdır,
Orda Günay, Tuncər ölkəbaşıdır,
Onlar Daşqır, Asurellə qonşudur,
Gör-gör dədə bir üz biçib hərəyə.
-Mənsiz qalmaz burda min-min çuqçular,
Mənsiz olsan yerinc yerin uçular,
Bürüyəcək səni ağrı, acılar,
Gör-gör dədə bir üz biçib hərəyə.

Qız düşündü, yaraqlılar gedərsə,
Ariellə Hindel verər səs-səsə,

Gərək toplum yaratmağa tələsəm,
Gör-gör dədə bir üz biçib hərəyə.

***

Dedi:-Onda qız toplumu yığaram,
Qız istəsə yaraqlanıb ərləşər.
Döyüş-vuruş yollarını öyrənib,
Qız istəsə yaraqlanıb ərləşər.

Bacısına acıqlandı Turq, ancaq
Bacı ondan üz döndərdi, saparaq,
Turq Quşatla yola düşdü çaparaq,
Qız istəsə yaraqlanıb ərləşər.

Çuqçubaşı getdi Turqun dalınca,
Yay çiynində, qılınc əldə yalınca,
İndi Manay nəyə, kimə sığnacaq,
Qız istəsə yaraqlanıb ərləşər.

Manay bunca öz içindən sarsıldı,
Könlü sındı, bircə tükdən asıldı,
O tək qaldı, öz-özünə qısıldı,
Qız istəsə yaraqlanıb ərləşər.

***

Manay kişi geyimini soyundu,
Geyim çöldən dəyişdirir adamı.
Gördülər ki, o, Turq deyil, Manaydır,
Geyim çöldən dəyişdirir adamı.

Görüşünə gəldi qızlar, qadınlar,
Gözlərində isti, soyuq yatımlar,
Yağdı yerincev yerinə addımlar,
Geyim çöldən dəyişdirir adamı.
Manay gördü bunu, sanki dil açdı,
İki yana bir ürəklə yanaşdı,
Güclü, sağlam biləklərdən yapışdı,
Geyim çöldən dəyişdirir adamı.

Dedi:-Qızlar, gəlin toplum yaradaq,
Ox atmağı biz öyrənək arada,
Yaraqlanaq, duraq biz də sırada,
Geyim çöldən dəyişdirir adamı.

***

Doğma idi Manyurd Tuncər, Günaya,
Doğma içrə doğmalığa nə var ki.
Özgə içrə doğmalaşmaq çətindir,
Doğma içrə doğmalığa nə var ki.

Özgə içrə Tuncay doğma doğmadan,
Get, doğma ol sən özünü boğmadan,
Varsa səndə bu doğmalıq toxmadan,
Doğma içrə doğmalığa nə var ki.

Ancaq Günay təklənmişdi nədənsə,
Verməyirdi Manyurd ilə səs-səsə,
Düz gəlmirdi Tuncər ilə nə isə,
Doğma içrə doğmalığa nə var ki.

Düşünürdü, Duzdağ, Duzgöl, Uğurel,
Mindiyara bicləmədə tuş deyil,

Ötüb bura gəlməyindən on beş il,
Doğma içrə doğmalığa nə var ki.

***

Niyə Tanı boşaltmışdı ipləri,
Birlik yoxsa ölkə bütün dağılar.
Buraxmışdı özbaşına elləri,
Birlik yoxsa ölkə bütün dağılar.

Minel yaman səpələnib, yayılıb,
Dayanışda böyük ölkə sayılır,
Bunun üçün min-min başlar qoyulub,
Birlik yoxsa ölkə bütün dağılar.
Buzboğazdan Körfəzəcən gələn yox,
Elin, yolun say-soyunu bilən yox,
Ayrılığın göz yaşını silən yox,
Birlik yoxsa ölkə bütün dağılar.

Manyurd qancıl qabağında udqunur,
Varmı bu sərt bicləmənin bir sonu,
Qorxuludur özbaşına oyunu,
Birlik yoxsa ölkə bütün dağılar.

***

Tez-tez gəlib vurur, yaxır Asurel,
Selin-suyun qabağında güc gərək.
Çapqınçılar qorxudurdu Tuncəri,
Selin-suyun qabağında güc gərək.

Gərək burda yeni toplum yarana,
Toplum yeni yaraqlara sarına,
Son qoyula çapqınçıya, harına,
Selin-suyun qabağında güc gərək.

Turqtay deyib çuqçularla gələrəm,
Asur şahı yer üzündən silərəm,
Asureli iki yerə bölərəm,
Selin-suyun qabağında güc gərək.

Günay tez-tez düşünürdü beləcə,
Tuncər ilə danışırdı hər gecə,
Kim uzadar yardım əli yerincə,
Selin-suyun qabağında güc gərək.

***

Toplum çəkdi Asur şahı-şah Kamac,
Dadlı olur özgə evin yapması.
Dedi:-Sizi mən yenidən çaparam,
Dadlı olur özgə evin yapması.

Kamac dedi:-Manayyurda girərik,
Atımızı evə, bağa sürərik,
Nəyiniz var qırıb, yolub, dərərik,
Dadlı olur özgə evin yapması.
Asurelli sevir boya, bər-bəzək,
Göydaş verin, evimizi bəzəyək,
Bizə vergi verəsiniz siz gərək ,
Dadlı olur özgə evin yapması.

Tuncər gəldi, onlar soyuq görüşdü,
Nə istəyib kim olduğun soruşdu,
Ona baxdı, bir azcana irişdi,

Dadlı olur özgə evin yapması.

***

Dedi:-Üç yol Manayyurdu çapmısan,
Dördüncü yol tanrı küsər, qınayar.
Sizə göydaş, buğda, arpa vermişik,
Dördüncü yol tanrı küsər, qınayar.

Təzə salıb Manayyurdu seçmişik,
Biz buraya on ildir ki, köçmüşük,
Beş ildir ki, arpa, taxıl biçmişik,
Dördüncü yol tanrı küsər, qınayar.

-Tanrı mənəm, Tuncər, indi bölgədə,
Çapacağam nə var sizin ölkədə,
Qurtarammaz qılıncımdan kölgə də,
Dördüncü yol tanrı küsər, qınayar.

-Çox qılıncdan danışırsan sən, Kamac,
Qarnın doymaz, gözün doymaz, yalavac,
Mən vermərəm sənə bir də bir komac,
Dördüncü yol tanrı küsər, qınayar.

***

-Onda gərək biz yox, qılınc danışsın,
Söz bitibsə, ölçü iti qılıncdır.
-Qoturları ancaq qılınc susdurar,
Söz bitibsə, ölçü iti qılıncdır.

Deyişdilər, söyüşdülər o ki var,
Ağızlaşdı göydə parlaq qılınclar,
Endi qılınc, vurum aldı dalbadal,
Söz bitibsə, ölçü iti qılıncdır.
Qopuq-qopuq oldu dəmir tutaqlar,
Qalaqlandı sınıq-salxaq yaraqlar,
Yaralıydı əllər, qollar, yanaqlar,
Söz bitibsə, ölçü iti qılıncdır.

Tuncər bir də yaralandı alnından,
Üzü-gözü suvarıldı qanında,
Bir də gördü Quşat keçdi yanından,
Söz bitibsə, ölçü iti qılıncdır.

***

Turqtay idi, yoxlayırdı Tuncəri,
Arxa duysan gücün üç qat artacaq,
Qızıl qanın şırımları üzündə,
Arxa duysan gücün üç qat artacaq.

Kamac gördü qan aparır Tuncəri,
Qan sıçrayıb, qızardıbdır hər yeri,
Bir də vursam aşar-dedi,-gəbərər,
Arxa duysan gücün üç qat artacaq.

Birdən boynu, çiyni, köksü yarıldı,
Vurmaq üçün qalxmış qolu qırıldı,
Sol əliylə öz atına sarıldı,
Arxa duysan gücün üç qat artacaq.

Tuncər idi vuran onu iki yol,
Acıqanla yuxuda da ayıq ol,
Yoxdur qolun, Kamac, silkən, bir ayıl,

Arxa duysan gücün üç qat artacaq.

***

Son qılıncla üzülmüşdü, yerdəydi,
Çox duyulmaz iti qılınc ağrısı,
Göz bərələ, ağız açıq qalmışdı,
Çox duyulmaz iti qılınc ağrısı.

Kamac aşıb at üstündən yıxıldı,
Qol bu yana, qıç o yana dağıldı.
O, qan qusdu, xırıldadı, boğuldu,
Çox duyulmaz iti qılınc ağrısı.
Gümüşatdan düşdü Tuncər, dayandı,
Xırıldayan Kamac şaha boylandı,
Silkələnib şah bir daha oyandı,
Çox duyulmaz iti qılınc ağrısı.

Dedi:-Tuncər, döyüş qalsın sonraya,
Çağır gəlsin mənimkilər haraya,
Oğlum gəlsin, oğlum gəlsin buraya,
Çox duyulmaz iti qılınc ağrısı.

***

Yerdən qopub gəldi birdən bir atlı,
Təkbətəkə özgə ərən girməsin.
Turqtay onun qabağına yüyürdü,
Təkbətəkə özgə ərən girməsin.

Kamac oğlu İnad idi bu atlı,
Əl qılınclı, ağız odlu, göz odlu,
Dağ köküslü, iri qollu, qanadlı,
Təkbətəkə özgə ərən girməsin.

İnad dedi:-Mələdərəm səni də,
Başlayaram bu döyüşü yenidən,
Dağıdaram bu ölkəni təkcə mən,
Təkbətəkə özgə ərən girməsin.

Turq bizucu atdı ona qıraqdan,
Bir vurumla İnad düşdü ayaqdan,
«Sağol» səsi eşidildi uzaqdan,
Təkbətəkə özgə ərən girməsin.

***

«Sağol» səsi çuqçuların səsiydi,
Döyüşlərdə sevinc səsi az olur.
Bir gövdəni bir vurumla aşırdı,
Döyüşlərdə sevinc səsi az olur.

Lap yerində Turq özünü yetirdi,
Bir bizucla bir döyüşü bitirdi,
İnad çaşdı, durumunu itirdi,
Döyüşlərdə sevinc səsi az olur.
Manayyurdun toplumları yürüdü,
Asurları Mindiyardan kürüdü,
Turq İnadı aldı, yıxdı, sürüdü,
Döyüşlərdə sevinc səsi az olur.

Çapıldılar çapmaq üçün gələnlər,
Özlərini çox-çox güclü bilənlər,
Ayaq altda qaldı düşüb ölənlər,
Döyüşlərdə sevinc səsi az olur.

***

Turq Tuncərin yarasını bağladı,
Bir yaradan ölür hərdən güclü də.
Günay gəldi, qucaqladı onları,
Bir yaradan ölür hərdən güclü də.

Çapqınçılar pərən-pərən oldular,
Kamac öldü, onlar başsız qaldılar.
Qız-gəlinlər saçlarını yoldular,
Bir yaradan ölür hərdən güclü də.

Çuqçubaşı qaçanları izlədi,
Asureli döydü, söydü, pislədi.
Qoşadəniz ağzındaca gözlədi,
Bir yaradan ölür hərdən güclü də.

Necə gəldi, necə döndü geriyə,
Bənzəmirdi yaralılar diriyə,
Çətin bir də bu ölkəyə yeriyər,
Bir yaradan ölür hərdən güclü də.

***

Manayyurdun el-ulusu sevindi,
Hər ölkədə dinclik bolluq gətirir.
Başlamışdı yaz əkini, yaz şumu,
Hər ölkədə dinclik bolluq gətirir.

İpək, qızıl, sarıdəmir, aldəmir,
Alıb gəldi, satıb getdi birbəbir,
Acıqandan ta yox idi səs-səmir,
Hər ölkədə dinclik bolluq gətirir.
Gəlib çatdı Tanı şahın yazısı:
«-Doğma Günay, ay anamın bacısı,
Qalır hələ o günlərin acısı,
Hər ölkədə dinclik bolluq gətirir.

Nə yaxşı ki, çapqınçını qovdunuz,
O qan dolu gözlərini ovdunuz,
Qancılları bir də qansız qoydunuz,
Hər ölkədə dinclik bolluq gətirir.

***

Günay yazdı: «Bacım oğlu Tanı şah,
Təklənməkdən pis şey yoxdur, bunu bil,
Tuncər başdan yaralanıb, ağırdı,
Təklənməkdən pis şey yoxdur, bunu bil.

Biz üç yandan təklənmişik büsbütün,
Təklik bizi yeyib, çapıb, lap ütüb,
Nəyə gərək örtük üstdən bir örtük,
Təklənməkdən pis şey yoxdur, bunu bil.

Bir əl gərək dolandıra Mineli,
Yerinc ölkə saxlamağı nə bilir,
Birliyi var, birgəliyi bir əlin,
Təklənməkdən pis şey yoxdur, bunu bil.

Yerincləri başçı etmək gərəkdir,
Hərə eldə şahdır, bu, nə deməkdir,
Ölkə çoxdur, şahlar isə tək-təkdir,
Təklənməkdən pis şey yoxdur, bunu bil.»

***

Tanı şaha gəlib çatdı bu yazı,
Toxunmayır doğma sözü doğmaya.
Bu, toxundu Tanı şaha nədənsə,
Toxunmayır doğma sözü doğmaya.

Tanı dedi:-Günay qorxur Manyurdda,
Daşqırlardan, balasqlardan, Asurdan,
Tuncər niyə uzaq düşüb Bozqurddan,
Toxunmayır doğma sözü doğmaya.
Bu söz çatdı bir ay sonra Tuncərə,
Çıxdı o da seyrək orman yerlərə,
Buralarda balalayan qurd görə,
Toxunmayır doğma sözü doğmaya.

Qurd yox idi, köçmüşdülər buradan,
Bir qorxulu səs gurladı arada,
«-Bu səs nədir, bu səs gəlir haradan»,
Toxunmayır doğma sözü doğmaya.

***

O axtardı, araşdırdı ormanı,
Qorxu tökür ürəklərə sıx orman.
Gördü düzdə adam udan ilanı,
Qorxu tökür ürəklərə sıx orman.

Qıvrılırdı, açılırdı, yatırdı,
Dörd bir yanda nə var idi, udurdu,
Daş-qayaya hərdən buynuz atırdı,
Qorxu tökür ürəklərə sıx orman.

Tuncər dedi:-Bu ududbdur qurdları,
Buna görə şişib iri ordları,
Yoxdur qurdun balaları, qartları,
Qorxu tökür ürəklərə sıx orman.

O, dik üstdən qurdsayağı uladı,
Heyvərəyə xırda bir daş tulladı,
İplə üstdən quru ağac salladı,
Qorxu tökür ürəklərə sıx orman.

***

İlan girdi qayalığa qorxudan,
Qorxmayandan qorxan daha qorxulu.
İtdi-batdı qayalıqda heyvərə,
Qorxmayandan qorxan daha qorxulu.

İki qaya arasında ovuqluq,
Ovuqluqda gizlənmişdi o yoluq,
O yatırdı burda bir ay biryolluq,
Qorxmayandan qorxan daha qorxulu.
Tuncər onu çıxarmaqçın ormana,
Ox yağdırdı, bizuc atdı ilana,
İlan çıxıb od püskürdü hər yana,
Qorxmayandan qorxan daha qorxulu.

Tuncər onu daşa tutdu, daşladı,
O çıxaraq sürünməyə başladı,
Tuncər oxu ona sarı tuşladı,
Qorxmayandan qorxan daha qorxulu.

***

Heyvərədən ürküb çapdı Gümüşat,
Qancılına güc verirsən qaçanda.
İlan atın arxasınca süründü,
Qancılına güc verirsən qaçanda.

Bir ox atdı Tuncər atın tərkindən,
Bu ox dəydi heyvərənin əngindən,
Bir inilti gəldi yerin təkindən,
Qancılına güc verirsən qaçanda.

İkinci ox dəydi onun gözünə,
İlan sordu, çəkdi atı özünə,
Qurdlar gəldi ulartının səsinə,
Qancılına güc verirsən qaçanda.

İlan çaşdı, yuvasını itirdi,
Sonuncu ox onu yola gətirdi,
Qılınc, bizuc hər bir işi bitirdi,
Qancılına güc verirsən qaçanda.

***

İlan yüz yol qıvrılaraq açıldı,
İlan başdan, quş ürəkdən keçinir.
Qurdlar ölən ilandan da qorxurdu,
İlan başdan, quş ürəkdən keçinir.

Bir ox dəydi heyvərənin alnına,
Caynaqları sındı, düşdü yanına,
Qılınc ilə o boyandı qanına,
İlan başdan, quş ürəkdən keçinir.
Qıvrılması, çırpınması tükəndi,
Tuncər gedib bir ağaca söykəndi,
Bu nə qandır, nəriltidir, küylənti,
İlan başdan, quş ürəkdən keçinir.

Qurdlar gəlib dırmaşırlar Tuncərə,
Ulartılar qorxu yayır hər yerə,
Səs yayılır dağa, döşə, bərəyə,
İlan başdan, quş ürəkdən keçinir.

***

Meşələrin səsləncləri ulartı,
Qurd tələsir ulartıya, at yemə,
Qurdlar gəldi səs-küyünə Tuncərin,
Qurd tələsir ulartıya, at yemə.

Nə dedisə, hansı dildə, yatımda,
Qurdlar çökdü ayaqları altına,
Ürkürdülər onun Gümüşatından,
Qurd tələsir ulartıya, at yemə.

Dedi:- Mənim böyütdüyüm balalar,
Harda qaldı o talalar, yaylalar,
Nədir arıq ombanızda yaralar,
Qurd tələsir ulartıya, at yemə.

Hanı Bozqurd, hanı qorxmaz Əyridiş,
Bu heyvərə deyən sizi yeyirmiş,
Niyə belə ürkəksiniz, bu nə iş,
Qurd tələsir ulartıya, at yemə.

***

Ağqurd Alpan mənim orman atamdır,
Üz anadan, güc atadan gələndir.
Harda öldü, necə oldu, bilmədim,
Üz anadan, güc atadan gələndir.

Bundan sonra heç bir şeydən ürkməyin,
Qorxmaz olun, bir də aclıq çəkməyin,
Qancıl didin, doğma qarnı sökməyin,
Üz anadan, güc atadan gələndir.
Birdən qurdlar qaçdı yaxın oylağa,
Çəkib onu apardılar uzağa,
Yetişdilər özgə yerə, torpağa,
Üz anadan, güc atadan gələndir.

Neçə günə bir sonevə çatdılar,
Qazıb, eşib ordan çuxa dartdılar,
Uladılar, birdən on-on artdılar,
Üz anadan, güc atadan gələndir.

Tuncər ata çuxasını tanıdı,
Çuxa bütün yanmış idi, qan idi,
Bura Körfəz, Qoşaboğaz yanıydı,
Üz anadan, güc atadan gələndir.

***

-Ağqurd Alpan, orman atam,-dedi o,
Oğul, səni böyüdəni unutma.
Kimdir səni qan içində yandıran?
Oğul, səni böyüdəni unutma.

Qurdlar onu iyləm-iyləm tapıblar,
Qancıl ölüm caynağından qapıblar,
Burda ona bu sonevi yapıblar,
Oğul, səni böyüdəni unutma.

Tuncər dedi:-Ata, səni unutmam,
Yersiz qalar, yurdsuz qalar unutqan,
And içirəm sənə, ata, bu axşam,
Oğul, səni böyüdəni unutma.

Qanın sənin gərək yerdə qalmasın,
Qurdlarımız gərək bizsiz olmasın,
İçlərinə dev ayrılıq salmasın,
Oğul, səni böyüdəni unutma.

***

Yola düşdü burdan Tuncər Manyurda,
Hər dilliyə öz yuvası gözəldir.
Qumsal çöllər, qum səpələr, isti gün,
Hər dilliyə öz yuvası gözəldir.
Buralarda əkin, biçin, orman yox,
Bulud yoxdur, yağış yoxdur, duman yox,
Od günəşdən qorunmağa aman yox,
Hər dilliyə öz yuvası gözəldir.

Gümüşatın dili, ağzı qupquru,
Susuzluqla qumlar onu lap yorub,
Qumsallığın yoxdur aydın bir yolu,
Hər dilliyə öz yuvası gözəldir.

Sapsarıdır odla qumun yağımı,

Addımbaşı su bilirlər ilğımı,
Arayırlar odlu yerdən çıxımı,
Hər dilliyə öz yuvası gözəldir.

***

Tuncər deyir:-Gərək gecə yol gedək,
Gecə olcaq qurd-quş çıxır yuvadan.
Dev görürlər girib quma dizəcən,
Gecə olcaq qurd-quş çıxır yuvadan.

Kəsir yolu qaranlıqda, qumluqda,
Şişib onun ağzı-burnu suluqdan,
Durub qaya altındakı ovuqda,
Gecə olcaq qurd-quş çıxır yuvadan.

Dağdev dedi:-Görüb, Tuncər, bil, hamı,
Öldürübdür Bacar atan atamı,
Gəldim yeyim qurdu, atı, adamı,
Gecə olcaq qurd-quş çıxır yuvadan.

Dev somurdu, səpələdi quşları,
Buynuzlayıb yırtdı, diddi qurdları,
Şişdi yellə, yelkənləşdi ordları,
Gecə olcaq qurd-quş çıxır yuvadan.

***

Tuncər qoydu oxatana qoşa ox,
Tanrı sevmir yolkəsəni, qopuğu,
Çəkdi, çəkdi, o, mənzilə tuşladı,
Tanrı sevmir yolkəsəni, qopuğu.
Dedi:-çox da şeşələnmə, ay qoduq,
Tikər yelkən ordlarını iti ox,
Dönər sənin sonevinə daş ovuq,
Tanrı sevmir yolkəsəni, qopuğu.

Dev əl atdı, ordlarını qorudu,
Oxlar əli orda tikdi, sarıdı,
Ox yaxdıqca əl-qol, döş-baş qurudu,
Tanrı sevmir yolkəsəni, qopuğu.

Əllər qaldı ordlarına tikili,
Boynu, beli, əli, qolu bükülü,
Döş-başına birdən yüz ox əkilir,
Tanrı sevmir yolkəsəni, qopuğu.

***

Sonuncu ox dəydi devin gözünə,
Ox qılıncdan qorxuludur yerində.
Sıçrayaraq qurdlar ona sarmaşdı,
Ox qılıncdan qorxuludur yerində.

Yerə gəldi dağ görkəmli o cəmdək,
Oldu oxla ələk-vələk o köpək,
Dil dolaşıq, ayaq titrək, baş titrək,
Ox qılıncdan qorxuludur yerində.

Qurdlar onu diddi, sökdü, dağıtdı,
Qılınc onu, toppuz onu bağırtdı,
Bunca Tuncər dağı-daşı qorxutdu,
Ox qılıncdan qorxuludur yerində.

Yol getdilər, qumsal qaldı arxada,

Sınadılar Gümüşatı yorğada,
Ötüb keçdi Tuncər qandan, qadadan,
Ox qılıncdan qorxuludur yerində.

***

Ağüzeli yorğun yorğa keçdilər,
Gözəl olur doğmalıqlar, doğmalar.
Birel, yerbir iyi gəldi çöllərdən,
Gözəl olur doğmalıqlar, doğmalar.
Qurdlar getdi, qaldı təkcə Tayqulaq,
Gövdə hündür, göz alışqan, diş parlaq,
Tuncər üçün bu qurd iti bir yaraq,
Gözəl olur doğmalıqlar, doğmalar.

Bozqurd kimi dil anlayır, söz bilir,
Düzənlikdə iz tanıyır, iz bilir,
Hər bir yerin öz yerini düz bilir,
Gözəl olur doğmalıqlar, doğmalar.

Çatmışdılar Manyurd elə, gecəydi,
Çapqınçılar gəlirdilər, neçəydi,
Tayqulaqsa yiyəsindən öncəydi,
Gözəl olur doğmalıqlar, doğmalar.

***

Ev çaparaq qaçırdılar Manyurddan,
Oğurluqdur pis işlərdən ən pisi.
Tuncər dedi:-Ay qardaşlar, kimsiniz,
Oğurluqdur pis işlərdən ən pisi.

Biri durub ağız əydi, danışdı,
Əl aparıb qılıncından yapışdı,
Dedi:-Gəldik Manyurd ilə qapışdıq,
Oğurluqdur pis işlərdən ən pisi.

Tuncər dedi: Ağız əymə, bel əy sən,
Mən Tuncərəm, Bacarsoyun elindən,
Nə çapmısan burax yerə əlindən,
Oğurluqdur pis işlərdən ən pisi.

Tanıyıram, hər bir işə qarışan,
Manyurd elə gələn qopmaz yapışqan,
Bu çöllərdə ancaq qılınc danışar,
Oğurluqdur pis işlərdən ən pisi.

***

Qılınc çəkdi oğrubaşı Tuncərə,
Dildən, əldən ötkəm olar pisdikli,
Aldı onu neçə oğru araya,
Dildən, əldən ötkəm olar pisdikli.
Şahə qalxdı birdən-birə Gümüşat,
Quyruğunu çəkirdilər darthadart,
Biri dedi:-Quyruğunu kəs, qopart,
Dildən, əldən ötkəm olar pisdikli.

Qalxdı göyə güclü qolu Tuncərin,
Dedi:-Alın payınızı, gəbərin,
Qılınc kəsdi, tökdü yerə üç əri,
Dildən, əldən ötkəm olar pisdikli.

Biri qaçdı geri,-Manyurd sarıya,
Vurumlardan baş-döşünü qoruya,

Qaça-qaça and içirdi tanrıya,
Dildən, əldən ötkəm olar pisdikli.

***

Daldan ona çatıb tutdu Tayqulaq,
Qorxaq çətin qurd ağzından qurtara.
Yıxıb yerə gəmirtdədi boynunu,
Qorxaq çətin qurd ağzından qurtara.

O qışqırdı, haray təpdi, bu diddi,
Dişlərini boş qarnına yeritdi,
Çox çəkmədi, o, oğrunu kiritdi,
Qurd ağzından qorxaq çətin qurtara.

Beşincinin başı düşdü yanına,
İti qılınc çəkilmişdi boynuna,
Bələnmişdi öz-özünün qanına,
Qurd ağzından qorxaq çətin qurtara.

Tuncər dedi:-Sonunuza varam mən,
Qan qusacaq özgə vara göz dikən,
Kimin ola bu oğurluq, var, görən,
Qurd ağzından qorxaq çətin qurtara.

***

Dağıldılar, qırıldılar oğrular,
Oğurluqlar gizli qalmır, açılır.
Tökülmüşdü yerə qızıl qab-qacaq,
Oğurluqlar gizli qalmır, açılır.
Neçə bağlı, neçə dolu dağarcıq,
Üç səyəzi, ağız-buğuz-qabarıq,
Onlar bunu görən hardan qoparıb,
Oğurluqlar gizli qalmır, açılır.

Tuncər varı sürütdədi, gətirdi,
Manayyurda, yiyəsinə yetirdi,
Bununla da öz yolunu bitirdi,
Oğurluqlar gizli qalmır, açılır.

El sevindi, yerincini oxşadı,
Dedilər ki, yerinc deyil, Aşadı,
El deyərək o işlədi, yaşadı,
Oğurluqlar gizli qalmır, açılır.

***

Gəldi, gördü Günay küsüb, inciyib,
Arxa, güvənc gücdür qadın, kişiyə.
Dedi:-Getdin, mənə niyə demədin?!
Arxa, güvənc gücdür qadın, kişiyə.

Turqtay getdi, çuqçular da onunla,
Görüşmədi o, doğmayla, yaxınla,
Belə olmaz mənim kimi qadınla,
Arxa, güvənc gücdür qadın, kişiyə.

Tuncər dedi:-Qurdlarımı soruşdum,
Sonra böyük əjdahayla vuruşdum,
Bir də ata sonevinə qovuşdum,
Arxa, güvənc gücdür qadın, kişiyə.

Sonra Dağdev, sonra oğru qardaşlar,
Vuruşmalar, çəkişmələr, tutaşlar,

Sonra yüz-yüz qurd tanışlar, soydaşlar,
Arxa, güvənc gücdür qadın, kişiyə.

***

Acıqana qarşı qurdlar arxadır,
Boş-boşuna əldən vermə arxanı.
Mən onları tapdım, necə sevindim,
Boş-boşuna əldən vermə arxanı.
-Məni görüb sevinmədin, nədəndir?
Görünür ki, yanar sevgi ötəndir,
Gül yerinə tikanlıqlar bitəndir,
Boş-boşuna əldən vermə arxanı.

-Yox, gözəlim, könlüm, sevgim yerində,
Heç üstündə sən incimə ərindən,
Gəl düşünək Manyurd eli dərindən,
Boş-boşuna əldən vermə arxanı.

-Çuqçuları saxlasaydıq burada,
Onlar ilə biz bir yerdə, sırada,
Yerdə Tanı, göydə isə yaradan,
Boş-boşuna əldən vermə arxanı.

***

-Toplum yığaq, cumaq qancıl üstünə,
Sən çapasan gərək səni çapanı,
Asurelə yürüş edək iki yol,
Sən çapasan gərək səni çapanı.

Düz deyildir bizi üzən şah yolu,
Böyük birlik, böyük toplum olmalı,
Başevdən də böyük yardım almalı,
Sən çapasan gərək səni çapanı.

Biz yığırıq, onlar gəlib soyurlar,
Qışda, yazda bizə boş ev qoyurlar,
Nə çəkinir, nə utanıb doyurlar,
Sən çapasan gərək səni çapanı.

-Onda gərək yardım alaq Cumərdən,
Asurelli salıb bizi dəyərdən,
Düzdür, çapaq onları da biz hərdən,
Sən çapasan gərək səni çapanı.

***

Toplum yığdı Tuncər, Günay o gündən,
El işində güvən ancaq özünə.
İki ilə qırx min toplum yığıldı,
El işində güvən ancaq özünə.
Turq biləndə yazdı: «-Çuqçu sizindir,
Tuncər, Günay, Tuncay iki gözümdür,
Nə güc, yaraq varsa bütün bizimdir,
El işində güvən ancaq özünə.

Asurelə çıxaq ancaq İlamdan,
Deyək şahdan biz küsmüşük, yalandan,
Səs yayılsın biz ölkəyə dolanda,
El işində güvən ancaq özünə.»

Tuncər yazdı: «Gəl, topluma ərən ol,
Mindiyarda sən qabağı görən ol,
Acıqanın başı üstə duran ol,

El işində güvən ancaq özünə».

***

Yeni toplum qarlı qışda tərpəndi,
İsti yerin qışı gözəl, yatımlı.
Yol getdilər onlar beş gün, beş gecə,
İsti yerin qışı gözəl, yatımlı.

Öncül takım yalı-yolu yoxladı,
Turqla gizli bağlantılar saxladı,
Gəlib onlar Firatçayda toxdadı,
İsti yerin qışı gözəl, yatımlı.

Öncül takım yolu açdı yürüşlə,
Yorğun toplum yüz kənd aldı döyüşlə,
Gəldi döyüş dalısınca söyüşlər,
İsti yerin qışı gözəl, yatımlı.

Soraq gedib çatdı böyük Xarrata,
«Tuncər Turqla girib elə, elata...».
Haray çəkib Xarrat mindi yel ata,
İsti yerin qışı gözəl, yatımlı.

***

Turqla Tuncər qarşıladı Xarratı,
Nə etmisən bir gün çıxar qarşına.
Mindiyarı çox çapmışdı atası,
Nə etmisən bir gün çıxar qarşına.
Evyolunda onlar çıxdı üz-üzə,
Acıq, ağrı, söyüş döndü dənizə,
Yer yox idi bu döyüşdə boş sözə,
Nə etmisən bir gün çıxar qarşına.

Turq bizucu vurdu şahın gözünə,
Göz pırtladı, qan töküldü üzünə,
Turq söylədi, şah gəlincə özünə:
–Nə etmisən bir gün çıxar qarşına.

Dedi:-Atan bizim yurdu çox çapdı,
Ağzımızdan çörək qapdı, su qapdı,
Ölümünü Manyurdeldə o tapdı,
Nə etmisən bir gün çıxar qarşına.

***

Çapdığınız varı geri qaytarın,
Nə etsən də acı öcü unutma.
On il bizdə yüz-yüz sürü otarıb,
Nə etsən də acı öcü unutma.

Sən Kamacın oğlu Xarrat yerincsən,
Uduzubsan bu döyüşü, gülünc sən,
Asureldə boş-boşuna öyüncsən,
Nə etsən də acı öcü unutma.

Taygöz Xarrat qılıncına əl atdı,
Bizuc dəydi, dar köksünü qanatdı,
Bu, Xarratın vurumunu yubatdı,
Nə etsən də acı öcü unutma.

Bir qılıncla başı, boynu yarıldı,
At üstündə dağ dözümü qırıldı,
Heydən düşdü, əl-ayağı buruldu,

Nə etsən də acı öcü unutma.

***

Dedi:-Ey Turq, məni burax, öldürmə,
Bağışlamaq yaraşıqdır igidə,
Nə çapılıb qaytararam Manyurda,
Bağışlamaq yaraşıqdır igidə.
-Bağışlayıb sizi çox-çox bizim el,
Bağışlamaq daha doğru, düz deyil,
Toplumunla gəl, qarşımda sən əyil,
Bağışlamaq yaraşıqdır igidə.

Xarrat qalxdı, baş əyəndə yıxıldı,
O, ölümdən qorxub birdən bağırdı,
Bunu görüb toplumları dağıldı,
Bağışlamaq yaraşıqdır igidə.

Turq dedi ki, ancaq Başev çapılsın,
Manyurdelin varı ordan tapılsın,
Başçıları kölə olub satılsın,
Bağışlamaq yaraşıqdır igidə.

***

Çuqçularla Manayyurdun toplumu,
Çapıb yaxmaq igidlərə yaraşmaz.
Biri çapdı, biri qaldı qıraqda,
Çapıb yaxmaq igidlərə yaraşmaz.

Çuqçubaşı saxlancları alınca,
Tuncər, Turqtay güc verdilər qılınca,
Qırx min toplum keçdi ölkə boyunca,
Çapıb yaxmaq igidlərə yaraşmaz.

Qorxu düşdü, el-obanı dağıtdı,
Turq Başevdə qırdı, qanlar axıtdı,
Çapqınçını vurdu, yaxdı, bağırtdı,
Çapıb yaxmaq igidlərə yaraşmaz.

Toplum on gün Asureli dolaşdı,
Çox dikbaşlar öz qanına bulaşdı,
Turqla Tuncər toplumları calaşdı,
Çapıb yıxmaq igidlərə yaraşmaz.

***

Yükləndilər varla sıra dəvələr,
At çəkəni sıra dəvə qaytarar.
Zınqırovlar gecə-gündüz səsləndi,
At çəkəni sıra dəvə qaytarar.
Turqla Tuncər, qurdla çuqçu qayıtdı,
Bu döyüşlər çox şahları ayıltdı,
Mindiyarı ölkə-ölkə böyütdü,
At çəkəni sıra dəvə qaytarar.

Qabaqdaydı Tayqulağı Tuncərin,
İyləyirdi, arayırdı hər yeri,
Açıq, gizli qoruyurdu ərləri,
At çəkəni sıra dəvə qaytarar.

Qoşaboğaz, Qoşadəniz, Yastıdağ,
Yollar isə yüzmin, yüzmin min ayaq,
İsti qarla yun patava, yun dolaq,
At çəkəni sıra dəvə qaytarar.

***

Qarşıladı Tuncay, Yanqu onları,
Yola baxmaz könlü birgə vuranlar,
Gözəl Yanqu yollar çapıb gəlmişdi,
Yola baxmaz könlü birgə vuranlar.

O, at üstdə bitən qızılgül idi,
Arxasınca gələn Manyurdel idi,
Tuncay sanki buğa idi, kəl idi,
Yola baxmaz könlü birgə vuranlar.

Sağalsa da Turqun sevgi yarası,
Parıldadı gözlərinin qarası,
Sancdı onun ürəyinin ortası,
Yola baxmaz könlü birgə vuranlar.

Sevgi var ki, görür ancaq döş-başı,
Sevgi də var ərənliyin dib daşı,
Keçib gedir, tanrılığa qarışır,
Yola baxmaz könlü birgə vuranlar.

***

«Niyə gəldin, bir də məni öldürdün,
Küsüb gedir adam kimi sevgi də.
Ulu olur yeniyetmə sevgilər,
Küsüb gedir adam kimi sevgi də.
Dilə tutdu məni böyük tanrılar,
Getməyibdir üzümdəki sarılar,
Hər görəndə könlüm sapı qırılar,
Küsüb gedir adam kimi sevgi də.

Ürəyi daş, dili ipək gözəllər,
Ürəkləri cırmaqlayıb üzərlər,
Bu yaraya mən kimilər dözərlər,
Küsüb gedir adam kimi sevgi də.

Yavaş yeri, yavaş danış, gözəlim,
Sevgim məndə, mən sevgimdə qoy ölüm,
Hara gedim, göz yaşımı mən silim,
Küsüb gedir adam kimi sevgi də».

***

Silkələnib çıxdı qışdan Manyurdel,
Qış yaz ilə yerlərini dəyişir.
Yer üzündə dəyişməyən sevgidir,
Qış yaz ilə yerlərini dəyişir.

Yola salır qışı solğun qargülü,
Gül ayağı altındaca qış ölür,
Salxımlanan buz ucundan tökülür,
Qış yaz ilə yerlərini dəyişir.

Hara qoydun getdin, bizi, qarlı qış,
Tük örpədir səndən qalan bu yağış,
Nə gözəlsən, tükənməzsən, yaranış,
Qış yaz ilə yerlərini dəyişir.

Durnaların qaqqıltısı, harayı,
Sevən sınıq ürəkləri sarıyır,
Qış qar altda yaşıl yorğan sırıyır,
Qış yaz ilə yerlərini dəyişir.

***

Atlı gəldi Tanı şahın yanından,
Başev, şahlıq elə gözdür, qulaqdır,
Lapdan yürüş çoxlarını sarsıdıb,
Başev, şahlıq elə gözdür, qulaqdır.
Turq yazını alıb özü oxudu:
«Sizin işlər məni yaman qorxudur,
Bu saymazlıq mənə qarşı qurqudur,
Başev, şahlıq elə gözdür, qulaqdır.

Mənə qarşı yönəltdiniz Xarratı,
Qan-qadadır onun çölü, iç qatı,
Özbaşına bicləmələr pas atıb,
Başev, şahlıq elə gözdür, qulaqdır.

Yola düşüb Turq Başevə qayıtsın,
Az dalaşıb ora, bura daş atsın,
Gəlsin burda yeni toplum yaratsın,
Başev, şahlıq elə gözdür, qulaqdır.

***

Tanı şaham, Manay şahın oğluyam,
Başev bütün yerinclərdən ucadır,
Mindiyarı bölünməyə qoymaram,
Başev bütün yerinclərdən ucadır.

Tanı şaham, söyləyirəm son kərə,
Yerinc Günay, yerinc əri Tuncərə,
Özbaşına siz getməyin hər yerə,
Başev bütün yerinclərdən ucadır.

Başıpozuq yaşasaz da on ildir,
Bunlar hələ yerinc olmaq deyildir,
Yetər, ölkə dörd bir yandan döyüldü,
Başev bütün yerinclərdən ucadır.

Yetər, mənə vergiləri göndərin,
Üzünüzü Başev yönə döndərin,
Mənə baxsın yurdun önər, öndəri,
Başev bütün yerinclərdən ucadır.»

***

«Mən gedirəm Əkbitənə yanqulu,
Bir də bizim görüşümüz olmasın.
İncə belin, gülər üzün mənlədir,
Bir də bizim görüşümüz olmasın.
Öz sevgimi güclə çəkdim ölümə,
Qız adını gətirmədim dilimə,
Sonev qurdum ürəyimdə gülümə,
Bir də bizim görüşümüz olmasın.

Mərci boyda qaraltı var üzündə,
Aparıram bal dilini özümdə,
İpə çəkdim ilk sevgimi dözümdə,
Bir də bizim görüşümüz olmasın.

Tanrım, məni Tuncayımdan soyutma,
Sınıq sevgim, bir də mənə qayıtma,
Qurd ürəyim, məni məni ayıltma,
Bir də bizim görüşümüz olmasın.

***

Sağ ol, gülüm, qoy sevgimiz gül olsun,
İki gülün arasında ot olma,
Tanrı mənə pıçıldayır hər axşam,
İki gülün arasında ot olma.

Bu il yağış mənim gözüm yaşıdır,
Ötən durna uçan sevgi quşudur,
Çay daşları mənə danlaq daşıdır,
İki gülün arasında ot olma.

Sağ ol, mənim qan qardaşım, Tuncayım,
Yüz alaya üstün olan alayım,
Bundan sonra bir az uzaq olayım,
İki gülün arasında ot olma.

Sağ ol, sevgim, ta ağlama içimdə,
Uç, get ötən sevgilərin içində,
Bir sevgiyəm yüz ayrılıq gücündə,
İki gülün arasında ot olma.»

Duzdağ söyləncisi

Tanı dedi Turqa belə Başevdə,
Öyüd eşit, özbaşına olma sən.
Get, Tureldə öz bacına arxa dur,
Öyüd eşit, özbaşına olma sən.

Hindel şahı öc almağa yığışır,
Ordan bura yenə qaçqın axışır,
İki eldə yenə ara qarışıb,
Öyüd eşit, özbaşına olma sən.

İstəyirsən get Duzdağda otur sən,
Çörəkçinin hay-küyünü yatırt sən,
O ulaşan onçuları itir sən,
Öyüd eşit, özbaşına olma sən.

-Ata, bacım qaraqabaq, konazdır,
Yovuşmazdır, yekəbaşdır, qanmazdır.
Çox işlərdə düşüncəsi çox azdır,
Öyüd eşit, özbaşına olma sən.

Mən gedərəm Nuhçatana, Duzdağa,
Tanrılaşan əski durunc*-dayağa,
Çörəkçini gətirərəm ocağa,
Öyüd eşit, özbaşına olma sən.

***

-Mən bilirəm, sən uzağı görənsən,
Şah uzağı görsün gərək indidən.
Sən gələcək Mindiyarın şahısan,
Şah uzağı görsün gərək indidən.

Bu ölkənin uca şahı olarsan,
Hindel, Çinel, Asureli alarsan,
Dayanışda Turq adınla qalarsan,

Şah uzağı görsün gərək indidən.

Qala

-Ata, şahlıq səndən, məndən küsəri,
Mən gəzəri düşəriyəm, köçəri,
Mənəm Turər babamızın bənzəri,
Şah uzağı görsün gərək indidən.

-Nədir ağrın, niyə belə düşkünsən,
Sən ki, gücdə hamımızdan üstünsən.
Boş-boş sözdən, düşüncədən çəkin sən,
Şah uzağı görsün gərək indidən.

Get Duzdağa, ağrılardan uzaqlaş,
Tay-tuşunla, Tuncayınla ayaqlaş,
Qarçiçəyi, yar-yoldaşı soraqlaş,
Şah uzağı görməlidir indidən.

***

Duzdağ idi, Arpaçaydı, Nuhçatan,
Çörəyin də incə dadı duzdadır.
Turq çevrildi burda çörək duzuna,
Çörəyin də incə dadı duzdadır.

Çörəkçilər yola saldı Cuməri,
Yaraşdırıb bəzədilər hər yeri,
Adı uca, ağır idi öndərin,
Çörəyin də incə dadı duzdadır.

Dodaq büzdü çuqçulara onçular,
İynə oldu ürəklərdə sancılar,
Kələzləndi sağçılara solçular,
Çörəyin də incə dadı duzdadır.

Çəkişirdi çörəkçilər Tanıyla,
Hər göstəriş qurtarırdı qanıyla,
Gəzir çuqçu öz Turqunun yanıyca,
Çörəyin də incə dadı duzdadır.

Çörəkçiydi başraqçısı, yançısı,
Qorxmayırdı Turqdan pisi, yaxşısı,
Yerlidəndi züytutanı, sayçısı*,
Çörəyin də incə dadı duzdadır.

Mühasib

***

Turq söylədi var-yox burda çörəkdir,
Tanrılaşır az olanda duz, çörək,
Gəlir hamı çörək üçün, duz üçün,
Tanrılaşır az olanda duz, çörək.

Turq söylədi, sataq duzu, buğdanı,
Yanlaşdıraq qışda qada-balanı,
Bələkləyək qayğı ilə doğmanı,
Tanrılaşır az olanda duz, çörək.

Artıq nə var verək dəmir qoşquya,
Döyüşlərdə gərək olan qurquya,
Vuruşlarla biz son qoyaq durğuya,
Tanrılaşır az olanda duz, çörək.

Çörəkçilər döş gərdilər bu işə,
Dedilər ki, el yaraqsız ötüşər,
Qoşqudansa sürü çıxsın örüşə,
Tanrılaşır az olanda duz, çörək.

Çəkişmələr çəkdi, getdi iki il,
Soraq gəldi yürüşdədir Asurel,
Daşqırlar da içlərində az deyil,
Tanrılaşır az olanda duz, çörək.

***

Asurel şah Kamac oğlu Amandı,
Gənc yaşlılar dəlisovluq edərlər.
Dördtəkərli qoşquları çox idi,
Gənc yaşlılar dəlisovluq edərlər.

At ürkürdü dördtəkərli görəndə,
Şahə qalxıb fırlanırdı yerində,
O qorxurdu döyüşlərə girəndə,
Gənc yaşlılar dəlisovluq edərlər.

Gənc Amanda dəlisovluq var idi,
Üzü uzun, tüklü alnı dar idi,
Gözlərində baxış deyil, qor idi,
Gənc yaşlılar dəlisovluq edərlər.
Ölkəsində beş il qıtlıq olmuşdu,
El-obası unsuz, otsuz qalmışdı,
Çoxlarının üzü-gözü solmuşdu,
Gənc yaşlılar dəlisovluq edərlər.

Aman cumub dörd yanını çapırdı,
Boğazlardan kal bağırtı qopurdu,
Bunla onlar yemək-içmək tapırdı,
Gənc yaşlılar dəlisovluq edərlər.

***

Aman eli çapa-çapa gəlirdi,
Adam gərək qayıtmağa üz qoya.
Mindiyara, Minelliyə acıqlı,
Adam gərək qayıtmağa üz qoya.

Tutaq, toppuz vuruşanda guppultu,
Atdan aşan ölülərdən tappıltı,
Üzə dəyən sillə-sillə şappıltı,
Adam gərək qayıtmağa üz qoya.

Tüstü, alov boğuşurdu zəmidə,
Yaxmaq qurdu havalıyda, yellidə,
Nə umursan cumhacumda dəlidən,
Adam gərək qayıtmağa üz qoya.

Asurelə sürülürdü sürülər,
Çapıb gedir düzü əli əyrilər,
Aclığından yarımölü dirilər,
Adam gərək qayıtmağa üz qoya.

Ağüzeli çapdı, çatdı Duzdağa,
Turq «dur» dedi çağrılmamış qonağa,
Bir çağrışla Minel durdu ayağa,
Adam gərək qayıtmağa yer qoya.

***

Aman şahın qabağına çıxdı Turq,
Dəli gərək şəlitlənə, iplənə,
Selə qarşı duruş çox-çox çətindir,
Dəli gərək şəlitlənə, iplənə.
Qabaqları üç gədikdə tutuldu,
Ağüzelli döyüşlərə atıldı,
Aman şahın qalın qaşı çatıldı,
Dəli gərək şəlitlənə, iplənə.

-Kimdir-dedi-qabağıma çıxanlar,
Turq söylədi:-Ağüzelli qaplanlar,
Bir də qaplan bəsləyənlər, doğanlar,
Dəli gərək şəlitlənə, iplənə.

-Asurelli həm yürüşdür, həm seldir,
Onla vuruş sənin işin deyildir,
-Mən bilirəm, siz acsınız beş ildir,
Dəli gərək şəlitlənə, iplənə.

-Biz gəlmişik sizi çapaq, aparaq,
Tək bizdədir dördtəkərli qoşqular,
-Sən oğrusan, çapqınçısan, yapalaq,
Dəli gərək şəlitlənə, iplənə.

***

İki yandan yaraqlılar baxırdı,
Döyüşlərdə sözün ayrı gücü var.
Söyüşürdü, deyişirdi igidlər,
Döyüşlərdə sözün ayrı gücü var.

Bu döyüşə qılınc, bizuc qarışdı,
Göydə qılınc, yerdə gözlər alışdı,
İki toplum bir-birinə daraşdı,
Döyüşlərdə sözün ayrı gücü var.

İki gəncin vuruşmağı acıqlı,
Əllər al qan şırımıyla sarıqlı,
Bir səs qopdu, qırıq-qırıq, yanıqlı,
Döyüşlərdə sözün özgə gücü var.

Aman idi, sallanmışdı sağ qolu,
Gözlə ağız, dəmir döşlük qan dolu,
Ağ atının gümüş yalı al olub,
Döyüşlərdə sözün özgə gücü var.

Turq Amanı sağ çiynindən vurmuşdu,
İti qılınc onu iki yarmışdı,
Ağ atının belini də qırmışdı,
Döyüşlərdə sözün özgə gücü var.

***

Qan almışdı Turqun qara gözünü,
Dəlisayaq olur ölən, öldürən.
Quşat yerdə tapdaladı Amanı,
Dəlisayaq olur ölən, öldürən.

Gendən yüz min adam buna baxırdı,
Bağırtılar yerdən göyə qalxırdı,
Çapqınçılar büzüşərək qorxurdu,
Dəlisayaq olur ölən, öldürən.

Asureldən toplum gəlib yetişdi,

İki toplum bir-birilə didişdi,
Yaraqsızlar boş əl ilə tutuşdu,
Dəlisayaq olur ölən, öldürən.

Turq bağırdı, yer titrədi qorxudan,
Dedi:-Neçə toplum gəlir arxadan,
Ey Minelli, vuruş, çarpış qorxmadan,
Dəlisayaq olur ölən, öldürən.

-Minellilər,-dedi-qırın, dağıdın,
Acıqanın al qanını axıdın,
Nərildəyin, yeri-göyü qorxudun,
Dəlisayaq olur ölən, öldürən.

***

Üçüncü gün Sərtüz gəldi tələsik:
-Böyük tanrı qırğınların qancılı,
Sərtüz dedi;-Əl saxlayın, qırmayın!
Böyük tanrı qırğınların qancılı.

Dedi:-Dayan! Basılanı qırma sən,
Sən dopdolu, basılansa boş gödən,
Öldürməyin qancılı da heç nədən,
Böyük tanrı qırğınların qancılı.
Aldanıblar, oğurluğa gəliblər,
Özlərini yenməz, dönməz biliblər,
Bunlar elə diri ikən ölüblər,
Böyük tanrı qırğınların qancılı.

Yazıqları aldadıbdır Əhriman,
Pis dirilmir «son sorğu»da yenidən,
Mən tanrıyam, söyləyirəm sizə mən,
Böyük tanrı qırğınların qancılı.

Öldürməyin aldanmışı, görməzi,
Danışdırın dili tutuq dinməzi,
Qoy tanısın od-ocağı, Hörmüzü,
Böyük tanrı qırğınların qancılı.

***

Əl qaldırıb Sərtüz girdi araya,
Vuruşlarda iki yanı arala.
Yer üzündən dilli, dilsiz yox olar,
Vuruşlarda iki yanı arala.

Yerə çökdü Asurelin toplumu,
Qurtarmışdı onsuz onun durumu,
Qırılmışdı ondan səkkiz yarımı,
Vuruşlarda iki yanı arala.

Sərtüz tutdu əllərini qabağa,
Dedi:- Qırmaq bundan sonra qadağa,
Hər söz üçün əl atmayın yarağa,
Vuruşlarda iki yanı arala.

Mən tanrıdan yer üzünə elçiyəm,
Qan-qadaya, boğuntuya ölçüyəm,
Belə getsə tanrı bizdən inciyər,
Vuruşlarda iki yanı arala.

Basılanlar qayıtsınlar geriyə,
Dönməsinlər Mindiyardan bəriyə,

Mindiyarda yer yox ölü, diriyə,
Vuruşlarda iki yanı arala.

***

Köçdü getdi Asurelin toplumu,
Hər ölkənin ağsaqqalı var olsun.
Onlar öpdü Sərtüzərin əlindən,
Hər ölkənin ağsaqqalı var olsun.

Sərtüz dedi:-Qalan çöksün diz üstə,
Yaralılar uzanmışdı üzüstə,
Sərtüzləşdi onlar bircə söz üstə,
Hər ölkənin ağsaqqalı var olsun.

Dedilər ki, biz qurtardıq ölümdən,
Yapışırıq Mindiyarın elindən,
Bağışlayın bizi tanrı dilində,
Hər ölkənin ağsaqqalı var olsun.

Dedilər ki, bizi Minel sayınız,
Yeydir bizə inanışız, soyunuz,
Bizi burda yaşamağa qoyunuz,
Hər ölkənin ağsaqqalı var olsun.

Turq dedi ki:-İstəsəniz, qalın siz,
Mindiyarda Minel adı alın siz,
Bu ölkənin doğmacası olun siz,
Hər ölkənin ağsaqqalı var olsun.

***

Manayyurdda yer verildi onlara,
Dəyiş sən də yurdun, yerin dəyişsə.
Ev tikdilər, yurd saldılar, qaldılar,
Dəyiş sən də yurdun, yerin dəyişsə.

Yer əkdilər, Mindiyarı öydülər,
Çapqınçını, soyğunçunu söydülər,
Sərtüz sayaq uzun ətək geydilər,
Dəyiş sən də yurdun, yerin dəyişsə.

Tanı bildi, düşüncəsi pozuldu,
Turqa yeni bir göndərmə yazıldı,
Üzərinə gümüş basma basıldı,
Dəyiş sən də yurdun, yerin dəyişsə.
Turqla Sərtüz Əkbitənə yollandı,
Bu yazıdan dodaqları sallandı,
Əlli ata bağış, pay-puş çullandı,
Dəyiş sən də yurdun, yerin dəyişsə.

Yarı yolda Sərtüz durdu lapbadan,
İncik könlü Tanı şahdan qopmada,
-Mən dönürəm, Turqtay, -dedi-çapmadan,
Dəyiş sən də yurdun, yerin dəyişsə.

***

Dedi:-Atan danlayacaq məni də,
Tutarlıdır danlaq az-az olanda.
Mən doğrusu bu danlağa dözmərəm,
Tutarlıdır danlaq az-az olanda.

Mən dönürəm Nuhçatana, Duzdağa,

Gedib dönəm Ağüzeldə qonağa,
Dönəmmərəm mən Başevdə alağa,
Tutarlıdır danlaq az-az olanda.

Asurlular gəlib bizə sığınıb,
Onlar kimdir, yazıq-yuzuq yığını,
Bunla bitir çapqınçılar axını,
Tutarlıdır danlaq az-az olanda.

Harda olsam mən qırğına qarşıyam,
Yaranandan yaradana qonşuyam,
Göydə Sərtüz, yerdə tanrıbaşıyam,
Tutarlıdır danlaq az-az olanda.

Hara getsəm qayıdaram özümə,
Yarayaram mən onuna, yüzünə,
Əyriləri yönəldərəm düzünə,
Tutarlıdır danlaq az-az olanda.

***

-Mən gedirəm, Turqtay, məni bağışla,
Oğul, dil tap hər bir işdə atanla.
Silməliyəm yer üzünü qadadan,
Oğul, dil tap hər bir işdə atanla.
Məni anla, mən göylərdən gəlməyəm,
Mən gedirəm tanrı yolda ölməyə.
Mən gedirəm bir də bura gəlməyə,
Oğul, dil tap hər bir işdə atanla.

Atan bir az öz içindən sınıqdır,
Ana yandan tamarzıdır, yanıqdır.
O, ürəkdən, düşüncədən soyuqdur,
Oğul, dil tap hər bir işdə atanla.

Mən bilirəm şahlıq sənə çatacaq,
Mindiyarın yeri-yurdu artacaq,
Minel səni başraq kimi tutacaq,
Oğul, dil tap hər bir işdə atanla.

Sənin güclü acıqanın Yamandır,
Qalanlarsa ötəridir, yalandır,
Bundan sonra Turq mənim də balamdır,
Oğul, dil tap hər bir işdə atanla.

***

Turq söylədi:-Sən də mənim atam ol,
Ucalt, səni ucalanlar ucaldar.
Mənə böyük gələcəkdən soraq var,
Ucalt, səni ucalanlar ucaldar.

Mən şah olsam, gəl, Başevdə otur sən,
Arxa ollam, dayaq ollam sənə mən.
Mən tutaram yazı yazan əlindən,
Ucalt, səni ucalanlar ucaldar.

Sərtüz dedi:-Yazılarım səpikdir,
Onlar el-el, elat-elat itikdir,
Harda sümük varsa onlar ilikdir,
Ucalt, səni ucalanlar ucaldar.

Mən bilirəm, sən sevirsən birini,
Ondan artıq istəyirsən ərini,

Düz seçibsən bu sevgidə yerini,
Ucalt, səni ucalanlar ucaldar.

Unudular ilk sevgini unudan,
Sənə bir qız göndərəcək yaradan,
O olmayıb hələ ancaq anadan,
Ucalt, səni ucalanlar ucaldar.

***

O qayıtdı, öz yolunu düz getdi,
Yol birdirsə, tuşlanc* saysız saydadır.
Şah oğluna acıqlandı, təpindi,
Yol birdirsə, tuşlanc saysız saydadır.

Tanı dedi:-Ana torpaq uludur,
Torpaqsızlar, kim olsa da, ölüdür,
O, qan ilə, kəsi ilə doludur,
Yol birdirsə, tuşlanc saysız saydadır.

Qancılına yer verirsən nə adla,
Oynayırsan uşaq kimi sən odla,
Yüz qan vardır hər çiçəkdə, hər otda,
Yol birdirsə, tuşlanc saysız saydadır.

Sərtüz bizi acıqanla bir tutur,
Yurd sözünü ürəyindən o atıb,
Buna görə tanrı onu yaradıb,
Yol birdirsə, tuşlanc saysız saydadır.

Torpaq verdik Arielə, nə oldu,
Minellilər öz yurdundan qovuldu,
Nə qədər qan yerdə göyə sovruldu,
Yol birdirsə, tuşlanc saysız saydadır.

***

-Ta yığışıl, şah olursan Minelə,
Bir qarıc da olsa torpaq uludur.
Get, geri al o yerləri Asurdan,
Bir qarıc da olsa torpaq uludur.

Sən birləşdir Ağüzeli, Duzdağı,
Mindiyara qoyma burnu sallağı,
Sevindirsin hər gün bizi sorağın,
Bir qarıc da olsa torpaq uludur.

**** Hədəf***

Turqtay dedi:-Ata, məni bağışla,
Doğru sözü eşit, saxla qulaqda,
Yandılılar hər gün nəsə uduzur,
Doğru sözü eşit, saxla qulaqda.

Mənim könlüm bir azcana sınıqdır,
Vara, yerə, bər-bəzəyə soyuqdur,
Eviminsə qapıları açıqdır,
Doğru sözü eşit, saxla qulaqda.

İndən belə qancıl ollam özgəyə,
Qudurqan yox, bir qızırqan ölkəyə,
Mən dönərəm ot axtaran təkəyə,
Doğru sözü eşit, saxla qulaqda.

***

-Nəyə görə belə sınıq olubsan,
Heyi olmaz sınıq düşən ürəyin.

Kim sındırıb mənim dağdöş balamı,
Heyi olmaz sınıq düşən ürəyin.

-Mənim könlüm uşaqlıqdan belədir,
Göz çəkimim evə deyil, çölədir,
Tanrı mənə yaylığını yellədir,
Heyi olmaz sınıq düşən ürəyin.

Bunu deyib o kövrəldi, tutuldu,
Üz soyudu, qara qaşlar çatıldı,
Unudulmuş sevgisinə qatıldı,
Heyi olmaz sınıq düşən ürəyin.

Ata onun qucaqladı boynunu,
Ana açdı balasına qoynunu,
Qızlar gəldi, çalğı, döş-baş oyunu,
Heyi olmaz sınıq düşən ürəyin.

Söz söylədi, oynaqladı təlxəklər,
Don altında titrək bellər, göbəklər,
Qalxdı, endi ipək donlar, ətəklər,
Heyi olmaz sınıq düşən ürəyin.

***

Turqız dedi:-Oğlum deyən sevibdir,
Ancaq sevən belə solur, tutulur.
Adam salın, qoy öyrənsin bu işi,
Ancaq sevən belə solur, tutulur.

Çox izləyib Turqu hər gün güddülər,
Hara getdi, arxasınca getdilər,
Ancaq onlar izdə, düzdə itdilər,
Ancaq sevən belə solur, tutulur.

Turqız dedi:-Balam sevir, gizlədir,
Özü Turqu qapı-qapı izlədi,
Güdükçülər saldı, soraq gözlədi,
Ancaq sevən belə solur, tutulur.

Dedi:-Tanrım, sən əltut ol balama,
Qoyma onun könlü yana, bulana,
Bu dolanış sevgi üstdə dolanar,
Ancaq sevən belə solur, tutulur.

Tanrım, mənə bu sevgini tanıtdır,
Ya da onu gənc oğluma unutdur,
Ya da onu sevgisində ovutdur,
Ancaq sevən belə solur, tutulur.

***

Ancaq Turqu ovunduran olmadı,
Sınıqlıqdan törənmişdir soyuqluq,
Turq soyudu evə, ata, anaya,
Sınıqlıqdan törənmişdir soyuqluq.

Nə əyləncə, nə ov, nə də qız, gəlin,
Turq arxada qoydu bu boz illəri,
Danışdırdı bulaqları, gülləri,
Sınıqlıqdan törənmişdir soyuqluq.

Çox qızları göstərdilər, olmadı,
Çox gözəllər gördü, saya salmadı,

Nə verdilər, gətirdilər, almadı,
Sınıqlıqdan törənmişdir soyuqluq.
Baş qaldırdı yenə Yanqu diləyi,
Qazılırdı, üzülürdü ürəyi,
Sevgi, inam hər kişinin dirəyi,
Sınıqlıqdan törənmişdir soyuqluq.

Səsləyirdi bu sevgini ağrılar,
Pisləyirdi bu sevgini tanrılar,
Gözləyirdi yol gözləyən ayrılar,
Sınıqlıqdan törənmişdir soyuqluq.

***

Gördülər ki, Turq əzilir, büzülür,
Kişi gərək dəymə-düşər olmasın.
Qız, qadında olur hərdən əzilmək,
Kişi gərək dəymə-düşər olmasın.

Sevgi oddur, o yandırır ürəyi,
O püskürür, hərdən-birdən kökrəyir,
Sevgi saymır yaşı, qışı, küləyi,
Kişi gərək dəymə-düşər olmasın.

Yanqu bunu bilməsə də, duyuqdu;
Ərdən suvay hər kişiyə soyuqdu,
Bircə ona öz körpəsi yovuqdu,
Kişi gərək dəymə-düşər olmasın.

Tanrılar da düşünürdü bu yöndə,
«Necə açaq bu sevgini düyündən,»
«Bu sevgini bilsin Yanqu-gəlin də»,
Kişi gərək dəymə-düşər olmasın.

Az-çox Yanqu bu sevgini duymuşdu,
Bunu ancaq elə-belə saymışdı,
Daha sevmək, sevilməkdən doymuşdu,
Kişi gərək dəymə-düşər olmasın.

***

Turqtay döndü Nuhçatana, Duzdağa,
Ağrıyana gör-gör toxdaq kəsilir,
Yaz gələndə mamırlanır daş-qaya,
Ağrıyana gör-gör toxdaq kəsilir.
Turq ovlaqda, oylaqlarda dolandı,
Zirvələrdən Çuqçuelə boylandı,
Bulaqların göz yaşları bulandı,
Ağrıyana gör-gör toxdaq kəsilir.

Yaxınları yerə örtük sərdilər,
Ona içki, cüyür əti verdilər,
Ancaq onu yenə tutqun gördülər,
Ağrıyana gör-gör toxdaq kəsilir.

Bu nə işdir, niyə Turqtay sevinmir,
Gənc ürəyi heç nə ilə döyünmür,
Nə ocaqda, nə yataqda isinmir,
Ağrıyana gör-gör toxdaq kəsilir.

Hərdən-birdən zirvələrə qalxır o,
Görünməyən uzaqlara baxır o,
Gözü dolur, öz-özünü boğur o,

Ağrıyana gör-gör toxdaq kəsilir.

***

Atlı gəldi, yazı verdi Turqtaya,
Yıxılana, boğulana əl uzat.
Bu yazıda ata Turqa deyirdi:
Yıxılana, boğulana əl uzat.

Soyqan gəlib tapdalayıb, Çuqçunu,
Tutuqlayıb Tuncay ilə Yanqunu,
Deyib tapın Mindiyarın Turqunu,
Yıxılana, boğulana əl uzat.

Uğureldən götür böyük Bacarı,
Onun vardır uca-uca uçarı,
Qov Çuqçuya, Uğurelə çaparı,
Yıxılana, boğulana əl uzat.

Mən də gəlsəm Turqız qalar yerində,
O, igiddir öz oğlundan, ərindən,
Çat oraya gələn ayın birində,
Yıxılana, boğulana əl uzat.

Son qoy, oğlum, o çinelli Soyqana,
Deyiblər ki, öc öcədir, qan qana,
Vur, yıx, dağıt, çap atını hər yana,
Yıxılana, boğulana əl uzat.

Minel-Çinel söyləncі

Uğurelə çatdı Turqtay gecəykən,
Belə gündə daldan gələn bərk gələr,
Yanıb gülə çevrilmişdi Urumçi,
Belə gündə daldan gələn bərk gələr.

Nə Bacar var, nə Qarçiçək, nə Tuncər,
Qalanlar da burdan köçüb gedirlər,
Üzlər-gözlər sapsarıdır, boztəhər,
Belə gündə daldan gələn bərk gələr.

Bacar itib, İtiat da onunla,
Ayrı düşüb o, sevdiyi qadınla,
Bacarmayıb Bacar böyük yanğınla,
Belə gündə daldan gələn bərk gələr.

Qızçiçək də bu yanğına qalanıb,
Odla onun tanrılığı alınıb,
Ağlar-ağlar yer altına yollanıb,
Belə gündə daldan gələn bərk gələr.

Turq toplumu meşəlikdə saxladı,
Yal-yarağı, yer-yığışı yoxladı,
Qoşatiyə qılıncını bağladı,
Belə gündə daldan gələn bərk gələr.

***

Bir səs gəldi, ürkdü atlar, adamlar,
Ağır gündə hər səs, hər söz dayaqdır,
Bu, deyəsən Qızçiçəyin səsiydi,
Ağır gündə hər səs, hər söz dayaqdır.

Səs gəlirdi meşələrin təkindən,
Ağacları laxladırdı kökündən,
O gəzirdi dağda, daşda, əkində,
Ağır gündə hər səs, hər söz dayaqdır.

«Mən yanğında yandım, bütün kül oldum,
Getdim, bir də yer altında ayıldım,
Tanrı kimi öz yerimə qoyuldum,
Ağır gündə hər səs, hər söz dayaqdır.

Sən bağışla məni, böyük Bacarım,
Qoyub getdim doğma böyük diyarı,
Tanrı sevgim, itirilmiş taparım,
Ağır gündə bir səs, bir söz dayaqdır.

Məni alıb qapdı yanğın tanrısı,
Yoxa çıxdı məndə sevgi ağrısı,
Öldü məndə o adamlıq qayğısı,
Ağır gündə bir səs, bir söz dayaqdır.

***

Verdim sənə Qarçiçəyi, Tuncəri,
Çox ağırdır ana olmaq kişiyə.
Üstəlik də Tuncay ilə Yanqunu,
Çox ağırdır ana olmaq kişiyə.

Qızçiçəyəm, yandım, getdim, yol oldum,
Yer üzündə gəzən isti yel oldum,
Bir qız idim, indi dönüb dul oldum,
Çox ağırdır ana olmaq kişiyə.

Qızçiçəyəm, oda gücüm çatmadı,
Tanrılığım heç əlimdən tutmadı,
Od güclüydü, sözüm oda çatmadı,
Çox ağırdır ana olmaq kişiyə.

İnanıram Gücəroğlu Bacara,
Bir də gəlib məni burdan aparar,
Onda sonsuz dincliyimi taparam,
Çox ağırdır ana olmaq kişiyə.

Qızçiçəyəm, öz sevgimdə yanmışam,
Tanrı olub odu tanrı sanmışam,
Mən sevgini hələ indi qanmışam,
Çox ağırdır ana olmaq kişiyə.

***

Turq Quşatın yüyənini buraxdı,
Yiyə olsa at alova atılar.
Dedi, gərək od vurana od vuram,
Yiyə olsa at alova atılar.

Dedi:-Quşat, məni çatdır yanğına,
Yana-yana mən son qoyum qırğına,
Məni çatdır Soyqan adlı azğına,
Yiyə olsa at alova atılar.

At təpildi tüstülərə, odlara,
Yol göstərdi yürüşlənən atlara.
Turq «qalx» dedi «əltut» deyən yurdlara,
Yiyə olsa at alova atılar.

Tək-tük çıxdı qabağına çinelli,
Turq onları iki böldü birəlli,
Dedi:-Haçan şəhər olub bu küllük,
Yiyə olsa at alova atılar.

Çox az idi Uğureldə acıqan,
Hara, hara qoyub gedib bu Soyqan,
Deyin görüm, haradadır o cırtdan,
Yiyə olsa at alova atılar.

***

Dedilər ki, oturubdur Çuqçuda,
Qan tökənin gözlərini qan alar,
O, Çuqçunu, Çinçayı da yandırıb,
Qan tökənin gözlərini qan alar.

Tutuqlayıb Yanqu ilə Tuncayı,
Onun qanlı gözlərindən sən yayın,
O, döyüşdə bir qaplandır, bir ayı,
Qan tökənin gözlərini qan alar.
Turq baxmadı, üç gecə at səyirtdi,
Acıqanı yolda, yalda bəyirtdi,
Toplumunu qırdı, yardı, seyrəltdi,
Qan tökənin gözlərini qan alar.

Quşat dedi, dayanmaram, çaparam,
O yekəpər acıqanı taparam,
Qoymaram ki, Tuncaygili apara,
Qan tökənin gözlərini qan alar.

Turqtay dedi:-Çap irəli, Quşatım,
At belinə al ipəkdən çul atım,
Samanına bişmiş quru bal qatım,
Qan tökənin gözlərini qan alar.

***

-Çap, Quşatım, gedib onu tapım mən,
Sevgi gözə görünməyən tanrıdır.
Odur məni vuruşlara səsləyən,
Sevgi gözə görünməyən tanrıdır.

Ona görə könlüm düşüb boşluğa,
Çapdım səni tikanlığa, daşlığa.
Biz çevrildik uçarlığa, quşluğa,
Sevgi gözə görünməyən tanrıdır.

Çatdır məni, lap düşsən də ayaqdan,
Bircə görüm o gözəli qıraqdan,
Baxışla da su qaparsan bulaqdan,
Sevgi gözə görünməyən tanrıdır.

Quşat çapır, bitir yolun yarısı,
Köpüklənib ağzı, döşü, sağrısı,
Baxır göydən Turqa sevgi tanrısı,
Sevgi gözə görünməyən tanrıdır.

Uzaqlardan yanan evlər görünür,
Tüstü, alov burularaq sürünür,
Toplum gəlib baş qapıya dirənir,
Sevgi gözə görünməyən tanrıdır.

***

Soyqan Turqla baş qapıda üzləşir,
Şimşək çaxır, göy gurlayır elə bil,
Turq toplumu yorğun-arğın düşübdür,
Şimşək çaxır, göy gurlayır elə bil.

O dayansa çətin bir də tərpənə,
Açan güldən çətin qalxar kəpənək,
O durmadan gərək yurda təpilə,
Şimşək çaxır, göy gurlayır elə bil.

Turq durmadan Soyqan üstə yüyürür,
Qılıncını boğazına dirəyir,
Toplum toplum üzərinə yeriyir,
Şimşək çaxır, göy gurlayır elə bil.

Vuruş gedir od, alovun içində,
Enir, qalxır qılınc şimşək biçimdə,
Turq vuruşur dəli qaplan gücündə,
Şimşək çaxır, göy gurlayır elə bil.

Soyqan çaşır, bir az gedir geriyə,
Bağırdıqca Turq yeriyə-yeriyə,
Az qalır ki, bulud göydə əriyə,
Şimşək çaxır, göy gurlayır elə bil.

***

Boğazlayır Turq Soyqanı lapbadan,
Gəncin gücü tükənməzdir yaşlıdan.
Deyir:-Qırıb çatacağam mən səni,
Gəncin gücü tükənməzdir yaşlıdan.

Deyir:-Daha qurtarmazsan əlimdən,
Dincliyini tapacaqsan ölümdə,
Son mahnını söylə Çinel dilində,
Gəncin gücü tükənməzdir yaşlıdan.

Dəli Soyqan vuruşsa da çaşqındır,
Elə bil ki, yuxuludur, yorğundur,
Deyir:-Durun, burda böyük qırğındır,
Gəncin gücü tükənməzdir yaşlıdan.
Acıq alır, öc götürür minelli,
Çinellini qırır, qovur min əlli,
Dəli Soyqan bükülübdür, bu, bəlli,
Gəncin gücü tükənməzdir yaşlıdan.

Soyqan Turqun qılıncına dözməyir,
Deyir:-Durun, bağrımızı üzməyin,
Buna dədəm Vayqan belə dözməyib,
Gəncin gücü tükənməzdir yaşlıdan.

***

Turq bağırır:-Yerini de Yanqunun!
Eli hərdən satın alır bir gözəl.
-Tuncay harda, Yanqu harda saxlanır,
Eli hərdən satın alır bir gözəl.

Soyqan deyir:-Bir dağ vardır dənizdə,
Yırtıcılar gəzir orda hər üzdə,
Çatmaz ora getmək üçün güc sizdə,
Eli hərdən satın alır bir gözəl.

Yerə yıxır Turq o dəli ərəni,
Qılınc bir də boğazına dirənir,
Turq bağırır, deyir:-Söylə yerini,
Eli hərdən satın alır bir gözəl.

Qılınc qalxır, o söyləyir enəndə,
Deyir:-Onlar Başevdədir dünəndən,
Saxlanılır yaxşı tutuq günündə,
Eli hərdən satın alır bir gözəl.

Qan itirib Soyqan bir də yıxılır,
Toplumları orda, burda dağılır,
Çuqçu eli gəlib bura yığılır,
Eli hərdən satın alır bir gözəl.

***

Sansi gəlir, qucağında bir uşaq,
İlk sevgidən qalan bircə uşaqdır.
Turqa dedi:-Bu, Yanqunun qızıdır,
İlk sevgidən qalan bircə uşaqdır.
Turq uşağı alır, öpür, qaytarır,
Sansi deyir:-Soyqan yalan qondarıb,
Üzünə bax, çoxdan ölüb, qurtarıb,
İlk sevgidən qalan bircə uşaqdır.

Sansi deyir:-Çinçaydadır Yanqugil,
Ora getmək indi, oğlum, düz deyil,
Ordakılar həm Çineldir, həm Minel,
İlk sevgidən qalan bircə uşaqdır.

Turq dincəlsin, qalsın bizim daxmada,
İndi yağış şırhaşırla yağmada,
Gecə gedək heç bir yana baxmadan,
İlk sevgidən qalan bircə uşaqdır.

Turq söylədi:-Yox, indicə gedək biz,
Bir qılıncıq Çinçaya da hərəmiz,
Yüzlərinə güc gələcək bircəmiz,
İlk sevgidən qalan bircə uşaqdır.

***

Yola düşüb yol aradı Sansi, Turq,
Elin yerdə ilk yazısı yol olub.
Neçə-neçə kənd keçdilər bu yolda,
Elin yerdə ilk yazısı yol olub.

Tanrı yolla göydən yeri öyrənir,
Pis yolları görən kimi söylənir,
Düz, yaxşı yol öz-özünə güllənir,
Elin yerdə ilk yazısı yol olub.

Atlar çox-çox yol gəldilər, yortdular,
Yolları da dallarınca dartdılar,
Sonda gəlib Çinçayelə çatdılar,
Elin yerdə ilk yazısı yol olub.

Onlar gəlib baş əydilər Xaqana,
Xaqan dedi:-Uşaq yatıb, oyanar,
Bir də durub uşaq güldü Xaqana
Elin yerdə ilk yazısı yol olub.

Xaqan dedi:-Nə gözəldir bu uşaq,

Bu uşağı satın bizə, biz alaq,
Bura necə gəlibsiniz bu sayaq,
Elin yerdə ilk yazısı yol olub.

***

Sansi dedi:-Böyük Xaqan, əltut ol,
Yox anasız uşaq, ana uşaqsız.
Tutuq düşüb sizdə bunun anası,
Yox anasız uşaq, ana uşaqsız.

Soyqan verib sənə ata, ananı,
Sən onları burax, alım qadanı,
Onlar üçün biz gəzmişik hər yanı,
Yox anasız uşaq, ana uşaqsız.

-Hanı Soyqan, gəlib görsün qonağı,
Niyə bunca yetim qoyub uşağı,
Tapın, açın ana olan dustağı,
Yox anasız uşaq, ana uşaqsız.

Xaqan deyir:-Adı nədir uşağın,
Uşağınsa yenə qaçır dodağı,
Xaqan deyir:-İpəkləyin qundağı,
Yox anasız uşaq, ana uşaqsız.

Neçə boya ipək gəlir ortaya,
Uşaq gülüb əl gəzdirir alaya,
Bağışlanır bu ipəklər balaya,
Yox anasız uşaq, ana uşaqsız.

***

Gətirirlər Yanqu ilə Tuncayı,
Nə gözəldir ana-bala görüşü.
Yanqu basır uşağını bağrına,
Nə gözəldir ana-bala görüşü.

Xaqan deyir:-Bu, gözəldir, yaraşıq,
Biz Çinelli, Minellilər qardaşıq,
İki ulus Çinçayda da qarışıb,
Nə gözəldir ana-bala görüşü.
Mən bilirəm, Soyqan yurdlar yandırıb,
Qovaq daha bu qan-qada andırı,
Bundan sonra el, ulusu qandırın,
Nə gözəldir ana-bala görüşü.

Sizdə daş-qaş, bizdə isə al ipək,
Qan yolları, gəlin, ipək yol edək,
Bu qan-qada, döyüş, vuruş nə gərək,
Nə gözəldir ana-bala görüşü.

And içəyin bu körpəyə, Tanrıya,
Son qoyağın qan-qadaya, ağrıya,
El, ulusu alver, birlik qoruyar,
Nə gözəldir ana-bala görüşü.

***

Turq dedi ki:-Biz gəlmişdik vuruşa,
Hər vuruşu barışığa döndərək.
Gör nə qədər el, obalar yanıbdır,
Hər vuruşu barışığa döndərək.

Tuncay mənim eloğlumdur, qardaşım,

O, Bacarın nəvəsidir, elbaşı,
Xaqan bizi başa düşdü, nə yaxşı,
Hər vuruşu barışığa döndərək.

Xaqan dedi:-Qızın adın biz bilək,
Mən deyirəm, adı olsun «Alipək»,
Yanqu dedi:-Adı olsun «Alçiçək»,
Hər vuruşu barışığa döndərək,

Turq dedi ki:-İpək üstə bağlaşaq,
Qardaş olaq, bir sevinək, çağlaşaq,
Sizdən ipək, bizdən isə qarayağ,
Hər vuruşu barışığa döndərək.

Xaqan dedi:-Qarayağı çox gətir,
Yerindəcə al ipəyi çox götür,
Qarayağdan ocaq-ocaq od bitir,
Hər vuruşu barışığa döndərək.

***

Xaqan dedi:-Bizə daş-qaş göndərin,
Hər şey almaq olur parlaq daş-qaşla,
Mən də sizə ipək yola salaram,
Hər şey almaq olur parlaq daş-qaşla.

Bağlaşdılar, qucaqlaşıb dindilər,
O yüyənsiz dəli atdan endilər,
Yola saldı qonaqları kəndlilər,
Hər şey almaq olur parlaq daş-qaşla.

Tuncay dedi:-Bacar burda tutuqdur,
Dörd bir yanı yırtıcıyla qoruqdur,
Suda dustaq, yediyi də balıqdır,
Hər şey almaq olur parlaq daş-qaşla.

Yanqu dedi:-Bir ada var dənizdə,
Sudur, bir də qayalıqdır hər üzdən,
Yayınıbdır dalğa içrə o, gözdən,
Hər şey almaq olur parlaq daş-qaşla.

Turqla Tuncay yola düşdü qayıqla,
Baş qatdılar qamış, qarmaq, balıqla,
Geyindilər cır-cındırla, yırtıqla,
Hər şey almaq olur parlaq daş-qaşla.

***

Qoruqçular balıq aldı quruşla,
Borclu qalmaq gözü qıpıq olmaqdır.
Dedilər ki, varsa yenə gətirin,
Borclu qalmaq gözü qıpıq olmaqdır.

Tuncay dedi:-Üşüyürük yamanca,
Biz cır-cındır içindəyik, yalıncaq,
Qoyun gələk isinməyə bir azca,
Borclu qalmaq gözü qıpıq olmaqdır.

Dedilər ki, tək-tək bura siz gəlin,

Bura girmək olmaz, bunu siz bilin,
Balıq verin, sonra yana çəkilin,
Borclu qalmaq gözü qıpıq olmaqdır.

Turqla Tuncay dırmaşdılar yuxarı,
Onlar gördü əli bağlı dustağı,
Sısqa düşüb, üzü-gözü ağarıb,
Borclu qalmaq gözü qıpıq olmaqdır.

Bacar görüb Tuncayını tanıdı,
Nərildədi, ağız-boğaz qanadı,
Sanki ada öz yerindən oynadı,
Borclu qalmaq gözü qıpıq olmaqdır.

***

Qılınc səsi, tutaq səsi, «vur» səsi,
Qorxaq ürküb öz-özünü itirər.
Qayalıqda qaldı neçə yaralı,
Qorxaq ürküb öz-özünü itirər.

Tuncay, Turqtay qan üstə qan axıtdı,
Qalanları sarsıdaraq qorxutdu,
Daş dustağın qapısını laxlatdı,
Qorxaq ürküb öz-özünü itirər.

Bacar çıxdı, Qarçiçəyi soruşdu,
Gördülər ki, üzü qırış-qırışdır,
Səs eşitdi, düşüncəsi qarışdı,
Qorxaq ürküb öz-özünü itirər.

Səs gəlirdi çox yaxından, uzaqdan,
Tuncay səsi eşidirdi bayaqdan,
Bacar isə lap düşmüşdü ayaqdan,
Qorxaq ürküb öz-özünü itirər.

Bacar dedi:-Bu səs mənə tanışdır,
Olmaya bu, bir yuxudur, yanlışdır.
Səs çoxaldı, buludlara qarışdı,
Qorxaq ürküb öz-özünü itirər.

***

«-Gedin, deyin Qızçiçəkdən Bacara,
Od hər şeydən qorxuludur, uludur.
O yandırıb kül elədi məni də,
Od hər şeydən qorxuludur, uludur.

Mən beş yüz il qonaq idim Bacara,
İndi ərim, sevgim hara, mən hara,
Ey eşidən, mən yanıram, hay-haray,
Od hər şeydən qorxuludur, uludur.

Mən qayıtdım tanrılığa yenidən,
Sevgilini tək qoymasın heç ərən,
Yer sevgimlə yer altında təkəm mən,
Od hər şeydən qorxuludur, uludur.

Çatsın böyük Bacarıma harayım,
Qaldı ona yaşanmamış yaş payım,
Qarçiçəyim, Tuncərimlə Tuncayım,
Od hər şeydən qorxuludur, uludur.

Gedin, deyin tanrım Bacar ərimə,
Gəlsin məni, o qaytarsın yerimə,
Təkcə onun əlindədir dirilməm,
Od hər şeydən qorxuludur, uludur.

***

Bacar onun sözlərini anladı,
Vardı iki yaranışı hamının.
O, birinci yaranışa qayıdıb,
Vardı iki yaranışı hamının.

-Qızçiçəyəm, səsin gəldi, sovuşdu,
Niyə getdin, yer altına qovuşdun,
Necə oldu öz yerini dəyişdin,
Vardı iki yaranışı hamının.

Sənsiz olsam yaşım gödək olacaq,
Sənsiz buza dönəcəkdir od, ocaq,
Tanrı səni yaxdı niyə bu sayaq,
Vardı iki yaranışı hamının.

Harda olsan, mənimlə ol, sevgilim,
Hara getsən, ya getməsən, mən bilim,
O yerlərə yeni görüş ver, gəlim,
Vardı iki yaranışı hamının.

Sən yenidən tanrı oldun, Qızçiçək,
Sevib qalım səni, sənsiz mən gərək,
Gəl bir yerdə o yerlərə biz dönək,
Vardı iki yaranışı hamının.

***

Toplumlarla qovuşdular Çuqçuda,
Ayrılmayır bütövləşib ayrılan.
Ayrıldılar Uğureldə yenidən,
Ayrılmayır bütövləşib ayrılan.

Ayrılanda Turq Yanquya baxmadı,
“Sevgim”, deyib ürəyini sıxmadı,
Bu ayrılıq daha onu yaxmadı,
Ayrılmayır bütövləşib ayrılan.

Soyumuşdu sevgisindən olmaya,
Bənzəyirdi qışda solmuş almaya,
Nədir bizim dayanışda solmayan,
Ayrılmayır bütövləşib ayrılan.

Yanqu dedi: – Turqa baxır Alçiçək,
Qaş-göz atır bu gözəlçə gülərək,
Öz tayını seçir sanki bəbənək,
Ayrılmayır bütövləşib ayrılan.

Turqtay öpdü Alçiçəyin üzündən,
Nəsə duydu o, körpənin səsində,
Bir güc duydu ürəyində, dizində,
Ayrılmayır bütövləşib ayrılan.

***

Tuncay ona: – Getmə, qardaş, – qal, – dedi,

Yol darıxır elə bil ki, yolçusuz.
Öpüşdülər, ayrıldılar qardaşlar,
Yol darıxır elə bil ki, yolçusuz.

Dedi: – Gəlin, arxa durun Tanıya,
Şah tək qalsa könlü bundan qanayar,
Ata, ana qocalıblar yan-yana,
Yol darıxır elə bil ki, yolçusuz.

Toplum yolu, düzü, çölü bürüdü,
Yer yarıldı, bulud sanki əridi,
Yolu üstə nə var idi, kürüdü,
Yol darıxır elə bil ki, yolçusuz.

Mahnı səsi himnə, marşa qarışdı,
Axşam üstü tək-tük ulduz sayrışdı,
Qalanların gözü yaşdan acışdı,
Yol darıxır elə bil ki, yolçusuz.

Tuncay dedi: – Turq sağ olsun, oğuldu,
Soyqan Turqun qılıncıyla dağıldı,
Bizim sevgi sanki bir də doğuldu,
Yol darıxır elə bil ki, yolçusuz.

***

Quşat çapdı, gözdən itdi toranda,
İnamlı ol uzaq yola çıxanda.
Daldan baxdı Qonuratla çap-çapa,
İnamlı ol uzaq yola çıxanda.

Belə oldu Minelliylə Çinelli,
Vuruş, barış sanki ögey bacıdır,
Həm vuruşdu, həm barışdı yenidən,
Vuruş, barış sanki ögey bacıdır.

El, ulusla danışanda düz danış,
Dediklərin nə doğrudur, nə yanlış,
İki boya üstündədir dayanış,
Vuruş, barış sanki ögey bacıdır.

Nə deməkdir bu qan-qada, bu vuruş,
Yer üstündə, var üstündə qurulmuş,
Yeri, varı gözə çəkmə, sağ olmuş,
Vuruş, barış sanki ögey bacıdır.

Dedi, ancaq dediyindən tutmadı,
Odur heç kəs öz suçuna çatmadı,
O, bir gün də yersiz, varsız yatmadı,
Vuruş, barış sanki ögey bacıdır.

KİTABIN İÇİNDƏKİLƏR

Müəllifdən.....3

ATA
(poema-epos)

I Giriş: Dünya……..…….…….…..5
II Giriş: Azərbaycan…….....….....6
III Giriş: Cənab Heydər Əliyev…….....7
IV Giriş: Allah…….....9
V Giriş: Dilim…….....9
VI Giriş: Ulu babam……..11

I BÖLMƏ

I QAPI

Ana südü söyləncі…….....13
Gücər söyləncі……...25
Qayaquş söyləncі……..…….....38
Təkbuynuzlular söyləncі…….....51
Durudaşlar diyarı söyləncі……....72
Ağ ayı söyləncі……..……..……..83
Bacar söyləncі……..…….....92
Tur söyləncі……110
Daşqıranlarla döyüş söyləncі…….....118
Qaçqın söyləncі……...129
Əkbitən söyləncі……....138
İnam söyləncі….....141

II QAPI

Qızağ söyləncі……..……...151
Ərqaya söyləncі……..……..……...156
Köləbaşı söyləncі…….……...162
Başev söyləncі……..……...166
Acıqanla vuruş söyləncі…….....170
Qızağın ölüm söyləncі……..…...175
Batıda vuruş söyləncі…….....180
Diriel söyləncі……..186
Düzər söyləncі…….……....190
Sarı xaqan söyləncі……..……...202
Xançu söyləncі……....209

III QAPI

Qardaş söyləncі……..…….....213
Qızbax söyləncі…….……..…….....216
Adanla Qaranın döyüş söyləncі…….……..…….....221
Sevgi söyləncі……..……....225
Ölümə nişanlı qız söyləncі…….....228
Ana söyləncі…….…..…….....233
Qızay söyləncі……..……...241

IV QAPI

Turla bölgəmicin görüş söyləncі…….…..247
Turər söyləncі……..…...260
Yengisoy söyləncі……..……..…..266
Uruyer söyləncі…….…….....273
"Sev" tanrısı iştar söyləncі…….....276
Ölümsüz yaşam söyləncі…….....285

V QAPI

Yüzər söyləncі……...294
İki qardaş söyləncі…….……..…..300
Odər ata söyləncі……..……..….310
Qızod ana söyləncі…….…….....314

VI QAPI

İşdayaq söyləncі…….....323
Yuxu söyləncі……..…….....329
Mindon söyləncі……..332
Çinellilərlə vuruş söyləncі……..338
Qarbaş söyləncі…….……..……....339
Mehcə söyləncі…….……..……....344
Yerinc söyləncі……....349
Qammad söyləncі……..…….....354
Mindon söyləncі…….....360
Ov söyləncі……..……..…..368
Boz qurd söyləncі……..…..374
Başev söyləncі……..……..…....385
Darvidel söyləncі……..……..…....392
Üstüağ söyləncі……..……....400
Şaman söyləncі……...407
Döyüş söyləncі…….....……..…..417
İlk sevgi söyləncі…….…….....428
Tanrı söyləncі……..……....439
Sevgi söyləncі……..……..447
Yol yoldaşı söyləncі……...461
Asurla döyüş söyləncі…….....471
Öc söyləncі…….……..…...483
Buynuz şah söyləncі…….……...…...492
Oddan keçmə söyləncі…….....507
Balasqel 527

İKİNCİ BÖLMƏ

VII QAPI

Ariel söyləncisi.....533
Mənişi söyləncisi.....546
Ağı söyləncisi.....564
Qızçiçək söyləncisi.....576
İki döyüş söyləncisi.....585
Hindellə döyüş söyləncisi.....594
Devdağ söyləncisi.....602
Tanrılarla görüş söyləncisi.....615
Qarı Xaqan söyləncisi.....622

VIII QAPI

Sərtüzlə görüş söyləncisi.....626
Suböləndə vuruş söyləncisi.....634
İnanış söyləncisi.....640
Asurellə vuruş söyləncisi.....650
Bacarın gəlişi söyləncisi.....659
Tuncərin itməsi söyləncisi.....665
Qızçiçəyin ov söyləncisi.....673
Tuncərin tapılması söyləncisi.....678
Tuncər söyləncisi.....688
Qaraşla Tuncərin vuruş söyləncisi.....697

IX QAPI

Yürüş söyləncisi.....702
Ağqurd Alpan söyləncisi.....709
Manay-Qaraş söyləncisi.....721
Əkbitəndə vuruş söyləncisi.....732
İtmiş Manay söyləncisi.....736
Manay şah söyləncisi.....744
Maha söyləncisi.....751

Günay-Tuncər söyləncisi.....759
Ağüzelli Günayla Daşqırların vuruş söyləncisi.....769

X QAPI

Qızbal söyləncisi.....778
Tanı söyləncisi.....789
Manayın ölüm söyləncisi.....792
Vayqan söyləncisi.....799
İlam söyləncisi.....807
Tanı şahın itməsi söyləncisi.....812
Üztut söyləncisi.....821
Ağüzel söyləncisi.....823
Günayla Tanı şahın görüş söyləncisi.....835
Turqız söyləncisi.....842
Çörəkçilər söyləncisi.....848

III BÖLÜM

XI QAPI

Onçu oğlu Cumər söylənci.....860
Muğel söylənci.....877
Tanrievi söylənci.....894
Soyqan söylənci.....904
Yazışma söylənci.....912
Turq-tay söylənci.....918
Köç söylənci.....927
İki qardaş söylənci.....933
Tuncay-Yanqu söyləncisi.....948
Manyurd söyləncisi.....960
Karş söyləncisi.....971
Turq söyləncisi.....985
Çuqçu toplumu söyləncisi.....994

XII QAPI

Manayqız söyləncisi.....1005
Duzdağ söyləncisi.....1044
Minel-Çinel söyləncisi.....1059

SÖHRAB TAHİR
AZƏRAZƏR

ATA

(POEMA-EPOS)

(I CİLD)

Mətbəanin direktoru: Elman Qasımov
Kompüter tərtibatçısı: Gültac Ələkbərli

Çapa imzalanmışdır: 25.12.2015
Formatı: 60x84 1/16
Həcmi: 67,5 ç.v.
Sayı: 100

"Zərdabi LTD"MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel:(012)514-73-73
(012) 498-79-62
Mob:(050,055) 344-76-01
e-poçtu.: zerdabi_em@mail.ru